Ayətullah əl-üzma Seyid Əli Hüseyni Sistani cənablarının fətvaları

# GENİŞ İZAHLI ŞƏRİƏT MƏSƏLƏLƏRİ

I cild

Bakı - 2018

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə**
**Dövlət Komitəsinin DK-395/Q saylı, 12 aprel 2018-ci il tarixli**
**məktubu əsasında «Zərdabi LTD» MMC-nin**
**mətbəəsində çap olunmuşdur.**

**Tərcümə: Bəxtiyar Hüseynov**

Ayətullah əl-üzma Seyid Əli Hüseyni
Sistani cənablarının fətvaları,
"GENİŞ İZAHLI ŞƏRİƏT MƏSƏLƏLƏRİ"
Bakı, "Zərdabi LTD" MMC, 2018, 624 səh.

© "Zərdabi LTD" MMC, 2018

Kitabın çap hüquqları qorunur

بسم الله الرحمن الرحيم

**BİSMİLLAHİR RƏHMANİR RƏHİM**

بسمه تعالی

این کتاب ترجمه ترکی آذربایجانی «توضیح المسائل جامع» حضرت آیةالله العظمی سید علی حسینی سیستانی (دام ظله) می باشد. و به کوشش حجة الاسلام روشن شریفزاده با گروهی از مترجمان به سرپرستی بختیار حسین او ترجمه شده و از طرف دفتر حضرتعالی مورد تأیید و تصدیق می باشد. تمامی فتاوی کتاب موافق اصل است.

دفتر حضرت آیةالله العظمی سید علی حسینی سیستانی- مشهد مقدس

مسئول دفتر


تلفن: 00985132250091 فکس : 00985132223239


Bu kitab, **"Tovzihul-məsail Came"** kitabının fars dilindən olan tərcüməsidir. Ruhani Rövşən Şərifzadənin başçılığı ilə Bəxtiyar Hüseynov və tərcüməçilər qrupu tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir və Ayətullah Sistani həzrətlərinin dəftərxanası tərəfindən təsdiq edilir.

Bütün fətvaların tərcüməsi kitabın əsli ilə eynidir.

*Ayətullah Seyid Əli Sistaninin dəftərxanasi - Müqəddəs Məşhəd*

Kitab və fətvalar haqqında irad və təkliflərinizi bu nömrəyə göndərə bilərsiz **(+994) 50 625 7855** WhatsApp

# ÖN SÖZ

Uca Allah bəndələrin irili xırdalı bütün davranış və danışıqları üçün müdrikanə proqram və qaydalar təsis etdiyinə görə məsuliyyətli bir müsəlman ilahi vəzifələri icra etmək üçün daima özünün mövcud vəziyyətdəki vəzifəsini öyrənməyə çalışmalıdır.

"Tövzih əl-məsail risaləsi"[1] mükəlləflərin şəriət hökmləri sahəsində bu ehtyaclarının bir hissəsini təmin etməyi öz üzərinə götürmüş və möminlərin kitabxanalarının daimi və ayrılmaz bir parçasına çevrilmişdir.

Məlumatlı şəxslərə gizli deyil ki, mövcud risalələr on illər öncə şiə dünyasının böyük mərcə-i təqlidi həzrət Ayətullah əl-üzma Bürucerdinin nəzarəti altında qələmə alınmış və məsələləri həmin dövrün ehtiyacları əsasında tənzimlənmişdir. Böyük fəqihlər də sonrakı illər ərzində bəzi yeni məsələləri əlavə etdikdən sonra tərtibatında ciddi dəyişiklik etmədən öz dəyərli rəylərini eyni mətnlə bəyan etmiş, mükəlləflərin digər suallarının cavablarını isə ərəbdilli əsərlərində və həmçinin, şəxsi istiftalar[2] çərçivəsində cavablandırmışlar.

Lakin nəzərdə tutulan bir neçə suala cavab tapmaq üçün ərəb dilində olan müxtəlif kitablardan istifadənin və müxtəlif istiftaların araşdırılmasının sıravi insanları hər zaman çoxlu sayda çətinliklərlə qarşı-qarşıya qoyması nəzərə alınaraq qərara alındı ki, mətnində insanlar üçün müasir dövrdə aktual olan hökmlər qismindən daha çox məsələnin daha münasib bir tərtibatla baxıldığı bir risalə yazılsın.

Həzrət Ayətullah əl-üzma Sistaninin "Tövzih əl-məsail" risaləsi olan bu risalə məhz bu məqsədlə onun Məşhəd, Qum və Nəcəfi-əşrəf şəhərlərindəki dəftərxanalarının nəzarəti altında tərtib edilmişdir və aşağıdakı xüsusiyyətləri özündə ehtiva edir:

1) Bu risalə məsələlərin təshih edilməsi və təkmilləşdirilməsi nəticəsində böyüyən həcmi nəzərə alınaraq iki cilddə tərtib edilmişdir.

---

[1] Bu risalələr ana dilimizdə "İzahlı şəriət məsələləri", "Şəriət hökmlərinin izahı" kimi adlarla nəşr edilmişdir. *Tərc.*

[2] İstifta (hərfən: fətva istəmək) - fətvanı öyrənmək məqsədi ilə verilən suala fətva şəklində verilən cavab. *Tərc.*

2) Əvvəlki risalədə öz əksini tapmayan "etikaf", "kəffarələr", "nəfəqələr" və "şüfə" kimi bəzi aktual mövzulara bu risalədə yer verilmişdir.

3) Cəmiyyətin bütün üzvlərinin, yaxud müəyyən sosial qrupların qarşılaşdıqları bir çox şəriət məsələləri, əvvəlki məsələlərə əlavə edilmişdir.

4) Bir çox hallarda mətləbin daha aydın başa düşülməsi üçün məsələlər təsnifat şəklində verilmişdir.

5) Nəzərdə tutulan mövzunun asan və tez tapılması üçün bütün mövzulara başlıq verilmiş və risalənin əvvəlində də daha müffəsəl bir mündəricata yer verilmişdir.

6) Əvvəlki risalədə mövcud olan bəzi məsələlər möhtəva, məna dəyişikliyi olmadan redaktə edilmiş və əvvəlki risalənin köhnəlmiş misalları hazırkı dövrdə aktual olan yeni nümunələrlə əvəz edilmişdir.

7) Nəzərdə tutulan məlumatın tapılmasını asanlaşdırmaq, yaxud bir mövzunu təkmilləşdirmək məqsədilə bəzi hallarda bir məsələ əvvəlki risalənin bir yerindən başqa bir yerinə köçürülmüş və mümkün olduqca bir məsələnin mətndən çıxarılmamasına səy göstərilmişdir.

8) Bu risalənin hazırlanmasında istifadə edilən fiqh mənbələri bunlardan ibarətdir: aliməqam fəqihin "Ürvət əl-vüsqa"ya şərhləri (qeydləri), "Minhac əs-salihin", "əl-Məsail əl-muntəxəbə", əl-Fiqh lil-muğtəribin" risalələri, fiqh mövzularına dair son görüşləri və fətva almaq üçün özünə ünvanlanan suallara verdiyi cavablar. Həmçinin, mətnlərdə ixtilaflı məqamlarla rastlaşdıqda həmin məsələlərlə bağlı müctəhidin özünə sual ünvanlayaraq bu risalədə onun son və doğru nəzərinin bəyan edilməsinə çalışmışıq.

Uca Allahdan bizi danışıq və davranışlarımızda xətalardan qorumasını, Əhli-beyt fiqh məktəbinə xidmət etməkdə müvəffəqiyyətə nail olmağı və əməllərimizdə ixlaslı olmağı nəsib etməsini diləyirik.

Sonda öz peşəkar və fasiləsiz səyləri ilə bu önəmli işi ərsəyə gətirən bütün əziz insanlara minnətdarlığımızı bildiririk. Uca Allah onlara yaxşı işlər görənlər üçün nəzərdə tutduğu ən yaxşı mükafatları bəxş etsin! Onların əsrimizin ilahi rəhbərinin (Uca Allah zühurunu tezləşdirsin!) lütfünə nail olacaqlarına ümid edirik.

# İLAHİ HÖKMLƏRİN ÖYRƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ VƏ QAYDASI

***Hökmlərin öyrənilməsinin əhəmiyyəti***

Aydın bir din olan İslamda xüsusi əhəmiyyətə malik olan ən önəmli vəzifələrdən biri dərk edilməsi və həyata keçirilməsi insan xoşbəxtliyinin zəmanətçisi olan dini hökmlərin öyrənilməsidir. İslamı özünə din seçən insan onun proqramlarını həyatının bütün sahələrində kamil surətdə qəbul etməli və öz davranışlarını dinin hökmlərinə uyğun tənzimləməlidir. Belə bir vəzifənin icrası müsəlman fərddən dinin hökmlərini öz yaşayışında həyata keçirmək üçün onlarla ehtiyac duyduğu, onun üçün aktual olan qədər tanış olmağı tələb edir. Buna əsasən, Qurani-kərim və hidayət yolunun bələdçiləri olan Əhli-beyt imamları bu məsələyə həddən ziyadə təkidlə yanaşmış və hər kəsi dinin hökmlərini öyrənməyə təşviq edərək ilahi hökmlərlə tanış olmamağın saysız-hesabsız zərərlərindən qorunmağa çağırmışdır.

Bir kəlamında İmam Sadiqin (ə) belə söylədiyi nəql edilir:"Dürüst bir insandan halal-haramla bağlı bir hədis öyrənmək sənin üçün dünya və onun qızıl-gümüşündən daha yaxşıdır". [1]

Həmçinin, rəvayət edilir ki, bir kişi İmam Sadiqə (ə) deyir: "Mənim bir övladım var. O, sizdən halal-haramla bağlı məsələləri soruşub öyrənməyi xoşlayır, əhəmiyyətsiz və özü üçün faydasız olan məsələləri isə soruşmur". Həzrət Sadiq (ə) ona belə cavab verir:"Məgər insanların maraqlana biləcəyi halal-haramdan daha yaxşı bir mövzu vardırmı?!"[2] Başqa bir hədisdə isə oxuyuruq ki, İmam Sadiq (ə) buyurur: "Allahın dininin üzərində dərindən düşünün və (cahiliyyət dövründə yaşayan) ərəblərə bənzəməyin". Sonra sözlərinə belə davam edir: "Kim Allahın dini xüsusunda dərindən düşünməzsə (elmli, bəsirətli olmazsa), uca Allah qiyamət günü ona əsla lütf etməz və əməllərinin təmizliyini təsdiqləməz". [3]

---

[1] ***əl-Məhasin***, "Məsabih əz-zuləm" fəsli, XV bab, səh. 229, 166-cı hədis.

[2] ***əl-Məhasin***, "Məsabih əz-zuləm" fəsli, XV bab, səh. 229, 168-cı hədis.

[3] ***Kənz əl-fəvaid,*** "Fi zikr əl-elm" fəsli, səh. 240; ***əl-Məhasin***, "Məsabih əz-zuləm" fəsli, XV bab, səh. 228, 162-cı hədis.

Habelə, İmam Sadiqdən (ə) rəvayət edilən bir hədisdə Allahın sevimli Elçisinin (s) belə buyurduğu nəql edilir: "Mən həftənin bir gününü dininin göstərişləri üzərində düşünməyə, dinini öyrənməyə ayırmayan müsəlmana qarşı ikrah hissi duyuram". [1]

Başqa bir hədisdə İmam Sadiq (ə) buyurur: "Loğman oğluna nəsihətində deyirdi: "Övladım! Gecə və gündüz, günün müxtəlif saatlarında bilik əldə etmək üçün özünə vaxt ayır. Həqiqətən, sənə bundan imtina etməkdən (elmdən uzaqlaşmaqdan) daha böyük bir itki üz verə bilməz". [2]

Həmçinin, İmam Sadiqin (ə) başqa bir dəyərli kəlamında belə buyurduğu rəvayət edilir: "Bəsirətlə hərəkət etməyən (davranışlarını elmə əsaslandırmayan) insan səhrada sərab (ilğım) arxasınca qaçan, hərəkətinin sürəti yalnız uzaqlığını (məqsədi ilə arasındakı məsafəni) artıran şəxsə bənzəyir". [3]

Önəmli məqamlardan biri də budur ki, dində fəqihlik, yəni dinlə kamil surətdə tanışlıq, dini maarif və hökmlər xüsusunda bəsirət sahibi olmaq Əhli-beyt imamlarının (ə) rəvayətlərində təkidlə tövsiyə olunur.

İmam Kazımın (ə) bu barədə belə buyurduğu rəvayət edilir: "Allahın dini xüsusunda alim və fəqih olun. Çünki fiqh bəsirətin açarıdır, ibadətin kamilliyidir, dünya və axirət həyatında uca məqamlara, ali dərəcələrə çatmaq üçün bir vasitədir. Fəqihin abiddən üstünlüyü Günəşin (digər) ulduzlardan üstünlüyünə bənzəyir və kim dinində dərin bilik sahibi və fəqih olmazsa, Allah onun heç bir əməlindən razı qalmaz". [4]

Həmçinin, Həzrət Əlinin (ə) bir kəlamında belə buyurduğu nəql edilir: "Alim olmaq istəyirsənsə, Allahın dinində fəqih (dərin bilik sahibi) ol!"[5]

Bir hədisdə Allahın elçisinin (s) belə buyurduğu nəql edilir: "Uca Allaha dini dərindən dərk etməkdən daha üstün bir şəkildə ibadət edilməmişdir". [6]

İmam Sadiqin (ə) belə buyurduğu nəql edilir: "Uca Allah bir bəndəsinə xeyir və səadət bəxş etmək istəyirsə, onu dini xüsusunda dərin idrak sahibi edər". [7]

Başqa bir rəvayətdə isə belə buyurduğunu oxuyuruq: "Uca Allah bir cəmiyyətin xeyir və uğur qazanmasını istədikdə onun üzvlərini dini biliklər xüsusunda dərin idrak sahibi edər. . . "[8]

---

[1] ***əl-Məhasin***, "Məsabih əz-zuləm" fəsli, XIII bab, səh. 225, 149-cı hədis.

[2] ***əl-Əmali (Şeyx Tusi),*** c. 1, 3-cü məclis, səh. 66.

[3] ***əl-Əmali (Şeyx Müfid),*** V məclis, səh. 42, 11-ci hədis.

[4] ***Tuhəf əl-uqul,*** səh. 410.

[5] ***Qurər əl-hikəm və durər əl-kəlim,*** səh. 49, "Fil-fiqh vəl-fəqahət" fəsli, 264-cü hədis.

[6] ***əl-Əmali (Şeyx Tusi),*** səh. 474, 1033-cü hədis (Qum nəşri).

[7] ***Usul əl-Kafi,*** c. 1, səh. 32, 3-cü hədis, "Sifət əl-elm və fəzluhu və fəzl əl-uləma" babı.

[8] ***Mustədrək əl-vəsail,*** c. 11, səh. səh. 190, 12-ci hədis, VI bab, "İstihbab ət-təxəlluq bi məkarim əl-əxlaq".

Aydındır ki, insan dini məsələlərin öyrənilməsində səhlənkarlığa yol verə və bu məsələləri bilməmək bəhanəsi ilə ona çatdırılan ilahi vəzifələrə əməl etməkdən boyun qaçıra bilməz.

İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə oxuyuruq: ". . . Allah qiyamət günü bəndədən soruşar: "Ey mənim bəndəm, üzərinə düşən vəzifədən agah idinmi?" "Bəli!" – deyə cavab verərsə, ondan: "Elə isə bəs nə üçün bildiyinə əməl etmədin?" – deyə soruşar. "Cahil idim", - deyə cavab verdiyi təqdirdə isə: "Bəs nə üçün əməl etmək üçün öyrənmədin?" – deyə soruşar. . . "[1]

## FƏQİHLƏRƏ MÜRACİƏT ETMƏYİN ZƏRURİLİYİ

Allaha ibadətin əsil yolunu, doğru qaydalarını aydınlaşdırmaq vəzifəsini daşıyan fiqh elmi dəyərli islamşünaslıq elmləri arasında ən müqəddəs elmlərdən biridir. Sevimli Peyğəmbərimizin (s) və Əhli-beyt imamlarının (ə) yaşadıqları dövrdə bu elmin çoxlu sayda tədqiqatçıları olmuş, gözəçarpan dərəcədə inkişaf etmiş və dinin ardıcıllarının diqqət mərkəzində olmuşdur. Xüsusən, İmam Baqir (ə) və İmam Sadiqin (ə) dövründə öz inkişafının ən yüksək mərhələsinə çatmışdı və çox sayda alim müxtəlif din və şəriət mövzularında bu iki Əhli-beyt imamının dərslərində iştirak edərək dərin biliklərə yiyələnmişdilər.

Elmin insanların həyatına nur saçdığı həmin dövrdə şəriət hökmləri o dərəcədə geniş araşdırılırdı ki, bir rəvayətdə Zürarə ibn Əyunun həcc ilə bağlı məsələləri qırx il müddətində İmam Sadiqdən (ə) öyrəndiyi, ancaq hələ də öyrəniləcək məsələlərin qaldığı söylənilir. Öz dilindən nəql edilən həmin rəvayətdə Zürarə deyir: "Əbu Abdullaha (İmam Sadiqə *tərc.* ): "Allah mənim canımı sənə fəda etsin! Qırx ildir ki, həcc ilə bağlı sizə müxtəlif suallar verirəm, siz də (onları cavablandıraraq) mənə fətva verirsiniz", - deyə ərz etdikdə belə buyurmuşdu: "Zürarə! Sən Adəmdən iki min il öncə də ziyarət yeri olan bir məbədlə bağlı bütün məsələlərin qırx il ərzində açıqlanmasını istəyirsən?!"[2]

Məsum imamların (ə) yaşadıqları dövrdə ilahi hökmlərin bəyan edilməsi vəzifəsi onların öhdəsinə düşürdü və onlar bir çox hallarda bu vəzifəni seçkin şagirdlərinə də həvalə edirdilər. Zürarə, Məhəmməd ibn Müslim, Əbu Bəsir, Əban ibn Təğlib kimi yüksək mənəvi keyfiyyətlərə və dərin biliklərə sahib olan şəxslər insanları halal-haram və dinin müxtəlif hökmləri ilə bağlı maarifləndirirdilər və imamlar da insanları onlara müraciət etməyə sövq edirdilər.

---

[1] ***əl-Əmali (Şeyx Tusi),*** c. 1, Birinci məclis, səh. 8-9, 10-cu hədis; ***əl-Əmali (Şeyx Müfid),*** İyirmi altıncı məclis, səh. 227-228, 6-cı hədis.

[2] ***Vəsail əş-şiə,*** c. 11, səh. 12, 12-cü hədis.

O cümlədən, rəvayətlərdən birində Şüeyb Əqərqufinin öz dilindən İmam Cəfər Sadiqdən (s): "Tez-tez bu və ya digər bir mövzuda məlumat almaq üçün kiməsə sual verməyə ehtiyac duyuruq. Belə hallarda kimə müraciət edək?" – deyə soruşduğunu və İmamın (ə) ona: "Əsədiyə, yəni Əbu Bəsirə", - deyə cavab verdiyini oxuyuruq. [1]

Həmçinin, başqa bir rəvayətdə Abdullah ibn Əbu Yəfurun belə dediyi nəql olunur: "Əbu Abdullaha (ə) ərz etdim: "Hər zaman sizi görə, hüzurunuza şərəfyab ola bilmirəm. Bir tərəfdən də tez-tez dostlarımızdan (sizin ardıcıllarınızdan) hər hansı biri yanıma gələrək müəyyən mövzularla bağlı suallarla müraciət edir və mən onların bütün suallarını cavablandıracaq qədər məlumata sahib deyiləm. (Bu xüsusda nə etməliyəm?)" O buyurdu: "Nə üçün Məhəmməd ibn Müslimə müraciət etmirsən? Bilmədiklərini ondan soruş. O, biliklərini atamdan əxz etmişdir və onun nəzərində hörmətli bir insan idi". [2]

Başqa bir rəvayətdə isə Əli ibn Müseyyib Həmədani deyir: "Həzrəti Rizaya (ə) dedim: "Mənim evim uzaqda yerləşir və hər zaman sizin yanınıza gələ bilmirəm. Dinimin təlimlərini (başqa) kimdən öyrənə bilərəm?" "Həm dünya, həm də axirət məsələlərində etibarlı bir insan olan Zəkəriyya ibn Adəm əl-Qummidən" – deyə cavab verdi. Ondan ayrıldıqdan sonra Zəkəriyya ibn Adəmin yanına gedərək ondan (cavablandırılmasına) ehtiyac duyduğum şeyləri soruşmağa başladım". [3]

Habelə, Əbdüləziz ibn əl-Mühtədinin belə dediyi rəvayət edilir: "Rizadan (ə) soruşdum: "Mən hər zaman sizinlə görüşə bilmirəm. Bəs dinimin təlimlərini kimdən öyrənim?" "Yunis ibn Əbdürrəhmandan öyrən", – deyə cavab verdi". [4]

Bəzən isə Əhli-beyt imamları (ə) özləri yaxın şagirdlərinə göstəriş verirdilər ki, insanlar üçün fətva versinlər. O cümlədən, rəvayətlərdə İmam Baqirin (ə) Əban ibn Təğlibə: "Məsciddə (Mədinə məscidində) otur və insanlara fətva ver, həqiqətən, şiələrim arasında sənin kimi bir şəxsi görmək mənə xoşdur", - deyə buyurduğu nəql edilir. [5]

Nəhayət, Əhli-beyt imamlarının (ə) insanlar arasında yaşadığı dövr başa çatır, Həzrət Mehdinin (ə. f) qaiblik dövrü başlayır və halal-haramın bəyan edilməsi, cəmiyyətin ehtiyac duyduğu, insan həyatının müxtəlif sferalarına dair dini təlimlərin açıqlanması bilavasitə bu vəzifənin icrası üçün gərəkli olan bütün şərtlərə cavab verən fəqihlərin üzərinə düşür, fətva və eləcə də təqlid xüsusi bir şəkildə kütləvi miqyasda rəvac tapır.

---

[1] ***Vəsail əş-şiə,*** c. 27, səh. 142, 15-ci hədis.

[2] ***Vəsail əş-şiə,*** c. 27, səh. 144, 23-cü hədis.

[3] ***Vəsail əş-şiə,*** c. 27, səh. 146, 27-ci hədis.

[4] ***Vəsail əş-şiə,*** c. 27, səh. 148, 34-cü hədis.

[5] ***Mucəm-u rical əl-hədis,*** c. 1, səh. 144, Əlif-28, Əban ibn Təğlib.

# TƏQLİDİN ZƏRURİLİYİNİN SƏBƏBİ

İslam sonuncu və ən mükəmməl ilahi məktəbdir, onun bütün təlimləri insanların mənafeyinə uyğundur və onların həyata keçirilməsi ilə bəşəriyyətin səadətini təmin etmək mümkündür. Çünki bəşəriyyəti yaradan, Adəm övladlarının həyatı üçün faydalı və zərərli olan şeylərdən, onların fitri istək və ehtiyaclarından ən yaxşı agah olan uca Allahdır və O, insan həyatının ibadət, iqtisadiyyat, əxlaq, mədəniyyət və s. sahələrini əhatə edən, fərdi və ictimai vəzifələrini müəyyənləşdirən yaşam qanun və qaydalarını peyğəmbərlər və onların canişinləri vasitəsilə onlara bəyan etmişdir. Sevimli Peyğəmbərimiz (s) və haqq yolunun bələdçiləri olan Əhli-beyt imamları (ə) tərəfindən bəyan edilmiş İslamın nicat bəxş edən təlimlərini üç ümumi hissəyə bölmək olar:

1) Etiqadla bağlı biliklər, "üsul əd-din" (dinin əsasları); 2) əxlaq məsələləri; 3) əməli hökmlər, "füru əd-din" (dinin şaxələri).

İlahi təlimlərin əməliyyə risalələrinin mövzusunu təşkil edən üçüncü hissəsi, yəni əməli hökmlər olduqca genişdir. Çünki bunlar insanların ibadət, iqtisadiyyat, şəxsi, ailə və ictimai həyat, ədalət mühakiməsi, cəzalar və s. sahələrdə bütün hərəkətlərini əhatə edən hökm və qanunlardır və ilahi göstərişlərin bu qismi ilə bağlı aşağıdakı məqamlara diqqət yetirmək lazımdır:

a) Elmin müxtəlif sahələri vardır və bir insan bir sahə üzrə dərin bilik və bacarıqlara sahib olduğu halda başqa bir sahədə məlumatsız ola bilər. Nəticə etibarilə, o, ağlın hökmünə əsasən, mütəxəssisi olmadığı sahə ilə bağlı xüsuslarda həmin sahənin mütəxəssisinə müraciət etməli və onun göstərişlərinə tabe olmalıdır. Məsələn, kosmik tədqiqatlar mütəxəssisi olan bir şəxs xəstələndikdə xəstəliklər və onların müalicə üsulları ilə bağlı lazımı biliklərə sahib olmadığına görə mütləq mütəxəssis həkimə müraciət etməlidir. Bir həbin neçə dəfə qəbul edilməli olduğuna, hansı ampulun inyeksiya edilməli olduğuna həkim göstəriş verir. Çünki kosmik tədqiqatlar mütəxəssisi onun göstərişlərinə tabe olmağı özünə borc bilir. Ümumiyyətlə, biz bu və ya digər bir işi görmək istədikdə və onun necə həyata keçirilməli olduğunu bilmədikdə həmin işin mütəxəssisinə müraciət edərək ondan sözügedən işin icra qaydaları ilə bağlı məlumat alırıq və hər hansı bir ixtisas və sənətə sahib olmaq istədikdə də həmin sahə üzrə ən bilikli, ən bacarıqlı mütəxəssisə, müəllimə üz tuturuq. Şəriət hökmləri, ilahi halal və haram da məhz bu qaydada öyrənilir və bu məqsədlə dinin hökmləri üzrə mütəxəssis olan fəqihə müraciət etmək lazımdır.

b) İlahi hökmlərin ümdə mənbəyi Qurani-kərim və əziz Peyğəmbərimizdən (s), habelə məsum Əhli-beyt imamlarından (ə) nəql olunan hədislərdir (bu ikisi "səqəleyn", yəni "iki ağır əmanət" adlandırılır).

c) Qurani-məcid və Əhli-beytin (ə) hədislərində öz əksini tapan məlumatların düzgün əldə edilməsi və dərk edilməsi heç də asan bir iş deyil və müəyyən ixtisas və bacarıq tələb edir. Bir insan ərəb dilçiliyi və Quranın təfsiri, dirayə (hədisşünaslıq), rical (ravişünaslıq), üsuli-fiqh (fiqhin metodologiyası) kimi müxtəlif islamşünaslıq sahələrinə, habelə İslam şəriətşünaslarının, fəqihlərin rəylərinə dair lazımı ixtisas bilik və bacarıqlarına sahib olmadıqca, necə deyərlər, ilahi müvəffəqiyyət sayəsində ictihad dərəcəsinə nail olmadıqca Allahın hökmlərini öz mənbələrindən öyrənib aşkara çıxara bilməz. Siz risalə və "Tövzih əl-məsail" adlı kiçik həcmli bir kitab görürsünüz və bəlkə də bilmirsiniz ki, bu risalə bir fəqihin ömrünün məhsuludur və o, müvafiq ixtisasa yiyələnərək, böyük zəhmətlər hesabına dini mənbələrə istinad etməklə həmin risalədə öz əksini tapan nəticələrə gəlmiş və bu nəticələri insanlara təqdim etmişdir.

Beləliklə, açıqladığımız bu həqiqətlər nəzərə alınmaqla, özünəməxsus xüsusiyyətləri ilə geniş sferaları əhatə edən ictihad yolunu qət etmiş fəqih alimlərə müraciət etməyin zəruriliyi aydınlaşır, müctəhidə təqlid məsələsinin doğruluğu ağlın hökmünə, doğru məntiqi mühakiməyə əsasən sübuta yetir və məlum olur ki, təqlid heç də kor-koranə tabeçilik demək deyil (İslam dini bütün gücü ilə kor-koranə tabeçiliklə mübarizə aparmış və Qurani-məcid bunu məzəmətə layiq olan ən rəzil xislətlərdən biri kimi təqdim etmişdir). Əksinə, təqlid dini məsələlərdə mütəxəssis olmayan bir insanın mütəxəssisə müraciət etməsi deməkdir. İmam Həsən Əskəridən (ə) nəql olunan aşağıdakı hədisdə bu mətləbin doğruluğunu dəstəkləyir:

"Fəqihlərdən kim nəfsini qoruyarsa (doğru yoldan, uca Allaha ibadət, bəndəlik yolundan bütün növ sapmalardan qoruna bilmək üçün nəfsinə sahib çıxarsa), dinini qoruyarsa, nəfsinin istəklərinə qarşı çıxarsa, Mövlasının (Allahın) əmrinə müti olarsa, digər insanlar onlara təqlid etməlidirlər". [1]

Söylənilənlərə əsasən, aydın olur ki, dini məsələlər və şəriət hökmləri xüsusunda ictihad dərəcəsinə çatmayan, hökmlərin dəlil və mənbələri ilə tanış olmayan insanların rəy bildirməsi yolverilməzdir və möminlərə vacibdir ki, bütün dini hökmlər və şəriət məsələləri ilə bağlı aliməqam mərcəi-təqlidlərə, etibarlı islamşünaslara müraciət etsinlər.

---

[1] ***Vəsail əş-şiə,*** c. 27, səh. 131, 20-ci hədis.

# TƏKLİF (MÜKƏLLƏFİYYƏT) VƏ HƏDDİ-BÜLUĞ

## Təklifin şərtləri

İnsan müəyyən şərtlərə cavab verdiyi təqdirdə ilahi hökmlərə, qayda-qanunlara riayət etməlidir. Bu şərtlər "təklif (mükəlləfiyyət) şərtləri" adlandırılır. Onlardan hər hansı birinə cavab vermədiyi halda isə insan mükəlləf deyildir. Bu şərtlərdən bəziləri aşağıdakılardır:

a) *Əql*: Təklifin ilk şərti mükəlləfin ağıl və təfəkkür qabiliyyətinə malik olmasıdır. Dəli olan və lazımı təfəkkür qabiliyyətinə malik olmayan insan İslamda mükəlləf sayılmır və ağıl çırağı insanın daxilini aydınlatmadıqca, insan iman və küfrü, haqq və batili, vacib və haramı ayırd etmək qüdrətinə malik olmadıqca öhdəsinə heç bir təklif düşmür. İnsanın əql və təfəkkür qabiliyyəti təklifin əsası və ilahi mühakimənin meyarıdır.

Bir hədisdə İmam Baqirin (ə) belə buyurduğunu oxuyuruq: "Allah qiyamət günü bəndələrini mühakimə edərkən dünyada onlara bəxş etdiyi əqlin qədərini (səviyyəsini) nəzərə alacaqdır". [1]

b) ***Qüdrət***: Təklifin ikinci şərti qüdrət, yəni Allahın insandan tələb etdiyi işi görmək bacarığıdır. Qurani-kərim bununla bağlı buyurur: "Allah hər kəsi qüvvəsi yetdiyi qədər yükləyər (mükəlləf edər). . . "[2] Həmçinin, bir hədisdə İmam Hüseynin (ə) bu şərtlə bağlı belə buyurduğu nəql edilir: "Allah taqətini aldığı hər bir bəndəsini itaətdən azad etmiş, qüdrətdən məhrum etdiyi hər bir bəndəsinin üzərindən mükəlləfiyyəti götürmüşdür". [3]

c) ***Həddi-büluğ***: Təklifin üçüncü şərti həddi-büluğdur. Həddi-büluğ, sayəsində insanın Allahın müxatəbi olmaq, bir sıra ilahi göstəriş və əmrlərin icrasının ona vacib olması, qadağan edilmiş işlərin ona haram olması, onun dini vəzifələri yerinə yetirməklə Allaha yaxınlaşmaq və bəndəlik, özünü Rəbbinə təslim etmə sınağından başıuca çıxmaq şərəfinə nail olduğu mübarək bir hadisədir.

---

[1] ***Üsul əl-kafi,*** Kitab əl-ql vəl-cəhl (Ağıl və cəhalət kitabı), səh. 11, 7-ci hədis.

[2] Bəqərə surəsi, 286-cı ayə.

[3] ***Tuhəf əl-uqul,*** səh. 246, Hikmətlər və moizələr fəsli.

## Həddi-büluğun əlamətləri

**Məsələ 1.** Qızlar üçün həddi-büluğun əlaməti qəməri (sinodik, ay) təqvimi ilə 9 yaşın tamam olmasıdır. [1] Oğlanların həddi-büluğa çatmasının əlaməti isə aşağıdakı dördş eydənbiridir:

1) qarnın altında, cinsiyyət orqanının üstündə sərt tüklərin çıxması;
2) üzdə və dodağın üstündə sərt tüklərin çıxması;
3) istər ayıq halda, istərsə yuxuda məni (sperma) ifrazı;
3) qəməri təqvimlə 15 yaşın tamam olması.

Sadalanan əlamətlərin hər biri insanın həddi-büluğa və eləcə də təklif həddinə çatmasının əlamətidir və həmin andan etibarən təklifin digər şərtləri də mövcud olduğu təqdirdə bütün ilahi göstərişlərin icrası insana vacibdir. Qız həddi-büluğa oğlandan bir neçə il tez çatdığına görə qadının mükəlləfiyyətə daha öncə qədəm qoyması onun Allahla ünsiyyətə və kamala doğru hərəkətə daha sürətli hazırlığından xəbər verir.

**Məsələ 2.** Oğlanlarda sinə və qoltuq nahiyəsində sərt tüklərin çıxması, səsin qalınlaşması və s. həddi-büluğ əlaməti deyildir.

---

[1] Deyilənə əsasən, qəməri təqvimlə təvəllüd tarixi bəlli olmayan, ancaq miladi təqvimlə təvəllüd tarixi məlum olan qızlar, yaxud oğlanlar miladi təqvimi qəməri təqvimə çevirmək istədikdə öncə qızlar miladi təqvimlə 9, oğlanlar isə 15 yaşlarının tamam olduğu günü müəyyən etməli, sonra həmin tarixi qızlar 97, oğlanlar isə 162 gün geriyə çəkməlidirlər. Bu qayda ilə onların qəməri təqvimlə 9, yaxud 15 yaşlarının tmam olduğu gün müəyyən edilir. yaşın tamam olduğu gündən 97 gün çıxmalıdırlar.

Məsələn, 2000-ci il yanvar ayının 1-də dünyaya gələn bir qız 2009-cu il 1 yanvar tarixində miladi təqvimlə 9 yaşını tamamlayır və o, 2008-ci il 26 sentyabr tarixindən etibarən həddi-büluğa çatmış sayılır.

2000-ci il yanvar ayının 1-də dünyaya gələn bir oğlan 2015-cu il 1 yanvar tarixində miladi təqvimlə 15 yaşını tamamlayır və o, 2014-ci il 23 iyul tarixindən etibarən həddi-büluğa çatmış sayılır.

Qeyd etmək lazımdır ki, müxtəlif coğrafi mövqelərin mövcudluğu və ayların günlərinin sayının eyni olmaması səbəbi ilə bəzən bu hesablamanın 1-2 gün xətalı (-+) olması mümkündür. Buna görə bu hesablama xüsusunda iki gün həddində ehtiyata riayət etmək və hesablamanın daha dəqiq olması üçün hər bir vəziyyətdə ayrıca hesablama aparmaq lazımdır.

# TƏQLİD

**Məsələ 3.** Müsəlmanın "üsul əd-din"ə (dinin əsalarına) etiqadı idraka əsaslanmalıdır və o, "üsul əd-din"də təqlid etməməlidir. Başqa sözlə, o, "üsul əd-din"i bilən bir şəxsin sözünü sadəcə onun söylədiyini dəlil gətirərək qəbul edə bilməz. Lakin əgər bir şəxs İslamın haqq inanclarına etiqad bəsləyirsə və bunu izhar edirsə (hərçənd idrak əsasında olmasa belə), həmin şəxs müsəlman və mömindir və İslam (müsəlmanlıq) və iman (möminlik) ilə əlaqədar bütün hökmlər ona şamil olur.

Dinin hökmlərinə gəldikdə isə (dinin zəruri və qəti məsələləri istisna olmaqla) insan ya müctəhid olmalı, hökmləri dəlillərə əsaslanaraq əldə etməli, ya müctəhidə təqlid etməli, ya da ehtiyat yolu ilə vəzifəsini elə icra etməlidir ki, mükəlləfiyyətini həyata keçirdiyinə dair yəqinlik hasil etsin. Məsələn, əgər müctəhidlərdən bir qismi bir işi haram bilirsə, digər bir qismi isə haram olmadığını söyləyirsə, həmin işi görməməli, həmçinin onlardan bəziləri bir işi vacib, bəziləri isə müstəhəb hesab edirsə, həmin işi görməlidir. Beləliklə, müctəhid olmayan və ehtiyata da riayət edə bilməyən şəxslərin müctəhidə təqlid etməsi vacibdir.

**Məsələ 4.** Hökmlərdə təqlid müctəhidin göstərişinə əməl etmək deməkdir və kişi, həddi-büluğa çatmış, aqil, isnaəşəri şiə,[1] halalzadə, adil və yaşayan müctəhidə təqlid etmək lazımdır.

İnsan qarşılaşdığı məsələlərdə, ümumiyyətlə, müctəhidlərin fərqli fətvaları olduğunu bilərsə, hərçənd fikir ayrılığının məhz hansı xüsusda olduğunu bilməsə də, "ələm" olan, yəni bilikləri başqalarından daha artıq olan, Allahın hökmünü və təyin edilmiş vəzifələri ağıl və şəriət əsasında mühakimə aparmaqla başa düşməkdə öz dövrünün bütün müctəhidlərindən daha bacarıqlı olan müctəhidə təqlid etməlidir.

**Məsələ 5.** Adil özünə vacib olan işləri yerinə yetirən və ona haram olan işlərdən uzaq duran şəxsdir. Şəri üzrü olmadan vacib bir işi yerinə yetirməyən, yaxud bir haram iş görən şəxs adil sayılmır və bu məsələdə kiçik və böyük günah arasında fərq yoxdur. İnsan üçün ədalət (adillik) bir neçə üsulla sübuta yetir:

---

[1] İslam peyğəmbərindən (s) sonra onun Əhli-beytindən (ə) olan on iki imamı onun canişini olaraq qəbul edən müsəlman. "İsnaəşəri", "imami", yaxud "cəfəri" adları ilə tanınan məzhəbə mənsub olan şəxs. *Tərc.*

a) İnsanın özünün nəzərdə tutulan şəxsin ədalətinə yəqinlik hasil etməli, yaxud onun adil olduğuna arxayın olmalıdır və bu arxayınlıq məntiqli yolla hasil edilməlidir;

b) İki adil insan həmin şəxsin ədalət xislətinə sahib olduğunu təsdiqləməlidir;

c) Araşdırılan şəxs zahirən yaxşı insan olmalı, danışıq və davranışlarında şəriətə zidd hallar müşahidə olunmamalı, məsələn, qonşularından və ya ünsiyyətdə olduğu insanlardan necə bir insan olduğu soruşulduqda onlar həmin şəxsin yaxşı bir insan olduğunu təsdiqləməli və onun şəriətə uyğun olmayan bir hərəkətə yol verdiyini görmədiklərini bildirməlidirlər. Qeyd etmək lazımdır ki, müxtəlif şəriət mövzularında ədalət anlayışının tərifi və isbat üsulları eynidir.

**Məsələ 6.** İnsanın müctəhid olmasını və eləcə də müctəhidlər arasından ələm olanını üç yolla müəyyən etmək olar:

1) İnsanın özünün yəqinlik hasil etməsi, məsələn, özünün bu sahədə elm sahibi olması və müctəhidi və ələmi ayırd edə bilməsi.

2) Müctəhidi, yaxud ələmi tanıya bilən iki alim və adil insanın bir şəxsin müctəhid, yaxud ələm olduğunu təsdiqləməsi. Bu şərtlə ki, başqa iki alim və adil insan onların dediklərinin əksini deməməlidir. Bir şəxsin müctəhidliyi, yaxud ələmliyi hətta insanın etibar etdiyi, bu məsələlərdə lazımi informasiyaya malik olan bir nəfər mütəxəssisin məlumatı ilə də sübutunu tapa bilər.

Mütəxəssislər bu xüsusda fikir ayrılığına düşdükləri təqdirdə isə daha bacarıqlı və məlumatlı olan qrupun şahidliyi qəbul edilir. Bu zaman onların şahidliyinin həqiqətlə üst-üstə düşmə ehtimalı digər qrupla müqayisədə daha güclü olmalı və bu daha güclü ehtimal başda həmin iki qrupun məlumatları arasındakı ziddiyyət səbəbi ilə yaranan şübhə və tərəddüdün bir tərəfə yönəlməsinə, digər qrupun məlumatının isə həmin qrupla müqayisədə ürfən şübhəsiz hesab edilməsinə səbəb olmalıdır.

1) İnsanın məntiqi üsullarla bir şəxsin müctəhid, yaxud ələm olduğuna əmin olması. Məsələn, müctəhid və ələmi müəyyən edə bilən və sözlərindən yəqinlik hasil olan bir dəstə elm əhlinin bir şəxsin müctəhid, yaxud ələm olduğunu təsdiqləməsi.

Qeyd etmək lazımdır ki, əgər müctəhidi təyin etmək üçün heç biri mümkün olmazsa, mükəlləf 12-ci məsələdə mərcə-i təqlidin vəfatı ilə bağlı veriləcək izaha uyğun hərəkət etməlidir.

**Məsələ 7.** Bir müctəhidin risaləsində açıqladığı rəylər ümumi şəkildə üç qismə bölünür:

a) fətva;

b) vacib ehtiyat yaxud lazım ehtiyat;

c) müstəhəb ehtiyat.

"Vacibdir", "haramdır", "caizdir", "caiz deyildir", "əqva budur", "əzhər budur", "zahir budur", "əqrəb budur", "bəid deyil" kimi ifadələr fətva sayılır, müqəllid (təqlid edən) bu fətvalara əməl etməlidir və əgər ələm müctəhid bir məsələdə fətva verərsə, müqəllid həmin məsələdə başqa bir müctəhidin fətvasına əməl edə bilməz. "B" və "c" bəndləri 8 və 9-cu məsələlərdə izah ediləcəkdir.

**Məsələ 8.** Ələm müctəhid bir məsələdə fətva verməyərək: "Ehtiyat budur ki, filan şəkildə hərəkət edilsin",- deyərsə, müqəllid ya "vacib ehtiyat", yaxud "lazım ehtiyat" adlanan bu ehtiyata uyğun hərəkət etməli, ya da ələmlik ardıcıllığına riayət etməklə[1] başqa bir müctəhidin fətvasını icra etməlidir. Məsələn:

a) Əgər ələm müctəhid: "Vacib ehtiyat namaz qılanın namazın birinci və ikinci rükətlərində Həmd surəsindən sonra daha bir surə oxumasını tələb edir", - deyirsə, müqəllid ya bu ehtiyata riayət etməli, ya da ələmlik ardıcıllığını nəzərə almaqla digər bir müctəhidin fətvasına əməl etməlidir. Beləliklə, digər müctəhid təkcə Həmd surəsinin oxunmasını kafi hesab edirsə, sözügedən şəxs bu məsələdə ona təqlid edərək ikinci surəni oxumaya bilər.

b) Əgər ələm müctəhid:"Vacib ehtiyata əsasən, insanın təyəmmümdə istifadə etmək istədiyi şey ələ hopacaq qədər tozlu olmalıdır", - deyirsə, müqəllidi ya bu ehtiyatın tələbinə riayət etməli və üzərində toz olmayan daşla təyəmmüm etməməli, ya da ələmlik ardıcıllığına riayət etməklə başqa bir müctəhidin fətvasına əməl etməlidir. Başqa müctəhid tozsuz daşa təyəmmümü doğru hesab edirsə, sözügedən şəxs bu məsələdə ona təqlid edə və tozsuz daşdan istifadə etməklə təyəmmüm edə bilər.

"Bu məsələ məhəll-i təəmmüldür (üzərində düşünülməli məqamdır)", "məhəll-i işkaldır (müşkül məsələdir)", "bu əməlin işkalı vardır (düzgünlüyü söyləmək çətindir)", yaxud "bu iş şübhədən xali deyildir" kimi ifadələr də vacib ehtiyat hökmünə malikdir.

Məsələn, əgər ələm müctəhid: "İcarəyə verən öz mənzilini"ücrət əl-misl"dən[2] az məbləğə icarəyə verərsə və icarə müqaviləsinə icarəyə götürənin ona müəyyən məbləğdə borc verməsini şərt qoyarsa, bu borcun riba (sələm) sayılması şübhəsi vardır və mükəlləfiyyət etibarilə

---

[1] Ələmlik ardıcıllığına riayət etmək o deməkdir ki, mükəlləf müraciət üçün öz mərcə-i təqlidi ilə eyni elmi səviyyədə olan bir müctəhidi seçməli, elmi səviyyəsi mərcə-i təqlidi ilə eyni olan müctəhid tapılmadıqda isə elmi səviyyəsi ondan sonra digər bütün müctəhidlərdən daha yüksək olan bir müctəhidə müraciət etməli və həmin məsələdə ona təqlid etməlidir.

[2] "Ücrət əl-misl" bir şeyin normal icarə məbləği, yaxud bir işin normal muzd məbləğidir və icarə, yaxud əmək müqaviləsində müəyyən edilən məbləğdən az, çox, yaxud ona bərabər ola bilər.

məhəll-i işkaldır", - deyirsə, müqəllid ya bu qaydada mənzil icarəyə verməkdən, yaxud icarəyə götürməkdən imtina etməli, ya da ələmlik sırası ardıcıllığına riayət etməklə başqa bir müctəhidin fətvasına uyğun hərəkət etməlidir. Həmin müctəhid bu qaydada icarəyə icazə verirsə və onu riba hesab etmirsə, müqəllid deyilən qaydada hərəkət edə bilər.

**Məsələ 9.** Əgər ələm müctəhid bir məsələ ilə bağlı fətva verdikdən sonra ehtiyat edərsə, məsələn: "Nəcasətə bulaşmış qabı kür həcmində olan su ilə bir dəfə yusalar, pak olar, hərçənd, ehtiyat budur ki, üç dəfə yuyulsun",- deyərsə, müqəllidi bu ehtiyatın tələbinə əməl etməyə bilər. Bu qəbildən olan ehtiyat "müstəhəb ehtiyat" adlandırılır. Həmçinin, bir məsələ ilə bağlı öncə ehtiyatın tələbi, sonra ardınca müctəhidin fətvası qeyd edildikdə, məsələn, müctəhid: "Ehtiyata əsasən, namazın üçüncü və dördüncü rükətlərində təsbihati-ərbəə üç dəfə deyilməlidir, hərçənd bir dəfə deyilməsi kifayətdir", - dedikdə də hökm belədir. [1]

**Məsələ 10.** Şəriət məsələləri ilə bağlı bir müctəhidin rəyini, göstərişini (istər fətva olsun, istərsə vacib, yaxud müstəhəb ehtiyat) öyrənməyin dörd üsulu vardır:

a) müctəhidin özündən eşitmək;

b) müctəhid fətvasını nəql edən iki adil şəxsdən eşitmək;

c) sözünə etibar edilən bir şəxsdən eşitmək;

d)müctəhidin risaləsindən, yaxud ona ünvanlanan suallara fətva şəklində verdiyi yazılı cavabdan oxumaq. Sonuncu halda insan sözügedən risalə, yaxud fətva məzmunlu cavabın düzgünlüyünə arxayınlıq hasil etməlidir.

**Məsələ 11.** İnsan müctəhidin fətvasının dəyişdiyinə dair yəqinlik hasil etməyincə onun risaləsində yazılana əməl edə bilər və əgər onun fətvasının dəyişdiyini sadəcə ehtimal edirsə, mövzunu araşdırması lazım deyil.

**Məsələ 12.** İnsanın təqlid etdiyi müctəhid vəfat edərsə, onun ölümündən sonrası ilə bağlı hökm sağlığındakı hökm kimidir. Beləliklə, əgər həmin müctəhid diri müctəhidlə müqayisədə ələm olarsa və mükəlləf, ümumiyyətlə, qarşısına çıxan məsələlərdə o iki müctəhidin fətvalarının fərqli olduğunu bilərsə, hərçənd fikir ayrılığının məhz hansı məsələdə olduğunu bilməsə də, ona təqlid etməyə davam etməlidir. Yaşayan müctəhid vəfat edən müctəhidlə müqayisədə ələm olduğu təqdirdə isə yaşayan müctəhidə müraciət etməlidir. Əgər onların hansının ələm olduğu məlum deyilsə, yaxud onların elmi səviyyəsi eynidirsə, bu halda onlardan birinin daha təqvalı olduğu, yəni fətva verməkdə və şəriət

---

[1] Əlbəttə, bu risalədə ehtiyat hallarını ayırd etmək üçün çalışmışıq ki, ehtiyatın müstəhəb olduğu bütün hallarda "ehtiyat" sözündən sonra "müstəhəb" təyinini qeyd edək.

hökmlərinin düzgün müəyyənləşdirilməsində rol oynayan xüsuslarda daha ehtiyatlı olduğu, araşdırmaçı olduğu müəyyən edilərsə, ona təqlid etməlidir. Onlardan birinin daha təqvalı[1] olduğu da müəyyən edilə bilməzsə, öz hərəkətlərini onlardan hər hansı birinin fətvalarına uyğunlaşdırmağa ixtiyarı vardır. Yalnız təklif (şəri vəzifə) ilə bağlı "elm-i icmali",[2] yaxud "höccət-i icmali"[3]adlandırılan hallar istisnadır. Belə hallarda vacib ehtiyata əsasən, mükəlləf hər iki fətvaya riayət etməlidir. Qeyd etmək lazımdır ki, bu məsələnin başlanğıcında təqlid deyərkən sağlığında müəyyən bir müctəhidin fətvalarına tabe olmağı özünə borc bilmək nəzərdə tutulur və təqlidin gerçəkləşməsi üçün onun göstərişlərinə əməl etmək şərt deyil.

**Məsələ 13.** İnsan həyatda olan bir müctəhidin icazəsi olmadan vəfat etmiş müctəhidə təqlidində qalarsa, təqlid etməyən insan kimidir və belə insan dünyadan köçmüş müctəhidə təqlid etmək məsələsində həyatda olan və mərcə-i təqlid üçün tələb olunan bütün şərtlərə malik bir müctəhidə müraciət etməli və bu məsələdə ona təqlid etməlidir.

**Məsələ 14.** Yaxşı ilə pisi ayırd edə bilən bir uşaq təqlid edərsə, onun təqlidi doğrudur. Beləliklə, əgər uşağın həddi-büluğa çatmazdan öncə təqlid etdiyi müctəhid vəfat edərsə, 12-ci məsələdə həddi-büluğa çatmış insanlar üçün qeyd edilən hökm həmin uşağa da aiddir. Yalnız "elm-i icmali", yaxud "höccət-i icmali"hallarında iki rəy arasında ehtiyatın vacib olması istisna təşkil edir və həddi-büluğa çatmazdan öncə ehtiyat ona vacib deyildir.

---

[1] Əvvəlki cümlədə izah edilən mənada. *Tərc.*

[2] "Elm-i icmali" deyərkən o hallar nəzərdə tutulur ki, mükəlləf təklifin özündən əmindir və bir işin ona vacib olduğunu bilir, ancaq həmin təklifin məhz hansı iş olması ona məlum deyil. Məsələn: Fərz edin ki, bəzi səfər hallarında bir müctəhid namazı müxtəsər, digər bir müctəhid isə bütöv qılmağı vacib bilir. Burada insan bilir ki, bir namaz qılmalıdır. Ancaq bilmir ki, həmin namazı müxtəsər, yoxsa bütöv qılmalıdır. Belə bir məsələ "elm-i icmali" hallarındandır.

Ancaq bəzi hallarda təklifin özü yəqin deyil. Məsələn, xüsusi bir halda bir müctəhid xümsü vacib bilir, başqa bir müctəhid isə həmin halda xümsü vacib bilmir. Bu hal "elm-i icmali" hallarından deyil.

Qeyd etmək lazımdır ki, "elm-i icmali" halları ilə əlaqədar hökmlər müxtəlifdir və onlardan bəzilərində ehtiyata lüzum yoxdur. Ehtiyatın lazım olduğu, yaxud olmadığı halları dəqiqliklə bilmək üçün fiqh üzrə ixtisas ədəbiyyatına müraciət etmək, yaxud məlumatlı insanlardan soruşmaq lazımdır.

[3] "Höccət-i icmali" elm-i icmali kimidir. Aradakı fərq budur ki, burada mükəlləfin özü təklifin özündən əmin deyil, onun üçün hər hansı bir təklifin ("elm-i icmali" ilə əlaqədar hissədə izah edildiyi kimi) mövcud olduğu ona tabe olmalı olduğu başqa bir dəlillə (öz əminliyindən başqa bir dəlillə) – məsələn, müctəhidin fətvası ilə sabit olmuşdur.

**Məsələ 15.** Mükəlləf hansı məsələləri öyrənmədiyinə görə vacib bir əməli yerinə yetirməyəcəyini, yaxud haram bir iş görəcəyini ehtimal edirsə, həmin məsələləri öyrənməsi vacibdir.

**Məsələ 16.** İnsanın qarşısına barəsindəki hökmü bilmədiyi bir məsələ çıxarsa, ehtiyat etməli, ya da qeyd edilən şərtlərlə təqlid etməlidir. Həmin məsələdə ələm müctəhidin fətvasını öyrənə bilmədiyi halda isə ələmlik ardıcıllığına riayət etməklə ələmdən başqa bir müctəhidə təqlid edə bilər.

**Məsələ 17.** Bir insan başqa bir şəxsə bir müctəhidin fətvası ilə bağlı məlumat verərsə, həmin müctəhidin sözügedən fətvası dəyişdikdə onu bu dəyişiklikdən xəbərdar etməsi vacib deyil. Lakin fətvanı dedikdən sonra səhv etdiyini və verdiyi məlumatın həmin şəxsin şəri vəzifəsinə uyğun olmayan şəkildə hərəkət etməsinə səbəb olacağını başa düşərsə, lazım ehtiyata əsasən, mümkün olduğu təqdirdə səhvini düzəltməlidir.

**Məsələ 18.** Mükəlləf bir müddət təqlidsiz hərəkət edərsə, burada üç hal fərz edilə bilər:

1) Əgər onun əməlləri həqiqətlə, yaxud hal-hazırda onun mərcəi-təqlidi ola biləcək, təqlid etməli olduğu müctəhidin fətvasına uyğundursa, bu halda onun keçmiş əməlləri, hərəkətləri düzgün sayılır.

2) Əgər onun əməlləri həqiqətlə, yaxud belə bir (1-ci bənddə qeyd edilən xüsusiyyətlərə malik) müctəhidin fətvasına uyğun deyilsə, burada dörd vəziyyət təsəvvür edilə bilər:

a) Əməldə nöqsan rüknlər və bu kimi şeylərlə bağlı olarsa, sözügedən əməl batildir. Məsələn, namaz qılan şəxs "təkbirət əl-ehram"ı deməzsə, ya rüku etməzsə, yaxud ayaq üstə namaz qılmalı olduğu halda, oturaq halda qılarsa və ya namazını düzgün qaydada alınmamış dəstəmaz, qüsl, yaxud təyəmmümlə qılarsa, namazı batil sayılır.

b) Əməldə nöqsan rüknlər və bu kimi şeylərlə bağlı olmazsa və insan "qasir cahil" olarsa, yəni məsələni öyrənməkdə səhləkarlığa yol verməmişdirsə, bu halda sözügedən əməl doğrudur. Məsələn, namaz qılan şəxs namazının Həmd və surəsini, yaxud rüku və səcdəsinin zikrlərini və ya təşəhhüdünü səhv oxuyarsa, ancaq onları öyrənməkdə səhlənkarlığa yol verməmişdirsə, onları bilmədiyinə görə "müqəssir" deyilsə; yaxud namaz qılan səcdə halında əlini, yaxud ayağının baş barmağını yerə dayamazsa və məsələni bilməməkdə və öyrənməməkdə müqəssir olmazsa, namazı doğrudur.

c) Əməldə nöqsan rüknlər və bu kimi şeylərlə bağlı olmazsa, ancaq mükəlləf "müqəssir cahil" olarsa (yəni məsələni öyrənməməkdə və bilməməkdə səhlənkarlığa yol vermişdirsə) və səhvin baş verdiyi xüsus müqəssir cahilin səhv hərəkətinin əməlin batil olmasına səbəb

olduğu hallardan olarsa, bu halda həmin əməl batil sayılır. Məsələn, "b" bəndində misal olaraq verilən hallarda məsələni öyrənməkdə səhlənkarlığa yol verən və müqəssir olan namaz qılanın namazı batil sayılır.

d) Əməldə nöqsan rüknlər və bu kimi şeylərlə bağlı olmazsa, ancaq insan müqəssir cahil olarsa, səhvin baş verdiyi xüsus məsələni hətta üzrsüz və təqsir (səhlənkarlıq) ucbatından bilməməyin belə əməlin batil olmasına səbəb olmadığı hallardan olarsa, hərçənd bu halda insan qarşısına çıxan məsələni öyrənmədiyinə görə günahkar sayılsa da, sözügedən əməl doğru sayılır. Məsələn, bir kişi və ya qadın məsələni bilmədiyinə görə zöhr və əsr namazlarında surələri uca səslə oxumuşdursa, yaxud bir kişi məsələni bilmədiyinə görə məğrib və işa namazlarında surələri asta səslə oxumuşdursa və ya bir şəxs məsələni bilmədiyinə görə namazlarında təsbihati-ərbəəni uca səslə oxuyarsa, hərçənd məsələni öyrənməkdə səhlənkarlığa yol verərək müqəssir olsa da, qıldığı namaz doğrudur.

3) Əgər insan keçmiş əməllərini hansı şəkildə həyata keçirdiyini bilmirsə, məsələn, həddi-büluğa çatdığı ilk dövrlərdə namazını doğru qaydada qılıb-qılmadığını, yaxud orucunu düzgün tutub-tutmadığını xatırlamırsa, ancaq sözügedən əməlləri düzgün şəkildə həyata keçirdiyini məntiqli əsaslarla ehtimal edirsə, bu halda da "Minhac əs-salihin" risaləsində qeyd edilən bəzi hallar istisna olmaqla, onun keçmiş əməlləri doğru sayılır.

**Məsələ 19.** Bu risalədə qeyd edilən müstəhəblərin bir çoxunun müstəhəbliyi "sünnətlərin dəlillərində təsamuh"[1] qaydasına əsaslanır və bizim nəzərimizdə bu qaydanın mötəbərliyi sübuta yetmədiyinə görə mükəlləf həmin işləri rəcaən, Allah tərəfindən bəyəniləcəyinə ümid edərək görə bilər. Məkruhların çoxu ilə bağlı hökm də bu qəbildəndir və onlardan Allah tərəfindən bəyəniləcəyinə ümid edərək çəkinmək lazımdır.

[1] Dəlilləri zəif olan və kamil surətdə arxayınlıq hasil etməyən işlərin müstəhəbliyinə, yaxud onların savablı olmasına (Allah tərəfindən mükafatlandırıcılacağına) hökm etmək. *Tərc.*

# SULARLA ƏLAQƏDAR HÖKMLƏR

## Suların növləri

**Məsələ 20.** Su ya mütləq (saf), ya da muzafdır (qarışıqdır). "Muzaf su" qarpız və portağal şirəsi kimi müəyyən bir şeydən alınan, yaxud artıq su adlandırılmayacaq şəkildə palçıq və bu kimi şeylərlə qarışmış sudur. Bu qəbildən olmayan su isə "mütləq su"dur və beş qisimə bölünür:

## Mütləq suyun növləri

**1) Kür su**

**Məsələ 21.** Qabının həcmi 36 kub qarış[1] olan və təqribən 384 litrə bərabər (və ya daha artıq) olan miqdarda suya "kür su" deyilir. Buna əsasən, tillərinin hər birinin uzunluğu ən azı təqribən 72,6848 sm olan qab kür həcmindədir. [2]

**Məsələ 22.** İdrar və qan kimi özlüyündə nəcis olan bir şey, yaxud paltar kimi nəcisə bulaşan bir şey kür həcmində olan suya dəyərsə, həmin su nəcasətin iyini, rəngini, yaxud dadını aldığı təqdirdə nəcis olur, əks təqdirdə isə nəcis olmur.

**Məsələ 23.** Kür suyun iyi, rəngi, yaxud dadı nəcasət olmayan bir şeyin vasitəsilə dəyişərsə, nəcis olmur. Məsələn, kür su həcmində olan hovuzun içinə bir damla qanla nəcis olmuş bir qədər süd tökülərsə və hovuzun suyu azacıq südə bənzəyərsə (süd iyi, yaxud rəngi və ya dadı alarsa, ancaq muzaf həddinə çatmazsa), həmin su nəcis olmur. Ancaq əgər qanı su hovuzuna tökərlərsə və onun rəngi qan vasitəsilə sarı rəngə çevrilərsə, su nəcis olur.

**Məsələ 24.** Qan kimi özlüyündə nəcis sayılan bir şey həcmi kür ölçüsündən artıq olan suya dəyərək onun bir hissəsinin iyini, rəngini, yaxud dadını dəyişərsə, suyun iyi, rəngi və ya dadı dəyişməyən hissəsi kür

---

[1] Bir qarış orta hesabla 22 sm-ə bərabərdir.

[2] Aydındır ki, əgər, məsələn, qabın eni deyilən ölçüdən (təqribən 72,6848 sm) az olarsa, ancaq uzunluq, yaxud hündürlüyünün bu ölçüdən artıq olması hesabına deyilən həcm (36 kub qarış) düzələrsə, eləcə də əgər qabın hündürlüyü bu ölçüdən az olarsa, ancaq uzunluğunun, yaxud eninin bu ölçüdən artıq olması hesabına deyilən həcm alınarsa, qabın həcmi yenə də kür ölçüsündə olur. Həmçinin, qab kürə, yaxud digər həndəsi fiqurlar şəklində də ola bilər. İstənilən halda meyar qabın ümumi həcmidir.

həcmindən az olduğu təqdirdə bütün su nəcis olur, kür ölçüsündə və ya daha artıq həcmdə olduğu təqdirdə isə suyun yalnız iyi, rəngi, yaxud dadı dəyişən hissəsi nəcisdir.

**Məsələ 25.** Fəvvarə suyu kür suya qoşulmuş olarsa, nəcis olan suyu təmizləyə bilər. Lakin damcılara çevrildikdən sonra nəcis suyun üzərinə tökülərsə, onu pak etməz. Yalnız fəvvarənin üzərinə suyunun damcılara çevrilməmişdən öncə nəcis suya qoşulması üçün bir şey tutulduğu təqdirdə onu pak edər və bunun üçün fəvvarənin suyunun nəcis su ilə qarışması lazımdır.

**Məsələ 26.** Nəcasətlənmiş şeyi kür suya qoşulmuş kranın altında yuduqda həmin şeydən axan su kür su ilə əlaqəsi kəsilməmişdirsə, nəcasətin iyini, rəngini, yaxud dadını götürməmişdirsə və nəcisin özü (cövhəri) də onda yoxdursa, pakdır.

**Məsələ 27.** Kür suyun bir hissəsi buz bağlayarsa və donmamış hissəsi kür həcmindən az olarsa, donmayan su nəcasətin ona təmas etməsi ilə nəcis olur və buzun sonradan əriyən hissəsi də nəcis sayılır. Həmçinin, əgər az (kür həcmindən az miqdarda olan) su nəcis olarsa və onun üzərinə pak olan az su tökülərsə, az suların birlikdə həcmi kür suya çatanadək pak olmur.

**Məsələ 28.** Binaların, hamamların kranlarından, şəhərlərdə kran və duşlardan axan boru kəmərləri vasitəsilə ötürülən su qoşulduğu mənbə ilə birlikdə kür həcmindədirsə, kür su hökmünü daşıyır, ancaq axar su sayılmır.

**Məsələ 29.** Bir qabı kür həcmində olan mənbəyə qoşulmuş kran suyunun altına tutduqda qabın içindəki su kran suyundan ayrılanadək kür su hökmünə malikdir. Həmçinin, kür suya qoşulu olan kran suyunun özü də kür su hökmünü daşıyır.

**Məsələ 30.** Kiçik hamam hovuzunun (habelə, vanna və cakuzinin) suyu kür ölçüsündən azdırsa, qoşulduqda həcmi onun suyu ilə birlikdə kür ölçüsünü keçən çən, rezervuar və ya başqa bir mənbəyə qoşulu olduğu və nəcislə təmas zamanı iyi, rəngi, yaxud dadı dəyişmədiyi təqdirdə nəcis olmur və kür su hökmünü daşıyır.

**Məsələ 31.** Kür su həcmində olan su əgər sonradan insan onun kür ölçüsündən azalıb-azalmadığına dair şəkkə düşərsə, kür su kimidir. Yəni nəcasəti pak edir və ona hər hansı bir nəcasət dəydiyi təqdirdə nəcis olmur. Kür ölçüsündən az həcmdə olan və insanın kür həcminə çatıb-çatmadığına şübhə etdiyi su isə kürdən az su hökmündədir.

**Məsələ 32.** Kür olması şübhəli olan və əvvəllər də kür, yoxsa az su olması məlum olmayan mütləq su, vacib ehtiyata əsasən, az su hökmündədir.

**Məsələ 33.** Suyun kür olması iki üsulla sabit olur:

1) insanın özünün yəqinlik, yaxud arxayınlıq hasil etməsi;
2) iki adil şəxsin məlumat verməsi.

Əgər bir adil, yaxud etimad edilən və ya suyun ixtiyarında olduğu şəxs xəbər verərsə, onun xəbəri arxayınlıq hasil etmədiyi təqdirdə, vacib ehtiyata əsasən, suyun kür olmasını sabit etmir.

**2) Az su**

**Məsələ 34.** Yerdən qaynamayan və kür ölüçüsündən az həcmdə olan su "az su" adlandırılır.

**Məsələ 35.** Az su nəcis şeyin üzərinə tökülərsə, yaxud nəcis şey ona dəyərsə, nəcis olur. Lakin nəcis bir şeyin üzərinə yuxarıdan tökülərsə, həmin şeyə dəyən hissəsi nəcisdir, dəyməyən hissəsi isə pakdır.

**Məsələ 36.** Nəcis olmuş bir əşyanı yuyarkən, yaxud yuduqdan sonra ondan öz-özünə, yaxud sıxmaqla və ya bu kimi bir səbəblə ayrılan az su "qüsalə" (yaxantı) adlanır və nəcisdir. Əlbəttə, su tökülməzdən öncə nəcis olmuş əşyada özlüyündə nəcis sayılan bir şey mövcud olmadıqda qüsalənin nəcisliyi vacib ehtiyata əsaslanır. İstənilən halda həmin əşyanın bir dəfə yumaqla pak olan, yaxud paklamaq üçün bir dəfədən artıq yuyulmalı olan əşyalardan olmasının heç bir fərqi yoxdur[1] və bir neçə dəfə yumağa ehtiyac olan hallarda qüsalənin sonuncu dəfə və ya ondan öncə çıxması arasında fərq yoxdur.

**Məsələ 37.** Sidik kanalının xarici dəliyi və anus dəliyini yumaq üçün istifadə edilən az su aşağıdakı beş şərtlə dəydiyi şeyləri nəcis etmir:

1) nəcasətin iyini, rəngini, yaxud dadını götürməməlidir;
2) kənardan başqa bir nəcasət ona dəyməməlidir;
3) idrar və nəcislə birlikdə başqa bir nəcisin, məsələn qanın ifrazı baş verməməlidir;
4) suda nəcis zərrələri görülməməlidir;
5) nəcasət sidik kanalının xarici dəliyi və anus dəliyinin ətrafına normadan artıq yayılmamalıdır.

**3) Axar su**

**Məsələ 38.** Aşağıdakı şərtlə cavab verən suya "axar su" deyilir:

1) Bulaq, çay, kəhriz, yaxud qaynağını dağlarda yığılan qar kütlələrindən götürən sular kimi təbii mənbəyi olmalıdır.
2) Axarlı olmalıdır, hərçənd süni yolla olsa da, axarlılığı təmin edilməlidir.
3) Ümumiyyətlə, axarlılığı davamlı olmalıdır.

Axar suyun sözügedən təbii mənbəyə birləşməsi vacib deyil. Beləliklə, əgər təbii şəkildə ondan (mənbəyindən) ayrılarsa (məsələn yuxarıdan

[1] Məsələn, az su ilə, fətvaya əsasən, iki dəfə yuyulmalı olan idrara bulaşmış paltar.

yerə damcı-damcı tökülərsə və axarsa), axar su hesab edilir. Lakin əgər bir şey axar suyun mənbəyə birləşməsinə mane olarsa, məsələn, tökülməsinin, yaxud qaynamasının qarşısını alarsa, yaxud mənbə ilə əlaqəsini kəsərsə, qalan (mənbə ilə əlaqəsi kəsilən) su hərçənd axarlı olsa da, axar su hökmünü daşımır.

**Məsələ 39.** Axar su kür ölçüsündən az həcmdə olsa da, nəcasət ona dəydikdə iyi, rəngi, yaxud dadı onun vasitəsilə dəyişmədikcə pakdır.

**Məsələ 40.** Axar suya hər hansı bir nəcasət dəyərsə, onun nəcasət vasitəsilə iyi, rəngi, yaxud dadı dəyişən hissəsi nəcisdir; mənbəyə birləşən hissəsi kür həcmindən az da olsa, pakdır; digər tərəfdə qalan hissəsi isə kür həcmində olduğu, yaxud dəyişməyən su ilə mənbə tərəfinin suyuna birləşdiyi təqdirdə pak, əks təqdirdə isə nəcisdir.

**Məsələ 41.** Axarlılığı olmayan, lakin suyundan götürüldükdə yenidən qaynayan bulağın suyu axar su hökmünü daşımır, yəni əgər ona nəcasət toxunarsa və kür həcmindən az olarsa, nəcis olur.

**Məsələ 42.** Çayın kənarında yığılan və insanlar tərəfindən çayın bir hissəsi sayılmayan su, hərçənd axar suya birləşmiş olsa da, axar su hökmünü daşımır və suyun ümumi həcmi kür ölçüsündə olduğu təqdirdə ona kür su ilə əlaqədar hökmlər şamil olur. Həmçinin, kanal və ya arx vasitəsilə çaya birləşmiş hovuzun (sututarın) hərəkətsiz suyu axar su hökmünü daşımır və onun ümumi həcmi kür ölçüsündə olduğu təqdirdə kür su hökmünü daşıyır.

**Məsələ 43.** Yerin səthi ilə axan, lakin yerdən qaynamayan su kür həcmindən az olduğu və ona nəcasət dəydiyi təqdirdə nəcis olur. Lakin əgər yuxarıdan aşağıya doğru axarsa və nəcasət onun aşağısına dəyərsə, yuxarı hissəsi nəcis olmur.

**4) Yağış suyu**

**Məsələ 44.** Nəcisə bulaşan, ancaq üzərində özlüyündə nəcis sayılan bir şey olmayan əşyanın üzərinə bir dəfə yağış yağdıqda yağışın dəydiyi yer pak olur. Yalnız sidiklə nəcis olan bədən və paltarı istisna olaraq, vacib ehtiyata əsasən, iki dəfə yumaq lazımdır. Həmçinin, nəcis olmuş qabın içi, vacib ehtiyata əsasən, üç dəfə yuyulmalıdır. Xalça, paltar və bu kimi əşyaların yağış suyunda yuyulduqdan sonra sıxılması lazım deyil. Əlbəttə ki, iki-üç damcı yağışın faydası yoxdur, yağıntı insanlar tərəfindən "yağış yağır" deyilə biləcək şəkildə olmalıdır.

**Məsələ 45.** Yağış özlüyündə nəcis sayılan bir şeyin üzərinə yağarsa və başqa bir yerə sıçrayarsa, özlüyündə nəcis olan həmin şey yağışla birlikdə sıçramadığı və sıçrayan su nəcasətin iyini, rəngini, yaxud dadını almadığı təqdirdə pakdır. Məsələn, əgər qanın üzərinə yağış yağarsa və ətrafa sıçrayarsa, sıçrayan suda qan zərrəsi olduğu, yaxud qanın iyini,

rəngini və ya dadını götürdüyü təqdirdə, nəcisdir. Əgər onda nəcasət zərrəsinin, yaxud nəcasətin iyi, rəngi, yaxud dadının olub-olmaması məlum deyilsə, pakdır.

**Məsələ 46.** Bir tikilinin tavanında, yaxud damının səthində özlüyündə nəcis sayılan bir şey olarsa, dama yağış yağdıqca nəcis şeyə dəyib tavandan, yaxud navalçadan axan suda nəcasətin iyi, rəngi, yaxud dadı olmadığı təqdirdə pakdır. Lakin yağış kəsildikdən sonra axan su nəcisə dəydiyi məlum olduğu təqdirdə nəcis sayılır.

**Məsələ 47.** Üzərinə yağış yağan nəcasətlənmiş yer səthi pak olur. Yağış suyu yerin səthi ilə axarsa və yağıntı davam etdiyi halda üstü örtülü olan nəcasətlənmiş bir yerə çatarsa, həmin yeri də pak edir.

**Məsələ 48.** Yağış suyunun bütün hissələrini əhatə etdiyi nəcasətlənmiş torpaq, suyun torpağa dəyməsi nəticəsində muzaf suya çevrilməsinin məlum olmaması şərti ilə pak olur.

**Məsələ 49.** Yağış suyu bir yerə yığıldıqda hərçənd həcmi kür ölçüsündən az olsa belə, yağış əsnasında nəcisə bulaşmış bir şey həmin suda yuyularsa və su nəcasətin iyini, rəngini, yaxud dadını almazsa, həmin nəcis şey pak olur.

**Məsələ 50.** Yağış suyu bir çuxura yığılarsa və həcmi kür ölçüsündən az olarsa, yağış kəsildikdən sonra nəcasətin ona dəyməsi ilə nəcis olur.

**Məsələ 51.** Əgər nəcasətli yerə sərilmiş pak xalçanın üzərinə yağış yağarsa və yağıntı əsnasında yağış suyu xalçadan yerə sirayət edərsə, xalça nəcis olmur, əksinə yer də paklanır. Yalnız yağış suyunun muzaflaşdığı, yaxud özlüyündə nəcis olan şeyin xüsusiyyətləri ilə rəngi, iyi, yaxud dadının dəyişdiyi hallar istisnadır.

**Məsələ 52.** Yağış suyu nəcis olan hovuzun üzərinə yağarsa, hovuzun suyu yağış suyu ilə qarışarsa və bu suda özlüyündə nəcis olan şeyin xüsusiyyətləri olmazsa, hovuzun suyu paklanır.

**5) Quyu suyu**

**Məsələ 53.** Yerdən qaynayan quyu suyu hərçənd həcmi kür ölçüsündən az olsa da, nəcasət dəydikdə nəcasətin vasitəsi ilə iyi, rəngi, yaxud dadı dəyişməyincə pakdır və pakedicidir.

**Məsələ 53.** Quyuya hər hansı bir nəcasət düşərək onun suyunun iyini, rəngini, yaxud dadını dəyişərsə, quyu suyunda yaranan bu dəyişikliyin aradan getməsi ilə su pak olur. Lakin bu halda quyu suyunun pak olması, vacib ehtiyata əsasən, onun dəyişiklikdən sonra quyudan qaynayan su ilə qarışması şərtinə bağlıdır.

## Sularla əlaqədar digər hökmlər

**Məsələ 55.** 20-ci məsələdə tərifi verilən muzaf su nəcis əşyanı pak etmir və onunla dəstamaz və qüsl də batildir.

**Məsələ 56.** Dezinfeksiya tədbirləri çərçivəsində suyun tərkibinə əlavə edilən və bəzən onun rəngini dəyişdirərək ağ rəngə çevirənxlor qazı (ancaq həmin su bir qabda bir neçə saniyə saxlanıldıqda su saf və rəngsiz halına qayıdır) suyu muzaf etmir və onun saf və rəngsiz vəziyyətinə qayıtmasını gözləmək lazım deyildir.

**Məsələ 57.** Muzaf su kür həcmində olsa belə, bir zərrə nəcasət ona təmas edərsə, nəcis olur. Lakin yuxarıdan nəcis şeyin üzərinə töküldüyü təqdirdə nəcis şeyə dəyən miqdarı nəcisdir, dəyməyən miqdarı isə pakdır. Məsələn, əgər gülabdandan nəcisə bulaşmış ələ gülab tökülərsə, ələ dəyən miqdarı nəcis, dəyməyən miqdarı isə pak sayılır.

**Məsələ 58.** Nəcasətlənmiş muzaf su axar su, yaxud kür suya ürfən ona artıq muzaf su deyilməyəcək surətdə qarışarsa, pak olur.

**Məsələ 59.** Mütləq olan və sonradan muzaf olma həddinə çatıb-çatmadığı bəlli olmayan su mütləq su hökmündədir, yəni nəcis şeyi pak edir və onunla dəstamaz almaq və qüsl etmək də doğrudur. Həmçinin, muzaf olan və sonradan mütləq suya çevrilib-çevrilmədiyi bəlli olmayan su muzaf su hökmündədir, yəni nəcis şeyi pak etmir və onunla alınan dəstəmaz və qüsl də batildir.

**Məsələ 60.** Mütləq və ya muzaf olduğu bəlli olmayan və əvvəllər də mütləq, yoxsa muzaf olması məlum olmayan su nəcis şeyi pak etmir və onunla alınan dəstəmaz və qüsl də batildir. Bu suya hər hansı bir nəcasət dəyərsə, hətta vacib ehtiyata əsasən, kür həcmində və ya daha artıq olsa belə, nəcis olur.

**Məsələ 61.** Qan və idrar kimi özlüyündə nəcis sayılan bir şeyin üzərinə tökülərək iyini, rəngini, yaxud dadını dəyişdirdiyi su, hərçənd kür və ya axar su olsa da, nəcis olur. Hətta əgər suyun iyi, rəngi, yaxud dadı onun daxilində olmayan bir nəcasətin, məsələn, suyun kənarındakı murdar olmuş bir leşin təsiri ilə dəyişərsə belə, lazım ehtiyata əsasən, nəcis olur.

**Məsələ 62.** İçinə qan və idrar kimi özlüyündə nəcis sayılan şeylərin töküldüyü və iyini, rəngini, yaxud dadını dəyişdirdiyi su kür və ya axar suya birləşmiş olarsa, ya üzərinə yağış yağarsa, yaxud külək yağış suyunu onun üzərinə səpərsə və ya yağış əsnasında navalçadan axan yağış suyu onun üzərinə axarsa, bütün bu hallarda həmin suda baş verən dəyişiklik aradan qalxdığı təqdirdə pak olur. Lakin bunun üçün yağış, kür, yaxud axar su həmin su ilə qarışmalıdır.

**Məsələ 63.** Nəcasətli əşyanı kür, yaxud axar suda yuduqda pak olduğu yumada sudan çıxardıqdan sonra ondan tökülən su pakdır.

Həmçinin, əgər kür, axar, yaxud yağış suyu nəcasətli əşyanın üzərinə tökülərsə və onu pak edərsə, pak olduqdan və kür, axar, yaxud yağış suyu ilə əlaqəsi kəsildikdən sonra ondan tökülən su pakdır. [1]

**Məsələ 64.** Pak olan və sonradan nəcis olub-olmadığı məlum olmayan su pakdır, nəcis olan və sonradan pak olub-olmadığı məlum olmayan su isə nəcisdir.

# Ayaqyolu (sidik və nəcis ifrazı) ilə bağlı hökmlər

## Ayaqyoluna çıxarkən vacib, yaxud haram olan hərəkətlər

**Məsələ 65.** İnsanın ayaqyoluna çıxarkən və eləcə də digər hallarda bədəninin məhrəm yerlərini mükəlləf şəxslərdən, hərçənd bacı və ana kimi məhrəmləri olsalar belə və həmçinin, yaxşı ilə pisi ayırd edə bildikləri təqdirdə dəli və azyaşlı uşaqdan gizlətməsi vacibdir. Lakin ər və arvadın məhrəm yerlərini bir-birindən gizlətməsi vacib deyil.

**Məsələ 66.** İnsanın məhrəm yerlərini məxsusi bir şeylə örtməsi vacib deyil. Əgər, məsələn, əllə örtərsə, kifayətdir.

**Məsələ 67.** Ayaqyoluna çıxarkən, lazım ehtiyata əsasən, bədənin ön hissəsi, yəni qarın və sinə qibləyə doğru tutulmamalı, yaxud arxası qibləyə doğru durulmamalıdır və qiblə deyərkən insanınqibləni bildiyi və hər hansı bir zərurət halı da olmadığı təqdirdə namazda üzünü tutmalı olduğu tərəf nəzərdə tutulur.

**Məsələ 68.** Ayaqyoluna çıxarkən bir şəxsin bədəninin ön, yaxud arxa tərəfi qibləyə doğru olarsa və sadəcə məhrəm yerləri qiblədən fərqli istiqamətə çevirərsə, kifayət deyildir. Vacib ehtiyata əsasən, ayaqyoluna çıxarkən məhrəm yerlərini də qibləyə və ya əks istiqamətə doğru çevirməməlidir.

**Məsələ 69.** Müstəhəb ehtiyata əsasən, istibra (istibra ilə əlaqədar hökmlərqarşıdaizah ediləcəkdir) əsnasında, habelə sidik kanalının xarici dəliyini və anus dəliyini təmizləyərkən də bədən üzü, yaxud arxası qibləyə doğru tutulmamalıdır. Xüsusən, insanın sidik kanalında sidik qaldığını və istibra ilə sidik qalığının ifraz olunacağını bildiyi halda bu ehtiyat daha artıq önəm daşıyır.

**Məsələ 70.** İnsan naməhrəmin onu görməməsi üçün üzü, yaxud arxası qibləyə doğru oturmağa məcbur olarsa, lazım ehtiyata əsasən, arxası qibləyə doğru oturmalıdır.

---

[1] Pak olmazdan, yaxud kür, axar və ya yağış suyu ilə əlaqəsi kəsilməzdən öncə həmin əşyadan tökülən, yaxud sıçrayan sularla bağlı hökm isə əvvəlki məsələlərdə qeyd edilmişdir.

**Məsələ 71.** Müstəhəb ehtiyata əsasən, uşağı ayaqyoluna çıxarkən üzü, yaxud arxası qibləyə doğru oturtmaq olmaz.

**Məsələ 72.** Ayaqyolu çanaqları qəsdən, səhvən, yaxud məlumatsızlıq səbəbi ilə üzü və ya arxası qibləyə doğru yerləşdirilən məkanlarda, vacib ehtiyata əsasən, insan elə oturmalıdır ki, üzü, yaxud arxası qibləyə doğru olmasın.

**Məsələ 73.** Əgər mükəlləf qiblənin hansı istiqamətdə olduğunu bilmirsə, vacib ehtiyata əsasən, ayaqyoluna çıxması caiz deyil. Lakin qiblənin istiqamətinin öyrənilməsinə dair ümidini itirdiyi və gözləməyin mümkün olmadığı, yaxud gözləməyin həddən ziyadə çətin və ya zərərli olduğu hallar istisnadır. Təyyarələrdə, qatarlarda və gəmilərdə də buna riayət olunmalıdır.

**Məsələ 74.** Dörd yerdə ayaqyoluna çıxmaq haramdır:

1) sahiblərinin icazə vermədiyi dalanlarda, həmçinin yoldan keçənlərə zərər törətdiyi təqdirdə ümumi küçə və yollarda;

2) ayaqyoluna çıxmaq üçün sahibinin icazə vermədiyi şəxsi mülkiyyət ərazisində;

3) bəzi təhsil müəssisələri kimi müəyyən şəxslərin istifadəsi üçün vəqf edilmiş yerlərdə;

4) möminlərə qarşı hörmətsizlik olduğu və hətta hörmətsizlik olmadığı təqdirdə belə, möminlərin qəbirlərinin üzərinə. Yalnız həmin yerin şəriət baxımından kiminsə mülkiyyətində olmayan, mənimsənilməsi və istifadəsi üçün hər hansı bir maneə olmayan yer olması istisna təşkil edir. Həmçinin, ayaqyoluna çıxmağın din və ya məzhəbin müqəddəs şəxsiyyətlərindən, yerlərindən, rəmzlərindən birinə qarşı hörmətsizliklə nəticələndiyi yerlər də bu qəbildəndir.

## Sidik kanalının xarici dəliyi və anus dəliyinin təmizlənməsi qaydası

**Məsələ 75.** Sidik kanalının xarici dəliyi yalnız su ilə pak olur və kür su, şəhərdə kranlardan gələn su, yaxud az su ilə bir dəfə yuyulması kifayətdir. Hərçənd, müstəhəb ehtiyata əsasən, az su ilə yuyulduqda iki dəfə yuyulmalıdır və ən yaxşısı odur ki, üç dəfə yuyulsun.

**Məsələ 76.** Üç halda anus dəliyi yalnız su ilə paklanır:

1) nəcislə birlikdə başqa bir nəcasət, məsələn, qan ifraz olduqda;

2) anus dəliyinə ifraz olunan nəcisdən başqa bir nəcasət də bulaşdıqda (qadınlarda idrarın axaraq anus dəliyinə dəyməsi istisnadır);

3) anus dəliyinin ətrafı normal miqdardan artıq bulandıqda.

Digər hallarda isə su ilə yumaqla yanaşı anus dəliyini su ilə yumaq, yaxud qarşıdakı məsələlərdə izah ediləcək qaydada parça, daş və bənzər şeylərlə paklamaq da olar. Hərçənd su ilə yuyulması daha yaxşıdır.

**Məsələ 77.** Anus dəliyi su ilə yuyulduqda nəcis tamamilə təmizlənməlidir. Lakin nəcisin rənginin, yaxud iyinin qalmasının eybi yoxdur və birinci dəfə üzərində nəcisdən bir zərrə belə qalmayacaq şəkildə yuyularsa, ikinci dəfə yuyulması vacib deyil.

**Məsələ 78.** Quru və pak olduğu təqdirdə daş, kəsək, parça və bu qəbildən olan şeylərlə anus dəliyini təmizləmək olar. Sadalanan şeylərin anus dəliyini islatmayacaq dərəcədə az rütubətli olmasının eybi yoxdur.

**Məsələ 79.** Anus dəliyi daş, kəsək, yaxud parça ilə bir dəfə tamamilə təmizlənərsə, kifayətdir. Lakin daha yaxşı olar ki, bu təmizləmə üç dəfə təkrarlansın, hətta üç ayrı parça ilə yerinə yetirilsin. Üç dəfə təkrarlanmaqla təmizlənmədiyi təqdirdə isə bu hərəkət anus dəliyi nəcisdən tamamilə təmizlənənədək təkrar edilməlidir. Lakin nəcisin adətən su ilə yuyulmadan getməyən izinin qalmasının eybi yoxdur.

**Məsələ 80.** Anus dəliyinin ehtiram göstərilməsi vacib olan şeylərlə, o cümlədən uca Allahın, yaxud peyğəmbərlərin (Allahın salamı olsun onlara!) adları yazılmış kağızla təmizlənməsi haramdır, sümük və peyinlə təmizlənməsinin isə eybi yoxdur.

**Məsələ 81.** İnsan sidik kanalının xarici dəliyi və ya anus dəliyini təmizləyib-təmizləmədiyi ilə bağlı şübhəyə düşərsə, adətən həmişə sidik və nəcis ifrazından sonra dərhal təmizləməsinə baxmayaraq, onu təmizləməsi lazımdır.

**Məsələ 82.** Namazdan sonra namaza başlamazdan əvvəl sidik kanalının xarici dəliyi və ya anus dəliyini təmizləyib-təmizləməməsi ilə bağlı şəkkə düşərsə, qıldığı namaz doğrudur, lakin növbəti namazlar üçün onu təmizləməlidir.

## İSTİBRA

**Məsələ 83.** İstibra kişilərin idrar ifrazından sonra sidik kanalını tamamilə boşaltmaq üçün etdikləri müstəhəb bir işdir və bu iş müxtəlif qaydalarda görülür. Bu qaydalardan birinə görə, sidik ifrazından sonra anus dəliyi nəcisə bulaşmışsa, öncə onu təmizləmək, sonra sol əlin orta barmağını anus dəliyindən cinsiyyət orqanının dibinədək üç dəfə çəkmək, sonra baş barmaqla cinsiyyət üzvünün üst, şəhadət barmağı ilə isə alt tərəfindən tutaraq sünnət edilən yerədək üç dəfə çəkmək, daha sonra kanalda qalan sidik damcılarının ifraz olunması üçün cinsiyyət üzvünün uc hissəsini (penis başını) üç dəfə sıxmaq lazımdır. Məninin (sperma) istibrası isə onun ifrazından sonra kanalda qalan damcıların xaric olması üçün sidiyə çıxmaq deməkdir.

**Məsələ 84.** Sidik kanalının xarici dəliyindən ifraz olunan (idrar və spermadan başqa) mayelər üç növdür:

1) kişilərdə bəzən şəhvani təhrik nəticəsində ifraz olunan maye – "məzy" (predeyakulyat);
2) bəzən mənidən sonra ifraz olunan maye – "vəzy";
3) bəzən idrardan sonra ifraz olunan maye – "vədy".

Bu mayelərin hamısı sidik kanalından ifraz olunduqdan sonra idrar, yaxud spermaya qarışmadığı təqdirdə pakdır.

Sidikdən istibranın faydası budur ki, insan sidik ifrazının ardınca istibra edərsə və sonra sidik kanalından sidik, yoxsa yuxarıda sadalanan üç növ mayedən hər hansı biri olduğunu bilmədiyi şübhəli maye ifraz olarsa, həmin şübhəli maye pak sayılır və dəstəmaz və qüslü də pozmur. Lakin əgər istibra etməmişdisə, yenidən dəstəmaz almalı və həmin yeri yumalıdır. Həmçinin, mənidən istibranın faydası bundan ibarətdir ki, əgər insandan şübhəli bir maye ifraz olarsa və mənimi, yoxsa sadalanan üç növ pak mayedən birimi olduğunu bilməzsə, həmin şəxs cünub sayılmır. Lakin əgər istibra etməzsə, sidik kanalından bir maye ifraz olarsa və onun məni olduğunu ehtimal edərsə, cünub sayılır.

**Məsələ 85.** Bir kişi sidikdən istibra edib-etmədiyi ilə bağlı şəkkə düşərsə və sidik kanalından pak olub-olmadığını bilmədiyi bir maye ifraz olarsa, bu maye nəcis sayılır və əgər dəstəmaz almışdısa, batil olur. Lakin etdiyi istibranın doğru olub-olmadığı xüsusunda şəkk edərsə və ondan pak olub-olmadığını bilmədiyi bir maye ifraz olarsa, bu maye pak sayılır və dəstəmazı da pozmur.

**Məsələ 86.** İdrardan istibra etməyən, yaxud istibra edib-etmədiyinə şübhə edən şəxs idrar ifrazından uzun müddət keçməsi səbəbi ilə kanalda idrarın qalmadığına əmin olarsa və sonra pak olub-olmadığına şəkk etdiyi bir rütubət görərsə, bu rütubət pakdır və dəstəmazı da pozmur.

**Məsələ 87.** İnsan idrardan sonra istibra edərək dəstəmaz alarsa, dəstəmazdan sonra ya idrar, ya da məni olduğunu bildiyi bir rütubət görərsə, namaz və dəstəmaz tələb edən digər işlər üçün ehtiyatən qüsl etməsi və dəstəmaz da alması vacibdir. Lakin əgər dəstəmaz almamışdısa, yalnız dəstəmaz alması kifayətdir.

**Məsələ 88.** Qadın üçün idrar, yaxud mənidən istibra yoxdur və o, özündə bir rütubət görərək sidik olub-olmadığına və ya məni olub-olmadığına dair şəkkə düşərsə, həmin rütubət pak sayılır və onun dəstəmaz və qüslünü də pozmur.

## Ayaqyolu ilə bağlı müstəhəb və məkruh işlər

**Məsələ 89.** Müstəhəbdir ki, insan ayaqyoluna çıxmaq üçün onu kimsənin heç bir vəchlə görə bilməyəcəyi bir yerdə otursun və ayaqyoluna çıxdığı yerə daxil olarkən sol ayaqla girsin, çıxarkən isə sağ ayaqla çıxsın.

Həmçinin, müstəhəbdir ki, ayaqyolu əsnasında başını örtsün və bədəninin ağırlığını sol ayağının üzərinə salsın.

**Məsələ 90.** Ayaqyoluna çıxarkən üzü Günəş, yaxud Aya doğru oturmaq məkruhdur, lakin məhrəm yerlər bir vasitə ilə örtülərsə, məkruh sayılmır. Həmçinin, yollarda, prospekt və küçələrdə, evlərin qapısı önündə və bar verən meyvə ağacının altında oturaraq ayaqyoluna çıxmaq məkruhdur və hətta bəzən bu qəbildən olan yerlərdə ayaqyoluna çıxmaq haramlıq ünvanı kəsb etməsi səbəbi ilə haram olur.

**Məsələ 91.** Ayaqyolunda nəsə yemək, həddən ziyadə ləngimək və sağ əllə yuyunmaq məkruhdur. Həmçinin, ayaqyolunda danışmaq da məkruhdur. Lakin əgər insan buna məcbur olarsa, yaxud uca Allahı zikr edərsə, eybi yoxdur.

**Məsələ 92.** Ayaq üstə, suyun sıçradığı möhkəm yerlərə idrar etmək məkruhdur. Həmçinin, heyvanların yuvasına, suya, xüsusən, axarı olmayan suya, üzü küləyə doğru idrar etmək məkruhdur.

**Məsələ 93.** İdrar və nəcisi saxlamaq məkruhdur və əgər orqanizm üçün ümumi zərəri olarsa, haramdır.

**Məsələ 94.** İnsanın namazdan, yuxudan və cinsi əlaqədən öncə və sperma ifrazından sonra idrar etməsi müstəhəbdir.

# NƏCASƏTLƏR

## Nəcasətin növləri

**Məsələ 95.** Aşağıdakı on şey nəcasətdir:

1) idrar; 2) nəcis; 3) məni; 4) murdar; 5) qan; 6 və 7) it və donuz; 8) kafir; 9) şərab; 10) nəcis yeyən heyvanın təri.

**1 və 2) İdrar və nəcis**

**Məsələ 96.** İnsanın və sıçrayan qanı olan, yəni damarı kəsildikdə qanı sıçrayan bütün əti haram olan heyvanların sidik və nəcisi nəcasətdir. Buna əsasən, siçan, dovşan, pişik, yırtıcı heyvanların və bənzərlərinin ifrazatları nəcasətdir. Qanı sıçramayan əti haram olan heyvanların, məsələn əti haram olan balığın, həmçinin, əti olmayan ağcaqanad və milçək kimi kiçik heyvanların nəcis ifrazatı pakdır. Lakin,vacib ehtiyata əsasən, qanı sıçramayan əti haram olan heyvanların idrarına nəcis kimi yanaşmaq lazımdır.

**Məsələ 97.** Qarğa, qartal, yarasa və bu kimi yeyilməsi haram olan quşların idrar və nəcisi pakdır. Hərçənd daha yaxşı olar ki, onlar xüsusunda da ehtiyat edilsin.

**Məsələ 98.** İnsan nəcisi ilə qidalanmağa adət etmiş nəcisyeyən heyvanın, habelə donuz südü içən (qidalarla bağlı hökmlərdə izah ediləcək qaydada) çəpişin və eləcə də insanın cinsi əlaqədə olduğu heyvanın sidik və nəcisi də nəcasət sayılır.

**3) Məni (sperma)**

**Məsələ 99.** Kişinin və sıçrayan qanı olan istənilən əti haram olan erkək heyvanın mənisi nəcasətdir. Həmçinin, qadından şəhvani təhrik olunma nəticəsində ifraz olan və 444-cü məsələdə izah ediləcək qaydada onun cənabətlənməsinə səbəb olan maye məni hökmündədir. Vacib ehtiyata əsasən, qanı sıçrayıcı olan əti halal olan erkək heyvanların spermasınada nəcis kimi yanaşmaq lazımdır.

**4) Murdar**

**Məsələ 100.** İnsanın və təbii yolla tələf olmasından, yaxud şəriətdə müəyyən edilmiş qaydalara uyğun olmayaraq kəsilməsindən, öldürülməsindən asılı olmayaraq sıçrayan qanı olan hər bir heyvanın cəsədi, leşi nəcasət sayılır. Balıq sıçrayan qanı olmadığına görə suda ölsə də, pakdır.

**Məsələ 101.** Murdarın ruhu olmayan yunu, tükü,kürkü, sümüyü və dişi pakdır. Yalnız bədəni bütünlüklə nəcasət sayılan it, donuz və əhli-kitab olmayan kafir istisna təşkil edir.

**Məsələ 102.** İnsanın, yaxud sıçrayan qanı olan heyvanın bədənindən sağ ikən ət, yaxud ruhu olan başqa bir şey ayrılarsa, nəcisdir.

**Məsələ 103.** Dodaqların üzərindən, yaxud bədənin müxtəlif nahiyələrindən xırda dəri parçaları qoparılarsa, həmin ruhu olmadığı və asanlıqla qopduğu təqdirdə pakdır.

**Məsələ 104.** Ölü toyuğun qarnından çıxan yumurta qabığı bərkləşməmiş olsa da, pakdır, lakin üstünü yumaq lazımdır.

**Məsələ 105.** Quzu və çəpiş otla qidalanmağa başlamazdan əvvəl tələf olarsa, onların qursağındakı pendir mayası (qursaq mayası, yaxud rennin fermenti) pakdır. Lakin maye olduğu məlum olmazsa, ölmüş heyvanın bədəninə toxunan çöl tərəfini yumaq lazımdır.

**Məsələ 106.** Qeyri-müsəlman ölkələrindən idxal olunan müxtəlif növ dərman, ətir, bitki yağı, ayaqqabı mazı, sabun, parça və s. məhsullar onların nəcasətli olmasına dair yəqinlik hasil edilmədiyi təqdirdə pakdır.

**Məsələ 107.** Ət, yağ və dəri əgər şəriət qaydalarına uyğun olaraq kəsilməyən heyvandan əldə edilmişdirsə, nəcisdir və bu qəbildən olan dərilərdən hazırlanmış geyimlə qılınan namaz da doğru sayılmır. Lakin əgər ət, yağ və dərinin şəriət qaydalarına müvafiq surətdə kəsilən heyvandan olduğuna dair məntiqli ehtimal vardırsa, pakdır, həmin dəridən

olan paltarla namaz qılmaq da caizdir və bu halda həmin ət, yağ və dəri məhsullarında islami kəsim qaydalarının tətbiqini bildirən nişanın olub-olmamasının heç bir fərqi yoxdur. Qeyd etmək lazımdır ki, bu qəbildən olan ət və yağın yeyilməsi, habelə halal kəsim nişanları ilə bağlı hökmlər "Qidalarla bağlı hökmlər" fəslində açıqlanacaqdır.

**5) Qan**

**Məsələ 108.** İnsandan və sıçrayan qanı olan (damarı kəsildikdə qanı sıçrayışla çıxan) hər bir heyvandan ifraz olan qan nəcasətdir. Buna əsasən, sıçrayıcı qanı olmayan balıq və ağcaqanad kimi heyvanların qanı pakdır.

**Məsələ 109.** Əti halal olan heyvan şəriətdə müəyyən edilmiş qaydada kəsilərsə və ondan adətən axan qədər qan axarsa, bədənində qalan qan içilməsi haram olsa da, pak sayılır. Lakin nəfəsalma nəticəsində qan heyvanın bədəninə geri qayıdarsa, yaxud heyvanın başı hündür yerdə olduğuna görə qan normal sayılan miqdarda axmazsa, həmin qan nəcisdir və müstəhəb ehtiyata əsasən, əti halal olan heyvanın bədəninin yeyilməsi haram olan yerlərində qalan qandan ehtiyat etmək lazımdır.

Həmçinin, əti halal olan vəhşi heyvan ov vasitələri ilə şəriətdə müəyyən edilmiş qaydada öldürülərsə, normal miqdarda qan axdıqdan sonraonun bədənində qalan qan pakdır.

**Məsələ 110.** Kəsilmiş heyvanın bədənində qalan qanın pak, yoxsa nəcis qan qismindən olduğuna dair şəkk yaranarsa, pak olduğuna hökm edilir. Yalnız heyvanın şəriətə uyğun kəsilməmiş olduğuna hökm edildiyi hallar, hərçənd bu hökm onun bədənindən adətən axan qədər qan axmaması ilə əlaqədar olsa da, istisna təşkil edir.

**Məsələ 111.** Yumurtanın içindəki qan nəcis deyil, lakin həmin qanın qəbulu haramdır. Beləliklə, içərisindəki qan zərrəsi götürülərsə, yumurtanın qalan hissəsinin yeyilməsinin eybi yoxdur. Hərçənd, müstəhəb ehtiyata əsasən, içərisində qan zərrəsi olan yumurta sarısını yeməkdən çəkinmək lazımdır.

**Məsələ 112.** Bəzi hallarda süd sağarkən müşahidə edilən qan nəcisdir və sağılmış südün miqdarı kür həcmində olan bir qab qədər olsa belə, onu nəcis edir.

**Məsələ 113.** Diş ətindən gələn qan ağız suyu ilə qarışması səbəbi ilə itirsə, ağız suyundan çəkinmək lazım deyil.

**Məsələ 114.** Əzilmə nəticəsində dırnağın, yaxud dərinin altında yığılan ölü qan hüceyrələrindən ibarət laxtalar artıq qan adlandırılmayacaq haldadırsa, pak, qan sayıldığı və üzə çıxdığı təqdirdə isə nəcisdir. Beəliklə, dırnaq, yaxud dəri qan bədənin zahiri hesab ediləcək şəkildə

(üzə çıxacaq şəkildə) deşildiyi təqdirdə qanın çıxarılması və həmin yerin dəstəmaz almaq və ya qüsl etmək üçün yuyulması həddən ziyadə zərərli,yaxud əziyyətli deyilsə, çıxarılmalıdır. Həddən ziyadə zərərlidirsə, yaxud əziyyət verəcəksə, bədənin təyəmmüm yerlərindən başqa nahiyələrində olduğu təqdirdə təyəmmüm etmək kifayətdir, təyəmmüm yerlərində olduğu və əngəl sayıldığı təqdirdə isə həm təyəmmüm edilməli, həm də cəbirə dəstəmazı alınmalıdır. Bu məsələ cəbirə dəstəmazı mövzusunda izah ediləcəkdir.

**Məsələ 115.** İnsan dərisinin altındakı qan hüceyrələrinin öldüyünü, yoxsa ətinin əzilməsi nəticəsində bu vəziyyətə düşdüyünü bilmirsə, pakdır.

**Məsələ 116.** Yemək qaynayarkən içinə bir damcı qan düşərsə, bütün yemək və eləcə də qab nəcis olur və lazım ehtiyata əsasən, qaynama, hərarət və od pakedici deyildir.

**Məsələ 117.** Yara sağalarkən onun ətrafında meydana gələn irin qanlı olub-olmadığı məlum olmadığı təqdirdə pak sayılır.

**Məsələ 118.** Yara yuyulduqdan sonra, yaxud sağalarkən üzərində əmələ gələn qırmızı rəngli dəri qatı tərkibində qan olub-olmadığı məlum olmadığı təqdirdə pakdır.

**6 və 7) İt və donuz**

**Məsələ 119.** Quruda yaşayan it və donuz nəcisdir. Onların hətta tükü, sümüyü, pəncəsi, dırnağı, ağız suyu və digər rütubətləri də nəcisdir və bu hökmdə onların növləri arasında fərq yoxdur.

**8) Kafir**

**Məsələ 120.** Kafir:

a) Allahın varlığını, yaxud təkliyini qəbul etməyən;

b) yaxud "Xatəm əl-ənbiya"nın (Peyğəmbərlərin sonuncusu Həzrət Muhəmmədin (s) peyğəmbərliyini qəbul etməyən;

c) və ya peyğəmbərlərin sonuncusu olan Allahın ən əziz Elçisinin (s) təkzib edilməsinə gətirib çıxaracaq şəkildə dinin zərurətlərindən birini inkar edən şəxsdir və sonuncu halda sözügedən zərurətin namaz, oruc, zəkat və hicab kimi vacibatdan, şərab içmək, riba (sələmçilik) və qina (haram musiqi) kimi haram işlərdən və ya məad (ölümdən sonrakı həyata inam) və Peyğəmbərin (s) Əhli-beytinə (ə) sevgi kimi inanc məsələlərindən olmasının heç bir fərqi yoxdur.

Buna əsasən, hər hansı bir dini seçməyən, yaxud İslamdan başqa bir dini olan və ya İslam dinini seçən, ancaq uca Allah tərəfindən Peyğəmbərə (s) çatdırılan bəzi göstərişləri (Allahın elçisinin buyuruğu olduğunu bildiyi halda) inkar edən insan kafirdir.

Ancaq İslamı özünə din seçən, lakin müsəlman mühitindən uzaq olmaq, yaxud din əleyhinə şübhələrin təlqin edilməsi kimi səbəblərlə xüms və hicab kimi dinin bəzi əməli hökmlərini Peyğəmbəri (s) və onun buyuruğunu təkzib etmək niyyəti olmadan inkar edən insan hərçənd haqq yoldan sapmış olsa da, kafir deyil.

Kafirlər, ümumiyyətlə, iki qismə bölünür: kitabi (əhli-kitab) kafirlər, yəni yəhudilər, xristianlar, zərdüştilər və qeyri-kitabi (əhli-kitab olmayan) kafirlər, yəni yəhudi, xristian, yaxud zərdüşti olmayan kafirlər. Onların pak, yoxsa nəcis olması ilə əlaqədar hökm sonrakı məsələlərdə qeyd ediləcəkdir.

**Məsələ 121.** Əhli-kitab olmayan kafirin bütün bədəni, hətta tükü, dırnağı və bədənindən ifraz olan rütubətlər də nəcisdir. Ancaq əhli-kitab (yəhudilər, xristianlar və zərdüştilər) pakdır.

Qeyd etmək lazımdır ki, mürtədin, yəni İslamdan çıxan şəxsin pak, yoxsa nəcis olması ilə bağlı hökm onun daxil olduğu qrupa aid olan hökmdür. Beləliklə, əgər mürtəd şəxs kitabi kafir olarsa, pakdır, qeyri-kitabi kafir olduğu təqdirdə isə nəcis olur.

**Məsələ 122.** Həddi-büluğa çatmayan uşağın valideynləri, baba və nənəsi əhli-kitab olmayan kafirdirsə, həmin uşağın da bədəni nəcisdir. Lakin həddi-büluğa çatmayan uşaq yaxşı ilə pisi ayırd edə bilərsə və müsəlman olduğunu izhar edərsə, bu halda onun bədəni pakdır. Valideynlərindən üz çevirdiyi və müsəlmanlara rəğbət göstərdiyi, yaxud həqiqəti araşdırma mərhələsində olduğu təqdirdə də onun bədəninin nəcis olduğuna hökm etmək məhəll-i işkaldır, yəni vacib ehtiyata əsasən, belə olan halda ehtiyatın tələbinə riayət etmək lazımdır.

Uşağın valideynlərindən, baba və nənəsindən hər hansı biri müsəlman olarsa, uşaq (226-cı məsələdə izah ediləcək şəkildə) pak sayılır.

**Məsələ 123.** Müsəlman olub-olmadığı məlum olmayan və müsəlmanlığına dair bir əlamət də olmayan şəxs pakdır, lakin müsəlmanlığa dair digər hökmlər ona şamil olunmur. Məsələn, müsəlman qadın onunla evlənə bilməz və müsəlman qəbiristanlığında dəfn edilməməlidir. Əlbəttə, belə bir şəxs müsəlman ölkələrindən birində dünyasını dəyişərsə, zahirən müsəlmanla bağlı bütün hökmlər ona şamil olunur. Ancaq qeyri-müsəlman cəmiyyətlərində yaşayan, etiqadları və dinləri məlum olmayan, lakin məntiqli ehtimalla müsəlman və ya kitab əhli olan kafir olduqları güman edilən insanlar isə pakdır, lakin müsəlmanlarla bağlı hökmlər onlara şamil olunmur.

**Məsələ 124.** Qulat (qalilər), yəni imamlardan (ə) birini Allah adlandıran, yaxud Allahın onların vücudunda təcəlla etdiyini söyləyən şəxslər və nəvasib (nasibilər), yəni imamlara (ə) düşmən olduqlarını göstərənlər

nəcisdirlər. Həmçinin, on dörd məsumdan (ə) birinin ünvanına ədavət səbəbi ilə söyüş sayılan nalayiq sözlər sərf edən şəxsin bədəni nəcisdir.

Xəvaricə (xaricilərə) gəlincə, onların bir qismi Əhli-beytə (ə) qarşı düşmən olduqlarını göstərirlər, nasibilərdən sayılırlar və nəcisdirlər, digər bir qisminin isə Əhli-beytlə (ə) düşmənçiliyi yoxdur, hərçənd xəvaricin fiqhi hökmlərinə tabe olduqlarına görə onlardan sayılsalar da, pakdırlar.

**9) Şərab**

**Məsələ 125.** Şərab nəcisdir. Digər məstedicilər isə nəcis deyil, ancaq onların istifadəsi istənilən halda haramdır. "Fuqqa" ilə bağlı hökm qarşıdakı məsələlərdə bəyan ediləcəkdir.

**Məsələ 126.** İstər texniki, istərsə tibbi spirtin bütün növləri pakdır. İstisna olaraq, bir spirt maddəsinin şərabın buxarlandırılması, yaxud distillə edilməsi üsulu ilə alındığı məlum olarsa, bu halda nəcisdir.

**Məsələ 127.** Üzüm suyu öz-özünə, yaxud bişirilməsi nəticəsində qaynayarsa, pakdır, ancaq içilməsi haramdır. Şəraba çevrildiyi halda isə içilməsi haram olmaqla yanaşı həm də nəcisdir. Həmçinin, qaynayan üzümün yeyilməsi, vacib ehtiyata əsasən, haramdır, lakin o nəcis deyil.

**Məsələ 128.** Xurma, üzüm qurusu, kişmiş və onların suyu nə qədər qaynasa da, pakdır və qəbulu halaldır. Lakin xurma, üzüm qurusu və kişmiş suyu qaynayarsa və məstedici olduğu məlum olarsa, onların içilməsi haram olsa da, nəcis deyil.

**Məsələ 129.** Adətən arpadan hazırlanan və yüngül dərəcəli sərxoşluğa səbəb olan fuqqa haramdır və vacib ehtiyata əsasən, həm də nəcisdir. Tibbi məqsədlər üçün arpadan hazırlanan, "mauşşəir" adlandırılan və heç bir vəchlə sərxoş etməyən arpa suyu isə pak və halaldır.

**10) Nəcisyeyən heyvanın təri**

**Məsələ 130.** İnsan nəcisi ilə qidalanmağa adət edən, nəcis yeganə qidası sayılan dəvənin təri nəcisdir. Həmçinin, vacib ehtiyata əsasən, bu qəbildən olan digər heyvanların da təri nəcisdir.

**Məsələ 131.** Haram yolla (məsələn, zina, yaxud masturbasiya nəticəsində) cənabətlənən şəxsin təri pakdır və belə tərlə qılınan namaz doğrudur. Hərçənd, müstəhəb ehtiyat budur ki, belə tərə bulaşmış bədən, yaxud libasla qurumayınca və tərin özü qaldığı müddət ərzində, namaz qılınmasın.

## Nəcasətin təsbit edilməsi üsulları

**Məsələ 132.** İstənilən şeyin nəcis olması üç üsulla təsbit edilə bilər:

1) İnsanın özünün bu və ya digər bir şeyin nəcis olduğuna dair yəqinlik, yaxud məntiqli üsulla arxayınlıq hasil etməsi. Əgər bir şeyin nəcis olduğunu güman edirsə, həmin şeyə nəcis hökmü şamil olmur. Beləliklə, laqeyd insanların da yemək yediyi ictimai yerlərdə, restoran və mehmanxanalarda əgər insan onun üçün gətirilən yeməyin nəcis olduğuna əmin deyilsə, orada qidalanmasının işkalı yoxdur (ehtiyat tələb etmir).

2) Bir əşyanın ixtiyarında olduğu (və nəcasət və paklıq məsələsinə riayət etməməkdə ittiham edilməyən) şəxsin həmin əşyanın nəcis olduğunu söyləməsi, məsələn, insanın həyat yoldaşının, yaxud qulluqçusunun istifadəsində olan qab-qacağın və ya başqa bir əşyanın nəcis olduğunu söyləməsi.

3) İki adil şəxsin nəcasətlənmə səbəbinə dair məlumat vermək, məsələn: "Filan əşyaya qan (yaxud sidik) dəymişdir", - demək şərti ilə bir şeyin nəcis olduğunu söyləməsi. Bir şeyin nəcis olduğunu adil, yaxud etimad edilən bir şəxs xəbər verərsə və onun sözü arxayınlıq hasil etməzsə, vacib ehtiyat budur ki, insan həmin şeyə nəcis kimi yanaşsın.

**Məsələ 133.** İnsan məsələ ilə bağlı məlumatsızlıq nəticəsində bir şeyin nəcis, yoxsa pak olduğunu, məsələn, siçanın ifrazatının pak olub-olmadığını bilmirsə, məsələni soruşmalı (öyrənməli), ya da ehtiyat edərək ona nəcis kimi yanaşmalıdır. Ancaq məsələni bildiyi halda bir şeyin pak olub-olmadığı xüsusunda şəkkə düşərsə, məsələn, həmin şeyin qan olub-olmadığına şəkk edərsə, yaxud ağcaqanadın, yoxsa insanın qanı olduğunu bilməzsə, həmin şey pakdır və onu araşdırmaq, yaxud soruşmaq lazım deyildir.

**Məsələ 134.** İnsanın paklanıb-paklanmadığına şəkk etdiyi nəcis bir şey nəcisdir. Əgər insan pak bir şeyin nəcasətlənib-nəcasətlənmədiyinə şəkk edərsə, həmin şey pakdır və həmin şeyin nəcis, yaxud pak olmasını başa düşməsi mümkün olsa belə, araşdırmasına gərək yoxdur.

**Məsələ 135.** İnsan hər birindən istifadə etdiyi iki qabın, yaxud iki paltarın nəcasətləndiyini bilirsə, lakin hansının nəcisə bulaşdığını bilmirsə, hər ikisindən ehtiyat etməlidir. Lakin əgər, məsələn, öz paltarının, yoxsa onun ixtiyarında olmayan və başqasının malı olan paltarın nəcis olduğunu bilmirsə, öz paltarına pak paltar hökmü şamildir.

## Pak şey necə nəcasətlənir?

**Məsələ 136.** Pak bir şey nəcis bir şeyə toxunarsa və onların ikisi də, yaxud ikisindən biri rütubəti digərinə sirayət edəcək qədər yaş olarsa, həmin pak şey də nəcasətlənir. Lakin əgər nəcasətdə vasitələr artarsa, nəcasət ötürülmür. Məsələn, əgərsağ əl sidiklə nəcasətləndiyi halda quruduqdan sonra yeni bir rütubətlə sol ələ toxunarsa, bu toxunuş sol əlin də nəcasətlənməsinə səbəb olur. Həmçinin, əgər sol əl quruduqdan sonra rütubətli halda bir əşyaya, məsələn, paltara toxunarsa, paltar da nəcasətlənir. Lakin həmin libas başqa bir əşyaya rütubətli halda toxunarsa, həmin əşyanın nəcasətləndiyinə hökm edilmir. Beləliklə, üçüncü vasitə nəcasətlənir, lakin dördüncü vasitəni nəcasətləndirmir.

İstənilən halda əgər rütubət bir əşyadan digərinə ötürülməyəcək qədər az olarsa, pak olan şey hətta bilavasitə özlüyündə nəcis olan şeyə toxunsa belə, nəcasətlənmir.

**Məsələ 137.** Pak bir şey nəcis bir şeyə toxunarsa və insan onların iksinin də, yaxud ikisindən birinin nəm olmasına və ya əgər nəm idisə, nəmliyinin digərinə sirayət edəcək qədər olub-olmamasına şəkk edərsə, həmin pak şey nəcasətlənmiş sayılmır.

**Məsələ 138.** İnsanın ikisindən birinin nəcis olduğunu bildiyi, lakin dəqiq olaraq hansının pak, hansının isə nəcis olduğunu bilmədiyi iki şeydən birinə pak olan başqa bir əşya sirayətedici rütubətlə toxunarsa, həmin şeyə nəcis hökmü şamil olmur. Lakin aşağıdakı iki hal kimi bəzi hallar istisnadır:

**Birinci hal:** Əvvəlki iki şeyin hər ikisi əvvəl nəcis idisə və onlardan biri (hansı olduğu məlum deyil) paklanarsa, bundan sonra pak bir şey (məsələn, insanın əli) onlardan birinə sirayətedici rütubətlə toxunarsa, bu halda əlin nəcis olduğuna hökm edilir.

**İkinci hal:** Pak bir şey (məsələn, sağ əl) həmin iki şeydən birinə,-başqa pak bir şey (məsələn, sol əl) isə digərinə sirayət edici rütubətlə toxunarsa,[1] bu halda sağ və sol əllərə də həmin əvvəlki iki şeylə bağlı hökm şamil olur.

**Məsələ 139.** Şirə, bal, yağ, tomat pastası və s. bənzər məmulatlar onların bir hissəsi qabdan götürüldükdə yeri boş qalmayacaq şəkildə axıcı olarsa, onların bir zərrəsinə nəcis bulaşdıqda bütünlüklə nəcasətlənmiş sayılırlar. Lakin əgər bu məmulatların üzərindən bir miqdar götürüldükdə götürülən hissənin yeri boş qalarsa, hərçənd sonradan dolsa da, yalnız nəcasətin toxunduğu yer nəcisdir. Beləliklə, əgər bu məmulatların içərisinə siçan ifrazatı düşərsə, ifrazat düşən hissə nəcis, qalan hissə isə pakdır.

[1] Bu halda olmalıdır ki, hər iki şey insanın tez-tez təmasda olduğu şey olmalıdır.

**Məsələ 140.** Döşəmə, parça və buna bənzər şeylər sirayət edəcək qədər rütubətli olarsa, onların yalnız nəcasətin toxunduğu hissəsi nəcis olur, digər yerləri isə hərçənd nəcasətlənən yerə bitişik olsa da, pakdır və bu hökm xiyar, qovun və bənzər şeylərə də şamildir.

**Məsələ 141.** Milçək və ya ona bənzər bir heyvan öncə yaş halda olan nəcis bir şeyin, sonra yaş halda olan pak bir şeyin üstünə qonarsa, bu halda insan həmin heyvanın nəcasət götürdüyünü bildiyi təqdirdə pak şey nəcis olur, bilmədiyi təqdirdə isə pakdır.

**Məsələ 142.** Əgər insanın bütün bədəni, yaxud onun bir hissəsi tərlidirsə və onun hər hansı bir yeri nəcasətlənərsə, tər oradan başqa bir yerə axdığı təqdirdə tərin dəydiyi hər yer nəcasətlənir. Tər başqa bir yerə axmazsa, yaxud onun başqa bir yerə sirayət etməsi şübhəli olarsa, bədənin digər yerləri pakdır.

**Məsələ 143.** Burun, yaxud boğazdan gələn qatı ifrazatlar qanlı olarsa, onların qanlı olan hissəsi nəcis, yerdə qalanı isə pakdır. Beləliklə, əgər bu ifrazatlar ağız boşluğundan, yaxud burun dəliklərindən çölə çıxarsa, insanın ifrazatın nəcasətlənmiş hissəsinin dəydiyinə əmin olduğu yerlər nəcis, nəcasətlənmiş hissənin dəyib-dəymədiyinə şəkk etdiyi yerlər isə pakdır.

**Məsələ 144.** Dibində dəlik olan bir qab, məsələn, aftafa nəcasətlənmiş bir yerə qoyularsa, altından axan su dayandığı və altına yığılaraq aftafa suyu ilə eyni su sayıldığı təqdirdə aftafanın suyu nəcis olur, lakin aftafanın suyu bərk axdığı təqdirdə içində qalan su nəcis olmur.

## Nəcasətlərlə bağlı digər hökmlər

**Məsələ 145.** Nəcasətlənmiş şeylərin yeyilməsi və içilməsi, habelə mükəlləf olan başqa bir şəxsə yedizdirilməsi haramdır. Lakin uşağa, yaxud dəliyə yedizdirilməsi caizdir. Əgər uşaq və ya dəli özü nəcis qida qəbul edərsə, yaxud nəcisə buşalmış əli ilə yeməyini nəcasətləyərsə və onu yeyərsə, ona mane olmaq vacib deyil.

**Məsələ 146.** Paklana bilən nəcasətlənmiş şeylərin satılmasında və "ariyə"yə[1] verilməsində ehtiyata lüzum yoxdur. Lakin aşağıdakı iki şərtləqarşı tərəfə həmin əşyanın nəcis olduğunu bildirmək lazımdır:

1) Qarşı tərəf üçün şəri mükəlləfiyyətlərin müəyyən hallarında işkal (ehtiyat tələb edən hal) yaranması təhlükəsi olarsa, məsələn, nəcis şey yemək və içmək, yaxud vacib namazlarını qılmaq üçün aldığı

[1] Ariyə bir tərəfin digər tərəfə müəyyən edilmiş zaman ərzində onun mülkiyyətində olan müəyyən bir əşyadan, əmlakdan müqabilində hər hansı bir ödəniş etmədən və əşyanın, əmlakın özünü qorumaq şərti ilə istifadə etməyə icazə verməsindən ibarət olan bir əqddir (müamilədir). *Tərc.*

dəstəmaz və etdiyi qüslün batil olması təhlükəsi olarsa. [1]Ancaq əgər hökmlərə zidd hərəkət etmək təhlükəsi olmazsa, yaxud bəzi hökmlərə zidd hərəkət etmək təhlükəsi olarsa, məsələn, vacib namazını qıldığı paltar nəcasətli olacaqsa, ona söyləməsi vacib deyil.

2) Qarşı tərəfin onun sözlərinə əhəmiyyət verəcəyini ehtimal edərsə. Ancaq əgər onun sözlərini nəzərə almayacağını bilirsə, söyləməsi vacib deyil.

**Məsələ 147.** Əgər insan bir şəxsin nəcis bir şey yediyini və ya içdiyini, nəcasətli bir əşyadan istifadə etdiyini, nəcasətə bulaşmış geyimlə namaz qıldığını, yaxud nəcasətlənmiş su ilə dəstəmaz aldığını görərsə, aşağıdakı iki hal istisna olmaqla, onu məlumatlandırmaq vacib deyildir:

1) Sözügedən şəxsin gördüyü iş şərab içmək, donuz əti yemək, yaxud ölümcül zəhər qəbul etmək kimi Müqəddəs şəriət təsisçisinin (Allahın) mövzu ilə bağlı məlumatı olmayanların (yaxud hətta mükəlləf olmayanların) belə həyata keçirməsinə razı olmayacağı qədər mənfur bir iş olarsa.

2) İnsanın özünün şəri mükəlləfiyyətinə[2] zidd hərəkət etməsi təhlükəsi olarsa, məsələn, sözügedən işi görən şəxslə onu məlumatlandırmaması özünün ev əşyalarının nəcasətlənməsinə və onların nəcasətlənməsi səbəbi ilə özünün də nəcasətli qidalarla qidalanmasına və ya nəcasətlənmiş su ilə qüsl etməsinə, dəstəmaz almasına və vacib namazını həmin dəstəmaz və qüsllə qılmasına səbəb olacaq şəkildə yaxın ünsiyyətdə olarsa.

**Məsələ 148.** Bir insanın evinin, yaxud xalçasının bir hissəsi nəcis olarsa və evinə gələn şəxslərin bədəninin, geyiminin, yaxud başqa bir əşyasının sirayətedici rütubətlə həmin yerə dəydiyini görərsə, bunun səbəbkarı özü olduğu təqdirdə 146-cı məsələdə qeyd edilən iki şərtlə onlara söyləməlidir.

**Məsələ 149.** Ev sahibi yemək əsnasında yeməyin nəcasətli olduğunu anlayarsa, 146-cı məsələdə qeyd edilən 2-ci şərti nəzərə almaqla qonaqlara söyləməlidir, qonaqlardan biri anladığı təqdirdə isə digərlərinə xəbər vermək vacib deyildir. Lakin 147-ci məsələnin ikinci bəndinə uyğun hallarda yeməkdən sonra onlara deməlidir.

**Məsələ 150.** Əgər insanın ariyə etdiyi şey nəcasətlənərsə, onun sahibini 147-ci məsələdə qeyd edilən iki şərtlə bundan agah etməlidir.

**Məsələ 151.** Uşaq bir şeyin nəcis olduğunu, yaxud bir şeyi yuduğunu söyləyərsə, onun sözü qəbul edilmir. Lakin müməyyiz olan və paklıqla

---

[1] Bu xüsusi mükəlləfiyyət hallarının təfsilatı haqqında məlumat əldə etmək üçün fiqhə dair elmi kitablar müraciət etmək, yaxud elm əhlindən soruşmaq olar.

[2] 146-cı məsələnin birinci bəndində toxunulan şəri mükəlləfiyyət halları nəzərdə tutulur.

nəcasəti yaxşı dərk edə bilən uşaq bir şeyi yuduğunu söyləyərsə, həmin şey onun istifadəsində olduğu, yaxud sözləri arxayınlıq doğurduğu halda qəbul edilir. Həmçinin, bu xüsusiyyətə malik olan uşağın bir şeyin nəcis olduğunu söyləməsi də bu qəbildəndir.

# PAKLAYICILAR

## Paklayıcıların növləri

**Məsələ 152.** On iki şey nəcasəti paklayır və onlara paklayıcılar (mütəhhirat) deyilir:

1) su;
2) yer;
3) Günəş;
4) istihalə (bir haldan başqa hala keçmə);
5) inqilab (dəyişiklik);
6) intiqal (bir yerdən başqa yerə keçmə, köçürülmə);
7) İslam;
8) təbəiyyət (tabelik);
9) nəcisin özünün aradan qalxması;
10) nəcisyeyən heyvanın istibrası;
11) müsəlmanın qaibliyi;
12) kəsilmiş heyvanın qanının axması.

Paklayıcılarla bağlı hökmlər qarşıdakı məsələlərdə müfəssəl surətdə izah ediləcəkdir.

**1) Su**

## Əşyaların su ilə paklanmasının şərtləri

**Məsələ 153.** Su bir neçə şərtlə nəcasətlənmiş şeyi paklayır:

1) Mütləq olmalıdır. Beləliklə, qarpız suyu, gülab (qızılgül suyu) və söyüd cövhəri kimi muzaf sular nəcis şeyi pak etmir.
2) Pak olmalıdır.
3) Nəcasətli şeyi yuyarkən paklama başa çatmamış su muzaflaşmamalıdır. [1]
4) Növbəti dəfə yumağa ehtiyac olmayan yumada su nəcasətin iyini, rəngini, yaxud dadını götürməməlidir, digər yumalarda isə nəcasətin təsiri ilə suyun iyinin, rənginin, yaxud dadının dəyişməsinin

---
[1] Bu hal üçün 159-cu məsələdə nümunə verilmişdir.

zərəri yoxdur. Məsələn, bir şey kür və ya ondan az həcmdə olan su ilə yuyularsa və iki dəfə yuyulması lazımdırsa, hərçənd birinci dəfə su nəcasətin rəngi, iyi, yaxud dadının təsiri ilə dəyişsə belə, ikinci dəfə belə bir dəyişikliyin baş vermədiyi su ilə yuyularsa, paklanır.

5) Nəcasətlənmiş əşya yuyulduqdan sonra onun üzərində özlüyündə nəcis sayılan şeyin kiçik zərrələri qalmamalı, tamamilə aradan getməlidir.

Qeyd etmək lazımdır ki, bəzi hallarda su ilə paklamada bir sıra digər şərtlər də tələb olunur. Bu şərtlər qarşıdakı məsələlərdə bəyan ediləcəkdir.

**Məsələ 154.** Kür, axar, yaxud yağış suyu ilə yuyulmada qüsalənin çıxması lazım deyil. Beləliklə, yuyularkən suyun hopduğu və sıxmaq, yaxud bənzər bir üsulla çıxdığı geyim, xalça və s. əşyalar kür, axar və ya yağış suyu ilə təmizləndikdə onlarda qalan suyun sıxmaq və s. üsullarla çıxarılmasına gərək yoxdur.

**Məsələ 155.** Az su ilə paklamada qüsalənin ayrılması lazımdır və bu lüzum az suyun qüsaləsi fətvaya əsasən nəcis hesab edildiyi hallarda fətvaya, ehtiyata əsasən nəcis sayıldığı hallarda isə vacib ehtiyata əsaslanır. [1] Beləliklə, yuyularkən suyun hopduğu və sıxmaq, yaxud bənzər bir üsulla çıxarıldığı geyim, xalça və s. əşyalar az su ilə təmizləndikdə bu əşyalarda qalan suyu sıxmaq və s. üsullarla çıxarmaq (fətva, yaxud ehtiyata əsasən) lazımdır.

**Məsələ 156.** Kəndirlə hörülmüş nəcasətli həsir kür, yaxud axar suya salınarsa, özlüyündə nəcis sayılan şey onun üzərindən tamamilə yuyulub getdikdən sonra pak olur. Lakin onu az su ilə yumaq istədikdə mümkün olan istənilən üsulla, hərçənd ayaqla tapdalamaqla olsa belə, sıxmaq lazımdır ki, qüsalə ondan çıxsın. [2]

**Məsələ 157.** İnsan saç və saqqalını az su ilə yuyarsa, tüklər həddən ziyadə sıx olmadığı təqdirdə qüsalənin çıxması üçün onları sıxmasına gərək yoxdur. Çünki bu yumada qüsalə normal miqdarda öz-özünə çıxır.

**Məsələ 158.** Az su ilə təmizləmədə suyun nəcasətlənmiş şeyin üzərinə tökülməsi şərt deyil, həmin şeyi suya salmaq da olar. Beləliklə, həmin şey bir dəfə yumaqla pak olan şeylərdəndirsə, nəcasətlənmiş şey pak olur, lakin az su nəcis olur.

**Məsələ 159.** Yuyarkən rəngi çıxan rəngli parça kür, axar, yaxud yağış suyu ilə paklanırsa, su parçanın rənginin təsiri ilə muzaflaşmazdan öncə onun hər tərəfini yuduğu halda həmin parça pak olur. Əgər az su ilə yuyulursa, hərçənd sıxdıqdan sonra su parçanın rənginin çıxması

---

[1] Qüsalənin nəcisliyi ilə bağlı hallar 36-cı məsələdə qeyd edilmişdir.

[2] Az su ilə bağlı bu işin vacibliyi qüsalənin ehtiyata əsasən nəcis olduğu bəzi hallarda vacib ehtiyata əsaslanır.

nəticəsində muzaflaşsa və süzülsə belə, sıxma əsnasında ondan muzaf su çıxmadığı təqdirdə pak olur.

## Əşyaların paklanması qaydaları

Ətrafımızdakı nəcasətlənmiş əşyalar iki qismə bölünür: qablar və qab olmayanlar. Bu qisimlərin hər birinin paklanması ilə bağlı hökmlər qarşıdakı məsələlərdə bəyan ediləcəkdir:

## Qabların paklanması ilə bağlı hökmlər

**Məsələ 160.** Nəcasətlənmiş qabın içini az su ilə, həmçinin, vacib ehtiyata əsasən, kür, axar və yağış suyu ilə də üç dəfə yumaq lazımdır.

**Məsələ 162.** Şərabla nəcasətlənmiş qab istənilən su ilə üç dəfə yuyulmalıdır və müstəhəb ehtiyat budur ki, onu yeddi dəfə yusunlar.

**Məsələ 162.** İtin yaladığı, yaxud içindən su və ya başqa bir növ maye içdiyi qabın öncə içini pak torpaqla sürtmək, sonra torpağını təmizləyərək iki dəfə az, yaxud kür və ya axar su ilə yumaq lazımdır. Həmçinin, əgər itin içindən su (yaxud başqa bir maye) içdiyi qabda qalan suyu başqa bir qaba tökərlərsə, həmin qaba da paklanma qaydası xüsusunda itin içindən su,yaxud başqa bir maye içdiyi qab üçün olan hökm şamil olur. Qeyd etmək lazımdır ki, bu hallarda öncə torpaqla sürtülmə, sonra yuyulma həyata keçirilməlidir. Əgər əksinə edilərsə, qab pak olmur.

**Məsələ 163.** Əgər itin ağzının suyu qaba tökülərsə, yaxud təri, sidiyi və s. ifrazatları onun içinə düşərsə, lazım ehtiyata əsasən, onu torpaqla sürtmək və sonra üç dəfə yumaq lazımdır. Həmçinin, əgər itin bədəninin başqa bir yeri, məsələn, əli, yaxud ayağı sirayətedici rütubətlə qabın içinə dəyərsə, lazım ehtiyata əsasən, onu torpaqla sürtmək və sonra üç dəfə yumaq lazımdır. İtin yaladığı qab olmayan şeylərə, məsələn, insanın əlinə isə qabla bağlı olan hökm şamil olmur və onun torpaqla sürtülməsi lazım deyil.

**Məsələ 164.** İtin ağzını toxundurduğu qabın ağzı (boğazı) dar olarsa, torpağı onun içinə tökərək hər tərəfinə dəyənədək çalxalamaq, sonra qeyd edilən qaydada yumaq lazımdır.

**Məsələ 165.** Donuzun yaladığı, yaxud içindən hər hansı bir maye içdiyi, yaxud içində siçovul ölən qab az, kür, yaxud axar su ilə yeddi dəfə yuyulmalıdır və torpaqla sürtülməsinə gərək yoxdur.

**Məsələ 166.** Nəcasətlənmiş gildən qayrılan, yaxud içinə nəcasətli su hopmuş kuzə və ya başqa bir saxsı qab kür, yaxud axar suya salınarsa, hər yanına su dəydikdə paklanır. Onun divarlarının iç hissəsini də paklamaq istədikdə kür, yaxud axar suda o qədər qalmalıdır ki, su onun hər yerinə hopsun. Qabda suyun onun divarlarının içinə nüfuz etməsinə mane olan bir rütubət olarsa, öncə onu qurutmaq, sonra kür və ya axar suya salmaq lazımdır.

**Məsələ 167.** Nəcasətlənmiş qabı az su ilə iki cür yumaq olar:

a) üç dəfəsu ilə doldurub boşaltmaqla;

b) üç dəfə içinə bir qədər su tökərək hər dəfə bütün nəcasətlənmiş yerlərinə dəyəcək şəkildə çalxalamaq və sonra suyu çölə tökməklə.

**Məsələ 168.** Böyük mis qazan və saxsı küp kimi iri bir qabnəcis olarsa, onu üç dəfə su ilə doldurularaq boşaltdıqda pak olur. Həmçinin, içinə üç dəfə yuxarıdan aşağıya doğru hər tərəfini əhatə edəcək şəkildə su tökülərsə və hər dəfə dibində yığılan su çölə tökülərsə, pak olur. Müstəhəb ehtiyat budur ki, ikinci və üçüncü dəfə onun içində yığılan suyun boşaldılması üçün istifadə olunan qab yuyulsun.

**Məsələ 169.** Təndir, su hovuzu və bu qəbildən olan şeylərə qab hökmü şamil olmur və beləliklə, belə şeylər bir dəfə yumaqla pak olur. Əgər təndir, yaxud su hovuzunda suyun axıb getməsi üçün bir dəlik və ya boru yoxdursa və su onun içinə yığılırsa, onu az su ilə paklamaq istədikdə pak olması üçün yığılmış suyu parça, süngər, qab, yaxud bənzər şeylərlə çəkib boşaltmaq lazımdır.

## Qabdan başqa əşyaların paklanması ilə bağlı hökmlər

**Məsələ 170.** Qab olmayan nəcasətlənmiş bir şey kür, axar, yaxud yağış suyu ilə su bütün nəcasətlənmiş yerlərinə dəyəcək şəkildə bir dəfə yuyularsa, paklanır və xalça, geyim və bənzər əşyalarda sıxmağa və ya bu kimi işlərə (sürtmək və tapdalamaq kimi) gərək yoxdur. Qeyd etmək lazımdır ki, yalnız bədən və ya libas idrarla nəcasətləndiyi təqdirdə, vacib ehtiyata əsasən, kür su və yağış suyu ilə iki dəfə yuyulmalıdır, axar suda isə bir dəfə yuyulmaqla da pak olur. Bu hökm yalnız geyim və bədənə aiddir və xalça, kovrolit və geyim olmayan parçalara və bu kimi şeylərə şamil olmur.

**Məsələ 171.** Bədənin nəcasəti kür, yaxud axar su ilə aradan qaldırılarsa, bədən paklanır. Yalnız istisna olaraq əgər bədən idrarla nəcasətlənərsə, bu halda, vacib ehtiyata əsasən, kür su ilə bir dəfə yumaqla paklanmır. Lakin bunun üçün bir dəfə yuyunduqdan sonra suyun altından çıxaraq yenidən suya girməyə gərək yoxdur, əgər suyun altında onun bədəndən axıb getməsi üçün həmin yerə əl çəkilərsə, sonra yenidən su bədənə dəyərsə, kifayət edir.

**Məsələ 172.** Qab olmayan idrarla nəcasətlənmiş bir əşyanı az su ilə yumaq istədikdə su əşyanın üzərinə bir dəfə tökülərsə və axıb gedərsə, həmin əşyada idrar qalmadıqda paklanır. Lakin istisna olaraq libas və bədən pak olması üçün iki dəfə yuyulmalıdır. İstənilən halda paltar, xalı və bu qəbildən olan şeyləri az su ilə yuduqda (fətva, yaxud vacib ehtiyata əsasən[1]) qüsaləsinin çıxması üçün onları sıxmaq lazımdır.

[1] Bununla bağlı izah 155-cı məsələdə verilmişdir.

**Məsələ 173.** Bir şey hələ yeməklə qidalanmağa başlamamış südəmər oğlan, yaxud qız uşağının idrarı ilə nəcasətlənərsə, həmin şeyin üzərinə bütün nəcasətlənmiş yerlərinə dəyəcək şəkildə bir dəfə (hətta azacıq həcmdə olsa belə) su tökülərsə və nəcasət suyun içində itmiş hesab edilərsə, həmin şey pak olur. Lakin müstəhəb ehtiyata əsasən, həmin şeyin üzərinə bir dəfə də su tökülməlidir. Bu halda geyim, xalça və bənzər şeylərin sıxılmasına gərək yoxdur.

**Məsələ 174.** Qab olmayan bir əşya idrardan başqa bir şeylə (qan, nəcis və məni kimi) nəcasətlənərsə, nəcasəti aradan qaldırmaqla onun üzərinə bir dəfə az su tökərlərsə və su axıb gedərsə, paklanır. Lakin paltar və bu qəbildən olan əşyaları isə (fətvaya, yaxud ehtiyata əsasən) qüsaləsinin çıxması üçün sıxmaq lazımdır.

## Əşyaların su ilə paklanması ilə bağlı digər hökmlər

**Məsələ 175.** İstənilən nəcasətlənmiş əşya nəcasətin özü onun üzərindən qaldırılmayınca pak olmur. Lakin əşyada nəcasətin iyi, rəngi, yaxud dadı qalarsa,ehtiyata lüzum yoxdur. Məsələn, qanla nəcasətlənən bir paltar yuyularsa və qanın özü paltardan gedərsə, lakin qanın rəngi paltarda qalarsa, həmin paltar pakdır və hətta rəngi yuyucu vasitələrlə aradan qaldırmaq mümkün olsa belə, buna gərək yoxdur.

**Məsələ 176.** Paklamaq üçün əşyanın bir neçə dəfə yuyulmalı olduğu hallarda yuyulmaların ardıcıl həyata keçirilməsi vacib deyil. Buna əsasən, iki dəfə yuyulmalı olan bir şey bir gün bir dəfə, başqa bir gün də ikinci dəfə yuyularsa, kifayətdir. Həmçinin, qüsaləni çıxarmaq üçün sıxmaq lazım gələn hallarda (məsələn, nəcasətlənmiş paltar az su ilə yuyulduğu halda) əşyanın dərhal, yuyulmadan sonra fasilə vermədən sıxılması şərt deyildir. Lakin bu iş qüsalə suyunun önəmli bir qisminin paltarda qurumasına səbəb olacaq qədər təxirə salınmamalıdır.

**Məsələ 177.** Düyü, dənli paxlalı bitkilər, buğda və bu qəbildən olan şeylərin üstü nəcasətlənərsə, digər şeylər kimi üzərinə su tökməklə, yaxud suya salmaqla pak olur. Əgər onların içi nəcasətlənərsə, onların içini də paklamaq istədikdə kür və ya axar suda o qədər saxlamaq lazımdır ki, su onların daxilinə nüfuz etsin. Əgər həmin şeydə suyun onun daxilinə nüfuz etməsinə mane olan rütubət mövcud olarsa, öncə onu qurutmaq, sonra kür, yaxud axar suya salmaq lazımdır.

**Məsələ 178.** Sabunun səthi nəcasətlənərsə, onu paklamaq olar, lakin daxili nəcasətləndiyi təqdirdə onu paklamaq mümkün deyildir. İnsan nəcasətlənmiş suyun sabunun daxilinə nüfuz edib-etməməsinə şəkk edərsə, daxili pakdır.

**Məsələ 179.** Dişlərin arasında qalan nəcasətli qida qalıqları əgər ağız su ilə (hərçənd az su ilə olsa da) yaxalanarsa və suyun nəcasətli qida

qalığının bütün hissələrinə təmas etdiyinə dair yəqinlik hasil edilərsə, pak olur.

**Məsələ 180.** Metal, yaxud plastik maddələr kimi nəcasətlənmiş cisim əridilərsə və əritmə nəticəsində onun daxili də nəcis olarsa, yenidən bərk maddəyə çevrildikdən sonra su ilə yuyulduğu təqdirdə səthi pak olur.

**Məsələ 181.** Daş duz və bənzər şeylər nəcasətlənərsə, az su, yaxud kür su və ya axar su ilə yuyulmasından asılı olmayaraq, yuyulduqda su muzaflaşmadığı təqdirdə paklanır.

**Məsələ 182.** Ərimiş nəcasətli şəkərdən qənd hazırlayarlarsa və sonraonu kür, yaxud axar suya salarlarsa, pak olmur.

**Məsələ 183.** İnsan bir əşyanı yuyaraq paklandığına əmin olarsa və sonra nəcasətin özünü ondan tamamilə təmizləyib-təmizləmədiyinə şəkk edərsə, nəcasətin özünün aradan qalxdığına yəqinlik, arxayınlıq hasil etmək üçün onu yenidən yumalıdır. Lakin əgər sözügedən insan vasvasılığa düçar olmuş şəxsdirsə, bu halda istisna olaraq şəkkinə etina etməməlidir.

**Məsələ 184.** İnsan bir paltarı kür və ya axar suda yuyarsa və sonra onun üzərində lil görərsə, lilin suyun paltara dəyməsinə əngəl törətdiyini ehtimal etmədiyi təqdirdə həmin paltar pakdır.

**Məsələ 185.** İnsan nəcasətlənmiş paltar və bu qəbildən olan bir şeyi yuyarsa və yuduqdan sonra üzərində palçıq zərrələri, yaxud sabun qırıntıları görərsə, həmin şeyin suyun paltara dəyməsinin qarşısını aldığını ehtimal etmədiyi təqdirdə həmin paltar pakdır. Lakin palçıq, sabun qırıntısı və ya bənzərbir şeyin suyun nəcasətlənmiş yerə dəyməsinin qarşısını aldığını bilirsə, yaxud bu xüsusda şəkki vardırsa, həmin yerin nəcasətli olmasına hökm edilir.

Qeyd etmək lazımdır ki, əgər nəcasətli su palçıq və ya sabunun daxilinə nüfuz etmişdirsə, onların daxili nəcisdir, lakin paltarın üzərində müşahidə olunan palçıq və ya sabunun üst tərəfi isə pak sayılır. Yalnız paltarı sıxarkən palçıq və sabunun görünməyən nəcasətlənmiş hissəsinin üzə çıxdığını bilirsə, bu hal istisna təşkil edir.

**Məsələ 186.** Nəcasətlənmiş ət və quyruq digər əşyalar kimi yuyulur. Həmçinin, əgər nəcasətlənmiş bədən, paltar, yaxud qabda suyun onlara dəyməsinə mane olmayan cüzi yağlılıq olarsa, digər əşyalar kimi yuyulur.

**Məsələ 187.** Qab, yaxud bədən nəcasətlənərsə, sonra suyun onlara dəyməsinə mane olacaq dərəcədə yağlanarsa, həmin qab və ya bədən üzvünü yumaq istədikdə öncə suyun onlara dəyməsi üçün yağlılığı aradan qaldırmaq lazımdır.

**Məsələ 188.** Suyu özünə hopduran yer səthi, məsələn, səthi qum və çınqılla örtülü olan yer nəcasətlənərsə, az su ilə də pak olur. Lakin qum

və çınqılların altı az suyun qüsaləsi ilə təmas etdiyinə görə ona az suyun qüsaləsi ilə bağlı 36-cı məsələdə qeyd edilən hökm şamil olur.

**Məsələ 189.** Suyun nüfuz etmədiyi, daş və kərpiclə örtülü yer, möhkəm yer səthi nəcasətlənərsə, az su ilə pak olur. Lakin bunun üçün onun üzərinə axacaq qədər su tökülməlidir və əgər onun üzərinə tökülən su hər hansı bir məcra ilə axaraq çölə tökülməzsə, bir yerə toplanarsa, həmin yerin pak olması üçün yığılan suyu parça və ya qab kimi təmiz şeylərlə, yaxud sorucu bir alət vasitəsi ilə çəkib boşaltmaq lazımdır.

**2) Yer**

**Məsələ 190.** Yer aşağıdakı beş şərtlə ayağın və ayaqqabının altını paklayır:

1) Yer pak olmalıdır.
2) Yer quru olmalıdır. Ancaq yerdə sirayətedici olmayan rütubətin mövcudluğunun işkalı yoxdur (ehtiyat tələb etmir).
3) Lazım ehtiyata əsasən, nəcasət ayağın və ya ayaqqabının altına nəcasətlənmiş yerdən sirayət etmiş olmalıdır.
4) Nəcisin özü, məsələn, qan və idrar, yaxud nəcasətə bulaşmış şey, məsələn, nəcasətlənmiş palçıq ayaq və ayaqqabının altında qalarsa, yerin üstündə yerimək, yaxud ayağı yerə sürtməklə aradan getməlidir. Nəcasətin özü daha öncə aradan getmiş olarsa(idrara bulaşan və yerlə təmasdan öncə quruyan ayaqqabı altı kimi), lazım ehtiyata əsasən, yeriməklə, yaxud ayağı yerə sürtməklə pak olmur.
5) Yerin səthi torpaq, daş, kərpic və bu qəbildən olan şeylər olmalıdır. Buna əsasən, xalça, həsir, ot və bu kimi şeylərin üzərində yeriməklə nəcasətli ayaq və ayaqqabı altı pak olmur.

**Məsələ 191.** Vacib ehtiyata əsasən, nəcasətli ayaq və ayaqqabı altı asfaltın üzərində və taxta döşəmənin üstündə yeriməklə, həmçinin,divara sürtməklə pak olmur.

**Məsələ 192.** Ayağın və ayaqqabının altının pak olması üçün hərçənd daha az məsafəni yeriməklə, yaxud ayağın yerə sürtülməsi ilə nəcasətin özü aradan getsə belə, daha yaxşı olar ki, on beş qulac[1] və ya daha artıq məsafə qət edilsin.

**Məsələ 193.** Ayaq və ayaqabının altının rütubətli olmasına ehtiyac yoxdur, quru olsa da, yeriməklə paklanır.

**Məsələ 194.** Ayaq və ayaqqabının altı yeriməklə paklandıqdan sonra onların altı ilə yanaşı kənarlarının adətən palçığa bulaşan hissəsi də pak olur.

**Məsələ 195.** Əlini və dizini yerə qoymaqla yeriyən şəxsin əlinin içi, yaxud dizi nəcasətlənərsə, vacib ehtiyata əsasən, yeriməklə pak olmur.

[1] On beş qulac təqribən 7 m-ə bərabərdir.

Həmçinin, əsanın və protez ayağın altı, dördayaqlı heyvanların nalı, motosiklet və avtomobil təkərləri kimi şeylər bu qəbildəndir.

**Məsələ 196.** Yeridikdən sonra ayaq və ya ayaqqabının altında nəcasətin iyi, yaxud rəngi və ya gözlə görünməyən kiçik nəcasət zərrələri qalarsa, ehtiyata lüzum yoxdur. Hərçənd, müstəhəb ehtiyata əsasən, onların də aradan getməsi üçün kifayət edəcək qədər yerimək lazımdır.

**Məsələ 197.** Ayaqqabının içi yeriməklə paklanmır. Həmçinin, corabın altı da, vacib ehtiyata əsasən, yeriməklə pak olmur. Yalnız corabın altının dəri və bənzər materiallardan olduğu və onunla çöldə yeriməyin normal sayıldığı hal istisnadır.

**3) Günəş**

**Məsələ 198.** Günəş yer, bina və divarı aşağıdakı beş şərtlə paklayır:

1) Nəcasətlənmiş şeydə sirayətedici rütubət olmalıdır. Beləliklə, əgər quru olarsa, onu hər hansı bir vasitə ilə (hərçənd muzaf su və ya nəcasətlənmiş su ilə olsa belə) islatmaq lazımdır ki, Günəş onu qurutsun.
2) Nəcasətin özü həmin şeydə qalmamalıdır.
3) Günəş şüalarının qarşısını alan bir maneə olmamalıdır. Beləliklə, əgər Günəş pərdə, bulud və bu kimi şeylərin arxasından işıq saçaraq nəcasətlənmiş yeri qurudarsa, həmin şey pak olmur. Lakin bulud Günəş şüalarının qarşısını ala bilməyəcək qədər seyrək, yaxud şüşə (pəncərə, fasad və s. ) onun işıq saçmasının qarşısını ala bilməyəcək qədər şəffaf olarsa, bu, ehtiyata lüzum yoxdur.
4) Günəş nəcasətlənmiş şeyi təkbaşına qurutmalıdır. Beləliklə, əgər misal olaraq nəcasətlənmiş şey külək və Günəş vasitəsilə quruyarsa, pak olmur. Lakin əgər ürfən (insanların nəzərində) quruma Günəş şüalarının nəticəsi hesab edilərsə, ehtiyata lüzum yoxdur.
5) Günəş tikilinin nəcasətin sirayət etdiyi hissəsini bir dəfəyə qurutmalıdır. Beləliklə, əgər nəcasətlənmiş yerin və binanın üzərinə işıq saçaraq onun üst tərəfini qurudarsa, sonra növbəti dəfə onun alt tərəfini qurudarsa, onun yalnız üst tərəfi paklanır, alt tərəfi isə nəcis olaraq qalır.

**Məsələ 199.** Torpaq mənşəli olan, lakin mövcud vəziyyətində yer səthi sayılmayan kuzə, təsbeh və möhür kimi daşınan əşyalar Günəşlə paklanmır. Hal-hazırda yer örtüyünün tərkib hissəsi sayılan daş parçası və bu qəbildən olan şeylər isə hərçənd daşına bilən şey olsa da, Günəş vasitəsilə pak olur. Lakin ürfən yer örtüyünün tərkib hissəsi sayılmadığı təqdirdə isə Günəşlə paklanmır. Məsələn, mozaika, daş, asfalt, yaxud qırla örtülü yerə döşənmiş kərpic və gəc bu qəbildəndir.

**Məsələ 200.** Günəş nəcasətlənmiş həsiri paklayır, lakin əgər ip (kəndir) ilə hörülmüş olarsa, ipləri paklamır.

**Məsələ 201.** Ağaclar və onların yarpaq və meyvələri, bitkilər və otlar, tikilidə istifadə olunan qapı, pəncərə, mismar və taxtalar, vacib ehtiyata əsasən, Günəş vasitəsilə paklanmır.

**Məsələ 202.** Əgər nəcasətlənmiş yerə Günəş şüaları dəyərsə, sonra insan Günəş şüaları dəyərkən yerin rütubətli olub-olmadığına, yaxud rütubətinin məhz Günəş şüaları vasitəsilə quruyub-qurumadığına şəkk edərsə, həmin yer nəcisdir. Həmçinin, əgər nəcasətin özünün onun üzərindən gedib-getmədiyinə şəkk edərsə, həmin yer nəcisdir. Əgər hər hansı bir şeyin Günəş şüalarının qarşısını alıb-almadığına şəkk edərsə, vacib ehtiyata əsasən, həmin yer pak hesab edilmir.

**Məsələ 203.** Günəş şüaları nəcasətlənmiş divarın bir üzünə düşərsə və onların vasitəsi ilə divarın Günəş şüalarını görməyən digər üzü də quruyarsa, hər iki tərəfin pak olması bəid deyil (pak olur). Lakin əgər bir gün divar, yaxud yerin səthini, başqa bir gün isə daxilini qurudarsa, bu halda yalnız səth pak olur.

**4) İstihalə (haldəyişmə)**

**Məsələ 204.** Əgər nəcis şeyin mahiyyəti – ürfən – özlüyündə nəcis olan şeylərdən olmayan bir şeyə çevriləcək şəkildə dəyişərsə, pak olur. Daha dəqiq desək, bir şeyin növ surətinin– ürfən – pak olan başqa bir şeyə çevrilməsinə istihalə deyilir. Məsələn:

1) nəcasətlənmiş taxtanın yanaraq külə, yaxud tüstüyə çevrilməsi;
2) itin duzlağa düşərək duza çevrilməsi;
3) bitkinin nəcis su və duzları özünə çəkərək gül, yarpaq və ya meyvəyə çevirməsi;
4) əti halal olan heyvanın içdiyi nəcasətlənmiş suyun, yediyi nəcis qidanın onun orqanizmində idrara, peyinə, tərə və s. çevrilməsi.

Lakin dəyişiklik bir şeyin cinsi dəyişməyəcək şəkildə baş verərsə, onun yalnız adı, yaxud xüsusiyyəti dəyişərsə, pak olmur. Məsələn:

1) Əgər nəcasətlənmiş buğdadan un hazırlayarlarsa, yaxud onunla çörək bişirərlərsə, bu fiziki dəyişiklik istihalə hesab edilmir və sözügedən çörək, yaxud un nəcasətlidir.
2) Əgər nəcasətlənmiş mütləq, yaxud muzaf suyu və ya idrar kimi özlüyündə nəcis olan bir şeyi buxarlandırarlarsa, sonra həmin buxarı distillə edərlərsə, əmələ gələn maye nəcisdir. Ancaq həmin buxar maye damcılarına çevrilməmişdən öncə bədən, paltar, yaxud digər əşyalara toxunarsa, onları nəcasətləndirmir.

**Məsələ 205.** Nəcasətlənmiş gildən hazırlanan kuzə və digər saxsı qablar, dulusçuluq məmulatları nəcasətlidir. Lakin nəcasətlənmiş taxtadan hazırlanan ağac kömürü onda ağac xüsusiyyətlərinin heç biri olmadığı

təqdirdə pakdır. Əgər nəcasətlənmiş gil hərarətin təsiri ilə dulusçuluq məmulatına, yaxud kərpicə çevrilərsə, vacib ehtiyata əsasən, nəcisdir.

**Məsələ 206.** İstihaləyə məruz qalıb-qalmadığı məlum olmayan nəcis şey nəcisdir.

**5) İnqilab (çevrilmə)**

**Məsələ 207.** Şərab öz-özünə, yaxud sirkə və duz əlavə edilməklə sirkəyə çevrilərsə, pak olur və buna "inqilab" deyilir.

**Məsələ 208.** Nəcasətlənmiş üzümdən və ya başqa meyvələrdən hazırlanmış, yaxud başqa bir nəcasətə bulaşmış şərab sirkəyə çevrilməklə pak olmur.

**Məsələ 209.** Nəcasətlənmiş üzüm, kişmiş və xurmadan hazırlanmış sirkə nəcisdir.

**Məsələ 210.** Üzüm, yaxud xurmanın xırda çöpləri onların dənələrinin içinə batarsa və ondan sirkə hazırlamaq istəyərlərsə, ehtiyata lüzum yoxdur. Xiyar, yerkökü, badımcan və başqa tərəvəzlərin də ona əlavə edilməsində, hətta sirkə alınmamışdan əvvəl olsa belə, ehtiyata lüzum yoxdur. Yalnız sirkəyə çevrilməzdən öncə məstediciləşməsi istisna təşkil edir.

**Məsələ 211.** Qızdırılma nəticəsində, yaxud öz-özünə qaynayan üzüm suyunun içilməsi haram olur. Əgər həcminin üçdə ikisi buxarlanaraq, üçdə biri qalanadək qaynayarsa, halal olur və əgər məstedici olduğu müəyyənləşərsə (bəzilərinin dediyi kimi, üzüm suyu öz-özünə qaynadığı təqdirdə məstedici olur), yalnız sirkəyə çevrilməklə halal olur.

Qeyd etmək lazımdır ki, 127-ci məsələdə qeyd edildiyi kimi, üzüm suyu şəraba çevrilməyincə sadəcə qaynamaqla nəcis olmur.

**Məsələ 212.** Üzüm suyu həcminin üçdə ikisini qaynamadan itirərsə, yerdə qalan hissəsi qaynadığı təqdirdə insanlar onu şirə deyil, üzüm suyu adlandırırsa, lazım ehtiyata əsasən, içilməsi haramdır.

**Məsələ 213.** Qaynayıb-qaynamadığı məlum olmayan üzüm suyunun içilməsi halaldır. Lakin əgər qaynayarsa, insan onun həcminin üçdə ikisini itirdiyinə yəqinlik hasil etmədən halal olmur.

**Məsələ 214.** Əgər bir qora salxımında bir qədər üzüm olarsa, həmin salxımdan əldə edilən ekstrakta üzüm suyu deyilmədiyi və o qaynadığı təqdirdə onu içmək halaldır.

**Məsələ 215.** Bir üzüm dənəsi qaynayan bir şeyin içinə düşərək qaynayarsa və həmin şeyə onun içində ərimiş hesab edilməyəcək şəkildə qarışarsa, lazım ehtiyata əsasən, yalnız həmin üzüm dənəsinin yeyilməsi haramdır.

**Məsələ 216.** Bir neçə qazanda şirə hazırlamaq istədikdə qaynayan qazana salınmış kəfgiri qaynamayan qazana salmaq olar.

**Məsələ 217.** Abqora üzüm suyu sayılmır. Buna əsasən,əgər qaynayarsa, pak və halaldır. Qora, yoxsa üzüm olduğu məlum olmayan şey də qaynadıqda halaldır.

**6) İntiqal (köçürülmə)**

**Məsələ 218.** Xalq arasında qanı olmayan canlı kimi tanınan bir heyvan insanın, yaxud sıçrayan qanı olan bir heyvanın qanını sorarsa, belə ki,sorulmuş qan onun bədəninə cəzb edilməyə məruz qalarsa, məsələn, ağcaqanad insanın və ya bir heyvanın bədənindən qan sorarsa, həmin sorulmuş qan pak olur və buna "intiqal" deyilir. Lakin zəlinin müalicə məqsədilə insanın bədənindən sorduğu qan onun öz bədəninə qarışıb-qarışmadığı məlum olmadığına görə, nəcisdir.

**Məsələ 219.** Bir şəxs bədəninə qonan ağcaqanadı öldürərsə və ağcaqanadın sorduğu qan onun bədənindən ifraz olarsa, hərçənd onun sorulması ilə ağcaqanadın öldürülməsi arasında olduqca az zaman fasiləsi olsa da, ağcaqanadın qidasına çevrilmə ərəfəsində olduğuna görə həmin qan pakdır. Lakin müstəhəb ehtiyata əsasən, bu halda ona nəcis qan ilə əlaqədar hökmlər şamil edilməlidir.

**7) İslam**

**Məsələ 220.** Kafir şəhadəteyni (kəlmeyi-şəhadəti) deyərsə, yəni hansı dildə olursa olsun, Allahın təkliyini və Peyğəmbərlərin sonuncusu Həzrət Muhəmmədin (s) peyğəmbərliyini iqrar və təsdiq edərsə, müsəlman olur və bundan öncə nəcasətə məhkum olduğu halda, müsəlman olduqdan sonra bədəni, ağız və burun seliyi, təri pak sayılır. Lakin İslamı qəbul edərkən bədənində özlüyündə nəcis sayılan bir şey (sidik, qan və s. ) olarsa, onu aradan qaldırmalı və nəcasətləndirdiyi yeri yumalıdır. Hətta müsəlman olmamışdan öncə özlüyündə nəcis olan şey aradan qaldırılmış olsa belə, vacib ehtiyata əsasən, onun nəcasətləndirdiyi yeri yumalıdır.

**Məsələ 221.** Kafir ikən paltarı nəm halda bədəninə dəymişdirsə, həmin paltarın müsəlman olması əsnasında onun bədənində olub-olmamasından asılı olmayaraq, vacib ehtiyata əsasən, həmin paltarı pak olmağın şərt sayıldığı şeylər (işlər) üçün paklamalıdır.

**Məsələ 222.** Kafir kəlmeyi-şəhadət söyləyərsə, insan onun qəlbən müsəlman olub-olmadığını bilməsə də, pakdır. Həmçinin, kafir kəlmeyi-şəhadət söyləyərsə və insan onun qəlbən müsəlman olmadığını bilərsə, lakin kəlmeyi-şəhadətin izharına zidd olan bir davranışa yol verməzsə, pak hesab edilir.

**8) Təbəiyyət (tabelik)**

**Məsələ 223.** Təbəiyyət bir nəcis şeyin başqa bir şeyin paklanması vasitəsilə pak olması deməkdir.

**Məsələ 224.** Şərab sirkəyə çevrilərsə, qabı da qaynayarkən şərabın dəydiyi yerədək pak olur və həmçinin, adətən, onun üzərinə qoyulan parça və ya başqa bir şey də şərabla nəcasətlənmişdisə, pak olur. Lakin əgər qaynama səbəbi ilə qabın çöl tərəfi həmin şərabla nəcasətlənərsə, vacib ehtiyata əsasən, təbəiyyətlə pak olmur.

**Məsələ 225.** Kafirin uşağı iki halda təbəiyyətlə paklanır:

1) Müsəlman olan bir kafirin uşağı təbəiyyət qaydası ilə onunla birgə pak olur. Həmçinin, əgər uşağın babası, anası, yaxud nənəsi müsəlman olarsa, o da pak sayılır. Lakin bu halda onun pak olması hökmü aşağıdakı şərtlərə bağlıdır:

a) Bundan öncə həddi-büluğa çatmayan uşaq təbəiyyət qaydası ilə yenicə İslamı qəbul edən şəxsdən (ata, ana və s. ) asılı olaraq nəcasətə məhkum olmalıdır.

b) Uşaq həmin yeni müsəlmanla birgə yaşamalı və onun himayəsi altında olmalıdır.

c) Ona yaxın olan bir kafir onunla yoldaş olmamalıdır.

2) Bir müsəlman tərəfindən əsir götürülən və atası, yaxud babalarından biri yanında olmayan kafir uşağı paklıqda həmin müsəlmana tabedir (onun kimi pak olur) və bu halda uşağın təbəiyyətlə pak olması onun yaxşı ilə pisi ayırd edə bildiyi təqdirdə kafirlik göstərməməsi şərtinə bağlıdır.

**Məsələ 226.** Meyitin üzərində yuyulduğu taxta, yaxud daş, onun məhrəm yerlərinin örtülməsi üçün istifadə edilən parça və ona qüsl verən şəxsin əli –adətən qüsl zamanı su tökməklə birgə yuyulan bu şeylərin hamısı qüsl tamamlandıqdan sonra pak olur və meyitin məhrəm yerlərini örtmək üçün istifad edilən parçanın sıxılmasına ehtiyac yoxdur. Lakin qüsl verənin paltarı, bədəni və qüsldə istifadə edilən digər əşyalar (hətta vacib ehtiyata əsasən, adətən, meyit qüslü əsnasında nəcasətləndiyi hallarda belə) təbəiyyət vasitəsilə pak olmur və onları ayrıca yumaq lazımdır.

**Məsələ 227.** Nəcasətli bir əşya pak olduqdan sonra onun yuyulma vasitəsi olan yuyan şəxsin əli də (adətən, yuyulma əsnasında nəcasətli əşyaya və ya ondan axan suya dəyən hissəsi) pak olur. Həmçinin, paltar paltaryuyan maşınla yuyulduqda paltarlar şəriətin göstərişinə müvafiq qaydada yuyulduğu təqdirdə onlar pak olduqdan sonra maşının barabanı və qapısının iç tərəfi də (ürfən yuyulma vasitələri hesab edilir) təbəiyyətlə pak olur və onları yumağa ehtiyac yoxdur.

**Məsələ 228.** Bədən, yaxud paltar az su ilə yuyularsa, az suyun qüsaləsi nəcis olduğundan bəzi hallarda həmin (nəcasətlənən) yerin kənarları da bu nəcis qüsalə ilə toxunuş səbəbi ilə nəcasətlənə bilər. Belə hallarda kənarların (nəcasətlənmiş hissəyə bitişik olan və adətən, yuyularkən suyun sirayət etdiyi yerlərin) pak olması üçün ayrıca paklamaya ehtiyac yoxdur, suyun nəcasətlənmiş yerə tökülməsindən və həmin yerin pak olmasından sonra onun kənarları da (nəcis qüsalə vasitəsi ilə nəcasətlənməsi fərz edilməklə) pak olur.

Həmçinin, əgər pak bir şeyi nəcasətlənmiş bir şeyin yanına qoymaq və hər ikisinin üstünə su tökmək də bu qəbildəndir. Beləliklə, əgər nəcasətlənmiş barmağı yumaq üçün bütün barmaqların üstünə su tökülərsə və bu zaman su nəcasətli barmaqdan digər barmaqların üstünə tökülərsə,digər barmaqları ayrıca yumağa ehtiyac yoxdur, nəcasətlənmiş barmağın pak olması ilə onlar (suyun aralarından hərəkət etdiyi barmaqlar) da pak olur.

**Məsələ 229.** Paltar və bu qəbildən olan bir əşyanı az su ilə yuyarlarsa və yuyulması üçün istifadə olunan suyun çıxması üçün normal sayılan qədər sıxarlarsa, həmin əşyanın pak olmasından sonra onda qalan su (rütubət) pakdır.

**Məsələ 230.** Nəcasətlənmiş qabı az su ilə yuyarlarsa, suyu qabda üç dəfə çalxalalayaraq çölə tökdükdən (yaxud qabı üç dəfə dolduraraq boşaltdıqdan) və qab pak olduqdan sonra qabda qalan cüzi miqdarda su pakdır.

**Məsələ 231.** Düyü, ət və bu qəbildən olan şeylərin üz tərəfi nəcasətlənərsə, onları pak bir qaba qoyub üzərinə bir dəfə su (az su da olar) tökər, sonra boşaldarlarsa, həmin şeylər pak olur, təbəiyyətlə qab da paklanır və onu bir neçə dəfə yumaq lazım deyil. Əgər nəcasətli qaba qoyarlarsa, az su ilə və vacib ehtiyata əsasən, kür və ya axar su ilə də bu işi üç dəfə təkrarlamaq lazımdır və bu halda qab da pak olur.

### 9) Nəcisin özünün aradan qalxması

**Məsələ 232.** Heyvanın bədəni özlüyündə nəcis sayılan bir şeyə, məsələn, qana, yaxud nəcasətlənmiş bir şeyə, məsələn, nəcasətli suya bulaşarsa, həmin şeylər aradan getdikdən sonra heyvanın bədəni pak olur və yuyulmasına ehtiyac yoxdur. Beləliklə, əgər misal olaraq heyvanın bədəninin səthi yaralanaraq qana bulaşarsa, yaxud heyvanın balası doğularkən bədəni qana bulaşmış olarsa, qanın özünün və rütubətinin aradan getməsi ilə pak olur. Həmçinin, əgər quşun dimdiyi nəcisə bulaşarsa, yaxud bədəni sidiyə bulaşarsa, nəcis və sidiyin aradan getməsi və rütubətinin quruması ilə pak olur və yuyulmasına ehtiyac yoxdur.

**Məsələ 233.** İnsan bədəninin yuyula bilən daxili hissələri, məsələn, ağızın, burunun, qulağın və gözün içi xarici bir nəcasətlə təmasda olduqda nəcasətlənir və onun aradan getməsi ilə paklanır. Məsələn, əgər qanlı barmaq ağız boşluğuna daxil edilərsə və ağzın içi nəcasətlənərsə, qanın özünün aradan getməsi ilə ağız boşluğu pak sayılır və yuyulmasına ehtiyac yoxdur.

**Məsələ 234.** İnsan bədəninin yuyula bilən daxili hissələri, məsələn, ağızın, burunun, qulağın və gözün içi daxili bir nəcasətlə təmasda olduqda isə nəcasətlənmir. Məsələn, dişətindən gələn qan dişlərin və diş ətinin nəcasətlənməsinə səbəb olmur.

**Məsələ 235.** İnsan, yaxud heyvanlarda bədənin yuyula bilməyən daxili hissələri, məsələn, mədə, bağırsaq, yaxud damarlar daxili və ya xarici nəcasətlə təmas nəticəsində nəcasətlənmir. Buna əsasən, nəcasətli qida və maye qəbul edən insanın mədəsi və bağırsağı nəcasətlənmir. Həmçinin, yoğun bağırsaqdakı nəcis bağırsağın nəcasətlənməsinə səbəb olmur və eləcə də ürək və damarlardakı qan onların nəcasətlənməsinə səbəb olmur.

**Məsələ 236.** Dodaqların və göz qapaqlarının örtülərkən bir-birini örtən hissəsi bədənin daxili sayılır və beləliklə, xarici nəcasətlə təmasda olduğu təqdirdə yuyulması vacib deyil.

**Məsələ 237.** İnsanın bədənin xarici, yoxsa yuyula bilən daxili hissəsi olduğunu bilmədiyi bir yer xarici nəcasətlə təmas etdikdə onu yumalıdır, daxili nəcasətlə təmasda olduqda isə yuyulması vacib deyil.

**Məsələ 238.** İnsanın bədənin xarici, yoxsa yuyula bilməyən daxili hissəsi olduğunu bilmədiyi bir yer istər daxili, istərsə xarici nəcasətlə təmasda olduqda, yuyulması vacib deyil.

**Məsələ 239.** Qeyd edilən məsələlər (233-238-ci məsələlər) bədənin daxilinin özünün pak və nəcis olması ilə əlaqədar idi. Lakin əgər pak bir şey bədənin daxilində nəcis bir şeylə təmasda olarsa, pak şeyin nəcis olması və ya olmaması ilə bağlı hökm belədir:

1) Əgər təmas mədə və bağırsaq kimi yuyula bilməyən daxili hissədə baş verərsə, nəcasət nəcis şeydən pak şeyə ötürülmür və bu hökmdə aşağıdakı hallar arasında heç bir fərq yoxdur:

a) pak və nəcis şeyin hər ikisinin bədənin daxilindən olması, məsələn, vədyin[1] bədənin daxilində idrarla təmasda olması.

b) hər ikisinin bədənə kənardan daxil olması, məsələn, udulmuş xurma çəyirdəyinin bədənin daxilində içilmiş nəcasətli su ilə təmasda olması.

c) Birinin bədənin daxilindən, digərinin isə xarici ünsür olması, məsələn, inyeksiya üsulu ilə bədənə yeridilən dərmanın damarda

[1] Vədy bəzən idrardan sonra xaric olan bədənin pak ifrazatlarındandır.

qanla təmasda olması, yaxud imalə vasitələri və ya suyunun anus dəliyində nəcislə təmasda olması. Beləliklə, bu halların hamısında bədənin daxilində nəcis şeylə təmasda olan pak şey bədəndən çıxarkən nəcasətə bulaşmış olmadığı təqdirdə pakdır.

2) Əgər təmas ağız və burun boşluğu kimi yuyula bilən daxili hissədə baş verərsə:

a) Hər ikisi bədənin daxilindən olarsa, məsələn, ağız, yaxud burun seliyi bədənin daxilindən gələn qanla təmasda olarsa;

b) Pak şey xarici ünsür, nəcasət isə bədənin daxilindən olarsa, məsələn, ağızdakı süni diş digər dişlərin arasından gələn qanla təmasda olarsa, yaxud barmaq ağız boşluğunda diş ətindən gələn qanla təmasda olarsa və ya dişlərin arasında qalan qida qalıqları diş ətindən gələn qanla təmasda olarsa;

Bu iki halda ("a" və "b" bəndləri) bədəndən çıxarkən həmin nəcasətə (məsələn, qana) bulaşmaması şərti ilə nəcasət nəcis şeydən pak şeyə sirayət etmir.

c) Pak şey və nəcis şey hər ikisi xarici ünsür olarsa və bədənin daxilində bir-biri ilə təmasda olarsa, məsələn, süni diş ağızda bədəndən kənar bir nəcasətlə nəcis olmuş qida ilə təmasda olarsa, bu halda nəcasət nəcis şeydən pak şeyə sirayət edir və onu nəcis edir.

**10) Nəcisyeyən heyvanın istibrası**

**Məsələ 240.** İnsanların nəzərincə yeganə qidası sayılacaq şəkildə insan nəcisi yeməyə adət edən əti halal olan heyvanın sidik və nəcisi nəcasətdir, onun ətinin yeyilməsi və südünün içilməsi də haramdır. Belə heyvanın təri ilə bağlı hökm 130-cu məsələdə açıqlanmışdır. Pak olması üçün həmin heyvanı istibra etmək, yəni bir müddət nəcasətlə qidalanmasının qarşısını almaq və başqa bir yemlə qidalandırmaq lazımdır ki, həmin müddətdən sonra artıq nəcisyeyən hesab edilməsin. Müstəhəb ehtiyata əsasən, nəcisyeyən dəvənin 40, inəyin 20, qoyunun 10, ördəyin 7 və ya 5, toyuğun isə 3 gün nəcislə qidalanmasının qarşısını almaq lazımdır və hərçənd, bu müddətin başa çatmasından öncə artıq həmin heyvanlara nəcisyeyən deyilməsə də, bu müddəti gözləmək lazımdır.

**Məsələ 241.** İstibra müddətində heyvana verilən qidanın pak olması şərt deyil və insan nəcisindən başqa nəcasətlənmiş yem, yaxud qan kimi özlüyündə nəcis olan şeylərlə də qidalandırmaq olar.

**11) Müsəlmanın qaib olması**

**Məsələ 242.** Həddi-büluğa çatmış, yaxud həddi büluğa çatmayan, lakin paklıqla nəcasəti ayırd edə bilən azyaşlı müsəlmanın bədəni, yaxud

onun ixtiyarında olan paltar və ya qab və xalça kimi digər bir əşya nəcasətlənərsə və həmin müsəlman qaib olarsa, məsələn, bədəni nəcasətlənərsə və evdən gedərsə, insan məntiqli əsaslarla onun həmin əşyanı yuduğunu ehtimal etdiyi təqdirdə həmin əşya pak sayılır. Buna əsasən, əgər insan daha sonra həmin müsəlmanla, yaxud onun qaib olduqdan sonra sirayətedici rütubətlə toxunduğu əşyalarla təmasda olarsa, o və həmin əşyalar pak hesab edilir. Bu hökm hətta paklıqla nəcasəti ayırd edə bilməyən həddi-büluğa çatmamış uşağa da şamil olunur. Çünki bu uşağın bu qəbildən olan işlərinə (hərəkətlərinə) nəzarət onun qəyyumunun vəzifəsidir.

Hökm etibarı ilə qaib olmaq qaranlıq və korluq deməkdir. Buna əsasən, əgər müsəlmanın bədəni, yaxud paltarı nəcasətlənərsə və insan onun paklanmasını korluq, yaxud qaranqlıq səbəbi ilə görməzsə, məntiqli əsaslarla onun həmin şeyi yuduğunu ehtimal etdiyi təqdirdə həmin şeyin paklığına hökm olunur.

**12) Şəri kəsim zamanı heyvandan normal miqdarda qanın axması**

**Məsələ 243.** Əti halal olan heyvanın(dəvə istisna olmaqla) başını şəriət qaydalarına müvafiq olaraq kəsərlərsə, yaxud dəvəni şəriət qaydalarına uyğun şəkildə nəhr edərlərsə və onun qanı normal miqdarda axarsa, bədənində qalan qan (109-cu məsələdə də qeyd edildiyi kimi) pakdır və bu hökm, vacib ehtiyata əsasən, əti haram olan heyvana şamil deyil.

## Nəcasətlənmiş əşyaların paklanmasının sübuta yetməsi üsulları

**Məsələ 244.** Nəcasətlənmiş əşyaların paklanması aşağıdakı üsullarla sübuta yetir:

1) Əşyanın paklandığına yəqinlik, yaxud arxayınlıq hasil etmək.
2) İki adil kişinin paklanmanın səbəbini açıqlamaqla əşyanın paklanmasına şahidlik etməsi, məsələn, idrara bulaşmış bir paltarın iki dəfə az su ilə yuyulduğuna şahidlik etməsi. Bir adil kişinin xəbər verməsi, vacib ehtiyata əsasən, arxayınlıq hasil etməsi istisna olmaqla kifayət deyil.
3) Nəcasət və paklığa riayət etməməkdə ittiham olunmaması şərti ilə bir əşyanın ixtiyarında və istifadəsində olduğu şəxsin onun paklandığını xəbər verməsi.
4) Müsəlmanın 242-ci məsələdə izah edildiyi kimi qaib olması.
5) Müsəlmanın işini doğru qəbul etmək. Bir müsəlman nəcasətlənmiş bir şeyi pak olması üçün yuyarsa, hərçənd düzgün qaydada

yuyub-yumadığı məlum olmasa da, həmin şey pak sayılır. Məsələn, bir insan paltarlarını yuyulması üçün müsəlmanlar camaşırxanasına verir və təhvil aldıqda onların yuyulduğunu bilirsə, lakin yuyulma qaydası və onun şəriətə uyğun və düzgün olub-olmaması insan üçün şübhəlidirsə, bu halda həmin paltarlar pak sayılır.

**Məsələ 245.** Bir paltarın yuyulması üçün həvalə edildiyi şəxs onu yuduğunu söyləyərsə, onun sözü yalnız yuxarıdakı beş haldan birinə uyğun olduğu təqdirdə doğru qəbul edilir.

## Vasvasılıq

**Məsələ 246.** Nəcasətlənmiş şeyin yuyulması xüsusunda normal insanlar kimi yəqinlik hasil edə bilməyən şəxs normal insanların nəcasətli əşyanı yuduğu qaydada hərəkət edərsə, kifayətdir və şəriət baxımından təharət və nəcasət məsələlərində həddən ziyadə ehtiyatlılıq bəyənilən bir iş deyildir. İnsanın (istər vasvasının, istərsə vasvası olmayan şəxsin) bədəninin, paltarının, yaxud başqa bir əşyasının nəcis olub-olmamasını yoxlamasına ehtiyac yoxdur. Həmçinin, filan nəcis şeyin başqa bir şeyə dəyib-dəymədiyinə, yaxud əgər dəymişdirsə, sirayətedici nəmliyi olub-olmadığına diqqət yetirməsinə gərək yoxdur. Bu halların hamısında sözügedən əşyaların paklığına hökm edilir.

**Məsələ 247.** Vasvasılıq xəstəliyinin müalicəsi üçün uzun müddət vəsvəsəyə qarşı etinasızlıq göstərmək və davranışlarda onu nəzərə almamaq yeganə çıxış yoludur və bu xəstəlik nə qədər müddət davam edirsə, onun müalicəsi üçün də daha uzun müddət vəsvəsələrə etinasız yanaşmaq tələb olunur. Vasvası adam başa düşməlidir ki, vəsvəsəsinə etina etmədiyi, davranışlarında onu nəzərə almadığı təqdirdə hətta yanlış hərəkət etmiş olsa belə günaha batmır və qiyamət günü buna görə cəzalandırılmayacaqdır. Şübhəsiz, vasvası insanı vəsvəsəsinə uyğun davranmağa sövq edən amillərdən biri də onun gördüyü işin batil olmasından və cəzalandırıla biləcəyindən qorxmasıdır. Halbuki, bu belə deyil. Vəsvəsəyə qarşı çıxmaq və ona etinasızlıq, hətta həmin insanın hərəkəti əslində doğru olmasa da, əsla günah sayılmaz, əksinə o, Rəbbinin hüzurunda üzrlü sayılır. Məsələn, bir insan bədəninin pak olub-olmaması ilə bağlı şəkkə düşərsə və pak hesab edərək dəstəmaz alar, namaz qılarsa, lakin uca Allaha əslində onun bədəninin nəcasətli olduğu, dəstəmaz və namazının doğru olmadığı məlumdursa, bu halda o Allah dərgahında heç bir məsuliyyət daşımayacaqdır. Çünki o, vəsvəsəsini nəzərə almamaqla şəri vəzifəsinə uyğun davranmışdır. Burada fəqihin fətvası mükəlləf üçün dəlildir. Yəni əgər mükəlləf şəxs fəqihin fətvasına uyğun hərəkət edərsə və bu hərəkət Allahın nəzərində əslində doğru

deyilsə, bu halda insan həmin hərəkətinə görə cəzalandırılmayacaqdır. Məsələn, bir fəqih spirtin pak olduğuna dair fətva verərsə və mükəlləf də bu fətvaya əsasən, spirtdən ehtiyat etməyərək ona bulaşmış bədən, yaxud paltarla dəstəmaz alaraq namaz qılarsa, lakin həqiqətdə spirt nəcis imişsə, bu halda o, qiyamət günü qıldığı batil namazlara görə cəzalandırılmayacaqdır. Çünki Rəbbinin dərgahına təqdim etmək üçün dəlili vardır və uca Allaha xitabla deyəcəkdir: "Ey Rəbbim! Sən mənə fəqihin fətvasına əməl etməyə icazə vermişdin və mənim təqlid etdiyim fəqih spirtin paklığına dair fətva vermişdi. Bu səbəbdən mən də ondan çəkinmədim. Məgər, buna rəğmən mən əzaba layiqəm?" Şübhəsiz, ona belə cavab veriləcəkdir: "Sənin üzrün qəbul edilmişdir və sənə heç bir cəza düşmür". Vasvası insanın vəziyyəti də bu qəbildəndir. Çünki bütün böyük fəqihlər (Allah onlardan razı olsun!) mötəbər hədislərə əsaslanaraq aydın şəkildə fətva verirlər ki, vasvası insanın vəzifəsi vəsvəsəsinə etina etməmək və paklığına şəkk etdiyi hər şeyi pak saymaqdır. Hətta əgər vasvası insan bir şeyi nəcis hesab edərsə, lakin vasvasılığa düçar olmayan normal insanlar üçün həmin şeyin nəcasətləndiyi məlum olmazsa, bu halda vasvası adam öz yəqininə etina etməməli, həmin şeyi pak hesab etməlidir. Vasvası insan bu fətvaya əməl edərsə, hərçənd yanlış hərəkət etmiş, əslində namazını nəcasətli halda qılmış, yaxud nəcasətli bir qida qəbul etmiş olsa da, Allah dərgahında üzrlü sayılır. Şeytan və şeytani düşüncələr vasvası adama dəstəmazının, namazının doğru olmadığını, bədəninin nəcasətli olduğunu təlqin edərsə, şeytana belə cavab verməlidir: "Mənim üçün bu vəsvəsənin heç bir əhəmiyyəti yoxdur. Çünki mehriban və sonsuz hikmət sahibi olan Allahın dərgahında üzrlü sayılıram və O, məni cəzalandırmayacaqdır".

Bir sözlə, vasvasılıqdan yaxa qurtarmaq üçün ən yaxşı yol ona qarşı etinasızlıq, şəriət hökmləri ilə daha yaxından tanış olmaq,adi insanların hərəkətini əsas götürərək hərəkət etməkdir. Vasvası insan şəriətin göstəriş verdiyi qədər paklanma ilə kifayətlənməli, bu həddi aşmamalı və bilməlidir ki, vəsvəsə şeytanın təlqinlərindəndir. Məsumlar (ə) hədislərində vəsvəsəni şeytana itaət kimi təqdim edirlər. Ondan qurtulmaq üçün ciddi qərar, möhkəm və sarsılmaz iradəyə, ilahi müvəffəqiyyətə, Haqq-təalanın dərgahına əl açaraq dua etməyə və hidayət qapıları olan məsum imamlara (ə) təvəssülə ehtiyac vardır. [1]

[1] Bir rəvayətdə Abdullah ibn Sinanın belə nəql etdiyini oxuyuruq: "Əbu Abdullahın (İmam Sadiqin) yanında dəstəmaz və namazında vasvasılığa düçar olan bir şəxsin adını çəkdim və onun aqil bir insan olduğunu söylədim. O dedi: "Necə aqildir ki, şeytana itaət edir?!" Mən soruşdum: "Məgər, o şeytana necə itaət edir?" Əbu Abdullah (ə) dedi: "Bu vəziyyətin onda necə yarandığını, nədən qaynaqlandığını onun özündən soruş, bu davranışın şeytanın işi olduğunu deyəcəkdir". *Vəsail əş-şiə, c. 1, səh. 63, X bab, 1-ci hədis.*

## Qablarla bağlı hökmlər

**Məsələ 247.** Nəcis leş, it, yaxud donuz dərisindən hazırlanan qab və tuluq nəcisdir və hər hansı bir maye, yaxud əşyaya sirayətedici rütubətlə toxunduqda həmin maye və əşya da nəcasətlənir. Bu əsasla, həmin qaba dəydiyinə görə nəcasətlənmiş qida və mayeni qəbul etmək haramdır, həmçinin bu qəbildən olan qablardakı su ilə alınan dəstəmaz və edilən qüsl də doğru sayılmır. Lakin onlardan təharətin şərt olmadığı əkin sahələrinin suvarılması və heyvanlara su vermək kimi məqsədlər üçün istifadə etməkdə ehtiyata lüzum yoxdur. Hərçənd, müstəhəb ehtiyata əsasən, it, donuz və murdarın yağından (piyindən) qablaşdırmadan başqa məqsədlər üçün də istifadə edilməməlidir.

**Məsələ 249.** Qızıl və gümüş qablardan qidalanmada istifadə etmək və hətta vacib ehtiyata əsasən, onların adi qaydada istənilən cür istifadəsi, məsələn, dəstəmaz, qüsl, yaxud nəcasətlənmiş əşyaların paklanması üçün onlardan istifadə etmək haramdır. Lakin otaqlarda və bu kimi yerlərdə bəzək əşyası kimi istifadə edilməsi və saxlanılmasına əngəl yoxdur, hərçənd müstəhəb ehtiyat bundan da imtina etməyi tələb edir. Həmçinin, qızıl və gümüş qabların istehsalı ilə məşğul olmaq, onların hazırlanması müqabilində gəlir əldə etmək və alqı-satqısı ilə məşğul olmaq öz-özlüyündə caizdir, lakin müstəhəb ehtiyat budur ki, bundan imtina edilsin.

**Məsələ 250.** Üzərində qızıl və ya gümüş suyu ilə işləmələr olan qabların istifadəsində ehtiyata lüzum yoxdur.

**Məsələ 251.** Hər hansı bir metalı qızıl və ya gümüşlə qarışdıraraq ondan qab istehsal edərlərsə, həmin metalın miqdarı o qaba qızıl qab, yaxud gümüş qab deyilməyəcək qədər olduğu təqdirdə onun istifadəsində ehtiyata lüzum yoxdur.

**Məsələ 252.** İnsan qızıl və ya gümüş qabdakı yeməyibaşqa bir qaba tökərsə, ikinci qab ənənəvi olaraq birinci qabdan qida qəbul etmək üçün vasitə sayılmadığı təqdirdə ehtiyata lüzum yoxdur.

**Məsələ 253.** Qızıl və gümüşdən hazırlanan stəkan qablamasına qab deyilirsə, qızıl və gümüş stəkan hökmünü daşıyır, qab adlandırılmadığı halda isə istifadəsində ehtiyata lüzum yoxdur.

**Məsələ 254.** Qab adlandırılmayan qılınc və bıçaq qını, Quran və qələm qutusu kimi şeylər qızıl və gümüşdən olarsa, ehtiyata lüzum yoxdur. Müstəhəb ehtiyata əsasən, qızıl, yaxud gümüş ətir və sürmə qablarından istifadə edilməməlidir.

**Məsələ 255.** Məcburiyyət halında qızıl və ya gümüş qabdan zərurəti aradan qaldıracaq qədər bir şey yemək, yaxud içməkdə ehtiyata lüzum yoxdur, lakin bu miqdardan artığı caiz deyildir.

**Məsələ 256.** Qızıl və ya gümüşdən, yoxsa baqa bir şeydən olduğu bilinməyən qabdan istifadə etməkdə ehtiyata lüzum yoxdur.

# DƏSTƏMAZ

**Məsələ 257.** Dəstəmazda insanın üzü və qolları yuması, başın qabaq hissəsinə və ayaqların üstünə məsh etməsi (yaş əllə sığal çəkməsi) vacibdir.

## Üz və əllərin yuyulması ilə bağlı hökmlər

**Məsələ 258.** Üzü uzununa alnın yuxarısından, saç tüklərinin çıxmağa başladığı yerdən çənənin ucunadək, eninə isə orta barmaqla baş barmağın arasınasığan yer qədər[1] yumaq lazımdır. Əgər insan bu qədərin azacıq bir hissəsini belə yumazsa, dəstəmaz batil sayılır vəbu qədərin tamamilə yuyulduğuna yəqinlik, yaxud arxayınlıq hasil etmədiyi təqdirdə əmin olmaq üçün onun ətrafını da bir az (artıq) yumalıdır. Həmçinin, vacib ehtiyata əsasən, üz yuxarıdan aşağıya doğru yuyulmalıdır və bunun üçün insanların "yuxarıdan aşağıya doğru yuyulmuşdur" deməsi kifayətdir. Buna əsasən, əgər suyu öncə alnın yuxarı başlanğıcına(saç tüklərinin bitdiyi yerə) tökər, sonra üzün hər iki tərəfinə normal qaydada əyri xətlər şəklində axıdarsa, yuxarıdan aşağıya doğru yuyulma gerçəkləşmişdir. Əgər insan dəstəmaz suyunu alnın yuxarı balanğıcına deyil, daha aşağıya, məsələn alnın aşağı hissəsinə və qaşların üzərinə tökərsə, sonra dərhal alnın quru qalan yuxarı hissəsini islatmaq üçün əlini həmin hissəyə, daha sonra isə suyu tökdüyü yerə və ondan aşağı hissələrə çəkərsə və bu yuma ilə kifayətlənərsə, vacib ehtiyata əsasən, belə bir dəstəmaz düzgün deyil. [2]

**Məsələ 259.** Bir insanın çənəsi normal insanların çənəsindən uzundursa, üzünü bütövlüklə yumalıdır. Alnında tük çıxdığı, yaxud başının ön hissəsində saçı olmadığı təqdirdə isə normal insanların üzlərini haradan başlayaraq yuduqlarına baxmalı və alnını həmin hissədən başlayaraq normal ölçüdə yumalıdır. Üzü həddən ziyadə enli, yaxud ensiz olması, yaxud barmaqları uzun, yaxud qısa olması səbəbi ilə simmetrik və normal olmayan şəxs isəüzünə mütənasib olan barmaqları nəzərdə

---

[1] Yəni əl üzün eninə doğru tamamilə açıldıqda orta barmağın ucu ilə baş barmağın ucu arasına sığan hissəni. *Tərc.*

[2] Buna əsasən, əgər bir şəxs bu məsələyə riayət etməmişdirsə, hökm vacib ehtiyata əsasən olduğuna görə digər vacib ehtiyat hallarında olduğu kimi digər müctəhidlərdən ələm olan başqa bir müctəhidə müraciət edə və həmin müctəhid buna riayət etməyi lazım bilmədiyi təqdirdə keçmişdə aldığı və gələcəkdə alacağı dəstəmazların düzgün olması üçün bu məsələdə ona təqlid edə bilər.

tutmalı və belə bir əlin baş və orta barmaqları arasına sığan hissəni yumalıdır.

**Məsələ 260.** Üzü və qolları elə yumaq lazımdır ki, su bədənin dərisinə dəysin. Əgər bunun qarşısını alan bir maneə olarsa, insan onu aradan qaldırmalıdır. Hətta əgər dəstəmaz alan şəxs qaşlarında, gözlərinin və dodaqlarının kənarlarında suyun dəri ilə təmasına mane olan kir, yaxud başqa bir şeyin olduğunu ehtimal edərsə, onun bu ehtimalı insanların nəzərində əsaslı (məntiqli ehtimal) sayıldığı təqdirdə dəstəmazdan öncə yoxlamalı və belə bir maneə mövcud olduğu halda onu aradan qaldırmalıdır.

**Məsələ 261.** Üzün dərisi tüklərin arasından görünürsə, suyu dəriyə dəydirmək lazımdır, görünmədiyi təqdirdə isə tüklərin üstünün yuyulması kifayətdir və suyu onların altına çatdırmaq vacib deyil. Lakin suyun tüklərin altına ötürülməsi asan olarsa və bunun üçün xüsusi diqqət tələb olunmursa, bu halda altı da yuyulmalıdır. Buna hər iki tərəfdən saqqalın, yaxud üzün dərisinin üstünü örtən və asanlıqla kənarlaşdırıla bilən bığları misal göstərmək olar.

**Məsələ 262.** İnsan üzünün dərisinin tüklərin arasından görünüb-görünmədiyi ilə bağlı şəkkə düşərsə, tükləri yumalı və suyu dəriyə də ötürməlidir.

**Məsələ 263.** Burun boşluğunu, dodaqların və gözlərin yumularkən görünməyən hissələrini yumaq vacib deyil, lakin əgər insan yuyulmalı olan yerlərdən hər hansı bir hissənin yuyulmamış qalması ilə bağlı şəkkə düşərsə, lazımi miqdarı yuduğuna əmin olmaq üçün onların da bir hissəsini yuması vacibdir. Bu məsələni bilməyən bir şəxs məntiqli ehtimalla aldığı dəstəmazda yuyulması lazım olan hissələri yuduğunu güman edirsə, həmin dəstəmazla qıldığı namazlar doğrudur və növbəti namaz üçün yenidən dəstəmaz alması da lazım deyil.

**Məsələ 264.** Üzü yuduqdan sonra öncə sağ, sonra isə sol qolu dirsəkdən barmaqların ucunadək yumaq lazımdır. İnsan dirsəyini tamamilə yuyub-yumadığına şəkk edərsə, lazımi miqdarı yuduğuna əmin olmaq üçün qolun dirsəkdən yuxarısının(bazunun) da bir hissəsini yumalıdır.

**Məsələ 265.** Üzünü yumamış əllərini biləyədək yuyan şəxs dəstəmazda qollarını barmaqlarının ucuna qədər yumalıdır və əgər biləklərə qədər yuyarsa, dəstəmazı batildir.

**Məsələ 266.** Qolları yuxarıdan aşağıya doğru yumaq lazımdır və bunun üçün ürfən (insanlar tərəfindən) "yuxarıdan aşağıya doğru yuyulmuşdur" deyilməsi kifayətdir. Buna əsasən, əgər insan, məsələn, qolun üst tərəfini dirsəkdən əlin ucunadək yuyarsa, sonra əlini dirsəyin iç tərəfinə və aşağısına çəkərək yuyarsa, yuxarıdan aşağıya doğru yuma gerçəkləşmişdir və üst və iç tərəflərin eyni zamanda yuyulması

vacib deyil. Ancaq əgər aşağıdan yuxarıya (dirsəklərə) doğru yuyarsa, dəstəmaz batildir. Həmçinin, məsələn, bazuönünün ortasından barmaqlarının ucunadək dəstəmaz niyyəti ilə yuyarsa, sonra fasilə vermədən dirsəkdən bazuönünün ortasınadək olan quru qalmış hissəni yuyarsa, dəstəmaz doğru deyildir. Habelə, əgər suyu dirsəkdən aşağı tökdükdən sonra dərhal əlini dirsəyin quru qalan yuxarı hissəsinə çəkərsə, daha sonra suyu tökdüyü yerə və daha aşağıya çəkərsə, vacib ehtiyata əsasən, bu dəstəmazla kifayətlənə bilməz. [1]

**Məsələ 267.** Dəstəmaz alan şəxs əlini isladaraq üzünə və qollarına çəkərsə, əl sözügedən üzvlərə çəkildikdə onları isladacaq qədər yaş olduğu və bu hərəkət "yumaq" adlandırıldığı təqdirdə kafidir və bu halda həmin üzvlərin üzərindən su axıtmağa ehtiyac yoxdur.

**Məsələ 268.** Dəstəmazda üz və qolları birinci dəfə yumaq vacib, ikinci dəfə müstəhəb, üçüncü dəfə isə haramdır. Birinci dəfə yumaq deyərkən dəstəmaz niyyəti ilə üz və qolların tamamilə yuyulması nəzərdə tutulur. Buna əsasən, əgər bir və ya bir neçə dəfə su tökməklə(əllə suyu yaymaqla, yaxud əl çəkmədən)üzv tamamilə yuyularsa, birinci dəfə yuyulma gerçəkləşmiş sayılır və ondan sonrakı yuyulmalar birinci dəfə yuyulma niyyəti ilə olsa da, birinci yuyulmanın tərkib hissəsi sayılmır. Beləliklə, birinci dəfə yuyulmanın yerinə yetirilməsi üçün iki şərt tələb olunur:

1) yuyulma dəstəmaz niyyəti ilə olmalıdır;

2) su üzvü tamamilə, ehtiyata yer qoymayacaq şəkildə yumalıdır.

Həmçinin, növbəti yuyulmada bu iki şərt mövcud olduğu halda ikinci yuyulma yerinə yetirilmiş sayılır. Lakin ikinci yuyulmada birinci şərt mövcud olmazsa, yəni birinci yuyulmadan sonra üzv dəstəmaz niyyəti olmadan yuyularsa, ehtiyatın tələbinə riayət etmək və həmin üzvü ehtiyatən üçüncü dəfə yumamaq lazımdır. [2]

## Başa və ayaqlara məsh etməklə bağlı hökmlər

**Məsələ 269.** Qolların ikisini də yuduqdan sonra başın ön hissəsinə dəstəmaz suyunun əldə qalan rütubəti ilə məsh etmək lazımdır (başqa su ilə olmaz) və başın məshini qolların dəstəmazda yuyulan hər hansı bir hissəsi, yəni dirsəklərdən barmaqların ucunadək hər hansı bir hissə ilə etmək olar. Hərçənd, müstəhəb ehtiyata əsasən, məsh sağ əlin içi (ovucu) ilə edilməlidir və həmçinin, müstəhəb ehtiyata əsasən, məsh yuxarıdan aşağıya doğru edilməlidir.

**Məsələ 270.** Başın dörd hissəsindən biri olan alından yuxarıya doğru başlayan hissəsi məsh yeridir və bu hissənin hər hansı bir yerinə istənilən ölçüdə məsh edilsə, kifayətdir. Hərçənd, müstəhəb ehtiyata əsasən,

---

[1] 258-ci məsələdə (vərəqaltı qeyddə) verilən izah bu məsələyə də şamildir.

[2] Bu halda həmin su ilə məsh etmək (üzə, yaxud qola sığal çəkmək) də ehtiyata ziddir.

uzunluq baxımından bir barmaq uzunluğunda, en baxımından isə üç bağlı barmaq enində yerə məsh edilməlidir.

**Məsələ 271.** Başın məshinin onun dərisinin səthinə edilməsi vacib deyil, başın ön hissəsindəki saç tüklərinin üzərinə edilməsi də doğrudur. Lakin əgər bir insanın saçı uzun olub daradıqda üzünə tökülürsə, yaxud başının digər hissələrinə çatırsa, saçının daradıqdan sonra başın ön hissəsindən kənara çıxmayan hissəsinə məsh etməlidir. Həmçinin, saçlarını təpə hissəsindən ayıraraq tüklərin kökünə, yaxud başın dərisinə məsh edə bilər. Əgər üzə tökülən, yaxud başın digər hissəsinin üzərinə düşən tükləri başın ön hissəsinə toplayaraq onların üzərinə məsh edərsə, yaxud başın digər hissələrinin onun ön hissəsinin üzərinə düşən tüklərinə məsh edərsə, bu şəkildə məsh batildir.

**Məsələ 272.** Başa məsh etdikdən sonra dəstəmaz suyunun əldə qalan rütubəti ilə (269-cu məsələdə başın məshi xüsusunda izah edilən qaydada) ayaqların üzərinə barmaqların birinin ucundan ayağın üzərindəki çıxıntıya, vacib ehtiyata əsasən isə topuqlara qədər məsh etmək lazımdır. Buna əsasən, dəstəmazda ayaqlarına topuqlara deyil, üzərindəki çıxıntıya qədər məsh etdiyini bilən şəxs, vacib ehtiyata əsasən, bu qaydada aldığı dəstəmazla qıldığına əmin olduğu vacib namazlarını yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır. [1] Lakin namazları üçün aldığı dəstəmazda hərçənd təsadüfən də olsa, ayağın məshini topuqlaradək etdiyinə məntiqli ehtimalı vardırsa, həmin namazlar doğrudur və onları yenidən qılmaq, yaxud qəzasını qılmaq vacib deyil.

Qeyd etmək lazımdır ki, məshdə əli ayaq barmaqlarının ucunun dırnağa yaxın olan və ürfən ayağın üstü sayılan hissəsinə çəkmək vacibdir,alt tərəfi sayılan hissəsinə isə çəkmək lazım deyildir. Şəkk halında, vacib ehtiyata əsasən, alt, yoxsa üst tərəf sayıldığına şəkk edilən hissəyə də məsh edilməlidir.

**Məsələ 273.** Müstəhəb ehtiyata əsasən, sağ ayağa sağ əllə, sol ayağa isə sol əllə məsh etmək lazımdır. Həmçinin, müstəhəb ehtiyata əsasən, ayağın məsh barmaqların ucundan başlamalı və topuqlarda bitməlidir. Hərçənd, əks istiqamətdə də məsh etmək olar.

**Məsələ 274.** Ayaqlara məshin eni istənilən ölçüdə ola bilər, lakin yaxşı olar ki, üç bağlı barmaq enində və hətta lap yaxşı olar ki, bütün ovucla[2] ayaqların üstü tamamilə məsh edilsin.

---

[1] Qeyd etmək lazımdır ki, bu ehtiyat xüsusunda (digər vacib ehtiyat məqamlarında olduğu kimi) ələmlik dərəcəsi ardıcıllığına riayət etməklə ayaqlara üzərindəki çıxıntıyadək məsh etməyi kafi hesab edən, təqlid üçün bütün şərtlərə cavab verən başqa bir müctəhidə müraciət etmək olar və bu halda keçmişdə qılınan namazlar da doğru sayılır.

[2] Ovuc deyərkən əlin ayası ilə yanaşı barmaqların iç hissəsi də nəzərdə tutulur.

**Məsələ 275.** Ayaqlara məsh edərkən insanın ovucunu barmaqların ucuna qoyub ayağın arxa hissəsinə doğru çəkməsi vacib deyil, ovucu bütöv şəkildə ayağın üzərinə qoyaraq bir qədər çəkmək də olar.

**Məsələ 276.** Başa və ayaqların üzərinə məsh edərkən əli onların üzərinə çəkmək lazımdır. Əgər insan əlini sabit saxlayaraq baş və ya ayağını ona çəkərsə (altında sürüşdürərsə), məsh batildir. Lakin məsh əsnasında baş, yaxud ayaqlar bir qədər hərəkət edərsə, məshin doğruluğuna xələl gəlmir.

**Məsələ 277.** Məsh edilən yer quru olmalıdır və əgər əlin rütubətinin ona təsir etməyəcəyi qədər yaş olarsa, məsh düzgün sayılmır. Lakin əgər cüzi dərəcədə rütubətli olarsa, belə ki, əlin suyu məsh zamanı ona üstün gələrsə və həmin rütubət məsh suyunda itmiş hesab edilərsə, məshin doğruluğuna xələl gəlmir.

**Məsələ 278.** Əgər məsh üçün dəstəmaz alanın əllərində rütubət qalmazsa, belə ki, hər iki qol dirsəkdən barmaqların ucunadək quruyarsa, əli dəstəmaz üzvlərində qalan sudan başqa bir su ilə islatmaq olmaz. Bu halda dəstəmaz alan şəxs saqqalının rütubəti ilə əlini isladaraq onunla məsh etməlidir və saqqal istisna olmaqla üzün digər hissələrindən, o cümlədən qaşlardan və yanaqlardan rütubət götürmək, istər saqqalı olan, istərsə olmayan insanlar üçün vacib ehtiyata əsasən, kafi sayılmır.

**Məsələ 279.** Əgər əlin rütubəti yalnız başın məshinə yetəcək qədər olarsa, vacib ehtiyata əsasən, başa həmin rütubətlə məsh etmək, sonra əli ayaqlara məsh etmək üçün saqqalın rütubəti ilə islatmaq lazımdır.

**Məsələ 280.** Corab və ayaqqabının üzərindən məsh etmək doğru deyil. Lakin dəstəmaz alan şəxs həddən ziyadə soyuq hava şəraiti, yaxud qarət və yırtıcı heyvan təhlükəsi və bu qəbildən olan hallarla əlaqədar olaraq ayaqqabısını və ya corabını soyuna bilmirsə, vacib ehtiyata əsasən, corabın və ya ayaqqabının üzərinə məsh etməli və təyəmmüm də etməlidir. Qorxu təqiyyəsi halında isə corab və ayaqqabının üzərinə məsh etmək kafidir.

**Məsələ 281.** Ayağın üstü nəcasətləli olarsa və məsh üçün onu yumaq mümkün olmazsa, təyəmmüm edilməlidir.

## İrtimasi dəstəmaz

**Məsələ 282.** İrtimasi dəstəmaz üzü və qolları dəstəmaz niyyəti ilə suya salmaqla alınan dəstəmazdır. Əgər üz və qollar suyun içində olarsa və insan irtimasi dəstəmaz niyyəti ilə onları sudan çıxarmaq istəyərsə, onun dəstəmazı, vacib ehtiyata əsasən, doğru deyil.

**Məsələ 283.** İrtimasi dəstəmazda da üzü və qolları yuxarıdan aşağıya doğru yumaq lazımdır. Buna əsasən, üzü alın, qolları isə dirsək tərəfdən suya salmaq lazımdır. [1]

---

[1] Üzün yuxarıdan aşağıya doğru yuyulması vacib ehtiyata əsaslanır.

**Məsələ 284.** Bəzi üzvlərin irtimasi, bəzi üzvlərin isə qeyri-irtimasi (adi) qaydada yuyulmasındaehtiyata lüzum yoxdur.

## Dəstəmazın doğru olmasının şərtləri

**Məsələ 285.** Dəstəmazın doğru olmasının bir neçə şərti vardır. Növbəti məsələlərdə bu şərtlər izah ediləcəkdir.

**1-ci və 2-ci şərtlər: Dəstəmaz suyu pak və mütləq olmalıdır**

**Məsələ 286.** Dəstəmaz almaq üçün istifadə edilən su pak olmalı və həmçinin, vacib ehtiyata əsasən, hərçənd şərən pak olsa da, insanların iyrəndiyi şeylərə (əti halal olan heyvanların sidiyi, pak heyvan leşi, yara irini kimi) bulaşmış olmamalıdır.

**Məsələ 287.** Nəcasətlənmiş su və muzaf su ilə alınan dəstəmaz hətta insan həmin suyun nəcasətli, yaxud muzaf olduğunu bilməsə, yaxud unutsa belə, batildir və əgər həmin dəstəmazla namaz qılarsa, həmin namazı yenidən doğru dəstəmazla qılmalıdır.

**Məsələ 288.** Əgər insanın dəstəmaz üçün palçığa bulaşmış muzaf sudan başqa suyu yoxdursa, namaz üçün vaxtın az olduğu, belə ki,- dəstəmaz alaraq namazın vacibatını yerinə yetirmək üçün yetəcək qədər vaxtı olmadığı təqdirdə təyəmmüm etməlidir. Əgər vaxtı varsa,suyun durulmağını gözləməli, yaxud hər hansı bir vasitə ilə onu durultmalı və dəstəmaz almalıdır. Palçığa bulaşmış su ona artıq su deyilmədikdə muzaf olur.

**3-cü şərt: Dəstəmaz suyu qəsb edilmiş su olmamalıdır**

**Məsələ 289.** Qəsb edilmiş, yaxud sahibinin razı olub-olmadığı məlum olmayan su ilə alınan dəstəmaz haramdır və batildir. Lakin əgər sahibi əvvəlcə razılıq vermişsə və hal-hazırda insan onun razılıqdan imtina edib-etməməsini bilmirsə, dəstəmaz doğrudur. Lakin əgər dəstəmaz suyunun yeri, hava məkanı, qabı, yaxud axdığı yer mübah olmazsa, hərçənd insan həmin yerə izinsiz girdiyinə, yaxud həmin qabdan izinsiz istifadə etdiyinə görə günah etmiş sayılsa da, dəstəmaz doğrudur. Bu səbəbdən əgər dəstəmaz suyunun yeri, hava məkanı, yaxud axdığı yer istifadəyə izinsiz olarsa, insan başqa bir məkanda dəstəmaz almaq imkanına malik olduğu təqdirdə dəstəmaz almağın mübah olduğu bir yerə getməli, əks təqdirdə isə təyəmmüm etməlidir. Lakin istənilən halda hərçənd günah etmiş sayılsa da, Allaha yaxınlaşmaq niyyəti olmadığı hal istisna olmaqla, onun dəstəmazı doğrudur.

**Məsələ 290.** Vəqf müəssisələri olan məscid və dini tədris mərkəzlərinin dəstəmazxanasının, yaxud hovuzunun suyu ilə dəstəmaz almaq insan bu sudan istifadənin hamı üçün yoxsa yalnız həmin məscidin namaz qılanları, yaxud həmin mədrəsənin tələbələri üçün nəzərdə tutulduğunu

bilmədiyi halda caiz deyildir. Lakin dindar insanların adətən həmin yerlərin suyu ilə dəstəmaz alması, kimsənin də onlara mane olmaması, istisna hal təşkil edir.

**Məsələ 291.** Bir məsciddə namaz qılmaq istəməyən insan əgər onun dəstəmazxanasının bütün insanlar, yoxsa yalnız həmin məsciddə namaz qılanlar üçün vəqf edildiyini bilməzsə, orada dəstəmaz ala bilməz. Lakin adətən o məsciddə namaz qılmaq niyyətində olmayanlar da həmin dəstəmazxananın suyu ilə dəstəmaz alırlarsa, kimsə də onlara mane olmursa, orada dəstəmaz ala bilər.

**Məsələ 292.** Mehmanxanaların, hotellərin, ticarət mərkəzlərinin və yol kənarındakı restoranların və bu qəbildən olan məkanların suyu ilə onların müştərisi olmayanların dəstəmaz alması o halda doğrudur ki, adətən müştəri olmayanlar da həmin məkanlarda dəstəmaz alır və heç kəs onlara bunu qadağan etmir.

**Məsələ 293.** Bir şəxs hansısa bir təhsil müəssisəsinin tələbələrindən deyilsə, lakin tələbələrin qonağıdırsa, onun orada dəstəmaz alması onun kimi qonaqların qəbul edilməsinin vəqf şərtlərinə (qaydalarına) zidd olmaması şərti ilə dəstəmazın doğruluğuna xələl gətirmir. Həmçinin, mehmanaxana, hotel və bu qəbildən olan yerlərin müştərilərinin qonaqları ilə bağlı hökm də bundan ibarətdir.

**Məsələ 294.** Müəyyən bir məqsəd üçün istifadəsinə icazə verilən sudan başqa məqsədlər üçün istifadə etmək caiz deyildir. Məsələn, yalnız içmək üçün nəzərdə tutulan su ilə dəstəmaz almaq caiz deyildir.

**Məsələ 295.** Aqil insanların düşüncəsinə əsasən, istifadəsi caiz sayıldığı təqdirdə kiçik çay və arxların suyu ilə onlar üzərində mülkiyyət hüququna sahib olan mülkiyyətçinin izni olmadan dəstəmaz almaq, hərçənd insanın mülkiyyətçinin buna razı olduğuna dair məlumatı olmasa da, dəstəmazın doğruluğuna xələl gətirmir. Hətta mülkiyyətçinin dəstəmaz almağı qadağan etdiyi, yaxud insanın mülkiyyətçinin dəstəmaz almağa razı olmadığına dair məlumatı olduğu və ya mülkiyyətçinin azyaşlı, yaxud əqli qüsurlu insan olduğu təqdirdə belə həmin sudan istifadə etmək caizdir.

**Məsələ 296.** İnsan suyun qəsb edilmiş su olduğunu unudaraq onunla dəstəmaz alarsa, dəstəmazı doğru sayılır. Lakin suyu özü qəsb etdiyi halda sonradan bunu unudaraq onunla dəstəmaz alan şəxsin dəstəmazının doğruluğu, vacib ehtiyata əsasən, şübhə doğurur. Habelə, əgər insan suyun onun özünə məxsus olduğunu düşünərək dəstəmaz alarsa və dəstəmazdan sonra başqasının malı (mülkiyyəti) olduğu məlum olarsa, dəstəmazı doğrudur. Son iki halda dəstəmaz alan şəxs istifadə etdiyi su ilə əlaqədar mülkiyyətçiyə təzminat ödəməlidir.

**Məsələ 297.** Mübah(qəsb edilməyən) su qəsb edilmiş qabda olarsa və dəstəmaz almaq üçün başqa su tapılmazsa, şəriətə uyğun şəkildə (məsələn sahibindən icazə almaq surəti ilə) həmin suyu başqa bir qaba boşaltmaq imkanı olduğu təqdirdə boşaltmalı və sonra dəstəmaz almalı, mümkün olmadığı təqdirdə isə təyəmmüm etməlidir. Lakin əgər dəstəmaz almaq üçün başqa su olarsa, onunla dəstəmaz almaq lazımdır. Hər iki halda buna əməl etməyərək istifadəsi izin verilməyən qabdakı su ilə dəstəmaz alarsa, hərçənd günah etmiş sayılsa da, dəstəmazı doğrudur.

**Məsələ 298.** Bir kərpici, yaxud bir daşı qəsb edilmiş olan hovuzdan su götürmək insanların nəzərində həmin kərpic, yaxud daşdan istifadə etmək hesab edilmirsə, eybi yoxdur, əks təqdirdə isə su götürmək haram, lakin onunla alınan dəstəmaz doğru sayılır. Həmçinin, su kranı, yaxud su borusunun bir hissəsi qəsb edilmiş olarsa, lakin suyun özü mübah olarsa, hökm bu qəbildəndir.

**Məsələ 299.** Əgər imamlardan, yaxud imamzadələrdən hər hansı birinin ərazisi əvvəllər qəbiristanlıq olan məqbərəsində hovuz inşa edilərsə, yaxud arx salınarsa, insan həmin ərazinin qəbiristanlıq kimi istifadə edilmək üçün vəqf edildiyinə dair məlumatı olmadığı təqdirdə hovuz və ya arxın suyu ilə dəstəmaz ala bilər. Lakin həmin yerin cənazələrin dəfn edilməsi üçün vəqf edildiyi məlum olarsa, orada dəstəmazxana, yaxud hovuz inşa etmək caiz deyil və belə bir su ilə dəstəmaz almaq da haramdır.

**4-cü şərt: Dəstəmaz üzvləri yuyularkən və məsh edilərkən pak olmalıdır**

**Məsələ 300.** Dəstəmazın doğru olması üçün dəstəmaz üzvləri yuyularkən və məsh edilərkən pak olmalıdır. Hətta üzv dəstəmaz əsnasında növbə ona çatdıqda yuyulmazdan və ya məsh edilməzdən əvvəl paklansa da, dəstəmaz doğru sayılır. Lakin əgər nəcasətlənən üzv bir dəfə yumaqla paklana bilərsə və su kür, yaxud axar su olarsa, bu halda həmin üzvü dəstəmaz niyyəti ilə suya salmaqla, yaxud kür və ya axar suya qoşulmuş kranın altında yumaqla həm üzv paklanır, həm də dəstəmazın tərkib hissəsi olan yuyulma yerinə yetirilmiş olur.

**Məsələ 301.** Dəstəmaz başa çatmamış yuyulan, yaxud məsh edilən üzv nəcasətlənərsə, dəstəmaz doğru sayılır.

**Məsələ 302.** Bədənin dəstəmaz üzvlərindən başqa bir yeri nəcasətli olarsa, dəstəmaz doğrudur, lakin əgər sidik kanalının xarici dəliyi, yaxud anus dəliyi paklanmamış olarsa, müstəhəb ehtiyata əsasən, öncə həmin nahiyələr paklanmalı, sonra dəstəmaz alınmalıdır.

**Məsələ 303.** Dəstəmaz üzvlərindən biri nəcasətli olarsa və dəstəmazdan sonra insan dəstəmazdan əvvəl onu yuyub-yumadığına şəkk edərsə, dəstəmaz doğrudur, lakin həmin üzvü yumalıdır. Lakin əgər

dəstəmazdan öncə həmin üzvü yumamış olsa belə, dəstəmazda yuyarkən öz-özünə paklandığını bilərsə, bu halda yumağa da ehtiyac yoxdur.

**Məsələ 304.** Əgər üz, yaxud qollarda qanaxması dayanmayan və suyun zərər yetirmədiyi kəsik və ya yara olarsa, həmin üzvün yuxarıda qalan sağlam hissələri dəstəmaz niyyəti ilə yuyulduqdan sonra yara, yaxud kəsik yerini kür və ya axar suya salaraq, yaxud kür su mənbəyindən gələn kran suyunun altına tutaraq qanaxması dayananadək sıxmaq və suyun üzərində axması üçün barmağı həmin nahiyəyə yuxarıdan aşağıya doğru çəkmək, daha sonra ondan aşağıda qalan hissələri yumaq lazımdır. Bu qayda ilə dəstəmaz doğru sayılır.

**5-ci şərt: Dəstəmaz və namaz üçün kifayət qədər vaxt olmalıdır**

**Məsələ 305.** Əgər vaxt namaz qılanın dəstəmaz almasının namazın vacibatını bütövlüklə, yaxud qismən vaxtı bitənədək qıla bilməməsi ilə nəticələnəcəyi qədər az olarsa, təyəmmüm etməlidir. Lakin təyəmmüm və dəstəmaz üçün bərabər vaxt tələb olunursa, yaxud dəstəmaz üçün təyəmmümdən də az vaxta ehtiyac olarsa, dəstəmaz almalıdır.

**Məsələ 306.** Əgər vaxt insanın vəzifəsinin təyəmmüm olacağı qədər az olduğu halda o, təharət, yaxud Quran oxumaq kimi müstəhəb bir iş görmək niyyəti ilə dəstəmaz alarsa, həmçinin, həmin namazı qılmaq üçün dəstəmaz alarsa, Allaha yaxınlaşmaq niyyətinin olmadığı hallar istisna olmaqla, dəstəmazı doğru sayılır. Lakin istənilən halda qəsdən namazı tamamilə, yaxud bir hissəsini vaxtında qılmadığına görə günahkar sayılır.

**6-cı şərt: Dəstəmaz Allaha yaxınlaşmaq niyyəti ilə və ixlasla alınmalıdır**

**Məsələ 307.** Dəstəmazı Allaha yaxınlaşmaq niyyəti ilə və ixlasla almaq üçün bu işi uca Allahın əmrinə itaət məqsədilə həyata keçirmək kifayətdir. İnsan riyakarlıqla, özünü göstərmək niyyəti ilə, yaxud sərinləmək və s. məqsədlərlə dəstəmaz alarsa, batildir.

**Məsələ 308.** Dəstəmazın niyyətinin dillə ifadəsinə, yaxud ürəkdən keçirilməsinə ehtiyac yoxdur, onun bütün hərəkətləri uca Allahın əmrinə itaət məqsədilə yerinə yetirilərsə, kifayətdir.

**7-ci şərt: Dəstəmazın hərəkətləri sıra ardıcıllığı ilə yerinə yetirilməlidir**

**Məsələ 309.** Dəstəmazda vacibdir ki, öncə üz, sonra sağ qol, daha sonra sol qol yuyulsun, ardınca başa, sonra sağ ayaqlara məsh edilsin. Vacib ehtiyata əsasən, sol ayağın məshi sağ ayaqdan qabağa salınmamalıdır. Hərçənd hər iki ayağa eyni zamanda məsh etmək caiz olsa da, müstəhəb ehtiyatın tələbinə görə öncə sağ, sonra sol ayağa məsh edilməlidir. Buna əsasən, əgər dəstəmaz alan şəxs üzvlər arasında sıra ardıcıllığına riayət etməzsə, dəstəmazı pozacaq qədər fasilə verilmədiyi halda sıra ardıcıllığının

pozulduğu yerdən yenidən başlayaraq dəstəmazı düzgün qaydada davam etdirməli, dəstəmazı pozacaq qədər fasilə verildiyi halda isə başdan başlamalıdır. Əvvəlki dəstəmazlarında məlumatsızlıq səbəbi ilə sol qolunu sağ qolundan, yaxud qollarını üzündən əvvəl yuyan və ya ayaqlarına başından öncə məsh edən şəxsin dəstəmazı batildir.

**8-ci şərt: Hərəkətlər fasiləsiz ardıcıllıqla yerinə yetirilməlidir**

**Məsələ 310.** Dəstəmazın doğru olması üçün dəstəmaz hərəkətləri fasiləsiz ardıcıllıqla yerinə yetirilməlidir. Buna “muvalat” deyilir. Dəstəmazın hərəkətləri arasında insanların nəzərində fasiləsiz ardıcıllıq sayılmayacaq qədər fasilə verilərsə, dəstəmaz batil olur. Lakin insanların nəzərində unutma, yaxud suyun qurtarması (kəsilməsi) kimi üzürlü sayılan bir hal yaranarsa, ürfi müvalat mötəbər sayılmır. Bu halda bir üzvü yuyarkən, yaxud məsh edərkən ondan əvvəl yuyulan və ya məsh edilən bütün üzvlər quruduğu halda dəstəmaz batildir. Əgər dəstəmaz alanın yumaq, yaxud məsh etmək istədiyi üzvdən yalnız bilavasitə öncəki üzvü quruyarsa, məsələn, sol qolu yumaq istəyərkən sağ qolu quruyarsa, ancaq üzü rütubətli qalarsa, bu halda dəstəmazı doğrudur.

**Məsələ 311.** Dəstəmazın hərəkətləri fasiləsiz ardıcıllıqla yerinə yetirilərsə, lakin isti hava şəraiti, yüksək temperatur,külək və s. bu qəbildən olan səbəblərlə əlaqədar olaraq əvvəlki üzvlər quruyarsa, dəstəmaz doğru sayılır.

**Məsələ 312.** Dəstəmaz əsnasında yerimək dəstəmazın doğruluğuna xələl gətirmir. Beləliklə, dəstəmaz alan şəxs üzünü və qollarını yuduqdan sonra bir neçə addım yeriyərək sonra başına və ayaqlarına məsh edərsə, dəstəmazı doğrudur. Lakin üzürlü səbəb olmadan insanların nəzərində dəstəmazın hərəkətlərini fasiləsiz ardıcıllıqla yerinə yetirmiş sayılmayacaq qədər məsafə qət etməsi istisna təşkil edir.

**9-cu şərt: Dəstəmazın hərəkətlərini imkan daxilində insan özü yerinə yetirməlidir**

**Məsələ 313.** Dəstəmazın doğru olması üçün insan üz və qollarını özü yumalı, həmçinin başına və ayaqlarına özü məsh etməlidir. Üzürlü bir səbəb olmadan bu hərəkətləri onun üçün başqa bir şəxs yerinə yetirərsə, yaxud üzə və qollara su tökməkdə, başa və ayaqlara məsh etməkdə ona kömək edərsə, dəstəmaz batildir.

**Məsələ 314.** Dəstəmaz almaq istəyən şəxs dəstəmazın hərəkətlərindən hansını təkbaşına yerinə yetirə bilirsə, həmin hərəkətdə başqa bir şəxsdən yardım almamalıdır. Bir şəxs üzürlü vəziyyətdədirsə, məsələn, sağ əli sınmışdırsa və onu hərəkət etdirə bilmirsə, üzünü yumaq üçün sol əlindən kömək almalı, yaxud üzünü dəstəmaz niyyəti ilə kranın altına və ya hovuza daxil edərək irtimasi dəstəmaz mövzusunda izah edilən qaydada yumalı, ardınca sağ qolunu yuduqdan sonra sol qolunu da

dəstəmaz niyyəti ilə kranın altına və ya hovuza daxil edərək izah edilmiş qaydada yumalı, sonra başına və ayaqlarına sol əli ilə məsh etməlidir.

**Məsələ 315.** Təkbaşına dəstəmaz ala bilməyən şəxs hətta yuma və məsh hərəkətlərini birgə yerinə yetirmək surəti ilə olsa belə başqa bir şəxsdən kömək almalıdır. Lakin dəstəmaz niyyətini özü etməli və məshi öz əli ilə yerinə yetirməlidir. Lakin əgər özünün iştirakı heç bir vəchlə mümkün olmazsa, başqa bir şəxsdən dəstəmazın hərəkətlərini onun üzərində icra etməsini istəməlidir və bu halda vacib ehtiyata əsasən, onların ikisi də dəstəmaz niyyəti etməlidir. Mümkün olduğu təqdirdə köməkçisi onun əlindən tutaraq məsh üzvlərinə öz əli məsh etdirməli, bu da mümkün olmadığı halda isə köməkçi onun əlinin rütubəti ilə öz əlini isladaraq həmin rütubətlə onun başına və ayaqlarına məsh etməlidir. Köməkçi muzd tələb edərsə, dəstəmaz alan şəxs ödəyə biləcəyi və zərərə uğramayacağı təqdirdə zəhmət haqqını verməlidir.

**Məsələ 316.** İnsan dəstəmazın hərəkətlərindən hansını təkbaşına yerinə yetirə bilirsə, həmin hərəkətdə başqa bir şəxsdən yardım almamalıdır.

**Məsələ 317.** Dəstəmaz üçün hazırlıq sayılan işlərdə başqasından yardım almağın, o cümlədən başqasının su gətirməsinin, qızdırmasının, yaxud suyu dəstəmaz alanın ovcuna tökməsinin eybi yoxdur. Hərçənd, sonuncu misalda göstərilən kömək məkruh sayılır.

**10-cu şərt: Dəstəmaz alan üçün sudan istifadənin zərəri olmamalıdır**

**Məsələ 318.** Dəstəmaz alacağı təqdirdə xəstələnəcəyini, xəstəliyinin uzun sürəcəyini, ağırlaşacağını, yaxud müalicəsinin çətinləşəcəyini bilən şəxs dəstəmaz almamalı, təyəmmüm etməlidir. Lakin isti su ilə dəstəmaz almaq kimi müəyyən bir yolla zərərdən qoruna bilərsə, onun qarşısını almaq üçün gərəkli tədbirləri görməlidir.

**Məsələ 319.** Üzü və qolları dəstəmazın doğru sayılması üçün kifayət edəcək qədər su ilə yumaq zərərli deyilsə, lakin daha artıq su ilə yumaq zərərlidirsə, həmin qədər su ilə dəstəmaz almaq lazımdır.

**Məsələ 320.** Mükəlləf suyun ona zərərli olmadığını düşünərək dəstəmaz alarsa və dəstəmazdan sonra suyun onun üçün zərərli olduğunu anlayarsa, dəstəmazı batildir. Suyun onun üçün zərərli olduğunu düşünərək dəstəmaz alsa və sonradan suyun zərərli olmadığını başa düşərsə, Allaha yaxınlaşmaq niyyəti ilə alması şərti ilə dəstəmazı doğrudur.

**11-ci şərt: Dəstəmaz üzvlərində suyun qarşısını alan bir maneə olmamalıdır**

**Məsələ 321.** Dəstəmaz alan şəxsə dəstəmaz üzvlərində dərinin üzərində bir şey olduğu məlumdursa,onun lak, plastır və yağlı boya kimi suyun dəriyə toxunmasına mane olan bir şey olduğunu bildiyi halda həmin şeyi aradan qaldırmalıdır. Xına kimi suyun dəri ilə təmasına əngəl olmayan bir

şey olduğunu bildiyi halda isə dəstəmaza xələl gətirmir. Suyun dəriyə çatmasına mane olub-olmadığına şəkk edərsə, həmin şeyi aradan qaldırmalı, yaxud dəstəmazda suyu onun altına (dəriyə) çatdırmalıdır.

**Məsələ 322.** Əgər dırnaq qısadırsa, onun altına yığılan çirk dəstəmaza xələl gətirmir. Lakin uzun olarsa, normadan artıq uzanan və zahiri (görülə və toxunula bilən) tərəf sayılan hissəsinin altına yığılan çirk təmizlənilməlidir. Əgər dırnağını tutarsa, sözügedən çirk suyun dərinin üst təbəqəsinə toxunmasına mane olduğu təqdirdə dəstəmaz almaq üçün həmin çirki təmizləmək lazımdır.

**Məsələ 323.** Yanıq və s. hallarla əlaqədar olaraq dəridə əmələ gələn suluq, uçuq və ya qabarların səthinin yuyulması və məsh edilməsi kifayətdir və deşildiyi halda da suyu onun altına yeritməyə ehtiyac yoxdur. Bir hissəsi soyulduğu halda isə dərinin üzə çıxan hissəsinin yuyulması kifayətdir və suyun soyulmayan hissənin altına çatdırılmasına gərək yoxdur. Soyulan və hələ bədən üzvündən tamamilə qoparılmamış, gah bitişən, gah da ayrılan dəri yuyulmalıdır. Ancaq istisna olaraq, insanların nəzərində bədənin bir hissəsi sayılmayacaq ölçüdə olan dərinin yuyulması vacib deyildir. Həmçinin, zahiri hissə hesab edildiyi təqdirdə su həmin dərinin altına da təmas etməlidir. Qeyd etmək lazımdır ki, bu göstəriş suyun bədənin həmin hissəsi üçün zərərli olmadığı hallara aiddir. Suyun zərərli olduğu hallarla bağlı göstərişlər isə cəbirə dəstəmazı mövzusunda izah ediləcəkdir.

**Məsələ 324.** İnsan dəstəmaz üzvlərinə bir şeyin yapışıb-yapışmadığına dair şəkkə düşərsə və onun bu ehtimalı insanların nəzərində yersiz sayılmazsa, məsələn, suvaqlama və ya rəngsazlıq işi ilə məşğul olduqdan sonra suvaq, yaxud boyanın əlinə yapışıb-yapışmadığına şəkk edərsə, araşdırmalı, yaxud əlini suyun dəriyə toxunmasına mane ola biləcək şeyin qalmadığına, yaxud suyun onu aşaraq dəriyə çata biləcəyinə arxayın olanadək sürtməlidir.

**Məsələ 325.** Yuyulmalı, yaxud məsh edilməli olan yer çirkli olarsa, lakin həmin çirk suyun bədənlə təmasına əngəl törətmirsə, eybi yoxdur. Həmçinin, malalama və bu qəbildən olan işlərdən sonra əldə qalan, suyun dəriyə çatmasının qarşısını almayan ağ ləkədə bu qəbildəndir. Lakin dəstəmaz alan şəxs həmin çirk, yaxud ləkə qaldığı halda suyun bədənə bilavasitə dəyib-dəyməyəcəyinə şəkk edərsə, onu təmizləməlidir.

**Məsələ 326.** İnsan dəstəmazdan əvvəl bəzi dəstəmaz üzvlərində suyun dəriyə çatmasının qarşısını alan bir maneə olduğunu bilərsə və dəstəmazdan sonra dəstəmaz əsnasında suyun həmin yerə bilavasitə dəyib-dəymədiyinə şəkk edərsə, dəstəmazı doğrudur.

**Məsələ 327.** Bəzi dəstəmaz üzvlərində suyun dəri ilə təmasına bəzən mane olan, bəzən də olmayan üzük, bilərzik və qolbaq kimi şeylər olarsa

və insan dəstəmazdan sonra suyun onların altına nüfuz edib-etmədiyinə şəkk edərsə, dəstəmazı doğrudur. Lakin sözügedən halda suyun həmin zinət əşyalarının altında qalan hissələrə çatmasına diqqət yetirmədiyi təqdirdə, müstəhəb ehtiyata əsasən, yenidən dəstəmaz almalıdır.

**Məsələ 328.** Əgər insan dəstəmaz alarsa, dəstəmazdan sonra dəstəmaz üzvlərində plastır və lak kimi suyun qarşısını alan bir maneə görərsə və onun dəstəmazdan öncəyə aid olduğunu bilərsə, hərçənd dəstəmazdan öncə dəstəmaz üzvlərini diqqətlə yoxlamış olsa da, dəstəmazı batildir və bu dəstəmazla namaz qılmışsa, həmin namazı vaxtı bitmədiyi təqdirdə yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır.

**Məsələ 329.** Əgər dəstəmazdan sonra dəstəmaz üzvlərində suyun dəri ilə təmasına mane olan bir şey görərsə və həmin şeyin dəstəmaz əsnasında, yoxsa dəstəmazdan sonra dərisinə yapışdığını bilməzsə, dəstəmazı doğrudur. Lakin dəstəmaz əsnasında həmin maneəyə diqqət yetirmədiyini bilərsə, müstəhəb ehtiyata əsasən, yenidən dəstəmaz almalıdır.

**Məsələ 330.** Əgər dəstəmazdan sonra dəstəmaz üzvlərində suyun qarşısını alan bir şeyin olub-olmadığına şəkk edərsə, dəstəmazı doğrudur və bu halda belə bir maneənin olub-olmadığını yoxlamağa gərək yoxdur.

## Dəstəmazla bağlı digər hökmlər

**Məsələ 331.** Dəstəmaz alıb-almadığına şəkk edən şəxs namaz və dəstəmazlı olmağı şərt biliən işlər üçün dəstəmaz almalıdır.

**Məsələ 332.** İnsan namaz əsnasında dəstəmaz alıb-almadığına şəkk edərsə, dəstəmaz almalı, namazını yenidən qılmalıdır və vacib ehtiyata əsasən, həmin namazla kifayətlənə bilməz. Müstəhəb ehtiyata əsasən, sözügedən namazını yarıda kəsməməli, sonadək qıldıqdan sonra qeyd edilən göstərişə uyğun qaydada hərəkət etməlidir.

**Məsələ 333.** Əgər namazdan sonra dəstəmaz alıb-almadığına şəkk edərsə, namazı doğrudur, lakin sonrakı namazları üçün dəstəmaz almalıdır.

**Məsələ 334.** Dəstəmaz aldığını və bir "hədəs" halının (dəstəmazın pozulmasına səbəb olan hallardan birinin) baş verdiyini, məsələn, idrar etdiyini bilən şəxs bunlardan hansının daha əvvəl baş verdiyini bilmirsə, dəstəmaz almalıdır. Bu şəkkə namaz əsnasında düşərsə, dəstəmaz aldıqdan sonra namazını yenidən qılmalıdır və vacib ehtiyata əsasən, həmin namazla kifayətlənə bilməz. Namaz qıldıqdan sonra belə bir şəkkə düşdüyü təqdirdə isə qıldığı namaz doğrudur, lakin növbəti namazlar üçün dəstəmaz almalıdır.

**Məsələ 335.** İnsan dəstəmazı pozan bir iş görüb-görmədiyinə şəkk edərsə, belə bir halın baş vermədiyi və dəstəmazının yerində olduğu fikri üzərində durmalıdır. Lakin idrardan sonra istibra etmədən dəstəmaz

alarsa və dəstəmazdan sonra idrar olub-olmadığını bilmədiyi bir maye ifraz olunarsa, 85-ci məsələdə izah edildiyi kimi dəstəmazı batildir.

**Məsələ 336.** Namazdan sonra dəstəmazının pozulduğunu başa düşərsə, lakin namazdan əvvəl, yoxsa sonra pozulması xüsusunda şəkkə düşərsə, qıldığı namaz doğru sayılır.

**Məsələ 337.** Dəstəmazdan sonra, yaxud dəstəmaz əsnasında bəzi yerləri yumadığına, yaxud məsh etmədiyinə əmin olduğu təqdirdə çox fasilə yaranarsa, fasiləsiz ardıcıllıq pozularsa və müddətin uzunluğu ilə əlaqədar olaraq həmin yerdən əvvəlki üzvlərin rütubəti quruyarsa, yenidən dəstəmaz almalıdır. Sözügedən yer qurumamışdırsa, yaxud havanın hərarəti və s. amillərlər əlaqədar olaraq qurumuşdursa, unutduğu yerləri, sonra ardınca növbəti üzvləri yumalı, yaxud məsh etməlidir.

**Məsələ 338.** Əgər dəstəmaz əsnasında hər hansı bir yeri yuması, yaxud məsh etməsi xüsusunda şəkkə düşərsə, fasiləsiz ardıcıllıq pozulmadığı halda şəkkinə etina etməli və sözügedən üzvü yuduqdan, yaxud məsh etdikdən sonra dəstəmazına davam etməlidir. Dəstəmazdan sonra hər hansı bir yeri yuması, yaxud məsh etməsi xüsusunda şəkkə düşərsə, ürfən dəstəmazı başa çatdırmış sayıldığı, məsələn, dəstəmazxanadan çıxdığı, yaxud başqa bir işlə məşğul olduğu təqdirdə şəkkinə etina etməməlidir.

**Məsələ 339.** Dəstəmazın hərəkətlərində, o cümlədən başın məsh edilməsində, üz və qolların yuyulmasında, habelə dəstəmazın şərtlərində, o cümlədən suyun pak olub-olmaması, qəsb edilib-edilməməsi, yaxud dəstəmaz üzvlərində suyun qarşısını alan bir maneənin olub-olmaması xüsusunda həddən ziyadə şəkk edərək şəkkak olan şəxs şəkkinə etina etməməlidir. Həmçinin, vasvasılığa mübtəla olduğu təqdirdə də bu göstərişə əməl etməlidir. Şəkkaklığın müəyyən edilməsi üçün meyar ürfdür (insanların baxışıdır). [1] Bu hökm qüsl və təyəmmümə də şamildir.

## Dəstəmazı pozan hallar

**Məsələ 340.** Səkkiz şey dəstəmazı pozur:

1) sidiyə çıxma(deurinasiya) və eləcə də idrardan sonra istibra edilmədiyi halda insandan ifraz olan və idrar hökmündə olan şübhəli maye;
2) defekasiya (böyük ayaqyoluna çıxma);
3) anus dəliyindən xaric olunan mədə və bağırsaq yeli;
4) görmə və eşitmə fəaliyyətinin dayanmasına səbəb olan yuxu (lakin yuxululuq halında göz görməsə də, qulaq eşidərsə, dəstəmaz pozulmur);
5) əqli sağlamlığın məhdudlaşması, yaxud itirilməsi ilə nəticələnən dəlilik, sərxoşluq və huşsuzluq kimi hallar;

---

[1] Daha ətraflı izah üçün 1449-cu məsələyə müraciət edin.

6) qadınlara məxsus qəlilə, mütəvəssitə, yaxud kəsirə qismindən olmasından asılı olmayaraq istihazə halı (bu mövzu "İstihazə ilə bağlı hökmlər" fəslində ətraflı surətdə izah ediləcəkdir);
7) cənabət;
8) heyz (aybaşı, menstruasiya).

## Dəstəmazda müstəhəb olan işlər

**Məsələ 341.** Fəqihlər (Allah onlardan razı olsun!) riayət edildiyi təqdirdə dəstəmazın kamilləşməsinə və savabının artmasına səbəb olacağına ümid edilən bir sıra işləri dəstəmazda müstəhəb olan hərəkətlər kimi qeyd etmişlər. O cümlədən:
1) Başlayarkən "bismillah" demək.
2) Dişləri fırçalamaq.
3) Dəstəmazdan öncə əlləri yumaq.
4) Dəstəmaza başlamamış ağzı üç dəfə yaxalamaq.
5) Üç dəfə buruna su alaraq xaric etmək.
6) Dəstəmaz əsnasında oxunulması üçün nəql edilən duaları aşağıdakı ardıcıllıqla oxumaq:

Dəstəmaz alan şəxs suyu gördükdə desin:

"Bismillahi və billah, vəlhəmdu lillahilləzi cəələl-maə tahuran və ləm yəcəlhu nəcisən".

(Allahın adı ilə və Ondan yardım diləyərək başlayıram. Suyu pak və paklayıcı edən, nəcis etməyən Allaha həmd olsun!)

Dəstəmazdan əvvəl əllərini yuyarkən desin:

"Bismillahi və billah, Allahumməcəlni minət-təvvabinə və minəl-mutətəhhirin".

(Allahın adı ilə və Ondan yardım diləyərək başlayıram. Allahım, məni tövbə edənlərdən və paklananlardan eylə!)

Ağzını yaxalayarkən desin:

"Allahummə ləqqini huccəti yaumə əlqakə və ətliq lisani bizikrik".

(Allahım, Sənin qarşına çıxacağım gün dəlilimi mənə təlqin et və dilimi Öz zikrinə öyrəşdir!)

Burnuna su alarkən desin:

"Allahummə la tuhərrim ələyyə rihətəl-cənnəti vəcəlni mimmən yəşummu rihəha və rauhəha və tibəha".

(Allahım, cənnətin qoxusunu mənə haram etmə, məni onun qoxusunu, mehini və xoş ətrini duyanlardan eylə!)

Üzünü yuyarkən desin:

"Allahummə bəyyiz vəchi yaumə təsvaddu fihil-vucuh və la tusəvvid vəchi yaumə təbyəzzu fihil-vucuh".

(Allahım, üzlərin qaraldığı gün məni üzüağ eylə, üzlərin ağardığı gün məni üzüqara eləmə!)

Sağ qolunu yuyarkən desin:

"Allahummə ətini kitabi biyəmini vəl-xuldə fil-cinani biyəsari və hasibni hisabən yəsirən".

(Allahım əməl kitabımı sağ əlimə, cənnətdə əbədi qalmaqla bağlı sənədi isə sol əlimə ver və sorğu-sualımı asan eylə!)

Sol qolunu yuyarkən desin:

"Allahummə la tutini kitabi bişimali və la min vərai zəhri və la təcəlha məğlulətən ila unuqi və əuzu bikə min muqəttəatin-niran".

(Allahım, əməl kitabımı sol əlimə, yaxud arxamdan vermə, əllərimi boynuma qandallama, mən oddan hazırlanmış libaslardan Sənə sığınıram!)

Başını məsh edərkən desin:

"Allahummə ğəşşini birəhmətikə və bərəkatikə və əfvik".

(Allahım, məni rəhmətinə, bərəkətinə və əfvinə qərq eylə!)

Ayaqlarını məsh edərkən desin:

"Allahummə səbbitni ələs-sirati yaumə təzillu fihil-əqdam vəcəl səyi fi ma yurzikə ənni, ya Zəl-cəlali vəl-ikram".

(Allahım, ayaqların sürüşdüyü gün məni siratda sabitqədəm eylə və səylərimi Səni məndən razı salan işlərə yönəlt, ey cəlal və ikram sahibi!)

## Dəstəmaz tələb edən hallar

**Məsələ 342.** Məqsəd baxımından dəstəmaz almaq bəzən bir işin doğru olması üçün şərtdir, yəni həmin iş, məsələn, namaz müstəhəbb ya vacib olmasından asılı olmayaraq dəstəmazsız icra edilərsə, doğru sayılmır. Bəzən bir işin caizliyi və haram olmaması üçün şərtdir, yəni həmin iş, məsələn, Qurani-kərimin yazısına toxunmaq dəstəmazsız halda baş verərsə, haram sayılır. Bəzən bir işin kamilliyi üçün şərtdir, yəni cənazə namazı, müstəhəb təvaf, Quran tilavəti, dua, uca Allahdan bir şey diləmək və azan kimi hallarda savab qazanmaq, yaxud daha artıq savaba nail olmaq üçün dəstəmaz alınır. Bəzən isə bir işin məkruhluğunu aradan qaldırır. Məsələn, cənabətli halda yatmaq istəyərkən dəstəmaz almaq bu hərəkətin məkruhluğunu aradan qaldırır.

**Məsələ 343.** Altı iş üçün dəstəmazlı olmaq vacibdir:

1) Cənazə namazı istisna olmaqla, əda və ya qəza olmasından asılı olmayaraq bütün vacib namazlar üçün. Müstəhəb namazda isə səhih qılmaq üçün dəstəmaz şərtidir.

2) Unudulmuş səcdə və təşəhhüd[1]üçün (namazdan sonra onların

[1] Unudulmuş təşəhhüdün qəzasının yerinə yetirilməsi vacib deyildir, müstəhəb ehtiyatın tələbidir. Lakin unudulmuş təşəhhüd üçün səhv səcdəsinin edilməsi vacibdir.

qəzası ilə namaz arasında bir hədəs halı baş verdiyi, məsələn, namaz qılan idrar etdiyi təqdirdə). Lakin səhv səcdəsi üçün dəstəmaz almaq vacib deyil və bu hökmdə onun məqamları arasında heç bir fərq yoxdur.

3) Həcc, yaxud ömrənin bir ayini kimi icra edildiyi halda Kəbə evinin vacib təvafı üçün.

4) Dəstəmaz almaq, yaxud daima dəstəmazlı olmaqla şəriətdə nəzərdə tutulan qaydada nəzir, yaxud əhd edildikdə, yaxud Allaha and içildikdə.

5) Quran ayələrini təbərrük niyyəti ilə öpmək nəzir edildikdə.

6) Nəcasətlənmiş Quran nüsxəsini yumaq, yaxud ayaqyolu kimi natəmiz yerlədən çıxarmaq üçün (əlin və ya bədənin başqa bir yerinin ona toxunması labüd olduqda). Lakin bu işin dəstəmaz alanadək təxirə salınması Qurana qarşı ehtiramsızlıq sayılarsa, vacib ehtiyata əsasən, təyəmmüm edərək (təyəmmüm üçün dəstəmazdan daha az vaxt lazım gəldiyi hallarda) Quranı ayaqyolu kimi natəmiz yerlərdən çıxarmaq, yaxud nəcasətə bulaşdığı təqdirdə yumaq lazımdır. Əgər bu qədər gözləmək də Qurana qarşı hörmətsizlik olarsa, müqəddəs kitabın nüsxəsini dəstəmaz və təyəmmümsüz ayaqyolu kimi natəmiz yerlərdən çıxarmaq və ya nəcasətləndiyi təqdirdə yumaq lazımdır.

**Məsələ 344.** İnsan istər namaz vaxtından bilavasitə, yaxud xeyli öncə, istərsə namaz vaxtı başladıqdan sonra dəstəmazın məqsədlərindən hər hansı biri, o cümlədən namaz qılmaq, Qurani-kərimin mətninə toxunmaq, təharətli olmaq, yaxud insanı Allaha yaxınlaşdıran istənilən məqsəd üçün dəstəmaz alarsa, dəstəmazı doğrudur. Beləliklə, sübhün başlanğıcında zöhr namazı üçün dəstəmaz alarsa, eybi yoxdur. Həmçinin, zöhr və əsr namazları üçün dəstəmaz alarsa, dəstəmazı pozulmadığı təqdirdə məğrib və işa namazlarını da həmin dəstəmazla qıla bilər.

**Məsələ 345.** Dəstəmazda vaciblik və müstəhəblik niyyəti etməyə gərək yoxdur. Hətta əgər insan vaciblik niyyəti ilə dəstəmaz alarsa və sonradan vacib olmadığı məlum olarsa, dəstəmazı doğrudur. Məsələn, namaz vaxtının başladığına əmin olan bir şəxs vacib dəstəmaz niyyəti edərsə və namazdan sonra vaxtın başlamadığını başa düşərsə, dəstəmazı doğrudur.

**Məsələ 346.** Dəstəmazlı olan şəxsin də hər namaz, xüsusən, sübh və məğrib namazları üçün yenidən dəstəmaz alması müstəhəbdir. Bəzi fəqihlərin (r. ə) sözlərinə görə, müstəhəbdir ki, insan cənazə namazı, Əhli-quburu ziyarət etmək, məscidə və İmamların (ə) məqbərəsinə daxil olmaq, Qurani-məcidi yanında daşımaq, oxumaq, yazmaq, haşiyəsinə toxunmaq üçün və yatmazdan əvvəl dəstəmaz alsın. Lakin bu hallardan

bəzilərində dəstəmazın müstəhəbliyi qəti deyildir. Əlbəttə ki, müstəhəb olması ehtimalı ilə dəstəmaz alarsa, dəstəmazı doğrudur və dəstəmazlı halda icra edilməli olan istənilən işi görə bilər, məsələn həmin dəstəmazla namaz qıla bilər. Buna əsasən Quran oxumaq, yaxud Qurana toxunmaq üçün dəstəmaz almışdırsa, namaza qədər dəstəması batil edən bir iş baş verməyibsə həmən dəstəmazla namaz qıla bilər.

## "Daimül-hədəs"lə bağlı hökmlər

**Məsələ 347.** Hər hansı bir xəstəliklə əlaqədar olaraq sidiyə damcı-damcı çıxan (inkontinensiya), yaxud nəcis ifrazının qarşısını ala bilməyən (enkoprez) və ya mədə yelinin ifrazına nəzarət edə bilməyən (flatulensiya) şəxs daimül-hədəs (daima hədəs halında olan insan) üçün nəzərdə tutulan göstərişlərə əməl etməlidir. Bu məsələ ilə bağlı, ümumiyyətlə, gələcək məsələlərdə ətraflı şəkildə şərh ediləcək dörd vəziyyət təsəvvür edilə bilər:

a) namazı bütövlüklə qılmaq üçün fürsət tapacağına əmindir;

b) namazın bir hissəsini qılmaq üçün fürsət tapacağına əmindir;

c) namazı bütövlüklə, yaxud onun bir hissəsini qılmaq üçün fürsət tapacağını ehtimal edir;

d) namazın bir hissəsini qılmaq üçün fürsət tapmayacağına əmindir.

Bu halların hər biri ilə əlaqədar hökm sonrakı məsələlərdə qeyd ediləcəkdir.

**Məsələ 348.** Sözügedən insan namaz vaxtının əvvəlindən axırınadək təharət almaq, yəni mövcud vəziyyətdəki vəzifəsinə uyğun olaraq dəstəmaz almaq, yaxud təyəmmüm və ya qüsl etmək və namazı bütövlüklə qılmaq üçün fürsət tapacağına əmindirsə, namaz vaxtının başlanğıcında, ortasında, yaxud axırında olmasından asılı olmayaraq fürsət tapdıqda namazını qılmalıdır və əgər yalnız namazın vacib işlərini görəcək qədər fürsəti olarsa, bu halda həmin vaxt ərzində namazın ancaq vacib işlərini görməli, azan, iqamə və qunut kimi müstəhəb hissələri ixtisara salmalıdır.

**Məsələ 349.** Namaz vaxtının əvvəlindən axırınadək təharət almaq, yəni mövcud vəziyyətdəki vəzifəsinə uyğun olaraq dəstəmaz almaq, yaxud təyəmmüm və ya qüsl etmək və namazın bir hissəsini qılmaq üçün fürsət tapacağına və həmin hissədən sonra namaz əsnasında bir və ya bir neçə dəfə sidik, nəcis, yaxud mədə yeli ifraz edəcəyinə əmindirsə, vacib ehtiyata əsasən, fürsət tapdıqda təharət alaraq namaz qılmalıdır. Lakin namaz əsnasında, yaxud namazdan sonra ifraz olunan sidik, nəcis, yaxud mədə yelinə görə, təharətini təzələməsinə, məsələn, yenidən dəstəmaz almasına gərək yoxdur. Bir dəstəmaz onun bir neçə istər müstəhəb, istərsə vacib namazı üçün kifayətdir. Lakin onun mübtəla

olduğu hədəsdən fərqli bir hədəs baş verərsə, məsələn, yuxu tutarsa, yaxud eyni hədəs sözügedən xəstəliklə əlaqədar olmayaraq baş verərsə, məsələn, təbii şəkildə sidik, yaxud nəcis ifraz edərsə, bu iki halda yenidən təharət almalıdır.

**Məsələ 350.** İnsan hər hansı bir xəstəliyi ilə əlaqədar olaraq sidik, yaxud nəcis ifrazının qarşısını ala bilmirsə, namaz vaxtının əvvəlindən axırınadək təharət almaq və namazı bütövlüklə, yaxud bir hissəsini qılmaq üçün fürsəti olacağını ehtimal edirsə, müstəhəb ehtiyata əsasən, hərçənd namaz vaxtının əvvəlində namazı dərhal qılmaq imkanı olsa da, həmin fürsəti gözləməlidir. Ancaq əgər namazı qılarsa və qıldıqdan sonra bir müddət hədəs baş verməzsə, bu müddət təharət almaq və namazı bütövlüklə, yaxud bir hissəsini qılmaq üçün kifayət edəcək qədər davam edərsə, vacib ehtiyata əsasən, namazını yenidən qılmalıdır. Həmçinin, əgər namazın vaxtı bitənədək təharət almaq və namazı bütövlüklə, yaxud bir hissəsini qılmaq üçün kifayət edəcək qədər hədəsdən uzaq qalmaq fürsəti olmayacağı düşüncəsi ilə namazını vaxtın başlanğıcında qılarsa və namazdan sonra bir müddət hədəs baş verməzsə, bu müddət təharət almaq və namazı bütövlüklə, yaxud bir hissəsini qılmaq üçün kifayət edəcək qədər davam etdiyi təqdirdə, vacib ehtiyata əsasən, namazını yenidən qılmalıdır.

**Məsələ 351.** Sidiyi və ya nəcisi təharət alaraq namazını bütövlüklə, yaxud onun bir hissəsini qılmağa fürsət verməyəcək qədər aralıqsız ifraz olan şəxs mövcud vəziyyətdəki vəzifəsinə uyğun olaraq dəstəmaz alaraq, yaxud təyəmmüm və ya qüsl edərək namaz qılmalı və namazdan əvvəl, namaz əsnasından, yaxud namazdan sonra ifraz olunan sidik və nəcisə etina etməməlidir. Bu halda təharətini yeniləməsinə, məsələn, yenidən dəstəmaz almasına gərək yoxdur, bir dəstəmaz onun bir neçə istər müstəhəb, istərsə vacib namazı üçün kifayətdir. Hərçənd, müstəhəb ehtiyata əsasən, hər namaz üçün ayrıca dəstəmaz almalıdır. Lakin qəzası yerinə yetirilən səcdə və təşəhhüd, habelə ehtiyat namazı üçün başqa bir dəstəmaza gərək yoxdur. Sözügedən şəxs düçar olduğu hədəsdən başqa, məsələn, yatmaq kimi digər bir hədəs halı baş vermədikcə, yaxud eyni hədəs düçar olduğu xəstəliklə əlaqədar olmayaraq baş vermədikcə, məsələn, normal deurinasiya (sidik ifrazı) və defekasiya (nəcis ifrazı) baş vermədikcə, təharətli sayılır, qeyd edilən bu iki halda isə təharətini yeniləməlidir.

**Məsələ 352.** Fasiləsiz olaraq sidik, yaxud nəcis ifraz edən və ya mədə yeli çıxaran şəxsin namazı dəstəmazdan sonra dərhal qılması vacib deyil, hərçənd, müstəhəb ehtiyata əsasən, namaza dərhal başlamalıdır.

**Məsələ 353.** Fasiləsiz olaraq sidik, yaxud nəcis ifraz edən şəxs dəstəmaz aldıqdan sonra, hətta namaz halında olmasa belə, Quranın yazısına toxuna bilər.

**Məsələ 354.** Fasiləsiz olaraq sidik, yaxud nəcis ifraz edən və ya mədə yeli çıxaran şəxs namaz qılmaq üçün içərisində pambıq, yaxud başqa bir hopdurucu vasitə olan, sidiyin ətraf hissələrə yayılmasının qarşısını alan kisə kimi tibbi ləvazimatlarla qorunmalı və vacib ehtiyata əsasən, hər namazdan öncə nəcasətlənmiş sidik kanalının xarici dəliyini və onun ətrafını həddən ziyadə əziyyətli olmadığı təqdirdə yumalıdır.

**Məsələ 355.** Sidik, nəcis,yaxud mədə yelinin çıxmasının qarşısını ala bilməyən şəxs əgər xəstəliyinin müalicəsi asandırsa, müstəhəb ehtiyata əsasən, müalicə olunmalıdırlar.

**Məsələ 356.** Daim əl-hədəs insan sağaldıqdan sonra xəstəlik dövründə vəzifəsinə uyğun qaydada qıldığı namazlarının qəzasını qılmasına gərək yoxdur. Lakin namaz əsnasında sağalarsa, lazım ehtiyata əsasən, həmin anda qıldığı namazını yenidən qılmalıdır.

## Cəbirə dəstəmazı

**Məsələ 357.** Yara, çiban, yaxud sınıqların üzərinə sarılan bint, gips, parça, şin (sarğı taxtası) kimi sarğılar, habelə yaraların üzərinə qoyulan məlhəm ***cəbirə*** adlandırılır.

## Cəbirə dəstəmazının şərtləri

Cəbirə dəstəmazında bir sıra şərtlərə riayət etmək lazımdır. Növbəti məsələlərdə bu şərtlər izah ediləcəkdir.

**Birinci şərt: Dəstəmaz üzvlərində yara, çiban, sınıq, yaxud məlhəm olmalıdır**

**Məsələ 358.** Cəbirə dəstəmazı dəstəmaz üzvlərində yara, çiban, sınıq, yaxud məlhəm olduqda alınır.

**Məsələ 359.** Dərinin üzərində yara, irinli səpgi və suluqların yaranmasına səbəb olan yanıqlara yaralar kimi cəbirə hökmləri şamil edilir. Lakin çıxıqlar sınıq hökmündə deyildir. Həmçinin, ağrı, şişkinlik, yaxud vətərin dartılması və bu qəbildən olan hallarda müalicə məqsədilə bədən üzvlərinə qoyulan dərman və məlhəmlərə hətta həmin üzvlərdə yara, çiban və sınıq olmasa belə, cəbirə hökmləri tətbiq edilir.

**Məsələ 360.** Əgər dəstəmaz üzvlərində yara, çiban, yaxud sınıq yoxdursa, lakin bəzi dəri xəstəlikləri, yaxud dəstəmaz üzvlərində meydana gələn şişkinlik kimi başqa bir səbəblə əlaqədar olaraq su həmin üzvlər üçün zərərlidirsə, təyəmmüm edilməlidir.

**Məsələ 361.** Əgər yara, çiban, yaxud sınıq dəstəmaz üzvlərindən başqa nahiyələrdədirsə, lakin dəstəmaz üzvlərinin su ilə təması bədənin həmin zədələnmiş yerləri üçün təhlükəlidirsə, bu halda təyəmmüm

etmək lazımdır. Həmçinin, əgər yara, çiban, yaxud sınıq dəstəmaz üzvlərinin bir hissəsini əhatə edərsə, lakin digər yerlərin yuyulması zədələnmiş yer üçün bir qayda olaraq zərərli olmasa da, təsadüfən zərər törədə bilərsə, məsələn, yara əl barmaqlarındadırsa, ancaq bazuönünün yuxarı hissəsinin yuyulması barmağın yarasına zərər verəcəksə, belə hallarda təyəmmümlə kifayətlənmək lazımdır.

**Məsələ 362.** Dəstəmaz üzvlərinə boya, qatran və yapışqan kimi aradan qaldırılması mümkünsüz, yaxud dözülməz dərəcədə məşəqqətli olan şeylər yapışarsa, mükəlləfin vəzifəsi təyəmmüm etməkdir. Sözügedən maddə təyəmmüm üzvlərində olarsa, bu halda istisna olaraq, həm dəstəmaz almalı, həm də təyəmmüm etməlidir və dəstəmazda, vacib ehtiyata əsasən, cəbirə dəstəmazında olduğu kimi mümkün olduğu təqdirdə suyun qarşısını alan həmin maddənin üzərinə məsh etməlidir. Lakin sözügedən maddə ovucun, yaxud barmaqların iç tərəfinin yalnız bir hissəsində olarsa, əllərin üst tərəfində və alında olmazsa, belə ki, əlin həmin maddəyə bulaşmamış hissəsi ilə məshi yerinə yetirə bilərsə, təyəmmüm kifayətdir. Həmçinin, zərurət hallarında bədənə daxil edilən kanula[1] yara, çiban, yaxud sınıq nahiyələrində olmadığı təqdirdə suyun qarşısını alan maneə hökmünü daşıyır.

**İkinci şərt: Su zədələnmiş yer üçün zərərli olmalı, yaxud zədələnmiş yerə qoyulmuş cəbirənin açılması zərərli və ya həddən ziyadə əziyyətli olmalıdır**

**Məsələ 363.** Cəbirə dəstəmazının ikinci şərti budur ki, su zədələnmiş yer üçün zərərli olmalı, yaxud zədələnmiş yerə qoyulmuş cəbirənin açılması təhlükəli və ya hərçənd su zədələnmiş nahiyə üçün zərərli olmasa da, dözülməz dərəcədə əziyyətli olmalıdır. Sonuncu hala misal olaraq gipsə qoyulan və suyun təhlükəli olmadığı, lakin gips çıxarılmadan suyun dəriyə çatdırılması mümkünsüz olan və bir tərəfdən də gipsin çıxarılmasının zədələnmiş nahiyə üçün təhlükəli olduğu, yaxud insan üçün dözülməz olan, həddən ziyadə əziyyətlə müşayiət edildiyi sınıqları göstərmək olar.

**Məsələ 364.** Təhlükənin reallığı xüsusunda dəstəmazda istifadə ediləcək qədər suyun zərərli olması ilə zərərin zədələnmiş nahiyədəki nəcasətin təmizlənməsindən irəli gəlməsi arasında fərq yoxdur. İkinci hala misal olaraq dəstəmaz üzvlərində dəstəmazda istifadə ediləcək qədər suyun zərərli olmadığı, lakin zədələnmiş yerin nəcasətlənmiş, qana bulaşmış olduğu və qanın təmizlənməsi üçün həddən ziyadə su ilə yuyulmalı olan, digər tərəfdən isə həddən ziyadə su ilə yumağın zədələnmiş nahiyə üçün təhlükəli olduğu yara, çiban, yaxud sınıqları göstərmək olar.

[1] Kanula serum qoşmaq, yaxud maye halında olan dərmanların inyeksiyasını həyata keçirmək üçün xəstənin bədəninə daxil edilən plastik borucuqdur.

**Məsələ 365.** Zərərçəkmə qorxusu davam etdikcə, hərçənd insan zədələnmiş nahiyənin yaxşılaşdığını ehtimal etsə də, cəbirə hökmü tətbiq edilir. Zərər qorxusu aradan qalxdıqda isə mümkün olduğu təqdirdə dəstəmaz almaq üçün cəbirəni dəstəmaz üzvünün üzərindən götürmək lazımdır.

**Məsələ 366.** Dəstəmaz üzvlərindən birində yara, çiban, yaxud sınıq olduqda zədələnmiş nahiyənin üstü açıqdırsa və su onun üçün təhlükəli deyilsə, yaxud üstü sarğılıdırsa, lakin sarğının heç bir əziyyət olmadan açılması mümkündürsə və su da həmin nahiyə üçün təhlükəli deyilsə, adi qaydada dəstəmaz almaq lazımdır. Həmin qayda ilə əgər cəbirənin altını irtimasi qaydada suya salıb yuya bilərsə cəbirə bu qaydada yuyulmalıdır, üzvü yuxarıdan aşağı yumaq lazım deyil. Buna əsasən bu məsələnin heç bir halında cəbirə dəstəmazı yerinə yetirilmir.

**Məsələ 367.** Su üzv üçün təhlükəlidirsə, lakin qızdırılmaqla, yaxud az miqdarda istifadə edilməklə bu təhlükə aradan qaldırıla bilərsə, lazımı tədbirlər görülməli və adi qaydada dəstəmaz alınmalıdır.

**Məsələ 368.** Üzvün sağlam və ya yaralı, yaxud sınıq olmasından asılı olmayaraq su onun üçün təhlükəli deyilsə, lakin həmin üzv nəcisdirsə və paklanması mümkün deyilsə, hərçənd paklamanın mümkünsüzlüyü vaxt və ya suyun azlığı ilə əlaqədar olsa da,yaxud paklama mümkündürsə, ancaq dözülməz dərəcədə məşəqqətlidirsə, təyəmmüm etmək lazımdır.

**Üçüncü və dördüncü şərtlər: Cəbirənin üzərinə məsh edilməlidir və məsh zamanı cəbirəli üzv hərəkətsiz olmalıdır**

**Məsələ 369.** Cəbirənin üzərinə yalnız məsh edilməlidir və cəbirənin üzərinin yuyulması kafi sayılmır. [1] Həmçinin, cəbirəli üzv məsh zamanı (hətta vacib ehtiyata əsasən, yuyulan üzvlər – üz və qollar da) hərəkətsiz olmalıdır.

**Məsələ 370.** Yuyulmalı olan dəstəmaz üzvlərindəki (üz və qollardakı) cəbirənin üzərinə məshin əllə edilməsi vacib deyil, istənilən şeylə edilə bilər və cəbirə dəstəmazı niyyəti ilə üz və qollara məsh etmək üçün sudan dəfələrlə istifadə etməyin eybi yoxdur. Bu hökm cəbirə qüslünə də şamildir.

**Məsələ 371.** Cəbirə məsh üzvlərində (baş və ayaqlarda) olarsa, onun üzərinə əldə qalan rütubətlə məsh etmək lazımdır və məsh üçün başqa sudan istifadə etmək olmaz.

**Beşinci şərt: Məsh üzvlərinin üzərindəki cəbirə quru olmalıdır**

**Məsələ 372.** Məsh üzvlərinin (baş və qolların) üzərindəki cəbirə quru olmalı, yaxud rütubəti o qədər az olmalıdır ki, məsh suyu ona üstün

---

[1] Cəbirənin üzərinə məsh etmədən onun ətrafının yuyulması ilə kifayətlənmək, vacib ehtiyata əsasən, caiz deyil və buna əsasən, cəbirənin üzərinə yalnız məsh edilməlidir və onun yuyulması kifayət etmir.

gəlsin və sözügedən rütubət ürfən məsh suyunda itmiş sayılsın. Beləliklə, məsh üzvlərinin üzərindəki cəbirə əlin rütubətinin ona üstün gələ bilməyəcəyi qədər yaş olarsa, həmin cəbirənin üzərinə məsh etmək doğru deyildir. Lakin yuyulan üzvlərin (üz və qollar) üzərindəki cəbirənin üzərinə məsh edilərkən quru olmasına gərək yoxdur.

**Altıncı və yeddinci şərtlər: Cəbirə pak və mübah olmalıdır**

**Məsələ 373.** Cəbirə pak olmalıdır. Nəcasətli olduğu təqdirdə isə yuyulmalı, dəyişdirilməli, yaxud üzərinə parça və ya plastik maddə kimi pak bir şey cəbirəyə yapışaraq ürfən onun bir hissəsi hesab ediləcək şəkildə bağlanmalıdır. Əgər cəbirənin səthi pakdırsa, ancaq alt layları nəcasətlidirsə, ehtiyata lüzum yoxdur.

**Məsələ 374.** Cəbirə qəsb edilmiş olmamalıdır və insan qəsb edilmiş cəbirəyə məsh etdikdə günah etmiş olur və onun dəstəmazı, vacib ehtiyata əsasən, batildir.

**Məsələ 375.** Cəbirənin mütləq namaz əsnasında insanın üzərində olması doğru sayılan şeylərdən olması şərt deyildir. Beləliklə, cəbirə ipək parça, qızıl, yaxud əti haram sayılan heyvanın bədəninin pak hissələrindən hazırlanmış olarsa, dəstəmaza xələl gətirmir. Cəbirə dəstəmazının doğruluğuna xələl gətirən məqamlar isə artıq hökmünü bəyan etdiyimiz kimi cəbirənin səthinin nəcasətli olması, yaxud onun qəsb edilmiş olmasıdır.

**Səkkizinci şərt: Cəbirə normal ölçüdə olmalıdır**

**Məsələ 376.** Yaranın, çibanın, sınığın və s. üzərinə qoyulan cəbirə normal ölçüdə olmalıdır. Əgər cəbirə normal ölçüdən artıqdırsa və artıq olan hissənin həddən ziyadə əziyyət çəkmədən götürülməsi mümkündürsə, həmin hissə götürülməlidir. Əgər artıq hissənin götürülməsi mümkün deyilsə, yaxud həddən ziyadə məşəqqətli olacaqsa və ya sağlam nahiyə üçün zərər törədə bilərsə, belə hallarda cəbirə təyəmmüm yerlərindən (alın və əllərdən) başqa bir yerdə olduğu təqdirdə təyəmmüm etmək, təyəmmüm yerlərində olduğu təqdirdə isə, vacib ehtiyata əsasən, həm cəbirə dəstəmazı almaq, həm də təyəmmüm etmək lazımdır. Lakin əgər artıq hissənin götürülməsi məhz zədələnmiş nahiyə üçün təhlükəlidirsə, bu halda hərçənd cəbirə təyəmmüm yerlərində olsa da, cəbirə dəstəmazı kifayətdir.

**Məsələ 377.** Yaranın üzərindəki cəbirə normal əndazədədirsə, onun yüngülləşdirilməsinə ehtiyac yoxdur. Habelə, ehtiyac olmadığı təqdirdə cəbirənin üzərinə başqa bir şeyin qoyulması, yaxud sarılması, qoyulduqdan və ya sarıldıqdan sonra cəbirənin tərkib hissəsinə çevrildiyi hal istisna olmaqla, caiz deyildir.

**Doqquzuncu şərt: Tərtibə riayət edilməlidir**

**Məsələ 378.** Adi qaydada dəstəmazda qollar yuxarıdan aşağıya doğru yuyulduğu kimi cəbirə dəstəmazında da qoldakı cəbirənin üzərinə

tərtib qaydasına riayət etməklə yuxarıdan aşağıya məsh edilməlidir. Həmçinin, üzdə cəbirə olarsa, vacib ehtiyata əsasən, cəbirənin üzərinə yuxarıdan aşağıya doğru məsh etmək lazımdır. Beləliklə, biləyində cəbirə olan, lakin qolunun yuxarı (bazuönü) və aşağı (əl) nahiyələri açıq olan şəxs öncə açıq olan yuxarı hissəni yumalı, sonra cəbirəli biləyin üzərinə tərtibə riayət etməklə məsh etməli, daha sonra açıq olan biləkdən aşağı hissəni yumalıdır.

**Məsələ 379.** Üz və qollarda birdən artıq cəbirə olarsa, onların arasında qalan hissələri tərtibə riayət etməklə yumaq lazımdır.

## Müxtəlif hallarda cəbirə dəstəmazının alınma qaydası

Yara, çiban, yaxud sınıq yuxarıda sadalanan şərtlərə cavab verdikdə cəbirə dəstəmazı müxtəlif hallarda aşağıdakı üsullarla alınır:

Yara, çiban, yaxud sınıq yuyulmalı olan üzvlərdədirsə (üz və ya qollardadırsa):

a) üstü örtülüdürsə:ətrafı yuyulmalı və cəbirənin üzərinə məsh edilməlidir.

b) üstü açıqdırsa:

Əgər yara, yaxud çibandırsa, sınığın olub-olmamasından asılı olmayaraq: ətrafını yumaq lazımdır və yara, yaxud çiban olan hissəni yumağa gərək yoxdur. Hərçənd, müstəhəb ehtiyata əsasən, onun üzərinə təmiz bir parça qoyaraq yaş əli parçanın üzərinə çəkmək lazımdır.

Əgər sınıq yarasız olarsa, təyəmmüm etmək lazımdır.

Yara, çiban, yaxud sınıq məsh üzvlərindədirsə:

a) üstü bağlıdırsa:dəstəmaz üçün cəbirənin üzərinə məsh etmək lazımdır.

b) üstü açıqdırsa: təyəmmüm etmək və müstəhəb ehtiyata əsasən, üzərinə pak bir parça qoyaraq parçanın üstünə əldə qalan dəstəmaz suyunun rütubəti ilə məsh etmək surəti ilə cəbirə dəstəmazı da almaq lazımdır.

**Məsələ 380.** Cəbirə ayağı eninə doğru bütünlüklə əhatə edirsə, lakin ayağın üstünün cəbirədən yuxarıda qalan bir hissəsi və eləcə də barmaqlar tərəfdə qalan bir hissəsi sarğısızdırsa, sarğısız yerlərin və cəbirənin üzərinə adi dəstəmazda olduğu kimi tərtibə riayət etməklə məsh etmək lazımdır.

**Məsələ 381.** Əl və barmaqlarında cəbirə olan və dəstəmaz əsnasında digər əlini yaş halda ona çəkən şəxs baş və ayaqlarına həmin rütubətlə məsh edə bilər. Hərçənd, müstəhəb ehtiyata əsasən, məsh əlin cəbirəsiz yeri ilə edilməlidir.

**Məsələ 382.** Cəbirə dəstəmaz üzvlərindən bəzilərini, məsələn, üzü, yaxud qolun birini tamamilə əhatə edirsə, cəbirə dəstəmazı kifayətdir. Lakin dəstəmaz üzvlərinin hamısını, yaxud təqribən hamısını əhatə edirsə, vacib ehtiyata əsasən, həm təyəmmüm etmək, həm də cəbirə dəstəmazı almaq lazımdır.

**Məsələ 383.** Dəstəmaz üzvlərinin hər hansı bir yerindən qan alınarsa, yaxud həcəmət edilərsə, su həmin nahiyə üçün zərərli olduğu təqdirdə ona öncəki məsələlərdə şərh edilən yara hökmləri tətbiq edilməlidir. Su zərərli deyilsə, lakin həmin üzvün nəcasətlənməsi, yaxud qanaxmanın dayanmaması ilə əlaqədar olaraq onu yumaq mümkün deyilsə, təyəmmüm etmək lazımdır.

**Məsələ 384.** Hər hansı bir göz xəstəliyindən əziyyət çəkən, gözü şişən, iltihablanan şəxsin sudan, ümumiyətlə, üzünü yumaq üçün istifadə etməsi təhlükəlidirsə, təyəmmüm almalıdır. Lakin göz ətraflarını yumaq mümkündürsə və göz üçün zərərli deyilsə, gözün üzəri məlhəmlə örtülmüş olduğu təqdirdə cəbirə dəstəmazı almaq kifayətdir, gözün üzəri məlhəmlə örtülmədiyi təqdirdə isə vacib ehtiyata əsasən, həm cəbirə dəstəmazı almaq, həm də təyəmmüm etmək lazımdır.

## Cəbirə dəstəmazı ilə əlaqədar digər hökmlər

**Məsələ 385.** Vəzifəsi cəbirə dəstəmazı, yaxud qüslü olan şəxs hərçənd namaz vaxtının sonunadək üzürlü halın aradan qalxacağını bilsə də, namazı vaxtının başlanğıcında qıla bilər. Lakin, müstəhəb ehtiyata əsasən, əgər vaxt bitənədək üzürlü vəziyyətin aradan qalxacağına ümid edirsə, bu halda gözləməli, üzürlü halı aradan qalxmadığı təqdirdə isə namazını vaxtı bitənədək cəbirə dəstəmazı, yaxud qüslü ilə qılmalıdır.

**Məsələ 386.** Vəzifəsi cəbirə dəstəmazı almaq olan və cəbirə dəstəmazı alan şəxs üzürlü halı aradan qalxdıqda və şəfa tapdıqda dəstəmazı qüvvədə qalır və onunla namaz qılmaq, yaxud Quranın yazısına toxunmaq kimi dəstəmaza ehtiyac duyulan işləri görə bilər.

Qeyd etmək lazımdır ki, vəzifəsi həm cəbirə dəstəmazı, həm də təyəmmüm olan hallarda üzürlü hal aradan qalxdıqdan, şəfa tapdıqdan sonra həmin dəstəmaz kafi sayılmır və yerinə yetirilməsi üçün dəstəmaza ehtiyac duyulan işlər üçün dəstəmaz almalıdır. Bu məsələ cəbirə qüslünə də aiddir.

**Məsələ 387.** Əgər insan dəstəmaz üzvlərində yara, çiban, yaxud sınıq olduğunu və suyun onun üçün zərərli olduğunu düşünərək cəbirə dəstəmazı, yaxud qüslü haqqında göstərişə uyğun hərəkət edərsə, sonradan dəstəmaz üzvlərində hər hansı bir yara, çiban, yaxud sınıq olmadığı aşkara çıxarsa, onun dəstəmaz, yaxud qüslü batildir və belə dəstəmaz və ya qüsllə qıldığı namazları vaxtı bitmədiyi təqdirdə yenidən qılmalı, vaxtı bitdiyi halda isə qəzasını qılmalıdır. Lakin əgər dəstəmaz üzvlərində həqiqətən yara, çiban, yaxud sınıq olarsa və insan suyun zərərli olduğunu düşünərək cəbirə dəstəmazı, yaxud qüslü göstərişlərinə əməl edərsə, sonradan əslində suyun zədələnmiş nahiyə üçün zərərli olmadığı məlum olarsa, dəstəmaz və qüslü doğru sayılır.

**Məsələ 388.** Mükəlləf suyun dəstəmaz almaq, yaxud qüsl etmək üçün zərərli olmadığını düşünərək adi qaydada dəstəmaz alar, yaxud qüsl edərsə və sonradan suyun onun üçün zərərli olduğunu və əslində vəzifəsinin cəbirə dəstəmazı, yaxud qüslü olduğunu başa düşərsə, dəstəmaz və ya qüslü yeniləməlidir.

**Məsələ 389.** Mükəlləf suyun onun üçün zərərli olduğunu düşündüyü halda cəbirə dəstəmazı, yaxud qüslündən imtina edərək adi qaydada dəstəmaz alar, yaxud qüsl edərsə və suyun onun üçün təhlükəli olmadığını, vəzifəsinin dərini yumalı olduğunu başa düşərsə, vacib ehtiyata əsasən, dəstəmaz və ya qüslü yeniləməlidir.

**Məsələ 390.** Vəzifəsinin cəbirə dəstəmazı almaq, yoxsa təyəmmüm etmək olduğunu bilməyən şəxs ehtiyatən hər ikisini yerinə yetirməlidir.

## Cəbirə qüslü ilə bağlı hökmlər və şərtlər

**Məsələ 391.** Cəbirə tərzində edilən qüsllərə (cənazə qüslü istisna olmaqla) cəbirə dəstəmazının hökm və şərtləri şamil olunur. Lakin lazım ehtiyata əsasən, cəbirə qüslü tərtibi qaydada yerinə yetirilməlidir. Əgər bədəndə yara, çiban və ya yaralı (irinli, yaxud kəsilmiş-deşilmiş yara) sınıq olarsa və su onun üçün təhlükəli olarsa, sarğılı olub-olmamasından asılı olmayaraq mükəlləf qüsl və təyəmmüm arasında seçim edə bilər. Qüslü seçdiyi və zədələnmiş yer sarğılı olduğu təqdirdə onun üzərinə məsh etməli, zədələnmiş yer sarğısız olduğu təqdirdə isə onun ətrafını qüsl niyyəti ilə yumalı və müstəhəb ehtiyata əsasən, zədələnmiş nahiyənin üzərinə pak bir parça qoyaraq parçanın üzərinə məsh etməlidir. Lakin bədənində yarasız sınıq olarsa, su onun üçün təhlükəlidirsə və sarğısızdırsa, qüsl əvəzinə təyəmmüm etməli, sarğılı olduğu və cəbirənin üzərinə məsh etmək mümkün olduğu təqdirdə cəbirənin üzərinə məsh etməklə qüsl etməli, cəbirənin üzərinə məsh etmək mümkün olmadığı halda isə təyəmmüm etməlidir. Ancaq bu cəbirə təyəmmüm üzvlərində

olarsa, vacib ehtiyata əsasən, bu halda həm qüsl, həm də təyəmmüm etməlidir.

**Məsələ 392.** İnsan cəsədində suyun dəriyə toxunmasının qarşısını alan bir maneə vardırsa, mümkün olduğu təqdirdə aradan qaldırılmalıdır. Aradan qaldırılması mümkünsüz, yaxud həddən ziyadə çətin, dözülməz dərəcədə məşəqqətli olduğu halda isə cəsəd üçün cəbirə qüslünün şəriətə uyğunluğu məlum deyil və ona təyəmmüm etmək vacibdir. Hərçənd, müstəhəb ehtiyata əsasən, təyəmmümlə yanaşı cənazəyə, xüsusən, bədənindəki aradan qaldırıla bilməyən maneə cüzi həcmdə olduğu təqdirdə qüsl də verilməlidir.

Qeyd etmək lazımdır ki, bu deyilənlər sözügedən maneənin cəsədin təyəmmüm üzvlərində olmadığı hallara şamildir. Əks təqdirdə isə cənazəyə həm təyəmmüm etmək və həm də qüsl vermək vacibdir və bu halda cənazəyə qüsl verilərkən, vacib ehtiyata əsasən, mümkün olduğu təqdirdə cəbirə dəstəmazı, yaxud qüslündə olduğu kimi cəsəddəki maneənin üzərinə məsh edilməlidir.

## Cəbirə təyəmmümünün hökmü

**Məsələ 393.** Əgər mükəlləfin vəzifəsi təyəmmüm almaqdırsa və təyəmmüm üzvlərində cəbirə vardırsa, məsələn, alnında, yaxud əllərinin üstündə yara, çiban və ya sınıq vardırsa, cəbirə dəstəmazı ilə bağlı göstərişlərə uyğun qaydada cəbirə təyəmmümü etməlidir.

## Quran və mübarək adlarla bağlı bəzi hökmlər

**Məsələ 394.** Dəstəmazsız insanın Quranın mətninə toxunması, yəni bədəninin hər hansı bir yerini, məsələn, əlini, ayağını, üzünü, dodağını, sinəsini, dilini, dişini və s. Quranın yazısına toxundurması haramdır və Qurana dəstəmazsız toxunmağın haramlığı xüsusunda onun hər hansı bir ayəsinə, sözünə, yaxud hərfinə toxunmaq arasında heç bir fərq yoxdur.

**Məsələ 395.** Quran və eləcə də digər mətnlərdə rast gəlinən sözlər xüsusunda onların yanaşı düzüldükdə ürfən Quran mətni hesab edilməsi meyar götürülür və burada mətni yazanın niyyətinin heç bir təsir qüvvəsi yoxdur. Əlbəttə ki, bu qəbildən olan Quran sözləri hissələrə ayrıldıqdan sonra da ehtiyatın tələbinə riayət etməyi unutmamaq lazımdır, yəni əgər əvvəl bir ibarə (söz birləşməsi, yaxud cümlə) Quran mətni hesab edilirdisə və indi parçalara ayrıldığına görə ürfən Quran mətni hesab edilmirsə, lazım ehtiyata əsasən, bədəni həmin yazıya dəstəmazsız toxundurmamaq lazımdır.

**Məsələ 396.** Quran mətninin üzərində şüşə, nazik plastik qoruyucu qatı, yaxud zərvərəq (üzərinə qızıl suyu çəkilmiş kağız) olarsa və

Quranın yazısı onun altından görünərsə, sadalanan şeylərə dəstəmazsız halda toxunmağın eybi yoxdur.

**Məsələ 397.** Qeyd edilən hökmdə Quranın üzərində yazıldığı şeyin cinsinin heç bir fərqi yoxdur. Buna əsasən, üzərində Qurandan yazılar olan kağız, lövhə, parça, paltar, yer, divar və s. , hətta vacib ehtiyata əsasən,üzərinə Qurandan bir parça yazılmış sikkə və əsginaslara (metal və kağız pullara) da dəstəmazsız halda əl vurmaq ehtiyata əsasən caiz deyil. Həmçinin, Quranın yazıldığı xətlər (qrafikalar) arasında fərq yoxdur. Hətta kufi xətti kimi artıq arxaikləşmiş, istifadə edilməyən xətlərlə yazıldıqda belə Quran mətninə dəstəmazsız toxunmaq haramdır. Həmçinin, yazı üsulları, o cümlədən əl yazısı (qələmlə), çap, qravüra, oyma,qabarıqyazılar, naxışlama və s. arasında heç bir fərq yoxdur.

**Məsələ 398.** Quranın yazısından başqa yerlərə, məsələn, sətirlərin arasına, vərəqin kənarlarına, cildinə, yaxud üzlüyünə dəstəmazsız toxunmaq haram deyil, lakin məkruhdur. Həmçinin, yazıların bədənə bilavasitə toxunmadığı təqdirdə Quranın boyundan, yaxud paltardan asılması və insanın onu üzərində daşıması məkruhdur.

**Məsələ 399.** Qurana toxunmağın haramlığı yalnız mükəlləflərə aiddir. Beləliklə, uşağı və dəlini Qurana toxunmaqdan çəkindirmək vacib deyil. Lakin onların toxunması Qurana qarşı hörmətsizliklə nəticələnərsə, məsələn, onu cırarlarsa, yaxud üzərində oturarlarsa və ya nəcasətə bulaşdırarlarsa, bu qəbildən olan hərəkətlərin qarşısı alınmalıdır. Quranı öyrənmək və bu qəbildən olan məqsədlərlə hərçənd dəstəmazsız halda toxunacaqlarını bildikdə belə uşaqların əlinə vermək olar. Hətta uşaqların Quranın yazısına toxunmasına səbəb olmaq, məsələn, onların əlindən tutaraq Quranın mətninin üzərinə qoymaq da hörmətsizlik olmayacağı təqdirdə caizdir.

**Məsələ 400.** Quranın mətnini və onun yazıldığı vərəqi nəcasətləmək hörmətsizliyə səbəb olduğu halda haramdır və nəcasətləndikdə onu dərhal suya çəkmək lazımdır. Həmçinin, hörmətsizliyə səbəb olmadığı halda da vacib ehtiyata əsasən, nəcasətlənməsi haram, nəcasətləndikdə yuyulması isə vacibdir. Quranın cildi nəcasətlənərsə, hörmətsizlik sayıldığı halda onu yumaq lazımdır.

**Məsələ 401.** Quranı sirayətedici rütubəti olmayan özlüyündə nəcis bir şeyin, məsələn, qurumuş qan laxtasının, yaxud murdar (şəri kəsim qaydalarına uyğun olaraq kəsilməyən) heyvanın dərisindən hazırlanmış dəri məmulatının üzərinə qoymaq hörmətsizliyə səbəb olduğu halda haramdır və Quranı onun üzərindən götürmək vacibdir.

**Məsələ 402.** Quran mətninin kafirə satılması, vacib ehtiyata əsasən, doğru deyildir. Həmçinin, Quranın kafirə verilməsi ona qarşı hörmətsizlik

sayıldığı, yaxud hörmətsizliyə səbəb ola biləcəyi təqdirdə haramdır. Lakin Quranın kafirə verilməsi onun haqq yola yönəldilməsi məqsədini daşıyarsa və ona qarşı hər hansı bir hörmətsizlik baş verməyəcəksə, eybi yoxdur.

**Məsələ 403.** Quranı, hətta onun bir hərfini belə nəcis mürəkkəblə yazmaq onu nəcasətləmək hökmünü daşıyır, yəni hörmətsizliyə səbəb olduğu halda haramdır və yazılarsa, su və ya başqa bir vasitə ilə onu nəcis mürəkkəb aradan gedəcək şəkildə məhv etmək lazımdır.

**Məsələ 404.** Quran məqsədyönlü şəkildə olmadan insanın əlindən düşərsə, bunun üçün hər hansı bir kəffarə yoxdur, lakin onu dərhal yerdən qaldırmaq və gərəkli ehtiramı göstərmək lazımdır.

**Məsələ 405.** Vacib ehtiyata əsasən, dəstəmazsız şəxsin hansı dildə yazılmasında asılı olmayaraq uca Allahın adına (خدا , الله **, GOD)**[1]bədəni ilə toxunması caiz deyil və həmçinin, hansı dildə yazılmasından asılı olmayaraq Onun vəsf olunduğu xüsusi sifətlərə toxunmaq da bu qəbildəndir.

**İlahi sifətlərə toxunmaın izahı aşağıdakı qayda ilədir.**

Mütəal Allah üçün sifətləri iki hissədən ibarətdir:

*Birinci qisim:* ,,Ər-Rəhman ,, adı kimi Uca Allahdan başqası üçün işlədilməz və həmçinin ,, Muqəllib-əl-Qulub,, kimi bəzi sifətlər vardır ki, yalnız Subhan olan Allah bu süsusiyyətlərə sahibdir. Bu sifətlədə olan adlara vacib ehtiyata əsasən dəstəmazsız toxunmaq düzgün deyildir.

***İkinci qisim :* Bəzi sifətlər vardır ki, Mütəaal Allahdan başqası da bu sifətlərə sahib olmaqla bu adlardan istifadə edir ki, bunlar da iki qisimə bölünür:**

a) Əksər hallarda yalnız Allah üçün işlədilən sifətlər. ,,Rəbb,, və ,,Xaliq,, kimi adlar izah və nişanələr qeyd olunmadan işlədilərsə dərhal Uca Allaha işarə olunduğu aydınlaşır. Bu sifətlər əgər nişanələr qeyd olunmadan işlədilərsə yaxud cümlələrdə istifadədə Uca Allaha işarə etmək kimi başa düşülərsə vacib ehtiyata əsasən bu sifətlərə dəstəmazsız toxunmaq caiz deyildir. Bu iki haldan başqa hallarda bu sifətlərə dəstəmazsız toxunmaq caizdir.

b) Allah və Ondan başqası üçün istifadə olunan sifətlər : ,, Rəhim,, və ,,Əzim,, kimi adlar əgər izah və nişanələrlə olarsa, bu adların Allah və yaxud başqası üçün işlədilməsi məlum olmur. Bu adlara toxunmaq Uca Allaha işarə edilən qeyd və nişanələrlə olarsa vacib ehtiyata əsasən caiz deyildir. Əks halda toxunmaq icazəlidir.

Müstəhəb ehtiyata əsasən, Allahın elçisinin (s), Əhli-beyt imamlarının (ə) və Həzrət Fatimənin (s. ə) də nəcib adlarına dəstəmazsız halda toxunmamalıdır.

**Məsələ 406.** İnsanın uca Allahın adı olan həmayil və bu qəbildən olan əşyaları üzərində saxlamasının eybi yoxdur, lakin vacib ehtiyata

[1] Allah isminin müxtəlif dillərdə ekvivalentlərinə. *tərc.*

əsasən, ismi-cəlalənin (Allahın uca adının) dəstəmazsız halda bədənə toxunmaması üçün onu paltarın üstündən asmalıdır, yaxud ismi-cəlalə onu bədənlə bilavasitə təmasdan qoruyan cild, yaxud qılafla örtülmüş olmalıdır.

**Məsələ 407.** Quranın fars və ya başqa bir dilə tərcümə olunmuş mətninə uca Allahın adını ifadə edən xüsusi isim və Onu vəsf edən sifətlər istisna olmaqla dəstəmazsız halda toxunmaq haram sayılmır.

**Məsələ 408.** الله adı yerinə yazılan" . . .ا", həmçinin, "Allah" adını əvəz edən əvəzliyə, məsələn,بسمه تعالى (Onun uca adı ilə) ifadəsindəki «ـه» ("O" bitişən əvəzliyi) və هو الباقي(Odur Baqi) ifadəsindəki və «هو» (ayrı yazılan "O" əvəzliyi) üzərinə dəstəmazsız halda toxunmaq olar.

**Məsələ 409.** Vacib ehtiyata əsasən, ləfz-i cəlaləyə hətta Abdullah, Həbibullah kimi mürəkkəb adların tərkib hissəsi olduqda da toxunmaq caiz deyildir.

**Məsələ 410.** Quranın vərəqi, yaxud ehtiram göstərilməli olan hər hansı bir şey, məsələn, uca Allahın adının, Peyğəmbərin (s) və ya məsumlardan (ə) birinin adının, yaxud onların ləqəb və künyələrinin yazıldığı kağız ayaqyoluna düşərsə, çıxarılması və yuyulması hətta müəyyən xərc tələb etdiyi təqdirdə belə dərhal yerinə yetirilməsi vacib olan bir işdir. Çıxarılması mümkün olmadığı halda isə insan sözügedən vərəqin çürüdüyünə əmin olmayınca orada ayaqyoluna çıxmamalıdır. Lakin başqalarına bununla bağlı məlumat verməK vacib deyildir. Həmçinin, İmam Hüseynin (ə) türbəti ayaqyoluna düşərsə və çıxarılması mümkün olmazsa, insan onun tamamilə axıb getdiyinə əmin olmayınca orada ayaqyoluna çıxmamalıdır.

**Məsələ 411.** İmam Hüseynin (ə) müqəddəs qəbrindən təbərrük məqsədilə götürülmüş türbət nəcasətə bulaşarsa, ürfən hörmətsizlik hesab edildiyi təqdirdə nəcasətdən təmizlənməsi vacibdir və İslam Peyğəmbərinin (s) və eləcə də digər məsum imamların (ə) münəvvər qəbirlərindən təbərrük məqsədilə götürülən türbətlər də nəcasətlənmə və paklanma məsələsində Şəhidlərin sərvəri Həzrət Hüseynin (ə) türbəti ilə eyni hökmü daşıyır. Həmçinin, Şəhidlərin sərvərinin (ə) türbətinin onun qəbrinin üzərindəki torpaqdan götürülməsi ilə başqa bir yerdən torpaq gətirilərək qəbrin üzərinə qoyulub sonra təbərrük və şəfa tapmaq məqsədilə götürülməsi arasında heç bir fərq yoxdur.

**Məsələ 412.** Əhli-beyt (ə) mənsublarının adını daşıyan "İmam Rza xiyabanı", "İmam Hüseyn meydanı", "Həzrət Zəhra hüseyniyyəsi" və "Musa ibn Cəfər məscidi" kimi yer adlarına hörmətsizlik (məsələn, onların yazıldığı şeylərin tapdalanması, yaxud zibil yeşiyinə atılması) caiz deyildir.

**Məsələ 413.** Mübarək adlara ehtiram göstərilməlidir və onların ürfən hörmətsizlik kimi qəbul ediləcək yerlərə atılması caiz deyil. Bu səbəbdən, daha yaxşı olar ki,bu qəbildən olan adların və sözlərin yazıldığı materialları saxlamaq, yığmaq üçün bir qutu, yaxud yer ayrılsın və vaxtaşırı olaraq orada yığılan materiallar çöllülərdə, yaxud hər hansı pak yerin bir küncündə torpağa basdırılsın və ya dənizə, yaxud axar suya atılsın. Həmçinin, sözügedən yazıların hətta bəzi kimyəvi maddələrdən istifadə üsulu ilə də məhv edilməsi caizdir, lakin Quran ayələrinin, Qurani-kərim nüsxəsinin vərəqlərə ayrılmış parçalarının, yaxud uca Allahın və məsumların (ə) mübarək adlarının yandırılması heç bir vəchlə caiz deyildir.

# QÜSL

## Vacib qüsllər

**Məsələ 414.** Vacib qüsllərin sayı səkkizdir:

1) cənabət qüslü;
2) heyz qüslü;
3) nifas qüslü;
4) istihazə qüslü;
5) məssi-meyit (cənazəyə toxunma) qüslü;
6) meyit qüslü;
7) şəriətdə göstərilən qaydada nəzir, əhd, and və bənzər səbəblərlə əlaqədar olaraq vacib olan müstəhəb qüsllər;
8) tam Günəş tutulması, yaxud tam Ay tutulması zamanı mükəlləfin ayat namazını qəsdən qəzaya qalanadək qılmadığına görə, vacib ehtiyata əsasən, onun qəzasını qılmaq üçün almalı olduğu qüsl.

## Cənabətlə bağlı hökmlər

**Məsələ 415. İki halda insan cünub (cənabətli) olur:**

1) cinsi əlaqə nəticəsində;
2) yuxuda, yaxud oyaq halda baş verməsindən, həcmindən, şəhvət hissləri ilə müşayiət olunub-olunmamasından və ixtiyari, yaxud qeyri-ixtiyari surətdə baş verməsindən asılı olmayaraq məni (sperma) ifrazı nəticəsində.

**Məsələ 416.** Əgər kişidən məni, idrar, yaxud başqa bir şey olduğunu bilmədiyi bir maye ifraz olarsa, şəhvət və sıçrayışla ifraz olduğu və ifraz olduqdan sonra bədənin süstləşdiyi təqdirdə həmin mayeyə məni hökmü şamil olunur. Lakin bu üç əlamətdən heç biri, yaxud bəzisi olmazsa, məni hökmü şamil olunmur. Bununla belə, xəstə insanlarda spermanın sıçrayışla ifraz olması və bu əsnada bədənin süstləşməsi şərt sayılmır və əgər şəhvətlə ifraz olarsa, məni hökmü şamil olunur.

**Məsələ 417.** Qadınların mazaqlaşma, yaxud şəhvət oyandıran təsəvvürlər əsnasında cinsiyyət orqanlarında hiss etdikləri rütubət ətrafa sirayət etməyən dərəcədə olarsa pakdır, qüsl lazım deyil və dəstəmazı da pozmur. Ancaq qadınlardan şəhvətlə ifraz olan rütubət boşalma

(eyakulyasiya) adlandırılacaq həddə olarsa və geyimlərinə sirayət edərsə (adətən, bu maye qadının cinsi həzzin zirvəsinə, orqazma çatması əsnasında ifraz olur), nəcisdir və cənabətlənməyə səbəb olur. Bu cəhət, yəni cinsi həzzin zirvəsinə çatma qeyd edilən hökm üçün şərt sayılmır və sadəcə şəhvətlə boşalma hesab edilmə lazım ehtiyata əsasən nəcisdir və cənabət halının gerçəkləşməsi üçün kifayətdir. Əgər qüsldən sonra qadının daxili cinsiyyət orqanlarında qalan kişi sperması xaric olarsa, qadına qüsl vacib olmur, lakin həmin məni nəcis sayılır və bədənin hər hansı hissəsinə, yaxud paltara dəydiyi təqdirdə onu da nəcasətləndirir.

**Məsələ 418.** Xəstə olmayan kişidən 416-cı məsələdə qeyd edilən üç əlamətdən birinə malik olan bir maye ifraz olarsa və digər əlamətlərin də olub-olmamasını bilməzsə, cunub sayılmır və qusl vacib deyil.

**Məsələ 419.** Müstəhəbdir ki, kişi sperma ifrazından sonra idrar etsin. Əgər idrar etməsə və qüsldən sonra sperma, yaxud başqa bir ifrazat olduğunu bilmədiyi bir maye ifraz olarsa, həmin mayeyə məni hökmü şamil olunur və sözügedən şəxs cünub sayılır. Qadınlar üçün isə belə bir istibra yoxdur və onlardan ifraz olan şübhəli mayeyə məni hökmü şamil olunmur.

**Məsələ 420.** Kişi qadınla vaginal, yaxud anal cinsi əlaqədə olarsa və cinsiyyət orqanı sünnət yerinədək onun vaginasına, yaxud anus dəliyinə daxil olarsa, hətta sperma ifraz olmasa belə, hər ikisi cünub olur və bu hökmdə onların həddi-büluğa çatıb-çatmaması, aqil, yaxud dəli olması və məqsədli, yaxud məqsədsiz şəkildə cinsi əlaqədə olması arasında heç bir fərq yoxdur. Lakin kişi cinsiyyət orqanının sünnət yerinədək daxil olub-olmadığına şəkk edərsə, ona qüsl vacib deyildir.

**Məsələ 421.** Əgər kişi – Allah qorusun – bir heyvanla, yaxud başqa bir kişi və ya oğlanla cinsi əlaqədə olarsa və ondan məni ifraz olarsa, yalnız qüsl etməsi kifayətdir. Məni ifraz olmazsa, cinsi əlaqədən öncə dəstəmazlı olduğu təqdirdə yenə də təkcə qüsl etməsi kifayətdir, lakin dəstəmazsız olduğu təqdirdə, vacib ehtiyata əsasən, həm qüsl etməli, həm də dəstəmaz almalıdır.

**Məsələ 422.** Əgər məni yerindən hərəkət edərsə, lakin ifraz olmazsa, yaxud insan onun ifraz olub-olmamasına şəkk edərsə, həmçinin, yuxuda şeytanı olduğunu (möhtəlimlik, pollyusiya) görərsə, lakin ayıldıqdan sonra mənidən əsər-əlamət görməzsə,ona qüsl etmək vacib deyildir.

**Məsələ 423.** Qüsl edə bilməyən, yaxud qüsl etmək üçün suyu olmayan, lakin təyəmmüm edə bilən şəxs namaz vaxtının başlamasından sonra da həyat yoldaşı ilə cinsi əlaqədə ola bilər. Ancaq cinsi əlaqədən başqa bir yolla, məsələn mazaqlaşma nəticəsində cünub olmaq vacib ehtiyata əsasən düzgün deyil.

**Məsələ 424.** İnsan paltarında məni sperma görərsə, onun öz sperması olduğuna və onun üçün qüsl etmədiyinə əmin olarsa, qüsl etməli və spermanın ifraz olmasından sonra qıldığına əmin olduğu namazlarını vaxtı bitmədiyi təqdirdə yenidən qılmalı, vaxtı bitdiyi təqdirdə isə onların qəzasını qılmalıdır. Lakin həmin sperma ifrazından öncə qıldığını ehtimal etdiyi namazlarının qəzasını qılmasına gərək yoxdur.

## Cənabət qüslü tələb edən hallar

**Məsələ 425. Cənabət qüslü öz-özlüyündə vacib deyil, təharətin şərt sayıldığı işlərdə vacib olur:**

1- vacib namaz, onun unudulmuş hissələri və hərçənd müstəhəb həcc, yaxud ümrə ziyarəti çərçivəsində olsa belə, ehram nəticəsində vacib olan təvaf kimi vacib əməllər üçün vacib olur və bu əməllərin doğru sayılması üçün bir şərtdir. Lakin cənazə namazı, səhv səcdəsi, şükür səcdəsi və oxuyarkən, yaxud eşidərkən səcdə etməyin vacib olduğu ayələrlə əlaqədar olan səcdə üçün cənabət qüslü lazım deyil və bu əməllər cənabət quslu olmadan da səhihdir.

2- Bəzən cənabət qüslü bir işin icrasının doğru sayılması, haram olmaması üçün bir şərtdir, yəni həmin işi qüslsüz yerinə yetirmək, məsələn, cənabətli halda Quranın yazısına toxunmaq haramdır.

3- Bəzən bir əməlin səhih olmağı üçün cənabət qüslü şərtdir. Məsələn müstəhəb namaz qılmaq.

4- Bəzən də bir işin kamilliyi, yəni onun icrası nəticəsində savaba nail olmaq, yaxud daha çox savab qazanmaq üçün şərtdir. Məsələn, cənazə namazı, Quran qiraəti, dua və uca Allahdan hacət diləmək və azan bu qəbildəndir.

5- Bəzən isə bir işin məkruhluğunu aradan qaldırmaq üçün şərtdir. Məsələn, cənabətli halda yatmaq məkruhdur, lakin qüsl (yaxud dəstəmaz) aldıqda məkruhluq aradan qalxır.

**Məsələ 426.** Cənabət qüslü əsnasında insanın vacib, yaxud müstəhəb qüsl niyyəti etməsinə gərək yoxdur, Allaha yaxınlaşmaq niyyəti ilə, yəni Onun qarşısında öz itaətkarlığını nümayiş etdirmək üçün qüsl edərsə, kifayətdir.

## Cünuba haram olan hərəkətlər

**Məsələ 427.** Yeddi şey cünuba haramdır:

1) Bədənin hər hansı bir hissəsini Quranın yazısına toxundurmaq.

2) Vacib ehtiyata əsasən, bədənin hər hansı bir hissəsini hansı dildə olmasından asılı olmayaraq uca Allahın müqəddəs adına (ləfzi-cəlaləyə)

və eləcə də digər gözəl adlara (əsma əl-hüsnaya), həmçinin müstəhəb ehtiyata əsasən, peyğəmbərlərin, imamların və Həzrət Fatimənin (Onların hamısına Allahın salamı olsun!) adlarına toxundurmaq.

3) Hətta bir qapıdan daxil olub, digər qapıdan çıxmaq surəti ilə olsa belə Məscid əl-haram və Məscid ən-Nəbiyə daxil olmaq.

4) Digər məscidlərdə dayanmaq. Lakin məscidin içindən ötüb keçməyin, yəni bir qapısından girərək, digər qapısından çıxmağın eybi yoxdur. Həmçinin, məsum imamların (ə) müqəddəs ziyarətgahlarına da, vacib ehtiyata əsasən, bu məsələdə məscid hökmü şamil olunur və ziyarətgah deyərkən "rövzə", yəni onların müqəddəs qəbirləri və qəbrin ətrafındakı zərihin yerləşdiyi sahə nəzərdə tutulur, tağtavan və meydanlar isə rövzə sayılmır. Lakin tağtavan və meydanların məscid olduğu müəyyən edilərsə, bu hökm onlara da şamil olunur. İmamzadələrin məqbərələrinə məsum imamların məqbərələri ilə bağlı hökm şamil olunmur. Ancaq imamzadələrin ziyarətgahlarında yerləşən, məscid olduğu sabit olan məkanlara məscid hökmü şamil olunur. Qeyd etmək lazımdır ki, məscid sayılmayan evlərdə, idarələrdə, müəssisələrdə, məktəblərdə və s. yerlərdəki namazxanalara, həmçinin, hüseyniyyələr, şəhid məzarlığı, mömin qəbiristanlığı kimi yerlərə məscid hökmü şamil olunmur.

5) Hər hansı bir şey götürmək məqsədilə məscidə daxil olmaq.

6) Lazım ehtiyata əsasən, hətta məscidin içindən ötüb keçərkən, yaxud məscidə daxil olmadan, kənardan belə olsa, məscidə bir şey qoymaq.

7) Vacib səcdəsi olan ayələrdən hər hansı birini oxumaq. Bu ayələr dörd surədədir:

Quranın 32-ci (Səcdə) surəsinin 15-ci ayəsi;
41-ci (Fussilət) surəsinin 37-ci ayəsi;
53-cü (Nəcm) surəsinin sonuncu ayəsi;
96-cı (Ələq) surəsinin axırıncı ayəsi.

Müstəhəb ehtiyata əsasən, cünub bu dörd səcdəli surənin digər ayələrini də oxumamalıdır.

## Cünuba məkruh olan hərəkətlər

**Məsələ 428.** Doqquz şey cünuba məkruhdur:

1) və 2) yemək və içmək (lakin dəstəmaz alarsa, yaxud əl-üzünü yuyarsa və ağzını yaxalayarsa, məkruh sayılmır, yalnız əlini yuduqda isə məkruhluq azalır);

3) Quranın vacib səcdəsi olmayan yeddidən artıq ayəsini oxumaq;

4) bədənin hər hansı bir hissəsini Quranın cildinə, haşiyəsinə, yaxud yazılarının arasındakı boş yerlərə toxundurmaq;

5) Quranı üzərində saxlamaq;
6) yatmaq (lakin dəstəmaz alarsa, yaxud su tapılmadığından qüsl əvəzinə təyəmmüm edərsə, məkruh sayılmır)
7) xına və bu qəbildən olan şeylərdən istifadə etmək;
8) bədənə müxtəlif növ yağ və kremlərin sürtülməsi;
9) pollyusiyadan, yəni yuxuda sperma ifraz olduqdan sonra oyandıqda cinsi əlaqəyə girmək.

## Qüslün qaydası

**Məsələ 429.** Cənabət qüslünü və meyit qüslü istisna olmaqla digər vacib və müstəhəb qüslləri iki cür yerinə yetirmək olar: tərtibi və irtimasi qaydada. Tərtibi qaydada qüsl bədənin sağ və sol tərəfləri arasında ardıcıllığa riayət edildiyi təqdirdə irtimasi qüsldən daha üstündür. Meyit qüslünə gəlincə, vacib ehtiyata əsasən, tərtibi qaydada yumaq mümkün olduqca, cənazə irtimasi qaydada qüsl edilməməlidir.

## Tərtibi qüsl

**Məsələ 430.** Tərtibi qüsldə qüsl niyyəti ilə, lazım ehtiyata əsasən, öncə bütövlüklə baş və boyun, sonra bədən yuyulmalıdır və müstəhəbb ehtiyata əsasən, əvvəlcə bədənin sağ, sonra sol tərəfi yuyulsun. [1]

**Məsələ 431.** Tərtibi qüslü suya dalmaq surəti ilə də yerinə yetirmək olar. Belə ki, insan bir dəfə baş və boyun, ikinci dəfə isə bədənini yumaq niyyəti ilə suya dalarsa, qüslü doğrudur. Hərçənd, müstəhəb ehtiyata əsasən, üç dəfə - bir dəfə baş və boyun, ikinci dəfə sağ tərəf, üçüncü dəfə isə sol tərəfi yumaq niyyəti ilə suya dalmalıdır.

**Məsələ 432.** Tərtibi qüslün bədənin üç hissəsinin hər birini suyun altında qüsl niyyəti ilə hərəkət etdirməklə gerçəkləşdiyini söyləmək çətindir və vacib ehtiyat bununla kifayətlənməməyi tələb edir. Beləliklə, insan hovuzun içindədirsə və tərtibi qaydada qüsl etmək isəyirsə, vacib ehtiyata əsasən, sudan çıxmalı, yaxud heç olmazsa yumaq istədiyi yeri sudan çıxarmalı, sonra tərtibi qüsl niyyəti ilə suya salmalıdır.

Həmçinin, əgər baş və bədən duşun altındadırsa və su üzərindən axırsa, lazım ehtiyata əsasən, yumaq istədiyi yeri duşun altından kənara çəkməli, sonra qüsl niyyəti ilə duşun altına tutmalıdır. Bu məsələni bilməyən və öncəki qüsllərində ona riayət etməyən şəxs keçmiş qüsllərinin doğru hesab edilməsi üçün ələmlik dərəcəsi üzrə ardıcıllığa riayət etməklə bu ehtiyatı lazım bilməyən başqa bir ələm müctəhidə müraciət edə bilər. Əgər o ələm müctəhid bu nöqtəyə əməl etməyi lazım bilməsə,

[1] İstisna olaraq meyit qüslündə sağ tərəfin sol tərəfdən əvvəl yuyulması zəruridir. Bu barədə meyit qüslü ilə bağlı hökmlərdə məlumat veriləcəkdir.

bu məsələdə ona təqlid edə bilər ki, indiyə qədər və bundan sonra bu qayda ilə aldığı qusllər işkalsız olsun.

## İrtimasi qüsl

İrtimasi qüsl iki tərzdə icra edilə bilər: dəfi (birdəfəlik) və tədrici.

**Məsələ 433.** Dəfi irtimasi qüsldə eyni anda su bütün bədəni əhatə etməlidir. Lakin qüslə başlamazdan öncə bütün bədənin sudan kənarda olması şərt sayılmır. Bədənin bir hissəsi sudan qıraqda olarsa və bu halda insan qüsl niyyəti ilə suya dalarsa, kifayətdir.

**Məsələ 434.** Tədrici irtimasi qüsldə isə bədəni qüsl niyyəti ilə tədricən və ürfən qüsl prosesinin vahidliyini qorumaqla suya salmaq lazımdır və bu qaydada alınan qüsldə hər bir üzv qüsl niyyəti ilə yuyulmazdan öncə suyun xaricində olmalıdır.

Qeyd etmək lazımdır ki, bu qaydada alınan qüsldə bədənin tam olaraq eyni anda suyun altında olmazı lazım deyil. Buna əsasən qüsl niyəti ilə bəzi əzalarını suyun altına salan şəxs, o əzalarını sudan çıxardıb digər əzalarını suya sala bilər.

**Məsələ 435.** İnsan irtimasi qüsldən sonra bədəninin bir hissəsinə su dəymədiyini başa düşərsə, həmin yerinona məlum olub-olmamasından asılı olmayaraq yenidən qüsl etməlidir.

**Məsələ 436.** İnsanın tərtibi qaydada qüsl etməyə vaxtı yoxdursa, lakin irtimasi qaydada qüsl etməyə vaxtı vardırsa, irtimasi qaydada qüsl etməlidir.

**Məsələ 437.** Həcc, yaxud ümrə üçün ehrama bürünən şəxs irtimasi qaydada qüsl etməməlidir. Lakin unutqanlıq üzündən irtimasi qaydada qüsl edərsə, qüslü doğrudur.

## Qüslün düzgün olmasının şərtləri

**Məsələ 438.** Qüsl düzgünlük şərtləri baxımından aşağıdakı üç hal istisna olmaqla dəstəmaz kimidir:

1) Qüsldə baş və boyunu, yaxud bədəni yuxarıdan aşağıya doğru yumaq lazım deyil.
2) Dəstəmazdan üzün dərisi tüklərin arasından görünmədiyi halda saqqalın üstünün yuyulması kifayətdir və suyun dəriyədək çatdırılması lazım deyil, lakin qüsldə suyun dəriyə çatdırılması lazımdır.
3) Tərtibi qüsldə fasiləsiz ardıcıllıq şərt sayılmır. Bu səbəbdən baş və boynu yuduqdan sonra bədəni dərhal yumağa ehtiyac yoxdur. Beləliklə, insan başını və boynunu yuduqdan sonra fasilə verərək bir müddətdən sonra bədənini yuyarsa, bu, qüslün doğruluğuna xələl

gətirmir. Hətta baş və boynun və ya bədənin özünün də bir dəfəyə yuyulması vacib deyil. Bu o deməkdir ki, insan başını yuduqdan sonra bir müddət fasilə verərək daha sonra boynunu yuya bilər. Lakin bu xüsusda aşağıdakı məsələdə izah ediləcək bir neçə hal istisna təşkil edir.

**Məsələ 439.** İdrar və ya nəcisini saxlaya bilməyən şəxsin idrar və nəcis ifrazı yalnız qüsl edərək namaz qılmaq üçün lazım olan minimum müddət ərzində dayanırsa, dərhal qüsl etməli və qüsldən sonra da dərhal namazını qılmalıdır. Həmçinin, qəlilə qismindən olan müstəhazə qadın dəstəmazdan sonra, mütəvəssitə qismindən olan müstəhazə qadın qüsl və dəstəmazdan sonra, kəsirə qismindən olan müstəhazı qadın isə qüsldən sonra namazı dərhal qılmalıdır. Yalnız 602 və 606-cı məsələlərdə izah ediləcək iki hal istisna təşkil edir. Habelə, vaxt azdırsa və insanın yalnız qüsl etmək (ehtiyac olduğu təqdirdə həm də dəstəmaz almaq) və namaz qılmaq üçün yetəcək qədər vaxtı qalmışdırsa, dərhal yubanmadan qüsl etməli, yalnız dəstəmazın lazım olduğu hallarda isə dəstəmaz almalı və ardınca namazı dərhal qılmalıdır.

**Məsələ 440.** İrtimasi, yaxud tərtibi qüsldə bədənin qüsldən öncə tamamilə pak olması vacib deyil. Hətta qüsl niyyəti ilə suya dalmaqla, yaxud üzərinə su tökməklə bədən pak olursa, qüsl üçün istifadə edilən suyun paklığını itirməməsi, məsələn, kür, yaxud axar su ilə qüsl edilməsi şərti ilə qüsl gerçəkləşmiş sayılır.

**Məsələ 441.** Suyun bədənə bilavasitə təmas etməsinə mane olan şey aradan qaldırılmalıdır və əgər insan onun aradan qalxdığına əmin olmadan qüsl edərsə, irtimasi qaydada etdiyi təqdirdə qüslü batildir, tərtibi qaydada qüsl etdiyi təqdirdə isə hökmü 450-ci məsələdə açıqlanacaqdır. Həmçinin, qüsl əsnasında aqil insanlara xas düşüncə tərzi ilə bədənində suyun qarşısını alan hər hansı bir maneənin olduğunu ehtimal edərsə, yoxlayaraq belə bir maneənin olmadığına arxayın olmalıdır.

## Qüsllə bağlı digər hökmlər

**Məsələ 442.** Qüsldə bədənin ayrılmaz hissəsi sayılan qısa tükləri yumaq lazımdır. Uzun tükləri yumaq isə vacib deyil. Əgər su dəriyə həmin tüklər islanmadan çatdırıla bilərsə, qüsl doğrudur. Lakin suyun dəriyə çatdırılması uzun tükləri yumadan mümkün olmazsa, suyu dəriyə çatdırmaq üçün onları yumaq lazımdır.

**Məsələ 443.** İnsan tərtibi qüsldə hər iki hissəni, yəni həm baş və boyunu, həm də bədəni tamamilə yuduğuna əmin ola bilmirsə, vacib ehtiyata əsasən, əmin olmaq üçün hər bir hissəni yuduqda digər hissədən də bir qədər yeri həmin hissə ilə birlikdə yumalıdır.

**Məsələ 444.** Qüsldə bədənin kiçik bir hissəsi belə yuyulmamış qalarsa, irtimasi qaydada edildiyi təqdirdə batildir, tərtibi qaydada edildiyi təqdirdə bununla bağlı hökm 450-ci məsələdə açıqlanacaqdır. Lakin qulaq və burunun daxili hissəsinin, habelə bədənin daxili üzvlərindən sayılan istənilən nahiyənin yuyulması vacib deyildir.

**Məsələ 445.** Bədənin xarici, yoxsa daxili hissəsi olması xüsusunda şəkk edilən yer əvvəllər xarici nahiyə olduğu təqdirdə yuyulması vacibdir, əvvəllər xarici nahiyə olmadığı, yaxud ilkin vəziyyəti bəlli olmayan bir nahiyə olduğu təqdirdə isə, lazım ehtiyata əsasən, yuyulmalıdır.

**Məsələ 446.** Əgər sırğalıq dəliyi mərcəyin daxili tərəfinin xarici nahiyə hesab ediləcəyi qədər geniş olarsa, onu yumaq lazımdır, əks təqdirdə isə yumağa ehtiyac yoxdur.

**Məsələ 447.** Haram bir iş nəticəsində cünub olan şəxs isti su ilə qüsl edərsə, hətta tərləsə də, qüslü doğrudur, lakin müstəhəb ehtiyata əsasən, tərləməmək üçün soyuq, yaxud ılıq su ilə qüsl etməlidir.

**Məsələ 448.** Bir neçə vacib qüsl etməli olan şəxs onların hamısına niyyət edərək bir qüsl edə bilər və "zahir" (aydın olan fətva) budur ki, onlardan müəyyən birinə niyyət edərək qüsl etdikdə də digər vacib qüsllər üçün kifayət edir. Yalnız istisna olaraq vacib ehtiyata əsasən mütəvəssitə qismindən olan istihazə qüslünün digər vacib qüslləri əvəz etdiyini söyləmək olmaz[1].

**Məsələ 449.** Cənabət qüslü edən şəxs namaz üçün dəstəmaz almamalıdır. Hətta digər vacib qüsllər (mütəvəssitə istihazəsi istisna olmaqla), eləcədə müstəhəbliyi sabit olan və 463-cü məsələdə açıqlanacaq müstəhəb qüsllərlə dəstəmaz almadan namaz qılmaq olar, hərçənd müstəhəb ehtiyata əsasən, dəstəmaz da almaq lazımdır.

**Məsələ 450.** Əgər tərtibi qaydada etdiyi qüsldən sonra bədəninin bir hissəsini yumadığını başa düşərsə, həmin hissə bədəninin sağ və ya sol tərəfində olduğu halda həmin hissənin yuyulması kifayətdir. Hərçənd müstəhəb ehtiyata əsasən, sağ tərəfdə olduğu halda həmin hissəni yuduqdan sonra bədənin sol tərəfini tamamilə yumaq lazımdır. Yuyulmamış hissə baş və boyun nahiyəsində olduğu halda isə, vacib ehtiyata əsasən, həmin hissəni yuduqdan sonra bədənini yenidən bütövlüklə yumalıdır . Qüsldən sonra baş və boyundan bir yerində hər hansı bir hissəsini yumadığını başa düşərsə, ancaq məhz hansı hissəsi olduğunu bilməzsə, yaxud yumadığı hissənin baş və boyundan, yaxud sağ və sol tərəfdən olduğunu bilməsə yenidən qüsl almalıdır. Bu hal irtimasi qüsldə baş verdiyi təqdirdə isə qüslü batil sayılır.

---

[1] Bu ehtiyat 450,648və 649 cu məsələlərdə qeyd olunan ehtiyata əsasən yerinə yetirilən qüsllərə də şamildir.

**Məsələ 451.** Tərtibi qüsl başa çatmamış sol, yaxud sağ tərəfin bir hissəsini yuyub-yumaması xüsusunda şəkkə düşərsə, həmin hissəni yumalıdır. Baş və boynun bir hissəsini yuyub-yumadığına şəkk etdiyi halda isə lazım ehtiyata əsasən, həmin hissəni yuduqdan sonra bədəninin qalan (baş və boyundan başqa) hissəsini yenidən tamamilə yumalıdır.

**Məsələ 452.** Qüsl edib-etmədiyinə şək edərsə, qüsl etməlidir. Ancaq qüsl başa çatdıqdan və ürfən qüsldən ayrıldıqdan sonra baş və boynunun, yaxud bədəninin bir hissəsini yuyub-yumadığına şəkk edərsə, adətən, qüslün hərəkətlərini ardıcıl və fasiləsiz yerinə yetirən bir şəxsdirsə və qüsl əzalarının böyük qismini yuduğunu bilirsə, şəkkinə etina etməməlidir.

**Məsələ 453.** Qüsldən sonra baş və boynunu, habelə bədənini yuduğu məlumdursa, lakin qüslünün doğru-olmadığına, qüslün doğru sayılması üçün tələb olunan şərtlərə riayət edib-etmədiyinə şəkk edirsə, hərçənd qüsl əsnasında sözügedən şərtlərə diqqət yetirməmiş və unutmuş olsa belə, yenidən qüsl etməsinə ehtiyac yoxdur və qüslü doğrudur. Hətta qüsldə hər bir hissəni yuduqdan sonra həmin hissənin yuyulmasında qüsl şərtlərinə riayət edib-etmədiyini şəkk edərsə, hərçənd növbəti hissəni yumağa başlamamış olsa da, həmin hissəni düzgün qaydada yuyulmuş kimi qəbul edə bilər.

**Məsələ 454.** Cünub olan bir şəxs namazdan sonra qüsl edib-etmədiyinə şəkk edərsə, qıldığı namazlar doğrudur. Yalnız qıldığı namaz gündəlik vacib namazlar kimi müəyyən vaxtı olan bir namazdırsa, şəkk də həmin namazın vaxtı başa çatmamış baş verərsə və namazdan sonra kiçik hədəs (dəstəmazı pozan bir hal və ya hərəkət) baş verərsə, bu halda istisna olaraq, vacib ehtiyata əsasən, qıldığı namazı yenidən qılmalıdır. Lakin istənilən halda növbəti namazlar üçün qüsl etməlidir.

**Məsələ 455.** Qüsl əsnasında insanda kiçik hədəs halı meydana gələrsə, məsələn, idrar edərsə, yaxud mədə yeli ifraz olarsa, qüslü yarımçıq qoyaraq yenidən qüslə başlamasına gərək yoxdur, qüslünü tamamlaya bilər və vacib ehtiyata əsasən, bu halda dəstəmaz da almalıdır. Lakin əgər tərtibi qüsldən irtimasi qüslə, yaxud irtimasi qüsldən tərtibi qüslə keçid edərsə, dəstəmaz almasına ehtiyac yoxdur və keçid etmək deyərkən əvvəlki qüsldən imtina etmək və qüslü yenidən digər tərzdə yerinə yetirmək nəzərdə tutulur.

**Məsələ 456.** Hamamdan istifadə haqqını hamam sahibinin razı olduğunu bilmədiyi halda nisyə şəkildə ödəmək istəyən şəxsin qüslü, hərçənd sonradan onu razı salsa belə, batildir. Lakin hamam sahibinin razı olmamasını unudarsa və sudan istifadənin mübah olduğu düşüncəsi ilə Allaha yaxınlaşmaq niyyəti ilə qüsl edərsə, bu halda qüsl doğru sayılır.

**Məsələ 457.** Əgər hamam sahibi ödənişi nisyə şəkildə qəbul etməyə razı olarsa, lakin qüsl edən şəxs ödəniş etməmək, yaxud ödənişi haram pulla etmək niyyətində olarsa, qüslü batildir.

**Məsələ 458.** Hamam sahibinə ödənişi xümsünü vermədiyi pulla həyata keçirərsə, hərçənd haram iş görmüş olsa da, zahir budur ki, qüslü doğrudur və xümsünü ödəməlidir.

**Məsələ 459.** Baş və boynun, bədənin yuyulması, yaxud qüslün şərtləri, məsələn, suyun pak olması, qəsb edilmiş olmaması, yaxud əzaların üzərində suyun qarşısını alan bir maneənin olmaması kimi xüsuslarda həddən ziyadə şəkk edən və şəkkak sayılan şəxs şəkkinə etina etməməlidir. Bu hökm insanın vasvasılığa mübtəla olduğu hallara da şamildir.

**Məsələ 460.** İnsan namaz vaxtının başladığına dair yəqinlik hasil edərək vacib qüsl niyyəti edərsə, sonra vaxtın başlamasından əvvəl qüsl etdiyi məlum olarsa, qüslü doğrudur. Həmçinin, əgər vacib namazı əda şəklində (onun üçün müəyyən olunmuş vaxt çərçivəsində) qılmaq niyyəti ilə qüsl edərsə və sonradan vaxtın başa çatdığı, namazın qəza olduğu məlum olarsa, qüslü doğrudur.

**Məsələ 461.** Əgər vaxtın azlığı ilə əlaqədar olaraq mükəlləfin vəzifəsi təyəmmüm etmək olarsa, lakin o, qüsl edib namaz qılmaq üçün kifayət edəcək qədər vaxtı olduğu düşüncəsi ilə qüsl edərsə, qüsldə niyyəti Allaha yaxınlaşmaq olduğu təqdirdə, həmin namazı qılmaq üçün qüsl etdiyinə baxmayaraq, qüslü doğrudur.

**Məsələ 462.** Böyük fəqihlər (Allah onlardan razı olsun!) yerinə yetirilməsinin əməlin kamilliyinə və savabın artmasına səbəb olacağına ümid edilən bir sıra hərəkətləri cənabət qüslü ilə əlaqədar müstəhəb işlər kimi qeyd etmişdirlər. Ümüdvarıq qüsldə ardıcıllıq kimi əməllərə riayət etməklə çoxlu savab və kamillik ələ gələcəkdir. O cümlədən əzaları yuxarıdan aşağıya yumaq, qüslə başlayarkən Allahın adını zikr etmək, tərtibi qüsldə suyun həcminin təqribən bir sa ( üç litr) olması, müvəssəl kitablarda qeyd olunan duaların oxunması bu qəbildəndir.

## Müstəhəb qüsllər

**Məsələ 463. Müqəddəs İslam şəriətində müstəhəb qüsllər çoxdur. O cümlədən:**

1) Cümə qüslü. Bu qüslün vaxtı cümə günü sübh azanından günün batmasına qədərdir, lakin daha yaxşı olar ki, zöhrə yaxın edilsin. Cümə günü zöhrədək edilmədiyi təqdirdə isə daha yaxşı olar ki, qürubadək əda və qəza niyyəti olmadan yerinə yetirilsin. Cümə günü insan qüsl edə bilmədiyi halda isə müstəhəbdir ki, cümədən şənbəyə keçən gecə, yaxud şənbə günü qürub çağınadək qəzasını

yerinə yetirsin. Hərçənd, daha yaxşı olar ki, cümə qüslünün qəzası gecə deyil, şənbə günü sübh azanı ilə qürub çağı arasındakı vaxt ərzində icra edilsin. Cümə günü qüsl almaq üçün su tapmayacağını bilən şəxs cümə axşamı günü, yaxud cümə axşamından cüməyə keçən gecə qüslü rəcaən (savab ümidi ilə) yerinə yetirə bilər. Lakin rəcaən icra edilən bu qüsl dəstəmazı əvəz etmir. Cümə qüslü əsnasında aşağıdakı duanın oxunması müstəhəbdir:

"Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh. Və ənnə Muhəmmədən əbduhu və rəsuluh. Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd. Vəcəlni minət-təvvabinə vəcəlni minəl-mutətəhhirin".

(Təsdiq edirəm ki, Allahdan başqa tanrı yoxdur, O təkdir, şəriki yoxdur; Muhəmməd Onun bəndəsi və elçisidir! Allahım, Muhəmmədi və Ali-Muhəmmədi salam, rəhmət və bərəkət içrə qıl və məni tövbə edənlərdən və paklananlardan et!)

2-7) Ramazan ayının 1-ci, 17-ci, 19-cu, 21-ci, 23-cü və 24-cü gecələrinin qüslü.

8 və 9) Fitr və qurban bayramlarının qüslü. Bu qüsllərin vaxtı sübh azanından qürub çağına qədərdir və daha yaxşı olar ki, bayram namazından öncə edilsin.

10 və 11) Zülhiccə ayının səkkiz və doqquzuncu günlərinin qüslü. Doqquzuncu günün qüslü daha yaxşı olar ki, zöhr çağı edilsin.

12) Bədəninin hər hansı bir hissəsini qüslü edilmiş meyidə toxunduran şəxsin qüslü.

13) Ehram qüslü.

14) Məkkə hərəminə daxil olmaq üçün qüsl.

15) Məkkəyə daxil olmaq üçün qüsl.

16) Kəbə evini ziyarət etmək üçün qüsl.

17) Kəbəyə daxil olmaq üçün qüsl.

18) Dəvə və digər heyvanları kəsmək üçün qüsl.

19) Saçı qırxmaq üçün qüsl.

20) Mədinə hərəminə daxil olmaq üçün qüsl.

21) Mədinəyə daxil olmaq üçün qüsl.

22) "Məscid ən-Nəbi"yə daxil olmaq üçün qüsl.

23) Peyğəmbərin (s) qəbri ilə vidalaşmaq üçün qüsl.

24) Düşmənlə mübahilə etmək (mübahisə zəminində kimin haqlı olduğunu müəyyən etmək üçün Allahı hakim seçərək haqlı olmayan tərəf üçün qarşılıqlı nifrin və lənət oxuma) üçün qüsl.

25) İstixarə üçün qüsl.

26) İstisqa, yəni yağış diləmək üçün qüsl.

Qeyd etmək lazımdır ki, sadalanan qüsllərin müstəhəbliyi mötəbər dəlillərlə sübuta yetirilmişdir.

**Məsələ 464.** Böyük fəqihlər (Allah onlardan razı olsun!) müstəhəb qüsllər qismində çoxlu sayda qüsl haqqında məlumat verirlər. O cümlədən:

1) Ramazan ayının bütün tək gecələrinin (3-cü, 5-ci, 7-ci və s. ), sonuncu on günlüyünün bütün gecələrinin qüslü və 23-cü gecə sübhə yaxın edilən başqa bir qüsl.

2) Zülhiccə ayının 24-cü gününün qüslü.

3-7) Novruz bayramı, şaban ayının 15-ci günü, rəbiüləvvəl ayının 9 və 17-ci günləri və zülqədə ayının 25-ci gününün qüslü.

8) Sərxoş halda yatan şəxsin etməli olduğu qüsl.

9) Ərindən başqa bir kişi üçün ətirlənən qadının almalı olduğu qüsl.

10) Dar ağacından asılan məhkuma baxmaq üçün gedən və onu görən şəxs üçün qüsl. Lakin əgər insan bu edam səhnəsini təsadüfən görərsə, yaxud görməsi qaçılmaz olarsa və ya hadisə yerinə şahidlik üçün getmiş olarsa, bu qüsl müstəhəb sayılmır.

11) Məsumları uzaqdan, yaxud yaxından ziyarət etmək üçün edilən qüsl.

Qeyd etmək lazımdır ki, bu qüsllərin müstəhəbliyi sübuta yetirilməmişdir və onları yerinə yetirmək istəyən şəxs rəca niyyəti (savab ümidi) ilə yerinə yetirməlidir.

**Məsələ 465.** İnsan 463-cü məsələdə sadalanan qüsllər kimi müstəhəbliyi sabit olan qüsllərlə namaz qılmaq kimi dəstəmaz tələb edən işləri icra edə bilər, ancaq 464-cü məsələdə sadalanan qüsllər kimi rəcaən icra edilən qüsllər dəstəmazı əvəz etmir.

**Məsələ 466.** Bir şəxsə bir neçə qüsl müstəhəb olarsa və onların hamısının niyyəti ilə bir dəfə qüsl edərsə, kifayətdir. Lakin bədəninin hər hansı bir yerini qüslü edilmiş meyidə toxunduran şəxs üçün nəzərdə tutulan qüsl kimi mükəlləfin gördüyü hər hansı bir işlə əlaqədar olaraq ona müstəhəb olan qüsllər istisnadır. Belə qüsllərdə, vacib ehtiyata əsasən, bir neçə səbəb üçün bir qüsllə kifayətlənməməlidir.

# ÜÇ QAN (QADINLARA MƏXSUS HÖKMLƏR)

## HEYZ

Bəzən aybaşı, yaxud menstruasiya kimi də adlandırılan heyz qadınlarda, adətən, hər ay bir neçə gün baş verən uşaqlıqdan gələn qan ifrazıdır. Heyz qanı gördüyü müddət ərzində qadın "haiz" adlanır və müqəddəs İslam şəriətində onunla bağlı bir sıra hökmlər vardır ki, növbəti məsələlərdə təfsilatı ilə izah ediləcəkdir.

**Məsələ 467.** Heyz qanı əksər hallarda qatı, isti, yeni, rəngi isə qara və ya tünd qırmızı olur, təzyiqlə və yüngül ağrılarla ifraz olur. Bunlara "heyz əlamətləri", yaxud "heyz xüsusiyyətləri" deyilir və bəzi hallarda qanın heyz olduğunu ayırd etmək üçün onlardan istifadə edilir. Bu əlamətlər qarşıdakı məsələlərdə izah ediləcəkdir. [1]

### Heyz qanının şərtləri

**Məsələ 468.** Qadından ifraz olan qanın heyz qanı hesab olunması üçün bir neçə şərt tələb olunur:

**Birinci şərt: Həddi-büluğa çatdıqdan sonra görülməlidir**

**Məsələ 469.** Heyz qanı üçün tələb olunan ilk şərt budur ki, həddi-büluğa çatdıqdan sonra ifraz olmalıdır. Beləliklə, qızların qəməri təqvimi ilə doqquz yaşdan öncə gördükləri qan heyz əlamətlərinə malik olub-olmamasından asılı olmayaraq heyz sayılmır.

**Məsələ 470.** Doqquz yaşının tamam olub-olmadığını bilməyən bir qızdan heyz əlamətləri daşımayan qan ifraz olarsa, heyz sayılmır. Qan heyz əlamətlərinə malik olduğu təqdirdə də onun heyz olduğuna hökm etmək olmaz. Əlbəttə, əgər heyz olduğuna dair hətta müasir elmi üsullardan istifadə etməklə olsa belə, arxayınlıq hasil edilərsə, bu halda, əsasən, həmin qızın doqquz yaşının tamam olduğuna dair də arxayınlıq hasil olur.

**İkinci şərt: Menopauzadan öncə olmalıdır**

**Məsələ 471.** Heyzin ikinci şərti menopauzadan öncə baş verməsidir. Beləliklə, qadınların menopauzadan sonra gördükləri qan heyz əlamətlərinə malik olub-olmamasından asılı olmayaraq heyz sayılmır.

---

[1] Qeyd etmək lazımdır ki, bu əlamətlər həmişə deyil, adətən müşahidə edilən əlamətlərdir və bəzi hallarda heyz qanının bu əlamətlərə malik olmaması da mümkündür.

Menopauza dövrü qəməri (sinodik) təqvimlə altmış yaşdan başlayır və qadınların qəməri təqvimlə altmış yaşdan sonra gördükləri qana heyz hökmü şamil olunmur. Qüreyşli olub-olmamasından[1] asılı olmayaraq qadınlar 50-60 yaşları arasında da heyz ola bilərlər. Hərçənd müstəhəbb ehtiyata əsasən Qüreyşli olmayan qadınlar əvvəlki yaşlarda heyz sayılan hallarla qeyd edilən dövrdə (50-60 yaş arası) də qarşılaşdıqda haizə haram olan hərəkətlərdən çəkinməli və müstəhəb ehtiyata əsasən müstəhazə (istihazə halında olan) qadının da vəzifələrini yerinə yetirməlidirlər.

**Məsələ 472.** Menopauza mərhələsinə daxil olub-olmadığına, yəni qəməri təqvimlə 60 yaşının tamam olub-olmadığına şəkk edən qadından heyz olub-olmadığını bilmədiyi bir qan ifraz olarsa, hesab etməlidir ki, altmış yaşı tamam olmamışdır və menopauza mərhələsinə də daxil olmamışdır.

**Məsələ 473.** Hamilə və körpəsini əmizdirən qadından heyz qanı ifraz ola bilər. Başqa sözlə, hamiləlik və əmizdirmə (laktasiya) dövründə heyz halı baş verə bilər və hamilə olan və olmayan qadınlar üçün heyzlə bağlı hökmlər eynidir. Lakin vəqtiyyə adəti olan qadından menstruasiya tsiklinin başlamasından iyirmi gün sonra heyz əlamətlərinə malik olan bir qan ifraz olarsa, vacib ehtiyata əsasən, haizə haram olan əməllərdən çəkinməklə yanaşı müstəhazə üçün nəzərdə tutulan əməlləri də yerinə yetirməlidir.

**Üçüncü şərt: Uşaqlıqdan olmalıdır**

**Məsələ 474.** Heyz qanının üçüncü şərti onun uşaqlıqda əmələ gəlməsidir. [2] Beləliklə, uşaqlıqdan gəlməyən, məsələn, bakirəlik pərdəsinin deşilməsi, yaxud uşaqlıq yolunun (vaginanın) daxilində yaranan hər hansı bir yara ilə əlaqədar baş verən qanaxmaya heyz hökmü şamil olunmur. Həmçinin, uşaqlığı cərrahi üsulla götürülmüş qadınlarda ifraz olunan qan da heyz deyildir.

**Dördüncü şərt: Uşaqlıqdan gəlməlidir**

**Məsələ 475.** Heyz qanının dördüncü şərti onun uşaqlıqdan ifraz olmasıdır. Beləliklə, uşaqlıqda qalan və hələ az miqdarda olsa belə ifraz olmayan qana heyz hökmü şamil olunmur.

**Məsələ 476.** Heyz dövrünün (mestruasiya tsiklinin) başlaması üçün qanın az həcmdə olsa belə ifraz olması lazımdır və onun təbii yolla, yaxud pambıq və s. (tamponlar) vasitəsilə ifraz edilməsi arasında heç bir fərq yoxdur. Əgər qan, ümumiyyətlə, ifraz olmayaraq yalnız uşaqlıq yoluna axarsa, ona heyz hökmü şamil olunmur. Lakin ilk ifrazatdan sonra

---

[1] Nəzərdə saxlamaq lazımdır ki, seyidə qadınlar da qüreyşli qadınlardan sayılır.

[2] Menstruasiya əsnasında endometrium qatı (uşaqlığın selikli qişası) məhv olur ki, bunun da nəticəsində aybaşı qanaxması baş verir. *Tərc.*

heyzin davam etməsi üçün qanın uşaqlıq yolundan xaric olması şərt deyil və üç gün ərzində qanaxmanın baş verməsi tələb olunmur. Bu halda uşaqlıqda qalmasından fərqli olaraq qanın uşaqlıq yolunda olması da kifayətdir. Qanın uşaqlıq yolunda olması deyərkən tampon qoyaraq bir qədər gözlədikdən sonra çıxardıqda onun azacıq da olsa qana bulaşmış olması nəzərdə tutulur. Üç gün ərzində əksər, yaxud bəzi qadınlarda normal qəbul edildiyi kimi qanaxma kiçik fasilələrlə dayandığı təqdirdə də qadın heyz halında sayılır.

**Beşinci şərt: Üç gündən az olmamalıdır**

**Məsələ 477.** Heyzin beşinci şərti budur ki, üç gündən az olmamalıdır. Əgər üç gündən bir qədər belə az olarsa, hətta qan heyz əlamətlərinə malik olsa belə, heyz sayılmır. Beləliklə, qanaxma başladıqdan sonra hansısa həb, inyeksiya məhlulu və bu qəbildən olan digər dərmanların istifadəsi ilə onun davam etməsinin qarşısı alınarsa və qanaxma üç gündən tez başa çatarsa, heyz hökmü şamil olunmur.

**Məsələ 478.** Əgər qadın birinci gün sübh azanından üçüncü gün günəşin batmasınadək xarici cinsiyyət orqanından qan ifrazatının gəldiyini görərsə bu heyz üçün minimum müddət sayılan üç aybaşı gününün gerçəkləşməsi üçün kifayətdir və birinci və dördüncü gecələrdə də qan görməsinə lüzum yoxdur, lakin ikinci və üçüncü gecələrdə qanaxma kəsilməməlidir. Əgər əlavə olaraq birinci gecə də qan görərsə, hərçənd onu heyz qanı kimi qəbul etsə də, sözügedən üç günü hesablayarkən nəzərə almamalıdır. Beləliklə, hesablamanın başlanğıcı birinci günün sübh azanıdır.

Ancaq birinci gün sübh azanından sonra qan görən qadın (minimum) üç sutka, yəni yetmiş iki saat ərzində qan görməlidir. Birinci gündən əskik olan vaxtı isə dördüncü günə əlavə etməlidir. Məsələn, əgər qanaxma birinci gün zöhr azanı vaxtı başlayarsa, heyz hesab edilməsi üçün dördüncü gün zöhr azanınadək davam etməli və kəsilməməlidir.

**Məsələ 479.** Əgər qadında üç gündən az qanaxma baş verərək sonra dayanarsa, daha sonra qanaxma yenidən başlayaraq üç gün (ardıcıl) davam etdikdən sonra kəsilərsə, ikinci qanaxma dövrü öncəki heyz dövründən on gün keçməsi şərti ilə heyz sayılır, ilk (üç gündən az davam edən) qanaxma isə hərçənd adət günlərinə təsadüf etsə də, heyz sayılmır.

**Altıncı şərt: On gündən artıq olmamalıdır**

**Məsələ 480.** Heyz qanının altıncı şərti budur ki, onun müddəti on gündən artıq olmamalıdır. Beləliklə, on gündən çox davam edən qanaxma bütövlüklə heyz sayıla bilməz.

**Məsələ 481.** Maksimum heyz müddəti sayılan on günün hesablanması qaydası da minimum müddət sayılan üç günün hesablanması kimidir. Yəni hesablamanın başlanğıcı birinci günün sübh azanı olaraq

təyin edilməlidir və birinci gün sübh azanından etibarən, yaxud ondan öncə, birinci gecə qanaxması başlayan qadının heyzi onuncu gün qürub çağınadək başa çatmalıdır. Birinci gün sübh azanından sonra qanaxması başlayan qadın on sutka, yəni iki yüz qırx saat müddətində qan gördüyü təqdirdə on günü tamam olur və birinci gün sübh azanı ilə qanaxmanın başlaması arasındakı vaxt bu hesablamada on birinci günə (sübh azanından etibarən) əlavə edilir, sözügedən vaxtın on birinci gecəyə əlavə edilməklə hesablanması isə doğru sayılmır.

**Yeddinci şərt: İlk üç gün ardıcıl olmalıdır**

**Məsələ 482.** Heyz qanının yeddinci şərti budur ki, heyzin ilk üç günü ardıcıl olmalıdır. Beləliklə, əgər qadında, misal olaraq, iki gün qanaxma olarsa, sonra bir gün pak olarsa (qanaxma kəsilərsə), ardınca daha bir gün qanaxma olarsa, hərçənd heyz keyfiyyət və əlamətlərinə malik olsa da, bu qanaxma heyz sayılmır.

**Məsələ 483.** Ardıcıllıq şərti yalnız ilk üç günə aiddir, sonrakı günlər (4-10-cu günlər) üçün isə şərt sayılmır. Beləliklə, məsələn, əgər qadında üç gün qanaxma olarsa, sonra dördüncü və beşinci günlər qanaxması dayanarsa, ardınca altıncı və yeddinci günlər yenidən qanaxma olarsa, qan ifrazatı gördüyü günlərə heyz hökmü şamil olunur, aradakı (qanaxmanın olmadığı) günlərdə pak sayılması ilə bağlı hökm isə növbəti məsələdə izah ediləcəkdir.

**Məsələ 484.** Əgər qadın üç ardıcıl gün ərzində qan ifrazatı görərsə, sonra ifrazat kəsilərsə, daha sonra yenidən qan ifrazatı gördüyü və qanaxmanın baş verdiyi günlərlə aradakı (qanaxmanın baş vermədiyi) günlər üst-üstə gəldikdə on günü keçmirsə, qan ifrazatı gördüyü bütün günlər heyz sayılır. Lakin, lazım ehtiyata əsasən, qanaxmanın baş vermədiyi və "fasilə paklığı" adlandırılan günlərdə pak qadına vacib olan işləri icra etməli, yəni ehtiyatən heyz qüslü edərək ibadətlərini yerinə yetirməli və Quranın yazısına toxunmaq, məscidə daxil olmaq kimi haizə haram olan işlərdən də çəkinməlidir.

**Səkkizinci şərt: İlk üç gündə qanaxma davamlı olmalıdır**

**Məsələ 485.** Heyz qanının səkkizinci şərti budur ki, qanaxma ilk üç gün ərzində davam etməli və uşaqlıq yolu qana bulaşmış olmalıdır. Belə ki, tampon qoyaraq bir qədər gözlədikdən sonra çıxardıqda hərçənd az miqdarda olsa da, qana bulaşmış olmalıdır. Əksər, yaxud bəzi qadınlarda normal qəbul edildiyi kimi bir qadında üç gün ərzində kiçik fasilələrlə paklanma baş verdiyi (qanaxma dayandığı) təqdirdə də o, heyz halında sayılır. Beləliklə, ilk gün ərzində davamlı olmayan və qadınlar arasında normal sayılmayan müddətədək kəsilən və daha sonra yenidən davam edən qan heyz deyildir.

**Doqquzuncu şərt: İki heyz dövrü arasında ən azı on gün fasilə olmalıdır**

**Məsələ 486.** Heyzin doqquzuncu şərti budur ki, iki heyz dövrü arasında ən azı on gün fasilə olmalıdır. Bu müddət "minimum paklıq" adlandırılır. Beləliklə, birinci heyz dövrü başa çatdıqdan sonra minimum paklıq fasiləsində görülən qan ifrazatı heyz deyildir. Məsələn, on gün qan ifrazatı görən, sonra altı gün pak olan, daha sonra yenidən dörd gün qan ifrazatı görən qadın ikinci dövrdə gördüyü qanı hətta heyz əlamətlərinə malik olsa belə, heyz hesab edə bilməz.

**Məsələ 487.** İki heyz dövrü arasındakı minimum paklıq müddəti on gündür, lakin maksimum paklıq üçün isə məhdudiyyət yoxdur. Burada paklıq deyərkən istənilən qandan deyil, məhz heyz qanından paklanma nəzərdə tutulur. Beləliklə, iki heyz dövrü arasında on gün ərzində istihazə kimi qan ifrazatları görülməklə də fasilə yarana bilər. Həmçinin, bu deyilənlər iki heyz dövrü arasındakı paklıq fasiləsi ilə əlaqədardır. Bir heyz dövrü əsnasında baş verən fasilə paklanmasına gəlincə, 484-ci məsələdə qeyd edildiyi kimi bu fasilədə qadın, vacib ehtiyata əsasən, bir tərəfdən pak qadının görməli olduğu işləri yerinə yetirməli və haiz qadının çəkinməli olduğu hərəkətlərdən də çəkinməlidir.

## Şübhəli qanlarla bağlı hökmlər

**Məsələ 488.** Əgər qadın üç gündən çox və on gündən az davam edən qan ifrazatı görərsə, onun çiban və ya yara qanı, yoxsa heyz qanı olduğunu bilməzsə və aqil insanların nəzərində hər ikisi məntiqli ehtimal olarsa, bu halda pak qadın hökmündədir, ibadətlərini yerinə yetirməlidir və həmin ifrazatı heyz qanı hesab etməməlidir. Lakin həmin ifrazat daha əvvəl də heyz qanı əlamətləri ilə baş vermişdirsə, bu halda əvvəlki ifrazatla şübhəli qanaxmanın müddətini üst-üstə gəldikdə şəriətə görə heyz sayıla biləcək müddət ərzində baş verən qanaxma heyz hesab edilməlidir.

**Məsələ 489.** Qadın özündən heyz, yoxsa istihazə olduğunu bilmədiyi bir qan ifraz olduğunu görərsə, heyz əlamətlərinə malik olduğu təqdirdə bu ifrazatı heyz hesab etməlidir.

**Məsələ 490.** Heyz, yoxsa bakirəlik qanı olduğunu bilmədiyi bir qan görərsə, ya ehtiyat edərək bir tərəfdən haiz qadına haram olan işlərdən çəkinməli, digər tərəfdən də pak qadına vacib olan işləri görməlidir, ya da qanaxmanın səbəbini müəyyənləşdirməli, yəni uşaqlıq yoluna bir qədər tampon daxil edərək qanın ona nüfuz edəcəyinə arxayın olanadək gözləməli, sonra çıxartmalıdır. Bu halda əgər tamponun yalnız kənarları qana (səthi surətdə) bulaşmışdırsa, sözügedən qan bakirəlik qanı, bütünlüklə (daxilinə) nüfuz etdiyi təqdirdə isə heyz qanıdır.

**Məsələ 491.** Əgər qadın ondan ifraz olan qanın yara, çiban, yaxud bakirəliyin pozulması kimi səbəblərlə əlaqədar olmadığını bilirsə, ancaq istihazə, heyz, yoxsa nifas olması ilə bağlı tərəddüddədirsə, şərən heyz və nifas hökmünü daşımadığı təqdirdə istihazənin göstərişlərinə əməl etməlidir. Habelə, əgər sözügedən qanın istihazə, yoxsa başqa qanlar qismindən olduğuna şəkk edirsə, digər qan ifrazatlarının əlamətlərinə malik olmadığı təqdirdə, lazım ehtiyata əsasən, istihazə göstərişlərini həyata keçirməlidir.

## Haizlə əlaqədar hökmlər

**Məsələ 492.** Haizə[1] bir neçə şey haramdır:

1) Namaz kimi dəstəmaz, qüsl, yaxud təyəmmümlə icra edilməli olan ibadətlər. Əgər haiz qadın bu əməlləri doğru əməl niyyəti ilə və şəriətin əmri, tələbi kimi yerinə yetirərsə, caiz deyildir. Lakin cənazə namazı kimi dəstəmaz, qüsl, yaxud təyəmmüm tələb olunmayan ibadətləri yerinə yetirməsinə heç bir əngəl yoxdur.

2) Cünuba haram olan və cənabətlə bağlı hökmlərdə açıqlanan bütün hərəkətlər.

3) Vaginal cinsi əlaqə. Hərçənd kişinin cinsiyyət orqanı qadının cinsiyyət orqanına yalnız sünnət yerinədək daxil olsa və sperma ifraz olmasa belə, vaginal cinsi əlaqə həm kişi, həm də qadın üçün haramdır. Lazım ehtiyata əsasən, hətta penisin sünnət yerindən az hissəsi belə vaginaya daxil edilməməlidir.

**Məsələ 493.** Qadının heyz halında olması qəti olmayan, lakin şəriətə görə özünü haiz hesab etməli olduğu günlərdə də cinsi əlaqə haramdır. Beləliklə, on gündən artıq qan ifrazatı görən və qarşıda izah ediləcək göstəriş əsasında qohumlarının adət günlərini özü üçün heyz dövrü hesab etməli olan bir qadının əri həmin günlərdə onunla cinsi əlaqədə ola bilməz.

**Məsələ 494.** Kişi öz həyat yoldaşı ilə heyz halında cinsi əlaqədə olarsa, günahkardır və Allahdan bağışlanma diləməlidir, lakin kəffarə verməsi vacib deyildir. Hərçənd ehtiyat müstəhəbbdir. Belə ki, əgər qadının heyz günləri (şərti olaraq) üç dövrə bölünərsə, birinci dövrə daxil olan günlərdə baş verən cinsi əlaqənin kəffarəsi bir misqal sikkəli qızıl, ikinci dövrdə 0,5 misqal, sonuncu dövrdə isə 0,25 misqal sikkəli qızıldır və şəri misqal 18 noxuda[2] bərabərdir. Məsələn, altı gün heyz olan qadının əri birinci və ikinci gecə, yaxud günlərdə onunla cinsi əlaqədə olarsa,

---

[1] Üçüncüsü həm haizə, həm də ərinə haramdır.

[2] Hal-hazırda da bəzi müsəlman ölkələrində yerli zərgərlər tərəfindən çəki vahidi kimi istifadə edilən "noxud" 4,608 qrama (təqribən bir karata) bərabərdir. *Tərc.*

18 noxud qızıl, üçüncü və dördüncü gecə və ya günlərdə 9 noxud qızıl, beşinci və altıncı gecə, yaxud günlərdə isə 4,5 noxud qızıl kəffarə verməlidir və bu kəffarə qadının üzərinə düşmür.

**Məsələ 495.** Kişi cinsi əlaqə əsnasında qadının haiz olduğunu başa düşərsə, dərhal vaginal cinsi əlaqə aktını bitirməlidir, əks təqdirdə günahkar sayılır və müstəhəb ehtiyata əsasən, kəffarə verməlidir.

**Məsələ 496.** Haiz qadınla cinsi əlaqədən başqa öpüşmə və mazaqlaşma (flirt) kimi digər həzz alma məqsədli hərəkətlər üçün heç bir məhdudiyyət yoxdur. Hərçənd, qadının bədəninin göbəkdən dizlərədək hissəsinə paltarın altından toxunuşla həyata keçirilən həzz alma məqsədli hərəkətlər məkruh sayılır.

**Məsələ 497.** Qadında heyz ifrazatı başa çatdıqdan sonra, hətta qüsl etmədən də həyat yoldaşı onunla cinsi əlaqədə ola bilər. Lakin, lazım ehtiyata əsasən, cinsi əlaqə qadının cinsiyyət orqanı yuyulduqdan sonra olmalıdır. Hərçənd qüsldən əvvəl cinsi əlaqə məkruhdur və müstəhəb ehtiyata əsasən, qüsldən öncə, xüsusən, cinsi əlaqəyə həddən ziyadə meyl (təbii ehtiyac) olmadığı hallarda bundan imtina etməlidir. Quranın yazısına toxunmaq kimi görülə bilməsi üçün təharətin şərt olduğu və heyz zamanı təharətsizlik səbəbi ilə qadına haram olan işlərə gəlincə, qüsl etməyincə bu işlərin görülməsi qadın üçün halal sayılmır. Vacib ehtiyata əsasən, həmçinin məsciddə dayanmaq (yubanmaq) kimi haramlığının təharət tələb etməsi ilə əlaqədar olduğu sabit edilməmiş hərəkətlər də bu qəbildəndir.

**Məsələ 498.** Qadının heyz halında qılmadığı namazların, hətta din və şəriətdə müəyyən edilmiş əsaslara müvafiq qaydada edilən nəzirlə əlaqədar müəyyən bir vaxtda (burada: heyz günlərinə təsadüf etdikdə *tərc.* ) qılınması vacib olan namazların da qəzası yoxdur. Lakin ramazan ayında heyz halı ilə əlaqədar tutmadığı günlərin orucunu, həmçinin lazım ehtiyata əsasən, nəzirlə əlaqədar müəyyən bir gündə tutulması vacib olan və heyz günlərinə təsadüf etdiyindən tuta bilmədiyi orucunu qəza etməlidir.

**Məsələ 499.** Haiz qadının namazı və orucu doğru sayılmadığı kimi, etikaf və vacib təvafı da doğru sayılmır. Hətta, vacib ehtiyata əsasən, müstəhəb təvafı da doğru deyildir.

**Məsələ 500.** Qadın namaz əsnasında haiz olarsa, namazı pozulur. Hətta qan ifrazatı sonuncu səcdədən sonra, namazın başa çatdığı salamın sonuncu hərfini tələffüz etməsindən öncə başlasa belə, vacib ehtiyata əsasən, namazı pozulmuş sayılır.

**Məsələ 501.** Qadın namaz əsnasında haiz olub-olmadığına dair şəkkə düşərsə, namazı doğrudur və şəkkinə etina etməməlidir. Lakin

namazdan sonra namaz əsnasında haiz olduğunu başa düşərsə, öncəki məsələdə qeyd edildiyi kimi namazı pozulmuş sayılır.

**Məsələ 502.** Qadın heyz qanından paklandıqdan (qan ifrazatı kəsildikdən) sonra dəstəmaz, qüsl, yaxud təyəmmümlə icra edilməli olan namaz və eləcə də digər işlər üçün qüsl etməlidir və bu qüsl eynilə cənabət qüslü kimi edilir. Heyz qüslü edildikdə dəstəmaz almağa ehtiyac qalmır. Lakin müstəhəb ehtiyat budur ki, qüsldən öncə və ya sonra dəstəmaz alınsın və daha yaxşı olar ki, dəstəmaz qüsldən qabaq alınsın.

**Məsələ 503.** Əgər su həm dəstəmaz, həm də qüsl üçün kifayət edəcək həcmdə olmazsa, qüsl edə biləcəyi qədər olduğu təqdirdə qadın qüsl etməlidir və daha yaxşı olar ki, dəstəmaz əvəzinə təyəmmüm də etsin. Lakin su yalnız dəstəmaz üçün kifayət edəcək həcmdədirsə və qüsl üçün kifayət etmirsə, daha yaxşı olar ki, dəstəmaz alsın və qüsl əvəzinə təyəmmüm etsin. Əgər nə dəstəmaz, nə də qüsl üçün kifayət qədər su olmazsa, qadın qüsl əvəzinə təyəmmüm etməlidir və daha yaxşı olar ki, dəstəmaz əvəzinə də ayrıca təyəmmüm etsin.

**Məsələ 504.** Qadını heyz halında boşamaq boşanma ilə əlaqədar hökmlərdə izah ediləcəyi kimi batildir (bu boşanma doğru sayılmır). Həmçinin, əgər əri qadını mənası 484-cü məsələdə izah edilən "fasilə paklığı" əsnasında boşayarsa, bu talaqın doğruluğu şübhəlidir. Bu səbəbdən ehtiyatın tələbinə riayət etməyi unutmayaraq talaq siğəsi yenidən icra edilməlidir.[1] Məsələn, üç gün heyz olan, sonra dördüncü və beşinci günlər ərzində ifrazat görməyən və bu halda boşanan, daha sonra altı və yeddinci günlər yenidən heyz ifrazatı görən, yaxud altıncı gün yalnız heyz hökmü şamil olunan qan ləkəsi görən qadının boşanmasının doğruluğu şübhəlidir. Lakin qadında heyz halı tamamilə başa çatdıqdan sonra, hərçənd qüsl etməsə belə boşanması doğrudur. İstər daimi, istərsə müvəqqəti izdivac əqdinin oxunması üçün heyz halında olmamaq şərt sayılmır.

**Məsələ 505.** Əgər qadın haiz olduğunu, yaxud heyz halının başa çatdığını bildirərsə, "məhəlli-ittiham"[2] olmadığı təqdirdə onun sözlərini qəbul etmək lazımdır. Məhəlli-ittiham olduğu təqdirdə isə sözlərini doğru qəbul etmək, ehtiyata əsasən, doğru sayılmır.

## Haiz üçün namaz vaxtının azlığı ilə əlaqədar hökmlər

**Məsələ 506.** Əgər namaz vaxtı daxil olarsa və qadın namazını təxirə salacağı təqdirdə haiz olacağını bilərsə, dərhal namazını qılmalıdır.

---

[1] Yəni boşanmaya ər tərəfindən birtərəfli qaydada xitam verilməsinin şifahi surətdə ifadəsi təkrarlanmalıdır. *Tərc.*

[2] "Məhəlli-ittiham" termininin izahı üçün bax: 133-cü məsələ, "müttəhim" termininin izahı ilə əlaqədar vərəqaltı qeyd. *Tərc.*

Lazım ehtiyata əsasən, bu hökm namazını təxirə salarsa, haiz olacağını ehtimal etdiyi hala da şamil olunur.

**Məsələ 507.** Əgər qadın namazı təxirə salarsa və namaz vaxtının başlanğıcından yalnız vacibatın icrası (vacib hərəkət və zikrlərin yerinə yetirilməsi) və pak, mübah geyim tapmaq, dəstəmaz almaq, yaxud qüsl etmək kimi lazımı hazırlıq tədbirlərini həyata keçirməklə kifayətlənərək qılınan bir namaz üçün yetəcək qədər vaxt keçərsə, sonra qadın haiz olarsa, həmin namazın qəzası ona vacibdir. Buna əsasən, vəzifəsinə uyğun olaraq dəstəmaz almaq, yaxud qüsl etmək, bədənin, yaxud paltarın pak olması, qiblə istiqamətini müəyyənləşdirmək, möhür kimi üzərinə səcdənin doğru olduğu bir şey və bu qəbildən olan hazırlıq tədbirlərini namaz vaxtı başlamazdan öncə həyata keçirən qadına isə vaxt başladıqdan sonra vəzifəsinə uyğun olaraq bir namaz qılmaq üçün kifayət edəcək qədər vaxtı olduğu halda namazı təxirə salaraq sonra haiz olduğu təqdirdə həmin namazın qəzası vacibdir. Hətta əgər namaz vaxtı başladıqdan sonra qadın dəstəmaz, yaxud qüsllə (vəzifəsinə uyğun olaraq) bir namaz qıla biləcəyi halda qılmazsa, lakin mübah geyim tapmaq, qiblə istiqamətinin təyin edilməsi, bədənin və ya paltarın pak olması (nəcasətlənmiş olduğu halda paklanması, paltar xüsusunda isə mümkün olduğu təqdirdə başqa pak paltarla əvəz edilməsi *tərc.* ) kimi digər şərtlərin həyata keçirilməsi üçün kifayət qədər vaxt olmazsa, vacib ehtiyata əsasən, bu namazın da qəzasını qılmalıdır.

Həmçinin, əgər namaz vaxtı başladıqdan sonra qadının dəstəmaz, yaxud qüsl üçün vaxtı olmazsa, lakin heyz halının başlamasından öncə təyəmmümlə bir namaz qıla biləcəyi halda qılmazsa, digər şərtlərin təmin edilməsi üçün kifayət qədər vaxtın olub-olmamasından asılı olmayaraq, vacib ehtiyata əsasən, həmin namazın qəzasını qılmalıdır.

Qadının vəzifəsi vaxt azlığından başqa bir səbəblə təyəmmüm etmək olarsa, məsələn, su onun üçün zərərli olarsa və namazı heyz halı başlamazdan öncə təyəmmümlə qıla biləcəyi halda qılmazsa, digər şərtlərin də həyata keçirilməsi üçün kifayət qədər vaxt olduğu təqdirdə həmin namazın qəzasını qılmalıdır. Digər şərtlərin həyata keçirilməsi üçün kifayət qədər vaxt olmadığı halda da, vacib ehtiyata əsasən, həmin namazın qəzasını qılmalıdır.

Qeyd etmək lazımdır ki, qadın namazı sürətlə, yaxud ləng qılmaq, sağlamlıq və xəstəlik, səfər, yaxud öz məskənində olmaq kimi xüsuslarda öz vəziyyətini nəzərə almalıdır. Məsələn, bir qadın üçün namazı sürətlə qılmaq məşəqqətli və həddən ziyadə çətindirsə, başqa bir qadın isə namazı sürətlə qıla bilirsə, onların hər biri bu məsələdə öz vəziyyətini nəzərə almalıdır.

**Məsələ 508.** Əgər qadın namaz vaxtı başa çatana yaxın heyz qanından paklanarsa və qüsl edərək namazın ən azı bir rükətini qılmaq üçün kifayət edəcək qədər vaxtı olarsa, qüsl edərək namazını qılmalı, qılmadığı təqdirdə isə sonra qəzasını qılmalıdır. Bu hökm mübah geyim tapmaq, qiblə istiqamətini müəyyənləşdirmək, yaxud bədən və paltarın paklığı kimi digər şərtlərin təmin edilmədiyi təqdirdə isə vacib ehtiyata əsaslanır. Yəni vacib ehtiyata əsasən, namazı vaxt başa çatmadan qılmalı, qılmadığı halda isə daha sonra qəzasını qılmalıdır.

Qeyd etmək lazımdır ki, vaxt azlığından əlavə başqa bir səbəblə əlaqədar olaraq qadının vəzifəsi təyəmmüm etmək olarsa, məsələn, su onun üçün zərərli olarsa və o, namazın heç olmasa bir rükətini vaxt başa çatmadan qıla bilərsə, digər şərtlərin təmin edilməsi üçün vaxtı olduğu təqdirdə təyəmmüm edərək həmin namazı qılmalı, qılmadığı halda isə sonra qəzasını qılmalıdır. Digər şərtlərin təmin edilməsi üçün vaxtı olmadığı təqdirdə isə, vacib ehtiyata əsasən, təyəmmüm edərək həmin namazı qılmalı, qılmadığı halda daha sonra qəzasını qılmalıdır.

**Məsələ 509.** Namaz vaxtının başa çatmasına yaxın heyz halından paklanan və qüsl etmək istədiyi halda namazının bir hissəsini vaxt bitmədən qılmaq fürsəti olan, lakin təyəmmüm etdiyi təqdirdə namazını bütövlüklə vaxt çərçivəsində qıla biləcək qadın təyəmmüm edərək namazını vaxt bitmədən bütövlüklə qılmalıdır.

**Məsələ 510.** Əgər qadın namaz vaxtının başa çatmasına yaxın heyz halından paklanarsa, ancaq qüsl, yaxud təyəmmüm etmək və namazın bir rükətini qılmaq üçün fürsəti olmazsa, həmin namaz ona vacib deyildir.

**Məsələ 511.** Qadın heyzdən paklandıqdan sonra namaz qılmaq üçün vaxtı olub-olmadığına şəkk edərsə, hərçənd bir rükətini belə vaxt başa çatmadan qılmaq ehtimalı olduğu halda namazını qılmalıdır.

**Məsələ 512.** Qadının vəzifəsinin namazı (əda surəti ilə, yəni vaxtı çərçivəsində) qılmaq olduğu bütün hallarda əgər o, vaxtının olmadığını düşünərək namazını qılmazsa və sonradan vaxtının olduğunu anlayarsa, həmin namazın qəzasını qılmalıdır. Həmçinin, qadının vəzifəsinin, vacib ehtiyata əsasən, namazı (əda surəti ilə, yəni vaxtı çərçivəsində) qılmaq olduğu bütün hallarda da əgər o, vaxtının olmadığını düşünərək namazını qılmazsa və sonradan vaxtının olduğunu anlayarsa, vacib ehtiyata əsasən, həmin namazın qəzasını qılmalıdır.

## Haiz üçün müstəhəb və məkruh olan hərəkətlər

**Məsələ 513.** Müstəhəbdir ki, haiz qadın gündəlik beş namazın qılınma vaxtında, habelə ayat namazı kimi müəyyən bir vaxtı olan bütün vacib namazların qılınma vaxtında özünü heyz qanından paklayaraq,

tampon və bezini dəyişərək və dəstəmaz alaraq, dəstəmaz ala bilmədiyi təqdirdə isə təyəmmüm edərək namaz qıldığı yerdə üzü qibləyə otursun və təsbih (Sübhanəllah), təhmid (Əlhəmdu lillah), təhlil (La ilahə illəllah) kimi zikrləri təkrarlamaqla, dua etməklə, salavat deməklə, yaxud Quran oxumaqla (səcdəsi olan ayələr istisna olmaqla) məşğul olsun. Hərçənd digər vaxtlarda haiz qadına Quran oxumaq məkruhdur və bu halda ən yaxşısı budur ki, təsbihati-ərbəəni (Sübhanəllahi, vəlhəmdu lillahi, və la ilahə illəllahu, vəllahu əkbər) tərcih etsin.

**Məsələ 514.** Qurandan hətta yeddi ayədən az bir hissəni belə oxumaq, Quranı üzərində saxlamaq, bədənin hər hansı bir yerini onun haşiyəsinə, yazılarının arasındakı boşluğa toxundurmaq, xına qoymaq və s. haiz üçün, bir dəstə fəqihə (Allah onlardan razı olsun!) görə, məkruhdur. Lakin Quranın vacib səcdə ayələrini oxumaq haiz qadın üçün haramdır və müstəhəb ehtiyata əsasən, vacib səcdəsi olan dörd surənin digər ayələrini də oxumamalıdır.

## Heyzdə adətin kateqoriyaları

**Məsələ 515.** Qadınların requlyar menstruasiya tsikli[1] "adət" adlanır və üç kateqoriyaya bölünür:

1) Vəqtiyyə və ədədiyyə adəti – həm vaxt, həm də günlərin sayı baxımından nizamlı (requlyar) adət;

2) Vəqtiyyə adəti – yalnız vaxt etibarı ilə nizamlı adət;

3) Ədədiyyə adəti – yalnız heyz günlərinin sayı etibarı ilə requlyar (nizamlı) adət.

## Ədədiyyə adətinin növləri və onların gerçəkləşməsi şərtləri

**Məsələ 516.** Ədədiyyə adəti iki növdür:

1) ***Tam ədədiyyə adəti.*** Bu adət öncəki məsələdə izah edilən qaydada iki dəfə günlərinin sayı baxımından tam bənzərliklə aybaşı olan qadınlara aiddir.

2) ***Naqis ədədiyyə adəti.*** Bir neçə dəfə aybaşı olan və bu aybaşı dövrlərinin aşağıdakı üç vəziyyətdən biri kimi təzahür etdiyi qadınlara aiddir:

a) Hər heyz dövründə qadının ifrazat gördüyü günlərin sayı müəyyən bir həddi keçmir, məsələn, qadın səkkiz gündən artıq ifrazat görmür, lakin günlərin sayı da sabit deyildir, yəni qadın bir dəfə yeddi

---

[1] Bir aybaşının başlamasından növbəti aybaşının başlamasınadək olan dövr "menstruasiya tsikli" adlanır. *Tərc.*

gün, başqa bir dəfə isə altı gün ifrazat müşahidə edir və s.

b) Hər heyz dövründə qadının ifrazat gördüyü günlərin sayı müəyyən bir həddən az olmur, məsələn, hər dəfə beş gündən az ifrazat görür.

c) Hər heyz dövründə ifrazat iki – maksimum və minimum hədd aralığında olur, məsələn, qadın beş gündən az ifrazat görmür və ifrazatın müşahidə edilməsi səkkiz gündən artıq davam etmir, lakin günlərinin sayı da sabit olmur, qadın bir dəfə altı gün qan ifrazatı görür, başqa bir dəfə yeddi gün müşahidə edir, bəzən isə səkkiz gün qan görür.

**Məsələ 517.** Tam ədədiyyə adətinin gerçəkləşməsi üçün iki heyz dövrünün bərabər olması, birinin davam etdiyi müddətin digərindən hətta yarım gün, yaxud bundan da az zaman fərqi ilə daha artıq olmaması şərt sayılır. Buna əsasən, əgər bir qadın birinci ay beş gün, ikinci ay isə beş gün yarım, yaxud beş gün və növbəti günün üçdə birinədək qan ifrazatı görərsə, tam ədədiyyə adətinə sahib olan qadın sayılmır. Hətta həmin qadının ikinci ay beş gün və növbəti günün dörddə biri müddətində qanaxma görməsi də tam ədədiyyə adətinə sahib hesab edilməsinə xələl gətirir. Lakin əgər bu qədər (günün dörddə biri) müddət fərqi qadınlara görə iki aybaşı dövrünün bir-birinə bənzəməsinə (eyni kateqoriyaya daxil edilməsinə) xələl yetirmirsə, bu halda sözügedən qadın tam ədədiyyə adətinə sahib olan bir qadın hesab edilə bilər. Həmçinin, sözügedən müddət fərqinin bundan daha az olması da xələl gətirmir.

**Məsələ 518.** Tam ədədiyyə adətinin gerçəkləşməsində qadının adət sahibi sayılması üçün iki dəfə günlərinin sayı eyni olmaqla heyz ifrazatı görməsi kifayətdir. Lakin naqis ədədiyyə adətinin gerçəkləşməsi üçün iki dəfə kafi sayılmır və heyz ifrazatı naqis adətin izahında qeyd edilən qayda üzrə qadınlar arasında "bu qadın naqis ədədiyyə adətinə sahibdir" deyiləcək şəkildə dəfələrlə təkrarlanmalıdır. Məsələn, heyz ifrazatı görmək naqis adətlə bağlı qeyd edilən qaydada 5, yaxud 6 dəfə təkrarlanmalıdır.

## Vəqtiyyə adətinin gerçəkləşməsinin şərtləri

**Məsələ 519.** Vəqtiyyə adətinin gerçəkləşməsi üçün menstruasiya tsiklləri qadınların ənənəvi adət təqvimlərinə görə bir-birindən fərqlənməməlidir. Beləliklə, nəzərdən keçirilən iki ayın birincisində beş gün heyz ifrazatı görən, ikincisində isə heyz ifrazatı günün üçdə biri, dörddə biri, yaxud daha az müddət erkən və ya gec başlayarsa və bu qədər fərq qadınlar arasında normal qəbul edilirsə, bu qədər fərq vəqtiyyə adətinin gerçəkləşməsinə (yəni qadının bu adətə sahib hesab edilməsinə) xələl yetirmir.

**Məsələ 520.** Vəqtiyyə adətinin gerçəkləşməsi məsələsində ay deyərkən günəş, yaxud ay təqvimindəki ay anlayışı deyil, 30 gündən ibarət bir menstruasiya tsikli nəzərdə tutulur. Beləliklə, vəqtiyyə adətinin gerçəkləşməsi üçün eyni zamanda ədədiyyə adəti kateqoriyasına da daxil olub-olmamasından asılı olmayaraq, qadının iki ay (ardıcıl) heyz ifrazatı görməsi və ikinci ay heyz ifrazatının müşahidəsinin birinci ayda heyz ifrazatı gördüyü tarixdən 30 gün sonra başlaması kifayətdir. Bu halda qadının bu iki ayda heyz ifrazatı gördüyü günlərin günəş, yaxud ay təqvimi ilə müəyyən günlərə təsadüf etməsi şərt sayılmır və sözügedən qadın qeyd edilən qaydada iki dəfə heyz ifrazatı müşahidə etməklə vəqtiyyə adətinə sahib olur.

**Məsələ 521.** Bir qadında menstruasiya tsikli 30 günə yaxın olarsa, məsələn, qadınlar arasında normal sayıldığı kimi hər 28, 29, yaxud 31 günün (menstruasiya tsiklinin) başlanğıcında heyz ifrazatı görərsə, bu halda da qeyd edilən qaydada aybaşı olmaqla, vəqtiyyə adəti gerçəkləşmiş olur. Lakin bir qadının fərdi menstruasiya təqvimi ilə 30 günlük normal tsikl arasında ciddi fərqlər olarsa, belə ki, bu cür aybaşı təzahürü qadınlar arasında normal sayılmırsa, məsələn, hər 15 gündən bir heyz qanı görməyə başlayırsa, yaxud hər 40, 50 gündən bir aybaşı olursa, bu halda həmin qadın iki dəfə qeyd edilən qaydada qan ifrazatı görməklə vəqtiyyə adəti sahibi olmur və aybaşının deyilən qaydada müəyyən zaman fasiləsi ilə, qadınlar arasında "bu tsikl onun menstruasiya tsiklidir" deyilə biləcək surətdə dəfələrlə təkrarlanması lazımdır. Məhz bu halda sözügedən qadın həmin tsikli özü üçün adət təqvimi kimi qəbul etməlidir.

**Məsələ 522.** Gələcək məsələlərdə qeyd olunacaqdır ki, bəzi hallarda adət günlərinə sahib olmayan qadınlar on gündnən çox qan görərlərsə, 467 ci məsələdə qeyd olunduğu kimi qan gördükləri günlərin bəzilərində heyz əlamətləri görünür və bəzi günlərdə heyz əlamətləri görünmürsə gərək heyz əlamətlərinə sahib olduğu günlərində heyzin hökmlərinə əməl etsinlər. Əgər bu hal müxtəlif günlərdə baş verməklə iki ay davam edərsə, iki ay ardıcıl ayın birindən beşinə kimi heyz əlamətləri və altısından on ikisinə kimi istihazə əlamətlərinə sahib olarsa bu qadın vəqtiyyə, ədədiyyə adətlərindən hesab olunmur. Bəlkə adət sahibi deyil. Bu zaman mütləq olaraq heyz olduğu günləri təyin etmək üçün onun əlamətlərinə baxmalıdır. Buna əsasən heyz əlamətlərinə sahib olduğu ayın birindən beşinə kimi olan günləri özünə heyz günləri təyin etməlidir.

## Adətin pozulması

**Məsələ 523.** Heyzdə vəqtiyyə, ədədiyyə, yaxud vəqtiyyə və ədədiyyə kateqoriyalarından hər hansı birinə aid müəyyən bir adəti olan qadının sözügedən adəti fərqli bir heyz tsiklinin iki dəfə təkrarlanması

ilə pozulur və bu iki heyz tsiklindən yaranan yeni bir adətlə əvəz olunur. Məsələn, hər ayın 1-5-ci günləri aybaşı olaraq vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın iki ay ardıcıl olaraq ayın 10-dan 17-dək aybaşı olarsa, öncəki adəti pozulur və hər ayın 10-dan 17-dək davam edəcək yeddi günlük adətlə əvəz olunur.

**Məsələ 524.** Bir dəfə adətə uyğun olmayan aybaşı qanı görməklə qadının şəri adəti pozulmuş sayılmır. Məsələn, hər ayın 1-dən 7-dək aybaşı olan qadın bir dəfə adətinə uyğun olmayaraq ayın 10-dan 15-dək aybaşı olarsa, adəti pozulmur və hər ayın 1-7-ci günləri olaraq qalır.

**Məsələ 525.** Əgər qadında adətinə uyğun olmayan, lakin eyni kateqoriyadan da olmayan iki fərqli aybaşı müşahidə edilərsə, adəti pozulur və qadın müztəribə sayılır. Məsələn, hər ay adəti üzrə ayın 1-dən 7-dək aybaşı olan qadında iki ardıcıl ay ərzində adətinə uyğun olmayan müxtəlif rejimli aybaşı müşahidə edilərsə, məsələn, bu aylardan birincisində ayın 10-dan 15-ə, ikincisində isə 20-dən 26-dək aybaşı olarsa, bu halda əvvəlki adəti pozulur və o, müztəribə qadın üçün nəzərdə tutulmuş hökmlərə əməl etməlidir.

## Haiz qadınların kateqoriyaları

**Məsələ 526.** Haiz qadınlar altı kateqoriyaya bölünür:

1) Vəqtiyyə və ədədiyyə adətinə sahib olanlar;
2) Vəqtiyyə adətinə sahib olanlar;
3) Ədədiyyə adətinə sahibi olanlar.

Bu üç kateqoriyaya daxil olan qadınlar adət sahibidirlər və bu adətlərin necə gerçəkləşdiyi ötən məsələlərdə izah edilmişdir.

4) Müztəribə - bir neçə ay aybaşı olan, lakin bəlli bir adət sahibi olmayan, yaxud adəti pozulan və yeni bir adət tapmayan qadın.
5) Mübtədiə - ilk dəfə aybaşı olan (menarxe) qadın.
6) Nasiyə - adətini unudan qadın.

Bu üç kateqoriyaya daxil olan qadınlar adətə sahibi deyil. Bu altı kateqoriyanın hər birinə dair qarşıdakı məsələlərdə izah ediləcək müəyyən hökmlər vardır.

## Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın

**Məsələ 527.** Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadınlar iki qismə bölünürlər:

a) İki ardıcıl ay ərzində menstruasiyası müəyyən vaxtda başlayan və müəyyən vaxtda da başa çatan, məsələn, iki ardıcıl ayın hər birində ayın 1-dən etibarən aybaşı olan və ayın 7-də aybaşıdan paklanan, bu minvalla heyz adəti ayın 1-7-ci günlərinə təsadüf edən qadın.

b) İki ardıcıl ay ərzində müəyyən vaxtda aybaşı olan, üç gün, yaxud daha artıq qan ifrazı müşahidə etdikdən sonra bir gün, yaxud daha artıq qan ifrazı müşahidə etməyən, sonra yenidən müşahidə edən və qan gördüyü günlərlə aradakı pak olduğu günlərin birlikdə sayı on günü keçməyən, həmçinin hər iki ayda qan gördüyü və görmədiyi günlərin sayı eyni olan qadın. Bu qadın da vəqtiyyə və ədədiyyə adətinə sahibdir və onun adəti arada qan görmədiyi günləri çıxmaqla yalnız qan gördüyü günlər qədərdir. Məsələn, əgər iki ardıcıl ayın 1-dən 3-dək qan görərsə, sonra üç görməzsə, daha sonra yenidən üç gün görərsə, bu qadının adəti iki hissəyə ayrılmış altı gündən ibarətdir, onların arasında qalan və "fasilə paklığı" adlandırılan üç paklıq günündə isə, lazım ehtiyata əsasən, haizə haram olan hərəkətlərdən çəkinməli və pak qadına vacib olan əməlləri də icra etməlidir. [1] Lakin əgər ikinci ay qan gördüyü günlərin sayı daha artıq, yaxud daha az olarsa, sözügedən qadın yalnız vəqtiyyə adətinə sahibdir, ədədiyyə adətinə sahib deyildir.

**Məsələ 528.** Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın adəti ərəfəsində onun başlamalı olduğu tarixdən qadınlar arasında "adəti tez başlamışdır" deyiləcək şəkildə bir-iki gün əvvəl, yaxud bir qədər də öncə özündə qan ifrazatı görərsə, hətta həmin qan heyz əlamətləri daşımasa belə, məsələn, rəngi sarı olarsa, buna rəğmən haiz qadın üçün açıqlanan hökmlərə əməl etməlidir. Sonradan heyz olmadığı başa düşdüyü, məsələn, üç gündən öncə başa çatdığı təqdirdə isə yerinə yetirmədiyi ibadətlərinin qəzasını yerinə yetirməlidir. Bu iki haldan fərqli hallarda, məsələn, "adəti erkən başlamışdır" deyil, "vaxtsız qan görmüşdür" deyiləcək qədər adətindən tez qan görərsə, yaxud adət günləri keçdikdən az müddət sonra qan görərsə, həmin qan heyz əlamətləri daşıdığı təqdirdə, həmçinin, heyz əlamətləri daşımadığı, lakin qadın sözügedən ifrazatın üç gün davam edəcəyini bildiyi təqdirdə haiz qadınlar üçün bəyan edilən hökmlərə əməl etməlidir. Üç gün davam edib-etməyəcəyini bilmədiyi təqdirdə isə vacib ehtiyata əsasən həm müstəhazəyə vacib olan hərəkətləri icra etməli, həm də haizə haram olan hərəkətlərdən çəkinməlidir.

**Məsələ 529.** Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın:

a) əgər bütün adət günlərində, habelə adət günlərindən bir neçə gün öncə və sonra qan müşahidə edərsə və bu günlərin sayı üst-üstə gəldikdə on günü keçməzsə, bütün ifrazatlar hərçənd heyz əlamətləri daşımasa da, heyz sayılır. On günü keçdiyi təqdirdə isə yalnız adət günlərində

[1] Bu misalda əgər qadın təsadüfən bir ay ərzində on gündən artıq qan görərsə, bununla bağlı hökm 563-cü məsələnin sonuncu (d) bəndində bəyan ediləcəkdir.

gördüyü qan hətta heyz əlamətlərinə malik olmasa da, heyz sayılır, adət günlərindən əvvəl və sonra gördüyü ifrazatlar isə hərçənd heyz əlamətlərinə malik olsa da, istihazə sayılır. Bu halda qadın adətdən əvvəlki və sonrakı günlərdə yerinə yetirmədiyi ibadətlərinin qəzasını yerinə yetirməlidir.

b) Əgər bütün adət günləri ilə yanaşı adətindən bir neçə gün öncə də qan görərsə və bu günlərin sayı birlikdə on günü keçməzsə, onların hamısı hərçənd heyz əlamətləri daşımasa da heyz sayılır. On günü keçdiyi təqdirdə isə yalnız adət günlərində gördüyü ifrazatlar hərçənd heyz əlamətinə malik olmasa belə, heyz sayılır, əvvəlki günlərdə müşahidə edilən qan isə əksinə heyz əlamətlərinə malik olub heyz adətindən bir-iki gün öncə ifraz olsa belə, istihazə sayılır və qadın həmin günlərdə ibadət etmədiyi təqdirdə sonra yerinə yetirmədiyi həmin ibadətlərinin qəzasını yerinə yetirməlidir.

c) Əgər bütün adət günləri ilə yanaşı adətindən bir neçə gün sonra da qan görərsə və bu günlərin sayı birlikdə on günü keçməzsə, onların hamısı hərçənd heyz əlamətləri daşımasa da heyz sayılır. On günü keçdiyi təqdirdə isə yalnız adət günlərində gördüyü ifrazatlar hərçənd heyz əlamətinə malik olmasa belə, heyz sayılır, qalan günlərdə müşahidə edilən qan isə əksinə heyz əlamətlərinə malik olsa belə, istihazə sayılır. Həmçinin, əgər adət günləri və ondan sonra onuncu günədək müşahidə edilən qan ifrazatları heyz əlamətləri, onuncu gündən sonrakı günlər isə istihazə əlamətləri daşıyarsa, yenə də yalnız heyz adəti günlərində müşahidə edilən qan ifrazatları heyz sayılır, digər ifrazatlar isə istihazə sayılır.

ç) Əgər bütün adət günləri ilə yanaşı adətdən sonrakı on üç gün, yaxud daha artıq müddət ərzində fasiləsiz qan ifrazı müşahidə edərsə, adət günləri gördüyü qan heyz, digər günlərdə gördükləri isə istihazədir.

d) Vəqtiyyə və ədədiyyə adəti 527-ci məsələnin "b" bəndində izah edilən ikinci qisimdən olan, məsələn, öz şəri adətinə görə ayın ilk günündə qan müşahidə edən, sonra 4-dən 6-dək üç gün ərzində pak olan, 7-dən 9-dək yenidən qan müşahidə edən qadın bir ay ərzində on gündən artıq fasiləsiz qan ifrazatı müşahidə edərsə, məsələn, ayın 1-dən 15-dək qan görərsə, onun ayın 1-dən 3-dək və 7-dən 9-dək gördüyü qan ifrazatları heyz sayılır, 4-6-cı günlər ərzində haizə haram olan işlərdən çəkinərək müstəhazəyə vacib olan əməlləri yerinə yetirməlidir, 10-15-ci günlər ərzində müşahidə etdiyi qan isə istihazə sayılır.

**Məsələ 530.** Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın:

a) Əgər bəzi adət günləri ilə adətdən əvvəlki bir neçə gün ərzində qan görərsə və bu günlərin sayı üst-üstə gəldikdə on günü keçməzsə,

onların hamısı heyz sayılır, on günü keçdiyi təqdirdə isə adət günləri arasından qan müşahidə etdiyi günlərdə və adətdən öncəki günlər arasından onlarla topladıqda adət günlərinin sayına bərabər olan günlərdə gördüyü qanı heyz, daha əvvəlki günlərdə görülən qanı isə istihazə qanı hesab etməlidir.

b) Əgər bəzi adət günləri ilə adətdən sonrakı bir neçə gün ərzində qan görərsə və bu günlərin sayı üst-üstə gəldikdə on günü keçmirsə, onların hamısı heyz sayılır, on günü keçdiyi təqdirdə isə adət günləri arasından qan müşahidə etdiyi günlərdə və adətdən sonrakı günlər arasından onlarla topladıqda adət günlərinin sayına bərabər olan günlərdə gördüyü qanı heyz, daha sonrakı günlərdə gördüyü qanı isə istihazə qanı hesab etməlidir.

**Məsələ 531.** Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın əgər üç gün qan gördükdən sonra paklanarsa, sonra yenidən qan görərsə və bu iki qanaxma arasındakı fasilə on gündən az olarsa, qan gördüyü bütün günlərlə arada pak olduğu günlər birlikdə on gündən çox olarsa və iki qanaxma dövrünün heç biri ayrılıqda on günü keçməzsə, burada bir neçə hal nəzərdən keçirilə bilər:

1) Birinci dəfə müşahidə etdiyi qan ifrazatlarının hamısı, yaxud bir qismi adət günlərinə təsadüf edirsə, pak olduqdan sonra ikinci dəfə müşahidə etdiyi ifrazatların isə heç biri adət günlərinə təsadüf etmirsə, bu halda birinci dəfə gördüyü bütün ifrazatları heyz, ikinci dəfə gördüyü ifrazatları isə istihazə kimi qəbul etməlidir. Lakin əgər ikinci dəfə gördüyü ifrazatlar heyz əlamətləri daşıyırsa, bu halda istisna olaraq ikinci dövrün birinci dövr və aradakı paklıq günləri ilə topladıqda on günü keçməyən hissəsi heyz, digər günləri isə istihazə sayılır.

***Birinci nümunə:*** Əgər bir qadının adəti ayın 5-dən 9-dək davam edən beş günlük aybaşı olarsa, bir ayın 5-dən 9-dək qan müşahidə edərək onuncu gün paklanarsa, sonra 11-dən 16-dək yenidən qan müşahidə edərsə və ikinci dövrdə ifraz olan qan heyz əlamətlərinə malik olmazsa, onun ayın 5-dən 9-dək, yəni öz adət günlərində gördüyü qan heyz, 11-16-cı günlərdə gördüyü qan isə istihazədir və onuncu gün qadın pak sayılır.

***İkinci nümunə:*** Əgər bir qadının adəti ayın 5-dən 9-dək davam edən beş günlük aybaşı olarsa, bir ayın 5-dən 9-dək qan müşahidə edərək onuncu gün paklanarsa, sonra 11-dən 16-dək yenidən qan müşahidə edərsə və ikinci dövrdə ifraz olan qan heyz əlamətlərinə malikdirsə, onun ayın 5-dən 9-dək,yəni öz adət günlərində və həmçinin, 11-dən 14-dək gördüyü qan heyz, 15-16-cı günlərdə gördüyü qan isə istihazədir

və fasilə paklığı adlandırılan müddətdə isə, vacib ehtiyata əsasən, bir tərəfdən haizə haram olan əməllərdən çəkinməli, digər tərəfdən də pak qadına vacib olan əməlləri yerinə yetirməlidir.

2) Birinci dəfə gördüyü qan ifrazatları adət günlərinə təsadüf etməzsə, ikinci dəfə gördüyü qan ifrazatları isə bütövlüklə, yaxud qismən adət günlərinə təsadüf edərsə, ikinci dəfə gördüyü qan ifrazatlarını bütövlüklə heyz, birinci dəfə gördüyü qanı isə istihazə kimi qəbul etməlidir.

*Nümunə:* Adəti ayın 11-dən 15-dək beş günlük aybaşı olan qadın bir ayın 5-dən 9-dək qan ifrazatı müşahidə edərək 10-cu gün paklanarsa, sonra 11-15-ci günlər ərzində yenidən qan ifrazatı müşahidə edərsə, 11-15-ci günlərdə, yəni adət günlərində gördüyü qan ifrazatları heyz, ondan öncə 5-9-cu günlərdə gördüyü qan ifrazatları isə istihazədir və 10-cu gün qadın pak sayılır.

3) İki qan ifrazatından heç biri adət günlərinə təsadüf etməzsə, bu halda onlardan birində gördüyü qanda heyz əlamətləri olarsa, digərində isə olmazsa, heyz əlamətləri olan qanı heyz kimi, heyz əlamətləri olmayan qanı isə istihazə kimi qəbul etməlidir. Lakin əgər hər iki qanda heyz əlamətləri olarsa, yaxud heç birində heyz əlamətləri olmazsa, birinci dəfə gördüyü qan ifrazatlarını heyz, ikinci dəfə gördüyü ifrazatları isə istihazə kimi qəbul etməlidir. Hərçənd, müstəhəb ehtiyata əsasən, hər iki qanla bağlı, xüsusən, onlardan heç birində heyz əlamətləri olmadığı təqdirdə ehtiyat etməlidir.

*Nümunə:* Adəti ayın 1-dən 5-dək beş gün müddətində aybaşı olmaq olan qadın bir ay adət günlərində aybaşı olmayaraq ayın 7-dən 11-dək qan ifrazatı görərsə, sonra iki gün pak olduqdan sonra ayın 14-dən 17-dək yenidən qan görərsə və birinci dəfə gördüyü qanda heyz əlamətləri olmazsa, ikinci dəfə gördüyü qanda isə olarsa, ayın 14-17-ci günlərdə gördüyü qan ifrazatları heyz, 7-11-ci günlərdə gördüyü qan isə istihazədir və o, 12 və 13-cü günlərdə pak sayılır. Bu məsələ ilə əlaqədar digər hallar növbəti məsələdə açıqlanacaqdır.

**Məsələ 532.** Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın üç gün qan ifrazatı gördükdən sonra paklanar, sonra yenidən qan görərsə, bu iki qanaxma arasındakı fasilə on gündən az olarsa, qan gördüyü günlərlə arada pak olduğu günlərin toplam sayı on gündən çox olarsa, birinci dəfə və ikinci dəfə qan gördüyü günlərin heç birinin sayı ayrılıqda on günü keçməzsə:

1) Həm birinci, həm də ikinci dəfə qan gördüyü günlərin bir qismi adət günlərinə təsadüf edərsə, birinci ifrazatın adət günlərinə təsadüf edən günlərinin sayı üç gündən az olmazsa və bu günlər aradakı paklıq dövrü və ikinci ifrazatın adət günlərinə təsadüf edən günləri

ilə birlikdə toplam sayı on gündən çox olmazsa, bu halda hər iki ifrazat dövründən adət günlərinə təsadüf edən günlər heyz günləri sayılır və vacib ehtiyata əsasən, fasilə paklığı adlandırılan aradakı günlərdə isə sözügedən qadın haiz olmayan qadına vacib olan işləri görməli, haizə haram olan işlərdən isə çəkinməlidir. Bu halda ikinci ifrazat dövrünün adət günləri ilə üst-üstə düşən günlərindən sonrakı günləri ərzində görülən qan ifrazatları istihazə sayılır. Birinci ifrazat dövrünün adət günləri ilə üst-üstə düşən günlərindən əvvəlki günlərinə isə ürfən "adəti erkən başlamışdır" deyilə biləcəyi təqdirdə heyz hökmü şamil olunur. Lakin əgər həmin günlərin heyz günləri kimi qəbul edilməsi ikinci ifrazat dövrünün adət günlərinə təsadüf edən günlərinin bəzilərinin, yaxud hamısının heyz günləri sırasından çıxarılmasını tələb edirsə, bu halda istihazə hökmü şamil olunur. Bu məsələ ilə bağlı üç nümunəni nəzərdən keçirəcəyik:

***Birinci nümunə:*** Əgər qadının adəti ayın 3-dən 10-dək səkkiz günlük aybaşıdırsa, o, qadınlar arasında "adəti erkən başlamışdır" deyiləcək şəkildə bir ayın əvvəlindən 6-dək qan ifrazatı görərsə, sonra iki gün pak olarsa və ardınca ayın 9-dan 15-dək yenidən qan görərsə, bu halda ayın 1-dən 6-dək, habelə 9 və 10-cu günlərində gördüyü qan ifrazatları heyz, 11-15-ci günlər gördüyü ifrazatlar isə istihazədir və vacib ehtiyata əsasən fasilə paklığında həm haizə haram olan işlərdən çəkinməli, həm də pak qadına vacib olan əməlləri yerinə yetirməlidir.

***İkinci nümunə:*** Əgər qadının adəti ayın 10-dan 18-dək doqquz günlük aybaşıdırsa, o, qadınlar arasında "adəti erkən başlamışdır" deyiləcək şəkildə bir ayın 7-dən 14-dək qan ifrazatı görərsə, sonra iki gün pak olarsa və ardınca ayın 17-dən 20-dək yenidən qan görərsə,bu halda ayın 9-dan 14-dək, habelə 17 və 18-ci günlərində gördüyü qan heyzdir. Lakin 7 və 8-ci günlər gördüyü qanı heyz hesab etmək olmaz, çünki adət günləri ilə üst-üstə düşən 17 və 18-ci günlərin on heyz günü sırasından çıxarılması ilə nəticələnir.

***Üçüncü nümunə:*** Əgər qadının adəti ayın 10-dan 19-dək on günlük aybaşıdırsa, o, qadınlar arasında "adəti erkən başlamışdır" deyiləcək şəkildə bir ayın 7-dən 14-dək qan ifrazatı görərsə, sonra iki gün pak olarsa və ardınca ayın 17-dən 20-dək yenidən qan görərsə,bu halda ayın 10-dan 14-dək, habelə 17-dən 20-dək gördüyü qan heyzdir. Lakin adət günlərində öncə, yəni 7-9-cu günlər gördüyü qanı heyz hesab etmək olmaz, çünki adət günləri ilə üst-üstə düşən 17-19-cu günlərin on heyz günü sırasından çıxarılması ilə nəticələnir.

2) Birinci və ikinci dəfə qan görülən günlərin bəzisi adət günləri ilə üst-üstə düşürsə, lakin birinci dəfə adət günləri ilə üst-üstə düşən ifrazat günlərinin sayı üç gündən azdırsa, bu halda:

a) Birinci ifrazatın adətlə üst-üstə düşən müddəti və onun üzərinə əlavə edildikdə üç günə bərabər olan adətdən əvvəlki günlərdən bir hissəsi heyz sayılır. Hətta, ümumiyyətlə, qadınlar arasında "adəti erkən başlamışdır" deyilə biləcəyi təqdirdə adətdən öncəki bütün günlərdə görülən qanı heyz kimi qəbul etməlidir. Bir şərtlə ki, bu, ikinci ifrazatın adət günləri ilə üst-üstə düşən bəzi günlərinin, yaxud bütün günlərinin on heyz günü sırasından çıxarılması ilə nəticələnməməlidir.

b) Həmçinin, ikinci ifrazatın adətlə üst-üstə düşən bəzi günlərində görülən qan da heyz hesab edilir. Bu şərtlə ki, birinci ifrazatın adətlə üst-üstə düşən müddəti (bir və ya iki günü) ilə adətdən əvvəlki günlərindən onun üzərinə əlavə edildikdə heyzin minimum müddəti sayılan üç günü tamamlayan müddətində görülən qanın heyz qanı kimi qəbul edilməsi nəzərə alınmaqla, ifrazat günlərinin və onların arasındakı paklıq günlərinin birlikdə sayı on günü keçməməlidir. Yerdə qalan günlərdə görülən qan isə istihazədir. Bu hökmün daha aydın başa düşülməsi üçün, gəlin, üç nümunəni nəzərdən keçirək:

***Birinci nümunə:*** Əgər qadının adəti ayın 4-dən 10-dək yeddi günlük aybaşıdırsa, o, ayın 1-dən 4-dək qan ifrazatı görərsə, sonra iki gün pak olarsa və ardınca ayın 7-dən 12-dək yenidən qan görərsə,bu halda ayın 1-4-cü, habelə 7-10-cu günlərində gördüyü qanı heyz qanı kimi qəbul etməlidir, 11 və 12-ci günlər gördüyü qan istihazədir, fasilə paklığı günlərində isə, lazım ehtiyata əsasən, həm haizə haram olan işlərdən çəkinməli, həm də pak qadına vacib olan əməlləri yerinə yetirməlidir.

***İkinci nümunə:*** Əgər qadının adəti ayın 4-dən 12-dək doqquz günlük aybaşıdırsa, o, ayın 1-dən 4-dək qan ifrazatı görərsə, sonra iki gün pak olarsa və ardınca ayın 7-dən 15-dək yenidən qan görərsə, bu halda ayın 2-4-cü, habelə 7-11-ci günlərində gördüyü qanı heyz qanı kimi qəbul etməlidir, 1-ci və 12-15-ci günlər gördüyü qan istihazədir, fasilə paklığı günlərində isə, vacib ehtiyata əsasən, həm haizə haram olan işlərdən çəkinməli, həm də pak qadına vacib olan əməlləri yerinə yetirməlidir. Sözügedən qadın ayın 1-ci günü gördüyü qanı heyz qanı hesab edə bilməz. Çünki bu, ikinci ifrazat dövrünün adət günləri ilə üst-üstə düşən bəzi günlərinin, yəni11-ci günün on heyz günü sırasından çıxarılması ilə nəticələnir.

***Üçüncü nümunə:*** Əgər qadının adəti ayın 5-dən 12-dək səkkiz günlük aybaşıdırsa, o, ayın 1-dən 5-dək qan ifrazatı görərsə, sonra beş gün pak olarsa və ardınca ayın 11 və 12-ci günlərdə yenidən qan görərsə, bu halda ayın 3-5-ci, habelə 11 və 12-ci günlərində gördüyü qan heyz, 1 və 2-ci günlər gördüyü qan isə istihazə qanıdır və fasilə paklığı günlərində,

vacib ehtiyata əsasən, həm haizə haram olan işlərdən çəkinməli, həm də pak qadına vacib olan işləri görməlidir. Sözügedən qadın ayın 1 və 2-ci günlərində gördüyü qanı heyz qanı hesab edə bilməz. Çünki bu, ikinci ifrazat dövrünün adət günləri ilə üst-üstə düşən bütün günlərinin, yəni 11-ci və 12-ci günün on heyz günü sırasından çıxarılması ilə nəticələnir.

**Məsələ 533.** Vəqtiyyə və ədədiyyə adəti olan qadın öz adət vaxtında qan ifrazı müşahidə etməsə, lakin başqa bir vaxt adət günlərinin sayı qədər heyz qanı görərsə, adət günlərindən əvvəl, yaxud sonra görməsindən, habelə qanda heyz əlamətlərinin olub-olmamasından asılı olmayaraq, həmin günləri özü üçün heyz adəti kimi qəbul etməlidir.

**Məsələ 534.** Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın adət vaxtında üç gün və ya daha artıq qan ifrazı müşahidə edərsə və bu günlərin sayı onun adət günlərinin sayından az və ya çox olarsa, lakin on günü keçməzsə, digər tərəfdən adət günlərindən başqa günlərdə ondan əvvəl və ya sonra adət günlərinin sayı qədər qan görərsə və iki qan arasında fasilə olarsa, vaxt və günlərin sayı arasında ziddiyyət yaranan belə məqamlarda bir neçə vəziyyət nəzərdən keçirilə bilər:

1) İki qanın görüldüyü günlərin sayı ilə onların arasındakı paklıq günlərinin birgə sayı on günü keçmədiyi təqdirdə iki qan bir heyz hesab edilir və aradakı fasilə paklığı adlandırılan müddətdə isə, vacib ehtiyata əsasən, həm haizə haram olan işlərdən çəkinməli, həm də pak qadına vacib olan işləri görməlidir.
2) İki qan arasındakı paklıq müddəti on gün, yaxud daha artıq olarsa, bu halda heyz əlamətləri daşıyıb-daşımamasından asılı olmayaraq onların hər biri ayrıca heyz kimi qəbul edilməlidir.
3) İki qan arasındakı paklıq müddəti on gündən az olarsa, lakin iki qanla aradakı paklıq müddəti birlikdə on gündən artıq olarsa, bu halda vaxt meyarı günlərin sayından daha önəmli hesab edilir və qadın heyz adəti günləri ərzində gördüyü qanı heyz, adətindən başqa günlərdə gördüyü qanı isə istihazə kimi qəbul etməlidir.

## Vəqtiyyə adətinə sahib olan qadın

**Məsələ 535.** Vəqtiyyə adətinə sahib olan və adətinin başlanğıcı bəlli olan qadınlar iki qismə bölünür:

1) İki ardıcıl ay ərzində müəyyən vaxtda heyz qanı görməyə başlayaraq bir neçə gündən sonra paklanan, lakin bu aylarda adət günlərinin sayı eyni olmayan, məsələn, iki ardıcıl ayın hər birində ayın 1-dən etibarən qan görməyə başlayan, ancaq birinci ayın 7-də, ikinci ayın isə 8-də pak olan (heyz qanı kəsilən) qadın ayın 1-ni özü üçün heyz adətinin başlanğıcı kimi qəbul etməlidir.

2) İki ardıcıl ay ərzində müəyyən vaxtda üç gün və ya daha artıq qan görən, sonra paklanan, ardınca ikinci dəfə qan görən qadın və qan gördüyü günlərlə arada pak olduğu günlərin birlikdə sayı on günü keçməyən, bununla belə ikinci aybaşı günlərinin sayı birinci aydakından az və ya çox olan, məsələn, birinci ay səkkiz, ikinci ay isə doqquz gün aybaşı olan, lakin iki ayın hər birində ayın əvvəlindən etibarən qan görməyə başlayan qadın da ayın ilk gününü özü üçün heyz adətinin başlanğıcı kimi qəbul etməlidir, qan gördüyü bütün günlərdə haiz sayılır, aradakı fasilə paklığı adlandırılan günlərdə isə, vacib ehtiyata əsasən, bir tərəfdən haiz qadına haram olan işləri görməməli, digər tərəfdən də pak qadına vacib olan işləri görməlidir.

**Məsələ 536.** Vəqtiyyə adətinə sahib olan və adətlərinin sonu bəlli olan qadınlar da iki qismə bölünür:

1) İki ardıcıl ay ərzində heyz qanı görən və bir neçə gündən sonra müəyyən vaxtda pak olan, lakin iki ayda aybaşı günlərinin sayı eyni olmayan, məsələn, birinci ay qan ifrazı ayın 3-də, ikinci ay isə 5-də başlayan, ancaq hər iki ayın 9-da qanaxması başa çatan qadın ayın 9-nu özü üçün heyz adətinin sonu kimi qəbul etməlidir. Bunun əhəmiyyətini bir misalla belə izah etmək olar: Əgər sözügedən qadında qan ifrazı beşinci ay təsadüfən on günü keçərək ayın 15-dək davam edərsə, bu halda onun ayın 9-dan 15-dək müşahidə etdiyi qan istihazə sayılır.

2) İki ay ardıcıl ay ərzində üç gün və ya daha artıq qan ifrazı müşahidə edən, sonra paklanan, daha sonra ikinci dəfə qan gördükdən sonra müəyyən vaxtda paklanan və qan gördüyü günlərlə arada pak olduğu günlərin birlikdə sayı on günü keçməyən, lakin ikinci ay aybaşı günlərinin sayı birinci aydan az və ya çox olan, məsələn, birinci ayın 3-dən 5-dək qan görən, sonra iki gün pak olan, ardınca ayın 8-dən 10-dək yenidən qan görən, ikinci ayın isə 1-dən 5-dək qan görən, sonra bir gün pak olan və ardınca ayın 7-dən 10-dək yenidən qan görən qadın ayın 10-nu özü üçün heyz adətinin sonuncu günü kimi qəbul etməlidir. Bunun əhəmiyyətini bir misalla belə izah etmək olar: Əgər sözügedən qadında qan ifrazı başqa ayda təsadüfən on günü keçərək ayın 15-dək davam edərsə, bu halda onun ayın 10-dan 15-dək müşahidə etdiyi qan istihazə, ondan əvvəl müşahidə etdiyi iki qan isə heyz sayılır, aradakı fasilə paklığı adlandırılan günlərdə isə, vacib ehtiyata əsasən, bir tərəfdən haiz qadına haram olan işləri görməməli, digər tərəfdən də pak qadına vacib olan işləri görməlidir.

**Məsələ 537.** Vəqtiyyə adətinə sahib olan qadın adət vaxtında, yaxud ondan bir-iki gün öncə və ya bir qədər də tez qan görməyə başlayarsa

və bu, qadınlar arasında "adəti erkən başlamışdır" deyilə biləcək bir vəziyyətdirsə, hərçənd həmin qanda heyz əlamətləri olmasa da, məsələn, rəngi sarı olsa da, o, haiz qadın üçün açıqlanan hökmlərə əməl etməlidir. Sonradan heyz olmadığını başa düşdüyü təqdirdə isə, məsələn, qan ifrazı üç gündən öncə başa çatarsa, icra etmədiyi ibadətlərinin qəzasını yerinə yetirməli, icrası üçün vaxt qaldığı halda isə onları əda etməlidir. Bu iki haldan başqa digər hallarda, məsələn, adətindən "adəti erkən başlamışdır" deyilə bilməyəcək, əksinə, "adətindən başqa bir vaxtda qan görmüşdür" deyilə biləcək qədər tez qan görən, yaxud adət günləri keçdikdən sonra, hərçənd adət vaxtından qısa müddət sonra olsa belə, qan görən qadın isə həmin qanda heyz əlamətləri olduğu, həmçinin, heyz əlamətləri olmadığı, lakin ifrazının üç gün davam edəcəyini bildiyi təqdirdə haiz qadın üçün bəyan edilən hökmlərə əməl etməli, üç gün davam edib-etməyəcəyini bilmədiyi təqdirdə, lazım ehtiyata əsasən, həm müstəhazəyə vacib olan işləri icra etməli, həm də haizə haram olan işlərdən çəkinməlidir.

**Məsələ 538.** Vəqtiyyə adətinə sahib olan qadın əgər öz adət vaxtında qan görərsə, bu qanın ifrazı on gündən artıq davam etməzsə, qanda yalnız heyz əlamətləri müşahidə edilərsə, hərçənd əlamətlər dərəcələrinə görə fərqli olsa belə, məsələn, bəzi ifrazatların rəngi qara, bəzilərinin isə tünd qırmızı olarsa, yaxud yalnız istihazə əlamətləri müşahidə edilərsə, məsələn, rəngi sarı olarsa, hərçənd ifrazatlarda sarılığın dərəcəsi fərqli olarsa, bir sözlə qanın növünü fərqləndirmək mümkün olmazsa və qadın heyz günlərinin sayını onun əlamətləri vasitəsi ilə ayırd edə bilməzsə, mümkün olduğu təqdirdə aşağıdakı iki şərti nəzərə almaqla yalnız ata, yalnız ana, yaxud hər iki tərəfdən qohum olmasından, sağ olub-olmamasından asılı olmayaraq qohumları arasından bəzi qadınların adət günlərini özü üçün adət günləri kimi qəbul etməlidir:

a) Onun adət günlərinin sayının öz heyz adətinin müddəti ilə ziddiyyət təşkil etdiyini bilməməlidir. Məsələn, özü həyatının gənclik çağında və hormonal sağlamlığının qaydasında olduğu dövrdə, həmin qadın isə bir qayda olaraq adət günlərinin sayının azaldığı menopauza ərəfəsində, yaxud əksinə, özü menopauza ərəfəsində, həmin qadın isə gənclik və hormonal sağlamlığın qaydasında olduğu yaş dövründə olmamalıdır. Yaxud qadının özü naqis ədədiyyə adətinə də sahib olmamalı, o cümlədən misal olaraq adət günlərinin sayı üç gündən artıq, on gündən əskik olmaqla iki rəqəm arasında dəyişməməlidir. Məsələn, hər ayın 10-dan etibarən ya beş, ya da yeddi gün müddətində aybaşı olan qadın on gündən artıq qan gördükdə bəzi qohumlarını nəzərə alaraq beş gündən az, yaxud yeddi gündən artıq davam edən ifrazat müddətini heyz kimi qəbul edə bilməz.

b) Nəzərə alacağı qohumunun adət günlərinin sayının birinci şərtə sahib olan digər qohumlarının adət günlərinin sayından fərqləndiyini bilməməlidir. Lakin əgər fərq hesaba alınmayacaq qədər cüzi olarsa, zərəri yoxdur.

Qohumların adətinə müraciət etmək mümkün olmadığı təqdirdə isə üç gündən on günədək heyz adəti üçün uyğun hesab etdiyi sayda günü özü üçün heyz təyin edə bilər və daha yaxşı olar ki, özünə münasib gördüyü təqdirdə yeddi gün təyin etsin. Təbii ki, qeyd edildiyi kimi əgər bir qadın naqis ədədiyyə adətinə də sahibdirsə, məsələn, adət günlərinin sayı hər ayın 1-dən etibarən beş, yaxud altı gün aybaşı olan qadın kimi üç gündən artıq və on gündən az olmaqla iki (minimum və maksimum) rəqəm arasında dəyişirsə, onun seçimi beş gündən az, yaxud altı gündən çox ola bilməz (başqa sözlə ya beş, ya da altı günü özü üçün heyz günləri olaraq qəbul etməlidir).

Qeyd etmək lazımdır ki, qadın qohumlarının adətinə müraciət etmək, yaxud şəxsi seçim üsulu ilə özü üçün müəyyənləşdirdiyi heyz günlərini, öncəki heyz dövrünün bitməsi ilə arasında minimum on gün fasilə olması şərti ilə, qan gördüyü ilk gündən hesablamalıdır. Həmçinin, heyz müddəti olaraq təyin etdiyi günlərin sayı 540-cı məsələdə izah ediləcəyi kimi adət vaxtı ilə də uzlaşmalıdır.

**Məsələ 539.** Vəqtiyyə adəti olan qadın əgər öz adət vaxtında qan görərsə və onun ifrazı on gündən artıq davam etməzsə, bəzi günlərdə gördüyü qanda heyz əlamətləri hərçənd müxtəlif dərəcələrlə də olsa müşahidə edilərsə, məsələn, ifrazatın bir qisminin rəngi qara, digər qisminin rəngi isə tünd qırmızı olarsa, bəzi günlərdə isə qanda heyz əlaməti olmazsa, məsələn, hərçənd tündlük və açıqlıq baxımından bir-birindən fərqlənsə də, sarı rəngdə olarsa:

a) Qanın heyz əlamətlərinə malik olduğu günlərin sayı üç gündən az və on gündən çox olmazsa, həmin günlərdə ifraz olan qanı heyz, digər ifrazatları isə istihazə kimi qəbul etməlidir.

b) Heyz əlamətlərinə malik olan qan üç gündən az ifraz olarsa, onu heyz kimi qəbul etməli və heyz günlərinin sayını da əvvəlki məsələdə izah edilən iki üsuldan biri (qohumların adətinə müraciət etmək, yaxud say seçim) ilə təyin etməlidir. Bu sayın tamamlanması mümkün olduğu təqdirdə heyz əlamətlərinə malik olan qandan sonrakı ifrazatların baş verdiyi günlər hesabına edilməlidir.

c) Heyz əlamətlərinə malik olan qan on gündən artıq ifraz olarsa, mümkün olduğu təqdirdə saydan azaltma və ixtisar son günlərin hesabına edilməlidir. Çünki bu halda qadın heyz günləri olaraq seçdiyi günləri heyz əlamətinə malik olan qanın ifraz olduğu ilk gündən hesablayır, digər qan ifrazatlarını isə istihazə kimi qəbul edir.

Qeyd etmək lazımdır ki, “a”,“b” və “c” bəndlərində şərh edilən hər üç halda həmin (heyz günləri olaraq seçilən) günlərin adət vaxtı ilə üst-üstə düşüb-düşməməsinin heç bir fərqi yoxdur. Məsələn, vəqtiyyə adəti ayın ilk günündən başlayan qadın ayın əvvəlindən 15-dək qan görərsə və bu qan 4-cü gündən 9-cu günədək heyz əlamətləri ilə ifraz olarsa, qadın ayın 4-9-cu günlərini heyz günləri kimi qəbul etməlidir, 1-3-cü günlər və 10-15-ci günlərdə müşahidə edilən qan isə istihazədir.

**Məsələ 540.** Vəqtiyyə adətinə sahib olan qadın heyz günlərini adət vaxtı xaricində təyin edə bilməz. Buna əsasən, əgər onun adətinin başlanğıcı məlumdursa, məsələn, hər ayın ilk günündən etibarən qan görürsə, aylardan birində ayın ilk günündən 15-dək qan görərək heyzin əlamətləri ilə onun günlərinin sayını müəyyən edə bilməzsə, qan müşahidə etdiyi ilk günü, yəni ayın ilk gününü heyz kimi qəbul etməlidir, günlərin sayı ilə bağlı isə 538-cü məsələdə qeyd edilənlərə müraciət etməlidir. Bu halda o, heyz üçün seçdiyi günləri qanın müşahidə edildiyi ilk gündən sonrakı günlərdən, məsələn, onuncu gündən başlayaraq hesablaya bilməz. Həmçinin, vəqtiyyə adətinə sahib olan və adəti ayın 11-dən başlayan bir qadın bir ay, məsələn, ayın 1-dən 18-dək qan görərsə, hərçənd ilk günlərdə müşahidə edilən qanda heyz əlamətləri olsa da, heyz adəti üçün seçdiyi günləri ayın 1-dən başlayaraq hesablaya, yaxud ayın ilk on gününü heyz günləri kimi qəbul edə bilməz. Habelə, sonu məlum olan, məsələn, ayın 15-ə təsadüf edən vəqtiyyə adətinə sahib olan qadın aylardan birində ayın 1-dən 16-dək qan görərsə, adətinin sonunu ayın 10-na təyin edə bilməz. Bu halda o hesablamanı elə aparmalıdır ki, özü üçün heyz günləri olaraq təyin etdiyi günlərin sonuncusu adət vaxtının sonu ilə üst-üstə düşməlidir.

**Məsələ 541.** Vəqtiyyə adətinə sahib olan və aylardan birində adət vaxtında ümumiyyətlə qan görməyən, lakin həmin ayın sayı on gündən artıq olan başqa günlərində qan müşahidə edən və heyz günlərinin sayını onun əlamətlərinə əsasən müəyyən edə bilməyən qadın öz adət günlərində qan görən və qan ifrazı on gündən artıq davam edən qadın kimi hərəkət etməlidir.

**Məsələ 542.** Vəqtiyyə adəti olan qadın öz adət vaxtında qan müşahidə etdikdə onun ifrazı on gündən artıq davam edərsə və qanın heyz əlaməti ilə ifraz olduğu günlərin sayı üç gündən az və on gündən çox olmazsa, məsələn, vəqtiyyə adəti ayın ilk günündən başlayan bir qadın ayın 1-dən dörd gün heyz əlaməti, sonra dörd gün istihazə əlaməti, daha sonra yenidən dörd gün heyz əlaməti ilə qan görərsə, yalnız ilk dörd gün ərzində gördüyü qanı heyz kimi qəbul etməlidir, digər günlərdə gördüyü qan isə istihazədir. Həmçinin, əgər ayın ilk günündən etibarən dörd

gün heyz, sonra on gün istihazə, ardınca yenidən dörd gün heyz əlaməti ilə qan görərsə, yalnız heyz əlaməti daşıyan ilk dörd gündəki ifrazatı heyz kimi qəbul etməlidir, digər ifrazatlar isə istihazə sayılır.

**Məsələ 543.** Vəqtiyyə adətinə sahib olan bir qadın əgər üç gün, yaxud daha artıq qan görüb, sonra paklanaraq ardınca yenidən qan görərsə, iki qan arasındakı fasilə on gündən az olarsa, qan gördüyü günlərlə arada pak olduğu günlərin sayı birlikdə on gündən çox olarsa, birinci və ikinci qan ifrazının heç biri ayrılıqda on gündən çox davam etməzsə, məsələn, beş gün qan görərsə, sonra beş gün paklanarsa, ardınca yenidən beş gün qan görərsə, ona vəqtiyyə və adətiyyə sahibi olan qadınlar üçün 531 və 532-ci məsələlərdə qeyd edilən hökmlər şamil olunur.

## Ədədiyyə adətinə sahib olan qadın

**Məsələ 544.** Ədədiyyə adətinə sahib olan, heyz günlərinin sayı bəlli olan qadınlar iki qismə bölünür:

1) İki ardıcıl ay ərzində heyz günlərinin sayı bərabər olan, lakin qan görmə vaxtı eyni olmayan (ayların eyni günlərinə təsadüf etməyən) qadın belə vəziyyətdə neçə gün qan ifrazı müşahidə edərsə, həmin günlər onun adəti olur, məsələn, əgər birinci ayın 1-dən 5-dək, ikinci ayın isə 11-dən 15-dək qan görərsə, onun adəti beş olur.
2) İki ardıcıl ay ərzində üç gün və ya daha artıq qan görən, sonra bir gün və ya daha artıq pak olan, ardınca ikinci dəfə qan görən və birinci ay qan gördüyü vaxt ikinci ayın eyni günləri ilə üst-üstə düşməyən qadının qan gördüyü bütün günlərlə arada pak olduğu günlərin sayı birlikdə on günü keçmirsə, iki ayda qan gördüyü günlərin sayı eynidirsə, qan gördüyü bütün günlər onun heyz adəti sayılır və vacib ehtiyata əsasən, arada pak olduğu günlərdə ehtiyatən haiz olmayan qadına vacib olan işləri yerinə yetirsin, haizə haram olan işlərdən isə çəkinsin. Məsələn, əgər birinci ayın 1-dən 3-dək qan görərsə, sonra iki gün pak olarsa, ardınca ayın 6-dan 8-dək üç gün müddətində qan görərsə, ikinci ayın isə 11-dən 13-dək qan görərsə, sonra iki gün pak olarsa, ardınca ayın 16-dan 18-dək üç gün qan görərsə, onun ədədiyyə adəti altı gün olur və aradakı paklıq müddətində, vacib ehtiyata əsasən, həm haizə haram olan əməlllərdən çəkinməli , həm də pak qadına vacib olan işləri görməlidir.

Lakin əgər bir ayda üç gün qan görüb, sonra paklanar və ardınca yenidən qan görərsə, növbəti ayda isə beş gün qan görüb, sonra paklanar və ardınca yenidən qan görərsə və hər iki ayda qan gördüyü günlərlə arada pak olduğu günlərin sayı birlikdə səkkiz günə bərabər olarsa, bu halda sözügedən qadın ədədiyyə adəti sahibi deyil, hökmü qarşıda izah ediləcək müztəribə kateqoriyasına daxildir.

**Məsələ 545.** Yalnız ədədiyyə adəti olan və adətinin vaxtı müəyyən olmayan qadın heyz əlamətlərinə malik olan qan gördükdə, həmçinin, əgər qanda heyz əlamətləri yoxdursa, lakin qadın onun ifrazının üç gün davam edəcəyini bilirsə, onu heyz kimi qəbul etməli və haiz qadın üçün nəzərdə tutulan hökmlərə uyğun davranmalıdır. Üç gün davam edib-etməyəcəyini bilmədiyi təqdirdə isə, vacib ehtiyata əsasən, həm müstəhazəyə vacib olan işləri görməli, həm də haizə haram olan işlərdən çəkinməlidir.

**Məsələ 546.** Ədədiyyə adətinə sahib olan qadın əgər adət günlərindən az və ya çox qan görərsə və qan gördüyü günlərin sayı 10-u keçməzsə, hərçənd qanda heyz əlamətləri olmasa belə, həmin günlərin hamısını heyz kimi qəbul etməlidir.

**Məsələ 547.** Ədədiyyə adətinə sahib olan qadında qan ifrazı on gündən artıq davam edərsə, gördüyü ifrazatların hamısı bir-birinə bənzəyərsə və qanında dərəcəsinə görə bir-birindən fərqlənməsinə, məsələn, bəzi ifrazatların qara, bəzilərinin isə tünd qırmızı rəngdə olmasına baxmayaraq yalnız heyz əlamətləri müşahidə edilərsə, yaxud dərəcəsinə görə bir-birindən fərqlənməsinə baxmayaraq sarı rəngdə olması kimi istihazə əlamətləri müşahidə edilərsə, qan görməyə başladığı gündən etibarən adət günlərinin sayına bərabər olan müddətdə gördüyü qan ifrazatlarını heyz, digər ifrazatları isə istihazə kimi qəbul etməlidir. Əgər gördüyü bütün qan ifrazatları eyni cür olmazsa, belə ki, bir neçə gün gördüyü qan ifrazatlarında heyz əlamətləri, digər günlərdə gördüyü ifrazatlarda isə istihazə əlamətləri olarsa, qanda heyz əlamətləri olduğu günlərin sayı adət günlərinin sayına bərabərdirsə, həmin günləri heyz, digər günləri isə istihazə kimi qəbul etməlidir. Qanda heyz əlamətləri müşahidə edilən günlərin sayı adət günlərinin sayından artıq olduğu təqdirdə yalnız adət günlərinin sayına bərabər günlərdə heyzdir və digər günlər arasından isə mümkün olduğu halda son günlər ixtisar edilməlidir. Çünki bu halda qadın adət günlərini heyz əlamətlərinə malik olan qanın görüldüyü ilk gündən etibarən hesablayır, qalan günlər isə istihazə sayılır. Qanda heyz əlamətlərinin olduğu günlərin sayı adət günlərindən az olduğu təqdirdə isə hərçənd üç gündən az olsa da, həmin günləri, üstünə gəldikdə adət günlərinin sayına bərabər olacaq qədər gün ilə birlikdə heyz günləri, digər günləri isə istihazə günləri kimi qəbul etməlidir və bu əlavə etmə mümkün olduğu halda heyz əlamətinə malik olan qandan sonra ifraz olan qanların görüldüyü günlərin hesabına aparılmalıdır. Çünki heyz əlamətlərinin köməyi ilə ədədiyyə adətinin günlərinin sayını deyil, onun başlanma vaxtını müəyyən etmək olar.

Qeyd etmək lazımdır ki, beş günlük ədədiyyə adəti olan qadın qan görməyə davam edərsə və heyz əlaməti olan qanın ifrazının başa

çatmasından sonra on gün keçməmiş yenidən heyz əlaməti olan qan görərsə, məsələn, beş gün qara, sonra doqquz gün sarı, ardınca yenidən beş gün qara rəngli qan görərsə, ilk qanı heyz, digərlərini isə istihazə kimi qəbul etməlidir. Çünki bir qanı fərqləndirici əlamətlərinə əsaslanmaqla yalnız o halda heyz kimi qəbul etmək olar ki, ondan sonra bir daha heyz əlamətlərinə malik olan qan ifraz olsun. İkinci qanı bütövlüklə heyz hesab etmək olmursa, o zaman onu fərqləndirmək də doğru deyil, bu səbəbdən onların (ilk beş gündən sonra görülən qanların) hamısı istihazədir və ikinci qanın bir qismini fərqləndirici əlamətlərinə əsaslanmaqla heyz hesab etmək olmaz. Lakin qadının beş gün qara, sonra on gün sarı, ardınca yenidən beş gün qara rəngli qan ifrazı gördüyü təqdirdə isə heyz əlamətinə malik olan birinci və üçüncü qanı heyz, onların arasında görülən qanı isə istihazə kimi qəbul etmək lazımdır.

**Məsələ 548.** 516-cı məsələdə qeyd edildiyi kimi qadın naqis ədədiyyə adətinə də sahib ola bilər. Adət günlərinin sayı üç gündən az, on gündən çox olmayan iki rəqəm arasında dəyişən qadını buna misal göstərmək olar. O, məsələn, hər ay ya altı, ya da yeddi gün qan görür və bu hadisə ürfən onun naqis adəti sayılacaq qədər təkrarlanır. Belə bir qadında qan ifrazı on gündən artıq davam etdiyi təqdirdə heyz əlamətləri vasitəsi ilə, yaxud bəzi qohumlarının adətini nəzərə almaqla və say seçimi qaydası ilə altı gündən az, yaxud yeddi gündən artıq olan bir müddəti özü üçün heyz günləri kimi qəbul edə bilməz. Beləliklə, əgər əlamətlərə, yaxud qohumların adətinə əsasən müəyyən edilən gün sayı beş olarsa, bu halda adətini beş günlük adət kimi təyin edə bilməz. Əksinə, adətinin dəqiq olan altı günlük (minimum) müddətini heyz günləri kimi qəbul etməlidir. Həmçinin, əgər əlamətlərə, yaxud qohumların adətinə əsasən müəyyən edilən gün sayı səkkiz olarsa, bu halda adətini səkkiz günlük adət kimi təyin edə bilməz. Əksinə, adətinin dəqiq olan yeddi günlük maksimum müddətini heyz günləri kimi qəbul etməlidir.

**4) Mübtədiə**

**Məsələ 549. Mübtədiə ilk dəfə aybaşı olan (menarxe)**[1] qadın deməkdir. Mübtədiə qızın hansı əlamətlərə malik bir qan gördükdə onu heyz kimi qəbul edə biləcəyi ilə bağlı hökm yalnız ədədiyyə adəti olan qadınlar üçün 545-ci məsələdə bəyan edilən hökm kimidir.

**Məsələ 550.** Mübtədiə qız on gündən artıq qan görərsə və gördüyü qan ifrazatlarının hamısı - hərçənd dərəcələri fərqli olsa da - eyni əlamətlərə malik olarsa, məsələn, hamısında heyz əlamətləri[2] olarsa, hərçənd

[1] Qızların hormonal inkişafı düzgün getdikdə ilk aybaşı (menarxe) 12-13 yaşlarında baş verir. *Tərc.*

[2] Heyzin əlamətləri 467-ci məsələdə qeyd olunmuşdur.

bəzi ifrazatların rəngi qara, bəzilərininki isə tünd qırmızı olsa da, yaxud qan ifrazatlarının hamısında istihazə əlaməti olarsa, yəni sarı rəngdə görülərsə - hərçənd ifrazatlarda sarılığın dərəcəsi fərqli olsa da - yalnız ata, yalnız ana, yaxud hər iki tərəfdən qohum olmasından, sağ olub-olmamasından asılı olmayaraq, lakin aşağıdakı iki şərti nəzərə almaqla qohumlarından birinin adət müddətini özü üçün heyz, digər günləri isə istihazə kimi qəbul etməlidir:

a) Onun adət müddətinin öz heyz müddəti ilə uzlaşmadığını bilməməlidir. [1] Məsələn, özü həyatının gənclik çağında olduğu halda və hormonal sağlamlığı qaydasında olduğu halda, həmin qadın bir qayda olaraq adət günlərinin sayının azaldığı menopauza ərəfəsində olmamalıdır.

b) Həmin qadının adət müddətinin birinci şərtə sahib olan digər qohumlarının adət müddətindən fərqləndiyini bilməməlidir. Lakin əgər fərq hesaba alınmayacaq qədər cüzi olarsa, zərəri yoxdur.

Bu iş (qohumların adətinə müraciət etmək) mümkün olmadığı təqdirdə isə heyz müddəti üçün uyğun hesab etdiyi 3-10 günü özü üçün heyz təyin edə bilər və daha yaxşı olar ki, özünə münasib gördüyü təqdirdə yeddi gün təyin etsin.

**Məsələ 551.** Mübtədiə on gündən artıq müddətdə bir neçə gün heyz, bir neçə gün isə istihazə əlamətləri ilə ifraz olan qan görərsə, heyz əlamətinə malik olan qan ifrazı üç gündən az və on gündən artıq davam etmədiyi təqdirdə onların hamısı heyzdir. Lakin sözügedən qız qan ifrazı müşahidə etməyə davam edərsə və heyz əlaməti olan qan ifrazının başa çatmasından on gün keçməmiş yenidən heyz əlaməti olan qan görərsə, məsələn, beş gün qara rəngli qan, ardınca doqquz gün sarı rəngli qan, sonra yenidən beş gün qara rəngli qan görərsə, birinci qanı heyz, digər iki qanı isə istihazə kimi qəbul etməlidir. Lakin beş gün qara, ardınca on gün sarı, daha sonra yenidən beş gün qara rəngli qan görərsə, heyz əlamətinə malik olan birinci və üçüncü qanı heyz, onların arasında gördüyü qanı isə istihazə hesab etməlidir.

**Məsələ 552.** Mübtədiə on gündən artıq müddətdə bir neçə gün heyz, bir neçə gün isə istihazə əlamətləri ilə ifraz olan qan görərsə, lakin heyz əlamətinə malik olan qan ifrazı üç gündən az baş verərsə, həmin qanı heyz kimi qəbul etməli və heyz günlərinin sayını 550-ci məsələdə qeyd edilən iki üsuldan (qohumların adətini nəzərə almaq, yaxud müəyyən sayda gün seçmək) biri ilə təyin etməlidir. Həmin günlərə əlavə edilən günlər mümkün olduğu təqdirdə heyz əlamətlərinə malik olan qandan əvvəlki deyil, sonrakı ifrazatların baş verdiyi günlər arasından seçilməlidir. Həmçinin, əgər heyz əlamətinə malik olan qan on gündən artıq

[1] 538-ci məsələ zəminində verilən izah bu məsələyə də şamil olunur.

ifraz olarsa, onun bir qismini artıq izah edilən iki üsuldan biri ilə heyz kimi qəbul etməli, ixtisar olunan (heyz günləri sayılmayan) günləri isə mümkün olduğu təqdirdə sonuncu günlərdən seçməlidir. Beləliklə, bu halda heyz günləri olaraq seçdiyi günləri heyz əlaməti olan qanın ifraz olmağa başladığı tarixdən etibarən hesablayır, digər günləri isə istihazə kimi qəbul edir.

**5) Müztəribə**

**Məsələ 553.** İki ardıcıl ay ərzində bir-birindən həm vaxt, həm də günlərin sayı baxımından fərqlənən aybaşı olan qadına "müztəribə" deyilir. Müztəribə qadının hansı əlamətlərə malik bir qan gördükdə onu heyz kimi qəbul edə biləcəyi ilə bağlı hökm yalnız ədədiyyə adəti olan qadınlar üçün 545-ci məsələdə bəyan edilən hökm kimidir.

**Məsələ 554.** Müztəribə qadın on gündən artıq qan ifrazı müşahidə edərsə və gördüyü qan ifrazatlarının hamısı eyni cür olarsa – 550-ci məsələdə mübtədiə qızlar üçün şərh edildiyi qaydada – ona şamil olunan hökm mübtədiə qıza şamil olunan hökm kimidir. Aradakı fərq yalnız budur ki, burada qohumların nəzərə alınması vacib ehtiyata əsaslanır.

Qeyd etmək lazımdır ki, bu məsələ müztəribə qadının ümumiyyətlə adət sahibi olmadığı hallara şamil olunur. Naqis ədədiyyə adətinə (516-cı məsələdə izah edilmişdir) sahib olduğu təqdirdə isə heyz günlərinin sayını qeyd edilən üsullarla (qohumların adətini nəzərə almaq, yaxud müəyyən sayda gün seçimi) təyin etmək istədikdə pozulmuş naqisə adətinə uyğun olmayan bir rəqəmi seçə bilməz. Məsələn, naqisə adəti daima səkkiz gündən artıq olan bir qadın yeddi rəqəmini (heyz günlərinin sayı olaraq) seçə bilməz.

**Məsələ 555.** Müztəribə on gündən artıq müddətdə bir neçə gün heyz, bir neçə gün isə istihazə əlamətləri ilə ifraz olan qan görərsə, mübtədiə üçün 551 və 552-ci məsələlərdə qeyd edilən göstərişlərə uyğun hərəkət etməlidir. Naqisə adətinə sahib olduğu təqdirdə isə öncəki məsələdə qeyd edilənlərə riayət etməlidir.

**6) Nasiyə**

**Məsələ 556.** Adət günlərinin sayını, yaxud zamanını və ya hər ikisini unudan qadına "nasiyə" deyilir. Bu qadın üç gündən az və on gündən çox olmayaraq ifraz olan bir qan görərsə, heyz əlamətlərinə[1] malik olub-olmamasından asılı olmayaraq, onların hamısını heyz kimi qəbul etməlidir. Qan ifrazı on gündən artıq davam edərsə, burada üç vəziyyət təsəvvür edilə bilər:

a) daha əvvəl ədədiyyə adətinə sahib olan nasiyə;

b) daha əvvəl vəqtiyyə adətinə sahib olan nasiyə;

[1] Heyz əlamətli 467 ci məsələdə qeyd olundu

c) daha əvvəl vəqtiyyə və ədədiyyə adətinə sahib olan nasiyə.

Bütün bu hallarla bağlı hökmlər növbəti məsələlərdə izah ediləcəkdir.

## Ədədiyyə adətinə sahib olmuş nasiyə

**Məsələ 557.** Əgər qadın on gündən artıq qan görərsə və ədədiyyə adətinə sahib olmasına baxmayaraq, artıq hətta icmalən olsa belə, adət günlərinin vaxtını, yaxud sayını xatırlamayacaq şəkildə unutmuşdursa, bu halda həmin qadına mübtədiə ilə bağlı 550-552-ci məsələlərdə izah edilən hökmlər şamil olunur.

**Məsələ 558.** Əgər qadın on gündən artıq qan görərsə və ədədiyyə adətinə sahib olsa da, adət günlərinin sayını unutmuşdursa, lakin icmalən xatırlaya bilirsə, burada iki hal təsəvvür edilə bilər:

a) Əgər heyz günlərinin sayını üç meyarla, yəni heyz əlamətlərinə əsasən, yaxud qohumların adətini nəzərə almaqla və ya ixtiyari sayda gün seçməklə (bu meyarlar arasından şəriətə görə ona aid olanını əsas götürərək) müəyyən etdiyi təqdirdə təyin etdiyi heyz günlərinin sayı adətinin dəqiq olan miqdarından az olarsa, məsələn, adətini unutmuşdursa, lakin icmalən onun səkkiz, yaxud doqquz gün davam etdiyinə əmindirsə, qeyd edilən üç meyara əsasən təyin edilən say isə yeddidirsə, bu halda qadın adətini yeddi gün olaraq təyin edə bilməz. O, adətinin dəqiq olan (minimum) müddətini, yəni səkkiz günü özü üçün heyz günləri olaraq qəbul etməlidir.

b) Əgər heyz günlərinin sayını üç meyarla, yəni heyz əlamətlərinə əsasən, yaxud qohumların adətini nəzərə almaqla və ya ixtiyari sayda gün seçməklə (bu meyarlar arasından şəriətə görə ona aid olanını rəhbər tutaraq)[1] müəyyən etdiyi təqdirdə təyin etdiyi heyz günlərinin sayı adətinin dəqiq olan miqdarından çox olarsa, məsələn, adətini unutmuşdursa, lakin icmalən onun beş, yaxud altı gün davam etdiyinə əmindirsə, qeyd edilən üç meyara əsasən təyin edilən say isə yeddidirsə, bu halda qadın adətini yeddi gün olaraq təyin edə bilməz. O, adətinin ehtimal olunan maksimum müddətini, yəni altı günü özü üçün heyz günləri olaraq qəbul etməlidir.

Bu iki hal istisna olmaqla, digər hallarda isə unudulmuş sayın heç bir əhəmiyyəti yoxdur və qadın mübtədiə hökmünə əməl etməlidir. Lakin

---

[1] Əvvəlki məsələlərdən də aydın olduğu kimi qadın sözügedən üç meyara müraciət etməli olduğu məqamlarda öncə qanın əlamətlərini nəzərə almalı, yəni heyz əlamətlərinə (467-ci məsələdə qeyd edilmişdir) malik olan qanı heyz hesab etməlidir. Lakin əgər bu üsulla qan (heyz olub-olmaması) ayırd edilə bilmirsə, məsələn, bütün günlərdə müşahidə edilən qan ifrazatları bir-birindən fərqlənmirsə, qohumlarının adətinə baxmalıdır. Bu üsulla da ayırd edə bilmirsə, öncəki məsələlərdə izah edilmiş qaydada özü heyzi üçün uyğun hesab etdiyi müddəti seçməlidir.

əgər qadın adətinin təyin etdiyi müddətdən daha uzun olduğunu ehtimal edirsə, müstəhəb ehtiyata əsasən, haizə haram olan işlərdən çəkinərək, müstəhazəyə vacib olan işləri görməlidir.

## Vəqtiyyə adətinə sahib olmuş nasiyə

**Məsələ 559.** Əgər qadın on gündən artıq qan görərsə və vəqtiyyə adətinə sahib olmağına baxmayaraq, artıq hətta icmalən olsa belə, adət günlərinin vaxtını xatırlamayacaq şəkildə unutmuşdursa, bu halda həmin qadına mübtədiə ilə bağlı 550-552-ci məsələlərdə izah edilən hökmlər şamil olunur.

**Məsələ 560.** Əgər qadın on gündən artıq qan görərsə, vəqtiyyə adətinə sahib olsa da, adət günlərinin vaxtını unutmuşdursa, lakin icmalən xatırlaya bilirsə, burada iki hal təsəvvür edilə bilər:

a) Əgər hazırda qan gördüyü, müddəti üç gündən az olan müəyyən bir zamanın onun vəqtiyyə adətinin bir hissəsinə təsadüf etdiyini bilirsə, lakin həmin adətinin başladığı və sona çatdığı tarixi unutmuşdursa, heyz əlamətlərinə malik olan və sözügedən zaman ərzində görülən qanı heyz kimi qəbul etməlidir. Lakin heyz əlamətlərinə malik olan qanın görülməsi sözügedən zamana təsadüf etmirsə, onu heyz kimi qəbul edə bilməz. Məsələn, əgər qadın ayın 17-nin onun unutduğu adət günlərindən olduğunu, yaxud adətinin ayın ikinci yarısına təsadüf etdiyini bilirsə, indi isə ayın əvvəlindən 20-dək qan görmüşdürsə, hətta ayın ilk on günündə gördüyü qanda heyz, ikinci on günlüyündə gördüyü qanda isə istihazə əlamətləri olsa da, adətini ilk on günə təyin edə bilməz. Bu qadın qohumlarının adətinə baxmalı, bununla da mümkün olmadığı təqdirdə isə həmin zamana təsadüf etmək şərti ilə 3-10 gün arasında müəyyən bir müddəti 550-ci məsələdə izah edilən qaydada özü üçün adət seçməlidir.

b) Əgər vəqtiyyə adətinin bir hissəsini təşkil edən müəyyən bir vaxt xatırlamırsa, lakin icmalən adət zamanının ayın yalnız müəyyən bir hissəsinə, məsələn, birinci yarısına təsadüf etdiyini bilirsə, bu halda qadın heyz əlamətlərinə malik olan, lakin ayın ikinci yarısına təsadüf edən qanı heyz kimi qərar verə bilməz, yaxud heyzi üçün qohumların adətini nəzərə almaq və ya müddət seçmək üsulu ilə təyin etdiyi günləri ayın ikinci yarısından seçə bilməz.

## Vəqtiyyə və ədədiyyə adətinə sahib olan nasiyə

**Məsələ 561.** Əgər qadın on gündən artıq qan görərsə və vəqtiyyə və ədədiyyə adətinə sahibdirsə, bu halda qarşıdakı məsələlərdə izah ediləcək üç vəziyyət təsəvvür edilə bilər.

**Məsələ 562.** Əgər qadın on gündən artıq qan görərsə və vəqtiyyə və ədədiyyə adətinə sahib olsa da, adət günlərinin vaxtını unutmuşdursa, lakin günlərin sayını xatırlayırsa, heyz günlərinin sayını adətinə uyğun olaraq təyin etməlidir. Vaxtın təyini xüsusunda isə qanın əlamətlərini nəzərə alaraq heyz əlamətlərinə malik olan qanı 560-cı məsələdə vəqtiyyə adəti ilə əlaqədar izah edilən qaydada heyz kimi qəbul etməlidir. Əlamətlərlə heyzin zamanını təyin edə bilməsə, bu halda adətini qan gördüyü ilk vaxtdan etibarən hesablaya bilmək şərti ilə ilk gündən, bu mümkün olmadığı təqdirdə isə ondan sonra qan gördüyü ilk zamandan etibarən hesablamalıdır. Məsələn, öncəki heyzdən sonra minimum paklıq müddəti (on gün) keçmədən on gündən artıq davam edən qan görərsə, bu halda heyzinin vaxtını minimum paklıq fasiləsindən sonrakı günlərə təyin etməlidir.

**Məsələ 563.** Əgər qadın on gündən artıq qan görərsə və vəqtiyyə və ədədiyyə adətinə sahib olsa da, adət günlərinin sayını unutmuşdursa, lakin vaxtını xatırlayırsa, bu halda adət vaxtının başlanğıcını bildiyi təqdirdə adət günlərində gördüyü qanı, hərçənd heyz əlamətlərinə malik olmasa da, heyz kimi qəbul etməlidir. Günlərin sayını təyin etmək üçün isə heyz əlamətlərini, əlamətlərlə təyin etmək mümkün olmadığı halda öz qohumlarını nəzərə almalıdır, bu da mümkün olmadığı təqdirdə isə üç gündən on günədək istənilən sayda günü heyz kimi qəbul edə bilər. Əlbəttə, 558-ci məsələdə qeyd edilən iki halda sözügedən üç meyarın (əlamətlə ayırd etmə, qohumların nəzərə alınması və müddət seçimi) üçü də etibarsız sayılır.

**Məsələ 564.** Əgər qadın on gündən artıq qan görərsə və vəqtiyyə və ədədiyyə adətinə sahibdirsə, lakin öz adət günlərinin vaxtını və sayını unutmuşdursa, bu halda hökm öncəki məsələlərdən məlum olur. Məsələn, əgər icmalən qanın adət günlərinə təsadüf edib-etmədiyini bilmirsə və qanın əlamətlər əsasında təyin edilməsi mümkün deyilsə (məsələn, bütün ifrazatlar eyni əlamətləri daşıyırsa) həmin qanı heyz kimi qəbul etməli, heyz günlərinin sayını təyin etmək üçün isə qohumlarının adətinə müraciət etməli, mümkün olmadığı təqdirdə üç gündən on günədək istənilən sayda günü heyz günləri kimi qəbul etməlidir. Əlbəttə, 558-ci məsələdə qeyd edilən iki halda sözügedən üç meyarın (əlamətlə ayırd etmə, qohumların nəzərə alınması və müddət seçimi) üçü də etibarsız sayılır.

## Heyzdə istibra və istizhar

**Məsələ 565.** Heyz qanından istibra qadının uşaqlıq yolunun vəziyyətini, orada qan olub-olmadığını öyrənmək üçün həyata keçirdiyi bir proseduradır. Bu istibra qadın tərəfindən aşağıdakı iki hal mövcud olduğu təqdirdə yerinə yetirilir:

1) qanaxması (qanın vaginadan xaricə ifrazı) on gündən öncə tamamlanır;

2) uşaqlıq yolunun paklığına əmin deyil və ya aqil insanlara xas düşüncə tərzi ilə uşaqlıq yolunun pak olduğunu ehtimal edir. Beləliklə, uşaqlıq yolunun xarici cinsiyyət üzvləri kimi pak olduğunu, yaxud xarici üzvlərindən fərqli olaraq pak olmadığını bilərsə, istibraya ehtiyac yoxdur.

Bu istibranın riayət edilməsi vacib olan xüsusi bir qaydası yoxdur və qadının istənilən mümkün üsulla uşaqlıq yolunun vəziyyətini, pak olub-olmamasını müəyyənləşdirməsi kafidir. Məsələn, cinsiyyət orqanına bir qədər pambıq daxil edərək bir qədər gözləyə bilər. Əgər heyz əsnasında qanaxmanın qısa müddət ərzində kəsilməsi – bir çox qadınlarda olduğu kimi – onun üçün xarakterikdirsə, daha artıq gözləməli, sonra pambığı çıxararaq qana bulaşıb-bulaşmadığına baxmalıdır. Beləliklə, əgər pambığın səthində sarı ləkə görərsə - hərçənd cüzi də olsa – hələ heyz sayılır və onunla bağlı hökmlər növbəti məsələdə qeyd ediləcəkdir.

**Məsələ 566.** Əgər qadında qanaxma on gündən öncə başa çatarsa və uşaqlıq yolunda qan olduğunu ehtimal edərsə, ya ehtiyatən ibadətlərini yerinə yetirməli, ya da istibra etməlidir və istibra etmədən ibadətlərinin icrasından imtina etməsi caiz deyildir. Beləliklə, əgər istibra edərsə və pak olarsa, qüsl edərək ibadətlərini icra etməlidir. Pak olmazsa - hərçənd tampon azacıq sarı rəngli bir mayeyə bulaşsa belə - heyz adəti olmadığı, yaxud mübtədiə olduğu və ya adəti on günlük olduğu təqdirdə gözləməli, on günün başa çatmasından öncə paklanarsa, qüsl etməli, on gün tamam olduqda paklanarsa, yaxud qan on günü keçərsə, on gün başa çatan kimi qüsl etməli və on gün başa çatanadək hər vaxt uşaqlıq yolunda qan olub-olmadığına şəkk edərsə istibranı təkrarlamalıdır. Qadının adətinin on gündən az olduğu hal ilə bağlı hökm isə növbəti məsələdə açıqlanacaqdır.

**Məsələ 567.** Əgər qadının adəti on gündən azdırsa, adət günlərində nə vaxt uşaqlıq yolunda qan olub-olmadığına dair şəkkə düşsə, istibra etməlidir və adət günlərinin sonunadək uşaqlıq yolunda qan olduğu təqdirdə bu o deməkdir ki, heyz halı davam edir. Lakin qadının adət günləri başa çatmadan paklanması istisna təşkil edir. Adət günləri başa çatdıqdan sonra uşaqlıq yolunun pak olub-olmadığına şəkk etdikdə isə istibra etməlidir və qana bulaşma davam edərsə - hərçənd açıq sarı rəngli ləkə şəklində olsa da - qadın üç vəziyyətlə qarşılaşa bilər:

a) Əgər on gün başa çatmadan, yaxud on gün başa çatdıqda paklanacağını bilərsə, qüsl etməməli və paklananadək gözləməlidir.

b) Qanın on gündən artıq ifraz olacağını bilərsə, adət günlərindən sonrakı günlərdə gördüyü qan istihazə sayılır, beləliklə, qüsl etməli və müstəhazənin vəzifələrini icra etməlidir.

c) Həmin qanın on gün başa çatmadan kəsiləcəyinə şəkk edərsə və bunu ehtimal edərsə, müstəhəb ehtiyata əsasən, bir gün ibadəti tərk etməli, sonra heyz qüslü almalı və müstəhazə əməllərini yerinə yetirməlidir. Hərçənd qanın vəziyyəti ilə bağlı şəkk davam etdiyi təqdirdə bir gündən artıq (on gün başa çatanadək) ibadətlərini tərk etməsi də caizdir. Adət günlərinin başa çatmasından sonra ibadətlərin icrasından bu qaydada imtina etmək fiqh terminologiyasında “istizhar” adlandırılır.

**Məsələ 568.** İstizhar ibadətdən və heyz halında haizə haram olan digər hərəkətlərdən çəkinmək deməkdir və qadına istizhar müddətində haiz hökmləri şamil olunur. İstizhar əslində vacib deyil, ona riayət etmək müstəhəb ehtiyatın tələbidir və ehtimal olunan heyz halı ilə əlaqədar bir növ ehtiyat tədbiri hesab edilir. İstizhar qadının vəziyyətində aşağıdakı beş şərt mövcud olduqda yerinə yetirilir:

1) ədədiyyə adətinə sahib olmalıdır, istər eyni zamanda vəqtiyyə adətinə də sahib olsun, istərsə olmasın;

2) adəti on gündən az olmalıdır;

3) adət müddətindən artıq qan görməlidir;

4) adət günlərindən sonra qanın ifrazının on günü keçib-keçməyəcəyini bilməməlidir;

5) İstizhar hökmü adət günlərindən sonra da qan görməyə davam edən qadın üçündür, adət günlərindən əvvəl istihazə hökmündə olan qan görən, sonra qanaxması davam edərək adətindən artıq olan qadına şamil olunmur. Məsələn, vəqtiyyə və ədədiyyə adətinə sahib olan, birinci və ikinci aylarda adəti ayın 10-15-ci günləri olan qadın üçüncü ay adət günlərində qan görərsə, lakin bu qan davam edərək növbəti ayadək kəsilməzsə, dördüncü ay heyz günləri başa çatdıqdan sonra qanaxmasının ayın 20-dən sonrayadək davam edib-etməyəcəyini bilməzsə, dördüncü ayın 10-15-ci günlərini heyz günləri olaraq qəbul etməli, adət günləri başa çatdıqdan, yəni ayın 15-dən sonra qanın vəziyyəti ilə bağlı şəkk etdiyi təqdirdə isə müstəhazənin vəzifələrini yerinə yetirməlidir və istizhar edərək ibadətləri yerinə yetirməkdən imtina edə bilməz.

## Qadınların ləkə görməsi ilə bağlı hökmlər

**Məsələ 569.** Vəqtiyyə və ədədiyyə adətinə sahib olan bir qadın adət günləri başa çatdıqdıqdan sonra və adət günlərinin başlamasından on gün keçməmiş ləkə görərsə - hərçənd çəhrayı, yaxud sarı rəngli qan ləkələri olsa da – burada iki vəziyyət təsəvvür edilə bilər:

1) Ləkə görmə davamlı olarsa, yəni adət günləri başa çatdıqdan sonra qan tamamilə kəsilməzsə və qadın hər dəfə uşaqlıq yolunun vəziyyətini yoxladıqda pambığa çəhrayı, yaxud sarı rəngli ləkə bulaşarsa, bu

halda əgər ləkə görmə on gündən öncə başa çatarsa, heyz hesab olunur. On gündən sonra kəsilərsə, adət günlərindən sonra gördüyü qan, istər ləkə şəklində olsun, istərsə daha artıq həcmdə, istihazə hesab edilir. Qadın deyilən qaydada gördüyü ləkələrin on gündən öncə, yoxsa sonra kəsiləcəyini bilmədiyi təqdirdə isə 567 və 568-ci məsələlərdə açıqlanan istizhar hökmünə əməl etməlidir.

2) Ləkə görmə davamlı olmazsa, belə ki, hətta qadın yalnız bircə dəfə çəhrayı, yaxud sarı qan ləkəsi müşahidə edərsə, bu vəziyyətlə bağlı hökmü bir misalla açıqlayırıq:

Hər ayın 1-dən 7-dək olmaqla vəqtiyyə və ədədiyyə adətinə sahib olan bir qadında yeddi günlük müddət başa çatdıqda qanın ifrazı kəsilərsə, uşaqlıq yolunda da qalmazsa və qadın qüsl edərsə, sonra ayın 9-da qadın bir dəfə qan ləkəsi görərsə və dərhal kəsilərsə, ardınca ayın 11-də də bircə dəfə qan ləkəsi müşahidə edərsə və dərhal kəsilərsə, ayın 9-da gördüyü qan ləkəsi heyz, 11-də gördüyü ləkə isə istihazə sayılır. 7-9-cu günlər arasındakı paklıq fasilə paklığı hökmündədir və qadın, vacib ehtiyata əsasən, bu müddət ərzində haizə haram olan işlərdən çəkinməli və haiz olmayan qadına vacib olan işləri də görməlidir. 9-11-ci günlər arasındakı paklıq isə həqiqi paklıqdır və bu müddətdə qadına pak qadınlar üçün olan hökmlər şamil olunur. Beləliklə, belə bir vəziyyətlə qarşılaşan qadın 9-cu gün qan ləkəsi müşahidə etdikdən və onun kəsilməsindən sonra heyz qüslü etməlidir və bundan sonra pak sayılır. 11-ci gün gördüyü qan ləkəsi isə qəlilə istihazəsidir və qadın onunla bağlı hökmlərə müvafiq hərəkət etməlidir. Qadın pak olduğu 8-ci gün ramazan ayının orucunu tutduğu təqdirdə, vacib ehtiyata əsasən, sonradan onun qəzasını tutmalıdır. Qadının heyz gördüyü 9-cu günün orucunun qəzası isə vacibdir. Lakin 10 və 11-ci günlərin orucu doğrudur. Ərinin onu 8-ci, yaxud 9-cu gün, fasilə paklığı ərzində boşadığını fərz etsək, vacib ehtiyata əsasən, bu talaq doğru hesab edilmir və talaq siğəsi yenidən oxunmalıdır. Ancaq əgər 10-cu, yaxud 11-ci gün boşayarsa, talaq doğru sayılır. Digər misallarla bağlı hökm də daha öncə qeyd edilənlərdən aydın olur.

**Məsələ 570.** Əgər qadın on gündən öncə paklanarsa və uşaqlıq yolunda qan olmadığını bilərsə, hərçənd on gün tamam olanadək yenidən qan görəcəyini güman etsə də, ibadətləri üçün heyz qüslü almalı və onları yerinə yetirməlidir. Lakin əgər on gün tamam olanadək hərçənd ləkə şəklində və açıq sarı rəngdə olsa belə, yenidən qan görəcəyinə dair yəqinlik, yaxud arxayınlıq hasil edərsə (hətta sözügedən ləkəni bircə dəfə görəcəyini bilsə də), daha öncə qeyd edildiyi kimi fasilə paklığında, vacib ehtiyata əsasən, ehtiyatən heyz qüslü edərək ibadətlərini yerinə yetirməli və haizə haram olan hərəkətlərdən ehtiyatən çəkinməlidir.

## Heyzlə bağlı müxtəlif məsələlər

**Məsələ 571.** Qan on gündən artıq müşahidə edildikdə heyz qanının istihazədən fərqləndirilməsi üçün qanda bəzi günlər heyz əlamətlərinin,[1] bəzi günlər isə istihazə əlamətlərinin[2] olması şərtdir. Lakin heyz əlamətləri olan qanda onun bütün əlamətlərinin müşahidə edilməsi şərt deyil, əlamətlərdən biri olsa da, kifayətdir. Lakin əgər bəzi günlər qanda heyz əlamətlərindən biri, bəzi günlər isə ikisi və ya üçü olarsa, bu qan əlamətsiz sayılır. Həmçinin, əgər bəzi günlər qanda heyzin bir qisim əlamətləri, digər günlərdə isə başqa qisim əlamətləri olarsa, bu qan əlamətsiz hesab edilir. Habelə, müşahidəsi on gündən artıq davam edən qan ifrazatları arasında heyz əlaməti daşıyan qan on gün daxilində üç ayrı (ardıcıl olmayan) gün ərzində görülərsə, bu qan da əlamətsiz sayılır.

**Məsələ 572.** Mübtədiə, müztəribə, nasiyə və ədədiyyə adətinə sahib olan qadın heyz əlamətləri olan bir qan müşahidə edərsə, yaxud qanda hərçənd heyz əlamətləri olmasa da, onun ifrazının üç gün davam edəcəyinə dair yəqinlik hasil edərsə, ibadətlərini tərk etməli, sonradan heyz olmadığını bildikləri halda isə yerinə yetirmədikləri ibadətlərini qəza etməlidirlər.

**Məsələ 573.** Adətən, hər ay bir dəfə aybaşı olan bir qadın əgər bir ayda iki dəfə qan müşahidə edərsə, onlardan hər biri üç gündən az, on gündən çox olmamaqla davam edərsə, onların arasında pak olarsa, arada pak olduğu günlərin sayı da on gündən az olmazsa, hərçənd onlardan biri, yaxud hər ikisi heyz əlamətlərinə malik olmasa da, yaxud adət günlərinə təsadüf etməsə də, ikisini də heyz kimi qəbul etməlidir.

**Məsələ 574.** Adət sahibi olmayan, qan görməsi davamlı hal alan, on gündən artıq qan müşahidə edən və heyzi qanın əlamətlərinin fərqliliyinə əsaslanaraq ayırd etməli olan, məsələn, üç gün və ya daha artıq müddət ərzində heyz əlaməti olan qan müşahidə edən və bu qanı on gündən artıq görməyən, sonra on gün və ya daha artıq müddət ərzində istihazə əlaməti olan qan görən, ardınca yenidən üç gün və ya daha artıq müddət ərzində heyz əlamətləri olan qan müşahidə edən və bu qanı da on gündən artıq görməyən, müşahidə etdiyi bütün bu qanları ardıcıl (fasilə paklığı olmadan) görən bir qadın heyz əlamətləri olan birinci və sonuncu qanı heyz kimi qəbul etməlidir, onların arasında müşahidə etdiyi qan isə istihazədir. Lakin əgər sözügedən qadın vəqtiyyə adətinə sahib olarsa, bu misalda onun gördüyü heyz əlamətləri olan qanlardan biri adət günlərinə, digəri isə başqa günlərə təsadüf etdiyi təqdirdə yalnız

---

[1] Heyzin əlamətləri 467-ci məsələdə sadalanmışdır.

[2] İstihazənin əlamətləri 596-cı məsələdə sadalanacaqdır.

adət günlərinə təsadüf edən və heyz əlamətləri olan qanı heyz kimi qəbul etməlidir, yerdə qalanı isə istihazədir.

**Məsələ 575.** Əgər qadın bir neçə günü heyz kimi qəbul edərək ibadət etməsə və sonradan heyz olmadığını başa düşsə, həmin günlərdə yerinə yetirmədiyi namaz və oruclarının qəzasını yerinə yetirməlidir. Həmçinin, əgər bir neçə gün heyz olmadığını güman edərək ibadət edərsə, sonra heyz olduğunu başa düşərsə, həmin günlərdə oruc tutsa belə, sonradan qəzasını yerinə yetirməlidir.

# NİFAS

**Məsələ 576.** Uşağın bədəninin ilk hissəsinin ananın bətnindən çıxdığı andan etibarən qadının on gün müddətində gördüyü qan doğuş qanı hesab edilməsi şərtilə "nifas qanı" adlanır və nifas halında olan qadına "nəfsa" deyilir. Beləliklə, doğuş zamanı qanaxması olmayan qadın üçün nifas halı yoxdur. Həmçinin doğuşdan uzun müddət sonra, ürfən doğuş qanı hesab edilməyəcək qanaxması olan (məsələn, qanı doğumdan on gün keçdikdən sonra müşahidə edən) qadın üçün nifas halı yoxdur.

**Məsələ 577.** Nifasın on günlük müddətini hesablayarkən aşağıdakı üç məqama diqqət yetirmək lazımdır:

1) Bu on gün doğuşdan sonra qanın ifraz olduğu andan etibarən hesablanır. Doğuş zamanı axan qan da nifas sayılmasına baxmayaraq, günlər hesablanarkən on günlük nifas müddətinə daxil edilmir.

2) Hesablamada meyar doğuş əməliyyatı deyil, qanaxmadır. Beləliklə, əgər qanaxma doğuşdan bir müdət sonra baş verərsə, qanaxmanın baş verdiyi vaxt on günlük müddətin başlanğıcıdır.

3) On günlük nifas müddəti gündüzdən etibarən hesablanır. Beləliklə, əgər doğuş və qanaxma gecə baş verərsə, hərçənd nifas qanı sayılsa da, on günün tərkibinə daxil edilmir və nifasın on gününün hesablanması qaydası eynilə on günlük heyz müddətinin 481-ci məsələdə öz əksini tapan hesablanma qaydası kimidir.

**Məsələ 578.** Qadının uşağın ilk hissəsinin çıxmasından öncə gördüyü qan nifas deyildir.

**Məsələ 579.** Nifas qanı üçün minimum hədd yoxdur, bu qanaxma bir anlıq da baş verə bilər. Lakin on gündən artıq müşahidə edilən qan nifas hesab olunmur.

**Məsələ 580.** Əgər qadın qeysər (sezar) kəsiyi əməliyyatı keçirərsə və uşaq qarın boşluğuna cərrahi müdaxilə üsulu ilə azad edilərsə, əməliyyatdan sonra *uşaqlıq yolundan* **gələn qan nifas sayılır.**

**Məsələ 581.** Dölün inkişafının başa çatması şərt sayılmır, hətta əgər inkişafı başa çatmadan, qan laxtası və ət parçası halında olma mərhələlərini keçdikdən sonra abort (hamiləliyin özbaşına və ya süni surətdə pozulması) baş verərsə, qadının gördüyü qan nifas qanıdır.

**Məsələ 582.** Əgər qadın abortun baş verib-vermədiyinə, yaxud abort nəticəsində tələf olan şeyin uşaq (döl) olub-olmadığına şəkk edərsə, araşdırması vacib deyil və ondan ifraz olan qan şəriətə görə nifas qanı hesab edilmir.

**Məsələ 583.** Əgər nəfsa qadında yalnız bir qanaxma halı baş verərsə və bu qanın müşahidəsi on günü keçməzsə, ifraz olan qanın hamısı

nifasdır. Beləliklə, on gün başa çatmamış qanaxma kəsilərsə, qüsl etməli və ibadətlərini yerinə yetirməlidir.

**Məsələ 584.** Əgər nəfsa qadında yalnız bir qanaxma halı baş verərsə və bu qanın müşahidəsi on günü keçərsə, heyz xüsusunda ədədiyyə adətinə sahib olduğu təqdirdə adət günlərinə bərabər müddət ərzində gördüyü qan nifas, digər ifrazatlar isə istihazə sayılır. Adət sahibi olmadığı, yəni mübtədiə, yaxud müztəribə olduğu təqdirdə isə on gün müddətində müşahidə etdiyi qan nifas, sonrakı ifrazatlar isə istihazədir. Bu halda qadın qohumlarının heyz, yaxud nifas adətini və ya özünün keçmiş nifas adətini nəzərə almamalıdır. Əgər adətini (heyz günlərinin sayını) unutmuşdursa, adəti olduğunu ehtimal etdiyi ən uzun müddəti adət müddəti kimi qəbul etməlidir. Müstəhəb ehtiyat budur ki, adət sahibi olan qadın adət müddətindən sonrakı gündən, adət sahibi olmayan qadın isə onuncu gündən doğumun on səkkizinci gününədək müstəhazə qadının görməli olduğu işləri görsün və nəfsaya haram olan işlərdən çəkinsin.

**Məsələ 585.** Əgər nəfsa qadın doğumdan sonrakı on gün ərzində bir neçə dəfə, məsələn, iki, üç, dörd dəfə, yaxud daha artıq qan müşahidə edərsə, onların arasındakı paklıq müddətinin qısa, yaxud uzun olmasından asılı olmayaraq, qan müşahidə etdiyi günlərlə arada pak olduğu günlərin sayı birlikdə on gün, yaxud daha az olduğu təqdirdə gördüyü bütün qanlar nifasdır və vacib ehtiyata əsasən, "fasilə paklığı" deyilən pak olduğu günlərdə ehtiyatən vacib ibadətlərini icra etməli və nəfsaya haram olan hərəkətlərdən çəkinməlidir.

**Məsələ 586.** Əgər nəfsa qadın bir dəfədən artıq, məsələn, iki, üç, yaxud dörd dəfə və ya daha artıq qan müşahidə edərsə və sonuncu qanaxma on günü keçərsə, burada iki vəziyyət təsəvvür edilə bilər:

1) *Qadın heyzdə adət sahibi deyil.* Bu vəziyyətə öncəki məsələdə izah edilən hökm şamil olunur, yəni on gün ərzində müşahidə edilən qan ifrazatları nifas sayılır və onların arasındakı paklıq günlərində, vacib ehtiyata əsasən, qadın nəfsaya haram olan hərəkətlərdən çəkinərək, nəfsa olmayan qadına vacib olan işləri yerinə yetirməlidir. Sonuncu qanaxmanın on gündən artıq davam edən hissəsi isə istihazə sayılır.

2) *Qadın heyzdə ədədiyyə adətinə sahibdir.* Bu halda adət günlərinin sayına bərabər günlər ərzində gördüyü qan nifasdır, bu günlərdən sonra on gün başa çatanadək gördüyü qan xüsusunda isə, vacib ehtiyata əsasən, nəfsaya haram olan işlərdən çəkinməli və müstəhazəyə vacib olan işləri görməlidir. On gündən sonra müşahidə etdiyi qan isə nifas deyildir.

**Məsələ 587.** Əgər qadında nifas qanının ifrazı kəsilərsə, ancaq o, uşaqlıq yolunda qan olduğunu ehtimal edərsə, ya ehtiyatən qüsl edərək ibadətlərini icra etməli, ya da istibra etməlidir. Nifas qanından istibra

eynilə heyz qanından istibra kimidir. Bu halda qadının istibra etmədən ibadətlərinin icrasından imtina etməsi caiz deyildir. İstibranın qaydası 565-ci məsələdə izah edilmişdir.

**Məsələ 588.** Nəfsa qadın heyzdəki adət müddətindən – bu müddətin on gündən az olması şərti ilə - artıq qan görərsə və qanın on gün başa çatanadək kəsilib-kəsilməyəcəyini bilməzsə, onun üçün nəzərdə tutulan istizhar (ibadətləri tərk etmək) hökmü eynilə haiz qadın üçün 567 və 568-ci məsələlərdə izah edilən istizhar hökmləri kimidir. Əgər nəfsa qadında on gündən öncə qanaxma kəsilərsə və o, uşaqlıq yolunda qan olduğunu ehtimal edərsə, vəzifəsi istibra etməkdir və bununla bağlı hökm də eynilə haiz qadın üçün 565-ci məsələdə izah edilən istibra hökmləri kimidir.

**Məsələ 589.** Heyz qanının şərtlərindən biri öncəki heyzdən sonra ən az on günün (minimum paklıq müddətinin) keçməsi olduğu kimi, nifasdan sonrakı heyz də ondan minimum on gün sonra başlamalıdır. Beləliklə, əgər qadın nifasın başa çatmasından sonrakı on gün ərzində qan görərsə, bu qan heyz əlaməti olub-olmamasından, adət günlərində müşahidə edilib-edilməməsindən asılı olmayaraq istihazədir və bu on günlüyə “istihazə on günlüyü” deyilir.

**Məsələ 590.** Heyzdə ədədiyyə adətinə sahib olan qadın, eyni zamanda vəqtiyyə adətinə də sahib olub-olmamasından asılı olmayaraq, əgər doğumdan sonra bir ay, yaxud daha artıq müddət ərzində arası kəsilmədən qan müşahidə edərsə, adət günlərinə bərabər müddət ərzində gördüyü qan nifas, nifasdan sonrakı on gün ərzində gördüyü qan isə, hərçənd vəqtiyyə adətinə sahib olsa və bu qan onun aylıq adət günlərinə təsadüf etsə də, istihazədir. Məsələn, heyz adəti hər ayın 20-dən 27-dək olan qadın ayın 10-da doğuş həyata keçirərsə və sonrakı bir ay, yaxud daha artıq müddət ərzində arası kəsilmədən qan görərsə, onun doğuşu həyata keçirdiyi ayın 17-dək gördüyü qan nifas, 17-dən etibarən on gün – hətta adət günlərinə təsadüf edən 20-27-ci günlər – ərzində gördüyü qan istihazədir. Bu on gündən sonra vəqtiyyə adətinə sahib olduğu və müşahidə etdiyi qanaxmanın adət günlərinə təsadüf etmədiyi təqdirdə, hərçənd bir ay, yaxud daha uzun müddət gözləməli olsa belə və hərçənd bu müddət ərzində gördüyü qan heyz əlamətlərinə malik olsa belə, növbəti adət günlərini gözləməlidir. Vəqtiyyə adətinə sahib deyilsə, mümkün olduğu təqdirdə heyz fəslində izah edilən qaydada heyzini əlamətləri əsasında təyin etməli, mümkün olmadığı təqdirdə, məsələn, nifasdan sonrakı on gün başa çatdıqdan sonra müşahidə etdiyi qan ifrazatları eyni əlamətlərə malik olarsa və bu əlamətlərlə bir ay, yaxud daha uzun müddət davam edərsə, hər ay qohumlarından bəzilərinin heyz adətlərini heyz fəslində izah edilən qaydada özü üçün heyz kimi qəbul

etməlidir. Bu da mümkün olmadığı təqdirdə isə özü üçün uyğun hesab etdiyi müddəti seçməlidir və bu seçimin də qaydası heyz fəslində izah edilmişdir.

**Məsələ 591.** Heyzdə ədədiyyə adətinə malik olmayan qadın əgər doğumdan sonra bir ay, yaxud daha uzun müddət ərzində qan görərsə, bu müddətin ilk on günü nifas, ikinci on günü istihazədir, sonrakı günlərdə görülən qan isə heyz, yaxud istihazə ola bilər. Bu halda heyzi təyin etmək üçün öncəki məsələdə izah edilən qaydada hərəkət etmək lazımdır.

## Nəfsa ilə əlaqədar hökmlər

**Məsələ 592.** Haizə vacib olanlar, məsələn, mübarək ramazan ayının orucunun qəzası nəfsaya da vacibdir.

**Məsələ 593.** Bədənin hər hansı bir yerini Quranın yazısına toxundurmaq nəfsaya haramdır. Həmçinin, vacib ehtiyata əsasən, aşağıdakılar da nəfsaya haramdır:

1) Uca Allahın adına və Onun vəsf edildiyi xüsusi sifətlərə[1] toxunmaq.

2) Vacib səcdəsi olan ayələri oxumaq.

3) Məscidlərdə gözləmək (yubanmaq).

4) Ötüb keçmək niyyəti olmadan məscidə daxil olmaq. Lakin əgər məsciddən (Məscid əl-haram və Məscid ən-Nəbi istisna olmaqla) ötüb keçərsə, məsələn, bir qapısından daxil olaraq digər qapısından çıxarsa, buna əngəl qoyulmur.

5) Məscid əl-Haram və Məscid ən-Nəbiyə, hərçənd bir qapıdan girərək digər qapıdan çıxmaq surəti ilə olsa belə, daxil olmaq.

6) Məscidə bir şey qoymaq.

**Məsələ 594.** Nifas halında qadınla cinsi əlaqədə olmaq haramdır, lakin kəffarəsi yoxdur.

**Məsələ 595.** Nifas halında olan qadına verilən talaq batildir. Həmçinin, əgər qadın mənası 484-cü məsələdə izah edilən fasilə paklığı müddətində talaq alarsa, bu talaqın doğruluğu şübhə doğurur. Beləliklə, ehtiyat etmək, yəni talaq siğəsini yenidən icra etmək lazımdır. Məsələn, qadın üç gün nifas qanı görüb, sonra dörd və beşinci günlər ərzində pak olarsa və ona bu halda talaq verilərsə, ardınca altıncı və yeddinci günlərdə yenidən nifas qanı müşahidə edərsə, yaxud altıncı gün nifas olduğuna hökm edilən bircə ləkə görərsə, onun talaqının doğruluğu şübhə doğurur. Lakin qadında nifas qanının ifrazı tamamilə başa çatdıqdan sonra, hərçənd qüsl etməsə də, ona verilən talaq doğrudur.

---

[1] Xüsusi sifətlər deyərkən 405-ci məsələdə izah edilənlər nəzərdə tutulur.

# İSTİHAZƏ

Qadından (uşaqlıq yolundan) ifraz olan qanlardan biri də istihazədir və istihazə qanı müşahidə etdiyi zaman qadına "müstəhazə" deyilir.

**Məsələ 596.** İstihazə qanı çox vaxt sarı, yaxud açıq qırmızı rəngdə, soyuq, duru, əskimiş (köhnəlmiş) olur və təzyiqsiz, yandırıcılığı olmadan ifraz olur. Lakin bəzi hallarda qara, yaxud tünd qırmızı rəngdə, isti, qəliz, təzə olması və təzyiq və yandırıcı halda ifraz olması da mümkündür. İstihazə qanı üçün minimum və maksimum müddət yoxdur. İstihazə həddi-büluğdan öncə baş verə bilməz, onun qəməri təqvimlə 60 yaşdan sonra müşahidə edilməsi isə şübhəli məqamdır və vacib ehtiyat budur ki, qadınlar bu yaşdan sonra da (belə bir qan gördükdə) müstəhazənin vəzifələrinə əməl etsinlər.

**Məsələ 597.** İstihazə üç qisimdir: qəlilə, mütəvəssitə və kəsirə.

1) Qəlilə istihazə - qanın yalnız qadının istifadə etdiyi pambığın səthini bulaşdırması, ona nüfuz etməməsi deməkdir.

2) Mütəvəssitə istihazə - qanın pambığa, hərçənd bir hissəsinə olsa belə, nüfuz etməsi, lakin digər tərəfinə keçməməsi və adətən, qadınların qanın qarşısını almaq üçün istifadə etdikləri dəsmala sirayət etməməsi deməkdir.

3) Kəsirə istihazə - qanın pambığı tamamilə əhatə etməsi, yaxud ona nüfuz edərək digər tərəfinə keçməsi və adətən, qadınların qanın qarşısını almaq üçün istifadə etdikləri dəsmala da sirayət etməsi deməkdir.

Qeyd etmək lazımdır ki, pambıq qadınlar arasında normal hesab edilən ölçüdə seçilməli və sıxılmamış, normal halda olan pambıqdan istifadə edilməlidir. Həmçinin, keyfiyyətinə, cəzbedicilik və nüfuz etdirmə qabiliyyətinə görə pambıqla eyni xüsussiyyətlərə malik olan istənilən növ tamponun istifadəsi kifayətdir. Lakin zərif keyfiyyətə malik olan, cəzbetmə və nüfuz etdirmə qabiliyyəti pambıqdan daha artıq və sürətli olan, geniş istifadə olunan salfetlərin bu məqsədlə (istihazə qanının vəziyyətini müəyyən etmək üçün) istifadə edilməsi kafi sayılmır. Əgər təbii pambıq xalis deyilsə və emal prosesində tərkibinə qeyd edilən keyfiyyətə təsir etməyən digər maddələr də əlavə edilmişdirsə, istifadə edilə bilər.

## İstihazə ilə əlaqədar hökmlər

**Məsələ 598.** Qəlilə istihazədə qadın, hərçənd zöhr və əsr, məğrib və işa namazlarını ardıcıl qılmaq istəsə də, hər namaz üçün ayrıca dəstəmaz almalıdır (606-cı məsələdə izah ediləcək hal istisna olmaqla) və

müstəhəb ehtiyata əsasən, pambığı yumalı, yaxud dəyişdirməli, habelə cinsiyyət üzvünün xaricini qana bulaşdığı halda yumalıdır.

**Məsələ 599.** Qəlilə istihazədə hər namaz üçün ayrıca dəstəmaz almalı olduğunu bilməyən və misal olaraq, eyni dəstəmazla zöhr və əsr namazlarını ardıcıl qılan qadının əsr namazı, hərçənd "qasir cahil" olsa da, yəni məsələni öyrənməkdə səhlənkarlıq göstərməmiş olsa belə, batildir və bunu öyrəndikdən sonra vaxtı qaldığı təqdirdə yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır. Lakin 606-cı məsələnin şamil olduğu hallar istisna təşkil edir.

**Məsələ 600.** Mütəvəssitə istihazədə, lazım ehtiyata əsasən, qadın hər gün sübh namazı üçün qüsl etməli və namazlarını qılmaq üçün qəlilə istihazə ilə bağlı 598-ci məsələdə sadalanan işləri də görməlidir. Əgər qadında mütəvəssitə istihazə qanaxması sübh namazından başqa bir namazdan, məsələn, zöhr namazından öncə başlayarsa, bu halda zöhr namazı üçün qüsl etməli, habelə növbəti günün sübh namazınadək qılacağı namazları üçün qəlilə istihazəsi üçün sadalanan işləri də görməlidir.

**Məsələ 601.** Əgər mütəvəssitə istihazə qanaxması sübh namazından öncə, yaxud sübh namazı əsnasından başlayarsa, vacib ehtiyata əsasən, qadın sübh namazı üçün qüsl etməlidir və əgər qəsdən, yaxud unutqanlıq səbəbi ilə sübh namazı üçün qüsl etməzsə, lazım ehtiyata əsasən, zöhr və əsr namazları üçün qüsl etməlidir. Bu halda qüsl etmədən, habelə müstəhazənin digər vəzifələrini yerinə yetirmədən qıldığı həmin sübh namazı batil sayılır və vaxtı keçmədiyi təqdirdə yenidən qılınmalı, vaxtı keçdikdə isə qəzası qılınmalıdır. Həmçinin, əgər sözügedən qadın zöhr və əsr namazları üçün qüsl etməzsə, qanaxmanın davam edib-etməməsindən asılı olmayaraq məğrib və işa namazlarından öncə qüsl etməli və qüsl etmədən, habelə digər paklanma vəzifələrini yerinə yetirmədən qıldığı zöhr və əsr namazlarını yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır. [1]

**Məsələ 602.** Kəsirə istihazədə, vacib ehtiyata əsasən, qadın hər namaz üçün pambıq və dəsmalı dəyişməli, yaxud yumalı, bir dəfə sübh, bir dəfə zöhr və əsr və bir dəfə də məğrib və işa namazları üçün olmaqla üç ayrı qüsl etməli, zöhr və əsr, habelə məğrib və işa namazlarını fasiləsiz qılmalı, fasilə ilə qıldığı təqdirdə isə əsr və işa namazları üçün də ayrıca qüsl etməlidir. Bütün bu göstərişlər qanın arası kəsilmədən pambıqdan dəsmala sirayət etdiyi hal üçündür. Lakin qanın pambıqdan dəsmala keçməsi bir qədər vaxt tələb edərsə və qadın bu vaxt ərzində qüsl edərək bir və ya daha artıq namaz qıla bilərsə, lazım ehtiyata əsasən, qan

[1] Qadının qılmaq üçün mütəvəssitə istihazə qüslü almadığı, lakin digər vəzifələri yerinə yetirdiyi namazın batilliyi vacib ehtiyata əsaslanır.

pambıqdan dəsmala sirayət etdiyi halda pambıq və dəsmalı dəyişməli, yaxud yumalı, qüsl etməli və namaz qılmalıdır. Buna əsasən, əgər qadın kəsirə istihazə qüslü edərək, məsələn, zöhr namazını qılarsa, lakin əsr namazından əvvəl, yaxud əsr namazı əsnasında qan yenidən pambıqdan dəsmala sirayət edərsə, vacib ehtiyata əsasən, əsr namazı üçün də qüsl etməlidir. Lakin əgər fasilə qadının iki, yaxud daha artıq namaz qıla biləcəyi qədər uzun olarsa, məsələn, məğrib və işa namazlarını da qan yenidən pambıqdan dəsmala keçənədək qıla bilərsə, həmin namazlar üçün ayrıca qüsl etməsinə gərək yoxdur. İstənilən halda kəsirə istihazə qüslü edən qadının qüsldən sonra dəstəmazı pozan bir hal baş verməsdikcə dəstəmaz almasına gərək yoxdur.

**Məsələ 603.** Qüslün qadına vacib olduğu hallarda bir neçə dəfə qüsl almaq onun üçün zərərlidirsə, yaxud adətən dözülməz hesab edilən böyük çətinliklər törədirsə, qüsl əvəzinə təyəmmüm edə bilər.

**Məsələ 604.** Dəstəmaz almalı, həmçinin, lazım ehtiyata əsasən, qüsl etməli olan mütəvəssitə istihazəsi halındakı qadın öncə qüsl etməli, sonra dəstəmaz almalıdır. Lakin qüsl etməsi kafi sayılan və həmçinin dəstəmaz da alması müstəhəb ehtiyatın tələbi olan müstəhazə kəsirə qadın isə dəstəmaz almaq istəyərsə, qüsldən öncə almalıdır.

**Məsələ 605.** İstihazənin başlanğıcında qan yalnız uşaqlıq yolunda olduqca, çölə ifraz olmadıqca qüsl, yaxud dəstəmaz və istihazə ilə bağlı digər göstərişlərin icrası vacib olmur. Hətta az həcmdə olsa belə, ifraz olduqdan sonra isə qadına vacibdir ki, istihazə hökmlərinə uyğun şəkildə hərəkət etsin. İlk qanaxmadan sonra isə uşaqlıq yolunda qan olduqca, hərçənd ifraz olmursa, lakin pambıq daxil etdiyi təqdirdə onun qana bulaşacağı bir yerdədirsə, müstəhazənin vəzifələrinə əməl etməsi vacibdir.

**Məsələ 606.** Müstəhazə qadın dəstəmaz aldığı, yaxud qüsl etdiyi vaxtdan etibarən ondan qan gəlmədiyini bilirsə və uşaqlıq yolunda da qan yoxdursa, namazın qılınmasını pak qalacağını bildiyi vaxtadək təxirə sala bilər, həmçinin bu müddət ərzində sonrakı namazlarını yenidən qüsl etmədən, yaxud dəstəmaz almadan qıla bilər.

**Məsələ 607.** Əgər qadında namaz vaxtından öncə mütəvəssitə, yaxud kəsirə istihazə halı baş verərsə, qüsldən sonra namazın dərhal qılınmalı olduğu hallarda qadın mütləq qılmağa hazırlaşdığı namazın vaxtı başladıqdan sonra qüsl etməsi vacibdir. Yalnız qadının həmin namazı qılmaq, yaxud başqa bir məqsədlə, məsələn, Quranın yazısına toxuna bilmək üçün azan vaxtına yaxın qüsl etməsi, ardınca dərhal namazın şəriətdə müəyyən olunan vaxtının başlaması və qadının namazını qılması, beləliklə, qüsllə namaz arasında fasilənin yaranmaması istisna hal təşkil edir. Lakin əgər qüsllə namaz arasında fasilə yaranarsa, məsələn, qadın

namaz vaxtının başlamasını gözləyərsə, həmin qüsl namaz qılmaq üçün kafi sayılmır və qadın namaz üçün yenidən qüsl etməlidir.

**Məsələ 608.** Qəlilə və mütəvəssitə istihazədə qadın yövmiyyə (gündəlik beş vaxtda qılınan), yaxud qeyri-yövmiyyə, vacib, yaxud müstəhəb olmasından asılı olmayaraq hər bir namaz üçün ayrıca dəstəmaz almalıdır və iki namazı hərçənd ardıcıl və fasiləsiz qılmaq istəsə belə, bir dəstəmazla qılması caiz deyildir. Burada qadının namaz üçün dəstəmaz almağa başladığı vaxtdan sonrakı namazın (namazların) başa çatmasınadək qanın həm çölə ifraz olmadığı, həm də qadının uşaqlıq yolunda qana rast gəlmədiyi hal istisna təşkil edir. Qanın təkcə ifraz olmaması (uşaqlıq yolunda qalması) isə bu istisna üçün kifayət etmir. Beləliklə, qanın həm çölə, həm də uşaqlıq yoluna ifrazının kəsildiyi bu müddət ərzində qadın bir neçə namazı bir dəstəmazla qıla bilər. Həmçinin, əgər qadın qıldığı hansısa bir gündəlik namazı ehtiyatən yenidən qılmaq, yaxud təkbaşına qıldığı bir namazı camaatla qılmaq istəyərsə, istihazə halı üçün nəzərdə tutulan bütün işləri görməlidir. Lakin ehtiyat namazını qılmaq, yaxud unudulmuş səcdənin qəzasını yerinə yetirmək üçün, əgər onları namazdan sonra dərhal yerinə yetirərsə, istihazə işlərini görməsinə ehtiyac yoxdur. Səhv səcdəsi üçün isə istihazə işlərini görməsinə heç bir halda ehtiyac yoxdur.

**Məsələ 609.** Qəlilə, yaxud mütəvəssitə istihazəsi halında olan qadın dəstəmazlı olması tələb olunan namazdan başqa bir iş görmək istəyərsə, məsələn, Qurana toxunmaq istəyərsə, bu işi namazın başa çatmasından sonra görəcəyi təqdirdə, vacib ehtiyata əsasən, dəstəmaz almalıdır və namaz üçün aldığı dəstəmaz kafi sayılmır.

**Məsələ 610.** Kəsirə istihazəsi halında olan qadın dəstəmazlı olması tələb olunan namazdan başqa bir iş görmək, məsələn, Qurana toxunmaq istəyərsə, qan fasiləsiz olaraq pambıqdan qadınların adətən qanın paltara keçməsinin qarşısını almaq üçün istifadə etdikləri dəsmala sirayət etdiyi təqdirdə qadının namaz qılmaq üçün etdiyi qüsl həmin işi görmək (məsələn, Qurana toxunmaq) üçün də kifayətdir, lakin müstəhəb ehtiyat budur ki, yenidən qüsl etsin. Əlbəttə, dəstəmazı pozan bir halın baş verdiyi (məsələn, idrar etdiyi) halda qadın dəstəmaz almalıdır. Amma əgər qan pambıqdan dəsmala bir qədər fasilə ilə keçərsə və qadın bu fasilə ərzində qüsl edərək həmin işi görə (məsələn, Qurana toxuna) bilərsə, vacib ehtiyat budur ki, yenidən qüsl etsin.

**Məsələ 611.** Qəlilə müstəhazəsi dəstəmazdan, mütəvəssitə müstəhazəsi qüsl və dəstəmazdan, kəsirə müstəhazəsi isə qüsldən sonra 602 və 606-cı məsələlərdə izah edilən iki hal istisna olmaqla dərhal namaza başlamalıdır, lakin namazdan öncə azan və iqaməni, həmçinin "təkbirət

əl-ehram"dan öncə müstəhəbliyi mötəbər dəlillə sabit edilmiş duaları oxumağın eybi yoxdur. Həmçinin, namaz qılmaq üçün möhür, yaxud üzərinə səcdənin doğru olduğu bir şeyin (yerin) tapılması, hazır edilməsi kimi lazımı hazırlıq işlərinin, habelə evdə namaz üçün ayrılmış yerə getmək kimi bir qayda olaraq namaz ərəfəsində edilən hərəkətlərin eybi yoxdur və qadın namaz əsnasında qunut kimi müstəhəb işləri görə bilər. Həmçinin, əgər müstəhazə qadın sonradan batil olduğu – məsələn, rüknlərdən birini yerinə yetirmədiyinə, yaxud namazı batil edən şəklərdən birinə düşdüyünə görə - məlum olan bir namaz qılarsa, namazının batil olduğunu namaz əsnasında, yaxud namazdan sonra önəmli bir müddət keçmədən başa düşdüyü təqdirdə bu, onun qüslünün, yaxud dəstəmazının pozulmasına səbəb olmur və namazını həmin qüsl, yaxud dəstəmazla fasilə vermədən yenidən qıla bilər.

**Məsələ 612.** Əgər müstəhazə qadının vəzifəsi dəstəmaz, yaxud qüsllə namaz arasında fasilə verməməkdirsə, lakin o bu vəzifəsinə uyğun hərəkət etməyərək fasilə verərsə, yenidən dəstəmaz almalı, yaxud qüsl etməli və fasilə vermədən namazını qılmalıdır.

**Məsələ 613.** Əgər qadında istihazə qanaxması davamlı olarsa və kəsilməzsə, onun üçün zərərli olmadığı halda namazın sonunadək uşaqlıq yoluna pambıq və bu qəbildən olan tamponlar qoymaq və cinsiyyət orqanı nahiyəsini sarımaqla da olsa, qanaxmanın qarşısını almalıdır və vacib ehtiyata əsasən, qanaxmanın qarşısı dəstəmaz, yaxud qüsldən öncə alınmalıdır. Əgər qadın bu məsələdə səhlənkarlıq edərsə və qan ifraz olarsa, namazı qıldığı təqdirdə onu yenidən qılmalıdır. Lakin bu batil namaz səbəbi ilə yaranan fasilə dəstəmaz, yaxud qüslün batil olmasına səbəb olmur və qadın dərhal, təkrarən dəstəmaz almadan, yaxud qüsl etmədən namazını yenidən qıla bilər. Hərçənd, müstəhəb ehtiyat budur ki, təkrarən dəstəmaz alsın, yaxud qüsl etsin, sonra namazını yenidən qılsın.

## İstihazənin növünün məlum olmaması ilə əlaqədar hökmlər

**Məsələ 614.** Əgər qadın istihazəsinin hansı qisimdən olduğunu bilmirsə, namaz qılmaq istədikdə, vacib ehtiyata əsasən, mümkün olduğu halda özünü yoxlamalı, məsələn, uşaqlıq yoluna bir qədər pambıq daxil edərək bir qədər gözlədikdən sonra çıxarmalı və istihazəsinin üç qisimdən hansı olduğunu anladıqdan sonra həmin qisim üçün nəzərdə tutulan göstərişləri yerinə yetirməlidir. Lakin əgər namaz qılmaq istədiyi vaxtadək istihazəsinin dəyişməyəcəyini bilirsə, vaxt çatmamış da özünü

yoxlaya bilər. Bu hökm qadının ehtiyata əməl etmək istəmədiyi hallara aiddir. Lakin əgər qadın ehtiyata uyğun hərəkət edə bilərsə, özünü yoxlamasına ehtiyac yoxdur. Məsələn, istihazənin qəlilə, yoxsa mütəvəssitə olduğunu bilmirsə, həm qəlilə, həm də mütəvəssitə istihazəsi ilə əlaqədar vəzifələrə riayət etmək surəti ilə ehtiyatlı davranmalıdır.

**Məsələ 615.** Müstəhazə qadın vəziyyətini yoxlamadan namaz qıldığı halda əgər namaz əsnasında niyyəti Allaha yaxınlaşma olmuşdursa və öz vəzifəsinə əməl etmişdirsə, məsələn, istihazəsi qəlilə qismindən idisə və o da qəlilə istihazəsi ilə əlaqədar vəzifələrə əməl etmişdirsə, namazı doğrudur. Lakin əgər Allaha yaxınlaşmaq niyyəti olmamışdırsa, yaxud vəzifəsinə uyğun qaydada hərəkət etməmişdirsə, məsələn, istihazəsi kəsirə qismindən olduğu halda o, qəlilə istihazəsi ilə əlaqədar vəzifələrə uyğun davranmışdırsa, namazı batildir.

**Məsələ 616.** Müstəhazə qadın vəziyyətini yoxlaya bilmirsə, ona müstəhazənin üzərinə düşən minimum vəzifələri yerinə yetirmək vacibdir. Məsələn, əgər istihazəsinin qəlilə, yoxsa mütəvəssitə qismindən olduğunu bilmirsə, qəlilə istihazə ilə əlaqədar vəzifələri yerinə yetirməlidir. İstihazəsinin mütəvəssitə, yoxsa kəsirə qismindən olduğunu bilmədiyi təqdirdə isə mütəvəssitə istihazə ilə əlaqədar vəzifələri yerinə yetirməlidir. Lakin əgər istihazəsinin daha öncə bu üç qisimdən hansı olduğunu bilirsə, həmin qisim ilə əlaqədar vəzifələri yerinə yetirməlidir. Məsələn, əgər əvvəl mütəvəssitə idisə və hazırda qəlilə olub-olmadığını bilmirsə, mütəvəssitə istihazə ilə əlaqədar vəzifələri yerinə yetirməlidir.

## İstihazənin növünün dəyişməsi ilə əlaqədar hökmlər

**Məsələ 617.** Əgər qadının qəlilə istihazəsi sübh namazından sonra mütəvəssitəyə çevrilərsə, vacib ehtiyata əsasən, zöhr və əsr namazları üçün, zöhr və əsr namazlarından sonra mütəvəssitəyə çevrilərsə, məğrib və işa namazları üçün qüsl etməlidir və əgər bundan sonra da mütəvəssitə istihazə halı davam edərsə, vacib ehtiyata əsasən, növbəti günlərin sübh namazları üçün də qüsl etməlidir.

**Məsələ 618.** Əgər qadının qəlilə, yaxud mütəvəssitə istihazəsi sübh namazından sonra kəsirəyə çevrilərsə və bu vəziyyət davam edərsə, zöhr, əsr, məğrib və işa namazları ilə bağlı 602-ci məsələdə izah olunan hökmlərə riayət etməlidir.

**Məsələ 619.** Əgər qadının qəlilə istihazəsi namazdan öncə mütəvəssitə, yaxud kəsirəyə çevrilərsə, mütəvəssitə, yaxud kəsirə vəzifələrini yerinə yetirməlidir. Mütəvəssitə istihazəsi kəsirəyə çevrilərsə, kəsirə vəsifələrini yerinə yetirməlidir və mütəvəssitə istihazəsi üçün qüsl etmiş olduğu təqdirdə bu qüsl faydasız sayılır və kəsirə üçün yenidən qüsl etməlidir.

**Məsələ 620.** Qüsl əsnasında qanaxma kəsilmirsə, qüsl doğru sayılır, lakin əgər qüsl əsnasında mütəvəssitə istihazə kəsirəyə çevrilərsə, qüslə yenidən başlamaq lazımdır.

**Məsələ 621.** Əgər namaz əsnasında qadının mütəvəssitə istihazəsi kəsirəyə çevrilərsə, namazı yarıda saxlamalı, kəsirə istihazə üçün qüsl etməli və onunla bağlı digər işləri gördükdən sonra həmin namazı yenidən qılmalı və müstəhəb ehtiyata əsasən, qüsldən öncə dəstəmaz almalıdır. Sözügedən halda qadın qüsl üçün vaxt yoxdursa, qüsl əvəzinə təyəmmüm etməli, təyəmmüm üçün də vaxt olmadığı təqdirdə isə, müstəhəb ehtiyata əsasən, namazını yarıda saxlamamalı və elə həmin vəziyyətdə başa çatdırmalı, lakin namazın vaxtı keçdikdən sonra onun qəzasını qılmalıdır.

**Məsələ 622.** Əgər qadın qəlilə istihazə göstərişlərinə əməl edərsə və namaz əsnasında qəliləsi kəsirəyə çevrilərsə, vacib ehtiyata əsasən, həmin namazla kifayətlənə bilməz. Bu səbəbdən namazını yarıda saxlamalı və mütəvəssitə istihazə ilə əlaqədar vəzifələri yerinə yetirməlidir. Qadının qəlilə istihazəsi namaz əsnasında kəsirəyə çevrildiyi halda isə namazını yarıda saxlamalı və kəsirə istihazə ilə əlaqədar işləri görməlidir.

**Məsələ 623.** Əgər qadının kəsirə istihazəsi mütəvəssitəyə çevrilərsə, bundan sonrakı ilk namaz üçün kəsirə, sonrakı namazlar üçün isə mütəvəssitə ilə əlaqədar vəzifələri yerinə yetirməlidir. Məsələn, əgər zöhr namazından öncə kəsirə istihazəsi mütəvəssitəyə çevrilərsə, zöhr namazı üçün qüsl etməli, əsr, məğrib və işa namazları üçün isə dəstəmaz almalıdır. Lakin əgər zöhr namazı üçün qəsdən, yaxud unutqanlıqdan qüsl etməzsə və yalnız əsr namazına yetəcək qədər vaxt qalarsa, əsr namazı üçün qüsl etməlidir. Əgər əsr namazı üçün də qüsl etməsə, məğrib namazı üçün qüsl etməlidir, onun üçün də qüsl etməsə və yalnız işa namazına yetəcək qədər vaxt qalarsa, işa namazı üçün qüsl etməlidir. İstənilən halda vəzifəsinə uyğun olaraq qılmadığı namazları yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır.

**Məsələ 624.** Əgər kəsirə istihazə qəliləyə çevrilərsə, müstəhazə qadın bundan sonrakı ilk namaz üçün kəsirə vəzifələrini, sonrakı namazlar üçün isə qəlilə vəzifələrini yerinə yetirməlidir.

**Məsələ 625.** Əgər mütəvəssitə istihazə qəliləyə çevrilərsə, müstəhazə qadın mütəvəssitə istihazə üçün nəzərdə tutulmuş gündəlik qüslü istihazəsi qəliləyə çevrilməmiş yerinə yetirdiyi təqdirdə sonrakı ilk namaz üçün qüsl almağına ehtiyac yoxdur və dəstəmaz kafidir (yəni, qəlilə istihazə üçün nəzərdə tutulmuş vəzifələri yerinə yetirməsi kifayətdir).

## İstihazə qanının kəsilməsi ilə əlaqədar hökmlər

**Məsələ 626.** Əgər istihazə qanaxması namaz vaxtından öncə başlayar və namaz vaxtı ərzində kəsilərsə, qadın namaz üçün müstəhazə vəzifələrini yerinə yetirməlidir.

**Məsələ 627.** Əgər müstəhazə namazın vaxtı başa çatmamış qanaxmanın tamamilə kəsiləcəyini, yaxud dəstəmaz alaraq və ya qüsl edərək namaz qılmaq üçün yetəcək qədər müddət ərzində müvəqqəti olaraq dayanacağını bilərsə, lazım ehtiyata əsasən, gözləməli və namazı pak olduğu vaxt qılmalıdır və əgər namazı bundan əvvəl qılarsa – hərçənd dəstəmaz və qüsllə də olsa – kafi sayılmır. Lakin əgər namaz, qüsl və dəstəmazda niyyəti Allaha yaxınlaşmaq olarsa və qanaxma da təsadüfən gözlənilən vaxt kəsilməzsə, bu halda namazı yenidən qılmağa ehtiyac yoxdur. Müstəhazə namazın vaxtı başa çatmamış qanaxmanın tamamilə kəsiləcəyini, yaxud dəstəmaz alaraq və ya qüsl edərək namaz qılmaq üçün yetəcək qədər müddət ərzində müvəqqəti olaraq dayanacağını ehtimal edirsə, namazını mövcud vəziyyətdə (qəlilə, mütəvəssitə, yaxud kəsirə) üzərinə düşən vəzifəsinə uyğun qaydada qıla bilər, lakin əgər ehtimal etdiyi vaxt paklanarsa, vacib ehtiyata əsasən, onu yenidən qılmalıdır.

**Məsələ 628.** Əgər dəstəmaz və qüsldən sonra qanın çölə ifrazı dayanarsa və müstəhazə qadın namazı təxirə salacağı təqdirdə tamamilə paklanacağını və dəstəmaz, qüsl və namaz üçün yetəcək qədər vaxtın da qalacağını bilərsə, lazım ehtiyata əsasən, namazını təxirə salmalı və qanaxma tamamilə kəsildikdə yenidən dəstəmaz almalı və (və ya) qüsl etməli, sonra namazını qılmalıdır. Əgər qanaxma namazın vaxtının başa çatmasına az qalarkən kəsilsə və qüsl, yaxud dəstəmaz üçün fürsəti olmasa, təyəmmüm edərək namaz qılmalıdır.

**Məsələ 629.** Kəsirə halında olan müstəhazə qanaxma tamamilə kəsildikdə əgər öncəki namaz üçün qüsl aldığı vaxtdan sonra qanın bir daha ifraz olmadığını və uşaqlıq yolunda da qalmadığını bilərsə, yenidən qüsl etməsinə gərək yoxdur, əks təqdirdə isə qüsl etməlidir. Hərçənd bu hökmün mütləqliyi vacib ehtiyata əsaslanır. Mütəvəssitə halında olan müstəhazənin isə qanaxma tamamilə başa çatanadək mütəvəssitə istihazə ilə əlaqədar olan gündəlik qüslü etdiyi təqdirdə, qanaxma tamamilə kəsildiyi üçün qüsl almasına ehtiyac yoxdur.

**Məsələ 630.** İstihazə qanı tamamilə kəsilərsə (qanaxmanın dayanması müvəqqəti, yaxud şübhəli xarakter daşımazsa), bu qadının müstəhazə vəzifələrini yerinə yetirməsindən öncə baş verdiyi təqdirdə onun bu vəzifələri yerinə yetirməsi vacibdir. Məsələn, əgər kəsirə istihazəsi idisə, təkcə qüsl etməsi vacibdir. Qəlilə istihazəsi idisə, namaz üçün təkcə dəstəmaz

alması vacibdir. Mütəvəssitə istihazəsi idisə, bu qisim istihazə üçün nəzərdə tutulan gündəlik qüslü qanaxmanın kəsilməsindən öncə etdiyi təqdirdə ilk namaz üçün qüsl etməsinə gərək yoxdur və dəstəmaz kafidir.

Əgər qanaxmanın tamamilə kəsilməsi qadının müstəhazə vəzifələrini yerinə yetirməyə başlamasından sonra, ancaq namazdan əvvəl baş verərsə, qadın sözügedən vəzifələri yenidən yerinə yetirməlidir, namazdan sonra baş verdiyi təqdirdə isə namazı yenidən qılması vacib deyil. Lakin namaz vaxtı başa çatanadək qanaxmanın kəsiləcəyinə ümidi olmasına rəğmən o vaxtadək gözləmədən namazını qılarsa, bu halda istisna olaraq, vacib ehtiyata əsasən, namazını vəzifələrini yenidən yerinə yetirdikdən sonra təkrarən qılmalıdır.

**Məsələ 631.** Əgər qan müvəqqəti olaraq kəsilərsə və qadın vəzifələrini yerinə yetirərək namazını, hərçənd bir hissəsini olsa belə, qılmaq üçün fürsəti olacaq qədər pak olarsa, vacib ehtiyata əsasən, qanaxmanın tamamilə kəsilməsi ilə bağlı əvvəlki məsələdə izah edilən hökmlərə əməl etməlidir. Vəzifələrini yerinə yetirərək namazını, hərçənd bir hissəsini olsa belə, qılmaq üçün pak olacaq qədər fürsəti olmadığı təqdirdə isə vəzifələrin təkrarən yerinə yetirilməsi vacib deyil. Əgər qadın nə qədər fürsəti olduğunu bilmirsə və paklıq halının dəstəmaz, qüsl (vəzifəsinə müvafiq olaraq) və namazın bir hissəsi üçün yetəcək qədər davam edib-etməyəcəyinə şəkk edirsə, yaxud qanaxmanın tamamilə, yoxsa müvəqqəti olaraq kəsildiyini bilmirsə, vacib ehtiyata əsasən, qanın tamamilə kəsilməsi ilə əlaqədar hökmlərə əməl etməlidir.

**Məsələ 632.** Əgər namaz əsnasında istihazə qanaxması dayanarsa, lakin müstəhazə qadın qanın uşaqlıq yoluna axmasının da başa çatıb-çatmadığını bilməzsə, namazını rəcaən (savab ümidi ilə) sona çatdıraraq vəziyyətini yoxladıqda qanın tamamilə kəsildiyini başa düşdüyü təqdirdə, vacib ehtiyata əsasən, vəzifəsinə uyğun olaraq dəstəmaz almalı, yaxud qüsl etməli və namazı təkrarən qılmalıdır. Bu halda vaxt bol olduğu təqdirdə qadın namazını yarıda saxlayaraq vəzifəsini müəyyənləşdirmək üçün özünü (qanaxma ilə bağlı vəziyyətini) yoxlaya bilər.

**Məsələ 633.** Müstəhazə qadın qanaxması tamamilə kəsildikdən sonra yalnız qılacağı ilk namaz üçün istihazə vəzifələrini daha öncə izah edilən qaydada yerinə yetirməlidir və bu vəzifələri yerinə yetirdikdən sonra namazını dərhal qılması vacib deyil və namazın qılınmasını təxirə sala bilər.

**Məsələ 634.** Müstəhazə ona vacib olan işlərdən birini görməzsə, namazı batildir. Həmçinin, əgər müstəhazənin vacib ehtiyata əsasən görməli olduğu bir işi görmədən namaz qılarsa, namazı vacib ehtiyata əsasən batildir.

## İstihazə ilə əlaqədar digər hökmlər

**Məsələ 635.** Müstəhazə qadın (kəsirə, mütəvəssitə, yaxud qəlilə qismindən olmasından asılı olmayaraq) orucun doğru sayılması xüsusunda pak qadın hökmündədir və orucunun doğru olması üçün müstəhazə vəzifələrini yerinə yetirməsi şərt sayılmır.

**Məsələ 636.** Müstəhazə qadının oruc tutduğu vaxt qanın ifrazının qarşısını alması vacib deyil. Hərçənd, müstəhəb ehtiyat budur ki, oruc tutduğu günlərdə bütün gün ərzində qanın ifrazının qarşısını bacardığı və onun üçün zərər törətməyəcək qədər almalıdır.

**Məsələ 637.** Qadın əsr namazından sonra müstəhazə olarsa və qürubadək qüsl etməzsə, orucu tamamilə doğrudur.

**Məsələ 638.** Vacib qüsllərini yerinə yetirən müstəhazə hərçənd pambıq və dəsmalı dəyişdirmək kimi namaz üçün yerinə yetirilən digər işləri görməsə belə, məscidə daxil olmasına və orada yubanmasına, vacib səcdəsi olan ayəni oxumasına və ərinin onunla cinsi əlaqədə olmasına izin verilir. Hətta sadalanan işlərin qüslsüz də görülməsi caizdir. Hərçənd müstəhəb ehtiyat budur ki, onlardan öncə qüsl etsin.

**Məsələ 639.** Kəsirə, yaxud mütəvəssitə istihazədə qadın namaz vaxtından öncə vacib səcdəsi olan bir ayəni oxumaq, yaxud məscidə getmək istəyərsə, müstəhəb ehtiyata əsasən, qüsl etməlidir. Bu hökm həyat yoldaşının onunla cinsi əlaqədə olmaq istəməsinə də şamil olunur.

**Məsələ 640.** Ayat namazı müstəhazəyə vacibdir və onu qılmaq üçün gündəlik namazlar üçün qeyd edilən bütün işləri görməlidir.

**Məsələ 641.** Əgər yövmiyyə (gündəlik) namaz vaxtında müstəhazə qadına ayat namazı vacib olarsa, hər ikisini ardıcıl qılmaq istəsə belə, lazım ehtiyata əsasən, iki namazı bir qüsl və dəstəmazla qıla bilməz.

**Məsələ 642.** Müstəhazə qadın qəza namazı qılmaq istəyərsə, hər namaz üçün əda namazından qabaq ona vacib olan işləri görməlidir və vacib ehtiyata əsasən, qəza namazı üçün əda namazına hazırlıq məqsədilə gördüyü işlərlə kifayətlənə bilməz. Müstəhəb ehtiyat budur ki, qadın qəza namazını paklananadək təxirə salsın.

# MEYYİTİN HÖKMLƏRİ

## Məssi-meyit (meyitə toxunma) qüslü

**Məsələ 643.** Bir şəxs ölmüş insanın cəsədinə toxunarsa, yəni bədəninin hər hansı bir yerini onun bədəninə toxundurarsa, iki şərtlə məssi-meyit qüslü etməlidir:

a) cəsəd tamamilə soyumuş olmalıdır;

b) meyitə qüsl edilməmiş olmalıdır, yaxud üçüncü qüslü hələ başa çatmamış olmalıdır.

Bu hökmdə meyitin müsəlman, yaxud kafir, yetişkən, yaxud azyaşlı olmasının heç bir fərqi yoxdur. Bu hökm hətta abort nəticəsində tələf olan ruh bəxş edilmiş dölə də şamildir. Həmçinin, insanın yuxuda və oyaq halda, ixtiyari və qeyri-ixtiyari surətdə toxunması arasında heç bir fərq yoxdur. Hətta əgər dırnağı, yaxud dişi meyitin bədəndən qopmamış dırnaq, yaxud dişinə dəyərsə, qüsl etməlidir. Tük (saç) ilə bağlı hökm isə növbəti məsələdə açıqlanacaqdır.

**Məsələ 644.** İnsan tükünü ölü insan bədəninə, yaxud öz bədənini onun tükünə və ya öz tükünü onun tükünə toxundurarsa, məssi-meyit qüslü vacib sayılmır.

**Məsələ 645.** Bütün bədəni soyumamış ölüyə, hətta onun bədənin soyumuş nahiyəsinə belə, toxunmaq səbəbi ilə qüsl almaq vacib olmur. Lakin əgər sirayətedici rütubəti olan əl, yaxud başqa bir bədən üzvü qüslü edilməmiş, yaxud hələ üçüncü qüslü başa çatmamış ölünün bədəninə toxunarsa, nəcasətlənmiş sayılır.

**Məsələ 646.** İnsan üç qüslü kamil surətdə tamamlanmış meyitə toxunarsa, ona qüsl vacib olmur. Lakin əgər üçüncü qüslü başa çatmamış onun bədəninin hər hansı bir yerinə toxunarsa, hərçənd üçüncü qüsl çərçivəsində həmin yer yuyulmuş olsa belə, məssi-meyit qüslü etməlidir.

**Məsələ 647.** İnsan ölü heyvana toxunduqda ona qüsl vacib olmur. Lakin əgər sirayətedici rütubəti olan əl, yaxud başqa bir bədən üzvü ölüsü nəcis (murdar) sayılan bir heyvanın bədəninə toxunarsa, nəcasətlənir.

**Məsələ 648.** Əgər ana bətnindəki ruh verilmiş uşaq ölü dünyaya gələrsə və ana bətnindən çıxarkən bədəni soyumuş olarsa, anasının bədəninin hər hansı bir xarici, yaxud daxili nahiyəsi ilə təmasda olduğu halda ana, vacib ehtiyata əsasən, məssi-meyit qüslü etməlidir.

**Məsələ 649.** Əgər ana həyatını itirdikdən sonra uşaq dünyaya gələrsə və ananın bədəninin xarici, yaxud daxili hissəsinə toxunarsa, ana bətnindən çıxarılarkən ananın bədəni soyumuş halda olduğu təqdirdə, vacib ehtiyata əsasən, sözügedən uşaq həddi-büluğa çatdıqdan sonra məssi-meyit qüslü etməlidir.

**Məsələ 650.** Əgər dəli, yaxud həddi-büluğa çatmamış uşaq meyitə toxunarsa, həmin dəli aqil olduqdan (əqli inkişafı bərpa olduqdan), uşaq isə həddi-büluğa çatdıqdan sonra məssi-meyit qüslü etməlidir. Həddi-büluğa çatmayan uşaq yaxşı ilə pisi ayırd edə bilən bir uşaq olarsa və məssi-meyit qüslü edərsə, qüslü doğru sayılır.

**Məsələ 651.** Əgər diri, yaxud qüslü edilməmiş ölü insanın bədəninin bir hissəsi bədəndən ayrılarsa və həmin hissəyə qüsl verilməmiş bir şəxs ona toxunarsa, hətta bədənin həmin hissəsində bir-birindən ayrılmamış sümük və ət olsa belə, sözügedən şəxsin məssi-meyit qüslü etməsi vacib deyil. Əlbəttə ki, bu halda qüsl etmək müstəhəb ehtiyatın tələbidir. Lakin əgər bir cəsəd doğranmış olarsa və bir şəxs həmin parçaların hamısına, yaxud əksər hissəsinə toxunarsa, məssi-meyit qüslü vacibdir.

**Məsələ 652.** Bədəndən ayrılan və qüslü edilməyən sümüyə, istər ölüdən olsun, istərsə diridən, toxunmaq səbəbi ilə qüsl vacib deyil. Həmçinin, ölü, yaxud diri insanın yerindən çıxan dişinə toxunmaq da bu qəbildəndir.

**Məsələ 653.** Məssi-meyit qüslünün qaydası cənabət qüslü kimidir və dəstəmaz üçün kifayət edir.

**Məsələ 654.** İnsan bir neçə meyitə toxunarsa, yaxud bir meyitə bir neçə dəfə toxunarsa, bir dəfə məssi-meyit qüslü etməsi kifayətdir.

**Məsələ 655.** Meyitə toxunduqdan sonra qüsl etməyən şəxsin məscidə daxil olması, həyat yoldaşı ilə cinsi əlaqədə olması və vacib səcdəsi olan ayələri oxuması üçün məhdudiyyət yoxdur. Lakin namaz qılmaq, Quran ayələrinin mətninə toxunmaq və bu qəbildən olan işlər üçün qüsl etməlidir.

## Can verən insanla əlaqədar hökmlər

**Məsələ 656.** Canvermə halında olan isnaəşəri (on iki Əhli-beyt imamının canişinliyini qəbul edən) şiənin kişi və ya qadın, yetkin və ya azyaşlı olmasından asılı olmayaraq, üzünü qibləyə çevirmək, vacib ehtiyata əsasən, hər bir müsəlmanın borcudur, yəni mümkün olduğu təqdirdə, ehtiyata əsasən, ayaqlarının altı qiblə istiqamətinə düşəcək şəkildə arxası üstə yatırtmalıdırlar. Can verən şəxsin özünün buna razı olduğu məlumdursa və o, həddi-büluğa çatmayan uşaq və ya dəli kimi qasir (üzürlü sayılan) insanlar qismindən deyilsə, bu iş üçün onun vəlisindən (şəri

hamisindən) icazə almağa gərək yoxdur, əks təqdirdə isə onun vəlisindən, ehtiyata əsasən, icazə almaq lazımdır.

**Məsələ 657.** Canvermə halında üzünü qibləyə çevirmək can verənin özünə vacib deyil, hərçənd müstəhəb ehtiyatın tələbi budur ki, can verən şəxs mümkün olduğu təqdirdə özünü qibləyə doğru yönəltsin.

**Məsələ 658.** Daha yaxşı olar ki, meyit qüslü başa çatanadək meyiti 656-cı məsələdə izah edilən surətdə qibləyə doğru uzatsınlar, lakin qüslü başa çatdıqdan sonra daha yaxşı olar ki, onu cənazə namazı qılınanda uzadıldığı vəziyyətdə yatırsınlar.

**Məsələ 659.** Şəhadəteyni və on iki imamın (ə) xəlifəliyinə iqrarı, habelə digər doğru inancları canvermə halında olan insana başa düşəcəyi şəkildə təlqin etmək müstəhəbdir. Həmçinin, deyilənlərin ölüm anınadək təkrar edilməsi də müstəhəbdir. Ədilə duasının oxunması da məqsədəuyğun hesab edilir.

**Məsələ 660.** Aşağıdakı duanı can verən şəxsə başa düşəcəyi şəkildə təlqin etmək müstəhəbdir:

"Allahumməğfir li əl-kəsirə min məasikə, vəqbəl minni əl-yəsirə min taətik. Ya mən yəqbəlul-yəsirə və yəfu ənil-kəsir. İqbil minni əl-yəsirə, vəfu ənni əl-kəsirə. İnnəkə əntə əl-afuvvul-ğafur. Allahummərhəmni fəinnəkə rəhim".

(Allahım, mənim sayı çox olan günahlarımı bağışla və məndən Sənə göstərdiyim asan itaəti qəbul et! Ey asan olanı (itaətləri) qəbul edib, çox olanı (günahları) əfv edən! Məndən asan olanı qəbul et və çox olanı (həddi-hüdudu keçən günahlarımı) bağışla! Həqiqətən, Sən əfv edən, bağışlayansan! Allahım mənə rəhm et, axı Sən rəhimlisən!)

Həmçinin, aşağıdakı duadan ibarət olan "kəlimati-fərəc"in (qurtuluş sözləri) də can verən şəxə təlqin edilməsi müstəhəbdir:

"La ilahə illəllahul-həlimul-kərim. La ilahə illəllahul-əliyyul-əzim. Subhanəllahi rəbbis-səmavatis-səbi və rəbbil-ərəzinəs-səb və ma fihinnə və ma beynəhunnə və rəbbil-ərşil-əzim. Vəl-həmdu lillahi rəbbil-aləmin".

(Həlim və kərim Allahdan başqa tanrı yoxdur! Uca və əzəmətli Allahdan başqa tanrı yoxdur! Yeddi göyün, yeddi yerin, onların üzərində (daxilində) və arasında olanların rəbbi və əzəmətli ərşin rəbbi olan Allah hər bir eyb və nöqsandan uzaqdır! Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur!)

**Məsələ 661.** Can verənin rahatlıq tapması üçün onun başı üstündə mübarək Yasin, Saffat və Əhzab surələrini, Ayətəl-kürsini, Əraf surəsinin 54-cü ayəsini, Bəqərə surəsinin son üç ayəsini və hətta mümkün olduqca daha çox Quran oxumaq müstəhəbdir.

**Məsələ 662.** Çətinliklə can verən şəxsi narahat olmayacağı təqdirdə namaz qıldığı yerə aparmaq müstəhəbdir.

**Məsələ 663.** Can verən şəxsi tək qoymaq, onun qarnının üzərinə ağır bir şey qoymaq, cünub və haiz insanların onun yanında olması, həmçinin onun başı üstündə çox danışmaq, ağlamaq və onu təkcə qadınların əhatəsində qoymaq məkruhdur.

## Meyitin dəfnə hazırlanması ilə bağlı ümumi hökmlər

**Məsələ 664.** Ölümdən sonra meyitin gözlərinin, dodaqlarının və çənəsinin örtülməsi, əl və ayaqlarının düzgün qaydada uzadılması və üzərinə bir parça örtülməsi, gecə vəfat etdiyi təqdirdə can verdiyi yerdə çıraq yandırılması, habelə dəfn mərasimində iştirak etmək üçün möminlərə xəbər verilməsi və dəfninin təxirə salınmadan həyata keçirilməsi müstəhəbdir. Lakin ölümünün gerçəkləşdiyinə dair yəqinlik hasil edilmədiyi təqdirdə müəyyənləşənədək gözləmək lazımdır. Həmçinin, əgər meyit hamilə qadındırsa və bətnindəki uşaq diridirsə, bu halda dəfni uşaq cərrahi müdaxilə yolu ilə bətnindən azad edilənə və kəsilmiş yer tikilənədək təxirə salınmalıdır. Bu hökm 768-ci məsələdə təfsilatı ilə izah ediləcəkdir.

**Məsələ 665.** Müsəlmanın qüsl, hənut vurulma, kəfənlənmə, namaz və dəfninin həyata keçirilməsi, hərçənd isnaəşəri şiə olmasa belə, ilk növbədə onun şəri vəlisinə vacibdir. Meyitin vəlisi bu işləri ya şəxsən həyata keçirməli, ya da başqa bir şəxsə həvalə etməlidir.

**Məsələ 666.** Meyitin hazırlanması, o cümlədən qüsl edilməsi, kəfənlənməsi, ona hənut vurulması, namaz qılınması və dəfninin onun şəri vəlisinin icazəsi ilə həyata keçirilməsi vacibdir və əgər bir şəxs bu işləri vəlidən icazə alaraq yerinə yetirərsə, bu məsuliyyət vəlinin üzərindən götürülür. Hətta bir şəxsin kəfənləmə, hənut vurma və dəfn kimi qəsdi-qürbətlə (Allaha yaxınlaşmaq niyyəti ilə) edilməsi şərt sayılmayan işləri vəlinin icazəsi olmadan, ancaq şəriətin göstərişlərinə uyğun qaydada yerinə yetirdiyi təqdirdə də bu işlərin icrası vəzifəsi vəlinin üzərindən götürülür və onun sözügedən işləri yenidən yerinə yetirməsinə ehtiyac yoxdur. Lakin qüsl və meyit namazı kimi qəsdi-qürbətin şərt sayıldığı işləri kimsə vəlinin icazəsi olmadan yerinə yetirərsə, kafi sayılmır.

**Məsələ 667.** Vəlinin icazəsi onun sözü yaxud işarəsi ilə birbaşa yaxud müxtəlif yolla ola bilər. Həmçinin başqa yolla vəlinin bir yaxud bir neçə şəxsin vasitəsi ilə meyyitin hazırlanma işlərinə razı olmasına yəqinlik yaranarsa kifayətdir.

**Məsələ 668.** Evli qadının vəlisi onun əridir. Digər hallarda isə varislər “irs dərəcələri” mövzusunda izah ediləcək ardıcıllıq üzrə meyitin vəlisi

sayılır və hər dərəcədə kişilər qadınlardan öncə gəlir. Belə ki, məsələn, əgər ilk dərəcədən olan varislər ana və oğuldursa (gələcəkdə izah ediləcək şərtlərlə), vəli oğul sayılır. Lakin əgər vəfat edən şəxsin tələb olunan şərtlərə cavab verən oğlu yoxdursa, onun vəlisi anası sayılır və bu xüsusda növbə sonrakı (ikinci) təbəqəyə çatmır. Meyitin qohum-əqrəbasından kimsə sağ deyilsə, yaxud onlardan hər hansı biri sağ olsa da, şəri vəlilik səlahiyyətinə malik deyilsə, məsələn, dəlidirsə və beləliklə, varislikdə növbə şəriət hakiminə, yaxud adil möminlərə çatırsa, bu halda şəriət hakimi, yaxud adil möminlərin meyitin dəfnə hazırlanması xüsusunda vəliliyi sübuta yetirilməmişdir və belə bir meyit şəri vəlisiz sayılır.

Qeyd etmək lazımdır ki, vəfat edənin atasının oğlundan, babasının qardaşından, əmisinin dayısından öncə gəlməsi ehtiyatın tələbidir. Həmçinin, atabir və anabir qardaşın yalnız atabir, yaxud yalnız anabir olan qardaşdan öncə gəlməsi və yalnız atabir olan qardaşın da yalnız anabir olan qardaşdan öncə gəlməsi ehtiyatın tələbidir. Beləliklə, belə məqamlarda ehtiyatın tələbinə riayət etməkdən imtina etməmək lazımdır.

**Məsələ 669.** Əgər meyitin birdən artıq sayda vəlisi olarsa, məsələn, bir neçə oğlu və bir neçə qardaşı olarsa, meyitin dəfnə hazırlıq işləri üçün onlardan birindən icazə almaq kifayətdir, hərçənd müstəhəb ehtiyata əsasən, onların hamısından icazə alınmalıdır.

**Məsələ 670.** Həddi-büluğa çatmayan uşaq, dəli və həmçinin, şəxsən, yaxud başqa bir şəxsə həvalə etmək surəti ilə meyitin dəfnə hazırlanması işlərini öz öhdəsinə götürə bilməyən qaib (hazır olmayan, uzaqda olan və ya itkin düşmüş) şəxs bu xüsusda vəlilik səlahiyyətinə malik olmayan şəxslərdir.

**Məsələ 671.** Aşağıdakı hallarda vəlinin icazəsi zəruriliyini itirir və meyitin dəfnə hazırlanması digər mükəlləflərə kifayi vacibdir[1]:

a) şəri vəli meyitin dəfnə hazırlanması ilə əlaqədar işlərin şəxsən, yaxud başqa bir şəxsə həvalə etmək surəti ilə icrasından imtina etdikdə;

b) vəli əlaqə saxlamaq mümkün olmayacaq şəkildə qaib olduqda və növbəti dərəcədən yaxınlar arasında da meyit üçün şəri vəli olmadıqda;

c) vəli dəli olduqda və növbəti dərəcədən yaxınlar arasında da meyit üçün şəri vəli olmadıqda;

ç) meyitin şəri vəlisi olmadıqda.

**Məsələ 672.** Əgər insan vəlisindən başqa bir şəxsə öldükdən sonra ona şəxsən qüsl verməsini, yaxud cənazəsini kəfənləməsini, yaxud onun üçün cənazə namazı qılmasını və ya onu dəfn etməsini vəsiyyət edərsə, həmin şəxsin bu vəsiyyəti qəbul etməsi vacib deyil, lakin qəbul etdiyi

---

[1] Bir şəxsin, yaxud bəzi şəxslərin icra etdiyi təqdirdə digərlərinin öhdəsindən götürülən vacib əməl.

təqdirdə ona əməl etməlidir və bu halda vəlinin icazəsinə də ehtiyac yoxdur.

**Məsələ 673.** Əgər insan vəlisindən başqa bir şəxsə qüsl, kəfən, namaz və dəfn xüsusunda vəliliyin onda olmasını, onunmeyitin dəfnə hazırlıq işlərinişəxsən həyata keçirə, yaxud başqa bir şəxsə tapşıra biləcək şəkildə öz öhdəsinə götürərəkqəyyum olmasını vəsiyyət edərsə, vacib ehtiyata əsasən, həmin şəxs bu işdə həddən ziyadə çətinlik çəkməyəcəyi təqdirdə vəsiyyəti qəbul etməlidir. Lakin həmin şəxs vəsiyyət edənin sağlığında vəsiyyəti qəbul etməkdən imtina edərsə, onun imtinası ilə bağlı xəbər vəsiyyət edənə çatarsa və o, başqa bir şəxsə vəsiyyət edə bilərsə, bu halda vəsiyyəti qəbul etmək vacib deyil.

**Məsələ 674.** Bir şəxs meyitin vəlisi olduğunu, yaxud meyitin vəlisinin ona meyitin qüsl, kəfənləmə və dəfn işlərini yerinə yetirmək üçün icazə verdiyini, yaxud özünün meyitin dəfnə hazırlıq işlərinin icrası ilə bağlı vəsiyyət etdiyi şəxs olduğunu söyləyərsə, sözləri insanlarda arxayınlıq hasil edərsə, yaxud meyit onun sərəncamında olarsa və ya iki adil şəxs onun sözlərinin doğruluğuna şahidlik edərsə, onun sözünü qəbul etmək lazımdır.

**Məsələ 675.** Əgər bir şəxs meyitin işləri ilə məşğul olarsa, başqalarına bu işlərlə məşğul olmaq vacib deyil. Lakin əgər o, bu işləri yarımçıq qoyarsa, başqaları başa çatdırmalıdır.

**Məsələ 676.** Əgər insan başqa bir şəxsin meyitin işləri ilə məşğul olduğuna əmin olarsa, bu işlərlə məşğul olması vacib deyil. Lakin əgər şəkk, yaxud güman edərsə, məşğul olmalıdır.

**Məsələ 677.** Bir şəxs meyitin qüsl, kəfən, namaz, yaxud dəfninin düzgün olmayan qaydada icra edildiyini bilərsə, həmin işi (işləri) yenidən icra etməlidir. Lakin sözügedən işlərin batil olduğunu güman edərsə, yaxud düzgün olub-olmadığına şəkk edərsə, bu işləri icra etməsinə ehtiyac yoxdur.

**Məsələ 678.** Vəfat edən müsəlmanı kişi, yaxud qadın olmasından, həddi-büluğa çatıb-çatmamasından asılı olmayaraq, hətta yeni doğulmuş körpə olsa belə, meyit qüslü etmək, kəfənə bürümək, cəsədinə hənut vurmaq, ona cənazə namazı qılmaq və onu dəfn etmək lazımdır (altı yaşdan aşağı uşaqlar üçün meyit namazı və abort nəticəsində tələf olmuş uşaqla bağlı hökmlər gələcəkdə izah ediləcəkdir).

**Məsələ 679.** Müsəlman sayılan, yaxud müsəlman hökmündə olan tələf olmuş uşağın (dölün) yaşı qəməri təqvimlə dörd ay və ya daha artıqdırsa, mükəlləf insanlar kimi meyit qüslü edilməli, kəfənlənməli, hənut vurulmalı və dəfn edilməlidir. Hətta əgər dörd aylıq olmasa belə, orqanizminin inkişafı tamamlanmış olarsa, vacib ehtiyata əsasən, ona

mükəlləf insanlar kimi meyit qüslü etmək, kəfənə bürümək, bədəninə hənut vurmaq və dəfn etmək lazımdır. Beləliklə, qeyd edilən özəlliklərə sahib olan tələf olmuş uşağı spirt, yaxud digər məhlulların içərisində nümayiş və bənzər məqsədlərlə laboratoriyalarda və ya digər yerlərdə saxlamaq olmaz.

**Məsələ 680.** Müsəlman uşağın, hərçənd zina nəticəsində dünyaya gəlmiş olsa belə, qüsl, kəfənlənmə, hənut və dəfni vacibdir. Uşaqlıqdan dəli olan və həddi-büluğ yaşına da dəli olaraq daxil olan şəxsin atası, yaxud anası müsəlman olduğu təqdirdə müsəlmanlarla bağlı hökm ona da şamil olunur və digər müsəlmanlar kimi qüsl edilməli, kəfənlənməli və dəfn edilməlidir.

**Məsələ 681.** Kafir insanın və onun uşaqlarının şəriətə uyğunluq ünvanı ilə qüsl edilməsi, kəfənlənməsi, bədənlərinə hənut vurulması və dəfn edilməsi caiz deyil. Lakin əgər kafirin uşağı müməyyiz (yaxşı ilə pisi ayırd edə bilən) olarsa və müsəlman olduğunu izhar edərsə, müsəlman sayılır və digər müsəlmanlar kimi qüsl edilməli, kəfənlənməli və dəfn edilməlidir.

**Məsələ 682.** Aşağıdakı hallarda meyiti qüsl etmək, kəfənə bürümək və ona hənut vurmaq vacib deyil:

1) Müfəssəl kitablarda qeyd edilən şərtlərlə döyüş meydanında can verən şəhid üçün qüsl, kəfən və hənut yoxdur, onun nəşinə namaz qılınmalı və əynindəki geyimlərlə dəfn edilməlidir.

2) Rəcm (daşqalaq), yaxud qisas hökmü ilə öldürülməsi vacib olan şəxsin qüsl, kəfən və hənutu daha müfəssəl kitablarda izah edilən qaydada hökmün icrasından öncə özü tərəfindən yerinə yetirilməli və hökmün icrasından sonra cənazə namazı qılınaraq dəfn edilməlidir.

3) Tələf olmuş döl (müsəlman sayılır, yaxud müsəlman hökmündədir) qəməri təqvimlə dörd aylıq olduğu və orqanizminin inkişafı başa çatmadığı təqdirdə onun üçün qüsl, hənut və meyit namazı yoxdur və vacib ehtiyata əsasən, onu bir parçaya bükərək dəfn etmək lazımdır.

4) Meyitin üzvlərinin bir-birindən ayrıldığı və bəzi üzvlərinin tapılmadığı bir qisim hallarda onun üçün qüsl edilmir, kəfənlənmir və hənut vurulmur. Bu hallarla bağlı daha ətraflı izah və hökmlər də daha müfəssəl kitablarda öz əksini tapmışdır.

# MEYİT QÜSLÜ

## Meyit qüslünün şərtləri

**Məsələ 683.** Meyit qüslünün bir sıra şərtləri vardır. O cümlədən:
- qüsl qəsdi-qürbət (Allaha yaxınlaşmaq niyyəti) və ixlasla edilməlidir;
- qüsl suyu pak olmalı və vacib ehtiyata əsasən, irin kimi insanın iyrəndiyi şeylərə bulaşmış olmamalıdır;
- qüsl suyu, sidr və kafir qəsb edilmiş olmamalıdır;
- qüsl əzalarında suyun təmasının qarşısını ala biləcək bir maneə olmamalıdır;
- meyitin bədən üzvləri özlüyündə nəcis sayılan şeylərdən (idrar, nəcis və qan kimi) təmizlənməlidir;
- qüsl cəsədin dağılmasına (parçalanmasına,) səbəb olmamalıdır;
- qüsl meyitin şəri vəlisinin icazə ilə edilməlidir;
- qüslü icra edən şəxs qarşıda izah ediləcək şərtlərə cavab verməlidir.

**Məsələ 684.** Meyitə qüsl etmək üçün muzd almaq, lazım ehtiyata əsasən, haramdır və əgər bir şəxs qəsdi-qürbətlə uzlaşmayacaq şəkildə muzd almaq üçün meyitə qüsl edərsə, həmin qüsl batildir. Lakin qüslə hazırlıq işləri müqabilində muzd almaq haram deyil.

**Məsələ 685.** Qüslü yerinə yetirən şəxs qüsl suyunun meyitin bütün üzvlərini yuduğuna dair yəqinlik, yaxud arxayınlıq hasil etməlidir. Beləliklə, əgər meyitin üzvlərində plastır, boya, lak kimi suyun dəriyə toxunmasının qarşısı alan bir şey olarsa, qüsldən öncə və ya qüsl əsnasında həmin üzvü yuyarkən aradan qaldırılmalıdır.

**Məsələ 686.** Əgər meyitin üzvlərində qan kimi özlüyündə nəcis olub suyun bədənlə təmasına maneə hesab edilən, yaxud qüsl suyunun özlüyündə nəcis olan bir şeyin rəngini, iyini, yaxud dadını almasına səbəb olan bir şey vardırsa, qüsldən öncə və ya qüsldə həmin nahiyənin yuyulmasına çatmamış təmizlənməlidir və müstəhəb ehtiyatın tələbi budur ki, bu iş meyit qüslünə başlamazdan öncə yerinə yetirilsin.

## Meyit qüslünü icra edən şəxs üçün şərtlər

**Məsələ 687.** Meyiti qüsl edən şəxs aqil, müsəlman,[1] meyitin həmcinsi olmalı (qarşıda qeyd ediləcək hallar istisna olmaqla), habelə qüsl məsələlərini hərçənd qüsl əsnasında başqalarının təlimi və göstərişləri

---

[1] Qüsl edənin müsəlman olması yalnız "Minhac əs-salihin" risaləsinin birinci cildinin 277-ci məsələsində qeyd edilən bircə halda şərt sayılmır.

sayəsində olsa da bilməli və vacib ehtiyata əsasən, isnaəşəri şiə olmalıdır. Əlbəttə, əgər meyit isnaəşəri şiə olmayan müsəlman olarsa və onu özü ilə eyni məzhəbdən olan bir insan məzhəbinə uyğun qaydada qüsl edərsə, isnaəşəri şiələrin üzərindən bu vəzifə götürülür və onu yenidən qüsl etmək lazım deyil. Bir isnaəşəri şiə meyitin vəlisi olarsa, bu halda istisna olaraq onun üzərindən bu mükəlləfiyyət götürülmür.

**Məsələ 688.** Kişi naməhrəm qadına meyit qüslü edə bilməz və həmçinin, qadın da naməhrəm kişiyə meyit qüslü edə bilməz. 690-cı məsələdə qeyd ediləcək bir hal istisna təşkil edir.

**Məsələ 689.** Qüslü icra etmək üçün meyitin həmcinsi olan isnaəşəri şiə tapılarsa, vacib ehtiyata əsasən, meyitin məhrəmləri 690 və 691-ci məsələlərdə qeyd ediləcək hal istisna olmaqla onu qüsl etməməlidir. Lakin qüslü icra etmək üçün isnaəşəri şiə və meyitin həmcinsi olan bir şəxs tapılmazsa, meyiti məhrəmləri onu qüsl edə bilər və bu halda növbə meyitin həmcinsi olan, isnaəşəri şiə olmayan şəxsə çatmır.

Qeyd etmək lazımdır ki, məhrəmlərin ana və bacı kimi nisbi məhrəmlər (ailə mənsubları) olması ilə süd vermə və ya izdivac səbəbi ilə məhrəm olması arasında bir fərq yoxdur.

**Məsələ 690.** Kişi müməyyiz olmayan qız uşağına meyit qüslü edə bilər və qadın da müməyyiz olmayan oğlan uşağına meyit qüslü edə bilər. Lakin hər iki halda, müstəhəb ehtiyata əsasən, müməyyiz olmayan uşaq 3 yaşdan böyük olmamalıdır. Bu məsələdə müməyyiz olmayan uşağın qüslü icra edənin məhrəmlərindən olması ilə naməhrəm olması arasında fərq yoxdur.

**Məsələ 691.** Ər-arvad hərçənd meyitin həmcinsi olan bir şəxs tapılsa belə bir-birinə meyit qüslü edə bilər. Ölüm səbəbi ilə şəri ər-arvad bir-birinə naməhrəm olmur və insanın həyat yoldaşının cansız bədəninə şəhvət hissi və həzz almaq məqsədi olmadan baxmasına məhdudiyyət qoyulmur.

**Məsələ 692.** Meyitin məhrəm yerlərinə[1] baxmaq (ər-arvad və müməyyiz olmayan uşaq istisna olmaqla),[2] hərçənd baxan şəxs meyitin məhrəmlərindən olsa belə, haramdır. Meyiti qüsl edən şəxs onun məhrəm yerlərinə baxarsa, günah etmiş sayılır, lakin meyit qüslü batil olmur. Ər və arvadın isə qüsl əsnasında bir-birinin məhrəm yerlərinə baxması, hərçənd məkruh sayılsa da, caizdir. Həmçinin, qüsl edilərkən müməyyiz olmayan uşağın məhrəm yerlərinə baxmaq caizdir.

**Məsələ 693.** Əgər meyit və onu qüsl edən şəxsin hər ikisi həddi-büluğa çatmış kişi olarsa, yaxud hər ikisi həddi-büluğa çatmış qadın olarsa,

---

[1] Məhrəm yerlər deyərkən cinsiyyət orqanı və anus dəliyinin ətrafı nəzərdə tutulur. *Tərc.*

[2] Müməyyiz uşağın məhrəm yerlərinə şəhvət hissi və həzz almaq məqsədi olmdan baxmağın haramlığı vacib ehtiyata əsaslanır.

meyitin məhrəm yerləri istisna olmaqla bədəninin başqa yerlərinin çılpaq olması caizdir, lakin daha yaxşı olar ki, meyit paltarın altından qüsl edilsin. Bu hökm, həmçinin, meyitin həddi-büluğa çatmayan müməyyiz uşaq olduğu və həmcinsi olan həddi-büluğ yaşını keçmiş kişi, yaxud qadının onu qüsl etmək istədiyi hala da şamildir.

**Məsələ 694.** Meyit qüslündə qüslü yerinə yetirənin həddi-büluğa çatmış insan olması şərt deyil, müməyyiz bir uşaq meyit qüslünü düzgün qaydada yerinə yetirə bilərsə, onun etdiyi qüsl kafidir.

## Meyit qüslünün icrası qaydaları və onunla əlaqədar hökmlər

**Məsələ 695.** Meyitə aşağıdakı ardıcıllıqla üç qüsl etmək vacibdir:

1) sidr qarışdırılmış su ilə;
2) kafur qarışdırılmış su ilə;
3) saf su ilə.

**Məsələ 696.** Meyit qüslü cənabət qüslü kimidir və vacib ehtiyata əsasən, tərtibi qaydada qüsl etmək mümkün olduqca meyit irtimasi qüsllə yuyulmamalıdır. Tərtibi qaydada meyit qüslündə fasiləsiz ardıcıllığa riayət etməyə ehtiyac yoxdur, lakin meyitin bədəninin sağ tərəfi sol tərəfindən öncə yuyulmalıdır.

**Məsələ 697.** Sidr və kafur suyu muzaf suya çevirəcək qədər çox və "suya sidr, yaxud kafur qarışdırılmamışdır" deyiləcək qədər də az olmamalıdır.

**Məsələ 698.** Əgər lazım olan miqdarda sidr və kafur tapılmazsa, müstəhəb ehtiyata əsasən, suya əldə edilən miqdarda tökülməlidir.

**Məsələ 699.** Əgər sidr və kafur, yaxud onlardan biri tapılmazsa, yaxud istifadəsi caiz olmazsa, məsələn, qəsb edilmiş olarsa, vacib ehtiyata əsasən, onlardan mümkün olmayanının yerinə onu əvəz etmək niyyəti ilə saf su ilə qüsl edilməlidir və bu üç qüsldən əlavə, vacib ehtiyata əsasən, meyitə bir dəfə təyəmmüm də edilməlidir.

**Məsələ 700.** Bir şəxs ehram halında vəfat edərsə, kafurlu su ilə qüsl edilməməli, onun yerinə saf su ilə qüsl edilməlidir. Lakin əgər təməttü həccinin ehramında idisə və təvafını, namazını və səy (Səfa və Mərvə arasındakı məsafəni yeddi dəfə qət etmək) hərəkətini başa çatdırmışdısa, yaxud qiran və ya ifrad həccinin ehramında idisə və saçını qırxmışdısa, bu iki halda istisna olaraq kafurlu su ilə qüsl edilməlidir.

**Məsələ 701.** Heyz, yaxud cənabət halında dünyasını dəyişən şəxsin heyz, yaxud cənabət qüslü ünvanı ilə yuyulmasına ehtiyac yoxdur, onun üçün meyit qüslü kifayətdir.

**Məsələ 702.** Vacib ehtiyata əsasən, meyitin dırnağını hətta uzun olsa belə tutmaq caiz deyil. Həmçinin, vacib ehtiyata əsasən, meyitin bədənindəki tükləri (saçını, saqqalını, qoltuq nahiyəsində və qarnının altındakı tükləri) yolmaq, dartmaq, yaxud qırxmaq kimi üsullarla təmizləmək, məhv etmək caiz deyil.

**Məsələ 703.** Meyit sağlığında sünnətsiz idisə, onun ölümündən sonra sünnət edilməsi caiz deyil.

**Məsələ 704.** Böyük fəqihlər (Allah onlardan razı olsun!) bir sıra hərəkətləri meyit qüslünün müstəhəb və məkruh işləri kimi qeyd etmişlər. Yerinə yetirilməsinin qüslü kamilliyinə və savabın artmasına səbəb olacağına ümid edilən bu işlər müfəssəl kitablarda qeyd edilmişdir.

## Meyitin təyəmmümü

**Məsələ 705.** Meyiti su tapılmadıqda, yaxud sudan istifadənin cəsədin parçalanmasına, ət, dəri, yaxud sümüyünün bədəndən qopmasına səbəb olması kimi şəriətə görə sudan istifadə üçün məhdudiyyət qoyulan hallarda təyəmmüm etmək olar. Bu hallarla bağlı daha artıq şərhə daha müfəssəl kitablarda rast gəlmək olar.

**Məsələ 706**. Meyitə təyəmmüm edildiyi hallarda təyəmmümü icra edən şəxs onun hərəkətlərini meyitin əlləri ilə deyil, öz əlləri ilə həyata keçirməlidir. Hərçənd, müstəhəb ehtiyata əsasən, öz əlləri ilə təyəmmüm etməklə yanaşı, mümkün olduğu təqdirdə meyit üçün onun əlləri ilə də təyəmmüm etməlidir.

**Məsələ 707.** Meyitin qüsl edilməsinin mümkün olmadığı və vəzifənin onun üçün təyəmmüm edilməsi olduğu hallarda meyitə bir dəfə şəri vəzifəni yerinə yetirmək niyyəti ilə təyəmmüm etmək kifayətdir. Hərçənd, müstəhəb ehtiyata əsasən, meyitə üç qüslün əvəzinə üç dəfə təyəmmüm edilməli və üç təyəmmümdən birində “ma fiz-zimmə” niyyəti[1] edilməlidir.

**Məsələ 708.** Meyitin təyəmmümündə insanın özünün təyəmmüm etməsi ilə bağlı “Təyəmmüm” mövzusunda şərh ediləcək şərtlərlə yanaşı digər məqamlar və şərtlər də vardır. O cümlədən:

- təyəmmümü yerinə yetirən şəxs qəsdi-qürbət (Allaha yaxınlaşmaq) niyyətinə sahib olmalıdır;
- meyitin təyəmmüm edilməsi mümkün olmalıdır;
- suyun tapılması, yaxud meyitin yuyulmasının mümkünlüyünə dair ümidlər tükənmiş olmalıdır;
- təyəmmüm meyitin şəri vəlisinin icazəsi ilə yerinə yetirilməlidir;

[1] Fiqhdə mükəlləfin üzərinə düşən vəzifəni bilməsə də, şəri vəzifəsini yerinə yetirmək niyyətinə “ma fiz-zimmə” niyyəti deyilir. *Tərc.*

- təyəmmümü yerinə yetirən şəxs meyit qüslünü icra edən şəxs üçün irəli sürülən tələblərə cavab verməlidir.

Bu şərtlərdən hər birinin izahı daha müfəssəl kitablarda öz əksini tapmışdır.

## Meyitin kəfəni ilə əlaqədar hökmlər

**Məsələ 709.** Müsəlmanın cəsədini kəfənin vacib parçaları sayılan "fitə", "köynək" və "sərtasər"adlı üç parça ilə kəfənləmək lazımdır.

**Məsələ 710.** Kəfənin üç əsas özünəməxsus parçası aşağıdakılardan ibarətdir:

1) Fitə - Vacib ehtiyata əsasən, bədənin göbəkdən dizədək olan hissəsini tamamilə bürüməlidir. Daha yaxşı olar ki, bədənin sinədən ayaqların üstünədək hissəsini örtsün.

2) Köynək – Vacib ehtiyata əsasən, bədənin çiyinin yuxarısından baldırın ortasınadək hissəsini bütünlüklə örtməlidir. Daha yaxşı olar ki, ayaqların üstünədək olan hissəni də örtsün.

3) Sərtasər – Bədəni tamamilə bürüyəcək ölçüdə olmalıdır. Vacib ehtiyata əsasən, uzunluğu həm baş, həm də ayaq tərəfdən bağlana biləcək ölçüdə, eni isə bir tərəfi digər tərəfinin üstünədək çatacaq ölçüdə olmalıdır.

**Məsələ 711.** Kəfənin üç parçasının birlikdə bədəni nümayiş etdirməyəcək şəkildə olması vacibdir və meyitin başdan ayağadək bütün bədəni onların altından görünməməlidir. Hətta müstəhəb ehtiyata əsasən, kəfənin parçalarının üçü də cəsədin onların altından görünə biləcəyi qədər nazik olmamalıdır.

**Məsələ 712.** Kəfənin vacib parçalarının üçü də vahid parça halında olmalıdır. Beləliklə, əgər sərtasər kimi istifadə edilmək istənilən parça kiçik olarsa və cəsədin tamamilə örtülməsi üçün onunla yanaşı başqa bir parçadan istifadə edilərsə, kafi sayılmır. Lakin əgər sözügedən iki parça tikmək kimi üsullarla ürfən vahid parça sayılacaq və meyitin bütün bədənini örtəcək şəkildə bir-birinə birləşdirildiyi halda istisna olaraq kafi sayılır.

**Məsələ 713.** Kəfən parçasının bədənlə bilavasitə təması zəruri sayılmır. Beləliklə, əgər cəsədi plastik torbaya qoyaraq sonra kəfənləsələr, bu öz-özlüyündə kəfənləmənin doğruluğuna xələl gətirmir.

**Məsələ 714.** Meyitin kəfənlənməsində qəsdi-qürbət, hərçənd müstəhəb ehtiyatın tələbi olsa da, şərt deyil.

**Məsələ 715.** 710-cu məsələdə izah edilən qaydada vacib sayılan ölçüdə kəfən meyitin əmlakının əslihesabına (yəni varislər arasında bölünməzdən öncə) təmin edilir. Hətta müstəhəb sayılan ölçüdə kəfəni də normal çərçivədə, meyitin sosial vəziyyətini nəzərə almaqla onun

əmlakının əsli hesabına təmin etmək olar. Hərçənd, müstəhəb ehtiyata əsasən, kəfənin ölçüsünün vacib sayılandan artıq olan hissəsinin xərci həddi-büluğa çatmayan, yaxud dəli varisinin miras payından götürməsinlər. Meyitin dəfnə hazırlanması və dəfni ilə əlaqədar digər xərclər, o cümlədən sidr, kafur, qüsl suyu, cənazənin daşınması, qəbrin qazılması və qəbir yeri üçün çəkilən xərclər də kəfən kimidir, yəni onları vəfat edənin əmlakının əslindən (yəni varislər arasında bölünməzdən öncə) götürmək olar.

**Məsələ 716.** Bir şəxs kəfəninin müstəhəb sayılan hissəsini onun əmlakının üçdə biri hesabına təmin etməyi vəsiyyət edərsə, yaxud əmlakının üçdə birini öz işləri üçün məsrəf etməyi vəsiyət edər, lakin necə məsrəf ediləcəyini müəyyən etməzsə, yaxud onun yalnız bir hissəsinin necə məsrəf ediləcəyini müəyyən edərsə, onun kəfəninin müstəhəb ölçüsünün, hərçənd normal ölçüdən artıq olsa belə, əmlakının üçdə birindən götürmək olar.

**Məsələ 717.** Əgər vəfat edən şəxs kəfəninin əmlakının üçdə biri hesabına təmin edilməsini vəsiyyət etməzsə və dəfn işlərini icra edənlər kəfənin pulunu onun əmlakının əslindən götürmək istəyərlərsə, kəfənin vacib və ondan əlavə vəfat edənin sosial vəziyyəti nəzərə alınmaqlanormal hesab edilən müstəhəb ölçüsündən artığının pulu əmlakın əslindən götürülməməlidir. Lakin həddi-büluğa çatmış, aqil varislərin icazəsi ilə onların miras payından artıq xərcləri çıxmaq olar. Həmçinin, meyitin basdırılması kimi digər hazırlıq işləri üçün də normadan artıq xərclər çəkmək istəsələr, artıq xərclər üçün vəsaiti əmlakın əslindən götürməməlidirlər və bu vəsaiti həddi-büluğa çatmış, aqil varislərin icazəsi ilə onların miras payından götürmək olar. Buna əsasən, əgər meyitin sosial statusuna uyğun olan bəzi yerlərdə dəfn ödənişsiz olarsa və başqa yerlərdə dəfn üçün ödəniş tələb edilərsə, ödənişsiz olan yerdə dəfn tərcih edilməlidir və bu halda varislər onu ödəniş tələb edilən yerdə dəfn etmək istəyərsə, həmin məbləği əmlakın əslindən götürə bilməzlər, lakin həddi-büluğa çatmış, aqil varislərin icazəsi ilə onların miras payından götürmək olar.

**Məsələ 718.** Evli qadının kəfən təminatı, hərçənd azyaşlı, yaxud dəli olsa da, yaxud əri onunla cinsi əlaqədə olmasa da və ya zəngin olsa, şəxsi əmlakı olsa da, ərinin öhdəsinə düşür. Həmçinin, əgər qadın müvəqqəti nikahda olarsa, yaxud ərinin intim ehtiyaclarını təmin etməkdən imtina edər və itaətsizlik göstərərsə, habelə əgər talaq hökmlərində izah ediləcək qaydada rici talaqla boşanarsa və iddə müddəti başa çatmamış dünyasını dəyişərsə, əri onun kəfənini təmin etməli, ər həddi-büluğa çatmamış olduğu, yaxud dəli olduğu təqdirdə isə ərin vəlisi onun əmlakı hesabına kəfənin xərcini çəkməlidir.

**Məsələ 719.** Qadının kəfəninin ərinə vacib olması xüsusunda arvadın ölümünün ərin ölümü ilə eyni zamanda və ya ondan sonra baş verməməsi, başqa bir şəxsin qadının kəfənini pulsuz vermiş olmaması və kəfənin hazırlanmasının ər üçün həddən ziyadə çətin olmaması şərt sayılır. Beləliklə, əgər ər kəfəni təmin etmək üçün borc almağa, yaxud girov qoyduğu bir əmlakı girovluqdan azad etməyə məcbur olarsa və bu işlərin görülməsi onun üçün həddən ziyadə çətin olmazsa (əsasən, dözülməz hesab edilməzsə), bu işləri görməlidir. Əgər qadın kəfəninin öz əmlakı hesabına alınmasını vəsiyyət edərsə və onun vəsiyyətinə əməl edilərsə, kəfən xərci ərin öhdəsindən götürülür.

**Məsələ 720.** Vəfat edən şəxsin kəfəninin təmin edilməsi onun qohumları üçün, hətta sağlığında ehtiyaclarının ödənilməsi həmin qohuma vacib olan bir şəxs olsa da, vacib deyil.

**Məsələ 721.** Əgər vəfat edən şəxsin kəfən almaq üçün əmlakı (mirası) qalmasa, onun çılpaq halda dəfn edilməsi caiz deyil, əksinə müsəlmanlara vacibdir ki, onu kəfənləsinlər və bu zaman kəfən xərcini öz mallarının zəkatından hesab edə bilərlər.

**Məsələ 722.** Meyiti qəsb edilmiş parça və ya bu qəbildən olan şeylərlə kəfənləmək, hərçənd mübah parça və ya başqa bir şey tapılmasa belə, caiz deyil. Meyitin kəfəni qəsb edilmiş mal olarsa və sahibi də razılıq verməzsə, hətta dəfn edilmiş olsa belə, onu meyitin bədənindən çıxarmaq lazımdır. Lakin başqa kitablarda təfsilatı ilə izah edilmiş bir sıra hallar istisna təşkil edir.

**Məsələ 723.** Meyiti nəcasətlənmiş parça ilə kəfənləmək - hərçənd namazda nəzərə alınmayan bir nəcasət olsa belə - caiz deyil. Həmçinin, meyiti, hətta qadın, yaxud həddi-büluğa çatmamış uşaq olsa da, xalis ipək parça ilə kəfənləmək olmaz. Meyitin qızılla işlənmiş parça ilə kəfənlənməsi, vacib ehtiyata əsasən, caiz deyil, lakin çıxılmaz vəziyyətlərdə bu ehtiyata lüzum yoxdur.

**Məsələ 724.** Məcburiyyət qarşısında qalmadıqca meyitin nəcis sayılan ölü heyvanın dərisi ilə kəfənlənməsi caiz deyil. Hətta pak sayılan ölü heyvanın dərisi, həmçinin, əti haram olan heyvanın yunundan, yaxud tükündən emal edilmiş parça ilə kəfənlənməsi də, vacib ehtiyata əsasən, məcburiyyət qarşısında qalmadıqca caiz deyil. Lakin əgər kəfən əti halal olan heyvanın tükündən, yaxud yunundan hazırlanmış olarsa,eybi yoxdur, hərçənd müstəhəb ehtiyatın tələbi budur ki, meyit bu ikisi ilə də kəfənlənməsin.

**Məsələ 725.** Əgər meyitin kəfəni öz nəcasəti, yaxud başqa bir nəcis ilə nəcasətlənərsə - hərçənd namazda nəzərə alınmayan bir nəcasət olsa da – nəcasətlənmiş hissə, hətta qəbrə qoyulduqdan sonra olsa belə,

yuyulmalı, yaxud kəfən pozulmayacağı təqdirdə kəsilib götürülməlidir və əgər yumaq, yaxud kəsmək mümkün olmazsa, başqa bir kəfənlə əvəz edilməsi mümkün olduğu halda əvəz edilməlidir.

**Məsələ 726.** Həcc, yaxud ümrə üçün ehram bağlayan şəxs vəfat edərsə, başqaları kimi kəfənlənməlidir və başının və üzünün örtülməsinin eybi yoxdur.

**Məsələ 727.** Meyitin kəfəninin müstəhəb parçaları da vardır. Onların, habelə kəfənləmə ilə əlaqədar müstəhəb və məkruh işlərin, eləcə də təkid edilən müstəhəblərdən olan, meyitin yanına qoyulan cəridənin (ağac parçası) izahı daha müfəssəl kitablarda öz əksini tapmışdır.

## Hənut ilə əlaqədar hökmlər

**Məsələ 728.** Qüsl edildikdən sonra meyitin hənut edilməsi, yəni onun alnına, ovuclarına, diz qapaqlarına və ayaqlarının baş barmaqlarına bir hissəsi üzərində qalacaq şəkildə kafur vurulması vacibdir. Bu iş sürtməkdən başqa bir üsulla da yerinə yetirilə bilər.

**Məsələ 729.** Meyitin hənutu üçün istifadə edilən kafur qəsb edilmiş olmamalı, üyüdülmüş (narın) və yumşaq olmalı, həmçinin təzə və ətirli olmalıdır və əgər köhnə olduğuna görə qoxusunu itirmiş olarsa, kafi sayılmır. Həmçinin, kafur pak olmalıdır. Vacib ehtiyata əsasən, hətta cəsədin nəcasətlənməsinə səbəb olmasa da, pak olmalıdır.

**Məsələ 730.** Hənutun meyitə qüsl, yaxud təyəmmüm edildikdən sonra və cənazə namazından öncə yerinə yetirilməsi şərtdir. Meyiti kəfənləməzdən öncə, yaxud kəfənləmə əsnasında və ya kəfənləmədən sonra, cənazə namazı qılınmamış hənut etmək olar.

**Məsələ 731.** Hənutda qəsdi-qürbət şərt deyil. Həmçinin, həddi-büluğa çatmayan, hətta müməyyiz də olmayan uşaq belə etsə, kafidir.

**Məsələ 732.** Meyitin burnunun ucuna da kafurun sürtülməsi müstəhəbdir. Həmçinin, müstəhəbdir ki, oynaqlarına, sinəsinə, boğazının altındakı çuxura, ayaqların altına və əllərin üstünə də kafur sürtülsün.

**Məsələ 733.** Müstəhəb ehtiyata əsasən, kafur əvvəlcə meyiti alnına sürtülməlidir, lakin digər nahiyələr arasında hər hansı ardıcıllıq qaydası yoxdur. Həmçinin, müstəhəb ehtiyata əsasən, kafur əllə, daha dəqiq desək, əlin aya hissəsi ilə sadalanan yerlərə sürtülməlidir və daha yaxşı olar ki, meyitin hənutu üçün istifadə edilən kafurun miqdarı yeddi bazar misqalı[1] olsun.

**Məsələ 734 .** Gözün, burnun, yaxud qulağın içinə kafur vurmaq məkruhdur.

---

[1] Bir misqal təqribən 4,26 qrama bərabər ölçü vahididir. *Tərc.*

**Məsələ 735.** Həcc, yaxud ümrə üçün ehram bağlayan şəxs vəfat edərsə, 700-cü məsələdə qeyd edilən iki hal istisna olmaqla onun hənut edilməsi caiz deyil.

**Məsələ 736.** Etikafda olan insan, əri vəfat edən və hələ iddə müddəti başa çatmayan qadın, hərçənd ətirdən istifadə etmək onlar üçün haram olsa da, vəfat etdikləri təqdirdə hənut edilmələri vacibdir.

**Məsələ 737.** Müstəhəb ehtiyata əsasən, meyitə müşk, ənbər, ud və digər ətirlər vurulmamalı, habelə bunlar kafurla qarışdırılmamalıdır.

**Məsələ 738.** Kafura Şəhidlərin sərvəri Həzrət Hüseynin (ə) qəbrinin torpağından bir qədər qarışdırmaq müstəhəbdir. Lakin həmin hörmətsizlik sayılacaq yerlərə sürtülməməlidir. Həmçinin, qarışdırılan türbətin miqdarı kafura kafur deyilməyəcək qədər çox olmamalıdır.

**Məsələ 739.** Əgər kafur tapılmazsa, yaxud yalnız meyit qüslünə yetəcək qədər olarsa, hənut zəruri sayılmır. Meyit qüslü üçün lazım olan həcmdən artıq olduğu, lakin yeddi üzvün hamısının hənut edilməsi üçün kafi miqdarda olmadığı təqdirdə isə hənut əsas etibarı ilə vacibdir, lakin müstəhəb ehtiyata əsasən, alnın hənutu digər nahiyələrin hənutuna tərcih edilməlidir.

# CƏNAZƏ NAMAZI

## Cənazə namazının vacib olduğu hallar

**Məsələ 740.** Vəfat etmiş müsəlman, yaxud müsəlman hökmündə olan və qəməri təqvimlə altı yaşı tamam olmuş uşaq üçün cənazə namazı qılmaq vacibdir.

**Məsələ 741.** Vacib ehtiyata əsasən, qəməri təqvimlə altı yaşı tamam olmayan, lakin namazı başa düşən uşaq üçün cənazə namazı qılınmalıdır, başa düşməyən uşaq üçün isə rəcaən (savab ümidi ilə) qılınmasında məhdudiyyət yoxdur. Ancaq ölü doğulan uşaq üçün namaz qılmaq müstəhəb deyil.

## Cənazə namazının şərtləri

**Məsələ 742.** Cənazə namazının doğru olması üçün bir neçə şərt tələb edilir:

***Birinci şərt:*** Cənazə namazı meyitin qüsl, hənut və kəfənlənməsindən sonra qılınmalıdır və əgər bunlardan öncə, yaxud bunların arasında qılınarsa, hətta unutqanlıq, yaxud məlumatsızlıqdan olsa belə, kafi sayılmır.

*İkinci şərt:*Cənazəni başı namaz qılanın sağ, ayaqları isə sol tərəfinə düşəcək şəkildə arxası üstü yatırtmaq lazımdır.

*Üçüncü şərt:* Cənazə namaz qılanın önündə olmalıdır. Beləliklə, əgər cənazə namaz qılanın arxasında olarsa, cənazə namazı doğru deyil. Həmçinin, əgər cənazə namaz qılanın sağında, yaxud solunda olarsa, cənazə namazı doğru deyil. Lakin cənazə namazı camaat halında qılınarsa və sıralar uzun olarsa, bu halda cənazənin müqabilində olmayanların namazına xələl gəlmir. Həmçinin, əgər bir neçə cənazə daha müfəssəl kitablarda izah edilən qaydada yan-yana düzülərsə və insan onların hamısı üçün bir cənazə namazı qılmaq istəyərsə, bəzi cənazələrin onunla üzbəüz olmaması namazın doğruluğuna xələl gətirmir.

***Dördüncü şərt:*** Namaz qılan şəxs cənazədən onun yanında durmaq sayılmayacaq qədər uzaq olmamalıdır, lakin camaat halında qılınan cənazə namazında sıralar bir-birinə birləşmiş olduğu təqdirdə məmumların uzaq olmasının eybi yoxdur. Həmçinin, əgər bir neçə cənazə yan-yana düzülərsə və insan onların hamısı üçün bir cənazə namazı qılmaq istəyərsə, onun bəzi cənazələrdən uzaq olmasının eybi yoxdur.

***Beşinci şərt:*** Cənazə ilə namaz qılan arasında pərdə, divar, yaxud başqa bir maneə olmamalıdır. Lakin cənazənin tabut kimi bir yerdə olması namazın doğruluğuna xələl gətirmir.

***Altıncı şərt:*** Namaz qılanın durduğu yer cənazənin qoyulduğu yerdən həddən ziyadə alçaq, yaxud hündür olmamalıdır. Lakin cüzi alçaqlıq, yaxud hündürlük xələl gətirmir.

***Yeddinci şərt:*** Namaz qılınarkən cənazənin məhrəm yerləri örtülü olmalıdır. Cənazənin kəfənlənməsi mümkün deyilsə, məhrəm yerlərini, hərçənd parça, libas, taxta, kərpic və və bu qəbildən olan şeylərlə örtmək lazımdır.

***Səkkizinci şərt:*** Cənazəyə namaz qılan şəxs aqil olmalı (dəli olmamalı) və məşhur nəzərə əsasən, isnaəşəri şiə olmalıdır. Lakin əgər isnaəşəri şiə olmayan bir şəxs isnaəşəri şiə olmayan bir insanın cənazəsi üçün namaz qılarsa, cənazənin vəlisi olan isnaəşəri şiə istisna olmaqla digər isnaəşəri şiələrin cənazə namazını təkrarən qılmasına ehtiyac yoxdur.

***Doqquzuncu şərt:*** Cənazəyə namaz qılan şəxs üzü qibləyə dayanmalıdır.

***Onuncu şərt:*** Cənazəyə namaz qılan şəxs cənazə namazını ayaq üstə qılmalıdır. Lakin əgər cənazə namazını ayaq üstə qıla biləcək bir şəxs tapılmazsa, cənazə üçün oturaq halda namaz qılmaq olar.

***On birinci şərt:*** Namaz qılan şəxs Allaha yaxınlaşmaq niyyəti ilə və ixlasla namaz qılmalıdır.

***On ikinci şərt:*** Niyyət zamanı, hərçənd icmalən olsa da, cənazəni müəyyənləşdirməli, məsələn: "Bu cənazəyə qürbətən iləllah (Allaha yaxınlaşmaq üçün) namaz qılıram", - deyə niyyət etməlidir. Yaxud cənazə namazı camaat halında qılındığı təqdirdə məmum:"İmamın namazına niyyət etdiyi cənazə üçün namaz qılıram", - deyə niyyət etməlidir.

***On üçüncü şərt:*** Hərəkətsizlik qorunmalı, yəni namaz qılan şəxs cənazə namazı əsnasında namaza durmaq sayılmayacaq qədər çox hərəkətli olmamalı, hətta vacib ehtiyata əsasən, bədənin gündəlik namazlar üçün şərt sayılan hərəkətsizliyi cənazə namazında da qorunmalıdır.

***On dördüncü şərt:*** Cənazə namazının təkbir və duaları fasiləsiz ardıcıllıqla oxunmalı, təkbirlər və dualar arasında namazın surəti pozulacaq qədər fasilə verilməməlidir.

***On beşinci şərt:*** Cənazə namazı əsnasında namazın surətini pozacaq istənilən hərəkətdən, vacib ehtiyata əsasən, ümumiyyətlə söhbət etməkdən, qəhqəhə ilə gülməkdən, qibləyə arxa çevirməkdən çəkinmək lazımdır.

***On altıncı şərt:*** Cənazə namazı meyitin şəri vəlisinin izni ilə qılınmalıdır və onun izni olmadan qılınması doğru deyil. Bu məsələ daha öncə ətraflı surətdə izah edilmişdir.

***On yeddinci şərt:*** Cənazə namazı izah ediləcək surətdə qılınmalıdır.

**Məsələ 743.** Cənazə namazı qılan şəxsin dəstəmaz, qüsl, yaxud təyəmmümlü olmasına, bədəninin və libasının pak olmasına gərək yoxdur. Hətta əgər namaz qılanın paltarı və namazı qıldığı yer, yaxud

cənazənin qoyulduğu yer qəsb edilmiş olsa belə, qəsb edən şəxsin günahkar sayılmasına baxmayaraq cənazə namazı doğrudur. Müstəhəb ehtiyata əsasən, insan digər namazlarda riayət edilən bütün şərtlərə cənazə namazında da riayət etməlidir.

**Məsələ 744.** Cənazə namazında namaz qılanın həddi-büluğa çatmış olması şərt sayılmır. Buna əsasən, namazı doğru qaydada qıla bilən həddi-büluğa çatmayan müməyyiz uşağın qıldığı cənazə namazı kafidir.

**Məsələ 745.** Vəfat edən insan cənazə namazını müəyyən bir şəxsin qılmasını vəsiyyət edərsə, həmin şəxsin meyitin vəlisindən icazə alması daha yaxşı olsa da, zəruri sayılmır. Lakin əgər vəfat edən şəri vəlisinin müəyyən bir şəxsi onun cənazə namazını qılmaq üçün dəvət etməsini vəsiyyət edərsə, vəlinin icazəsi zəruriliyini itirmir və həmin şəxs meyitin vəlisindən icazə almalıdır.

**Məsələ 746.** Namazdan sonra dəfnədək cənazə namazının batil olduğu məlum olarsa, yenidən qılınmalıdır.

**Məsələ 747.** Cənazə qəsdən, unutqanlıqdan və ya üzürlü bir səbəbdən namazsız dəfn edilərsə, yaxud dəfndən sonra ona qılınan namazın batil olduğu məlum olarsa, cənazə namazını qılmaq üçün qəbrinin açılması caiz deyil, lakin vacib ehtiyata əsasən, cəsədi pozulmadıqca rəcaən (savab ümidi ilə) cənazə namazının qeyd edilən şərtlərinə riayət etməklə qəbrinin başında namaz qılmaq lazımdır.

## Cənazə namazının qılınma qaydası

**Məsələ 748.** Cənazə namazının beş təkbiri vardır və namaz qılan şəxs niyyətdən sonra aşağıdakı qaydada beş təkbir deyərsə, kafidir:

1) Birinci təkbirdən sonra desin: "Əşhədu ən la ilahə illəllah və ənnə Muhəmmədən rəsulullah".

2) İkinci təkbirdən sonra desin: "Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd".

3) Üçüncü təkbirdən sonra desin: "Allahumməğfir lil-mumininə vəl-muminat".

4) Dördüncü təkbirdən sonra cənazə kişi olduğu halda: "Allahumməğfir lihazəl-meyyit", qadın olduğu halda isə: "Allahumməğfir lihazihil-meyyitə", - desin.

5) Sonra beşinci təkbiri desin. Bu təkbirdən sonra hər hansı bir zikr, yaxud duanın edilməsi vacib deyil.

Ancaq daha yaxşı olar ki, namaz qılan şəxs cənazə namazında birinci təkbirdən sonra desin:

"Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh, ərsələhu bil-huda və dinil-həqqi bəşirən və nəzirən bəynə yədəyis-saəh".

İkini təkbirdən sonra desin:

"Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd, və barik əla Muhəmmədin və Ali-Muhəmməd, vərhəm Muhəmmədən və Alə-Muhəmməd, kəəfzəli ma səlleytə və barəktə və tərəhhəmtə əla İbrahimə və Ali-İbrahim. İnnəkə Həmidun Məcid. Və səlli əla cəmiil-ənbiyai vəl-mursəlinə vəş-şuhədai vəs-siddiqinə və cəmii ibadillahis-salihin".

Üçüncü təkbirdən sonra desin:

"Allahumməğfir lil-mumininə vəl-muminat, vəl-musliminə vəl-muslimat, əl-əhyai minhum vəl-əmvat, tabi beynəna və beynəhum bil-xeyrat. İnnəkə mucibud-dəəvat, innəkə əla kulli şeyin qədir".

Dördüncü təkbirdən sonra cənazə kişi olduğun halda desin:

"Allahummə innə hazəl-musəcca quddamənə əbdukə vəbnu əbdikə vəbnu əmətikə, nəzələ bikə və əntə xeyru mənzulin bih. Allahummə inna la nələmu minhu illa xeyrən və əntə ələmu bihi minna. Allahummə in kanə muhsinən fəzid fi ihsanihi, və in kanə musiən fətəcavəz ən seyyiatihi, vəğfir ləh. Allahumməcəlhu indəkə fi əla illiyyin, vəxluf əla əhlihi fil-ğabirin, vərhəmhu birəhmətikə ya ərhəmər-rahimin".

Sonra beşinci təkbiri desin. Bununla namaz başa çatır.

Lakin cənazə qadın olduğu təqdirdə dördüncü təkbirdən sonra belə desin:

"Allahummə innə hazihil-musəccatə quddamənə əmətukə vəbnətu əbdikə vəbnətu əmətikə, nəzələt bikə və əntə xeyru mənzulin bih. Allahummə inna la nələmu minha illa xeyrən və əntə ələmu biha minna. Allahummə in kanət muhsinətən fəzid fi ihsaniha, və in kanət musiətən fətəcavəz ən seyyiatiha, vəğfir ləha. Allahumməcəlha indəkə fi əla illiyyin, vəxluf əla əhliha fil-ğabirin, vərhəmha birəhmətikə ya ərhəmər-rahimin".

Qeyd etmək lazımdır ki, dördüncü təkbirdən sonra oxunan yuxarıdakı dualar həddi-büluğa çatmış insanlar üçündür, həddi-büluğa çatmayan şəxslər, o cümlədən möminlərin övladları üçün qılınan cənazə namazında isə dördüncü təkbirdən sonra belə deyilir: "Allahumməcəlhu liəbəveyhi və ləna sələfən və fərətən və əcrən".

**Məsələ 749.** Cənazə namazının camaat halında qılınması müstəhəbdir və vacib ehtiyata əsasən, cənazə namazının imamı həddi-büluğa çatmaq, aqillik, halalzadəlik, isnaəşərilik və s. kimi imamlıq üçün tələb olunan şərtlərə cavab verməlidir. Lakin adil olması, hərçənd müstəhəb ehtiyatın tələbi olsa da, şərt sayılmır. Camaat namazının doğru olması üçün tələb olunan şərtlər xüsusunda da, iqtidanın gerçəkləşməsi və camaat namazının təşkilində ürfən rol oynayan şərtlərə riayət etmək lazımdır. Məsələn, məmumla imam, həmçinin məmumla onun imama qoşulması üçün vasitə olan başqa məmum arasında həddən ziyadə məsafə olmamalıdır.

**Məsələ 750.** Cənazə namazını camaatla qılan şəxs, hərçənd məmum olsa da, onun təkbir və dualarının heç olmazsa vacib hissələrini oxumalıdır. Sözügedən dualara camaat halında qılınan və yalnız imamın oxuduğu gündəlik namazların Həmd-surəsi ilə bağlı hökm şamil olunmur.

## Cənazə namazında müstəhəb olan işlər

**Məsələ 751.** Cənazə namazında bir neçə şey müstəhəbdir:

1) Namaz qılanın cənazə namazında dəstəmazlı, qüsllü və ya təyəmmümlü olması. Lazım ehtiyata əsasən, o, dəstəmaz və qüsl mümkün olmadığı halda, yaxud dəstəmaz alacağı və ya qüsl edəcəyi təqdirdə cənazə namazına çatmayacağını ehtimal etdikdə təyəmmüm etməlidir. Əlbəttə, əgər dəstəmaz almaq və qüsl etmək mümkündürsə və cənazə namazına çatmaq üçün də kifayət qədər vaxt qalırsa,belə hallarda da insan rəcaən təyəmmüm edə bilər.

2) Cənazə kişi olduğu halda camaatın imamının, yaxud ona fərdi qaydada namaz qılan şəxsin onun qamətinin orta hissəsinin müqabilində, qadın olduğu təqdirdə isə sinəsinin müqabilində dayanması.

3) Namazı ayaqyalın qılmaq.

4) Hər təkbirdə gündəlik namazların təkbirətəl-ehramı mövzusunda 1141-ci məsələdə qeyd ediləcək qaydada əlləri qulaqların, yaxud üzün müqabilinədək qaldırmaq.

5) Onunla[1] cənazə arasında məsafə o qədər az olmalıdır ki, əgər külək paltarını hərəkət etdirərsə, cənazəyə toxunnmalıdır.

6) Cənazə namazının camaat halında qılınması.

7) İmamın təkbir və duaları ucadan, onunla birgə namaz qılanların (məmumların) isə alçaq səslə oxuması.

8) Camaat namazında məmum bir nəfər olsa da, onun imamın arxasında durması.

9) Namaz qılanın vəfat edən şəxs, habelə mömin kişi və qadınlar üçün çox dua etməsi.

10) Camaat halında qılındıqda namazdan öncə üç dəfə "əs-səlat" demək.

11) Namazın insanların cənazə namazını qılmaq üçün daha çox getdiyi bir yerdə qılınması.

12) Haiz qadının cənazə namazını camaatla birgə qıldığı təqdirdə tək durması, namaz qılanların sırasında durmaması.

## Cənazə namazında məkruh olan işlər

**Məsələ 752.** Cənazə namazının məscidlərdə qılınması məkruhdur. Lakin Məscid əl-haramda məkruh deyil.

[1] Camaatın imamı, yaxud fərdi surətdə namaz qılan şəxs ilə. *Tərc.*

**Məsələ 753.** Fəqihlərdən (Allah onlardan razı olsun!) bəzilərinin nəzərincə, cənazə üçün bir neçə dəfə namaz qılmaq məkruhdur. Lakin bu məsələ sübuta yetirilməmişdir. Beləliklə, cənazəyə bir neçə namaz qılmaq olar və əgər vəfat edən şəxs elm və təqva sahibi olarsa, şübhəsiz, məkruh deyil.

## Cənazəni müşayiət etmək

**Məsələ 754.** Vəfat edən insanın cənazəsini dəfn ediləcəyi yerədək müşayiət etmək müstəhəbdir və bu hərəkətin mənəvi dəyəri ilə bağlı çoxlu rəvayət nəql edilmişdir. Fəqihlər (Allah onlardan razı olsun!) də cənazənin müşayiət edilməsi ilə əlaqədar bir sıra işlərin müstəhəb və məkruh olduğunu qeyd etmişlər. Onlara rəcaən (savab ümidi ilə) riayət etmək bəyənilən əməl sayılır və sözügedən hərəkətlər müfəssəl kitablarda açıqlanmışdır.

# MEYİTİN DƏFNİ

## Meyitin dəfni ilə əlaqədar vacib olan işlər

**Məsələ 755.** Müsəlmanın, yaxud müsəlman hökmü şamil olunan insanın meyitini dəfn etməklə bağlı aşağıda qeyd edilənlərin yerinə yetirilməsi vacibdir:

1) Mümkün olduğu halda meyitin bədəni torpağın altında gizlənəcək şəkildə yerdə qazılmış bir çuxurda dəfn edilməsi vacibdir və zərurət olmadan meyiti bina, tikili, yaxud tabut və ya sandıqda dəfn etmək olmaz.

2) Meyitin qoxusu bayıra yayılaraq insanları incitməyəcək şəkildə dəfn edilməsi vacibdir. Lakin əgər meyit səhra kimi bir yerdə dəfn edilərsə və orada meyitin qoxusunun əziyyət verə biləcəyi kimsə olmazsa, meyitin hansı şəkildə olursa olsun yerin təkinə dəfn edilməsi kafidir. Hərçənd, müstəhəb ehtiyata əsasən, bu halda da qoxusunun bayıra yayılmasının qarşısı alınacaq şəkildə dəfn edilməlidir.

3) Meyitin yırtıcı heyvanların onun nəşini qəbirdən çıxara bilməyəcəyi şəkildə dəfn edilməsi vacibdir və əgər bir heyvanın onun cəsədini qəbirdən çıxarması təhlükəsi olarsa, qəbrin üzəri kərpic kimi şeylərlə möhkəmləndirilməlidir. Lakin meyit yırtıcıların olmadığı bir yerdə dəfn edilərsə, qəbrin üstünün möhkəmləndirilməsinə ehtiyac yoxdur. Hərçənd müstəhəb ehtiyata əsasən, bu halda da qəbrin üstü möhkəm düzəldilməlidir.

4) Meyitin qəbrin içində sağ çiyni üstə bədəninin ön hissəsi qibləyə doğru düşəcək şəkildə yatırdılması vacibdir. Meyitin bədəni başsız dəfn edildikdə də bu hökm qüvvədədir. Hətta meyitin təkcə başı, yaxud təkcə sinəsi və ya hər hansı bir üzvü dəfn edildikdə də, vacib ehtiyatın tələbi budur ki, mümkün olduğu təqdirdə deyilən qaydada qəbrə qoyulsun.

**Məsələ 756.** Meyitin hər hansı bir zərurət olmadan soyuducu və bu qəbildən olan yerlərdə uzun müddət saxlanılmasının işkalı vardır və vacib ehtiyata əsasən, bu işi görməsinlər.

**Məsələ 757.** Meyitin yerə dəfn edilməsi mümkün olmazsa, dəfn yerinə onu bir tikili, tabut, yaxud bu qəbildən olan şeylərin içinə qoymaq olar. Lakin 755-ci məsələdə qeyd edilən digər şərtlərə riayət etmək lazımdır.

**Məsələ 758.** Bir şəxs gəmidə həyatını itirərsə, cəsədi çürüməyəcəksə və onun gəmidə qalması üçün bir məhdudiyyət yoxdursa, sahilə çatanadək gözləmək və onu torpağa dəfn etmək lazımdır. Əks təqdirdə

isə gəmidə qüslünü etmək, hənut etmək, kəfənləmək, cənazə namazını qıldıqdan sonra cəsədini bir küpün içinə qoyaraq ağzını möhkəm bağlamaq və dənizə atmaq, yaxud ayağına ağır bir şey bağlayaraq dənizə atmaq lazımdır və müstəhəb ehtiyata əsasən, imkan daxilində birinci üsulu seçmək lazımdır. Mümkündürsə, cəsədi dərhal heyvanların yeminə çevrilməyəcəyi bir yerdə dənizə atmaq lazımdır.

**Məsələ 759.** Düşmənin qəbri açaraq ölünün nəşini çıxarması, qulağını, burnunu, yaxud digər əzalarını kəsməsi və ya cəsədini yandırması qorxusu olarsa, cənazə öncəki məsələdə izah edilən qaydada dənizə atılmalıdır.

**Məsələ 760.** Lazım gəldiyi təqdirdə meyitin dənizə atılması, yaxud qəbrinin üstünün möhkəmləndirilməsi üçün çəkilən xərcləri onun əmlakının əslindən (varislər arasında bölünməmiş) götürmək olar.

**Məsələ 761.** Kafir qadın bətnindəki uşağı ilə birgə ölərsə, uşağın atası müsəlman olduğu təqdirdə qadını qəbirdə sol çiyni üstə arxası qibləyə doğru yatırtmaq lazımdır ki, uşağın üzü qibləyə doğru düşsün. Həmçinin, müstəhəb ehtiyata əsasən, bətnindəki uşağın bədəninə ruh daxil olmasa da, bu hökm ona şamil olunur.

**Məsələ 762.** Dəfn yerinin mübah olması vacibdir. Beləliklə, meyitin qəsb edilmiş yerdə dəfn edilməsi haramdır.

**Məsələ 763.** Meyitin dəfndən fərqli bir məqsəd üçün vəqf edilmiş məscid, hüseyniyyə, yaxud dini mədrəsələr kimi yerlərdə dəfn edilməsi vəqfə zərər yetirdiyi, yaxud vəqf məqsədlərinin həyata keçməsinə əngəl törətdiyi təqdirdə caiz deyil. Hətta əgər vəqfə zərər yetirməsə, yaxud məqsədlərinin həyata keçirilməsinə maneə törətməsə belə, vacib ehtiyata əsasən, əvvəlcədən, vəqfdən öncə orada müəyyən bir yerin istisna edilərək dəfn üçün nəzərdə tutulduğu hallar müstəsna olmaqla, dəfn caiz sayılmır.

**Məsələ 764.** Müsəlmanın ona qarşı hörmətsizlik sayılan bir yerdə, məsələn, zibillikdə, yaxud kanalizasiya quyusunda dəfn edilməsi haramdır.

**Məsələ 765.** Müsəlmanın kafirlərin qəbiristanlığında, kafirin isə müsəlmanların qəbiristanlığında dəfn edilməsi caiz deyil.

**Məsələ 766.** Meyitin başqa bir ölünün qəbrində dəfn edilməsi başqasının haqqına keçmək, yaxud cəsədi çürüməmiş bir meyitin qəbrinin açılması və ya ölüyə qarşı hörmətsizliyə səbəb olacağı təqdirdə caiz deyil. Əks təqdirdə, sözügedən qəbir köhnəldiyi, ilk sahibinin cəsədi çürüdüyü, yaxud qəbrin daha öncə açıldığı halda isə eybi yoxdur.

**Məsələ 767.** Bir şəxs quyuda həyatını itirərsə və nəşinin quyudan çıxarılması mümkün olmazsa, quyunun ağzı örtülməli və həmin quyu onun üçün qəbir təyin edilməlidir.

**Məsələ 768.** Əgər hamilə qadın həyatını itirər, bətnindəki uşaq isə sağ qalarsa, uşağın hərçənd qısa bir müddətlik də olsa sağ qalacağına ümid varsa, dərhal qadının hansı nahiyəsinə cərrahi müdaxilə uşağın sağ qalması və sağlamlığı üçün daha məqsədə uyğundursa, həmin nahiyədən kəsik açılaraq döl azad edilməli, sonra kəsik yeri tikilməlidir. Əgər uşağın sağ qalması və sağlamlığı üçün iki və ya daha artıq nahiyəyə cərrahi müdaxilə arasında fərq olmazsa, bu halda həmin nahiyələrdən hər hansı birini cərrahi müdaxilə üçün seçmək olar. Lakin əgər ananın bədəninə cərrahi müdaxilə ediləcəyi təqdirdə uşağın dərhal həyatını itirəcəyi və ana bətnindən sağ çıxmayacağına dairməlumat, yaxud arxayınlıq hasil edilərsə, bu halda ananın bədənini yarmaq caiz deyil.

**Məsələ 769.** Uşaq ana bətnində ölərsə və uşaqlıqda qalması ana üçün təhlükəli olarsa, ən asan üsulla çıxarılmalıdır və çıxılmaz hallarda doğranaraq çıxarıla bilər. Lakin bu əməliyyat mütəxəssis olduğu təqdirdə qadının öz əri tərəfindən həyata keçirilməlidir. Mümkün olmadığı təqdirdə isə mütəxəssis bir qadın dölü ana bətnindən çıxarmalıdır. Ana bu işi ən yaxşı şəkildə həyata keçirə bilən və özü üçün daha çox uyğun gördüyü bir mütəxəssisə, hərçənd həmin şəxs ona naməhrəm olsa belə, müraciət edə bilər.

**Məsələ 770.** Əgər ölünün cəsədinin müəyyən bir hissəsi, məsələn, əti, dərisi, tükü, dırnağı, yaxud dişi bədənindən qoparsa və dəfndən öncə tapılarsa, onun meyitin kəfəninin içinə qoyulması[1] və nəşi ilə birgə dəfn edilməsi vacibdir. Həmçinin, qüsl əsnasında meyitin bədəninin bir hissəsi bədənin əsas hissəsindən ayrılarsa və bu, həmin an, yaxud dəfnədək anlaşılarsa, bu halda da ayrılan hissənin meyitin kəfəninin içinə qoyularaq onunla birgə dəfn edilməsi vacibdir. Lakin əgər meyitin bədənindən ayrılmış hissə dəfndən sonra tapılarsa, onu ayrıca dəfn etmək, yaxud meyitin qəbrinə basdırmaq istədinildiyi təqdirdə bunu qəbrin açılmasına səbəb olmayacaq şəkildə etmək lazımdır.

Qeyd etmək lazımdır ki, meyitin dəfnindən sonra tapılan tük, dırnaq və dişin dəfn olunması lazım ehtiyata əsaslanır.

**Məsələ 771.** Sağ adamın dırnağı qopduqda (və ya özü tutduqda), yaxud dişi çıxdıqda (və ya özü çəkdirdikdə) onları basdırması müstəhəbdir.

## Dəfn ilə əlaqədar müstəhəb işlər

**Məsələ 772.** Fəqihlər (Allah onlardan razı olsun!) rəcaən riayət edilməsi bəyənilən bir sıra işləri meyitin dəfni əsnasında, dəfndən öncə və sonra müstəhəb işlər kimi təqdim edirlər. O cümlədən:

---

[1] Qeyd etmək lazımdır ki, şəriətə görə nəcis sayılan bədəndən ayrılmış ruhu olan üzvləri kəfənin içinə qoymaq istədikdə kəfənin nəcasətlənməsinə səbəb olmayacaq şəkildə hərəkət etmək, məsələn, sirayətedici rütubət olduğu təqdirdə həmin üzvü (hissəni) plastik torbanın içinə qoymaq, sonra həmin torbanı kəfənə qoymaq lazımdır.

1) Qəbrin ortaboylu insan boyuna bərabər ölçüdə, yaxud onun çiyninin üst tərəfinədək qazılması.

2) Yumşaq torpaqda qəbrin ortasında çay yatağına bənzər bir çuxurun qazılması və cəsədin oraya yerləşdirilməsi, sonra üzərinə ləhəd daşları qoymaqla tavan düzəldilməsi, ardınca qəbrin torpaqla doldurulması; bərk torpaqda (sərt yerdə) isə qəbir üçün onun qiblə tərəfində bir ləhədin qoyulması, qəbrin en və uzunluğunun cəsədin içinə sığa biləcəyi qədər geniş və içində oturula biləcək qədər dərin qazılması, sonra cəsədin onun içinə qoyulması və ləhəd daşlarının qəbirin qiblə tərəfindəki divara yerləşdirilməsi və daha sonra qəbrin torpaqla doldurulması.

3) Meyitin ən yaxın qəbiristanlıqda dəfn edilməsi. Uzaqdakı qəbiristanlığın hər hansı bir cəhətdən, məsələn, orada yaxşı insanların dəfn edilməsi, yaxud insanların mərhumlara fatihə oxumaq üçün daha çox ziyarət etdiyi bir qəbiristanlıq olması və ya müqəddəs ziyarətgahlardan olması kimi səbəblərlə əlaqədar olaraq daha üstün olduğu hallar istisnadır.

4) Qohumların bir-birinə yaxın dəfn edilməsi.

5) Cənazənin qəbrə bir neçə qulac məsafədə yerə qoyulması, üç dəfə az-az qəbrə yaxınlaşdırılması, bu üç dəfənin hər birində qaldırılaraq yenidən yerə qoyulması və dördüncü dəfə qəbrin içinə qoyulması. Bunun hikmətlərindən biri də ölünün özünü qəbrə daxil olmaq üçün hazırlamasıdır.

6) Cənazə kişi olduğu təqdirdə onun üçüncü başı qəbrin ayaq tərəfinə düşəcək şəkildə yerə qoyulması və dördüncü baş tərəfindən (cəsədin) qəbrə daxil edilməsi, qadın olduğu təqdirdə isə üçüncü dəfə qəbrin qiblə tərəfində yerə qoyulması və qəbirə eninə daxil edilməsi.

7) Cənazənin aram şəkildə tabutdan götürülməsi və təmkinlə, astaca qəbirə qoyulması.

8) Cənazə qadın olduğu təqdirdə qəbrə daxil edilərkən qəbirin üzərinə bir parça tutmaq.

9) Cənazə qadın olduğu təqdirdə nəşini ona məhrəm olan bir şəxsin qəbirə daxil etməsi, bir məhrəm tapılmadıqda isə qohumlarının onu qəbirə qoyması.

10) Cənazəni qəbirə qoyan şəxsin təharətli, başıaçıq və ayaqyalın olması, qəbirdən meyitin ayağı qoyulan tərəfdən çıxması.

11) Cənazəni ləhədə qoyduqdan sonra kəfənin düyünlərinin açılması. Daha yaxşı olar ki, kəfənin bağı öncə baş tərəfindən açılsın.

12) Meyitin yalnız üzünü kəfəndən çıxarmaq, yanağını torpağa dayamaq və başının altında torpaqdan balış düzəltmək.

13) Meyitin kürəyinə arxası üstə yıxılmasın deyə çiy kərpic, yaxud kəsək qoymaq.

14) Həzrət Hüseynin (ə) türbətindən bir kərpic həcminə bərabər miqdarda torpağı meyitin bədəninin ön tərəfinə müqabil olan qəbirin qabaq hissəsinə cəsəd çürüdükdə ona toxunmayacaq şəkildə tökmək. Həzrət Hüseynin (ə) türbətindən az miqdarda olsa belə, qəbirin içinə tökülməsi bəyənilən əməldir.

15) Meyitin üzərinə torpaq tökülməsin deyə ləhədi kərpic, daş, yaxud bu qəbildən olan şeylərlə örtmək. Daha yaxşı olar ki, daşları, yaxud kərpiclər meyitin baş tərəfindən başlanılaraq düzülsün. Əgər kərpic palçıqla bərkidilərsə, daha yaxşıdır.

16) Cənazənin yaxın qohumları istisna olmaqla dəfn mərasimində iştirak edən digər şəxslərin əllərinin üstü ilə qəbirə torpaq tökərək: “İnna lillahi və inna ileyhi raciun”, - deməsi.

17) Qəbirin dördkünc qazılması və yerdən dörd açıq, yaxud bağlı barmaq ölçüsündə hündür edilməsi.

18) Qəbirin üstünün enli və hamar vəziyyətdə düzəldilməsi.

19) Başqa bir şəxslə səhv düşməməsi üçün ölünün adının qəbirin yuxarı tərəfinə yazılması, yaxud bir lövhə və ya daşın üzərinə yazılması və onun cənazənin baş tərəfinə yerləşdirilməsi.

20) Qəbri dağılmasın deyə möhkəm düzəltmək.

21) Hədis kitablarında dəfndən öncə, dəfn əsnasında və qəbir görərkən oxunulması üçün nəql olunan duaları oxumaq. Bu dualara müfəssəl kitablarda yer verilmişdir. Onlardan biri də dəfn zamanı meyitə təlqin şəklində oxunan duadır. Həmin dua belədir:

Ləhədin üstünü örtməzdən öncə bir şəxs sağ əlini meyitin sağ çiyninə vursun, sol əlini də qüvvətlə meyitin sol çiyninə qoysun, ağzını onun qulağına yaxınlaşdırsın və onu möhkəm şəkildə silkələyərək üç dəfə desin:[1]

“İsmə, ifhəm (isməi, ifhəmi) ya fulanəbnə fulan (ya fulanə bintə fulan)”. “Fulanəbnə fulan”, yaxud “fulanə bintə fulan” sözlərinin yerinə mərhumun və atasının adlarını çəksin. Məsələn, əgər onun adı Məhəmməd, atasının adı isə Əlidirsə, üç dəfə: “İsmə, ifhəm, ya Muhəmmədəbnə Əli!”,ölünün öz adı Fatimə, atasının adı Əli olduğu təqdirdə isə: “İsməi, ifhəmi, ya Fatimə bintə Əli!” – desin. Sonra desin:“Həl əntə (ənti) ələl-əhdilləzi farəqtəna (farəqtina) əleyhi min şəhadəti ən la ilahə illəllahu, vəhdəhu la şərikə ləh, və ənnə Muhəmmədən səlləllahu əleyhi və alihi əbduhu və rəsuluhu və seyyidun-nəbiyyinə və xatəmul-mursəlin, və ənnə Əliyyən Əmirul-mumininə və seyyidul-vəsiyyinə, və iamun iftərəzallahu taətəhu ələl-ələmin, və ənnəl-Həsənə vəl-Huseynə və

---

[1] Cənazə qadın olduğu təqdirdə mötərizədən öncəki sözlərin yerinə mötərizə daxilindəki sözlər deyilməlidir.

Əliyyəbnəl-Huseyni və Muhəmmədəbnə Əliyyin və Cəfərəbnə Muhəmmədin və Musəbnə Cəfərin və Əliyyəbnə Musa və Muhəmmədəbnə Əliyyin və Əliyyəbnə Muhəmmədin vəl-Həsənəbnə Əliyyin vəl-Qaiməl-Huccətəl-Məhdi sələvatullahi əleyhim əimmətul-mumininə və hucəcullahi ələl-xəlqi əcməinə, və əimmətukə (əimmətuki) əimmətu huda əbrarun. Ya fulanəbnə fulan (fulanə bintə fulan)". "Fulanəbnə fulan", yaxud "fulanə bintə fulan" sözlərinin yerinə mərhumun və atasının adlarını çəksin və sonra desin:"İza ətakə (ətaki) əl-mələkanil-muqərrəbani rəsuleyni min indillahi təbarəkə və təala, səələkə (səələki) ən rəbbikə (rəbbiki) və ən nəbiyyikə (nəbiyyiki) və ən dinikə (diniki) və ən kitabikə (kitabiki) və ən qiblətikə (qiblətiki) və ən əimmətikə (əimmətiki), fəla təxəf və la təhzən (fəla təxafi və la təhzəni) və qul (və quli) fi cəvabihima: Allahu rəbbi, və Muhəmmədun səlləllahu əleyhi və alihi və sədləmə nəbiyyi, vəl-islamu dini, vəl-Quranu kitabi, vəl-Kəbətu qibləti, və Əmirul-mumininə Əliyyubnu Əbi Talibin imami, vəl-Həsənubnu Əliyyinil-Muctəba imami, vəl-Huseynubnu Əliyyiniş-şəhidi bikərbəla imami, və Əliyyun Zeynul-abidinə imami, və Muhəmmədunil-Baqiru imami, və Cəfərunis-Sadiqu imami, və Musəbnəl-Kazimu imami, və Əliyyunir-Riza imami, və Muhəmmədunil-Cəvadu imami, və Əliyyunil-Hadi imami, vəl-Həsənul-Əskəriyyu imami, vəl-Huccətul-Muntəzəru imami, haulai sələvatullahi əleyhim əimməti və sadəti və qadəti və şufəai, bihim ətəvəlla və min ədaihim ətəbərrəu fid-dunya vəl-axirəti. Summə iləm (iləmi) ya fulanəbnə fulan (ya fulanə bintə fulan)". Burada da "fulanəbnə fulan", yaxud "fulanə bintə fulan" sözlərinin yerinə mərhumun və atasının adlarını çəksin və ardınca desin: "Ənnəllahə təbarəkə və təala nimər-rəbbu, və ənnə Muhəmmədən səlləllahu əleyhi və alihi və səlləmə nimər-rəsulu, və ənnə Əliyyəbnə Əbi Talibin və əvladəhul-məsuminə əl-əimmətəl-isna əşərə niməl-əimmətu, və ənnə ma caə bihi Muhəmmədun səlləllahu əleyhi və alihi və səlləmə həqqun, və ənnəl-məvtə həqqun, və sualə Munkərin və Nəkirin fil-qəbri həqqun, vəl-bəsə həqqun, vən-nuşurə həqqun, vəs-siratə həqqun, vəl-mizanə həqqun, və tətayurəl-kutubi həqqun, və ənnəl-cənnətə həqqun, vən-narə həqqun, və ənnəs-saətə atiyətun la reybə fiha və ənnəllahə yəbəsu mən fil-qubur". Sonra desin: "Əfəhimtə ya fulanu (əfəhimti ya fulanətu)". "Fulanu", yaxud "fulanətu" sözlərinin yerinə mərhumun adını çəksin. Daha sonra desin: "Səbbətəkəllahu (səbbətəkillahu) bil-qəvlis-sabiti və hədakəllahu (hədakillahu) əla siratin mustəqim. Ərrəfəllahu beynəkə (beynəki) və beynə əvliyaikə (əvliyaiki) fi mustəqərrin min rəhmətih". Sonra belə dua etsin: "Allahummə cafil-ərzə ən cənbeyhi(cənbeyha) vəsəd biruhihi (biruhiha) ileykə və ləqqihi (ləqqiha) minkə burhanən. Allahummə əfvəkə əfvəkə".

Əgər mərhumun ana dili ərəb dili deyilsə, daha yaxşı olar ki, ərəbcə təlqindən sonra bu sözlər bir dəfə də ona öz dilində təlqin edilsin.

22) Cənazənin dəfnindən sonra qəbirin üzərinə su tökmək. Daha yaxşı olar ki, su tökən şəxs üzü qibləyə dursun, suyu meyitin baş tərəfindən başlayaraq qəbrin ayaqların altına düşən hissəsinədək, sonra əks istiqamətdə meyitin başınadək səpsin və qalan suyu qəbrin orta hissəsinə töksün. Qəbirin üstünə qırx gün boyunca gündə bir dəfə su tökmək müstəhəbdir.

23) Su səpdikdən sonra dəfndə iştirak edənlərin əllərini qəbrin üzərinə qoysunlar, daha yaxşı olar ki, üzü qibləyə doğru və cənazənin baş tərəfində dursunlar, barmaqlarını bir-birindən aralayaraq torpağa batırsınlar, yeddi dəfə "Qədr" surəsini oxuyaraq mərhum üçün Allahdan əfv diləsinlər və bu duanı oxusunlar: "Allahummə cafil-ərzə ən cənbeyhi (cənbeyha) və əsid ileykə ruhəhu (ruhəha) və ləqqihi (ləqqiha) minkə rizvanən, və əskin qəbrəhu (qəbrəha) min rəhmətikə ma tuğnihi (tuğniha) bihi ən rəhməti mən sivakə". Yaxud belə dua etsinlər: "Allahummərhəm ğurbətəhu (ğurbətəha) və sil vəhdətəhu (vəhdətəha) və anis vəhşətəhu (vəhşətəha) və amin rəvətəhu (rəvətəha) və əfiz əleyhi (əleyha) min rəhmətikə və əskin ileyhi (ileyha) min bərdi əfvikə və səəti ğufranikə və rəhmətikə ma yəstəğni biha ən rəhməti mən sivakə vəhşurhu (vəhşurha) məə mən kanə yətəvvəllahu (yətəvəllaha)".

Qeyd etmək lazımdır ki, bu göstəriş yalnız dəfn zamanına xas deyil, insanın hər dəfə bir mömininin qəbrini ziyarət etdikdə yeddi dəfə Qədr surəsini oxuyaraq onun üçün bağışlanma diləməsi və qeyd edilən duanı oxuması müstəhəbdir.

24) Qırx, yaxud əlli nəfərin mərhumun yaxşı insan olduğunu: "Allahummə inna la nələmu minhu (minha) illa xeyrən və əntə ələmu bihi (biha) minna" (Allahım, biz ondan xeyirdən başqa bir şey görmədik, hərçənd Sən onu bizdən daha yaxşı tanıyırsan!)" – sözləri ilə iqrar etməsi.

25) Təlqin üç məqamda müstəhəbdir:

a) canvermə əsnasında;

b) meyit qəbirə qoyulduqdan sonra;

c) qəbir torpaqla doldurulduqdan və dəfn mərasimində iştirak edənlər dağılışdıqdan sonra. Sonuncu təlqinin qaydası belədir:

Dəfn mərasimində iştirak edənlər dağılışdıqdan sonra müstəhəbdir ki, meyitin vəlisi, yaxud vəlisi tərəfindən icazə verilmiş bir şəxs dəfn əsnasında oxunan təlqin duasını mərhumun qəbri üstündə bir daha oxusun. Həmçinin, müstəhəbdir ki, təlqin zamanı üzünü qibləyə tutsun, qəbrin yuxarı tərəfində mərhumun başına yaxın bir yerdə otursun. Müstəhəbdir ki, təlqini oxuyan şəxs ağzını qəbrə yaxınlaşdırsın,iki ovucu ilə qəbirdən tutsun və təlqini uca səslə oxusun.

Hədislərdə qeyd edilir ki, dəfndən sonra oxunan bu təlqin Nəkir və Münkərin ölüdən qəbir suallarını soruşmamasına və onu sıxmamasına səbəb olur.

26) Müstəhəbdir ki, mömin sağlamlıq vəziyyətindən asılı olmayaraq qəbirini sağ ikən hazırlasın, içinə girərək orada Quran oxusun. Həmçinin, mömininin cənazəsinin dəfn edilməsi üçün torpaq sahəsinin bağışlanması da müstəhəbdir.

27) Ölü üçün dəfninin ilk gecəsi sədəqə verilsin.

28) Ölü üçün "vəhşət namazı", yaxud "qəbrin ilk gecəsinin namazı" kimi də adlandırılan"leylət əd-dəfn" (dəfn gecəsi) namazı qılınsın. Bu namazın qılınma qaydası müstəhəb namazlar mövzusunda, 1842-ci məsələdə izah ediləcəkdir.

Rəcaən (savab ümidi ilə) çəkinmək tələb olunan və daha müfəssəl kitablarda şərh edilən bir sıra işlər də meyitin dəfni əsnasında məkruh sayılır.

## Yas mərasimi ilə əlaqədar hökm və qaydalar

**Məsələ 773.** Dünyasını dəyişən mömininin (isnaəşəri şiənin) yasında ağlamaq müstəhəbdir, lakin müstəhəb ehtiyata əsasən, ölüyə ağlayarkən səsi həddən ziyadə ucaltmamaq lazımdır. [1]

**Məsələ 774.** Yalan və başqa haram sözlər ehtiva etmədikcə ölüyə şeir (nəzm), yaxud nəsr ilə mərsiyə oxumaq olar. Vacib ehtiyata əsasən, mərsiyə mərəkə məzmunu da daşımamalıdır. [2]

**Məsələ 775.** Dəfndən öncə və sonra dünyasını dəyişənin yaxınlarına başsağlığı, təsəlli vermək, insanın onların dərdinə şərik olduğunu izhar etməsi və onları səbirli olmağa çağırması müstəhəbdir. Bu addımın dəfndən sonra atılmasına daha çox təkid edilmişdir. Lakin əgər bir müddət keçdikdən sonra başsağlığı ilə onların müsibəti yenidən yadlarına düşəcəksə, bu addımı atmamaq daha yaxşıdır.

**Məsələ 776.** İnsanın yaxın qohumlarını, xüsusən, övladını itirdikdə səbirli davranması, hər dəfə dünyasını dəyişən şəxsi yadına saldıqda: "İnna lillahi və inna ileyhi raciun" – deməsi və onun üçün Quran oxuması müstəhəbdir.

**Məsələ 777.** Vacib ehtiyata əsasən, insanın kiminsə matəmində üzünü və bədənini cırmaqlaması, saçlarını yolması caiz deyil. Lakin başına döyməsi və üzünü silləməsi caizdir.

---

[1] Məsumlar (ə) üçün əzadarlıqla əlaqədar hökm yas tutmaq və dini məclislərlə bağlı hökmlər mövzusunda açıqlanacaqdır.

[2] Məsələn, "Vay, mən öldüm, məhv oldum!", "Vay, kaş mən ölüm, məhv olum!", "Allah, mənə ölüm ver!", "Allah məni öldürsün!" kimi özünə qarğış və ölüm arzulamaq kimi ifadələr işlədilməməlidir.

**Məsələ 778.** Ata və qardaş istisna olmaqla digər yaxınları itirdikdə paltarın yaxasını cırmaq, vacib ehtiyata əsasən, caiz deyil. Müstəhəb ehtiyata əsasən isə onların da müsibətində insan yaxasını cırmamalıdır.

**Məsələ 779.** Qadın bir ölüsünün matəmində üzünü cırmaqlayaraq qanadarsa, yaxud saçını yolarsa, həmçinin, əgər kişi öz həyat yoldaşı, yaxud övladının ölümünə görə yaxasını və ya paltarını paralayarsa, müstəhəb ehtiyata əsasən, bir kölə azad etməli, yaxud on yoxsula yemək verməli və ya onları geyimlə təmin etməlidir.

**Məsələ 780.** Yas mərasiminin, Fatihə məclisinin sadə təşkil olunması müstəhəbdir. Habelə, israf və şəriətə zidd olan hərəkətlərdən çəkinmək lazımdır.

**Məsələ 781.** Mərhumun ailəsinin evinə üç gün müddətində yemək göndərmək müstəhəb, onların yanında və mənzilində yemək yemək isə məkruhdur.

**Məsələ 782.** İnsanın öz əmlakının üçdə birindən yas mərasimində ehsan verilməsi üçün vəsait ayrılması ilə əlaqədar vəsiyyət etməsi müstəhəbdir və dünyasını dəyişən şəxs belə bir vəsiyyət etdiyi təqdirdə ona əməl etmək lazımdır.

## Ölülərin ziyarət edilməsi

**Məsələ 783.** Mömin kişi və qadınların qəbirlərini ziyarət etmək müstəhəbdir və hədislərdə qəbirdə uyuyanların ziyarət edilməsi ilə bağlı bir sıra adətlər tövsiyə edilmişdir. O cümlədən, insanın üzünü qibləyə tutaraq əlini qəbirin üstünə qoyması və yeddi dəfə Qədr surəsini oxuması, on bir dəfə İxlas surəsini, habeləYasin və Mülk surələrini oxuması və s. tövsiyələr daha müfəssəl kitablarda öz əksini tapmışdır.

## Qəbirin açılması

**Məsələ 784.** Hərçənd uşaq, yaxud dəli olsa belə, müsəlmanın qəbirinin açılması haramdır. Lakin əgər bədəni tamamilə çürümüş, ət və sümükləri torpağa qarışmış olarsa, qəbiri açıla bilər. Əgər qəbirin açılması ölüyə qarşı hörmətsizliyə səbəb olarsa, yaxud başqa bir şəxsin əmlakını onun razılığı olmadan təsərrüf etməklə nəticələnərsə və ya bu hərəkət başqa bir haram iş məzmunu kəsb edərsə, bu halda caiz deyil.

**Məsələ 785.** İmamzadələrin, şəhidlərin, alimlərin qəbirlərinin dağıdılması və eləcə də qəbirin dağıdılması sahibinə qarşı hörmətsizlik sayılan digər istənilən bir halda bu addımın atılması, hətta onların ölümündən uzun illər keçdikdən, cəsədləri çürüdükdən sonra belə, caiz deyil.

**Məsələ 786.** Aşağıdakı hallarda qəbirin açılması haram deyil:

1) Meyit qəsb edilmiş bir torpaqda dəfn edilərsə və torpaq sahibi onun qəbirinin orada qalmasına razılıq verməzsə, qəbirin açılması və cəsədin çıxarılmasının onun parçalanması kimi daha önəmli bir fəsadla nəticələnməməsi şərti ilə, qəbir açıla bilər, əks təqdirdə isə açılması caiz deyil. Ölüyə qarşı hörmətsizliklə nəticələnəcəyi və həmin torpağı onun özünün (sağlığında) qəsb etmədiyi təqdirdə qəbirin açılmasının caizliyi şübhə doğurur və belə hallarda, vacib ehtiyata əsasən, qəsb edən şəxs mülkiyyət sahibini sözügedən ölünün (qəbrinin) onun torpağında qalmasına, hərçənd müqabilində daha artıq pul və mal vermək surəti ilə olsa da, razı salmalıdır. Qəbirin açılması ölüyə qarşı hörmətsizlik hesab edilməzsə və daha önəmli bir fəsadla da nəticələnməzsə, lakin adətən dözülməz sayılan böyük çətinliklər törədərsə, bu halda qəbirin açılması yalnız dəfn yerini qəsb edən şəxsə vacibdir.

2) Kəfən, yaxud meyitlə birgə dəfn edilən başqa bir əşya qəsb edilmiş olarsa və sahibi onun qəbirdə qalmasına razı olmazsa, həmçinin, əgər ölünün öz əmlakından varislərinə çatmalı olan bir şey onunla birgə torpağa basdırılarsa və varisləri həmin şeyin qəbirdə qalmasına razı olmazsa. Lakin əgər ölü hər hansı bir dua, Quran nüsxəsi, yaxud üzüyün onunla birgə dəfn edilməsini vəsiyyət edərsə və vəsiyyəti doğru olarsa, bu əşyaları çıxarmaq üçün qəbiri açmaq olmaz. Qeyd etmək lazımdır ki, qəbirin açılmasının caiz olduğu öncəki halda (bu məsələnin 1-ci bəndində) qeyd edilən istisna bu hala (2-ci bənd) da şamildir.

3) Qəbirin açılması hörmətsizliyə səbəb olmazsa və ölü qüsl, kəfən, yaxud hənutsuz dəfn edilmiş olarsa və ya qüslünün batil olduğu, yaxud şəriətin göstərişinə uyğun olmayan qaydada kəfənləndiyi, ya da qəbirdə üzü qibləyə qoyulmadığı başa düşülərsə.

4) Qəbirin açılmasından daha mühüm olan bir həqiqətin sabit edilməsiüçün cəsədi görmək istədikdə.

5) Meyit ona qarşı hörmətsizlik sayılan bir yerdə, məsələn, kafirlərin qəbiristanlığında, yaxud zibillikdə basdırıldığı təqdirdə.

6) Qəbirin açılmasından daha əhəmiyyətli olan bir şəriət məsələsi ilə əlaqədar olaraq, məsələn, dəfn edilmiş ananın bətnindəki sağ qalmış uşağın həyatını xilas etmək üçün.

7) Bir yırtıcının cəsədi parçalaması, yaxud selin onu yuyub aparması və ya düşmənin onu qəbirdən çıxarması təhlükəsi mövcud olduqda.

8) Vəfat edən şəxs nəşinin hər hansı bir fəsadla[1]nəticələnməmək şərti ilə müqəddəs ziyarətgahlarda dəfn edilməsini vəsiyyət edərsə, lakin

[1] Cəsədin köçürülməsinin onun pozulmasına səbəb olması, yaxud meyitin təhlükəli bir keçici xəstəliyə sahib olması və köçürülmə zamanı həmin xəstəliyin insanlar arasında yayılması təhlükəsinin olması kimi.

qəsdən, yaxud məlumatsızlıq və ya unutqanlıq səbəbi ilə başqa bir yerdə dəfn edilərsə, ona qarşı hörmətsizliklə və başqa bir fəsadla nəticələnməyəcəyi təqdirdə qəbrini açmaq və nəşini dəfn etmək üçün müqəddəs ziyarətgaha aparmaq olar və hətta bu halda qəbirin açılması və nəşin köçürülməsi vacibdir. Lakin əgər dəfn edildikdən sonra nəşinin müqəddəs ziyarətgahlara aparılması mümkün olduğu təqdirdə qəbirinin açılmasını və nəşinin köçürülməsini vəsiyyət edərsə, bu vəsiyətin doğruluğu şübhəlidir.

# TƏYƏMMÜM

**Təyəmmüm edilməli olan hallar**

Yeddi halda dəstəmaz və qüsl əvəzinə təyəmmüm edilməlidir. Qarşıdakı məsələlərdə bu hallar izah edilmişdir:

*Birinci hal: Suyun olmaması*

**Məsələ 787.** İnsan məskun bir ərazidə (yaşayış məntəqəsində) olarsa, dəstəmaz və qüslə su tapmaq üçün onu tapacağından ümidini üzənədək axtarmalıdır. Həmçinin, əgər bədəvilər kimi çöllük ərazidə məskunlaşarsa, dəstəmaz və qüslə su tapmaq üçün onu tapacağına ümidini itirənədək axtarmalıdır.

**Məsələ 788.** İnsan səfər çərçivəsində çöllük ərazidən keçərsə, yol boyu və dayandığı yerin yaxınlığındakı ərazidə su axtarmalıdır və lazım ehtiyata əsasən, həmin ərazi dərə-təpəli olarsa, yaxud ağacların sıxlığı səbəbi ilə yolun qət edilməsi çətin olarsa, ətrafındakı ərazidə qədim dövrlərdə kamanla atılan bir ox uçuşuna bərabər məsafəni[1] su axtarmaq üçün gəzməli, düzənlik ərazidə isə ox uçuşunun iki mislinə bərabər məsafədə su axtarmalıdır.

**Məsələ 789.** Əgər ərazinin bəzi tərəfləri düzənlik, digər tərəfləri isə dərə-təpəli olarsa, düzənlik tərəflərdə oxun qət etdiyi məsafənin iki mislinə bərabər məsafədə, dərə-təpəli tərəflərdə isə oxun qət etdiyi məsafədə su axtarmaq lazımdır. Suyun olmadığına dair yəqinlik hasil edilən tərəflərdə su axtarmağa ehtiyac yoxdur.

**Məsələ 790.** Namaz qılmaq üçün az vaxtı qalmayan və su tapmaq üçün vaxtı olan şəxs əgər su axtarmalı olduğu məsafədən uzaq bir yerdə suyun olduğuna dair yəqinlik, yaxud arxayınlıq hasil edərsə, su əldə etmək üçün həmin yerə getməlidir. Lakin əgər həmin yer sözügedən şəxsin olduğu yerdən onun sudan məhrum hesab ediləcəyi qədər uzaq olarsa, bu hal istisna təşkil edir. Həmçinin, həmin yerdə suyun olduğunu güman etdiyi təqdirdə də oraya getməsi zəruri deyil.

**Məsələ 791.** İnsanın şəxsən su axtarışına çıxması zəruri sayılmır, o, su axtaran və sözünə etimad etdiyi bir şəxsin verdiyi məlumatla da kifayətlənə bilər.

---

[1] Bir ox uçuşuna bərabər məsafənin müəyyən edilməsi xüsusunda fikir ayrılığı mövcuddur və söylənilən ən böyük rəqəm 480 qulacdır ki, bu da təqribən 220 m-ə bərabərdir.

**Məsələ 792.** İnsan səfər azuqəsinin içərisində, yaxud yolda dayandığı ilk yerdə və ya digər yolçularda suyun olduğunu ehtimal edərsə, suyun olmadığına arxayın olana, yaxud su tapmaqdan ümidini üzənədək axtarmalıdır. Lakin əgər əvvəldən hər hansı bir yerdə su olmamışdırsa və insan sonradan həmin yerdə su olduğunu ehtimal edərsə, bu halda axtarış aparmasına gərək yoxdur.

**Məsələ 793.** Əgər insan namaz vaxtından öncə su axtarışına çıxar, lakin tapmazsa və namaz vaxtınadək həmin yerdə qalarsa, su tapacağını ehtimal etdiyi təqdirdə, müstəhəb ehtiyata əsasən, yenidən su axtarışına çıxmalıdır.

**Məsələ 794.** Əgər namazın vaxtı başladıqdan sonra su axtarışına çıxar, ancaq tapmazsa və növbəti namazın vaxtınadək orda qalarsa, su tapacağını ehtimal etdiyi təqdirdə, müstəhəb ehtiyata əsasən, yenidən su axtarışına çıxmalıdır.

**Məsələ 795.** Əgər namazın vaxtının başa çatmasına az qalarsa, yaxud oğru və yırtıcı heyvan təhlükəsi olarsa və ya suyun axtarışı onun kimi insanların bir qayda olaraqtab gətirə bilmədiyi qədər çətin olarsa, su axtarmaq zəruri deyil.

**Məsələ 796.** Əgər namazın vaxtı daralanadək su axtarışına çıxmazsa, bu halda əgər axtarsaydı, su tapacaqdısa, günah etmiş sayılır, lakin təyəmmümlə qıldığı namazı doğrudur.

**Məsələ 797.** Su tapmayacağına əmin olan şəxs su axtarışına çıxmayaraq təyəmmümlə namaz qılarsa və namazdan sonra əgər axtarmış olduğu təqdirdə suyun tapılacağını başa düşərsə, lazım ehtiyata əsasən, dəstəmaz alaraq namazı enidən qılmalıdır.

**Məsələ 798.** Əgər insan axtarış nəticəsində su tapmazsa, onun tapılacağından ümidini üzərək təyəmmümlə namaz qılarsa və namazdan sonra əslində axtardığı yerdə suyun mövcud olduğunu başa düşərsə, namazı doğrudur.

**Məsələ 799.** Namaz üçün az vaxtının qaldığına əmin olan şəxs su axtarmadan təyəmmümlə namaz qılarsa və namazdan sonra, namaz vaxtı başa çatmamış axtarış üçün vaxtı olduğunu başa düşərsə, vacib ehtiyata əsasən, namazını yenidən qılmalıdır.

**Məsələ 800.** Əgər insan dəstəmazlı olarsa və dəstəmazını pozacağı təqdirdə su tapa bilməyəcəyini, yaxud dəstəmaz ala bilməyəcəyini bilərsə, dəstəmazını saxlaya biləcəyi halda, vacib ehtiyata əsasən, namaz vaxtının başlamasından öncə və ya sonra olmasından asılı olmayaraq,dəstəmazını pozmamalıdır. Lakin hərçənd qüsl etmək imkanı olmayacağını bilsə də, həyat yoldaşı ilə cinsi əlaqədə ola bilər və bu halda onun vəzifəsi təyəmmüm etməkdir. Bu hökm, vacib ehtiyata əsasən, yalnız cinsi

əlaqəyə şamil olunur, cinsi həzz alma məqsədi daşıyan digər hərəkətlərə şamil olunmur. Ancaq təyəmmüm etmək imkanının da olmayacağını bilərsə, bu iş (cinsi əlaqə) caiz deyil.

**Məsələ 801.** Yalnız dəstəmaz, yaxud qüslə yetəcək qədər suyu olan və onu axıdacağı təqdirdə su tapmayacağını bilən şəxsin namazın vaxtı başladıqdan sonra həmin suyu yerə tökməsi haramdır və vacib ehtiyata əsasən, namaz vaxtından öncə də tökməməlidir.

**Məsələ 802.** Su tapmayacağını bilən şəxs dəstəmazını pozarsa, yaxud əlindəki suyu yerə tökərsə, hərçənd günah etsə də, təyəmmümlə qıldığı namazı doğrudur, lakin müstəhəb ehtiyata əsasən, həmin namazın qəzasını da qılmalıdır.

***İkinci hal: Suyu əldə edilə bilməməsi***

**Məsələ 803.** İnsanın qocalıq, zəiflik, oğru, yırtıcı heyvan qorxusu və bu qəbildən olan təhlükələr və ya quyudan su çıxarmaq üçün lazımi vasitələrin olmaması kimi səbəblərlə əlaqədar olaraq suya əli çatmasa, təyəmmüm etməlidir.

**Məsələ 804.** Əgər quyudan su çıxarmaq üçün müəyyən vasitələr lazımdırsa və insan onları almağa, yaxud kirayələməyə məcburdursa, hərçənd bu vəziyyətdə qiyməti normal bazar qiymətindən bir neçə dəfə baha olsa belə, insan həmin ləvazimatı əldə etməlidir. Suyun qiymətindən bir neçə dəfə baha satılması da bu qəbildəndir. Lakin əgər onların əldə edilməsi insanın yaşayışına mənfi təsir göstərəcək qədər pul tələb edərsə və onun həddən ziyadə böyük bir çətinliklə üzləşməsinə səbəb olacaqsa, sözügedən şeyləri əldə etməsi vacib deyil.

**Məsələ 805.** Su əldə edə bilməyən şəxs su əldə etmək üçün borc almağa məcbur olarsa, borc almalıdır. Lakin borcunu qaytara bilməyəcəyini bilən, yaxud güman edən şəxsin borc alması vacib deyil.

**Məsələ 806.** Su əldə edə bilməyən şəxs üçün quyu qazmaq həddən ziyadə çətin deyilsə, su əldə etmək üçün quyu qazmalıdır.

**Məsələ 807.** Su əldə edə bilməyən şəxsə başqa bir şəxs bir qədər su verərsə, bu hədiyyənin dözülməz dərəcədə minnətli olduğu, yaxud insanın üzünün suyunun tökülməsi ilə nəticələnəcəyi hallar istisna olmaqla, onu qəbul etməlidir.

***Üçüncü hal: Sudan istifadənin zərərli olması***

**Məsələ 808.** Əgər sudan istifadə insanın ölümü, yaxud bədənində hər hansı bir xəstəlik və ya eybin əmələ gəlməsi, yaxud xəstəliyinin uzun müddət davam etməsi, güclənməsi və ya müalicəsinin çətinləşməsi ilə nəticələnəcəksə, təyəmmüm etməlidir. Lakin əgər suyun ziyanının qarşısını hər hansı bir şəkildə, məsələn, onu qızdırmaqla ala bilərsə, bu tədbiri görməli və dəstəmaz almalı, qüsl lazım olan hallarda isə qüsl etməlidir.

**Məsələ 809.** İnsanın suyun onun üçün zərərli olduğuna əmin olması zəruri deyil, hətta zərərli olduğunu ehtimal etdikdə də ehtimalı insanların nəzərində məntiqlidirsə, təyəmmüm etməlidir.

**Məsələ 810.** İnsan suyun zərərli olduğuna əmin olaraq, yaxud zərərli olduğunu ehtimal edərək təyəmmüm edərsə və namazdan öncə suyun onun üçün zərərli olmadığını başa düşərsə, təyəmmümü batil olur, namazdan sonra başa düşdüyü təqdirdə isə namazı yenədən dəstəmaz, yaxud qüsllə qılmalıdır. Lakin əgər zərərlə bağlı əminlik, yaxud ehtimalın mövcud olduğu halda dəstəmaz almaq, yaxud qüsl etmək dözülməsi həddən ziyadə çətin olan ruhi-psixoloji narahatçılığa səbəb olarsa, bu vəziyyət təyəmmümün qarşıda hökmü açıqlanacaq dördüncü halına daxildir.

**Məsələ 811.** Suyun onun üçün zərərli olmadığına əmin olan bir şəxs qüsl edərsə, yaxud dəstəmaz alarsa və sonra suyun onun üçün zərərli olduğunu başa düşərsə, dəstəmaz və ya qüslü batildir və həmin dəstəmaz, yaxud qüsllə qıldığı vacib namazı vaxt çərçivəsində yenidən qılmalı, vaxtı başa çatdıqdan sonra isə qəzasını qılmalıdır.

***Dördüncü hal: Su əldə etməyin, yaxud sudan istifadənin həddən ziyadə çətin olması***

**Məsələ 812.** Əgər suyun əldə edilməsi, yaxud istifadəsi insan üçün adətən dözülməz olan, həddən ziyadə çətinlik törədəcəksə, təyəmmüm edə bilər. Lakin əgər dözərək dəstəmaz alar, yaxud qüsl edərsə, dəstəmaz və qüslü doğrudur.

***Beşinci hal: Susuzluğu aradan qaldırmaq üçün suya ehtiyacın olması***

**Məsələ 813.** Əgər insanın susuzluğu aradan qaldırmaq üçün suya ehtiyacı olarsa, təyəmmüm etməlidir və təyəmmümün bu baxımdan caizliyi iki vəziyyətlə əlaqədar ola bilər:

1) Suyu dəstəmaz, yaxud qüslə sərf edəcəyi təqdirdə özünün həmin vaxt, yaxud daha sonra ölümünə və ya xəstələnməsinə səbəb ola biləcək, yaxud dözülməsi həddən ziyadə çətin olacaq susuzluqla üzləşəcəyindən qorxduqda.

2) Özündən başqa tabeliyində, nəzarətində, yaxud himayəsində olan bir şəxsin ölümünə və ya xəstələnməsinə səbəb ola biləcək, yaxud dözülməsi onun üçün həddən ziyadə çətin olacaq susuzluqla üzləşəcəyindən qorxduqda. Hərçənd, o başqası həyatı toxunulmaz hesab edilən insanlardan olmasa, yaxud bir heyvan olsa belə, onun həyat şəraitinin insan üçün önəm kəsb etməsi şərti ilə bu hökm tətbiq edilir. İstər bu önəm həddən ziyadə sevgi və bağlılıqdan, istər onun tələf olmasının insan üçün maddi zərərlə nəticələnəcəyindən, istərsə dost və qonşu xüsusunda olduğu kimi onun vəziyyəti ilə maraqlanmağın ürfən gərəkli

sayılmasından irəli gəlsin, belə ki, onlarla maraqlanmamaq cəmiyyətdə dözülməz mənəvi-psixoloji narahatçılıqlara və insanın rüsvayçılığına səbəb kimi qəbul edilsin.

Lakin tabeliyində, nəzarətində, yaxud himayəsində olmayan və həyat şəraitinin onun üçün əhəmiyyət kəsb etmədiyi insanların susuzluğundan qorxarsa, yenə də bu vəziyyət təyəmmümü caiz qıla bilər. Lakin burada təyəmmümün caizliyi bu baxımdan deyil, təyəmmümün altıncı halına daxil olan müsəlmanın həyatının qorunmasının vacibliyi baxımındandır. Yaxud onun ölümünün və taqətsizliyinin mütləq insanın özünün də böyük bir çətinliyə düşməsi ilə nəticələnməsi baxımındandır ki, bu da öz növbəsində təyəmmümün dördüncü halına daxil olan vəziyyətlərdəndir. Təyəmmümün hallarından heç birinə daxil olmadığı təqdirdə isə suyu dəstəmaz, yaxud qüsl üçün istifadə etməlidir.

**Məsələ 814.** Əgər insanın dəstəmaz və qüsl üçün ixtiyarında olan pak su ilə yanaşı içməsi üçün yetəcək qədər nəcasətli suyu da olarsa, pak suyu içmək üçün saxlamalı və təyəmmümlə namaz qılmalıdır. Lakin əgər himayəsində, yaxud nəzarətində olan şəxslərin sudan istifadə etməsini istəyərsə, bu halda hərçənd onlar susuzluqlarını aradan qaldırmaq üçün nəcis sudan içməyə məcbur olsalar da, pak su ilə dəstəmaz ala, yaxud qüsl edə bilər. Hətta əgər onlar suyun nəcisliyindən xəbərsiz olarlarsa, yaxud nəcasətlənmiş suyu içməkdən çəkinməzlərsə, bu halda pak suyu mütləq dəstəmaz və qüsl üçün istifadə etməlidir. Həmçinin, əgər heyvanının, yaxud həddi-büluğa çatmayan uşağın içməsi üçün su saxlamaq istəyərsə, nəcasətli suyu onlara verməli, pak su ilə isə dəstəmaz almalı, yaxud qüsl etməlidir.

***Altıncı hal: Dəstəmaz, yaxud qüslün daha önəmli və ya eyni dərəcədə əhəmiyyətli bir vəzifənin icrasına mane olması***

**Məsələ 815.** Bədəni, yaxud paltarı nəcasətlənən və dəstəmaz, yaxud qüsl üçün istifadə edəcəyi təqdirdə bədənini, yaxud paltarını yumağa yetməyəcək qədər suyu olan şəxs bu halda bədənini, yaxud paltarını yumalı və təyəmmüm edərək namazını qılmalıdır. Lakin əgər təyəmmüm üçün istifadə edə biləcəyi bir şey olmasa, suyu dəstəmaz, yaxud qüsl üçün sərf etməli və nəcasətli bədən, yaxud paltarla namaz qılmalıdır.

**Məsələ 816.** Əgər insanın istifadəsi haram olan su, yaxud qabdan başqa su, yaxud qabı olmazsa, məsələn, su, yaxud qabı qəsb edilmiş olarsa və ondan başqa su və ya qab olmazsa, dəstəmaz və qüsl yerinə təyəmmüm etməlidir.

***Yeddinci hal: Vaxt məhdudluğu***

**Məsələ 817.** Vaxt məhdudluğu ilə əlaqədar olaraq əgər insan dəstəmaz alarsa, yaxud qüsl edərsə, namazını bütövlüklə, yaxud onun bir hissəsini vaxtından sonra qılmalı olacaqsa, təyəmmüm etməlidir.

**Məsələ 818.** İnsan qəsdən namazını dəstəmaz, yaxud qüsl üçün vaxtı qalmayanadək təxirə salarsa, günah edir, lakin onun təyəmmümlə qıldığı namazı doğrudur, hərçənd müstəhəb ehtiyata əsasən, həmin namazın qəzasını da qılmalıdır.

**Məsələ 819.** Dəstəmaz alacağı, yaxud qüsl edəcəyi təqdirdə namaz üçün vaxtının qalıb-qalmayacağına şəkk edən şəxs təyəmmüm etməlidir.

**Məsələ 820.** Vaxt məhdudluğu ilə əlaqədar olaraq təyəmmüm edən və namazdan sonra dəstəmaz almaq imkanı olduğu halda istifadə edə biləcəyi suyu itirənədək, yaxud başqa bir üzürlü vəziyyətlə qarşılaşanadək dəstəmaz almayan şəxs vəzifəsi təyəmmüm olduğu təqdirdə sonrakı namazları üçün hətta hər hansı bir hədəs halı baş verərək təyəmmümünü pozmasa belə, yenidən təyəmmüm etməlidir.

**Məsələ 821.** Suyu olan şəxs vaxt məhdudluğu ilə əlaqədar olaraq təyəmmümlə namaz qılarsa və namazda ikən istifadə edə biləcəyi suyu itirərsə, vəzifəsi təyəmmüm olduğu təqdirdə sonrakı namazlar üçün yenidən təyəmmüm etməsinə gərək yoxdur, hərçənd daha yaxşı olar ki, yenidən təyəmmüm etsin.

**Məsələ 822.** İnsanın dəstəmaz alaraq, yaxud qüsl edərək namazı iqamə və qunut kimi müstəhəb işləri (habelə müstəhəb dua və zikrləri) ixtisara salmaqla qıla biləcək qədər vaxtı olarsa, qüsl etməli, yaxud dəstəmaz almalı və namazı müstəhəb işləri ixtisara salaraq qılmalıdır. Hətta surəni[1]oxumaq üçün kifayət edəcək qədər vaxtı qalmayacağı təqdirdə belə qüsl etməli, yaxud dəstəmaz almalı və namazı surəsiz qılmalıdır.

## Təyəmmüm üçün istifadə edilməsi doğru olan şeylər

**Məsələ 823.** Təyəmmüm üçün istifadə edilməsi doğru sayılan şeylər üç qisimə bölünür:

1) torpaq kimi yer[2] adlandırılan, yaxud xalçaların və bu qəbildən olan şeylərin üzərindəki narın torpaq sayılacaq şəkildə olan toz kimi yerə qonmuş şeylər;

2) gil;

3) tozlu olan, lakin tozu görünməyən, yaxud görünsə də narın torpaq sayılacaq qədər olmayan əşya.

Qeyd etmək lazımdır ki, birinci qisimə daxil olan şeylərlə təyəmmüm etmək mümkün olduqca ikinci qisim şeylərlə təyəmmüm etmək olmaz, həmçinin ikinci qisimə daxil olan şeylərlə təyəmmüm etmək mümkün olduqca üçüncü qisim şeylərlə təyəmmüm etmək olmaz. Bu qisimlərin hər biri qarşıdakı məsələlərdə izah ediləcəkdir.

---

[1] Namazların birinci və ikinci rükətlərində Fatihədən sonra oxunan ikinci surə nəzərdə tutulur. *Tərc.*

[2] Təbii yer (torpaq) örtüyü, yer qabığının üst qatı nəzərdə tutulur. *Tərc.*

**Məsələ 824.** Torpaq, çınqıl, kəsək və daşla təyəmmüm etmək onlarda növbəti fəsildə sadalanacaq təyəmmümdə istifadə edilən şey üçün tələb olunan keyfiyyətlərin mövcud olması şərti ilə doğrudur. Lakin müstəhəb ehtiyata əsasən, torpaqla mümkün olduğu halda başqa bir şeylə təyəmmüm edilməməli, torpaqla mümkün olmadığı halda kəsəklə, onunla da mümkün olmadığı halda çınqılla, çınqıl və kəsəklə də mümkün olmadığı halda isə daşla təyəmmüm edilməlidir.

**Məsələ 825.** Növbəti fəsildə sadalanacaq şərtlərə riayət etməklə gips və əhəng daşı ilə təyəmmüm etmək doğrudur.

**Məsələ 826.** Bişmiş gəc (alebastr), əhəng, kərpic və saxsı ilə, həmçinin xalça, paltar və bu qəbildən olan əşyaların üzərində toplanmış, ürfən yumşaq torpaq hesab ediləcək həcmdə olan tozla, habelə əqiq və firuzə kimi qiymətli daşlarla təyəmmüm etmək onlarda növbəti fəsildə sadalanacaq keyfiyyətlərin mövcud olduğu təqdirdə doğrudur, hərçənd müstəhəb ehtiyata əsasən, zərurət olmadan onlarla təyəmmüm edilməməlidir.

**Məsələ 827.** Gildən hörülmüş divarla təyəmmüm etmək divarda növbəti fəsildə sadalanacaq keyfiyyətlərin mövcud olması şərti ilə doğrudur. Həmçinin, azacıq nəmliyi olan yer, yaxud torpaqla təyəmmüm etmək də doğrudur, hərçənd müstəhəb ehtiyata əsasən, insan quru yer, yaxud torpaq olduğu təqdirdə rütubətli yer, yaxud torpaqla təyəmmüm etməməlidir.

**Məsələ 828.** Yer adlandırıla bilməyəcək şeylərlə təyəmmüm etmək batildir. Beləliklə, otlar, güllər, metallar, şüşə, plastik, parça və bu qəbildən olan materiallarla təyəmmüm etmək doğru deyil.

**Məsələ 829.** Təyəmmüm üçün istifadə edilə biləcək birinci qisim şeylər, yəni torpaq, qum, çınqıl, kəsək, daş və narın torpaq hesab edilən toz tapılmazsa, insan ürfən gil adlandırılan bir şeylə onda növbəti fəsildə sadalanacaq keyfiyyətlərin mövcud olması şərti ilə təyəmmüm edə bilər. Bu təyəmmümdə insanın əlinə yapışan gili məshdən öncə tamamilə, yəni əlində ondan əsər-əlamət qalmayacaq şəkildə təmizləməsi caiz deyil, əksinə vacib ehtiyata əsasən, təmizlənmədiyi təqdirdə təyəmmüm yerlərinə əllə məsh etmək adlandırılmayacaq qədəri istisna olmaqla, əlinə yapışan gilin bir qədərini saxlamalıdır.

**Məsələ 830.** Əgər gil də tapılmazsa, insan xalça, geyim və bu qəbildən olan əşyaların içinə hopan, yaxud üzərinə qonan, lakin ürfün nəzərincə torpaq hesab ediləcək həcmdə olmayan tozla təyəmmüm etməlidir.

**Məsələ 831.** Əgər insan xalça və bu qəbildən olan əşyaları silkələməklə toz toplaya bilərsə, bu halda gil və ya tozlu əşyanın üzərinə əl basmaqla təyəmmüm batil sayılır. Həmçinin, əgər gili qurudaraq ondan torpaq hazırlaya bilərsə, bu halda da gillə təyəmmüm batil sayılır.

**Məsələ 832.** Əgər qeyd edilən üç qisimə aid olan şeylərdən heç biri tapılmazsa, bu halda insan "faqid ət-təhureyn"[1]adlandırılır, həmin vaxt namazın vacibliyi onun üzərindən götürülür, lakin sonradan qəzasını qılması vacibdir. Hərçənd müstəhəb ehtiyat budur ki, sözügedən insan namazını öz vaxtında təyəmmümsüz qılsın. Lakin yenə də sonradan onun qəzasını qılması vacibdir.

**Məsələ 833.** Sudan istifadə etmək imkanı olmayan şəxs əgər qar, yaxud buzdan istifadə etmək imkanı olarsa, mümkün olduğu halda onu əridərək suya çevirməli və həmin su ilə dəstəmaz almalı, yaxud qüsl etməli, mümkün olmadığı və təyəmmümdə istifadə ediməsi doğru sayılan hər hansı bir şey də tapılmadığı təqdirdə isə vaxtı başa çatdıqdan sonra namazının qəzasını qılmalıdır. Lakin müstəhəb ehtiyatın tələbi budur ki, qar, yaxud buzla dəstəmaz və ya qüsl üzvlərini islatsın və dəstəmazda əlinin rütubəti ilə baş və ayaqlarına məsh etsin. Bu da mümkün olmadığı təqdirdə isə, müstəhəb ehtiyatın tələbi budur ki, buz, yaxud qara əl basaraq təyəmmüm etsin və namazını vaxtında qılsın. Lakin hər iki halda həmin namazın qəzasının qılınması vacibdir.

**Məsələ 834.** Əgər insanın təyəmmüm üçün istifadə edə biləcəyi bir şeyi yoxdursa, mümkün olduğu halda satın alma və bu qəbildən olan vasitələrlə əldə etməlidir.

## Təyəmmümdə istifadə edilən şeylər üçün tələb olunan şərtlər

Üzərinə əl basaraq təyəmmüm edilən şey qarşıdakı məsələlərdə izah ediləcək bir neçə tələbə cavab verməlidir:

***Birinci şərt: Lazım ehtiyata əsasən, ələ bulaşacaq qədər tozlu olmalıdır***

**Məsələ 835.** İnsanın əlini basaraq təyəmmüm etdiyi şeyin üzərində, vacib ehtiyata əsasən, ələ bulaşacaq qədər toz olmalıdır və təyəmmüm edən şəxs əllərini ona toxundurduqdan sonra, vacib ehtiyata əsasən, bütün toz-torpağı töküləcək qədər möhkəm silkələməməlidir. Daş kimi əllə toxunduqda əldə heç nə qalmayan istənilən şeylə təyəmmüm, vacib ehtiyata əsasən, kafi sayılmır. Əlinin altında yalnız belə bir daş, yaxud başqa bir şey olan və namaz vaxtı başa çatanadək təyəmmümdə istifadə edilməsi doğru sayılan başqa bir şey tapmayan şəxs, vacib ehtiyata əsasən, həmin şeylə təyəmmüm edərək namazını qılmalı, namazın vaxtı

[1] "İki paklayıcıdan məhrum olan" deməkdir. İki paklayıcı deyərkən su və torpaq nəzərdə tutulur. Nə dəstəmaz almaq və ya qüsl etmək üçün su, nə də təyəmmüm üçün torpaq və ya təyəmmümdə istifadə edilməsi doğru sayılan digər şeylərdən hər hansı birini tapa bilməyən insan belə adlandırılır. *Tərc.*

başa çatdıqdan və zərurət halı aradan qalxdıqdan sonra isə həmin namazın qəzasını da qılmalıdır. [1]

**Məsələ 836.** Əgər təyəmmüm zamanı alına məsh etdikdən sonra əldəki toz silinərsə və əllərin üstünə məsh etmək üçün ovuclarda tozdan əsər-əlamət qalmazsa, yaxud ovuclarda tozun qalıb-qalmadığına şəkk edilərsə, bu iki halda tozun əldə qalması şərtinə riayət etmək üçün, vacib ehtiyata əsasən, ovucları yenidən torpağa vurmaq və sonra onlarla əllərin üstünə təyəmmüm niyyəti ilə məsh etmək lazımdır.

***İkinci şərt: Pak olmalıdır***

**Məsələ 837.** Təyəmmümdə istifadə edilən şey pak olmalıdır və bu paklıq şərti növbə tozlu əşyalarla təyəmmümə çatdıqda vacib ehtiyata əsaslanır. Beləliklə, əgər insan namaz vaxtının sonunadək təyəmmüm üçün istifadə edə biləcəyi pak bir şey tapa bilməzsə, namaz ona vacib deyil, lakin qəzasını qılmalıdır və daha yaxşı olar ki, öz vaxtında da namazını təyəmmümsüz qılsın. Lakin növbə toza bulaşmış xalça kimi tozlu əşyalarla təyəmmümə çatdıqda əgər həmin əşya nəcasətlənmiş olarsa, bu halda istisna olaraq vacib ehtiyata əsasən, onunla təyəmmüm edərək namazını qılmalı və daha sonra həmin namazın qəzasını da qılmalıdır.

***Üçüncü şərt: Vacib ehtiyata əsasən, ürfən pak və təmiz olmalıdır***

**Məsələ 838.** Təyəmmüm torpağı, yaxud təyəmmümdə istifadə edilməsi doğru olan başqa bir şey, lazım ehtiyata əsasən, insanların nəzərində pak və təmiz olmalı, yəni zibil kimi iyrənc şeylərə və şəriətə görə nəcasət hesab edilməyən natəmizliklərə bulaşmış olmamalıdır.

***Dördüncü şərt: Qəsb edilmiş olmamalıdır***

**Məsələ 839.** Təyəmmüm torpağı, yaxud təyəmmümdə istifadə edilməsi doğru olan başqa bir şey qəsb edilmiş olmamalıdır. Beləliklə, əgər insan torpağın qəsb edildiyinə dair məlumatı olduğu halda onunla təyəmmüm edərsə, təyəmmümü batildir.

**Məsələ 840.** Qəsb olunmuş bir məkanda edilən təyəmmüm batil deyil. Beləliklə, əgər insan öz mülkiyyətində olan torpaq sahəsində əllərini torpağa vuraraq icazəsiz başqasının mülkiyyətində olan torpaq sahəsinə daxil olar və əllərini orada alnına sürtərsə, hərçənd günah etmiş olsa da, təyəmmümü doğrudur.

**Məsələ 841.** Qəsb edilmiş şeylə təyəmmüm unutqanlıq, yaxud diqqətsizlik səbəbi ilə baş verdiyi təqdirdə doğrudur. Lakin əgər insan özü bir

---

[1] Qeyd etmək lazımdır ki, əgər insan yalnız tozsuz daş, yaxud gillə təyəmmüm etmək imkanına sahib olarsa və bu üzürlü halı namaz vaxtı başa çatanadək davam edərsə, vacib ehtiyata əsasən, hər ikisi ilə təyəmmüm etməlidir və bu halda qıldığı namazı doğrudur.

şeyi qəsb edər və sonra onu qəsb etdiyini unudarsa, həmin şeylə etdiyi təyəmmümü, vacib ehtiyata əsasən, doğru deyil.

**Məsələ 842.** Qəsb edilmiş bir yerdə məhbus kimi saxlanılan şəxs əgər həmin yerin həm suyu,həm də torpağı qəsb edilmiş olarsa, təyəmmümlə namaz qılmalıdır. [1] Lakin təyəmmüm zamanı əllərini yerə vurmamalı, onları torpağın üzərinə qoymaqla (toxundurmaqla) kifayətlənməlidir.

***Beşinci şərt: Təyəmmümdə istifadə edilməsi doğru olmayan başqa bir şeylə qarışmamalıdır***

**Məsələ 843.** Torpaq kimi təyəmmüm üçün istifadə edilməsi doğru olan bir şey təyəmmüm üçün istifadə edilməsi doğru olmayan başqa bir şeylə qarışmamalıdır. Həmin şeyin miqdarının ürfən torpağa qarışaraq itmiş hesab ediləcək qədər az olduğu hallar istisna təşkil edir. Beləliklə, torpaq və quma saman, yaxud taxta külü kimi təyəmmüm üçün istifadə edilməsi doğru sayılmayan bir şey qarışarsa, onunla təyəmmüm etmək doğru deyil. Lakin əgər saman, yaxud kül torpaq və qumun tərkibində itərək ona qarışacaq qədər az olarsa, bu halda həmin torpaq və qumla təyəmmüm etmək doğrudur.

## Təyəmmümdə istifadə edilən şeylərlə bağlı digər hökmlər

**Məsələ 844.** Çuxur, küçə və səthi duz qatı ilə örtülməmiş şoranlıq ərazilərin torpağı ilə təyəmmüm etmək məkruh, duz qatı ilə örtülmüş torpaqla isə batildir.

**Məsələ 845.** Əgər insan hər hansı bir şeylə təyəmmüm etməyin doğru olduğuna əmin olaraq onunla təyəmmüm edər, sonra həmin şeylə təyəmmümün batil olduğunu başa düşərsə, bu təyəmmümlə qıldığı namazlarını yenidən qılmalıdır.

## Dəstəmaz, yaxud qüsl əvəzinə edilən təyəmmümün qaydaları

**Məsələ 846.** Dəstəmaz, yaxud qüsl əvəzinə edilən təyəmmümdə aşağıdakı qaydalara riayət etmək vacibdir:

1) Hər iki əlin içini[2]yerə, yaxud təyəmmüm üçün istifadə edilməsi doğru olan bir şeyə vurmaq, yaxud onun üzərinə qoymaq lazımdır və lazım ehtiyata əsasən, hər iki əl eyni zamanda hərəkət etdirilməlidir.

2) Hər iki əlin içini alına bütünlüklə, həmçinin, vacib ehtiyata əsasən, hər iki tərəfdən alının kənarlarına saç tüklərinin bitməyə başladığı yerdən qaşlara və burnun üst hissəsinədək çəkmək lazımdır və müstəhəb ehtiyata əsasən, əllər qaşların üstünə də çəkilməlidir.

---

[1] Həmin suyun maddi dəyəri olmadığı təqdirdə onunla dəstəmaz almaqdan və qüsl etməkdən imtina etmək vacib ehtiyatın tələbidir.

[2] Əlin içi deyərkən əlin barmaqlar və ayadan ibarət hissəsi, yəni ovuc nəzərdə tutulur. *Tərc.*

3) Sol əlin içi ilə sağ əlin üstünə bütünlüklə, biləkdən barmaqların ucunadək məsh etmək lazımdır.

4) Sonra sağ əlin içi ilə sol əlin üstünə bütünlüklə, biləkdən barmaqların ucunadək məsh etmək lazımdır.

Müstəhəb ehtiyata əsasən, insan əllərinin üstünə 3 və 4-cü bəndlərdə qeyd edilən qaydada məsh etməzdən öncə ovuclarını bir dəfə yerə, yaxud təyəmmüm üçün istifadə edilməsi doğru olan hər hansı bir şeyə vurmalı, yaxud onun üzərinə qoymalıdır və bu xüsusda təyəmmümün dəstəmaz, yoxsa qüsl əvəzinə edilməsinin fərqi yoxdur.

**Məsələ 847.** Barmağın ucunun dırnaq ətrafındakı, ürfən əlin üst tərəfi sayılan hissəsinə məsh etmək vacibdir, ürfən dırnaq ətrafının əlin iç tərəfi sayılan hissəsinə isə məsh etməyə gərək yoxdur. Şəkk halında, vacib ehtiyata əsasən, şəkk edilən hissəyə də məsh edilməlidir. Həmçinin, təyəmmümdə məsh edilməsi vacib olan hissəyə (əlin üst tərəfinə) məsh etdiyinə əmin olmaq üçün insan biləklərin bir hissəsinə də məsh etməlidir.

## Təyəmmümün doğru sayılmasının şərtləri

Təyəmmümün doğru olması üçün onun icrası əsnasında riayət edilməsi tələb olunan bir sıra şərtlər vardır. Qarşıdakı məsələlərdə bu şərtlər izah ediləcəkdir:

***Birinci şərt: İnsan təyəmmüm etmək niyyətində olmalı, niyyətində Allaha yaxınlaşmaq məqsədi olmalı və ixlaslı olmalıdır***

**Məsələ 848.** İnsan alnına və əllərinin üstünə məsh edərkən, hətta vacib ehtiyata əsasən, bu hərəkətlərdən öncə ovuclarını yerə vurarkən, yaxud qoyarkən təyəmmüm etmək niyyətində olmalıdır və niyyət Allaha yaxınlaşmaq məqsədi və ixlas məzmunu daşımalı, riyakarlıq, özünü göstərmək və bu qəbildən olan məqsədlər daşımamalıdır.

**Məsələ 849.** Niyyətdə təyəmmümünün qüslü, yoxsa dəstəmazı əvəz etməsini müəyyənləşdirməsi zəruri deyil. Lakin iki təyəmmüm etməli olduğu hallarda onlardan hər birini hər hansı bir şəkildə müəyyənləşdirməlidir. Əgər ona bir təyəmmüm vacib olarsa və mövcud vəziyyətdə üzərinə düşən vəzifəni yerinə yetirmək niyyətində olarsa, hərçənd ayırd etməkdə[1] **xətaya yol versə də, təyəmmümü doğrudur.**

***İkinci şərt: Ardıcıllığa riayət etməlidir***

**Məsələ 850.** Təyəmmümdə hərəkətlər izah edilən[2] ardıcıllıqla yerinə yetirilməlidir və sağ ələ sol əldən öncə məsh edilməsi qaydasına riayət etmək vacib ehtiyatın tələbidir.

---

[1] Təyəmmümün dəstəmaz, yoxsa qüslü əvəz etdiyini. *Tərc.*

[2] Bax: 846-cı məsələ. *Tərc.*

*Üçüncü şərt: Vacib ehtiyata əsasən, təyəmmüm üzvlərini yuxarıdan aşağıya doğru məsh etməlidir*

**Məsələ 851.** Təyəmmümdə insan, lazım ehtiyata əsasən, alına və əllərin üstünə yuxarıdan aşağıya doğru məsh etməli, yəni alnın məshinə saçın bitdiyi yerdən başlayaraq alının aşağı nahiyəsində başa çatdırmalı, həmçinin, əllərin üstünün məshini biləklərdən aşlayaraq barmaqların ucunda sona çatdırmalıdır.

*Dördüncü şərt: Məsh əsnasında məsh edilən üzv hərəkətsiz olmalıdır*

**Məsələ 852.** Alnın məshi əsnasında alın hərəkətsiz olmalı və əl onun üzərində hərəkət edərək ona sürtülməlidir. Həmçinin, əllərin üstünə məsh edərkən məsh edilən əl sabit olmalı və məsh edən əl onun üzərində hərəkət edərək məshi yerinə yetirməlidir. Beləliklə, əgər insan əlini sabit saxlayaraq alnını ona sürtərsə, məsh batildir. Qeyd etmək lazımdır ki, əl çəkərkən alın, yaxud məsh edilən əl cüzi hərəkət edərsə, bu, məshin doğruluğuna xələl gətirməz.

*Beşinci şərt: Fasiləsizliyə riayət etməlidir*

**Məsələ 853.** İnsan təyəmmümün hərəkətlərini ardıcıl yerinə yetirməlidir və əgər onların arasında ürfən "təyəmmüm alır" deyilməyəcək qədər fasilə verərsə, təyəmmümü batildir və bu xüsusda dəstəmazı əvəz edən təyəmmümlə qüslü əvəz edən təyəmmüm arasında heç bir fərq yoxdur.

*Altıncı şərt: Təyəmmümün hərəkətlərini imkan daxilində şəxsən yerinə yetirməlidir*

**Məsələ 854.** İnsan təyəmmümün hərəkətlərini mümkün olduğu təqdirdə şəxsən yerinə yetirməlidir və əgər üzürlü səbəb olmadan bu hərəkətləri başqa bir şəxs onun üzərində yerinə yetirərsə, yaxud təyəmmüm üzvlərinə məsh etməsinə kömək edərsə, təyəmmümü batildir.

**Məsələ 855.** Əgər insanın vəzifəsi təyəmmüm etməkdirsə və o, təklikdə normal qaydada təyəmmüm edə bilmirsə:

1) Başqa bir şəxsdən kömək almalı, həmin şəxs onun ovuclarını təyəmmümdə istifadə edilməsi doğru olan bir şeyə toxundurmalı və sonra onları alnına və əllərinin üzərinə qoymalı və o özü imkan daxilində ovuclarını alnına və əllərinin üstünə çəkməlidir.

2) Birinci üsul mümkün olmadığı təqdirdə köməkçi onun (kömək etdiyi şəxsin) öz əlləri ilə ona təyəmmüm etməlidir.

3) İkinci üsul da mümkün olmadığı təqdirdə insan alnını, yaxud əllərinin üstünü torpağa sürtə bildiyi halda bu qaydada təyəmmüm etməsi vacibdir və bu halda növbə köməkçi tutmağa çatmır.

4) Üçüncü üsul da mümkün olmadığı təqdirdə isə köməkçi öz əllərini təyəmmüm üçün istifadə edilməsi doğru olan bir şeyə vurmalı və onun (kömək etdiyi şəxsin) alnına və əllərinin üstünə çəkməlidir. İkinci və dördüncü üsulla təyəmmüm edildikdə, lazım ehtiyata əsasən, onların hər ikisi təyəmmüm niyyəti etməlidir, lakin birinci və üçüncü hallarda mükəlləfin özünün niyyət etməsi kafidir.

**Məsələ 856.** Təyəmmüm etmək istəyən şəxs təyəmmüm hərəkətlərindən hansını təkbaşına yerinə yetirə bilirsə, həmin hərəkətin icrasında başqasından kömək almamalıdır. Məsələn:

a) Sağ əli sınan və onu heç bir vəchlə hərəkət etdirə bilməyən şəxs alnın məshini sol vasitəsilə yerinə yetirməli, sonra sol əllə sağ əlin üstünə məsh etməli, ardınca sol əlin üstünü torpağa sürtməlidir və bu halda hələ köməkçi tutmağa və köməkçinin məsh hərəkətlərini yerinə yetirməsinə növbə çatmır.

b) Sol əli sınan və onu heç bir vəchlə hərəkət etdirə bilməyən şəxs alnın məshini sağ əl vasitəsilə yerinə yetirməli, sonra sağ əlin üstünü torpağa sürtməli, ardınca sağ əllə sol əlin üstünə məsh etməlidir və bu halda da hələ köməkçi tutmağa növbə çatmır.

c) Hər iki əli sınan və onları heç bir vəchlə hərəkət etdirə bilməyən, lakin alnını torpağa sürtə bilən şəxs belə etməlidir və bu halda alnın məshi üçün köməkçi tutmağa növbə çatmır. Daha sonra əllərini heç bir vəchlə hərəkət etdirərək bir-birinin üstünə qoya bilmədiyinə görə köməkçi onun əllərinin üstünə təyəmmüm etməlidir. Belə ki, köməkçi təyəmmüm ona təyəmmüm etmək niyyəti ilə hər iki əlini torpağa vuraraq sonra kömək etdiyi insanın əllərinin üstünə məsh etməli və vacib ehtiyata əsasən, sağ əlin üstünün məshini sol əlin üstünün məshindən öncə yerinə yetirməli, həmçinin, vacib ehtiyata əsasən, məshi yuxarıdan aşağıya, yəni biləklərdən barmaqların ucuna doğru etməlidir.

Qeyd etmək lazımdır ki, **c** bəndində izah edilən vəziyyətdə, vacib ehtiyata əsasən, mümkün olduğu təqdirdə mükəlləf alnını və onun hər iki tərəfdən kənarlarının məsh edilməli olan hissəsini bir dəfəyə torpağa sürtməlidir. Bu məqsədlə torpağı qaza, sonra alnını və onun kənarlarını qazılmış torpağın üstünə qoyaraq torpağa sürtə bilər. Belə ki, alın və onun kənarları saçın bitdiyi yerdən qaşlara tərəf, yuxarıdan aşağıya doğru torpağa sürtülməlidir. Həmçinin, vacib ehtiyata əsasən, imkan daxilində köməkçi kömək etdiyi şəxsin sağ əlinin üstünə özünün sol əli ilə, sol əlinin üstünə isə özünün sağ əli ilə məsh etməlidir.

### *Yeddinci şərt: Təyəmmüm üzvlərində maneə olmamalıdır*

**Məsələ 857.** Alında, yaxud əllərin üstündə hər hansı bir maneə olarsa, məsələn, bu nahiyələrə plastır, boya, lak, qatran və s. yapışarsa, onları

təmizləmək lazımdır. Maneə əllərin iç tərəfində olarsa, ovucun maneə olmayan hissəsi ilə yerinə yetirilən məshin ürfən əlin içi ilə məsh adlandırıla bildiyi təqdirdə bu kifayətdir və məsh edən üzvün (ovucun) bütövlüklə maneəsiz olması zəruri sayılmır. Ümumiyyətlə, təyəmmümdə məsh edən üzvün bütünlüklə məsh edilən üzvün hər yerinə çəkilməsinə gərək yoxdur, məsh edilən üzvün hər yerinin məshi məsh edən üzvün bir hissəsi ilə yerinə yetirilərsə, ürfən ovucla məsh edilmiş sayıldığı təqdirdə bu məsh kafidir. Beləliklə, əgər alına barmaqlar olmadan, yalnız əllərin aya hissəsi ilə məsh edilərsə, kafidir. Lakin istənilən halda alın və əllərin üstü bütövlüklə məsh edilməlidir.

**Məsələ 858.** İnsan əllərin üstünə məsh edərkən məsh edilən əldəki üzüyü çıxarmalıdır, lakin məsh edən əldə üzüyün olması təyəmmümün doğruluğuna xələl gətirmir. Beləliklə, əllər torpağa vurularkən, yaxud alnın məshi əsnasında da əldə üzüyün olması təyəmmümə xələl gətirmir.

**Məsələ 859.** Əgər alın və əllərin üstü normal dərəcədə tüklü olarsa, bu təyəmmümün doğruluğuna xələl gətirmir. Lakin əgər saç tükləri alnın üzərinə tökülərsə, onları arxaya atmaq lazımdır.

**Məsələ 860.** Əgər insan alnında və əllərinin içində, yaxud üstündə hər hansı bir maneənin olduğunu ehtimal edərsə, ehtimalı insanların nəzərincə məntiqli olduğu təqdirdə maneənin mövcud olmadığına dair yəqinlik, yaxud arxayınlıq hasil etmək üçün sözügedən nahiyələri yoxlamalıdır.

**Məsələ 861.** Əgər alnın üzərində, yaxud əllərin üstündə ürfən maneə hesab edilən bir nəcasət, məsələn, qan laxtası olarsa, onu təyəmmümdən öncə, yaxud təyəmmüm əsnasında həmin üzvün məshindən öncə aradan qaldırmaq lazımdır.

***Səkkizinci şərt: Təyəmmüm üzvlərində sirayətedici nəcasət olmamalıdır***

**Məsələ 862.** Təyəmmüm zamanı təyəmmüm üzvlərində təyəmmüm torpağına (yaxud təyəmmümdə istifadə edilməsi doğru olan başqa bir şeyə) sirayət edə biləcək bir nəcasət olmamalıdır. Lakin təyəmmüm üzvlərinin pak olması şərt deyil. Beləliklə, əgər alın, ovuclar və əllərin üstü nəcasətlənmiş, lakin quru olarsa və nəcasətin özü onların üzərində qalmazsa, təyəmmüm doğrudur, hərçənd müstəhəb ehtiyata əsasən, təyəmmüm üzvləri tamamilə pak olmalıdır.

## Təyəmmümlə əlaqədar digər hökmlər

**Məsələ 863. Əgər ovucları**[1] torpağa və ya təyəmmümdə istifadə edilməsi doğru olan başqa bir şeyə vurmaq, yaxud onun üzərinə qoymaq

[1] Bu məsələdə və eləcə də öncə və sonrakı məsələlərdə ovuc deyərkən əllərin biləkdən barmaqların ucunadək olan iç hissəsi, əlin üstü deyərkən də həmin hissənin üst tərəfi nəzərdə tutulur.

və onlarla təyəmmüm üzvlərinə məsh etmək hər hansı bir üzürlü səbəbdən mümkün deyilsə, bu hərəkətlər əllərin üstü ilə yerinə yetirməlidir. Həmçinin, əgər əlin üst tərəfi nəcasətlidirsə, nəcasətin torpaq kimi təyəmmümdə istifadə edilən şeyə sirayət etməsinə səbəb olacaq qədər yaşdırsa və hətta qurulamaqla belə bunun qarşısını almaq mümkün deyilsə, təyəmmümün hərəkətləri əllərin üstü ilə yerinə yetirilməlidir. Lakin əgər təyəmmüm üzvlərinin qurudulması mümkün olarsa və nəcasətin özü onların üzərində qalmazsa, təyəmmümü adi qaydada etmək lazımdır və bu halda təyəmmüm üzvlərinin nəcasətli olması təyəmmümün doğruluğuna xələl gətirmir.

**Məsələ 864.** Əgər alında və əllərin üstündə hər hansı bir maneə olarsa, məsələn, həmin nahiyələrdə sarğılı yara olarsa və onun üzərinə sarılmış parça, yaxud başqa növ sarğını açmaq mümkün olmazsa, təyəmmüm edən şəxs məsh zamanı əlini onun üzərinə çəkməlidir. Lakin əgər cəbirə (sarğı), yaxud maneə əlin iç tərəfində olarsa və onu ardan qaldırmaq mümkün olmazsa, ovucu tamamilə əhatə etmədiyi təqdirdə məshi onun açıq qalan və sağlam hissəsi ilə yerinə yetirməlidir, bütün ovucu əhatə etdiyi təqdirdə isə elə bu vəziyyətdə əllə məsh etmək kafidir.

**Məsələ 865.** Qəsdən, məlumatsızlıqdan, yaxud unutqanlıqdan olmasından asılı olmayaraq alnın, yaxud əllərin üstünün bir hissəsinə belə məsh edilməzsə, təyəmmüm batildir. Lakin həddən ziyadə diqqətə də ehtiyac yoxdur və məshin "alına və əllərin üstünə bütünlüklə məsh edilmişdir" deyiləcək şəkildə yerinə yetirilməsi kafidir.

**Məsələ 866.** Əgər insan əllərinin üstünə bütünlüklə məsh etdiyinə dair yəqinlik hasil edə bilmirsə, əmin olmaq üçün biləyin bir qədər yuxarısına da məsh etməlidir. Lakin barmaqların arasına məsh etməyə ehtiyac yoxdur.

**Məsələ 867.** Vəzifəsi təyəmmüm olan şəxs üzürlü halının namazın vaxtı çatanadək davam edəcəyini bilərsə, yaxud üzürlü halının aradan qalxacağına dair ümidini itirərsə, vaxt daralmadan namazıtəyəmmümlə qıla bilər. Lakin əgər vaxt başa çatanadək üzürlü halının aradan qalxacağını bilirsə, gözləməli və namazı dəstəmaz, yaxud qüsllə qılmalıdır. Hətta üzürlü halın vaxt başa çatanadək aradan qalxacağına dair ümidini itirmədikdə də ümidini itirənədək təyəmmüm edərək namaz qıla bilməz. Lakin namazı təyəmmümlə erkən qılmadığı təqdirdə vaxt başa çatanadək hətta təyəmmümlə belə qıla bilməyəcəyini ehtimal etməsi istisnadır.

**Məsələ 868.** Vəzifəsi təyəmmüm olan şəxsin üzürlü halının bütün namaz vaxtı ərzində aradan qalxacağına ümidi yoxdursa, namazın vaxtı başlamadan təyəmmüm edə bilər. Hətta əgər təyəmmümü təxirə

salacağı təqdirdə namaz vaxtı ərzində təyəmmüm ala bilməyəcəyini bilirsə, namazın vaxtı başlamadan təyəmmüm etməsi vacibdir. Başqa bir vacib, yaxud müstəhəb iş üçün təyəmmüm etdiyi və namaz vaxtınadək üzürlü halı davam etdiyi təqdirdə həmin təyəmmümlə namaz qıla bilər.

**Məsələ 869.** Qüsl edə bilməyən şəxs icrası üçün qüslün vacib olduğu bir işi görmək istəyərsə, qüsl əvəzinə təyəmmüm etməlidir. Həmçinin, dəstəmaz ala bilməyən şəxs icrası üçün dəstəmazın vacib olduğu bir işi görmək istəyərsə, dəstəmaz əvəzinə təyəmmüm etməlidir.

**Məsələ 870.** Vəzifəsi təyəmmüm olan şəxs bir iş üçün təyəmmüm edərsə, təyəmmümü pozulmadıqca və üzürlü halı davam etdikcə dəstəmaz, yaxud qüsllə icra edilməli olan bütün işləri görə bilər. [1]O cümlədən, üzürlü səbəbi vaxt məhdudluğu olan və bu səbəbdən namaz üçün təyəmmüm edən şəxs namazda təharətli insan hökmündədir. Beləliklə, həmin halda Qurana toxuna bilər. Lakin bu təyəmmüm namazdan sonra qarşıya çıxan və dəstəmaz, yaxud qüsl tələb edən işlər üçün (məsələn, namazdan sonra Qurana toxunmaq üçün) kafi deyil. Əgər insan su olduğu halda cənazə namazı, yaxud yatmaq üçün təyəmmüm edərsə, yalnız icrası üçün təyəmmüm etdiyi işi görə bilər.

**Məsələ 871.** İnsan cənabət qüslü əvəzinə təyəmmüm edərsə, namaz üçün dəstəmaz almasına ehtiyac yoxdur. Həmçinin, təyəmmümü digər qüsllərin – mütəvəssitə istihazə qüslü istisna olmaqla - əvəzinə etdikdə də namaz üçün dəstəmaz almasına ehtiyac yoxdur, hərçənd bu halda müstəhəb ehtiyata əsasən, dəstəmaz da almalı, dəstəmaz ala bilmədiyi təqdirdə isə dəstəmaz əvəzinə başqa bir təyəmmüm etməlidir. Mütəvəssitə istihazə qüslü əvəzinə təyəmmüm etdikdə isə mütləq dəstəmaz da almalı, dəstəmaz ala bilmədiyi halda qüsl əvəzinə başqa bir təyəmmüm də etməlidir.

**Məsələ 872.** Dəstəmazı pozan hallar dəstəmaz əvəzinə edilən təyəmmümü də pozur və eləcə də qüslü pozan hallar qüsl əvəzinə təyəmmümü də pozur.

**Məsələ 873.** Təyəmmüm üzürlü halın aradan qalxması ilə batil olur. Beləliklə, əgər insan suyun olmaması, yaxud başqa bir üzürlü səbəblə əlaqədar olaraq təyəmmüm edərsə, üzürlü hal aradan qalxdıqda təyəmmümü batil olur.

**Məsələ 874.** İnsan qüsl əvəzinə təyəmmüm edərsə və daha sonra dəstəmazı pozan bir hal baş verərsə, sonrakı namazlar üçün qüsl edə bilmədiyi təqdirdə dəstəmaz almalı və müstəhəb ehtiyata əsasən,

---

[1] Məsələn, cünub olan və sudan istifadənin sağlamlığı üçün zərərli olduğuna görə namazını təyəmmümlə qılan bir şəxs üzürlü halı davam etdikcə və təyəmmümü batil olmadıqca məscidə, yaxud müqəddə ziyarətgahlara daxil ola bilər.

təyəmmüm də etməli, dəstəmaz ala bilmədiyi halda isə dəstəmaz əvəzinə təyəmmüm etməlidir.

**Məsələ 875.** Ehtiyatən cəbirə qüslü və qüsl əvəzinə təyəmmüm edən şəxs əgər qüsl və təyəmmümdən sonra namaz qılarsa və namazdan sonra dəstəmazı pozan bir hal baş verərsə (məsələn, idrar edərsə), sonrakı namazlar üçün dəstəmaz almalı, hədəs namazdan öncə baş verdiyi təqdirdə isə həmin namaz üçün də dəstəmaz almalıdır.

**Məsələ 876.** Qüsl edə bilməyən şəxsin bir neçə qüsl etməsi vacibdirsə, onların hamısının əvəzinə bir təyəmmüm edə bilər, lakin müstəhəb ehtiyata əsasən, onların hər biri üçün ayrıca təyəmüm etməlidir və ümumiyyətlə, təyəmmümlərin dəxli ilə bağlı hökm qüsllərin dəxli ilə əlaqədar hökm kimidir. [1]

**Məsələ 877.** İnsan təyəmmüm əsnasında onun bir hissəsini (hərəkətini) unutması ilə bağlı şəkk edərsə, həmin hərəkətin yeri keçdiyi[2] təqdirdə şəkkinə etina etməməli, keçmədiyi təqdirdə isə həmin hərəkəti yenidən yerinə yetirməlidir.

**Məsələ 878.** Əgər sol əlin məshindən sonra təyəmmümü doğru qaydada yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, təyəmmümü doğrudur və əgər şəkki sol əlin məshi ilə bağlıdırsa, ürfən təyəmmümdən çıxdığı (başa çatdırdığı), məsələn, təharət tələb edən bir işin icrasına başladığı, yaxud ürfən təyəmmümün hərəkətləri arasında fasiləsiz ardıcıllığın itdiyi hallar istisna olmaqla, sol əlinə (yenidən) məsh etməlidir.

**Məsələ 879.** Aşağıdakı hallarda daha yaxşı olar ki, insan təyəmmümlə qıldığı namazların qəzasını da qılsın:

1) Sudan istifadə etməyə qorxduğu və buna baxmayaraq özünü qəsdən cünub edərək təyəmmümlə namaz qıldığı halda.

2) Namazın vaxtı başa çatanadək su tapa bilməyəcəyini bildiyi, yaxud güman etdiyi və buna baxmayaraq özünü qəsdən cünub edərək təyəmmümlə namaz qıldığı halda.

3) Namazın vaxtı başa çatanadək su axtarmayan, vaxt məhdud olduqda təyəmmümlə namaz qılan, ancaq sonra həmin vaxt su axtardığı təqdirdə tapa biləcəyini başa düşdüyü halda.

4) Qəsdən namazı təxirə salaraq vaxt məhdudlaşdıqda təyəmmümlə qıldığı halda.

5) Suyun tapılmayacağını bilməsinə, yaxud güman etməsinə baxmayaraq onu yerə tökdüyü və namazı təyəmmümlə qıldığı halda.

---

[1] Qüsl, yaxud təyəmmümün dəxli deyərkən bir qüslü, yaxud təyəmmümü etməklə digər qüsllər, yaxud təyəmmümlərin də yerinə yetirilmiş sayılması və həmin səbəblər üçün ayrıca qüsl, yaxud təyəmmüm etməyə gərək olmaması nəzərdə tutulur.

[2] Yəni şəkk etdiyi hərəkəti yerinə yetirmədiyi təqdirdə şəriət qaydalarına görə icrasına keçə bilməyəcəyi hərəkətə artıq keçmişdirsə, məsələn, sol əlin məshi əsnasında sağ əlinə, yaxud üzünə məsh edib-etmədiyinə şəkk edərsə.

# NAMAZ

## Namazın fəziləti

Lütfkar Allahın sonsuz lütfü ilə bəşəriyyətin mənəvi inkişafı və layiq olduğu kamilliyə çatması üçün İslam dinində icrasını əmr etdiyi namaz böyük ibadətlərdən biri, dinin sütunudur və ibadətlər arasında özünəməxsus imtiyaza və əhəmiyyətə malikdir. Namaz uca Allahla rabitə üçün ən yaxşı üsuldur. Namaz ibadətlərin bayrağı və nicat yolunun bələdçisidir. Namaz ibadətlərin ən mühümü olub mənəviyyatı paklayır ,onu ən yüksək kamal dərəcələrinə ucaldır və uca Allah qarşısında mütiliyin mükəmməl təzahürüdür. Həqiqətən, namaz hər bir müsəlman fərdinin mənəvi şəxsiyyət vəsiqəsidir və insanla uca Allah arasında əlaqə üçün ondan daha möhkəm və daha davamlı bir vasitə yoxdur.

Qurani-kərim və hədislər namaz və namaz qılanlar üçün özünəməxsus bir mövqe təsvir edir.

Nəhcül-bəlağədə Möminlərin əmirinin (ə) səhabələrinə namazla bağlı tövsiyələrində belə buyurduğunu oxuyuruq: "Allahın elçisi (s) onu (namazı) bir kişinin evinin önündə olan və gecə-gündüz beş dəfə yuyunduğu isti suya bənzədərək soruşurdu: "Məgər, bu şəxsdə natəmizlikdən əsər-əlamət qalarmı?!"[1]

İmam Sadiqin (ə) belə buyurduğu nəql olunur: "Namaz dinin sütunudur və çadırın dirəyi misalındadır. Dirək sabit olarsa, mismarlar və kəndirlər də möhkəm olacaqdır. Dirək əyildiyi və sındığı təqdirdə isə nə mismar yerində qalar, nə də kəndir". [2]

Başqa bir hədisdə isə Həzrət İmam Sadiqin (ə) belə buyurduğu nəql edilir: ". . . Bəndənin uca Allahın qarşısında dayanacağı zaman ondan ilk soruşulacaq şey namazdır. Əgər namazı məqbul görülərsə, digər əməlləri də məqbul hesab ediləcək, namazı məqbul sayılmadığı təqdirdə isə digər əməlləri də məqbul saylmayacaqdır". [3]

Çoxsaylı hədislərdə ismət və paklıq soyunun mənsubları olan Əhli-beyt imamları (ə) müsəlmanları namaza yüngül yanaşmaqdan çəkindirirlər.

---

[1] ***Nəhc əl-bəlağə,*** 199-cu xütbə, Namazın əhəmiyyəti və faydaları.

[2] ***Vəsail əş-şiə (Təfsilu vəsail əş-şiə ila təhsili məsail əş-şəriə),*** Namaz kitabı, Vacib namazların sayı ilə əlaqədar bablar, 6-cı bab, 12-ci hədis (c. 4, səh. 27, 4424-cü hədis).

[3] ***Səvab əl-əmal və iqab əl-əmal,*** Namazı öz vaxtında qılmayan şəxsin cəzası, səh. 273, 1-ci hədis.

Möminlərin əmirinin (ə) belə buyurduğu nəql olunur: “Allahın nəzərində namazdan daha sevimli bir iş yoxdur. Elə isə namaz vaxtlarında heç bir dünya işi sizi ondan ayırmasın. Çünki uca Allah bəzi qövmləri məzəmmət edərkən buyurur: **“Onlar öz namazlarında səhlənkardırlar”**. Yəni onlar qafillik edərək namaz vaxtlarına qarşı səhlənkarlıq, etinasızlıq nümayiş etdirirlər”. [1]

Bir rəvayətdə isə oxuyuruq ki, Həzrət Əli (ə) namazının səcdələrində tələsən bir kişidən soruşur: “Neçə müddətdir belə namaz qılırsan?” Həmin şəxs müəyyən bir müddətdən bəri olduğunu söylədikdə isə buyurur: “Sənin kimi bir insan Allahın nəzərində dimdiyini yerə döyən qarğa kimidir. Əgər (bu halda) dünyadan köçsən, Əbülqasim Muhəmmədin (s) dinindən başqa bir etiqadla köçmüş sayılacaqsan”. Sonra isə belə buyurur: “İnsanların içində ən böyük oğru namazından oğurluq edəndir”.[2]

Hədislərdə namazın vaxtının başlanğıcında qılınmasına dair saysız-hesabsız tövsiyələrə rast gəlirik.

O cümlədən, İmam Sadiqin (ə) belə buyurduğu nəql olunur: “İlk vaxtın son vaxtdan (vaxtının başlanğıcında qılınan namazın sonra qılınan namazdan) üstünlüyü axirətin dünyadan üstünlüyü kimidir”. [3]

Həmçinin, diqqətəlayiq məqamlrdan biri də budur ki, Əhli-beytdən (ə) nəql olunan hədislərə əsasən, mənfi əxlaqi keyfiyyətlər və insanın bəzi çirkin əməlləri namazın Haqq-təalanın dərgahında qəbul edilməsinə mane olur. Həsəd, təkəbbür, xudbinlik, dikbaşlıq və bu qəbildən olan xislətlərə sahib olan, yaxud valideynlərin sözünə baxmamaq və onları incitmək, qeybət etmək, haramxorluq, məstedici içkilərin qəbulu, xüms və zəkat verməkdən imtina etmək kimi xoşagəlməz hərəkətlərə yol verən şəxslərin namazı Allah dərgahında qəbul olunmur. Hərçənd, onların bu günahlara rəğmən namaz qılması vacibdir, əks təqdirdə namazı tərk edən günahkarlar sırasına da daxil ediləcəklər. Namaz qılan şəxs günahlarından tövbə etməli və bulaşdığı, adətkərdə olduğu bütün günahlardan uzaqlaşmalıdır ki, bu önəmli ibadəti qəbul olunsun.

Daha yaxşı olar ki, insan namazını qəlbən qılsın və namaz əsnasında kiminlə ünsiyyətdə olduğunu və diləklərini kimə ərz etdiyini diqqət mərkəzində saxlasın.

Həmçinin, daha yaxşı olar ki, namazın savabını azaldan hərəkətlərdən çəkinsin, məsələn, yuxulu halda və ya idrarını saxlayaraq namaza durmasın, namaz əsnasında göyə baxmasın, habelə namazın savabını artıran işləri görsün, o cümlədən, əlinə əqiq qaşlı üzük taxsın, təmiz libas geyinsin, saç və saqqalını darasın, dişlərini fırçalasın və ətirlənsin.

---

[1] ***Əl-Xisal,*** c. 2, səh. 621, 10-cu hədis.

[2] ***Əl-Məhasin,*** səh. 162, 232-ci hədis.

[3] ***Səvab əl-əmal və iqab əl-əmal,*** İlk vaxtın son vaxtdan üstünlüyü, səh. 58, 2-ci hədis.

# NAMAZIN QİSİMLƏRİ

Namazlar vacib və müstəhəb olmaqla iki qisimə bölünür. Qarşıdakı məsələlərdə vacib namazların qisimlərinə toxunulacaq, müstəhəb namazların qisimləri və onlarla bağlı hökmlər isə "Müstəhəb namazlar" fəslində açıqlanacaqdır.

## Vacib namazlar

**Məsələ 880.** Dövrün imamının (Uca Allah onun zühuru ilə qurtuluşu tezləşdirsin!) qaib olduğu dövrdə vacib namazların sayı altıdır:

1) gündəlik namazlar;

2) ayat namazları;

3) cənazə namazı;

4) Kəbə evinin vacib təvafının namazı;

5) ehtiyata əsasən, atanın vəfatından sonra böyük oğluna vacib olan qəza namazları;

6) icarə, nəzir, and və əhd ilə əlaqədar vacib olan namaz.

Cümə namazı hökmləri qarşıda açıqlanacaq gündəlik namazlardan, yəni birinci qisimdən sayılır.

## Gündəlik vacib namazlar

**Məsələ 881.** Gündəlik vacib namazların sayı beşdir: hər biri dörd rükət olan zöhr və əsr namazları, üçrükətli məğrib namazı, dördrükətli işa namazı və ikirükətli sübh namazı.

**Məsələ 882.** Səfərdə qarşıda açıqlanacaq şərtlər daxilində dördrükətli namazlar iki rükət qılınmalıdır.

# NAMAZA HAZIRLIQ

**Məsələ 883.** Namaz üçün altı hazırlıq[1] **tələb olunur:**
- vaxt çərçivəsində qılmaq;
- qibləyə yönəlmək;
- qüsl, dəstəmaz, yaxud təyəmümlü olmaq (mükəlləfin vəzifəsinə uyğun olaraq);
- bədən və paltarın pak olması;
- geyimlə bağlı şərtlərə riayət etmək;
- məkanla bağlı şərtlərə riayət etmək.

Beləliklə, namaz qılmaq istəyən şəxs bu hazırlıqlardan hansına sahib deyilsə, namazdan öncə həmin hazırlıq tələbini yerinə yetirməlidir.

**Birinci hazırlıq: Vaxt çərçivəsində qılmaq**

Gündəlik beş vacib namazın vaxtları belədir:

**1) Zöhr və əsr namazlarının vaxtı**

**Məsələ 884.** Zöhr və əsr namazlarının vaxtı şəri zöhrdən (zəval) etibarən başlayır. Şəri zöhr, yaxud zəval deyərkən isə Günəşin doğuşu ilə qürub arasındakı zaman fasiləsinin yarısının keçməsi nəzərdə tutulur. Məsələn, əgər bir şəhərdə gün saat 06:00-da doğur, 20:00-da batırsa, bu halda günün çıxması ilə batması arasındakı zaman fasiləsi 14 saatdır ki, bunun da yarısı 7 saat edir. Beləliklə, Günəşin doğuşundan 7 saat sonra şəri zöhr vaxtı sayılır ki, bu da saat 13:00-a təsadüf edir.

**Məsələ 885.** Şəri zöhr şaxisdən[2] istifadə etməklə də təyin edilə bilər. Buna əsasən,əgər şaxis adlandırılan taxta parçası, yaxud bənzər əşya hamar səthli yerdə düz bucaq altında yerə basdırılmışdırsa, sübh çağı Günəş doğduqda onun kölgəsi qərb tərəfə düşür, Günəş üfüqdə yüksəldikcə bu kölgə gödəlir və İranın şəhərlərində və bir çox ölkələrdə şəri zöhrün başlanğıcında minimum ölçüsünə çatır. Zöhr keçdikdən sonra isə onun kölgəsi şərq tərəfə dönür və Günəş günbatana doğru irəlilədikcə kölgə uzanır. Beləliklə, kölgə minimum ölçüsünə çataraq iki dəfə uzanmağa başladıqda şəri zöhrün başladığı məlum olur. Lakin zöhr zamanı şaxisin kölgəsinin tamamilə itdiyi bəzi şəhərlərdə kölgə daha sonra yenidən peyda olduqda şəri zöhrün başladığı məlum olur.

---

[1] Ənənəvi fiqh ədəbiyyatında namazla bağlı məsələlər üç əsas qisimə bölünür: "namazın müqəddimatı", "namazın muqarinatı" və "namazın mübtilatı". Müqəddimat (müqəddimələr) adından da göründüyü kimi namaza giriş, hazırlıq tədbirləridir. Biz (mütərcim) "müqəddimə" terminini bu sözün ana dilimizdə başqa məna çalarları qəbul etməsi ilə əlaqədar olaraq hazırlıq sözü ilə əvəz etmişik. Muqarinat (namazın möhtəvasını təşkil edən hərəkət və sözlər) və mübtilat (namazı pozan hərəkət və hallar) ilə isə öz yerində tanış olacaqsınız. *Tərc.*

[2] Müxtəlif tipli qnomonlar (günəş saatları) da şaxis kimi istifadə edilə bilər. *tərc.*

**Məsələ 886.** Günəşin batıb-batmadığına şəkk edən və onun dağların, yaxud binaların arxasında gizləndiyini ehtimal edən şəxs üçün şərq tərəfdəki qırmızılıq görünməyə davam etdikcə və insanın başının üzərindən keçib getmədikcə vaxt qalır (günorta namazlarını qıla bilər). Günəşin batdığı vaxt xüsusunda şəkkə düşmədiyi təqdirdə isə, vacib ehtiyata əsasən, zöhr və əsr namazlarını Günəş gözlərdən itənədək, qürubadək təxirə salmasın, təxirə saldığı halda isə onu əda və qəza niyyəti etmədən qılsın.

**Məsələ 887.** İnsan əsr namazını qəsdən zöhr namazından əvvəl qılarsa, batildir. Lakin vaxtın başa çatmasına bir namazdan artıq fürsət qalmadıqda bu vaxtadək zöhr namazını qılmayan şəxsin zöhr namazı qəzaya gedir və o, əsr namazını qılmalıdır. Bir şəxs vaxtın bu qədər məhdudlaşmasından öncə səhvən əsr namazını bütünlüklə zöhr namazından öncə qılarsa, əsr namazı doğrudur və o halda zöhr namazını qılmadığı anladığına görə onu qılmalıdır. Müstəhəb ehtiyata əsasən, ikinci dördrükətlik namazı "ma fiz-zimmə"[1] niyyəti ilə qılmalıdır.

**2) Məğrib və işa namazlarının vaxtı**

**Məsələ 888.** Məğrib namazının vaxtı, vacib ehtiyata əsasən, Günəşin batmasından sonra şərq tərəfdə müşahidə edilən qırmızılığın insanın başının üzərindən keçdiyi vaxtdan etibarən başlayır. Bu məsələnin ehtiyata əsaslanması insanın Günəşin batdığı vaxtı bildiyi hallara aiddir. Belə hallarda, vacib ehtiyata əsasən, insan məğrib namazını Günəş batarkən qıla bilməz. Lakin əgər Günəşin dağların, tikililərin, yaxud ağacların arxasında gizlənə biləcəyi ilə əlaqədar olaraq onun batmasına şəkk edərsə, ehtiyata deyil, fətvaya əsasən, Günəşin batmasından sonra şərq tərəfdə müşahidə edilən qırmızılıq başının üzərindən keçib getmədən məğrib namazını qıla bilməz.

**Məsələ 889.** Asudəlikdə olan (zərurət halları ilə qarşılaşmayan) insan üçün məğrib və işa namazlarının vaxtı gecə yarısına, zərurət halları ilə qarşılaşan, yəni unutqanlıq, yatıb qalmaq, heyz və s. bu qəbildən olan səbəblərdən dolayı namazı gecə yarısından öncə qılmayan insan üçün məğrib və işa namazlarının vaxtı fəcrin tülusuna (dan vaxtına) qədərdir. Lakin hər iki vəziyyətdə diqqətli ikən, unutqanlığa yol verilmədiyi hallarda məğrib və işa namazları arasında ardıcıllığa riayət etmək şərtdir, yəni öncə məğrib, sonra işa namazı qılınmalıdır və əgər qəsdən işa namazı məğrib namazından öncə qılınarsa, batildir. Yalnız vaxtın başa çatmasına işa namazının qılınması üçün tələb olunan müddətdən artıq qalmadığı halda istisna olaraq işa namazını məğrib namazından əvvəl qılmalıdır.

---

[1] Burada: hansı namaz olduğunu müəyyən etmədən, sadəcə mükəlləfiyyəti icra etmək niyyəti ilə. *Tərc.*

**Məsələ 890.** Bir şəxs səhvən işa namazını məğrib namazından əvvəl qılarsa və səhvini namazdan sonra başa düşərsə, namazı doğrudur və ondan sonra məğrib namazını qılmalıdır.

**Məsələ 891.** Artıq qeyd edildiyi kimi, işa namazının vaxtının sonu asudəlikdə olan insan üçün, gecə yarısıdır və işa namazı üçün gecə yarısı deyərkən, vacib ehtiyata əsasən, qürubla fəcrin tülusu (sübh azanı) arasındakı zaman fasiləsinin yarısı nəzərdə tutulur. [1]

**Məsələ 892.** Əgər insan ixtiyari surətdə məğrib və ya işa namazını gecə yarısınadək qılmasa, vacib ehtiyata əsasən, sübh azanınadək əda və qəza niyyəti etmədən həmin namazı qılmalıdır. Sübh azanına az vaxt qalarsa, məsələn, müsafir olmayan şəxs üçün yalnız dördrükətlik bir namaza yetəcək qədər, yaxud daha az vaxt qalarsa, vacib ehtiyata əsasən, işa namazını ma fiz-zimmə niyyəti ilə qılmalı, sonra məğrib namazının qəzasını qılmalı və ardınca ehtiyatən ardıcıllığa riayət etmək məqsədilə işa namazının qəzasını da qılmalıdır.

**3) Sübh namazının vaxtı**

**Məsələ 893.** Sübh azanına yaxın günçıxan tərəfdən bir ağartı yuxarıya doğru hərəkət edir. Bu ağartıya birinci fəcr deyilir. Həmin ağartının miqyasının genişləndiyi vaxt ikinci fəcr adlanır və sübh namazının başlanğıcı sayılır. Sübh namazının vaxtının sonu isə Günəşin çıxdığı andır.

## Namaz vaxtları ilə əlaqədar digər hökmlər

**Məsələ 894.** İnsan namazın vaxtının başladığına dair yəqinlik hasil etdikdə, yaxud iki adil kişi vaxtın başladığı ilə bağlı məlumat verdikdə namaz qıla bilər. Hətta vaxtın başlamasına ciddi surətdə riayət etdiyini bildiyi bir şəxsin məlumatı, yaxud azanı onda arxayınlıq hasil etdiyi təqdirdə bununla da kifayətlənə bilər.

**Məsələ 895.** Əgər bir insan şəxsi əngəllər, məsələn, korluq, yaxud məhbəsdə olmaq kimi səbəblərlə əlaqədar olaraq namaz vaxtının başlanğıcında vaxtın başladığına dair yəqinlik hasil edə bilmirsə, vaxtın başladığına dair yəqinlik, yaxud arxayınlıq hasil edənədək namazı təxirə salmalıdır. Həmçinin, lazım ehtiyata əsasən, vaxtın başladığına dair yəqinlik hasil etməyə mane olan səbəbin havanın buludluluğu, duman və buna bənzər ümumi maneələrdən olduğu hallar da bu qəbildəndir.

**Məsələ 896.** Əgər namazın vaxtı bəzi müstəhəb işlərin yerinə yetirilməsi səbəbi ilə onun bir hissəsinin vaxt bitdikdən sonra qılınması

[1] Məsələn, bir şəhərdə qürub saat 18:00, fəcrin tülusu (dan yerinin ağarması) isə saat 04:00-a təsadüf edirsə, qürubla fəcrin tülusu arasındakı zaman fasiləsi 10 saata bərabərdir ki, onunda yarısı 5 saat edir. Beləliklə, qürubdan beş saat sonra, yaxud fəcrin tülusundan beş saat öncə, yəni saat 23:00, ehtiyata əsasən, gecə yarısı və qeyri-zərurət hallarında işa namazının vaxtının sonudur.

ilə nəticələnəcək qədər məhduddursa, həmin müstəhəb iş görülməməlidir. Məsələn, əgər qunut duasının oxunması səbəbi ilə namazın bir hissəsi vaxt başa çatdıqdan sonraya qalacaqsa, qunut duası oxunmamalıdır. Oxunduğu halda isə namaz yalnız o halda doğru sayılır ki, onun ən azı bir rükəti vaxtında qılınmış olsun.

**Məsələ 897.** Yalnız birrükətlik namaza yetəcək qədər vaxtı qalan şəxs namazı əda niyyəti ilə qılmalıdır. Lakin insan namazı qəsdən bu vaxtadək təxirə salmamalıdır.

**Məsələ 898.** Müsafir olmayan bir şəxsin qüruba və Günəşin gözlərdən itməsinədək beş rükətlik namaza yetəcək qədər vaxtı vardırsa, yaxud beş rükətlik, yoxsa daha az vaxtı qaldığına şəkk edirsə, zöhr və əsr namazlarını ardıcıllıqla qılmalıdır.

Beş rükətdən daha az vaxtı qalarsa, vacib ehtiyata əsasən, bu qaydada hərəkət etməlidir: Ehtiyatən əsr namazını zöhr namazından öncə qılmalı, sonra zöhr namazını qürubla məğrib arasındakı zaman fasiləsində əda və qəza niyyəti olmadan qılmalı, daha sonra ardıcıllığa riayət etmək məqsədi ilə təkrarən əsr namazını əda və qəza niyyəti olmadan qılmalıdır. [1]

Əgər Günəş batmışdırsa və məğribə beş rükət üçün yetəcək qədər vaxt qalmışdırsa, yaxud beş rükətlik vaxtın qalıb-qalmadığına şəkk edirsə, zöhr və əsr namazlarını, vacib ehtiyata əsasən, həmin zaman fasiləsində əda və qəza niyyəti olmadan qılmalıdır. Əgər daha az vaxtı qalmışdırsa, vacib ehtiyata əsasən, bu qaydada hərəkət etməlidir: Ehtiyatən əsr namazını zöhr namazından öncə əda və qəza niyyəti olmadan qılmalı, sonra zöhr namazını qəza niyyəti ilə qılmalı, daha sonra ehtiyatən əsr namazını da ardıcıllığa riayət etmək məqsədi ilə yenidən qılmalıdır. [2]

**Məsələ 899.** Əvvəlki məsələdə izah edilən bütün hökmlər müsafirə də aiddir. Aradakı fərq yalnız qürub, yaxud məğribədək qalan vaxt üçün meyarın beş rükət deyil, üç rükətə yetəcək müddət olmasındadır.

**Məsələ 900.** Müsafir olmayan şəxsin gecə yarısınadək beş rükət namaz qılacaq qədər vaxtı qalmışdırsa, məğrib və işa namazlarını məlum

---

[1] Qeyd etmək lazımdır ki, bu halda əgər birinci namazı zöhr, yoxsa əsr namazı olduğunu müəyyən etmədən (namazın növü cəhətindən ma fiz-zimmə olaraq) və əda niyyəti ilə qılarsa, sonra qürubla məğrib arasındakı müddət ərzində yenə zöhr, yoxsa əsr namazı olduğunu müəyyən etmədən və həmçinin, əda və qəza niyəti olmadan (həm namazın növü, həm də əda, yoxsa qəza olması cəhətindən ma fiz-zimmə olaraq) qılarsa, ehtiyat üçün kifayətdir və bu halda üç namaz qılmağa ehtiyac yoxdur.

[2] Qeyd etmək lazımdır ki, əgər məğribədək beş rükətə yetəcək müddətdən daha az vaxtı qaldığı təqdirdə birinci namazı zöhr, yaxud əsr, əda, yaxud qəza niyyəti etmədən (həm namazın növü, həm də əda, yoxsa qəza olması cəhətindən ma fiz-zimmə olaraq) qılar, daha sonra digər namazın (namazın növü cəhətindən ma fiz-zimmə olaraq) qəzasını qılarsa, ehtiyat üçün kafidir və bu halda üç namaz qılmağa ehtiyac yoxdur.

ardıcıllıqla qılmalıdır. Həmçinin, nə qədər vaxtın qalması ilə bağlı şəkkə düşdükdə də bu hökmə əməl etməlidir. Dörd rükətə yetəcək qədər, yaxud daha az vaxtı qaldığı təqdirdə isə öncə işa namazını qılmalıdır.

**Məsələ 901.** Müsafir olan bir şəxsin gecə yarısınadək dörd rükət namaz qılacaq qədər vaxtı qalmışdırsa, məğrib və işa namazlarını ardıcıllıq üzrə qılmalıdır. Həmçinin, nə qədər vaxtın qalması ilə bağlı şəkkə düşdükdə də bu hökmə əməl etməlidir. Üç rükətə yetəcək qədər vaxtı qaldığı təqdirdə isə öncə işa namazını qılmalı, sonra dərhal gecə yarısınadək qalan birrükətlik müddətdə məğrib namazını əda niyyəti ilə qılmağa başlamalıdır. Əgər gecə yarısınadək yalnız iki, yaxud bir rükət namaz qədər vaxtı qalmışdırsa, öncə işa namazını qılmalıdır.

**Məsələ 902.** Azyaşlı uşaq hər hansı bir namazın vaxtı ərzində həddi-büluğa çatarsa,həmin namazın vaxtının başa çatmasınadək birrükətlik namaz qılmaq üçün yetəcək qədər, yaxud daha artıq vaxt qaldığı təqdirdə həmin namazı qılması vacibdir. Həddi-büluğdan öncə həmin namazın vaxtı başladıqdan sonra onu qıldığı və vaxtın başa çatmasından sonra həddi-büluğa çatdığı halda isə namazın yenidən qılınması vacib deyil, hərçənd müstəhəb ehtiyata əsasən, onu yenidən qılmalıdır.

**Məsələ 903.** İnsan hər hansı bir üzürlü səbəbdən namazı vaxtının başlanğıcında (yaxud ilk vaxtlarda) qılmaq istədiyi təqdirdə onu təyəmmümlə qılmalıdırsa, həmin üzürlü səbəbin ortadan qalxacağına ümidini itirdiyi, yaxud namazı təxirə salmaqla təyəmmüm etmək imkanından da məhrum olacağı halda vaxtın başlanğıcında (ilk vaxtlarda) təyəmmüm edərək namazını qıla bilər. Lakin əgər ümidini itirməmişdirsə, üzürlü halı aradan qalxanadək, yaxud ümidini itirənədək gözləməli, üzürlü halı aradan qalxmadığı təqdirdə vaxtın sonunda namazını qılmalıdır və bunun üçün yalnız namazın vacib işlərini görməyə yetəcək qədər vaxtının qalmasını gözləməsinə gərək yoxdur. Əksinə, azan, iqamə və qunut kimi namazın müstəhəb işləri üçün də vaxt qaldıqda belə təyəmmüm edərək namazını həmin müstəhəb əməllərlə birgə qıla bilər. Təyəmmüm hallarından başqa üzürlü hallarda isə hərçənd ümidini itirməsə və üzürlü halının vaxt başa çatanadək aradan qalxacağını ehtimal etsə belə, vaxtın başlanğıcında (ilk vaxtlarda) namazını qıla bilər. Lakin əgər namaz vaxtı ərzində üzürlü səbəb aradan qalxarsa, bəzi hallarda namazı yenidən qılmalıdır.

**Məsələ 904.** Namaz məsələlərini bilməyən və onları öyrənmədən doğru qaydada yerinə yetirə bilməyən, yaxud namazda şəkk və səhvlərlə bağlı məlumatı olmayan, ancaq namazda belə məqamlardan biri ilə qarşılaşacağını və öyrənmədiyinə görə vacib olan hər hansı bir hərəkəti icra etməyəcəyini, yaxud haram olan hər hansı bir hərəkətə

yol verəcəyini ehtimal edən şəxs bu məsələləri öyrənmək üçün namazı vaxtının başlanğıcından bir qədər təxirə salmalıdır. Lakin əgər namazı düzgün qaydada qılacağına ümid edərək vaxtın başlanğıcında namaza başlayar və namaz əsnasında qarşısına hökmünü bilmədiyi bir məsələ çıxmazsa, namazı doğrudur. Hökmünü bilmədiyi bir məsələ ilə qarşılaşdıqda isə ehtimallarının hər ikisinə uyğun qaydada - ikisindən birinin onun vəzifəsi olduğuna ümid edərək –hərəkət etməli və namazı başa çatdırmalıdır. Lakin Namazdan sonra məsələni öyrənməli, namazı batil olduğu təqdirdə yenidən qılmalıdır, doğru olduğu təqdirdə isə təkrarən qılmasına ehtiyac yoxdur.

**Məsələ 905.** Əgər namazın vaxtı genişdirsə və borc verən şəxs borcludan borcunu tələb edirsə, mümkün olduğu təqdirdə borclu şəxs öncə borcunu ödəməli, sonra namaz qılmalıdır. Həmçinin, əgər dərhal həyata keçirilməli olan başqa bir vacib iş insanın qarşısına çıxarsa, məsələn, məscidin nəcasətləndiyini görərsə, əvvəlcə məscidi paklamalı, sonra namaz qılmalıdır. Hər iki halda əvvəlcə namazı qılarsa, günah etmiş sayılır, lakin namazı doğrudur.

**Məsələ 906.** İnsan əsr namazını zöhr namazından, işa namazını isə məğrib namazından sonra qılmalıdır və əgər qəsdən əsr namazını zöhr namazından, işa namazını isə məğrib namazından əvvəl qılarsa, batildir.

**Məsələ 907.** Əgər zöhr namazını qılmamış səhvən əsr namazına başlayar və namaz əsnasında səhvini başa düşərsə, niyyətini zöhr namazına çevirməlidir. Yəni niyyət etməlidir ki, indiyədək qıldığım, hal-hazırda qılmaqla məşğul olduğum və bundan sonra qılmağa davam edəcəyim namaz bütünlüklə zöhr namazı olsun. Lakin bu niyyəti sözlə ifadə etməməlidir. Bu namazı tamamladıqdan sonra isə əsr namazını qılmalıdır.

**Məsələ 908.** Əgər məğrib namazını qılmamış səhvən işa namazına başlayar və namaz əsnasında səhv etdiyini başa düşərsə, hələ dördüncü rükətin rükusuna əyilmədiyi təqdirdə niyyəti məğrib namazına çevirərək namazı başa çatdırmalı, daha sonra işa namazını qılmalıdır. Artıq dördüncü rükətin rükusuna əyilmişdirsə, işa namazını tamamlamalıdır və bu namazı doğrudur. Ondan sonra isə məğrib namazını qılmalıdır.

**Məsələ 909.** Əgər zöhr namazı niyyəti ilə namaza başlayar və namaz əsnasında zöhr namazını artıq qıldığı yadına düşərsə, niyətini əsr namazına çevirə bilməz. Bu halda həmin namazı yarıda qoyaraq əsr namazını qılmalıdır. Bu hökm məğrib və işa namazları arasında baş verən eyni hala da şamil olunur.

**Məsələ 910.** Əgər insan əsr namazı əsnasında zöhr namazını qılmadığına dair yəqinlik hasil edərək niyyəti zöhr namazına çevirərsə, daha sonra zöhr namazını qıldığını xatırladıqda niyyəti yenidən əsr namazına

çevirərək namazını başa çatdıra bilər. Təbii ki, bu hökm namazın bəzi hissələrinin zöhr niyyəti ilə yerinə yetirilmədiyi, yaxud yerinə yetirilsə belə, əsr niyyəti ilə yenidən yerinə yetirildiyi hala aiddir. Lakin həmin hissə bütöv bir rükət olarsa, namazı istənilən halda batildir. Həmçinin, əgər rüku, yaxud bir rükətin iki səcdəsi olarsa, lazım ehtiyata əsasən, batildir.

**Məsələ 911.** Əgər əsr namazı əsnasında zöhr namazını qılıb-qılmadığına şəkk edərsə, namazı əsr niyyəti ilə tamamlamalı, sonra zöhr namazını qılmalıdır. Lakin əgər vaxt əsr namazının tamamlanmasından sonra başa çatacaq qədər azdırsa və ondan sonra birrükətlik belə namaz vaxt qalmırsa, zöhr namazının qəzasını qılmasına ehtiyac yoxdur.

**Məsələ 912.** Əgər işa namazı əsnasında məğrib namazını qılıb-qılmadığına şəkk edərsə, namazı işa niyyəti ilə tamamlamalı, sonra məğrib namazını qılmalıdır. [1] Lakin əgər vaxt namazın tamamlanmasından sonra başa çatacaq qədər azdırsa və ondan sonra birrükətlik belə namaz vaxt qalmırsa, məğrib namazının qəzasını qılmasına ehtiyac yoxdur.

**Məsələ 913.** Əgər işa namazı əsnasında dördüncü rükətin rükusuna çatdıqdan sonra məğrib namazını qılıb-qılmadığına şəkk edərsə, namazı tamamlamalı və məğrib namazını qılmaq üçün vaxt qaldığı təqdirdə məğrib namazını da qılmalıdır.

**Məsələ 914.** Əgər insan qıldığı namazı ehtiyatən yenidən qılarsa və namaz əsnasında ondan əvvəl qılmalı olduğu namazı qılmadığı yadına düşərsə, bu halda niyyətini həmin namaza çevirə bilməz. Məsələn, insan əsr namazını ehtiyatən qılarkən zöhr namazını qılmadığını xatırlayarsa, niyətini zöhr namazına çevirə bilməz.

**Məsələ 915.** Niyyətin qəza namazından əda namazına və müstəhəb namazdan vacib namaza çevrilməsi caiz deyil.

**Məsələ 916.** Əgər əda namazının vaxtı genişdirsə, insan namaz əsnasında qılmalı olduğu bir qəza namazı olduğunu xatırladıqda niyyətini həmin qəza namazına çevirə bilər.

### İkinci hazırlıq: Qibləyə yönəlmək

**Məsələ 917.** Müqəddəs Məkkə şəhərindəki Kəbə evinin yerləşdiyi yer qiblə hesab edilir və insan üzünü ona doğru tutaraq namaz qılmalıdır. Həmçinin, bu hökm heyvanların kəsimi kimi üzü qibləyə həyata keçirilməli olan digər işlərə də şamildir.

**Məsələ 918.** Qiblə istiqamətinin təyin edilməsinə gəlincə, əgər insan Kəbə evinə onu müşahidə etməklə qiblə istiqamətini dəqiq şəkildə

[1] Bu məsələdə və eləcə də əvvəlki məsələdə namaz qılan şəxs niyyətində əsr namazını zöhr namazına, yaxud işa namazını məğrib namazına çevirə bilməz.

müəyyən edə biləcək qədər yaxın məsafədədirsə, məsələn, Məscid əl-haramın daxilindədirsə və Kəbə evini görürsə, üzünü düz Kəbə istiqamətinə tutmalıdır və namaz halında bu istiqamətdən qəsdən azacıq belə olsa yayınmaq caiz deyil. Lakin Kəbənin yerləşdiyi yerdən uzaqda olan insan kimi həqiqi qiblə istiqamətini müşahidə ilə müəyyən edə bilməyəcək məsafədə olduğu təqdirdə isə əgər ürfən "üzü qibləyə doğru namaz qılır" deyiləcək şəkildə dayanarsa, yəni üzünü ürfi qiblə istiqamətinə tutarsa, kafidir və qiblənüma, yaxud GPS kimi vasitələrdən istifadə etməklə, yaxud araşdırmaq və soruşmaqla həqiqi qiblə istiqamətini tapması zəruri deyil. Ancaq əgər araşdırar və həqiqi qiblə istiqamətinin bir neçə dərəcə sağa, yaxud sola meyilli olduğundan agah olarsa, məsələn, həqiqi qiblə istiqamətinin (ürfi qiblə istiqamətindən) sağa doğru 15 dərəcə fərqləndiyini öyrənərsə, bu halda üzünü tutduğu istiqamətə (ürfi qibləyə) doğru dayanmaq hərçənd ürfdə üzü qibləyə olmaq sayılsa da,üzünü həmin istiqamətə doğru tutaraq namaz qıla bilməz.

**Məsələ 919.** Vacib namazı ayaq üstə qılan şəxsin sinə və qarın nahiyəsi qibləyə doğru olmalı, üzü də qiblədən həddən ziyadə yayınmamalıdır və müstəhəb ehtiyata əsasən, ayaq barmaqları da qibləyə doğru olmalıdır. Həmçinin, oturaq halda namaz qılmalı olan şəxsin də namaz əsnasında sinə və qarını qibləyə doğru olmalı, üzü də qiblədən həddən ziyadə yayınmamalıdır.

**Məsələ 920.** Oturaq halda namaz qıla bilməyən şəxs namaz əsnasında böyrü üstə bədəninin ön hissəsi qibləyə doğru düşəcək şəkildə uzanmalıdır. Mümkün olduqca sağ böyrü üstə uzanmalı, lazım ehtiyata əsasən, sol böyrü üstə uzanmamalıdır. İkisi də mümkün olmadığı təqdirdə isə arxası üstə ayaqlarının altı qibləyə doğru düşəcək şəkildə uzanmalıdır.

**Məsələ 921.** Ehtiyat namazı və unudulmuş səcdə üzü qibləyə yerinə yetirilməlidir. Müstəhəb ehtiyata əsasən, səhv səcdəsi də üzü qibləyə doğru edilməlidir.

**Məsələ 922.** Namaz qılmaq istəyən şəxs qiblənin hansı istiqamət olduğuna dair yəqinlik hasil edənədək, yaxud təsdiqi hissinə (görmə kimi) və hiss hökmündə olan idraka istinad edən iki adil şəxsin təsdiq etməsi kimiyəqinlik hökmündə olan bir məlumat əldə edənədək qibləni tapmağa çalışmalı və buna əsaslanaraq qiblə itiqamətini müəyyənləşdirməlidir.

Həmçinin, məntiqli mənşəyi olan arxayınlıq da– etimad edilən bir şəxsin məlumat verməsi kimi – kafidir. Hətta qiblə istiqamətinin təyin edilməsi sahəsində peşəkar olan etibarlı bir insanın verdiyi məlumat, hərçənd güman, yaxud arxayınlıq hasil etməsə də, dəlildir. Əgər bu yollarla qiblə istiqamətini müəyyən edə bilməzsə, müsəlmanların məscidinin mehrabını, möminlərin qəbirlərini nəzərə almaqla, yaxud başqa

məntiqli üsullarla hasil edilən gümana uyğun hərəkət etməlidir. Hətta elmi metodlarla qibləni təyin edə bilən əxlaqsız, mənəviyyatsız bir insanın, yaxud kafirin verdiyi məlumatla da qiblənin bu və ya digər bir istiqamətdə olduğunu güman edərsə, kafidir.

**Məsələ 923.** Qiblənin bu və ya digər bir istiqamət olduğunu güman edən şəxs başqa bir istiqamətin qiblə olduğunu daha çox güman etməyə başlayarsa, zəif olan gümanına uyğun davrana bilməz. Məsələn, əgər qonaq ev sahibinin, yaxud müsafir hotel və mehmanxanının işçisinin verdiyi məlumata əsasən, qiblənin hər hansı bir istiqamətdə olduğunu güman edirsə, lakin başqa bir üsulla, məsələn, qiblənümadan istifadə etməklə daha güclü bir güman hasil edə bilərsə, bu halda onların məlumatı onun üçün dəlil deyil və onların məlumatı əsasında hərəkət edə bilməz.

**Məsələ 924.** Əgər insanın qibləni tapmaq üçün istifadə edə biləcəyi hər hansı bir vasitə yoxdursa, yaxud nə qədər çalışsa da, hər hansı bir tərəfin qiblə istiqaməti olduğunu güman edə bilmirsə, üzünü qiblə olduğunu ehtimal etdiyi istənilən bir tərəfə tutaraq namaz qılarsa, kafidir və müstəhəb ehtiyata əsasən, namazın vaxtı geniş olduğu təqdirdə üzünü dörd fərqli istiqamətə tutaraq dörd namaz qılmalı, daha az vaxt qaldığı təqdirdə isə, müstəhəb ehtiyata əsasən, neçə istiqamətə vaxt çatarsa, o qədər namaz qılmalıdır.

**Məsələ 925.** İnsan qiblənin iki istiqamətdən biri olduğu xüsusunda yəqinlik, yaxud yəqinlik hökmündə olan bir məlumat və ya güman hasil edərsə, hər iki istiqamətə namaz qılmalıdır.

**Məsələ 926.** Bir neçə istiqamətə namaz qılmaq istəyən şəxs əgər zöhr və əsr namazı kimi biri digərindən sonra qılınmalı olan iki namaz qılmaq istəyərsə, müstəhəb ehtiyata əsasən, öncə birinci namazı üzünü bir neçə istiqamətə tutaraq qılmalı, sonra ikinci namaza başlamalıdır.

**Məsələ 927.** Qiblə xüsusunda yəqinlik, yaxud yəqinlik hökmündə olan məlumat hasil etməyən şəxs əgər namazdan başqa üzü qibləyə doğru yerinə yetirilməli olan başqa bir iş görmək, məsələn, bir heyvan kəsmək istəyərsə, gümanına uyğun hərəkət etməlidir, hər hansı bir istiqamətin qiblə olduğunu güman etmək mümkün olmadığı təqdirdə isə üzünü hansı istiqamətə tutsa, doğrudur.

**Məsələ 928.** Vacib ehtiyata əsasən, zərurət olmadan Kəbə evinin daxilində və damında vacib namaz qılınmamalıdır. Lakin çıxılmaz vəziyyətlərdə, zərurət hallarında eybi yoxdur. Kəbə evinin damında namaz qıldığı təqdirdə istənilən halda Kəbənin hava məkanının bir hissəsi namaz qılanın müqabilində qalmalı[1] və o, ayaq üstə namaz qılmalıdır.

---

[1] Başqa sözlə, Kəbə evinin künc və kənarlarında deyil, onlardan bir qədər aralı duraraq namaz qılmalıdır. *Tərc.*

**Üçüncü hazırlıq: Hədəsdən təharət**

Vacib və müstəhəb namazlardan hər biri dəstəmaz, qüsl, yaxud təyəmmümlə (mükəlləfin vəzifəsinə uyğun olaraq) qılınmalıdır, əks təqdirdə namaz batildir. Sözügedən üç təharətdən (dəstəmaz, qüsl, təyəmmüm) hər biri öncəki fəsillərdə təfsilatı ilə izah edilmişdir.

*Dördüncü şərt: Namaz qılanın bədən və geyiminin pak olması*

**Məsələ 929.** Namaz qılanın bədən və geyimi (sonrakı mövzuda qeyd ediləcək hallar istisna olmaqla) pak olmalıdır və əgər bir şəxs ixtiyari surətdə nəcasətlənmiş bədən, yaxud geyimlə namaz qılarsa, namazı batildir.

**Məsələ 930.** Əgər bir şəxs bu şəriət məsələsini öyrənməkdə yol verdiyi səhlənkarlıq səbəbi ilə nəcasətli bədən, yaxud geyimlə qılınan namazın batil olduğunu bilmirsə, yaxud misal olaraq spermanın nəcis olduğunu bilmirsə və onun bədənində qaldığı halda namaz qılarsa, vacib ehtiyata əsasən, namazını yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır. Lakin əgər məsələni öyrənməkdə səhlənkarlığa yol verməmişdirsə və nəcasətli bədən, yaxud geyimlə namaz qılmışdırsa, namazını yenidən qılması, yaxud qəzasını qılması lazım deyil.

**Məsələ 931.** Bir şəxs bədən və ya geyiminin nəcasətli olmadığına əmin olarsa, ancaq namazdan sonra nəcasətli olduğunu başa düşərsə,onun namazı doğrudur.

**Məsələ 932.** Bədən və ya geyiminin pak olub-olmadığına şəkk edən şəxsin özünü yoxlamasına ehtiyac yoxdur. Buna rəğmən, əgər yoxlayar, üzərində bir şey görməyərək namaz qılarsa və namazdan sonra bədəninin, yaxud geyiminin nəcasətli olduğunu başa düşərsə, namazı doğrudur. Ancaq əgər yoxlamazsa və namazdan sonra bədəninin, yaxud geyiminin nəcasətli olduğunu başa düşərsə, lazım ehtiyata əsasən, namazını yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır.

Qeyd etmək lazımdır ki, bu hökm insanın bədəninin, yaxud geyiminin daha öncə nəcasətli olduğuna dair yəqinlik, yaxud yəqinlik hökmündə olan məlumat hasil etmədiyi hala şamildir. Əks halda, yəni daha öncə nəcasətli olan bədən, yaxud geyimin paklanıb-paklanmadığı xüsusunda şəkk etdiyi təqdirdə isə onu paklamalıdır.

**Məsələ 933.** Vaxt geniş ikən namaz qılan şəxs namaz əsnasında bədən, yaxud geyiminin nəcasətli olduğunu anlayarsa, burada iki vəziyyət təsəvvür edilə bilər:

a) Namaza başladıqdan sonra nəcasətləndiyini bilir, yaxud ehtimal edirsə, hərçənd namazın bir hissəsini belə, başa düşməzdən öncə,üzərində nəcasət var ikən qılarsa, bu halda bədəninin, yaxud geyimin yuyulması və ya geyimin dəyişdirilməsi, yaxud onu soyunmaq ürfən

namazın surətini pozmadığı təqdirdə namaz əsnasında bədənini və ya geyimini yumalı, yaxud geyimini dəyişdirməli, yaxud da məhrəm yerlərini və bədininin məhrəm yerlər hökmündə olan hissəsini[1] örtən başqa bir şey varsa, nəcasətli paltarını soyunmalıdır. Lakinbu hərəkətlərdən hər biri namazın surətini pozursa, yaxud nəcasətli paltarını soyunacağı halda çılpaq qalacaqsa, lazım ehtiyata əsasən, namazı yenidən pak bədən və geyimlə qılmalıdır.

b) Namaza başlamazdan öncə nəcasətləndiyini bilirsə, lazım ehtiyata əsasən, namazı yenidən pak bədən və geyimlə qılmalıdır.

**Məsələ 934.** Vaxt məhdud ikən namaz qılan şəxs əgər namaz əsnasında bədəninin nəcasətli olduğunu anlayarsa, bədəninin yuyulması namazı pozmadığı təqdirdə bədənini yumalı, namazı pozduğu təqdirdə isə namazını həmin halda tamamlamalıdır və namazı doğrudur.

Qeyd etmək lazımdır ki, bu məsələdə insanın bədəninin namaza başladıqdan sonra nəcasətləndiyini bilməsi, yaxud ehtimal etməsi ilə ondan öncə nəcasətlənməsini bilməsi arasında fərq yoxdur.

**Məsələ 935.** Vaxt məhdud ikən namaz qılan şəxs əgər namaz əsnasında geyiminin nəcasətləndiyini anlayarsa, nəcasətli paltarın yuyulması, dəyişdirilməsi, yaxud onu soyunmaq namazın surətini pozmursa və paltarı əynindən çıxara bilərsə, nəcasətli paltarı yumalı, dəyişdirməli, yaxud da məhrəm yerlərini və bədininin məhrəm yerlər hökmündə olan hissəsini örtən başqa bir şey varsa, nəcasətli paltarını soyunmalı və namazını başa çatdırmalıdır. Lakin əgər məhrəm yerlərini örtən başqa bir şey yoxdursa və paltarı da yuya, yaxud dəyişdirə bilmirsə, həmin nəcasətli paltarla namazı tamamlamalıdır. Qeyd etmək lazımdır ki, bu məsələdə insanın bədəninin namaza başladıqdan sonra nəcasətləndiyini bilməsi, yaxud ehtimal etməsi ilə ondan öncə nəcasətlənməsini bilməsi arasında fərq yoxdur.

**Məsələ 936.** Əgər insan bədən, yaxud geyiminin nəcasətli olduğunu unudarsa və namaz əsnasında, yaxud ondan sonra xatırlayarsa, unutması səhlənkarlıq və laqeydlikdən irəli gəldiyi halda, lazım ehtiyata əsasən, namazı yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır. Lakin əgər unutması səhlənkarlıq və laqeydlikdən irəli gəlmirsə, namazdan sonra xatırladığı təqdirdə namazı yenidən qılması lazım deyil, namaz əsnasında xatırladığı təqdirdə isə bu vəziyyətə şamil olunan hökm namaz qılanın nəcasətdən xəbərdar olmadığı və namaz əsnasında bədəninin, yaxud geyiminin nəcasətli olduğunu başa düşdüyü hal ilə bağlı 933-935-ci məsələlərdə izah edilən hökmlər kimidir.

[1] Qadınların namaz əsnasında örtməli olduqları və 968-ci məsələdə qeyd ediləcək hissələr nəzərdə tutulur.

**Məsələ 937.** İnsan bir şeyin nəcis olduğunu unudarsa, bədən və ya geyimi rütubətli halda ona toxunarsa və bədəninin, yaxud geyiminin nəcasətləndiyinə diqqət yetirməzsə, bu unutqanlıq və diqqətsizlik halında namaz qılarsa və namazdan sonra həmin şeyin nəcis olduğunu, bədən, yaxud geyiminin də nəcasətləndiyini xatırlayarsa, namazı doğrudur. Lakin əgər bədəni rütubətli halda nəcis olduğunu unutduğu bir şeyə toxunarsa və bədənini (nəcasətlənən nahiyəni) yumadan qüsl edərək, yaxud dəstəmaz alaraq namaz qılarsa, qüsl, yaxud dəstəmazı və namazı batildir. Yalnız qüsl etməklə, yaxud dəstəmaz almaqla bədən də paklanarsa və su nəcasətlənməzsə, məsələn, kürr və ya axar su ilə qüsl edər, yaxud dəstəmaz alarsa, bu halda istisna olaraq namazı batil deyil.

**Məsələ 938.** İnsan nəcasətlənmiş paltarını yuyarsa, paklandığına yəqinlik hasil edərək onunla namaz qılarsa və namazdan sonra pak olmadığını başa düşərsə, namazı doğrudur.

**Məsələ 939.** İnsan öz bədənində, yaxud geyimində qan görərək onun nəcis sayılan qanlar qismindən olmadığına yəqinlik hasil edərsə, məsələn, ağcaqanadın qanı olduğuna əmin olarsa, namazdan sonra insanın üzərində qalarkən namaz qılması doğru sayılmayan qanlar qismindən olduğunu başa düşdüyü təqdirdə namazı doğrudur.

**Məsələ 940.** Əgər bədən, yaxud geyimindəki qanın insanın üzərində ikən qıldığı namazın doğru sayıldığı bir nəcis qan olduğuna yəqinlik hasil edərsə, məsələn, yara və ya çiban qanı olduğuna əmin olarsa, namazdan sonra insanın üzərində ikən qıldığı namazın batil sayıldığı bir qan olduğunu başa düşdüyü təqdirdə namazı doğrudur.

**Məsələ 941.** İnsanın bədəninin iki ayrı hissəsi nəcasətlənərsə və onlardan yalnız birini yumaq üçün kifayət edəcəq qədər su olarsa, onunla istədiyi hissəni yuya bilər. Lakin əgər bu hissələrdən birinin nəcasəti digərindən daha artıq, daha ciddi, yaxud müxtəlifcəhətli olarsa, bu halda vacib ehtiyata əsasən, həmin hissəni yumalıdır. İnsanın yalnız bir geyimi olduğu və onun iki ayrı hissəsinin nəcasətlənmiş olduğu hala da eyni hökm şamil olunur. Məsələn:

a) Əgər bədənin bir hissəsi idrarla nəcasətlənmiş olarsa və insan əlindəki az (kür həcmində olmayan) su ilə həmin hissəni yumaq istəyərsə, iki dəfə yumalıdır. Lakin bədənin digər bir hissəsi bir dəfə yuyulması kafi olan qanla nəcasətlənmiş olarsa, bu halda insan vacib ehtiyata əsasən, idrarla nəcasətlənmiş hissəni paklamalıdır.

b) Əgər insanın yalnız bir paltarı varsa və onun bir hissəsi qoyun kimi əti halal olan bir heyvanın qanı ilə, digər bir hissəsi isə vəhşi heyvan qanı ilə nəcasətlənmişdirsə, ikinci hissədəki qan biri nəcasətlilik, ikincisi isə üzərində əti haram olan heyvanların bədənindən bir

şey daşımaq olmaqla namaz qılanın geyimində qadağan olunmuş iki cəhətə malikdir. Bu halda, vacib ehtiyata əsasən, vəhşi heyvanın qanına bulaşmış hissəni paklamaq lazımdır.

**Məsələ 942.** Yalnız bir paltarı olan şəxsin həm bədəni, həm də paltarı nəcasətlənərsə və onlardan yalnız birini yumaq üçün kifayət edəcək qədər suyu olarsa, lazım ehtiyata əsasən, bədənini yuyaraq nəcasətli paltarla namaz qılmalıdır və vacib ehtiyata əsasən, paltarını yuyaraq nəcasətli bədənlə namaz qılması caiz deyil. Lakin əgər paltarın nəcasəti daha artıq, yaxud daha ciddidirsə (məsələn, paltar idrarla nəcasətlənmişdirsə və onu əlindəki az su ilə yumaq istədiyi təqdirdə iki dəfə yumalıdırsa, bədəni isə bir dəfə yuyulması kafi sayılan qanla nəcasətlənmişdirsə), yaxud paltarda nəcasətlə yanaşı namaz qılanın geyimində qadağan olunan başqa bir cəhət də mövcud olarsa, məsələn, paltar vəhşi heyvanlardan birinin qanı ilə nəcasətlənmiş olarsa, bu halda insan istədiyini (bədənini, yaxud paltarını) yumaqda ixtiyar sahibidir.

**Məsələ 943.** Nəcasətli geyimdən başqa geyimi olmayan şəxs nəcasətli geyimlə namaz qılmalıdır və namazı doğrudur.

**Məsələ 944.** Yalnız iki paltarı olan şəxs əgər onlardan birinin nəcasətli olduğunu bilirsə, ancaq hansının olduğunu bilmirsə, vaxtı olduğu təqdirdə hər ikisi ilə namaz qılmalı, məsələn, zöhr və əsr namazlarını qılmaq istəyirsə, hər biri ilə ayrı-ayrılıqda bir zöhr və bir əsr namazı qılmalıdır. Lakin vaxt məhduddursa və onlardan heç biri nəcasət və bənzər cəhətlərə görə digərinə tərcih edilə bilməzsə, hansı ilə namaz qılsa, kafidir. Ancaq əgər birinin nəcasətli olması ehtimalı digərindən yüksəkdirsə, yaxud onlardan birinin ehtimal olunan nəcasətliliyi daha artıq, yaxud daha ciddidirsə, ya da nəcasətlə yanaşı namaz qılanın geyimində qadağan olunan başqa bir cəhətə də malikdirsə, bu halda digər paltarla namaz qılmalıdır.

## Namaz qılanın bədən və geyiminin paklığının zəruri olmadığı hallar

**Məsələ 945.** Beş halda namaz qılanın bədən, axud geyimi nəcasətli olarsa, namazı doğrudur. Bu hallar qarşıdakı məsələlərdə izah ediləcəkdir.

### *1) Dirhəm ölçüsündən az miqdarda olan qan*

**Məsələ 946.** Əgər namaz qılanın bədən, yaxud geyimi dirhəm ölçüsündən az miqdarda qana bulaşarsa, aşağıdakı şərtlərlə qanı yumadan namaz qıla bilər:

a) Vacib ehtiyata əsasən, dirhəm baş barmağın uc buğumu ölçüsündə hesablanmalı, daha böyük ölçüdə götürülməməlidir.

b) Xalis olmalıdır. Beləliklə, əgər qan dirhəm ölüsündən az miqdarda olarsa, lakin irin, zərdab, su və s. ilə qarışmış olarsa, ona bulaşmış halda qılınan namaz doğru deyildir.

c) Heyz qanı kimi qadağan olunmuş qanlar qismindən olmamalıdır. (Bu mövzu növbəti məsələlərdə izah ediləcəkdir)

Qeyd etmək lazımdır ki, yuxarıdakı üç şərtin mövcud olduğu, dirhəm ölçüsündən az miqdarda olan qanın özü aradan qaldırılsa belə, onunla bağlı hökm qüvvədədir və ona bulaşmış halda qılınan namaz doğrudur. Həmçinin, diqqətəlayiq bir məqam da budur ki, dirhəm ölçüsündən az həcmdə olan qan nəcisdir və ona bulaşmış halda qılınan namazın doğruluğu onun pak olması demək deyildir.

**Məsələ 947.** Əgər bədən, yaxud paltar qanlı olmazsa, ancaq rütubətli halda qana dəyərsə, bədən, yaxud paltar nəcasətlənir. Məsələn, yaş əl quru qan laxtasına təmas edərsə - hərçənd əlin nəcasətlənən hissəsi dirhəm ölçüsündən kiçik olsa belə - bu halda namaz qılmaq olmaz.

**Məsələ 948.** Əgər bədəndəki, yaxud paltardakı qan dirhəm ölçüsündən az miqdarda olarsa və qana bulaşmış nahiyənin ətrafına sirayət edib həmin ətrafları da qana bulaşdıracaq bir rütubətlə təmasda olarsa, hərçənd qan və onun təmasda olduğu rütubət dirhəm ölçüsündə olmasa da, bu halda qılınan namaz batildir. Lakin əgər rütubət yalnız qanla təmasda olarsa və ətrafı qana bulaşdırmazsa, bu vəziyyətdə namaz qılmağın eybi yoxdur.

**Məsələ 949.** Əgər bədəndəki, yaxud paltardakı qan dirhəm ölçüsündən kiçik həcmdədirsə və ona başqa bir nəcasət də toxunarsa, məsələn, üzərinə bir damcı sidik tökülərsə - hətta vacib ehtiyata əsasən, bədənin və ya paltarın pak hissələrinə dəyməsə və yalnız qanın üstünə tökülsə belə - onunla namaz qılmaq doğru deyil.

**Məsələ 950.** Heyz qanı, vacib ehtiyata əsasən, həmçinin nifas və istihazə qanı, özlüyündə (bütün fiziki varlığı ilə) nəcis sayılan it və donuz kimi heyvanların qanı, nəcis olmuş leşin qanı, əti haram olan heyvanın qanı və kitab əhli olmayan kafirin qanı namaz qılanın bədənində, yaxud paltarında istənilən miqdarda olarsa – hətta dirhəm ölçüsündən az miqdarda olsa belə - bu vəziyyətdə qılınan namaz batildir. Lakin digər qanlar, məsələn, kafir olmayan bir insanın qanı, istər öz qanı olsun, istər başqa bir (kafir olmayan) insanın qanı, yaxud əti halal olan bir heyvanın qanı hərçənd bədənin və paltarın bir neçə yerində olsa belə, birlikdə həcmi dirhəm ölçüsündən az miqdarda olduğu təqdirdə bu vəziyyətdə qılınan namazın eybi yoxdur.

**Məsələ 951.** Əgər insan bədən, yaxud paltarındakı qan dirhəm ölçüsündən az olduğunu bilirsə, lakin namaza xəlil gətirən qanlar qismindən olduğunu ehtimal edirsə, həmin qana bulaşmış halda namaz qıla bilər.

**Məsələ 952.** Əgər paltar, yaxud bədəndəki qan dirhəm ölçüsündən az həcmdə olarsa, insan həmin qanın namazın doğruluğuna xələl gətirən qanlar qismindən olduğundan xəbərsiz halda namaz qılarsa və namazdan sonra bu qanın namazın doğruluğuna xələl gətirən qanlardan olduğu ona məlum olarsa, namazı yenidən qılması lazım deyil. Həmçinin, əgər qanın dirhəm ölçüsündən az olması inancı ilə namaz qılarsa və sonra dirhəm ölçüsündə, yaxud daha çox olduğu məlum olarsa, bu halda da namazı yenidən qılmaq lazım deyil.

**Məsələ 953.** Əgər qanın miqdarının dirhəm ölçüsündən az olduğunu və nəticə etibarilə ona bulaşmış qılınan namazın doğru olduğunu, yoxsa dirhəm ölçüsündə və ya daha da artıq olduğunu və nəticə etibarilə ona bulaşmış halda qılınan namazın doğru olmadığını bilməzsə, qanın daha öncə dirhəm ölçüsündə və ya daha artıq olduğu hal istisna olmaqla, bu qana bulaşmış halda namaz qıla bilər.

**Məsələ 954.** Astarsız paltarın üstünə tökülən və onun arxasına çıxan qan eyni qan sayılır və hansı tərəfdə qanın miqyası daha çox olarsa, onu nəzərə almaq lazımdır. Lakin əgər paltarın arxası ayrıca qana bulaşarsa, hər birinin miqyasını ayrıca hesablamaq lazımdır və bu halda paltarın arxa və ön hissəsindəki qan birlikdə dirhəm ölçüsündən az olduğu təqdirdə onunla qılınan namaz doğrudur, dirhəm ölçüsündə və ya daha artıq olduğu təqdirdə isə onunla qılınan namaz batildir.

**Məsələ 955.** Əgər qan astarlı bir paltarın üzərinə düşər və onun astarına da bulaşarsa, yaxud astara düşər və paltarın üst tərəfi də qana bulaşarsa, yaxud da bir paltardan başqa paltara keçərsə, hər birinin miqyasını ayrı-ayırılıqda hesablamaq lazımdır. Beləliklə, əgər birlikdə dirhəm ölçüsündən az edərsə, namaz doğru, əks təqdirdə isə batildir. Lakin əgər onlar (qanın birindən digərinə sirayət etdiyi paltarın astar və üst parçası, yaxud iki ayrı paltar) ürfən onlara dəyən qanın bir qan hesab ediləcəyi şəkildə bir-birinə bitişik olarsa, bu halda qan miqyasının geniş olduğu tərəfdə dirhəm ölçüsündən az olduğu təqdirdə onunla qılınan namaz doğru, dirhəm ölçüsündə və ya daha artıq olduğu təqdirdə isə onunla qılınan namaz batildir.

**2) Yara və çiban qanı**

**Məsələ 956.** Əgər namaz qılanın bədənində, yaxud paltarında yara, yaxud çiban nəticəsində ifraz olan qan olarsa, yara və ya çiban sağalanadək aşağıdakı şərtlər daxilində hərçənd həmin qan dirhəm ölçüsündən çox olsa belə, onunla namaz qıla bilər:

a) Yara önəmli və uzunmüddətli olmalı, ürfən cüzi yaralardan hesab edilməməlidir.

b) Qan yara, yaxud çiban və ətrafından – ürfən yara və ya çiban sahəsindən sayılan nahiyədən – başqa bir yerə sirayət etməməlidir.

Bəzi fəqihlər (Allah onlardan razı olsun!) bu şərti də irəli sürürlər ki, bədənin paklanması, yaxud qana bulaşmış paltarın dəyişdirilməsi ürfün nəzərində həddən ziyadə çətin bir hərəkət kimi qəbul edilməlidir. Lakin bu şərt tərəfimizdən sabit edilməmişdir və hərçənd müstəhəb ehtiyata uyğun olsa da, ona riayət etmək zəruri deyil. Həmçinin, sözügedən qanın xalis olması da zəruri deyil, irin, zərdab, tər, yaxud dərman, üzərinə qoyulan məlhəm və ya dezinfeksiyaedici maddələrə qarışmış olsa belə, yenə də onunla namaz qılmaq olar.

**Məsələ 957.** Əgər tez sağalan və yuyulması asan olan bir kəsik və yara (cüzi yaralar) nəticəsində ifraz olan qan namaz qılanın bədənində, yaxud paltarında qalarsa və dirhəm ölçüsündə, yaxud daha artıq olarsa, namazı batildir.

**Məsələ 958.** Əgər bədənin, yaxud paltarın yaradan uzaq hissəsi yaranın qanı, yaxud rütubəti ilə nəcasətlənərsə, bu halda namaz qılmaq caiz deyil. Beləliklə, məsələn, insanın dirsəyi qanayarsa, həmin qan əlin içinə dəyərsə və dirhəm ölçüsündə və ya daha artıq olarsa, bu vəziyyətdə qılınan namaz doğru deyil. Lakin əgər bədənin, yaxud paltarın yaraətrafı hissəsi bir qədər yaranın qanı, yaxud rütubəti ilə nəcasətlənərsə, bu vəziyyətdə namaz qılmağa məhdudiyyət qoyulmur. Əgər yara, yaxud çiban adətən qanın ətrafına yayılmaması üçün sarğı ilə üzəri örtülən bir nahiyədədirsə, onun üzərini sarımaq hərçənd müstəhəb ehtiyata uyğun olsa da, zəruri deyil.

**Məsələ 959.** Əgər ağız və burun boşluğu kimi yerlərdəki ur (polip) və yaralardan bədənə, yaxud paltara qan bulaşarsa, insan 956-cı məsələdə qeyd edilən şərtlər daxilində bu vəziyyətdə namaz qıla bilər və bu xüsusda ur sızanaqlarının daxildə, yoxsa dəri üzərində olmasının heç bir fərqi yoxdur.

**Məsələ 960.** Burundan gələn qan yara və çiban qanı qismindən sayılmır və dirhəm ölçüsündən az və xalis olduğu hallar istisna olmaqla, onunla bağlı güzəşt yoxdur. Lakin əgər burun boşluğunda qanayan bir yara vardırsa və bu qanda yara və çiban qanı ilə bağlı şərtlər[1]mövcuddursa, ona bulaşmış halda qılınan namaz doğrudur.

**Məsələ 961.** Bədəni yara olan şəxs əgər bədənində və ya paltarında dirhəm ölçüsündə, yaxud daha artıq qan görərsə və yaradan ifraz olduğunu, yoxsa başqa qan olduğunu bilməzsə, vacib ehtiyata əsasən, həmin vəziyyətdə namaz qılmamalıdır.

**Məsələ 962.** Əgər bədəndə bir neçə yara olarsa və həmin yaralar bir-birinə bir yara hesab ediləcək şəkildə yaxındırsa, onların hamısı

[1] Bax: 956-cı məsələ. *Tərc.*

sağalanadək yaralardan ifraz olan qanla namaz qılmaq namazın doğruluğuna xələl gətirmir. Lakin yaralar bir-birindən hər biri ayrıca bir yara hesab ediləcək qədər uzaq olduqda onların hansı sağalarsa, insan namaz qılmaq üçün bədən və paltarını həmin yaranın qanından təmizləyərək yumalıdır. Lakin əgər qan dirhəm ölçüsündən az olarsa və onda dirhəm ölçüsündən az miqdarda olan qanın şərtləri[1] mövcud olarsa, bu halda istisna olaraq yuyulması lazım deyil.

**3) Namaz qılanın kiçik geyimləri**

**Məsələ 963.** Əgər namaz qılanın araqçın, corab, papaq kimi kiçik məhrəm yerləri örtməyən geyimləri nəcasətli olarsa, namaz doğrudur. Lakin əgər onlar nəcis sayılan heyvanın, yaxud it və donuz kimi özlüyündə nəcis olan heyvanın dərisindən və s. hazırlanmışdırsa, bu halda vacib ehtiyata əsasən, həmin geyim və aksessuarlarla qılınan namaz batildir. [2] Beləliklə, əgər insan əlinə taxdığı nəcasətlənmiş üzüklə, yaxud qadın nəcasətlənmiş qızıl zinət əşyaları ilə namaz qılarsa, namazı doğrudur.

**4) Namaz qılanın üzərində olan nəcasətlənmiş əşya (paltar, yaxud başqa bir şey)**

**Məsələ 964.** Əgər namaz qılanın üzərində nəcasətlənmiş dəsmal, bıçaq, mobil telefon, açar kimi əşyalar olarsa, bu namazın doğruluğuna xələl gətirmir. Həmçinin, geyinmədiyi nəcasətli bir geyim də üzərində olarsa, hərçənd həmin geyim məhrəm yerləri örtə bilən geyim olsa belə, namaza xələl gətirmir. Habelə, nəcis olan murdarın (ölü heyvanın) bədəninin ruhu olan hissələrindən, yaxud yırtıcı heyvanların və digər əti haram olan heyvanların bədənindən(dərisindən və s. ) hazırlanan əşyaların namaz qılanın üzərində olması namaza xələl gətirmir. Aydındır ki, bu halda 995-ci məsələdə təfsilatı ilə izah ediləcəyi kimi yırtıcı heyvanların və digər əti haram olan heyvanların bədəninin hər hansı bir hissəsi namaz qılanın bədənində, yaxud məhrəm yerlərini örtə bilən paltarında olmamalıdır.

**5) Zəruri və çıxılmaz vəziyyətlər**

**Məsələ 965.** Zərurət halında nəcasətli bədən, yaxud geyimlə namaz qılmaq namazın doğruluğuna xələl gətirmir. Beləliklə, əgər insan bədənini, yaxud paltarını paklamaq və ya pak geyim tapmaq imkanına malik deyilsə, hərçənd onun üçün dözülməz dərəcədə, həddən ziyadə çətin

---

[1] Bax: 946-cı məsələ. *Tərc.*

[2] Əlbəttə, burada onun nəcasətinin sirayətedici rütubətlə namaz qılanın pak olması lazım olan bədəni, yaxud paltarına keçməməsi üçün diqqətli olmaq lazımdır.

olması səbəbi ilə olsa belə, həmin (nəcasətli) vəziyyətdə hətta vaxt geniş ikən belə, namaz qıla bilər. Əlbəttə, bu vəziyyətdə vaxt geniş ikən namaz qılmaq təqiyyə halı istisna olmaqla digər hallarda yalnız insanın namazın vaxtı başa çatanadək bədənini, yaxud paltarını paklaya və ya pak geyim tapa biləcəyinə arxayın olmaması şərti ilə doğrudur, əks təqdirdə isə gözləməlidir.

Qeyd etmək lazımdır ki, əgər insan şəriətdə nəcasətli bədən, yaxud geyimlə namaz qılmasına icazə verilən hallarda namaz vaxtının başlanğıcında namazını qılarsa, sonra vaxt başa çatmadan üzürlü halı aradan qalxarsa, qıldığı namazı yenidən qılması lazım deyil.

**Beşinci hazırlıq: Namaz qılanın geyimi ilə bağlı şərtlərə riayət etmək**

**Məsələ 966.** Namaz qılanın geyimi üçün yeddi şərt irəli sürülür ki, onlardan beşi həm kişilər, həm də qadınlara, ikisi isə yalnız kişilərə aiddir.

a) Ümumi şərtlər: 1) Geyim bədəni namazda vacib olan qədər örtməlidir; 2) pak olmalıdır; 3) vacib ehtiyata əsasən, mübah olmalıdır; 4) murdar(nəcis sayılan heyvan leşi) mənşəli olmamalıdır; 5) yırtıcı heyvan, hətta vacib ehtiyata əsasən, digər əti haram olan heyvan mənşəli olmamalıdır.

b) Kişilərə məxsus şərtlər: 1) Namaz qılan kişidirsə, geyimi qızıldan olmamalıdır; 2) Namaz qılan kişidirsə, geyimi xalis ipəkdən olmamalıdır.

## Namaz qılanın paltarı ilə əlaqədar ümumi şərtlər

***Birinci şərt: Geyim bədəni namazda vacib olan qədər örtməlidir***

**Məsələ 967.** Kişi namazda hərçənd kimsə onu görməsə belə, məhrəm yerlərini örtməlidir və daha yaxşı olar ki, bədəninin göbəyindən dizinə qədər hissəsini də örtsün.

**Məsələ 968.** Qadın namazda hərçənd kimsənin olmadığı xəlvət bir yerdə namaz qılsa belə, bütün bədənini, hətta qolunun bazuönü hissəsi, ayağının baldır nahiyəsi, boyun, baş və saçını örtməlidir. [1] Lakin aşağıdakı üç nahiyənin örtülməsi vacib deyil:

a) üzün, adətən,örpəyin örtmədiyi hissəsi (örpəyi yaxasına bağlasa belə);

b) əllərin biləkdən barmaqların ucuna kimi olan hissəsi;

c) ayaqların topuqdan aşağı hissəsi.

Qeyd etmək lazımdır ki, qadın bədəninin vacib olan hissəsini örtdüyünə yəqinlik hasil etmək üçün üzünün kənarlarının, habelə bilək və

---

[1] Buna əsasən, qadının qeyd edilən üç yer istisna olmaqla, qadının bütün bədəni örtülməsi namazda vacib olan məhrəm yerlər hökmündə hesab edilir.

topuqlarının aşağısının də bir hissəsini örtməlidir. Həmçinin, bilək və topuğun özünün də örtülməsi vacibdir.

**Məsələ 969.** Həddi-büluğa çatmayan qız uşağı namaz qılmaq istəyərsə, namaz əsnasında həddi-büluğa çatmış qadın kimi örtünməlidir. Yalnız istisna olaraq, həddi-büluğa çatmayan qızın namaz əsnasında baş, saç və boynunu örtməsi lazım deyil.

**Məsələ 970.** Həddi-büluğa çatmış qadın namaz əsnasında boynunu və çənəsinin altını örtməlidir. Lakin qadının çənəsinin adətən örpəyin (yaxa nahiyəsindən bağlansa belə) örtmədiyi hissəsini örtməsi lazım deyil.

**Məsələ 971.** Qadın, vacib ehtiyata əsasən, namaz əsnasında bədənini (istisna edilən yerlərdən başqa) hətta özündən belə gizlətməlidir. Beləliklə, əgər qadın qısaqol bir libas, yaxud topuqlarını örtməyən bir şalvar geyinmişdirsə və namaz əsnasında kimsənin onun bədənini görməyəcəyi şəkildə çadraya bürünərsə, lakin üzünü çadranın içinə saldığını görə özü bədəninin çılpaq hissələrini görərsə, bu, namazın doğruluğuna xələl gətirir və vacib ehtiyat bu vəziyyətdə namaz qılmamağı tələb edir.

**Məsələ 972.** Qeyd edilənlərə əsasən, qadınların namazda ayaqlarının topuqlarından aşağı hissəsini örtməsi lazım deyil. Lakin nəzərə almaq lazımdır ki, topuqlardan aşağı hissənin naməhrəm kişidən gizlədilməsi vacibdir. Əgər naməhrəm kişinin namaz qılmaqla məşğul olan qadının ayağına (topuqdan aşağı hissəsinə) baxması kimi bir vəziyyət qarşıya çıxarsa, qadının ayağının sözügedən hissəsini də örtməsi vacibdir və bu hökm namazın özü ilə deyil, naməhrəmin varlığı ilə əlaqədardır. Beləliklə, əgər günah edərək ayaqlarını naməhrəmdən gizlətməzsə, namazı batil deyil.

**Məsələ 973.** Naməhrəmin olmadığı yerdə üz və əlin biləklərdən barmaqlaradək olan hissəsi üçün istifadə olunan bəzək vasitələrinin, zinət əşyalarının örtülməsi lazım deyil. Yaxınlıqda naməhrəm olarsa və bəzək vasitəsinin, zinət əşyasının naməhrəmdən gizlədilməsi vacib olduğu halda qadın onu gizlətməzsə, günahkardır, lakin namazı doğrudur.

**Məsələ 974.** Örtünmənin şərt olması xüsusunda vacib namazlarla müstəhəb namazlar arasında heç bir fərq yoxdur. Yalnız cənazə namazında onun şərt olması lazım ehtiyata əsaslanır.

**Məsələ 975.** İnsan unudulmuş səcdənin qəzasını edərkən namazda olduğu kimi örtünməlidir (geyinməlidir). Səhv səcdəsi əsnasında bədənin izah edilən qaydada örtülməsi vacib deyil, hərçənd müstəhəb ehtiyata əsasən, insan səhv səcdəsi edərkən də örtünməlidir. Həmçinin, tilavət səcdəsi (Quranın vacib səcdəsi) və şükr səcdəsini edərkən də bədənin örtülməsi lazım deyil.

**Məsələ 976.** Əgər insan namazda qəsdən məhrəm yerlərini[1] örtməzsə, namazı batildir. Əgər unutqanlıq, yaxud qəflət səbəbi ilə məhrəm yerlərini örtməzsə və namazdan sonra namaz əsnasında məhrəm yerlərinin aşkarda qaldığını başa düşərsə, namazı doğrudur. Əgər məsələni bilmədiyinə görə örtməzsə, məlumatsızlığı əlaqədar məsələlərini öyrənməkdə yol verdiyi səhlənkarlığından irəli gəlirsə, vacib ehtiyata əsasən, namazını yenidən qılmalıdır. Lakin əgər belə deyilsə və qasir cahil hesab edilirsə, namazı doğrudur.

**Məsələ 977.** Əgər bir şəxs namaz əsnasında məhrəm yerlərinin, yaxud bədəninin məhrəm yer hökmünün şamil olunduğu bir hissəsinin açıq qaldığı başa düşərsə, dərhal onu örtməlidir və bu halda namazı yenidən qılması lazım deyil. Lakin vacib ehtiyata əsasən, məhrəm yerlərinin göründüyünü başa düşdükdə bu halda namaz hərəkətlərindən hər hansı birini (həmin hissəni örtənədək) yerinə yetirməməlidir.

**Məsələ 978.** Əgər geyim ayaq üstə durarkən məhrəm yerləri, yaxud bədənin məhrəm yerlər hökmünün şamil olunduğu bütün hissələrini örtürsə, ancaq başqa bir vəziyyətdə, məsələn, rüku və səcdə halında örtməyə bilərsə, məhrəm yerləri, yaxud bədənin məhrəm yerlər hökmünün şamil olunduğu hər hansı bir hissəsi görünərkən onu başqa bir vasitə ilə örtmək istədiyi təqdirdə namazı doğrudur. Lakin müstəhəb ehtiyat həmin geyimlə namaz qılmamağı tələb edir.

**Məsələ 979.** İnsan namazda zərurət olmadan da geyim hesab edilməyən ot, yarpaq, emal olunmamış pambıq, yaxud yun və bu qəbildən olan şeylərlə bədənini çılpaq sayılmayacaq şəkildə örtə bilər. Lakin müstəhəb ehtiyata əsasən,örtünmə şəkli ürfən geyim adlandırıla biləcək tərzdə olmalıdır.

**Məsələ 980.** Qeyri-zərurət hallarında insanın məhrəm yerlərini və məhrəm yerlər hökmünün şamil olunduğu hissələrini palçıqla (gillə) örtməsi ondan çılpaq sayılmayacaq miqdarda çox istifadə etdiyi təqdirdə kafidir. Lakin qeyri-zərurət hallarında dərini sadəcə gil, yaxud lilə bulaşdırmaq kafi deyildir. Örtünmək üçün bir vasitə tapa bilmədiyi zərurət hallarında isə sözügedən yerlərin dərisinin görünməməsi üçün hərçənd həmin nahiyələrin həcmi görünə bilsə də, dərinin səthini pak gil, lil və bu qəbildən olan şeylərə bulaşdıraraq örtməlidir.

**Məsələ 981.** Əgər insanın namazda örtünmək üçün bir şeyi yoxdursa, tapa biləcəyinə ümidini itirmədiyi təqdirdə, vacib ehtiyata əsasən, namazını təxirə salmalı və əgər bir şey tapmazsa, namaz vaxtının sonunda namazını vəzifəsinə uyğun şəkildə qılmalıdır. Lakin ümidsiz olarsa,

---

[1] Qeyd etmək lazımdır ki, bu məsələdə və eləcə də sonrakı məsələlərdə qadının bütün bədəninə 968-ci məsələdə qeyd edilən yerlər istisna olmaqla məhrəm yerlər hökmü şamil olunur.

namaz vaxtının başlanğıcında vəzifəsinə uyğun şəkildə - hətta çılpaq vəziyyətdə olsa belə - namaz qıla bilər və bu halda əgər namazı vaxtın başlanğıcında qılarsa və namazdan sonra gözlənilmədən üzürlü halı aradan qalxarsa, namazı yenidən qılması lazım deyil.

**Məsələ 982.** Namaz qılmaq istəyən şəxs əgər örtünmək üçün hətta yarpaq, ot, gil, palçıq və lil də tapa bilməzsə və namaz vaxtının sonunadək bədənini örtə biləcək bir şey tapacağına ümidi olmazsa, məhrəm yerlərini, yaxud bədəninin məhrəm yerlər hökmünün şamil olunduğu hissələrini görməməli olan, sözügedən yerləri ondan gizlətməsi vacib olan bir şəxsin onu görmədiyinə arxayın olduğu təqdirdə ayaq üstə, qeyri-zərurət hallarında etdiyi qaydada rüku və səcdə edərək namaz qılmalıdır. Belə bir şəxsin onu görəcəyini ehtimal etdiyi təqdirdə isə məhrəm yerləri görünməyəcək şəkildə, məsələn oturaq halda namaz qılmalıdır. Əgər belə bir şəxsin onu görməməsi üçün qeyri-zərurət hallarına məxsus qiyam, rüku və səcdədən imtina etmək məcburiyyətində qalarsa, yəni bu üç halın hər birində məhrəm yerləri görünəcəksə, oturaraq rüku və səcdələrini işarə ilə həyata keçirməlidir. Əgər bu üç hərəkətdən yalnız birindən imtina etmək məcburiyyətindədirsə, yalnız həmin hərəkətdən imtina etməlidir. Beləliklə, əgər ayaq üstə dura (qiyamı icra etmək üçün), rüku və səcdləri isə işarə ilə yerinə yetirə bilirsə, bu qaydada namaz qılmağı tərcih etməlidir. Hərçənd bu halda müstəhəb ehtiyata əsasən, iki dəfə namaz qılmalıdır. Bir dəfə ayaq üstə (qiyam üçün), rüku və səcdələr üçün işarə üsulundan istifadə etməklə, bir dəfə də oturaq halda namaz qılmalı və rüku və səcdələrini də oturaq halda icra etməlidir və lazım ehtiyata əsasən, çılpaq şəxs namaz əsnasında məhrəm yerlərini bəzi bədən üzvləri ilə, məsələn, oturaq halda iki dizi, ayaq üstə durarkən isə iki əli ilə örtməlidir.

Qeyd etmək lazımdır ki, zərurət hallarında qılınan bu qaydada namaz "çılpaq namaz", yaxud "çılpaqların namazı" adlandırılır.

***İkinci şərt: Pak olmalıdır***

**Məsələ 983.** Namaz qılanın geyimi pak olmalıdır və əgər bir şəxs qeyri-zərurət halında nəcasətli geyimlə namaz qılarsa, namazı batildir və məsələ namaz qılanın bədən və geyiminin paklı mövzusunda ətraflı şəkildə izah edilmişdir.

***Üçüncü şərt: Vacib ehtiyata əsasən, qəsb edilmiş olmamalıdır***

**Məsələ 984.** Namaz qılanın məhrəm yerlərini örtən geyimi, vacib ehtiyata əsasən, qəsb edilmiş olmamalıdır. Qəsb edilmiş paltarı geyinməyin haram olduğunu bilən, yaxud təqsirli surətdə və səhlənkarlıq

ucbatından bu məsələ ilə bağlı hökmü bilməyən şəxs qəsdən həmin geyimlə namaz qılarsa, vacib ehtiyata əsasən, namazı batildir. Lakin təklikdə məhrəm yerləri örtməyən kiçik əşyaların, həmçinin, namaz qılanın əyninə geyinmədiyi,hərçənd məhrəm yerlərin örtülə biləcəyi ölçüdə olan kufiyə, iri yaylıq, yaxud ciblik dəsmalın, habelə namaz qılanın əyninə geyindiyi, lakin altında məhrəm yerləri örtən başqa bir mübah örtünmə vasitəsi (geyim) olan paltarın qəsb edilmiş mal olması namaza xələl gətirmir. Hərçənd, müstəhəb ehtiyat bu sadalananların da namaz qılanın üzərində olmamasını tələb edir.

Qeyd etmək lazımdır ki, qadınlar xüsusunda onların namazda örtməsi vacib olan baldır və bazuönü kimi nahiyələrə məhrəm yerlər hökmü şamil olunur.

**Məsələ 985.** Qəsb edilmiş paltarın geyinilməsinin haram olduğunu bilən, lakin onunla namaz qılmaqla bağlı hökmü bilməyən şəxs əgər qəsdən qəsb edilmiş geyimlə namaz qılarsa, əvvəlki məsələdəki izahlar nəzərə alınmaqla, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 986.** Əgər insan geyiminin qəsb edilmiş bir mal olduğunu bilməzsə, yaxud unudarsa və həmin geyimlə namaz qılarsa, namazı doğrudur. Lakin əgər bir şəxs özü bir geyimi qəsb edərsə, sonra qəsb etdiyini unudaraq onunla namaz qılarsa, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 987.** Əgər insan geyiminin qəsb edilmiş mal olduğunu bilməzsə, yaxud unudarsa və namaz əsnasında başa düşərsə (yaxud xatırlayarsa), məhrəm yerlərinin, yaxud bədəninin məhrəm yerlər hökmünün şamil olunduğu hissələrinin başqa bir şeylə örtüldüyü və dərhal, yaxud namazın hissələri arasında fasiləsiz ardıcıllıq pozulmadan qəsb edilmiş geyimi əynindən çıxara bildiyi təqdirdə onu çıxarmalıdır və ehtiyatlı olmalıdır ki, qiblədən dönməsin. Bu halda onun namazı doğrudur. Lakin əgər başqa bir şey onun məhrəm yerləri, yaxud bədəninin məhrəm yerlər hökmünün şamil olunduğu hissələrini örtməmişdirsə və geyimin əyindən çıxarılması məhrəm yerlərin,yaxud bədənin məhrəm yerlər hökmünün şamil olunduğu hissələrinin aşkara çıxmasına səbəb olacaqsa, bu halda minimum birrükətlik vaxt qaldığı təqdirdə namazını dayandırmalı və qəsb edilməmiş geyimlə namaz qılmalıdır. Əgər bu qədər də vaxt qalmamışdırsa, geyimi namaz əsnasında çıxarmalı və namazını "çılpaqların namazı" ilə bağlı göstərişlərə uyğun qaydada davam etdirməlidir.

**Məsələ 988.** Əgər bir şəxs canını qorumaq üçün qəsb edilmiş geyimlə namaz qılarsa, namazın vaxtı başa çatanadək başqa bir geyimlə namaz qıla bilməyəcəyi təqdirdə, yaxud o vaxtadək bu imkana sahib olacağına baxmayaraq, mövcud vəziyyətdə qəsb edilmiş geyimlə namaz

qılmaq məcburiyyətində qalması özündən asılı olan səbəblərdən irəli gəlmədiyi, məsələn, geyimi şəxsən özü qəsb etmədiyi təqdirdə namazı doğrudur. Lakin hazırkı məcburiyyəti keçmişdə onun özündən asılı olan səbəblərdən irəli gəldiyi təqdirdə, vacib ehtiyata əsasən, namazı doğru deyil. Həmçinin, əgər qəsb edilmiş geyimin oğurlanmaması üçün onu əynindən çıxarmayaraq üzərində ikən namaz qılarsa və namazın vaxtı başa çatanadək başqa bir geyimlə namaz qıla bilməyəcəksə, yaxud həmin geyimi özündə saxlaması onu ilk fürsətdə sahibinə qaytarmaq məqsədini daşıyırsa, namazı doğrudur.

**Məsələ 989.** Əgər insan bir geyimi xümsü verilməmiş bir pulla almışdırsa, burada iki vəziyyət mövcud ola bilər:

a) Ödəniş "zimmətdə külli" üsulu ilə aparılarsa, yəni məhsulun (burada: geyimin) dəyərini alıcıların əksər alqı-satqı işlərində etdikləri kimi hər hansı (qabaqcadan təyin və satıcıya təqdim edilməmiş) bir vasitə (pul) ilə ödəməyi üzərinə götürərsə, bu halda sözügedən şəxs geyimin sahibi olur və ondan istifadə etmək onun üçün caizdir. Lakin xümsü verilməmiş pulu məsrəf etdiyinə və xümsün verilməsini gecikdirdiyinə görə günahkardır və satıcıya verdiyi (geyim üçün ödədiyi) pulun da xümsünü verməlidir.

b) Məhz xümsü verilməmiş pulla ödəniş edərək geyim alarsa, yəni alqı-satqıda ödəniş "şəxsi" üsulla[1]edilərsə, satıcı isnaəşəri şiə olduğu təqdirdə pulun sahibi olur, xüms puldan geyimə keçir və xüms verməzdən öncə həmin geyimdə namaz qılmağa qəsb edilmiş geyimlə namaz qılmaq hökmü şamil olunur. Satıcı isnaəşəri şiə olmadığı təqdirdə isə alqı-satqının beşdə birinin doğru sayılması şəriət hakiminin icazəsindən asılıdır. Belə ki, əgər şəriət hakimi icazə verərsə, həmin geyimdə namaz qılmaqla bağlı hökm öncəki vəziyyətə (satıcının isnaəşəri şiə olduğu hala) şamil olunan hökm kimidir. Əgər icazə verməsə, alqı-satqının beşdə biri batildir və bu vəziyyətdə satıcı alqı-satqının beşdə birinin batilliyindən xəbərdar olduğu halda yenə də alıcının geyimdən istifadə etməsinə razıdırsa, həmin geyimdə namaz qılmaq caizdir. Satıcının razı olub-olmadığı məlum deyilsə, sözügedən geyimlə namaz qılmağa qəsb edilmiş geyimlə namaz qılmaq hökmü şamil olunur.

### *Dördüncü şərt: Murdarın tərkib hissələrindən hazırlanmış olmamalıdır*

**Məsələ 990.** Namaz qılanın geyimi, hətta vacib ehtiyata əsasən, təklikdə məhrəm yerləri örtə bilməyəcək kiçik geyimləri də sıçrayıcı qanı

[1] "Zimmət əsasında" və "eyn əsasında" (şəxsi) alqı-satqılarla bağlı izah 2379-cu məsələdə və onunla bağlı dipnotda veriləcəkdir.

olan, yəni damarı kəsildikdə ondan qan sıçrayan bir heyvanın ölüsündən hazırlanmış olmamalıdır. Müstəhəb ehtiyata əsasən, insan pulcuqlu balıqlar kimi sıçrayıcı qanı olmayan əti halal heyvanların ölüsündən hazırlanmış geyimlərlə də namaz qılmamalıdır. [1]

**Məsələ 991.** Nəcis sayılan ölü heyvanın bədənindən hər hansı bir şey, məsələn, ruh daşıyıcı sayılan ət və dərisi namaz qılanın üzərində olarsa, məsələn, onu bir qutunun, yaxud plastik torba və ya qabın içinə qoyub namaz halında üzərində saxlayarsa, namazı doğrudur.

**Məsələ 992.** Əgər əti halal olan heyvanın ölüsündən ruh daşıyıcısı olmayan tük və yun kimi hər hansı bir şey namaz qılanın üzərində olarsa, yaxud onlardan hazırlanan bir geyimlə namaz qılarsa, namazı doğrudur.

**Məsələ 993.** İnək kimi sıçrayıcı qanı olan əti halal heyvanların dərisindən emal edilmiş dəri gödəkçə və bu qəbildən olan geyimlər dərinin şəri kəsim qaydalarına uyğun qaydada kəsilmiş bir heyvana aid olduğu məntiqli əsaslarla ehtimal edildiyi təqdirdə, hərçənd şəri kəsim əlaməti (holoqram)olmasa, qeyri-müsəlman ölkələrinin istehsalı olsa və onu idxal edən müsəlman da şəri kəsimə riayət edilib-edilmədiyini araşdırmasa belə, pakdır və onunla namaz qılmaq caizdir. Lakin şəri kəsim qaydalarına uyğun kəsilməyən bir heyvanın dərisindən olduğuna dair yəqinlik, yaxud arxayınlıq hasil edildiyi təqdirdə isə nəcis və murdar hesab edilir.

**Məsələ 994.** Plastik və bənzər materiallardan hazırlanan süni dəri məhsulları ilə namaz qılmaq namazın doğruluğuna xələl gətirmir. Həmçinin, əgər insan bir məhsulun süni, yoxsa murdardan emal edilən təbii dəri olması xüsusunda şəkk edərsə, onunla namaz qılması namazın doğruluğuna xələl gətirmir.

***Beşinci şərt: Yırtıcı heyvanın, vacib ehtiyata əsasən, hətta digər əti haram olan heyvanların da bədən hissələrindən hazırlanmış olmamalıdır***

**Məsələ 995.** Namaz qılanın geyimi (corab kimi təklikdə məhrəm yerləri örtməyən kiçik geyimlər istisna olmaqla) yırtıcıların, hətta lazım ehtiyata əsasən, ümumiyyətlə dovşan kimi əti haram olan hər hansı bir heyvanın bədən hissələrindən hazırlanmış olmamalıdır. Habelə, namaz qılanın geyimi və bədəni bu qəbildən olan heyvanların idrar, nəcis, tər, süd, yaxud tükünə də bulaşmış olmamalıdır. Lakin əgər əti haram olan heyvanın tükü olduqca az olarsa, məsələn, namaz qılanın geyiminin üzərində bir, iki, yaxud üç tük olarsa, namaza xələl gətirmir. Həmçinin,

[1] İlan kimi sıçrayıcı qanı olmayan əti haram heyvanların ölüsündən hazırlanmış geyimdə namaz qılmaqla bağlı hökm beşinci şərtdə açıqlanacaqdır.

əgər onların bədənindən hər hansı bir şeyi qutu, yaxud plasik torba kimi şeylərə qoyub üzərində saxlayarsa, namaza xələl gətirmir.

**Məsələ 996.** Pişik kimi pak olan əti haram heyvanların ağız, yaxud burun seliyi və ya başqa rütubəti namaz qılanın bədəninə, yaxud geyiminə sirayət edərsə, bədən və ya geyim yaş olduğu halda qılınan namaz batildir, lakin əgər quruyarsa və rütubətin özü aradan gedərsə, namazı doğrudur.

**Məsələ 997.** Əgər başqa bir insanın tükü, təri və ağzının suyu namaz qılanın bədənində, yaxud geyimində qalarsa, namaza xələl gətirmir. Həmçinin, insan mirvari, mum və bal üzərində ikən namaz qıla bilər.

**Məsələ 998.** Əgər insan geyiminin əti halal, yoxsa əti haram heyvan mənşəli olduğu xüsusunda şəkk edərsə,[1]istər müsəlman ölkəsində istehsal edilmiş olsun, istər qeyri-müsəlman ölkəsində, həmin geyimlə namaz qıla bilər. Lakin bu şərtlə ki, həmin geyimin nəcis leşin ruh daşıyıcısı olan bədən üzvlərindən hazırlanması məlum olmamalıdır. [2] Bu halda həmin geyimdə namaz qılmaqla bağlı hökm namaz qılanın geyiminin dördüncü şərti ilə bağlı məsələlərdə açıqlanmışdır.

**Məsələ 999.** Sədəf və ondan hazırlanan şeylərlə, məsələn, sədəf düymə ilə namaz qılmaq olar.

**Məsələ 1000.** Namazda sincab dərisindən hazırlanmış libas geyinmək namaza xələl gətirmir, lakin müstəhəb ehtiyat onunla namaz qılmamağı tələb edir.

**Məsələ 1001.** İnsan əti haram olan heyvandan hazırlandığını bilmədiyi, yaxud unutduğu bir geyimlə namaz qılarsa, namazı doğrudur.

## Kişilərə məxsus şərtlər

***Birinci şərt: Namaz qılan kişidirsə, geyimi zərbaf[3]olmamalıdır***

**Məsələ 1002.** Zərbaf libas geyinmək, habelə qızıla bürünmək və ondan hazırlanan zinət əşyaları taxmaq (hərçənd ürfümüzdə qızıl geyim hesab edilməsə belə), məsələn, sinəyə qızıl boyunbağı, ələ qızıl üzük

---

[1] Burada şəkk deyərkən hökmdə şəkk halları nəzərdə tutulmur. Məsələn, əgər insan geyiminin dovşan kürkündən hazırlandığını bilirsə, lakin dovşanın əti halal, yoxsa əti haram heyvan olduğunu bilmirsə, bu məsələ ona şamil olunmur və o, ya ehtiyat etməli, ya da dovşanın əti halal, yoxsa əti haram heyvan olduğunu öyrənməlidir. Lakin əgər geyiminin dovşan, yoxsa qoyun mənşəli olduğunu bilmirsə (hökmdə deyil, mövzuda şəkk edirsə) bu məsələ ona şamil olunur və məsələdə qeyd edilən şərtlər çərçivəsində həmin geyimlə namaz qıla bilər.

[2] Məsələn, insan dəri məhsulunun inək, yoxsa fil dərisindən emal edildiyini bilmirsə, ancaq həmin heyvanın islami kəsim qaydalarına uyğun olaraq kəsilmədiyinə əmindirsə, həmin geyimdə namaz qıla bilməz.

[3] Qızıl və ya güləbətinlə qarışıq parça, habelə bu parçadan tikilmiş paltar. *Tərc. (Mənbə: Azərbaycan dilinin izahlı lüğəti)*

taxmaq və biləyə qızıl saat bağlamaq kişilər üçün həm namazda, həm də digər hallarda haramdır və onlarla qılınan namaz batildir. Lakin qadınlar üçün həm namazda, həm də digər hallarda işkalsızdır. Zinət əşyaları ilə bağlı hökmlər sonrakı məsələlərdə izah ediləcəkdir.

**Məsələ 1003.** Vacib ehtiyata əsasən, kişi paltarının düymələrini, yaxud qabaq dişlərini qızıldan düzəltdirməməlidir (bu, ürfən zinət hesab edilir), lakin bu, namazın batil olmasına səbəb olmur. Əgər arxa dişlərini qızıldan düzəltdirərsə, bu, ürfən zinət hesab edilmir və bu halda ehtiyata lüzum yoxdur.

**Məsələ 1004.** Əgər kişi üzüyünün, yaxud geyiminin qızıldan (qızıl işləməli) olduğunu bilməzsə, unudarsa, yaxud bu xüsusda şəkkə düşərsə və onunla namaz qılarsa, namazı doğrudur.

***İkinci şərt: Namaz qılan kişidirsə, geyimi xalis ipəkdən olmamalıdır***

**Məsələ 1005.** Namaz qılan kişinin təkbaşına məhrəm yerləri örtməyə yarayan geyimi xalis ipəkdən olmamalıdır və namazdan başqa vaxtlarda da belə bir libasın geyinilməsi kişilər üçün haramdır.

**Məsələ 1006.** Əgər paltarın astarı, yaxud onun bir hissəsi xalis ipəkdən olarsa, onu geyinmək kişi üçün haramdır və onunla qılınan namaz batildir.

**Məsələ 1007.** Əgər kişinin təkbaşına məhrəm yerləri örtməyə yaramayan papaq, araqçın, yaxud qurşaq kimi kiçik geyimləri ipəkdən olarsa, namazına xələl gəlmir, hərçənd müstəhəb ehtiyat namazda onları geyinməməyi tələb edir.

**Məsələ 1008.** Əgər geyimin parçasının ipək haşiyəli olması namaza xələl gətirmir, lakin müstəhəb ehtiyat onun eninin bir-birinə bitişdirilmiş dörd barmaqdan artıq olmamasını tələb edir. Həmçinin, əgər geyimin düyməsi və geyimdə istifadə edilən saplar, yaxud qaytanlar ipəkdən olarsa, hərçənd nə qədər çox olsa da, namaza xələl gətirmir.

**Məsələ 1009.** Kişi xalis ipəkdən, yoxsa başqa bir parçadan olduğunu bilmədiyi bir paltarı geyinə bilər və onunla qıldığı namaza da xələl gəlmir.

**Məsələ 1010.** Əgər namaz qılan kişinin cibində ipək dəsmal və bu qəbildən olan bir şey olarsa, işkalı yoxdur və namazı batil etmir.

**Məsələ 1011.** İpək geyim xüsusunda qadın üçün istər namaz, istərsə digər hallarda ehtiyata lüzum yoxdur. Habelə, həddi-büluğa çatmayan oğlan uşağının vəlisi (valideyni, yaxud qəyyumu) ona ipək paltar geyindirə bilər və həddi-büluğa çatmayan oğlan uşağının ipək paltarla qıldığı namazı doğrudur.

## Namaz qılanın geyimi ilə bağlı bəzi hökmlər

**Məsələ 1012.** Zərurət halında xalis ipək və zərbaf libas geyinmək olar. Həmçinin, paltar geyinməsi zəruri olan və bunlardan başqa geyimi olmayan şəxs bu libaslarla namaz qıla bilər.

**Məsələ 1013.** Əgər insanın qəsb edilmiş, yaxud xalis ipəkdən və ya zərbaf parçadan tikilmiş libasdan başqa bir geyimi yoxdursa və paltar geyinməsi zəruri deyilsə, 982-ci məsələdə geyimsizlər üçün izah edilən qaydada namaz qılmalıdır.

**Məsələ 1014.** Əgər insanın yırtıcı heyvandan (dərisindən, tükündən və s. ) hazırlanan geyimdən başqa bir geyimi yoxdursa, paltar geyinməsi zəruri olduğu və vaxt başa çatanadək zərurət halının davam edəcəyi təqdirdə həmin geyimlə namaz qıla bilər, zəruri olmadığı təqdirdə isə 982-ci məsələdə geyimsizlər üçün izah edilən qaydada namaz qılmalıdır. Əgər yırtıcı olmayan digər bir əti haram olan heyvandan (dərisindən, tükündən və s. ) hazırlanan geyimdən başqa bir geyimi yoxdursa, həmin paltarı geyinməsi zəruri deyilsə, lazım ehtiyata əsasən, bir dəfə həmin geyimlə, bir dəfə də geyimsizlər üçün izah edilən qaydada olmaqla iki dəfə namaz qılmalıdır.

**Məsələ 1015.** Əgər insanın namazda məhrəm yerlərini örtmək üçün istifadə edə biləcəyi bir şeyi yoxdursa, onu hərçənd kirayə, yaxud satın almaq yolu ilə də olsa tədarük etməlidir. Lakin geyim tapmaq həddən ziyadə çətinliyə səbəb olacaqsa (hətta yoxsulluq, yaxud geyimin bahalığı və təzyiqə, zorakılığa məruz qalma kimi hallarla əlaqədar olduqda belə), geyim əldə etməsi vacib deyil və 982-ci məsələdə geyimsizlər üçün izah edilən qaydada namaz qıla bilər. Lakin zərərə dözərək əldə etdiyi geyimlə namaz qıldığı təqdirdə namazı doğrudur.

**Məsələ 1016.** Geyimi olmayan şəxs əgər başqa bir insan ona bir geyim bağışlayarsa, yaxud ariyə (burovuz) qaydası ilə (müəyyən zaman ərzində ödənişsiz olaraq) istifadəsinə verərsə, qəbul etmək həddən ziyadə çətinliklə nəticələnməyəcəyi təqdirdə qəbul etməlidir. Hətta əgər ariyə almaq, yaxud hədiyyə istəmək onun üçün həddən ziyadə çətin deyilsə, geyimi olan bir şəxsdən bir geyim hədiyyə istəməli, yaxud ariyə almalıdır.

**Məsələ 1017.** Kişilərin qadın paltarı, qadınların da kişi paltarı geyinməsi haramdır. Belə geyimlərlə qılınan namaz batil deyil, lakin vacib ehtiyata əsasən, kişinin özünü qadın görkəminə salması, yaxud qadının özünü kişi görkəminə salması caiz deyil.

**Məsələ 1018.** Uzanmış halda namaz qılmalı olan şəxsin üzərinə çəkdiyi yataq örtüyünün geyinmə hesab edildiyi, məsələn, ona büründüyü

hal istisna olmaqla,namaz qılanın geyimi ilə bağlı şərtlərə uyğun olması lazım deyil.

## Namaz qılanın geyimi ilə əlaqədar müstəhəb və məkruh məqamlar

**Məsələ 1019.** Böyük fəqihlərin bir qismi namaz qılanın geyimi ilə əlaqədar bir sıra məqamları müstəhəb hesab etmişdir. O cümlədən:

1) Kişinin başına "təht əl-hənək"li[1] əmmamə qoyması;
2) Kişinin əba geyinməsi, qadının isə çadraya bürünməsi;
3) Ağ libas geyinmək;
4) Geyimlərin ən təmizini geyinmək;
5) Bir neçə paltar geyinmək;
6) Xoş ətirdən istifadə etmək;
7) Barmağa əqiq üzük taxmaq;
8) Qadının namaz əsnasında ayağının topuqdan aşağı hissəsini, həddi-büluğa çatmamış qız uşağının isə başını örtməsi.

**Məsələ 1021.** Böyük fəqihlərin bir qismi namaz qılanın geyimi ilə əlaqədar bir sıra məqamları məkruh hesab etmişdir. O cümlədən:

1) Qara rəngli paltarlar geyinmək;[2]
2) Çirkli paltar geyinmək;
3) Dar paltar, o cümlədən ayağı sıxan dar corab geyinmək;
4) Şərab içən insanın nəcasətli olduğu məlum olmayan paltarını geyinmək;
5) Nəcasətdən çəkinməyən şəxsin nəcasətli olduğu məlum olmayan paltarını geyinmək;
6) Üzərində şəkil olan paltar geyinmək;
7) Ələ üzərində təsvir olan üzük taxmaq;
8) Paltarın düymələrinin açıq olması;
9) Məhrəm yerləri örtmək üçün istifadə edilə bilməyən kiçik geyimlərin nəcasətli olması.

## Altıncı hazırlıq: Namazın qılındığı yer ilə əlaqədar şərtlərə riayət etmək

**Məsələ 1022.** Namazın qılındığı yer yeddi şərtə cavab verməlidir:

1) Vacib ehtiyata əsasən, qəsb edilmiş yer olmamalıdır;

---

[1] Əmmamənin çənənin altı ilə uzadılaraq digər çiyinin üstünə atılan hissəsinə "təht əl-hənək", bu hərəkətə isə "təhnik" deyilir. *Tərc.*

[2] Əba, çadra, seyidlərin əmmaməsi və İmam Hüseynə (ə) əzadarlıq kimi dini ənənələrin uca tutulması hesab edilən hallar istisnadır.

2) Sabit (hərəkətsiz) olmalıdır;
3) İnsan namazı başa çatdıra biləcəyini ehtimal etdiyi bir yerdə namaz qılmalıdır;
4) Həmin yerdə vacib hərəkətlərin icrası mümkün olmalıdır;
5) Namazın qılındığı yer nəcasətlidirsə, namaz qılanın geyim və bədəninin nəcasətlənməsinə səbəb olmamalıdır;
6) Qadın kişinin önündə, yaxud onunla yanaşı (eyni sırada) namaz qılmamalıdır (vacib ehtiyata əsasən);
7) Namazın qılındığı yer hamar səthli olmalıdır.

***Birinci şərt: Vacib ehtiyata əsasən, qəsb edilmiş yer olmamalıdır***

**Məsələ 1023.** Qəsb edilmiş mülkiyyətdə (burada: daşınmaz əmlak) hərçənd öz malı olan xalça, döşəmə örtüyü, taxt və bu qəbildən olan şeylərin üzərində olsa belə namaz qılan şəxsin, həmçinin, öz mülkiyyətində namaz qılan, lakin namazını üzərində qıldığı xalça, taxt və s. qəsb edilmiş mal olan şəxsin namazı, vacib ehtiyata əsasən, batildir. Lakin qəsb edilmiş tavan örtüyünün altında, yaxud qəsb edilmiş çadırda namaz qılmaq olar.

**Məsələ 1024.** Mənfəəti başqasına aid olan bir mülkiyyətdə istifadə hüququna malik olan şəxsdən icazəsi olmadan namaz qılmağa qəsb edilmiş mülkiyyətdə namaz qılmaq hökmü şamil olunur. Məsələn, əgər icarəyə verilmiş evin mülkiyyətçisi, yaxud başqa bir şəxs icarəyə götürənin icazəsi olmadan orada namaz qılarsa, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 1025.** Məsciddə oturan şəxsin yerini başqa bir şəxs işğal edərsə və onun icazəsi olmadan orada namaz qılarsa, hərçənd günah etsə də, namazı doğrudur.

**Məsələ 1026.** Əgər insan qəsb edildiyini bilmədiyi bir yerdə namaz qılar və bunu namazdan sonra başa düşərsə, yaxud qəsb edildiyini unutduğu bir yerdə namaz qılar və bunu namazdan sonra xatırlayarsa, namazı doğrudur. Lakin hər hansı bir yeri şəxsən qəsb edən insan əgər bunu unudaraq orada namaz qılarsa, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 1027.** Əgər insan bir yerin qəsb edildiyini və həmin mülkiyyətdən istifadənin haram olduğunu bilirsə, lakin qəsb edilmiş yerdə ehtiyatən namaz qılmamalı olduğunu bilmirsə və orada namaz qılırsa, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 1028.** Vacib namazını hər hansı bir nəqliyyat vasitəsində qılması zəruri olan, yaxud müstəhəb namazı bu halda qılmaq istəyən şəxs üçün həmin nəqliyyat vasitəsinin və üzərində namaz qıldığı oturacağın, habelə nəqliyyat vasitəsinin təkərlərinin qəsb edilmiş olması ilə bağlı

hökm namazın qılındığı yerin qəsb edilmiş mülkiyyət olması ilə bağlı hökm kimidir.

**Məsələ 1029.** Bir daşınmaz əmlak üzərində başqa bir şəxslə şərikli mülkiyyət hüququ olan şəxs əgər pay hissəsi ayrı deyilsə,[1]şərikinin icazəsi olmadan həmin mülkdən istifadə edə bilməz və orada qıldığı namaz, vacib ehtiyata əsasən, batildir. Həmçinin, eyni hökm miras qalan bir daşınmaz əmlak üzərində şərikli mülkiyyət hüququna sahib olan varislərə də şamildir. Bu halda varislərdən heç biri digər varislərin icazəsi olmadan miras qalan mülkiyyətdən istifadə edə bilməz və orada qıldıqları namaz da, vacib ehtiyata əsasən, batildir.

**Məsələ 1030.** Əgər insan bir mülkiyyəti (torpaq sahəsi, villa, mənzil, mağaza və bu qəbildən olan daşınmaz əmlakı) xümsü verilməmiş pulla satın almışdırsa, xümsü verilməmiş pulla bir geyim alan şəxs üçün 989-cu məsələdə verilən təsnifat və hökmlər ona da şamil olunur.

**Məsələ 1031.** Əgər mülkiyyətin sahibi şifahi surətdə namaz qılmağa icazə verərsə, lakin insan qəlbən razı olmadığını bilirsə, onun mülkiyyətində namaz qılmaq olmaz. Bu halda insan onun qəlbən razı olub-olmadığına şəkk etdiyi təqdirdə isə namazı doğrudur. Əgər mülkiyyətin sahibi namaz qılmağa icazə vermirsə, lakin insan onun qəlbən razı olduğuna əmindirsə, namaz qılmaq olar. Bu halda onun qəlbən razı olub-olmadığına şəkk etdiyi təqdirdə isə onun mülkiyyətində namaz qılmaq olmaz.

**Məsələ 1032.** İnsanlara borcu olan vəfat etmiş bir şəxsin əmlakından istifadə etmək borcun ödənilməsinə xələl gətirmədiyi təqdirdə (məsələn, onun evində namaz qılmaq kimi) varislərin icazəsi ilə baş verərsə, bu xüsusda ehtiyata lüzum yoxdur. Həmçinin, əgər onun borcu ödənilərsə, yaxud ödəniləcəyinə dair zəmanət verilərsə və borc verənlər də bununla razılaşarsa, yaxud mirasından borc miqdarında bir hissə saxlanılarsa, hətta əmlakdan istifadə onun tələf olması ilə nəticələndiyi təqdirdə belə, onun əmlakından varislərin icazəsi ilə istifadə etmək xüsusunda ehtiyata lüzum yoxdur və belə bir mülkiyyətdə namaz qılmaq da doğrudur.

**Məsələ 1033.** Xüms istisna olmaqla digər şəri vergilərini ödəməmiş, borclu halda vəfat edən şəxsin əmlakından istifadə etmək borcunun ödənilməsinə xələl gətirmirsə (məsələn, onun evində namaz qılmaq kimi), varislərin icazəsi ilə baş verdiyi təqdirdə bu xüsusda ehtiyata lüzum yoxdur. Lakin əgər vəfat edən şəxs xüms verməli idisə, sağlığında xüms verən bir insan olduğu, yaxud əmlakının xümsünün verilməsinə dair vəsiyyət etdiyi təqdirdə bu vəziyyətlə bağlı hökm öncəki vəziyyətlə

[1] Daşınmaz əmlakın məhz hansı hissəsinin onun mülkiyyətində olduğu müəyyənləşdirilməmişdirsə. *Tərc.*

bağlı hökm kimidir. Lakin günahkarlıq, yaxud xümsün vacib olmadığına etiqad bəsləməsi səbəbi ilə xüms verməmişdirsə və borclu olduğu xümsün verilməsinə dair vəsiyyət də etməmişdirsə, isnaəşəri şiə olan varislərinə vəfat edən şəxsin xüms borcunu ödəmək vacib deyil və onlar onun mirasından istifadə edə bilərlər. Həmçinin, əgər varislər vəfat edən şəxsin şəri borcunu ödəyərsə, yaxud şəriət hakiminin razılığı ilə[1] ödəyəcəklərinə zamin durarlarsa, həmin şəxsin əmlakından istifadə etmək xüsusunda ehtiyata lüzum yoxdur və orada qılınan namazda doğrudur.

**Məsələ 1034.** Əgər vəfat edən şəxsin borcu yoxdursa, lakin onun varislərinin bəziləri azyaşlı, yaxud dəli və ya itkin düşmüş şəxsdirsə, vəfat edən şəxsin əmlakından sözügedən varislərin şəri vəlisinin icazəsi olmadan istifadə etmək haramdır və onun daşınmaz əmlakında qılınan namaz da caiz deyil. Lakin cənazəsini dəfnə hazırlamaq üçün normal sayılan qaydada istifadə etmək olar.

Qeyd etmək lazımdır ki, vəfat edən şəxs bu xüsusda, məsələn, qırx gün ərzində evinə gediş-gəlişlərin xərcinin, yaxud orada sərf edilənlərin öz əmlakının üçdə birindən götürülməsi ilə bağlı vəsiyyət edərsə, bu halda belə bir vəsiyyət mirasın ən çox üçdə bir hissəsi xüsusunda doğrudur.

**Məsələ 1035.** Başqalarının mülkiyyətində namaz qılmaq yalnız mülkiyyət sahibinin razılığına dair yəqinlik, yaxud arxayınlıq hasil edildiyi və ya başqa bir şəri dəlilin mövcud olduğu halda caizdir. Beləliklə, əgər sahibi namaz qılmaq üçün açıq şəkildə icazə verərsə, yaxud namaz qılmağa icazə verdiyini göstərən bir iş görərsə, məsələn, kiminsə namaz qılması üçün yerə səccadə sərərsə və ya ona səccadə verərsə, kafidir. Həmçinin, əgər mülkiyyət sahibi ürfən namaz qılmaq icazəsini də özündə ehtiva etdiyi aydın olan şəkildə bir şəxsin onun daşınmaz əmlakından istifadə etməsinə icazə verərsə, məsələn, bir şəxsin onun mülkiyyətində oturmasına, yatmasına icazə verərsə və həmin şəxs bu icazə əsasında onun namaz qılmasına da razı olduğunu başa düşərsə, bu, namazın doğruluğu üçün kafidir.

**Məsələ 1036.** Həddən ziyadə geniş torpaq sahələrində hətta onların mülkiyyətçisi azyaşlı, yaxud dəli olsa belə və ya mülkiyyətçi orada namaz qılmağa razı olmasa belə, namaz qılmaq olar. Həmçinin, hüdudları müəyyən olmayan bağlarda və torpaq sahələrində mülkiyyətçinin razılığı olmadan namaz qılmaq olar. Lakin bu halda mülkiyyətçinin razı olmadığını bildiyi təqdirdə insan sözügedən əmlak predmetlərindən istifadə etməməlidir. Həmçinin, əgər mülkiyyətçi azyaşlı, yaxud dəli olarsa və ya insan onun razı olmadığını güman edərsə, lazım ehtiyata əsasən, mülkiyyətdən istifadə etməməli və orada namaz qılmamalıdır.

---
[1] Şəriət hakiminin səlahiyyətli olduğu və icazə verə bildiyi hallarda.

### *İkinci şərt: Sabit (hərəkətsiz) olmalıdır*

**Məsələ 1037.** Vacib namazlar hərəkətin şiddətinin namaz qılanın ayaq üstə dayanmasına və eləcə də normal qaydada rüku və səcdə edə bilməsinə mane olmayacaq bir yerdə qılınmalıdır. Hətta lazım ehtiyata əsasən, bədəninin aramlığına, hərəkətsizliyinə də əngəl törətməməlidir. Əgər vaxt azlığı, yaxud başqa bir səbəblə əlaqədar olaraq bəzi avtomobil, gəmi və qatarlar kimi bu qəbildən olan yerlərdə namaz qılmaq məcburiyyətində olarsa, mümkün olduğu qədər bədəninin sabitliyi qorumağa və qibləyə riayət etməyə çalışmalıdır və əgər nəqliyyat vasitəsi qiblədən fərqli bir istiqamətə doğru hərəkət edərsə, insan üzünü qibləyə doğru çevirməli, qibləyə doğru və digər istiqamətlərə doğru dönərkən namazın vacib qiraət və zikrlərini oxumamalıdır. Qibləyə dəqiqliklə riayət etmək mümkün olmadığı təqdirdə isə aradakı fərqin 90 dərəcədən az olmasına çalışmalı, bu da mümkün olmadığı təqdirdə yalnız təkbirət əl-ehram zamanı üzü qibləyə olmalı, bu da mümkünsüz olduğu halda isə qibləyə riayət etmək zəruri deyil.

**Məsələ 1038.** Zərurət olmayan hallarda avtomobil, gəmi və qatar hərəkətdə olmadığı zaman, həmçinin hərəkət əsnasında namaz qılanın bədəninin aramlığına mane olacaq qədər hərəkətli olmadığı təqdirdə sözügedən nəqliyyat vasitələrində namaz qılmaq olar.

**Məsələ 1039.** İnsanın hərəkətsiz qala bilmədiyi və bədənin sabitliyinə və aramlığına mane olan buğda və arpa xırmanının, yaxud qum təpəsinin üzərində və bu qəbildən olan yerlərdə qılınan namaz batildir. Lakin əgər hərəkətlilik namazı şərtlərinə, o cümlədən bədənin sabitliyi və aramlığı şərtinə riayət etməklə qılmağa imkan verəcək qədər az olarsa, bu, namazın doğruluğuna xələl gətirmir.

### *Üçüncü şərt: İnsan namazı başa çatdıra biləcəyini ehtimal etdiyi bir yerdə namaz qılmalıdır*

**Məsələ 1040.** İnsan namazı başa çatdıra biləcəyini ehtimal etdiyi bir yerdə namaz qılmalıdır. Lakin külək, yağış, izdiham və bu qəbildən olan səbəblərlə əlaqədar olaraq namazı sona qədər qıla biləcəyinə əmin olmadığı bir yerdə rəcaən (savab ümidi ilə) namaz qıla bilər və bu haldasona qədər qıldığı təqdirdə namazı doğrudur. Hətta əgər namazı tamamlaya bilməyəcəyinə əmindirsə, lakin buna dair zəif bir ehtimalı vardırsa, namazı rəcaən qıla bilər və onu gözlənilmədən tamamlayarsa, namaz doğrudur.

**Məsələ 1041.** İnsan dayanmaq haram olan bir yerdə, məsələn, uçmaq təhlükəsi olan bir tavanın altında namaz qılarsa, hərçənd günah etsə də, namazına xələl gəlmir.

**Məsələ 1042.** Üzərində dayanmaq və oturmaq haram olan bir yerdə, məsələn, xalçanın üzərində uca Allahın adı yazılan hissəsində namaz qılmaq Allaha yaxınlaşmaq niyyətinə xələl gətirdiyi təqdirdə doğru deyildir.

***Dördüncü şərt: Həmin yerdə vacib hərəkətlərin icrası mümkün olmalıdır***

**Məsələ 1043.** Namazın qılındığı yerin tavanı namaz qılanın ayaq üstə durmasına imkan verməyəcək qədər alçaq olmamalıdır. Həmçinin, namazın qılındığı yer rüku və səcdə etməyə imkan verməyəcək qədər dar olmamalıdır.

**Məsələ 1044.** Əgər insan, ümumiyyətlə, ayaq üstə durmaq imkanına sahib olmadığı bir yerdə namaz qılmağa məcbur olarsa, oturaq halda namaz qılmalı və əgər rüku və səcdə etmək imkanına da sahib deyilsə, onları baş işarəsi ilə yerinə yetirməlidir.

**Məsələ 1045.** Namazda və digər hallarda insanın arxası Peyğəmbərin (s) və Əhli-beyt imamlarının (ə) qəbirlərinə tərəf dayanması onlara qarşı hörmətsizlik hesab edildiyi təqdirdə haramdır. Lakin əgər aradakı uzun məsafə, yaxud divar kimi bir maneənin mövcudluğu səbəbi ilə hörmətsizlik hesab edilməzsə, ehtiyata lüzum yoxdur. Aydındır ki, tabut və onun üzərinə sərilən parçanın, yaxud zərihin arada fasilə olması sözügedən qəbirlərə arxa çevirməyin hörmətsizlik ünvanını itirməsi üçün kifayət deyil. Ancaq hər iki halda əgər Allaha yaxınlaşmaq niyyəti edilərsə, namaz doğrudur.

***Beşinci şərt: Namazın qılındığı yer nəcasətlidirsə, namaz qılanın geyim və bədəninin nəcasətlənməsinə səbəb olmamalıdır***

**Məsələ 1046.** Əgər namazın qılındığı yer nəcasətlidirsə, namazda bağışlanılan və namazı batil etməyən bir nəcasət olduğu hal istisna olmaqla, rütubəti namaz qılanın bədəninə, yaxud geyiminə sirayət edəcək qədər yaş olmamalıdır. Lakin namaz qılanın səcdə üçün alnını qoyduğu yerin, məsələn, möhürün ən azı alnın üzərinə qoyulması səcdə sayılan bir hissəsi nəcasətli olmamalıdır və onun nəcasətli olması, hətta quru olduğu təqdirdə belə namazı batil edir. Lakin möhürün qalan hissəsinin, yaxud arxa tərəfinin və ya onun altındakı xalça və yerin (döşəmə örtüyünün) nəcasətli olması namaza xələl gətirmir. Müstəhəb ehtiyata əsasən, namazın qılındığı yer, ümumiyyətlə, nəcasətli olmamalıdır.

***Altıncı şərt: Vacib ehtiyata əsasən, qadın kişinin önündə, yaxud onunla yanaşı (eyni sırada) namaz qılmamalıdır***

**Məsələ 1047.** Qadınla kişi bir yerdə namaz qılmaq istəyirlərsə, lazım ehtiyata əsasən, qadın kişidən arxada dayanmalı və bu arxada dayanma

ən azı səcdə halında qadının səcdə yerinin kişinin dizlərinə paralel düşməsi şəklində olmalıdır. Lakin əgər onlardan biri namaz qılmırsa, hərçənd qadın kişi ilə eyni sırada, yaxud onun önündə olsa belə, digərinin namazı doğrudur.

**Məsələ 1048.** Əgər qadın kişi ilə eyni sırada, yaxud ondan qabaqda dayanarsa, hər ikisi eyni vaxta namaza başlayıb təkbirətul ehram deyərsə, 1057 ci məsələdə qeyd olunan hallar istisna olmaqla vacib ehtiyata əsasən hər ikisi namazı yenidən qılmalıdırlar.

**Məsələ 1049.** Əgər qadın kişi ilə eyni sırada, yaxud ondan qabaqda dayanarsa, onlardan biri digərindən tez namaza başladığı təqdirdə təkbirət əl-ehramı daha sonra deyənin namazı, vacib ehtiyata əsasən, batildir. Təkbirət əl-ehramı daha öncə deyən şəxsin namazına gəlincə, namaz əsnasında özü ilə əks cinsin nümayəndəsi arasında pərdə kimi bir maneə yarada və ya ondan 4,5 metr uzaqlaşa bilərsə[1], yaxud ilk başlayan şəxs kişi olduğu təqdirdə addımlayaraq namaz qıldığı əsnada qarşısında namaz qılmağa başlayan qadından önə keçə bilərsə, qadın olduğu təqdirdə isə geriyə çəkilərək həmin kişidən arxada dura bilərsə (hər iki halda namazlarının doğru olması üçün), bu addımı atmalıdır. Əks təqdirdə, vacib ehtiyata əsasən, birinci başlayanın da namazı batildir. Lakin əgər bu addımların atılması mümkünsüz olarsa, namaza davam etmək lazımdır və bu halda birinci başlayanın namazı doğrudur.

Qeyd etmək lazımdır ki, addımlayarkən, yaxud maneə yaradarkən aşağıdakı məqamlar nəzərə alınmalıdır:

a) Hərəkət halında zikr deyilməməlidir;
b) Qiblədən yayınmaq olmaz;
c) Bu hərəkətlər ürfə görə namazın surətini pozmamalıdır.

**Məsələ 1050.** Bu (altıncı) şərtdə qeyd edilən hökm namazın qılındığı yerin digər şərtləri kimi[2]bütün növ, yəni həm vacib, həm müstəhəb, həm təkbaşına, həm də camaatla qılınan namazlara, habelə bütün məkanlara aiddir və bu xüsusda mənzil, məscid, hərəm və müqəddəs ziyarətgahlar arasında heç bir fərq yoxdur. Əlbəttə, bu hökmdə yalnız bir istisna vardır və o da budur ki, müqəddəs Məkkə şəhərində izdihamın olduğu vaxtlarda bu məsələyə riayət etmək lazım deyil. Digər məkanlara bu hökm şamil olunmur.

**Məsələ 1051.** Bu hökm (altıncı şərt) zərurət hallarına şamil olunmur. Məsələn, əgər qadın və kişi kiçik bir yerə həbs edilmiş olarsa və namazın

---

[1] Qadınla kişi arasındakı 4,5 metrlik məsafə hətta qadının namaz qılan kişinin müqabilində və ondan öndə namaz qıldığı halda da birinin durduğu yerdən digərinin durduğu yerədək hesablanır.

[2] Əlaqədar məsələlərdə izah edildiyi kimi müstəhəb namaz üçün hərəkətsizlik, ayaq üstə durmaq imkanı və qiblə kimi şərtlərlə bağlı istisnalar mövcuddur.

da vaxtı məhdud olarsa, bu halda hər ikisinin namazı doğrudur. Lakin əgər vaxt geniş olarsa, öncə onlardan biri namaz qılmalı və digəri gözləməli, birinci başlayan şəxs namazını başa çatdırdıqdan sonra ikinci şəxs namazını qılmalıdır və daha yaxşı olar ki, aralarında gözləyən şəxs qadın olsun.

**Məsələ 1052.** Qeyd edilən hökmdə (altıncı şərtdə) məhrəmlə naməhrəm arasında bir fərq yoxdur. Beləliklə, bu hökm arvadla ər, qardaşla bacı və digər məhrəmlərə də aiddir. Təbii ki, hökm həddi-büluğa çatmış şəxslərə aiddir. Beləliklə, əgər kişilərin camaat namazının sıralarında həddi-büluğa çatmamış qız uşağı da namaz qılarsa, namaza xələl gəlmir.

**Məsələ 1053.** Qeyd edilən hökm (altıncı şərt) yalnız doğru qaydada qılınan namaza aid deyil, ürfən namaz hesab edilən, hərçənd bu hökmdən (altıncı şərt) başqa bir səbəblə batil olan namaza da aiddir. Beləliklə, əgər bir kişinin həyat yoldaşı səhvən dəstəmazsız halda namaz qılarsa və kişi qəsdən 1057-ci məsələdə qeyd ediləcək məqamları nəzərə almadan namazını ondan arxada qılarsa, vacib ehtiyata əsasən, kişinin də namazı batildir.

**Məsələ 1054.** Əgər kişi namaz qılar və namazı başa çatdırdıqdan sonra bir qadının ondan öndə, yaxud onunla eyni sırada namaz qıldığını başa düşərsə, kişinin namazı doğrudur. Lakin namaz əsnasında başa düşərsə, yalnız 1049-cu məsələdə izah edilən qaydada hərəkət etdiyi təqdirdə namazı doğrudur.

**Məsələ 1055.** Əgər bir şəxs şəriətin hökmünü bilmədiyinə görə bu məsələyə (altıncı şərtə) riayət etməmişdirsə, məsələni öyrənməkdə səhlənkarlığa yol verərək müqəssir cahil olduğu təqdirdə bu hökmə qəsdən riayət etməyən insan kimidir. Bu o deməkdir ki, vacib ehtiyata əsasən, namazı batildir. Lakin məsələni öyrənməkdə səhlənkarlığa yol verməyərək qasir cahil olduğu təqdirdə bu məlumatsızlıqla qıldığı namazları doğrudur və onları təkrarən, yaxud qəzasını qılması lazım deyil.

**Məsələ 1056.** Əgər namaz qılmaq istəyən kişinin qarşısında, yaxud kənarında namaz qılmayan bir qadın olarsa, kişinin namazı doğrudur. Həmçinin, namaz qılmaq istəyən bir kişinin arxasında, yaxud kənarında namaz qılmayan bir kişi olarsa, qadının namazı doğrudur. Beləliklə, qeyd edilən hökm qadın və kişinin hər ikisinin namazda olduğu zamana aiddir.

**Məsələ 1057.** Əgər yan-yana dayanaraq, yaxud qadın kişidən öndə durmaqla namaz qılan kişi ilə qadın arasında ürfən hail hesab edilən divar, pərdə, yaxud başqa bir şey olarsa, hərçənd bu hail müşahidəyə mane olmasa və onlar bir-birini görə bilsə belə, hər ikisinin namazı doğrudur. Beləliklə, əgər hail şəffaf şüşədən olarsa, yaxud onun hündürlüyü

insan boyu qədər olmazsa (məsələn, ürfən kişi ilə qadın arasında məsafə yaradan və təqribən bir metr hündürlüyündəki bir pərdə kimi), hər ikisinin namazı doğrudur. Hərçənd, daha yaxşı olar ki, hail namaz qılan kişi ilə qadının bir-birini görməsinə imkan verməyəcək şəkildə olsun.

Həmçinin, əgər yanaşı duraraq, yaxud qadın öndə olmaqla namaz qılan kişi ilə qadın arasındakı məsafə on qulacdan[1] artıq olarsa, yaxud onların durduqları yer ürfən iki ayrı yer hesab edilərsə, hər ikisinin namazı doğrudur. Habelə, əgər qadın namazda kişidən ən azı səcdə halında səcdə yeri onun dizlərinin bərabərinə düşəcək qədər arxada dayanarsa, hər ikisinin namazı doğrudur.

*Yeddinci şərt: Namazın qılındığı yer hamar səthli olmalıdır*

**Məsələ 1058.** Namaz qılanın alnını qoyduğu yer dizlərini və ayaq barmaqlarının ucunu qoyduğu yerdən bir-birinə bitişdirilmiş dörd barmaq enindən çox hündür, yaxud alçaq olmamalıdır və bu məsələ səcdə ilə əlaqədar hökmlər mövzusunda təfsilatı ilə izah ediləcəkdir.

## Namaz yeri ilə bağlı digər hökmlər

**Məsələ 1059.** Naməhrəm kişi və qadının xəlvət bir yerdə olması günaha düşəcəklərini ehtimal etdikləri təqdirdə haramdır və müstəhəb ehtiyatın tələbi budur ki, orada namaz qılmasınlar.

**Məsələ 1060.** Qina sayılan mahnı ifa edilən, yaxud hər hansı bir çalğı alətində haram musiqi ifa edilən bir yerdə qılınan namaz batil deyil. Baxmayaraq ki, bu qəbildən olan musiqilərə qulaq asmaq və onları ifa etmək günahdır.

## Namaz qılmağın müstəhəb və məkruh olduğu yerlər

**Məsələ 1061.** Müqəddəs İslam şəriətində namazı məsciddə qılmaq çox tövsiyə edilir və bütün məscidlərin ən üstünü Məscid əl-haramdır. Ondan sonra Məscid ən-Nəbi, sonra Kufə və Beyt əl-Müqəddəs məscidləri, daha sonra hər şəhərin came (mərkəzi, ən böyük) məscidi, ardınca məhəllə məscidi və daha sonra bazar məscidi gəlir.

**Məsələ 1062.** Qadınlar üçün isə ən yaxşısı budur ki, namazlarını naməhrəm baxışından qorunmaq üçün ən münasib bir yerdə qılsınlar, istər bu yer ev olsun, istər məscid, istərsə, başqa bir yer. Bu hökmdə vacib namazla müstəhəb namaz arasında bir fərq yoxdur.

**Məsələ 1063.** İmamların (ə) hərəmində namaz qılmaq müstəhəbdir, hətta məsciddə namaz qılmaqdan daha üstün olduğu söylənilir. Rəvayət

---

[1] On qulac təqribən 4,5 metrə bərabərdir.

edilir ki, Möminlərin əmiri Həzrət Əlinin (ə) pak hərəmində qılınan namaz iki yüz min namaza bərabərdir.

**Məsələ 1064.** Bir neçə yerdə namaz qılmaq məkruhdur. O cümlədən: 1) hamamda; 2) şoranlıqda; 3) ayaq üstə dayanan, yaxud oturan insanın müqabilində; 4) açıq qapının müqabilində; 5) gəlib-gedən insanlar üçün narahatçılıq törətmədiyi təqdirdə yol, prospekt və küçədə (narahatçılıq törətdiyi təqdirdə isə narahatçılıq günahdır); 6) od və çırağın müqabilində; 7) mətbəxdə və ocaq(soba) olan istənilən yerdə; 8) idrar edilən quyu və çalanın müqabilində; 9) üstü örtüldüyü hal istisna olmaqla ruhu olan bir şeyin şəkil və heykəli ilə üzbəüz; 10) hərçənd, namaz qılanla üzbəüz olmasa da, canlı bir varlığın şəkil və heykəli olan bir yerdə; 11) cənabətli insanın olduğu otaqda; 12) qəbirin müqabilində; 13) qəbirin üzərində; 14) iki qəbir arasında; 15) qəbiristanlıqda; 16) məscidin yaxınlığında yaşayan insan üçün üzürlü bir səbəb olmadan, məsciddən başqa bir yerdə namaz qılmaq məkruhdur.

**Məsələ 1065.** İnsanların gəlib-getdiyi bir yerdə namaz qılan, yaxud namaz zamanı qarşısında bir insan olan şəxsin önünə bir şey qoyması müstəhəbdir və təsbeh, əsa, çubuq, yaxud kəndir də qoysa, kafidir.

# MƏSCİDLƏR VƏ MÜQƏDDƏS ZİYARƏTGAHLAR

## Məscid və onun əmlakı ilə bağlı icrası vacib olan hökmlər

**Məsələ 1066.** Məscidin döşəməsini, tavanını, damını, divarının daxili tərəfini, qapı və pəncərələr kimi məscid binasının bir hissəsi sayılan yerləri nəcasətləmək haramdır və kim sadalananların nəcasətləndiyini başa düşərsə, dərhal həmin yeri paklamalı və nəcasəti aradan qaldırmalıdır. Müstəhəb ehtiyata əsasən, məscid divarının çöl tərəfini də nəcasətləmək olmaz. Bununla belə, əgər nəcasətlənərsə, nəcasətin aradan qaldırılması vacib deyil. Lakin əgər divarın çöl tərəfinin nəcasətlənməsi məscidə qarşı hörmətsizliyə səbəb olarsa, haramdır və nəcasətin hörmətsizliyi aradan qaldıracaq qədər təmizlənməsi vacibdir.

**Məsələ 1067.** Məscidin əmlakı hesab edilən və hal-hazırda məsciddə istifadə edilən əşyaları, məsələn, məscidin döşəməsinə sərilən xalçaları, kovrolitləri, yaxud həsirləri və ya asılmış pərdələri nəcasətləmək haram, nəcasətləndiyi təqdirdə isə onları paklamaq vacibdir. Lakin məscidin əmlakı hesab edilən, ancaq hal-hazırda məsciddə istifadə edilməyən, məsələn, anbarda saxlanılan bir əşyanı nəcasətləmək haram olsa da, nəcasətli qalması məscidə qarşı hörmətsizlik hesab edilən, yaxud ona maddi zərər dəyməsi və qiymətinin ucuzlaşması ilə nəticələnən hallar istisna olmaqla, paklanması vacib deyil.

**Məsələ 1068.** Əgər insan məscidi paklaya bilmirsə, məscidin paklanması onun üçün vacib sayılmır. Lakin əgər nəcasəti saxlamaq hörmətsizliyə səbəb olarsa, başqa bir şəxsə məlumat verdiyi təqdirdə bu işin görüləcəyini (məscidin paklanacağını) bildiyi, yaxud vacib ehtiyata əsasən, hətta ehtimal etdiyi halda mütləq ona məlumat verməlidir.

**Məsələ 1069.** Əgər məscidin qazılmadan, yaxud uçurulmadan paklanması mümkün olmayan bir hissəsi nəcasətlənərsə, cüzi qazıntı və söküntü tələb olunan halda, yaxud hörmətsizliyin aradan qaldırılması üçün geniş miqyasda qazıntı və söküntü işlərinin aparılmasından başqa çıxış yolu olmadığı halda həmin yeri qazmaq, yaxud uçurmaq lazımdır, digər hallarda isə uçurulması (sökülməsi) ehtiyata əsasən, yolverilməzdir.

Həmçinin əgər məscidin paklanması üçün onu tamamilə uçurmaqdan başqa bir çıxış yolu olmazsa, məsələn, məscid nəcasətli su, palçıq və tikinti materialları ilə inşa edilmiş olarsa, hərçənd bir qisim insanlar bərpası üçün lazım olan vəsaiti ödəməyə hazır olsa belə, onu uçurmağın caizliyi şübhə doğurur (ehtiyata əsasən, yolverilməzdir). Lakin məscidin zahirinin (nəcasətli materiallarla inşa edilən divar, tavan və döşəmənin məscidin daxili tərəfindən səthinin) yuyulması və paklanması vacibdir.

**Məsələ 1070.** Məscidin bir hissəsinin paklamaq məqsədilə sökülməsi caiz olan hallarda qazılmış yerin doldurulması və uçurulmuş yerin bərpası vacib deyil. Lakin əgər məscidin kərpici kimi bir şey nəcasətlənərsə, mümkün olduğu təqdirdə yuyulduqdan sonra əvvəlki yerinə qoyulmalıdır.

**Məsələ 1071.** Əgər məscidin həsiri, yaxud kovroliti nəcasətlənərsə, onu yumaq lazımdır və əgər nəcasətlənmiş yeri kəsib götürmək daha məqsədəuyğun olarsa, həmin hissəni kəsib götürmək lazımdır. Lakin onların önəmli bir hissəsinin kəsilib götürülməsi, yaxud həcminin kiçilməsinə və ya keyfiyyətinə xələl gəlməsinə səbəb olacaq şəkildə yuyulması ehtiyata əsasən, yolverilməzdir. Lakin istisna olaraq, bu tədbirlərin görülməməsi məscidə qarşı hörmətsizliyə səbəb olacağı təqdirdə hörmətsizliyi aradan qaldırmaq üçün bunlardan daha az zərərlə nəticələnəcək tədbiri seçmək lazımdır.

**Məsələ 1072.** Özlüyündə nəcis olan bir şeyi və nəcasətlənmiş bir əşyanı məscidə aparmaq məscidə qarşı hörmətsizlik olarsa, haramdır. Hətta müstəhəb ehtiyata əsasən, hörmətsizlik olmasa belə, özlüyündə nəcis olan bir şeyi məscidə aparmaq olmaz. Yalnız məscidə daxil olan insanın üzərində olan, bədənindəki, yaxud geyimindəki yara qanı kimi nəcasətlər istisnadır.

**Məsələ 1073.** Məsumların (ə) hərəmini nəcasətləmək haramdır və əgər onardan biri nəcasətlənərsə, nəcasətli qalması hörmətsizlik olduğu təqdirdə paklanması vacibdir. Hətta müstəhəb ehtiyata əsasən, hörmətsizlik olmadığı təqdirdə belə paklanmalıdır. Bu məsələdə hərəm deyərkən rövzeyi-münəvvərə, yəni müqəddəs zərih və qəbrin yerləşdiyi hissə nəzərdə tutulur. Digər tağlar və salonlar isə əgər məscid deyilsə, yalnız hörmətsizlik olduğu təqdirdə onları nəcasətləmək haram, paklamaq isə vacibdir.

**Məsələ 1074.** Vacib ehtiyata əsasən, məscid qızılla və müstəhəb ehtiyata əsasən, insan və heyvan kimi ruhu kimi olan varlıqların təsviri ilə də bəzədilməməlidir.

**Məsələ 1075.** Əgər bir məscid qəsb edilərsə və yerində ev və ya bu qəbildən olan bir bina tikilərsə, yaxud artıq məscid adlandırılmayacaq şəkildə sökülərsə, nəcasətlənməsi haram deyil və paklanması da vacib deyil.

**Məsələ 1076.** Məscid uçsa belə, onun ərazisini satmaq, yaxud hər hansı mülkiyyətin, küçə və prospektlərin ərazisinə daxil etmək olmaz.

**Məsələ 1077.** İcarəyə götürülmüş torpaq sahələrində inşa edilən məscidlər, yaxud vəqf torpaqlarında (məsələn, Həzrət Rizaya (ə) vəqf olunmuş torpaqlarda) şəriətə əsasən səlahiyyətli şəxsin icazəsi ilə inşa edilən məscidlərə məscid hökmü şamil olunmur və onlar namazxana hesab edilir.

**Məsələ 1078.** Məscidin qapı, pəncərə və digər əşylarını satmaq haramdır və əgər məscid uçarsa (yaxud sökülərsə), sözügedən əşyalar həmin məscidin təmirində istifadə edilməli, həmin məscid üçün istifadəyə yararlı olmadığı təqdirdə isə digər məscidlər üçün istifadə edilməlidir. Lakin əgər digər məscidlər üçün də istifadəyə yararlı olmazsa, onları satmaq və pulunu mümkün olduğu təqdirdə həmin məscidin, əks təqdirdə isə digər bir məscidin təmirinə sərf etmək olar.

## Məscidlə əlaqədar müstəhəb və məkruh məqamlar

**Məsələ 1079.** Məscid inşa etmək müstəhəbdir və nə qədər daha münasib, müsəlmanların daha çox yararlana biləcəyi bir yerdə inşa edilərsə, bir o qədər yaxşıdır. Həmçinin, uçmaq təhlükəsi olan bir məscidi təmir etmək müstəhəbdir. Əgər məscid təmir edilə bilməyəcək şəkildə uçarsa, onu söküb yenidən inşa etmək olar. Hətta uçmayan, ancaq insanların tələbatı ilə əlaqədar olaraq genişləndirilməsinə ehtiyac duyulan bir məscidi də söküb yerində daha böyük bir məscid inşa etmək olar. Lakin burada aşağıdakı məqamları nəzərə almaq lazımdır:

a) Əgər məsciddə ehtiyac duyulan genişləndirmə işləri üçün onu tamamilə sökmək tələb olunmursa, zəruri olan qədər söküntü işləri ilə kifayətlənmək lazımdır. Məsələn, əgər məscidin bir tərəfində yerləşən torpaq sahəsini məscidə əlavə etmək istənilərsə və məscidin ərazisinin bu qaydada genişləndirilməsi üçün məscidlə onun arasındakı divarı götürmək kifayət edirsə, həmin məscidi uçurmaq olmaz və bu halda sözügedən divarın sökülməsi ilə kifayətlənmək lazımdır.

b) Məscid binasının yenilənməsi bu qəbildən olan tikililərin inşası və bərpası üçün tələb olunan vaxtdan daha uzun bir müddət ərzində məscidin fəaliyyətini dayandırması ilə nəticələnməməlidir. Beləliklə, məscid binası söküldüyü təqdirdə məscidin fəaliyyətini normal sayılandan daha uzun müddət ərzində dayandırmasına səbəb olacaq hər hansı bir səhlənkarlığa yol vermək caiz deyildir.

c) Məscidin tikintisi üçün tələb olunan maddi vəsaitin normal sayılan müddət ərzində təmin ediləcəyinə dair yəqinlik, yaxud arxayınlıq hasil edilməlidir. Beləliklə, əgər məscid tikintisi üçün tələb olunan vəsaitin təmin edilməməsi ilə əlaqədar olaraq məscidin normal sayılan müddət ərzində inşa ediləcəyinə zəmanət yoxdursa, məscidi sökmək caiz deyildir.

d) Qədim tarixə malik olan və mədəni irsin tərkib hissəsi sayılan tikililərin sökülməsinə icazə verilmir.

**Məsələ 1080.** Məscidi təmizləmək və işıqlandırmaq müstəhəbdir. Məscidə getmək istəyən şəxsin ətirlənməsi, təmiz, ehtişamlı və dəyərli bir libas geyinməsi, ayaqqabısının altının nəcasətli, yaxud çirkli olmadığına əmin olmaq üçün onu yoxlaması, məscidə daxil olarkən öncə sağ ayağı, çıxarkən isə öncə sol ayağı ilə addım atması, həmçinin, məscidə hamıdan öncə daxil olub hamıdan sonra tərk etməsi müstəhəbdir.

**Məsələ 1081.** İnsanın məscidə daxil olarkən məscidə salam və ehtiram niyyəti ilə iki rükət namaz qılması müstəhəbdir və əgər başqa bir vacib, yaxud müstəhəb namaz da qılsa, kifayətdir.

**Məsələ 1082.** Məscidə tez-tez getmək və kimsənin namaz qılmadığı bir məscidi ziyarət etmək müstəhəbdir.

**Məsələ 1083.** Müstəhəbdir ki, insan etinasızlıq səbəbi ilə məscidə gəlməyən şəxslə dostluq əlaqəsi qurmasın, onunla bir süfrə arxasında əyləşməsin, işlərdə onunla məsləhətləşməsin, onunla qonşu olmasın, ondan qız alıb, ona qız verməsin.

**Məsələ 1084.** Zərurət olmadan məsciddə yatmaq, dünyəvi işlər haqqında söhbət etmək, alqı-satqı və sənətkarlıqla ilə məşğul olmaq, nəsihət və bənzər məzmun ehtiva etməyən şeirlər oxumaq məkruhdur. Həmçinin, insanın ağız və burun seliyini, sinəsindən gələn (bəlğəm kimi) ifrazatları məscidə tökməsi məkruh, hətta bəzi hallarda haramdır. Habelə, insanın məsciddə itirdiyi bir şeyi axtararaq səsini yüksəltməsi də məkruhdur. Lakin azan üçün səsin ucaldılmasına məhdudiyyət qoyulmur.

**Məsələ 1085.** Dəlinin məscidə buraxılması məkruhdur. Həmçinin, məscidin ehtiramını saxlamayan, namaz qılanlar üçün narahatçılıq törədən, yaxud məscidi nəcasətləyəcəyi ehtimal olunan həddi-büluğa çatmamış uşağın məscidə buraxılması da bu qəbildəndir. Digər hallarda isə uşağın məscidə buraxılmasına məhdudiyyət qoyulmur. Hətta uşaqların məscidə gəlməsinin onlarda namaza və məscidə qarşı rəğbətin yaranmasına səbəb olması kimi bəzi hallarda daha məqsədəuyğun olub təqdirəlayiq bir əməl kimi qiymətləndirilir. Soğan, sarımsaq və bu qəbildən olan qidalar qəbul edərək ağız qoxusu insanları narahat edən bir şəxsin məscidə getməsi məkruhdur.

## Məscid və müqəddəs ziyarətgahlarda yer tutmaq və onlardan digər istifadə halları

**Məsələ 1086.** Hər bir müsəlman məsciddə ibadət edə, namaz qıla və məscidə münasib olmayan hallar istisna olmaqla digər bir şəkildə yararlana bilər və bütün müsəlmanlar məsciddən istifadə xüsusunda bərabərhüquqludur. Beləliklə, əgər bir şəxs namaz, ibadət, Quran qiraəti, dua,

tədris, moizə və digər yaxşı məqsədlər üçün məscidin hər hansı bir hissəsində başqalarından əvvəl yer tutarsa, heç kəsin onu narahat etməyə haqqı yoxdur və kimsə onu həmin yerdən uzaqlaşdıra, yaxud orada yer tutduğunu göstərmək üçün qoyduğu əlamət və nişanəni kənara ata bilməz. Bu hökmdə daha öncə gələn şəxsin məqsədinin sonradan gələn şəxsin həmin yerdən istifadə məqsədi ilə üst-üstə düşüb-düşməməsinin fərqi yoxdur. Əlbəttə, üst-üstə düşmədiyi təqdirdə Məscid əl-haramın təvaf üçün nəzərdə tutulmuş hissəsində təvafın digər əməllərdən, digər məscidlərdə isə namazın digər caiz görülən iş və yararlanmalardan üstün və önəmli olması ehtimal edilir. Beləliklə, vacib ehtiyata əsasən, bu qəbildən olan hallarda öncə gələn şəxs həmin yeri sonradan gələn şəxs üçün boşaltmalıdır.

**Məsələ 1087.** Əgər insan namaz üçün bir əlamət və nişanə qoyaraq, məsələn, dəstəmaz almaq üçün həmin yeri tərk edərsə və onun gəlişindən öncə camaat namazı başlayarsa, başqa bir şəxs orada yalnız əlaməti qoyanın camaat namazına qoşulmaq imkanını (hətta növbəti rükətlərdə belə) itirənədək qayıtmayacağına arxayın olduğu təqdirdə camaat namazı qıla bilər və bu halda əgər əlaməti qoyan şəxs növbəti namaza gəlib çatarsa, onun öncüllük haqqına sahib olması, nəzərimizcə, sabit deyil. Lakin əgər insan əlaməti qoyanın həmin rükətdə, yaxud sonrakı rükətlərdə qayıdacağına əmindirsə, yaxud bunu ehtimal edirsə, bu haqqı özündə saxlayır.

**Məsələ 1088.** Məsciddə rövzəxanlıq üçün çadır qurular, yerə xalçalar döşənər, hər tərəfə qara parçalar asılar, çay və bu qəbildən olan ehsanlar üçün lazım olan şeylər məscidə gətirilərsə, bu işlərin məscidə zərər yetirmədiyi və namaz qılmağa da mane olmadığı təqdirdə bu xüsusda ehtiyata lüzum yoxdur.

**Məsələ 1089.** Ümumiyyətlə, məsciddə bəzi filmlərin nümayişi, yaxud bəzi idman və təmrinlərin icrası, habelə bəzi yaşayış məntəqələrində müşahidə edildiyi kimi məsciddən musiqi yayımlanması kimi məscidin statusuna və mövqeyinə uyğun olmayan və ürfən məscidə qarşı hörmətsizlik hesab edilən hərəkətlərdən hətta bu hərəkətlər öz-özlüyündə caiz olsa belə, çəkinmək lazımdır.

# AZAN VƏ İQAMƏ

**Məsələ 1090.** Kişi və qadın üçün gündəlik vacib namazlardan (yövmiyyə namazlardan) öncə azan, ardınca da iqamə oxumaq müstəhəbdir. Əda (vaxtı ərzində qılınan) namaz üçün, xüsusən, sübh və məğrib namazları üçün azan və iqamə oxumağa daha çox təkid edilmişdir. Həmçinin, kişilərin azan və iqamə oxuması daha çox tövsiyə edilir. Hətta müstəhəb ehtiyat kişilərin iqamədən imtina etməməsini tələb edir.

**Məsələ 1091.** Ayət və müstəhəbbi namazlar kimi gündəlik olmayan digər vacib namazlar üçün azan və iqamə oxumaq şəriətə əsaslanmır. Amma camaatla qılındığı halda Fitr və Qurban bayramı namazları üçün üç dəfə „Əssalat" demək müstəhəbdir.

**Məsələ 1092.** İnsanlara namaz vaxtının başladığını bildirmək üçün azan oxumaq olar və buna "bildiriş azanı" deyilir. Bildiriş azanı vaxtın başlanğıcında oxunmalı və müəzzini (azanı oxuyan) kişi olmalıdır, lakin bu azanın doğru sayılması üçün qəsdi-qürbət (Allaha yaxınlaşmaq niyyəti) şərt deyil.

## Azan və iqamənin mətni

**Məsələ 1093.** Azan on səkkiz cümlədən ibarətdir: "Allahu əkbər" (dörd dəfə), "Əşhədu ən la ilahə illəllah", "Əşhədu ənnə Muhəmmədən rəsulullah", "Həyyə ələs-səlat", "Həyyə ələl-fəlah", "Həyyə əla xeyril-əməl", "Allahu əkbər", "La ilahə illəllah" (hər biri iki dəfə). İqamə isə on yeddi cümlədən ibarətdir. Onu oxumaq üçün azanın əvvəlindən iki "Allahu əkbər", sonundan bir "La ilahə illəllah"ı ixtisar etmək və "Həyyə əla xeyril-əməl"dən sonra iki dəfə "Qəd qamətis-səlat" əlavə etmək lazımdır.

**Məsələ 1094.** "Əşhədu ənnə Əliyyən vəliyyullah", "Əşhədu ənnə Əliyyən əmirul-muminin", "Əşhədu ənnə Əliyyən əmirul-mumininə və vəliyyullah", yaxud "Əşhədu ənnə Əliyyən əmirəl-mumininə vəliyyullah" ifadələri azan və iqamənin tərkib hissəsi deyil. Hərçənd Həzrət Əli ibn Əbu Talibin Allahın vəlisi və möminlərin əmiri olmasını iqrar etmək öz-özlüyündə müstəhəbdir və sevimli Peyğəmbərimizin (s) Allahın elçisi olduğuna şahidliyi kamilləşdirən bir iqrardır. Beləliklə, "Əşhədu ənə Muhəmmədən rəsulullah"dan sonra tərkib hissəsi kimi nəzərdə tutulmadan Allaha yaxınlaşmaq niyyəti ilə deyilməsi yaxşıdır.

**Məsələ 1095.** Müsafir və tələsən şəxs azan və iqamənin cümlələrinin hər birini bir dəfə deyə bilər.

## Azan və iqamənin tərcüməsi

"Allahu əkbər" – Allah (vəsf edildiyindən) daha böyükdür!

"Əşhədu ən la ilahə illəllah" –Şəhadət (iqrar, təsdiq) edirəm ki, Allahdan başqa bir tanrı yoxdur!

"Əşhədu ənnə Muhəmmədən rəsulullah" – Şəhadət edirəm ki, Muhəmməd Onun elçisidir!

"Əşhədu ənnə Əliyyən əmirul-mumininə və vəliyyullah" – Şəhadət edirəm ki, Əli möminlərin əmiri və Allahın vəlisidir!

"Həyyə ələs-səlat" – Namaza tələs!

"Həyyə ələl-fəlah" – Qurtuluşa tələs!

"Həyyə əla xeyril-əməl" –Ən xeyirli əmələ tələs!

"Qəd qamətis-səlat" – Artıq namaz başlamışdır!

"La ilahə illəllah" – Allahdan başqa tanrı yoxdur!

## Azan və iqamə ilə bağlı şərtlər

**Məsələ 1096.** Bildiriş azanının xüsusiyyətləri 1092-ci məsələdə qeyd edilmişdir. Ancaq namaz azan və iqaməsinin də növbəti məsələlərdə izah ediləcək bir sıra şərtləri vardır.

***1, 2 və 3-cü şərtlər:*** Azan və iqaməni oxuyan şəxs aqil və isnaəşəri şiə olmalı, həmçinin kişilər üçün azan və iqamə oxuyan şəxs kişi olmalıdır

**Məsələ 1097.** Azan və iqamə oxuyan şəxsin azan və iqaməsi aqil və isnaəşəri şiə olduğu və əgər kişilərin camaat namazı üçün azan və iqamə oxuyursa, özü də kişi olduğu təqdirdə doğrudur. [1]

Lakin həddi-büluğa çatmaq azan üçün şərt deyil. Əgər insan mümәyyiz (yaxşı ilə pisi ayırd edə bilən) həddi-büluğa çatmamış bir uşağın azanını eşidərsə, yaxud hekayət edərsə və ya belə bir uşaq camaat namazı üçün azan oxuyarsa, onunla kifayətlənmək olar. Ancaq vacib ehtiyata əsasən, həddi-büluğa çatmamış mümәyyiz uşağın oxuduğu iqamə ilə kifayətlənmək olmaz. [2]

Qeyd etmək lazımdır ki, həddi-büluğa çatmayan mümәyyiz uşağın öz namazı üçün oxuduğu azan və iqamə, şübhəsiz, kafidir.

---

[1] Qeyd etmək lazımdır ki, əgər ona məhrəm olan kişilərlə birgə olan qadın onların camaat namazı üçün azan və iqamə oxuyarsa, vacib ehtiyata əsasən, kafi deyil.

[2] Başqalarının oxuduğu azan və iqamənin kifayət etdiyi hallar sonrakı məsələlərdə izah ediləcəkdir.

*4, 5 və 6-cə şərtlər:* Niyyət (Allaha yaxınlaşmaq məqsədi və ixlas) ilə oxunmalı, bir neçə namaz qılındıqda hansı namaz üçün oxunduğu müəyyənləşdirilməli və düzgün oxunmalıdır

**Məsələ 1098.** Namazın azan və iqaməsinin bütün cümlələri Allaha yaxınlaşmaq niyyəti və ixlasla, həmçinin ərəbcə düzgün tələffüzlə oxunmalıdır. Əgər bir neçə namaz qılınarsa, hansı namaz üçün oxunduğu müəyyənləşdirilməlidir. Məsələn, əda və qəza namazı qılmaq niyyətində olan şəxs oxuduğu azan və iqamənin hansı namaz üçün olduğunu, yaxud bir neçə qəza namazı qılmaq niyyətində olan şəxs oxuduğu azan və iqamənin məhz hansı qəza namazı üçün olduğunu müəyyənləşdirməlidir.

*7-ci şərt: Ardıcıllığa riayət edilməlidir*

**Məsələ 1099.** İqamə azandan sonra oxunmalıdır. Buna əsasən, əgər insan qəsdən, yaxud səhvən və ya məlumatsızlıqdan iqaməni azandan öncə oxuyarsa, bu müstəhəbləri (azan və iqaməni) doğru qaydada icra etmək üçün iqaməni azandan sonra yenidən oxumalıdır.

**Məsələ 1100.** Azanın və iqamənin cümlələri arasında ardıcıllığa riayət edilməlidir. Buna əsasən, əgər insan azan və iqamənin sözlərini ardıcıllığa riayət etmədən oxuyarsa, məsələn, "Həyyə ələl-fəlah"ı "Həyyə ələs-səlat"dan öncə deyərsə, ardıcıllığın pozulduğu yerdən təkrarən oxumağa başlamalıdır. Lakin müvalatın pozulduğu (cümlələr arasında həddən ziyadə fasilə verildiyi) halda azan və ya iqamə başdan oxunmalıdır.

*8-ci şərt: Müvalata riayət edilməlidir*

**Məsələ 1101.** Azan və iqamənin cümlələri arasında çox fasilə verilməməlidir və əgər onlar arasında qədər normal sayılan həddən artıq fasilə verilərsə, belə ki, azan və iqamə pozularsa və ürfən "bu şəxs azan və ya iqamə oxuyur" deyilə bilməzsə, belə bir azan və iqamə kafi sayılmır.

**Məsələ 1102.** İnsan azanla iqamə arasında fasilə verməməlidir və əgər onlar arasında oxuduğu azan həmin iqamənin azanı hesab edilməyəcək qədər fasilə verərsə, namaz üçün kafi deyil. Lakin 1120-ci məsələdə qeyd ediləcək hallarda verilən fasilə müvalatı pozmur. Həmçinin, əgər insan azan və iqamə ilə namaz arasında oxuduqları həmin namazın azan və iqaməsi sayılmayacaq qədər fasilə verərsə, kafi deyil.

*9-cu şərt: Namazın vaxtı başladıqdan sonra oxunmalıdır*

**Məsələ 1103.** Azan və iqamə namazın vaxtı başladıqdan sonra oxunmalıdır və əgər qəsdən, yaxud unutqanlıqdan vaxt başlamadan oxunarsa, batildir. Lakin vaxtın namaz əsnasında başladığı halda istisna olaraq

həmin namazın doğruluğuna hökm olunur və bu məsələ 1418-ci məsələdə izah ediləcəkdir.

*10-cu şərt: İqamə ayaq üstə oxunmalıdır*

**Məsələ 1104.** İqamənin doğru olması üçün mümkün olduğu təqdirdə insan onu ayaq üstə oxumalıdır. Lakin azan zamanı ayaq üstə olmaq müstəhəbdir.

*11-ci şərt: İqamə, vacib ehtiyata əsasən, təharətli halda oxunmalıdır*

**Məsələ 1105.** İnsan iqamə oxuyarkən, vacib ehtiyata əsasən, qüsllü, dəstəmazlı, yaxud təyəmmümlü olmalıdır (vəzifəsinə uyğun olaraq bunlardan birini icra etmiş olmalıdır). Lakin azanda bu şərtə riayət etmək müstəhəbdir.

*12-ci şərt: Azan və iqamə qina tərzi ilə oxunmamalıdır*

**Məsələ 1106.** Əgər azan və iqamədə səs qina hesab ediləcək şəkildə boğazda dəyişdirilərsə, yəni eyş-işrət məclislərinə münasib bir avazla azan və iqamə oxunarsa, haram, qina olmadığı təqdirdə isə məkruhdur.

## Azanın müstəhəbliyini itirdiyi hallar

**Məsələ 1107.** Namaz qılanın müştərək bir vaxtı olan iki namazı (zöhr və əsr namazlarını, yaxud məğrib və işa namazlarını) ardıcıl qıldığı bütün hallarda əgər birinci namaz üçün azan oxumuşdursa, iki namazın ardıcıl qılınmasının yaxşı olub-olmamasından asılı olmayaraq sonrakı namazın azanı müstəhəbliyini itirir. Misal olaraq, ərəfə günü (zülhiccə ayının 9-cü günü) hətta Ərəfatda olmadıqda belə zöhr və əsr namazlarını zöhr namazının fəzilət vaxtında, həmçinin Qurban bayramı gecəsi Məşər əl-haramda olan şəxsin məğrib və işa namazlarını işa namazının fəzilət vaxtında ardıcıl qılması müstəhəbdir.

İnsan qeyd edilən hallarda iki namazı ardıcıl qılarsa və ikinci namaz üçün azan oxumaq istəyərsə, vacib ehtiyata əsasən, ikinci namazın azanını rəcaən (savab ümidi ilə) oxumalı, şəriətə uyğunluq niyyəti ilə oxumamalıdır. Hətta, vacib ehtiyata əsasən, misal olaraq göstərilən iki halda, yəni Ərəfə günü və Məşər əl-haramda - qeyd edilən şərtlərlə - şəriətəuyğunluq niyyəti olmadan rəcaən də oxumamalıdır.

Qeyd etmək lazımdır ki, azanın bu hallarda müstəhəbliyini itirməsi iki namaz arasında çox fasilə verməmək şərtinə bağlıdır. Lakin onların arasında nafilə namazı qılmaq və dualar oxumaqla yaranan fasilənin ziyanı yoxdur.

## Azan və iqamənin müstəhəbliyini itirdiyi hallar

**Məsələ 1108.** Camaat namazı üçün azan və iqamə oxunarsa, həmin camaatla birgə namaz qılan şəxsin, hərçənd eşitməsə belə, azan və iqamə oxumasına lüzum yoxdur və bu xüsusda camaat namazının artıq başlamış olması ilə başlamaq ərəfəsində olması arasında heç bir fərq yoxdur. Həmçinin, camaat namazının başlamasına az qaldığı halda imamın, yoxsa məmumların gəlib camaata qoşulması arasında heç bir fərq yoxdur. İstənilən təqdirdə bu hallarda, vacib ehtiyata əsasən, namaz qılan şəxs şəriətə uyğunluq niyyəti ilə öz namazı üçün azan və iqamə oxumamalıdır. [1]

**Məsələ 1109.** Əgər insan namaz qılmaq üçün məscidə gedər və camaat namazının başa çatdığını görərsə, sıralar pozulmayınca və camaat dağılışmayınca sonrakı məsələdə izah ediləcək şərtlərlə öz namazı üçün azan və iqamə oxumaya bilər, yəni onların ikisini də oxumaq artıq təkid olunmuş müstəhəb bir iş sayılmır. Hətta əgər azan oxumaq istəyərsə, yaxşı olar ki, onu asta səslə oxusun və əgər başqa bir camaat namazı təşkil etmək istəyərsə, azan və iqamə oxumamalıdır.

**Məsələ 1110.** Əvvəlki məsələdə qeyd edilən hallarda altı şərtlə azan və iqamə müstəhəbliyini itirir:

1) Camaat namazı məsciddə qılınmalıdır və bu hökm məsciddən başqa yerlərə şamil edilmir.
2) Həmin namaz üçün artıq azan və iqamə oxunmuş olmalıdır.
3) Camaat namazı batil olmamalıdır. Məsələn, əgər imam adil olmazsa və məmumlar da bundan xəbərdar olarsa, azan və iqamə müstəhəbliyini itirmir.
4) Onun namazı ilə camaat namazı bir yerdə olmalıdır. Beləliklə, əgər camaat namazı məscidin daxilində qılınarsa, o isə məscidin damında namaz qılmaq istəyərsə, azan və iqamə oxuması müstəhəbdir.
5) Həm camaat namazı, həm də onun namazı əda olmalıdır. Beləliklə, əgər camaat namazı, yaxud onun namazı və ya hər ikisi qəza namazı olarsa, azan və iqamə müstəhəbliyini itirmir. Əlbəttə, bu halda təkbaşına namaz qılan şəxsin qıldığı namaz hərçənd qəza namazı olsa da, onun üçün azanın müstəhəbliyini itirməsi bəid[2] deyil.
6) Onun namazı ilə camaat namazının vaxtı müştərək olmalıdır.

---

[1] İstisna olaraq, əgər sonradan camaatın yanına gələn məmum olarsa və imam arxasında namaz qılınması doğru olmayan bir insan olarsa, bu halda həmin camaatın yanına gələn şəxs üçün azan və iqamə müstəhəbliyini itirmir.

[2] "Bəid deyil" (hərfən: uzaq deyil) "əlfaz-i fətva", yəni fətva ibarələrindən biridir və müqəllid ona uyğun hərəkət etməlidir. Yəni, bu örnəkdə sözügedən şəxs üçün azan müstəhəbliyi itirir. *Tərc.*

7) Məsələn, hər ikisi zöhr, yaxud hər ikisi əsr namazı qılmalıdır, yaxud camaat namazı zöhr namazı olmalı və o əsr namazını qılmalıdır, ya da əksinə olmalıdır. Lakin əgər camaat halında qılınan əsr namazı namaz vaxtının sonunda qılınarsa, həmin camaat namazının sıraları hələ pozulmamışdırsa və o, məğrib azanının başladığı vaxt məğrib namazını qılmaq istəyirsə, azan və iqamə müstəhəbliyini itirmir.

**Məsələ 1111.** Əgər insan əvvəlki məsələdə sadalanan şərtlərdən üçüncüsü xüsusunda şəkk edərsə, yəni camaat namazının doğru olub-olmadığına şəkk edərsə, doğruluq ehtimalı əsas götürülür (namaz doğru hesab edilir) və nəticədə azan və iqamə onun üçün müstəhəbliyini itirir. Lakin əgər digər beş şərtdən hər hansı biri xüsusunda şəkk edərsə, yaxud sıraların ürfən pozulmuş sayılıb-sayılmamasına şəkk edərsə, vacib ehtiyata əsasən, azan və iqaməni oxumalıdır. Ancaq əgər ikinci namaz camaat halında qılınarsa, azan və iqaməni rəca niyyəti ilə demək lazımdır.

**Məsələ 1112.** Başqasının oxuduğu azan və iqaməni eşidən şəxs sözləri onunla birgə deyib-deməməsindən asılı olmayaraq həmin azan və iqamə ilə qılmaq istədiyi namaz arasında çox fasilə olmazsa və eşitdiyi ilk andan etibarən namaz qılmaq niyyətində olarsa, həmin şəxsin azan və iqaməsi ilə kifayətlənə bilər. Lakin bu hökm, ehtiyata əsasən, yalnız imamının, yaxud yalnız məmumlarının azanı eşitdiyi camaat namazına şamil olunmamalıdır. Həmçinin, əgər insan azan və iqamənin bir hissəsini eşitməzsə, eşitmədiyi cümlələri özü deyə bilər və azanla iqamə, habelə onların cümlələri arasındakı ardıcıllığa riayət edilməsi şərti ilə belə bir azan və iqamə ilə kifayətlənə bilər. Azan və iqaməni eşitmək xüsusunda təsadüfən eşitməklə məqsədli şəkildə dinləmək arasında heç bir fərq yoxdur.

**Məsələ 1113.** Əgər kişi qadının azan və iqaməsini həzz almaq məqsədi ilə dinləyərsə, günah edir və azan və iqamə onun üçün müstəhəbliyini itirmir. Hətta, vacib ehtiyata əsasən, qadının azan və iqaməsini həzz məqsədi olmadan eşitməklə də kifayətlənməməlidir. Həmçinin, daha öncə qeyd edildiyi kimi, vacib ehtiyata əsasən, kişi iştirakçıları bir qadının məhrəmləri olan camaat namazında da həmin qadının oxuduğu azan və iqamə ilə kifayətlənmək olmaz.

## Azan və iqamə ilə əlaqədar digər hökmlər

**Məsələ 1114.** Əgər insan iqaməni oxumağa başlamazdan öncə azanı oxuyub-oxumadığına şəkk edərsə, azanı oxumalıdır. Lakin əgər iqamə əsnasında azan oxuyub-oxumadığına şəkk edərsə, azan oxuması lazım deyil.

**Məsələ 1115.** Əgər insan azan və ya iqamə əsnasında bir hissəni

deməzdən öncə ondan əvvəlki hissəni deyib-demədiyinə şəkk edərsə, deyib-demədiyinə şəkk etdiyi hissəni deməlidir. Lakin əgər azan və iqamənin bir hissəsini deyərkən ondan əvvəlki bir hissəni deyib-demədiyinə şəkk edərsə, həmin hissəni deməsi lazım deyil.

## Azan və iqamənin müstəhəbləri

Böyük fəqihlər (Allah onlardan razı olsun!) azan və iqamə üçün bir sıra müstəhəblər açıqlamışdır. Onlardan bəziləri qarşıdakı məsələlərdə qeyd ediləcəkdir.

**Məsələ 1116.** Bildiriş azanını oxumaq üçün seçilən şəxsin adil, namaz vaxtlarını düzgün bilən bir insan olması, səsinin gur olması və azanı hündür bir yerdə oxuması müstəhəbdir.

**Məsələ 1117.** Başqasının bildiriş, yaxud camaat namazı üçün oxuduğu azanı eşidən şəxsin eşitdiyi hər hissəni asta səslə təkrarlaması müstəhəbdir və buna "azanın hekayət edilməsi" deyilir. Həmçinin, camaat namazı üçün iqamə oxuyan şəxsin iqaməsini hekayət etmək müstəhəbdir. Lakin daha yaxşı olar ki, iqamə oxuyan şəxs "Qəd qamətis-səlat" dedikdə eşidən: "Allahummə əqimha və ədimha vəcəlni min xeyri salihi əhliha" – desin. Təkbaşına namaz qılan şəxsin oxuduğu azan, yaxud iqaməni hekayət etməyin müstəhəbliyi şübhə doğurur, lakin onu rəcaən hekayət etmək olar.

**Məsələ 1118.** İnsanın azan oxuyarkən üzü qibləyə dayanması, dəstəmazlı, yaxud qüsllü olması, iki barmağını iki qulağına qoyması, səsini ucaltması və uzatması, azanın cümlələri arasında fasilə verməsi və onların arasında danışmaması müstəhəbdir.

**Məsələ 1119.** İnsanın bədəninin iqamə oxuyarkən hərəkətsiz olması, onu azandan asta səslə oxuması, cümlələrini bir-birinə birləşdirməməsi, lakin onların arasında azanın cümlələri arasında olduğu qədər fasilə verməməsi müstəhəbdir.

**Məsələ 1120.** Azan ilə iqamə arasında bir addım ataraq hərəkət etməklə, bir qədər oturmaqla, səcdə etməklə, zikr etməklə, məsələn, "Sübhanəllah" deməklə, dua oxumaqla, bir qədər sükut etməklə, bir kəlmə söz danışmaqla, yaxud iki rükət namaz qılmaqla fasilə vermək müstəhəbdir. Lakin sübh namazının azan və iqaməsi arasında danışmaqla fasilə vermək müstəhəb deyil.

**Məsələ 1121.** Azan və iqamə oxumağın qadınlar üçün ayrıca bir müstəhəb iş olması bəid deyil. Beləliklə, qadınların azan və iqaməni oxumaması onların namazının ali kamal dərəcəsini itirməsinə səbəb olmur. Həmçinin, qadınlar azandan yalnız təkbir və şəhadəteynlə, hətta təkcə şəhadəteynlə də kifayətlənə bilərlər. Habelə, iqamədə "Allahu əkbər,

Əşhədu ən la ilahə illəllah və ənnə Muhəmmədən əbduhu və rəsuluh” deməklə də kifayətlənə bilərlər. Hərçənd, daha yaxşı olar ki, azan və iqaməni bütövlüklə desinlər.

## Namaz məsələlərinə giriş

**Məsələ 1122.** Namazla bağlı məsələlər bir təsnifatla dörd qisimə bölünür:

1) **Namazın müqəddimatı**(müqəddimələri, girişləri, hazırlıq tədbirləri) **–** namaz qılanın namazdan öncə riayət etməli olduğu məsələlərdir. Namazın müqəddimatı 883-cü məsələdə sadalanmış və onlarla bağlı hökmlər keçmiş məsələlərdə açıqlanmışdır.
2) **Namazın muqarinatı** (içindəkilər, möhtəvası) **–**niyyət və təkbirət əl-ehramdan salamadək namazın özünə aid olan məsələlərdir. Onlardan bəzilərinin icrası vacibdir və onlara **namazın vacibatı** deyilir. Bəziləri müstəhəb, bəziləri isə məkruhdur və onlardan hər biri əlaqədar mövzularda izah ediləcəkdir. Qeyd etmək lazımdır ki, namazla bağlı bəzi müstəhəblər namazdan öncə icra edilir. Onlardan ən mühümü öncəki bölmədə təfsilatı ilə izah edilən azan və iqamədir. Bəziləri, məsələn, təqibat və şükür səcdəsi isə namazdan sonra yerinə yetirilir. Bunlar namazın vacibatından sonra izah ediləcəkdir.
3) **Namazın mübtilatı**(batil edənləri) – namazı batil edən halları müəyyənləşdirən məsələlərdir.
4) **Namazın şəkkiyyatı və səhviyyatı**(şəkk və səhv xüsusları) – namazda qarşıya çıxan şəkk və səhvlərlə bağlı hökmləri aydınlaşdıran məsələlərdir.

Yuxarıda sadalanan bütün məsələlər ətraflı şəkildə izah ediləcəkdir.

# NAMAZIN VACİBATI

**Məsələ 1123.** Namazın vacibatının sayı on birdir:

1) niyyət; 2) qiyam (ayaq üstə durmaq); 3) təkbirət əl-ehram (namazın əvvəlində "Allahu əkbər" demək); 4) qiraət; 5) zikr; 6) rüku; 7) səcdələr; 8) təşəhhüd; 9) salam; 10) tərtib; 11) müvalat (namazın hissələrinin ardıcıllığı). Vacibat "rükn" və "qeyri-rükn" olmaqla iki qisimə bölünür. [1]

**Məsələ 1124.** Namazın vacibatından bir qismi rükndür. Yəni əgər insan onları yerinə yetirməzsə, qəsdən, yaxud səhvən olmasından asılı olmayaraq namaz batil olur. Digər bir qismi isə rükn deyil. Yəni əgər səhvən ixtisar edilərsə, namaz batil olmur. Namazın rüknlərinin sayı beşdir:

1) niyyət; 2) təkbirət əl-ehram; 3) rükudan bilavasitə öncəki qiyam, yəni qiyam halından rükuya əyilmək və təkbirət əl-ehram əsnasındakı qiyam; 4) rüku; 5) bir rükətin iki səcdəsi.

Həmçinin, namazın hərəkətləri arasında namazın surətini və namaz ünvanını itirməsinə səbəb olacaq qədər fasilə verməmək mənasında müvalat namazın rüknlərinə əlavə edilir. Beləliklə, əgər insan səhvən namazın hərəkətləri arasında bu hərəkətlərə birlikdə namaz deyilə bilməyəcək qədər fasilə verərsə, namaz batildir.

Habelə, iki rükn arasında sıra ardıcıllığına riayət etmək də rüknlərin tərkib hissəsi sayılır. Beləliklə, məsələn, əgər namaz qılan namazdan sonra unutqanlıq səbəbi ilə namazın birinci rükətinin iki səcdəsini həmin rükətin rükusundan öncə etdiyini başa düşərsə, namazı batildir. Hətta hələ birinci rükətdə ikən öncə iki səcdə, sonra rüku etdiyini başa düşsə belə, vacib ehtiyata əsasən, namazı batildir və vacib ehtiyata əsasən, bu halda iki səcdəni təkrarən etmək kifayət etmir.

**Məsələ 1125.** Namaz qılan bir rüknü artıq yerinə yetirərsə, qəsdən baş verdiyi halda namaz batil olur. Səhvən baş verdiyi halda əgər rüku, yaxud bir rükətdə iki səcdə artıq edilərsə, lazım ehtiyata əsasən, namaz batil olur, əks təqdirdə isə batil olmur. Beləliklə, təkbirət əl-ehram artıqlıq baxımından rükn deyil, rükudan bilavasitə öncəki rükn qiyamının artıq yerinə yetirilməsi isə əlavə bir rüku etmədən mümkün deyil. Həmçinin, niyyətin də təkrarən edilməsi bir məna kəsb etmir.

---

[1] Qeyd etmək lazımdır ki, vacib zikrlər əsnasında hərəkətsiz olmaq, yaxud iki səcdə arasında oturmaq kimi bəzi icrası vacib olan hərəkətlər mətndə (bu məsələdə) sadalanan vacibatın daxilindəki vaciblər kimi nəzərə alınmış və bu bölgüdəki vaciblərin yanında ayrıca qeyd edilməmişdir. Lakin onların hər biri əlaqədar mövzuda izah ediləcəkdir.

## 1. Niyyət

**Məsələ 1126.** İnsan namazı qürbət (hərfən: yaxınlaşma) niyyəti ilə, yəni uca Allahın qarşısında öz acizliyini və bəndəliyini izhar etmək üçün qılmalıdır və niyyəti qəlbindən keçirməsi (daxili nitqlə), yaxud misal olaraq: "Qürbətən iləllah (Allaha yaxınlaşmaq üçün) dörd rükət zöhr namazı qılıram", - deməsi (xarici nitqlə) lazım deyil.

**Məsələ 1127.** Əgər insan zöhr, yaxud əsr namazında "dörd rükət namaz qılıram" deyə niyyət edərsə və zöhr, yoxsa əsr namazı olduğunu müəyyənləşdirməzsə, namazı batildir. Lakin zöhr namazını birinci namaz, əsr namazını isə ikinci namaz kimi müəyyənləşdirməsi kafidir. Həmçinin, zöhr namazının qəzasının vacib olduğu bir şəxs zöhr namazının vaxtında həmin qəza namazını, yaxud əda (yəni həmin günün) zöhr namazını qılmaq istəyərsə, qılmağa hazırlaşdığı namazın məhz hansı namaz olduğunu niyyətdə müəyyənləşdirməlidir.

**Məsələ 1128.** İnsan namazın əvvəlindən axırınadək niyyətində qalmalıdır. Beləliklə, əgər namaz əsnasında ondan nə etdiyi soruşulacağı təqdirdə nə deyəcəyini bilməyəcək şəkildə qafil olarsa, namazı batildir.

**Məsələ 1129.** İnsan yalnız uca Allahın qarşısında acizliyini izhar etmək üçün namaz qılmalıdır. Beləliklə, əgər namaz qılan riyakarlıq edərsə, yəni özünü insanlara göstərmək üçün namaz qılarsa, istər yalnız insanlar, istərsə həm Allah, həm də insanlar üçün olsun, namazı batildir.

**Məsələ 1130.** Əgər insan namazın hətta kiçik bir hissəsini olsa belə, Allahdan başqası üçün qılarsa, istər həmin hissə Həmd surəsinin qiraəti kimi vacib olsun, istərsə qunut kimi müstəhəb, həmin qeyri-ilahi məqsədin bütün namaza sirayət etdiyi təqdirdə namazı batildir. Məsələn, əgər bir insan namazının qunutunu riyakarcasına oxuyarsa və məqsədi riyakarcasına qunut oxumaqla namazını insanlara göstərmək olarsa, namazı batildir. Çünki riyakarlıq məqsədi bütün namaza sirayət etmişdir. Həmçinin, riyakarlığa yol verdiyi hissə icrası vacib olan və təkrarən icrası namazı batil edən bir hissə olarsa, məsələn, insan namazının rükusunu riyakarcasına edərsə, hərçənd riyakarlıq yalnız rükuda olsa və bütün namaza sirayət etməsə belə, namazı batildir. Çünki əgər onu yenidən qürbət niyyəti ilə yerinə yetirmək istəsə, bir rükn artıq yerinə yetirilmiş olacaq.

**Məsələ 1131.** Əgər namaz qılan namazın əslində deyil, namazda riayət edilən xüsuslarda riyakarlığa yol verərsə, namazı həmin xüsusda yol verilən riyakarlığın namazın əslinə də sirayət etdiyi təqdirdə batil olur. Məsələn, əgər namaz qılan məscid kimi özəl bir yerdə, yaxud azan vaxtı kimi xüsusi bir vaxtda, yaxud camaatla birgə və ya məhz ilk sırada

namaz qılarsa və bunda məqsədi namazını insanlara göstərmək olarsa, namazı batildir. Lakin əgər riyakarlıq yalnız özəllikdə olarsa və namazın əslinə sirayət etməzsə, namazı doğrudur.

**Məsələ 1132.** Əgər insanın namazın hərəkətlərini icra edərkən Allahın əmrini yerinə yetirməklə yanaşı riya, yaxud digər haram niyyətlər istisna olmaqla, başqa bir məqsədi də olarsa, məsələn, namaz qılmaqda məqsədi Allahın əmrini yerinə yetirməklə yanaşı eyni zamanda övladına namazı öyrətmək olarsa, təlim kimi sözügedən əlavə məqsəddə qürbət niyyətinə sahib olduğu təqdirdə namazı istənilən halda doğru, əlavə məqsəddə qürbət niyyəti olmadığı təqdirdə isə namazı batildir (bəzi hallarda vacib ehtiyata əsasən, bəzi hallarda isə fətvaya əsasən batildir).

## 2. Təkbirət əl-ehram

**Məsələ 1133.** Hər namazın əvvəlində "Allahu əkbər" demək vacib və rükndür və onun tələffüzündə müvalata riayət etmək, yəni "Allahu" və "əkbər" sözlərinin səslərini, habelə bu iki sözü ardıcıl (fasiləsiz) tələffüz etmək lazımdır. Həmçinin, bu iki söz ərəbcə düzgün tələffüz edilməlidir və ərəb dilindən başqa bir dildə tərcüməsinin deyilməsi kafi deyil.

**Məsələ 1134.** Müstəhəb ehtiyata əsasən, namaz qılan təkbirət əl-ehramla ondan öncə oxuduqları, məsələn, iqamə, yaxud təkbirdən öncə oxuduğu dua arasında fasilə verməlidir.

**Məsələ 1135.** Əgər namaz qılan "Allahu əkbər"lə ondan sonra söyləyəcəkləri, məsələn, "Bismillahir-Rəhmanir-Rəhim", yaxud "Əuzu billahi minəş-şeytanir-rəcim" arasında fasilə vermək istəmirsə, daha yaxşı olar ki, "Əkbər" sözünün "r" samitini zəmmə (u) hərəkəsi ilə tələffüz edərək: "Allahu əkbəru. . . " desin. Lakin, müstəhəb ehtiyata əsasən, vacib namazda "Allahu əkbər"lə ondan sonra söylənilənlər arasında fasilə verilməlidir.

**Məsələ 1136.** Vacib namazda təkbirət əl-ehram deyərkən bədən hərəkətsiz və aram olmalıdır və əgər qəsdən bədən hərəkətdə ikən təkbirət əl-ehram deyilərsə, namaz batildir.

**Məsələ 1137.** Namaz qılan şəxs təkbir, Həmd və surə, zikr və duaları elə tələffüz etməlidir ki, heç olmasa özü öz səsini eşitməlidir. Beləliklə, onları bu şərtə riayət etmədən dodaqları hərəkət etdirməklə (sədasız) oxumaq doğru deyil və əgər ağır eşitmə, yaxud karlıq və ya ətrafdakı güclü səs-küy səbəbi ilə eşitmirsə, hər hansı bir maneənin mövcud olmadığı təqdirdə eşidə bildiyi şəkildə tələffüz etməlidir.

**Məsələ 1138.** Hər hansı bir hadisə ilə əlaqədar nitq qabiliyyətindən məhrum olan, yaxud dili ilə bağlı "Allahu əkbər"i tələffüz edə bilməyəcək şəkildə bir xəstəliyə tutulan şəxs bacardığı şəkildə təkbir deməli

və əgər ümumiyyətlə, deyə bilmirsə, təkbiri qəlbindən keçirməli (daxili nitqlə ifadə etməli) və bunun üçün barmağı ilə təkbirə münasib bir tərzdə işarə göstərməli, bacardığı təqdirdə dil və dodaqlarını da tərpətməlidir. Anadangəlmə lal olan şəxs isə dil və dodaqlarını təkbir deyən şəxs kimi tərpətməli və həmin əsnada barmağı ilə də işarə etməlidir. Bu hökm namazın qiraəti və digər zikrlərinə də şamil olunur.

**Məsələ 1139.** Əgər insan təkbirət əl-ehramı deyib-demədiyinə şəkk edirsə, artıq qiraətin hər hansı bir hissəsini oxumaqla məşğuldursa, yaxud qiraətdən öncə deyilməsi müstəhəb olan "Əuzu billahi minəş-şeytanir-rəcim"i deyirsə, şəkkinə etina etməməli, hələ heç bir şey demədiyi təqdirdə isə təkbirət əl-ehramı deməlidir. Əgər insan camaat namazında məmum kimi iştirak edərək camaatla birgə qıldığı namazda təkbirət əl-ehram deyib-demədiyinə şəkk edərsə, özünün camaat namazında məmumun vəzifələrindən olan (hərçənd müstəhəb bir vəzifə olsa belə) bir işlə məşğul olduğunu görürsə, şəkkinə etina etməməlidir. Məsələn, sübh, məğrib və işa namazlarında müstəhəbdir ki, məmum imamın oxuduğu Həmd və surəni eşidirsə, sükut edərək onun qiraətini dinləməlidir. Beləliklə, əgər məmum bu vəzifəni yerinə yetirdiyini görürsə, bu halda şəkkinə etina etməməli və təkbirət əl-ehramı deməsi fikrini əsas götürməlidir.

**Məsələ 1140.** Əgər insan təkbirət əl-ehramı dedikdən sonra onu düzgün deyib-demədiyinə şəkk edərsə, ondan sonra hər hansı bir şey oxuyub-oxumamasından asılı olmayaraq, şəkkinə etina etməməlidir.

## Təkbirət əl-ehramın müstəhəbləri

**Məsələ 1141.** Təkbirət əl-ehram və namaz əsnasında deyilən digər təkbirləri tələffüz edərkən əlləri qulaqların, yaxud üzün müqabilinədək qaldırmaq müstəhəbdir və daha yaxşı olar ki, "Allahu əkbər"in ilk səsinin (a) tələffüzü ilə əllər bud nahiyəsindən hərəkətə gətirilsin və son səsinin (r) tələffüzündə qulaqların, yaxud üzün müqabilinə çatdırılsın, sonra dərhal aşağı salınsın.

**Məsələ 1142.** Namaza başlamaq üçün bir dəfə "Allahu əkbər" demək kifayətdir. Yeddi dəfə təkbir demək isə müstəhəbdir. Bu təkbirlərə "iftitahiyyə (açılış) təkbirləri" deyilir və namaz qılan bu təkbirlər məcmusu ilə namaz üçün ehram, namaza giriş niyyəti edir. Hərçənd, müstəhəb ehtiyata əsasən, öncə rəcaən, namaz üçün ehram,namaza giriş niyyəti olmadan altı təkbir demək, sonra yeddinci təkbiri təkbirət əl-ehram kimi tələffüz etmək lazımdır. Bu hökm gündəlik namazlarla məhdudlaşmır, digər vacib və müstəhəb namazlara da şamildir.

**Məsələ 1143.** Yaxşı olar ki, namaz qılan təkbirət əl-ehramdan əvvəl rəcaən bu duanı oxusun:

"Ya muhsin! Qəd ətakəl-musiu və qəd əmərtəl-muhsinə ən yətəcavəzə ənil-musi. Əntəl-Muhsinu və ənəl-musi. Fəbihəqqi Muhəmmədin və Ali-Muhəmməd, səlli əla Muhəmmədin və Ali-Muhəmməd və təcavəz ən qəbihi ma tələmu minni!"

Duanın tərcüməsi:

"Ey Muhsin (ehsan edən). Günahkar bəndə Sənin hüzuruna gəlmişdir. Sən özün ehsan (yaxşılıq) edənə günahkarın günahından keçməsini əmr etmisən. Sən ehsan edənsən, mən isə günahkar. Elə isə Muhəmməd və Ali-Muhəmmədin hörmətinə (and verirəm), rəhmətini Muhəmməd və Ali-Muhəmmədə göndər və mənim bildiyin bütün qəbahətlərimi əfv et!"

## 3. Qiyam

**Məsələ 1144.** Namazın dörd hissəsində mümkün olduğu təqdirdə qiyam, yəni ayaq üstə durmaq vacibdir:

1) Təkbirət əl-ehramı deyərkən;
2) Rükudan bilavasitə öncə;
3) Qiraət əsnasında (Həmd-surəni və təsbihat-i ərbəəni oxuyarkən);
4) Rükudan sonra.

Birinci və ikinci bəndlərdəki qiyam vacib olmaqla yanaşı eyni zamanda namazın rüknüdür. Üçüncü və dördüncü bəndlərdəki qiyam isə vacib olsa da, namazın rüknü deyil və əgər bir şəxs unutqanlıq səbəbi ilə onu yerinə yetirməzsə, namazı doğrudur.

**Məsələ 1145.** Rükudan bilavasitə öncəki qiyam deyərkən insanın qiyam halından rükuya əyilməsi nəzərdə tutulur. Beləliklə, əgər namaz qılan rükunu unudaraq Həmd-surədən sonra oturarsa və bu zaman rüku etmədiyi yadına düşərsə, ayağa qalxmalı və ayaq üstə durduqdan sonra rükuya əyilməlidir. Əgər ayağa qalxmadan əyildiyi vəziyyətdən rükuya gedərsə, rükudan bilavasitə öncəki qiyamı yerinə yetirmədiyinə görə, kafi deyil. Qeyd etmək lazımdır ki, rükudan bilavasitə öncəki qiyam rükudan əvvəl fasilə, ləngimə demək deyil və onunla bağlı ətraflı izah rüku mövzusunda veriləcəkdir.

**Məsələ 1146.** İnsan vacib qiyam (qiyamın 1144-cü məsələdə sadalanan dörd qismindən hər biri) üçün ayaq üstə durarkən addım atmamalı, yerini dəyişməməli, qamətini düz saxlamalı, bir tərəfə əyilməməli və eləcə də, vacib ehtiyata əsasən, bir yerə söykənməməlidir. Həmçinin, vacib ehtiyata əsasən, bədəninin aramlığını qorumalıdır. Lakin sadalanan şərtlər çıxılmaz vəziyyətlər və zərurətlə əlaqədar olaraq pozularsa, namaza xələl gətirmir.

**Məsələ 1147.** Namaz qılan, vacib ehtiyata əsasən, qiyam əsnasında hər iki ayağını yerə basmalıdır. Məsələn, Həmd surəsini oxuyarkən,

vacib ehtiyata əsasən, ayağını bir anlıq belə olsa yerdən qaldıra bilməz. Lakin qiraətlə məşğul olmadığı, sükut etdiyi halda bununla bağlı bir əngəl yoxdur. Həmçinin, namaz qılanın bədəninin ağırlığının hər iki ayağın üzərinə düşməsi lazım deyil. Əgər ağırlıq bir ayağın üzərində düşərsə, namaza xələl gəlmir.

**Məsələ 1148.** Ayaq üstə düz dura bilən şəxs əgər ayaqlarını qiyam adlandırılmayacaq şəkildə bir-birindən xeyli aralı qoyarsa, namazı batildir. Hətta, vacib ehtiyata əsasən, qiyam hesab edilə bilsə belə ayaqlarını bir-birindən xeyli aralı qoymamalıdır.

**Məsələ 1149.** Əgər insan rükn olan vacib qiyam üçün ayaq üstə durarkən unutqanlıqdan namazın surəti pozulmadan və üzünü qiblədən çevirmədən bədənini hərəkət etdirərsə, yaxud bir qədər yeriyərsə, yaxud yerini dəyişərsə və ya qiyam adlandırıla biləcək və üzü qibləyə olmaq sayılacaq şəkildə bədənini bir tərəfə əyərsə, yaxud bir yerə söykənərsə, namaza xələl gəlmir.

**Məsələ 1150.** İnsan ayaq üstə namaz qıla bildikcə oturaq qılmamalıdır. Məsələn, ayaq üstə durarkən bədəni hərəkət edən, yaxud bir şeyə söykənməyə, ya bədənini bir qədər əyməyə və ya ayaqlarını həddən ziyadə aralı qoymağa məcbur olan şəxs sadalanan hallarda onun duruşu ayaq üstə durmaq hesab ediləcək şəkildədirsə, bacardığı şəkildə ayaq üstə duraraq namaz qılmalıdır. Lakin əgər heç bir vəchlə ayaq üstə dura bilmirsə, düz (gövdəsini düz saxlayaraq) oturmalı və oturaq halda namaz qılmalıdır. Beləliklə, iztirari qiyamla (sadalanan hallar da olduğu kimi) ayaq üstə qılınan namaz oturaq namazdan üstün tutulmalıdır.

**Məsələ 1151.** İnsan otura bildikcə uzanmış halda namaz qılmamalıdır. Əgər düz otura bilmirsə, bacardığı şəkildə oturmalıdır. Əgər heç bir vəchlə otura bilmirsə, qiblə ilə bağlı hökmlərdə deyildiyi kimi böyrü üstə bədəninin ön hissəsi qibləyə doğru düşəcək şəkildə uzanmalı və sağ böyrü üstə uzana bildikcə, lazım ehtiyata əsasən, sol böyrü üstə uzanmamalıdır. Bu ikisi də mümkün olmadığı təqdirdə isə arxası üstə ayaqlarının altı qibləyə doğru düşəcək şəkildə uzanmalıdır.

**Məsələ 1152.** Ayaq üstə dura bilən şəxs əgər ayaq üstə durmaq səbəbi ilə (hərçənd divara, əsaya və bu qəbildən olan hər hansı bir şeyə söykənməklə olsa belə), xəstələnəcəyindən, yaxud ona önəmli bir zərər dəyəcəyindən qorxursa, oturaq halda namaz qıla bilər və oturmağa da qorxduğu təqdirdə uzanmış vəziyyətdə namaz qıla bilər. Belə olan hallarda namazın vaxtı başa çatmamış üzürlü səbəbin aradan qalxması ilə bağlı hökm 1157-ci məsələdə açıqlanacaqdır.

**Məsələ 1153.** Namaz qılan şəxs namaz əsnasında ayaq üstə durmaq qüdrətini itirərsə, namazın vaxtı başa çatanadək ayaq üstə dura

biləcəyindən naümid olduğu təqdirdə oturmalı və namazın qalan hissəsini oturaq halda qılmalıdır. Əgər namaz qılan oturmaq qüdrətini də itirərsə, uzanmalı və namazın davamını 920 və 1151-ci məsələlərdə izah edilən qaydada qibləyə yönəlməklə uzanmış vəziyyətdə qılmalıdır. Lakin bu hallarda bədəni aram olanadək vacib zikrlərdən hər hansı birini deməməlidir. Müstəhəb zikrlərin hərəkət halında deyilməsi ilə bağlı hökm isə 1201-ci məsələdə bəyan ediləcəkdir.

Lakin əgər sözügedən şəxs gücsüzlüyünün namaz vaxtının sonunadək davam etməyəcəyini və vaxt başa çatmadan namazı ayaq üstə qıla biləcəyini bilirsə, yaxud buna arxayındırsa, bu halda namazı dayandırmalı və daha sonra bacardığı halda vaxt daxilində ayaq üstə qılmalıdır. Həmçinin, əgər bu gücünü namazın vaxtı başa çatanadək bərpa edəcəyinə naümid deyilsə və bunu məntiqli əsaslarla ehtimal edirsə, həmin namazı rəcaən deyilən qaydada başa çatdıra bilər və üzürlü halı namaz vaxtının sonunadək davam etdiyi təqdirdə qıldığı namaz kafidir, üzürlü halı aradan qalxdığı təqdirdə isə həmin namazı yenidən qılmalıdır.

**Məsələ 1154.** Vəzifəsinə uyğun olaraq oturaq halda namaz qılan şəxs əgər Həmd-surənin oxuduqdan sonra ayaq üstə qalxaraq rükuya ayaq üstə gedə bilərsə, ayağa qalxmalı və qiyam vəziyyətindən rükuya əyilməlidir. Bacarmadığı təqdirdə isə rükunu da oturaq halda yerinə yetirməlidir.

**Məsələ 1155.** Vəzifəsinə uyğun olaraq oturaq halda namaz qılan şəxs əgər namaz əsnasında ayaq üstə durmağa güc taparsa, namazın bacardığı qədərini ayaq üstə qılmalı, lakin bədəni aramlaşanadək vacib zikrlərdən hər hansı bir birini deməməlidir. Amma əgər ayaq üstə az dura biləcəyini bilirsə, bu imkandan rükudan bilavasitə öncəki qiyamın icrası üçün istifadə etməlidir.

**Məsələ 1156.** Vəzifəsinə uyğun olaraq uzanmış halda namaz qılan şəxs əgər namaz əsnasında oturmağa güc taparsa, namazın bacardığı qədərini oturaq halda qılmalıdır. Həmçinin, əgər ayaq üstə güc taparsa, namazın bacardığı qədərini ayaq üstə qılmalı, lakin bədəni aramlaşanadək vacib zikrlərdən hər hansı bir birini deməməlidir. Amma əgər ayaq üstə az dura biləcəyini bilirsə, bu imkandan rükudan bilavasitə öncəki qiyamın icrası üçün istifadə etməlidir.

**Məsələ 1157.** Əgər insan namazın vaxtı başa çatanadək ayaq üstə namaz qıla biləcəyinə dair ümidini itirməmişdirsə, namaz vaxtının başlanğıcında namazı qıldığı və vaxtın sonuna yaxın özündə ayaq üstə durmaq gücü tapdığı təqdirdə namazı yenidən qılmalıdır. Lakin əgər namazı ayaq üstə qıla biləcəyinə ümidini itirərsə və vaxtın başlanğıcında namazı qılarsa, sonra özündə ayaq üstə durmağa güc taparsa, namazı yenidən qılması lazım deyil.

## Qiyamın müstəhəbləri

**Məsələ 1158.** Böyük fəqihlər (Allah onlardan razı olsun!) bir sıra işləri namazda qiyam halında müstəhəb hesab etmişlər. O cümlədən: Ayaq üstə qaməti düz saxlamaq,[1] çiyinləri aşağı salmaq, əlləri budların üzərinə və diz qapaqlarının müqabilinə qoymaq, itaətkarlıq və acizlik əhval-ruhiyyəsində olmaq, ayaqları dal-qabaq qoymamaq, kişi üçün ayaqları üç aralı barmaq enindən bir qarışadək məsafədə aralı qoymaq, qadın üçün ayaqları bir-birinə bitişdirmək.

## 4. Qiraət

**Məsələ 1159.** Namazın vacibatından biri də qiraətdir. Qiraətlə bağlı hökmlər iki əsas qisimə bölünür: a) Həmd-surənin oxunduğu birinci və ikinci rükətlərin qiraəti ilə bağlı hökmlər; b) təsbihat-i ərbəə, yaxud Həmd surəsinin oxunduğu üçüncü və dördüncü rükətlərin qiraəti ilə bağlı hökmlər. Bunlarla bağlı hökmlər qarşıdakı məsələlərdə izah ediləcəkdir.

## Birinci və ikinci rükətlərin qiraəti ilə bağlı hökmlər

**Məsələ 1160.** Gündəlik vacib namazların birinci və ikinci rükətlərində insan əvvəlcə Həmd surəsini, ardınca isə başqa bir surə oxumalıdır və vacib ehtiyata əsasən, oxuduğu surə bütöv bir surə olmalıdır. Zuha və İnşirah surələri, həmçinin Fil və Qureyş surələri namazda, vacib ehtiyata əsasən, bir surə sayılır və birlikdə oxunur. Səcdə ayəsi olan surələri oxumaqla bağlı hökm Quranın vacib səcdələri mövzusunda izah ediləcəkdir.

**Məsələ 1161.** Əgər namazın vaxtı məhdud olarsa, yaxud insan surəni[2] oxumamağa məcbur olarsa, məsələn, surəni oxuyacağı təqdirdə oğru, yırtıcı heyvan, yaxud başqa bir şeyin ona zərər yetirəcəyindən qorxarsa və ya ürfən zəruri hesab edilən bir işi olarsa, surəni oxumaya bilər. Hətta vaxt məhdud ikən və eləcə də bir sıra digər hallarda surəni oxumamalıdır.

**Məsələ 1162.** Əgər insan surəni namazın bir hissəsi olmaq niyyəti ilə qəsdən Həmddən öncə oxuyarsa, namazı batildir. Əgər səhvən surəni Həmddən əvvəl oxuyarsa və qiraəti əsnasında yadına düşərsə, surəni yarımçıq qoymalı və Həmdi oxuduqdan sonra surəni başlanğıcından oxumalıdır.

---

[1] Bu hökm 1146-cı məsələdə izah edilən qaydada qiyamda tələb olunan düzgün duruşa riayət edildiyi hallara, məsələn, ayaq üstə düz duran və bədəni hər hansı bir tərəfə əyilməyən insana aiddir. Bu halda müstəhəbdir ki, onurğa sütununu və boynunu da dik və düz saxlasın.

[2] Burada və eləcə də növbəti məsələlərdə surə deyərkən Həmd (Fatihə) surəsindən sonra oxunan ikinci surə nəzərdə tutulur. *Tərc.*

**Məsələ 1163.** Əgər insan vacib namazda Həmd və surəni, yaxud onlardan birini unudarsa və rüku vəziyyətini aldıqdan sonra xatırlayarsa, namazı doğrudur, onu qılmağa davam etməli və müstəhəb ehtiyata əsasən, namazdan sonra səhv səcdəsi etməlidir.

**Məsələ 1164.** Əgər insan rükuya əyilməzdən öncə Həmd və surəni oxumadığını başa düşərsə, onların hər ikisini oxumalıdır. Əgər yalnız surəni oxumadığını başa düşərsə, təkcə surəni oxumalıdır. Əgər surəni oxuduğunu, ancaq Həmdi oxumadığını başa düşərsə, öncə Həmdi oxumalı, ardınca surəni təkrarən oxumalıdır. Həmçinin, əgər əyilərsə, lakin rüku vəziyyətinə çatmadan Həmd və surəni, yaxud təkcə surəni və ya təkcə Həmdi oxumadığını başa düşərsə, qamətini düzəltməli və bu məsələdə izah edilən qaydada hərəkət etməlidir.

**Məsələ 1165.** Cümə namazında və cümə gününün sübh, zöhr və əsr namazlarında müstəhəbdir ki, insan birinci rükətdə Həmddən sonra Cümə surəsini, ikinci rükətdə isə Munafiqun surəsini oxusun. Əgər namaz qılan şəxs cümə namazında, yaxud cümə gününün namazlarında bu iki surədən birini oxuyarsa, vacib ehtiyata əsasən, hətta surənin yarısına çatmasa belə, onları yarımçıq qoyub başqa bir surə oxuya bilməz.

**Məsələ 1166.** Əgər insan Həmddən sonra İxlas, yaxud Kafirun surəsini oxuyarsa, onları yarımçıq qoyub başqa bir surə oxuya bilməz. Lakin cümə namazında və cümə gününün namazlarında əgər insan Cümə və Munafiqun surələrini oxumaq niyyətində olarsa, ancaq unutqanlıqdan Cümə və Munafiqun surələrinin yerinə İxlas və Kafirun surələrindən birini və ya başqa bir surəni oxuyarsa, oxuduğu surənin qiraətini yarısına çatmamış dayandıra və Cümə və Munafiqun surələrini oxuya bilər,yarısına çatdıqdan sonra isə, vacib ehtiyata əsasən, həmin surənin qiraətini dayandırmamalıdır.

**Məsələ 1167.** Əgər insan cümə namazında, yaxud cümə gününün namazlarında bilərək İxlas, yaxud kafirun surəsini oxuyarsa, hərçənd yarısına çatmasa belə, vacib ehtiyata əsasən, yarıda kəsərək Cümə və Munafiqun surələrini oxuya bilməz.

**Məsələ 1168.** Əgər insan namazda İxlas və Kafirun surələrindən başqa bir surə oxuyarsa, surənin yarısına çatmamış onun qiraətindən imtina edə və başqa bir surə oxuya bilər (1165-ci məsələd izah edilən hallar istisna olmaqla). Yarısına çatdıqdan sonra isə, vacib ehtiyata əsasən, istənilən halda surənin qiraətindən imtina etmək və başqa bir surə oxumaq olmaz.

**Məsələ 1169.** Əgər insan surənin bir hissəsini unudarsa, yaxud zərurət səbəbi ilə, məsələn, vaxt məhudluğu ilə əlaqədar olaraq və ya başqa bir səbəbdən onu tamamlamaq mümkün olmasa, hərçənd yarısına

çatmış olsa belə, yaxud oxuduğu surə İxlas və ya Kafirun surəsi olsa belə, həmin surəni yarımçıq qoya və başqa bir surə oxuya bilər və unutduğu təqdirdə oxuduğu qədəri ilə də kifayətlənə bilər.

**Məsələ 1170.** "Bismillahir-Rəhmanir-Rəhim" deyərkən oxunacaq surənin təyin edilməsi vacib deyil və namaz qılan öncə hər hansı bir surəni müəyyənləşdirmədən "Bismillahir-Rəhmanir-Rəhim" deyə, sonra oxumaq istədiyi surəni müəyyənləşdirə bilər. Lakin əgər namaz qılan əvvəlcə "Bismillahir-Rəhmanir-Rəhim"i müəyyən bir surənin qiraəti niyyəti ilə deyərsə, sonra başqa bir surə oxumaq istədikdə, vacib ehtiyata əsasən, bəsmələni yenidən deməlidir.

**Məsələ 1171.** Ehtiyata əsasən, kişiyə sübh, məğrib və işa namazlarının Həmd və surəsini uca səslə oxumaq vacibdir. [1]

**Məsələ 1172.** Ehtiyata əsasən, kişiyə və qadına 1175-ci məsələdə qeyd ediləcək hallar istisna olmaqla zöhr və əsr namazlarının Həmd və surəsini asta səslə oxumaq vacibdir.

**Məsələ 1173.** Vacib ehtiyata əsasən, kişi sübh, məğrib və işa namazlarında diqqət etməlidir ki, Həmd və surənin bütün sözlərini, hətta onların son hərfini də ucadan tələffüz etsin.

**Məsələ 1174.** Qadın sübh, məğrib və işa namazlarının Həmd və surəsini ucadan və ya asta səslə oxuya bilər. Lakin əgər namhərəm onun səsini eşidərsə və səsini naməhrəmə eşitdirməyin haram olduğu bir vəziyyət[2]yaranarsa, asta səslə oxumalıdır və əgər bu halda qəsdən ucadan oxuyarsa, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 1175.** Zöhr və əsr namazlarında Həmd və surənin "Bismillahir-Rəhmanir-Rəhim"ini ucadan demək müstəhəbdir. Həmçinin, cümə gününün zöhr namazında Həmd və surənin ucadan oxunması müstəhəbdir. Cümə namazının Həmd və surəsi isə vacib ehtiyata əsasən, ucadan oxunmalıdır.

**Məsələ 1176.** Ucadan və ahəstə oxumaqda meyar səsin mahiyyətinin təzahürü deyil, ürfün nəzərincə ucadan və ya asta oxumaqdır. Beləliklə, sübh, məğrib, yaxud işa namazında kişilər tərəfindən Həmd və surə oxunarkən səsin mahiyyəti izhar edilməzsə, lakin ürf bu qiraəti uca səs hesab edərsə, kafidir.

**Məsələ 1177.** Əgər insan namazın sözlərini ucadan tələffüz etməli olduğu yerdə qəsdən asta səslə tələffüz edərsə, yaxud asta səslə tələffüz etməli olduğu yerdə qəsdən ucadan tələffüz edərsə,vacib ehtiyata əsasən,

[1] Qeyd etmək lazımdır ki, əgər camaat namazında məmumun vəzifəsi Həmd və surə oxumaq olarsa, hərçənd qılınan namaz məğrib və işa namazları, namaz qılan da kişi olsa belə, asta səslə oxumalıdır.

[2] Məsələn, qadının namazının qiraətini dinləyici üçün adətən təhrikedici sayılacaq şəkildə incə səslə oxuması kimi.

namazı batildir. Lakin əgər bu, unutqanlıq və ya məsələ haqqında məlumatsızlıq səbəbi ilə baş verərsə, namaz doğrudur və bu xüsusda qasir cahillə müqəssir cahil arasında, həmçinin, namaz qılanın ucadan və ya asta səslə oxumağın vacibliyini, məsələn, sübh namazının Həmd və surəsini ucadan oxumalı olduğunu bilməməsi ilə uca, yaxud ahəstə səslə oxumaqla bağlı bəzi məsələlərə dair məlumatının olmaması, məsələn, səsin uca və ahəstə sayılmasında meyarın ürfün nəzəri olduğunu bilməməsi arasında fərq yoxdur. Əgər Həmd və surənin qiraəti əsnasında səhv etdiyini başa düşərsə, oxuduğu hissəni təkrarən oxumasına gərək yoxdur, hərçənd müstəhəb ehtiyat təkrarən oxumasını tələb edir.

**Məsələ 1178.** Əgər bir şəxs Həmd və surənin qiraətində səsini həddən ziyadə ucaldarsa, məsələn, surələri fəryad qopararaq oxuyarsa, namazı batil olur.

**Məsələ 1179.** İnsan namazda qiraət etdiyi surələri düzgün oxumalıdır. Həmd surəsini bütövlüklə heç bir vəchlə düzgün oxuya bilməyən şəxs düzgün oxuduğu hissənin surənin önəmli bir qismini təşkil etməsi şərti ilə bacardığı şəkildə oxumalıdır. Lakin əgər düzgün oxuduğu hissə cüzi olarsa, vacib ehtiyata əsasən, Quranın digər hissələrindən düzgün oxuya bildiyi bir qədərini ona əlavə etməli, bunu da bacarmırsa, təsbih (Sübhanəllah) zikrini əlavə etməlidir. Həmddən sonra, ümumiyyətlə, bir surə oxuya bilməyən bir şəxsin isə onun yerinə bir şey oxumasına gərək yoxdur. İstənilən halda belə vəziyyətlərdə müstəhəb ehtiyat insanın namazı camaatla birgə qılmasını tələb edir.

**Məsələ 1180.** Əgər insan Həmd, yaxud surənin sözlərindən birini qəsdən, yaxud müqəssir cahil olması səbəbi ilə deməzsə, yaxud bir samitin yerinə başqa bir samiti tələffüz edərsə, məsələn, “ض” samitinin yerinə “ذ”, yaxud “ز” samitini tələffüz edərsə və ya /ə/, /i/, /u/ sait səslərini səhv sayılacaq şəkildə düzgün tələffüz etməzsə, ya da təşdidli (qoşalaşmış) samitləri tək samit kimi tələffüz edərsə, namazı batildir.

**Məsələ 1181.** Həmd surəsini yaxşı bilməyən şəxs istər öyrənmək və ya təlqin (diktə) surəti ilə olsun, istərsə camaat namazına qoşulmaq, yaxud şəkk hallarında namazı təkrarən qılmaq surəti ilə öz vəzifəsini sonrakı məsələdə izah ediləcək şəkillərdə yerinə yetirməlidir. Əgər vaxtın başa çatmasına az qalmışdırsa, namazı 1179-cu məsələdə izah edilən qaydada qılarsa, namazı doğrudur. Lakin öyrənməkdə səhlənkarlığa yol verdiyi təqdirdə imkan daxilində cəzadan xilas olmaq üçün namazını camaatla qılmalıdır.

**Məsələ 1182.** Əgər insan bir sözün sait səslərini bir-biri ilə qarışdırırsa, yaxud bir sözün “س”, yoxsa “ص” samiti ilə tələffüz edilməli olduğunu bilmirsə, vəzifəsini şəriətə uyğun şəkildə yerinə yetirməlidir. Məsələn:

a) Sözün düzgün tələffüz qaydasını öyrənməlidir.

b) Yaxud camaat namazında iştirak etməlidir.

c) Yaxud həmin sözü iki və ya daha artıq şəkildə tələffüz etməli və həqiqətdə doğru olan tələffüzün namazdan sayılmasını niyyət etməlidir. Təbii ki, bu çıxış yolu sözün doğru olmayan tələffüzünün yanlış zikr, yaxud yanlış Quran qiraəti hesab edildiyi halda doğrudur. Məsələn, "“اهدنا الصراط المستقيم”" (İhdinəs-siratəl-mustəqim) ayəsində "المستقيم" (əl-mustəqim) sözünü bir dəfə "س", bir dəfə də "ص" ilə tələffüz edərək düzgün tələffüz etdiyinə dair yəqinlik edərsə,bu halda namazı doğrudur.

d) Yaxud da onu yalnız bir şəkildə tələffüz etməlidir. Bu halda əgər namazdan sonra həmin tələffüzün doğru olduğu məlum olarsa, namazı doğrudur. Əgər tələffüz yanlış olarsa, qiraəti öyrənməkdə səhlənkarlığa yol verdiyi təqdirdə həmin namazı yenidən qılmalıdır, lakin öyrəndiyi bir şeyi unutduğuna görə yanlış tələffüz etdiyi təqdirdə isə namazın yenidən qılınması vacib deyil.

## Üçüncü və dördüncü rükətlərin qiraəti

**Məsələ 1183.** Namaz qılan namazın üçüncü və dördüncü rükətlərində təkcə Həmd surəsini, ya da təsbihat-i ərbəəni bir dəfə oxuya, yəni bir dəfə: "Sübhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vallahu əkbər" – deyə bilər. Daha yaxşı olar ki, təsbihat-i ərbəəni üç dəfə təkrarlasın. Bir rükətdə Həmd, digər rükətdə isə təsbihat-i ərbəə də oxuya bilər. Daha yaxşısı budur ki, hər iki rükətdə təsbihat-i ərbəə oxusun. Lakin təsbihat-i ərbəənin iki dəfə deyilməsinin müstəhəbliyi sabit edilməmişdir və əgər onu iki dəfə demək istəyərsə, ikinci dəfə ümumiyyətlə zikr niyyəti ilə dediyi təqdirdə maneəsi yoxdur.

**Məsələ 1184.** Vaxt məhdud olduqda təsbihat-i ərbəə bir dəfə deyilməlidir və əgər bunun üçün yetəcək qədər də vaxt yoxdursa, bir dəfə "Sübhanəllah" demək kafidir.

**Məsələ 1185.** Ehtiyata əsasən, kişi və qadının namazın üçüncü və dördüncü rükətlərində Həmd, yaxud təsbihat-i ərbəəni ahəstə səslə oxuması – istər zöhr və əsr namazlarında, istərsə məğrib və işa namazlarında – vacibdir və əgər qəsdən, yaxud unutqanlıqdan və ya məsələ ilə bağlı məlumatsızlıq səbəbi ilə ucadan oxuyarsa, bununla bağlı hökm daha öncə Həmd və surə üçün açıqlanan hökm kimidir.

**Məsələ 1186.** Əgər namaz qılan üçüncü və dördüncü rükətlərdə Həmd surəsini oxuyarsa, "Bismillahir-Rəhmanir-Rəhim"i də asta səslə deməsi vacib deyil. Yalnız camaat namazında məmum olarsa, bu halda Həmdi asta səslə oxumalı və vacib ehtiyata əsasən, "Bismillahir-Rəhmani-Rəhim"i də asta səslə deməlidir.

**Məsələ 1187.** Təsbihatı öyrənə, yaxud düzgün oxuya bilməyən üçüncü və dördüncü rükətlərdə Həmd surəsini oxumalıdır.

**Məsələ 1188.** Əgər namaz qılan şəxs namazın ilk iki rükətində namazın son iki rükəti olduğunu zənn edərək təsbihat-i ərbəə oxuyarsa, rükudan öncə başa düşdüyü təqdirdə Həmd və surəni oxumalıdır, rüku vəziyyətində çatdıqdan və ya rükudan sonra başa düşdüyü təqdirdə isə namazı doğrudur.

**Məsələ 1189.** Əgər namaz qılan namazın son iki rükətində ilk iki rükətdə olduğunu zənn edərək Həmd surəsini oxuyarsa, yaxud namazın ilk iki rükətində son iki rükətdə olduğunu güman etməsinə baxmayaraq Həmd surəsini oxuyarsa, rükudan öncə və ya rükudan sonra başa düşməsində asılı olmayaraq namazı doğrudur.

**Məsələ 1190.** Əgər namaz qılan üçüncü və dördüncü rükətlərdə Həmd surəsini oxumaq istədiyi halda təsbihatı deməyə başlayarsa, yaxud təsbihatı demək istədiyi halda Həmd surəsini oxumağa başlayarsa, namaz niyyətindən tamamilə xali olduğu təqdirdə (hətta şüuraltında belə) onu yarımçıq qoymalı və yenidən Həmd, yaxud təsbihatı oxumalıdır. Lakin əgər niyyətdən xali deyildisə, məsələn, bunlardan dilinə gələni oxumağa adət etmişdirsə, oxuduğunu tamamlaya bilər və namazı doğrudur.

**Məsələ 1191.** Üçüncü və dördüncü rükətlərdə təsbihati-ərbəəni oxumağa adət edən şəxs əgər adətini unudarsa və vəzifəsini icra etmək məqsədi ilə Həmd surəsini oxumağa başlayarsa, kafidir və yenidən Həmd, yaxud təsbihatı oxumasına gərək yoxdur.

**Məsələ 1192.** Üçüncü və dördüncü rükətlərdə müstəhəbdir ki, insan təsbihat-i ərbəəyə istiğfar zikrini də əlavə etsin, məsələn, təsbihat-i ərbəədən sonra "Əstəğfirullahə rəbbi və ətubu ileyh",yaxud "Allahumməğfirli" desin. Əgər namaz qılan üçüncü və dördüncü rükətlərdə Həmd, yaxud təsbihat-i ərbəəni oxuyub-oxumadığına şəkk edirsə, yaxud nə qədər oxuduğuna şəkk edirsə, məsələn, təsbihat-i ərbəəni iki, yoxsa üç dəfə dediyini bilmirsə, istiğfar zikrini hələ söyləmədiyi təqdirdə Həmd, yaxud təsbihat-i ərbəəni oxumalı, təsbihatın sayı xüsusunda şəkk etdiyi halda isə az olan sayı əsas götürərək təsbihatı tamamlamalıdır, yəni yuxarıdakı misalda iki dəfə oxuması ehtimalının üzərində dayanaraq təsbihatı bir dəfə də deməlidir. Əgər istiğfar zikrini söyləyərkən, yaxud istiğfardan sonra və rükuya əyilməzdən öncə qeyd edilən şəklərdən biri yaranarsa, izah edilən hökm, vacib ehtiyata əsasən, bu vəziyyətə də şamil olunur.

**Məsələ 1193.** Əgər üçüncü və dördüncü rükətlərin rükusunda, yaxud rükuya əyilərkən Həmd, yaxud təsbihatı oxuyub-oxumadığına şəkk

edərsə və ya təsbihatı neçə dəfə dediyi ilə bağlı şəkkə düşərsə, hərçənd hələ rüku vəziyyətinə çatmamış olsa belə, şəkkinə etina etməməlidir.

**Məsələ 1194.** Əgər namaz qılan Həmd və surəni, yaxud təsbihat-i ərbəəni oxuyarkən özündən asılı olmadan bədəni aramlığını itirəcək şəkildə bir qədər hərəkət edərsə və səhvən, yaxud qeyri-ixtiyari surətdə namazın qiraətinin bir hissəsini bu halda oxuyarsa, müstəhəb ehtiyata əsasən, bədəni aram olduqdan sonra hərəkət halında dediklərini yenidən oxumalıdır.

## Namazın qiraətinin müstəhəbləri və məkruhları

**Məsələ 1195.** Bütün namazların birinci rükətində Qədr, ikinci rükətində isə İxlas surəsini oxumaq müstəhəbdir.

**Məsələ 1196.** İnsanın bir gün ərzində qıldığı namazların heç birində İxlas surəsini oxumaması məkruhdur.

**Məsələ 1197.** İxlas surəsini bir nəfəsə oxumaq məkruhdur.

**Məsələ 1198.** Namaz qılanın birinci rükətdə oxuduğu surəni (İxlas surəsi istisna olmaqla) ikinci rükətdə də oxuması məkruhdur, lakin belə edərsə, namazı doğrudur. Namaz qılan İxlas surəsini hər iki rükətdə oxuyarsa, məkruh deyil.

**Məsələ 1199.** Böyük fəqihlər (Allah onlardan razı olsun!) namazın qiraəti ilə bağlı bir sıra işləri müstəhəb bilmişlər. O cümlədən, müstəhəbdir ki:

1) namaz qılan şəxs birinci rükətdə Həmd surəsini oxumazdan öncə "Əuzu billahi minəş-şeytanir-rəcim" desin və daha yaxşı olar ki, onu ahəstə səslə tələffüz etsin;

2) zöhr və əsr namazlarının birinci və ikinci rükətlərində "Bismillahir-Rəhmanir-Rəhim"i uca səslə desin;

3) Həmd və surəni tələsmədən, səlis və aydın surətdə oxusun;

4) hər ayənin sonunda vəqf etsin, yəni onu növbəti ayəyə birləşdirməsin;

5) Həmd və surəni oxuyarkən ayələrin məmanalarına diqqət yetirsin;

6) camaat namazında iştirak edirsə, imamın, namazı fərdi qaydada qılırsa, özünün oxuduğu Həmd surəsi başa çatdıqdan sonra "Əlhəmdu lillahi rəbbil-aləmin" desin;

7) İxlas surəsini oxuduqdan sonra bir, iki, yaxud üç dəfə "Kəzalikəllahu rəbbi", yaxud "Kəzalikəllahu rəbbuna" desin;

8) Surəni oxuduqdan sonra bir qədər gözləsin, sonra rükudan öncəki təkbiri desin və ya qunut tutsun;

9) Namazın Həmd və surəsini və digər zikrlərini oxuyan şəxs öz səsini eşidə biləcəyi bir yerdə namaz qılsın, səs-küylü, yaxud küləkli bir yerdə namaz qılmasın.

## 5. Zikr

Namazın vacibatından biri də zikrdir. [1]Namazın zikrləri arasında təkbirət əl-ehram zikri rükndür, qiraət, təşəhhüd, salam, rüku və səcdənin zikri kimi digər zikrlər isə qeyri-rükndür.

Namazın zikrlərindən bəzilərinə dair özünəməxsus hökmlər vardır ki, onların da hər biri əlaqədar mövzuda izah ediləcəkdir. Lakin zikrlərlə bağlı ümumi hökmlər də vardır. Bu mövzuda həmin hökmlər izah ediləcəkdir.

**Məsələ 1200.** İnsan namazda təkbirət əl-ehramı, qiraəti (Həmd və surəni), təsbihat-i ərbəəni, yaxud rüku və səcdələrin vacib zikrini və ya namazın digər vacib zikrlərini deyərkən bədəni hərəkətsiz və aram olmalı və bir qədər irəli, yaxud arxaya getmək və ya bədənini bir qədər sağa, yaxud sola doğru hərəkət etdirmək istədikdə heç bir şey deməməlidir.

**Məsələ 1201.** Namazın müstəhəb zikrlərini hədislərdə namazda deyilməsi müstəhəb sayılan bir zikri söyləmək niyyəti ilə deyərsə, lazım ehtiyata əsasən, bədəni aram olmalıdır və əgər bədənin hərəkətdə olduğu halda müstəhəb zikr deyərsə, məsələn, rükuya və ya səcdəyə getdiyi əsnada təkbir deyərsə, onu namazda söylənilməsi tövsiyə edilən bir zikr niyyəti ilə dediyi təqdirdə həmin zikr doğru sayılmır, lakin namazın özü doğrudur və bədənin aram olmaması namazın batil olması ilə nəticələnmir. Əlbəttə, "Bihövlillahi və quvvətihi əqumu və əqudu" zikrini istisna olaraq ayaq üstə qalxarkən demək lazımdır.

**Məsələ 1202.** Həmd və surəni, yaxud təsbihat-i ərbəəni və ya təşəhhüd və salamı oxuyarkən əl və barmaqları hərəkət etdirmək namaza xələl gətirmir, hərçənd müstəhəb ehtiyat onları da hərəkət etdirməməyi tələb edir.

**Məsələ 1203.** İnsan namazın sözlərini ərəbcə düzgün oxumalıdır və bu hökm yalnız Həmd və surəyə aid olmayıb təsbihat-i ərbəə, rükunun zikri, səcdənin zikri, təşəhhüd və salam kimi namazın bütün vacib zikrlərinə şamildir.

**Məsələ 1204.** Namaz qılan şəxs azərbaycanca transliterasiyası ərəbcə tələffüzündən fərqlənən və yanlış tələffüzü mənanın dəyişməsi ilə nəticələnən hərflər (samitlər) xüsusunda diqqətli olmalı, onları ərəbcə düzgün tələffüz etməlidir.

---

[1] Qeyd etmək lazımdır ki, bu mövzu ilə bağlı bəzi hökmlər həm namazın zikrlərinə, həm də qiraətinə aid olduğuna görə (təkrara yol verməmək üçün) həmin hökmlər qiraət mövzusunda ayrıca açıqlanmamış, bu mövzuda izah edilmişdir.

Həmin hərflər bunlardır: " "ث , ح , ذ , ص , ض , ط , ظ , ع , غ , ق , و". ". [1] Digər hərflər isə ərəb və azərbaycan dillərində, əsasən, eyni cür tələffüz olunur. Namaz qılan bu hərflərin ifadə etdiyi səsləri azərbaycan dilində olduğu kimi tələffüz edərsə, kafidir, hərçənd ərəbcə fəsih tələffüz olunması daha münasibdir.

Qeyd etmək lazımdır ki, namazın sözlərini təşkil edən səslərin artikulyasiyası zamanı səslərin dəqiqliklə təcvid kitablarında qeyd edildiyi kimi tələffüz olunması vacib deyil, onların tələffüzü zamanı eşidilən səsin ərəblər həmin səsləri tələffüz edərkən eşidilən səsə bənzəyəcəyi şəkildə deyilməsi kifayətdir.

**Məsələ 1205.** Həmd və surənin, eləcə də digər ziklərin oxunuşunun ürfə görə danışmaq hesab edilməsi şərtdir. Burada danışmaq deyərkən danışıq aparatının, o cümlədən, boğaz, ağız boşluğu və s. -nin fəaliyyəti nəticəsində tələffüz olunan və danışanın sakit bir yerdə olduğu təqdirdə öz sədasını eşitdiyi səslər nəzərdə tutulur və səsin yalnız küyünü eşitmək də kafidir, başqa sözlə tələffüz etdiyi sözləri bir-bir ayırd edə bilməsi şərt deyil. Lakin sözlərin dil və dodaqlar hərəkətdən etmədən, yalnız zehndə (daxili nitqdə) təsəvvürü kafi deyil. Həmçinin, səslər normal qaydada artikulyasiya edilmədən dil və dodaqların hərəkət etdirilməsi (dodaqlarla oxumaq) kafi deyil.

Qeyd etmək lazımdır ki, bu hökm namazla yanaş Quran qiraətinə və duaların oxunmasına da aiddir.

**Məsələ 1206. Təcvid alimləri deyirlər: Əgər misal olaraq "سُوْء"** sözündə olduğu kimi bir sözdə "vav" hərfi vardırsa, həmin sözdə "vav" hərfindən öncəki hərf "damma"lidirsəvə eyni sözdə "vav"dan sonrakı hərf "həmzə"dirsə,həmin "vav"mədd edilməli, yəni uzadılmalıdır (ondan öncəki damma uzun /u/ səsi kimi tələffüz edilməlidir. Həmçinin, əgər misal olaraq "جَآءَ", yaxud "مَلآئِكَة" sözündə olduğu kimi bir sözdə "əlif" vardırsa, həmin sözdə "əlif"dən öncəki hərf "fəthə"lidirsə və eyni

[1] Qeyd etmək lazımdır ki, bu məsələdə və eləcə də sonrakı məsələlərdə əsərin orijinalında fars dili ilə bağlı izahlar tərəfimizdən azərbaycan dili ilə bağlı izahlarla əvəz edilmişdir. Həmçinin, burada aşağıdakı məqamlara toxunmağı da məqsədəuyğun hesab edirik:

Həmzə (ء) samiti müasir ərəb dilində əlifbaya daxil edilmədiyinə, həmçinin, ana dilimizin səs sistemində mövcud olmayan bu boğaz samitinin düzgün tələffüz edilməməsi məna dəyişikliyinə səbəb olmadığına görə tələffüzü fərqli olan hərflər (samitlər) sırasına daxil edilməmişdir. Məsələn, Həmd surəsinin 5-ci ayəsinin ilk sözü olan "İyyakə" və İxlas surəsinin 1-ci ayəsinin son sözü olan "Əhəd" sözlərinin ilk səsi həmzə samitidir. Lakin onların ərəb dilindəki tələffüzündən bir qədər fərqli, ana dilimizdə olduğu kimi sait səslərlə tələffüz edilməsi bu sözlərin mənasının dəyişməsi ilə nəticələnmir.

Qaf (ق) və vav (و) samitlərinin də tələffüzü azərbaycan dilinin /q/ və /v/ fonemlərinin tələffüzündən fərqlənir. Lakin onların tələffüzdə ana dilimizdəki sözügedən samit səslərlə əvəz edilməsi məna dəyişikliyinə səbəb olmur. *Tərc.*

sözdə ondan sonrakı hərf "həmzə"dirsə, "əlif" mədd edilməlidir (yəni ondan öncəki fəthə uzun /ə/, bəzi samitlərdə isə uzun /a/ səsi kimi tələffüz edilməlidir). Habelə, əgər misal olaraq "جِيءَ" sözündə olduğu kimi bir sözdə "ya" vardırsa, həmin sözdə "ya"dan öncəki hərf "kəsrə"lidirsə və eyni sözdə ondan sonrakı hərf "həmzə"dirsə, "ya" mədd ilə oxunmalıdır (yəni ondan öncəki kəsrə uzun /i/ səsi kimi tələffüz edilməlidir). Əgər bu hərflərdən (vav, əlif və ya) sonra həmzə deyil, başqa bir sakin (hərəkəsiz), yaxud təşdidli (qoşa samit kimi tələffüz olunan) hərf olarsa, yenə də sözügedən üç hərf mədd ilə oxunmalıdır. Lakin bu qəbildən olan hallarda qiraətin doğru sayılması üçün məddə ehtiyac yoxdur və mədd vacib deyil. Beləliklə, əgər namaz qılan qeyd edilən qaydada riayət etməsə də, namazı doğrudur. Lakin təşdid və əlifin düzgün tələffüzü üçün bir qədər məddə ehtiyac olan "وَلَا الضَّآلِّينَ" kimi sözlərdə əlif və "lam"ın təşdidinin tələffüzü üçün lazım olan qədər mədd etməlidir. Lakin əgər bu sözü "وَلَا الضَّلِّينَ" kimi (əlifsiz), yaxud "وَلَا الضَّالِينَ" kimi (təşdidsiz "lam" ilə) oxuyarsa, doğru deyil.

**Məsələ 1207.** Müstəhəb ehtiyata əsasən, namaz qılan şəxs namazın zikrlərindən hər hansı birini deyərkən hərəkə ilə vəqf və sükunla vəsl etməsin. Hərəkə ilə vəqf deyərkən sözün sonundakı fəthə, kəsrə və damməni (ə/a, i və u səslərini) tələffüz etmək və həmin sözlə sonrakı söz arasında fasilə vermək, məsələn, "Ər-Rəhmanir-Rəhimi" demək, yəni "Rəhim" sözünün "mim" hərfini kəsrə ilə oxumaq və sonra bir qədər fasilə verərək "Maliki yəumid-din" demək nəzərdə tutulur. Sükunla vəsl deyərkən isə sözün fəthə, kəsrə, yaxud damməsini tələffüz etməmək və həmin sözü sonrakı sözə birləşdirmək, məsələn, "Ər-Rəhmanir-Rəhim" demək, yəni "Rəhim" sözünün "mim" hərfini kəsrəsiz oxumaq və fasilə vermədən "Maliki yəumid-din" demək, yaxud təşəhhüddəki salavat zikrində "Allahummə səlli əla Muhəmməd" demək, yəni "Muhəmməd" sözünün "dal"hərfini sakin hərf kimi tələffüz etmək (sözün sonundakı "in" tənvinini tələffüz etməmək) və dərhal salavatın davamını, yəni "və Ali-Muhəmməd" demək nəzərdə tutulur.

**Məsələ 1208.** Əgər namaz qılan bir ayə, yaxud sözü deyib tamamladıqdan sonra onu düzgün deyib-demədiyinə şəkk edərsə, məsələn, "Qul huvəllahu əhəd" ayəsini düzgün oxuyub-oxumadığına şəkk edərsə, şəkkinə etina etməyə bilər, lakin əgər həmin ayə, yaxud sözü ehtiyat üçün yenidən düzgün qaydada deyərsə, namaza xələl gətirmir[1] və bir neçə dəfə şəkk etsə də, bir neçə dəfə təkrarlaya bilər. Lakin əgər vasvasılıq həddinə çatarsa, namazın vaxtı geniş ikən yaxşı olar ki, təkrarlamasın.

[1] Qeyd etmək lazımdır ki, namazın salamlarının təkrarlanmasının özünəməxsus hökmləri vardır. Bu hökmlər 1312-ci məsələdə izah ediləcəkdir.

Vaxta az qaldıqda, yəni bu təkrarın namazın bir hissəsinin vaxt başa çatdıqdan sonra qılınması ilə nəticələnəcəyi təqdirdə isə caiz deyil.

**Məsələ 1209.** Əgər insan öyrəndiyi bir sözü (namazın vacib zikrlərindən hər hansı birinin sözlərini) düzgün hesab edərək namazda bildiyi kimi deyər və sonra onu düzgün demədiyini başa düşərsə, onun düzgün tələffüzünü öyrənməkdə səhlənkarlığa yol vermədiyi təqdirdə namazı yenidən qılması lazım deyil, lakin onu öyrənməkdə səhlənkarlığa yol verdiyi və müqəssir cahil olduğu təqdirdə isə namazı təkrarən qılmalı, vaxt başa çatdığı halda isə qəzasını qılmalıdır.

**Məsələ 1210.** Namazın qiraət və digər vacibatını öyrətmək üçün muzd almaq, vacib ehtiyata əsasən, haramdır. Lakin namazın müstəhəblərini öyrətmək üçün muzd almaq olar.

## 6. Rüku

**Məsələ 1211.** Namaz qılan şəxs hər rükətdə qiraətdən sonra rüku etməli, yəni sonrakı məsələlərdə izah ediləcək qaydada əyilməlidir.

## Rükunun vacibatı və onunla əlaqədar hökmlər

**1) Əyilmək**

**Məsələ 1212.** Əyilmə insanın bütün əl barmaqlarının, o cümlədən baş barmağının ucunu dizin üstünə qoya biləcəyi qədər olmalıdır. Bu qədər əyilmək qadınlar üçün, ehtiyata əsasən, vacibdir.

**Məsələ 1213.** Əyilmə rüku etmək və uca Allah qarşısında itaətkarlıq nümayişi məqsədi daşımalıdır. Beləliklə, əgər insan başqa bir iş, məsələn, bir canlını öldürmək, yaxud yerdən nə isə götürmək üçün əyilərsə, bunu rüku hesab edə bilməz, bu halda ayağa qalxmalı və yenidən rüku məqsədilə əyilməlidir. Sözügedən vəziyyətdə bu hərəkətlə (rükudan başqa bir məqsədlə əyilmə ilə) rükn artıq icra edilmiş sayılmır və namaz batil olmur.

**Məsələ 1214.** Əgər namaz qılan rükunu qeyri-normal bir tərzdə icra edərsə, məsələn, sola, yaxud sağa əyilərsə və ya dizlərini qabağa çəkərsə, yaxud hərçənd əlləri dizinə çatsa belə, doğru deyil.

**Məsələ 1215.** Əgər namaz qılan rüku həddində əyilərsə, lakin barmaqlarının uclarını dizlərinə qoymazsa, namaza xələl gətirmir.

**Məsələ 1216.** Qol, yaxud dizi başqalarının qol və dizindən fərqlənən, məsələn, qolu bir qədər əyiləcəyi təqdirdə dizlərinə çatacaq qədər xeyli uzun olan, yaxud diz qapaqları başqa insanlarınkı ilə müqayisədə daha aşağıda olub, əllərini dizlərinə çatdırmaq üçün daha çox əyilməli olan şəxs normal əndazədə əyilməlidir.

**Məsələ 1217.** Oturaq halda rüku edən şəxs üzü dizlərinin müqabilinə çatacaq qədər, müstəhəb ehtiyata əsasən, isə üz səcdə yerinin müqabilinə çatacaq qədər əyilməlidir.

**Məsələ 1218.** Əgər namaz qılan rüku vəziyyətini aldıqdan sonra qəsdən başını rükudan qaldıraraq iki dəfə rüku həddində əyilərsə, namazı batildir.

**2) Rükudan bilavasitə öncəki qiyam**

**Məsələ 1219.** Namazın rüknlərindən olan rükudan bilavasitə öncəki qiyam insanın ayaq üstə duruş halından rükuya əyilməsi deməkdir. Məsələn, əgər insan Həmd və surəni oxuduqdan sonra yerdən bir şeyi götürmək kimi hər hansı bir səbəblə bir anlıq yerə oturarsa, yenidən ayağa qalxmalı, ayaq üstə duruş vəziyyətindən rükuya əyilməlidir və oturduğu yerdən ayağa qalxmadan rükuya gedərsə, namazı batildir. Beləliklə, rükudan bilavasitə öncəki qiyam rüku öncəsi fasilə və yubanma demək deyil.

**3) Rükunun zikri**

**Məsələ 1220.** Namaz qılanın rükuda zikr deməsi vacibdir və daha yaxşı olar ki, ixtiyar halında[1] rükuda üç dəfə "Subhanəllah", yaxud bir dəfə "Subhanə rəbbiyəl-Əzimi və bihəmdih" desin. Hərçənd, uca Allaha təzim və təqdis məzmunu daşıyan istənilən zikrin deyilməsi kafidir, lakin vacib ehtiyata əsasən, həmin qədər olmalı, məsələn, üç dəfə "Əlhəmdu lillah", yaxud üç dəfə "Allahu əkbər" deyilməlidir. Rükunun vacib zikri ünvanı ilə digər zikrlərin edilməsi, o cümlədən istiğfar və salavat, insanın özü və möminlər üçün diləklərini dilə gətirərək uca Allaha dua etməsi isə kafi deyil. "Subhanə rəbbiyəl-Əzim"i yaxşı tələffüz edə bilməyən şəxs başqa bir zikr, məsələn, üç dəfə "Subhanəllah" deməlidir. Vaxtın məhdud olduğu, yaxud çıxılmaz hallarda və zəruri vəziyyətlərdə bir dəfə "Subhanəllah" demək kafidir.

**Məsələ 1221.** Rükunun vacib zikri ilə bağlı iki şərt vardır:

a) Müvalata riayət olunmalı, yəni zikrin sözləri fasiləsiz ardıcıllıqla deyilməlidir;

b) Zikr ərəbcə düzgün deyilməli, yəni tələffüz zamanı samit və səslərin düzgün artikulyasiyasına riayət olunmalıdır.

**4) Bədənin hərəkətsizliyi və aramlığı**

**Məsələ 1222.** Rüku halında, hətta vacib ehtiyata əsasən, vacib zikri deməklə məşğul olmadığı zaman da namaz qılanın bədəni hərəkətsiz və

---

[1] İxtiyar halı bir şəriət hökmünün şamil olunması üçün normal hesab edilən, hər hansı bir zərurətlə əlaqədar olaraq istisna hal (ixtiyarın əksi olan bu hala "iztirar" deyilir) sayılmayan vəziyyətdir. *Tərc.*

aram olmalı, bədənini iradi surətdə aramlıq və hərəkətsizlik halından çıxacaq şəkildə hərəkət etdirməməlidir. Əgər qəsdən bu hərəkətsizlik şərtinə riayət etməzsə, vacib ehtiyata əsasən, hətta zikri hərəkətsiz vəziyyətdə təkrarən desə belə, namaz batildir.

**Məsələ 1223.** Əgər namaz qılan rüku halında özündən asılı olmadan aramlığını itirəcək şəkildə hərəkət edərsə, vacib ehtiyata əsasən, bu halda sükut etməli və rükunun zikrini deməməlidir. Əgər səhvən, yaxud özündən asılı olmadan bu vəziyyətdə rükunun zikrini deyərsə, zikr doğrudur. Lakin əgər aramlığını itirməyəcək şəkildə cüzi hərəkət edərsə, yaxud barmaqlarını zikr əsnasında hərəkət etdirərsə, bu, namaza xələl gətirmir.

**Məsələ 1224.** Rükuda vacib zikri demək üçün lazım olan qədər yubanmaq və vacib zikrin deyilməsi əsnasında bədənin hərəkətsizliyi və aramlığı vacibdir. Buna əsasən, əgər namaz qılan rüku həddinədək əyilməmiş, yaxud rüku həddinə çatdıqdan sonra və bədəni aram olmamış qəsdən rükunun vacib zikrini deyərsə, namazı batildir. Ancaq zikri yenidən (həmin) rükuda hərəkətsiz halda dediyi təqdirdə istisna olaraq namazı batil deyil. Əgər səhvən, yaxud unutqanlıqdan zikri rüku həddinə çatdıqdan sonra bədəni hərəkətdə ikən deyərsə, onu yenidən deməsi vacib deyil, hərçənd, müstəhəb ehtiyat bədən aramlaşdıqdan sonra onu yenidən deməyi tələb edir.

**Məsələ 1225.** Əgər namaz qılan vacib zikr başa çatmamış qəsdən başını rükudan qaldırarsa, namazı batildir. Hətta rüku vəziyyətindən çıxmadığı və rükunun zikrini təkrarən dediyi təqdirdə də rükuda tələb olunan hərəkətsizliyi qəsdən pozduğuna görə, vacib ehtiyata əsasən, namazı batildir. Əgər səhvən vacib zikr başa çatmamış başını qaldırarsa, namazı doğrudur.

**Məsələ 1226.** Əgər insan xəstəlik və bənzər səbəblərlə əlaqədar olaraq rükuda hərəkətsiz qala bilmirsə, namazı doğrudur, lakin rüku vəziyyətindən çıxmamış vacib zikri deməlidir. Vacib zikri deyə biləcək qədər – hərçənd bir dəfə "Subhanəllah" deyəcək qədər və hərçənd bədəni aram olmasa belə– rüku vəziyyətində qala bilmədiyi təqdirdə isə zikri deməsi vacib deyil. Lakin, müstəhəb ehtiyatın tələbi budur ki, hərçənd qalanını rükudan qalxarkən ümumiyyətlə Allaha yaxınlaşma niyyəti ilə (yəni namazın vacib zikri niyyəti ilə deyil, bu zikrin ümumiyyətlə bəyənilən və savablı olması niyyəti ilə) demək, yaxud rüku vəziyyətinə çatmamış ümumiyyətlə Allaha yaxınlaşma niyyəti ilə zikri söyləməyə başlamaq surəti ilə olsa da, zikri desin.

**5) Rükudan sonrakı qiyam**

**Məsələ 1227.** Rükunun zikri başa çatdıqdan sonra vacibdir ki, namaz qılan qamətini düzəltsin və vacib ehtiyata əsasən, bədəni aram olduqdan

sonra səcdəyə getsin. Əgər qəsdən ayağa qalxmadan səcdəyə gedərsə, namazı batildir. Həmçinin, rükunun zikri başa çatdıqdan sonra ayaq üstə durarsa, lakin qəsdən bədəni aram olmadan səcdəyə gedərsə, vacib ehtiyata əsasən, namazı batildir.

## Rüku ilə əlaqədar digər hökmlər

**Məsələ 1228.** Əgər insan rüku həddində əyilə bilmirsə, bir şeyə söykənərək ayaq üstə rüku etməlidir. Əgər bir şeyə söykəndikdə də normal qaydada rüku edə bilmirsə, ürfən rüku adlandırılacaq qədər əyilməlidir. Əgər bu qədər də əyilə bilmirsə, ayaq üstə rüku üçün başı ilə işarə etməlidir. Əgər, ümumiyyətlə, namazda ayaq üstə durmağa qadir deyilsə, rükunu oturaq vəziyyətdə yerinə yetirməlidir.

**Məsələ 1229.** Ayaq üstə rüku edə bilməyən, lakin rüku üçün oturaq vəziyyətdə əyilə bilən şəxs ayaq üstə namaz qılmalı, rüku üçün başı ilə işarə etməlidir və müstəhəb ehtiyata əsasən, başqa bir namaz da qılmalı, həmin namazın rükusu əsnasında oturmalı və rüku üçün əyilməlidir.

**Məsələ 1230.** Rüku üçün başı ilə işarə etməli olan şəxs əgər başı ilə işarə edə bilmirsə, rüku niyyəti ilə gözlərini yumaraq onun zikrini deməli və rükudan qalxmaq niyyəti ilə gözlərini açmalıdır. Əgər bunu da bacarmırsa, qəlbində rüku niyyəti etməli və vacib ehtiyata əsasən, əli ilə, yaxud bənzər bir şəkildə rüku üçün işarə etməli və onun zikrini söyləməlidir. Sonuncu halda əgər namaz qılan oturaq vəziyyətdə rükunu baş işarəsi ilə yerinə yetirə bilirsə, vacib ehtiyata əsasən, namazı həm ayaq üstə (rükusu qəlbdə niyyət etmək və əl işarəsi, yaxud bənzər bir hərəkətin müşayiəti ilə olmalıdır), həm də oturaq vəziyyətdə (rükusu baş işarəsi ilə yerinə yetirilməlidir) qılmalıdır.

**Məsələ 1231.** Əgər namaz qılan rükunu unudar və səcdəyə çatmamış xatırlayarsa, ayağa qalxmalı, sonra rükuya əyilməlidir və əgər ayağa qalxmadan əyildiyi vəziyyətindən rüku vəziyyətinə keçərsə, kafi deyil.

**Məsələ 1232.** Əgər alnı yerə dəydikdən sonra rüku etmədiyini xatırlayarsa, geriyə qayıtmalı və rükunu ayağa qalxdıqdan sonra etməlidir. İkinci səcdədə (başını möhürə qoyduqdan sonra) xatırladığı təqdirdə isə namazı, lazım ehtiyata əsasən, batildir.

## Rükunun müstəhəbləri

**Məsələ 1233.** Fəqihlər (Allah onlardan razı olsun!) rüku ilə əlaqədar çoxlu sayda müstəhəb iş, hal və hərəkətdən söz açmışlar. O cümlədən:

1) Rükuyə əyilməzdən öncə ayaq üstə təkbir demək;
2) Rükuda kişinin ayaqlarını və kürəyini düz saxlayacaq şəkildə dizlərini arxaya verməsi, əllərinin içini dizlərinə qoyması və əl barmaqlarını diz qapağını əhatə edəcək şəkildə bir-birindən aralı tutması,

qadının isə əllərini dizlərindən yuxarı qoyması, dizlərini arxaya verməməsi, belini çox əyməməsi və sağrı nahiyəsi görünəcək şəkildə qövsvari vəziyyət almaması;

3) Boynu uzatmaq və kürəklə bərabərləşdirmək;
4) Ayaqların arasına baxmaq;
5) Rükunun zikrini təkrarlamaq və onu tək sayda bitirmək;
6) Zikrdən əvvəl və ya sonra salavat demək;
7) Rükudan qalxdıqdan və qiyam vəziyyətini aldıqdan sonra bədən aram olduğu halda "Səmiəllahu limən həmidəh" demək.

## 7. Səcdə

**Məsələ 1234.** Namaz qılan vacib və müstəhəb namazların hər rükətində rükudan sonra iki dəfə səcdə etməlidir. Səcdə uca Allahın qarşısında itaətkarlığın izhar edilməsi məqsədi ilə alnı xüsusi qaydada yerə qoymaqla gerçəkləşir və səcdənin vacibatı və hökmləri növbəti məsələlərdə açıqlanacaqdır.

## Səcdənin vacibatı

**1) Yeddi nahiyəni yerə qoymaq**

**Məsələ 1235.** Səcdə halında namaz qılanın alnı ilə yanaşı ovucları, diz qapaqları və ayaqlarının baş barmaqlarını da yerə qoyması vacibdir. Səcdə xüsusunda alın deyərkən, vacib ehtiyata əsasən, alnın ortası nəzərdə tutulur və bu nahiyə alnın ortasında qaşların başlanğıcından[1] saç tüklərinin bitməyə başladığı yerədək iki xəyali xəttin çəkilməsi ilə təsəvvür edilən bir düzbucaqlıya bənzəyir.

**Məsələ 1236.** Səcdədə alnı (alın deyərkən nəyin nəzərdə tutulduğu öncəki məsələdə izah edilmişdir) bütünlüklə torpağa, möhürə, yaxud səcdənin doğru olduğu bir şeyin üzərinə qoymaq vacib deyil. Əgər insan alnının bir hissəsini ürfən səcdə sayıla biləcək şəkildə torpağa, möhürə, yaxud səcdənin doğru olduğu başqa bir şeyin üzərinə qoyarsa, hərçənd bir barmaq buğumu ölçüsündə, yaxud daha az bir hissəsini qoysa belə, kafidir.

**Məsələ 1237.** Səcdədə insan ovucları (barmaqlar da daxil olmaqla) yerə qoymalı və vacib ehtiyata əsasən, mümkün olduğu təqdirdə ovucu bütövlüklə yerə dayamalıdır. Lakin zərurət hallarında əlin üst tərəfini də qoymaq olar. Əgər əlin üst tərəfini də yerə qoymaq mümkün olmasa, vacib ehtiyata əsasən, biləyini yerə qoymalıdır. Bunu da bacarmadığı təqdirdə qolun dirsəyədək olan (bazuönü) hissəsində hər hansı bir nahiyəni yerə qoya bilirsə, həmin nahiyəni qoymalıdır. Əgər bu da mümkün deyilsə, qolun bazu (çiyindən dirsəyədək) hissəsini qoymaq kafidir.

**Məsələ 1238.** Səcdədə ayaqların baş barmaqları yerə qoyulmalıdır. Lakin baş barmaqların ucunu yerə dayamaq vacib deyil. Baş barmaqların üst, yaxud alt hissəsinin yerə qoyulması da kafidir.

**Məsələ 1239.** Namaz qılan ayaqlarının baş barmaqları ilə yanaşı digər barmaqlarını da yerə qoyarsa, namaza xələl gəlmir. Lakin əgər ayaqların baş barmaqlarını yerə qoymayıb digər barmaqları, yaxud ayaqların üst tərəfini yerə qoyarsa və ya dırnağın uzun olması səbəbi ilə baş barmaq yerə dəyməzsə, namaz batildir. Məsələni bilmədəyinə görə namazlarını bu cür qılan şəxs məsələni öyrənməkdə səhlənkarlığa yol verərək müqəssir olduğu təqdirdə yenidən qılmalıdır, məsələni öyrənməkdə səhlənkarlığa yol verməyib qasir cahil olduğu təqdirdə isə qıldığı namazlar doğru sayılır.

**Məsələ 1240.** Ayağının baş barmağının bir hissəsi kəsilən şəxs onun qalan hissəsini yerə qoymalıdır. Əgər tamamilə kəsilmişdirsə, yaxud heç

---

[1] Qaşların başlanğıcı deyərkən onların burun arakəsmə sümüyünə yaxın olan tərəfi nəzərdə tutulur.

bir vəchlə yerə qoyula bilməyən kiçik bir hissəsi qalmışdırsa, vacib ehtiyata əsasən, digər barmaqları yerə qoymaq lazımdır. Əgər ayaq barmaqlarından heç biri yoxdursa, ayağının qalan hissəsinin istənilən qədərini yerə qoyarsa, kafidir.

**Məsələ 1241.** Alnını yerə qoya bilən şəxs onu qəsdən, yaxud səhvən yerə qoymazsa, hərçənd digər nahiyələr yerə dəysə də, səcdə etməmişdir. Lakin əgər alnını yerə qoyarsa və səhvən digər nahiyələri yerə qoymazsa, yaxud səhvən zikr deməzsə, səcdə doğrudur.

**Məsələ 1242.** Əgər insan qeyri-adi qaydada səcdə edərsə, məsələn, sinəsini və qarnını yerə dayayarsa, yaxud ayaqlarını bir qədər uzadarsa, səcdə etmiş sayıldığı təqdirdə namazı doğru, yerə uzanmış sayıldığı və səcdə hesab edilmədiyi təqdirdə isə namazı batildir.

**2) Səcdənin zikri**

**Məsələ 1243.** Namaz qılanın səcdədə zikr deməsi vacibdir və daha yaxşı olar ki, ixtiyar halında[1] **səcdədə üç dəfə "Subhanəllah", yaxud bir dəfə "Subhanə rəbbiyəl-Əla və bihəmdih"**[2] desin. Hərçənd, uca Allaha təzim və təqdis məzmunu daşıyan istənilən zikrin deyilməsi kafidir, lakin vacib ehtiyata əsasən, həmin qədər olmalı, məsələn, üç dəfə "Əlhəmdu lillah", yaxud üç dəfə "Allahu əkbər" deyilməlidir. Səcdənin vacib zikri ünvanı ilə digər zikrlərin edilməsi, o cümlədən istiğfar və salavat, insanın özü və möminlər üçün diləklərini dilə gətirərək uca Allaha dua etməsi isə kafi deyil. "Subhanə rəbbiyəl-Əla" zikrini yaxşı tələffüz edə bilməyən şəxs başqa bir zikr, məsələn, üç dəfə "Subhanəllah" deməlidir.

**Məsələ 1244.** Səcdənin vacib zikrində aşağıdakı şərtlər nəzərə alınmalıdır:

a) Müvalata riayət edilməli, zikrin sözləri ardıcıl və fasiləsiz deyilməlidir;

b) Zikr ərəbcə düzgün deyilməli, yəni tələffüz əsnasında samit və sait səslərin artikulyasına riayət edilməlidir.

**Məsələ 1245.** Vaxt məhdud olduqda və zəruri hallarda səcdədə bir dəfə "Subhanəllah" demək kafidir.

**3 və 4) İki səcdə arasında və vacib ehtiyata əsasən, ikinci səcdədən sonra oturmaq**

---

[1] İxtiyar halı bir şəriət hökmünün şamil olunması üçün normal hesab edilən, hər hansı bir zərurətlə əlaqədar olaraq istisna hal (ixtiyarın əksi olan bu hala "iztirar" deyilir) sayılmayan vəziyyətdir. *Tərc.*

[2] "Subhanə rəbbiyəl-Əla" demək kafidir. Müstəhəb ehtiyata əsasən isə "və bihəmdih" də deməlidir.

**Məsələ 1246.** Birinci səcdənin zikri başa çatdıqdan sonra vacibdir ki, namaz qılan düzgün otursun və bədənin aram olduqdan sonra yenidən səcdəyə getsin.

**Məsələ 1247.** Təşəhhüdü olmayan birinci və üçüncü rükətlərdə, məsələn, zöhr, əsr və işa namazlarının üçüncü rükətlərində, vacib ehtiyata əsasən, ikinci səcdədən sonra namaz qılan bir qədər hərəkətsiz oturmalı, sonra ayağa qalxmalıdır. Bu oturuşa "istirahət oturuşu" deyilir.

**5) Bədənin hərəkətsizliyi və aramlığı**

**Məsələ 1248.** Namaz qılanın bədəni səcdələr əsnasında hətta, vacib ehtiyata əsasən, vacib zikri demədiyi zaman da aram olmalıdır və o, bədənini qəsdən aramlıqdan çıxacaq şəkildə hərəkət etdirməməlidir.

**Məsələ 1249.** Səcdədə vacib zikri demək üçün kifayət edəcək qədər qalmaq lazımdır və bədən vacib zikri deyərkən aram olmalıdır. Beləliklə, əgər alın yerə dəyməmiş və bədən aram olmamış qəsdən üzürlü bir səbəb olmadan səcdənin zikri deyilərsə, zikrin daha sonra hərəkətsiz vəziyyətdə deyilməsi istisna olmaqla, namaz batildir. Əgər namaz qılan vacib zikr başa çatmamış qəsdən başını səcdədən qaldırarsa, namaz batil olur. Lakin əgər hər iki halda məsələni bilməməsi səbəbi ilə belə hərəkət edərsə, qasir cahil olduğu təqdirdə namazı doğrudur.

**Məsələ 1250.** Əgər insan alnı yerə dəyməmiş səhvən səcdənin zikrini deyərsə və başını səcdədən qaldırmamış səhv etdiyini başa düşərsə, zikri yenidən hərəkətsiz və aram vəziyyətdə deməlidir. Lakin əgər alın yerə dəyərsə və səhvən bədən aram olmamış zikri deyərsə, zikrin hərəkətsiz vəziyyətdə təkrarlanması vacib deyil, hərçənd bu, müstəhəb ehtiyata müvafiqdir.

**Məsələ 1251.** Əgər insan səcdə halında hərçənd zikr demədikdə belə, yeddi üzvün alından başqa hər hansı birini yerdən qaldırarsa, səcdədə tələb olunan (və 1248-ci məsələdə izah edilən) hərəkətsizliyi pozduğu təqdirdə, vacib ehtiyata əsasən, namazı batildir. Alnı yerdən qaldırmaqla bağlı hökm isə 1249-cu məsələdən aydın olur.

**Məsələ 1252.** Əgər namaz qılan şəxs içi quş tükü, yaxud süngərlə doldurulmuş döşəyin və ya bu qəbildən olan bir əşyanın üzərində səcdə edirsə, bədəni onun üzərində aram olmadığı təqdirdə səcdə batildir. Hətta əgər alnını səcdə üçün onun üzərinə qoyduqdan sonra alın aşağıya doğru hərəkət edər, sonra sabitləşərsə və o, bu halda zikr deyərsə, yenə də namaza xələl gətirir və vacib ehtiyat bu qaydada səcdə etməməyi tələb edir. Lakin hərəkətin cüzi olduğu, yaxud səhvən bu vəziyyətdə səcdə edildiyi hallar istisna təşkil edir. Beləliklə, namazın səcdələrinin və rükətlərinin sayını göstərən, başı üzərinə qoyduqda təqribən 2-3

millimetr aşağı əyilərək sonra sabitləşən və namaz qılana aram halda zikr demək imkanı verən möhürlərə səcdə etmək olar.

**6) Alınla ayaqların baş barmaqları və dizlərin tən olması**

**Məsələ 1253.** Namaz qılanın alnını qoyduğu yer dizlərini və ayaq barmaqlarının uclarını qoyduğu yerdən dörd bitişik barmaqdan artıq hündür, yaxud alçaq olmamalıdır. Hətta, vacib ehtiyata əsasən, alnını qoyduğu yer ayaq üstə durduğu yerdən də dörd bitişik barmaqdan artıq hündür, yaxud alçaq olmamalıdır.

**Məsələ 1254.** Mailliyi olan yerdə, hərçənd maillik dərəcəsi dəqiq məlum olmasa belə, əgər namaz qılanın alnını qoyduğu yer dizlərini və ayaq barmaqlarını qoyduğu yerdən dörd bitişik barmaqdan artıq hündür, yaxud alçaq olarsa, vacib ehtiyata əsasən, namazı batildir. Həmçinin, alnını qoyuğu yerlə ayaq üstə durduğu yer arasında dörd bitişik barmaqdan artıq hündürlük fərqi olduğu təqdirdə də hökm belədir.

**Məsələ 1255.** Əgər namaz qılan alnını səhvən dizlərini və ayaq barmaqlarını qoyduğu yerdən dörd bitişik barmaqdan artıq hündür olan bir yerə qoyarsa, həmin yerin hündürlüyü namaz qılanın haqqında "səcdə edir" deyilə bilməyəcək qədər olduğu təqdirdə başını qaldırmalı və hündürlüyü dörd bitişik barmaqdan artıq olmayan bir yerə qoymalıdır. Həmin yerin hündürlüyü "səcdədədir" deyilə biləcək qədər olduğu təqdirdə isə əgər vacib zikri dedikdən sonra başa düşərsə, başını səcdədən qaldıraraq namazını tamamlaya bilər və onu yenidən qılmasına da gərək yoxdur. Lakin əgər vacib zikri deməmiş başa düşərsə, alnını həmin yerdən dörd bitişik barmaq hündürlüyündə, yaxud daha alçaq olan başqa bir yerə sürüşdürməli, sonra vacib zikri deməlidir və bu halda alnı qaldırmaq caiz deyil. Alnı sürüşdürmək mümkün olmadığı təqdirdə isə vacib zikri həmin halda deyərək namazı başa çatdıra bilər və hərçənd vaxt geniş olsa da, həmin namazı yenidən qılmasına gərək yoxdur.

**7) Alnı üzərinə səcdənin doğru olduğu bir şeyin üstünə qoymaq**

**Məsələ 1256.** Namaz qılan alnını şəriətə görə üzərinə səcdə edilməsi doğru sayılan bir şeyin üstünə qoymalıdır. Həmçinin, əgər alnı ilə səcdə edə bilmirsə və vəzifəsi üzün digər hissələri o cümlədən, alnın kənarları, yaxud çənə ilə səcdə etməkdirsə (bununla bağlı hökm irəlidə açıqlanacaqdır), həmin hissəni üzərinə səcdə edilməsi doğru olan bir şeyin üstünə qoymalıdır. Lakin digər səcdə üzvləri, yəni ovuclar, dizlər və ayaqların baş barmaqları yerə qoyulmalı olsa da, üzərinə səcdə edilməsi doğru olan bir şeyin üstünə qoyulması lazım deyil. Həmçinin, onların yerlə bilavasitə təması da zəruri deyil. Beləliklə, əlində əlcək, yaxud ayağında corab olan şəxs bu halda səcdə edə bilər və insanların nəzərində hər iki əli, yaxud ayaqlarının baş barmaqları yerə qoyulmuş sayılırsa, kafidir.

## Üzərinə səcdə edilməsi doğru olan şeylə bağlı şərtlər

**Məsələ 1257.** Səcdə zamanı alnın üzərinə qoyulduğu şeylə bağlı qarşıdakı məsələlərdə izah ediləcək bir sıra şərtlər mövcuddur:

***1 və 2-ci şərtlər: Pak olmalı və vacib ehtiyata əsasən, qəsb edilmiş mal olmamalıdır***

**Məsələ 1258.** İnsanın səcdə zamanı alnını üzərinə qoyduğu möhür, yaxud başqa bir əşya səcdənin doğru sayıldığı ölçüdə pak olmalıdır. Lakin əgər misal olaraq o, pak möhürü nəcasətli xalçanın üzərinə qoyarsa, yaxud möhürün bir tərəfi nəcasətli olarsa və o, alnını pak tərəfə qoyarsa, ya da möhürün səthinin bir hissəsi pak, bir hissəsi isə nəcasətli olarsa və o, alnını pak hissəyə qoyarsa, namaza xələl gəlmir.

**Məsələ 1259.** İnsanın səcdə zamanı alnını üzərinə qoyduğu möhür, yaxud başqa bir əşya, vacib ehtiyata əsasən, mübah olmalı, qəsb edilmiş mal olmamalıdır. Beləliklə, əgər namaz qılan qəsdən alnını qəsb edilmiş möhürə qoyaraq səcdə edərsə, günah etmişdir və vacib ehtiyata əsasən, namazı batildir.

***3-cü şərt: Alnın üzərində hərəkətsiz qala bildiyi şeylərdən olmalıdır***

**Məsələ 1260.** Səcdə zamanı alnın üzərinə qoyulduğu əşya alnın üzərində hərəkətsiz və sabit qala biləcəyi bir şey olmalıdır. Beləliklə, alnın üzərində aram ola bilmədiyi yumşaq gil və torpağın üzərinə səcdə etmək doğru deyil. Əgər alın bir qədər aşağıya doğru hərəkət etdikdən sonra sabit qalarsa, bu vəziyyətlə bağlı hökm 1252-ci məsələdə izah edilmişdir. Əgər insanın alnın üzərində sabitliyini qoruya bilmədiyi gildən başqa bir şeyi yoxdursa, alnını onun üzərinə qoymalı və ağırlığını onun üzərinə salmamalıdır.

***4-cü şərt: Ürfən səcdə sayılacaq genişlikdə olmalıdır***

**Məsələ 1261.** Alnın səcdə üçün üzərinə qoyulduğu möhür, yaxud başqa bir əşya qeyd edildiyi kimi elə ölçüdə olmalıdır ki, hərçənd bir barmaq buğumu qədər və daha kiçik olsa da, alnın onun üzərinə qoyulması ürfən səcdə sayılsın.

**Məsələ 1262.** Öncəki məsələdə sözügedən ölçünün bir bötüv şəklində olması şərt deyil, pərakəndə halda da ola bilər. Buna əsasən, səcdədə alnı bir-birindən ayrı olan təsbeh dənələrinin üzərinə qoymaq olar, bu şərtlə ki, alnın üzərinə qoyulduğu şeylər (burada: dənələr) birlikdə ürfən "alınla səcdə edilmişdir" deyiləcək şəkildə olmalıdır.

**Məsələ 1263.** Alınla üzərinə səcdənin doğru sayıldığı əşya arasında başqa bir şey (maneə) olmamalıdır. Beləliklə, əgər möhür çirkli olarsa, yaxud insanın saçı, çadra, baş örtüyü və ya başqa bir şey maneə hesab ediləcək şəkildə alnın üstünü örtərsə və alnın dərisinin səcdədə vacib

olan qədər üzərinə səcdə edilən əşya ilə bilavasitə təmasına imkan vermirsə, bu halda səcdə həmin maneə mövcud olduğu təqdirdə batildir və o, səcdədən öncə aradan qaldırılmalıdır. Lakin əgər misal olaraq möhürün sadəcə rəngi dəyişərsə, namaza xələl gəlmir.

**Məsələ 1264.** Əgər birinci səcdədə möhür alına yapışarsa, ikinci səcdə üçün möhürü götürüb (alından qoparıb) sonra səcdə etmək lazımdır. Həmçinin, üzərinə səcdənin doğru sayıldığı əşyanın bir hissəsi birinci səcdədə alına yapışdığı (belə ki, maneə hesab edildiyi və alnın dərisinin səcdədə vacib olan qədər üzərinə səcdə edilən əşya ilə bilavasitə təmasına imkan vermədiyi) təqdirdə insan növbəti səcdə üçün onu aradan qaldırmalıdır.

***Beşinci şərt: Səcdə yerinin növü ilə bağlı tələblərə riayət edilməlidir***

**Səcdə zamanı alın ağacların budağı və çubuğu kimi yerdən bitən, insan üçün yeyiləsi və geyiləsi olmayan torpaq, daş və qum və sair yerə qoyulmalıdır.**

**Məsələ 1265.** Alnı buğda, göyərtilər və meyvələr kimi insanın qidası hesab edilən, çiy, yaxud bişmiş halda yeyilən şeylərin(istər torpaqda bitsin, istərsə başqa bir üsulla əldə edilsin), həmçinin insanın geyimi hesab edilən, yəni adətən geyinilən şeylərin(məsələn, müxtəlif növ paltarların), yaxud hərçənd hələ əyrilməmiş və toxunmamış olsa da, pambıq, sap və parça kimi geyimin hazırlandığı materialların üzərinə qoyaraq səcdə etmək doğru deyil.

**Məsələ 1266.** Alnı şüşə, plastik, qızıl, gümüş, nikel, mis, dəmir və digər metallar, habelə metal, şüşə, yaxud plastik maddələrdən hazırlanan və bu qəbildən olan əşyalar kimi yer səthinin tərkib hissəsi sayılmayan şeylərin üzərinə qoyaraq səcdə etmək doğru deyil. Lakin zərurət hallarında qır və zift (aşağı keyfiyyətli qatran növü) üzərinə səcdənin doğru olmadığı digər şeylərdən üstün tutulmalıdır.

**Məsələ 1267.** Üzüm yarpağı nazik ikən və adətən yeyilən vaxtlarında alnı onun üzərinə qoyaraq səcdə etmək olmaz, digər hallarda isə onun üzərinə səcdə etməyin eybi yoxdur. Həmçinin, alaf, saman və yonca kimi yerdə bitən və heyvanların yemi sayılan şeylərin üzərinə səcdə doğrudur.

**Məsələ 1268.** Qızılgül, tuberoza, ətirşah və bu qəbildən olan yeyilməyən güllərin üzərinə səcdə doğrudur. Hətta bənövşə, dərman göyzabanı, gülxətmi kimi yerdə bitən və dəmlənərək, yaxud qaynadılaraq suyu içilən dərmanlar bitkilərinin də üzərinə səcdə etmək olar.

**Məsələ 1269.** Bəzi bölgələrdə yeyilən, bəzi bölgələrdə isə yeyilməyən bir bitki müəyyən səbəblərlə yeyilməsiadət olmayan bölgələrin əhalisi

tərəfindən yeyilməsə də yeməli hesab edildiyi təqdirdə alnı həmin bitkinin üzərinə qoyaraq səcdə etmək doğru deyil. Həmçinin, kal meyvənin üzərinə səcdə etmək də, vacib ehtiyata əsasən, doğru deyil.

**Məsələ 1270.** Alnı qoz, badam, fındıq, püstə və ərik çəyirdəyinin üzərinə qoyaraq səcdə etmək doğru deyil, ancaq ləpəsi çıxarıldıqdan sonra onların qabığının üzərinə səcdə etmək olar. Həmçinin, xurma çəyirdəyinin üzərinə də səcdə etmək olar.

**Məsələ 1271.** Əhəng daşı və gipsin, hətta bişmiş gəc və əhəngin, həmçinin bişmiş gilin, kərpicin və saxsı kuzənin də üzərinə səcdə doğrudur.

**Məsələ 1272.** Əqiq, firuzə və bu qəbildən olan təbii qiymətli daşların üzərinə səcdə etmək olar. Həmçinin, bəzək vasitəsi kimi istifadə olunan və olunmayan müxtəlif növ daşların, o cümlədən mərmər, ağ, qara, qırmızı və digər rənglərdə olan daşların üzərinə səcdə doğrudur.

**Məsələ 1273.** Kağız üzərinə səcdənin doğru olduğu taxta və saman kimi materiallardan, həmçinin pambıq və kətandan istehsal edilmişdirsə, alnı onun üzərinə qoyaraq səcdə etmək olar. [1]Lakin əgər ipək və bu qəbildən olan materiallardan istehsal edilmişdirsə, onun üzərinə səcdə doğru deyil. Kağız dəsmallara (salfetlərə) gəlincə, onlara yalnız üzərinə səcdənin doğru olduğu materiallardan hazırlandığı məlum olduğu təqdirdə səcdə etmək olar.

**Məsələ 1274.** Əgər namaz qılanın səcdədə alnın üzərinə qoyulması doğru sayılan bir şeyi yoxdursa, ya da olmasına baxmayaraq həddən ziyadə soyuq, yaxud isti və bu qəbildən olan səbəblərdən alnını onun üzərinə qoyaraq səcdə edə bilmirsə, qır və ziftin üzərinə səcdə digər şeylərin üzərinə səcdədən üstün tutulmalıdır. Lakin əgər onların da üzərinə səcdə mümkün deyilsə, alnını paltarına, yaxud ixtiyar halında (zərurət olmadan) üzərinə səcdə edilməsi doğru sayılmayan başqa bir şeyə qoyaraq səcdə etməlidir. Ancaq müstəhəb ehtiyatın tələbi budur ki, alnını paltarının üzərinə qoyaraq səcdə etməsi mümkün olduqca başqa bir şeyin üzərinə səcdə etməsin.

**Məsələ 1275.** Səcdə üçün hər şeydən yaxşısı Həzrət Hüseynin (ə) türbəti, ondan sonra torpaq, torpaqdan sonra daş, daşdan sonra isə bitkidir.

## Səcdə ilə əlaqədar digər hökmlər

**Məsələ 1276.** Əgər namaz əsnasında namaz qılanın səcdədə alnını üzərinə qoyduğu şey itərsə və üzərinə səcdənin doğru olduğu başqa bir şeyi olmazsa, vaxt dar olduğu təqdirdə 1274-cü məsələdə izah edilən qaydada hərəkət etməlidir. Hətta əgər vaxt geniş olsa belə, yenə də

---

[1] Pambığın bu cür (kağız üçün xammal kimi) istifadəsi ilə bağlı hökm 1265-ci məsələdə qeyd edilən hökmdə istisna təşkil edir.

vəzifəsi budur ki, 1274-cü məsələdə izah edilən qaydada hərəkət edərək namazı başa çatdırsın və bu halda, vacib ehtiyata əsasən, namazı yarımçıq qoya bilməz.

Ancaq əgər yaxınlığında üzərinə səcdənin doğru sayıldığı bir şey olarsa və zikri dayandıraraq üzünü qiblədən çevirmədən addım ata və onu götürə bilərsə, bu addımlama və hərəkətin namazın surətinin pozulmasına və gördüyü işin artıq namaz sayılmamasına səbəb olacaq qədər çox olmaması şərti ilə belə etməlidir.

**Məsələ 1277.** Əgər insan səcdə halında səhvən alnını üzərinə səcdənin doğru olmadığı bir şeyə qoyduğunu başa düşərsə, vacib zikri dedikdən sonra başa düşdüyü təqdirdə başını səcdədən qaldıra və namazını qılmağa davam edə bilər. Vacib zikri deməmiş başa düşdüyü təqdirdə isə alnını üzərinə səcdənin doğru olduğu bir şeyə doğru sürüşdürməli, sonra vacib zikri deməlidir və bu halda alnı yerdən qaldırmaq olmaz. Lakin əgər alnı sürüşdürmək mümkün deyilsə, vacib zikri həmin vəziyyətdə deyə bilər və namazı hər iki halda doğrudur.

**Məsələ 1278.** Əgər səcdədən sonra səhvən alnını üzərinə səcdənin doğru olmadığı bir şeyə qoyduğunu başa düşərsə, namaza xələl gəlmir.

**Məsələ 1279.** İnsan təqiyyə etməli olduğu bir vəziyyətdə alnını xalça və bənzər şeylərin üzərinə qoyaraq səcdə edə bilər və namaz qılmaq üçün başqa bir yerə getməsinə, yaxud namazı təxirə salmasına gərək yoxdur. Lakin əgər həmin yerdə təqiyyəni pozmamaq surəti ilə alnını həsir, yaxud üzərinə səcdənin doğru olduğu başqa bir şeyə qoyaraq səcdə edə bilərsə, xalça və bənzər şeylərin üzərinə səcdə etməməlidir.

**Məsələ 1280.** Əgər namaz qılan qəsdən bir səcdə artırar, yaxud azaldarsa, namazı batil olur. Əgər səhvən bir səcdəni artıq edərsə, səhv səcdəsi yerinə yetirməlidir. Səhvən bir səcdə azaltdığı təqdirdə isə namazı batil olmur və bu vəziyyət təfsilatı ilə 1410-1412-ci məsələlərdə izah ediləcəkdir.

**Məsələ 1281.** İki səcdə birlikdə bir rükndür və əgər bir şəxs vacib namazda hərçənd unutqanlıq, yaxud məsələ ilə bağlı məlumatsızlıq səbəbi ilə olsa belə, bir rükətin iki səcdəsini də yerinə yetirməzsə, həmçinin, lazım ehtiyata əsasən, əgər unutqanlıq, yaxud qasir cahillik səbəbi ilə bir rükətdə iki artıq səcdə edərsə, namazı batil olur. (Qasir cahillik məlumatı olmayan şəxsin bilməməsində üzürlü sayılması deməkdir. )

**Məsələ 1282.** Əgər alın ixtiyarsız olaraq səcdə yerindən qalxarsa, mümkün olduğu təqdirdə namaz qılan şəxs onun yenidən səcdə yerinə dəyməsinin qarşısını almalıdır və belə edərsə, səcdənin zikrini deyib-deməməsindən asılı olmayaraq bu, bir səcdə hesab edilir. Əgər başını saxlaya bilməzsə və ixtiyarsız olaraq yenidən səcdə yerinə dəyərsə,

namazın səcdəsi ilk dəfə edilən səcdədir və ixtiyarsız qayıdış səcdənin bir hissəsi sayılmır. Lakin əgər zikr deməmiş olarsa, müstəhəb ehtiyata əsasən, onu deməli, lakin namazın bir hissəsi olması niyyəti ilə deyil, ümumi qürbət qəsdi ilə (ümumiyyətlə Allaha yaxınlaşma niyyəti ilə) deməlidir.

**Məsələ 1283.** Əgər alında (1235-ci məsələdə qeyd edilən səcdə hissəsində) insanın onu hətta üzərinə ağırlıq salmadan belə yerə qoymasına imkan verməyən çiban, yaxud yara və ya bənzər bir şey olarsa, həmin çiban alnın səcdə yerini bütövlüklə əhatə etdiyi təqdirdə alnın sağlam hissəsi ilə səcdə etməli və alnın sağlam yeri ilə səcdə etmək üçün yeri qazaraq (oyaraq) çibanı həmin hissəyə, sağlam yeri isə səcdə üçün kafi sayılan qədər yerə qoymaq lazım gələrsə, bu işi görməlidir.

**Məsələ 1284.** Əgər çiban, yaxud yara bütün alını (1235-ci məsələdə qeyd edilən səcdə hissəsini) bürüyərsə, vacib ehtiyata əsasən, alnın qalan hissəsini (səcdə hissəsinin hər iki kənarını, yaxud onlardan birini) bacardığı kimi yerə qoymalıdır. Əgər alnın qalan hissəsini yerə qoya bilmirsə, lazım ehtiyata əsasən, mümkün olduğu təqdirdə çənə ilə səcdə etməlidir. Çənə ilə səcdə edə bilmədiyi təqdirdə alnın gicgah adlandırılan iki kənarından biri ilə, bunu da edə bilmədiyi təqdirdə üzün digər hissələrindən hər hansı biri ilə səcdə etməlidir. Əgər üzlə səcdə etmək heç bir vəchlə (hətta müalicə ilə belə) mümkün olmazsa, səcdəni 1286-cı məsələdə izah ediləcək qaydada baş, yaxud göz işarəsi ilə icra edə bilər.

**Məsələ 1285.** Otura bilən, lakin alnını yerə qoya bilməyən şəxs əgər ürfən səcdə sayılacaq qədər əyilə bilərsə, həmin qədər əyilməli və möhürü, yaxud üzərinə səcdənin doğru olduğu başqa bir şeyi hündür bir yerə qoyaraq alnını onun üstünə qoymalıdır. Lakin ovuclarını, dizlərini və ayaq barmaqlarını mümkün olduğu təqdirdə adi qaydada yerə qoymalıdır. Əgər bu vəziyyətdə möhürü, yaxud üzərinə səcdənin doğru olduğu başqa bir şeyi üstünə qoyması üçün hündür bir yer (əşya) olmazsa və yanında onun səcdə etməsi üçün möhürü qaldıra və saxlaya biləcək başqa bir şəxs də olmazsa, möhürü, yaxud digər şeyi öz əli ilə qaldırmalı və alnını onun üstünə qoyaraq səcdə etməlidir.

**Məsələ 1286.** Heç bir vəchlə səcdə edə bilməyən, yaxud bir qədər əyilə bilən, lakin həmin qədər əyilməsi ürfən səcdə sayılmayan şəxs səcdəni baş işarəsi ilə, bacarmadığı təqdirdə göz işarəsi ilə icra etməlidir. Gözlərlə də bacarmadığı halda isə qəlbində səcdə niyyəti etməli və lazım ehtiyata əsasən, əl hərəkəti və bu qəbildən olan bir işarə ilə səcdəni icra etməli və vacib zikri deməlidir.

**Məsələ 1287.** Əgər insan palçıqlı yerdə namaz qılmağa məcbur olarsa, bədən və geyiminin çirklənməsi onun üçün həddən ziyadə çətinlik

törətmədiyi təqdirdə səcdə və təşəhhüdü adi qaydada yerinə yetirməlidir. Həddən ziyadə çətinlik törətdiyi təqdirdə isə ayaq üstə səcdəni baş işarəsi ilə icra etsin, təşəhhüdü də ayaq üstə oxusun və bu halda namazı doğrudur.

**Məsələ 1288.** Uca Allahdan başqası üçün səcdə etmək haramdır. İmamların (ə) qəbrinin qarşısında alınlarını yerə qoyan şəxslərin bu hərəkəti əgər uca Allaha şükür etmək üçün olarsa, eybi yoxdur, əks təqdirdə isə yolverilməzdir.

**Səcdənin müstəhəbləri və məkruhları**

**Məsələ 1289.** Səcdədə bir neçə hal və hərəkət müstəhəb, bir neçəsi isə məkruh sayılmışdır. O cümlədən, müstəhəbdir:

1) Ayaq üstə namaz qılan şəxs başını rükudan qaldırdıqdan və qamətini düzəltdikdən sonra, həmçinin oturaq namaz qılan şəxs də tam oturduqdan sonra səcdəyə getmək üçün təkbir desin;
2) Səcdəyə getmək istəyərkən kişi öncə əllərini, qadın isə öncə dizlərini yerə qoysun;
3) Burnunu möhürə, yaxud üzərinə səcdənin doğru olduğu başqa bir şeyə qoysun;
4) Səcdə halında əl barmaqlarını bir-birinə bitişdirsin və ucları qibləyə doğru düşəcək şəkildə qulaqlarının bərabərində yerə qoysun;
5) Səcdənin zikrini təkrarlasın;
6) Səcdənin zikrini tək sayda, məsələn, üç, beş, yaxud yeddi dəfə təkrarlasın;
7) Səcdədə dua etsin və uca Allahdan hacət diləsin, o cümlədən, bu duanı oxusun: "Ya xeyrəl-məsulinə və ya xeyrəl-mutin! Urzuqni vərzuq iyali min fəzlik. Fəinnəkə zul-fəzlil-əzim!" (Ey istənilənlərin ən yaxşısı, ey əta edənlərin ən üstünü! Mənə və ailəmə öz fəzlinlə ruzi bəxş et! Həqiqətən, Sən böyük fəzl sahibisən!)
8) Səcdədə çox qalsın və çox zikr desin;
9) Səcdədən sonra "təvərrük" adlandırılan tərzdə, yəni sol budu üstündə (ağırlığını sol tərəfinə salaraq) otursun və sağ ayağının üstünü sol ayağının altına qoysun;
10) Hər səcdədən sonra oturduqda və bədəni aramlaşdıqda təkbir desin;
11) Birinci səcdədən sonra bədəni aram olduqdan sonra "Əstəğfirullahə rəbbi və ətubu ileyh" desin;
12) Oturarkən əllərini budlarının üstünə qoysun;
13) Ikinci səcdəyə getmək üçün bədən aram olduğu halda "Allahu əkbər" desin;

14) Səcdələrdə salavat desin;

15) Kişilər dirsəklərini və qarınlarını yerə bitişdirməsinlər və qollarını böyürlərindən aralı tutsunlar, qadınlar isə dirsəklərini və qarınlarını yerə qoysunlar və bədən üzvlərini bir-birinə bitişdirsinlər;

16) Növbəti rükətin qiyamı üçün ayağa qalxarkən əllərini dizlərindən sonra yerdən götürsünlər;

17) Növbəti rükətin qiyamı üçün ayağa qalxarkən: "Bihaulillahi və quvvətihi əqumu və əqudu", - yaxud: - "Bihaulillahi və quvvətihi əqumu və əqudu və ərkəu və əscudu", - desinlər.

Səcdədə Quran oxumaq, toz-torpağı uzaqlaşdırmaq üçün səcdə yerini üfürmək məkruh sayılmışdır. Əlbəttə, əgər üfürmə nəticəsində qəsdən iki səs tələffüz edilərsə, lazım ehtiyata əsasən, namaz batildir. Digər məkruhlar daha müfəssəl kitablarda verilmişdir.

**Quranın vacib səcdəsi**

Səcdə ilə bağlı hökmlərin izahından sonra burada Quranın vacib səcdəsi ilə əlaqədar hökmləri də qeyd etmək məqsədəuyğundur.

**Məsələ 1290.** Nəcm, Ələq, Səcdə və Fussilət surələrinin hər birində bir səcdəli ayə vardır. İnsan bu ayələrdən birini bütövlüklə oxuyarsa, yaxud dinləyərsə, ayə başa çatdıqdan sonra dərhal səcdə etməsi vacibdir və bu "tilavət səcdəsi" adlandırılır. Səcdə etməyi unutduğu təqdirdə nə zaman xatırlayarsa, səcdə etməlidir. Qeyri-ixtiyari surətdə eşitdikdə səcdə vacib deyil, hərçənd bu halda da səcdə etmək daha yaxşıdır.

**Məsələ 1291.** Əgər insan səcdəli ayəni dinləyərkən özü də onu oxuyarsa, iki tilavət səcdəsi etməlidir.

**Məsələ 1292.** Tilavət səcdəsini vacib edən səbəb ayənin bütünüdür. Buna əsasən, əgər insan ayəni bütünlüklə oxumasa, onun yalnız bir hissəsini oxusa, hərçənd oxuduğu hissədə səcdə sözü keçərsə, tilavət səcdəsi vacib olmur.

**Məsələ 1293.** Əgər insan səcdə ayəsini səhv oxuyarsa, yaxud onu səhv oxuyan bir şəxsdən dinləyərsə, belə ki, ürf sözügedən qiraəti yanlış Quran qiraəti hesab edərsə, tilavət səcdəsi etməlidir.

**Məsələ 1294.** Tilavət səcdəsi səcdə ayəsini yazmaqla, zehndə təsəvvür etməklə, yaxud oxumadan və ya dinləmədən yazısına baxmaqla vacib olmur. Həmçinin, əgər insan sadəcə səcdə ayəsinin tərcüməsini oxuyarsa, yaxud dinləyərsə, tilavət səcdəsi vacib olmur.

**Məsələ 1295.** Əgər oxuduğunun Quran olduğunu ayırd edə bilməyən yuxulu, əqli qüsurlu, yaxud azyaşlı şəxs səcdəli ayəni oxuyarsa və insan onu dinləyərsə, səcdə vacibdir. Lakin əgər səs yazısı, yaxud kompakt disklərdən (CD, yaxud DVD) və bu qəbildən informasiya

daşıyıcılarından səcdəli ayəni dinləyərsə, səcdə vacib deyil. Radio və televiziya yayımında isə əgər Quran sədası öncədən yazılıb yayımlanırsa, eyni hökmə malikdir. Lakin əgər radio, yaxud telestudiyada bir şəxs səcdəli ayəni oxuyarsa və qiraət canlı yayımlanarsa, insan onu dinlədiyi təqdirdə səcdə vacibdir.

**Məsələ 1296.** Əgər namaz qılan şəxs vacib namazda səcdə ayəsi olan və 1290-cı məsələdə qeyd edilən dörd surədən birini ixtiyari şəkildə oxuyarsa, hərçənd bu caiz olsa da, səcdə ayəsini oxuduqdan sonra səcdə etməsi vacibdir. Lakin tilavət səcdəsi etdiyinə görə, vacib ehtiyata əsasən, səhvən səcdə etdiyi hal istisna olmaqla, namazı batil olur və onu yenidən qılmalıdır. Əgər tilavət səcdəsini qəsdən yerinə yetirməyərək namaza davam edərsə, hərçənd səcdə etmədiyinə görə günah etsə də, namazı doğrudur.

**Məsələ 1297.** Əgər vacib namazda istər qəsdən, istərsə səhvən vacib səcdəsi olan bir surəni oxuyarsa, səcdəli ayəyə çatmamış başa düşdüyü təqdirdə surənin qiraətini yarıda dayandıraraq başqa bir surə oxuya bilər, səcdəli ayəni oxuduqdan sonra başa düşdüyü təqdirdə isə öncəki məsələdə qeyd edildiyi kimi hərəkət etməlidir.

**Məsələ 1298.** Namazda səcdə ayəsini dinləmək olar və namaz qılan şəxs namazda səcdəli ayəni dinləyərsə, namazı doğrudur. Əgər vacib namazda olarsa, vacib ehtiyata əsasən, tilavət səcdəsi niyyəti ilə işarə surəti ilə səcdə etməli və namazdan sonra tilavət səcdəsini adi qaydada yerinə yetirməlidir.

**Məsələ 1299.** Quranın vacib səcdəsində bir neçə şərt nəzərə alınmalıdır:

1) Niyyətlə icra edilməli, yəni alın tilavət səcdəsi niyyəti ilə yerə qoyulmalıdır;
2) Elə icra edilməlidir ki, insanlar gördükdə:“səcdə etdi”, - desinlər;
3) Vacib ehtiyata əsasən, tilavət səcdəsinin edildiyi yer qəsb edilmiş yer olmamalıdır;
4) Vacib ehtiyata əsasən, insan alnını möhürə, yaxud üzərinə səcdənin doğru olduğu başqa bir şeyə qoymalıdır.

Müstəhəb ehtiyata əsasən, insan Quranın vacib səcdəsində digər səcdə üzvlərini (alından başqa) də namazın səcdəsi xüsusunda qeyd edilən qaydada yerə qoymalıdır. Həmçinin, müstəhəb ehtiyata əsasən, səcdə halında insanın alnını qoyduğu yer dizlərini və barmaqlarının ucunu qoyduğu yerdən dörd bitişik barmaq ölçüsündə hündür, yaxud alçaq olmamalıdır.

**Məsələ 1300.** Tilavət səcdəsində insanın dəstəmazlı, qüsllü, yaxud təyəmmümlü olması lazım deyil. Buna əsasən, əgər cənabətli şəxs, yaxud

haiz qadın tilavət səcdəsini vacib edən bir vəziyyətlə qarşılaşarsa, tilavət səcdəsini yerinə yetirməsi vacibdir və onun icrasını təxirə salması caiz deyil.

**Məsələ 1301.** Quranın vacib səcdəsində insanın üzü qibləyə olması və məhrəm yerlərini örtməsi, yaxud qadının saçını və bədənini örtməsi vacib deyil. Həmçinin, bədəninin və alnını qoyduğu yerin pak olması da vacib deyil. Habelə, namaz qılanın geyimində şərt sayılan digər tələblər də onun (tilavət səcdəsi edənin) geyimi xüsusunda şərt sayılmır.

## Quranın vacib səcdəsinin icra edilmə qaydası

**Məsələ 1302.** İnsan Quranın vacib səcdəsində alnını səcdə niyyəti ilə yerə qoyarsa, hərçənd zikr deməsə də, kafidir və namazın səcdələrində vacib olan zikrin tilavət səcdəsində deyilməsi müstəhəbdir. Daha yaxşı olar ki, desin: "La ilahə illəllahu haqqan haqqan, La ilahə illəllahu imanən və təsdiqan, La ilahə illəllahu ubudiyyətən və riqqan. Səcədtu ləkə ya rəbbi təabbudən və riqqan, la mustənkifən və la mustəkbiran, bəl ənə abdun zəlilun zəifun xaifun müstəcir".

**Məsələ 1303.** Quranın vacib səcdəsinin təkbirət əl-ehramı, təşəhhüdü və salamı yoxdur. Tilavət səcdəsindən qalxdıqdan sonra təkbir demək müstəhəbdir.

## Quranın tilavət səcdəsinin müstəhəb olduğu yerlər

**Məsələ 1304.** On bir məqamda tilavət səcdəsinin yerinə yetirilməsi müstəhəb sayılmışdır:

- Əraf surəsində "Və ləhu yəscudun" ibarəsinə (206-cı ayə) çatdıqda;
- Rəd surəsində "Bil-ğuduvvi vəl-asal" ibarəsinə (15-ci ayə) çatdıqda;
- Nəhl surəsində "Və yəfəlunə ma yumərun" ibarəsinə (50-ci ayə) çatdıqda;
- İsra surəsində "Və yəziduhum xuşua" ibarəsinə (109-cu ayə) çatdıqda;
- Məryəm surəsində "Xarru succədən və bukiyya" ibarəsinə (58-ci ayə) çatdıqda;
- Həcc surəsində "Yəfəlu ma yəşa" ibarəsinə (18-ci ayə) çatdıqda;
- Həcc surəsində "Vəfəlul-xayr" ibarəsinə (77-ci ayə) çatdıqda;
- Furqan surəsində "Və zadəhum nufura" ibarəsinə (60-cı ayə) çatdıqda;
- Nəml surəsində "Və rəbbil-ərşil-əzim" ibarəsinə (26-cı ayə) çatdıqda;
- Sad surəsində "Və xarra rakian və ənabə" ibarəsinə (24-cü ayə) çatdıqda;

- İnşiqaq surəsində “La yəscudun” ibarəsinə (21-ci ayə) çatdıqda.

Hətta daha yaxşı olar ki, insan səcdədən söz açılan istənilən ayəni oxuduqda tilavət səcdəsi etsin.

## 8. Təşəhhüd

**Məsələ 1305.** Bütün vacib və müstəhəb namazların ikinci rükətində, habelə məğrib namazının üçüncü, zöhr, əsr və işa namazlarının isə dördüncü rükətində insan ikinci səcdədən sonra oturmalı, bədən aram olduğu halda təşəhhüd oxumalı, yəni “Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh, və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh, Allahummə salli əla Muhəmmədin və Ali-Muhəmməd” deməlidir. “Əşhədu ən la ilahə illəllah, və əşhədu ənnə Muhəmmədən səlləllahu əleyhi və alihi əbduhu və rəsuluh” desə də kafidir. Vitr namazında da təşəhhüd lazımdır.

**Məsələ 1306.** İnsan təşəhhüd əsnasında mümkün olduğu təqdirdə ürfən oturmaq sayılan istənilən tərzdə oturmalı və zikri(təşəhhüdü) deyərkən bədənin hərəkətsizliyini və aramlığını qorumalıdır. Həmçinin, təşəhhüdün sözlərini ərəbcə düzgün və normal qaydada bir-birinin ardınca, müvalata (fasiləsiz ardıcıllığa) riayət etməklə tələffüz etməlidir. Əlbəttə, təşəhhüdün ibarələri arasında hədislərdə oxunması tövsiyə edilən zikrlər və dualarla fasilə yaranması namazın doğruluğuna xələl gətirmir.

## Təşəhhüdün müstəhəbləri

**Məsələ 1307. Təşəhhüddə bir neçə hal və hərəkət müstəhəb hesab edilmişdir. O cümlədən, müstəhəbdir ki, namaz qılan:**

1) təvərrük adlandırılan qaydada, yəni sol budu üstə otursun, sağ ayağın üstünü sol ayağın altına qoysun;
2) əlləri budların üstünə qoysun və barmaqları bir-birinə bitişdirsin;
3) ətəyinə baxsın (budlar, yəni ayağın dizlərdən yuxarı hissəsi nəzərdə tutulur);
4) təşəhhüddən öncə “Əlhəmdu lillah”, yaxud “Bismillahi və billahi vəlhəmdu lillahi və xeyrul-əsmai lillahi” və ya “Bismillahi və billahi vəl-əsmaul-husna kulluha lillahi” desin;
5) birinci təşəhhüddə salavatdan sonra desin: “Və təqəbbəl şəfaətəhu vərfə dərəcətəh”;
6) sonrakı rükətin qiyamı üçün ayağa qalxarkən “Bihaulillahi və quvvətihi əqumu və əqudu”, yaxud “Bihaulillahi əqumu və əqudu və ərkəu və əscudu” desin;

**Məsələ 1308.** Qadınların təşəhhüd oxuyarkən budlarını bir-birinə bitişdirməsi müstəhəbdir.

## 9. Namazın salamı

**Məsələ 1309.** Bütün namazların axırıncı rükətində namaz qılanın salam deməsi vacibdir.

**Məsələ 1310.** Salam üç cümlədən ibarətdir:

1) Əs-səlamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh;
2) Əs-səlamu əleyna və əla ibadillahis-salihin;
3) Əs-səlamu əleykum və rəhmətullahi və bərəkatuh.

Namaz qılanın deyilməsi ilə namazını başa çatdırdığı vacib salam üçüncü salamdır və namaz qılan təkcə onu deməklə kifayətlənə bilər. Bu salamın vacib hissəsi "Əs-səlamu əleykum"dur, "və rəhmətullahi və bərəkatuh" ibarəsinin ona əlavə edilməsi isə müstəhəb ehtiyatın tələbidir. Lakin, vacib ehtiyata əsasən, ikinci salamla kifayətlənmək olmaz. Beləliklə, əgər namaz qılan ikinci salamı deyərsə, ehtiyata əsasən, üçüncü salamı da deməsi vacibdir. Lakin birinci salam müstəhəblərdəndir və namaz qılan onu deməklə namazını başa çatdırmış sayılmır. Bu müstəhəb salamın deyilmə məqamı təşəhhüddən sonra və digər iki salamdan öncədir. Namaz qılan şəxs salamların üçünü də dediyi təqdirdə müstəhəb ehtiyata uyğun hərəkət edir.

**Məsələ 1311.** İnsan mümkün olduğu təqdirdə salam əsnasında təşəhhüd əsnasında olduğu kimi oturmalı, vacib salamı deyərkən bədənin hərəkətsizliyini, aramlığını qorumalı və onu ərəbcə düzgün və normal qaydada, sözlərini bir-birinin ardınca və müvalata riayət edərək tələffüz etməlidir.

Qeyd etmək lazımdır ki, müstəhəb salamda aramlıq şərtinə riayət etməklə bağlı hökm müstəhəb zikrlərdə aramlıqla bağlı 1201-ci məsələdə açıqlanan hökm kimidir.

**Məsələ 1312.** Namaz qılan şəxs namazın salamını deyərkən ehtiyat üçün, yaxud başqa bir səbəblə dediyi salamı təkrarlamaq istəyərsə:

***Birinci salam* xüsusunda bu təkrarın namaza xələl gətirməməsi bəid deyil.** [1]

*İkinci salam* xüsusunda əgər onu doğru demişdirsə, vacib ehtiyata əsasən, təkrarlamamalıdır. Əgər səhv demişdirsə, təkrar edilməsi namaza xələl gətirmir. Onu doğru deyib-demədiyinə şəkk etdiyi təqdirdə isə əgər şəkk etdiyi sözün tələffüzü başa çatmamış onu doğru deyib-deməməkdə şəkkə düşərsə, onu təkrarən deyə bilər. Ancaq əgər şəkk etdiyi sözün başa çatmasından sonra onu doğru deyib-demədiyinə şəkk edərsə, vacib ehtiyata əsasən, onu təkrarlamamalıdır.

---

[1] Yəni, birinci salamı təkrarən demək olar. *Tərc.*

*Üçüncü salam* xüsusunda əgər onu səhv demişdirsə, yaxud onun düzgün olub-olmadığına dair şəkkə deyilişində şəkk olunan sözün tələffüzünün başa çatmasından öncə düşərsə, onu təkrarən deməlidir və əgər doğru demişdirsə, yaxud şəkk edilən sözün tələffüzü başa çatdıqdan sonra şəkkə düşmüşdürsə, ehtiyat namazı qılmaq istədiyi hal istisna olmaqla, təkrar edilməsi namaza xələl gətirmir.

**Məsələ 1313.** Əgər namaz qılan şəxs namazın salamını unudar və namazın surəti pozulmadan və yerinə yeirilməsi (istər qəsdən, istərsə səhvən) namazı batil edən (məsələn, qiblədən dönmək kimi) hər hansı hərəkətə yol vermədən xatırlayarsa, salamı deməlidir və namazı doğrudur.

**Məsələ 1314.** Əgər namazın salamını unudarsa və namazın surəti pozulduqdan, yaxud yerinə yetirilməsi (istər qəsdən, istərsə səhvən) namazı batil edən (məsələn, qiblədən dönmək kimi) hər hansı hərəkətə yol verdikdən sonra xatırlayarsa, namazı doğrudur.

## Salamın müstəhəbləri

**Məsələ 1315.** Salam əsnasında oturmaq, həmçinin əlləri təşəhhüddə olduğu qaydada qoymaq müstəhəb sayılır. Digər müstəhəblər daha müfəssəl kitablarda qeyd edilmişdir.

## 10. Tərtib (ardıcıllıq)

**Məsələ 1316.** Əgər namaz qılan qəsdən namazın tərtibini pozarsa, məsələn, surəni "Həmd"dən sonra oxuyarsa, yaxud səcdələri rükudan öncə edərsə, namazı batil olur.

**Məsələ 1317.** Əgər namazın rüknlərindən birini unudarsa və ondan sonrakı rüknü yerinə yetirərsə, məsələn, rüku etməmiş iki səcdə edərsə, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 1318.** Əgər bir rüknü unudarsa və ondan sonra gələn, rükn olmayan hərəkəti yerinə yetirərsə, məsələn, iki səcdə etmədən təşəhhüd oxuyarsa, geri dönərək rüknü yerinə yetirməli və daha sonra səhvən ondan öncə oxuduğunu təkrarən oxumalıdır.

**Məsələ 1319.** Əgər rükn olmayan bir şeyi unudarsa və ondan sonrakı rüknü yerinə yetirərsə, məsələn, Həmd surəsini oxumağı unudarsa və rüku edərsə, namazı doğrudur və qılmağa davam etməlidir.

**Məsələ 1320.** Əgər rükn olmayan bir şeyi unudarsa və ondan sonra gələn, rükn olmayan hərəkəti yerinə yetirərsə, məsələn, "Həmd"i oxumağı unudarsa və surəni oxuyarsa, geri dönərək unutduğunu yerinə yetirməli və ondan sonra səhvən vaxtından öncə oxuduğunu təkrarən oxumalıdır.

**Məsələ 1321.** Əgər birinci səcdəni ikinci səcdə zənn edərək, yaxud ikinci səcdəni birinci səcdə zənn edərək yerinə yetirərsə, namazı doğrudur və onun birinci dəfə yerinə yetirdiyi səcdə birinci səcdə, ikinci dəfə yerinə yetirdiyi səcdə də ikinci səcdə hesab edilir.

### 11. Müvalat (fasiləsizlik)

**Məsələ 1322.** İnsan namazı müvalatla qılmalı, yəni namazın rüku, səcdələr və təşəhhüd kimi hərəkətlərini fasiləsiz və bir-birinin ardınca yerinə yetirməli, namazda oxuduqlarını adi qaydada, ardıcıl oxumalıdır və əgər onların arasında "namaz qılır" deyilməyəcək qədər fasilə verərsə, namazı batildir.

**Məsələ 1323.** İnsan bir sözü təşkil edən səsləri elə ardıcıl tələffüz etməlidir ki, tələffüz etdiyi şey həmin (demək istədiyi) söz sayılsın. Həmçinin, bir ayənin, yaxud bir zikrin sözlərini elə ardıcıl tələffüz etməlidir ki, həmin (demək istədiyi) ayə, yaxud zikr sayılsın. Buna əsasən, izafət, təyini və qeyri-təyini söz birləşmələrinin tərəfləri, mübtəda və xəbər, fail və fail (subyekti, işi icra edəni bildirən söz və ya söz birləşməsi) və s. arasında müvalata riayət etmək lazımdır. Eləcə də ayələr arasında da tələb olunan müvalata - tələffüz etdikləri namaz qılanın oxumaq istədiyi surə sayılacaq şəkildə - riayət etmək lazımdır.

Qeyd edilən məqamlara diqqət yetirdikdə məlum olur ki, bir surənin ayələri arasında müvalata riayət etmək üçün bir ayənin, yaxud zikrin sözləri arasında müvalata riayət etməklə müqayisədə, eləcə də iki söz arasında müvalat üçün iki səsin tələffüzü arasında müvalatla müqayisədə daha artıq fürsət vardır.

**Məsələ 1324.** Əgər namazda səhvən səslər, yaxud sözlərarasında (təkbirət əl-ehram istisna olmaqla) fasilə verərsə və fasilə namazın surətini pozacaq qədər olmazsa, sonrakı rüknü yerinə yetirməyə başlamadığı təqdirdə həmin səsləri və sözləri normal qaydada tələffüz etməli, ondan sonra bir şey oxuduğu təqdirdə də onu təkrarlamalıdır. Sonrakı rüknə başladığı başladığı təqdirdə isə namazı doğrudur və onu qılmağa davam etməlidir.

**Məsələ 1325.** Rüku və səcdələri uzatmaq və uzun surələr oxumaq müvalatı pozmur.

## Namazın qunutu

**Məsələ 1326.** Bütün vacib və müstəhəb namazlarda ikinci rükətin rükusundan öncə qunut oxumaq müstəhəbdir və sübh, məğrib, işa və cümə namazlarında bu müstəhəb daha təkidlidir. Lakin "şəf" namazında, vacib ehtiyata əsasən, qunutu rəcaən yerinə yetirmək lazımdır.

"Vitr" namazında isə bir rükət olmasına baxmayaraq rükudan öncə qunut oxumaq müstəhəbdir. Cümə namazının biri ilk rükətin rükusundan öncə, digəri isə ikinci rükətin rükusundan sonra olmaqla iki müstəhəb qunutu vardır. Ayat namazlarında beş qunut, Fitr və Qurban bayramlarının namazlarının iki rükətində isə bir neçə qunut vardır ki, bunların hər biri əlaqədar fəsillərdə izah ediləcəkdir.

**Məsələ 1327.** Qunutdan öncə təkbir demək, qunutda əlləri üzün müqabilində və içi (ovuclar) səmaya doğru yanaşı tutmaq, baş barmaq istisna olmaqla digər barmaqları bir-birinə bitişdirmək, əllərin içinə baxmaq müstəhəbdir. Hətta, vacib ehtiyata əsasən, zərurət halları istisna olmaqla, əlləri qaldırmadan qunut doğru doğru sayılmır.

**Məsələ 1328.** Qunutda ərəb dilindən başqa bir dildə dua etmək olar və bu namazı pozmur. Hərçənd, müstəhəb ehtiyat ərəb dilindən başqa bir dildə dua etməməyi tələb edir. Lakin qunut vəzifəsi ərəb dilindən başqa bir dildə dua etməklə, vacib ehtiyata əsasən, yerinə yetirilmiş sayılmır. [1]

**Məsələ 1329.** Namaz qılan qunutda istənilən dua, münacat və zikri oxusa, hətta bir dəfə "Subhanəllah" desə belə, kafidir. Daha yaxşı olar ki, fərəc duası adlandırılan bu duanı oxusun: "La ilahə illəllahul-həlimul-kərim. La ilahə illəllahul-əliyyul-əzim. Subhanəllahi rəbbis-səmavatis-səb`i və rəbbil-ərəzinəs-səb`i və ma fihinnə və ma beynəhunnə və rəbbil-ərşil-əzim. Vəlhəmdu lillahi rəbbil-aləmin". Həmçinin, daha yaxşı olar ki, ardınca desin: "Allahumməğfir ləna vərhəmna və afina və`fu ənna. İnnəkə əla kulli şey`in qədir".

**Məsələ 1330.** Qunutu ucadan oxumaq müstəhəbdir. Lakin namazını camaatla birgə qılan şəxsin səsini imam eşidərsə, onun qunutu ucadan oxuması müstəhəb deyil.

**Məsələ 1331.** Əgər namaz qılan qəsdən qunut oxumasa. Onun qəzası yoxdur. Əgər unudarsa və rüku həddinə çatmazdan öncə yadına düşərsə, müstəhəbdir ki, qalxsın və onu oxusun. Rükuda yadına düşdüyü təqdirdə müstəhəbdir ki, rükudan sonra onu qəza etsin. Lakin səcdədə, yaxud daha sonra yadına düşərsə, müstəhəbdir ki, namazın salamından sonra hərçənd uzun müddət sonra olsa belə, qunutu qəza etsin və bu halda daha yaxşı olar ki, onun qəzasını oturaq halda və üzü qibləyə icra etsin. Əgər səcdə üçün əyilərkən yadına düşərsə, vacib ehtiyata əsasən, geri qayıtmamalı, namazdan sonra rəcaən onun qəzasını yerinə yetirməlidir.

---

[1] Buna əsasən, əgər namaz qılan şəxs qunutda yalnız azərbaycan dilində dua etməklə kifayətlənərsə, vacib ehtiyata əsasən, qunutu yerinə yetirməmiş kimidir.

## Namazın tərcüməsi

**Həmd (Fatihə) surəsinin tərcüməsi**

“Bismillahir-rəhmanir-rəhim”: “Bismillah” - Allahın, bütün kamillikləri özündə toplayan,hər cür nöqsandan uzaq olan və ağılları heyrətə düşürən bir zatın adı ilə başlayıram!

“Ər-rəhmanir-rəhim” - Rəhməti geniş və sonsuzdur, dünyada həm mömin, həm də kafirə şamildir, axirətdə isə yalnız möminlər üçündür”.

“Əl-həmdu lillahi rəbbil-aləmin” – Həmd-səna bütün varlıqların rəbbi olan Allaha məxsusdur”.

Ər-rəhmanir-rəhim” –bu ayənin bir qədər əvvəl izah edilmişdir.

“Maliki yaumid-din” –Din (cəza və mükafat) gününün sahibi olan qüdrətli bir zat.

“İyyakə nəbudu və iyyakə nəstəin” – Yalnız Sənə ibadət edir və yalnız Səndən yardım istəyirik”.

“İhdinəs-siratəl-mustəqim” – Bizi doğru yola (İslam dininə) hidayət et!

“Siratəlləzinə ənəmtə ələyhim” – Nemət verdiklərinin (peyğəmbərlərin, peyğəmbərlərin canişinlərinin, şəhidlərin, siddiqlərin, Allahın saleh və ləyaqətli bəndələrinin) yoluna”.

“Ğayril-məğzubi ələyhim vələzzallin” –Qəzəbini qazanan və (haqq yoldan) azan şəxslərin deyil.

**Tövhid (İxlas) surəsinin tərcüməsi**

“Bismilliahir-rəhmanir-rəhim” – bu ayənin mənası yuxarıda izah edilmişdir.

“Qul huvəllahu əhəd” – De (ey Muhəmməd): “O Allah təkdir”.

“Allahus-səməd” – Allah bütün varlıqlardan ehtiyacsızdır və hər şey Ona möhtacdır.

“Ləm yəlid və ləm yuləd” – Doğmamışdır və doğulmamışdır.

“Və ləm yəkun ləhu kufuvən əhəd” – Əsla bənzəri yoxdur, kimsə Onun tayı-bərabəri ola bilməz.

**Rüku və səcdələrin zikrinin və onlardan sonra deyilməsi müstəhəb olan zikrlərin tərcüməsi**

“Subhanə rəbbiyəl-əzimi və bihəmdih” – Mənim əzəmətli Rəbbim hər bir eyb və naqislikdən uzaq və ucadır və mən Ona həmd etməklə məşğulam.

“Subhanə rəbbiyəl-əla və bihəmdih” – Mənim hər şeydən uca Rəbbim hər bir eyb və naqislikdən uzaq və ucadır və mən Ona həmd etməklə məşğulam.

"Səmiəllahu limən həmidəh" –Allah Ona həmd-səna edəni eşitsin (həmd-sənasını qəbul etsin)!

"Əstəğfirullahə rəbbi və ətubu ileyh" – Rəbbim olan Allahdan bağışlanma diləyirəm və tövbə edərək Ona doğru qayıdıram!

"Bihaulillahi və quvvətihi əqumu və əqudu" –Allahın yardımı və qüvvəsi ilə qalxır və otururam.

**Qunutun tərcüməsi**

"La ilahə illəllahul-həlimul-kərim" – Həlim və kərim Allahdan başqa ilah (ibadətə layiq tanrı) yoxdur.

"La ilahə illəllahul-əliyyul-əzim" – Uca və əzəmətli Allahdan başqa ilah (ibadətə layiq tanrı) yoxdur.

"Subhanəllahi rəbbis-səmavatis-səb`i və rəbbil-ərəzinəs-səb`" –Yeddi göyün və yeddi yerin rəbbi olan Allah pak və münəzzəhdir.

"Və ma fihinnə və ma beynəhunnə və rəbbil-ərşil-əzim" –O, onlarda (göylərdə və yerlərdə) və onların arasında olan hər şeyin Rəbbidir və əzəmətli ərşin Rəbbidir.

"Vəlhəmdu lillahi rəbbil-aləmin" – Həmd-səna aləmlərin rəbbi olan Allaha məxsusdur.

**Təsbihat-i ərbəənin tərcüməsi**

"Subhanəllahi, vəlhəmdu lillahi, və la ilahə illəllahu, vəllahu əkbər" – Allah pak və münəzzəhdir, həmd-səna Allaha məxsusdur, Allahdan başqa ilah (ibadətə layiq tanrı) yoxdur və Allah vəsfə sığmayacaq qədər böyükdür.

**Təşəhhüd və salamın tərcüməsi**

"Əlhəmdu lillah; Əşhədu ən la ilahə illəllahu vəhdəhu la şərikə ləh" - həmd-səna Allaha məxsusdur; Təsdiq (iqrar) edirəm ki, tək və şəriki olmayan Allahdan başqa ilah (ibadətə layiq tanrı) yoxdur.

"Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh" –Təsdiq (iqrar) edirəm ki, Muhəmməd Allahın bəndəsi və Onun elçisidir.

"Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd" –Allahım, Muhəmməd və Ali-Muhəmmədə rəhmətini yağdır!

"Və təqəbbəl şəfaətəhu vərfə` dərəcətəh" –Onun (Peyğəmbərin) şəfaətini qəbul et və (Sənin yanındakı) dərəcəsini uca et!

"Əs-səlamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh" –Salam olsun sənə, ey Peyğəmbər, Allahın rəhməti və bərəkəti üzərində olsun!

"Əs-səlamu əleyna və əla ibadillahis-salihin" – Salam olsun bizə və Allahın saleh bəndələrinə!

"Əs-səlamu əleykum və rəhmətullahi və bərəkatuh" –Salam olsun sizə, Allahın rəhməti və bərəkəti üzərinizdə olsun!

Müstəhəb ehtiyata əsasən, son iki salamda namaz qılan şəxs ümumi şəkildə müqəddəs İslam şəriətinin nəzərdə tutduğu şəxsləri salamlamaq niyyətində olmalıdır. Hərçənd, bəzi rəvayətlərdən onların sağ və sol mələklər və möminlər olduğu anlaşılır.

## Namazın təqibatı (ardınca oxunan dua, zikr və ayələr)

**Məsələ 1332.** İnsanın namazdan sonra bir qədər "təqib" ilə məşğul olması, yəni zikr, dua və Quran oxuması müstəhəbdir və bu müstəhəb vacib namazlardan, xüsusən, sübh namazından sonra daha təkidlidir.

**Məsələ 1333.** Namazın təqibi onun başa çatmasından dərhal sonra icra edilməli və insan təqibi pozan, "təqib" anlayışı ilə uzlaşmayan bir hərəkətə yol verməməlidir. İnsanların düşdüyü vəziyyətlər, zaman və məkan amilləri – onların müsafir olub-olmaması, ixtiyar, yaxud iztirar (zərurət) halında, xəstə, yaxud sağlam olması baxımından – fərqli olduğundan bəzi hərəkətlər bir sıra vəziyyətlərdə təqib anlayışına zidd olmadığı halda, eyni hərəkət bir sıra digər vəziyyətlərdə ziddiyyət təşkil edir. Təqibin şübhəsiz pozulmadığı və insanın bu vəziyyətdə ikən zikr, dua və Quran oxuması təqib sayılan hal (adi hallarda, səfərdə olmadıqda və digər iztirar halları ilə üzləşmədikdə) oturma vəziyyətdir. Zahir[1] budur ki, namazdan sonra dua, zikr və s. oxumadan sadəcə oturmaq təqib sayılmır.

**Məsələ 1334.** Daha yaxşı olar ki, namaz qılan elə namaz qıldığı yerdə üzü qibləyə və dəstəmazı, qüslü, yaxud təyəmmümü pozulmadan təqibatı oxusun.

**Məsələ 1335.** Təqibatın ərəbcə oxunması vacib deyil. Lakin daha yaxşı olar ki, mötəbər dua kitablarında[2] nəql olunanlar oxunsun. Hədislərdə nəql olunan təqiblərdən biri də namazın salamından sonra üç dəfə "Allahu əkbər" deməkdir. Belə ki, namaz qılan namazın digər təkbirlərində olduğu kimi bu təkbirlərin də hər birini deyərkən əllərini üzünün müqabilinədək qaldırsın, sonra aşağı endirsin. Çox tövsiyə edilən təqiblərdən biri də Həzrət Zəhra təsbihidir. Bu zikr belə deyilir: 34 dəfə "Allahu əkbər", sonra 33 dəfə "Əl-həmdu lillah", daha sonra 33 dəfə "Subhanəllah". "Subhanəllah"ı "Əl-həmdu lillah"dan öncə də demək olar, lakin daha yaxşı olar ki, "Əl-həmdu lillah"dan sonra deyilsin.

---

[1] Aydın olan fətva. *Tərc.*

[2] Bu xüsusda mühəddis Qumminin (Allah ondan razı olsun!) "Məfatih əl-cinan" əsərinə müraciət etmək olar.

## Şükr səcdəsi

**Məsələ 1336.** Namaz qılanın istər vacib, istərsə müstəhəb namazdan sonra şükr səcdəsi etməsi müstəhəbdir və alnını şükr məqsədilə yerə qoyması kifayətdir. Lakin daha yaxşı olar ki, yüz dəfə, yaxud üç dəfə, ya da bir dəfə "Şukran lillah", yaxud "Şukran" və ya "Əfvən" desin. Həmçinin, insana nə zaman bir nemət bəxş edilərsə, yaxud bir bəladan qurtularsa, şükr səcdəsi etməsi müstəhəbdir.

**Məsələ 1337.** Vacib ehtiyata əsasən, şükr səcdəsində alnı möhürə, yaxud üzərinə səcdənin doğru olduğu başqa bir şeyin üstünə qoymaq və müstəhəb ehtiyata əsasən, digər nahiyələri də namazın səcdəsi ilə bağlı göstərişə uyğun qaydada yerə qoymaq lazımdır.

Qeyd etmək lazımdır ki, əgər şükr səcdəsi üçün bir səbəb yaranarsa və insan alnını yerə qoyaraq səcdə edə bilməzsə, səcdəni baş işarəsi ilə edərək yanaqlarını əlinin[1] içi (ovcu), yaxud üst tərəfinə qoysun və uca Allaha şükr etsin.

## Salavat ilə əlaqədar hökmlər

**Məsələ 1338.** İnsan nə zaman Allahın ən əziz elçisinin (s) mübarək adlarını (Muhəmməd və Əhməd), yaxud ləqəb və künyəsini (Mustafa və Əbülqasim)deyərsə və ya eşidərsə, hərçənd namazda olsa belə, müstəhəbdir ki, salavat desin. Bu hökm onun nəzərdə tutulduğu "Rəsulullah" (Allahın elçisi), Peyğəmbər-i əkrəm (ən əziz, ən sevimli, ən kəramətli peyğəmbər) kimi ibarələrin, habelə onu bildirən əvəzliklərin deyilməsinə, yaxud eşidilməsinə də şamildir.

**Məsələ 1339.** Allahın elçisinin (s) adını, ləqəbini, yaxud künyəsini yazarkən müstəhəbdir ki, insan salavatı da kamil surətdə yazsın. Həmçinin, daha yaxşı olar ki, nə zaman onu yad edərsə, salavat desin.

## Namazın məkruhları

**Məsələ 1340.** Aşağıdakı hal və hərəkətlər namazda məkruh hesab edilmişdir:

1) Namaz qılanın namaz əsnasında üzünü "qiblədən çevirdi" deyilməcək şəkildə azacıq sağa, yaxud sola çevirməsi;

2) vacib namazın bir rükətində 1160-cı məsələdə izah edilən hal istisna olmaqla "Həmd"dən sonra iki surə oxuması;

3) namazda gözlərini yumması, yaxud sağ və sol tərəfə çevirməsi;

4) saqqalı və əli ilə oynaması;

[1] Əl deyərkən qolun əl ayası ilə yanaşı barmaqları da əhatə edən hissəsi nəzərdə tutulur.

5) dırnağını çeynəməsi;
6) saqqal tüklərini dişlərinin arasına alaraq çeynəməsi;
7) barmaqlarını bir-birinin arasına keçirməsi, yaxud barmaqlarını qatlaması;
8) tüpürməsi;
9) burun seliyini ifraz etməsi (burnunu arıtlaması);
10) əsnəməsi (əlbəttə ki, hər hansı bir səsin tələffüzünə səbəb olmayacaq şəkildə);
11) kişilərin qiyam vəziyyətində ayaqlarının topuqdan aşağı hissəsini bir-birinə bitişdirməsi;
12) üzüyün qaşına, qarşısındakı Quran, yaxud başqa bir kitaba və ya diqqətini cəlb edəcək başqa bir əşyaya baxması;
13) Həmd və surəni oxuyarkən, zikr deyərkən kiminsə səsini eşitmək üçün sakit durması;
14) öz-özünə (daxili nitq surətində) danışması və düşüncəsində dünyəvi işləri qaydasına salmağa çalışması;
15) həmçinin, itaətkarlıq və acizliyin izhar edilməsinə mane olan istənilən iş (hal və hərəkət) məkruhdur.

**Məsələ 1341.** İnsanın yuxusu gələrkən, həmçinin, ayaqyoluna çıxmaq ehtiyacı duyarkən namaz qılması məkruhdur. Bunlarla yanaşı bir sıra digər məkruhlar da digər kitablarda müfəssəl surətdə qeyd edilmişdir.

# NAMAZI POZAN HAL VƏ HƏRƏKƏTLƏR

**Məsələ 1342.** On iki hal və hərəkət namazı pozur və bunlara "mübtilat" (batil edicilər) deyilir.

**1) Namazın şərtlərindən birinin pozulması**

**Məsələ 1343.** Əgər namaz əsnasında onun şərtlərindən hər hansı biri[1] pozularsa, namaz batil olur. Bununla bağlı məsələlər namazın müqəddimatı (hazırlıq tədbirləri) bölməsində müfəssəl surətdə izah edilmişdir. Burada bir neçə misalla kifayətlənəcəyik:

1-ci misal. Əgər namaz əsnasında (vaxt geniş olduqda) namaz qılanın geyimi nəcasətlənərsə və müvalat, yaxud namazın surəti pozulmadan onu paklamaq, yaxud soyunmaq mümkün olmazsa, namaz batil olur.

2-ci misal. Əgər namaz əsnasında (vaxt geniş olduqda) insan namazını qıldığı yerin qəsb edilmiş bir yer olduğunu başa düşərsə və namazda ikən müvalat, yaxud namazın surəti pozulmadan həmin yerdən kənara çıxmaq mümkün olazsa, lazım ehtiyata əsasən, namaz batil olur.

Bu hallarda namaz qılan şəxs namazın qalan vacibat və hissələrini namazın müqəddimatı bölməsində qeyd edilən lazımi şərtlərə riayət etməklə yerinə yetirə bilmədiyinə görə namaz batil sayılır.

**2) Dəstəmazın, yaxud qüslün pozulması**

**Məsələ 1344.** Əgər namaz əsnasında qəsdən, yaxud səhvən surətdə və ya çarəsizlikdən dəstəmazı, yaxud qüslü pozan bir hal baş verərsə, məsələn, namaz qılan sidik, yaxud mədə yeli ifraz edərsə və ya yatarsa, hərçənd namazın ortasında müvalat, yaxud namazın surəti pozulmadan misal üçün dəstəmaz ala və namazın bütün vacibatını təharətli halda yerinə bilsə də, namazı batil olur.

Əlbəttə, bu hökm bir halda vacib ehtiyata əsaslanır. Bu hal dəstəmaz, yaxud qüslün namazın sonuncu səcdəsi başa çatdıqdan sonra səhvən, yaxud çarəsizlikdən pozulmasıdır. İdrar, yaxud nəcis ifrazının qarşısını ala bilməyən şəxsdən namaz əsnasında idrar və ya nəcis ifraz olarsa, dəstəmaz hökmlərində izah edilən qaydada hərəkət etdiyi təqdirdə namazı batil olmur. Həmçinin, əgər namaz əsnasında müstəhazə qadında qan ifrazı baş verərsə, istihazə qaydalarına uyğun hərəkət etdiyi təqdirdə namazı doğrudur.

---

[1] "Hədəsdən təharət (dəstəmazlı və qüsllü olmaq)" və "qiblə" şərtləri müəyyən xüsusiyyətləri ilə əlaqədar olaraq namazı pozan ayrıca hal kimi qeyd ediləcəkdir.

**Məsələ 1345.** Qeyri-ixtiyari surətdə yuxuya gedən şəxs əgər namaz əsnasında, yoxsa namazdan sonra yuxuya getdiyini bilmirsə, namazını yenidən qılması lazım deyil. Ancaq bu şərtlə ki, namazın yerinə yetirdiyi hissələrinin ürfən namaz sayılacaq qədər olduğunu bilməli, məsələn, namazda təkbirət əl-ehram, qiyam, rüku və bir səcdəni oyaq halda yerinə yetirdiyini xatırlamalıdır.

**Məsələ 1346.** Əgər ixtiyari şəkildə yatdığını bilirsə, ancaq namazdan sonra, yoxsa namaz əsnasında namaz qıldığını unudaraq yuxuya getdiyinə şəkk edirsə, namazı öncəki məsələdə qeyd edilən şərtlə doğrudur.

**Məsələ 1347.** Əgər səcdə vəziyyətində yuxudan ayılaraq namazın sonuncu səcdəsində, yoxsa şükür səcdəsində olduğuna şəkk edərsə, istər ixtiyari surətdə yuxuya getdiyini bilsin, istərsə qeyri-ixtiyari surətdə yuxuya getsin, namazı doğru sayılır və onu təkrarən qılmasına gərək yoxdur.

**3) İtaətkarlıq və ədəb nümayişi məqsədilə əlləri qəsdən bir-birinin üstünə qoymaq**

**Məsələ 1348.** Əgər namaz qılan əllərini itaətkarlıq və ədəb nümayişi məqsədilə namazda bir-birinin üstünə qoyarsa, istər bu hərəkəti namazın bir hissəsi kimi etsin, istərsə belə bir niyyəti olmadan, vacib ehtiyata əsasən, namazı batil olur. Əgər bir şəxs bu hərəkəti belə bir əməlin dinin (şəriətin) bir göstərişi olması niyyəti ilə yerinə yetirərsə, haram iş görmüşdür. Hətta bu hərəkətin belə bir niyyət olmadan yerinə yetirilməsi də, vacib ehtiyata əsasən, caiz deyil.

**Məsələ 1349.** Əgər unutqanlıq, zərurət, təqiyyə, yaxud itaətkarlıq və ədəbi qorumaqdan başqa bir niyyətlə, məsələn, əlini qaşımaq üçün əllərini bir-birinin üstünə qoyarsa, namaza xələl gəlmir.

**4) Həmd surəsindən sonra qəsdən "amin" demək**

**Məsələ 1350.** Əgər məmum camaat namazında qəsdən təqiyyə halından başqa bir halda Həmd surəsindən sonra "amin" deyərsə, namazı batil olur və məmumdan başqasının "amin" deməsi ilə namazının batil olması ilə vacib ehtiyata əsaslanır. Hərçənd, bu hərəkətin dinə daxil edilməsi məqsədi ilə edilməsinin haramlığına şübhə yoxdur. Əgər "amin"i səhvən, yaxud təqiyyə səbəbi ilə deyərsə, namazına xələl gəlmir.

**5) Üzürlü səbəb olmadan qiblədən dönmək və yayınmaq**

**Məsələ 1351.** Əgər namaz qılan üzürlü səbəb olmadan üzü qibləyə durmaq vəzifəsini yerinə yetirməyəcək şəkildə bədənini qiblədən döndərərsə, məsələn, ürfən "üzü qibləyədir" deyilməyəcək şəkildə dayanarsa, namazı batil olur və bu qəsdən qiblədən yayınmanın qiraət, yaxud zikr əsnasında olub-olmaması arasında fərq yoxdur. Həmçinin, yayınma

səviyyəsinin 90 dərəcəyə çatıb-çatmaması arasında da fərq yoxdur. Buna əsasən, əgər misal olaraq "Həmd"i oxuduqdan sonra və surəni oxumazdan öncə qeyd edilən şəkildə qiblədən yayınarsa, ancaq dərhal əvvəlki vəziyyətinə qayıdaraq üzü qibləyə dayanarsa və surəni və namazın qalan hissələrini üzü qibləyə yerinə yetirmək istəyərsə, yenə də namazı batildir.

**Məsələ 1352.** Əgər namaz qılanın bədəni qiblədən dönərsə, lakin bu qiblədən yayınma üzürlü səbəbdən baş verərsə, məsələn, unutqanlıq, yaxud güclü külək kimi onu qeyri-ixtiyari surətdə qiblədən sapdıran başqa bir səbəblə əlaqədar olaraq qiblədən dönərsə, burada iki hal təsəvvür edilir:

a) Namaz qılanın qiblədən yayınması sağ, yaxud sol tərəfinə çatacaq qədər olduğu təqdirdə namazı doğrudur. Lakin namaz əsnasında üzürlü halı aradan qalxdığı təqdirdə dərhal qiblə istiqamətinə qayıtmalıdır.

b) Namaz qılanın qiblədən yayınması sağ, yaxud sol tərəfinə çatacaq qədər olduğu, yaxud namaz qılan arxası qibləyə çevrildiyi təqdirdə üzürlü halı namaz vaxtı daxilində başa çatarsa, belə ki, namazını (hərçənd bir rükətini olsa belə) vaxt daxilində yenidən qıla bilərsə,məsələn, qibləni müəyyən etməkdə səhvə yol verərək 90 dərəcə, yaxud daha az yayınma ilə namaz qıldığı və vaxtın başa çatmasından bir neçə dəqiqə öncə, ən azı bir rükəti vaxt başa çatmadan qılmaq imkanı var ikən səhvini başa düşdüyü halda belə etməlidir.

Əgər bu qədər də vaxtı yoxdursa, yaxud üzürlü halı vaxt başa çatdıqdan sonra aradan qalxarsa, bu vəziyyətdə qıldığı namaz doğrudur.

**Məsələ 1353.** Əgər namaz qılan yalnız üzünü qiblədən çevirərsə, lakin bədəni qibləyə doğru olarsa, boynunu arxasını bir qədər görə biləcək dərəcədə sağ, yaxud sol tərəfə çevirdiyi təqdirdə ona şamil olunan hökm eynilə bədənin qiblədən döndərilməsi ilə bağlı izah edilən hökmdür. Əyilmə bu dərəcədə olmadığı, lakin ürfən çox sayıldığı təqdirdə, vacib ehtiyata əsasən, namazını təkrarən qılmalıdır. Ancaq boynunu azacıq əyərsə, hərçənd bu hərəkət məkruh olsa da, namazı batil olmur.

### 6) Qəsdən danışmaq

**Məsələ 1354.** Əgər namaz qılan namazda qəsdən danışar, bir söz söyləyərsə, bu sözlə bağlı iki hal mövcud ola bilər:

*Birinci hal:* **İki və ya daha artıq hərfdən**[1] ibarət olarsa, bu halda –

[1] *Qeyd etmək lazımdır ki, burada hərf deyərkən ərəb və fars dillərinin strukturu əsas götürülərək samit səslər nəzərdə tutulmuşdur. Məsələn, ikinci halın (a) bəndində misal olaraq verilən "qi" (qoru) əmr feili ərəb dilində birhərfli söz sayılır. Lakin unutmamaq lazımdır ki, digər dillərdə, o cümlədən azərbaycan dilində "o" şəxs əvəzliyi, yaxud rus dilində "u" (və) bağlayıcısı kimi yalnız bir sait səsdən ibarət olan sözlər də vardır.* Tərc.

hərçənd, vacib ehtiyata əsasən, danışdığı söylədiyi şey mənasız olsa belə - namaz batil olur.

***İkinci hal:*** Bir hərfli olarsa, bu zaman da aşağıdakı iki halda namaz batil olur:

a) ərəbcə "qoru" mənasını ifadə edən "qi" sözü kimi müəyyən leksik mənaya malik olarsa;

b) müstəqil leksik mənaya malik olmasa da başqa bir mənanın ifadəsinə xidmət edərsə, məsələn, bir şəxs namaz əsnasında namaz qılandan əlifbanın ikinci hərfini soruşarsa və o da cavab olaraq: "be" deməklə kifayətlənərsə.

Lakin əgər dediyi bir hərf heç bir mənanı ifadə etmirsə, namaz batil olmur.

**Məsələ 1355.** Əgər səhvən bir və ya çox hərfli bir söz deyərsə, hərçənd həmin sözün mənası olsa da, namazı batil olmur. Lakin, ehtiyata əsasən, namazdan sonra qarşıda izah ediləcək qaydada səhv səcdəsi etməlidir.

**Məsələ 1356.** Öskürmək və gəyirmək namaza xələl gətirmir. Lazım ehtiyata əsasən, insan namazda ixtiyari surətdə ah çəkməməli, nalə etməməlidir. "Ax", "ah" və bənzər nidalara gəlincə, əgər qəsdən deyilərsə, namazı batil edir.

**Məsələ 1357.** Əgər "Allahu əkbər", yaxud "Subhanəlah" kimi bir sözü zikr məqsədi və Allaha yaxınlaşmaq niyyəti ilə deyərsə və onu deyərkən başqasına bir şeyi başa salmaq məqsədi ilə səsini ucaldarsa, namaza xələl gəlmir. [1] Həmçinin, əgər bir sözü zikr məqsədi və Allaha yaxınlaşmaq niyyəti ilə adi qaydada deyərsə, hərçənd bu hərəkətin bir şəxsin hansısa məsələyə diqqət yetirməsinə səbəb olduğunu bilsə belə, buna əngəl yoxdur.

**Məsələ 1358.** Əgər "Allahu əkbər", yaxud "Subhanəlah" kimi bir sözü başqasına bir şeyi başa salmaq üçün zikr niyyəti ilə deyərsə və zikrinin özünün deyilişində məqsədi başqasına nəyi isə başa salmaq olarsa, bu halda da namazı doğrudur. Qeyd etmək lazımdır ki, bu məsələ ümumiyyətlə deyilən zikrə aiddir. Lakin namazın vacib və müstəhəb zikrlərində əgər məqsədi başqalarına nəyisə açıqlamaq olarsa, bu açıqlamada niyyəti Allaha yaxınlaşmaq olmalıdır və Allaha yaxınlaşmaq niyyəti olmadan vacib, yaxud müstəhəb zikr icra edilmiş sayılmır.

**Məsələ 1359.** Əgər namaz qılan "Allahu əkbər", "Ya Allah" və bənzər ifadələri başqalarına nəyisə başa salmaq üçün deyərkən ümumiyyətlə niyyəti zikr etmək olmazsa, belə ki, ifadəni əsil mənasından başqa bir

---

[1] Bu halda namaz qılanın zikrin deyilişinin özündə məqsədi Allaha yaxınlaşmaqdır, lakin səsin ucaldılmasında məqsədi bu deyil, başqa bir şəxsə hansısa mətləbi çatdırmaqdır.

mənada işlədərsə, yaxud hər iki məqsədlə deyərsə, yəni hər iki mənada işlədərsə, namazı batil olur. Lakin qasir cahil olduğu və təkbirət əl-ehramdan başqa zikrlərdə olduğu hallar istisnadır. [1]

**Məsələ 1360.** Namazda vacib səcdəsi olan dörd ayə istisna olmaqla Quran oxumaq namaza xələl gətirmir. Sözügedən dörd ayənin qiraəti ilə bağlı hökm isə 1296 və 1297-ci məsələlərdə qeyd edilmişdir.

**Məsələ 1361.** Namazda dua etmək namaza xələl gətirmir. [2] Lakin müstəhəb ehtiyat ərəb dilindən başqa bir dildə dua etməməyi tələb edir.

**Məsələ 1362.** Əgər insan Həmd və surənin bir hissəsini və namazın zikrlərini qəsdən, yaxud ehtiyatən bir neçə dəfə təkrarlayarsa, namaza xələl gəlmir.

## Salam vermək və salama cavab verməklə bağlı hökmlər

**Məsələ 1363.** Namazda insan başqasına salam verməməli, başqası ona salam verdikdə isə ona cavab verməli, lakin cavab salam kimi olmalı, yəni salama bir söz əlavə etməməlidir. Məsələn, əgər bir şəxs namaz qılana "Səlamun əleykum" (salaməleyküm) deyərsə, namaz qılan qəsdən cavabında "Səlamun əleykum və rəhmətullahi və bərəkatuh" deməməlidir əgər salam verən şəxs "salam" sözünü "əleykum" sözündən öncə deyərsə, lazım ehtiyata əsasən, namaz qılan şəxs cavabda "əleykum", yaxud "əleykə" sözünü salam sözündən öncə deməməlidir. Həmçinin, müstəhəb ehtiyata əsasən, cavab eynilə salam kimi olmalıdır. Məsələn, əgər həmin şəxs "səlamun əleykum" deyərsə, namaz qılan da cavab olaraq "səlamun əleykum" deməli və əgər "əs-səlamu əleykə" deyərsə, namaz qılan da "əs-səlamu əleykə" deməlidir. Lakin "əleykumus-səlam"a (əleyküməssalam) cavab olaraq "əleykuməs-səlam", yaxud "əs-səlamu əleykum" və ya "səlamun əleykum" deyə bilər.

**Məsələ 1364.** Əgər bir şəxs salam vermək niyyəti ilə "salam" sözünü təkcə, "əleykə" demədən işlədərsə, onun salamına cavab vermək vacibdir və namaz qılan şəxs namaz əsnasında bu salama cavab olaraq həm təkcə "salam" sözünü deyə və "əleykə" sözünü mətndaxili məna kimi nəzərində tuta bilər, həm də "səlamun əleykə" deyə və "əleykə" sözünü də tələffüz edə bilər.

[1] Məsələn, namaz qılan şəxs namaz əsnasında uşağın təhlükə qarşısında olduğunu başa düşdükdə zikr niyyəti olmadan "Allahu əkbər" ibarəsini "uşaqdan muğayat olun" mənasında işlədərsə, yaxud "Allahu əkbər"i hər iki mənada, yəni həm "Allah (vəsfə sığmayacaq qədər) böyükdür", həm də "uşaqdan muğayat olun" mənasında işlədərsə, bu təqdirdə qasir cahil olduğu hal istisna olmaqla namaz batil olur.

[2] Təbii ki, dua namazın qiraəti və vacib zikrlərində şərt sayılan, 1323-cü məsələdə izah edilmiş müvalatı pozacaq şəkildə olmamalıdır.

**Məsələ 1365.** İnsan istər namazda, istərsə digər hallarda salamın cavabını dərhal verməlidir və əgər qəsdən, yaxud unutqanlıqdan salamın cavabını ürfən həmin salamın cavabı sayılmayacaq qədər gecikdirərsə, namazda olduğu təqdirdə daha cavab verməməli, digər hallarda isə cavab verməsi artıq vacib sayılmır.

**Məsələ 1366.** İnsan istər namazda, istərsə digər hallarda salamın cavabını salam verən şəxsin eşidə biləcəyi şəkildə verməlidir. Lakin əgər salam verən kar olarsa, yaxud salam verən şəxs salam verərək dərhal oradan uzaqlaşarsa, salamın cavabını işarə ilə, yaxud bənzər bir tərzdə çatdırmaq mümkün olduğu təqdirdə cavab vermək lazımdır. Salamın cavabını salam verənə çatdırmaq mümkün olmadığı təqdirdə isə namaz əsnasında cavab vermək caiz deyil, digər hallarda da lazım deyil.

**Məsələ 1367.** Əgər radio, yaxud televiziya proqramının aparıcısı tamaşaçılarına salam verərsə və tamaşaçılar qiyabi şəkildə radio, yaxud televiziya verilişi vasitəsilə onun salamını eşidərsə, onların salama cavab verməsi vacib deyil, hətta namaz əsnasında caiz deyil. Lakin əgər insan telefon və bu qəbildən olan kommunikasiya vasitələri ilə başqasına salam verərsə, belə ki, iki tərəf danışıq əsnasında bir-birinin səsini birbaşa eşidərsə, salama cavab vermək lazımdır.

**Məsələ 1368.** Əgər naməhrəm qadın, yaxud kişi və ya müməyyiz, yəni yaxşı ilə pisi başa düşən uşaq namaz qılana salam verərsə, namaz qılan ona cavab verməlidir. Əgər qadın "səlamun əleyk", yaxud "səlamun əleykə" ifadəsi ilə namaz qılan kişiyə salam verərsə, kişi namaz qılan cavabında "səlamun əleyk", ya da "səlamun əleyki" deyə, yəni "kaf" hərfini kəsrə ilə tələffüz edə bilər. [1]

**Məsələ 1369.** Əgər namaz qılan salamın cavabını qəsdən verməsə, hərçənd günah etsə də, namazı doğrudur.

**Məsələ 1370.** Əgər bir şəxs namaz qılana düzgün olmayan şəkildə salam verərsə, ona cavab verməsi vacibdir və vacib ehtiyata əsasən, salamın cavabını düzgün şəkildə verməlidir.

**Məsələ 1371.** Namaz qılanın salamın cavabını salamlama niyyəti ilə verməsi vacibdir. Bunu dua, yəni uca Allahdan salam verən şəxsin sağlam və əmin-amanlıqda olmasını diləmək niyyəti ilə də edə bilər.

**Məsələ 1372.** Məsxərə, yaxud zarafat məqsədilə salam verən şəxsin və zimmi kafir olmadıqları təqdirdə qeyri-müsəlman kişi və qadının salamına cavab vermək vacib deyil, zimmi olduqları təqdirdə isə, vacib ehtiyata əsasən, "əleykə" sözü ilə kifayətlənmək lazımdır.

---

[1] Ərəb dilində "kə" II şəxsin təki kişi cinsini, "ki" isə II şəxsin təki qadın cinsini bildirən bitişən şəxs əvəzliyidir. "Əleykum" sözündəki "kum" isə II şəxsin cəmi kişi cinsini bildirən bitişən şəxs əvəzliyidir. *Tərc.*

**Məsələ 1373.** Əgər bir şəxs bir dəstə insana salam verərsə, onun salamına cavab vermək onların hamısına vacibdir, lakin əgər onlardan biri salama cavab verərsə, hərçənd aralarında cavab verən həddi-büluğa çatmamış bir uşaq olsa belə, kifayətdir. Məsələn, çıxışa başlamazdan öncə görüşün başlanğıcında həmin yerdə toplanan insanlara salam verən natiqin, yaxud məscidə və ya başqa bir məkana daxil olarkən oradakı insanlara salam verən şəxsin, ya da görüşün başlanğıcında auditoriyanı salamlayan aparıcının və bu qəbildən olan vəziyyətlərdə salam verən şəxsin salamına cavab vermək orada toplanan, salamın ünvanlandığı bütün insanlara vacibdir. Lakin əgər onlardan biri cavab verərsə, kafidir və bu hökmdə "səlamun əleykum", yaxud "səlamun əleykum cəmiən" demək arasında heç bir fərq yoxdur.

**Məsələ 1374.** Əgər bir şəxs bir dəstə insana salam verərsə və salam verən şəxsin nəzərdə tutmadığı başqa bir şəxs onun salamını cavablayarsa, yenə də həmin insanlara onun salamına cavab vermək vacibdir.

**Məsələ 1375.** Əgər bir şəxs bir dəstə insana salam verərsə və onların arasında namaz qılan bir şəxs salam verənin onu nəzərdə tutmadığını və namaz qılmayanlara salam verdiyini bilirsə, bu halda hərçənd salamın ünvanlandığı digər şəxslər qəsdən, yaxud səhvən salama cavab verməsələr də, namaz qılan şəxs cavab verməməlidir.

**Məsələ 1376.** Əgər bir şəxs bir dəstə insana salam verərsə və onların arasında namaz qılan bir şəxs salam verənin onu da nəzərdə tutub-tutmadığına şəkk edərsə, həmçinin, vacib ehtiyata əsasən, əgər onu da nəzərdə tutduğunu bilərsə, lakin başqa bir şəxs ondan öncə salamın cavabını verərsə, namaz əsnasında salama cavab verməməlidir. Ancaq əgər onu da nəzərdə tutduğunu bilərsə və başqa bir şəxs salama cavab verməzsə, yaxud başqalarının cavab verib-vermədiyinə şəkk edərsə, onun salamına cavab verməlidir.

**Məsələ 1377.** Əgər iki şəxs bir-birinə salam verərsə, vacib ehtiyata əsasən, hər biri digərinin salamını cavablamalıdır.

**Məsələ 1378.** Salam vermək müstəhəbdir və hədislərdə söylənilir ki, süvari piyadaya, ayaq üstə olan şəxs oturana və yaşca kiçik olan böyüyə salam verməlidir.

**Məsələ 1379.** Namazdan başqa halda salamı daha üstün salamla cavablamaq, məsələn, bir şəxs "səlamun əleykum" deyərsə, cavabında "səlamun əleykum və rəhmətullah" demək müstəhəbdir.

### 7) Qəsdən gülmək (qəhqəhə)

**Məsələ 1380.** Qəsdən qəhqəhə çəkmək, namazı batil edir. Hərçənd qeyri-ixtiyari olsa da,ancaq qəhqəhəyə şərait yaradan səbəb ixtiyari

surətdə meydana gətirilərsə, hətta səbəb də ixtiyari olmasa belə, namazı təkrarən qılmaq üçün vaxt qaldığı təqdirdə, lazım ehtiyata əsasən, onu yenidən qılmaq lazımdır. Bunun üçün vaxt qalmadığı təqdirdə isə namaz doğrudur. Qəhqəhə deyərkən ucadan və səsli gülmək nəzərdə tutulur. Ürfən qəhqəhə sayılmayan səsli gülüş isə namazı pozmur. Hərçənd, müstəhəb ehtiyat ondan da çəkinməyi tələb edir. Həmçinin, təbəssüm hərçənd qəsdən olsa da, namazı batil etmir.

**Məsələ 1381.** Əgər namaz qılan namazın surəti pozulmayacaq şəildə qəsdən səssiz gülərsə, yaxud səhvən səsli gülərsə, namazına xələl gəlmir.

**Məsələ 1382.** Əgər gülüş səsinin qarşısını almaq üçün halı dəyişərsə, məsələn, rəngi qızararsa, namazının pozulması ehtiyat tələb olunan bir haldır və vacib ehtiyata əsasən, namazı təkrarən qılmalıdır.

**Məsələ 1383.** Əgər namaz qılan bu məsələni bilmədiyinə görə namazda uca səslə gülərsə (qəhqəhə çəkərsə), müqəssir cahil deyil, cahil qasir olduğu (yəni məlumatsızlığında üzürlü sayıldığı) və namazın surətinin də pozulmadığı təqdirdə namazı doğrudur.

**8) Dünyəvi işlər üçün qəsdən ağlamaq**

**Məsələ 1384.** Əgər namaz qılan qəsdən və ixtiyari surətdə səsli və ya səssiz surətdə dünyəvi işlər üçün, yaxud dünyasını dəyişmiş bir şəxsi xatırlaması səbəbi ilə ağlayarsa, vacib ehtiyata əsasən, namazı batil olur.

**Məsələ 1385.** Əgər namaz qılan ixtiyarsız ağlayarsa, belə ki, onu ağlamaq tutarsa və ağlamasının qarşısını ala bilməzsə, buna səbəb olan amil(lər) ixtiyari surətdə meydana gətirildiyi təqdirdə qəsdən və ixtiyari ağlamaq hökmü şamil olunur, yəni vacib ehtiyata əsasən, namazı batil olur. Hətta buna səbəb olan amil(lər) ixtiyari surətdə meydana gətirildiyi təqdirdə belə namazı təkrarən qılmaq üçün vaxt qalmışdırsa və o ağlamadan namaz qıla bilərsə, lazım ehtiyata əsasən, namazı təkrarən qılmalıdır. Vaxt qalmadığı təqdirdə isə namazı doğrudur.

**Məsələ 1386.** Əgər namaz qılanı ağlamaq tutarsa, belə ki, ağlaması qarşısı alınmaz və kontrol edilməz olarsa və bütün namaz vaxtı ərzində, hərçənd yalnız namazın vacibatı ilə kifayətlənmək surəti ilə də olsa,ağlamadan namaz qıla bilməzsə, bu halda namazını həmin vəziyyətdə qılmalıdır və namazı doğrudur.

**Məsələ 1387.** Əgər namaz qılan uca Allahdan qorxduğuna, yaxud Ona qarşı şövqündən və ya axirət üçün ağlayarsa, ahəstə, yaxud uca səslə olmasından asılı olmayaraq namaza xələl gəlmir, hətta bu, ən üstün ibadət əməllərindən sayılır.

**Məsələ 1388.** Əgər namaz qılan dünyəvi hacət üçün olan dua məqamında uca Allahın hüzurunda acizliyini və mütiliyini izhar etmək üçün

ağlayaraq Ondan hacətini diləyərsə, eybi yoxdur və namazı doğrudur. [1]

**Məsələ 1389.** Namazda Şəhidlərin sərvəri İmam Hüseynin (ə) və ya digər hidayət imamlarının (ə) başına gələn müsibətlərə görə Allaha yaxınlaşmaq niyyəti ilə ağlamaq namaza xələl gətirmir.

**9) Namazın surətini pozan artıq hərəkətə yol vermək**

**Məsələ 1390.** Hoppanmaq kimi namazın surətini pozan hərəkət namazı batil edir və onun qəsdən, yaxud unutqanlıqdan və ya ixtiyarsız edilməsi arasında fərq yoxdur.

**Məsələ 1391.** Əllə işarə etmək, başqasına nəsə başa salmaq üçün əli ayağın, yaxud digər əlin üstünə vurmaq, yerdən Quran, yaxud dua kitabı kimi hər hansı bir əşyanı götürmək, körpə uşağı qoltuqda tutmaq, əziyyət verən həşəratı öldürmək, möhürü taxçanın üstündən götürmək üçün azacıq addım atmaq və bu qəbildən olan hərəkətlər aşağıdakı şərtlərlə namaza xələl gətirmir:

1) namazın surəti pozulmamalıdır;
2) namaz qılan qiblədən dönməməlidir;
3) hərəkət halında namazın qiraət və zikrlərini oxumamalıdır;
4) namazda müvalata və namazın doğru olması tələb olunan digər şərtlərə riayət etməlidir.

**Məsələ 1392.** Əgər namaz qılan namaz əsnasında ürfən "namaz qılır" deyilməyəcək qədər sakit qalarsa, namazı batil olur.

**Məsələ 1393.** Əgər namaz əsnasında bir hərəkətə yol verərsə, yaxud bir müddət sakit qalarsa və namazın surətinin pozulub-pozulmadığına şəkk edərsə, namazı təkrarən qılmalıdır. Lakin daha yaxşı olar ki, həmin namazı tamamlasın, sonra təkrarən qılsın.

**10) Yemək və içmək**

**Məsələ 1394.** Əgər insan namazda namazın surəti pozulacaq şəkildə bir şey yeyər, yaxud içərsə, belə ki, "namaz qılır" deyilməzsə - istər qəsdən olsun, istər unutqanlıqdan – namazı batil olur. Lakin əgər namazın surəti pozulmayacaq şəkildə baş verərsə, qəsdən olduğu təqdirdə, vacib ehtiyata əsasən, namaz batil olur və onu təkrarən qılmalıdır, unutqanlıqdan və səhvən olduğu təqdirdə isə namazına xələl gəlmir.

**Məsələ 1395.** Əgər namaz əsnasında ağız boşluğunda, yaxud dişlərin arasında qalan qida qalığını udarsa, namazı batil olmur. Həmçinin, əgər qənd, şəkər tozu və bu qəbildən olan şeylər ağzında qalarsa və namaz halında yavaş-yavaş əriyərək udularsa, namaza xələl gəlmir.

---

[1] Məsələn, əgər namaz qılan namazın qunutunda şəfa, yaxud yoxsulluqdan qurtulmaq kimi dünyəvi bir iş üçün dua edərsə və bu halda çarəsizliyini nümayiş etdirmək və uca Allahın hüzurunda mütiliyini izhar etmək üçün ağlayarsa, eybi yoxdur və namaz batil olmur.

**11) Namazın rükətlərində batil şəklərdən birinin yaranması**

**Məsələ 1396.** Əgər namaz qılanda namazı batil edən şəklərdən biri yaranarsa, məsələn, vacib ikirükətli, yaxud üçrükətli namazda və ya dördrükətli namazın ilk iki rükətində ikinci səcdə üçün alnı möhürə qoymazdan öncə şəkk düşərsə və şəkdə qalarsa, namazı batildir.

**12) Namazın rüknünü qəsdən, yaxud səhvən artıq yerinə yetirmək, yaxud əskiltmək**

**Məsələ 1397.** Əgər namaz qılan namazın rüknünü qəsdən, ya da səhvən əskildərsə, yaxud rükn olmayan bir şeyi qəsdən əskildərsə və ya namazın hissələrindən birini qəsdən artırarsa, namazı batil olur. Həmçinin, əgər rüku və bir rükətin iki səcdəsi kimi bir rüknü səhvən artırarsa, vacib ehtiyata əsasən, namazı batil olur. Lakin təkbirət əl-ehramın səhvən artıq yerinə yetirilməsi namazı batil etmir.

## Bir ümumi qayda

**Məsələ 1398.** Əgər namaz qılan namazdan sonra namaz əsnasında namazı batil edən bir iş görüb-görmədiyinə şəkk edərsə, namazı doğrudur.

## Namazı dayandırmaq və onun hissələrini artırmaq və azaltmaq

Vacib namazı dayandırmağın caiz olduğu hallar

**Məsələ 1399.** Vacib namazı ixtiyari surətdə dayandırmaq, vacib ehtiyata əsasən, caiz deyildir. Lakin bəzi hallarda vacib namazı dayandırmaq caiz (hətta bəzi hallarda vacib) sayılır. O cümlədən:

**1) Maddi, yaxud fiziki zərərin qarşısını almaq**

**Məsələ 1400.** Vacib namazı əmlakı qorumaq və maddi, yaxud fiziki zərərin qarşısını almaq üçün dayandırmaq olar.

**Məsələ 1401.** Əgər insanın özünün, yaxud həyatının qorunması vacib olan bir şəxsin canının və ya qorunması vacib olan bir əmlakın qorunması namazı dayandırmadan mümkün deyilsə, namazı dayandırmaq lazımdır.

**2) İstənilən mühüm dini və dünyəvi məqsəd**

**Məsələ 1402.** Vaxt geniş olduğu halda hərçənd namazı dayandırmadığı təqdirdə bir zərərlə üzləşməsə belə, namaz qılan üçün mühüm olan istənilən dini və dünyəvi məqsəd üçün vacib namazı dayandırmaq olar. [1]

[1] Məsələn, insanın vaxt geniş ikən namaz əsnasında başqa bir şəxslə qərarlaşdırdığı bir işi, görüşü xatırlaması və namazın başa çatdırılmasının onun həmin işə, görüşə gecikməsinə səbəb olması kimi.

**3) Borcverənin borcunu qaytarmaq üçün**

**Məsələ 1403.** Əgər insan vaxt geniş olduqda namaz qılarkən borc aldığı şəxs ödəmə vaxtı çatmış borcu qaytarmasını ondan tələb edərsə, namaz əsnasında onun borcunu ödəyə bildiyi təqdirdə bu vəziyyətdə ödəməli, namazı dayandırmadan borcu ödəmək mümkün olmadığı təqdirdə isə namazı dayandırmalı, onun borcunu qaytarmalı və sonra namazı qılmalıdır.

**4) Vaxt geniş olduqda məscidi paklamaq üçün**

**Məsələ 1404.** Əgər namaz qılan namaz əsnasında məscidin nəcasətləndiyi başa düşərsə, vaxt məhdud olduğu təqdirdə namazını tamamlamalı, sonra məscidi təmizləməlidir. Vaxt geniş olduğu və məscidin paklanması namazın surətini pozmadığı təqdirdə namaz əsnasında təmizləməli, sonra namazın davamını qılmalıdır. Məscidin paklanması namazı pozduğu təqdirdə isə əgərməscidin namazdan sonra paklanması mümkündürsə və onu paklamağı namazdan sonraya təxirə salmaq məscidə qarşı hörmətsizlik hesab edilmirsə, bu məqsədlə namazı pozmaq hərçənd caiz olsa da, vacib deyil. Ancaq əgər namazdan sonra məscidi paklamaq mümkün deyilsə və məscidin nəcasətli qalması, paklanmasının təxirə salınması ürfən məscidə hörmətsizlik hesab edilirsə, namazı dayandırmalı və məscidi pakladıqdan sonra qılmalıdır.

**5) Azan və iqamə, yaxud təkcə iqamə oxumaq üçün**

**Məsələ 1405.** Əgər namaz qılan qiraətdən, yaxud rüku vəziyyətinədək əyilməzdən öncə azan və iqaməni, yaxud təkcə iqaməni unutduğunu xatırlayarsa, namazın vaxtı geniş olduğu təqdirdə onları oxumaq üçün namazı dayandırması müstəhəbdir. Hətta əgər namaz başa çatmamış[1] azan və iqaməni unutduğunu xatırlayarsa, onları oxumaq üçün namazı yarımçıq qoyması müstəhəbdir. Bu hökm, vacib ehtiyata əsasən, camaat namazına, həmçinin, namaz qılanın azan və iqaməni qəsdən oxumadığı, eləcə də unutduğu, lakin namaz əsnasında xatırlamasına baxmayaraq namazı dayandırıb onları oxumadığı, üstündən xeyli müddət keçdikdən sonra onları oxumaq qərarına gəldiyi hallara şamil deyil.

**6) Namazın vaxtı geniş olduqda yaranan doğru şəklərə görə**

**Məsələ 1406.** Namazın vaxtı geniş olduqda dördrükətli namazlarda doğru şəklərdən birinə düçar olan (məsələn, zöhr namazında üçüncü, yoxsa dördüncü rükətdə olduğuna şəkk edən) və şəkdə qalan[2] namaz

---

[1] Yəni namazın istənilən yerində. *Tərc.*

[2] Yəni nə qədər ayırd etməyə çalışsa da, nəticədə ehtimallarından hər hansı birinin doğruluq dərəcəsi digərindən artıq olmayan. *Tərc.*

qılan doğru şəklərlə əlaqədar eyni başlıqlı mövzuda izah ediləcək göstərişlərə uyğun qaydada hərəkət edə bildiyi kimi,namazı dayandıra və yenidən qıla da bilər.

**Məsələ 1407.** Namazı dayandırmalı olan şəxs əgər namazı sonadək qılarsa, hərçənd günah etsə də, namazı doğrudur və müstəhəb ehtiyat onu yenidən qılmasını tələb edir.

## Namazın hissələrinin artırılıb-azaldılması, yaxud namazın şərtlərinə riayət edilməməsi

**Məsələ 1408.** Namaz qılan namazın vacibatından bir şeyi, hərçənd bir hərfini olsa belə, qəsdən əskildərsə, yaxud artırarsa, namaz batildir. Əlbəttə, namazın zikrlərinin 1208-ci məsələdə izah edilən qaydada təkrarlanması namaza xələl gətirmir.

**Məsələ 1409.** Əgər məsələ ilə bağlı məlumatsızlıq səbəbindən namazın rükn olan vacibatından bir şeyi əskildərsə, namaz batildir. Rükn olan vacibatın artıq yerinə yetirilməsi ilə bağlı hökm isə 1125-ci məsələdə izah edilmişdir. Lakin qasir cahilin, məsələn, sonradan xətası məlum olan etibarlı bir şəxsin, yaxud mötəbər bir risalənin məlumatına istinad edən insanın rükn olmayan bir vacib hissəni əskiltməsi namazı batil etmir. Həmçinin, əgər məsələ ilə bağlı məlumatsızlıq səbəbi ilə (hərçənd təqsir ucbatından olsa da) sübh, məğrib və işa namazlarının Həmd və surəsini ahəstə səslə oxuyarsa, yaxud zöhr və əsr namazlarının Həmd və surəsini uca səslə oxuyarsa və ya üçüncü və dördüncü rükətlərdə təsbihat-i ərbəəni uca səslə oxuyarsa, ya da səfərdə zöhr, əsr və işa namazlarını dördrükətli namaz kimi qılarsa, namazı doğrudur.

**Məsələ 1410.** Əgər vacib namazda rükuya çatdıqdan sonra öncəki rükətin iki səcdəsini unutduğunu xatırlayarsa, vacib ehtiyata əsasən, namazı batildir. Lakin əvvəlki rükətin bir səcdəsini unutduğunu xatırlayarsa, namazı doğrudur və ehtiyata əsasən, namazdan sonra səcdəsinin qəzasını etməsi vacibdir. [1]

Əgər rükuya çatmazdan öncə xatırlayarsa, geri qayıtmalı və səcdəni, yaxud səcdələri yerinə yetirməli, sonra ayağa qalxaraq Həmd və surəni, yaxud təsbihat-i ərbəəni oxumalı və namazı başa çatdırmalı, namazdan sonra isə, müstəhəb ehtiyata əsasən, yersiz ayağa qalxmağa (qiyama) görə səhv səcdəsi etməlidir.

**Məsələ 1411.** Əgər "Əs-səlamu əleyna", yaxud "Əs-səlamu əleykum" deməmiş sonuncu rükətin iki, yaxud bir səcdəsini etmədiyini xatırlayarsa, səcdəni, yaxud səcdələri yerinə yetirməli, sonra təkrarən təşəhhüdü oxumalı və namazın salamını deməlidir.

---

[1] Müstəhəb ehtiyata əsasən, səcdəni unutduğuna görə səhv səcdəsi də etməlidir. Daha ətraflı şərh unudulmuş səcdə və səhv səcdəsi mövzusunda veriləcəkdir.

**Məsələ 1412.** Əgər namazın salamından sonra namaz əsnasında istər qəsdən, istər səhvən baş verəcəyi təqdirdə namazı batil edən bir hərəkətə yol verərsə (məsələn, arxasını qibləyə çevirərsə, yaxud dəstəmazı pozularsa, ya da namazın surəti pozularsa) və həmin hərəkətdən sonra sonuncu rükətin iki səcdəsini etmədiyini xatırlayarsa, namazı batildir, bir səcdəsini etmədiyini xatırladığı halda isə namazı doğrudur və ehtiyata əsasən, səcdənin qəzasını etməsi vacibdir. [1]

Əgər istər qəsdən, istərsə səhvən edilməsi namazı batil edən bir hərəkətə yol verməzdən öncə sonuncu rükətin iki, yaxud bir səcdəsini etmədiyini xatırlayarsa, unutduğu iki və ya bir səcdəni etməli, sonra təkrarən təşəhhüd oxumalı və namazın salamını deməlidir və vacib ehtiyata əsasən, yersiz dediyi salama görə səhv səcdəsi etməlidir.

Əgər qısa danışıq kimi qəsdən yerinə yetirilməsi namazı batil edən, lakin səhvən edilməsi batil etməyən bir hərəkətə yol verdikdən sonra sonuncu rükətin bir, yaxud iki səcdəsini unutduğunu xatırlayarsa, öncəki halda olduğu kimi unutduğu bir, yaxud iki səcdəni yerinə yetirməli, sonra təkrarən təşəhhüd oxumalı və namazın salamını deməli və vacib ehtiyata əsasən, yersiz dediyi salama görə səhv səcdəsi etməli, həmçinin səhvən baş verən danışığa görə də, vacib ehtiyata əsasən, səhv səcdəsi etməlidir.

**Məsələ 1413.** Əgər namazın salamından sonra sonuncu rükətin təşəhhüdünü oxumadığını xatırlayarsa, namazı doğrudur və geri qayıdaraq təşəhhüdü yenidən oxumasına gərək yoxdur. Müstəhəb ehtiyata əsasən isə unudulmuş təşəhhüdün qəzasını yerinə yetirməlidir. Lakin unudulmuş təşəhhüdə görə səhv səcdəsinin edilməsi vacibdir və bu məsələdə namaz qılanın namazın salamından sonra istər qəsdən, istərsə səhvən edilməsi namazı batil edən bir hərəkətə yol verib-verməməsinin fərqi yoxdur. [2]

**Məsələ 1414.** Əgər namazın salamından öncə namazın sonundan bir rükətini, yaxud daha artığını qılmadığını xatırlayarsa, unutduğu hissəni yerinə yetirməlidir.

**Məsələ 1415.** Əgər namazın salamından sonra namazın sonundan bir rükətini, yaxud daha artığını qılmadığını xatırlayarsa, namaz əsnasında istər qəsdən, istərsə səhvən yerinə yetirilməsi namazı batil edən bir hərəkətə yol verərsə (məsələn, arxasını qibləyə çevirərsə, yaxud dəstəmazı batil olarsa və ya namazın surəti pozularsa), namazı batildir. Qəsdən və səhvən edilməsi namazı batil edən bir hərəkətə yol vermədiyi

---

[1] Müstəhəb ehtiyata əsasən, səhv səcdəsi də etməlidir.

[2] Unulmuş səcdə və təşəhhüdün qəzası ilə bağlı digər hökmlər əlaqədar mövzuda izah ediləcəkdir.

təqdirdə isə dərhal unutduğu hissəni yerinə yetirməli və artıq salama görə, lazım ehtiyata əsasən, səhv səcdəsi eməlidir.

**Məsələ 1416.** Əgər namaz qılan namaz əsnasında, yaxud namazdan sonra dəstəmazı, qüslü, yaxud təyəmmümünün batil olduğunu və ya dəstəmazsız, qüslsüz, yaxud təyəmmümsüz namaz qıldığını başa düşərsə, şəri vəzifəsinə uyğun olaraq dəstəmaz, yaxud qüsl və ya təyəmmümlə namazı yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır.

**Məsələ 1417.** Əgər namaz qılan namazdan sonra namazı bütövlüklə vaxtından öncə qıldığını başa düşərsə, onu təkrarən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır və bu məsələdə namazı vaxtının çatdığına dair yəqinlik, arxayınlıq, yaxud bəyyinə şahidlik[1] kimi mötəbər bir dəlilə əsasən qılması ilə bunun qəflət, unutqanlıq, səhlənkarlıq, yaxud məsələ ilə bağlı məlumatsızlıq ucbatından baş verməsi arasında bir fərq yoxdur.

**Məsələ 1418.** Əgər 894-cü məsələdə bəyan edilən şəri üsullardan hər hansı biri əsasında insan üçün namaz vaxtının başlaması sübuta yetərsə və o, namaza başlayarsa:

1) Namaz əsnasında səhv etdiyini və namazın vaxtının hələ başlamadığını başa düşərsə (hərçənd, bir neçə andan sonra namazın vaxtı başlasa belə), namazı batildir.
2) Namaz əsnasında namazın vaxtının artıq başlaması, yoxsa bir neçə andan sonra başlayacağı arasında şəkkə düşərsə, namazı batildir.
3) Namaz əsnasında namaz vaxtının onun namaza başlamasından sonra çatdığını başa düşərsə, belə ki, başa düşdüyü zaman namazın vaxtı artıq başlamış olarsa, namazı doğrudur.
4) Namaz əsnasında namazın vaxtının artıq başladığına əmin olduğu halda namazın qıldığı hissəsinin vaxt daxilində olub-olmadığı ilə bağlı şəkkə düşərsə, namazı doğrudur.
5) Namazdan sonra namaz vaxtının o namazda ikən başladığını başa düşərsə, namazı doğrudur.
6) Namazın başa çatmasından sonra namazı vaxtında, yoxsa vaxtından öncə qılması ilə bağlı şəkk edərsə, şəkk zamanı namazın vaxtı başlamış olduğu təqdirdə namazı doğrudur.

**Məsələ 1419.** Əgər insan namaz vaxtının başladığına dair yəqinlik, yaxud arxayınlıq hasil etmək kimi mötəbər şəri üsula əsaslanaraq namaz qılmalı olduğunu başa düşməsə və qəflət halında namaz qılarsa:

1) Namazdan sonra namazı bütövlüklə öz vaxtında qıldığını başa düşərsə, namazı doğrudur.
2) Namazdan sonra vaxtın o namazda ikən başladığını başa düşərsə, namazı batildir və həmin namazı təkrarən qılmalıdır.

---

[1] Bəyyinə şahidlik iki adil kişinin şahidliyi deməkdir. *Tərc.*

3) Namazın başa çatmasından sonra onu vaxtında, yoxsa vaxtından öncə qıldığına şəkk edərsə, yaxud namazı bötüvlüklə, yoxsa bir hissəsini öz vaxtında qıldığına şəkk edərsə, namazı doğrudur.
4) Namaz əsnasında hələ vaxtın çatmadığını başa düşərsə, hərçənd bir neçə an sonra namaz başlasa belə, onun namazı batildir.
5) Namaz əsnasında vaxtın artıq başladığı, yoxsa bir neçə an sonra başlayacağı ilə bağlı şəkkə düşərsə, namazı batildir.
6) Namaz əsnasında vaxtın onun namaza başlamasından sonra çatdığını, ancaq namazın bir hissəsini (hərçənd az bir hissə olsa belə) vaxtından öncə qıldığını başa düşərsə, namazı batildir.

**Məsələ 1420.** Əgər insan namaz vaxtının başlayıb-başlamadığına şəkk edirsə, ancaq vaxtın başladığını ümid edərək rəcaən namazı qılarsa və namazdan sonra həqiqəti araşdırarsa:
1) Namazı bütövlüklə şəriətdə onun üçün müəyyən edilmiş vaxt ərzində qıldığını başa düşərsə, namazı doğrudur.
2) Namazı bütövlüklə, yaxud onun bir hissəsini vaxtından öncə qıldığını başa düşərsə, namazı batildir.
3) Namazı vaxtında, yoxsa vaxtından əvvəl qıldığı aydınlaşmasa, namazı batildir.

**Məsələ 1421.** Əgər namaz qılan namazını arxası qibləyə, yaxud qiblədən 90 dərəcə və ya daha artıq fərqli bir istiqamətə qıldığını başa düşərsə, vaxt başa çatmadığı təqdirdə (hərçənd, birrükətlik vaxt qalsa belə) onu təkrarən qılmalıdır. Əgər vaxt keçmişdirsə, tərəddüddə olduğu və qibləni tapmaqda səhlənkarlıq etdiyi, yaxud hökmü bilmədiyi və bu məlumatsızlıqda üzürlü olmadığı, əksinə müqəssir hesab edildiyi təqdirdə namazın qəzası ona vacibdir, əks təqdirdə isə vacib deyil.

**Məsələ 1422.** Əgər namaz qılan namazını üzü qibləyə qılmadığını, ancaq qiblədən əyilmənin qiblənin sağ, yaxud sol tərəfinədək (90 dərəcə) çatmadığını başa düşərsə, qiblədən sapmaqda üzürlü hesab edilmədiyi, məsələn, qiblə istiqamətinin axtarışında səhlənkarlığa yol verdiyi, yaxud şəriətin bununla bağlı göstərişini bilmədiyi və məlumatsızlıqda üzürlü olmadığı, müqəssir cahil hesab edildiyi təqdirdə, vacib ehtiyata əsasən, namazı vaxtında, yaxud vaxtı başa çatdıqdan sonra təkrarən qılmalıdır. Üzürlü olduğu təqdirdə isə namazı vaxtı ərzində təkrarən qılmasına, yaxud vaxtı başa çatdıqdan sonra qəzasını qılmasına gərək yoxdur.

## Namazda şəkk halları

Namazda şəkk halları ilə bağlı hökmlərin açıqlanmasından öncə şəkk və güman anlayışlarının tərifi mövzuya giriş olaraq verilir:

Şəkk insanın iki və ya bir neçə eyni dərəcəli, bərabər ehtimal arasında tərəddüd etməsi, məsələn, ikinci, yoxsa üçüncü rükətdə olması

arasında tərəddüddə olması və bu ehtimallardan birini digərinə tərcih edə bilməməsidir.

Güman insanın iki və ya bir neçə ehtimal arasında tərəddüd etməsi, lakin ehtimallardan birinin digər(lər)i ilə müqayisədə daha yüksək olmasıdır. Məsələn, 30% üçüncü, 70% dördüncü rükətdə olduğunu ehtimal edirsə, burada yüksək olan (70%) ehtimal güman, yaxud zənn adlandırılır. [1]

Namazda şəkk halları bir neçə qismə bölünür:

1) namazı batil edən şəklər (səkkiz hal);
2) etina edilməməli şəklər (altı hal);
3) namaz qılanın izah ediləcək hökmlərə uyğun qaydada hərəkət edəcəyi təqdirdə namazına xələl gətirməyəcək doğru şəklər (doqquz hal).

Beləliklə, bütövlükdə namazda şəkk hallarının sayı iyirmi beşdir.

Qeyd etmək lazımdır ki, batil edən və doğru şəklərin hamısı namazların rükətləri ilə bağlıdır, etina edilməməli olan şəklər isə rükətlərlə yanaşı digər məqamları da əhatə edir.

**Məsələ 1423.** Namazın rükətləri arasında bir şəkk yarandıqda istər batil edən şəklər qismindən olsun, istərsə doğru şəklər qismindən, namaz qılan dərhal həmin şəkk ilə bağlı hökmlərə əməl edə bilməz. Əksinə, bir qədər düşünməli, ehtimallardan biri xüsusunda güman, yaxud arxayınlıq hasil etdiyi təqdirdə ona uyğun hərəkət etməli, bir nəticəyə gələ bilmədiyi və şəkdə qaldığı təqdirdə isə şəkkiyyatla bağlı hökmlərə əməl etməlidir.

## Batil edən şəklər

**Məsələ 1424.** Namazı batil edən şəklər aşağıdakılardır:

1. Sübh namazı və müsafir namazı kimi ikirükətli vacib namazın rükətlərinin sayında şəkk. Lakin müstəhəb namazın və ehtiyat namazının rükətlərinin sayında şəkk namazı batil etmir.
2. Üç rəkətli namazın rükətlərinin sayında şəkk.
3. Namaz qılanın dördrükətli namazda bir, yoxsa daha artıq rükət qıldığına şəkk etməsi.
4. İkinci səcdədən öncə iki rükət, yoxsa daha artıq qıldığına şəkk etməsi.
5. İki və beş, yaxud iki və beşdən artıq rükət arasında şəkk.
6. Üç və altı, yaxud üç və altıdan artıq rükət arasında şəkk.
7. Namazın rükətləri arasında, ümumiyyətlə, namaz qılanın neçə rükət qıldığını bilməməsi şəklində baş verən şəkk.

[1] Keçmiş mövzuların böyük əksəriyyətində şəkk və güman ilə bağlı hökm eynidir və onların arasında bir fərq yoxdur. Şəkk və güman ilə bağlı hökmün bir-birindən fərqləndiyi az sayda hallarda da onların hər ikisi ilə bağlı hökm bəyan edilmişdir.

8. İzah ediləcək qaydada dörd və altı, yaxud dörd və altıdan artıq rükət arasında şəkk.

**Məsələ 1425.** Əgər namaz qılanda batil edən şəklərdən biri yaranarsa, bir nəticəyə gələ bilmədikdən və şəkk qalıcı olduqdan sonra namazı poza bilər. Hərçənd, müstəhəb ehtiyata əsasən, şəkki qalıcı olduqdan sonra namazı pozmamalı, əksinə namazın surəti pozulanadək, yaxud ehtimallardan birinə dair yəqinlik və ya güman hasil etməkdən ümidini üzənədək düşünməlidir.

## Etina edilməməli olan şəklər

**Məsələ 1426.** Etina edilməməli olan şəklər aşağıdakılardır:

1. Yeri keçən bir hissə ilə bağlı şəkk, məsələn, namaz qılanın rükuda Həmd surəsini oxuyub-oxumadığına şəkk etməsi.
2. Namazın salamından sonrakı şəkk.
3. Namazın vaxtı keçdikdən sonrakı şəkk.
4. Şəkkak, yəni çox şəkk edən insanın şəkki.
5. Məmumun sayını bildiyi halda imamın namazın rükətlərin sayında şəkk etməsi, həmçinin, imamın namazın rükətlərinin sayını bildiyi halda məmumun şəkk etməsi.
6. Müstəhəb namazlarda və ehtiyat namazında şəkk.

## Yeri keçən bir hissə ilə bağlı şəkk

**Məsələ 1427.** Əgər namaz qılan şəxs namaz əsnasında onun vacib hərəkətlərindən birini yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, məsələn, Həmd surəsini oxuyub-oxumadığına şəkk edərsə, şəriətə görə bu hərəkətlə arasında müəyyən ardıcıllıq olan (ondan sonra edilməli olan)bir hərəkətin icrası ilə məşğul olduğu təqdirdə(belə ki, şəkk edilən hərəkəti qəsdən yerinə yetirmədiyi təqdirdə bu hərəkəti etməməlidirsə) şəkkinə etina etməməlidir (bu şəkk yeri keçmiş şəkdir). Məsələn, əgər namaz qılan ikinci surəni oxuyarkən Həmd surəsini oxuyub-oxumadığına şəkk edərsə, bu halda şəkkinə etina etməməlidir və bu hökm xüsusunda sonrakı hərəkətin namazın vacib, müstəhəb, yaxud müqəddimə (hazırlıq) hissəsi olması arasında bir fərq yoxdur.

Ancaq əgər namaz qılan sonrakı hərəkətə başlamamışdırsa (hələ həmin yerdədirsə), yerinə yetirib-yetirmədiyinə şəkk etdiyi hərəkəti yerinə yetirməlidir. Məsələn, əgər hələ ikinci surəni oxumağa başlamadığı halda Həmd surəsini oxuyub-oxumadığına şəkk edərsə, Həmd surəsini oxumalıdır.

Həmçinin, əgər sonrakı hərəkətə başlamışdırsa, lakin sonrakı hərəkətlə şəkk edilən əvvəlki hərəkət arasında şəriətə görə müəyyən ardıcıllıq yoxdursa, yerinə yetirib-yetirmədiyinə şəkk etdiyi hərəkəti icra

etməlidir. Məsələn, əgər səcdədə salavat deyərkən səcdənin vacib zikrini deyib-demədiyinə şəkk edərsə, şəkkinə etina etməli və səcdənin vacib zikrini deməlidir. Çünki səcdədə səcdənin vacib zikrindən öncə və ya sonra salavat demək müstəhəb olsa da, səcdənin zikri ilə salavat arasında şəriətdə müəyyən edilmiş bir ardıcıllıq yoxdur.

Bu məsələdə qeyd edilənlər bütün namazlara aid olub, həm vacib, həm də müstəhəb, həm əda, həm də qəza, həm yövmiyyə (gündəlik), həm də ayat və digər namazlara şamildir.

**Məsələ 1428.** "Əuzu billahi minəş-şeytanir-rəcim" deyərkən, yaxud qiraətlə məşğul ikən təkbirət əl-ehramı dediyinə şəkk edən şəxs şəkkinə etina etməməlidir.

**Məsələ 1429.** Əgər Həmd və surənin qiraəti zamanı bir ayəni oxuyarkən ondan öncəki ayəni oxuyub-oxumadığına şəkk edərsə, yaxud bir ayənin axırını oxuyarkən onun əvvəlini oxuyub-oxumadığına şəkk edərsə, şəkkinə etina etməsin.

**Məsələ 1430.** Əgər namaz qılan rükuya əyilərkən Həmd və surəni, yaxud təkcə surəni oxuyub-oxumadığına şəkk edərsə, şəkkinə etina etməsin. Həmçinin, əgər ikinci rükətdə qunut oxuyarkən Həmd və surəni, yaxud təkcə surəni oxuyub-oxumadığına şəkk edərsə, şəkkinə etina etməsin.

**Məsələ 1431.** Əgər rüku, yaxud səcdələrdən sonra onun zikr və bədənin aramlığı kimi vacib hərəkətlərini yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, şəkkinə etina etməməlidir.

**Məsələ 1432.** Əgər namaz qılan səcdəyə gedərkən rüku edib-etmədiyinə şəkk edərsə, şəkkinə etina etməməlidir. Həmçinin, əgər səcdəyə gedərkən rükudan sonra ayağa qalxıb-qalxmadığına şəkk edərsə, şəkkinə etina etməsin.

**Məsələ 1433.** Əgər namaz qılan bir, yoxsa iki səcdə etdiyinə şəkk edərsə, həmin yerdə olduğu və sonrakı hərəkətə keçmədiyi təqdirdə daha bir səcdə etməlidir. Lakin əgər şəkk növbəti hərəkətə başladıqdan sonra yaranarsa və sonrakı hərəkətlə şəkk edilən əvvəlki hərəkət arasında şəriətə görə müəyyən ardıcıllıq olarsa, məsələn, artıq təşəhhüdü oxuyursa, yaxud növbəti rükətə qalxırsa, bu halda şəkkinə etina etməsin və namazını qılmağa davam etsin.

**Məsələ 1434.** Əgər ayağa qalxarkən səcdə, yaxud təşəhhüdü yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, şəkkinə etina etməməlidir.

**Məsələ 1435.** Əgər namaz qılan təşəhhüdün salavatını deyərkən onun şəhadəteynini deyib-demədiyinə şəkk edərsə, şəkkinə etina etməsin. Həmçinin, əgər salamı deyərkən təşəhhüdü, yaxud onun bir hissəsini oxuyub-oxumadığına şəkk edərsə, şəkkinə etina etməsin.

**Məsələ 1436.** Əgər namaz qılan namazın salamını deyib-demədiyinə şəkk edərsə, namazın təqibatı ilə, yaxud başqa namaz qılmaqla məşğul olduğu, yaxud namazla uyğunluğu olmayan bir iş gördüyü təqdirdə şəkkinə etina etməsin, bunlardan öncə şəkk etdiyi təqdirdə isə salamı deməlidir. Əgər salamın başa çatmasından sonra onu düzgün deyib-demədiyinə şəkk edərsə, hərçənd başqa bir işlə məşğul olmasa belə, şəkkinə etina etməsin.

**Məsələ 1437.** Əgər namaz qılan namaz əsnasında namazın niyyəti xüsusunda şəkkə düşərsə, həmin an namaz niyyətində olduğunu və şəkkinin öncəki hissələrə aid olduğunu bildiyi təqdirdə şəkkinə etina etməyərək namazını qılmağa davam etsin. Məsələn, rükuda olarkən sübh namazının niyyətində şəkk düşən və rükunu sübh namazı niyyəti ilə yerinə yetirdiyini bilən şəxs bu halda namazını qılmağa davam etməlidir və namazı doğrudur.

**Məsələ 1438.** Oturaq, yaxud uzanmış vəziyyətdə namaz qılan şəxs Həmd surəsini, yaxud təsbihatı oxuyarkən səcdə, yaxud təşəhhüdü yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, şəkkinə etina etməsin. Əgər Həmd surəsini, yaxud təsbihatı oxumazdan öncə səcdəni, yaxud təşəhhüdü yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, onu yerinə yetirməlidir.

**Məsələ 1439.** Əgər namaz qılan şəxs namazın rüknlərindən birini yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, ondan sonrakı bir hərəkətin icrasına başlamadığı təqdirdə həmin rüknü yerinə yetirməlidir. Məsələn, əgər təşəhhüdü oxumazdan öncə iki səcdəni edib-etmədiyinə şəkk edərsə, onları yerinə yetirməlidir. Sonradan həmin rüknü yerinə yetirdiyini xatırlayarsa, bir rükn artırıldığına görə, lazım ehtiyata əsasən, namazı batildir.

**Məsələ 1440.** Əgər rükn olmayan bir hərəkəti yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, ondan sonrakı bir hərəkətin icrasına başlamadığı təqdirdə onu yerinə yetirməlidir. Məsələn, əgər ikinci surəni oxumazdan öncə Həmd surəsini oxuyub-oxumadığına şəkk edərsə, Həmd surəsini oxumalıdır. Əgər yerinə yetirdikdən sonra əslində onu yerinə yetirdiyini xatırlayarsa, rükn artırılmadığına görə namazı doğrudur.

**Məsələ 1441.** Əgər insan bir rüknü yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, məsələn, təşəhhüd oxuyarkən iki səcdəni yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, şəkkinə etina etməməlidir. Sonradan həmin rüknü yerinə yetirmədiyini xatırladıqda isə növbəti rüknün icrasına başlamadığı təqdirdə onu yerinə yetirməlidir, sonrakı rüknün icrasına başladığı təqdirdə isə, lazım ehtiyata əsasən, namazı batildir. Məsələn, əgər sonrakı rükətin rükusundan öncə iki səcdəni yerinə yetirmədiyini xatırlayarsa, iki səcdəni yerinə yetirməli, rükuda, yaxud ondan sonra xatırladığı təqdirdə isə qeyd edildiyi kimi namazı batildir.

**Məsələ 1442.** Əgər namaz qılan rükn olmayan bir hərəkəti yerinə yetirib-yetirmədiyinə şəkk edərsə, ondan sonrakı hərəkətin icrasına başladığı təqdirdə şəkkinə etina etməsin. Məsələn, ikinci surəni oxuyarkən Həmd surəsini oxuyu-oxumadığına şəkk edərsə, şəkkinə etina etməsin. Əgər sonra onu yerinə yetirmədiyini xatırlayarsa, növbəti rüknün icrasına başlamadığı təqdirdə geri qayıdaraq onu və ondan sonra hərəkətləri icra etməli, növbəti rüknün icrasına başladığı təqdirdə isə namazı doğrudur. Buna əsasən, əgər namaz qılan, məsələn, vacib namazın qunutunda Həmd surəsini oxumadığını xatırlayarsa, Həmd və surəni oxumalıdır, rükuda xatırladığı təqdirdə isə namazı doğrudur.

## Salamdan sonrakı şəkk

**Məsələ 1443.** Əgər namaz qılan namazın salamından sonra namazı düzgün qaydada qılıb-qılmadığına şəkk edərsə, istər şəkk rükətlərin sayı ilə əlaqədar olsun, istər qiblə və təharət kimi namazın şərtləri ilə, istərsə rüku və səcdələr kimi namazın hissələri ilə, şəkkinə etina etməməlidir. Buna əsasən, əgər namaz qılan namazın salamından sonra rüku edib-etmədiyinə, yaxud namazı üzü qibləyə qılıb-qılmadığına şəkk edərsə, şəkkinə etina etməsin.

Həmçinin, əgər namaz qılan məğrib namazın salamından sonra üç, yoxsa dörd rükət namaz qıldığına şəkk edərsə, yaxud dördrəkətli namazın salamından sonra dörd, yoxsa beş rükət namaz qıldığına şəkk edərsə, şəkkinə etina etməsin.

Lakin əgər namaz qılan namazının kamil olmadığını bilirsə və şəkki namaz əsnasında yarandıqda namazı batil edən şəklərdəndirsə, məsələn, dördrükətli namazın salamından sonra üç, yoxsa beş rükət namaz qıldığına şəkk edərsə, namazı batildir. Ancaq əgər salamdan sonra namaz əsnasında yarandıqda döru şəklərdən sayılan bir şəkkə düşərsə, məsələn, dördrükətli namazın salamından sonra iki, yoxsa üç rükət qıldığına şəkk edərsə, bu halda namaz qılan vəziyyətindən çıxmadığı, yaxud qəsdən və ya səhvən edilməsi namazı batil edən bir hərəkətə yol vermədiyi təqdirdə namazda sayılır. Buna əsasən, üçüncü rükətdə olması ehtimalının üzərində dayanaraq daha bir rükət də qıla, sonra ehtiyat namazı qıla və yersiz salama görə, vacib ehtiyata əsasən, səhv səcdəsi edə bilər.

## Vaxt keçdikdən sonrakı şəkk

**Məsələ 1444.** Əgər namazın vaxtı keçdikdən sonra insan namazı qılıb-qılmadığına şəkk edərsə, yaxud qılmadığını güman edərsə, onu qılması vacib deyil. Lakin əgər vaxt başa çatmamış namazı qılıb-qılmadığına şəkk edərsə, qıldığını güman etsə də, həmin namazı qılmalıdır.

**Məsələ 1445.** Əgər vaxt keçdikdən sonra namazı doğru qılıb-qılmadığına şəkk edərsə, şəkkinə etina etməsin.

**Məsələ 1446.** Əgər əsr namazını qılmayan bir şəxs əsr namazına məxsus olan vaxtda zöhr namazını qılıb-qılmadığına şəkk edərsə, əsr namazını qılmalıdır və zöhr namazının qəzasını qılmasına gərək yoxdur. Ancaq əgər bir şəxs əsr namazının məxsus vaxtında zöhr və əsr namazlarını qılıb-qılmadığına şəkk edərsə, əsr namazını qılmalıdır və vacib ehtiyata əsasən, zöhr namazının qəzasını da qılmalıdır. Bu məsələdə izah edilən hökm məğrib və işa namazlarına da aiddir.

**Məsələ 1447.** Əgər zöhr və əsr namazlarının vaxtı keçdikdən sonra dörd rükət namaz qıldığını bilirsə, ancaq zöhr, yoxsa əsr niyyəti ilə qıldığını bilmirsə, ona vacib olan (ma fiz-zimmə) namaz niyyəti ilə dörd rükət namaz qılmalıdır.

**Məsələ 1448.** Əgər məğrib və işa namazlarının vaxtı keçdikdən sonra yalnız bir namaz qıldığını bilirsə, ancaq üç, yoxsa dördrükətlik namaz qıldığını bilmirsə, məğrib və işa namazlarının hər ikisinin qəzasını qılmalıdır.

## Şəkkakın (çox şəkk edən insanın) şəkki

**Məsələ 1449.** Şəkkak çox şəkk edən, yəni diqqət dağınıqlığının amillərinin mövcudluğu baxımından onunla eyni situasiyada olan şəxslərlə müqayisədə normal sayılan həddən artıq şəkk edən insandır.

Şəkkaklığın təyinində meyar ürfdür və şəkkaklıq yalnız çox şəkk etmək adətinə çevrilmiş insan demək deyil. Əksinə, insanın həddən ziyadə şəkk etmə təhlükəsi ilə qarşı-qarşıya olması da kafidir. Şəkkaklığın örnəklərindən biri belədir:

Əgər insan adi hallarda üç ardıcıl namazı onlardan ən azı birində şəkk etmədən qıla bilmirsə və bu vəziyyət daha iki dəfə təkrarlanırsa, dördüncü və sonrakı şəklərdə ürfən bu insanı şəkkak adlandırmaq olar və o, şəkkak üçün nəzərdə tutulmuş hökmlərə uyğun hərəkət etməlidir. Məsələn, əgər bir şəxs bir günün sübh, zöhr və əsr namazlarından təkcə sübh namazında şəkkə düşərsə, sonra növbəti üç namaz, yəni məğrib, işa və ikinci günün sübh namazı arasında təkcə birinci günün məğrib namazında şəkkə düşərsə, daha sonra yenə növbəti üç namaz, yəni ikinci günün zöhr, əsr və məğrib namazları arasında təkcə zöhr namazında şəkkə düşərsə, bundan sonra ikinci günün işa, yaxud üçüncü günün sübh və ya zöhr namazlarında şəkk etdiyi təqdirdə şəkkak sayılır və buna əsasən, şəkkinə etina etməməlidir.

Qeyd etmək lazımdır ki, bir şəxs bir namazda üç dəfə şəkk edərsə, yaxud üç ardıcıl namazın hər birində bir dəfə şəkkə düşərsə, bu qədər

şəkk şəkkak sayılmaq üçün kafi deyil. Bu hadisənin ürfün onu şəkkak hesab etməsi ilə nəticələnəcək qədər davam etməsi və təkrarlanması istisnadır.

Həmçinin, diqqətəlayiq bir məqam da ondan ibarətdir ki, dəstəmaz, qüsl və təyəmmüm məsələlərində şəkkaklıq eynilə namaz məsələsindəki şəkkaklıq kimidir. Buna əsasən, əgər insan adi hallarda aldığı hər üç dəstəmazdan birində şəkk düşürsə, məsələn, başına məsh edib-etmədiyinə şəkk edirsə və bu vəziyyət daha iki dəfə təkrarlanarsa, dördüncü və sonrakı şəklərdə bu insanı şəkkak hesab etmək olar və o, dəstəmazda şəkkak üçün nəzərdə tutulmuş hökmlərə uyğun hərəkət etməli, yəni şəkkinə etina etməyərək başına məsh etdiyi ehtimalının üzərində dayanmalıdır. Lakin əgər sonradan başına məsh etmədiyi məlum olarsa, dəstəmazı batildir və onunla qıldığı vacib namazı təkrarən qılmalı, vaxt keçdiyi təqdirdə isə qəzasını qılmalıdır.

**Məsələ 1450.** Şəkkak insan namazın hissələrindən birinin icrasında şəkkə düşərsə, onu yerinə yetirməsi ehtimalının üzərində dayanmalıdır. Məsələn, əgər rüku edib-etmədiyinə şəkk edirsə, hərçənd hələ növbəti hərəkətə keçməsə belə, rüku etdiyini düşünməlidir. Əgər namazı batil edən bir iş görməsi ilə bağlı şəkkə düşərsə, məsələn, sübh namazını iki, yoxsa üç rükət qıldığına şəkk edirsə, hərçənd hələ namazın salamını deməsə belə, iki rükət ehtimalının üzərində dayanmalıdır və namazı doğrudur.

**Məsələ 1451.** Namazla bağlı bir xüsusda şəkk edən, belə ki, yalnız həmin xüsusda şəkkak hesab edilən şəxsə şəkkak üçün nəzərdə tutulmuş hökmlər təkcə bu xüsusda şamil olunur, digər xüsuslarda isə o şəkkak sayılmır. Buna əsasən, namazın digər xüsuslarında şəkk etdiyi təqdirdə həmin şəkk ilə əlaqədar göstərişlərə uyğun hərəkət etməlidir. Məsələn, şəkkaklığı səcdəni yerinə yetirib-yetirməməsi xüsusunda olan bir şəxs rükunun icrasında şəkkə düşərsə, bununla bağlı göstərişə uyğun hərəkət etməli, yəni həmin yerdədirsə, məsələn, ayaq üstədirsə və hələ səcdəyə getməmişdirsə, rüku etməli, yeri keçdiyi, məsələn, səcdəyə getdiyi təqdirdə isə şəkkinə etina etməməlidir.

**Məsələ 1452.** Həmişə müəyyən bir namazda, məsələn, zöhr namazında həddən ziyadə şəkkə düşən, belə ki, şəkkaklığı yalnız bu namaza məxsus hesab edilən şəxsə yalnız həmin namaz xüsusunda şəkkak üçün nəzərdə tutulmuş hökmlər şamil olur, digər namazlarda isə şəkkak hesab edilmir. Buna əsasən, əgər başqa bir namazda, məsələn, əsr namazında şəkkə düşərsə, həmin şəkk ilə əlaqədar göstərişə uyğun hərəkət etməlidir.

**Məsələ 1453.** Yalnız müyyən bir yerdə namaz qılarkən həddən ziyadə şəkk edən şəxs öncəki məsələdə izah edildiyi kimi əgər başqa bir

yerdə namaz qəlarkən bir şəkkə düşərsə, həmin şəkk ilə əlaqədar göstərişə uyğun hərəkət etməlidir.

**Məsələ 1454.** Şəkkaklığın mənasını bilən şəxs şəkkak olub-olmadığına şəkk edirsə, şəkkak sayılmır və hər hansı bir şəkkə düşdüyü təqdirdə onunla bağlı göstərişə uyğun hərəkət etməlidir. Şəkkak olan insan normal insan vəziyyətinə qayıtdığına dair yəqinlik, yaxud arxayınlıq hasil edənədək şəkkinə etina etməməlidir.

**Məsələ 1455.** Şəkkakın namazın rükətlərinin, yaxud hərəkətlərinin sayını yadında saxlamaq üçün namazın rükətlərinin, yaxud səcdələrin sayını göstərən xüsusi möhürlərdən və ya namaz qılanın namazın rükətlərinin və hərəkətlərinin sayını yadında saxlaya bilməsinə yardım edən təsbeh, üzük, yaxud başqa bir vasitədən istifadə etməsi vacib deyil. Hərçənd, bu iş müstəhəb ehtiyata müvafiqdir.

**Məsələ 1456.** Həddən ziyadə şəkk edən şəxs əgər bir rüknü yerinə yetirib-yetirmədiyinə şəkk edərsə və şəkkinə etina etməzsə, sonra onu yerinə yetirmədiyini xatırlayarsa, sonrakı rüknün icra etmədiyi təqdirdə həmin rüknü və ondan sonrakı hərəkətləri yerinə yetirməlidir, sonrakı rüknü icra etdiyi təqdirdə isə, vacib ehtiyata əsasən, namazı batildir. Məsələn, əgər rüku edib-etmədiyinə şəkk edərsə və şəkkinə etina etməzsə, ikinci səcdədən öncə rüku etmədiyini xatırladığı təqdirdə geri qayıdaraq rüku etməlidir, ikinci səcdədə yadına düşdüyü təqdirdə isə, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 1457.** Həddən ziyadə şəkk edən şəxs rükn olmayan bir hərəkəti icra edib-etmədiyinə şəkk edərsə və şəkkinə etina etməzsə, sonradan onu yerinə yetirmədiyini xatırlayarsa, yeri keçmədiyi təqdirdə onu və ondan sonrakı hərəkətləri yerinə yetirməlidir və əgər yeri keçsə də namazı doğrudur. Məsələn, əgər vacib namazda Həmd surəsini oxuyub-oxumadığına şəkk edərsə və şəkkinə etina etməzsə, qunutda onu oxumadığını xatırladığı təqdirdə geri qayıdaraq Həmd və ikinci surəni oxumalıdır, rükuda yadına düşdüyü təqdirdə isə namazı doğrudur və onu qılmağa davam etməlidir.

## İmam və məmumun şəkki

**Məsələ 1458.** Əgər camaat namazının imamı namazın rükətlərinin sayında şəkkə düşərsə, məsələn, üç, yoxsa dörd rükət qıldığına şəkk edərsə, məmum dörd rükət qıldığına əmin olduğu, yaxud güman etdiyi və imama dörd rükət qıldığını başa saldığı təqdirdə imam namazı başa çatdırmalıdır və ehtiyat namazı qılmağa da gərək yoxdur. Həmçinin, əgər imam neçə rükət qıldığına əmindirsə, yaxud buna dair gümanı vardırsa, ancaq məmum namazın rükətlərinin sayında şəkk edirsə, şəkkinə etina etməməlidir.

Onların hər ikisinin namazın hərəkətləri, məsələn, səcdənin sayı ilə əlaqədar şəkləri də bu qəbildəndir. Buna əsasən, namazın hərəkətlərində imama tabe olduğunu və ondan fərqli hərəkət etmədiyini bilən bir məmum bir, yoxsa iki səcdə etdiyinə dair şəkkə düşərsə, imam iki səcdə etdiyinə əmin olduğu, yaxud iki səcdə etdiyini güman etdiyi təqdirdə şəkkinə etina etməməlidir.

## Müstəhəb namazda şəkk

**Məsələ 1459.** Etina edilməyən şəklərdən biri də müstəhəb namazın rükətlərinin sayındakı şəkdir. Bununla bağlı hökmlərin təfsilatı müstəhəb namazlar mövzusunda, 1863-cü məsələdə izah ediləcəkdir.

## Doğru şəklər

**Məsələ 1460.** On bir halda əgər namaz qılan dördrükətli namazın rükətlərinin sayında şəkkə düşərsə, düşünməli, ehtimallardan birinə əmin olduğu, yaxud onu güman etdiyi təqdirdə həmin ehtimala uyğun hərəkət etməli və namazı tamamlamalı, əks təqdirdə, şəkki dəyişməz qaldıqda isə izah ediləcək göstərişlərə uyğun hərəkət etməlidir. Bu on bir haldan bəziləri iki ehtimallı, bəziləri isə üç ehtimallı şəklərdir.

## İki və üç rükət arasında

**Məsələ 1461.** Əgər namaz qılan ikinci səcdənin başlamasından sonra iki, yoxsa üç rükət qıldığına şəkk edərsə, üç rükət qılması ehtimalının üzərində dayanmalı, bir rükət də qılaraq namazını başa çatdırmalı, namazdan sonra ayaq üstə bir rükət ehtiyat namazı qılmalıdır və vacib ehtiyata əsasən, ehtiyat namazını oturaq halda iki rükət qılması kafi deyildir.

Bu şəkk ikinci səcdənin başlamasından öncə, məsələn, ayaq üstə, rükuda, yaxud birinci səcdədə ikən və ya iki səcdə arasında yarandığı təqdirdə namaz batildir.

## İki və dörd rükət arasında

**Məsələ 1462.** Əgər namaz qılan ikinci səcdənin başlamasından sonra ikinci, yoxsa dördüncü rükətdə olduğuna şəkk edərsə, dördüncü rükətdə olması ehtimalının üzərində dayanaraq namazı tamamlamalı və namazdan sonra ayaq üstə iki rükət ehtiyat namazı qılmalıdır. Bu şəkk ikinci səcdənin başlamasından öncə (məsələn, ayaq üstə, yaxud rükuda ikən və ya iki səcdə arasında) yarandığı təqdirdə isə namaz batildir.

## Üç və dörd rükət arasında

**Məsələ 1463.** Əgər namaz qılan üç, yoxsa dördüncü rükətdə olduğuna şəkk edərsə, namazın hansı yerində olursa-olsun, dördüncü rükətdə olması ehtimalının üzərində duraraq namazı tamamlamalıdır və namazdan sonra ayaq üstə bir rükət, yaxud oturaq halda iki rükət ehtiyat namazı qıla bilər. Hərçənd, müstəhəb ehtiyatın tələbi oturaq halda iki rükət ehtiyat namazını seçməsidir.

## Ayaq üstə üç və beş rükət arasında

**Məsələ 1464.** Əgər namaz qılan ayaq üstə üçüncü, yoxsa beşinci rükətdə olduğuna şəkk edərsə, oturmalı, təşəhhüd oxumalı, namazın salamını deməli və bu halda iki və dörd rükət arasındakı şəkkə dair göstərişə uyğun hərəkət etməli, yəni ayaq üstə iki rükət ehtiyat namazı qılmalıdır. Bu şəkk rükuda, yaxud rükudan sonra və ya oturarkən yarandığı təqdirdə isə namaz batildir.

## Ayaq üstə dörd və beş rükət arasında

**Məsələ 1465.** Əgər namaz qılan ayaq üstə dördüncü, yoxsa beşinci rükətdə olduğuna şəkk edərsə, oturmalı, təşəhhüd oxumalı, namazın salamını deməli və bu halda üç və dörd rükət arasındakı şəkkə dair göstərişə uyğun hərəkət etməlidir. Yəniayaq üstə bir rükət, yaxud oturaq halda iki rükət ehtiyat namazı qıla bilər. Hərçənd, müstəhəb ehtiyatın tələbi oturaq halda iki rükət ehtiyat namazını seçməsidir.

## Oturaq halda dörd və beş rükət arasında şəkk

**Məsələ 1466.** Əgər namaz qılan ikinci səcdənin başlamasından sonra dördüncü, yoxsa beşinci rükətdə olduğuna şəkk edərsə, dördüncü rükətdə olması ehtimalının üzərində dayanaraq namazı tamamlamalı və namazdan sonra səhv səcdəsi etməlidir. Ümumiyyətlə, qarşıda izah ediləcəyi kimi bu hökm şəkkin az olan tərəfini təşkil edən ehtimalın dörd rükət olduğu bütün hallara, məsələn, dörd və altı rükət arasındakı şəkkə da şamildir.

Qeyd etmək lazımdır ki, bu şəkk rükuda, rükudan sonra, birinci səcdədə və ya iki səcdə arasında, bir sözlə ikinci səcdənin başlamasından öncə yarandığı təqdirdə namaz batildir.

## Oturaq halda dörd və altı rəkət arasında şəkk

**Məsələ 1467.** Əgər namaz qılan ikinci səcdənin başlamasından sonra dördüncü, yoxsa altıncı rükətdə olduğuna şəkk edərsə, dördüncü rükətdə olması ehtimalının üzərində dayanaraq namazı tamamlamalı və namazdan sonra səhv səcdəsi etməlidir.

Qeyd etmək lazımdır ki, bu şəkk ayaq üstə, rükuda, rükudan sonra, birinci səcdədə və ya iki səcdə arasında, bir sözlə ikinci səcdənin başlamasından öncə yarandığı təqdirdə namaz batildir.

## Ayaq üstə beş və altı rükət arasında şəkk

**Məsələ 1468.** Əgər namaz qılan ayaq üstə beşinci, yoxsa altıncı rükətdə olduğuna şəkk edərsə, oturmalı, təşəhhüd oxumalı, sonra salam deməli və dörd və beş rükət arasındakı şəkkə dair göstərişə uyğun hərəkət etməli, yəni namazdan sonra səhv səcdəsi etməlidir.

## İki, üç, dörd və beş rükət arasında şəkk

**Məsələ 1469.** Əgər namaz qılan ikinci səcdənin başlamasından sonra ikinci, üçüncü, dördüncü, yoxsa beşinci rükətdə olduğuna şəkk edərsə, dördüncü rükətdə olması ehtimalının üzərində dayanmalı və namazdan sonra iki rükət ayaq üstə, sonra iki rükət də oturaq halda ehtiyat namazı qılmalıdır.

Qeyd etmək lazımdır ki, bu şəkk ayaq üstə, rükuda, rükudan sonra, birinci səcdədə və ya iki səcdə arasında, bir sözlə ikinci səcdənin başlamasından öncə yarandığı təqdirdə namaz batildir.

## Ayaq üstə üç, dörd və beş rükət arasında şəkk

**Məsələ 1470.** Əgər namaz qılan ayaq üstə üçüncü, dördüncü, yoxsa beşinci rükətdə olduğuna şəkk edərsə, oturmalı, təşəhhüd oxumalı və namazın salamından sonra iki, üç və dörd rükət arasındakı şəkkə dair göstərişə uyğun qaydada hərəkət etməli, yəni iki rükət ayaq üstə, daha sonra iki rükət də oturaq halda ehtiyat namazı qılmalıdır.

## Oturaq halda üç, dörd və beş rükət arasında şəkk

**Məsələ 1471.** Əgər namaz qılan ikinci səcdənin başlamasından sonra üçüncü, dördüncü, yoxsa beşinci rükətdə olduğuna şəkk edərsə, üç və dörd rükət, həmçinin, dörd və beş rükət arasındakı şəkkə dair göstərişə uyğun hərəkət etməli, yəni ayaq üstə bir rükət, yaxud oturaq halda iki rükət ehtiyat namazı qılmalı, sonra səhv səcdəsi etməlidir. Ümumiyyətlə, istənilən halda namaz qılan ikinci səcdənin başlamasından sonra dörd və daha az, yaxud daha çox rükət arasında şəkk edərsə, vaxt geniş olduğu təqdirdə dördüncü rükətdə olması ehtimalının üzərində dayanaraq hər iki şəkk ilə bağlı göstərişə əməl edə, yəni həm dörd rükətdən az qılması ehtimalına görə ehtiyat namazı qıla, həm də dörd rükətdən artıq qılması ehtimalına görə namazdan sonra səhv səcdəsi edə bilər.

Qeyd etmək lazımdır ki, bu şəkk rükuda, rükudan sonra, birinci səcdədə və ya iki səcdə arasında, bir sözlə ikinci səcdənin başlamasından öncə yarandığı təqdirdə namaz batildir.

**Məsələ 1472.** Namaz qılanın qiyam halından oturaq hala keçməli olduğu doğru şəklərdə, məsələn, ayaq üstə dörd və beş rükət arasında şəkk etdikdə, müstəhəb ehtiyata əsasən, namaz qılan yersiz qiyam üçün səhv səcdəsi etməlidir.

## Doğru şəklər ilə əlaqədar digər hökmlər

**Məsələ 1473.** Əgər insanda doğru şəklərdən biri yaranarsa, namazın vaxtı yenidən başlaya bilməyəcəyi qədər məhdud olduğu təqdirdə namazı dayandırmamalı, izah edilən göstərişlərə uyğun qaydada hərəkət etməməlidir. Lakin əgər namazın vaxtı geniş olarsa, namazı dayandıraraq yenidən başlaya, yaxud dayandırmayaraq yaranan şəkkə dair göstərişə müvafiq qaydada hərəkət edə bilər.

**Məsələ 1474.** Oturaq halda namaz qılan şəxs bir rükət ayaq üstə, yaxud iki rükət oturaq halda ehtiyat namazı qılmalı olduğu bir şəkkə düşərsə, bir rükət oturaq halda namaz qılmalıdır. Əgər ayaq üstə iki rükət ehtiyat namazı qılmalı olduğu bir şəkkə düşərsə, oturaq halda iki rükət namaz qılmalıdır.

**Məsələ 1475.** Vəzifəsi oturaq halda namaz qılmaq olan şəxs ehtiyat namazı qılarkən ayaq üstə dura bilirsə,ayaq üstə namaz qılan şəxs üçün nəzərdə tutulmuş göstərişə əməl etməlidir.

**Məsələ 1476.** Ayaq üstə namaz qılan şəxs ehtiyat namazını qılarkən ayaq üstə durmaq imkanını itirərsə, ehtiyat namazını namazı oturaq halda qılan şəxs kimi, 1474-cü məsələdə izah edilən qaydada qılmalıdır.

**Məsələ 1477.** Əgər namazda ehtiyat namazının qılınmasını vacib edən bir şəkk yaranarsa, insan namazı başa çatdıraraq onu yenidən qılmaq istədiyi təqdirdə, müstəhəb ehtiyata əsasən, yenə də ehtiyat namazı qılmalı və onu qılmadan namazı təkrarən qılmamalıdır. Əgər namazı batil edən bir iş görmədən və ehtiyat namazı qılmadan həmin namazı təkrarən qılarsa, vacib ehtiyata əsasən, ikinci namazı da batildir. Lakin əgər namazı batil edən bir iş gördükdən sonra onu yenidən qılarsa, ikinci namazı doğrudur. (Təbii ki, əgər vaxt məhdud olarsa, ehtiyat namazı ilə bağlı göstərişə uyğun hərəkət etməlidir ki, namazı vaxtında qılınmış sayılsın. )

**Məsələ 1478.** İnsanda batil edən şəklərdən biri yarandıqda və sonrakı hala keçəcəyi təqdirdə yəqinlik, yaxud güman hasil edəcəyini bildikdə onun batil edən şəkki namazın ilk iki rükətində olduğu halda şəkdə ikən namazı davam etdirə bilməz. Məsələn, əgər rükuda bir, yoxsa daha

artıq rükət qıldığına dair şəkkə düşərsə və rükudan qalxdığı təqdirdə ehtimallardan birinə dair onda əminlik, yaxud güman yaranacağını bilirsə, bu halda başını rükudan qaldıra bilməz. Ancaq digər batil edən şəklərdə ehtimallardan birinə dair əminliyin, yaxud gümanın yaranması üçün namazını davam etdirə bilər.

**Məsələ 1479.** Əgər insanda yaranan şəkk aradan gedər və onda başqa bir şəkk yaranarsa, məsələn, əvvəl iki, yoxsa üç rükət qıldığına, sonra üç, yoxsa dörd rükət qıldığına şəkk edərsə, ikinci şəkkə dair göstərişə əməl etməlidir.

**Məsələ 1480.** Əgər ayağa qalxdıqdan sonra, yaxud qalxarkən iki səcdəni yerinə yetirib-yetirmədiyinə şəkk edərsə və bu zaman onda alnı ikinci səcdə üçün möhürə qoyduqdan sonra baş verəcəyi təqdirdə doğru olan şəklərdən biri yaranarsa, məsələn, iki, yoxsa üç rükət qıldığına şəkk edərsə, həmin (iki və üç rükət arasında) şəkkə dair göstərişə əməl etdiyi halda namazı doğrudur. Lakin təşəhhüd oxuyarkən səcdələrin sayında şəkk ilə yanaşı həmin şəklərdən biri yarandığı təqdirdə əgər şəkki iki və üç rükət arasında olarsa, namazı batildir, iki və dörd, yaxud iki, üç və dörd rükət arasında olarsa, namazı doğrudur və bu şəkkə dair göstərişə əməl etməlidir.

**Məsələ 1481.** Əgər təşəhhüdü oxumağa başlamazdan, yaxud təşəhhüdü olmayan rükətlərdə ayağa qalxmağa başlamazdan öncə bir, yaxud hər iki səcdəni etdiyinə dair şəkkə düşərsə və bu zaman onda alnı ikinci səcdə üçün möhürə qoyduqdan sonra baş verəcəyi təqdirdə doğru olan şəklərdən biri yaranarsa, namazı batildir.

**Məsələ 1482.** Əgər rükudan öncə ayaq üstə ikən üçüncü, yoxsa dördüncü rükətdə olduğuna və ya üçüncü, dördüncü, yoxsa beşinci rükətdə olduğuna şəkk edərsə və əvvəlki rükətin bir, yaxud iki səcdəsini yerinə yetirmədiyini xatırlayarsa, namazı batildir.

**Məsələ 1483.** Əgər namazdan sonra onda namaz əsnasında bir şəkk yarandığını başa düşərsə, lakin batil edən, yoxsa doğru şəklərdən olduğunu bilməzsə, namazı yenidən qılmalıdır. Əgər doğru şəklərdən olduğunu bilərsə, lakin hansı hal olduğunu bilməzsə, namazı yenidən qıla bilər. Hərçənd, bütün doğru şəklərə dair göstərişlərə də əməl edə bilər və bu halda namazı yenidən qılmasına gərək yoxdur. (Əlbəttə, əgər vaxt dar olarsa, bunlardan daha az vaxt tələb edənini seçməlidir. )

## Namazda güman ilə əlaqədar hökmlər

**Məsələ 1484.** Vacib namazda namazın rükətləri ilə bağlı gümana dair hökm yəqinlik hökmü kimidir. Buna əsasən, məsələn, əgər namaz qılan sübh, məğrib, yaxud işa namazında bir, yoxsa iki rükət qıldığını bilmirsə

və iki rükət qıldığını güman edirsə, iki rükət qılması ehtimalının üzərində durmalıdır və namazı doğrudur. Əgər dördrükətli namazda dörd rükət qıldığını güman edərsə, ehtiyat namazı qılmasına gərək yoxdur.

**Məsələ 1485.** Əgər namaz qılan rükətlərin sayı xüsusunda əvvəlcə gümanı bir ehtimalın doğruluğu yönündə olarsa, sonra onun nəzərində hər iki ehtimal bərabərləşərsə, şəkk ilə əlaqədar göstərişlərə uyğun hərəkət etməlidir. Əgər əvvəlcə iki ehtimal bərabər olarsa və onlardan vəzifəsinə uyğun olanın ehtimalın üzərində dayanarsa, sonra onda digər ehtimalın doğruluğu yönündə güman yaranarsa, həmin ehtimalı seçməli və namazını başa çatdırmalıdır.

**Məsələ 1486.** Namazın rükətlərinin sayı ilə bağlı ehtimallardan biri yönündə gümanı olduğunu, yoxsa hər iki ehtimalın öz nəzərində bərabər olduğunu bilməyən, başqa sözlə, özündə yaranan halın şəkk, yoxsa güman olması xüsusunda tərəddüd edən şəxs şəkk göstərişinə əməl etməlidir.

**Məsələ 1487.** Əgər namaz qılan namazdan sonra namaz əsnasında, məsələn, ikinci, yoxsa üçüncü rükətdə olduğuna tərəddüd etdiyini və üç ehtimalının üzərində dayandığını bilirsə, lakin gümanının üçüncü rükətdə olması yönündə olduğunu, yoxsa hər iki ehtimalın onun nəzərində bərabər olduğunu bilmirsə, ehtiyat namazı qılması lazım deyil.

**Məsələ 1488.** Namazın hərəkətlərinə dair gümana şəkk hökmü şamil olunur və bu hökmdə vacib və müstəhəb namaz arasında fərq yoxdur. Beləliklə, əgər namaz qılan iki səcdə etdiyini güman edirsə, hələ yerində olduğu və növbəti hərəkətə keçmədiyi təqdirdə daha bir səcdə etməlidir. Şəriətə görə səcdələrlə arasında müəyyən ardıcıllıq olan növbəti hərəkətə keçdiyi, məsələn, təşəhhüd oxumaqla məşğul olduğu, yaxud növbəti rükət üçün ayağa qalxdığı təqdirdə isə iki səcdə etməsi ehtimalının üzərində durmalıdır. Həmçinin, əgər rüku etdiyini güman edirsə, hələ yerində olduğu və növbəti hərəkətə keçmədiyi təqdirdə rüku etməlidir. Şəriətə görə rüku ilə arasında müəyyən ardıcıllıq olan növbəti hərəkətə keçdiyi, məsələn, “Səmiəllahu limən həmidəh” zikrini deməklə məşğul olduğu, yaxud səcdəyə getdiyi təqdirdə isə gümanına etina etməməli və rüku etməsi ehtimalının üzərində durmalıdır. Əgər Həmd surəsini oxuduğunu güman edirsə, ikinci surənin qiraətinə başladığı təqdirdə gümanına etina etməməlidir və namazı doğrudur. İkinci surənin qiraətinə başlamadığı təqdirdə isə Həmd surəsini oxumalıdır.

**Məsələ 1489.** Namazın hərəkətləri xüsusunda ehtimallardan birinin yüksək olması yönündə gümanı olduğunu, yoxsa hər iki ehtimalın onun nəzərində bərabər olduğunu bilməyən şəxs şəkk göstərişinə əməl etməlidir.

**Məsələ 1490.** Şəkk, səhv və güman ilə bağlı hökmlər xüsusunda gündəlik vacib namazlarla digər vacib namazlar arasında fərq yoxdur. Məsələn, əgər insan ayat namazında birinci, yoxsa ikinci rükətdə olduğuna dair şəkkə düşərsə, şəkki ikirükətli namazda olduğuna görə namazı batil olur. Lakin əgər birinci, yoxsa ikinci rükətdə olmasına dair tərəddüdü varsa, ancaq ikinci rükətdə olduğunu güman edirsə, gümanına uyğun hərəkət edərək namazını başa çatdırmalıdır.

# EHTİYAT NAMAZI

## Ehtiyat namazının qılınma qaydası

**Məsələ 1491.** Ehtiyat namazı qılması vacib olan şəxs namazın salamından sonra dərhal ehtiyat namazının niyyətini edərək təkbirət əl-ehramını deməli, sonra Həmd surəsini oxuyaraq rükuya getməli və iki səcdə etməli, ona bir rükət ehtiyat namazı vacib olduğu təqdirdə təşəhhüd oxuyaraq salamı deməli, iki rükət ehtiyat namazı vacib olduğu təqdirdə isə iki səcdədən sonra birinci rükət kimi daha bir rükət də qılmalı və təşəhhüddən sonra salamı deməlidir.

**Məsələ 1492.** Ehtiyat namazında ikinci surə və qunut yoxdur və namaz qılan, vacib ehtiyata əsasən, onun niyyətini dillə ifadə etməməlidir. Həmçinin, vacib ehtiyata əsasən, Həmd surəsini ahəstə səslə oxumalı, müstəhəb ehtiyata əsasən, “Bismillahir-rəhmanir-rəhim”ini də ahəstə səslə deməlidir.

**Məsələ 1493.** Ehtiyat namazı namazın özünə birləşdirilərək, namazı batil edən hərəkətlərə yol verilmədən qılınır. İnsan namazın özü ilə ehtiyat namazı arasında qəsdən namazı pozan hərəkətlərdən birinə yol verərsə, vacib ehtiyata əsasən, ehtiyat namazı doğru deyil və onu qılması ilə kifayətlənə bilməz.

**Məsələ 1494.** Əgər namaz qılan ehtiyat namazını qılmazdan öncə qıldığı namazın doğru olduğunu başa düşərsə, ehtiyat namazını qılmasına gərək yoxdur və ehtiyat namazının ortasında başa düşərsə, onu başa çatdırmasına gərək yoxdur.

**Məsələ 1495.** Əgər namaz qılan ehtiyat namazını qılmazdan öncə namazının rükətlərinin sayının əskik olduğunu başa düşərsə, namazı batil edən bir hərəkətə yol vermədiyi təqdirdə namazın qılınmayan hissəsini qılmalı və yersiz salama görə, lazım ehtiyata əsasən, səhv səcdəsi etməli, namazı batil edən bir hərəkətə yol verdiyi, məsələn, arxasını qibləyə çevirdiyi təqdirdə isə namazı yenidən qılmalıdır.

**Məsələ 1496.** Əgər ehtiyat namazından sonra namazının əskik hissəsinin ehtiyat namazı qədər olduğunu başa düşərsə, məsələn, namaz qılan üç və dörd rükət arasındakı şəkdə dörd ehtimalının üzərində dayanaraq bir rükət ehtiyat namazı qılarsa və sonra namazı üç rükət qıldığını başa düşərsə, namazı doğrudur.

**Məsələ 1497.** Əgər ehtiyat namazını qıldıqdan sonra namazının əskik hissəsinin ehtiyat namazından az olduğunu başa düşərsə, məsələn, namaz qılan iki və dörd rükət arasındakı şəkdə dörd ehtimalının üzərində

dayanaraq iki rükət ehtiyat namazı qılarsa və sonra namazı üç rükət qıldığını başa düşərsə, namazı yenidən qılmalıdır.

**Məsələ 1498.** Əgər ehtiyat namazını qıldıqdan sonra namazının əskik hissəsinin ehtiyat namazından çox olduğunu başa düşərsə, məsələn, namaz qılan üç və dörd rükət arasındakı şəkdə dörd ehtimalının üzərində dayanaraq bir rükət ehtiyat namazı qılarsa və sonra namazı iki rükət qıldığını başa düşərsə, ehtiyat namazından sonra namazı batil edən bir iş gördüyü, məsələn, arxasını qibləyə çevirdiyi təqdirdə namazı yenidən qılmalı, namazı batil edən bir iş görmədiyi təqdirdə də, lazım ehtiyata əsasən, namazını yenidən qılmalı və namaza birləşdirilərək qılınan bir rükətin əlavə edilməsi ilə kifayətlənməməlidir.

**Məsələ 1499.** Əgər iki, üç və dörd rükət arasında şəkk edərsə və ayaq üstə iki rükət ehtiyat namazı qıldıqdan sonra namazı iki rükət qıldığını xatırlayarsa, oturaq halda iki rükət ehtiyat namazını daqılmasına gərək yoxdur.

**Məsələ 1500.** Əgər üç və dörd rükət arasında şəkk edərsə və ayaq üstə birrükətli ehtiyat namazını qılarkən namazı üç rükət qıldığını xatırlayarsa, ehtiyat namazını dayandırmalı və ehtiyat namazının rükusunun başlamasından öncə xatırladığı təqdirdə namaza birləşdirmə surəti ilə bir rükət əlavə etməlidir. Bu halda namazı doğru sayılır və artıq salama görə, lazım ehtiyata əsasən, səhv səcdəsi etməlidir. Ancaq ehtiyat namazının rükusuna başladıqdan sonra xatırladığı təqdirdə namazı yenidən qılmalıdır və vacib ehtiyata əsasən, qalan bir rükəti əlavə etməklə kifayətlənə bilməz.

**Məsələ 1501.** Əgər iki, üç və dörd rükət arasında şəkk edərsə və ayaq üstə ikirükətli ehtiyat namazını qılarkən namazı üç rükət qıldığını xatırlayarsa, öncəki məsələdə izah edilənlərin bənzəri bu vəziyyətə də şamildir.

**Məsələ 1502.** Əgər ehtiyat namazı əsnasında namazının əskik hissəsinin ehtiyat namazından çox, yaxud az olduğunu başa düşərsə, bu vəziyyətlə bağlı hökm 1500-cü məsələdə izah edilən kimidir.

**Məsələ 1503.** Ehtiyat namazı əsil namazın hissələri kimidir. Beləliklə, əgər namaz qılan ehtiyat namazında bir rükət yerinə iki rükət qılarsa, ehtiyat namazı batil olur və namazın özünü yenidən qılmalıdır. Əgər namaz qılan qəsdən ehtiyat namazında bir rüknü əskik edər, yaxud artırarsa, həmçinin, əgər bir rüknü əskik edərsə və onu yetirmək fürsəti olan yer keçərsə, namazı batil olur. Əgər namaz qılan ehtiyat namazında bir rüknü səhvən əlavə edərsə, lazım ehtiyata əsasən, namazı batil olur.

## Ehtiyat namazında şəkk və səhv ilə əlaqədar hökmlər

**Məsələ 1504.** Əgər namaz qılan qılması vacib olan ehtiyat namazını qılıb-qılmadığına şəkk edərsə, namazın vaxtı keçdiyi təqdirdə şəkkinə etina etməsin. Vaxt qaldığı təqdirdə isə şəkk ilə namazın arası çox çəkmədiyi, başqa bir iş görmədiyi və üzü qiblədən çevirmək kimi namazı batil edən bir hərəkətə yol vermədiyi halda ehtiyat namazını qılmalı, namazı batil edən bir hərəkətə yol verdiyi, yaxud başqa bir işə başladığı və ya namazla şəkkin arası çox çəkdiyi halda, lazım ehtiyata əsasən, namazı yenidən qılmalıdır.

**Məsələ 1505.** Əgər ehtiyat namazının rükətlərinin sayında şəkkə düşərsə, çox sayı dəstəkləyən ehtimal namazı batil etdiyi təqdirdə az sayı dəstəkləyən ehtimalın üzərində dayanmalı, çox sayı dəstəkləyən ehtimal namazı batil etmədiyi təqdirdə isə bu ehtimalın üzərində dayanmalıdır. Məsələn, ikirəkətli ehtiyat namazını qılarkən ikinci, yoxsa üçüncü rükətdə olduğuna şəkk edərsə, çox sayı dəstəkləyən ehtimal namazı batil etdiyinə görə ikinci rükətdə olması ehtimalının üzərində dayanmalıdır. Birinci, yoxsa ikinci rükətdə olduğuna şəkk edərsə, çox sayı dəstəkləyən ehtimal namazı batil etmədiyinə görə ikinci rükətdə olması ehtimalının üzərində dayanmalıdır. Həmçinin, birrükətli ehtiyat namazı qılarkən bir, yoxsa iki rükət qıldığına şəkk edərsə, bir rükət qılması ehtimalının üzərində dayanmalıdır.

**Məsələ 1506.** Ehtiyat namazını qılarkən onun hərəkətlərindən hər hansı biri xüsusunda şəkkə düşərsə, həmin hərəkətin yeri keçmədiyi təqdirdə onu yerinə yetirməli, yeri keçdiyi təqdirdə isə şəkkinə etina etməməlidir. Məsələn, əgər Həmd surəsini oxuyub-oxumadığına şəkk edərsə, rükuya getmədiyi təqdirdə onu oxumalı, rükuya getdiyi təqdirdə isə şəkkinə etina etməməlidir. Buna əsasən, ehtiyat namazının hərəkətlərində şəkkə dair hökmlər namazın özünün hərəkətlərində şəkkə dair hökmlər kimidir.

**Məsələ 1507.** Əgər ehtiyat namazının salamından sonra onun hissələrindən və şərtlərindən birini icra edib-etmədiyinə şəkk edərsə, şəkkinə etina etməsin.

**Məsələ 1508.** Əgər ehtiyat namazında rükn olmayan bir şeyi səhvən yerinə yetirməz, yaxud artıq yerinə yetirərsə, səhv səcdəsi etməsinə gərək yoxdur.

**Məsələ 1509.** Əgər ehtiyat namazında təşəhhüdü, yaxud bir səcdəni unudarsa və onu öz yerində icra etmək mümkün olmazsa, vacib ehtiyata əsasən, namazın salamından sonra səcdənin qəzasını yerinə yetirməlidir. Lakin təşəhhüdün qəzası lazım deyil. Həmçinin, unudulmuş təşəhhüd

üçün səhv səcdəsi etməyə də gərək yoxdur. Hərçənd, səhv səcdəsinin edilməsi müstəhəb ehtiyata müvafiqdir.

**Məsələ 1510.** Əgər namaz qılana ehtiyat namazı və səhv səcdəsi vacib olarsa, əvvəlcə ehtiyat namazını qılmalıdır. Həmçinin, vacib ehtiyata əsasən, insana ehtiyat namazı və səcdənin qəzası vacib olduqda da əvvəlcə ehtiyat namazını qılmalıdır.

## Səhv səcdəsi

Əgər namaz qılan namazda səhv edər, yaxud bir şeyi unudarsa, bəzi hallarda fətvaya, yaxud vacib ehtiyata əsasən, gələcəkdə izah ediləcək qaydada səhv səcdəsi etməlidir.

## Səhv səcdəsinin halları

**Məsələ 1511.** Namaz qılan iki halda namazın salamından sonra səhv səcdəsi etməlidir:

1) unudulmuş təşəhhüdə görə;
2) dörd və beş rükət arasında, yaxud onunla eyni hökmün şamil olunduğu şəkkə görə.

Həmçinin, namaz qılan üç halda namazın salamından sonra, vacib ehtiyata əsasən, gələcəkdə izah ediləcək qaydada səhv səcdəsi etməlidir:

1) yersiz danışıq görə;
2) yersiz salam görə;
3) namazın hərəkət və ya hissələrinin səhvən əskildilməsi, yaxud artırılmasına dair icmal məlumata görə.

## Səhv səcdəsinin lazım olduğu hallar (fətvaya, yaxud vacib ehtiyata əsasən)

**Unudulmuş təşəhhüdə görə**

**Məsələ 1512.** Əgər namaz qılan namazın təşəhhüdünü unudarsa və bu unutma namazın şəriətə görə icrasına başladıqda geri qayıdaraq təşəhhüdü oxuya bilməyəcəyi bir hissəsiniyerinə yetirənədək davam edərsə, qarşıda izah ediləcək qaydada səhv səcdəsi etməlidir. Məsələn, əgər namaz qılan zöhr namazının ikinci rükətində təşəhhüdü oxumağı unudarsa və bunu üçüncü rükətin rükusunda, yaxud daha sonra xatırlayarsa, geri qayıdaraq təşəhhüdü oxuya bilməyəcəyinə görə namazın salamından sonra səhv səcdəsi etməsi vacibdir.

Lakin namazın şəriətə görə icrasına başladıqda geri qayıdaraq təşəhhüdü oxuya bilməyəcəyi bir hissəsini yerinə yetirməyə başlamadığı təqdirdə, məsələn, üçüncü rükətin təsbihat-i ərbəəsini oxuyarkən

təşəhhüdü oxumadığını başa düşərsə, bu halda oturmalı və təşəhhüdü oxumalı, sonra üçüncü rükət üçün ayağa qalxmalı, təsbihat-i ərbəəni yenidən oxumalı və namaza davam etməlidir. Həmçinin, müstəhəb ehtiyata əsasən, bu halda yersiz qiyam üçün iki səhv səcdəsi etməlidir.

**Dörd və beş rükət arasında, yaxud onunla eyni hökmün şamil olunduğu şəkkə görə**

**Məsələ 1513.** Əgər namaz qılan dördrəkətli namazda ikinci səcdənin başlamasından sonra dördüncü, yoxsa beşinci rükətdə olduğuna şəkk edərsə və ya dördüncü, yoxsa altıncı rükətdə olduğuna şəkk edərsə, dördüncü rükətdə olması ehtimalının üzərində dayanaraq namazını başa çatdırmalıdır və namazın salamından sonra səhv səcdəsi etməsi vacibdir.

**Yersiz danışığa görə**

**Məsələ 1514.** Əgər namaz qılan namaz əsnasında səhvən danışarsa və zikr sayılmayan bir söz söyləyərsə, məsələn, səhvən, yaxud namazın başa çatdığını zənn edərək kiminləsə danışarsa, yaxud bir söz deyərsə, namazın salamından sonra, vacib ehtiyata əsasən, qarşıda izah ediləcək qaydada səhv səcdəsi etməlidir. Məsələn, əgər mükəlləf məğrib namazı əsnasında səhvən, yaxud namazının başa çatdığını zənn edərək danışarsa və məsələn: "Ya Hüseyn!" – deyərsə, vacib ehtiyata əsasən, namazın salamından sonra səhv səcdəsi etməlidir.

**Məsələ 1515.** Əgər namaz qılan zikr, dua, yaxud Quran oxumaq istəyərsə, lakin səhvən onu yanlış surətdə oxuyarsa, oxuduğu şey zikr, dua, yaxud Quran sayılmayacaq şəkildə olmadığı təqdirdə səhv səcdəsi vacib deyil, əks təqdirdə isə, vacib ehtiyata əsasən, səhv səcdəsi etməlidir. Əgər səhvən yanlış oxuduğu şey namazın vacibatından olarsa və hələ onu düzgün oxumaq imkanı olan yerdə olarsa, onu yenidən düzgün tərzdə oxumalıdır. Dil sürüşməsinə (insanın bir sözü demək istəyərkən qeyri-ixtiyari olaraq başqa bir sözün dilinə gəlməsi kimi bir növ danışıq xətası) də, vacib ehtiyata əsasən, səhv hökmü şamil olunur.

**Məsələ 1516.** Əgər namaz qılan namazda səhvən bir müddət danışarsa və danışdıqlarının hamısı bir səhvdən qaynaqlanarsa, namazın salamından sonra qarşıda izah ediləcək qaydada bir dəfə səhv səcdəsi etməsi kifayətdir.

**Məsələ 1517.** Öskürmə nəticəsində çıxan səs üçün səhv səcdəsi etmək vacib deyil. Lakin əgər səhvən nalə edərsə, yaxud ah çəkərsə və ya "ah" deyərsə, vacib ehtiyata əsasən, səhv səcdəsi etməlidir.

**Yersiz salama görə**

**Məsələ 1518.** Əgər namaz qılan namazın salamını deməli olmadığı bir yerdə, məsələn, birinci rükətdə səhvən salamı deyərsə, namazdan sonra, vacib ehtiyata əsasən, yersiz salama görə səhv səcdəsi etməlidir.

**Məsələ 1519.** Əgər namaz qılan namazın salamını deməli olmadığı bir yerdə, səhvən: "Əs-səlamu əleyna və əla ibadillahis-salihin", – deyərsə, yaxud: "Əs-səlamu əleykum", - deyərsə, hərçənd "və rəhmətullahi və bərəkatuh"u deməsə belə, lazım ehtiyata əsasən, səhv səcdəsi etməlidir. Həmçinin, əgər salamın iki, yaxud daha artıq hərfini səhvən tələffüz edərsə, vacib ehtiyata əsasən, səhv səcdəsi etməlidir. Lakin əgər səhvən: "Əs-səlamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh" - deyərsə, səhv səcdəsini etməsi müstəhəb ehtiyatın tələbidir.

**Məsələ 1520.** Əgər namaz qılan salamı deməməli olduğu bir yerdə səhvən üç salamın hamısını deyərsə, qarşıda izah ediləcək qaydada bir dəfə səhv səcdəsi etməsi kifayətdir.

1) Namazın hərəkət və ya hissələrinin səhvən əskildilməsi, yaxud artırılmasına dair icmal məlumata görə

**Məsələ 1521.** Əgər namaz qılan icmal surətdə namazda nəyisə səhvən əskiltdiyini, yaxud səhvən artırdığını bilirsə və namazın doğruluğuna hökm olunursa, məsələnin artıqlıq, yaxud əskiklik arasında tərəddüddən ibarət olduğu bu vəziyyətdə, vacib ehtiyata əsasən, səhv səcdəsi etməlidir. Məsələn:

a) Əgər namaz qılan icmal surətdə zöhr namazında ya birinci rükətdə səhvən təşəhhüd oxuduğunu, ya da üçüncü rükətdə səhvən təsbihat-i ərbəəni oxumadığını bilirsə, vacib ehtiyat səhv səcdəsi etməsini tələb edir. [1]

b) Əgər namaz qılan icmal surətdə sübh namazında ya birinci rükətdə səhvən səcdələrin birini yerinə yetirmədiyini, ya da üçüncü rükətdə səhvən üç səcdə etdiyini bilirsə, bu halda namaz qılan ya namazından səhvən bir səcdə əskiltdiyinə, ya da namazına səhvən bir səcdə əlavə etdiyinə dair icmal məlumata sahibdir və bu halda vacib ehtiyat onun səhv səcdəsi etməsini tələb edir. [2]

[1] Baxmayaraq ki, bu iki halın (birinci rükətdə təşəhhüd oxumaq və üçüncü rükətdə təsbihat-i ərbəəni deməmək) hər ikisinin baş verməsi dəqiq olsaydı, səhv səcdəsi vacib olmazdı.

[2] Baxmayaraq ki, bu iki halın (birinci rükətdə təşəhhüd oxumaq və üçüncü rükətdə təsbihat-i ərbəəni deməmək) hər ikisinin baş verməsi dəqiq olsaydı, səhv səcdəsi vacib olmazdı.

## Səhv səcdəsinin müstəhəb olduğu hallar (müstəhəb ehtiyata əsasən)

**Məsələ 1522.** Aşağıdakı hallarda səhv səcdəsi vacib deyil, lakin onun yerinə yetirilməsi müstəhəb ehtiyatın tələbidir:

1)**Yersiz ayağa qalxmaq, yaxud oturmağa görə**
Əgər namaz qılan ayaq üstə olmalı olduğu yerdə (məsələn, Həmd və surəni, yaxud təsbihatı oxuyarkən) səhvən oturarsa, yaxud oturmalı olduğu yerdə (məsələn, təşəhhüd zamanı) səhvən ayağa qalxarsa, müstəhəb ehtiyata əsasən, səhv səcdəsi etməlidir.

2)**Unudulmuş səcdəyə görə**
Əgər namaz qılan səcdəni unudarsa və bu unutma namazın şəriətə görə icrasına başladıqda geri qayıdaraq səcdə edə bilməyəcəyi bir hissəsini yerinə yetirənədək davam edərsə, məsələn, namaz qılan əsr namazında rükuda, yaxud rükudan sonra əvvəlki rükətin bir səcdəsini unutduğunu xatırlayarsa, namazın salamından sonra səcdənin qəzasını etməli və müstəhəb ehtiyata əsasən, səhv səcdəsi də etməlidir.

3) **Səhvən edilən istənilən əlavəyə görə**
Müstəhəb ehtiyata əsasən, namaz qılan namazda səhvən artıq yerinə yetirdiyi istənilən hərəkətə, məsələn, səhvən namaza bir səcdə, yaxud təşəhhüd əlavə etdiyinə, yaxud qunutu olmayan rükətdə qunut oxuduğuna və ya bir zikri öz yerindən başqa bir yerdə dediyinə görə səhv səcdəsi etməlidir.

4) **Səhvən edilən istənilən ixtisara görə**
Müstəhəb ehtiyata əsasən, namaz qılan namazda səhvən əskiltdiyi və icra edilmə yeri keçən istənilən hərəkətə görə, məsələn, səhvən Həmd surəsini, yaxud təsbihat-i ərbəəni oxumasa və rükuda, yaxud ondan sonra oxumadığını başa düşsə, səhv səcdəsi etməlidir.

**Məsələ 1523.** Əgər namaz qılan namazının birinci rükətində bir və ya hər iki səcdəni unudarsa, "bihövlillah" deyərək ayağa qalxarsa, Həmd və surəni, qunutu oxuyaraq rükudan öncəki təkbiri deyərsə və ikinci rükətin rükusuna getməzdən öncə xatırlayarsa, geri qayıtmalı, unudulmuş səcdəni yerinə yetirdikdən sonra namazına davam etməli və namazdan sonra, müstəhəb ehtiyata əsasən, altı dəfə səhv səcdəsi etməlidir: bir dəfə yersiz "bihövlillah" dediyinə, bir dəfə yersiz ayağa qalxdığına, bir dəfə

yersiz Həmd surəsi oxuduğuna, bir dəfə ikinci surəni yersiz oxuduğuna, bir dəfə yersiz qunut oxuduğuna və bir dəfə də rükudan öncəki təkbiri yersiz dediyinə görə.

Əgər ikinci rükətdə təşəhhüdü unudarsa və sonrakı rükətin rükusundan öncə yadına düşərsə, geri qayıdaraq onu oxumalı və yersiz ayağa qalxdığına və artıq yerinə yetirdiyi digər hərəkətlərə görə, müstəhəb ehtiyata əsasən, səhv səcdəsi etməlidir.

**Səhv səcdəsinin icra edilmə qaydası**

**Məsələ 1524.** Səhv səcdəsinin qaydası belədir: Namaz qılan şəxs namazın salamından sonra dərhal səhv səcdəsinin niyyətini etməli və alnını, lazım ehtiyata əsasən, üzərinə səcdənin doğru olduğu bir şeyə qoymalıdır. Müstəhəb ehtiyata əsasən, digər səcdə üzvlərini də namazın səcdəsində izah edilən qaydada yerə qoymalıdır. Səhv səcdəsində zikr demək vacib deyil. Hərçənd, müstəhəb ehtiyata əsasən, zikr deməlidir və daha yaxşı olar ki, "Bismillahi və billahi, əs-səlamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh" desin, sonra alnını səcdədən qaldıraraq yenidən səcdəyə getsin və ikinci səcdədə də bu zikri desin, daha sonra otursun, təşəhhüd oxusun və təşəhhüddən sonra salam desin. Hər üç salamı deyə bilər. Hərçənd, sonuncu salamla kifayətlənərək təkcə "Əs-səlamu əleykum" deyə bilər və bu halda daha yaxşı olar ki, "və rəhmətullahi və bərəkatuh"u da ona əlavə etsin.

**Məsələ 1525.** Səhv səcdəsində birinci səcdədən öncə təkbir demək vacib deyil. Hərçənd bu, müstəhəb ehtiyata müvafiqdir. Həmçinin, insanın dəstəmazlı, yaxud qüsllü olması, üzü qibləyə olması, məhrəm yerlərini örtməsi, yaxud qadının saçını və bədənini örtməsi, insanın alnını qoyduğu yerin pak olması vacib deyil. Həmçinin, namaz qılanın geyimində şərt sayılan tələblər onun geyimi üçün şərt sayılmır. Habelə, iki səcdə arasında düz oturmaq vacib deyil, alnı möhürdən qaldırmaq kifayətdir. Bununla belə, sadalananlara riayət etmək müstəhəb ehtiyata müvafiqdir.

**Səhv səcdəsi ilə əlaqədar digər hökmlər**

**Məsələ 1526.** Əgər namaz qılan səhv səcdəsinə səbəb sayılan hərəkətlərdən birinə yol verib-vermədiyinə və bu səbəblə səhv səcdəsinin ona vacib olub-olmadığına şəkk edirsə, onu yerinə yetirməsi vacib deyil.

**Məsələ 1527.** Əgər səhv səcdəsinin ona vacib olduğunu bilirsə, lakin onu yerinə yetirib-yetirmədiyinə şəkk edirsə, yerində olduğu və onun dərhal (namazdan sonra) yerinə yetirilməsi üçün vaxt hələ ötüb keçmədiyi təqdirdə onu icra etməlidir. Hətta əgər fasilə yaransa və onun dərhal

yerinə yetirilməsi üçün vaxt ötüb keçsə də, vacib ehtiyaya əsasən, hərçənd şəkki vaxtından sonra yaransa belə, onu yerinə yetirməlidir.

**Məsələ 1528.** Səhv səcdəsinin özünə vacib olduğunu bilən, lakin səhv səcdəsinin neçə dəfə icrasının ona vacib olmasında şəkkə düşən şəxsin ən az sayda səhv səcdəsi yerinə yetirməsi kifayətdir.

**Məsələ 1529.** Əgər namaz qılan səhv səcdəsini namazın salamından sonra qəsdən yerinə yetirməzsə, günah edir və lazım ehtiyata əsasən, onu mümkün qədər tez icra etməlidir. Səhvən yerinə yetirmədiyi təqdirdə isə nə vaxt xatırlayarsa, o zaman dərhal icra etməlidir. Hər iki halda namazı yenidən qılmasına gərək yoxdur.

### Unudulmuş səcdə və təşəhhüdün qəzası

**Məsələ 1530.** Əgər namaz qılan bir səcdəni unudarsa və namazın şəriətə görə icrasına başladıqda geri qayıdaraq səcdə edə bilməyəcəyi bir hissəsini yerinə yetirənədək, məsələn, növbəti rükətin rükusuna gedənədək yadına düşməzsə, namazdan sonra dərhal həmin səcdənin qəzasını etməsi vacibdir. Əgər təşəhhüdü unudarsa və namazın şəriətə görə icrasına başladıqda geri qayıdaraq təşəhhüdü oxuya bilməyəcəyi bir hissəsini yerinə yetirənədək, məsələn, növbəti rükətin rükusuna gedənədək yadına düşməzsə, namazdan sonra onun qəzasını yerinə yetirməsi müstəhəb ehtiyatın tələbidir.

**Məsələ 1531.** İnsanın unutduğu və namazdan sonra qəzasını etdiyi səcdədə bədən və geyimin pak olması, üzü qibləyə olmaq və s. kimi namazın bütün şərtlərinə riayət edilməlidir və bu səcdə eynilə namazın səcdəsi kimi edilir. Qeyd etmək lazımdır ki, unudulmuş səcdənin qəzasında təşəhhüd və salam yoxdur. Həmçinin, yerinə yetirilməsi müstəhəb ehtiyata müvafiq olan təşəhhüdün qəzasında salam yoxdur.

**Məsələ 1532.** Vacib ehtiyata əsasən, səcdənin qəzası namazdan sonra və namazı batil edən hal və hərəkətlər baş verməmiş edilməlidir.

**Məsələ 1533.** Əgər namaz qılan namazın salamı ilə səcdənin qəzası arasında namaz əsnasında qəsdən, yaxud səhvən baş verdiyi təqdirdə namazı batil edən bir iş görərsə, məsələn, arxasını qibləyə çevirərsə, namazı batil olmur. Hərçənd, müstəhəb ehtiyata əsasən, səcdənin qəzasından sonra namazı yenidən qılmalıdır.

**Məsələ 1534.** Qeyd edildiyi kimi əgər namaz qılan təşəhhüdü unudarsa və namazın şəriətə görə icrasına başladıqda geri qayıdaraq təşəhhüdü oxuya bilməyəcəyi bir hissəsini yerinə yetirənədək yadına düşməzsə, unudulmuş təşəhhüdə görə səhv səcdəsi etməlidir. Əgər bir səcdəni unudarsa və namazın şəriətə görə icrasına başladıqda geri qayıdaraq səcdə edə bilməyəcəyi bir hissəsini yerinə yetirənədək yadına düşməzsə,

buna görə səhv səcdəsi etməsi lazım deyil. Hərçənd, bunun üçün səhv səcdəsinin edilməsi müstəhəb ehtiyata müvafiqdir.

**Məsələ 1535.** Səcdənin qəzasını etməli olan və hər hansı bir səbəbdən səhv səcdəsi etməsi də vacib olan şəxs, vacib ehtiyata əsasən, namazdan sonra əvvəlcə səcdənin qəzasını etməli, sonra səhv səcdəsini etməlidir.

**Məsələ 1536.** Əgər namaz qılan səcdəni bir neçə dəfə unudarsa, məsələn, birinci və ikinci rükətlərin hərəsindən bir səcdəni unudarsa, namazdan sonra unudulmuş iki səcdənin də qəzasını yerinə yetirməlidir və müstəhəb ehtiyata əsasən, hər birini unutduğuna görə səhv səcdəsi də etməlidir.

**Məsələ 1537.** Əgər namaz qılan iki ayrı rükətin hər birindən bir səcdə olmaqla iki səcdəni unudarsa, onların qəzasını edərkən ardıcıllığa riayət etməsi lazım deyil.

**Məsələ 1538.** Əgər namazın salamı ilə səcdənin qəzası arasında səhv səcdəsini vacib edən bir iş görərsə, məsələn, danışarsa, vacib ehtiyata əsasən, əvvəlcə səcdənin qəzasını etməli və sonra, vacib ehtiyata əsasən, yersiz danışığa görə səhv səcdəsi etməlidir. Həmçinin, müstəhəb ehtiyata əsasən, unudulmuş səcdənin qəzası üçün daha bir səhv səcdəsi də etməlidir.

**Məsələ 1539.** Əgər icmal surətdə ya səcdəni, ya da təşəhhüdü unutduğunu bilirsə, ancaq məhz hansını unutduğunu bilmirsə, səcdənin qəzasını etməli və səhv səcdəsi də etməli, müstəhəb ehtiyata əsasən, təşəhhüdün də qəzasını yerinə yetirməlidir.

**Məsələ 1540.** Əgər səcdə, yaxud təşəhhüdü unudub-unutmadığına şəkk edirsə, onların qəzasını, yaxud səhv səcdəsini yerinə yetirməsi vacib deyil.

**Məsələ 1541.** Əgər səcdəni unutduğunu bilirsə, ancaq sonrakı rükətin rükusundan öncə xatırlayaraq yerinə yetirib-yetirmədiyinə şəkk edirsə, müstəhəb ehtiyata əsasən, onun qəzasını etməlidir.

**Məsələ 1542.** Əgər namazdan sonra unudulmuş səcdənin qəzasını edib-etmədiyinə şəkk edərsə, namazın vaxtı keçmədiyi təqdirdə səcdənin qəzasını etməlidir. Hətta namazın vaxtı keçsə belə, vacib ehtiyata əsasən, onun qəzasını yerinə yetirməlidir.

# MÜSAFİR NAMAZI

Müsafir zöhr, əsr və işa namazlarını doqquz şərtlə müxtəsər, yəni iki rükət qılmalıdır.

### Müsafirin namazının müxtəsər olmasının şərtləri

***Birinci şərt: Səfərdə qət etdiyi məsafə səkkiz şəri fərsəxdən az olmamalıdır***

**Məsələ 1543.** Gedərkən və qayıdarkən qət etdiyi məsafələrin cəmi minimum səkkiz fərsəx (təqribən 44 km) olan şəxs gediş, yaxud qayıdış yolunun dörd fərsəxdən az olub-olmamasından asılı olmayaraq namazı müxtəsər qılmalıdır. Buna əsasən, əgər gediş yolu üç fərsəxlik, qayıdış yolu isə beş fərsəxlik məsafə olarsa, yaxud da əksinə olarsa, namazı müxtəsər (yəni ikirəkətli) qılmalıdır. Gediş və qayıdış yolunun birlikdə səkkiz fərsəxə bərabər olduğu belə məsafəyə "təlfiqi məsafə" deyilir. [1]

**Məsələ 1544.** Əgər insanın gediş və qayıdış yolu səkkiz fərsəx olarsa, hərçənd getdiyi gün, yaxud həmin axşam qayıtmasa da, namazını müxtəsər qılmalıdır. Lakin daha yaxşı olar ki, bu halda ehtiyatlı davranaraq tam surətdə də qılsın.

**Məsələ 1545.** Əgər səfər məsafəsi səkkiz fərsəxdən bir qədər az olarsa, yaxud insan səfər məsafəsinin səkkiz fərsəx olub-olmadığını bilməzsə, namazını müxtəsər qılmamalıdır. Əgər məsafənin minimum səkkiz fərsəx olub-olmadığına şəkk edərsə, araşdırmasına gərək yoxdur və namazını tam surətdə qılmalıdır. Hərçənd, müstəhəb ehtiyat şəkk halında araşdırmasını tələb edir.

**Məsələ 1546.** Əgər insan səfərdə qət etdiyi məsafənin minimum səkkiz fərsəx olduğuna əmin, yaxud arxayın olarsa və ya bəyyinə (iki adil kişi) bu barədə məlumat verərsə, namazını müxtəsər qılmalıdır. Lakin əgər bir adil, yaxud etibarlı şəxs insanın səfərdə qət etdiyi məsafənin minimum səkkiz fərsəx olduğunu söyləyərsə, insan onun sözü ilə yəqinlik, yaxud arxayınlıq hasil etdiyi təqdirdə namazını müxtəsər qılmalıdır, əks təqdirdə isə onun məlumatı şəri dəlil hesab edilmir və namazı bütöv qılınmalıdır. Həmçinin, əgər iki bəyyinə bir-birinin əksinə olan məlumatlar verərsə, onların hər ikisi etibarsızlaşır və insan namazını bütöv qılmalıdır. Hərçənd, müstəhəb ehtiyat namazı müxtəsər surətdə qılmasını da tələb edir.

---

[1] Qeyd etmək lazımdır ki, bu hökm təlfiqi məsafədə on gün qalmaq, yaxud vətəndən keçmək və vətəndə dayanmaq kimi səfəri pozan halların baş vermədiyi məqamlara aiddir. Lakin əgər səfəri pozan hallardan biri baş verərsə, gediş, yaxud qayıdış yolunda insanın namazı o halda müxtəsər olur ki, təkcə gediş yolu, yaxud təkcə qayıdış yolu səkkiz fərsəx olsun. Bu hökmün təfsilatı dördüncü şərt zəminində 1564-cü məsələdə izah ediləcəkdir.

**Məsələ 1547.** Səfərdə qət etdiyi məsafənin minimum səkkiz fərsəx olduğuna əmin, yaxud arxayın olan və ya başqa bir mötəbər üsula, məsələn, bəyyinəyə istinad edən şəxs əgər namazını müxtəsər qılarsa və sonra səkkiz fərsəx olmadığını başa düşərsə, onu dördrəkətli namaz kimi qılmalı, vaxtı keçmiş olduğu təqdirdə isə qəzasını qılmalıdır.

**Məsələ 1548.** Müəyyən bir yerə getmək niyyətində olan və çıxmaq istədiyi səfərdə qət edəcəyi məsafənin səkkiz fərsəx olmadığına əmin, yaxud arxayın olan və ya səkkiz fərsəx olub-olmadığına şəkk edən şəxs yolda məsafənin minimum səkkiz olduğunu başa düşərsə, hərçənd bu yolun az bir hissəsi qalsa belə, namazını müxtəsər qılmalıdır. Bütöv qıldığı təqdirdə isə yenidən müxtəsər surətdə qılmalıdır. Lakin vaxtı keçmiş olarsa, qəzasını qılması lazım deyil.

**Məsələ 1549.** Əgər insan aralarındakı məsafə dörd fərsəxdən az olan iki məntəqə arasında bir neçə dəfə gediş-gəliş edərsə, hərçənd qət etdiyi məsafələrin cəmi səkkiz fərsəx olsa belə, namazını bütöv qılmalıdır.

**Məsələ 1550.** Əgər bir məntəqənin iki yolu olarsa, bir yolu səkkiz fərsəxdən az, digər yolu isə səkkiz fərsəx və ya daha uzun olarsa, insan minimum səkkiz fərsəx olan yolla həmin məntəqəyə getdiyi təqdirdə namazı müxtəsər, səkkiz fərsəx olmayan yolla getdiyi təqdirdə isə bütöv qılmalıdır.

**Məsələ 1551.** İnsan səkkiz fərsəx məsafəsini elə bir yerdən başlayaraq hesablamalıdır ki, oranı keçdikdən sonra müsafir sayılsın. Bu yer adətən şəhərin, yaxud kəndin çıxışı olur. Lakin bəzi böyük şəhərlərdə (meqapolislərdə) məhəllənin çıxışı da ola bilər.

Vətəni olmayan bir şəhər, yaxud kəndə səfər etmək niyyətində olan müsafir insan üçün şəri məsafənin sonu isə onun həmin şəhər, yaxud kənddə son duracağıdır. Məsələn, vətəni Məşhəd şəhərinin 15 km-liyində yerləşən şəxs Məşhəd şəhərindəki müəyyən bir yerə, məsələn, onun vətənindən 25 km məsafədə yerləşən İmam Rizanın (ə) müqəddəs məqbərəsinə gedib qayıtmaq istəyərsə, bu səfərdə namazını müxtəsər qılmalıdır. Ancaq əgər Məşhəd şəhərinin daxilində, onun vətənindən 20 km məsafədə yerləşən bir yerə gedib oradan da geri qayıtmaq istəyərsə, namazını bütöv qılmalıdır.

*İkinci şərt: Səfərin başlanğıcından səkkiz fərsəx məsafə qət etmək niyyətində olmalıdır*

**Məsələ 1552.** Müsafirin namazı səkkiz fərsəx (hərçənd, təlfiqi məsafə surəti ilə olsa belə) yol qət edəcəyini bildiyi halda müxtəsər olur. Beləliklə, əgər səkkiz fərsəxdən az məsafədə olan bir yerə səfər edərsə və oraya çatdıqdan sonra gələrkən qət etdiyi məsafə ilə birlikdə səkkiz fərsəxi keçəcək başqa bir yerə getmək niyyətinə düşərsə, əvvəlcədən səkkiz

fərsəx məsafə qət etmək niyyətində olmadığına görə namazı bütöv qılmalıdır. Lakin əgər oradan səkkiz fərsəx uzaqlaşmaq, yaxud oradan başqa bir yerə gedərək sonra vətəninə, yaxud on gün qalmaq niyyətində olduğu bir yerə getmək istəyərsə və bu gediş-gəliş zamanı qət edilən toplam məsafə minimum səkkiz fərsəx olarsa, yolda səfəri pozan hallardan (qarşıda izah ediləcəkdir) biri ilə qarşılaşmadığı təqdirdə namazı müxtəsər qılmalıdır.

**Məsələ 1553.** Səfər məsafəsinin neçə fərsəx olduğunu bilməyən, məsələn, itirdiyi bir şeyi (şəxsi) axtarmaq üçün səfərə çıxan və onu tapmaq üçün nə qədər məsafə qət etməli olduğunu bilməyən şəxs namazını bütöv qılmalıdır. Lakin qayıdarkən vətəninədək, yaxud on gün qalmaq istədiyi yerədək olan məsafə səkkiz fərsəx və ya daha artıq olduğu təqdirdə namazı müxtəsər qılmalıdır. Həmçinin, əgər gediş yolunda bir yerə gedib sonra vətəninə qayıtmaq, yaxud on gün qalmaq istədiyi bir yerə getmək niyyətinə düşərsə və yolda səfəri pozan hallardan biri baş verməzsə, namazı müxtəsər qılmalıdır.

**Məsələ 1554.** Müsafir namazı o halda müxtəsər qılmalıdır ki, şəri məsafəyədək səfərini başqa bir şeylə şərtləndirməməlidir. Beləliklə, şəhərdən çıxan və məsələn, niyyəti özünə yoldaş tapacağı təqdirdə səkkiz fərsəx uzaqlıqda bir yerə səfər etmək olan şəxs yoldaş tapacağına arxayın olduğu təqdirdə namazı müxtəsər, arxayın olmadığı təqdirdə isə bütöv qılmalıdır.

**Məsələ 1555.** Səkkiz fərsəx məsafə qət etmək niyyətində olan şəxs (hərçənd bir neçə gün ərzində hər gün bir qədər getməklə olsa belə) tərəxxüs həddinə (mənası 1594-cü məsələdə izah ediləcəkdir) çatdıqda namazını müxtəsər qılmalıdır. Lakin əgər hər gün çox cüzi məsafə qət edərsə, lazım ehtiyata əsasən, namazını həm bütöv, həm də müxtəsər qılmalıdır.

**Məsələ 1556.** Səfərdə başqasının ixtiyarında olan şəxs, məsələn, evli qadın, uşaq, xidmətçi və məhbus həmin (ixtiyarında olduğu) şəxsin səfər məsafəsinin minimum səkkiz fərsəx olduğunu bildiyi təqdirdə namazı müxtəsər qılmalıdır. Bilmədiyi və onun niyyəti ilə bağlı şəkdə olduğu təqdirdə isə namazı bütöv qılmalıdır və hərçənd, müstəhəb ehtiyata müvafiq olsa da, soruşması vacib deyil.

**Məsələ 1557.** Səfərdə başqasının ixtiyarında olan şəxs əgər dörd fərsəxə çatmamış ondan ayrılacağını və səfərə davam etməyəcəyini bilirsə, yaxud güman edirsə, namazı bütöv qılmalıdır. Həmçinin, səfərdə başqasının ixtiyarında olan şəxs əgər dörd fərsəxə çatmamış ondan ayrılacağını və səfərə davam etməyəcəyinə dair şəkkə düşərsə, yaxud buna dair məntiqli ehtimalı olarsa, hərçənd bu şəkk yolda dörd fərsəxə çatmamış

səfərini davam etdirməsinə mane olan bir vəziyyətlə qarşılaşacağını ehtimal etməsi səbəbi ilə yaransa belə, namazı bütöv qılmalıdır. Lakin əgər dörd fərsəxə çatmamış ondan ayrılmayacağına əmindirsə, gözlənilməz və reallıqdan çox uzaq olan əngəllərin qarşıya çıxması ehtimalı əhəmiyyətsiz sayılır və namazı müxtəsər qılmalıdır.

*Üçüncü şərt: Yolda niyyətindən dönməməlidir*

**Məsələ 1558.** Əgər insan qayıdışla birgə minimum səkkiz fərsəx olan yolun bir hissəsini qət etdikdən sonra səfərdən imtina edərsə, həmin yerdə qalmaq və ya on gündən sonra qayıtmaq qərarına gəldiyi, yaxud qayıtmaqla on gün qalmaq arasında tərəddüd etdiyi təqdirdə namazı bütöv qılmalıdır. Həmçinin, orada otuz gün ərzində niyyətsiz qalacağını ehtimal etdikdə də bu hökm şamil olunur.

**Məsələ 1559.** Əgər qayıdışla birgə minimum səkkiz fərsəx olan yolun bir hissəsini qət etdikdən sonra səfərdən imtina edərək qayıtmaq qərarına gələrsə və bu arada səfəri pozan hallardan (qarşıda izah ediləcəkdir) biri meydana gəlməzsə, namazı müxtəsər qılmalıdır. Həmçinin, əgər şəri məsafəni qət etmək niyyətində olan müsafir dörd fərsəxə çatmamış (məsələn, üç fərsəx qət etdikdən sonra) səfərdən imtina edərsə, lakin səfəri pozan hərəkətlərə yol verməyərək beş fərsəx uzunluğunda olan başqa bir yolla vətəninə dönmək qərarına gələrsə, beləliklə, gediş və qayıdış yolu birlikdə səkkiz fərsəx olarsa, namazı müxtəsər qılmalıdır.

**Məsələ 1560.** Əgər gediş məsafəsi, yaxud qayıdış yolu ilə birlikdə toplam səfər məsafəsi səkkiz fərsəx olan bir yerə getmək üçün yola çıxarsa və yolun bir hissəsini qət etdikdən sonra başqa bir yerə getmək istəyərsə, yola çıxdığı ilk məntəqədən getmək istədiyi yerədək məsafə təklikdə, yaxud qayıdış məsafəsi ilə birlikdə səkkiz fərsəx olduğu təqdirdə namazı müxtəsər qılmalıdır.

**Məsələ 1561.** Əgər səkkiz fərsəxə çatmamış yolun qalan hissəsini qət edib-etməməkdə tərəddüd edərsə, tərəddüddə ikən yol qət etməzsə və sonra yolun qalan hissəsini də getmək qərarına gələrsə, səfərin sonunadək namazı müxtəsər qılmalıdır.

**Məsələ 1562.** Əgər səkkiz fərsəxə çatmamış yolun qalan hissəsini qət edib-etməməkdə tərəddüd edərsə, tərəddüddə ikən bir qədər yol qət edərsə və sonra daha səkkiz fərsəx getmək, yaxud gediş və qayıdış məsafəsi birlikdə səkkiz fərsəx olan bir yerədək getmək qərarına gələrsə, səfərinin sonunadək namazını müxtəsər qılmalıdır.

**Məsələ 1563.** Əgər səkkiz fərsəxə çatmamış yolun qalan hissəsini qət edib-etməməkdə tərəddüd edərsə, tərəddüddə ikən bir qədər yol qət edərsə və sonra yolun qalan hissəsini də getmək qərarına gələrsə, gediş və qayıdış məsafələrinin cəmi tərəddüd içində qət etdiyi məsafə istisna

olmaqla səkkiz fərsəxdən az olduğu təqdirdə namazı bütöv qılmalı, az olmadığı təqdirdə isə namazını müxtəsər qılmalıdır.

***Dördüncü şərt: Səkkiz fərsəxə çatmamış səfəri pozan hal[1] baş verməməlidir***

**Məsələ 1564.** Vətəninə səkkiz fərsəxdən yaxın məsafədə yerləşən bir yerə getmək və orada on gün qalaraq sonra vətəninə dönmək istəyən şəxs, hərçənd gediş və qayıdış yollarının birgə məsafəsi səkkiz fərsəx olsa da, on gün qalacağı yerə gedərkən və qayıdarkən yol boyunca namazı bütöv qılmalıdır.

Həmçinin, vətənindən ikinci vətəni olan və səkkiz fərsəxdən yaxın məsafədə yerləşən bir yerə gedərək orada qalmaq, sonra ilk vətəninə qayıtmaq istəyən şəxs, hərçənd gediş və qayıdış yollarının birgə məsafəsi səkkiz fərsəx olsa da,ikinci vətəninə gediş və birinci vətəninə qayıdış yolunda namazını bütöv qılmalıdır.

Qeyd etmək lazımdır ki, bu iki vəziyyətdə gediş, yaxud qayıdış yolunda insanın namazı yalnız gediş məsafəsi təklikdə, yaxud qayıdış məsafəsi təklikdə səkkiz fərsəx, yaxud daha artıq olduqda müxtəsər olur. [2]

**Məsələ 1565.** Səkkiz fərsəxə çatmamış vətənindən keçib-keçməyəcəyini, yaxud bir yerdə on gün qalıb-qalmayacağını bilməyən şəxs namazı bütöv qılmalıdır.

**Məsələ 1566.** Səkkiz fərsəxə çatmamış vətənindən keçmək və orada qalmaq, yaxud başqa bir yerdə on gün qalmaq istəyən, həmçinin, vətənindən keçməklə başqa bir yerdə on gün qalmaq arasında tərəddüd edən şəxs əgər on gün qalmaq, yaxud vətənindən keçmək fikrindən daşınarsa, yenə də namazı bütöv qılmalıdır. Lakin əgər yolun qalan hissəsi hərçənd qayıdışla birgə səkkiz fərsəx olarsa, namazı müxtəsər qılmalıdır.

***Beşinci şərt: Haram iş üçün səfər etməməlidir***

**Məsələ 1567.** Əgər insan sələmli sövdələşmə, yaxud oğurluq kimi haram bir iş üçün səfər edərsə, namazı bütöv qılmalıdır. Həmçinin, əgər səfərin özü haram olarsa, məsələn, onun üçün ölüm, yaxud bədən üzvlərindən birini itirməklə nəticələnən bir zərəri olarsa, yaxud qadın ərinin

---

[1] Səfəri pozan hallar qarşıda müfəssəl surətdə izah ediləcəkdir.

[2] Məsələn, əgər bir şəxs öz vətənindən dörd fərsəxlik məsafədə yerləşən bir yerə gedərək on gün orada qalmaq, sonra vətəninə qayıtmaq istəyirsə, bu şəxs, hərçənd təlfiqi səkkiz fərsəx məsafəsini qət etmək niyyətində olsa da, gediş və qayıdış yolunda da namazını bütöv qılmalıdır. Ancaq əgər bir şəxs vətənindən səkkiz fərsəxlik məsafədə yerləşən bir yerə getmək və orada on gün qaldıqdan sonra vətəninə qayıtmaq istəyərsə, bu şəxs gediş və qayıdış yolunda namazını müxtəsər qılmalıdır. Həmçinin, əgər bir şəxs vətənindən yeddi fərsəxlik məsafədə yerləşən bir yerə getmək və orada on gün qaldıqdan sonra doqquz fərsəx uzunluğunda olan başqa bir yolla vətəninə qayıtmaq istəyərsə, bu şəxs gediş yolunda namazını bütöv, qayıdış yolunda isə müxtəsər qılmalıdır. Fərz edilən bütün bu hallarda insan on gün qalacağı yerdə namazını bütöv qılmalıdır.

icazəsi olmadan ona vacib olmayan bir səfərə çıxarsa, bu hökm şamil olunur. Lakin əgər qadın vacib həcc ziyarəti üçün səfərə çıxarsa, namazını müxtəsər qılmalıdır.

**Məsələ 1568.** Vacib olmayan bir səfər əgər valideynlərin əziyyət çəkməsinə (şəfqət və qayğıdan irəli gələn narahatçılıq hissləri keçirməsinə) səbəb olarsa, haramdır və əgər insan belə bir səfərə çıxarsa, günah edir və həmin səfərdə namazını bütöv qılmalı, orucu da tutmalıdır.

**Məsələ 1569.** Səfəri haram olmayan və haram bir iş üçün səfər etməyən şəxs hərçənd səfərdə bir günah işləsə, məsələn, qeybət etsə, yaxud yalan danışsa belə, namazı müxtəsər qılmalıdır.

**Məsələ 1570.** Əgər insan vacib bir işin icrasından boyun qaçırmaq üçün səfər edərsə (istər səfərə çıxmaqda başqa bir məqsədi də olsun, istərsə olmasın), namazını bütöv qılmalıdır. Beləliklə, şəriətə görə borclu sayılan və borcunun ödənilmə vaxtı çatan şəxs əgər borcunu ödəmək imkanına sahibdirsə və borcverən də borcunu tələb edirsə, səfərdə borcunu ödəmək imkanı olmadığı və borcu ödəməkdən qaçmaq üçün səfər etdiyi təqdirdə namazını bütöv qılmalıdır. Lakin əgər səfəri başqa bir iş üçün olarsa, hərçənd səfərdə vacib bir işi yerinə yetirməsə də, namazı müxtəsər qılmalıdır.

**Məsələ 1571.** Əgər səfər üçün istifadə etdiyi minik (nəqliyyat) vasitəsi qəsb edilmiş olarsa və onun sahibindən qaçmaq üçün səfər edərsə, yaxud qəsb edilmiş bir torpaq sahəsinə səfər edərsə, namazı bütöv qılmalıdır.

**Məsələ 1572.** Zalım insanla birlikdə səfərə çıxan şəxs əgər buna məcbur deyilsə və səfəri ona zülmündə yardım etmək sayılırsa, yaxud zalımın nüfuzunun artmasına səbəb olarsa, namazı bütöv qılmalıdır. Əgər məcbur olarsa və ya məsələn, bir məzlumu xilas etmək üçün onunla birgə səfərə çıxarsa, namazı müxtəsər qılmalıdır.

**Məsələ 1573.** Səfəri günah səfər olan (məsələn, haram bir iş görmək üçün şəri məsafəyədək, yaxud daha uzağa səfər edən) şəxs əgər yolda günah etmək niyyətindən daşınarsa, yolun qalan hissəsinin, yaxud gediş-gəliş yolunun ümumi uzunluğunun səkkiz fərsəx olub-olmamasından asılı olmayaraq namazı müxtəsər qılmalıdır.

***Altıncı şərt: Səfər əyləncə xarakterli ov üçün olmamalıdır***

**Məsələ 1574.** Əgər insan əyləncə məqsədilə ov üçün şəri məsafəyədək, yaxud daha uzağa səfər edərsə, hərçənd bu iş öz-özlüyündə haram olmasa da, gedərkən namazını bütöv qılmalı, qayıdarkən isə qayıdışının əyləncə məzmunlu ov üçün olmaması şərti ilə müxtəsər qılmalıdır və bu halda qayıdış yolunun təklikdə səkkiz fərsəx olub-olmamasının fərqi yoxdur.

**Məsələ 1575.** Əgər insan yaşayış xərclərini təmin etmək üçün ova çıxırsa, namazını müxtəsər qılmalıdır. Həmçinin, qazanc və varlanmaq üçün ova çıxması da bu qəbildəndir. Hərçənd, müstəhəb ehtiyat sonuncu halda namazı həm müxtəsər, həm də bütöv qılmağı tələb edir.

**Məsələ 1576.** Əgər insan gəzinti və səyahət məqsədilə şəri məsafəyə səfər edərsə, səfəri haram deyil və namazını müxtəsər qılmalıdır.

**Məsələ 1577.** Ürfən batil sayılan səfərdə (məsələn, aqilanə məqsədi olmayan və insanların nəzərində bihudə və batil sayılan səfər kimi) vacib ehtiyat namazı həm müxtəsər, həm də bütöv qılmağı tələb edir.

***Yeddinci şərt: Köçəri həyat tərzi sürən insanlardan olmamalıdır***

**Məsələ 1578.** Köçəri həyat tərzi sürən insanlar, məsələn, səhralarda gəzərək özləri, ətrafındakılar və heyvanları üçün su və qida tapdıqları yerdə dayanan və bir müddət sonra başqa bir yerə köçən bədəvilər bu səfərlərdə namazı bütöv qılmalıdırlar.

**Məsələ 1579.** Əgər köçəri misal olaraq yaşayış yeri və heyvanları üçün otlaq tapmaq üçün səfər edərsə, ev-eşiyini özü ilə daşıyan insan sayılacaq şəkildə çadır və məişət əşyaları ilə birgə səfərə çıxdığı təqdirdə namazı bütöv qılmalı, əks təqdirdə isə qət etdiyi məsafə səkkiz fərsəxi keçdiyi halda namazı müxtəsər qılmalıdır.

**Məsələ 1580.** Əgər köçəri misal olaraq ziyarət, həcc, ticarət və bu qəbildən olan məqsədlərlə səfərə çıxarsa, ev-eşiyini özü ilə daşıyan insan sayılmadığı təqdirdə namazını müxtəsər, sayıldığı təqdirdə isə bütöv qılmalıdır.

***Səkkizinci şərt: İşi səfər olmamalı, həmçinin, şəri məsafəyə[1] tez-tez səfər edən şəxs olmamalıdır***

**Məsələ 1581.** İşi (əmək fəaliyyəti) səfər etməkdən ibarət olan, yaxud şəri məsafəyə tez-tez səfər edən şəxs namazını bütöv qılmalıdır. Bu məsələ üç qisim insanların haqqında özünü doğruldur:

1) İşi şəri məsafəyə səfər etmək olan şəxs, məsələn, sürücü, pilot, gəmi kapitanı.
2) İşi şəri məsafəyə səfər etməyi tələb edən şəxs, məsələn, vətəni və iş yeri arasında gediş-gəliş edən müəllim, həkim, tacir və fəhlə.
3) İşdən başqa bir məqsədlə, məsələn, ziyarət, müalicə, yaxud gəzinti üçün tez-tez şəri məsafəyə səfər edən şəxs.

İkinci və üçüncü qrup (əgər "kəsirüs-səfər" ünvanı onlara ürfən şamil olarsa, yəni insanların nəzərində tez-tez səfər edən şəxs hesab edilərlərsə) səfərdə namazlarını bütöv qılmalıdırlar. Ancaq birinci qrupa daxil olanların barəsində "çox səfər edən şəxs" deyilməsi şərt deyil. İşi sərnişin, yaxud yük daşımaq olan sürücü kimi bu qəbildən olan şəxslərə "işi

[1] Gediş yolu minimum 22 km-ə bərabər olan məsafəyə. *Tərc.*

səfər etmək olan şəxs", yəni işi şəri məsafəyə səfər etmək olan şəxs deyilərsə (hərçənd, bu iş müvəqqəti iş olsa belə), ürfən bu ünvan ona şamil olduğu təqdirdə namazını bütöv qılmalıdır.

**Məsələ 1582.** Sürücü kimi işi səfər etmək olan şəxsin namazını bütöv qılması üçün iki şərt tələb edilir:

1) Bu işi barəsində "işi səfər etmək olan şəxs" deyiləcək şəkildə nəzərə çarpan müddət ərzində davam etdirmək niyyətində olmalıdır. Məsələn, insanlar tərəfindən şəri məsafəyə səfər edən sürücü hesab ediləcək şəkildə nəzərə çarpan müddət ərzində şəri məsafəyə gediş-gəliş etmək niyyətində olan sürücü bu qəbildəndir.
2) İş üçün çıxdığı səfərlər arasındakı fasilə normal sayılandan artıq, "iş" anlayışına xələl yetirəcək qədər olmamalıdır və bu fasilə səfərin növlərindən asılı olaraq fərqlənir.

Buna əsasən, məsələn, yalnız cümə axşamları Nəcəfdən Kərbəlaya, yaxud Tehrandan Quma müsafir aparan, həftənin digər günlərini isə öz vətənində keçirən sürücü şəri məsafəyə səfər edən sürücü sayılmır. Beləliklə, bu səfərlərdə namazını müxtəsər qılmalıdır. Lakin hər ay Məşhəddən Kərbəlaya, yaxud Suriyaya on beş gün ərzində müsafir aparıb-gətirən şəxs şəri məsafəyə səfər edən sürücü sayılır və namazını bütöv qılmalıdır.

**Məsələ 1583.** "Çox səfər edən" ünvanının işi səfər etməsini tələb edən, yaxud işi üçün tez-tez səfər edən şəxsə (1581-ci məsələdə qeyd edilən 2 və 3-cü qruplara) şamil olunmasında üç şey nəzərə alınır və bu üç şərt mövcud olduğu təqdirdə həmin şəxs namazını bütöv qılmalıdır:

1) Bu işi nəzərə çarpan müddət, məsələn, bir ilin altı ayı, yaxud hər il üç ay olmaqla iki və daha artıq il ərzində davam etdirmək niyyətində olmalıdır.
2) Hər ayın minimum on gününü səfərdə olmalıdır (bu on gün iki, yaxud üç səfər çərçivəsində də ola bilər), yaxud hər ay on dəfə (on ayrı gündə) səfərə çıxmalıdır (onun şəri məsafəyə səfərləri bir neçə saat da sürə bilər). Lakin əgər səfərlərinin, yaxud səfərdə olduğu günlərin sayı 8, yaxud 9 olarsa, vacib ehtiyata əsasən, bütün səfərlərdə namazlarını həm müxtəsər, həm də bütöv qılmalıdır. Səfərlərinin, yaxud səfərdə olduğu günlərin sayı 7 və ya daha az olarsa, namazını müxtəsər qılmalıdır.
3) Çox səfər etmə gerçəkləşməlidir və bundan öncə, vacib ehtiyata əsasən, namazını həm bütöv, həm də müxtəsər qılmalıdır.

Buna əsasən, işi səfər etməyi tələb edən (tədris üçün şəri məsafəyə səfər edən müəllim kimi), yaxud əmək fəaliyyətindən başqa bir iş üçün səfər edən (ziyarət naziri olan və nəzirini icra etmək üçün səfər edən

şəxs kimi), həftədə üç dəfə, yaxud üç gün səfərdə olmaq və bu işi bir ilin altı ayı, yaxud hər il üç ay olmaqla iki və ya daha artıq il ərzində davam etdirmək niyyətində olan şəxs ilk iki həftə ərzində, vacib ehtiyata əsasən, namazını həm müxtəsər, həm də bütöv qılmalıdır, sonra isə namazı bütövdür. [1]

---

[1] İşi səfər etməyi tələb edən, yaxud əmək fəaliyyətindən başqa bir iş üçün tez-tez səfər edən şəxsin "kəsirüs-səfər" (çox səfər edən şəxs) sayılmasında nəzərə alınan meyar səfər etməyin ürfən (insanların nəzərində) həmin şəxsin adəti sayılmasından ibarət olan ürfi bir məsələdir və bu mənanın doğrulması onun səfərlərinin, yaxud səfərdə olduğu günlərin sayının çox olmasına bağlıdır. Burada onun səfərlərinin, yaxud səfərdə olduğu günlərin sayının müəyyən davamiyyətə malik olan qrafiklərə uyğunluğu nəzərə alınır. Bu qrafiklərin minimumu bir ilin altı ayı ərzində 60 gün səfərdə olmaq, yaxud 60 dəfə səfərə çıxmaq və ya iki, yaxud daha artıq ardıcıl il ərzində hər il üç ay səfərdə olmaqdır. Buna əsasən, aşağıdakı cədvəldə örnək olaraq bir neçə hal qeyd edilir və insanlar ürfün nəzərini ayırd etmək üçün hazırlanan bu cədvəldən ürflə əlaqədar tərəddüd hallarında yardım ala bilər. Digər hallarla bağlı hökm də cədvəldə qeyd edilən hallarla müqayisə əsasında aydın olur. Məsələn, aşağıdakı cədvəlin üçüncü sırasına əsasən, bir ilin ən azı 6 ayında, yaxud iki ardıcıl ilin hər birinin üç ayında səfərə çıxmaq və bir ayın 8 gününü səfərdə olmaq, yaxud bir ayda 8 dəfə səfər etmək, sonrakı ay isə 12 gün səfərdə olmaq, yaxud 12 dəfə səfərə gedib-gəlmək istəyən, belə ki, bu müddət ərzində səfərdə olduğu günlərin ümumi sayı minimum 60 gün olan, yaxud gediş-gəlişlərinin ümumi sayı 60 ayrı gündə 60 səfər olan şəxs "çox səfər edən" hesab edilir və namazını bütöv qılmalıdır. Bənzər hallarla bağlı hökm də belədir.

Qeyd etmək lazımdır ki, aşağıdakı cədvəldəki bəzi hallarda "çox səfər etmə" özəlliyinin gerçəkləşməsi şübhə doğurur və həmin hallarda ehtiyatın tələbinə riayət edilməlidir.

"Çox səfər edən" insanlarla əlaqədar cədvəl:

| sıra | ümumi müddət | ay ərzində günlərin, yaxud səfərlərin sayı | çox səfər edən hökmü |
|---|---|---|---|
| 1 | bir ilin altı ayı, yaxud iki və ya daha artıq ilin hər birinin üç ayı ərzində | 10 gün və daha artıq | Sayılır |
| 2 | | bir ay 9, sonrakı ay 11 gün | Sayılır |
| 3 | | bir ay 8, sonrakı ay 12 gün | Sayılır |
| 4 | | bir ay 7, sonrakı ay 13 gün | Sayılır |
| 5 | | bir ay 6, sonrakı ay 14 gün | İşkallıdır. |
| 6 | | bir ay 5, sonrakı ay 15 gün | işkallıdır |
| 7 | | bir ay 4, sonrakı ay 16 gün | Sayılmır |
| 8 | | hər ay 8, yaxud 9 gün | İşkallıdır |
| 9 | | hər ay 7 gün | Sayılmır |
| 10 | bir ilin 5 ayı, yaxud 2 və artıq ilin hər birinin 2,5 ayı | 10 gün və daha artıq | İşkallıdır |
| 11 | | 9 gün və daha az | Sayılmır |
| 12 | bir ilin 4 ayı, yaxud 2 və artıq ilin hər birinin 2 ayı | 12 gün və daha artıq | İşkallıdır |
| 13 | | 11 gün və daha az | Sayılmır |
| 14 | bir ilin 3 ayı, yaxud 2 və artıq ilin hər birinin 1,5 ayı | 15 gün və daha artıq | İşkallıdır |
| 15 | | 14 gün və daha az | Sayılmır |
| 16 | bir ilin 2 ayı, yaxud 2 və artıq ilin hər birinin 1 ayı | Bir neçə gün olsa | sayılmır |

**Məsələ 1584.** İşi səfər olan şəxsin (I qrup) namazını bütöv qılmaq üçün üç dəfə səfər etməsi şərt deyil, şəri məsafəyə gediş-gəliş edən sürücü və bu qəbildən olan ünvanlar ona şamil olunduqda, hərçənd birinci səfərdə olsa belə, namazını bütöv qılmalıdır. Lakin işi səfər etməyi tələb edən, yaxud əmək fəaliyyətindən başqa işlər üçün çox səfər edən şəxs (II və III qrup) qeyd edildiyi kimi namazını çox səfər etmə özəlliyi reallaşdıqdan sonra bütöv qılmalı, bundan öncə isə, vacib ehtiyata əsasən, həm müxtəsər, həm də bütöv qılmalıdır.

**Məsələ 1585.** Sürücü kimi işi səfər etmək olan, yaxud müəllim kimi işi səfər etməyi tələb edən şəxs əgər ziyarət və həcc kimi başqa bir üçün səfərə çıxarsa, namazı müxtəsər qılmalıdır. Lakin davamlı olaraq həftənin üç günü səfərdə olan şəxs kimi barəsində ürfən "çox səfər edən şəxs" deyilərsə,[1] bu halda hətta həcc, ziyarət və bu qəbildən olan başqa səfərlərdə də namazını bütöv qılmalıdır. Həmçinin, əgər misal olaraq çox səfər edən şəxs sayılan və iş üçün səfərlərində namazını bütöv qılan sürücü avtomobilini ziyarət üçün kirayəyə verərsə və bir dəstə insanı öz avtomobili ilə ziyarətə apararsa, bu səfər çərçivəsində özü də ziyarətə gedərsə, istənilən halda namazı bütöv qılmalıdır.

**Məsələ 1586.** Həmələdar, yəni hacıları Məkkəyə aparan karvanın başçısı ürfən işi səfər etmək sayıldığı[2] təqdirdə namazı bütöv qılmalıdır. Həmçinin, əgər çox səfər edən şəxs[3] sayılarsa və tez-tez səfərdə olarsa (məsələn, hər il üç ay), namazı bütöv qılmalıdır.

Əgər işi səfər etmək deyilsə və çox səfər edən şəxs də sayılmırsa, məsələn, yalnız həcc günlərində həmələdar kimi səfərə çıxırsa və səfər müddəti qısadırsa, məsələn, iki-üç həftə sürürsə, namazını müxtəsər qılmalıdır. Əgər çox səfər edən şəxs ünvanının ona şamil olub-olmadığına şəkk edirsə, lazım ehtiyata əsasən, namazı həm müxtəsər, həm də bütöv qılmalıdır.

**Məsələ 1587.** İlin bir hissəsində işi səfər etmək olan şəxs, məsələn, hər il yalnız yay, yaxud qış fəslinin üç ayında avtomobili kirayə edilərək şəri məsafəyə səfər edən şəxs həmin fəsildə etdiyi səfərlərdə namazı bütöv qılmalıdır. Lakin müstəhəb ehtiyat həm müxtəsər, həm də bütöv qılmasını tələb edir. Həmçinin, ilin bir hissəsində "çox səfər edən" sayılan şəxs, məsələn, hər il yalnız yaz fəslində tədris üçün gediş-gəliş edən müəllim ilin həmin dövründə etdiyi səfərlərdə namazı bütöv qılmalıdır.

Ümumiyyətlə, əgər şəri məsafəyə iş üçün edilən səfərlər, yaxud çox səfər etmə ilin müəyyən vaxtı ilə məhdudlaşarsa, çox səfər etmə ilə

---

[1] "Kəsirüs-səfər" (çox səfər edən şəxs) olmağın meyarı 1583-cü məsələdə izah edilmişdir.

[2] 1581-ci məsələnin I qrupuna daxil olması nəzərdə tutulur.

[3] "Kəsirüs-səfər" (çox səfər edən şəxs) olmağın meyarı 1583-cü məsələdə izah edilmişdir.

əlaqədar hökmlər insanın iş səfərində olmadığı, yaxud çox səfər edən şəxs sayılmadığı ilin digər vaxtlarına şamil olunmur.

**Məsələ 1588.** Şəhərin 2-3 fərsəxliyinə, yaxud 15-20 kilometrliyinə qədər məsafədə gediş-gəliş edən sürücü və paylayıcı (mal paylayan) təsadüfən səkkiz fərsəx məsafə qət edərsə, namazı müxtəsər qılmalıdır.

**Məsələ 1589.** Şəri məsafəyə çox səfər edən şəxs sayılan (1581-ci məsələdə sadalanan üç qrupa daxil olan) bir insan vətənində on gün, yaxud daha artıq qaldığı təqdirdə (istər əvvəldən on gün və ya daha artıq qalmaq niyyətində olsun, istərsə bu niyyətdə olmadan on gün, yaxud daha artıq qalsın) yenə də on gün və ya daha artıq qaldıqdan sonra çıxdığı ilk səfərdə namazı bütöv qılmalıdır.

Əgər belə bir insan vətənindən başqa bir yerdə on gün, yaxud daha artıq (məqsədli, yaxud məqsədsiz) qalarsa, yenə də bu hökm ona şamil olur. Lakin kirayəçi (yəni sahib olduğu minik heyvanı, yaxud nəqliyyat vasitəsi kirayəyə götürülən və onunla yük, yaxud müsafir daşıyan şəxs, məsələn, avtomobili sərnişin və ya yük daşımaq üçün kirayə edilən, yaxud atı və ya dəvəsi yük daşımaq üçün kirayə edilən çarvadar) xüsusunda əgər belə olarsa, müstəhəb ehtiyata əsasən, on gündən sonra çıxdığı ilk səfərdə namazı həm müxtəsər, həm də bütöv qılmalıdır.

**Məsələ 1590.** Sahib olduğu nəqliyyat vasitəsi ilə sərnişin, yaxud yük daşıyan şəxs kimi işi səfər etmək olan insanlar səfər onlar üçün həddən ziyadə çətin və yorucu olduğu təqdirdə namazı müxtəsər qılmalıdırlar.

**Məsələ 1591.** Şəhərləri gəzib-dolaşan və özünə bir vətən seçməyən şəxs namazını bütöv qılmalıdır.

**Məsələ 1592.** İşi səfər etmək olmayan şəxsin bir şəhərdə, yaxud kənddə bir malı (yükü) vardırsa və onu daşımaq üçün dəfələrlə ardıcıl olaraq oraya səfər edirsə, namazı müxtəsər qılmalıdır. Lakin meyarı 1583-cü məsələdə izah edilən "çox səfər edən şəxslər" qismindən olması istisnadır.

***Doqquzuncu şərt: Vətənindən hərəkət edirsə, tərəxxüs həddini keçməlidir***

**Məsələ 1593.** Vətənindən hərəkət edən şəxs tərəxxüs həddinə çatdıqda namazı müxtəsər olur. Ancaq vətənindən başqa bir yer xüsusunda tərəxxüs həddinin bir əhəmiyyəti yoxdur və yaşadığı yerdən çıxması ilə namazı müxtəsər olur.

**Məsələ 1594.** Tərəxxüs həddi şəhər əhalisinin (hətta şəhərin tabeçiliyində olan yaşayış məntəqələrinin sakinlərinin də) səfərə çıxanın uzaqlaşması səbəbi ilə onu görə bilməyəcəkləri bir yerdir və bunun əlaməti də səfərə çıxanın özünün şəhərin və tabeçiliyində olan yaşayış məntəqələrinin əhalisini görməməsidir.

**Məsələ 1595.** Vətəninə qayıdan müsafir vətəninə daxil olanadək namazını müxtəsər qılmalıdır və bu məsələdə tərəxxüs həddinə

çatıb-çatmamağn bir önəmi yoxdur. Həmçinin, bir yerdə on gün qalmaq istəyən müsafir həmin yerə çatanadək namazını müxtəsər qılmalıdır.

**Məsələ 1596.** Əgər bir şəhər, yaxud kənd yüksəklikdə yerləşərsə və bu səbəbdən əhalisi uzaqdan görünərsə, yaxud insanın bir qədər uzaqlaşdıqda sakinlərini görə bilməyəcəyi qədər çökəklik ərazidə yerləşərsə, həmin şəhərin (kəndin) sakinlərindən səfərə çıxan bir nəfər həmin şəhərdən (kənddən) düzənlik bir yerdə yerləşdiyi fərz edildikdə əhalisinin görünməyəcəyi bir yerə qədər uzaqlaşdıqda namazını müxtəsər qılmalıdır. Həmçinin, əgər yol həddən ziyadə eniş-yoxuşlu olarsa, normal yolu nəzərə almalıdır.

**Məsələ 1597.** Gəmi, yaxud qatara minən və tərəxxüs həddinə çatmamış bütöv namaz niyyəti ilə namaza başlayan, lakin üçüncü rükətin rükusundan öncə tərəxxüs hüdudlarını keçən şəxs namazını müxtəsər etməlidir. Əgər üçüncü rükətin rükusuna əyildikdən sonra və ya daha sonra tərəxxüs hüdudlarını keçərsə, namazını dayandırmalı, başqa bir müxtəsər namaz qılmalıdır və birinci namazı başa çatdırmasına gərək yoxdur.

**Məsələ 1598.** Əgər insanın görmə qabiliyyəti normal deyilsə,[1] namazını normal insanların şəhərin ucqarlarındakı sakinləri görmədiyi yerdə müxtəsər qılmalıdır və burada meyar durbin və texniki vasitələrlə deyil, gözlə görməkdir.

**Məsələ 1599.** Əgər insan səfər əsnasında tərəxxüs həddinə çatıb-çatmadığına şəkk edərsə, namazı bütöv qılmalıdır.

**Məsələ 1600.** Əgər bir şəxs tərəxxüs həddinə çatmadığına əmin, yaxud arxayın olarsa və ya çatıb-çatmadığına şəkk edərsə və namazı bütöv qılarsa, sonradan namaz vaxtı tərəxxüs həddinə çatdığı məlum olarsa, hələ vaxt qaldığı və səfəri davam etdiyi təqdirdə namazını yenidən müxtəsər qılmalıdır. Əgər bu halda namazı qılmazsa, sonradan onun qəzasını vaxtın sonunda üzərində düşən vəzifəyə uyğun olaraq[2] qılmalıdır. Ancaq əgər vaxt başa çatdıqdan sonra səhv etdiyini başa düşərsə, namazın qəzası vacib deyil.

**Məsələ 1601.** Əgər bir şəxs tərəxxüs həddinə çatdığına dair yəqinlik hasil edərək namazı müxtəsər qılarsa və sonradan namaz vaxtı tərəxxüs həddinə çatmadığı məlum olarsa, namazı yenidən qılmalıdır. Beləliklə, bu halda hələ tərəxxüs həddinə çatmadığı təqdirdə namazı bütöv, tərəxxüs həddini keçdiyi təqdirdə isə müxtəsər qılmalıdır. Əgər vaxt keçmişdirsə, namazı vaxtının sonunda üzərinə düşən vəzifəyə müvafiq olaraq qılmalıdır.

[1] Zəif, yaxud güclüdürsə. *Tərc.*

[2] Yəni namaz vaxtının son dəqiqələrində şəraitinə görə namazını bütöv qılmalı olan şəxs onun qəzasını da bütöv qılmalı, müxtəsər qılmalı olan şəxs isə qəzasını da müxtəsər qılmalıdır. *Tərc.*

## Səfəri pozan hallar

Müsafirliyi pozan və səfər edən şəxsin namazını bütöv qılmasına səbəb olan hallar "səfəri pozan hallar" adlandılır. Qarşıdakı məsələlərdə bu hallarla bağlı hökmlər izah ediləcəkdir.

***Birinci hal: Vətəndən keçmək və vətəndə qalmaq niyyəti***

Vətənlə bağlı ümumi hökmlər:

Vətənlə əlaqədar hökmlər

**Məsələ 1602.** Vətən deyərkən aşağıdakı üç yerdən biri nəzərdə tutulur:

1) Əsli vətən: insanın adətən valideynlərinin yaşadığı və özünün doğulub boya-başa çatdığı əsil yaşayış yeridir.
2) Daimi seçilmiş vətən: insanın daimi yaşayışı üçün seçdiyi və ömrünün qalan hissəsini yaşamaq istədiyi yerdir.
3) Müvəqqəti vətən: insanın yaşayış, iş, yaxud təhsili üçün seçdiyi yaşayış yeridir. Burada həmişəlik qalmaq niyyəti olmasa da olar. Əgər ürfün onu orada müsafir adlandırmadığı bir yer olarsa, belə ki, müvəqqəti olaraq on gün, yaxud daha artıq müddət ərzində başqa bir yerdə qalsa da, ürf birinci yeri (müvəqqəti yaşayış yerini) onun məskunlaşdığı yaşayış yeri kimi qəbul edirsə, bu yer onun üçün vətən hesab edilir. Bu yerə "müvəqqəti seçilmiş vətən", yaxud "müvəqqəti vətən" deyilir.

Buna əsasən, on səkkiz ay, yaxud daha artıq müddət ərzində bir yerdə məskunlaşmaq istəyən şəxs, məsələn, on səkkiz və ya daha artıq müddət üçün Tehran şəhərini özü üçün təhsil yeri seçmək və şənbə günündən cümə axşamı gününədək Tehranda qalmaq, cümə axşamı və cümə günləri isə valideynlərinin yanına, öz vətəninə qayıtmayan istəyən Qumlu bir tələbə ilk iki həftə ərzində Tehranda on gün qalmaq məqsədi olmadığı təqdirdə, vacib ehtiyata əsasən, namazını həm müxtəsər, həm də bütöv qılmalıdır. Bundan sonra isə müvəqqəti vətəni hesab edilən Tehran şəhərində namazını bütöv qılmalıdır.

Lakin əgər insan əsli vətəni olmayan bir yerdə qısa müddət ərzində qalmaq istəyirsə, belə ki, həmin yer ürfən onun yaşayış yeri, məkunlaşdığı yer hesab edilmirsə və insanlar onu orada qısa müddət qalmaq, sonra başqa bir yerə getmək niyyətində olan bir müsafir hesab edirsə, bu halda həmin yer sözügedən insanın vətəni hesab edilmir. [1]

---

[1] Bir yerin müvəqqəti vətən sayılması üçün nəzərə alınmalı olan məqamlar aşağıdakılardır: İnsanın həmin yaşayış yerində qaldığı müddət az olmamalıdır. Məsələn, bir şəxs bir neçə il ərzində hər gün yalnız üç, yaxud dörd saat bir yerdə qalmaq niyyətindədirsə, bu müddət həmin yerin onun müvəqqəti vətəni hesab edilməsi üçün kifayət etmir.

Qeyd etmək lazımdır ki, ikinci və üçüncü qisim vətəni (daimi seçilmiş vətən və müvəqqəti seçilmiş vətən) insanın özünün müstəqil surətdə seçməsi ilə həmin yerin başqa bir şəxsdən asılı olaraq onun vətəni hesab edilməsi arasında fərq yoxdur. Məsələn, əgər övlad ürfən valideynin tabeliyində sayılırsa və hələ bu xüsusda qərar qəbul etməkdə müstəqil deyilsə, valideynləri Məşhəd şəhərini özlərinin daimi, yaxud müvəqqəti vətəni seçdiyi və orada məskunlaşdığı təqdirdə Məşhəd şəhəri onlarla birgə Məşhəddə yaşayan həmin övlad üçün də vətən sayılır.

---

Tələb olunan müddət uzun zaman fasiləsi ilə bölünməməlidir.
Gün ərzində saatların və ay ərzində günlərin sayı artdıqca bir yerin müvəqqəti vətən və yaşayış yeri olması üçün daha az müddət tələb olunur. Həmçinin, gün ərzində saatların və ay ərzində günlərin sayı azaldıqca bir yerin müvəqqəti vətən və yaşayış yeri olması üçün daha çox müddət tələb olunur.
Buna əsasən, aşağıdakı cədvəldə bir sıra hallar nümunə olaraq verilmişdir və insanlar ürfün baxşı ilə bağlı tərəddüdə düşdükləri hallarda ürfün nəzərini müəyyən etmək üçün tərtib edilmiş bu cədvəldən yardım ala bilərlər. Digər vəziyyətlərlə bağlı hökm də cədvəldə öz əksini tapan hallarla müqayisə əsasında aydın olur.
Məsələn, əgər bir tələbə üç il ərzində bir şəhərdə təhsil alarsa və hər ay 15 gün bir neçə saatlıq deyil, bütün sutka ərzində həmin şəhərdə, digər 15 gün isə öz vətənində qalarsa, aşağıdakı cədvəlin 2-ci sırasında öz əksini tapdığı kimi sözügedən şəhər onun müvəqqəti vətəni hesab edilir.
Qeyd etmək lazımdır ki, aşağıdakı cədvəldə yer verilən bəzi hallarda nəzərdə tutulan yerin müvvəqəti vətən və yaşayış yeri sayılması şübhə doğurur və həmin hallarda ehtiyatın tələbinə əməl edilməlidir.
Müvəqqəti vətən və yaşayış yeri ilə əlaqədar cədvəl:

| sıra | gün ərzində saatların sayı | ay ərzində günlərin sayı | illərin sayı | müvəqqəti vətən |
|---|---|---|---|---|
| 1 | 24 saat | 22-30 gün | 1,5 il | sayılır |
| 2 | 24 saat | 15 gün | 3 il | sayılır |
| 3 | 24 saat | 7-8 gün | 4 il | sayılır |
| 4 | 24 saat | 6 gün | 5 il və daha az | sayılmır |
| 5 | 24 saat | 6 gün | 5 ildən artıq | ehtiyat lazımdır |
| 6 | 24 saat | 4 gün | 7 il və daha az | sayılmır |
| 7 | 24 saat | 4 gün | 7 ildən artıq | ehtiyat lazımdır |
| 8 | 12 saat | 22 gün | 3 il | sayılır |
| 9 | 12 saat | 15 gün | 5 il | sayılır |
| 10 | 12 saat | 6 gün | 7 il və daha az | sayılmır |
| 11 | 12 saat | 6 gün | 7 ildən artıq | ehtiyat lazımdır |
| 12 | 8 saat | 20 gün | 4 il | sayılır |
| 13 | 6 saat | 22 gün | 4 il | sayılır |
| 14 | 3-4 saat | 30 gün | qeyri-müəyyən müddət ərzində | sayılmır |

**Məsələ 1603.** Bir yeri təhsil, yaxud iş yeri seçən, orada namazını bütöv qılan, bir-birindən şəri məsafə uzaqlığında yerləşən həmin yerlə vətəni arasında gedib gələn, məsələn, bir neçə il orada qalmaq və həmin yerlə vətəni arasında gedib gəlmək istəyən şəxs təhsil aldığı, yaxud işlədiyi yerdə namazını bütöv qılmalıdır. Hər ay məskunlaşdığı yerlə vətəni arasında 10 dəfə gediş-gəliş etdiyi təqdirdə yolda da namazını bütöv qılmalı, 8-9 dəfə gediş-gəliş etdiyi təqdirdə, vacib ehtiyata əsasən, yolda namazını həm müxtəsər, həm də bütöv qılmalı, 7 dəfə gediş-gəliş etdiyi təqdirdə isə yolda namazını müxtəsər qılmalıdır. Beləliklə, bu qəbildən olan hallarda həm müvəqqəti vətən, həm də çox səfər etmə ilə əlaqədar hökmlər nəzərə alınır. [1]

**Məsələ 1604.** Bəzi fəqihlər (Allah onlardan razı olsun!) "şəri vətən" adlı başqa bir vətən kateqoriyasının da olduğunu düşünür və bu barədə deyirlər: "Hər hansı bir yerdə yaşayış evinə sahib olan şəxs əgər altı ardıcıl ay ərzində məskunlaşmaq üçün orada qalarsa, həmin mənzil onun mülkiyyəti olduğu müddət ərzində o yer onun vətəni sayılır. Beləliklə, səfər əsnasında nə zaman həmin yerə çatarsa, namazı bütöv qılmalıdır". Lakin bu hökm sabit deyil. (bu hökmün sabit olmaması fətvaya əsaslanır).

**Məsələ 1605.** İki yerdə yaşayan, məsələn, altı ay bir şəhərdə, altı ay da başqa bir şəhərdə yaşayan şəxs üçün hər iki yer vətəndir. Həmçinin, əgər insan ikidən artıq yeri özü üçün yaşayış yeri seçərsə, həmin yerlərin hamısı onun vətəni sayılır. Məsələn, üç şəhərin ürfən insanın vətəni hesab edilməsi, onun ilin havanın isti olduğu dörd ayını birinci, havanın soyuq olduğu dörd ayını ikinci, ilin digər vaxtlarını isə üçüncü şəhərdə məskunlaşması buna misal ola bilər.

**Məsələ 1606.** Səfərdə vətənindən keçən müsafir əgər orada dayanarsa, səfəri pozulur və şəri məsafəyə növbəti səfərinə çıxanadək namazını bütöv qılmalıdır. Lakin vətəndə qalmadan oradan keçməyin səfərin pozulmasına səbəb olması şübhə doğurur. Buna əsasən, əgər insan vətənindən keçdikdən sonra şəri məsafəyə hərçənd qayıdış yolu ilə birgə hesablamaqla olsa belə bərabər və ya daha uzun olan yeni bir yol qət etmək niyyətində olarsa, namazını müxtəsər qılmalı, əsk təqdirdə, lazım

---

[1] Qeyd etmək lazımdır ki, əgər müvəqqəti yaşayış yerinə gedişlə vətənə qayıdış arasındakı zaman fasiləsi 2, yaxud 3 gün olarsa, gediş və qayıdış ürfən bir səfər hesab edilir. Əgər 5 gün olarsa, gediş və qayıdış ürfən iki ayrı səfər hesab edilir. Əgər 4 dörd gün olarsa, ehtiyatın tələbinə riayət etmək lazımdır. Məsələn, dörd il müddətinə bir şəhəri təhsil, yaxud işi üçün özünə müvəqqəti yaşayış yeri seçmək istəyən bir tələbə, yaxud müəllim hər ay 8 dəfə səhərlər oraya gedərək axşamüstü qayıdır və ayda bir dəfə də 5 gün orada qalır. Belə ki, onun gedişi ilə qayıdışı arasında zaman fasiləsi 5 gün olur. Bu isə ürfən iki ayrı səfər hesab edilir. Beləliklə, onun ay ərzindəki səfərlərinin sayı 10 olur. Nəticə etibarilə o, həm yolda, həm də müvəqqəti yaşayış yerində namazını bütöv qılmalıdır.

ehtiyata əsasən, yolun qalan hissəsində həm müxtəsər, həm də bütöv namaz qılmalıdır.

Məsələn, fərz edək ki, bir şəxs vətənindən (müqəddəs Məşhəd şəhərindən) səkkiz fərsəxlik məsafədə yerləşən bir yerə getmək və orada on gün qalmaq istəyir. Yol əsnasında iki fərsəx məsafə qət etdikdən sonra ikinci vətəninə çatır, ancaq oradan ötüb keçir və orada dayanmır. Bu halda əgər ikinci vətənindən çıxdıqdan sonra yolun qalan altı fərsəxlik hissəsində, qalmaq istədiyi yerə çatmamış namaz qılmaq istəyərsə, lazım ehtiyata əsasən, həm müxtəsər, həm də bütöv namaz qılmalıdır.

**Məsələ 1607.** Səfər əsnasında vətəninə çatan və orada dayanan müsafir orada olduqca namazını bütöv qılmalıdır. Lakin əgər oradan səkkiz fərsəxlik məsafəyə getmək, yaxud dörd fərsəxlik məsafəyə gedərək qayıdanda da eyni məsafəni qət etmək istəyərsə, tərəxxüs həddinə çatdıqda namazı müxtəsər qılmalıdır.

## Vətəndən imtina etməklə əlaqədar hökmlər

**Məsələ 1608.** Əgər insan öz vətənindən vaz keçərsə və artıq orada yaşamaq istəməzsə, oradan çıxdığı zaman vətənindən imtina etmiş olur. Buna əsasən, həmin vaxtdan etibarən nə zaman oraya qohumları ilə görüşmək, ziyarət, gəzinti və s. məqsədlərlə gedərsə, hərçənd özü üçün başqa bir vətən seçməsə belə, o yer onun üçün vətən hökmündə deyil və orada namazını müxtəsər qılmalıdır. Lakin sözügedən şəxsə namazın bütöv qılınmasını tələb edən "çox səfər edən şəxs", yaxud "köçəri" ünvanının şamil olunması, yaxud onun orada on gün qalmaq niyyətində olması istisnadır. Belə olan surətdə o, namazını bütöv qılmalıdır.

**Məsələ 1609.** Vətəndən imtina etməkdə meyar insanın gələcəkdə yaşamaq və məskunlaşmaq üçün oraya qayıtmayacağına arxayın olmasıdır. Buna əsasən, iş ezamiyyəti, evlənmə və təhsil kimi səbəblərlə vətənini tərk edən və başqa bir şəhəri özünə vətən seçən şəxsin gələcəkdə məskunlaşmaq və yaşamaq üçün əvvəlki vətəninə qayıtmasına dair ciddi ehtimal vardırsa, bu halda vətənindən imtina etmiş sayılmır və nə vaxt oraya gedərsə, namazını bütöv qılmalıdır.

Qeyd etmək lazımdır ki, vətən seçmək və vətəndən imtina etmək xüsusunda müstəqil qərar qəbul etmək iqtidarında olmayan, ixtiyar sahibi olmayan və ürfən valideynlərinə, yaxud onlardan birinə tabe sayılan övladlar həddi-büluğa çatıb-çatmadıqlarından asılı olmayaraq vətən seçmək və vətəndən imtina etmək məsələsində onlara tabedirlər. Əks təqdirdə isə onların vətən seçimi və vətəndən imtina etməsində meyar öz qərar və hərəkətləridir.

***İkinci hal: Bir yerdə minimum on gün qalmaq məqsədi***

**Məsələ 1610.** Hər hansı bir yerdə bir neçə gün qalmaq istəyən müsafir qeyd ediləcək şərtlərlə namazını bütöv qılmalıdır.

## On gün qalmaq məqsədi ilə əlaqədar şərtlər

***Birinci şərt: Müsafirin qalma müddəti minimum on gün olmalı və bu günlər ardıcıl olmalıdır***

**Məsələ 1611.** Müsafir birinci gününün sübh azanından onuncu günü qürub çağınadək müvəqqəti məskunlaşdığı yerdə qalmaq istəyərsə, on gün qalmaq məqsədi doğrulur və namazını bütöv qılmalıdır. Onun ilk gecədən on birinci gecəyədək qalmaq niyyətində olması lazım deyil. Lakin ikinci gecədən onuncu gecəyədək orada qalmaq niyyətində olmalıdır. Həmçinin, əgər qalacağı məntəqəyə birinci gün sübh azanından əvvəl daxil olarsa, onun on gününün sonu onuncu günün qürub çağıdır. Buna əsasən, hesablamanın başlanğıcı birinci günün sübh azanıdır.

Birinci günün sübh azanından sonra qalacağı məntəqəyə daxil olan müsafirin on gün qalmaq məqsədi orada 240 saat, yaxud daha artıq qalmaq istədiyi halda doğru sayılır. Buna əsasən, birinci gündən əskik olan vaxt on birinci günün hesabına tamamlanır. Məsələn, əgər müsafir səhər saat 10-da bir şəhərə daxil olarsa, onun on gün qalmaq məqsədi oranı on birinci gün sabah saat 10-dan sonra tərk etmək istədiyi halda doğru sayılır və o, birinci gündən əskik olan vaxtı on birinci gecə ilə tamamlaya bilməz.

**Məsələ 1612.** Bir yerdə on gün qalmaq məqsədi olan müsafir on gün keçdikdən sonra əgər orada on gündən artıq qalmaq istəyərsə, məsələn, daha bir həftə qalmaq istəyərsə, hərçənd əvvəldən orada on gündən artıq qalmaq məqsədi olmasa da, oradan başqa bir yerə səfər etmədikcə namazını bütöv qılmalıdır və istənilən halda yenidən on gün qalmaq niyyətində olmasına gərək yoxdur.

***İkinci şərt: On ardıcıl gün ərzində qalacağına dair ciddi qərar qəbul etməlidir***

**Məsələ 1613.** On ardıcıl gün ərzində bir yerdə qalacağına əmin, yaxud arxayın olan müsafir həmin yerdə namazını bütöv qılmalıdır. Ancaq bir yerdə on gün qalıb-qalmayacağına şəkk edən, yaxud orada on gün qalacağını güman edən müsafir hərçənd on gün qalsa da, namazını müxtəsər qılmalıdır.

**Məsələ 1614.** On gün qalmaq məqsədinin ixtiyari və iradi olması şərt deyil. Buna əsasən, on gün bir yerdə (istər öz iradəsi ilə, istərsə qeyri-ixtiyari olaraq) qalacağını bilən, yaxud buna arxayın olan müsafir namazını

bütöv qılmalıdır. Məsələn, həbs edilən və istəyinin əksinə olaraq on gün, yaxud daha artıq həbsdə qalmağa məcbur olan müsafir şəxs namazını bütöv qılmalıdır.

**Məsələ 1615.** Bir yerdə on gün qalmaq məqsədi olan, lakin məqsədi həyata keçib-keçməyəcəyi məlum olmayan başqa bir işə bağlı olan müsafir namazını müxtəsər qılmalıdır. Buna əsasən, əgər müsafirin məqsədi bir dostu yanına gələcəyi, yaxud yaxşı bir mənzil tapacağı təqdirdə on gün qalmaq, əks təqdirdə isə on gündən tez vətəninə qayıtmaq olarsa və digər tərəfdən də dostunun gələcəyinə, yaxud münasib mənzilin tapılacağına şübhə edirsə, yaxud bunu sadəcə güman edirsə, namazını müxtəsər qılmalıdır. Ancaq dostunun gələcəyinə, yaxud münasib mənzilin tapılacağına əmin, yaxud arxayın olduğu təqdirdə onun on gün qalmaq məqsədi doğru sayılır və namazını bütöv qılmalıdır.

**Məsələ 1616.** On gün bir yerdə qalmaqda qərarlı olan şəxs xəstəlik, səfər xərclərinin bir qismini ödəmək imkanının olmaması, əmək fəaliyyəti ilə əlaqədar hər hansı bir işinin çıxması kimi onun orada qalmasına əngəl törədən hallarla qarşılaşacağını ehtimal edirsə və bu ehtimal aqil insanların nəzərincə diqqətə layiq bir ehtimaldırsa, hərçənd belə bir əngəllə qarşılaşmasa və orada tam on gün qalsa belə, namazı müxtəsər qılmalıdır.

**Məsələ 1617.** Əgər müsafir müəyyən bir günədək bir yerdə qalmaq niyyətindədirsə, lakin qalmaq niyyətində olduğu gündən müəyyən edilmiş həmin günədək olan müddətin on gün olub-olmadığını bilmirsə, hərçənd sonradan həmin müddətin on gün olduğu məlum olsa belə, namazını müxtəsər qılmalıdır.

Məsələn, ramazan ayının 21-ci günü sübh azanı vaxtı müqəddəs Məşhəd şəhərinə daxil olan və Fitr bayramının axşamınadək Məşhəddə qalmaq niyyətində olan, lakin ayın 30, yoxsa 29 günlük olduğunu və bu səbəblə Məşhəddə doqquz, yoxsa on gün qalacağını bilməyən bir müsafir hərçənd sonradan ayın otuz günlük olduğu və on gün qalmaq niyyəti ilə qalmağa başladığı gündən ayın sonuncu gününədək müddətin on günə bərabər olduğu məlum olsa belə, namazını müxtəsər qılmalıdır.

Həmçinin, əgər misal olaraq ayın on 14-cü günü sübh azanı çağı Məşhəd şəhərinə daxil olarsa və məqsədi ayın 23-cü günü başa çatdıqdan sonra vətəninə qayıtmaq niyyətində olarsa, ancaq səhvən Məşhəd şəhərinə gəldiyi günün ayın 15-ci olduğunu zənn edirsə, beləliklə, Məşhəddə doqquz gün qalmaq istədiyini düşünürsə, hərçənd sonradan səhvini başa düşsə belə, bu şəxs namazını müxtəsər qılmalıdır.

**Məsələ 1618.** Əgər müsafir misal olaraq ayın sonuna on gün və ya daha artıq vaxt qaldığını bilirsə və ayın sonunadək bir yerdə qalmağa

niyyət edirsə, namazını bötüv qılmalıdır. Lakin əgər ayın sonuna nə qədər qaldığını bilmirsə və ayın sonunadək qalmaq niyyətindədirsə, hərçənd bu niyyətlə qalmağa başladığı gündən ayın sonuncu gününədək on gün çəksə də, namazını müxtəsər qılmalıdır.

***Üçüncü şərt: Ümumilikdə on gün qalmaq istədiyi yer bir yer olmalıdır***

**Məsələ 1619.** Bir şəhər, yaxud kənd kimi hər hansı bir yerdə on gün qalmaq istəyən müsafir namazını on günü orada keçirmək istədiyi təqdirdə bütöv qılmalıdır. Beləliklə, əgər insan, məsələn, on günün yeddi gününü Nəcəfdə, üç gününü isə Kufədə qalmaq istəyirsə, onun on gün qalmaq məqsədi doğru sayılmır və namazını hər iki şəhərdə müxtəsər qılmalıdır. Eyni hökm Tehran və Kərəc, yaxud Məşhəd və Şandiz və s. şəhərlərə də şamildir.

Həmçinin, əgər insan iki qonşu kənddə cəmi on gün qalmaq istəyərsə, hərçənd həmin iki kənd bir-birinin tərəxxüs hüdudları daxilində yerləşsə də, namazı müxtəsər qılmalıdır.

***Dördüncü şərt: Dördrəkətlik bir əda namazı qılmazdan öncə məqsədindən dönməməlidir***

**Məsələ 1620.** Əgər müsafir bir yerdə on gün qalmaq məqsədindədirsə, dördrəkətlik bir əda namazı qılmamış qalmaq fikrindən əl çəkdiyi, yaxud orada qalıb-qalmamaqda tərəddüd etdiyi təqdirdə namazı müxtəsər qılmalıdır. Lakin əgər dördrəkətlik bir əda namazı qıldıqdan sonra qalmaqdan vaz keçərsə, yaxud tərəddüd edərsə, hərçənd qaldığı müddət on gündən az olsa belə, orada qaldığı müddət ərzində namazı bütöv qılmalıdır.

**Məsələ 1621.** Bir yerdə on gün qalmaq niyyətində olan müsafir oruc tutarsa və zöhrdən sonra orada qalmaqdan vaz keçərsə, dördrəkətlik bir əda namazı qıldığı təqdirdə orada qaldığı müddət ərzində orucu doğrudur və namazlarını bütöv qılmalıdır. Dördrəkətlik bir əda namazı qılmadığı təqdirdə isə, vacib ehtiyata əsasən, həmin günün orucunu başa çatdırmalı və sonradan onun qəzasını da tutmalıdır, namazlarını müxtəsər qılmalıdır və orada qaldığı sonrakı günlərdə də oruc tuta bilməz.

**Məsələ 1622.** Bir yerdə on gün qalmaq niyyətində olan müsafir əgər qalmaqdan vaz keçərsə və qalmaq niyyətindən daşınmasının dördrəkətlik bir əda namaz qılmasından sonra, yoxsa öncə olduğunu bilməzsə, namazlarını müxtəsər qılmalıdır.

**Məsələ 1623.** Bir yerdə on gün qalmaq niyyətində olan müsafir əgər ilk dördrəkətlik əda namazı əsnasında məqsədindən daşınarsa, üçüncü rükətə çatmadığı təqdirdə namazını ikirəkətli namaz kimi tamamlamalı

və digər namazlarını da müxtəsər qılmalıdır. Həmçinin, üçüncü rükətə başladığı, ancaq hələ rükuya getmədiyi təqdirdə də oturmalı və namazını müxtəsər namaz kimi sona çatdırmalıdır. Rükuya getdiyi təqdirdə isə, vacib ehtiyata əsasən, namazı batildir və onu yenidən müxtəsər qılmalıdır.

**Məsələ 1624.** Əgər dostlarının bir yerdə on gün qalmaq istədiyini düşünərək orada on gün qalmağa qərar verərsə və dördrəkətlik bir əda namazı qıldıqdan sonra onların belə bir məqsədi olmadığını başa düşərsə, hərçənd özü də qalmaqdan keçsə belə, orada qaldığı müddət ərzində namazı bütöv qılmalıdır.

***Beşinci şərt: Qaldığı yerdən şəri məsafə həddinədək, yaxud daha artıq uzaqlaşmamalı, həmçinin, on gün ərzində şəri məsafə həddindən uzağa getmək məqsədi olmamalıdır***

**Məsələ 1625.** Bir yerdə on gün qalmaq məqsədində olan və bu məqsədi dördrəkətlik bir əda namazı qılması ilə sabitləşən şəxs əgər təsadüfən on gün ərzində şəri məsafəyə gedərək qaldığı yerə qayıdarsa, hərçənd həmin məsafəyə bir saatlıq, yaxud daha az müddətə getsə belə, on gün qalmaq niyyəti pozulur və bundan sonra namazını müxtəsər qılması vacibdir. Lakin yenidən orada on gün qalmağı qərara aldığı, yaxud şəri məsafə uzaqlığında yerləşən yerdə on gün və ya daha artıq qalmaq niyyətində olduğu halda istisna olaraq namazını həmin yerdə bütöv qılmalıdır.

**Məsələ 1626.** Əgər müsafir bir yerdə on gün qalmaq niyyəti etmək istəyirsə, lakin əvvəldən, dördrəkətli bir əda namazı qılmamış on gün ərzində oradan şəri məsafə uzaqlığında yerləşən bir yerə gedib qayıtmağı qərara almışdırsa, yaxud on gün ərzində oradan şəri məsafə uzaqlığında yerləşən bir yerə gedib qayıdacağına dair məntiqli ehtimal vardırsa, hərçənd on gün ərzində həmin yerə getməsə belə, on gün qalmaq niyyəti sabitləşmir və namazını müxtəsər qılmalıdır.

**Məsələ 1627.** Əgər müsafir on gündən artıq, məsələn, bir ay hər hansı bir yerdə qalmaq istəyirsə və bu müddətin ilk on günü ərzində qaldığı yeri tərk etməmək niyyətindədirsə, lakin ilk on gündən sonra ikinci, yaxud üçüncü ongünlükdə oradan şəri məsafə uzaqlığında yerləşən bir yerə gedib sonra qaldığı yerə qayıtmaq məqsədi, yaxud ehtimalı varsa, qaldığı yeri tərk edənədək namazını bütöv qılmalı və misal olaraq on beşinci gün qaldığı yerin şəri məsafə uzaqlığında yerləşən başqa bir yerə getdikdə şəri iqamət (şəriətə görə on gün qalmaq) niyyəti pozulur və namazını müxtəsər qılmalıdır. Həmçinin, yenidən qaldığı yerə qayıtdıqda da namazını müxtəsər qılmalıdır. Lakin yenidən on gün qalmaq niyyəti etməsi və həmin yerdə on gün, yaxud daha artıq qalmaq istəməsi istisnadır.

***Altıncı şərt: Əvvəldən on gün arasında şəri məsafədən yaxın bir yerə on gün qalmaq niyyəti ilə uzlaşmayan müddət üçün getmək məqsədi olmamalıdır***

**Məsələ 1628.** Bir yerdə on gün qalmaq istəyən müsafir əgər əvvəldən dördrəkətli bir əda namazı qılmamış on gün arasında ürfən başqa bir yer hesab edilən və dörd fərsəxdən az məsafədə yerləşən ətraf məntəqələrdən birinə getmək niyyətində olarsa və əgər oraya gediş-gəliş müddəti ürfən on gün qalmaq niyyəti ilə uzlaşmayacaq qədər -məsələn, bütün bir gün, yaxud bütün bir gecə olarsa, namazı müxtəsər qılmalıdır. Uzlaşdığı -məsələn, hər gün bir-iki saat çəkdiyi- təqdirdə isə namazını bütöv qılmalıdır. Həmçinin, əgər əvvəldən məqsədi, məsələn, zöhr azanından sonra qaldığı yerdən çıxaraq bir qədər sonra qayıtmaq olarsa, hərçənd qayıtma vaxtı qürubdan və gecə düşdükdən bir saat sonra olsa belə, namazı bütöv qılmalıdır. Bu misalda sözügedən müsafir əvvəldən bir neçə dəfə belə etmək niyyətində olarsa, bu hərəkətin iki-üç dəfə təkrarlanmasının eybi yoxdur, ancaq daha artıq təkrarlanması ehtiyat tələb edir və əgər əvvəldən bu hərəkəti ürfən "iki və ya daha artıq yerdə qalır" deyiləcək qədər təkrarlamaq niyyəti olarsa, on gün qalmaq məqsədi doğru sayılmır.

Qeyd etmək lazımdır ki, əgər insan, məsələn, bir ay bir yerdə qalmaq istəyirsə və qalma müddətinin ilk on günü ərzində qaldığı yerdən çıxmamaq, ikinci və üçüncü ongünlükdə isə şəri məsafədən yaxın bir yerə gedib qayıtmaq niyyətindədirsə, hərçənd ikinci və üçüncü ongünlükdə qaldığı yerdən oraya gedib-gəlməsi bir gün, yaxud daha uzun çəksə və bu bir neçə dəfə təkrarlansa da, onun qalmaq məqsədi doğru sayılır və namazını bütöv qılmalıdır.

**Məsələ 1629.** Bir məntəqədə on gün qalmaq məqsədi olan müsafir əgər dördrəkətlik bir əda namazı qıldıqdan, yaxud hərçənd bir bütöv namaz qılmasa da, on gün qaldıqdan sonra dörd fərsəxdən yaxın məsafədə yerləşən başqa bir məntəqəyə getmək istəyərsə, burada bir neçə vəziyyət təsəvvür edilə bilər:

1) Yenidən əvvəl qaldığı məntəqəyə qayıtmaq və orada on gün, yaxud daha az qalmaq niyyətindədirsə, bu halda ikinci məntəqəyə gedərkən, orada ikən, oradan əvvəl qaldığı məntəqəyə qayıdarkən və qayıtdıqdan sonra namazı bütöv qılmalıdır və bu halda ikinci məntəqədə on gün qalmaq niyyətində olması ilə on gündən az qalmaq istəməsi arasında bir fərq yoxdur.
2) İkinci məntəqədə on gün qalmaq, sonra oradan şəri məsafədən uzaq bir yerə getmək niyyətindədirsə, lakin yenidən əvvəl qaldığı məntəqəyə qayıdırsa və oraya qayıdışı yalnız həmin məntəqənin

yolunun üstündə olması ilə əlaqədardırsa, bu halda ikinci məntəqəyə gedərkən və orada namazını bütöv qılmalı, yeni səfərə başladıqdan və ikinci məntəqədən çıxdıqdan sonra isə namazını müxtəsər qılmalıdır. Buna əsasən, belə olan təqdirdə ilk qaldığı məntəqəyə qayıdış yolunda, həmin məntəqədə və ondan sonra səfər əsnasında namazını müxtəsər qılmalıdır.

3) İkinci məntəqədə on gündən az qalmaq, sonra oradan səfərə çıxmaq niyyətindədirsə, lakin ilk qaldığı yerə qayıdırsa və oraya qayıdışı yalnız həmin məntəqənin yolunun üstündə olması ilə əlaqədardırsa, bu halda ikinci məntəqəyə gedərkən, ikinci məntəqədə, birinci məntəqəyə qayıdış yolunda, birinci məntəqədə və ondan sonra səfər əsnasında namazını müxtəsər qılmalıdır.

**Məsələ 1630.** Bir yerdə on gün qalmaq niyyətində olan müsafir namazlarını bütöv qılmalı, vacib orucu tutmalıdır, həmçinin, müstəhəb oruc tuta və zöhr, əsr və işa namazlarının nafilələrini qıla bilər.

***Üçüncü hal: Bir yerdə tərəddüd vəziyyətində otuz gün qalmaq***

**Məsələ 1631.** Əgər müsafir tərəddüd içində bir yerdə otuz gün qalarsa, məsələn, otuz gün boyunca getmək və ya qalmaq arasında tərəddüd edərsə, otuz gün keçdikdən sonra orada hətta az müddət qalsa belə, namazı bütöv qılmalıdır. [1]

**Məsələ 1632.** Bir yerdə doqquz gün, yaxud daha az qalmaq istəyən müsafir əgər orada doqquz gün, yaxud daha az qaldıqdan sonra yenə doqquz gün, yaxud daha az qalmaq istəyərsə, bu minvalla otuz gün namazını müxtəsər qılmalı, otuz gün başa çatdıqdan sonra isə hərçənd orada az müddət qalmaq istəsə də, bütöv qılmalıdır.

**Məsələ 1633.** Müsafir otuz gündən sonra namazını yalnız otuz günü bir yerdə keçirdiyi təqdirdə bütöv qılmalıdır. Beləliklə, əgər otuz günün bir hissəsini bir yerdə, bir hissəsini də başqa bir yerdə keçirərsə, otuz gündən sonra namazını müxtəsər qılmalıdır. Lakin əgər həmin iki yer şəhər və şəhərətrafı kimi şəri məsafədən yaxın olan iki yer olarsa, 1628-ci məsələdə öz əksini tapan izahın bənzəri bu vəziyyətə də şamil olur.

**Məsələ 1634.** Əgər müsafir tərəddüd içində otuz gün bir yerdə qalarsa, sonra qaldığı yerdən dörd fərsəxdən az məsafəyə getmək qərarına gələrsə, sözügedən şəxs on gün bir yerdə qalmaq məqsədi olan və on gün bir yerdə qalan şəxs kimidir. Buna əsasən, 1629-cu məsələdə izah edilən hökmlər ona da şamil olur.

---

[1] Otuz günün hesablanma qaydası 1611-ci məsələdə izah edilən on günün hesablanma qaydası kimidir.

## Müsafirin namazı ilə əlaqədar digər hökmlər

**Məsələ 1635.** Müsafir Məkkə, Mədinə və Kufə şəhərlərinin hər yerində (hətta bu şəhərlərin genişləndirilmiş hissələrində də), habelə Həzrət Hüseynin (ə) hərəmində müqəddəs qəbrinin ətrafında təqribən 11,5 metr məsafəyədək namazını müxtəsər qıla bildiyi kimi bütöv də qıla bilər. Ancaq İmam Hüseynin (ə) hərəminin və Kərbəla şəhərinin digər hissələrində, vacib ehtiyata əsasən, namazı müxtəsər qılmalıdır.

**Məsələ 1636.** Müsafir olduğunu və namazı müxtəsər qılmalı olduğunu bilən şəxs əgər qeyd edilən dörd yerdən başqa bir yerdə qəsdən bütöv qılarsa, namazı batildir.

**Məsələ 1637.** Müsafir olduğunu və namazı müxtəsər qılmalı olduğunu bilən şəxs əgər səhvən (unutqanlıqdan) namazını bütöv qılarsa, namazın vaxtı ərzində səhvini başa düşdüyü təqdirdə həmin namazı yenidən qılmalı, vaxtı keçdikdən sonra başa düşdüyü təqdirdə isə, vacib ehtiyata əsasən, qəzasını qılmalıdır.

**Məsələ 1638.** Namazını müxtəsər qılmalı olduğunu bilməyən və şəri məsafəyə səfər zamanı namazın müxtəsər qılınması ilə bağlı hökm haqqında məlumatı olmayan, yaxud müxtəsər qılınmasının vacib olduğunu bilməyən müsafir namazını bütöv qılarsa, namazı doğrudur və onu vaxtı ərzində təkrarən qılmaq, yaxud vaxtı keçdikdən sonra qəzasını qılmaq vacib deyil.

**Məsələ 1639.** Namazı müxtəsər qılmalı olduğunu bilən və namazların səfər əsnasında müxtəsər qılınmasının vacibliyi ilə bağlı hökm haqqında məlumatı olan müsafir əgər müsafir hökmlərinin bəzi xüsusiyyətləri və təfərrüatlarını bilmirsə, məsələn, səkkiz deyil on fərsəxlik məsafəyə səfər zamanı müxtəsər qılmalı olduğunu zənn edirsə, yaxud Məşhəd və Şandiz kimi iki məntəqədə on gün qalmağın namazı bütöv qılmağa səbəb olduğunu zənn edirsə, namazını bu məlumatsızlıq səbəbi ilə bütöv qıldığı və vaxtı başa çatmamış başa düşdüyü təqdirdə, vacib ehtiyata əsasən, onu təkrarən qılmalı, təkrarən qılmadığı təqdirdə də qəzasını qılmalıdır, lakin vaxtı keçdikdən sonra başa düşdüyü təqdirdə qəzasını qılması vacib deyil.

**Məsələ 1640.** Namazı müxtəsər qılmalı olduğunu bilən müsafir əgər məsələ ilə bağlı hökmü öz vəziyyətinə tətbiq edərkən səhvə yol verdiyinə görə namazı bütöv qılarsa, məsələn, getdiyi yerədək məsafənin səkkiz fərsəxdən az olduğunu zənn edərək həmin səfərdə namazını bütöv qılarsa, namazın vaxtı başa çatmamış səhvini başa düşdüyü, yəni bu misalda getdiyi yerədək məsafənin səkkiz fərsəx, yaxud daha artıq olduğunu başa düşdüyü təqdirdə namazı yenidən müxtəsər namaz kimi

qılmalı, namazın vaxtı keçdikdən sonra səhvini başa düşdüyü təqdirdə isə qəzasını qılması vacib deyil.

**Məsələ 1641.** Əgər müsafir olduğunu unudaraq namazı bütöv qılarsa, yaxud müsafirin namazının müxtəsər olduğunu unudaraq bütöv qılarsa, namazın vaxtı başa çatmamış başa düşdüyü təqdirdə onu müxtəsər qılmalıdır, lakin vaxtı başa çatdıqdan sonra yadına düşdüyü təqdirdə həmin namazın qəzasını qılması vacib deyil.

**Məsələ 1642.** Namazı bütöv qılmalı olan şəxs müxtəsər qılarsa, istənilən halda namazı batildir. Əlbəttə, bu hökm bir yerdə on gün qalmaq niyyəti olan və məsələ ilə bağlı hökmü bilmədiyinə görə namazı müxtəsər qılan müsafirə, vacib ehtiyata əsasən, şamil olunur.

**Məsələ 1643.** Əgər dördrəkətli namaz qılarsa və namaz əsnasında müsafir olduğunu xatırlayarsa, yaxud səfər etdiyi məsafənin səkkiz fərsəx olduğunu başa düşərsə, üçüncü rükətin rükusuna getmədiyi təqdirdə namazı ikirəkətli namaz kimi tamamlamalıdır. Üçüncü rükəti başa çatdırdığı təqdirdə namazı batildir, həmçinin, üçüncü rükətin rükusuna getdiyi təqdirdə də namazı, vacib ehtiyata əsasən, batildir və birrükətlik belə vaxt qaldığı halda namazı təkrarən müxtəsər namaz kimi qılmalı, vaxt qalmadığı təqdirdə isə namazın qəzasını müxtəsər namaz kimi qılmalıdır.

**Məsələ 1644.** Əgər səfər edən şəxs müsafir namazının bəzi xüsusiyyətlərini bilmirsə, məsələn, dörd fərsəxlik yol gedib, qayıdarkən də dörd fərsəx məsafə qət etdikdə namazı müxtəsər qılmalı olduğunu bilmirsə, dördrəkətli namaz niyyəti ilə namaza başladığı və üçüncü rükətin rükusundan öncə məsələni başa düşdüyü təqdirdə namazını ikirəkətli namaz kimi tamamlamalıdır. Üçüncü rükəti başa çatdırdığı təqdirdə namazı batildir, üçüncü rükətin rükusunda başa düşdüyü təqdirdə də, vacib ehtiyata əsasən, namazı batildir və namazın vaxtının başa çatmasına birrükətlik vaxt qaldığı halda onu yenidən müxtəsər namaz kimi qılmalıdır. Ancaq əgər məsələni namazın vaxtı keçdikdən sonra öyrənərsə, həmin namazın qəzasını qılması vacib deyil.

**Məsələ 1645.** Namazı bütöv qılmalı olan müsafir əgər bu məsələni bilmədiyinə görə ikirəkətli namaz niyyəti ilə namaza başlayarsa və namaz əsnasında məsələni başa düşərsə, namazı dördrəkətli namaz kimi sona çatdırmalı və müstəhəb ehtiyata əsasən, namaz başa çatdıqdan sonra onu təkrarən dördrəkətli namaz kimi qılmalıdır.

**Məsələ 1646.** Hələ namaz qılmayan müsafir əgər namazın vaxtı başa çatmamış vətəninə, yaxud on gün qalmaq istədiyi bir yerə çatarsa namazı bütöv qılmalıdır. Müsafir olmayan şəxs əgər namazı vaxtının əvvəlində qılmasa və sonra səfərə çıxsa, səfər əsnasında həmin namazı müxtəsər qılmalıdır.

Əlbəttə, müsafir şəxs namazın vaxtı başladıqdan sonra hərçənd vaxt başa çatmamış vətəninə, yaxud on gün qalmaq istədiyi yerə çatacağını bilsə də, onu səfərdə qıla bilər və əgər belə edərsə, vətəninə, yaxud on gün qalmaq istədiyi yerə çatdıqdan sonra namazı yenidən qılmasına gərək yoxdur.

**Məsələ 1647.** Namazı müxtəsər qılmalı olan müsafirin zöhr, əsr, yaxud işa namazı qəzaya gedərsə, onun qəzasını hərçənd səfərdə olmadığı zaman qılmaq istəsə də, ikirəkətli namaz kimi qılmalıdır. Müsafir olmayan şəxsin bu üç namazından biri qəzaya gedərsə, onun qəzasını hərçənd səfərdə ikən qılmaq istəsə də, dördrəkətli namaz kimi qılmalıdır.

**Məsələ 1648.** Müsafirin müxtəsər namazların hər birindən sonra otuz dəfə "Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər" deməsi müstəhəbdir. Müsafir olan və olmayanlar üçün hər bir vacib namazdan sonra deyilməsi müstəhəb olan bu zikri müsafirin müxtəsər qıldığı zöhr, əsr və işa namazlarından sonra oxuması daha çox tövsiyə edilir. Hətta daha yaxşı olar ki, müsafir bu üç namazdan sonra sözügedən şərif zikri altmış dəfə desin.

# QƏZA NAMAZI

**Məsələ 1649.** Gündəlik namazını vaxtında qılmayan, yaxud qılan, lakin namazı şəriətə görə batil olan şəxs başqa bir vaxt onun qəzasını qılmalıdır. Yalnız cümə namazı istisnadır. Əgər onun vaxtı keçərsə,[1] mükəlləf zöhr namazını qılmalı və zöhr namazını da vaxtında qılmazsa, onun qəzasını qılmalıdır. Bu qaydada mükəlləf vaxtında qılmadığı hər bir vacib namazın (hətta vacib ehtiyata əsasən, nəzirə görə müəyyən edilmiş bir zamanda qılması vacib olan namazın da) qəzasını qılmalıdır. Fitr və qurban bayramı namazının qəzası yoxdur. Ayat namazının qəzası ilə əlaqədar hökmlər qarşıda izah ediləcəkdir. Bu hökmdə qəsdən qılmamaqla unutqanlıq, qəflət və məlumatsızlıq arasında heç bir fərq yoxdur.

Bu hökmdə bir neçə şəxs istisna edilir. O cümlədən:

Namaz vaxtı boyunca həddi-büluğa çatmayan, yaxud dəli (psixoz) olan və ya qeyri-ixtiyari bir amillə əlaqədar olaraq huşsuz vəziyyətdə olan[2] şəxs, həmçinin, namaz vaxtı boyunca heyz, yaxud nifas halında olan qadın.

Lakin namaz vaxtı boyunca yuxuda olan, yaxud sərxoşluq səbəbi ilə namaz qılmayan şəxsin həmin namazın qəzasını qılması vacibdir.

**Məsələ 1650.** Qəza namazı olan şəxs onu qılmaqda səhlənkarlığa yol verməməlidir. Lakin onu dərhal qılması vacib deyil. Ancaq hər hansı bir hadisə ilə əlaqədar olaraq qəza namazlarını təxirə salacağı təqdirdə sonradan onları qılmaq imkanı olacağına arxayın olmayan, məsələn, xəstə olan və öləcəyindən qorxan şəxs qəza namazlarını təxirə salmadan qılmalıdır.

**Məsələ 1651.** Qəza namazı olan şəxs müstəhəb namaz qıla bilər.

**Məsələ 1652.** Gündəlik namazların qəzasında ardıcıllığa riayət etmək vacib deyil. Yalnız eyni günün zöhr və əsr namazı, yaxud eyni axşamın məğrib və işa namazları kimi aralarında ardıcıllıq olan namazlar istisnadır. Ancaq əgər bir günün zöhr, başqa bir günün isə əsr namazı qəzaya gedərsə, yaxud bir axşamın məğrib, başqa bir axşamın isə işa namazı qəzaya gedərsə, onların arasında ardıcıllığa riayət etmək vacib deyil.

---

[1] Cümə namazının vaxtı ürfə görə cümə günü zöhr vaxtının başlanğıcıdır.

[2] Əgər huşsuzluq insanın özündən asılı olan bir səbəbdən irəli gələrsə, məsələn, cərrahiyyə əməliyyatı üçün özünü həkimin əllərinə təslim edərsə, huşsuzluq vəziyyəti bütün namaz vaxtı ərzində davam etdiyi təqdirdə, vacib ehtiyata əsasən, həmin namazın qəzasını qılmalıdır. Namaz vaxtının bir hissəsi ərzində huşsuz vəziyyətdə olarsa, belə ki, namazını vaxtı ərzində hərçənd vacibatla kifayətlənməklə olsa belə, düzgün qaydada bilmək imkanı olduğu halda qılmamışdırsa, onun qəzasını mütləq (fətvaya əsasən) qılmalıdır.

**Məsələ 1653.** İnsan ayat namazı kimi gündəlik olmayan bir neçə namazın qəzasını qılmaq istəyərsə, yaxud məsələn, bir gündəlik olan və bir neçə gündəlik olmayan namazın qəzasını qılmaq istəyərsə, onların arasında ardıcıllığa riayət etməsi vacib deyil.

**Məsələ 1654.** Dördrəkətli bir namazı qılmadığını bilən, ancaq bu namazın zöhr, yoxsa işa namazı olduğunu bilməyən şəxs əgər qılmadığı namazın qəzası niyyəti ilə dördrəkətli bir namaz qılarsa, kifayətdir və Həmd və surəni uca, yaxud ahəstə səslə oxumaq xüsusunda ixtiyar sahibidir, yəni Həmd və surəni uca səslə, yaxud hamısını ahəstə səslə oxuya bilər.

**Məsələ 1655.** Bir neçə sübh, yaxud bir neçə zöhr namazı qəzaya gedən və onların dəqiq sayını bilməyən, yaxud unudan, məsələn, üç, dörd, yoxsa beş namaz olduğunu bilməyən şəxs minimum ehtimala uyğun sayda namaz qılarsa, kafidir. Lakin daha yaxşı olar ki, hamısını qıldığına dair yəqinlik hasil edəcəyi qədər namaz qılsın. Məsələn, əgər neçə sübh namazının qəzaya getdiyini unutmuşdursa və onların sayının ondan artıq olmadığına əmindirsə, daha yaxşı olar ki, ehtiyatən on sübh namazı qılsın.

**Məsələ 1656.** Əgər insan bir qəza namazı olduğunu, yaxud qıldığı namazların doğru olmadığını ehtimal edirsə, ehtiyatən onların qəzasını qılması müstəhəbdir.

**Məsələ 1657.** Keçmiş günlərdən yalnız bir qəza namazı olan şəxs yaxşı olar ki, əgər həmin günün namazının fəzilət vaxtı itirilmirsə, əvvəlcə qəza namazını qılsın, sonra həmin günün namazını qılsın. Həmçinin, əgər keçmiş günlərdən qəza nmazı yoxdursa, ancaq cari günün bir və ya bir neçə namazı qəzaya getmişdirsə, əda vaxtı olan namazın fəzilət vaxtı fövtə verilmədiyi təqdirdə daha yaxşı olar ki, həmin günün qəza namazını əda namazından əvvəl qılsın.

**Məsələ 1658.** Əgər namaz əsnasında həmin günün bir və ya bir neçə namazının qəzaya getdiyini, yaxud əvvəlki günlərdən yalnız bir qəza namazı olduğunu xatırlayarsa, vaxt geniş olduğu, niyyəti qəza namazına çevirmək mümkün olduğu və həmin namazın fəzilət vaxtının fövtə getməyəcəyi təqdirdə daha yaxşı olar ki, qəza namazı niyyəti etsin. Məsələn, əgər zöhr namazında üçüncü rükətin rükusundan öncə həmin günün sübh namazının qəzaya getdiyini xatırlayarsa, zöhr namazının fəzilət vaxtı məhdud olmadığı təqdirdə niyyətini sübh namazına çevirərək qıldığı namazı ikirəkətli namaz kimi tamamlamalı, sonra zöhr namazını qılmalıdır. Lakin əgər zöhr namazının vaxtı məhduddursa, yaxud niyyətini qəza namazına çevirməsi mümkün deyilsə, məsələn, zöhr namazının üçüncü rükətinin rükusunda sübh namazını qılmadığını xatırlayarsa,

sübh namazı niyyəti etmək istədiyi təqdirdə rükn olan bir rüku artıq yerinə yetirildiyinə görə, niyyəti sübh namazının qəzasına çevirməməlidir.

**Məsələ 1659.** Əgər keçmiş günlərdən qəza namazı vardırsa və cari günün də bir və ya bir neçə namazı qəzaya getmişdirsə, onların hamısının qəzasını qılmaq üçün vaxtı olmadığı, yaxud onların hamısını həmin gün qılmaq istəmədiyi təqdirdə həmin günün qəza namazını əda namazından öncə qılması müstəhəbdir.

**Məsələ 1660.** İnsan sağ ikən (hərçənd, öz namazlarının qəzasını qılmağa qadir olmasa da) başqa bir şəxs onun namazlarının qəzasını qıla bilməz.

**Məsələ 1661.** Qəza namazını imamın namazının əda, yoxsa qəza olmasından asılı olmayaraq camaata qoşularaq qılmaq olar və onların (imam və məmumun) eyni namazı qılması şərt deyil. Məsələn, əgər insan sübh namazının qəzasını imamın zöhr, yaxud əsr namazına qoşularaq qılarsa, namazına xələl gəlmir. Lakin imamın qıldığı qəza namazının dəqiq qəza namazı olması şərtdir. Əgər imamın qıldığı qəza namazı ehtiyatən qılınan namaz olarsa, vacib ehtiyata əsasən, ona qoşulmaq olmaz. Ancaq məmumun da namazının ehtiyatən qılınan namaz olması və imamın ehtiyat səbəbinin məmumun da ehtiyat səbəbi olması istisnadır. [1] İmamın qıldığı qəza namazının dəqiq, yoxsa ehtiyatən qılınan namaz olduğunu bilməyən məmum üçün bunu araşdırmaq vacib deyil.

**Məsələ 1662.** Müməyyiz (yəni yaxşı ilə pisi ayırd edə bilən) uşağı namaz qılmağa və digər ibadətlərə adət etdirmək müstəhəbdir. Hətta onu namazların qəzasını qılmağa da sövq etmək müstəhəbdir. Lakin bu iş onun narahat olmasına və namazdan, yaxud digər ibadətlərdən bezməsinə səbəb olacaq şəkildə görülməməlidir.

## Atanın (böyük oğula vacib olan) qəza namazı

**Məsələ 1663.** Əgər ata namazını qılmazsa, qeyd ediləcək şərtlər daxilində ehtiyata əsasən, böyük oğula vacibdir ki, onun vəfatından sonra həmin namazı qılsın, yaxud onun üçün əcir (muzdlu) tutsun.

## Atanın qəza namazının böyük oğula vacib olmasının şərtləri

***Birinci şərt: Atanın namazı üzürlü səbəbdən qılmaması***

**Məsələ 1664.** Atanın qəza namazı böyük oğula o halda ehtiyata əsasən vacib olur ki, ata onu üzürlü səbəbdən, məsələn, unutduğuna, yaxud yatıb qaldığına görə qılmamışdır və ya qıldığı namazlar hər hansı

[1] Əgər imam və məmum (yaxud məmumlar) dünyasını dəyişmiş bir şəxs üçün ehtiyat qəza namazı qılarlarsa, onların hamısının ehtiyat səbəbinin eyni olmasına gərək yoxdur və həmin mərhumun qəza namazlarını qılmaq niyyəti ilə namaz qılarlarsa, kifayətdir.

bir məsələ ilə bağlı məlumatsızlıq səbəbi ilə şəriətə görə batil sayılır. Bu, onun həmin məsələni öyrənməkdə səhlənkarlığa yol vermədiyi (qasir cahil olduğu) hala aiddir. Ancaq bəzi namazlarını qəsdən qılmadığı, yaxud öyrənməkdə səhlənkarlığa yol verdiyi bir məsələni bilmədiyinə görə namazı batil olduğu təqdirdə onun qəzası böyük oğula vacib deyil.

*İkinci şərt: Atanın sağlığında namazın qəzasını qılmağa qadir olması*

**Məsələ 1665.** Əgər ata namazın qəzasını (hərçənd, ayaq üstə namaz qıla bilməyən şəxsin oturaq, yaxud uzanmış vəziyyətdə namaz qılması kimi zərurət halları üçün nəzərdə tutulmuş qaydada qılmaq surəti ilə olsa belə) qılmağa qadir deyildisə və elə həmin halda vəfat etmişdirsə, onun qəzası böyük oğula vacib deyil. [1]

*Üçüncü şərt: Atanın onun üçün əcir tutmağı vəsiyyət etməməsi*

**Məsələ 1666.** Əgər dünyasını dəyişən şəxs namazının (qəzasının) qılınması üçün əcir tutulmasını vəsiyyət edərsə, vəsiyyəti doğru sayıldığı, məsələn, bunun üçün əmlakının üçdə birindən istifadə etməyi vəsiyyət etdiyi təqdirdə böyük oğula qəza namazını qılmaq vacib deyil, onun vəsiyyətinə uyğun olaraq qəza namazlarını qılmaq üçün əcir tutmaq vacibdir.

*Dördüncü şərt: Böyük oğulun atanın vəfatı zamanı dəli, yaxud həddi-buluğa çatmamış şəxs olmaması*

**Məsələ 1667.** Əgər böyük oğul atasının vəfatı zamanı həddi-büluğa çatmamış şəxs, yaxud dəli olarsa, həddi-büluğa çatdıqda, yaxud əqli sağlamlığı bərpa olduqda atasının namazının qəzasını qılması vacib deyil.

*Beşinci şərt: Böyük oğulun şəriətə görə varislik hüququndan məhrum olmaması*

**Məsələ 1668.** Əgər böyük oğul atasını qətlə yetirmək kimi mirasdan məhrum olma səbəblərindən biri ilə əlaqədar olaraq şəriətə görə miras payı əldə etmirsə, onun atasının qəza namazlarını qılması vacib deyil.

*Altıncı şərt: Böyük oğulun məlum olması*

**Məsələ 1669.** Əgər böyük oğulun hansı şəxs olduğu məlum deyilsə, atanın namazının qəzası oğullardan heç birinə vacib deyil. Lakin müstəhəb ehtiyat onun namazları öz aralarında bölüşdürmələrini, yaxud onların qılınması üçün püşk atmalarını tələb edir.

**Məsələ 1670.** Böyük oğul deyərkən atanın vəfatı zamanı sağ olan ən böyük oğul nəzərdə tutulur. Buna əsasən, misal üçün iki oğlu olan,

---

[1] Sübh namazını yatıb qalaraq qəzaya verməsini və gün çıxdıqdan sonra elə yuxuda dünyasını dəyişməsini buna misal göstərmək olar.

ancaq böyük oğlunu sağlığında itirən bir ata vəfat edərkən sağ olan digər oğlu böyük oğul hesab edilir.

## Atanın qəza namazı ilə əlaqədar digər hökmlər

**Məsələ 1671.** Əgər böyük oğul atasının qəza namazı olub-olmadığına şəkk edirsə, ona heç nə vacib deyil.

**Məsələ 1672.** Əgər böyük oğul atasının qəza namazı olduğunu bilirsə, ancaq onu qılıb-qılmadığına şəkk edirsə (digər şərtlər də mövcud olduğu təqdirdə), ehtiyata əsasən, həmin namazın qəzasını qılması vacibdir.

**Məsələ 1673.** Atanın qəza namazlarının böyük oğula vacib olması hökmü yövmiyyə (sutka ərzində beş vaxtda qılınan) namazlarla məhdudlaşmır, ayat namazı, təvaf namazı kimi sağlığında ona vacib olan digər namazlara da şamildir. Ancaq ataya nəzirlə əlaqədar olaraq vacib olan hər hansı bir müstəhəb namazın, həmçinin, ataya əcir tutulması və ya digər hallarla əlaqədar olaraq vacib olan başqa bir şəxsin qəza namazının qılınması böyük oğula vacib deyil.

**Məsələ 1674.** Əgər böyük oğul atasının qəza namazını qılmamış vəfat edərsə, ikinci oğula vacib olan bir şey yoxdur.

**Məsələ 1675.** Atasının qəza namazlarını qılan böyük oğul namazda şəkk və səhv məsələlərində, habelə, onun hissələri və şərtləri xüsusunda öz vəzifəsinə (təqlid etdiyi müctəhidin nəzərinə) uyğun qaydada hərəkət etməlidir. Hətta atanın namazlarının qəzasının qılınmasının vacib olub-olmaması məsələsinin özü ilə bağlı da hökm belədir.

**Məsələ 1676.** Ananın namazlarının qəzası böyük oğula vacib deyil. Hərçənd, müstəhəb ehtiyat böyük oğulun ananın qəza namazlarını da atanın qəza namazları üçün izah edilən qaydada qılmasını, yaxud bunun üçün əcir tutmasını tələb edir.

**Məsələ 1677.** Əgər böyük oğul ananın qəza namazını qılmaq istəyərsə, Həmd və surənin uca, yaxud ahəstə səslə oxumaq məsələsində öz vəzifəsinə uyğun hərəkət edərək anasının sübh, zöhr və işa namazlarının Həmd və surəsini uca səslə oxumalıdır.

# CAMAAT NAMAZI

## Camaat namazı ilə əlaqədar hökmlər

**Məsələ 1678.** İnsanın gündəlik namazları camaatla qılması müstəhəbdir. Mötəbər hədislərdə deyilir ki, camaatla qılınan namaz fərdi qaydada qılınan namazdan iyirmi beş qat daha fəzilətlidir. Sübh, məğrib və işa namazlarının camaatla qılınması, xüsusən, məscidin qonşuluğunda yaşayan və məscidin azan səsini eşidən şəxs üçün daha çox tövsiyə edilmişdir. Həmçinin, digər vacib namazların da camaatla qılınması müstəhəbdir. Lakin vacib ehtiyata əsasən, təvaf namazı və Günəş və Ay tutulması istisna olmaqla digər səbəblərlə əlaqədar olaraq qılınan ayat namazının camaatla qılınması doğru deyil.

**Məsələ 1679.** İnsanın namazı camaatla qılmaq üçün bir qədər gözləməsi müstəhəbdir. Camaatla qılınan qısa namaz fərdi qaydada qılınan uzun namazdan daha üstündür. Həmçinin, camaat namazı vaxtın başlanğıcında fərdi qaydada (yəni təkbaşına) qılınan namazdan daha üstündür. Ancaq fəzilət vaxtından başqa vaxt qılınan camaat namazının fəzilət vaxtında qılınan fərdi namazdan üstün olması məlum deyil.

**Məsələ 1680.** Etinasızlıq səbəbi ilə camaat namazında iştirak etməmək caiz deyil və insana üzürlü səbəb olmadan camaat namazını tərk etmək yaraşmır.

**Məsələ 1681.** Əgər imam, yaxud məmum camaatla qıldığı namazı təkrarən camaatla qılmaq istəyərsə, hərçənd müstəhəbliyi sabit olmasa da, həmin namazın rəcaən (savab ümidi ilə) yenidən qılınmasına bir əngəl yoxdur. Vacib namazını qılmayan məmumun namazını ikinci dəfə qılan imama qoşulmasına da rəcaən əngəl yoxdur. Lakin vacib ehtiyata əsasən, məmum bu namazla kifayətlənə bilməz.

**Məsələ 1682.** Namazda onun batil olmasına səbəb olacaq qədər vasvasılıq edən və yalnız namazını camaatla qıldığı təqdirdə vasvasılıqdan yaxa qurtaran şəxs namazı camaatla qılmalıdır. [1]

**Məsələ 1683.** Əgər ata, yaxud ana övladından namazı camaatla qılmağı tələb edirsə, müstəhəb ehtiyata əsasən, namazı camaatla qılmalıdır. Əlbəttə, əgər valideynin tələbi və qadağası övlada qarşı qayğısından irəli gəlirsə və buna qarşı çıxmaq onların narahatçılığına səbəb olarsa, övladın qarşı çıxması haramdır.

**Məsələ 1684.** Camaat namazı təşkil olunduqda müstəhəbdir ki, namazını fərdi qaydada qılan şəxs onu yenidən camaatla qılsın və əgər o,

---

[1] Namazı camaatla qılmaq xüsusunda 1695-ci məsələdə qeyd edilən məqamı nəzərə almalıdır.

sonradan birinci namazının batil olduğunu başa düşərsə, ikinci namazı kifayətdir.

**Məsələ 1685.** İmam gündəlik namazı qılarkən gündəlik namazların istənilən birini ona qoşularaq qılmaq olar.

**Məsələ 1686.** Əgər imam özünün, yaxud başqa bir şəxsin qəzaya getməsi dəqiq olan gündəlik namazını qılırsa, ona qoşulmaq olar. Lakin əgər özünün, yaxud başqa bir şəxsin namazını ehtiyatən qılırsa, vacib ehtiyata əsasən, ona qoşulmaq caiz deyil. Lakin məmumun da namazını ehtiyatən qılması və imamın ehtiyat səbəbinin məmumun da ehtiyat səbəbi olması, məsələn, hər ikisinin birgə qıldıqları bir namazda, yaxud əvvəlki namazlarda qiblə xüsusunda səhvə yol verməsi ehtimalı ilə əlaqədar olaraq onları təkrarən qılması və ya birlikdə namaz qıldıqları yerin qəsb edilmiş yer olması ehtimalı ilə əlaqədar olaraq həmin namazı yenidən qılması kimi hallar istisnadır. Qeyd etmək lazımdır ki, əgər məmumun ehtiyatı üçün imamın ehtiyat səbəbi ilə yanaşı başqa səbəb, yaxud səbəblər də olarsa, yenə də bu namazda ona qoşula bilər.

**Məsələ 1687.** İnsan əvvəldən müstəhəb olan bir müstəhəb namazı camaatla qıla bilməz (əlbəttə, bu hökm bəzi hallarda vacib ehtiyata əsaslanır). Lakin yağış yağması üçün qılınan istisqa namazını camaatla qılmaq olar. Həmçinin, vacib olub müəyyən bir səbəbdən müstəhəbləşən namazı camaatla qılmaq olar. Məsələn, imamın insanların arasında olduğu dövrdə vacib olan və onun qaib olmasına görə müstəhəbləşən fitr və qurban bayramı namazları bu qəbildəndir.

**Məsələ 1688.** Əgər insan imamın qıldığı namazın gündəlik, yoxsa müstəhəb namaz olduğunu bilmirsə, ona qoşula bilməz.

## Qiraət və zikrlərin məmum tərəfindən oxunması ilə əlaqədar hökmlər

**Məsələ 1689.** Məmum Həmd və surə istisna olmaqla[1] namazın digər zikrlərini özü oxumalıdır.

**Məsələ 1690.** Məmum sübh, məğrib və işa namazlarının birinci və ikinci rükətlərində Həmd və surənin qiraəti zamanı imamın səsini eşidirsə, hərçənd sözləri ayırd edə bilməsə də, Həmd və surəni oxumamalıdır. Əgər imamın səsini eşitmirsə, Həmd və surəni oxuması müstəhəbdir. Lakin gərək ahəstə səslə oxusun. Hətta "Bismillahir-rəhmanir-rəhim"i-ni də, vacib ehtiyata əsasən, ahəstə səslə oxumalıdır. Səhvən, yaxud bu məsələni bilmədiyinə görə uca səslə oxuyarsa, namazı doğrudur.

---

[1] Əlbəttə, məmumun bir və ya bir neçə rükət gecikməsi kimi bəzi hallarda qarşıdakı məsələlərdə izah ediləcək qaydada Həmd və surəni də oxumaq vacibdir.

**Məsələ 1691.** Əgər məmum imamın oxuduğu Həmd və surənin bəzi sözlərini eşidirsə, eşitmədiyi hissəni özü oxuya bilər.

**Məsələ 1692.** Əgər məmum səhvən Həmd və surəni oxuyarsa, yaxud eşitdiyi səsin imamın səsi olmadığını zənn edərək Həmd və surəni oxuyarsa və sonradan imamın səsi olduğunu başa düşərsə, namazı doğrudur.

**Məsələ 1693.** Əgər məmum imamın səsini eşidib-eşitmədiyinə şəkk edirsə, yaxud bir səs eşidirsə və onun imamın, yoxsa başqa bir şəxsin səsi olduğunu bilmirsə, Həmd və surəni oxuya bilər.

**Məsələ 1694.** Məmum zöhr və əsr namazlarının birinci və ikinci rükətlərində, vacib ehtiyata əsasən, Həmd və surəni oxumamalıdır və onların yerinə zikr deməsi müstəhəbdir.

## Camaat namazının doğru olmasının şərtləri

Camaat namazının doğru olmasının qarşıdakı məsələlərdə izah ediləcək on bir şərti vardır:

***Birinci şərt: Məmumun imama qoşulmaq niyyəti olmalıdır***

**Məsələ 1695.** Əgər məmumun imama qoşulmaqda məqsədi uca Allaha yaxınlaşmaq olarsa, kafidir. Ancaq əgər onun imama qoşulması vəsvəsədən qurtulmaq, yaxud namazın qılınmasının onun üçün asan olması kimi başqa bir məqsəddən irəli gəlirsə, bu məqsəddə də Allaha yaxınlaşmaq niyyəti olduğu təqdirdə camaata qoşulması doğrudur. Lakin bu məqsəddə Allaha yaxınlaşmaq niyyətinin olmadığı təqdirdə, vacib ehtiyata əsasən, camaatla qıldığı namazı doğru deyil.

***İkinci şərt: İmam və məmum arasında, həmçinin, məmum və onunla imam arasında vasitə olan digər məmum arasında maneə olmamalıdır***

**Məsələ 1696.** Camaat namazının doğruluğunun ikinci şərtində nəzərdə tutulan maneə onları bir-birindən ayıran hər hansı bir şeydir. İstər bu maneə pərdə, divar və bu qəbildən olan şeylər kimi onların bir-birini görməsinə əngəl olsun, istərsə şəffaf və rəngsiz şüşə kimi əngəl olmasın. Beləliklə, əgər namazın bütün, yaxud bəzi hallarında imam və məmum, yaxud məmum və onunla imam arasında qoşulma vasitəsi olan digər məmum arasında belə bir maneə olarsa, camaat namazı batil olacaqdır. Qadınlar sonrakı məsələdə qeyd ediləcəyi kimi bu hökmdə istisna təşkil edir.

**Məsələ 1697.** Əgər imam kişi, məmum isə qadın olarsa, həmin qadın və imam arasında, yaxud həmin qadın və onun imama qoşulma vasitəsi olan digər bir kişi məmum arasında şüşə və bu qəbildən olan bir maneə olarsa, namaza xələl gəlmir. Lakin qadınlardan ibarət cərgələr arasında,

həmçinin, imam və məmumun hər ikisinin qadın olduğu halda maneənin mövcudluğu ilə əlaqədar hökmlər eynilə kişilərin camaat namazında maneənin varlığı ilə əlaqədar hökmlər kimidir.

**Məsələ 1698.** Əgər namaza başladıqdan sonra məmum və imam arasında, yaxud məmum və onun imama qoşulmasına vasitə olan şəxs arasında pərdə asılarsa, yaxud başqa bir maneə yaranarsa, camaat namazı batil olur və məmum təkbaşına namaz qılan şəxsin vəzifəsinə uyğun hərəkət etməlidir. Əlbəttə, artıq qeyd edildiyi kimi qadın bu hökmdə istisna təşkil edir.

**Məsələ 1699.** Əgər hər hansı bir maneənin mövcudluğu deyil, birinci cərgənin uzun olması səbəbi ilə cərgənin iki tərəfində duran şəxslər imamı görmürlərsə, ona qoşula bilərlər. Həmçinin, əgər digər cərgələrin də hər hansı birinin uzun olması səbəbi ilə onun iki tərəfində duran şəxslər qarşılarındakı cərgəni görə bilmirlərsə, qoşula bilərlər.

**Məsələ 1700.** Əgər camaat namazının cərgələri məscidin açıq olan qapısınadək çatarsa, qapının astanasında və bir cərgənin arxasında duran, özü ilə məscidin içində olan qarşısındakı cərgə arasında maneə olmayan məmumun, həmçinin, onun arxasında qoşulanların camaat namazı doğrudur. Hətta məscidin qapısından çöldə təşkil olunan cərgənin iki tərəfində duran və başqa bir məmum vasitəsi ilə camaata qoşulanların da camaat namazı, hərçənd öz qarşılarındakı məscidin daxilində olan cərgənin fərdlərindən heç birini aralarındakı maneəyə (məscidin divarına) görə bilməsələr də, doğrudur. Ümumiyyətlə, camaat namazının doğru olması üçün məmumun önündəki cərgədən ən azı bir nəfəri görməsi şərt deyil və qoşulma kifayətdir.

**Məsələ 1701. Sütünün arxasında duran şəxs əgər sağ, yaxud sol tərəfdən başqa bir məmum vasitəsi ilə imama qoşulmuş vəziyyətdə deyilsə, camaat namazında iştirak edə bilməz. Lakin sağ, yaxud sol tərəfdən imama qoşulduğu təqdirdə hərçənd qarşısındakı cərgənin məmumlarından heç birini görə bilməsə də, iştirak edə bilər.**

***Üçüncü şərt: İmamın durduğu yer məmumun yerindən hündür olmamalıdır***

**Məsələ 1702.** Əgər imamın durduğu yer məmumun durduğu yerdən cüzi hündür olarsa, namaza xələl gəlmir. Həmçinin, əgər yer kələ-kötür olarsa və imam hündür olan tərəfdə durarsa, yerin kələ-kötürlüyü həddən ziyadə olmadığı və hamar yer deyilə biləcək bir yer olduğu halda maneəsi yoxdur.

**Məsələ 1703.** Əgər məmumun yeri imamın yerindən hündür olarsa, namaza xələl gəlmir. Lakin əgər "camaat halında toplaşmışlar" deyilməyəcək qədər hündür olarsa, camaat namazı doğru deyil.

***Dördüncü şərt: Məmum imamdan qabaqda durmamalıdır***

**Məsələ 1704.** Məmum kişi və ya qadın, yaxud bir və ya bir neçə nəfər olmasından asılı olmayaraq, imamdan öndə durmamalıdır. Hətta əgər camaat namazında birdən artıq sayda kişi məmum iştirak edirsə, vacib ehtiyata əsasən, imamın arxasında durmalıdırlar. Lakin əgər kişi məmum bir nəfər olarsa, imamla eyni sırada durması namaza xələl gətirmir və müstəhəb ehtiyata əsasən, onun rüku, səcdə və oturma yeri də imamınkından öndə olmamalıdır.

**Məsələ 1705.** Əgər məmum qadın, imam isə kişi olarsa, vacib ehtiyata əsasən, qadın məmum imamdan arxada durmalıdır və bu məsafə fərqi ən azı o qədər olmalıdır ki, onun səcdə yeri imamın dizlərinin səcdə halında dəydiyi yerə paralel düşməlidir. Müstəhəb ehtiyatın tələbi isə budur ki, qadının səcdə yeri imamın durduğu yerin tamamilə arxasına düşəcək şəkildə arxada olmalıdır. Həmçinin, əgər qadın məmumun imama qoşulma vasitəsi kişi məmumdursa, vacib ehtiyata əsasən, qadın məmum ən azı səcdə yeri kişi məmumun dizlərinin səcdə halında dəydiyi yerə paralel düşəcək qədər ondan arxada durmalıdır. Müstəhəb ehtiyatın tələbi isə budur ki, qadının səcdə yeri kişi məmumun durduğu yerin tamamilə arxasına düşəcək şəkildə ondan arxada olmalıdır.

**Məsələ 1706.** Əgər imam və məmumun hər ikisi qadın olarsa, vacib ehtiyata əsasən, imam və birinci cərgənin məmumları bir sıra durmalı və imam başqalarından öndə durmamalıdır.

**Məsələ 1707.** Əgər məmum bir kişi olarsa, imamın sağ tərəfində durması müstəhəbdir. Əgər bir qadın olarsa, yenə də imamın sağında durması müstəhəbdir, lakin lazım ehtiyata əsasən, imamdan ən azı səcdə yeri onun dizlərinin səcdə halında dəydiyi yerə paralel düşəcək qədər arxada durmalıdır. Müstəhəb ehtiyatın tələbi isə budur ki, qadının səcdə yeri imamın durduğu yerin tamamilə arxasına düşəcək şəkildə arxada olmalıdır.

**Məsələ 1708.** Əgər məmumlar bir kişi və bir qadın, yaxud bir kişi və bir neçə qadın olarsa, müstəhəbdir ki, kişi imamın sağ tərəfində, qadın, yaxud qadınlar isə imamın arxasında dursun. Ehtiyata əsasən, qadın məmumların imamdan ən azı əvvəlki məsələdə izah edilən qədər arxada durması lazımdır.

**Məsələ 1709.** Əgər məmumlar bir neçə kişi və bir, yaxud bir neçə qadın olarsa, müstəhəbdir ki, kişilər imamın arxasında, qadınlar da kişilərin arxasında dursunlar və qadının, yaxud qadınların imamdan ehtiyata əsasən, azı nə qədər arxada durmalı olması 1707-ci məsələdə izah edilmişdir.

***Beşinci şərt: Camaat namazının cərgələri arasında qoşulma qaydasında olmalıdır***

**Məsələ 1710.** Camaat namazında məmumla imam arasındakı məsafə insanların nəzərincə çox olmamalıdır. Hətta vacib ehtiyata əsasən, məmumun səcdə yeri ilə imamın durduğu yer arasında ən iri normal addımdan[1] artıq məsafə olmamalıdır. Bu hökm insanın qarşısında duran və vasitəsi ilə imama qoşulduğu məmumla arasındakı məsafəyə də şamildir. Müstəhəb ehtiyata əsasən, məmumun durduğu yer ilə imamın, yaxud qarşısındakı şəxsin durduğu yer arasında insanın səcdə halındakı boy ölçüsündən artıq məsafə olmamalıdır.

**Məsələ 1711.** Əgər məmum ön tərəfdən imama qoşulmamışdırsa, lakin sağ, yaxud sol tərəfində camaat namazında iştirak edən bir şəxs vasitəsilə imama qoşulmuşdursa, məmum və onun imama qoşulmasına vasitə olan şəxs arasındakı məsafə insanların nəzərincə çox olmamalıdır. Hətta, lazım ehtiyata əsasən, onun sağ, yaxud sol tərəfində camaata qoşulmuş şəxslə arasında ən iri normal addımdan artıq məsafə olmamalıdır.

**Məsələ 1712.** Əgər məmum digər məmumlar vasitəsi ilə imama qoşulmaq istəyirsə, imama özünün ön, sağ və sol tərəfindəki məmumlar vasitəsilə qoşulması mümkündür, lakin öz arxasındakı məmum vasitəsilə qoşula bilməz. Həmçinin, məmumun üç tərəfdən (ön, sağ və sol tərəflərdən) imama qoşulmasına gərək yoxdur, bir tərəfdən qoşulma kifayətdir.

**Məsələ 1713.** Əgər namaz əsnasında məmum və imam, yaxud məmum və onun imama qoşulmasına vasitə olan şəxs arasında həddən ziyadə məsafə yaranarsa, məmumun imamla əlaqəsi kəsilir və namaz fərdi namaza çevrilir. Hətta əgər bir iri addımdan artıq məsafə yaranarsa, hərçənd həddən ziyadə məsafə sayılmasa da, vacib ehtiyata əsasən, məmumun namazı fərdi namaza çevrilir və namazını fərdi namaz niyyəti ilə davam etdirə bilər.

**Məsələ 1714.** İmamın təkbirət əl-ehramından sonra əgər insanın imama qoşulması üçün vasitə olan ön cərgədəki bəzi şəxslər namaza hazırdırlarsa və tezliklə təkbir deyəcəklərsə, hərçənd onlar hələ təkbir deməmiş olsa belə, sonrakı cərgədə duran namaz qılan təkbir deyə bilər. Həmçinin, əgər məmum birinci cərgədə durmuşdursa, imamın təkbirindən sonra onun imama qoşulmasına vasitə olan məmumlar namaza hazır olduğu və tezliklə təkbir deyəcəkləri təqdirdə təkbiri deyə bilər. Lakin müstəhəb ehtiyata əsasən, hər iki halda məmum onun imama qoşulma vasitəsi olan məmumların təkbiri tamamlananadək gözləməli, sonra təkbirət əl-ehramı deməlidir.

---

[1] Ən iri normal addım təqribən 1 metrə bərabərdir.

**Məsələ 1715.** Əgər insanın qarşısındakı cərgədə olan bütün şəxslərin namazı başa çatarsa və onlar dərhal başqa bir namaz üçün imama qoşulmazlarsa, arxa cərgədə olan şəxslərlə namazları başa çatan şəxslərdən öncəki cərgədə duran şəxslər arasındakı məsafə insanların nəzərincə çox olarsa, arxa cərgənin camaat namazı batil olur və fərdi namaza çevrilir. Həmçinin, əgər sözügedən məsafə çox olmazsa, lakin ön cərgədə namazı başa çatan və imama yenidən qoşulmaq niyyəti olmayan şəxslər ürfən maneə hesab ediləcək şəkildə durarlarsa və cərgələr arasında əlaqə bu maneənin mövcudluğu səbəbi ilə tamamilə kəsilərsə, arxa cərgənin camaat namazı batil olur və onların namazı fərdi namaza çevrilir. Ancaq əgər maneə hesab edilməzsə və məsafə də insanların nəzərincə çox deyilsə, lakin ən iri normal addımdan çoxdursa, arxa cərgənin camaat namazı, vacib ehtiyata əsasən, doğru deyil.

**Məsələ 1716.** Əgər insanın önündəki cərgədə olan bütün şəxslərin namazı başa çatarsa və dərhal yenidən camaat namazına qoşularlarsa, ancaq sözügedən məsafə insanların nəzərincə çox olarsa, yaxud hərçənd çox hesab edilməsə də ən iri normal addımdan artıq olarsa, sonrakı cərgənin camaat namazı, vacib ehtiyata əsasən, doğru deyil.

**Məsələ 1717.** Əgər camaat namazında qoşulma vasitəsi müməyyiz uşaq olarsa, əgər namaz qılanlar onun namazının batil olub-olmadığını bilmirlərsə, ancaq məntiqli əsaslarla onun namazının doğru olduğunu ehtimal edirlərsə, camaat namazına onun vasitəsi ilə qoşula bilərlər. Həmçinin, əgər imamı isnaəşəri şiə olan bir camaat namazında qoşulma vasitəsi isnaəşəri şiə olmayan bir şəxs olarsa, onun namazı öz məzhəbinə görə düzgün olduğu təqdirdə bu camaat namazına onun vasitəsilə qoşulmaq olar.

**Məsələ 1718.** Əgər namaz qılan onun imama qoşulma vasitəsi olan məmumların namazının batil olduğunu bilirsə, onların vasitəsi ilə imama qoşula bilməz. Ancaq əgər onların namazının doğru olub-olmadığını bilmirsə, qoşula bilər.

**Məsələ 1719.** Kişi məmumların camaat namazının imamına qadın məmum, yaxud məmumlar vasitəsi ilə qoşulması kafi deyil.

*Altıncı şərt: İmama tabe olmaq, onun ardınca hərəkət etmək lazımdır*

**Məsələ 1720.** Camaat namazında məmumun imama tabe olması, onun ardınca hərəkət etməsi şərtdir. İmamın ardınca hərəkət etməyin vacib olduğu və olmadığı məqamlarla bağlı izahlar növbəti məsələlərdə izah ediləcəkdir.

**Məsələ 1721.** Camaat namazının doğru olması üçün məmumun namazın təkbirət əl-ehramını imamdan öncə deməməsi şərtdir. Həmçinin,

eyni zamanda dediyi təqdirdə təkbirət əl-ehramı imamdan öncə başa çatdırmamalıdır. Hətta müstəhəb ehtiyat imamın təkbiri başa çatanadək təkbir deməməyi tələb edir.

**Məsələ 1722.** Əgər məmum səhvən imamdan öncə salam deyərsə, onun namazı camaat namazı olaraq doğrudur və yenidən imamla birgə salam deməsinə gərək yoxdur. Hətta əgər qəsdən imamdan əvvəl salam deyərsə, namazına xələl gəlmir və camaatla birgə qıldığı namazı doğrudur.

**Məsələ 1723.** Əgər məmum təkbirət əl-ehramdan başqa namazın digər zikrlərini imamdan öncə deyərsə, namazına xələl gəlmir. Lakin əgər məmum imamın dilindən bu zikrləri eşidirsə və ya imamın nə zaman deyəcəyini bilirsə, müstəhəb ehtiyata əsasən, imamdan öncə deməməlidir.

**Məsələ 1724.** Məmum namazda oxunanlar istisna olmaqla rüku, səcdələr, oturma və ayağa qalxma kimi digər hərəkətləri imam eyni zamanda, yaxud bir qədər sonra yerinə yetirməlidir və əgər qəsdən imamdan öncə edərsə, yaxud imamdan uzun müddət sonra (tabe olmaq, ardınca hərəkət etmək sayılmayacaq şəkildə) yerinə yetirərsə, namazın həmin hissəsi xüsusunda camaat namazında iştirakı batil olur, hətta vacib ehtiyata əsasən, camaat namazında iştirakı tamamilə batil olur. Lakin əgər namaz qılan təkbaşına namazqılanın vəzifəsinə uyğun hərəkət edərsə, 1735-ci məsələdə izah ediləcək şəkildə namazı doğrudur.

**Məsələ 1725.** Əgər məmum səhvən imamdan öncə başını rükudan qaldırarsa, qayıdacağı halda imama rükuda çatacağına arxayın olduğu təqdirdə, lazım ehtiyata əsasən, rüku vəziyyətinə qayıdaraq başını imamla birgə qaldırmalıdır və bu halda rükn olan rükunun artıq yerinə yetirilməsi namazı batil etmir. Əgər qəsdən qayıtmazsa, ehtiyata əsasən, namazı camaat namazı kimi batil olur, lakin 1735-ci məsələdə izah ediləcək şəkildə namazı (fərdi namaz olaraq) doğrudur. Lakin əgər rükuya qayıdarsa və o rükuya çatmamış imam başını qaldırarsa, namazı, vacib ehtiyata əsasən, batildir.

**Məsələ 1726.** Əgər məmum səhvən başını səcdədən qaldıraraq imamın hələ səcdədə olduğunu görərsə, qayıdacağı halda səcdədə imama çatacağına əmin olduğu təqdirdə, lazım ehtiyata əsasən, səcdə vəziyyətinə qayıtmalıdır. Bu, hər iki səcdədə baş verdiyi təqdirdə də rükn olan iki səcdənin artıq yerinə yetirilməsinə görə namaz batil olmur.

**Məsələ 1727.** Səhvən imamdan öncə başını səcdədən qaldıran şəxs səcdəyə qayıdarsa və imamın o səcdəyə çatmazdan öncə başını qaldırdığı məlum olarsa, namazı doğrudur. Lakin əgər bu hadisə hər iki səcdədə baş verərsə, vacib ehtiyata əsasən, namazı batildir.

**Məsələ 1728.** Əgər məmum səhvən başını rükudan, yaxud səcdədən qaldırarsa və səhvən, yaxud imama çatmayacağını zənn edərək

rükuya, yaxud səcdəyə qayıtmazsa, camaat namazında iştirakı və namazı doğrudur.

**Məsələ 1729.** Əgər məmum səcdədən başını qaldıraraq imamın səcdədə olduğunu görərsə, imamın ilk səcdəsi olduğunu zənn edərək imamla birgə səcdə etmək məqsədi ilə səcdə vəziyyətinə qayıdarsa və imamın ikinci səcdəsi olduğunu başa düşərsə, həmin səcdə onun ikinci səcdəsi hesab olunur. Əgər imamın ikinci səcdəsi olduğunu zənn edərək səcdəyə gedərsə və imamın birinci səcdəsi olduğunu başa düşərsə, həmin səcdəni imama tabe olmaq, onunla birgə hərəkət etmək niyyəti ilə tamamlamalı və sonra yenidən imamla birgə səcdəyə getməlidir. Hər iki halda, müstəhəb ehtiyata əsasən, namazı camaatla birgə başa çatdırsın və sonra təkrarən qılsın.

**Məsələ 1730.** Əgər məmum səhvən imamdan öncə rükuya gedərsə və başını qaldıracağı halda imamın qiraətinin bir hissəsinə çatacaqsa, rükunun zikrinin vacib olan qədərini deyərək dərhal başını qaldırdığı və qiraətin başa çatmasından sonra imamla birgə rükuya getdiyi təqdirdə namazı doğrudur. Əgər qəsdən qayıtmazsa, vacib ehtiyata əsasən, camaat namazında iştirakı doğru deyil, lakin namazı 1735-ci məsələdə izah ediləcək qaydada doğrudur.

**Məsələ 1731.** Əgər məmum səhvən imamdan öncə rükuya gedərsə və qayıdacağı təqdirdə imamın qiraəti başa çatmış olacaqsa, rükunun zikrini vacib olan qədər deməli, sonra, lazım ehtiyata əsasən, başını qaldırmalı və imama tabe olmaq, birgə hərəkət etmək niyyəti ilə onunla bərabər rükuya getməlidir. Bu halda ikinci rükuda zikr demək müstəhəb ehtiyatın tələbidir. Lakin əgər birinci rükuda zikr demək rükuda imamın ardınca hərəkət etməməklə nəticələnərsə (yəni əgər rükunun zikrini deyərsə, başını qaldıraraq imamla birgə rükuya getmək üçün fürsət qalmayacaqsa), burada onun ardınca hərəkət etməkdən imtina etməli, imam ona çatanadək rüku vəziyyətində qalmalıdır. Vəzifəsi başını qaldıraraq imamın ardınca hərəkət etmək olduğu halda əgər qəsdən geri qayıtmazsa, vacib ehtiyata əsasən, camaat namazında iştirakı doğru deyil, lakin namazı 1735-ci məsələdə izah ediləcək şəkildə doğrudur.

**Məsələ 1732.** Əgər məmum səhvən imamdan öncə səcdəyə gedərsə, səcdənin zikrini vacib olan qədər deməli və lazım ehtiyata əsasən, başını qaldırmalı və imamın ardınca hərəkət etmək niyyəti ilə onunla bərabər səcdəyə getməlidir. Bu halda ikinci səcdədə zikr demək müstəhəb ehtiyatın tələbidir. Lakin əgər birinci səcdədə zikr demək səcdələrdə imamın ardınca hərəkət etməməklə nəticələnərsə, burada onun ardınca hərəkət etməkdən imtina etməli və imam ona çatanadək səcdə vəziyyətində qalmalıdır. Vəzifəsi başını qaldıraraq imamın ardınca hərəkət

etmək olduğu halda əgər qəsdən geri qayıtmazsa, vacib ehtiyata əsasən, camaat namazında iştirakı doğru deyil, lakin namazı 1735-ci məsələdə izah ediləcək şəkildə doğrudur.

**Məsələ 1733.** Əgər imam qunut olmayan bir rükətdə səhvən qunut oxuyarsa, yaxud təşəhhüd olmayan bir rükətdə səhvən təşəhhüd oxuyarsa, məmum qunut və təşəhhüd oxumamalıdır, lakin imamdan öncə rükuya gedə, yaxud imam ayağa qalxmamış ayağa qalxa bilməz, əksinə, imamın qunut və təşəhhüdü başa çatanadək gözləməli və namazın qalan hissəsini onunla birgə qılmalıdır.

**Məsələ 1734.** İmama bir və ya bir neçə rükət gec qoşulan şəxs ikinci surəni, yaxud qunutu başa çatdıracağı halda imamın rükusuna çatmayacağını bilirsə, qəsdən ikinci surə, yaxud qunutu oxuduğu və rükuya çatmadığı təqdirdə camaat namazında iştirakı həmin hissə xüsusunda (hətta, vacib ehtiyata əsasən, tamamilə) batil olur. Lakin fərdi qaydada namaz qılanın vəzifəsinə uyğun hərəkət etdiyi təqdirdə namazı doğrudur. Surənin qiraətinə başlayacağı, yaxud əgər başlamışsa, başa çatdıracağı təqdirdə imamın rükusuna çatacağına arxayın olan şəxs çox uzun çəkməyəcəyi halda, müstəhəb ehtiyata əsasən, surənin qiraətinə başlamalı, yaxud əgər başlamışdırsa, başa çatdırmalıdır. Lakin əgər "imamın ardınca, onunla birgə hərəkət edir" deyilməyəcək şəkildə çox uzun çəkərsə, başlamamalı və başladığı təqdirdə də başa çatdırmamalıdır. Əks təqdirdə camaat namazında iştirakı həmin hissə xüsusunda, hətta, vacib ehtiyata əsasən, tamamilə batil olacaqdır. Ancaq əgər 1735-ci məsələdə izah ediləcək qaydada təkbaşına namaz qılanın vəzifəsinə uyğun hərəkət edərsə, namazı doğrudur.

***Yeddinci şərt: Məmum namaz əsnasında üzürlü səbəb olmadan fərdi qaydada namaz qılmaq niyyətinə düşməməlidir***

**Məsələ 1735.** Əgər məmum namaz əsnasında üzürlü səbəb olmadan niyyətini fərdi namaza çevirərsə, vacib ehtiyata əsasən, camaat namazında iştirakı doğru deyil, ancaq namazı öz-özlüyündə doğrudur. Yalnız bu halda fərdi qaydada namaz qılanın vəzifəsinə əməl etmədiyi təqdirdə istisna olaraq, vacib ehtiyata əsasən, namazı yenidən qılmalıdır. Lakin əgər üzürlü səbəbdən baş verdiyi halda namazı batil etməyən bir ixtisara və ya artıq hərəkətə yol verərsə, məsələn, əgər namazın əvvəlindən onu fərdi namaz kimi qılmaq niyyəti olmamışdırsa və Həmd və surəni oxumamışdırsa, lakin rüku halında belə bir niyyətə düşmüşdürsə, bu halda namazını fərdi namaz niyyəti ilə başa çatdıra bilər və onu yenidən qılmasına gərək yoxdur. Həmçinin, əgər camaat namazında məmumun namazın əvvəlindən onu fərdi namaz kimi qılmaq niyyəti olmamışdırsa

və imamın ardınca, onunla birgə hərəkət etmək üçün bir səcdəni artıq yerinə yetirmişdirsə və bundan sonra belə bir niyyətə düşmüşdürsə, hökm eynidir. Ancaq əgər məmumun namazın əvvəlindən onu fərdi namaz kimi qılmaq niyyəti olmuşdursa və Həmd və surəni oxumamışdırsa, vacib ehtiyata əsasən, camaat namazında iştirakı, hətta namazının özü də doğru deyil. Yalnız istisna olaraq qasir cahil olduğu (yəni məsələni öyrənməkdə səhlənkarlığa yol vermədiyi) və imamın ardınca hərəkət etmək məqsədi ilə bir rüknü artıq yerinə yetirmədiyi halda namazını yenidən qılmasına gərək yoxdur.

**Məsələ 1736.** Əgər məmum imamın Həmd və surəni oxumasından sonra üzürlü bir səbəbdən təkbaşına namaz qılmaq niyyətinə düşərsə, Həmd və surəni oxumasına gərək yoxdur. Lakin əgər üzürlü səbəb olmazsa, yaxud Həmd və surənin qiraəti başa çatmadan təkbaşına namaz qılmaq niyyətinə düşərsə, lazım ehtiyata əsasən, Həmd və surəni bütövlüklə oxumalıdır.

**Məsələ 1737.** Əgər camaat namazı əsnasında təkbaşına namaz qılmaq niyyətinə düşərsə, yenidən camaat namazı niyyətinə qayıda bilməz. Həmçinin, vacib ehtiyata əsasən, təkbaşına namaz qılıb-qılmamaqda tərəddüd etməsi və sonra namazı camaatla tamamlamağı qərara alması da bu qəbildəndir.

**Məsələ 1738.** Əgər namaz əsnasında fərdi qaydada namaz qılmaq niyyətinə düşüb-düşmədiyinə şəkk edərsə, bu niyyətə düşmədiyi ehtimalının üzərində dayanmalıdır.

**Məsələ 1739.** Əgər imamın namazı başa çatmışdırsa, ancaq məmum hələ təşəhhüdü oxumaqla, yaxud birinci salamı deməklə məşğuldursa, fərdi qaydada namaz niyyəti etməsinə gərək yoxdur.

***Səkkizinci şərt: Məmum imam qiyam, yaxud rüku vəziyyətində ikən ona qoşulmalıdır***

**Məsələ 1740.** Camaat namazında məmumun imam qiyam, yaxud rüku vəziyyətində ikən ona çatması və ona qoşulması şərtdir. İmama çatma halları növbəti məsələlərdə izah ediləcəkdir.

**Məsələ 1741.** Əgər məmum imam rükuda ikən ona qoşularaq rükuda ona çatarsa, hərçənd imamın zikri başa çatmış olsa da, məmumun namazı doğrudur və bir rükət hesab edilir. Lakin əgər məmum qoşularaq rüku üçün lazım olan qədər əyilərsə, ancaq imamın rükusuna çatmazsa, camaat namazında iştirak etməsi baş tutmur. Bu halda əgər imamın rükusuna çatacağına əmin idisə, namazı fərdi namaz hesab edilir və namazını təkbaşına namaz kimi başa çatdıra,[1] ya da növbəti rükətə çatmaq

[1] Yəni namazını elə həmin rüku vəziyyətindən etibarən davam etdirərək həmin rükəti bir rükət hesab edə bilər və Həmd və surəni oxumaması namazın doğruluğuna xələl gətirmir.

üçün yarımçıq qoya bilər. Ancaq əgər arxayın deyildisə və rükuya çatmaq ehtimalı ilə qoşulmuşdusa, namazı batildir.

**Məsələ 1742.** Əgər məmum imam rükuda ikən ona qoşularaq rüku üçün lazım olan qədər əyilərsə və imamın rükusuna çatıb-çatmadığına şəkk edərsə, hərçənd hələ rükunun zikrini deməyə başlamasa da, rüku vəziyyətini aldıqdan sonra şəkkə düşdüyü təqdirdə camaat namazında iştirakı doğrudur. Əks təqdirdə isə ona imamın rükusuna çatmamış şəxsə dair öncəki məsələdə qeyd edilmiş hökm şamil olunur.

**Məsələ 1743.** Əgər məmum imam rükuda ikən ona qoşularsa və rüku üçün lazım olan qədər əyilməmiş imam başını rükudan qaldırarsa, üç seçim imkanı vardır. Ya namazı fərdi namaz kimi başa çatdırmalı, ya mütləq (ümumi) Allaha yaxınlaşmaq niyyəti ilə imamla birgə səcdəyə getməli (yəni səcdəni namazın səcdəsi, yaxud başqa bir xüsusi səcdə kimi deyil, ümumiyyətlə, Allaha yaxınlaşmaq niyyəti ilə etməli), sonra ayağa qalxdıqda təkbiri məhz təkbirət əl-ehram və ya mütləq zikr niyyəti olmadan yenidən deməli və namazını camaatla qılmalı, ya da sonrakı rükətə çatmaq üçün bu namazı yarımçıq qoyaraq pozmalıdır.

**Məsələ 1744.** Əgər məmum namazın başlanğıcında, yaxud Həmd və surənin qiraəti əsnasında imama qoşularsa və səhvən imam rükudan başını qaldırana qədər rükuya getməkdə gecikərsə, onun namazı camaat namazı kimi doğrudur.

**Məsələ 1745.** Əgər imam ayaq üstədirsə və məmum onun hansı rükətdə olduğunu bilmirsə, ona qoşula bilər və vacib ehtiyata əsasən, Həmd və surəni ahəstə səslə məhz namazın bir hissəsi və ya Quran qiraəti niyyəti olmadan oxumalıdır və bu halda hərçənd sonradan imamın birinci, yaxud ikinci rükətdə olduğunu başa düşsə belə, camaatla namazı doğrudur.

**Məsələ 1746.** Əgər insan namaz əsnasında imama qoşulub-qoşulmadığına şəkk edərsə, hər hansı əlamətlərlə qoşulduğuna dair yəqinlik, yaxud arxayınlıq hasil etdiyi təqdirdə namazı camaatla başa çatdırmalı, əks təqdirdə isə fərdi namaz niyyəti ilə tamamlamalıdır.

**Məsələ 1747.** Əgər məmum imamın ikinci rükətində ona qoşularsa, Həmd və surəni oxumasına gərək yoxdur. Lakin müstəhəbdir ki, qunut və təşəhhüdü imamla birgə oxusun. Vacib ehtiyata əsasən, bu halda təşəhhüd üçün oturarkən hərçənd təşəhhüdü oxumaq istəməsə də "təcafi" vəziyyətində durmalıdır (yəni əl barmaqlarını və ayaqlarının pəncə hissəsini yerə dayamalı, dizlərini yerdən bir qədər hündür tutmalıdır). Həmçinin, məmum təşəhhüddən sonra imamla birgə ayağa qalxmalı, Həmd və surəni ahəstə səslə oxumalıdır və əgər ikinci surə üçün vaxt yoxdursa, Həmd surəsini tamamlamalı və rükuda imama çatmalıdır.

Əgər Həmd surəsini də başa çatdırmaq üçün vaxt yoxdursa, yəni Həmd surəsini sonadək oxuyacağı təqdirdə imamın rükusuna çatmayacaqsa, namazı fərdi namaza çevirə, ya da Həmd surəsini vaxtı olduğu qədər oxuya, sonra onun qiraətini dayandıraraq özünü imamın rükusuna çatdıra bilər. Hərçənd, müstəhəb ehtiyat namazı fərdi niyyəti ilə baş çatdırmasını tələb edir.

**Məsələ 1748.** Əgər məmum imam dördrəkətli namazın ikinci rükətində ikən qoşularsa, öz namazının ikinci rükətində (imamın üçüncü rükəti) iki səcdədən sonra oturmalı və təşəhhüdün vacib olan qədərini, müstəhəblərsiz oxumalı, sonra ayağa qalxmalı,təsbihat-i ərbəəni üç dəfə demək üçün vaxtı olmadığı təqdirdə bir dəfə deməli və rükuda özünü imama çatdırmalıdır. Təsbihat-i ərbəəni bir dəfə demək üçün belə vaxtı olmadığı təqdirdə də onu dərhal bir dəfə deməlidir və bu halda əgər imamın rükusuna çatmazsa, üzürlü sayılır və camaat namazında iştirakı doğrudur.

**Məsələ 1749.** Əgər imam üçüncü, yaxud dördüncü rükətdədirsə və məmum qoşularaq Həmd surəsini oxuyacağı təqdirdə imamın rükusuna çatmayacağını bilirsə, lazım ehtiyata əsasən, imam rükuya gedənədək gözləməli, sonra qoşulmalıdır.

**Məsələ 1750.** Əgər məmum imam üçüncü, yaxud dördüncü rükətin qiyamında ikən qoşularsa, Həmd surəsini və lazım ehtiyata əsasən, başqa bir bütöv surə oxumalıdır və əgər ikinci surə üçün vaxt yoxdursa, Həmd surəsini başa çatdırmalı və rükuda özünü imama çatdırmalıdır.

Ancaq əgər məmum imam üçüncü, yaxud dördüncü rükətin qiyamında ikən Həmd surəsini sonadək oxuya biləcəyinə arxayın olaraq qoşularsa, ancaq qoşulduqdan sonra Həmd surəsini başa çatdırmaq üçün vaxt olmadığını, onu tamamlayacağı təqdirdə imamın rükusuna çatmayacağını başa düşərsə, bu halda Həmd surəsinin vaxtın imkan verdiyi qədərini oxumalı, sonra onun qiraətini dayandırmalı və qalan hissəsini oxumadan özünü imamın rükusuna çatdırmalıdır. Hərçənd, müstəhəb ehtiyat bu halda fərdi namaz niyyəti etməsini və namazı fərdi namaz kimi başa çatdırmasını tələb edir.

**Məsələ 1751.** Əgər məmum imam dördrəkətli namazın üçüncü rükətinin qiyamında ikən qoşularsa, imamın dördüncü rükətində (məmumun ikinci rükətidir) Həmd və vacib ehtiyata əsasən, başqa bir bütöv surə də oxumalıdır. Əgər ikinci surə üçün vaxt yoxdursa, Həmd surəsini başa çatdırmalı və rükuda özünü imama çatdırmalıdır. Əgər Həmd surəsini bütöv oxumaq üçün də vaxt yoxdursa, öncəki məsələdə qeyd edilən hökm bu vəziyyətə də şamil olur.

**Məsələ 1752.** Əgər məmumun birinci, yaxud ikinci rükəti imamın üçüncü, yaxud dördüncü rükəti olarsa, məmum Həmd və surəni öncəki

məsələdə izah edildiyi kimi oxumalıdır və surələri ahəstə səslə oxuması, hətta onların "Bismillahir-rəhmanir-rəhim"ini də, vacib ehtiyata əsasən, ahəstə səslə deməsi vacibdir. Səhvən, yaxud bu məsələni bilmədiyinə görə uca səslə oxuduğu təqdirdə namazı doğrudur.

**Məsələ 1753.** Əgər məmum imamın birinci, yaxud ikinci rükətdə olduğunu zənn edərək Həmd və surəni oxumazsa və rükudan sonra üçüncü, yaxud dördüncü rükətdə olduğunu başa düşərsə, namazı doğrudur. Lakin əgər rükudan öncə başa düşərsə, Həmd və surəni oxumalı, vaxt olmadığı təqdirdə isə 1750-ci məsələdə izah edilən şəkildə hərəkət etməlidir.

**Məsələ 1754.** Əgər məmum imamın üçüncü, yaxud dördüncü rükətdə olduğunu zənn edərək Həmd və surəni oxuyarsa və rükudan öncə, yaxud sonra birinci, yaxud ikinci rükətdə olduğunu başa düşərsə, namazı doğrudur. Əgər Həmd və surənin qiraəti əsnasında başa düşərsə, onu başa çatdırmasına gərək yoxdur və onu sonadək oxumaq istədiyi təqdirdə yalnız 1690-1693-cü məsələlərdə qeyd edilən hallarda bu işi görə bilər.

**Məsələ 1755.** İmamdan bir rükət geridə olan şəxs yaxşı olar ki, imam axırıncı rükətin təşəhhüdünü oxuyarkən təcafi vəziyyətində otursun, yəni əl barmaqlarını və ayaqlarının pəncə hissəsini yerə dayasın, dizlərini yerdən qaldırsın və imam namazın salamını deyənədək gözləsin, sonra ayağa qalxsın. Əgər bu yerdə fərdi namaz qılmaq niyyəti edərsə, maneəsi yoxdur və namazı fərdi namaz kimi davam etdirməlidir.

**Məsələ 1756.** Əgər insan imam sonuncu rükətin təşəhhüdünü oxuyarkən çatarsa, camaat namazının savabını qazanmaq istəyirsə, niyyət və təkbirət əl-ehramı dedikdən sonra oturmalıdır (yarıəyilmiş vəziyyətdə deyil, normal vəziyyətdə) və təşəhhüdü mütləq Allaha yaxınlaşmaq niyyəti ilə imamla birgə oxuya bilər (yəni məhz namazın təşəhhüdünü oxumaq niyyəti olmamalı, təşəhhüd oxumaqda niyyəti, ümumiyyətlə, Allaha yaxınlaşmaq olmalıdır). Həmçinin, təşəhhüdü oxumaya da bilər. Lakin salamı, vacib ehtiyata əsasən, deməməli və imam namazın salamını deyənədək gözləməli, sonra ayağa qalxaraq yenidən niyyət etmədən və təkbirət əl-ehram demədən Həmd və surəni oxumalı, bunu namazının birinci rükəti hesab etməli və namazı fərdi namaz kimi qılmağa davam etməlidir.

**Məsələ 1757.** Əgər namaz qılan müstəhəb namaz qılarkən camaat namazı təşkil olunarsa və o, müstəhəb namazı sonadək qılacağı təqdirdə camaat namazına çatmayacağından qorxursa, hətta imamın təkbirət əl-ehramına çatmayacağından qorxsa belə, müstəhəbdir ki, həmin namazı dayandıraraq camaat namazına qoşulsun. Hətta bu halda müstəhəb

namazı camaat namazı üçün oxunan iqamə başlayarkən dayandırmaq müstəhəbdir.

**Məsələ 1758.** Əgər namaz qılan üçrəkətli, yaxud dördrəkətli vacib namaz qılarkən camaat namazı təşkil olunarsa, camaat namazının təşkil olunması onun qıldığı və üçüncü rükətinin qiyamına çatmadığı namaz üçün olduğu təqdirdə müstəhəbdir ki, vacib namaz niyyətini müstəhəbə çevirərək həmin namazı ikirəkətli müstəhəb namaz kimi tamamlasın və özünü camaat namazına çatdırsın. Əgər niyyətini dəyişdirdikdən sonra müstəhəb namazı yarıda dayandırmaq istəyərsə, eybi yoxdur və öncəki məsələdə müstəhəb namaz üçün qeyd edilən hökm bu müstəhəb namaza da şamildir.

Ancaq əgər namaz qılan üçüncü rükət üçün ayağa qalxmış və hələ rükuya getməmişdirsə, vacib ehtiyata əsasən, vacib namaz niyyətini müstəhəb namaz niyyəti ilə əvəz etmək doğru deyil.

Qeyd etmək lazımdır ki:

a) Niyyəti dəyişdirməyin caizliyi sübh namazı kimi ikirəkətli vacib namaza şamil deyil və ikirəkətli vacib namaz niyyətinin ikirəkətli müstəhəb namaz niyyəti ilə əvəz edilməsinin şəriətə uyğunluğu sabit edilməmişdir.

b) **İnsanın əvvəldən müstəhəb namazı yarıda dayandırmaq məqsədi olduğu təqdirdə niyyətin vacibdən müstəhəbə çevrilməsinin caizliyi şübhəlidir və vacib ehtiyat niyyətin bu cür dəyişdirilməsindən çəkinməyi tələb edir.**

*Doqquzuncu şərt: Məmum imamı tanımalıdır*

**Məsələ 1759.** Camaat namazında məmumun niyyət əsnasında imamı özü üçün müəyyən etməsi şərtdir. Lakin onun adını bilməsinə gərək yoxdur və ümumi müəyyənlik kafidir. Əgər "Hazır olan imama qoşuluram" deyə niyyət edərsə, hərçənd niyyəti dillə (sözlərlə) ifadə etməsə də, namazı doğrudur.

*Onuncu şərt: İmam imamlıq üçün şərtlərə cavab verməlidir*

**Məsələ 1760.** Camaat namazının doğru olması üçün imam qarşıdakı məsələlərdə izah ediləcək bir sıra şərtlərə cavab verməlidir.

**İmam üçün şərtlər**

*1, 2, 3 və 4-cü şərtlər: Həddi-büluğa çatmış, aqil, halalzadə və isnaəşəri şiə olmalıdır*

**Məsələ 1761.** On yaşı tamam olan uşağa məmum kimi qoşularaq namaz qılmağın caizliyinə dair ehtimal vardır. Lakin vacib ehtiyat bundan

çəkinməyi tələb edir. Həmçinin, vacib ehtiyata əsasən, həddi-büluğa çatmayan şəxsin həddi-büluğa çatmayan şəxslərə imamlıq etməsi də doğru deyil.

*5-ci şərt: Adil olmalıdır*

**Məsələ 1762.** Adil olmayan, həmçinin, adil olub-olmadığı məlum olmayan imama qoşularaq namaz qılmaq doğru deyil. Ədalət insanın vacib əməlləri yerinə yetirməsi və haram işlərdən çəkinməsi deməkdir. Bunun əlaməti danışıq, davranış və əməllərdə zahirən yaxşı insan olmaqdır. Bu şərtlə ki, insanın sözügedən şəxs haqqında bunun əksinə dair bir məlumatı olmamalıdır. Ədalətin mənası və onun təsbit edilməsi üsulları ilə bağlı ətraflı izah təqlid mövzusunda, 5-ci məsələdə verilmişdir.

*6-cı şərt: Qiraəti düzgün olmalıdır*

**Məsələ 1763.** İmamın qiraəti düzgün olmalı, namazın Həmd və surəsini ərəbcə düzgün oxumalıdır. Buna əsasən, qiraəti düzgün olan bir məmumun qiraəti düzgün olmayan bir imama qoşulması (hərçənd imam şəriət baxımından üzürlü sayılsa belə) caiz deyil.

Həmçinin, əgər imam və məmumun hər ikisinin qiraəti düzgün deyilsə və eyni deyil, ayrı-ayrı sözləri səhv tələffüz edirlərsə, qoşulma doğru deyil. Hətta səhv tələffüz etdikləri söz eyni olsa belə, vacib ehtiyata əsasən, qoşulma doğru deyil.

Qeyd etmək lazımdır ki, Həmd və surəni düzgün oxumayan və şəriətə görə qiraətini düzəltmə xüsusunda üzürlü sayılan bir imama imamın Həmd və surəni məmumlar adına oxumağı öz öhdəsinə götürdüyü yerdən başqa bir yerdə qoşulmaq olar. Məsələn, məmum qiraətin (Həmd və surənin) yerinin keçdiyi ikinci rükətin rükusunda, yaxud üçüncü və ya dördüncü rükətlərdə belə bir imama qoşula bilər. Həmçinin, namazda rüku və səcdələrin zikrlərini, təşəhhüdü, yaxud təsbihat-i ərbəəni və s. düzgün tələffüz etməyən və tələffüzünü düzəltmə xüsusunda şəriətə əsasən üzürlü sayılan bir imama qoşulmaq olar.

**Məsələ 1764.** Əgər insan imamın Həmd və surəni düzgün oxuyub-oxumadığına şəkk edirsə, vacib ehtiyata əsasən, imamın Həmd və surəni məmumlar adına oxumağı öz öhdəsinə götürdüyü bir yerdə (məsələn, birinci və ya ikinci rükətdə rükudan öncə) ona qoşula bilməz. Əlbəttə, əgər imamın qiraətinin düzgün olduğunu bilirsə, ancaq səhvən yanlış oxuya biləcəyini ehtimal edirsə, bu ehtimala etina edilmir, onun qiraəti düzgün sayılır və ona qoşula bilər.

*7-ci şərt: Məmum kişi olduqda imam kişi olmalıdır*

**Məsələ 1765.** Qadınlar qadın imama qoşula bilər. Ancaq qadının kişilər üçün camaat namazının imamı olması, hərçənd həmin kişilər onun məhrəmlərindən ibarət olsa belə, caiz deyil.

*8-ci şərt: Vacib ehtiyata əsasən, şəri cəza verilən şəxs olmamalıdır*

**Məsələ 1766.** Vacib ehtiyata əsasən, şəri cəza verilən və tövbə edən imama qoşulmaq olmaz.

*9-cu şərt: Əgər məmum ayaq üstə namaz qılırsa, imam da ayaq üstə namaz qılmalıdır*

**Məsələ 1767.** Ayaq üstə namaz qılan şəxs oturaq, yaxud uzanmış vəziyyətdə namaz qılan şəxsi özünə imam seçə bilməz. Həmçinin, oturaq vəziyyətdə namaz qılan şəxs uzanmış vəziyyətdə namaz qılan şəxsi imam seçə bilməz. Lakin vəzifəsi oturaq vəziyyətdə namaz qılmaq olan məmumun ayaq üstə, yaxud oturaq vəziyyətdə namaz qılan imama qoşulmasının eybi yoxdur.

**Məsələ 1768.** Vacib ehtiyata əsasən, uzanmış vəziyyətdə namaz qılan şəxsin istər ayaq üstə, istər oturaq, istərsə uzanmış vəziyyətdə namaz qılan başqa bir şəxsə qoşulması (onu imam seçməsi) doğru deyil.

*10-cu şərt: İmamın və məmumun qibləsi eyni olmalıdır*

**Məsələ 1769.** Qiblənin hər hansı bir istiqamətdə olduğuna inanan şəxs onun fərqli istiqamətdə olduğuna inanan imama qoşula bilməz. Yalnız iki istiqamət arasındakı fərq ürfən camaat namazı sayılacaq qədər cüzi olduğu təqdirdə qoşulmaq olar.

*11-ci şərt: İmamın namazı məmumun nəzərincə düzgün olmalıdır*

**Məsələ 1770.** Bu şərtin təfsilatı və təfərrüatları müfəssəl kitablarda öz əksini tapmışdır. Bəzi hallarda bu şərt nəzərə alındıqda imama qoşulma doğrudur, bəzi hallarda isə doğru deyil. Burada bir neçə nümunə ilə kifayətlənəcəyik:

a) Əgər imamın əlinin içində heç bir vəchlə aradan qaldırıla bilməyən bir maneə vardırsa və imam öz ictihadına, yaxud təqlid etdiyi müctəhidin nəzərinə əsasən, vəzifəsinin cəbirə dəstəmazı, yaxud qüslü olduğuna inanırsa, lakin məmum ictihad, yaxud təqlid əsasında onun vəzifəsinin təyəmmüm olduğuna inanırsa, bu halda məmum cəbirə dəstəmazı, yaxud qüslü ilə namaz qılan imama qoşula bilməz.

b) Əgər məmum imamın dəstəmaz almaq üçün istifadə etdiyi suyun nəcasətli olduğunu bilirsə, lakin imam suyun pak olduğuna inanırsa,

bu halda ona qoşulmaq olmaz. Çünki nəcasətli su ilə dəstəmaz almaq, hətta insan bundan xəbərsiz olsa belə, dəstəmaz və namazın batil olmasına səbəb olur.

c) Əgər məmum imamın dəstəmazsız olduğunu bilirsə, hərçənd imam özü bunu başa düşməsədə, ona qoşula bilməz.

d) Əgər məmum imamın geyiminin nəcasətli olduğunu başa düşərsə, lakin imam özü geyiminin nəcasətli olduğundan xəbərsiz olarsa, bu halda, ona iqtida edə bilər. Məmumun imamı bundan xəbərdar etməsi lazım deyil.

**Məsələ 1771.** Əgər imam üzürlü bir səbəbdən nəcasətli bədən, yaxud geyimlə və ya təyəmmüm, yaxud cəbirə dəstəmazı ilə namaz qılırsa, ona qoşulmaq olar. Əlbəttə, əgər həmin üzürlü hal ilə bağlı imam və məmumun ictihad, yaxud təqlidə əsaslanan nəzərləri arasında fərq vardırsa, əvvəlki məsələdə izah edilənlər bu vəziyyətə də şamil olunur.

## İmam üçün şərtlərlə əlaqədar digər hökmlər

**Məsələ 1772.** Əgər məmum imamın imamlıq üçün tələblərə cavab verdiyinə inanaraq ona qoşularsa və namazın başa çatmasından sonra tələblərə cavab vermədiyini, məsələn, adil, yaxud şiə olmadığını və ya kafir olduğunu, ya da hər hansı bir səbəbdən onun namazının batil olduğunu, məsələn, səhvən dəstəmazsız namaz qıldığını başa düşərsə, məmumun namazı doğrudur və camaat namazı hesab edilir.

**Məsələ 1773.** Əgər imamın sidik və nəcis ifrazının qarşısını ala bilməməklə bağlı bir xəstəliyi varsa, ona qoşulmaq olar. Həmçinin, müstəhazə olmayan qadın istihazə ilə əlaqədar vəzifələrə uyğun hərəkət edən müstəhazə qadını imam seçə bilər.

**Məsələ 1774.** Yaxşı olar ki, cüzam, yaxud ekzema xəstəliyi olan şəxs camaat namazına imamlıq etməsin.

## Camaat namazı ilə əlaqədar müstəhəblər və məkruhlar

**Məsələ 1775. İmamın cərgənin ortasında dayanması və elm, kamal və təqva sahibi olan insanların birinci cərgədə durması müstəhəbdir.**

**Məsələ 1776.** Camaat namazının cərgələrinin nizamlı olması, bir cərgədə duranların arasında boş yerin olmaması və onların çiyinlərinin bir düz xətt üzrə olması müstəhəbdir.

**Məsələ 1777.** "Qəd qamətis-səlat" deyilərkən məmumların ayağa qalxması və camaat namazına hazırlaşması müstəhəbdir.

**Məsələ 1778.** İmamın başqalarından daha zəif olan məmumun vəziyyətini nəzərə alması, qunut, rüku və səcdələri uzatmaması müstəhəbdir. Bütün məmumların bunu istədiyini bilməsi istisnadır.

**Məsələ 1779.** İmamın uca səslə oxuduğu Həmd və surə, habelə zikrlərdə səsini məmumlar tərəfindən eşidiləcək qədər yüksəltməsi müstəhəbdir. Lakin səsini həddən ziyadə yüksəltməməlidir.

**Məsələ 1780.** Əgər imam rükuda kiminsə yenicə çatdığını və camaat namazına qoşulmaq istədiyini başa düşərsə, rükunu həmişəki müddətindən iki dəfə artıq uzatması və sonra hərçənd başqa bir nəfərin də camaat namazına qoşulmaq üçün özünü çatdırdığını başa düşsə belə, ayağa qalxması müstəhəbdir.

**Məsələ 1781.** Əgər camaat namazının cərgələrində boş yer vardırsa, insanın tək durması məkruhdur.

**Məsələ 1782.** Məmumun namazın istər vacib, istərsə müstəhəb zikrlərini imamın eşidəcəyi şəkildə deməsi məkruhdur.

**Məsələ 1783.** Zöhr, əsr və işa namazlarını iki rükət qılan müsafirin bu namazlarda müsafir olmayan bir şəxsə qoşulması və müsafir olmayan bir şəxsin bu namazlarda müsafirə qoşulması məkruhdur.

# CÜMƏ NAMAZI

**Məsələ 1784.** Cümə namazı gündəlik namazların tərkib hissəsi hesab edilən bir ibadətdir və dövrün imamının (ə. f) qaib olduğu dövrdə təxyiri vacibdir, yəni mükəlləf cümə günü cümə namazını (şərtlərinə riayət edildiyi təqdirdə), yaxud zöhr namazı qılmaq arasında seçim etmək ixtiyarına sahibdir. Cümə namazının fəziləti daha artıqdır. Əgər cümə namazını qılarsa, zöhr namazını əvəz edir və onu qılmasına gərək yoxdur.

## Cümə namazının qılınma qaydası

**Məsələ 1785.** Cümə namazı iki rükətdir və qaydası sübh namazı kimidir. Yalnız fərq bundadır ki, cümə namazında namazdan öncə iki xütbə oxunmalı və onun Həmd və surəsi, vacib ehtiyata əsasən, uca səslə oxunmalıdır.

Cümə namazının iki müstəhəb qunutu vardır. Birinci qunut birinci rükətin rükusundan öncə, ikinci qunut isə ikinci rükətin rükusundan sonra gəlir. Həmçinin, cümə namazının imamının birinci rükətdə Həmd surəsindən sonra Cümə, ikinci rükətdə isə Munafiqun surəsini oxuması müstəhəbdir.

## Cümə namazının vacib olmasının şərtləri

Cümə namazının vacib olmasının[1] bir neçə şərti vardır. Bu şərtlər qarşıdakı məsələlərdə izah ediləcəkdir.

***Birinci şərt: Cümə namazının vaxtı çatmalıdır***

**Məsələ 1786.** Cümə namazının vaxtı günəşin zəvalından, yəni zöhr azanından başlayır və onun vaxtı yalnız ürfə görə zöhrün əvvəl çağıdır. Beləliklə, əgər cümə namazı bu vaxt ərzində qılınmayaraq təxirə salınarsa, vaxtı başa çatmışdır və zöhr namazı qılınmalıdır. [2]

**Məsələ 1787.** Xütbələrin zöhr azanından öncə oxunması, hərçənd sonu bu vaxtın başladığı zamana təsadüf etsə belə, vacib ehtiyata əsasən,

---

[1] Cümə namazının imamın (ə) insanların arasında və qaib olduğu dövrlərdə vacibliyi 1784 və 1796-cı məsələlərdə izah edilən mənada başa düşülməlidir.

[2] Ürfə görə zöhrün əvvəl çağının nə demək olduğu xüsusunda bir məqama diqqət yetirmək lazımdır: Əgər xütbələr maksimum 40 dəqiqə davam edərsə və sonra dərhal bütün şərtlərinə riayət edilən cümə namazı qılınarsa, kafidir və zöhr namazını qılmağa gərək yoxdur. Xütbələr 40 dəqiqədən artıq, təqribən 1 saat 15 dəqiqə davam etdiyi təqdirdə, ehtiyata əsasən, zöhr namazını da qılmaq lazımdır. Əgər xütbələr 75 dəqiqədən artıq davam edərsə, zahirən kafi sayılmır və zöhr namazını mütləq qılmaq lazımdır. Ürfün rəyi ilə bağlı tərəddüd hallarında vaxtla bağlı bu göstərişlərə uyğun hərəkət edilməsi kifayətdir.

düzgün deyil. Vacib ehtiyata əsasən, xütbələri zöhr azanından öncə oxunan cümə namazı ilə, hərçənd yalnız birinci xütbə zöhr azanından əvvəl oxunsa belə, kifayətlənmək olmaz.

*İkinci şərt: İştirakçıların sayı minimum beş nəfər olmalıdır*

**Məsələ 1788.** Biri imam olmaqla beş müsəlman toplaşmayınca cümə namazı vacib olmur.

*Üçüncü şərt: Cümə namazının imamı imamlıq üçün şərtlərə cavab verməlidir*

**Məsələ 1789.** Camaat namazının imamı üçün qeyd edilən şərtlər Cümə namazının imamı üçün də qüvvədədir. Fərq bundan ibarətdir ki, cümə namazında həddi-büluğa çatmayanların və qadınların imam olması heç bir vəchlə caiz deyil. Bu tələblərə cavab verən bir imam olmadığı təqdirdə cümə namazı vacib olmur.

## Cümə namazının doğru olmasının şərtləri

Cümə namazının düzgün icra edilməsi üçün əvvəlki üç şərt (cümə namazının vacib olmasının şərtləri) ilə yanaşı qarşıdakı məsələdə izah ediləcək bir sıra digər şərtlərə də riayət edilməlidir.

*Birinci şərt: Cümə namazı camaat namazı kimi qılınmalıdır*

**Məsələ 1790.** Cümə namazının fərdi qaydada qılınması doğru deyil. Lakin əgər məmum cümə namazının ikinci rükətinin rükusundan öncə imama çatarsa, ona qoşula, digər bir rükəti isə fərdi qaydada qıla bilər və bu halda cümə namazı doğrudur. Əgər ikinci rükətin rükusunda imama çatarsa, vacib ehtiyata əsasən, bu cümə namazı ilə kifayətlənə bilməz və vacib ehtiyata zöhr namazını qılmasını tələb edir.

*İkinci şərt: Cümə namazının imamı namazdan öncə iki xütbə oxumalıdır*

**Məsələ 1791.** Cümə namazının imamının birinci xütbədə Allaha həmd-səna etməsi, təqvaya dair tövsiyələr verməsi və Qurandan kiçik bir surə oxuması vacibdir. İkinci xütbədə də Allaha həmd-səna etməsi, əziz Peyğəmbərimizə (s) və məsum imamlara (ə) salavat deməsi vacibdir və müstəhəb ehtiyat mömin kişi və qadınlar üçün Allahdan bağışlanma diləməsini tələb edir.

**Məsələ 1792.** Allaha həmd və sevimli Peyğəmbərimizə (s) və məsum imamlara (ə) salavat, vacib ehtiyata əsasən, ərəbcə deyilməlidir. Ancaq Allaha səna (mədh, təqdis), təqvaya çağırış kimi digər mətləblərin ərəbcə

ifadəsinə gərək yoxdur. Lakin əgər iştirakçıların əksəriyyəti ərəb dilini bilmirlərsə, lazım ehtiyata əsasən, təqvaya dair tövsiyə onların dilində ifadə edilsin.

**Məsələ 1793.** Cümə namazının imamının xütbə əsnasında ayaq üstə olması vacibdir. Deməli, əgər xütbəni oturmuş vəziyyətdə oxuyarsa, düzgün olmayacaqdır. Həmçinin, iki xütbə arasında bir qədər oturması vacibdir və bu oturuş qısa və ötəri olmalıdır. Cümə namazının imamı xütbəni özü oxumalıdır.

***Üçüncü şərt: İki cümə namazı arasındakı məsafə bir fərsəxdən az olmamalıdır***

**Məsələ 1794.** Əgər bir cümə namazının qılındığı yerə bir fərsəxdən yaxın məsafədə başqa bir cümə namazı da təşkil olunarsa, eyni anda başladığı təqdirdə hər ikisi batil olur. Əgər biri digərindən daha tez başlayarsa (hərçənd təkbirət əl-ehramın daha öncə deyilməsi ilə olsa belə), birincisi doğru, ikincisi isə batil olacaqdır. Lakin əgər cümə namazı qılındıqdan sonra onunla eyni zamanda, yaxud ondan öncə bir fərsəxdən yaxın məsafədə başqa bir cümə namazının da qılındığı məlum olarsa, zöhr namazının qılınması vacib olmur.

Qeyd etmək lazımdır ki, bir cümə namazının təşkili yalnız doğru olduğu və bütün şərtlərə cavab verdiyi təqdirdə qeyd edilən məsafədə başqa bir cümə namazının təşkilinə əngəl sayılır. Əks təqdirdə isə əngəl sayılmır.

***Dördüncü şərt: Cümə namazı camaat namazı üçün nəzərdə tutulmuş şərtlərə cavab verməlidir***

**Məsələ 1795.** Cümə namazının doğru olmasının bir şərti də camaat namazında tələb olunan şərtlərə, məsələn, maneənin olmaması, imamın yerinin məmumdan hündür olmaması və digər şərtlərə cavab verməsidir.

## Cümə namazı ilə əlaqədar hökmlər

**Məsələ 1796.** Şərtlərə cavab verən bir cümə namazı təşkil olunduğu təqdirdə əgər onu qıldıran İmam (ə), yaxud onun xüsusi nümayəndəsidirsə, sonrakı məsələdə qeyd ediləcək hallar istisna olmaqla bu namazda iştirak etmək vacibdir (yəni insanın cümə namazı ilə zöhr namazı arasında istəyinə uyğun seçim etmək ixtiyarı yoxdur, cümə namazında mütləq iştirak etməlidir, başqa təbirlə, cümə namazı belə bir dövrdə təyini vacibdir[1]). Ancaq əgər Həzrət Sahibəzzamanın (ə. f) qaiblik dövründə

[1] "Təyini vacib" – müəyən edilmiş, alternativi olmayan vacib ilahi göstəriş. Əksi: "təxyiri vacib" – iki və ya daha artıq alternativdən birini seçmək imkanı olan vacib ilahi göstəriş. *Tərc.*

olduğu kimi namazı qıldıran İmam (ə), yaxud onun xüsusi nümayəndəsi olmazsa, cümə namazında iştirak etmək vacib (təyini) deyil.

**Məsələ 1797.** Şərtlərə cavab verən bir cümə namazı təşkil olunarsa və onu qıldıran İmam (ə), yaxud onu xüsusi nümayəndəsi olarsa, bu namazda iştirak etmək bir neçə qisim insanlara vacib deyil:

1) qadınlar; 2) qullar; 3) müsafirlər (hətta on gün qalmaq məqsədi olan müsafir kimi vəzifəsi namazı bütöv qılmaq olan müsafirlər də); 4) xəstələr, görmə qabiliyyətindən məhrum olanlar və qocalar; 5) cümə namazının qılındığı yerdən iki fərsəxdən artıq məsafədə olan şəxslər; 6) güclü yağış, yaxud külək və bu qəbildən olan səbəblərdən dolayı cümə namazında iştirak etməkdə çətinlik çəkən insanlar.

**Məsələ 1798.** Qadınlar və müsafirlər cümə namazında iştirak edə bilər və əgər cümə namazı şərtlərə uyğundursa, onların zöhr namazı qılmasına gərək yoxdur. Lakin onlar təklikdə (kişilərin, yaxud müsafir olmayan insanların iştirakı olmadan) cümə namazı təşkil edə bilməz və tələb olunan sayı tamamlayan şəxs (beş nəfərdən biri) ola bilməzlər. Qeyd etmək lazımdır ki, bu hökmün vəzifəsi namazı bütöv qılmaq olan müsafirə şamil olunması vacib ehtiyata əsaslanır. Buna əsasən, ehtiyatın tələbinə riayət etmək lazımdır.

**Məsələ 1799.** İmam xütbə oxuyarkən danışmaq məkruhdur. Ancaq əgər danışmaq xütbəyə qulaq asmağa mane olarsa, vacib ehtiyata əsasən, caiz deyil.

**Məsələ 1800.** İki xütbəyə qulaq asmaq, vacib ehtiyata əsasən, xütbənin mənasını başa düşənlər üçün vacibdir, xütbənin mənasını başa düşməyənlərin qulaq asması isə vacib deyil.

**Məsələ 1801.** Cümə namazının imamı xütbə oxuyarkən orada olmaq vacib deyil və əgər xütbələrdə iştirak etməyən namaz qılan özünü cümə namazının özünə çatdırarsa, cümə namazı doğrudur və zöhr namazını əvəz edir.

**Məsələ 1802.** Qeyd edilənlərə əsasən, dövrün imamının (ruhlarımız ona fəda olsun!) qaib olduğu dövrdə cümə namazı təyini vacib deyil. Buna əsasən, insanın şəri zöhr vaxtının başlanğıcında zöhr namazını qılması caizdir.

# AYAT NAMAZI

Bəzi təbii hadisələrin baş verməsi nəticəsində mükəlləfə "ayat (əlamətlər) namazı" adlandırılan bir namazı qılmaq vacib olur. Bu fəsildə ayat namazının özünəməxsus hökm və şərtləri bəyan ediləcəkdir.

## Ayat namazının vacib olduğu hallar

**Məsələ 1803.** Qılınma qaydası qarşıda izah ediləcək ayat namazı üç halda vacib olur:

1) Günəş tutulması;
2) Ay tutulması; (hətta Günəşin və ya Ayın kiçik bir hissəsi tutulsa və kimsə bundan qorxmasa belə)
3) Zəlzələ; (vacib ehtiyata əsasən, hətta kimsə qorxmasa belə).

İldırım, qarayel, qırmızı külək və s. səmavi əlamətlərin təzahürü zamanı insanların böyük bir qismi qorxuya düşdükdə, həmçinin, yer çökməsi, dağ sürüşməsi kimi insanların əksəriyyətini qorxuya salan geoloji hadisələr baş verdikdə, müstəhəb ehtiyata əsasən, ayat namazı qılınmalıdır.

**Məsələ 1804.** Ayat namazının qılınmasını vacib edən hal və amillərin baş verməsi yəqinlik, iki adil şəxsin şahidliyi, yaxud insanda arxayınlıq oyadan istənilən ağlabatan üsulla sabit olur. Buna əsasən, əgər insan elmi metodlarla Günəş, yaxud Ay tutulmasının zamanını bilən şəxslərin məlumatı əsasında Günəş və ya Ay tutulmasının baş verdiyinə yəqinlik, yaxud arxayınlıq hasil edərsə, ayat namazı qılmalıdır. Həmçinin, əgər mütəxəssislər gələcəkdə müəyyən bir vaxtda Günəş, yaxud Ay tutulması baş verəcəyinə və müəyyən müddət davam edəcəyinə dair məlumat verərlərsə və insan onların sözlərinə əmin olarsa, bu əminlik əsasında hərəkət etməlidir.

**Məsələ 1805.** Əgər mükəlləf ayat namazının vacib olduğu halların birinə deyil, bir neçəsinə şahid olarsa, onların hər biri üçün ayrıca bir ayat namazı qılmalıdır. Məsələn, əgər Günəş tutularsa və zəlzələ də olarsa, iki ayat namazı qılmalıdır.

**Məsələ 1806.** Ayat namazının vacib olduğu hallar hansı ərazidə baş verər və hiss edilərsə, yalnız həmin yerin əhalisi ayat namazı qılmalıdır, bu əlaməti hiss etməyən digər məntəqələrin əhalisinə isə, hərçənd həmin məntəqələr hadisənin baş verdiyi məntəqəyə bağlı, yaxud onun qonşuluğunda və yaxınlığında yerləşsə belə, vacib olmur.

## Ayat namazının vaxtı

**Məsələ 1807.** Günəş tutulması və Ay tutulması üçün qılınan ayat namazının vaxtı Günəşin, yaxud Ayın tutulmağa başlaması ilə başlayır və Günəş, yaxud Ay təbii vəziyyətinə qayıdanadək davam edir (hərçənd,

daha yaxşı olar ki, ayat namazının qılınması Günəş və ya Ay diskiyenidən görünməyə başlayanadək[1] təxirə salınmasın). Lakin ayat namazının başa çatdırılmasını Günəş vəya Ay diskinin yenidən görünməyə başlamasından sonrayadək təxirə salmaq olar. Buna əsasən, insan ayat namazını onun əvvəlindən bir hissəsini Günəş, yaxud Ay tutulmasının baş verdiyi vaxt ərzində, qalan hissəsini isə Günəş, yaxud Ay tutulması başa çatdıqdan sonra yerinə yetirmək surəti ilə qıla bilər.

**Məsələ 1808.** Əgər insan ayat namazını qılmağı Günəş, yaxud Ay yenidən görünməyə başlayanadək təxirə salarsa, əda niyyəti ilə qılmasına əngəl yoxdur. Lakin açılma tamamilə başa çatdıqdan sonra namaz qəza olur və onu qəza ayat namazı niyyəti ilə qılmaq lazımdır.

**Məsələ 1809.** Əgər Günəş, yaxud Ay tutulmasının müddəti bir rükət namaz qılmaq üçün kifayət edəcək qədər, yaxud daha az olarsa, insan ayat namazını əda niyyəti ilə qılmalıdır. Həmçinin, əgər sözügedən təbiət hadisələrinin baş vermə müddəti daha artıq olarsa, ancaq bir şəxs namazı vaxtın başa çatmasına bir rükət qılmaq üçün kifayət edəcək qədər, yaxud daha az zaman qalanadək təxirə salarsa, bu halda da ayat namazı əda niyyəti ilə qılınmalıdır.

**Məsələ 1810.** Zəlzələ, ildırım və bu qəbildən olan təbiət hadisələri baş verdikdə və insan ehtiyatən ayat namazı qılmaq istədikdə (bu ehtiyat zəlzələ xüsusunda vacib, digər hallarda isə müstəhəb ehtiyatdır) əgər vaxt geniş olarsa, ayat namazını dərhal qılmasına gərək yoxdur. Bir çox zəlzələ hallarında olduğu kimi vaxt az olarsa, ayat namazını dərhal, ürfün nəzərində təxirə salma hesab edilməyəcək qədər tez qılmalıdır. Əgər namazı sözügedən təbiət hadisəsinin baş verdiyi vaxt sona çatanadək təxirə salarsa, ayat namazını qılmaq ona vacib deyil. Lakin müstəhəb ehtiyat onu daha sonra əda və ya qəza niyyəti olmadan qılmasını tələb edir.

## Ayat namazının qılınma qaydası

**Məsələ 1811.** Ayat namazı iki rükətdir, hər rükətində beş rüku vardır və iki qayda qılına bilər:

**Birinci qayda:** Niyyətdən sonra təkbirət əl-ehram demək, bir dəfə Həmd surəsini və başqa bir bütöv surəni oxumaq, rükuya getmək və rükudan qalxdıqdan sonra təkrarən Həmd və daha bir bütöv surəni oxumaq, sonra yenidən rükuya getmək və bunu beş dəfə təkrarlamaq, beşinci rükudan qalxdıqdan sonra isə iki səcdə etmək, daha sonra ayağa qalxaraq ikinci rükəti də birinci rükət kimi qılmaq, sonda təşəhhüd oxumaq və salamı demək lazımdır.

[1] Burada və eləcə də qarşıdakı məsələlərdə Günəş və Ayın yenidən görünməyə başlaması deyərkən eyni zamanda qismən (hissəli) tutulmalarda tutulan hissənin yenidən görünməsi nəzərdə tutulur. *Tərc.*

**İkinci qayda:** Niyyət, təkbirət əl-ehram və Həmd surəsini oxuduqdan sonra bir surənin ayələrini beş yerə bölmək və hər rükudan öncə bir ayə və ya daha artıq hissəni oxumaq lazımdır. Rükulardan öncə bir bütöv ayənin bir hissəsini də oxumaq olar, ancaq lazım ehtiyata əsasən, həmin hissə bitkin mənalı cümlə olmalıdır. Həmçinin, vacib ehtiyata əsasən, surənin əvvəlindən başlamaq, habelə, lazım ehtiyata əsasən, ilk rükudan öncə "Bismillahir-rəhmanir-rəhim" deməklə kifayətlənməmək[1] lazımdır. Qeyd edilən məqamları nəzərə alaraq ayəni oxuduqdan sonra rükuya getmək, sonra rükudan qalxaraq Həmd surəsini oxumadan, həmin surənin ikinci hissəsini oxuyub yenə rükuya getmək və bu minvalla beşinci rükuyadək surəni başa çatdırmaq lazımdır.

Məsələn, Həmd surəsindən sonra Qədr surəsini oxumaq istəyən şəxs belə etməlidir:

Niyyət, təkbirət əl-ehram və mübarək Həmd surəsini oxuduqdan sonra: "Bismillahir-rəhmanir-rəhim. İnna ənzəlnahu fi leylətil-qədr", – deməlidir.

Sonra rükuya getməli və ardınca ayağa qalxaraq: "Və ma ədrakə ma ləylətul-qədr", – deməlidir.

Sonra yenidən rükuya getməli və rükudan sonra ayağa qalxaraq: "Ləylətul-qədri xayrun min əlfi şəhr", - deməlidir.

Sonra yenə də rükuya getməli və rükudan qalxaraq: "Tənəzzəlul-məlaikətu vər-ruhu fiha biizni rəbbihim min kulli əmr", - deməlidir.

Daha sonra rükuya getməli və ayağa qalxaraq: "Səlamun hiyə hətta mətləil-fəcr", - deməlidir.

Bundan sonra beşinci rükuya getməli və başını qaldırdıqdan sonra iki səcdə etməli, ikinci rükəti də birinci rükət kimi qılmalı və onun ikinci səcdəsindən sonra təşəhhüd oxuyaraq namazın salamını deməlidir. Həmçinin, surəni beşdən az hissəyə də bölə bilər, ancaq surəni tamamladıqda növbəti rükudan öncə qiyam vəziyyətində "Həmd"i oxumalı, daha sonra surəni oxumalıdır.

İxlas surəsi üçün misal: Əgər insan ayat namazında İxlas surəsini oxumaq istəyirsə, vacib ehtiyata əsasən, bir hissədə "Bismillahir-rəhmani-rəhim" deməklə kifayətlənə bilmədiyinə görə surəni başqa bir şəkildə beş hissəyə bölə bilər. Belə ki, hər hissə bitkin mənalı bir cümlə olmalıdır. Məsələn, surəni bu cür bölə bilər:

Birinci hissə - "Bismillahir-rəhmanir-rəhim. Qul huvəllahu əhəd";

İkinci hissə - "Allahus-saməd";

Üçüncü hissə - "Ləm yəlid";

---

[1] Yəni bəsmələ ilə yanaşı surənin ilk ayəsini, yaxud onun bitkin mənalı cümlə ola bir hissəsini də oxumaq lazımdır. *Tərc.*

Dördüncü hissə - “və ləm yuləd”;

Beşinci hissə - “Və ləm yəkun ləhu kufuvən əhəd”.

Həmçinin, beşdən az hissəyə də bölə bilər, ancaq surəni başa çatdırdıqda növbəti rükudan öncə qiyam halında “Həmd”i oxumalıdır.

**Məsələ 1812.** Ayat namazının bir rükətində Həmd və surəni beş dəfə oxumaq, digər rükətdə isə “Həmd”i bir dəfə oxuyaraq surəni beş hissəyə bölmək də olar.

## Ayat namazı ilə əlaqədar hökmlər

**Məsələ 1813.** Günəş və Ay tutulması ilə əlaqədar olaraq qılınan ayat namazı camaat namazı kimi qılmaq olar. Lakin, vacib ehtiyata əsasən, təvaf namazının və Günəş, yaxud Ay tutulmasından başqa səbəblə qılınan ayat namazının camaat namazı kimi doğru deyil.

**Məsələ 1814.** Əgər insan ayat namazında neçə rükət qıldığına dair şəkkə düşərsə və fikrini hər hansı bir nəticəyə gələ bilməzsə, namaz batildir. Ancaq əgər hansı rükətdə olduğunu güman edərsə, yaxud arxayınlıq və ya yəqinlik hasil edərsə, ona uyğun hərəkət etməlidir.

**Məsələ 1815.** Əgər namaz qılan rükuların sayı ilə bağlı şəkkə düşərsə, dörd, yoxsa beş rüku etməsi arasında şəkk etməsi istisna olmaqla, digər hallarda ən az sayı əsas götürməlidir. Yeri keçdikdən sonra, məsələn, “Səmiəllahu limən həmidəh” deyərkən, yaxud səcdəyə gedərkən və ya səcdədə bu şəkkə düşərsə, bu hallarda şəkkinə etina etməməlidir. Ancaq əgər hələ həmin yerdədirsə və sonrakı hərəkətə keçməmişdirsə, yerinə yetirib-yetirmədiyinə şəkk etdiyi rükunu etməlidir.

**Məsələ 1816.** Əgər ayat namazında səhv səcdəsi tələb edən hallar baş verərsə, yaxud namaz qılan səcdəni unudar və yeri keçənədək xatırlamazsa, gündəlik namazlar üçün izah edilmiş hökmlərə əməl etməlidir və ümumiyyətlə, gündəlik namazlarda şəkk və səhv halları ilə əlaqədar hökmlər bu namaza da şamildir.

**Məsələ 1817.** Ayat namazının rükularının hər biri rükndür. Əgər qəsdən artırılar, yaxud azaldılarsa, namaz batildir. Həmçinin, əgər səhvən azaldılarsa, namaz batil olur. Səhvən artırıldığı təqdirdə isə namaz, vacib ehtiyata əsasən, batildir.

**Məsələ 1818.** Gündəlik namazlarda vacib, yaxud müstəhəb olan məqamlar ayat namazlarında da vacib, yaxud müstəhəbdir. Lakin ayat namazının azan və iqaməsi yoxdur və əgər camaatla qılınırsa, yaxşı olar ki, rəcaən (savab ümidi ilə) azan və iqamə yerinə üç dəfə “əs-səlat” deyilsin. Camaat namazı kimi qılınmadığı təqdirdə isə üç dəfə “əs-səlat” deyilməsinə dair göstəriş nəql olunmamışdır.

**Məsələ 1819.** Namaz qılanın ikinci, dördüncü, altıncı, səkkizinci və onuncu rükulardan öncə qunut tutması müstəhəbdir və təkcə onuncu rükudan öncə tutsa da, kafidir.

**Məsələ 1820.** Əgər mükəlləf Günəşin, yaxud Ayın tutulduğunu bilərsə və qəsdən, yaxud unutqanlıqdan ayat namazını vaxtı keçənədək qılmazsa, onun qəzasını qılması vacibdir və bu məsələdə Günəş, yaxud Ayın tam və qismən tutulması arasında heç bir fərq yoxdur. Əgər tam Günəş, yaxud Ay tutulması baş verərsə və mükəlləf bundan xəbərdar olduğu halda qəsdən vaxtı keçənədək ayat namazını qılmazsa, vacib ehtiyata əsasən, onun qəzasını qılmaq üçün qüsl etməlidir.

**Məsələ 1821.** Əgər tam Günəş, yaxud Ay tutulması baş verərsə və həmin vaxt insan bundan xəbərdar olmazsa, ayat namazının qəzasını qılmalıdır. Ancaq əgər Günəş, yaxud Ay qismən tutularsa və həmin vaxt insanın bundan xəbəri olmazsa, sonra (xəbər tutduqda) ayat namazının qəzasını qılmasına gərək yoxdur.

**Məsələ 1822.** Əgər bir dəstə insan Günəş, yaxud Ay tutulması ilə bağlı məlumat verərsə, mükəlləf onların məlumatı ilə şəxsən yəqinlik, yaxud arxayınlıq hasil etməzsə, onların arasında verdiyi məlumat şəriət tərəfindən mötəbər sayılan şəxslər, məsələn, iki adil şəxs (şahid) olmazsa, mükəlləf ayat namazını qılmazsa və sonradan onların doğru söylədikləri məlum olarsa, bu halda tam Günəş, yaxud Ay tutulması baş verdiyi təqdirdə ayat namazının qəzasını qılmalıdır. Lakin əgər Günəş, yaxud Ay qismən (hissəli) tutularsa, ayat namazının qəzasını qılmaq ona vacib deyil. Bu hökm adil olub-olmadığı məlum olmayan, lakin sonradan adil olduqları məlum olan iki şəxsin Günəş, yaxud Ay tutulmasından xəbər verdiyi hala da şamildir.

**Məsələ 1823.** Bir neçə ayat namazının qəzasını qılması vacib olan şəxs, istər onların hamısı ona eyni hadisə ilə əlaqədar vacib olsun, məsələn, üç dəfə Günəş tutulması baş versin və o, həmin hadisələr üçün ayat namazını qılmasın, istərsə bir neçə müxtəlif hadisə ilə əlaqədar, məsələn, bir dəfə Günəş tutulması, bir dəfə Ay tutulması və s. üçün vacib olsun və o, həmin namazları qılmasın, onların qəzasını qılarkən məhz hansı üçün olduğunu müəyyən etməsinə gərək yoxdur.

**Məsələ 1824.** 1810-cu məsələdə qeyd edildiyi kimi mükəlləf zəlzələ baş verdikdən sonra ayat namazını dərhal, insanların nəzərində təxirə salma hesab edilməyəcək qədər tez qılmalıdır. Ancaq əgər hər hansı bir səbəblə zəlzələ üçün ayat namazını qılmağı zəlzələ hadisəsindən bilavasitə sonrakı zaman dilimi keçənədək təxirə salarsa, ayat namazını qılmaq ona vacib deyil, hərçənd müstəhəb ehtiyat onu daha sonra əda və qəza niyyəti olmadan qılmasını tələb edir.

**Məsələ 1825.** Mükəlləf Günəş tutulması, yaxud Ay tutulması üçün qıldığı ayat namazının batil olduğunu başa düşərsə, onu yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır. İnsan zəlzələ üçün qıldığı ayat namazının batil olduğunu başa düşərsə, zəlzələ hadisəsindən bilavasitə sonrakı zaman dilimi keçdiyi təqdirdə ayat namazının vacibliyi onun üçün qüvvədən düşür və onu yenidən qılması vacib deyil, hərçənd müstəhəb ehtiyat onu daha sonra əda və qəza niyyəti olmadan qılmasını tələb edir.

**Məsələ 1826.** Əgər bir qadın heyz, yaxud nifas halında ikən Günəş, yaxud Ay tutulması və ya zəlzələ baş verərsə, ayat namazı ona vacib deyil, bu halda ayat namazı qılmaq doğru deyil və qəzası da vacib deyil. Hərçənd, müstəhəb ehtiyata əsasən, paklandıqdan sonra rəcaən (savab ümidi ilə) Günəş, yaxud Ay tutulması səbəbi ilə qılınan ayat namazının qəzasını qılmalı,zəlzələ üçün qılınan ayat namazını isə əda və qəza niyyəti olmadan qılmalıdır.

**Məsələ 1827.** Əgər gündəlik namazın qılınma vaxtında insana ayat namazı da vacib olarsa, hər iki namazı qılmaq üçün vaxt olduğu təqdirdə istənilən birini öncə qıla bilər. Onlardan birini qılmaq üçünazvaxt qaldığı təqdirdə öncə onu qılmalı, hər ikisi üçü az vaxt qaldığı təqdirdə isə öncə gündəlik namazı qılmalıdır.

**Məsələ 1828.** Əgər gündəlik namazı qılarkən ayat namazı üçün az vaxt qaldığını başa düşərsə, gündəlik namaz üçün də az vaxt qaldığı təqdirdə onu başa çatdırmalı, sonra ayat namazını qılmalı, gündəlik namaz üçün az vaxt qalmadığı təqdirdə isə onu yarımçıq qoymalı və öncə ayat namazını, daha sonra gündəlik namazı qılmalıdır.

**Məsələ 1829.** Əgər ayat namazı əsnasında gündəlik namaz üçün az vaxt qaldığını başa düşərsə, ayat namazını yarımçıq qoymalı və namazı batil edən bir hərəkətə yol vermədən gündəlik namazı qılmalı, onu başa çatdırdıqdan sonra yenə də namazı pozan bir hərəkətə yol vermədən ayat namazının qalan hissəsini qaldığı yerdən davam etdirərək qılmalıdır.

# MÜSTƏHƏB NAMAZLAR

Müstəhəb namazlar çoxdur və onlara "nafilə" deyilir. Müstəhəb namazlar arasında gündəlik nafilələrin qılınması daha çox tövsiyə edilmişdir. Onlarla bağlı hökmlərə qarşıdakı məsələlərdə yer veriləcəkdir.

## Gündəlik nafilələr

**Məsələ 1830.** Gündəlik nafilələr cümə günü istisna olmaqla digər günlərdə 34 rükətdir və aşağıdakılardan ibarətdir:

Səkkiz rükət zöhr nafiləsi, səkkiz rükət əsr nafiləsi, dörd rükət məğrib nafiləsi, iki rükət işa nafiləsi, on bir rükət gecə nafiləsi (bu on bir rükətin səkkizi gecə nafiləsi niyyəti ilə, iki rükəti şəf namazı niyyəti ilə, bir rükəti isə vitr namazı niyyəti ilə qılınır) və iki rükət sübh nafiləsi.

İkirəkətlik işa nafiləsi, vacib ehtiyata əsasən, oturaq vəziyyətdə qılınmalı olduğuna görə bir rükət hesab edilir. Beləliklə, bu nafilələr cəmi 34 rükətdir.

Cümə günü on altı rükət zöhr və əsr nafilələrinin üzərinə dörd rükət də əlavə edilir və cəmi iyirmi rükət olur.

Qeyd etmək lazımdır ki, vitr namazı istisna olmaqla digər nafilələr ikirəkətli namaz kimi qılınır.

## Gündəlik nafilələrin vaxtları

**1) Zöhr nafiləsinin vaxtı**

**Məsələ 1831.** Zöhr nafiləsi zöhr namazından öncə qılınır və onun vaxtı zöhrün başlanğıcından başlayır və zöhr namazından əvvəl qılınması mümkün olan vaxtadək davam edir. Lakin əgər insan zöhr nafiləsini şaxisin şəri zöhrdən sonra peyda olan kölgəsinin uzunluğu şaxisin öz uzunluğunun 2/7-i ölçüsündə olanadək təxirə salarsa, bu zaman yaxşı olar ki, zöhr namazını nafilədən öncə qılsın. Yalnız nafilənin bir rükətini bundan öncə qılmış olduğu təqdirdə istisna olaraq nafilənin zöhr namazından öncə başa çatdırılması daha yaxşıdır.

**2) Əsr nafiləsinin vaxtı**

**Məsələ 1832.** Əsr nafiləsi əsr namazından öncə qılınır və onun vaxtı əsr namazından öncə qılınması mümkün olan vaxtadək davam edir. Lakin əgər insan əsr nafiləsini şaxisin şəri zöhrdən sonra peyda olan kölgəsinin uzunluğu şaxisin öz uzunluğunun 4/7-ü ölçüsündə olanadək təxirə salarsa, bu zaman yaxşı olar ki, əsr namazını nafilədən öncə qılsın. Yalnız

nafilənin bir rükətini bundan öncə qılmış olduğu təqdirdə istisna olaraq nafilənin əsr namazından öncə başa çatdırılması daha yaxşıdır.

**Məsələ 1833.** Cümə günü istisna olmaqla digər günlərdə zöhr və əsr nafilələrinin zöhr azanından öncə qılınması caiz deyil. Yalnız namaz qılanın nafilələri azandan sonra hərçənd ürfün (şəriətin deyil, insanların) nəzərində üzürlü sayılan bir səbəbdən dolayı olsa belə, qıla bilməyəcəyini bildiyi hal istisnadır.

Ancaq cümə günü daha yaxşı olar ki, iyirmi rükətlik zöhr və əsr nafiləsinin iki rükəti zöhr vaxtı, on səkkiz rükəti isə zöhrdən öncə qılınsın və bu on səkkiz rükətin də yaxşı olar ki, altı rükəti günün başlanğıcında Günəşin nuru yayılarkən, altı rükəti Günəş üfüqdə yüksələrkən, digər altı rükəti isə zöhr azanından öncə qılınsın.

**3) Məğrib nafiləsinin vaxtı**

**Məsələ 1834.** Məğrib nafiləsinin vaxtı məğrib namazının başa çatmasından sonra başlayır və məğrib namazından sonra bu namazın vaxtı ərzində qılınması mümkün olan vaxtadək davam edir. Lakin əgər insan məğrib nafiləsini Günəş batdıqdan sonra səmanın qərb tərəfində peyda olan şəfəq aradan gedənək təxirə salarsa, daha yaxşı olar ki, bu halda öncə işa namazını qılsın.

**4) İşa nafiləsinin vaxtı**

**Məsələ 1835.** İşa nafiləsinin vaxtı işa namazının başa çatmasından gecə yarısınadəkdir və yaxşı olar ki, işa namazından sonra dərhal qılınsın.

**5) Gecə nafiləsinin vaxtı**

**Məsələ 1836.** Gecə nafiləsinin vaxtının başlanğıcı, məşhur nəzərə əsasən, gecə yarısıdır. Hərçənd bu nəzər müstəhəb ehtiyata müvafiq və daha yaxşı olsa da, gecə yarısı gecə namazının fəzilət vaxtının başlanğıcıdır. Onun əda (qılınma) vaxtı isə gecənin əvvəlindən başlayır. Belə ki, əgər insan işa namazından sonra gecə nafiləsini qılarsa, vaxtında qılınmışdır və onun vaxtı sübh azanınadək (fəcrin tülusunadək) davam edir. Hərçənd, daha yaxşı olar ki, sübh azanına yaxın qılınsın.

**6) Sübh nafiləsinin vaxtı**

**Məsələ 1837.** Sübh nafiləsi sübh namazından öncə qılınır və onun vaxtı gecə namazının vaxtının başlanğıcından onun (gecə namazının) qılınması üçün lazım olan qədər zaman keçdikdən sonra başlayır və onun (sübh nafiləsinin) sübh namazından öncə qılınması mümkün olan vaxtadək davam edir. Lakin əgər insan sübh nafiləsini qılmağı sübh namazının

fəzilət vaxtı daralanadək təxirə salarsa, yaxşı olar ki, bu halda öncə sübh namazını qılsın.

## Gündəlik nafilələrlə əlaqədar digər hökmlər

**Məsələ 1838.** İnsan gündəlik nafilələrin hamısını deyil, bir qismini də qıla bilər. Gecə namazında son üç rükət, yəni şəf və vitr namazlarını qılmaqla, hətta təkcə vitr namazını qılmaqla da kifayətlənə bilər. Həmçinin, əsr nafiləsinin də dörd, hətta iki rükətini qılmaqla kifayətlənə bilər. Ancaq zöhr və məğrib nafilələrinin, həmçinin, gecə namazının ilk səkkiz rükətinin bir hissəsini qılmaq istəyərsə, bu nafilələri rəca niyyəti ilə qılsın.

**Məsələ 1839.** Müsafir səfərdə zöhr və əsr nafilələrini qılmamalıdır, lakin işa nafiləsini rəca niyyəti ilə qıla bilər. Gecə nafiləsi, məğrib nafiləsi və sübh nafiləsi kimi digər nafilələr isə səfərdə müstəhəbliyini itirmir.

**Məsələ 1840.** İnsan gecə nafiləsini adi qaydada, digər müstəhəb namazlar kimi qıla bilər. Hərçənd, bu nafilənin daha müfəssəl kitablarda izah edilən, daha kamil və daha fəzilətli qılınma qaydası da vardır.

## Digər müstəhəb namazlar

**Məsələ 1841.** Gündəlik nafilələrdən başqa müstəhəb namazlar bir neçə qisimə bölünür:

Onlardan bəziləri xüsusi bir vaxtda, məsələn, ramazan ayında, yaxud xüsusi bir səbəblə, məsələn, ziyarət səbəbi ilə və ya xüsusi bir məqsədə nail olmaq üçün, məsələn, yağışın yağması üçün müstəhəbdir.

Bəzilərinin isə xüsusi bir vaxtda, yaxud xüsusi bir səbəb və qayə ilə qılınmasına gərək yoxdur və onları istənilən zaman, xüsusi bir səbəb və ya qayə olmadan da qılmaq olar. Bu qisim namazlardan bəzilərinin, məsələn, Cəfər Təyyar namazının özünəməxsus qılınma qaydası vardır. Bəzilərinin isə müəyyən bir qılınma qaydası yoxdur, yəni xüsusi bir qayda olmadan sadəcə ikirəkətlik namaz kimi və hətta xüsusi bir səbəb olmadan qılınır. Bu qisim namazlara "ibtidai nafilələr" deyilir.

Burada xüsusi və məşhur müstəhəb namazların bir neçə örnəyi qeyd ediləcəkdir.

## Dəfn gecəsi (vəhşət) namazı

**Məsələ 1842.** Yaxşı olar ki, dünyasının dəyişən şəxsin dəfn edildiyi ilk gecə onun üçün iki rükət vəhşət namazı qılınsın. Bu namazın qılınma qaydası belədir: birinci rükətdə Həmd surəsindən sonra bir dəfə Ayət əl-kursi (Bəqərə surəsinin[1] 255-257-ci ayələri), ikinci rükətdə isə Həmd

---

[1] Ayətəl Kürsünü 257ci ayəyə kimi ( -hum fiha xalidun-) oxumaq lazaım ehtiyata əsasəndir.

surəsindən sonra on dəfə Qədr surəsini oxumaq, namazın salamından sonra: "Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmmədin vəbəs səvabəha ila qəbri fulan"[1] demək lazımdır ("fulan" sözünün yerinə mərhumun adını çəkmək lazımdır).

Qeyd etmək lazımdır ki, vəhşət namazı üçün başqa bir qılınma qaydası da nəql edilmişdir. Həmin qayda belədir: birinci rükətdə Həmd surəsindən sonra iki dəfə İxlas, ikinci rükətdə isə Həmd surəsindən sonra on dəfə Təkasur surəsini oxumaq, namazın salamından sonra "Allahummə səlli əla Muhəmmədin vəbəs səvabəha ila qəbri fulan"[2] demək lazımdır ("fulan" sözünün yerinə mərhumun adını çəkmək lazımdır).

**Məsələ 1843.** Əgər cənazəni uzaq bir şəhərə aparmaq istəyərlərsə, yaxud başqa bir səbəblə onun dəfni gecikərsə, birinci qayda üzrə vəhşət namazının qılınmasını onun dəfnindən sonrakı ilk gecəyədək təxirə salmaq lazımdır, ikinci qayda üzrə qılınan namazla bağlı isə zahir (aydın olan nəzər) budur ki, onun məhz ölümdən sonrakı ilk gecə qılınması müstəhəbdir.

**Məsələ 1844.** Vəhşət namazını gecənin istənilən vaxtında qılmaq olar, lakin daha yaxşı olar ki, gecənin əvvəlində, işa namazından sonra qılınsın. [3]

## Qüfeylə namazı

**Məsələ 1845.** Qüfeylə namazı müstəhəb namazlardan biri olub məğrib və işa namazları arasında qılınır. Ancaq bu namaz gündəlik nafilələrdən sayılmır. Hərçənd onu məğrib nafiləsi kimi qılmaq olar. Belə ki, insan hər iki namaz üçün birlikdə niyyət edə bilər. Qüfeylə namazının qılınma qaydası belədir:

Birinci rükətdə Həmd surəsindən sonra ikinci surə yerinə bu ayəni oxumaq lazımdır: "Və zənnuni iz zəhəbə muğazibən, fəzənnə ən lən nəqdirə əleyhi, fənada fiz-zulumati ən la ilahə illa əntə, subhanəkə inni kuntu minəz-zalimin. Fəstəcəbna ləhu və nəccəynahu minəl-ğəmmi və kəzalikə nuncil-muminin".

İkinci rükətdə Həmd surəsindən sonra ikinci surə yerinə bu ayəni oxumaq lazımdır: "Və indəhu məfatihul-ğaybi la yələmuha illa huvə, və yələmu ma fil-bərri vəl-bəhri və ma təsqutu min vərəqətin illa

---

[1] Bəzi nüsxələrdə şərif salavat zikrindən sonrakı ibarə "vəbəs səvabəhuma ila qəbri fulan" kimi göstərilir.

[2] Bəzi nüsxələrdə şərif salavat zikrindən sonrakı ibarə "vəbəs səvabəha ila qəbri zalikəlmeyyiti fulan ibni fulan" kimi göstərilir. (Burada isə "fulan ibni fulan" sözlərinin yerinə mərhumun və atasının adı çəkilir *tərc.* )

[3] Birinci qayda ilə qılınan vəhşət namazında dəfnin ilk gecəsi, ikinci qayda ilə qılınanda isə mərhumun vəfatının ilk gecəsi nəzərdə tutulur.

yələmuha və la həbbətin fi zulumatil-ərzi və la rətbin və la yabisin illa fi kitabin mubin".

Qunutda bu duanı oxumaq lazımdır: "Allahummə inni əsəlukə biməfatihil-ğayb, əlləti la yələmuha illa əntə, ən tusəlliyə əla Muhəmmədin və Ali-Muhəmmədin, və ən təfələ bi kəza və kəza". Burada "kəza və kəza" sözlərinin yerinə öz diləklərini uca Allahdan istəməli, sonra belə deməlidir: "Allahummə əntə vəliyyu niməti, vəl-qadiru əla təlibəti, tələmu hacəti, fəəsəlukə bihəqqi Muhəmmədin və Ali-Muhəmmədin əleyhi və əlehimus-səlamu, ləmma qəzəytəha li".

## Ayın əvvəlinin namazı

**Məsələ 1846.** Müstəhəb namazlardan biri də qəməri təqvimlə[1] hər ayın ilk günü "ayın əvvəlinin namazı" adlandırılan iki rükət namazdır. Bu namazın qılınma qaydası belədir: namaz qılan bu namazın birinci rükətində Həmd surəsindən sonra otuz dəfə İxlas, ikinci rükətdə Həmd surəsindən sonra isə otuz dəfə Qədr surəsini oxumalı və namazdan sonra imkan daxilində sədəqə verməlidir. Bu namaz ayın ilk gününün istənilən vaxtında qılına bilər. Həmçinin, bu namazdan sonra aşağıdakı ayələrin oxuması müstəhəb sayılmışdır:

"Bismillahir-rəhmanir-rəhim. Və ma min dabbətin fil-ərzi illa ələllahi rizquha, və yələmu mustəqərrəha və mustəvdəəha, kullun fi kitabin mubin. Bismillahir-rəhmanir-rəhim. Və in yəmsəskəllahu bizurrin fəla kaşifə ləhu illa huvə, və in yuridkə bixayrin, fəla raddə lifəzlihi, yusibu bihi mən yəşau min ibadihi, və huvəl-ğafurur-rəhim. [2] Bismillahir-rəhmanir-rəhim. Səyəcəlullahu bədə usrin yusra. Maşaallahu la hovla və la quvvətə illah billahi. Həsbunəllahu və niməl-vəkilu. Və ufəvvizu əmri iləllah. İnnəllahə bəsirun bil-ibad. La ilahə illa əntə, subhanəkə inni kuntu minəz-zalimin. Rəbbi inni lima ənzəltə iləyyə min xayrin fəqir. Rəbbi la təzərni fərdən və əntə xayrul-varisin".

## Müstəhəb namazlarla əlaqədar hökmlər

**Məsələ 1847.** İstər gündəlik nafilələr, istərsə digər müstəhəb namazları hərçən insan ayaq üstə namaz qıla bilsə belə, oturaq vəziyyətdə qılmaq olar və bu halda hər iki rükəti bir rükət kimi hesablamaq lazım deyil. Əgər namaz qılan hər iki rükəti bir rükət kimi hesablamaq istəyərsə, vacib ehtiyata əsasən, ikinci dəfə rəca niyyəti ilə qılmalıdır. Məsələn, iki

[1] Sinodik təqvim, ay təqvimi. *Tərc.*

[2] Bəzi nüsxələrdə ikinci bəsmələ ilə üçüncü arasında bu ayə, yəni Yunus surəsinin 104-cü ayəsi yerinə Ənam surəsinin 17-ci ayəsi göstərilmişdir: "Və in yəmsəskəllahu bizurrin fəla kaşifə ləhu illa huvə və in yəmsəskə bixayrin fəhuvə əla kulli şəyin qədir".

salamı olan dördrəkətlik məğrib nafiləsinə (oturaq vəziyyətdə qılaraq qeyd edilən qaydada hesablamaq istədikdə) rəcaən iki salamlı olmaqla daha dörd rükət əlavə etməlidir. Bu qayda ilə rükətlərin birlikdə sayı səkkiz olur.

**Məsələ 1848.** Yaxşı olar ki, insan istər gündəlik nafilələri, istərsə digər müstəhəb namazları ayaq üstə qılsın. Yalnız işa nafiləsi (vüteyrə namazı), vacib ehtiyata əsasən, oturaq vəziyyətdə qılınmalıdır.

**Məsələ 1849.** Müstəhəb namazları zərurət və çarəsizlik hallarında sağ, yaxud sol və ya arxası üstə uzanmış vəziyyətdə (namaz qılanın vəzifəsinə uyğun olaraq) qılmaq olar və bu halda rüku və səcdə baş işarəsi ilə yerinə yetirilir. Lakin adi hallarda bunun caizliyi şübhəlidir. Lakin rəcaən (savab ümidi ilə) bu vəziyyətdə qılına bilər.

**Məsələ 1850.** Müstəhəb namazın (işa nafiləsi istisna olmaqla) bir rükətini ayaq üstə, digər rükətini isə oturaq vəziyyətdə qılmaq olar. Hətta bir rükətin bir hissəsini ayaq üstə, bir hissəsini isə oturaq vəziyyətdə qılmaq da olar.

**Məsələ 1851.** Əgər namaz qılan müstəhəb namazı oturaq vəziyyətdə qılmağa başlasa, ikinci surənin axırından bir hissəni, məsələn, bir-iki ayəni saxlayaraq ayağa qalxsa və surənin davamını ayaq üstə oxuyaraq qiyam halından (ayaq üstə) rükuya getsə və namazını bu qaydada davam etdirsə, qıldığı namaz hökm baxımından ayaq üstə namaz hesab edilir və ayaq üstə namaz savabı vardır.

**Məsələ 1852.** Müstəhəb namazı piyada yol gedərkən qılmaq olar. Həmçinin, müstəhəb namazı maşın, qatar, təyyarə, gəmi və s. nəqliyyat vasitələrində də qılmaq olar, bu halda namaz əsnasında bədənin sabit (hərəkətsiz) olması şərt deyil və namaz qılan rüku və səcdəni baş hərəkəti ilə də icra edə bilər.

Qeyd etmək lazımdır ki, piyada və nəqliyyat vasitəsində hərəkət etmək istisna olmaqla digər hallarda müstəhəb namazı qılmaq üçün, vacib ehtiyata əsasən, üzü qiblə istiqamətinə durmaq lazımdır.

**Məsələ 1853.** Fitr və qurban bayramı namazları kimi dövrün imamının (ə. f) insanların arasında olduğu dövrdə qılınması vacib olan namazlarda hərçənd hal-hazırda həmin namazlar müstəhəb namaz olsa da, üzü qibləyə durmaq vacibdir. Ancaq nəzir və bu qəbildən olan səbəblərlə insana vacib olan müstəhəb namazlar isə piyada və ya nəqliyyat vasitəsində hərəkət edərkən qılındığı təqdirdə üzü qibləyə olmaq vacib deyil.

**Məsələ 1854.** Kəbə evində və onun damında müstəhəb namaz qılmaq olar. Hətta Kəbə evinin daxilində üzü künclərin hər birinə doğru tutaraq iki rükət namaz qılmaq müstəhəbdir.

**Məsələ 1855.** Dəstəmaz ala, yaxud qüsl edə bilməyən şəxs müstəhəb namazları təyəmmümlə (vəzifəsinə uyğun olaraq) qıla bilər.

**Məsələ 1856.** Vəhşət (dəfn gecəsi) namazı kimi Həmd surəsindən sonra məxsusi surəsi olan bəzi müstəhəb namazları qaydasına uyğun qılmaq istədikdə həmin surəni oxumaq lazımdır. Həmd surəsindən sonra xüsusi bir surənin oxunulmasına dair göstəriş olmayan müstəhəb namazlarda isə namaz qılan hərçənd həmin namaz nəzir səbəbi ilə ona vacib olsa belə, ikinci surəni oxumaqdan imtina edə, yaxud onu oxuyarkən yarıda dayandıra və qalanını oxumayaraq rükuya gedə bilər. Həmçinin, müstəhəb namazlarda Həmd surəsindən sonra iki və ya daha artıq surə oxumaq olar.

**Məsələ 1857.** Qəza namazı olan şəxs müstəhəb namaz qıla bilər. Lakin vacib qəza namazının insanların nəzərində qılınmasında səhlənkarlıq sayılacaq qədər təxirə salınması caiz deyil.

**Məsələ 1858.** Müstəhəb namazı yarıda dayandırmaq olar. Hərçənd, müstəhəb ehtiyat namaz qılandan zərurət olmadan müstəhəb namazı yarımçıq qoymamağı tələb edir.

## Müstəhəb namazların hissələrinin artırılıb-azaldılması

**Məsələ 1859.** Əgər namaz qılan müstəhəb namazda bir rüknü səhvən yerinə yetirməzsə və bunu şəriətə görə geri qayıdaraq həmin rüknü yerinə yetirə bilmədiyi bir yerdə başa düşərsə, namazı batildir. [1] Məsələn, əgər məğrib nafiləsində təşəhhüdü oxuyarkən, yaxud namazın salamından sonra birinci rükətin iki səcdəsini etmədiyini başa düşərsə, namazı batildir.

**Məsələ 1860.** Əgər müstəhəb namazda səhvən bir rüknü artıq yerinə yetirərsə, namazı batil olmur. Məsələn, əgər zöhr nafiləsinin bir rükətində səhvən iki dəfə rüku edərsə, nafilə namazı batil olmur.

**Məsələ 1861.** Əgər namaz qılan nafilə namazının hərəkətlərindən hər hansı birini unudarsa və ondan sonrakı rüknü yerinə yetirərkən xatırlayarsa, geri qayıdaraq unutduğu hərəkəti yerinə yetirməli, sonra həmin rüknü təkrarən yerinə yetirməlidir və bu halda rüknün artıq yerinə yetirilməsi müstəhəb namazı batil etmir.

Məsələn, əgər namaz qılan sübh nafiləsində rükuda Həmd və surəni oxumadığını, yaxud ayın başlanması namazında otuz dəfə Qədr surəsi yerinə bir dəfə İxlas surəsini oxuduğunu xatırlayarsa, geri qayıtmalı və sözügedən surələri oxumalı, sonra təkrarən rükuya getməlidir və bu

---

[1] Namaz qılanın geri qayıdaraq səhvən yerinə yetirmədiyi rüknü yerinə yetirməsi mümkün olan zaman baxımından müstəhəb namazla vacib namaz arasında fərq vardır. Bu fərq 1861-ci məsələdə izah edilmişdir.

halda artıq rüku nafiləni batil etmir. Həmçinin, əgər sübh nafiləsində rükunu unudarsa və bunu ikinci səcdədə xatırlayarsa, geri qayıtmalı və rüku etdikdən sonra təkrarən iki səcdə etməlidir və bu halda iki artıq səcdə etmək nafiləni batil etmir.

Qeyd etmək lazımdır ki, əgər geri qayıtmaq və unudulmuş hissəni yerinə yetirmək rükət artımına səbəb olursa, bu hökm qüvvəsini itirir. Məsələn, əgər ikinci rükətdə birinci rükətin qiraətini unutduğunu xatırlayarsa, geri qayıda bilməz. Çünki bu halda qiraət və ondan sonrakı hərəkətlərin yerinə yetirilməsi namazda rükət artımına səbəb olur.

## Müstəhəb namazın hərəkət və zikrlərində şəkk və güman

**Məsələ 1862.** Əgər insan müstəhəb namazı qılıb-qılmadığına şəkk edərsə, həmin namazın Cəfər Təyyar namazı kimi müəyyən bir vaxtı olmadığı təqdirdə qılmaması ehtimalını əsas götürməlidir. Həmçinin, əgər gündəlik nafilələr kimi müəyyən bir vaxtı vardırsa və insan vaxtı başa çatmamış onu qılıb-qılmadığına şəkk edərsə, qılmaması ehtimalını əsas götürməlidir. Lakin əgər vaxtı keçdikdən sonra həmin namazı qılıb-qılmadığına şəkk edərsə, şəkkinə etina etməsin.

**Məsələ 1863.** Əgər müstəhəb namazın rükətlərinin sayında şəkk edərsə, böyük sayı ifadə edən ehtimal namazı batil etdiyi təqdirdə kiçik sayı ifadə edən ehtimalı əsas götürməlidir. Məsələn, əgər namaz qılan sübh nafiləsində ikinci, yoxsa üçüncü rükətdə olduğuna şəkk edirsə, ikinci rükətdə olması ehtimalını əsas götürməlidir. Ancaq əgər böyük sayı ifadə edən ehtimal namazı batil etmirsə, məsələn, ikinci, yoxsa birinci rükətdə olduğuna şəkk edirsə, hansı ehtimalı əsas götürərək hərəkət etsə, namazı doğrudur. Lakin əgər vitr namazında rükət sayı ilə bağlı şəkkə düşərsə, ehtiyat namazı yenidən qılmasını tələb edir.

**Məsələ 1864.** Vacib ehtiyata əsasən, müstəhəb namazlarda rükətlərin sayı ilə əlaqədar güman yəqin qüvvəsində sayılır. Yəni namaz qılan böyük, yaxud kiçik sayı (çox, yaxud az rükət sayını) ifadə edən ehtimallardan hər hansı birini əsas götürməkdə ixtiyar sahibi deyil, vacib ehtiyata əsasən, gümanına uyğun hərəkət etməlidir. Lakin gümanına uyğun hərəkət etməyin namazı batil etdiyi hallar istisnadır.

**Məsələ 1865.** Əgər ikirəkətli müstəhəb namazda üç, yaxud daha artıq rükət qıldığını güman edərsə, gümanına etina etməməlidir və namazı doğrudur. Məsələn, əgər namaz qılan qüfeylə namazında üç rükət qıldığını güman edərsə, iki rükət qıldığına dair da məntiqli bir ehtimalı vardırsa, iki rükət qılması ehtimalını əsas götürməlidir.

**Məsələ 1866.** Müstəhəb namazın hərəkət və zikrlərində şəkk və güman vacib namazda olduğu kimidir. Buna əsasən, əgər şəkk, yaxud güman yaranarkən həmin hərəkət və zikrin yeri keçməmiş olarsa, həmin hissəni yerinə yetirməli, yeri keçdiyi təqdirdə isə şəkkinə etina etməməlidir.

**Məsələ 1867.** Əgər insan vacib namazda səhv səcdəsinin vacib olmasına səbəb olan bir hərəkəti nafilə namazında edərsə, yaxud nafilə namazında bir səcdəni unudarsa və şəriətə görə namazın geri qayıdaraq həmin səcdəni yerinə yetirməsi mümkün olmayan bir hissəsinə başlayarsa, namazdan sonra səhv səcdəsi etməsi, yaxud unutduğu səcdənin qəzasını yerinə yetirməsi lazım deyil.

**Məsələ 1868.** Əgər insan müstəhəb namazda rüku, yaxud səcdənin vacib zikrini unudarsa və başını rükudan, yaxud səcdədən qaldırdıqdan sonra xatırlayarsa, geri qayıtmamalı, namazı davam etdirməlidir və səhv səcdəsi etməsinə də gərək yoxdur.

# FİTR VƏ QURBAN BAYRAMI NAMAZI

**Məsələ 1869.** İmamın (ə) insanların arasında olduğu dövrdə fitr və qurban bayramı namazı vacibdir və camaatla qılınmalıdır. İmamın (ə) qaib olduğu bu dövrdə isə müstəhəbdir və onu camaatla, yaxud fərdi namaz kimi qılmaq olar.

## Fitr və qurban bayramı namazının vaxtı

**Məsələ 1870.** Fitr və qurban bayramı namazının vaxtı bayram günü günçıxandan zöhrədəkdir.

**Məsələ 1871.** Qurban bayramı namazını Günəş üfüqdə yüksəldikdən sonra qılmaq müstəhəbdir. Fitr bayramında isə Günəş üfüqdə yüksəldikdən sonra iftar etmək və fitrə zəkatını da vermək, daha sonra bayram namazını qılmaq müstəhəbdir.

## Fitr və qurban bayramı namazının qılınma qaydası

**Məsələ 1872.** Fitr və qurban bayramı namazı iki rükətdir. Namazın başlanğıcında təkbirət əl-ehramdan və hər iki rükətdə Həmd və surəni oxuduqdan sonra bir neçə dəfə təkbir deyilir və təkbirlər arasında qunut tutulur. Vacib ehtiyata əsasən, hər rükətdə üç təkbir deyilməsi, onların arasında iki qunut tutulması lazımdır və üçüncü təkbirdən sonra, vacib ehtiyata əsasən, rükudan öncə başqa bir təkbir də deyilir. Beləliklə, hər rükətdə təkbirlərin ümumi sayı dörddür. Hərçənd, daha yaxşı olar ki, birinci rükətdə beş təkbir deyilsin və onların arasında dörd qunut tutulsun, ikinci rükətdə isə dörd təkbir deyilsin və onların arasında üç qunut tutulsun. Bu halda həmin təkbir və qunutlardan əlavə, vacib ehtiyata əsasən, rükudan öncə başqa bir təkbirin də deyilməsi lazımdır.

Qeyd etmək lazımdır ki, namazın qalan hissəsi, yəni rüku, iki səcdə, təşəhhüd və salam eynilə digər ikirəkətli namazlarda olduğu kimi yerinə yetirilir.

**Məsələ 1873.** Fitr və qurban bayramı namazının qunutunda istənilən dua və zikr oxunarsa, kifayət edir. Lakin daha yaxşı olar ki, bu dua oxunsun: "Allahummə əhləl-kibriyai vəl-əzəməti, və əhləl-cudi vəl-cəbəruti, və əhləl-əfvi vər-rəhməti, və əhlət-təqva vəl-məğfirəti, əsələkə bi həqqi hazəl-yaum, əlləzi cəəltəhu lil-musliminə idən, və li Muhəmmədin səlləllahu əleyhi və alihi və səlləmə zuxran və məzidən, ən tusəlliyə əla Muhəmmədin və Ali-Muhəmmədin, və ən tudxiləni fi kulli xayrin ədxəltə fihi Muhəmmədən və Alə-Muhəmmədin, və ən

tuxricəni min kulli suin əxrəctə minhu Muhəmmədən və Alə-Muhəmmədin, sələvatukə əleyhi və əleyhim, Allahummə inni əsəlukə xayra ma səələkə bihi ibadukəs-salihun, və əuzu bikə mimməstəazə minhu ibadukəs-salihun”.[1]

**Məsələ 1874.** Əgər insan bayram namazında bir səcdəni unudarsa və onun icra edilmə yeri keçərsə, onu namazdan sonra yerinə yetirməlidir. Həmçinin, əgər gündəlik namazda səhv səcdəsi tələb edən bir hərəkət edərsə, namazdan sonra iki səhv səcdəsi etməlidir.

**Məsələ 1875.** Əgər namaz qılan bayram namazının təkbirlərinin, yaxud qunutlarının sayında şəkkə düşərsə, yeri keçdiyi təqdirdə şəkkinə etina etməsin. Ancaq əgər hələ yeri keçməmişdirsə, az sayı ifadə edən ehtimalı əsas götürsün və əgər sonradan artıq sayda təkbir dediyi, yaxud qunut tutduğu məlum olarsa, namazı batil olmur.

## Fitr və qurban bayramı namazının camaatla qılınması ilə əlaqədar hökmlər

**Məsələ 1876.** Dövrün imamının (ə. f) qaib olduğu dövrdə əgər fitr və qurban bayramı namazı camaatla qılınarsa, lazım ehtiyata əsasən, ondan sonra iki xütbə oxunmalıdır. Bu iki xütbənin oxunma qaydası cümə namazının xütbələri kimidir. İmam iki xütbə arasında bir qədər oturmalıdır və daha yaxşı olar ki, fitr bayramı xütbəsində fitrə zəkatı, qurban bayramı xütbəsində isə qurbanlıq ilə bağlı hökmləri açıqlasın. Bu iki xütbənin namazdan öncə oxunması caiz deyil. Məmumun xütbələr əsnasında orada olması vacib deyil.

**Məsələ 1877.** Bayram namazında da digər namazlarda olduğu kimi məmum Həmd və surə istisna olmaqla namazın digər zikrlərini özü deməlidir.

**Məsələ 1878.** Əgər məmum imam təkbirlərin bir neçəsini dedikdən sonra gəlib çatarsa, imam rükuya getdikdən sonra onunla birgə demədiyi təkbirləri deməli, qunutları tutmalı, rükuya çatmalıdır və əgər hər qunutda bir dəfə “Subhanəllah”, yaxud “Əlhəmdu lillah” və ya bənzər bir zikr deyərsə, kafidir. Əgər vaxt yoxdursa, yalnız təkbirləri deməlidir. Əgər bu qədər də vaxt yoxdursa, imamın ardınca hərəkət edərək rükuya getməsi kifayətdir.

**Məsələ 1879.** Əgər insan bayram namazında imamın rükuda olduğu məqamda gəlib çatarsa, niyyət edib namazın ilk təkbirini, ardınca rükunun təkbirini deyə və rükuya gedə bilər.

[1] Bəzi nüsxələrdə sonuncu “əs-salihun” yerinə, “əl-muxləsun”, yaxud “əl-muxlisun” göstərilir.

## Fitr və qurban bayramı namazının müstəhəbləri

Böyük fəqihlər (Allah onlardan razı olsun!) fitr və qurban bayramı namazında qarşıdakı məsələlərdə izah ediləcək bəzi məqamları müstəhəb hesab etmişlər.

**Məsələ 1880.** Bayram namazının məxsusi surəsi yoxdur. Lakin daha yaxşı olar ki, onun birinci rükətində Şəms, ikinci rükətində isə Ğaşiyə surəsi, yaxud birinci rükətində Əla, ikinci rükətdə isə Şəms surəsi oxunsun.

**Məsələ 1881.** Bayram namazının çöllükdə qılınması müstəhəbdir. Ancaq Məkkədə onun Məscid əl-haramda qılınması müstəhəbdir.

**Məsələ 1882.** İnsanların bayram namazına piyada, ayaqyalın və vüqarla getməsi və namazdan öncə qüsl etməsi, başlarına ağ əmmamə qoyması müstəhəbdir.

**Məsələ 1883.** İnsanın bayram namazında yerə səcdə etməsi, təkbirləri deyərkən əllərini yuxarı qaldırması, imam, yaxud fərdi namaz qılan olmasından asılı olmayaraq Həmd və surəni ucadan oxuması müstəhəbdir.

**Məsələ 1884.** Fitr bayramı axşamının məğrib və işa namazlarından, həmçinin, bayram gününün sübh namazından və fitr bayramı namazından sonra bu təkbirlərin deyilməsi müstəhəbdir: "Allahu əkbər, Allahu əkbər, la ilahə illəllahu vəllahu əkbər, Allahu əkbər və lillahil-həmd, Allahu əkbəru əla ma hədana".

**Məsələ 1885.** İnsanın qurban bayramında on namazdan (bayram gününün zöhr namazından zül-hiccə ayının on ikinci gününün sübh namazınadək) sonra əvvəlki məsələdə qeyd edilən təkbirləri deməsi və ardınca "Allahu əkbəru əla ma rəzəqəna min bəhimətil-ənam, vəlhəmdu lillahi əla ma əblana" deməsi müstəhəbdir. Lakin əgər qurban bayramını Minada keçirirsə,bu təkbirləri bayram gününün zöhr namazından zül-hiccə ayının on üçüncü gününün sübh namazınadək olmaqla on beş namazdan sonra deməlidir.

**Məsələ 1886.** Müstəhəb ehtiyat qadınların bayram namazında iştirak etməkdən çəkinməsini tələb edir. Lakin bu ehtiyat yaşlı qadınlara aid deyil.

# NİYABƏT (NAMAZ VƏ DİGƏR İBADƏT İŞLƏRİNDƏ NAİBLİK)

**Məsələ 1887.** İnsanın vəfatından sonra onun sağlığında yerinə yetirmədiyi namaz və digər ibadətləri "naib" adlandırılan başqa bir şəxs icra edə bilər. Onun gördüyü işə "niyabət" (naiblik), naibi olaraq işlərini gördüyü şəxsə isə "münəvvəbun ənh" deyilir.

"Təbərrui" (ödənişsiz) niyabət doğru olduğu kimi icarə (əcir tutma), cüalə, yaxud əqd çərçivəsindəki şərt əsasında və bu qəbildən olan əsaslarla niyabət də doğrudur. Buna əsasən, insanın vəfatından sonra onun sağlığında icra etmədiyi namaz və digər ibadətlərinin icrası üçün başqasını əcir tutmaq, yəni həmin ibadətləi yerinə yetirməsi üçün ona ücrət (ödənc) vermək olar. Belə namaz, yaxud ibadət "isticari namaz" və ya "isticari ibadət" adlandırılır.

**Məsələ 1888.** Dünyasını dəyişən şəxslərə naiblik həm vacib, həm də müstəhəb işlərdə caizdir. Ancaq yaşayan insanlara vacib işlərdə naiblik hətta həmin şəxs sözügedən işin icrasına qadir olmasa belə, caiz deyil. Yalnız "Həcc" fəslində, "Niyabət üsulu ilə həcc ilə əlaqədar hökmlər" mövzusunda izah ediləcəyi kimi həcc istisna təşkil edir.

Yaşayan şəxslərə bəzi müstəhəb ibadətlərdə naiblik etmək, məsələn, Məkkə şəhərində olmayan şəxs tərəfindən həcc, ömrə və təvaf ayinlərini yerinə yetirmək, habelə, başqasının (yaşayan insanın) yerinə Allahın elçisinin (s) və imamların (ə) qəbirlərini ziyarət etmək və ziyarətdən sonra qılınan ziyarət namazını qılmaq caizdir. Hətta həyatda olan şəxslərə bütün müstəhəb işlərdə (rəcaən, yəni savab ümidi ilə və bunu şəriətə daxil etmək niyyəti olmadan) naiblik etmək caizdir.

Sağ insanların naibi olmağın caiz olduğu hallarda niyabətin təbərrui (ödənişsiz), yaxud icarə, cüalə və bu qəbildən olan əsaslarla olması arasında heç bir fərq yoxdur. Buna əsasən, insan sağ şəxslər tərəfindən həcc, ömrə və ziyarət kimi müstəhəb işləri yerinə yetirmək üçün ücrət (ödənc) müqabilində əcir ola bilər.

**Məsələ 1889.** Müstəhəb və vacib əməllərdə savabı hədiyyə etmək caizdir və insan müstəhəb, yaxud vacib işi özü üçün görə, sonra onun savabını dünyadan köçmüş və ya sağ olan şəxslərə hədiyyə edə bilər. Qeyd etmək lazımdır ki, savabın hədiyyə edilməsi həmin vəfat etmiş, yaxud sağ şəxslərin öhdəsində olan vacib işlərin onların öhdəsindən götürülməsi ilə nəticələnmir.

## Qəza namazında niyabətlə kifayətlənməyin şərtləri

**Məsələ 1890.** Niyabət üsulu ilə qılınan qəza namazının onu qılmalı olan şəxsin öhdəsindən, üzərindən götürülməsi və onunla kifayətlənə bilmək üçün bir neçə şərt tələb olunur.

***1, 2 və 3-cü şərtlər: Naib aqil, isnaəşəri şiə və vacib ehtiyata əsasən, həddi-büluğa çatmış şəxs olmalıdır***

**Məsələ 1891.** Həddi-büluğa çatmamış müməyyiz (yaxşı ilə pisi ayırd edə bilən) şəxsin naibliyi yalnız vəsiyyətlə bağlı bəzi hallarda və xüsusi şərtlər çərçivəsində doğru sayılır.

***4-cü şərt: Naib işi niyabət niyyəti ilə icra etməlidir***

**Məsələ 1892.** Naibin gördüyü işlə o halda kifayətlənmək olar ki, onun niyyəti naiblik etmək olsun və nəzərdə tutulan işi "münəvvəbun ənh"in (məsələn, dünyasını dəyişən şəxsin) məsuliyyətdən azad edilməsi üçün yerinə yetirsin. Buna əsasən, əgər naib yalnız işi görərsə və savabını nəzərdə tutulan şəxsə hədiyyə edərsə, niyabət üçün yetərli sayılmır.

***5-ci şərt: Naib işi icra edərkən münəvvəbun ənhi (hərçənd icmal surətdə olsa belə) müəyyən etməlidir***

**Məsələ 1893.** Münəvvəbun ənhi təyin etmək üçün naibin onun adını bilməsi lazım deyil. Məsələn: "Naibi olaraq namazını qılmaq üçün əcir tutulduğum şəxsin tərəfindən (adına) namaz qılıram", - deyə niyyət edərsə, kafidir və onun adını, soyadını bilməsinə, yaxud adını dilinə gətirməsinə gərək yoxdur.

***6-cı şərt: Naib tutan şəxs işin naib tərəfindən yerinə yetirildiyinə arxayın olmalıdır***

**Məsələ 1894.** Əgər naib namazı münəvvəbun ənh (məsələn, vəfat etmiş şəxs) adına qıldığını söyləyirsə, ancaq onu naib tutan şəxs işin görüldüyünə arxayın deyilsə, vacib ehtiyata əsasən, onun sözü ilə kifayətlənə bilməz.

***7-ci şərt: Naib işi düzgün qaydada yerinə yetirməlidir***

**Məsələ 1895.** Münəvvəbun ənh yalnız naibin nəzərdə tutulan işi düzgün tərzdə gördüyü zaman məsuliyyətdən azad olur.

**Məsələ 1896.** Vəfat etmiş şəxsin namazı üçün əcir tutulmuş şəxsin bu işi görmədiyi, yaxud gördüyü işin batil olduğu başa düşülərsə, yenidən əcir tutmaq lazımdır.

**Məsələ 1897.** Əgər insan naibin namazı qıldığını bilirsə, ancaq onu düzgün qılıb-qılmadığına dair şəkki varsa, onun gördüyü işin düzgün olması ehtimalını əsas götürə bilər.

**Məsələ 1898.** Vəfat etmiş şəxsin qəza namazı üçün naib tutulan şəxs ya müctəhid olmalı və niyabət əsasında qıldığı qəza namazını öz ictihadından qaynaqlanan rəyinə müvafiq qaydada qılmalı, ya ehtiyatın tələblərinə əməl etməli (ehtiyat məqamlarını mükəmməl şəkildə bildiyi təqdirdə), ya da əgər müctəhid deyilsə və ehtiyat etmək istəmirsə, yaxud ehtiyat məqamları ilə tanış deyilsə, mərcəi-təqlid seçilməsi doğru olan bir müctəhidin fətvasına müvafiq qaydada qılmalıdır. Bu hökmdə naibin əcir olması ilə cüalə, yaxud əqd çərçivəsində şərt səbəbi ilə naiblik etməsi, ya da niyabətinin təbərrui (ödənişsiz) olması arasında arasında heç bir fərq yoxdur.

**Məsələ 1899.** Əgər əcir tutulan şəxsin qarşısına nəzərdə tutulan işi məxsusi bir şəkildə icra etməyi şərt qoyarlarsa, yəni əcir tutan şəxs işin yalnız həmin qaydada icra edilməsini istəyərsə, yaxud şərt qoymadan da ondan işi məhz həmin qaydada yerinə yetirməsinin tələb olunduğu məlumdursa, əcir tutulan şəxs işi məhz həmin qaydada yerinə yetirməlidir. Lakin əcir tutulan şəxs işin həmin şəkildə icrasının batil olduğuna əmindirsə, bu halda istisna olaraq əcir tutma batil sayılır. Əgər əcir tutulan şəxsin qarşısına hər hansı bir şərt qoyulmazsa, həmin işdə öz vəzifəsinə uyğun hərəkət etməli və öz mərcəi-təqlidinin fətvasına əməl etməlidir. Müstəhəb ehtiyatın tələbi isə budur ki, özünün, mərhumun və onun vəlisinin (namazın qılınması vəlinin vəzifəsidirsə, məsələn, vəli böyük oğuldursa) vəzifələri arasından ehtiyata daha yaxın olanına əməl etsin. Məsələn, əgər mərhumun vəzifəsi təsbihat-i ərbəəni üç dəfə demək idisə, onun öz vəzifəsi isə bir dəfə deməkdirsə, təsbihat-i ərbəəni üç dəfə desin.

**Məsələ 1900.** Əgər əcir tutulan şəxsin qarşısına namazı nə qədər müstəhəbləri ilə qılmaq xüsusunda şərt qoyulmursa, gündəlik namazların adətən əməl edilən müstəhəblərini yerinə yetirməlidir. Lakin əcir tutanın namazın məhz vacib hissəsini nəzərdə tutduğunu, yaxud gündəlik namazlarda əməl olunan bütün müstəhəblərin deyil, onlardan yalnız müəyyən bir qisminin nəzərdə tutulduğunu göstərən bir işarənin olması istisnadır.

***8-ci şərt: Naib, vacib ehtiyata əsasən, namazın zərurət olmadıqda yerinə yetirilməli olan bəzi şərt və hərəkətlərini yerinə yetirmək imkanından məhrum olmamalıdır***

**Məsələ 1901.** Namazın zərurət olmadıqda yerinə yetirilməli olan bəzi şərt və hərəkətlərini yerinə yetirməsi mümkün olmayan bir şəxs

hətta ödənişsiz olaraq başqa bir şəxsin naibi kimi onun işini yerinə yetirərsə, vacib ehtiyata əsasən, onun gördüyü işlə kifayətlənmək olmaz. Buna əsasən, məsələn, hər hansı bir üzürlü səbəbdən təyəmmümlə, yaxud oturaq vəziyyətdə, yaxud nəcasətli bədən və ya geyimlə namaz qılan, yaxud da qiraətini düzəldə bilməyən şəxsin naibliyi, vacib ehtiyata əsasən, kafi deyil. Lakin vəzifəsi cəbirə dəstəmazı, yaxud qüslü olan və belə dəstəmaz, yaxud qüsllə namaz qılan şəxsi naib və əcir tutmaq olar.

## Niyabətlə əlaqədar digər hökmlər

**Məsələ 1902.** Kişi qadın üçün, qadın da kişi üçün qəza namazının qılınmasında naib ola bilər. Naib namazı uca, yoxsa ahəstə səslə qılmaq məsələsində öz vəzifəsinə əməl etməlidir və naibin əcir tutulması ilə başqa bir ünvanla naiblik etməsi arasında heç bir fərq yoxdur.

**Məsələ 1903.** Vəfat etmiş şəxsin qəza namazlarını qılarkən ardıcıllığa riayət etmək vacib deyil. Yalnız daha öncə də qeyd edildiyi kimi, ardıcıllıq üzrə qılınmalı olan namazlar, məsələn, eyni günün zöhr və əsr namazı, yaxud eyni axşamın məğrib və işa namazı istisna təşkil edir. Lakin əgər onu məhz mərhumun, yaxud onun vəlisinin mərcəi-təqlidinin fətvasına uyğun hərəkət etməsi üçün əcir tutmuşlarsa və həmin mərcəi-təqlid namazlar arasında ardıcıllığı lazım bilirsə, ardıcıllığa riayət etməlidir.

**Məsələ 1904.** Əgər insan bir neçə nəfəri vəfat etmiş şəxsin qəza namazlarını qılmaq üçün əcir tutarsa, 1652-ci məsələdə qeyd edilənlərə əsasən, onların hər biri üçün bir vaxt təyin etməsinə gərək yoxdur. Yalnız ardıcıllıq üzrə qılınmalı olan namazlar, məsələn, bir günün zöhr və əsr namazı, yaxud bir axşamın məğrib və işa namazı istisnadır. Bu halda zöhr namazını bir əcirin, həmin günün əsr namazını isə başqa bir əcirin qılması, yaxud məğrib namazını bir əcirin, həmin axşamın işa namazını isə başqa bir əcirin qılması nəzərdə tutularsa, ardıcıllığa riayət edilməsi məqsədilə onların hər biri üçün bəlli bir vaxt təyin edilməlidir.

**Məsələ 1905.** Əgər bir şəxs, məsələn, bir il müddətində vəfat etmiş bir insanın qəza namazlarını qılmaq üçün əcir tutularsa və bir il başa çatmamış dünyasını dəyişərsə, qılmadığı məlum olan namazlar üçün başqa bir şəxsi əcir tutmaq lazımdır. Həmçinin, əgər onları qılmadığı ehtimal edilərsə, vacib ehtiyata əsasən, yenidən həmin namazlar üçün əcir tutulmalıdır.

**Məsələ 1906.** Əgər bir insan bir şəxsi vəfat etmiş bir adamın qəza namazları üçün əcir tutarsa, əcir namazları başa çatdırmadan dünyasını dəyişdiyi və onların hamısının ücrətini aldığı təqdirdə:

a) Əgər əcir tutan namazların hamısını əcir tutulanın özünün qılmasını şərt qoymuşdursa, yəni əcir tutan əcir olunandan yalnız özünün qıldığı namazı istəmişdirsə, bu icarə (əcir tutma) əcir tutulanın vəfatından sonra pozulmuş sayılır və əcir tutanın iki seçimi vardır: ya qılınan qədər namaz xüsusunda əcir tutma anlaşmasını ləğv etməyərək razılaşdırılmış ücrətin geridə qalan namazlar üçün nəzərdə tutulan məbləğini geri ala, ya da ya qılınan qədər namaz xüsusunda əcir tutma anlaşmasını da ləğv edə və "ücrətül-misl"i[1] çıxaraq yerdə qalan məbləği geri ala bilər.

b) Əcir tutan qəza namazlarının hamısını əcir tutulanın özünün qılmasını şərt qoymuşdursa, yəni əcir tutan əcir tutulandan iki şeyi, namazları qılmasını və onları məhz özünün qılmasını tələb etmişdirsə, əcir tutan şəxs əcir tutma anlaşmasını ləğv edə və əcirin qıldığı qədər namazın ücrətül-mislini çıxaraq məbləğin geridə qalan hissəsini geri ala, ya da əcir tutma anlaşmasını ləğv etməyərək əcirin qılmadığı namazların ücrətül-mislini geri ala bilər.

c) Əgər əcir tutan namazları əcir tutulanın məhz özünün qılmasını şərt qoymamışdırsa, varisləri onun əmlakı hesabına yerdə qalan namazların qılınması üçün başqa bir şəxsi əcir tutmalıdırlar. Ancaq əgər dünyasını dəyişən şəxsin əmlakı olmazsa, onun varislərinə vacib olan bir şey yoxdur və mərhum sözügedən əməl, yaxud mal[2] xüsusunda məsuliyyətdən azad olmur.

**Məsələ 1907.** Əgər əcir tutulan şəxs vəfat edənin qəza namazlarının hamısını qılmamış özü də dünyasını dəyişərsə və özünün də qəza namazları olarsa, əvvəlki məsələdə izah edilən hökmə əməl etdikdən sonra əgər onun malından bir artıq qalarsa, qəza namazlarının qılınması üçün əcir tutmağı vəsiyyət etdiyi və onun qəza namazlarının ücrəti malının üçdə biri, yaxud daha az məbləğ olduğu təqdirdə onun bütün namazları üçün əcir tutulmalıdır. Qəza namazlarının ücrəti malının üçdə birindən artıq olduğu və həddi-büluğa çatmış, aqil şəxslər olan varisləri öz miras payları hesabına ücrətin mirasın üçdə birindən artıq olan hissəsini ödəməyə icazə verdikləri təqdirdə də onun bütün qəza namazları üçün əcir tutulmalı, icazə vermədikləri təqdirdə isə mərhumun malının üçdə biri onun qəza namazlarının qılınmasına sərf edilməlidir.

---

[1] "Ücrətul-misl" deyərkən bir işin ürfün (insanların) nəzərindəki dəyəri (əmək haqqı) nəzərdə tutulur.

[2] Əcir tutulduğu qəza namazları və onların müqabilində aldığı ücrət. *Tərc.*

# NAMAZIN VAXTI İLƏ BAĞLI BİR NEÇƏ YENİ MƏSƏLƏ

**Birinci məsələ.** Əgər mükəlləf öz şəhərində sübh namazını qılarsa, sonra təyyarə, yaxud başqa bir nəqliyyat vasitəsi ilə qərb istiqamətində səfərə çıxaraq hələ fəcr çağının yetişmədiyi (dan yerinin sökülmədiyi) bir yerə çatarsa və "fəcr-i sadiq"ədək (sübh azanının vaxtınadək) orada qalarsa, yaxud zöhr namazını öz şəhərində qılarsa, sonra səfərə çıxaraq hələ zöhr çağının yetişmədiyi bir şəhərə çatarsa və zöhr başlayanadək orada qalarsa, ya da məğrib namazını öz şəhərində qılarsa, sonra səfərə çıxaraq hələ Günəşin batmadığı bir şəhərə çatarsa və Günəş batana, məğrib namazının vaxtı çatanadək orada qalarsa, bütün bu hallarda namazın yenidən qılınması hərçənd müstəhəb ehtiyata müvafiq olsa da, vacib deyil.

**İkinci məsələ.** Əgər bir şəxs namazı vaxtı keçənədək qılmazsa və təyyarə ilə namazın vaxtının başa çatmadığı bir yerə gedərsə, vacib ehtiyata əsasən, namazı "ma fiz-zimmə" niyyəti ilə, yəni əda və ya qəza niyyəti olmadan qılmalıdır.

**Üçüncü məsələ.** Əgər insan sürəti Yerin hərəkət sürətinə bərabər olan bir təyyarə, yaxud başqa bir nəqliyyat vasitəsinə minərək şərqdən qərbə doğru hərəkət edərsə və bir müddət Yerin ətrafında dövrə vurarsa, vacib ehtiyata əsasən, hər 24 saat (sutka) ərzində beş gündəlik namazı mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə qılmalıdır, lakin mübarək ramazan ayının orucunun[1] qəzasını tutmalıdır.

Əgər təyyarənin sürəti Yerin hərəkət sürətinin iki mislinə bərabər olarsa, təbii olaraq hər on iki saatda bir dəfə Yer ətrafına dövrə vurmuş olacaq və iyirmi dörd saat ərzində iki dəfə fəcr, zöhr və məğrib vaxtı müşahidə edəcəkdir. Bu halda, vacib ehtiyata əsasən, hər fəcr ilə sübh namazını, hər zöhrdən sonra zöhr və əsr namazlarını və hər məğribdən sonra məğrib və işa namazlarını[2] qılmalıdır.

Əgər olduqca yüksək sürətlə Yerin ətrafında dövrə vurarsa, məsələn, hər üç saatda (yaxud daha az müddət ərzində) Yerin ətrafında bir dəfə dövrə vurarsa, mükəlləfin hər fəcr, zəval (zöhr) və qürub (məğrib) zamanı namaz qılması vacib deyil və vacib ehtiyata əsasən, hər iyirmi dörd saat ərzində mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə gündəlik beş

---

[1] Yerə endikdən sonra. *Tərc.*

[2] Yəni sutka ərzində hər gündəlik namazı iki dəfə. *Tərc.*

namazı[1] qılmalıdır. Bu halda sübh namazını fəcrin tülusu ilə günçıxan arasında, zöhr və əsr namazlarını zöhr və qürub arasında, məğrib və işa namazlarını isə məğrib və gecə yarısı arasında qılmalıdır.

Bu məsələdən aydın olur ki, əgər təyyarə, yaxud başqa bir nəqliyyat vasitəsi qərbdən şərqə doğru hərəkət edirsə və onun sürəti Yerin hərəkət sürətinə bərabərdirsə, həmçinin, əgər onun sürəti Yerin hərəkət sürətindən az olarsa, mükəlləf gündəlik beş namazı öz vaxtı ərzində qılmalıdır. Ancaq əgər onun sürəti Yerin hərəkət sürətindən çox olarsa, məsələn, hər üç saatda (yaxud daha az müddət ərzində) Yerin ətrafında bir dəfə dövrə vurarsa, bu məsələ ilə bağlı hökm qeyd edilənlərdən aydın olur.

**Dördüncü məsələ.** Əgər mükəlləf təyyarə ilə səfər edərsə və təyyarədə namaz qılmaq istəyərsə, namaz əsnasında üzü qibləyə olmaq, hərəkətsiz qalmaq və s. şərtlərə riayət edə bildiyi təqdirdə namazı düzgündür. Əks təqdirdə isə əgər vaxt varsa və təyyarəni tərk etdikdən sonra namazı bütün şərtlərinə riayət etməklə qıla biləcəksə, vacib ehtiyata əsasən, təyyarədə qıldığı namaz düzgün sayılmır. Ancaq əgər vaxt məhduddursa, namazı təyyarədə qılması vacibdir və bu halda qiblə istiqamətini bilirsə, üzünü həmin istiqamətə tutaraq namaz qılmalıdır, qiblə şərtinə riayət etmədən qıldığı namazı isə (zərurət halları istisna olmaqla) düzgün deyil. Bu halda təyyarə nə vaxt qiblə istiqamətindən başqa istiqamətə yönələrsə, mükəlləf üzünü qibləyə çevirməli və qiblədən çevrilmə əsnasında namazın qiraətini oxumamalı və vacib zikrlərini deməməlidir. Əgər üzünü məhz qiblə istiqamətinə tuta bilmirsə, qiblədən 90 dərəcədən artıq yayınmamağa çalışmalıdır.

Əgər qiblə istiqamətini bilmirsə, onu müəyyən etməyə çalışmalıdır. Qiblə istiqaməti ilə bağlı yəqinlik, yaxud arxayınlıq hasil edə və ya şəriətə görə mötəbər sayılan başqa bir dəlil əldə edə bilmədiyi təqdirdə isə gümanına uyğun hərəkət edə bilər. Əgər gümanı da yoxdursa, qiblənin yerləşdiyini ehtimal etdiyi istənilən istiqamətə üz tutaraq namaz qılsa, kafidir. Hərçənd, müstəhəb ehtiyata əsasən, namazı vaxt geniş olduğu təqdirdə dörd istiqamətə doğru qılmalıdır.

Qeyd etmək lazımdır ki, bu deyilənlər mükəlləfin qibləni tanıdığı təqdirdə üzü qibləyə olmaq imkanına sahib olduğu hallara aiddir. Namaz vaxtının sonunadək təkbirət əl-ehram istisna olmaqla üzü qibləyə olmaq imkanına sahib olmadığı hallarda isə təkbirət əl-ehramı üzü qibləyə deməlidir. Əgər, ümumiyyətlə, üzü qibləyə olması mümkün deyilsə, üzü qibləyə olmaq şərti qüvvədən düşür və üzü qibləyə olması lazım deyil.

**Beşinci məsələ.** İnsan hərçənd təyyarədə üzü qibləyə olmaq və hərəkətsizlik şərtlərinə riayət etmədən namaz qılmağa məcbur olacağını bilsə də, namazın vaxtından öncə təyyarə ilə səfər edə bilər.

[1] Hər namazı bir dəfə. *Tərc.*

**Altıncı məsələ.** Əgər mükəlləf gündüz və gecəsinin hər birinin altı aya bərabər olduğu bir yerdə olarsa, vacib ehtiyata əsasən, namaz xüsusunda iyirmi dörd saat ərzində bir gecə-gündüzü olan ən yaxın yeri nəzərə almalı və mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə gündəlik beş namazı həmin yerdəki qılınma vaxtlarına uyğun qılmalıdır.

Əgər mükəlləf iyirmi dörd saat ərzində bir gecə-gündüzü olan şəhərdə, yaxud məntəqədə olarsa, hərçənd orada gündüz iyirmi üç, gecə isə bir saat və ya əksinə olsa belə, namazı həmin yerin namaz vaxtlarında qılmalıdır.

# ORUC

**Məsələ 1908.** Oruc insanın uca Allahın qarşısında itaətkarlıq və bəndəliyini izhar etmək üçün sübh azanından məğribədək qarşıda sadalanacaq doqquz şeydən çəkinməsi deməkdir. Məğrib namazı xüsusunda məğrib vaxtı anlayışı ilə bağlı verilən izah[1] orucun başa çatdırılma vaxtı olan məğribin ayırd edilməsi məsələsinə də şamildir.

## Orucun vacib olmasının şərtləri

**Məsələ 1909.** Hər bir insana aşağıdakı şərtlər daxilində mübarək ramazan ayında oruc tutmaq vacibdir.

***Birinci və ikinci şərtlər: Həddi-büluğa çatmış və aqil şəxs olmalıdır***

**Məsələ 1910.** Oruc həddi-büluğa çatmış və aqil şəxsə vacibdir. Həddi-büluğa çatmamış uşaq ramazan ayında sübh azanından öncə həddi-büluğa çatarsa, oruc tutmalıdır. Sübh azanından sonra həddi-büluğa çatdığı təqdirdə isə həmin günün orucu ona vacib deyil. Lakin ramazan ayının orucunu tutmaq niyyəti var idisə, müstəhəb ehtiyata əsasən, onu tamamlamalıdır.

***Üçüncü şərt: Huşsuz olmamalıdır***

**Məsələ 1911.** Əgər insan huşsuz olarsa (huşunu itirərsə) və bu səbəbdən oruc məsələsində mötəbər sayılan niyyəti edə bilməzsə, oruc ona vacib deyil. Məsələn, sübh azanından əvvəl oruc tutmaq niyyəti olmayan, daha sonra huşunu itirən məğrib azanından sonra özünə gələn şəxsə həmin günün orucu vacib deyil və daha sonra onun qəzasını tutması da lazım deyil.

**Məsələ 1912.** Əgər insan sübh azanından öncə oruc niyyəti edərsə, daha sonra qeyri-ixtiyari surətdə huşunu itirərsə və gün ərzində özünə gələrsə, lazım ehtiyata əsasən, həmin günün orucunu sonadək tutmalıdır və əgər sonadək tutmazsa, onun qəzasını tutmalıdır. Səbəbləri ixtiyari olan huşsuzluq vəziyyətində (insanın cərrahiyyə əməliyyatı üçün özünü anestezioloqa təslim etməsi kimi) isə vacib ehtiyat orucu sonadək tutmağı və daha sonra onun qəzasını da tutmağı tələb edir.

---

[1] Bax: 888-ci məsələ. *Tərc.*

***Dördüncü şərt: Oruc tutan qadın olduğu təqdirdə heyz və nifasdan təmizlənmiş olmalıdır***

**Məsələ 1913.** Haiz, yaxud nəfsa olan qadına hərçənd günün yalnız bir hissəsində heyz, yaxud nifas halında olsa belə, oruc vacib deyil və bu üzürlü hal aradan qalxdıqdan sonra həmin orucun qəzasını tutması vacibdir.

***Beşinci, altıncı və yeddinci şərtlər: Oruc tutmaq həddən ziyadə zərərli və ya məşəqqətli olmamalı, yaxud şəriətin buna dair başqa bir qadağası olmamalıdır***

Bu şərtlərin şamil olunduğu şəxslər bir neçə qismə bölünür:

a) Oruc tutması özü üçün adətən dözülməz sayılan dərəcədə zərərli, yaxud məşəqqətli olan şəxs.

**Məsələ 1914.** Əgər insan orucun onun üçün önəmli zərəri (adətən dözülməz olan zərər) olduğuna əmindirsə, yaxud belə bir zərərin mövcudluğunu ehtimal edirsə və bu ehtimal onda qorxu hissi yaradırsa, ehtimalı aqil insanların nəzərində əsaslı olduğu təqdirdə oruc tutması vacib deyil. Hətta əgər sözügedən zərər ölüm, yaxud cana qarşı cinayət (məsələn, hər hansı bir üzvün itirilməsi) ilə nəticələnəcəksə, onun oruc tutması haramdır. Orucun vacib olmaması məsələsində onun hər hansı bir xəstəliyin, yaxud zərərin meydana gəlməsinə səbəb olması ilə onun güclənməsinə, yaxud müalicə (həlli) müddətinin uzanmasına səbəb olması arasında heç bir fərq yoxdur.

Qeyd etmək lazımdır ki, yeni həddi-büluğa çatan qızlar və eləcə də digər şəxslər üçün mübarək ramazan ayında oruc tutmaq önəmli dərəcədə zərərli olduğu və onların xəstələnməsinə səbəb olduğu, yaxud xəstələnməkdən qorxduqları təqdirdə xəstələrlə əlaqədar hökmlər onlara da şamil olur. Ancaq əgər oruc tutmağın onlar üçün zərəri yoxdursa, bununla belə,məsələn, günün uzun olması, yaxud havanın hərarətinin yüksək olması səbəbi ilə orucu sonadək tutmaq onlar üçün həddən ziyadə çətindirsə və bu çətinlik adətən dözülməzdirsə, mütləq (ümumi) Allaha yaxınlaşmaq niyyəti ilə[1] oruc tutmalı və şiddətli zəiflik, yaxud güclü susuzluq hissi səbəbi ilə mübarək ramazan ayının orucunu davam etdirmək onlar üçün həddən ziyadə çətinləşdikdə su içə və qida qəbul edə bilərlər. Lakin vacib ehtiyata əsasən, qida və maye qəbulunda zərurət miqdarı ilə kifayətlənməli və günün qalan hissəsi ərzində də orucu pozan hərəkətlərdən çəkinməlidirlər. Hərçənd, istənilən halda qida və maye qəbulu ilə onların orucu batil olur.

---

[1] Yəni məhz vacib oruc niyyəti etməməli, sadəcə orucu pozan şeylərdən çəkinməli və bu işdə məqsədi, ümumiyyətlə, Allaha yaxınlaşmaq olmalıdır.

Əgər onlar yüksək kalorili səhər yeməyi, yaxud gün ərzində fiziki fəaliyyətin azaldılması və ya daha artıq istirahət kimi orqanizmin müqavimətini möhkəmləndirən normal üsullardan yararlanmaqla həddən ziyadə zərər və çətinlik çəkmədən mübarək ramazan ayının orucunu tuta bilərlərsə, mütləq belə etməlidirlər.

**Məsələ 1915.** Orucun özü üçün önəmli zərəri olmadığını bilən, yaxud buna arxayın olan şəxs hərçənd həkim zərərli olduğunu söyləsə belə, oruc tutmalıdır. Orucun onun üçün önəmli zərəri olduğuna əmin olan, yaxud bunu güman və ehtimal edən şəxsin oruc tutması isə hərçənd həkim zərəri olmadığını söyləsə belə, vacib deyil və o orucunu poza bilər. Hətta əgər ehtimal etdiyi, yaxud mövcudluğuna əmin olduğu zərər haram həddində olarsa, oruc tutmaması, onu pozması vacibdir. Haram sayılan zərər istisna olmaqla digər hallarda insan rəcaən (savab ümidi ilə) oruc tuta bilər və əgər sonradan orucun onun üçün önəmli zərəri olmadığı məlum olarsa, orucu düzgündür.

**Məsələ 1916.** Əgər xəstənin vəziyyəti ramazan ayında gündüz zöhr azanından öncə yaxşılaşarsa və həmin vaxtadək orucu batil edən bir iş görməmişdirsə, vacib ehtiyata əsasən, oruc niyyəti etməli və həmin gün oruc tutmalıdır. Zöhr azanından sonra yaxşı olduğu təqdirdə isə həmin gün oruc tutmaq ona vacib deyil, ancaq sonra qəzasını tutmalıdır.

**Məsələ 1917.** Yüngül zərərlər orucu pozmağın caiz olmasına səbəb olmur və bu cür zərərlər mövcud olsa belə, oruc insana vacibdir. Buna əsasən, əgər oruc insanın normal sayılan dərəcədə səhhətində yüngül dəyişikliyə, bədən temperaturunun bir qədər artmasına, bədənində zəiflik və süstlük hiss etməsinə, yaxud görmə qabiliyyətinin zəifləməsinə səbəb olursa, belə ki, iftardan bir-iki saat sonra bu hallar tamamilə aradan qalxırsa, bütün bunlar, həmçinin, aqil insanların çəkinmədikləri və insanların adətən dözə bildiyi digər yüngül zərərlər şəriət baxımından üzürlü hal hesab edilmir və bu hallarla qarşılaşan şəxslərə oruc tutmaq vacibdir.

**Məsələ 1918.** Əgər orucun oruc tutmaq istəyən şəxsin canı üçün hər hansı bir zərəri yoxdursa, ancaq o ləyaqətinə, yaxud əmlakına önəmli zərərin dəyəcəyindən qorxursa və bunun qarşısını almaq üçün oruc tutmamaq və onu pozmaqdan başqa məntiqli çıxış yolu yoxdursa, oruc ona vacib deyil.

b) Qocalıq səbəbi ilə oruc tutması mümkün olmayan, yaxud həddən ziyadə məşəqqətli olan qoca kişi və qoca qadın.

c) Susuzluq xəstəliyi (polidipsiya) olan, yəni çox susayan və susuzluğa dözə bilməyən, yaxud dözməkdə çətinlik çəkən şəxs.

ç) Hamiləlik səbəbi ilə oruc tutmaq özü, yaxud övladı üçün zərərli olan hamilə qadın.

d) Südvermə səbəbi ilə oruc tutmaq özü, yaxud südəmər körpəsi üçün zərərli olan əmizdirən qadın. Bu dörd qrupa (b, c, ç və d) daxil olan şəxslərlə əlaqədar hökmlər kəffarələr mövzusunda izah ediləcəkdir.

e) Oruc tutması başqa bir vacib işin həyata keçməməsinə səbəb olan şəxs.

**Məsələ 1919.** Əgər insanın oruc tutması əhəmiyyət baxımından oruc qədər önəmli, yaxud ondan daha mühüm olan başqa bir vacib işin həyata keçməməsinə səbəb olarsa və bunun qarşısını almaq üçün oruc tutmamaq və onu pozmaqdan başqa bir yol yoxdursa, onun oruc tutması vacib deyil. Məsələn, insanın oruc tutması nəticəsində şəriətə görə canını, ləyaqətini, yaxud əmlakını qoruması vacib olan başqa bir şəxsin fiziki sağlamlığına, ləyaqətinə, yaxud əmlakına ciddi zərər dəyəcəyindən qorxması və bunun qarşısının alınması üçün oruc tutmamaq və onu pozmaqdan başqa bir yolun olmaması bu qəbildəndir.

***Səkkizinci şərt: Müsafir olmamalıdır***

**Məsələ 1920.** Dördrəkətli namazları səfərdə iki rükət qılmalı olan müsafir oruc tutmamalıdır. Namazını bütöv qılan müsafirin, məsələn, işi səfər olan, yaxud səfəri haram səfər olan şəxsin isə səfərdə oruc tutması vacibdir.

Qeyd etmək lazımdır ki, bütöv və müxtəsər namaz arasında seçim imkanı olan yerlər müsafirin namazı mövzusunda qeyd edildiyi kimi yalnız namaza aiddir və oruca şamil deyil. Müsafirin orucu ilə əlaqədar digər hökmlər eyni adlı mövzuda izah ediləcəkdir.

## Orucun düzgün olmasının şərtləri

Mübarək ramazan ayının orucunun düzgün olması və qəzasının tutulmasına (istər həqiqi qəza, istərsə ilahi əzabdan qorunmaq üçün olsun) ehtiyac qalmaması üçün insan "orucun düzgün olmasının şərtləri" adlandırılan aşağıdakı şərtlərə cavab verməlidir.

***Birinci şərt: Müsəlman olmalıdır***

**Məsələ 1921.** Kafir insanların orucu düzgün deyil. Əlbəttə ki, əgər kafir şəxs ramazan ayının bir günündə müsəlman olarsa və sübh azanından həmin vaxtadək orucu batil edən hər hansı bir iş görməmişdirsə, vacib ehtiyata əsasən, ma fiz-zimmə niyyəti ilə həmin günün axırınadək imsak etməlidir (yəni orucu batil edən işlər görməməlidir) və əgər imsak etməzsə, həmin günün qəzasını tutmalıdır.

***İkinci, üçüncü və dördüncü şərtlər: Dəli, sərxoş, yaxud huşsuz olmamalıdır***

**Məsələ 1922.** Dəli, sərxoş, yaxud huşsuz insanın orucu bu hallar onun orucda mötəbər sayılan niyyəti düzgün etməməsinə səbəb olduğu halda doğru deyil. Lakin əgər insan sübh azanından əvvəl oruc niyyəti edərsə, sonra sərxoş olarsa və gün ərzində ayılarsa, vacib ehtiyata əsasən, həmin günün orucunu sonadək tutmalı və daha sonra onun qəzasını da tutmalıdır. Azandan öncə oruc niyyəti edən, sonra huşunu itirən və gün ərzində özünə gələn şəxs üçün nəzərdə tutulmuş hökm 1912-ci məsələdə izah edilmişdir.

***Beşinci şərt: Oruc tutan qadın olduğu təqdirdə heyz və nifasdan təmizlənmiş olmalıdır***

**Məsələ 1923.** Haiz, yaxud nəfsa olan qadın hərçənd günün yalnız bir hissəsində heyz, yaxud nifas halında olsa belə, onun orucu doğru deyil. Buna əsasən, mübarək ramazan ayında sübh azanından sonra, məsələn, Günəş çıxarkən heyz, yaxud nifasdan paklanan qadın həmin gün oruc tuta bilməz. Həmçinin, pak olan və oruc tutan qadın əgər mübarək ramazan ayında axşamüstü, məsələn, Günəşin batmasından on dəqiqə öncə haiz, yaxud nəfsa olarsa, onun həmin gün tutduğu oruc batildir.

**Məsələ 1924.** Əgər qadın heyz olmamaq və oruc tuta bilmək üçün aybaşı qanaxmasının qarşısını alan həb qəbul edərsə və nəticədə aybaşı olmazsa, orucu düzgündür.

***Altıncı şərt: Oruc tutmaq zərərli olmamalıdır***

**Məsələ 1925.** Xəstənin, yaxud orucun onun üçün adətən dözülməz hesab edilən və aqil insanların qorunmağa çalışdığı ciddi bir zərər yetirə biləcəyi sağlam şəxsin oruc tutması, hərçənd bu zərər ölüm, yaxud bir üzvün itirilməsi kimi haram özünə zərəryetirmə həddinə çatmasa belə, düzgün deyil. Daha öncə qeyd edildiyi kimi haram olmayan özünə zərəryetirmə hallarında insan rəcaən oruc tutarsa və sonra orucun onun üçün önəmli zərəri olmadığı məlum olarsa, orucu doğrudur.

**Məsələ 1926.** Orucun onun üçün zərərli olmadığına inanan şəxs oruc tutarsa və məğribdən sonra orucun onun üçün ciddi zərəri olduğunu başa düşərsə, vacib ehtiyata əsasən, hərçənd bu zərər haram özünə zərəryetirmə həddinə çatmasa belə, daha sonra həmin orucun qəzasını tutmalıdır.

**Məsələ 1927.** Əgər bir şəxs zərərli olduğuna inanmasına, yaxud zərərli olduğundan qorxmasına baxmayaraq oruc tutarsa, orucu batildir. Lakin əgər sonradan orucun onun üçün zərərli olmadığı məlum olarsa və oruc əsnasında onun niyyəti Allaha yaxınlaşmaq olarsa, bu halda istisna olaraq orucu doğrudur.

*Yeddinci şərt: Müsafir olmamalıdır*

**Məsələ 1928.** Dördrəkətli namazları səfərdə iki rükət qılmalı olan müsafirin oruc tutması doğru deyil. İşi səfər olan, yaxud səfəri günah səfər olan şəxs kimi namazını bütöv qılmalı olan müsafirin isə orucu doğrudur.

*Səkkizinci şərt: Niyyəti düzgün olmalıdır*

Orucun niyyəti ilə əlaqədar hökmlər qarşıdakı məsələlərdə müfəssəl surətdə izah ediləcəkdir.

## Orucun niyyəti ilə əlaqədar hökmlər

**Məsələ 1929.** Oruc tutan şəxs onu Allaha yaxınlaşma niyyəti ilə tutmalıdır və niyyətində ixlası qorumalıdır. Buna əsasən, əgər insan riyakarcasına oruc tutarsa, orucu batildir.

**Məsələ 1930.** İnsanın orucun niyyətini qəlbindən keçirməsinə (daxili nitqlə), yaxud, məsələn: "Sabah oruc tutacağam", - deməsinə gərək yoxdur. Sadəcə uca Allahın qarşısında itaətkarlıq və bəndəliyini izhar etmək üçün sübh azanından məğribədək orucu batil edən işləri görməzsə, kafidir.

**Məsələ 1931.** Əgər insan sübh azanından öncə oruc niyyəti edərək yatarsa və məğribdən sonra oyanarsa, orucu doğrudur. Buna əsasən, orucun vaxtını bütünlüklə tutan yuxu insan ondan öncə oruc niyyəti etdiyi təqdirdə oruca xələl gətirmir.

## Mübarək ramazan ayı orucunun niyyəti ilə əlaqədar hökmlər

**Məsələ 1932.** İnsan ramazan ayında hər gecə ertəsi günün orucu üçün niyyət edə bilər.

**Məsələ 1933.** Ramazan ayı olduğunu bilən və onun orucunu nəzərində saxlayan şəxs üçün ramazan ayı orucunun niyyətinin son vaxtı, vacib ehtiyata əsasən, sübh azanıdır. Yəni, vacib ehtiyata əsasən, sübh çağı onun imsakı (orucu batil edən şeylərdən çəkinməsi) oruc niyyəti ilə olmalıdır və niyyəti bu vaxtdan sonraya təxirə salmamalıdır. [1]

**Məsələ 1934.** Ramazan ayının orucunda sübh azanından öncə oruc niyyəti olmadan yatmış şəxs zöhrdən öncə oyanaraq niyyət edərsə, orucu doğrudur. Əgər zöhrdən sonra oyanarsa, vacib ehtiyata əsasən,

[1] Əgər insan günah edərək sübh azanınadək oruc niyyəti etməzsə, sonrakı məsələlərdən bəziləri ona şamil olunur.

günün qalan hissəsi ərzində mütləq Allaha yaxınlaşma niyyəti ilə[1] imksak etməli və daha sonra həmin günün orucunun qəzasını da tutmalıdır.

**Məsələ 1935.** Əgər insan ramazan ayı olduğunu bildiyi halda qəsdən başqa bir oruc niyyəti edərsə (hətta, vacib ehtiyata əsasən, Allaha yaxınlaşma niyyəti olsa belə), həmin oruc ramazan ayının orucu hesab edilmir. Lakin əgər belə bir niyyəti məlumatsızlıq, yaxud unutqanlıq səbəbi ilə edərsə, ramazan ayının orucu hesab edilir və kafidir.

**Məsələ 1936.** Əgər insan ramazan ayı olduğunu bilməzsə, yaxud unudarsa və zöhrdən öncə başa düşərsə, orucu pozan bir iş gördüyü təqdirdə həmin gün oruc tuta bilməz. Lakin vacib ehtiyata əsasən, məğribədək orucu pozan işlər görməməli və ramazan ayından sonra həmin orucun qəzasını da tutmalıdır. Əgər zöhr azanından sonra ramazan ayı olduğunu başa düşərsə və orucu pozan bir iş görməmişdirsə, vacib ehtiyata əsasən, rəcaən oruc niyyəti etməli və ramazan ayından sonra həmin orucun qəzasını da tutmalıdır. Ancaq əgər zöhrdən öncə başa düşərsə və orucu pozan bir iş görməmişdirsə, oruc niyyəti etməlidir və orucu düzgündür.

**Məsələ 1937.** İnsanın niyyətində ramazan ayının hansı gününün orucunu tutduğunu müəyyənləşdirməsinə gərək yoxdur. Ramazan ayının müəyyən bir gününü niyyətində tutaraq oruc tutarsa və sonra həmin günün ramazan ayının başqa bir günü olduğunu başa düşərsə, orucu düzgündür. Məsələn, əgər insan ayın ilk gününü nəzərində tutaraq oruc tutarsa, sonra ayın ikinci, yaxud üçüncü günü olduğunu başa düşərsə, orucu düzgündür.

***Ramazan ayı orucundan başqa vaxtı müəyyən olan vacib orucların niyyət vaxtı***

**Məsələ 1938.** Əgər ramazan ayının orucundan başqa bir vaxtı müəyyən olan oruc insana vacib olarsa, məsələn, müəyyən bir gündə oruc tutmağı nəzir edərsə, həmin gün qəsdən sübh azanınadək niyyət etmədiyi təqdirdə orucu batildir. Əgər həmin gün oruc tutmağın ona vacib olduğunu bilməzsə, yaxud unudarsa və zöhrdən öncə xatırlayarsa, orucu pozan bir iş görmədiyi və niyyət etdiyi təqdirdə orucu düzgündür. Əgər zöhr azanından sonra yadına düşərsə, vacib ehtiyata əsasən, günün qalan hissəsi ərzində mütləq Allaha yaxınlaşma niyyəti ilə imsak etməli və daha sonra həmin günün orucunun qəzasını da tutmalıdır.

**Məsələ 1939.** Ramazan ayının orucundan başqa vaxtı müəyyən olan bir vacib orucda sübh azanından öncə oruc niyyəti olmadan yatan şəxs zöhrdən öncə oyandığı və niyyət etdiyi təqdirdə orucu düzgündür,

---

[1] Yəni vacib orucu tutmaq niyyəti etməməli, sadəcə orucu batil edən şeylərdən çəkinməli və bu işdə məqsədi ümumiyyətlə Allaha yaxınlaşmaq olmalıdır.

zöhrdən sonra oyandığı təqdirdə isə, vacib ehtiyata əsasən, günün qalan hissəsi ərzində mütləq Allaha yaxınlaşma niyyəti ilə imsak etməli və daha sonra həmin günün orucunun qəzasını da tutmalıdır.

***Qəza və kəffarə orucu kimi qeyri-müəyyən vacib orucda niyyət vaxtı***

**Məsələ 1940.** Qeyri-müəyyən vacib orucda niyyət vaxtı zöhr azanınadək davam edir. Buna əsasən, əgər kəffarə orucu, yaxud mübarək ramazan ayının qəza orucu kimi bir qeyri-müəyən vacib orucda insan qəsdən zöhr azanına yaxın vaxtadək niyyət etməzsə, bu orucun doğruluğuna xələl gətirmir. Hətta əgər niyyətdən öncə oruc tutmamaq fikrində olsa, yaxud tutub-tutmamaqda tərəddüd etsə belə, orucu batil edən bir iş görmədiyi və zöhr azanından öncə niyyət etdiyi təqdirdə orucu düzgündür. Amma zöhr azanından sonra niyyət etmək vacib ehtiyata əsasən kifayət etmir.

**Məsələ 1941.** Vəfat etmiş şəxsin niyabət üsulu ilə tutulan[ qəza orucunda niyyət vaxtı insanın öz qəza orucunda olduğu kimi zöhr azanına qədərdir[1] və bu məsələdə isticari (müəyyən ücrət müqabilində tutulan) oruc ilə ödənişsiz tutulan oruc arasında heç bir fərq yoxdur.

## Orucun niyyəti ilə əlaqədar digər hökmlər

**Məsələ 1942.** Əgər insan qəza, yaxud kəffarə orucu tutmaq istəyirsə, onu müəyyən etməli, məsələn, "qəza (kəffarə) orucu tuturam" deyə niyyət etməlidir. Lakin ramazan ayında "ramazan ayının orucunu tuturam" deyə niyyət etməsinə gərək yoxdur. Hətta əgər ramazan ayı olduğunu bilməsə, yaxud unutsa və başqa bir orucun niyyətini etsə belə, tutduğu oruc ramazan ayının orucu sayılır. Nəzir orucu və bu qəbildən olan oruclarda nəzirə vəfa niyyətində olmağa gərək yoxdur. [2]

**Məsələ 1943.** Oruc tutmaq niyyətindən daşınmaq, yaxud orucu pozmaq qərarına gəlmək bir neçə vəziyyətdə təsəvvür edilə bilər:

1. *Ramazan ayının orucu kimi müəyyən vacib orucda.* Bu vəziyyət özü də iki cür ola bilər:

a) ***İnsan oruc tutmamaq niyyətindədir, yaxud oruc tutub-tutmamaqda tərəddüd edir.*** Bu halda əgər belə bir niyyət, yaxud tərəddüddən sonra yenidən oruc niyyəti etməzsə, orucu batildir. Əgər peşman

[1] Lakin əgər icarə əqdində (əcir tutma anlaşmasında) əcir tutulanın sübh azanından etibarən niyyətli olması və niyyəti gecikdirməməsi şərt qoyularsa, yaxud belə bir şərt qoyulmasa da, əcir tutulan şəxsdən sübh azanından niyyətli olması tələb edildiyi məlum olarsa, bu anlaşmanın tələbinə əməl edilməsi üçün oruc tutan mütləq sübh azanından etibarən oruc tutmaq niyyətində olmalıdır.

[2] Yəni müəyyən bir gündə (günlərdə) oruc tutmağı nəzir edən şəxs həmin gün (günlərdə) Allaha yaxınlaşma niyyəti ilə oruc tutarsa, kifayətdir və "nəzirimə vəfa (əməl) etmək üçün" deyə niyyət etməsinə gərək yoxdur. *Tərc.*

olarsa və orucu batil edən işlər görmədən yenidən oruc niyyəti edərsə, vacib ehtiyata əsasən, həmin günün orucunu sonadək tutmalı və daha sonra onun qəzasını da tutmalıdır.

b) *Orucu onu pozan işlərdən birini görməklə (həmin işin orucu pozduğunu bildiyi halda) batil etmək niyyətindədir, yaxud onu batil etməklə bağlı tərəddüddədir.* Bu halda əgər peşman olaraq orucu pozan işi görməzsə, vacib ehtiyata əsasən, həmin günün orucunu sonadək tutmalı və daha sonra onun qəzasını da tutmalıdır.

2. Vaxtı müəyyən olmayan bir vacib orucda, məsələn, kəffarə orucunda, yaxud mübarək ramazan ayının qəza orucunda insan zöhr azanından öncə oruc tutmamaq qərarına gələrsə, yaxud oruc tutub-tutmamaqda tərəddüd edərsə və ya orucu pozan işlərdən birini görməklə (həmin işin orucu pozduğunu bildiyi halda) onu batil etmək niyyətinə düşərsə, ya da belə bir iş görüb-görməməkdə tərəddüd edərsə, peşman olaraq orucu pozan işlər görmədən zöhr azanından öncə yenidən oruc niyyəti edərsə, orucu doğrudur.

**Məsələ 1944.** İnsanın şaban ayının sonuncu günü, yoxsa ramazan ayının ilk günü olduğuna şəkk etdiyi günə “şəkk günü” deyilir və həmin gün oruc tutmaq vacib deyil.

**Məsələ 1945.** İnsan şəkk günü oruc tutmaq istəyərsə:

a) Ramazan ayını niyyətində tutaraq oruc tuta bilməz və əgər qəsdən ramazan ayının orucu imiş kimi niyyət edərsə, hərçənd sonradan ramazan ayı (ilk günü) olduğu məlum olsa belə, orucu batildir.

b) Şaban ayının müstəhəb orucu, qəza orucu, nəzir orucu və ya başqa bir vacib oruc niyyəti ilə oruc tuta bilər və əgər sonradan ramazan ayı olduğu məlum olarsa, həmin oruc ramazan ayının orucu hesab edilir.

c) “Ramazan ayıdırsa, ramazan orucu olsun, ramazan ayı deyilsə, qəza orucu (yaxud müstəhəb və ya başqa bir oruc) olsun” deyə niyyət etdiyi təqdirdə orucu doğrudur.

d) Əgər niyyəti uca Allahın həmin məqamda ondan icra etməsini istədiyi və həqiqətdə vəzifəsi olan əməli yerinə yetirmək olarsa, yaxud niyyəti mütləq surətdə (məhz hansı oruc olduğunu müəyyən etmədən) oruc tutmaq olarsa və sonradan ramazan ayı olduğu məlum olarsa, orucu kafidir və ramazan ayının orucu hesab edilir.

**Məsələ 1946.** Şəkk günü oruc tutan şəxs oruc əsnasında (istər zöhrdən öncə, istərsə sonra) ramazan ayı olduğunu başa düşərsə, dərhal niyyətini ramazan ayının orucu üzərində qətiləşdirməlidir.

**Məsələ 1947.** İnsan şəkk günü oruc tutmasa və məğrib azanından sonra həmin gün ramazan ayı olduğunu başa düşsə, günah etməmişdir və daha sonra ramazan ayının qəza orucu niyyəti ilə bir gün oruc tutmalıdır.

**Məsələ 1948.** İnsan şəkk günü oruc tutmasa və gün ərzində mübarək ramazan ayı olduğunu başa düşsə bunun üçün üç hal vardır:

a) Ramazan ayı olduğunu başa düşməzdən öncə orucu batil edən bir iş görmüşdürsə, bu halda həmin gün oruc tuta bilməz, vacib ehtiyata əsasən, günün qalan hissəsi ərzində (məğribədək) orucu batil edən işlərdən uzaq durmalıdır və ramazan ayından sonra həmin günün orucunun qəzasını tutmalıdır.

b) Orucu batil edən bir iş görməmişdirsə və zöhrdən sonra ramazan ayı olduğunu başa düşərsə, bu halda, vacib ehtiyata əsasən, rəcaən (savab ümidi ilə) oruc niyyəti etməli və ramazan ayından sonra həmin günün orucunun qəzasını da tutmalıdır.

c) Orucu batil edən bir iş görməmişdirsə və zöhrdən öncə ramazan ayı olduğunu başa düşərsə, bu halda dərhal ramazan ayının orucunu tutmaq niyyəti etməsi vacibdir və tutduğu təqdirdə orucu düzgündür.

***Doqquzuncu şərt: Orucu pozan işlərdən çəkinməlidir***

**Məsələ 1949.** Orucun düzgün olması üçün insan onu batil edən işlərdən (müftirat) uzaq durmalı, həm yemək-içmək kimi gün ərzində görməməli olduğu işlərdən çəkinməli, həm də sübh azanı əsnasında orucun düzgün olması üçün şərt sayılan hallara diqqət yetirməlidir, məsələn, mübarək ramazan ayında sübh azanınadək cənabətli qalmamalı, yaxud heyz və nifasdan paklanan qadın qəsdən qüslü sübh azanınadək təxirə salmamalıdır. Bununla əlaqədar hökmlər qarşıdakı məsələlərdə təfsilatı ilə izah ediləcəkdir.

## Orucu batil edən işlər

**Məsələ 1950.** Bir neçə şey orucu batil edir:

1) Yemək və içmək;[1] 2) cinsi əlaqə; 3) istimna (masturbasiya, onanizm), yəni kişinin təkbaşına, yaxud başqasının köməyi ilə cinsi əlaqədə olmadan sperma ifrazına səbəb olan bir iş görməsi; bu hərəkətin qadınlar tərəfindən yerinə yetirilməsi xüsusunda 417-ci məsələdə verilən şərh nəzərə alınmalıdır; 4) vacib ehtiyata əsasən, uca Allah, İslam peyğəmbəri (s) və Peyğəmbərin canişinlərinə (ə) yalan isnad etmək (onların adından yalan danışmaq); 5) vacib ehtiyata əsasən, qatı toz udmaq; 6) sübh azanınadək cənabətli qalmaq; 7) qadının sübh azanınadək heyz, yaxud nifas halında qalması; 8) maye ilə imalə etmək; 9) qəsdən qusmaq.

Bu hallarla əlaqədar hökmlər qarşıdakı məsələlərdə izah ediləcəkdir.

[1] Yemək və içmək deyərkən sonrakı məsələdə də izah ediləcəyi kimi qidalandırıcı olub-olmamasında asılı olmayaraq bərk və maye halında olan istənilən maddənin qida boşluğundan bədənə qəbulu nəzərdə tutulur. *Tərc.*

*Yemək və içmək*

**Məsələ 1951.** Əgər oruc tutan insan oruc tutduğu halda qəsdən bir şey yeyər, yaxud içərsə, orucu batil olur, istər həmin şeyin yeyilməsi və ya içilməsi normal sayılsın (çörək və su kimi), istərsə normal sayılmasın (torpaq və ağac şirəsi kimi), istər miqdarı az olsun, istərsə çox olsun. Hətta əgər az miqdarda ağız seliyi (tüpürcək) ifraz edər və sonra onu yenidən ağız boşluğuna qəbul edərək udarsa, orucu batil olur. Lakin həmin miqdarda (ifraz olunmuş) selik ağız boşluğundakı (ifraz olunmamış) seliyə qarışaraq itəcək qədər az olarsa, bu halda istisna olaraq oruc batil olmur.

**Məsələ 1952.** Əgər insan qida qəbul edərkən sübhün başladığını başa düşərsə, ağzındakı qidanı çıxarmalıdır, qəsdən udduğu təqdirdə orucu batildir və ona qarşıda izah ediləcək şəkildə kəffarə də vacib olur.

**Məsələ 1953.** Əgər oruc tutan dişlərinin arasında qalan bir şeyi qəsdən udarsa, orucu batil olur.

**Məsələ 1954.** Oruc tutmaq istəyən şəxsin azandan öncə dişlərinin arasını dişqurdalayanla (kürdanla) təmizləməsi, yaxud dişlərini fırçalaması lazım deyil. Lakin əgər dişlərinin arasında qalan qida qalıqlarının gün ərzində udulacağını bilirsə, onların arasını dişqurdalayanla təmizləməli, yaxud fırçalamalıdır.

**Məsələ 1955.** Əgər oruc tutan səhvən bir şey yeyər, yaxud içərsə, orucu batil olmur.

**Məsələ 1956.** Ağız seliyinin udulması, hərçənd turş bir şeyi təsəvvür etmək və ya bu qəbildən olan səbəblərlə ağız boşluğunda toplanmış olsa belə, orucu batil etmir.

**Məsələ 1957.** Sinə və başdan gələn selikli ifrazatların ağız boşluğuna çatanadək udulması oruca xələl gətirmir. Hətta əgər ağız boşluğuna daxil olsa və oruc tutan onu udsa belə, yenə də orucu batil olmur. Hərçənd sonuncu halda müstəhəb ehtiyat udmamasını tələb edir.

**Məsələ 1958.** İnyeksiya[1] yolu ilə bədənə daxil edilən dərman vasitəsi və venadaxili infuziya[2] üsulu ilə bədənə daxil edilən serum hərçənd immuniteti möhkəmləndirən bir dərman məhlulu, yaxud suda həll olunmuş 5%-li dekstroza (D5W və ya D5$H_2$O) məhlulu olsa belə, orucu batil etmir.

**Məsələ 1959.** Göz və qulağa dərman (damcı) tökmək hərçənd dadı boğazda hiss edilsə belə, orucu batil etmir. Buruna dərman (nazal damcı) tökərkən isə əgər oruc tutan onun boğaza ötürülüb-ötürülməyəcəyini bilmirsə və onu boğaza ötürmək niyyəti yoxdursa, orucu batil etmir.

[1] Xalq arasında "iynə vurmaq" deyilir. *Tərc.*

[2] Xalq arasında "sistem qoşmaq" deyilir. *Tərc.*

Lakin əgər insan su və ya başqa bir maddəni burun boşluğu yolu ilə boğaza və qida borusuna ötürərsə, bu “yemək” sayılır və orucu batil edir.

**Məsələ 1960.** Susuzluq və halsızlıq öz-özlüyündə şəriətə görə orucu pozmaq üçün üzür hesab edilmir. Lakin əgər insan nəticədə adətən dözülməz olan bir çətinliyə düşməsinə səbəb olacaq qədər susuzluq, yaxud halsızlıq hiss edərsə, orucu aça bilər. Ancaq mübarək ramazan ayında, vacib ehtiyata əsasən, həmin həddən ziyadə halsızlıq və ya susuzluğun aradan qalxması üçün zəruri olan qədər (qida, dərman qəbulu və s. ) ilə kifayətlənməli (daha öncə izah edildiyi kimi) və günün qalan hissəsi ərzində orucu pozan hər hansı bir iş görməkdən çəkinməlidir. Hərçənd, istənilən halda oruc onun bir şey yeməsi, yaxud içməsi ilə batil olur.

Lakin xəstə olan, məsələn, böyrək daşı xəstəliyi olan, oruc tutması səhhətinə ciddi zərər yetirən və xəstəliyinin müalicəsi, yaxud ağırlaşmasının qarşısının alınması üçün gün ərzində çox su içməli olan şəxsə oruc tutmaq vacib deyil, su içə bilər və günün qalan hissəsi ərzində orucu pozan işləri görməkdən çəkinməsi də vacib deyil.

Qeyd etmək lazımdır ki, bu məsələdə qeyd edilən hökmlərin hamısı qida qəbuluna da aiddir.

**Məsələ 1961.** İnsanın udmaq niyyətində olmadığı və bir qayda olaraq boğaza getməyən uşaq, yaxud quşun qidasının çeynənilməsi, yeməyin dadına baxmaq və bu qəbildən olan hallarda hərçənd təsadüfən udsa belə, bu, orucu batil etmir. Lakin əgər insan əvvəldən boğazına gedəcəyini bilərsə və bu işi qəsdən görərsə, orucu batil olur və ona qəza və kəffarə vacib olur.

**Məsələ 1962.** Həddən ziyadə ağız yaxalama oruc tutan insan üçün məkruhdur. Əgər ağzını yaxaladıqdan sonra ağzındakı suyu udmaq istəyərsə, ağız boşluğuna yaxalama əsnasında xaricdən daxil olan və tüpürcəkdə həll olunmuş hesab edilməyəcək qədər az olmayan suyu ifraz etməlidir və hərçənd bir dəfə tüpürməklə həmin su ağız boşluğundan çıxsa da, daha yaxşı olar ki, üç dəfə tüpürsün.

### *Cinsi əlaqə*

**Məsələ 1963.** Cinsi əlaqə hətta kişi cinsiyyət üzvü yalnız sünnət yerinədək daxil edilsə və sperma ifraz olmasa belə, orucu batil edir.

**Məsələ 1964.** Əgər cinsiyyət üzvünün sünnət yerinədək olan hissəsindən az hissəsi daxil olarsa və sperma da ifraz olmazsa, oruc batil olmur. Lakin sünnət yeri olmayan[1] şəxsin cinsiyyət üzvünün sünnət yerindən az hissəsi belə daxil olarsa, orucu batil olur.

---

[1] Sünnət olunmayan, yaxud sünnət yeri bilinməyən. *Tərc.*

**Məsələ 1965.** Əgər insan qəsdən cinsi əlaqədə olarsa və sünnət yerinədək[1] daxil olub-olmadığına şəkk edərsə, bu məsələ ilə əlaqədar hökm 1943-cü məsələyə müraciət etməklə məlum olur və istənilən halda əgər insan orucu batil edən bir iş görməmişdirsə, kəffarə ona vacib deyil.

**Məsələ 1966.** Əgər insan oruc tutduğunu unudaraq cinsi əlaqədə olarsa, yaxud cinsi əlaqədə olmağa məcbur edilərsə, yəni qeyri-ixtiyari surətdə cinsi əlaqədə olarsa, orucu batil olmur. Lakin cinsi əlaqə əsnasında xatırladıqda, yaxud məcburiyyətdən azad edildikdə və artıq ixtiyarı öz əlində olduqda, dərhal cinsi əlaqəni başa çatdırmalıdır[2] və əgər başa çatdırmazsa, orucu batildir.

***İstimna (masturbasiya)***

**Məsələ 1967.** Oruc tutan şəxs istimna edərsə[3], orucu batil olur.

**Məsələ 1968.** Əgər insandan qeyri-ixtiyari surətdə sperma ifraz olarsa, orucu batil deyil.

**Məsələ 1969.** Əgər oruc tutan şəxs gündüz yatacağı təqdirdə onda pollyusiya halı baş verəcəyini, yəni yuxuda ondan sperma ifraz olacağını bilirsə, yata bilər. Hətta yatmamaq səbəbi ilə narahat olmayacağı və pollyusiya halı baş verdiyi təqdirdə belə orucu batil olmur.

**Məsələ 1970.** Əgər oruc tutan şəxs spermanın ifraz olunması əsnasında yuxudan oyanarsa, onun ifrazının qarşısını alması vacib deyil.

**Məsələ 1971.** Pollyusiya olan oruc tutan hərçənd idrar etmə nəticəsində spermanın kanalda qalan hissəsinin ifraz olacağını bilsə belə, idrar edə bilər.

**Məsələ 1972.** Pollyusiya olan oruc tutan əgər spermanın kanalda qaldığını və qüsldən öncə idrar etməyəcəyi təqdirdə spermanın qüsldən sonra onun bədənindən ifraz olacağını bilirsə, müstəhəb ehtiyata əsasən, qüsldən öncə idrar etməlidir.

**Məsələ 1973.** Qəsdən spermanın ifrazı məqsədi ilə misal olaraq öz arvadı ilə mazaqlaşan (flirt edən), ancaq bədənindən sperma ifraz olunmayan kişi əgər yenidən oruc niyyəti etməzsə, orucu batildir, oruc niyyəti etdiyi təqdirdə isə, vacib ehtiyata əsasən, orucu sonadək tutmalı və daha sonra qəzasını da tutmalıdır.

**Məsələ 1974.** Əgər oruc tutan şəxs sperma ifraz etmək məqsədi olmadan misal olaraq öz arvadı ilə mazaqlaşarsa, spermanın ifraz olmayacağına əmin, yaxud arxayın olduğu təqdirdə (hərçənd təsadüfən sperma

[1] Özünün, yaxud partnyorunun (cinsi əlaqə aktının aktiv tərəfinin) cinsi üzvü. *Tərc.*

[2] Yəni cinsi əlaqə aktının aktiv olan tərəfi (kişi) cinsiyyət üzvünü passiv tərəfin (normal cinsi əlaqədə qadının, qeyri-normal cinsi əlaqədə isə kişinin, ölünün, heyvanın və s. ) cinsiyyət üzvündən, yaxud anus dəliyindən çıxarmalıdır. *Tərc.*

[3] İstimnanın mənası 1950-ci məsələdə izah edilmişdir.

ifraz olsa belə) orucu düzgündür. Lakin əgər arxayın deyilsə, sperma ifraz olduğu təqdirdə orucu batildir.

### *Ehtiyata əsasən, uca Allaha, Peyğəmbərə (s) və pak İmamlara (ə) yalan isnad etmək*

**Məsələ 1975.** Əgər oruc tutan şəxs danışıq, yazı, işarə və ya bu qəbildən olan vasitələrlə uca Allaha, ən kəramətli Peyğəmbərə (s) və pak imamlara (ə) yalan isnad edərsə, hərçənd dərhal "yalan danışdım" desə, yaxud tövbə etsə belə, vacib ehtiyata əsasən, orucu batildir. Buna əsasən, əgər misal olaraq ramazan ayının orucunu tutarkən belə edərsə, vacib ehtiyata əsasən, həmin günün orucunu mütləq Allaha yaxınlaşma niyyəti ilə[1] sonadək tutmalı və daha sonra onun qəzasını da tutmalıdır. Həmçinin, müstəhəb ehtiyata əsasən, Həzrət Fatimə (s. ə), digər peyğəmbərlər (ə) və onların canişinlərinə yalan isnad etmək də bu qəbildəndir. Şübhəsiz, bunu da nəzərə almaq lazımdır ki, Allaha, Peyğəmbərə (s) və məsumlara (ə), o cümlədən Həzrət Fatiməyə (s. ə) yalan isnad etmək böyük günahlardandır.

**Məsələ 1976.** Əgər oruc tutan bir doğru olduğuna dair mötəbər bir dəlil olmayan və doğru, yoxsa yanlış olduğunu bilmədiyi bir rəvayəti danışmaq istəyərsə, onu nəql surəti ilə[2] danışdığı və bilavasitə Allahın ən əziz Elçisinə (s) və pak imamlara (ə) isnad etmədiyi təqdirdə orucu düzgündür, əks təqdirdə, vacib ehtiyata əsasən, orucu öncəki məsələdə izah edilən mənada batildir.

**Məsələ 1977.** Əgər bir şeyi doğru olduğuna inanaraq uca Allahın, yaxud ən əziz Peyğəmbərin (s) və ya pak imamların (ə) dilindən nəql edərsə və sonra yalan olduğunu başa düşərsə, orucu batil olmur.

**Məsələ 1978.** Əgər yalan olduğunu bildiyi bir şeyi uca Allaha, yaxud ən əziz Peyğəmbərə (s) və ya pak imamlara (ə) isnad edərsə və sonra söylədiklərinin doğru olduğunu başa düşərsə, bu hərəkətin orucu pozduğunu bildiyi təqdirdə, vacib ehtiyata əsasən, həmin gün orucu sonadək tutmalı və sonra onun qəzasını da tutmalıdır.

**Məsələ 1979.** Əgər başqasının uydurduğu bir yalanı qəsdən uca Allaha, yaxud ən kəramətli Peyğəmbərə (s) və ya pak imamlara (ə) isnad edərsə, lazım ehtiyata əsasən, orucu 1975-ci məsələdə izah edilən mənada batil olur. Lakin əgər həmin yalanı uyduran şəxsin sözləri kimi nəql edərsə, oruca xələl gəlmir.

---

[1] Yəni xüsusi olaraq vacib orucu tutmaq niyyəti ilə deyil, ümumiyyətlə Allaha yaxınlaşmaq niyyəti ilə orucu pozan işlərdən çəkinməlidir.

[2] Ravinin sözlərini vasitəsiz və ya vasitəsiz nitq kimi nəql edərək. *Tərc.*

**Məsələ 1980.** Əgər oruc tutandan Peyğəmbərin (s) hər hansı bir sözü söyləyib-söyləmədiyi soruşularsa və o, "xeyr" deməli (inkar etməli) olduğu halda "bəli" deyərsə (təsdiq edərsə), yaxud "bəli" deməli olduğu halda "xeyr" deyərsə, vacib ehtiyata əsasən, orucu 1975-ci məsələdə izah edilən mənada batil olur və həmçinin, bu hökm uca Allah, yaxud pak imamlara (ə) isnad hallarına da şamildir.

**Məsələ 1981.** Əgər uca Allahın, yaxud ən kəramətli Peyğəmbərin (s) və pak imamların (ə) dilindən bir doğru bir söz söyləyərsə, sonra hələ oruc ikən yalan söylədiyini bildirərsə, yaxud onlara bir yalan isnad edərsə və hələ oruc ikən daha öncə söylədiklərinin doğru olduğunu bəyan edərsə, lazım ehtiyata əsasən, 1975-ci məsələdə izah edilən mənada orucu batil olur. Yalnız məqsədi söylədiklərini etiraf etmək olduğu təqdirdə istisna olaraq orucu batil olmur. [1]

### *Ehtiyata əsasən, qatı toz udmaq*

**Məsələ 1982.** Vacib ehtiyata əsasən, qatı toz udmaq orucu batil edir, istər bu toz un kimi yeyilməsi halal olan bir şeyin, istərsə torpaq kimi yeyilməsi haram olan bir şeyin tozu olsun. Buna əsasən, mübarək ramazan ayının orucunda qatı toz udan şəxs həmin günün orucunu mütləq Allaha yaxınlaşmaq niyyəti ilə[2] sonadək tutmalı və sonra onun qəzasını da tutmalıdır.

**Məsələ 1983.** Vacib ehtiyata əsasən, oruc tutan siqaret, tənbəki və s. tütün məmulatlarının tüstüsünü udmamalı, həmçinin, digər qatı tüstüləri də udmaqdan, vacib ehtiyata əsasən, çəkinməlidir.

**Məsələ 1984.** Qatı olmayan tozun udulması orucu batil etmir.

**Məsələ 1985.** Su buxarı hərçənd qatı olsa belə, orucu batil etmir. Lakin ağız boşluğunda su damcılarına çevrilərsə və oruc tutan şəxs onu qəsdən udarsa, bu halda orucu batil olur. Yalnız həmin damcıların ağız seliyinə (tüpürcəyə) qarışaraq həll olunacaq qədər kiçik miqdarda olması istisnadır.

**Məsələ 1986.** Əgər külək, yaxud qasırğa səbəbi ilə havada qatı toz-duman meydana gələrsə, belə ki, insan özünü qorumadığı təqdirdə

---

[1] Məsələn, bir şəxs axşam bir məclisdə Allahın ən kəramətli Elçisinə (s) bir yalan isnad edərsə və gündüz oruc ikən başqa bir şəxs ondan: "Dünən belə bir söz söylədiyiniz doğrudurmu?" – deyə soruşduqda o: "Bəli, doğrudur", - deyə cavab verərsə, bu halda orucu batil olmur. Çünki onun məqsədi yalnız ötən gecə baş verən bir hadisəni etiraf etməkdir. Ancaq əgər oruc ikən bir şəxs ondan: "Sizin dünən Peyğəmbərə (s) isnad etdikləriniz doğrudurmu?" – deyə soruşarsa və o, cavabında: "Bəli, Peyğəmbərə (s) isnad etdiklərim doğrudur", - deyə cavab verərsə, bu halda, vacib ehtiyata əsasən, orucu batil olur.

[2] Yəni xüsusi olaraq vacib orucu tutmaq niyyəti ilə deyil, ümumiyyətlə Allaha yaxınlaşmaq niyyəti ilə orucu pozan işlərdən çəkinməlidir.

belə bir toz mütləq udulursa və insan bunu başa düşdüyü və qoruna bilmək imkanı olduğu halda qorunmazsa və həmin tozu udarsa, vacib ehtiyata əsasən, orucu 1982-ci məsələdə izah edilən mənada batil olur. Ancaq külək, yaxud qasırğa nəticəsində meydana gələn və insanın udmamaq üçün özünü qoruması həddən ziyadə çətin olan toz və dumandan qorunmağa gərək yoxdur.

**Məsələ 1987.** Əgər oruc tutan özünü qorumazsa və toz, yaxud tüstü və bu qəbildən olan qatı hava kütləsi insanın boğazına gedərsə, boğazına getməyəciyinə əmin, yaxud arxayın olduğu təqdirdə orucu düzgündür. Həmçinin, boğazına getməyəcəyini güman etdiyi və bu baxımdan özünü qorumadığı təqdirdə də hökm belədir. Lakin müstəhəb ehtiyat sonuncu halda həmin orucun qəzasını da tutmasını tələb edir.

**Məsələ 1988.** Əgər oruc olduğunu unudarsa və özünü qorumazsa, yaxud toz və bu qəbildən olan qatı hava kütləsi boğazına qeyri-ixtiyari gedərsə, orucu batil olmur.

**Məsələ 1989.** Nəfəs darlığı üçün istifadə edilən astma spreyləri əgər dərmanı yalnız ağ ciyərlərə yeridirsə və dərman qida borusuna daxil olmursa, orucu batil etmir.

***Sübh azanınadək cənabətli qalmaq***

**Məsələ 1990.** Cünub (cənabətli) insan mübarək ramazan ayında sübh azanından öncə mütləq qüsl etməli, yaxud vəzifəsi təyəmmüm etmək olduğu təqdirdə təyəmmüm etməlidir. Müxtəlif oruc növlərində cənabətli qalmaqla əlaqədar hökmlər qarşıdakı məsələlərdə izah ediləcəkdir.

**Məsələ 1991.** Əgər cənabətli insan ramazan ayında qəsdən sübh azanınadək qüsl etməzsə, yaxud vəzifəsi təyəmmüm olduğu təqdirdə təyəmmüm etməzsə, həmin günün orucunu sonadək tutmalı və vacib ehtiyata əsasən, bu orucu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalı[1], sonra başqa bir gün də oruc tutmalı və həmin başqa günün orucunun qəza, yaxud üqubət (cəza) orucu olduğu məlum olmadığına görə həmin günün orucunu da mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalıdır.

**Məsələ 1992.** Mübarək ramazan ayında qəsdsiz sübh azanınadək cənabətli halda qalmaq oruca xələl gətirmir. Həmçinin, cənabətli olduğundan xəbərsiz olan (cənabətlə əlaqədar hökmü deyil, cünub olduğunu bilməyən) şəxs mübarək ramazan ayında gün ərzində (sübhdən məğribədək), yaxud daha sonra həmin gün cənabətli olduğunu və cənabətli halda oruc tutduğunu başa düşərsə, orucu düzgündür. Həmçinin,

[1] Yəni xüsusi olaraq vacib orucu tutmaq niyyəti ilə deyil, ümumiyyətlə Allaha yaxınlaşmaq niyyəti ilə orucu pozan işlərdən çəkinməlidir.

cənabətli olduğunu bilən və bədənində suyun qarşısını alan bir maneənin mövcud olmadığı düşüncəsi ilə cənabət qüslü edərək oruc tutan, sonra gün ərzində (sübhdən məğribədək), yaxud daha sonra qüsl əsnasında bədən üzvlərində bir maneənin olduğunu və ya başqa bir səbəblə (həmin səbəblə bağlı hökmü bilmədiyindən deyil, ondan xəbərsiz olması ucbatından) qüslünün batil olduğunu, məsələn, qüslün onun üçün ciddi zərəri olduğunu, yaxud qüsl etdiyi suyun nəcasətli olduğunu başa düşən şəxsin orucu düzgündür və qəzası da yoxdur. Lakin həmin vəziyyətdə namaz qılmışdırsa, namazı batildir.

**Məsələ 1993.** Ramazan ayının orucunun qəzasını tutmaq istəyən şəxs sübh azanınadək qəsdən cünub qalarsa, həmin gün oruc tuta bilməz. Qəsdən olmadığı təqdirdə isə həmin gün mübarək ramazan ayının qəza orucunu tuta bilər. Hərçənd, müstəhəb ehtiyat yenə də həmin gün qəza orucunu tutmamağı tələb edir. Məsələn, ramazan ayının orucunun qəzasını tutmaq istəyən şəxs əgər sübh azanından sonra yuxudan oyanaraq pollyusiya halı baş verdiyini (yuxuda ondan sperma ifraz olduğunu) görərsə və bunun azandan öncə baş verdiyini bilərsə, həmin gün ramazan ayının qəzası niyyəti ilə oruc tuta bilər. Hərçənd, müstəhəb ehtiyat tutmamasını tələb edir.

**Məsələ 1994.** Ramazan ayının orucu və onun qəzası istisna olmaqla digər istənilən vacib və ya müstəhəb orucda cünub insan qəsdən sübh azanınadək cənabət halında qalarsa, oruca xələl gəlmir və həmin gün oruc tuta bilər.

**Məsələ 1995.** Cənabətli insan ramazan ayında qüsl etməyi unudarsa və bir gün sonra yadına düşərsə, həmin günün orucunun qəzasını tutmalıdır. Bir neçə gün sonra xatırladığı təqdirdə isə cənabətli halda keçirdiyinə əmin olduğu sayda günün orucunun qəzasını tutmalıdır. Məsələn, əgər üç, yoxsa dörd gün cənabətli qaldığını bilmirsə, üç günün orucunun qəzasını tutmalıdır. Əgər həmin gün yadına düşərsə, o günün orucunu sonadək tutmalı və vacib ehtiyata əsasən, bu orucda niyyəti mütləq (ümumi) Allaha yaxınlaşma olmalı, bununla yanaşı həmin orucun qəzasını da tutmalıdır və bu məsələdə qəza deyərkən 1991-ci məsələdə izah edilən mənada qəza orucu nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, bu hökm yalnız mübarək ramazan ayının orucuna aiddir və orucun digər qisimlərinə şamil olunmur.

**Məsələ 1996.** Ramazan ayında gecə (sübh azanınadək) nə qüsl, nə də təyəmmüm üçün vaxtı olmayan və vaxtı olmadığının da fərqində olmayan şəxs əgər özünü cünub edərsə, ona qəsdən cənabətli qalmaqla bağlı 1991-ci məsələdə qeyd edilən hökm şamil olunur.

**Məsələ 1997.** Əgər insan qüsl üçün vaxtı olmadığını və yalnız təyəmmüm almaq üçün yetəcək qədər vaxtı olduğunu bildiyi halda özünü cünub edərsə və qalan vaxt ərzində təyəmmüm edərsə, orucu düzgündür.

Qeyd etmək lazımdır ki, bu hərəkətin haram olması ehtiyat tələb edən bir haldır. [1]

**Məsələ 1998.** Ramazan ayında cünub olan və qüsl üçün vaxtı olan şəxs qəsdən vaxt daralanadək qüsl etmədiyi təqdirdə təyəmmüm edərək oruc tutmalıdır və bu halda hərçənd günahkar olsa da, orucu düzgündür.

**Məsələ 1999.** Oruc tutan şəxsdə gündüz pollyusiya halı baş verərsə,[2] dərhal qüsl etməsi vacib deyil.

**Məsələ 2000.** Cəsədə toxunan, yəni bədənin hər hansı bir yerini cəsədin hər hansı bir hissəsinə toxunduran şəxs məssi-meyit qüslü etmədən oruc tuta bilər və oruc əsnasında cəsədə toxunsa da, orucu batil olmur.

**Məsələ 2001.** Ramazan gecəsində cünub olan şəxs aşağıdakı iki halda, vacib ehtiyata əsasən, qüsl etməmiş yatmamalıdır:

a) Yatdığı təqdirdə sübhədək oyanmayacağını bilirsə;

b) Yatdığı təqdirdə sübh azanınadək oyanacağına əmin, yaxud arxayın deyilsə.

Bu hökmdə birinci dəfə yatmaqla, sonrakılar arasında heç bir fərq yoxdur.

**Məsələ 2002.** Cünub olan insan ramazan gecəsində birinci dəfə qəsdən yatarsa və sübh azanınadək oyanmazsa, onun orucu ilə əlaqədar hökm müxtəlif cür ola bilər:

1. Yatacağı təqdirdə sübh azanından öncə oyanacağına əmin, yaxud arxayındırsa və oyandıqdan sonra qüsl etmək niyyəti ilə yatırsa, bu halda orucu düzgündür.
2. Oyanacağına arxayın deyilsə, ancaq məntiqli əsaslarla oyanacağını ehtimal edirsə:

a) Oyandıqdan sonra qüsl etmək niyyəti ilə yatarsa;

b) Oyandıqdan sonra qüsl etməli olduğunun fərqində deyilsə və unutmuşdursa;

Bu iki halda (a və b bəndləri) həmin günün orucunu sonadək tutmalı və vacib ehtiyata əsasən, onu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalı, sonra onun qəzasını da 1991-ci məsələdə izah edildiyi kimi tutmalı və müstəhəb ehtiyata əsasən, kəffarə də verməlidir.

c) Ertəsi günün (həmin gecədən sonrakı günün) orucunun vacib olduğunu unutmuşdursa və misal olaraq sübh azanı ilə Günəşin

---

[1] Yəni vacib ehtiyata əsasən, bu hərəkət haramdır və edilməməlidir. *Tərc.*

[2] Yaxud 1968-ci məsələdə qeyd edilən hallarda, habelə 1974 və 1966-cı məsələlərdə qeyd edilən bəzi hallar kimi orucunu batil etməyən hər hansı bir yolla cünub olarsa.

çıxması arasındakı vaxt ərzində xatırlayarsa, bu halda orucu düzgündür, həmin gün oruc tutmalıdır və qəzası da yoxdur.

3. Yatacağı təqdirdə sübh azanınadək oyanmayacağını bilirsə;

4. Sübh azanından öncə oyanacağına əmindirsə, yaxud oyanacağını ehtimal edirsə, ancaq oyandıqdan sonra qüsl etmək istəmirsə və ya qüsl edib-etməməkdə tərəddüd edirsə;

Bu iki halda (3 və 4-cü bəndlər) həmin günün orucunu sonadək tutmalı və vacib ehtiyata əsasən, onu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalı, həmçinin, həmin orucun qəzası (1991-ci məsələdə izah edildiyi kimi) və kəffarə də ona vacib olur.

**Məsələ 2003.** Əgər cənabətli insan ramazan gecəsi yatarsa, sonra ayılarsa və yenidən yuxuya gedəcəyi təqdirdə sübh azanından öncə oyanacağına əmindirsə, yaxud arxayındırsa və ya bunu məntiqli əsaslarla ehtimal edirsə, oyandıqdan sonra qüsl etmək niyyəti də varsa, ikinci dəfə yataraq azanadək oyanmadığı təqdirdə həmin gün oruc tutmalı və vacib ehtiyata əsasən, onu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalıdır. Daha sonra həmin günün orucunun qəzasını 1991-ci məsələdə izah edildiyi kimi tutmalıdır. Eyni hökm ikinci yuxudan ayılaraq sadalanan şərtlərlə üçüncü dəfə yatan şəxsə də aiddir. Bu vəziyyətdə (üçüncü yuxu) istənilən halda, öncəki vəziyyətdə (ikinci yuxu) isə oyanacağını ehtimal etdiyi, ancaq buna arxayın olmadığı təqdirdə müstəhəb ehtiyata əsasən, kəffarə də verməlidir.

**Məsələ 2004.** Pollyusiyanın baş verdiyi yuxu birinci yuxu hesab edilir. Buna əsasən, əgər insan pollyusiyanın baş verdiyi yuxudan oyandıqdan sonra yenidən yatarsa və sübh azanınadək oyanmazsa, öncəki məsələdə qeyd edildiyi kimi 1991-ci məsələdə izah edilən şəkildə həmin günün orucunun qəzasını tutmalıdır.

**Məsələ 2005.** Əgər mübarək ramazan gecəsində vaxt məhdudluğu, yaxud suyun zərərli olması və bu qəbildən olan səbəblərlə əlaqədar olaraq cənabətli şəxsin vəzifəsi təyəmmüm etməkdirsə, təyəmmüm etməsi vacibdir, lakin təyəmmüm etdikdən sonra sübh azanınadək oyaq qalmasına gərək yoxdur və yata bilər.

### *Qadının sübh azanınadək heyz və nifas halında qalması*

**Məsələ 2006.** Mübarək ramazan ayında gecə heyz, yaxud nifasdan paklanan qadın sübh azanından öncə mütləq qüsl etməli, yaxud vəzifəsi təyəmmüm etmək olduğu təqdirdə təyəmmüm etməlidir. Müxtəlif oruc növlərində heyz, yaxud nifas halında qalmaqla əlaqədar hökmlər qarşıdakı məsələlərdə izah ediləcəkdir.

**Məsələ 2007.** Əgər qadın ramazan gecəsində sübh azanından öncə heyz, yaxud nifasdan paklanarsa və qəsdən qüsl etməzsə, vəzifəsi

təyəmmüm olduğu təqdirdə isə təyəmmüm etməzsə, həmin günün orucunu sonadək tutmalı və vacib ehtiyata əsasən, bu orucu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalıdır. [1] Sonra başqa bir gün də oruc tutmalı və həmin başqa günün orucunun qəza, yaxud üqubət (cəza) orucu olduğu məlum olmadığına görə həmin günün orucunu da mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalıdır.

**Məsələ 2008.** Mübarək ramazan ayında sübh azanınadək səhvən heyz, yaxud nifas halında qalmaq oruca xələl gətirmir. Buna əsasən, əgər qadın ramazan ayında sübh azanından öncə əslində paklanmış olarsa, ancaq paklanmadığına əmin olaraq qüsl etməzsə və sübh azanından sonra, məsələn, sübh azanı ilə günün çıxması arasında paklandığını başa düşərsə, oruc tutmalıdır və orucu düzgündür.

**Məsələ 2009.** Ramazan ayının qəza orucunda qadın qəsdən qüsl, yaxud təyəmmüm etməzsə, vacib ehtiyata əsasən, həmin gün qəza orucu tuta bilməz, qəsdən olmadığı təqdirdə isə tuta bilər.

**Məsələ 2010.** Ramazan ayı orucu və onun qəzası istisna olmaqla vacib və müstəhəb orucların digər qisimlərində qadın qəsdən qüsl, yaxud təyəmmüm etməzsə və sübh azanınadək heyz, yaxud nifas halında qalarsa, eybi yoxdur və həmin gün oruc tuta bilər.

**Məsələ 2011.** Əgər qadın ramazan ayında sübh azanından öncə heyz, yaxud nifasdan paklanarsa, ancaq qüsl üçün vaxtı olmazsa, azandan öncə təyəmmüm etməlidir və bu halda orucu düzgündür. Həmçinin, əgər vaxt genişdirsə, ancaq sudan istifadə qadın üçün zərərlidirsə, onun vəzifəsi təyəmmüm etməkdir.

**Məsələ 2012.** Ramazan gecəsi heyz, yaxud nifasdan pak olan qadın əgər qəsdən vaxt daralanadək qüsl etməzsə, təyəmmüm etməlidir və bu halda onun həmin gün tutduğu oruc düzgündür.

**Məsələ 2013.** Əgər qadın mübarək ramazan ayında sübh azanına yaxın heyz, yaxud nifasdan paklanarsa və nə qüsl, nə də təyəmmüm üçün vaxtı olmazsa, orucu düzgündür.

**Məsələ 2014.** Əgər qadın mübarək ramazan ayında heyz, yaxud nifas qüslünü unudarsa və bir, yaxud bir neçə gün sonra xatırlayarsa, tutduğu oruclar düzgündür. Buna əsasən, 1995-ci məsələ heyz və nifas qüslünə şamil olunmur.

**Məsələ 2015.** Əgər qadın ramazan ayında sübh azanından öncə heyz, yaxud nifasdan paklanarsa, ancaq yatarsa, qüsl etməkdə səhlənkarlığa yol verərək sübh azanınadək qüsl etməzsə və vaxta az qaldıqda təyəmmüm də etməzsə, həmin günün orucunu sonadək tutmalı və vacib

[1] Yəni xüsusi olaraq vacib orucu tutmaq niyyəti ilə deyil, ümumiyyətlə Allaha yaxınlaşmaq niyyəti ilə orucu pozan işlərdən çəkinməlidir.

ehtiyata əsasən, bu orucu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalıdır. Sonra həmin günün orucunun qəzasını da 2007-ci məsələdə izah edildiyi kimi tutmalıdır. Lakin səhlənkarlıq etmədiyi təqdirdə hərçənd üç dəfə yatsa belə, azanadək qüsl etməsə və təyəmmüm etməkdə də səhlənkarlığa yol verməsə, orucu düzgündür. Buna əsasən, cənabətli şəxsə aid olan birinci, ikinci və sonrakı yuxular üçün nəzərdə tutulmuş xüsusi hökmlər haiz və nəfsa qadına şamil deyil.

**Məsələ 2016.** Əgər qadın ramazan ayında sübh azanından öncə heyz, yaxud nifasdan paklanarsa və vaxt azlığı, yaxud suyun zərərli olması kimi səbəblərlə əlaqədar olaraq vəzifəsi təyəmmüm olarsa, təyəmmüm etməsi vacibdir. Lakin təyəmmümdən sonra sübh azanınadək oyaq qalmasına gərək yoxdur və yata bilər.

**Məsələ 2017.** Kəsirə istihazə halında olan qadının oruc tutduğu oruc (hərçənd, qüsllərini istihazə ilə əlaqədar hökmlər mövzusunda izah edilən qaydada yerinə yetirməsə belə) düzgündür. Həmçinin, mütəvəssitə istihazədə də (hərçənd qüsl etməsə də) qadının tutduğu oruc düzgündür. Əlbəttə, müstəhəb ehtiyat mütəvəssitə, yaxud kəsirə istihazə halında olan qadının gündəlik qüsllərini yerinə yetirməsini tələb edir. [1]

### *İmalə*

**Məsələ 2018.** Maye vasitələrlə imalə (klizma) etmək hərçənd məcburiyyətdən və müalicə məqsədi ilə olsa belə, orucu batil edir. Lakin şam kimi bərk maddələrlə imalə etmək orucu batil etmir. Yalnız bədənə şam daxil edən zaman bədənin hərarəti səbəbinə şam maye halına çevrilib daxilə keçərsə istisnadır. [2] Amma əgər o halda dərman maddələri bədənə keçərsə işkalı yoxdur.

### *Qusmaq*

**Məsələ 2019.** Oruc tutan şəxs qəsdən qusarsa, hərçənd xəstəlik, yaxud zəhərlənmənin qarşısını almaq kimi səbəblərdən bu işi görməyə məcbur olsa belə, orucu batil olur. Lakin əgər səhvən, yaxud qeyri-ixtiyari qusarsa, oruca xələl gəlmir.

**Məsələ 2020.** Əgər insan gecə saatlarında gündüz qeyri-ixtiyari surətdə qusmasına səbəb olacağını bildiyi bir şeyi yeyərsə, orucu düzgündür.

**Məsələ 2021.** Əgər oruc tutan şəxs qusmasının qarşısını ala bilərsə, qusma öz-özünə (insanlar tərəfindən “özünü qusmağa vadar etdi” deyilməyəcəyi şəkildə) baş verdiyi təqdirdə qarşısını almasına gərək yoxdur və orucu düzgündür.

---

[1] Bu müstəhəb ehtiyat oruc hökmü ilə əlaqədardır, namazın doğru olması üçün isə sözügedən qüsllərin edilməsi vacibdir.

[2] Yəni oruc batil olur

**Məsələ 2022.** Əgər qida qırıntıları, yaxud digər xırda şeylər oruc tutanın boğazına gedərsə:

a) Udulması "yemək" adlandırılmayacaq qədər dərinə getdiyi təqdirdə onu çıxarmasına gərək yoxdur, hətta əksinə onu qusmaqla çıxarmamalıdır və bu halda orucu düzgündür.

b) Bu qədər dərinə getməmişdirsə və oruc tutan onu ya udmağa, ya da çıxarmağa məcburdursa, onu udmamalıdır, əksinə hərçənd qusmaq lazım gəlsə belə, onu çıxarmalıdır. Yalnız qusmağın onun üçün zərərli, yaxud adətən dözülməz sayılan dərəcədə çətin olduğu hal istisnadır. Hər iki halda (udmaq və qusmaq) onun orucu batil olur.

**Məsələ 2023.** Əgər insan səhvən bir şeyi udarsa və mədəsinə çatmamış oruc olduğunu xatırlayarsa, bu halda əgər həmin şey onun boğazından keçmişdirsə və artıq yemək deyil, həzm mərhələsində sayılırsa, onu çıxarmasına gərək yoxdur və orucu düzgündür.

**Məsələ 2024.** Oruc tutan gəyirmə nəticəsində boğazından nəsə çıxacağına əmindirsə, buna qusma deyildiyi təqdirdə qəsdən gəyirməməlidir. Lakin əgər əmin deyilsə, oruca xələl gəlmir.

**Məsələ 2025.** İnsan gəyirərsə və bir şey qida borusundan boğazına, yaxud ağız boşluğuna geri qayıdarsa, onu ağzından çıxarmalıdır (tüpürməlidir) və əgər onu qeyri-ixtiyari olaraq udarsa, orucu düzgündür, qəsdən udduğunu təqdirdə isə, vacib ehtiyata əsasən, batil olur. Buna əsasən, məsələn, əgər ramazan ayında gündüz belə edərsə, həmin günün orucunu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə[1] sonadək tutmalı və onun qəzasını da tutmalı, həmçinin, vacib ehtiyata əsasən, kəffarə də verməlidir.

## Orucu batil edən işlərlə əlaqədar ümumi hökmlər

**Məsələ 2026.** İnsan qəsdən, ixtiyari surətdə və şəriət hökmünü bildiyi halda orucu batil edən hər hansı bir iş görərsə, orucu batil[2] olur. [3]

**Məsələ 2027.** Əgər insan orucu batil edən hərəkətlərdən birini qəsdsiz edərsə, eybi yoxdur və orucu düzgündür. Qəsdsiz hallarda səhv etmə, unutqanlıq, qəflət və ixtiyarsızlıq arasında heç bir fərq yoxdur. Lakin bir sıra hallar bu hökmdə istisna təşkil edir:

---

[1] Yəni xüsusi olaraq vacib orucu tutmaq niyyəti ilə deyil, ümumiyyətlə Allaha yaxınlaşmaq niyyəti ilə orucu pozan işlərdən çəkinməlidir.

[2] Bu batil olma qatı toz və tüstü udmaq, uca Allaha və Onun ən kəramətli Elçisinə (s) yalan isnad etmək kimi bəzi hallarda vacib ehtiyata əsaslanır və belə hallarda vacib ehtiyat sadalanan hərəkətlər ramazan ayında baş verdikdə günün qalan hissəsində (məğribədək) insanın orucu batil edən işlərdən mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə çəkinməsini tələb edir.

[3] Qəsdən sübh azanınadək cənabət, heyz, yaxud nifas halında qalan şəxsin orucunun batil olması ilə bağlı hökm əvvəlki məsələlərdə izah edilmişdir.

a) Əgər insan susuzluğunu aradan qaldırmaq və sərinləmək üçün ağzına su alarsa və oruc olduğunu bildiyi halda ixtiyarsız surətdə su boğazına gedərsə, qarşıda izah ediləcək şəkildə həmin günün orucunun qəzasını tutmaq ona vacib olur.

b) Əgər insan mübarək ramazan ayında cənabət qüslünü unudaraq oruc tutarsa və bir, yaxud bir neçə gün keçdikdən sonra xatırlayarsa, həmin orucun (orucların) qəzasını 1995-ci məsələdə qeyd edildiyi kimi mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalıdır.

c) Əgər cünub şəxs cənabətli halda qalmaq mövzusunda izah edildiyi kimi yatarsa və sübh azanınadək qüsl etməzsə, həmin günün orucunu sonadək tutmalı, həmçinin, başqa bir gün 1991-ci məsələdə izah edilən niyyətlə oruc tutmalıdır.

**Məsələ 2028.** Əgər insan orucu batil edən işlər kimi qeyd etdiyimiz hərəkətlərdən bəzilərinin orucu pozduğunu bilməzsə və hökmü bilmədiyinə görə ona riayət etməzsə, həmin batil edən iş yemək, içmək, yaxud cinsi əlaqə olduğu təqdirdə istənilən halda orucu batil olur, digər batil edən işlərdən biri olduğu təqdirdə isə bir neçə hal mövcud ola bilər:

a) Əgər məsələni öyrənməkdə səhlənkarlıq etmişdirsə (bu halda "müqəssir cahil" hesab edilir), orucu batil olur.

b) Əgər məsələni öyrənməkdə səhlənkarlıq etməmişdirsə və batil edən işi görərkən də tərəddüdü yox idisə (bu halda "qasir cahil"dir), orucu düzgündür. [1]

c) Əgər oruc tutan şəxs batil edən işi görərkən bu işi görmək üçün (onun orucu batil etmədiyinə dair) hər hansı bir şəri dəlilə istinad etmişdirsə (bu halda da "qasir cahil" hesab edilir), orucu batil olmur.

**Məsələ 2029.** Əgər oruc tutan səhvən orucu batil edən işlərdən birini görərsə və orucunun batil olduğunu düşünərək yenidən orucu batil edən işlərdən birini görərsə, onun barəsində öncəki məsələdə izah edilən hökm tətbiq edilir.

**Məsələ 2030.** Əgər oruc tutanın boğazına zorla bir şey tökərlərsə, orucu batil olmur. Lakin onu orucunu üç işdən biri - yemək, içmək, yaxud cinsi əlaqə ilə pozmağa məcbur edərlərsə, məsələn, ona: "Əgər yeməsən sənə maddi, yaxud fiziki xəsarət yetirəcəyik", - deyərlərsə və o özü zərərin qarşısını almaq üçün bir şey yeyərsə, orucu batil olur. Sadalanan üç işdən başqa bir işlə orucunu pozmağa məcbur edildiyi təqdirdə də, vacib ehtiyata əsasən, onun orucu batil olur.

---

[1] Qeyd etmək lazımdır ki, bir işin orucu batil edib-etmədəyinə şəkk edən və onun orucu batil etdiyini ehtimal edən, ancaq bununla əlaqədar olan şəri hökmü öyrənməyə qadir olmayan şəxsin vəzifəsi ehtiyatdır. Yəni həmin işi görməməlidir və əgər ehtiyat etməsi mümkün olduğu halda qəsdən həmin işi görərsə, müqəssir hesab edilir. Buna əsasən, sözügedən şəxs cahil qasir sayılmır.

**Məsələ 2031.** Oruc tutan şəxs boğazına bir şey töküləcəyini, yaxud orucunu öz əli ilə pozmağa məcbur ediləcəyini bildiyi bir yerə getməməlidir. Əgər gedərsə və məcburiyyət qarşısında özü orucu batil edən bir iş görərsə, orucu batil olur. Həmçinin, lazım ehtiyata əsasən, boğazına bir şey töküldüyü təqdirdə də orucu batil olur.

## Oruc tutan üçün məkruh olan hərəkətlər

**Məsələ 2032.** Oruc tutan üçün bir neçə hərəkət məkruhdur. O cümlədən:

1) Başın bütövlüklə suya salınması. Bu iş orucu batil etmir, lakin şiddətli dərəcədə məkruhdur və müstəhəb ehtiyat bundan çəkinməyi tələb edir.
2) Dadı, yaxud iyi boğaza çatacağı təqdirdə gözə dərman tökmək və sürmə çəkmək.
3) Qanalma və hamamda çimmək kimi bədənin zəifləməsinə səbəb olan istənilən hərəkət.
4) Boğaza çatacağı məlum olmadığı halda buruna dərman tökmək. Oruc tutan burnuna tökəcəyi dərmanın boğazına gedəcəyini bilirsə, onu tökə bilməz.
5) Ətirli bitkiləri iyləmək. Lakin oruc tutarkən ətirdən istifadə etməyin eybi yoxdur və məkruh deyil.
6) Qadının suyun içində oturması.
7) Şamdan (imalə üçün) istifadə etmək.
8) İnsanın əynindəki paltarı islatması.
9) Diş çəkdirmək və ağızdan qan gəlməsinə səbəb olan istənilən iş.
10) Yaş fırça ilə dişləri fırçalamaq.
11) Hər hansı bir səbəb olmadan ağıza su, yaxud başqa bir maye almaq.
12) İnsanın sperma ifraz etmək niyyəti olmadan şəhvət hissinin oyanmasına səbəb olan bir iş görməsi.

## Qəza orucu ilə əlaqədar hökmlər

Orucun qəzasının vacib olmadığı bəzi hallar

**Məsələ 2033.** Aşağıdakı hallarda mükəlləfin orucun qəzasını tutmasına gərək yoxdur:

1. Dəli aqil olarsa (əqli inkişafı bərpa olarsa), dəli olduğu dövrdə tutduğu orucların qəzasını tutması vacib deyil.
2. İnsan həddi-büluğa çatdıqda həddi-büluğdan öncəki dövrdə tutmadığı orucların qəzasını tutması vacib deyil.

3. Kafir müsəlman olarsa, kafir olduğu dövrdə tutmadığı orucların qəzasını tutması vacib deyil.
4. Huşsuz, yaxud komada (komatoz halda) olan şəxs ayılaraq huşsuzluq, yaxud koma vəziyyətindən çıxarsa, huşsuz olduğu, yaxud komada keçirdiyi və oruc niyyəti olmadığı günlərin oruclarının qəzasını tutmasına gərək yoxdur.
5. Başqa məzhəbdən olan bir şəxsin isnaəşəri şiə olduqdan sonra keçmişdə öz məzhəbinə uyğun, yaxud da şiə məzhəbinə müvafiq qaydada tutduğu orucların (Allaha yaxınlaşma niyyəti olduğu təqdirdə) qəzasını tutmasına gərək yoxdur.
6. Əgər insan xəstəlik, yaxud heyz və ya nifas səbəbi ilə ramazan ayının orucunu tutmazsa və üstündən tutmadığı həmin orucların qəzasını tuta biləcəyi qədər zaman keçmədən dünyasını dəyişərsə, həmin orucların qəzası yoxdur. Məsələn, bir ata ramazan ayında xəstəlik səbəbi ilə oruc tutmazsa və həmin ilin fitr bayramında dünyasını dəyişərsə, böyük oğulun onun həmin oruclarının qəzasını tutmasına gərək yoxdur.

## Orucun qəzasının vacib olduğu bəzi hallar

**Məsələ 2034.** Aşağıdakı hallarda mükəlləfin orucun qəzasını tutması vacibdir:

1. İnsan sərxoşluq səbəbi ilə tutmadığı orucun qəzasını, hərçənd sərxoşluğuna səbəb olan şeyi müalicə üçün qəbul etsə belə, mütləq tutmalıdır.
2. Bir müsəlman kafir olarsa (mürtəd olarsa), sonra yenidən İslama qayıdarsa, mürtəd olduğu dövr ərzində tutmadığı orucların qəzasını tutmalıdır və bu hökmdə fitri mürtəd[1] ilə milli mürtəd[2] arasında fərq yoxdur.
3. İnsanın oruc tutmağın caiz olmadığı bir səfər səbəbi ilə tutmadığı orucların qəzasını üzürlü vəziyyət aradan qalxdıqdan sonra tutması vacibdir.
4. Başqa məzhəbdən olan insanın tutmadığı orucların qəzasını şiə olduqdan sonra tutması vacibdir.
5. Qadının heyz, yaxud nifas səbəbi ilə tutmadığı orucların qəzasını üzürlü hal aradan qalxdıqdan sonra tutması vacibdir.
6. İnsan şaban ayının son günü, yoxsa ramazan ayının ilk günü olduğunu bilmədiyi "şəkk günü"ndə oruc tutmazsa və sonra həmin

[1] Müsəlman ailəsində doğulub tərbiyə edilən və öncə müsəlman olan, sonra dinindən dönərək kafir olan şəxs.
[2] Müsəlman olmayan ailədə dünyaya gələrək boya-başa çatan, sonra İslamı qəbul edən, ancaq daha sonra İslamdan üz çevirərək küfrə üz tutan şəxs.

günün ramazan ayının ilk günü olduğunu başa düşərsə, onun qəzasını tutması vacibdir.

7. İnsan fitr bayramı günü olduğuna inanaraq oruc tutmazsa, sonra həmin günün mübarək ramazan ayının son günü olduğunu başa düşərsə, həmin günün orucunun qəzasını tutması vacibdir.

**Məsələ 2035.** İnsan ramazan ayının orucunu qəsdən tutmazsa:

a) Oruc tutmadığı üçün Allahın dərgahına üz tutaraq ciddi surətdə tövbə etməlidir;

b) Həmin orucun qəzasını tutmalıdır;

c) Kəffarə mövzusunda izah ediləcək şərtlərlə üzərinə mübarək ramazan ayının orucunu qəsdən tutmamaq ilə əlaqədar nəzərdə tutulmuş kəffarə düşür və hər gün müqabilində iki ay oruc tutması, yaxud altmış fəqirə təam verməsi və ya bir qul azad etməsi vacibdir;

d) Növbəti ramazan ayınadək həmin orucun qəzasını tutmadığı təqdirdə, vacib ehtiyata əsasən, hər gün müqabilində bir müdd təam da kəffarə verməlidir.

## Qəza orucu ilə əlaqədar digər hökmlər

**Məsələ 2036.** Ramazan ayının bir neçə gününün qəza orucunu tutmalı olan, ancaq onların dəqiq sayını bilməyən, yaxud unudan, məsələn, üç, dörd, yoxsa beş gün olduğunu bilməyən şəxs minimum sayda günün orucunu (qəza) tutarsa, kafidir və şübhəli olan günlərin qəzasını tutması vacib deyil. Lakin müstəhəb ehtiyat tutmalı olduğu günlərin hamısını tutduğuna dair yəqinlik hasil edəcəyi qədər oruc tutmasını tələb edir. Buna əsasən, misal olaraq qeyd edilən halda daha yaxşı olar ki, ehtiyatən beş gün qəza orucu tutsun.

**Məsələ 2037.** Əgər insan hər hansı bir üzürlü səbəbdən bir neçə gün oruc tutmazsa, sonra üzürlü vəziyyətinin nə zaman aradan qalxdığına dair şəkkə düşərsə, oruc tutmadığını ehtimal etdiyi maksimum say qədər günün orucunun qəzasını tutması vacib deyil. Məsələn, ramazan ayından öncə səfərə gedən və ramazan ayının beşinci günü günortadan sonra, yoxsa altıncı günü günortadan sonra qayıtdığını bilməyən, yaxud ramazan ayının sonlarında səfərə gedərək ramazandan sonra qayıdan və ramazan ayının iyirmi beşinci, yoxsa iyirmi altıncı gecəsi səfərə çıxdığını bilməyən şəxs hər iki halda minimum say qədər, yəni beş gün (ikinci misalda ay otuz gün olduğu təqdirdə) qəza orucu tuta bilər. Hərçənd, müstəhəb ehtiyat maksimum say qədər, yəni altı gün qəza orucu tutmasını tələb edir.

**Məsələ 2038.** İnsanın bir neçə ramazan ayından qəza orucu olarsa, onların qəzasını tutarkən ardıcıllığa riayət etməyə gərək yoxdur. Buna

əsasən, hansının qəzasını əvvəl tutarsa tutsun, orucları doğrudur. Lakin əgər sonuncu ramazan ayının qəza orucu üçün az vaxt qalmışdırsa, məsələn, sonuncu ramazan ayından beş gün qəza orucu vardırsa və qarşıdakı ramazan ayının başlamasına da beş gün qalmışdırsa, müstəhəb ehtiyata əsasən, öncə sonuncu ramazan ayının qəza oruclarını tutmalıdır.

**Məslə 2039.** İnsana bir neçə ramazan ayından qalan qəza orucu vacib olarsa və o, niyyətdə tutduğu orucun hansı ramazan ayının qəzası olduğunu müəyyən etməzsə, tutduğu oruc(lar) sonuncu ilin ramazan ayının qəzası hesab edilmir və beləliklə, təxir (gecikdirmə) kəffarəsindən azad olmur.

**Məsələ 2040.** Qəza oruclarında fasiləsiz ardıcıllığa riayət etməyə gərək yoxdur. Buna əsasən, əgər bir şəxs mübarək ramazan ayında bir həftə ardıcıl olaraq (istər üzürlü səbəbdən, istərsə üzürsüz) oruc tutmamışdırsa, qəzasını tutarkən yeddi gün ardıcıl oruc tutması vacib deyil.

**Məsələ 2041.** Ramazan ayından qalan qəza orucu olan və onu tutan şəxs zöhr azanından öncə orucunu poza bilər. Lakin əgər qəza orucunun vaxtı məhdud olarsa, məsələn, insanın öncəki ramazan ayından yeddi gün qəza orucu vardırsa və qarşıdakı ramazan ayının başlamasına da yeddi gün qalmışdırsa, bu halda, müstəhəb ehtiyata əsasən, orucunu batil etməməlidir. [1] Ancaq zöhr azanından sonra ramazan ayının qəza orucunu qəsdən pozmaq olmaz və bunun kəffarəsi vardır.

**Məsələ 2042.** Bir insan dünyasını dəyişən bir şəxsin orucunun qəzasını tutmuşdursa, müstəhəb ehtiyata əsasən, zöhr azanından sonra orucu batil etməsin. [2]

**Məsələ 2043.** Özünün ramazan ayından qalan qəza oruclarını tutan şəxs zöhr azanından sonra qəsdən yemək, içmək, cinsi əlaqə, yaxud masturbasiya ilə orucunu batil edərsə, on yoxsulu doydurması, yaxud hər birinə bir müdd təam verməsi vacibdir, buna imkanı olmadığı təqdirdə isə üç gün oruc tutmalıdır. Qəza orucunun zöhrdən sonra sadalanan işləri görməklə pozulması bu məsələni, şəriətin hökmünü bilməmək nəticəsində baş verərsə, oruc tutan qasir cahil olduğu təqdirdə kəffarə ona vacib deyil, müqəssir cahil olduğu təqdirdə isə hətta, vacib ehtiyata

---

[1] Qeyd etmək lazımdır ki, bu deyilənlər orucun məhz həmin gün tutulmasının (nəzir kimi səbəblərlə əlaqədar olaraq) insana vacib olmadığı hallara aiddir, əks təqdirdə (məsələn, ramazan ayının qəza orucunu məhz həmin gün tutmağı nəzir etdiyi halda *tərc.* ) isə orucu hətta zöhrdən öncə də pozmaq caiz deyil.

[2] Aydındır ki, bu, həmin günün orucunun sonadək tutulmasının əcir tutma anlaşması çərçivəsindəki şərt kimi səbəblərlə əlaqədar qabaqcadan müəyyənləşdirilmədiyi hallara aiddir. Əks təqdirdə (məsələn, əcir tutma anlaşması çərçivəsində əcir tutan şəxs dünyadan köçmüş atasının oruclarının qəzasını tutmaq üçün əcir tutduğu şəxsdən tutacağı qəza oruclarını sonadək tutmağı tələb etmişdirsə *tərc.* ) orucu pozmaq heç bir vəchlə caiz deyil.

əsasən, orucu batil edən işi görərkən tərəddüd etmədiyi halda belə, kəffarə mütləq verilməlidir.

## Orucun qəzasının və kəffarəsinin vacib olduğu hallar

**Məsələ 2044.** Bir şəxs ramazan ayının orucunu yemək, içmək, cinsi əlaqə, masturbasiya, yaxud cənabətli halda qalmaqla batil edərsə,[1] bu, qəsdən və ixtiyari surətdə baş verdiyi, məcburiyyət və zərurət səbəbi ilə baş vermədiyi təqdirdə qəza ilə yanaşı ona kəffarə də vacib olur. Lakin heyz və nifas halında qalmaq, qusmaq, imalə etmək, uca Allaha, Allahın elçisinə (s) və imamlara (ə) yalan isnad etmək kimi orucu batil edən digər işləri qəsdən və ixtiyari surətdə görən şəxsə kəffarə vacib deyil. Hərçənd, müstəhəb ehtiyata əsasən, qəza orucu ilə yanaşı kəffarə də verməlidir.

**Məsələ 2045.** Bir şəxs əvvəlki məsələdə sadalanan beş hərəkətdən hər hansı birini məsələni bilmədiyinə görə edərsə, yəni bu hərəkətlərin orucu batil etdiyini bilmədiyi halda onlardan birini həyata keçirmişdirsə, bir neçə vəziyyət mövcud ola bilər:

a) Əgər məsələni öyrənməkdə səhlənkarlığa yol vermişdirsə (müqəssir cahil hesab edilirsə), orucu batil edən işi görərkən tərəddüd edirdisə və onun orucu batil edəcəyini ehtimal edirdisə, lazım ehtiyata əsasən, kəffarə ona vacib olur.

b) Əgər məsələni öyrənməkdə səhlənkarlığa yol verməmişdirsə (cahil qasir idisə) və ya hətta səhlənkarlığa yol vermişdirsə (müqəssir cahil idisə), ancaq hər iki halda orucu pozan işi görərkən tərəddüd etmirdisə, kəffarə ona vacib olmur.

c) Orucu batil edən işi görmək üçün onu həyata keçirdiyi zaman şəri dəlilə əsaslanırdısa (bu halda da qasir cahil hesab edilir), kəffarə ona vacib deyil.

Buna əsasən, orucu pozan bu işlərin orucu pozmadığına qəti şəkildə inanan şəxs hərçənd onda bu inamı yaradan səbəblər xüsusunda müqəssir cahil olsa belə, məsələn, orucu batil edən işlərin nələrdən ibarət olduğunu öyrənməkdə səhlənkarlığa yol vermiş olsa belə, kəffarə ona vacib deyil. Həmçinin, orucun ona vacib olduğunu bilməyən şəxsə, məsələn, həddi-büluğ yaşının başlanğıcında olan və orucun onlara vacib olmadığına inanan uşaqlara kəffarə vacib deyil.

**Məsələ 2046.** 2044-cü məsələdə sadalanan beş hərəkətin orucu batil etdiyini bilən, lakin bu işləri görməklə kəffarənin ona vacib olduğunu bilməyən şəxsin üzərindən kəffarə götürülmür və o, kəffarə verməlidir.

**Məsələ 2047.** Bir şəxs mübarək ramazan ayının orucunu tutarkən masturbasiya kimi orucu batil etməklə yanaşı öz-özlüyündə haram olan

---

[1] Burada əvvəlki məsələlərdə izah edilmiş mənada cənabətli halda qalma səbəbi ilə orucun batil olması nəzərdə tutulur.

bir iş görərsə və bu, onun həmin işin haram olduğunu bildiyi, ancaq qəti şəkildə orucu batil etmədiyinə inandığı və orucu batil edən bir iş olduğunu ehtimal etmədiyi halda baş verərsə, bu halda da kəffarə ona vacib olmur.

## Orucun yalnız qəzasının vacib olduğu hallar

**Məsələ 2048.** Daha öncə qeyd edilən hallar istisna olmaq bir neçə halda insana yalnız orucun qəzası vacib olur və kəffarə vacib deyildir:

1. Ramazan gecəsi cünub olarsa və 2003-cü məsələdə izah edilmiş şəkildə sübh azanınadək ikinci, yaxud üçüncü yuxudan, həmçinin, 2002-ci məsələdə izah edilmiş şəkildə birinci yuxudan oyanmazsa.
2. 1995-ci məsələdə izah edildiyi kimi ramazan ayında cənabət qüslünü unudarsa və cənabətli halda bir və ya bir neçə gün oruc tutarsa.
3. Daha öncə orucun niyyəti mövzusunda izah edildiyi kimi orucu batil edən bir iş görməzsə, lakin oruc niyyəti də etməzsə, yaxud riyakarlıq edərsə və ya oruc tutmamaq niyyəti olarsa, həmçinin, orucu batil edən bir iş görmək niyyətinə düşərsə. Ancaq həmin işi görməzsə.
4. Ramazan ayında sübhün açılıb-açılmadığını[1] dəqiqləşdirmədən orucu batil edən bir iş görərsə və sonradan həmin vaxt sübhün açıldığı məlum olarsa.
5. Bir şəxs sübhün açılmadığı deyərsə və insan onun sözü ilə orucu batil edən bir iş görərsə, sonra həmin vaxt sübhün açıldığı məlum olarsa, həmçinin, insan saat, radio və bu qəbildən olan vasitələrə etimad edərək sübhün açıldığına arxayın olarsa və orucu batil edən bir iş görərsə, sonra həmin vaxt sübhün açıldığı məlum olarsa.
6. Bir şəxs sübhün açıldığını xəbər verərsə, insan onun sözünün doğruluğuna əmin, yaxud arxayın olmazsa, ya da zarafat etdiyini zənn edərsə, bununla belə, özü də dəqiqləşdirmədən orucu batil edən bir iş görərsə, sonra həmin vaxt sübhün açıldığı məlum olarsa.
7. İnsan onun üçün sözü şəriətə görə dəlil olan, yaxud səhvən sözünün dəlil olduğuna inandığı başqa bir şəxsin məlumatı əsasında iftar edərsə, sonra məğrib olmadığı məlum olarsa.
8. Məğrib olduğuna əmin, yaxud arxayın olaraq iftar edərsə, sonra həmin an məğrib vaxtının çatmadığı məlum olarsa. Lakin əgər buludlu havada və bənzər şəraitlərdə məğrib vaxtının çatdığını güman edərək iftar açarsa, sonra məğribin başlamadığı məlum olarsa, bu halda orucun qəzası, etiyata əsasən, vacibdir.
9. Susuzluq səbəbi ilə ağzını su ilə yaxalayarsa və istəmədən su udarsa. Ancaq əgər oruc olduğunu unudaraq su udarsa, yaxud

[1] Sübhün açılması deyərkən sübh azanı nəzərdə tutulur. *Tərc.*

susuzluqdan başqa bir səbəblə, məsələn, dəstəmaz kimi ağzı yaxalamağın müstəhəb olduğu hallarda ağzını yaxalayarsa və istəmədən su udarsa, orucun qəzası yoxdur. Həmçinin, əgər oruc tutan sudan başqa bir şeyi ağzına alarsa və istəmədən udarsa, yaxud burnuna su alarsa və istəmədən içinə çəkərsə, orucun qəzasını tutması vacib deyil.

10. Bir şəxs vadar edilmə, çarəsizlik və ya təqiyyə səbəbi ilə iftar edərsə, vadar edildiyi və ya təqiyyə əsasında gördüyü iş yemək, içmək, yaxud cinsi əlaqə olduğu təqdirdə orucun qəzasını tutmalıdır. Orucu batil edən digər işləri də sadalanan səbəblərlə gördüyü təqdirdə, vacib ehtiyata əsasən, hökm eynidir.

**Məsələ 2049.** Öncəki məsələdə qeyd edilən 1-ci halda insan həmin gün oruc tutmalı və vacib ehtiyata əsasən, onu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalı[1], sonra onun qəzasını da məhz qəza, yaxud məhz üqubət (cəza) orucu kimi deyil, "ma fiz-zimmə" (üzərinə düşən vəzifə) niyyəti ilə tutmalıdır.

2-ci halda da əgər gündüz xatırlayarsa, insan həmin gün oruc tutmalı və vacib ehtiyata əsasən, onu mütləq (ümumi) Allaha yaxınlaşma niyyəti ilə tutmalı, istənilən halda onun qəzasını da məhz qəza, yaxud məhz üqubət (cəza) orucu kimi deyil, "ma fiz-zimmə" (üzərinə düşən vəzifə) niyyəti ilə tutmalıdır.

3-cu halda riyakarlıq üçün oruc tutduğu, yaxud gün ərzində oruc niyyəti etmədiyi və ya oruc tutmamaq niyyətində olduğu təqdirdə orucu batildir, onun qəzasını tutmalıdır, ancaq həmin gün orucu batil edən işləri görmək də ona haramdır və orucu açdığı təqdirdə iki günah edir: 1) oruc tutmaqdan imtina etmək; 2) orucu pozmaq. Orucu batil edən hərəkətlər arasında kəffarəsi olan işləri gördükdə isə kəffarə də ona vacib olur. Ancaq əgər gün ərzində riyakarlıq edərsə, yaxud oruc tutmamaq niyyətinə düşərsə və sonra peşman olarsa, yaxud orucu batil edən bir iş görmək niyyətinə düşərsə, ancaq həmin işi görməzsə və sonra peşman olarsa, ya da günün başlanğıcından oruc niyyəti etməzsə, ancaq orucu batil edən bir iş də görməzsə və gün ərzində peşman olarsa, vacib ehtiyata əsasən, həmin gün rəcaən (savab ümidi ilə) oruc tutmalıdır, onun qəzasını da, vacib ehtiyata əsasən, tutmalıdır və bütün bu hallarda orucu batil edən işlər görmək ona haramdır, kəffarəsi olan bir iş gördüyü təqdirdə isə kəffarə də vacib olur.

4-9-cu hallarda oruc batildir, ancaq insan günün sonunadək imsak etməli (orucu pozan işlərdən çəkinməli) və onun qəzasını da tutmalıdır. 10-cu halda da oruc batildir, imsak, vacib ehtiyata əsasən, lazımdır və həmin günün qəzasını da tutmalıdır.

[1] Yəni xüsusi olaraq vacib orucu tutmaq niyyəti ilə deyil, ümumiyyətlə Allaha yaxınlaşmaq niyyəti ilə orucu pozan işlərdən çəkinməlidir.

**Məsələ 2050.** Əgər insan sübhün açılıb-açılmadığına şəkk edərsə, araşdırmadan da orucu batil edən bir iş görə bilər. Lakin əgər sonradan sübhün açıldığı məlum olarsa, həmin orucun qəzasını tutmalıdır. Bununla belə, kəffarə tələb olunmur.

**Məsələ 2051.** Əgər ramazan ayında araşdırdıqdan ("fəcr-i sadiq"i müşahidə etmək üçün üfüqə baxdıqdan) sonra bir insan üçün sübhün açılmadığı məlum olarsa və o, orucu batil edən bir iş görərsə, sonra əslində həmin vaxt sübhün açıldığı məlum olarsa, orucu düzgündür və qəzasını tutmaq lazım deyil.

Qeyd etmək lazımdır ki, bu hökm xüsusunda saat, radio və bu qəbildən olan vasitələrin köməyi ilə araşdırma kafi deyil və belə araşdırmaya "fəcr-i sadiq"i müşahidə etmək üçün üfüqə baxmaqla bağlı hökm şamil olunmur.

# ORUCUN KƏFFARƏLƏRİ

Bu fəsildə orucun kəffarələri ilə əlaqədar hökmlər izah ediləcəkdir.

## Orucun kəffarələrinin qisimləri

**Məsələ 2052.** Mübarək ramazan ayının orucu ilə əlaqədar kəffarələri qarşıdakı məsələlərdə izah ediləcək dörd qisimə bölmək olar.

**Birinci qisim kəffarələr: Mübarək ramazan ayında qəsdən oruc açma kəffarəsi**

**Məsələ 2053.** Mübarək ayda qəsdən oruc açma kəffarəsi orucunu qəsdən 2044-cü məsələdə qeyd edilən işlərdən birini görməklə batil edən şəxsə aiddir.

**Məsələ 2054.** Qəsdən ramazan ayının orucu açma kəffarəsində insan ya bir qul azad etməli, ya qarşıdakı məsələlərdə izah ediləcək qaydada iki ay oruc tutmalı, ya da altmış yoxsulu doyurmalı və ya hər birinə bir müdd – 750 qram – təam, yəni buğda, arpa, çörək və bu qəbildən olan ərzaq verməlidir. Bunları etməsi mümkün olmadığı təqdirdə isə istənilən qədər fəqirə bir müdd təam versin, əgər sədəqə vermək imkanı da yoxdursa, istiğfar etməlidir (Allahdan bağışlanma diləməlidir) və vacib ehtiyata əsasən, bu iki halda (sədəqə və istiğfar etdikdə) gələcəkdə nə zaman imkan əldə edərsə, kəffarəni yerinə yetirməli, yaxud yarımçıq yerinə yetirdiyi təqdirdə onu tamamlamalıdır.

**Məsələ 2055.** Ramazan orucunun iki aylıq kəffarəsini tutmaq istəyən şəxs bir ay və bir günü (bir bütöv ay və digər ayın bir gününü) ardıcıl tutmalıdır və əgər qalanını ürfi üzrlə[1] əlaqədar olaraq ardıcıl tutmasa, eybi yoxdur. Lakin əgər ürfi üzür olmazsa, vacib ehtiyata əsasən, iki ayın bütün günləri ardıcıl tutulmalıdır.

**Məsələ 2056.** Ramazan orucunun iki aylıq kəffarəsini tutmaq istəyən şəxs bir ay və bir gün arasında günlərdən birinin Qurban bayramına (həmin gün oruc tutmaq haramdır) təsadüf edəcəyini, yaxud bu günlər tamamlanmadan ramazan ayının (bu ayın öz orucu vacibdir) başlayacağını bildiyi vaxt kəffarə oruclarını tutmağa başlamamalıdır.

**Məsələ 2057.** Ardıcıl oruc tutmalı olan şəxs əgər həmin günlər arasında üzürlü səbəb olmadan bir gün oruc tutmazsa, oruclari yenidən tutmağa başlamalıdır.

**Məsələ 2058.** Əgər insan ardıcıl oruc tutmalı olduğu günlər arasında xəstəlik, heyz, nifas, yaxud getməyə məcbur olduğu bir səfər kimi

[1] İnsanların üzürlü hesab etdiyi bir halla. *Tərc.*

üzürlü bir halla qarşılaşarsa, üzürlü hal aradan qalxdıqdan sonra orucları başdan tutmağa başlaması vacib deyil, üzürlü hal aradan qalxdıqdan sonra dərhal qalan günləri tutmağa başlamalıdır. Lakin əgər üzürlü halı insan özü yaradarsa, məsələn, qadın dərmandan istifadə etməklə özünü haiz edərsə, orucları ikinci dəfə başdan tutmağa başlamalıdır.

**Məsələ 2059.** Bir günün kəffarəsi üçün altmış yoxsula təam verməli olan şəxs əgər altmış yoxsul insan tapa bilərsə, altmış ayrı yoxsula altmış (hərəsinə bir müdd) təam vermək yerinə daha az sayda yoxsula hərəsinə bir (müdd)təamdan artıq olmaqla cəmi altmış təam verə bilməz. Məsələn, otuz nəfərin hərəsinə iki müdd təam verə və bununla kifayətlənə bilməz. Lakin bir yoxsulun ailə üzvlərinin hər biri üçün (hərçənd həddi-büluğa çatmayanlar olsa belə) ona bir müdd təam verə bilər və həmin yoxsul da ailə üzvlərinin vəkili, yaxud qəyyumu (əgər həddi-büluğa çatmamışdırlarsa) kimi bunu qəbul edə bilər. Altmış yoxsul tapa bilmədiyi, məsələn, yalnız otuz yoxsul tapdığı təqdirdə isə hərəsinə iki müdd təam verə bilər. Lakin, vacib ehtiyata əsasən, gələcəkdə nə zaman bu mümkün olarsa, başqa otuz yoxsulun da hərəsinə bir müdd təam verməlidir.

**Məsələ 2060.** İnsan orucunu haram şeylə, yaxud haram işlə batil edərsə, istər şərab, zina və masturbasiya kimi həmin şeyin özü batil olsun, istərsə insan üçün tamamilə zərərli olan halal bir qidanın qəbulu və kişinin heyz halında olan həyat yoldaşı ilə cinsi əlaqədə olması kimi hər hansı bir səbəblə əlaqədar haram olsun, 2054-cü məsələdə izah edilən kəffarələrdən birini yerinə yetirməsi kafidir. Lakin müstəhəb ehtiyat "cəm kəffarəsi"ni icra etməsini, yəni bir qul azad etməsini, iki ay oruc tutmasını və altmış yoxsulu doyurmasını, yaxud onların hər birinə bir müdd (təqribən 750 qram) buğda, arpa, çörək və ya bu qəbildən olan başqa bir ərzaq məhsulu verməsini, bu kəffarələrin üçü də mümkün olmadığı təqdirdə isə mümkün olanlarını yerinə yetirməsini tələb edir.

**Məsələ 2061.** Oruc tutan şəxs bir yalanı uca Allaha və Allahın elçisinə (s) qəsdən isnad edərsə, kəffarə tələb edilmir. Lakin müstəhəb ehtiyata əsasən, kəffarə verməlidir.

**Məsələ 2062.** Oruc tutan şəxs ramazan ayının bir günündə bir neçə dəfə kəffarəyə səbəb olan işlər görərsə, istər onlardan birini bir neçə dəfə təkrarlasın, yəni bir neçə dəfə yesin, içsin, cinsi əlaqədə olsun, yaxud masturbasiya etsin, istərsə də orucu pozan bir neçə müxtəlif işlər görsün, məsələn, qida qəbul etsin, sonra cinsi əlaqədə olsun, yaxud masturbasiya etsin, onların hamısı üçün bir kəffarə kafidir. Həmçinin, əgər insan ramazan ayının vacib orucunu qəsdən tutmazsa, oruc tutmaq niyyəti olmazsa və gün ərzində bir neçə dəfə orucu pozan işlər görərsə (hətta cinsi əlaqə və masturbasiya olsa belə), yenə də bir kəffarənin icrası kafidir.

**Məsələ 2063.** Oruc tutan kişi ramazan ayında oruc tutan həyat yoldaşı ilə cinsi əlaqədə olarsa, qadını buna məcbur etdiyi təqdirdə öz orucunun kəffarəsi ilə yanaşı, vacib ehtiyata əsasən, arvadını məcbur etdiyinə görə başqa bir kəffarə də verməlidir. Ancaq əgər qadın özü razı olarsa, onların hər birinə bir kəffarə vacib olur.

**Məsələ 2064.** Əgər qadın oruc tutan yoldaşını cinsi əlaqədə olmağa məcbur edərsə, onu məcbur etdiyinə görə kəffarə verməsi vacib deyil və bu halda (məcbur edilmə halı) ərinə də kəffarə vacib deyil.

**Məsələ 2065.** Əgər oruc tutan kişi ramazan ayında öz arvadını cinsi əlaqədə olmağa məcbur edərsə və cinsi əlaqə əsnasında qadın buna razı olarsa, onların hər birinə bir kəffarə vacib olur. Ancaq müstəhəb ehtiyata əsasən, kişi iki, qadın isə bir kəffarə verməlidir.

**Məsələ 2066.** Əgər oruc tutan kişi mübarək ramazan ayında oruc tutmuş həyat yoldaşı ilə o yuxuda ikən cinsi əlaqədə olarsa. Ona bir kəffarə vacib olur, qadının orucu isə düzgündür və ona kəffarə vacib deyil.

**Məsələ 2067.** Əgər kişi öz arvadını, yaxud qadın öz ərini cinsi əlaqədən başqa orucu batil edən başqa bir iş görməyə, məsələn, bir şey yeməyə və ya içməyə, yaxud məni ifrazedilməsinə səbəb olan oynaşmaya məcbur edərsə, onlardan heç birinə kəffarə vacib deyil.

**Məsələ 2068.** Səfər, yaxud xəstəlik səbəbi ilə oruc tutmayan kişi oruc tutmuş həyat yoldaşını cinsi əlaqədə olmağa məcbur edə bilməz. Lakin əgər məcbur edərsə, kişiyə kəffarə vacib deyil.

**Məsələ 2069.** Qəsdən orucunu batil edən şəxs əgər zöhr azanından sonra səfərə çıxarsa, yaxud zöhrdən öncə kəffarədən qaçmaq üçün səfər edərsə, kəffarə onun üzərindən götürülmür, hətta əgər zöhr azanından öncə səfərə çıxmalı olsa belə, kəffarə vermək ona vacibdir.

**Məsələ 2070.** Əgər bir şəxs qəsdən orucunu batil edərsə və sonra onun üçün heyz, nifas, yaxud xəstəlik kimi üzrlü bir hal yaranarsa, müstəhəb ehtiyata əsasən, xüsusən, dərman qəbulu kimi vasitələrlə heyz, yaxud xəstə olması üçün zəmin yaratdığı təqdirdə kəffarə verməlidir.

**Məsələ 2071.** Əgər insan məğrib vaxtının çatıb-çatmadığına şəkk edərsə, iftar edə bilməz və mübarək ramazan ayında bu halda iftar etdiyi təqdirdə orucu qəzasını tutmalı olması ilə yanaşı kəffarə ilə əlaqədar hökmlər mövzusunda izah ediləcək qaydada kəffarə vermək də ona vacib olur.

**Məsələ 2072.** Əgər oruc tutan məğrib vaxtının çatdığını söyləyən və sözü şəriətə görə mötəbər olmayan şəxsin bu məlumatı əsasında iftar edərsə və sonra həmin an məğrib vaxtının çatmadığını başa düşərsə, yaxud çatıb-çatmadığına şəkk edərsə, qəza və kəffarə ona vacib olur. Onun sözünün dəlil olduğuna inandığı təqdirdə isə yalnız qəza vacibdir.

**Məsələ 2073.** Əgər insan ramazan ayının ilk günü olduğuna əmin, yaxud arxayın olarsa və ya "bəyyinə" ünvanı ilə iki adil kişi bunu təsdiq edərsə, ancaq o, qəsdən orucunu batil edərsə və sonra həmin günün şaban ayının sonuncu günü olduğu məlum olarsa, kəffarə ona vacib deyil.

**Məsələ 2074.** Əgər insan ramazan ayının sonuncu günü, yoxsa şəvval ayının ilk günü olduğuna şəkk edərsə və qəsdən orucunu pozarsa, sonra şəvval ayının ilk günü olduğu məlum olarsa, kəffarə ona vacib deyil.

***İkinci qisim: İllik fidyə***

**Məsələ 2075.** Əgər insan xəstəlik səbəbi ilə ramazan ayının orucunu tutmazsa və xəstəliyi növbəti ilin ramazan ayınadək davam edərsə, belə ki, bütün il boyu oruc tuta bilməzsə, tutmadığı orucların qəzası ona vacib deyil. Lakin növbəti ilin ramazan ayı çatanadək hər gün üçün yoxsula bir müdd (təqribən 750 qram) təam, yəni buğda, arpa, çörək və bu qəbildən ərzaq məhsulu verməlidir. Buna "illik fidyə" deyilir və növbəti ramazan ayı çatanadək verilməsi düzgün deyil. Əlbəttə məsələn əvvəlki ramazandan 30 gün kəffarəsi olan şəxs Şaban ayının on beşindən başlayaraq on beş günün kəffarəsini ödəyə bilər. Həmçinin öhdəsində on gün kəffarəsi olan şəxs Şaban ayının iyirmi beşindən başlayaraq beş günün kəffarəsini ödəyə bilər.

Qeyd etmək lazımdır ki, bu halda və sonrakı məsələlərdə qeyd ediləcək hallarda yoxsulu doyurmaq kafi sayılmır və bir müdd təamı yoxsula onun malı olacaq şəkildə verməlidir.

**Məsələ 2076.** İnsanın xəstəliyi bir neçə il davam edərsə, sağaldıqdan sonra sonuncu ramazan ayının qəzasını tutmalıdır, ondan əvvəlki illərin xəstəlik səbəbi ilə tuta bilmədiyi oruclarının qəzası isə ona vacib deyil. Lakin əvvəlki illərin (ramazan aylarının) hər günü müqabilində yoxsula bir müdd təam verməlidir. [1]

**Məsələ 2077.** Əgər insan xəstəlikdən başqa bir üzrlü səbəblə əlaqədar olaraq oruc tutmamışdırsa və üzrlü halı növbəti ramazan ayınadək davam edərsə, tutmadığı orucların qəzasını tutmalı və vacib ehtiyata əsasən. hər gün müqabilində yoxsula bir müdd təam verməlidir.

**Məsələ 2078.** Əgər insan xəstəlik səbəbi ilə ramazan ayının orucunu tutmazsa, ramazan ayından sonra sağalarsa, lakin növbəti ramazan ayınadək orucunun qəzasını tutmasına imkan verməyən başqa bir üzrlü hal

[1] Məsələn, xəstəlik səbəbi ilə üç il dalbadal oruc tuta bilməyən və dördüncü ilin ramazan ayı çatmamış, rəcəb ayının başlanğıcında sağalan şəxs birinci və ikinci illərin oruclarının qəzasını tutmaqdan azaddır və həmin iki ilin (ramazan ayının) hər günü müqabilində kəffarə (fidyə) verməlidir. Üçüncü ilə gəlincə, həmin ilin oruclarının qəzasını tutmalıdır və onları dördüncü ilin ramazan ayı çatanadək tutduğu təqdirdə kəffarə vermək ona vacib deyil.

meydana gələrsə, həmin üzrlü hal aradan qalxdıqdan sonra tutmadığı orucların qəzasını tutmalı və vacib ehtiyata əsasən, hər günün müqabilində yoxsula bir müdd təam da verməlidir. Həmçinin, əgər ramazan ayında xəstəlikdən başqa bir üzrü olarsa, ramazan ayından sonra həmin üzrlü hal aradan qalxarsa, ancaq xəstəlik səbəbi ilə növbəti ilin ramazan ayınadək oruc tuta bilməzsə, tutmadığı orucların qəzasını tutmalı və vacib ehtiyata əsasən, hər günün müqabilində yoxsula bir müdd təam da verməlidir.

***Üçüncü qisim: Təxir (gecikdirmə) kəffarəsi***

**Məsələ 2079.** Əgər insan ramazan ayında üzrlü səbəbi olmadığı halda oruc tutmazsa və növbəti ramazan ayınadək qəsdən orucun qəzasını da tutmazsa, həmin orucun qəzasını tutmalı və vacib ehtiyata əsasən, hər günün müqabilində yoxsula bir müdd təam da verməlidir. Qeyd etmək lazımdır ki, sözügedən şəxs ramazan ayının orucunu qəsdən tutmadığına görə 2044-cü məsələdə qeyd edilmiş hallarda qəsdən orucu pozma kəffarəsini də yerinə yetirməlidir.

**Məsələ 2080.** Əgər insan ramazan ayında üzürlü bir səbəblə oruc tutmazsa və ramazan ayından sonra üzürlü halı aradan qalxarsa, ancaq növbəti ramazan ayınadək qəsdən orucun qəzasını tutmazsa, həmin orucun qəzasını tutmalı və hər günün müqabilində yoxsula bir müdd təam da verməlidir.

**Məsələ 2081.** Əgər insan ramazan ayında üzürlü bir səbəblə oruc tutmazsa və ramazan ayından sonra üzürlü halı aradan qalxarsa, ancaq növbəti ramazan ayınadək qəsdən, yaxud səhlənkarlıqdan vaxt daralanadək orucun qəzasını tutmazsa və vaxt daraldıqda yenə onun üçün üzrlü hal yaranarsa, üzrlü hal aradan qalxdıqdan sonra qəza orucunu tutmalı və hər günün müqabilində yoxsula bir müdd təam da verməlidir.

**Məsələ 2082.** Əgər insan ramazan ayında üzrlü bir səbəblə oruc tutmazsa, ramazan ayından sonra üzrlü halı aradan qalxarsa və üzrlü halı aradan qalxdıqdan sonra oruclarının qəzasını tutmaq qərarına gələrsə, ancaq qəza oruclarını tutmamış,vaxta (növbəti ramazan ayına) az qalmış ikən başqa bir üzürlü hal meydana gələrsə, həmin üzürlü hal aradan qalxdıqdan sonra qəza oruclarını tutmalı və vacib ehtiyata əsasən, hətta yeni üzrlü hal meydana gələnədək orucun qəzasını tutmağı təxirə salmaq üçün "ürfi üzr"ü[1] olsa belə, hər günün müqbilində yoxsula bir müdd təam verməlidir.

***Dördüncü qisim: Gündəlik fidyə***

**Məsələ 2083.** Dörd kateqoriyaya aid insanlara bu fəsildə qeyd ediləcək şərhlə oruc tutmaq vacib deyil və bu hallardan bəzilərində

[1] İnsanların nəzərində üzr sayılan səbəb. *Tərc.*

onlar kəffarə (gündəlik fidyə) verməlidirlər. [1] Bununla əlaqədar hökmlər qarşıdakı məsələlərdə qeyd ediləcəkdir.

**Birinci kateqoriya**

**Məsələ 2084.** Qocalıq səbəbi ilə oruc tuta bilməyən, yaxud oruc tutmaqda həddən ziyadə çətinlik çəkən yaşlı kişi və qadınlar ikinci halda (həddən ziyadə çətinlik çəkdikləri təqdirdə) hər gün müqabilində yoxsula bir müdd təam (təqribən 750 qram), yəni buğda, arpa, çörək və ya bu qəbildən olan başqa bir ərzaq məhsulu verməlidir. Buna fidyə deyilir. Bu halda, eləcə də sonrakı məsələlərdə qeyd ediləcək digər hallarda yoxsulu doyurmaq kafi deyil, bir müdd təamı yoxsulun malı olması ünvanı ilə ona vermək lazımdır.

**Məsələ 2085.** Qocalıq səbəbi ilə oruc tutmayan şəxs ramazan ayından sonra oruc tutmağa qadir olduğu təqdirdə müstəhəb ehtiyata əsasən. tutmadığı orucların qəzasını tutmalıdır.

**İkinci kateqoriya**

**Məsələ 2086.** İnsan hər hansı bir xəstəlik (ələş xəstəliyi kimi) səbəbi ilə həddən ziyadə susuzluq hiss edirsə və susuzluğa dözə bilmirsə, yaxud susuzluq onun üçün həddən ziyadə çətinlik törədirsə, oruc ona vacib deyil, ancaq ikinci halda (həddən ziyadə çətinlik çəkdikləri təqdirdə) hər gün müqabilində yoxsula bir müdd təam (təqribən 750 qram), yəni buğda, arpa, çörək və ya bu qəbildən olan başqa bir ərzaq məhsulu verməlidir. Sözügedən insan daha sonra oruc tutmağa qadir olduğu təqdirdə qəza orucu tutması vacib deyil. Qeyd etmək lazımdır ki, bu hökm yalnız ələş xəstəliyinə aid deyil, ona bənzəyən və insanda güclü susuzluq hissi (polidipsiya simptomu) ilə müşayiət olunan istənilən xəstəliyə şamildir. [2]

**Üçüncü kateqoriya**

**Məsələ 2087.** Doğum vaxtı yaxınlaşan və oruc tutması özü, yaxud körpəsi üçün zərərli olan qadının oruc tutması vacib deyil, hətta haram zərər (cana qəsd) hallarında[3]oruc tutmamalıdır və hər gün müqabilində bir yoxsula bir müdd təam verməlidir. Hər iki halda tutmadığı orucların daha sonra qəzasını tutmalıdır və o, hamiləlik səbəbi ilə orucun qəzasını tutmaqdan azad edilmir.

---

[1] Orucun vacib olmasının şərtləri fəslində bu dörd kateqoriya icmal şəkildə qeyd edilmişdir.

[2] O cümlədən, günümüzdə ən çox yayılmış xəstəliklərdən biri olan diabet də bu qəbildəndir. *Tərc.*

[3] Oruc tutmağın zərər səbəbi ilə haram olduğu hallar 2123-cü məsələnin 6-cı hissəsində qeyd edilmişdir.

Qeyd etmək lazımdır ki, bu hökm (müdd təam vermək) doğum vaxtı yaxın olan, məsələn, hamiləliyin doqquzuncu ayına girən qadına aiddir və doğum vaxtı yaxın olmayan hamilə qadına şamil olmur.

**Dördüncü kateqoriya**

**Məsələ 2088.** Əmizdirən və südü az olan qadın, istər uşağın doğma anası, yaxud dayəsi olsun, istərsə təmənnasız süd versin, oruc onun özü, yaxud süd verdiyi körpə üçün zərərli olduğu təqdirdə oruc tutması vacib deyil, hətta haram zərər(cana qəsd) hallarında oruc tutmamalıdır və hər gün müqabilində bir yoxsula bir müdd təam verməlidir. Hər iki halda tutmadığı orucların daha sonra qəzasını tutmalıdır və o, südvermə səbəbi ilə orucun qəzasını tutmaqdan azad edilmir.

Qeyd etmək lazımdır ki, vacib ehtiyata əsasən, bu hökm uşağın əmizdirilməsi üçün başqa bir yol olmadığı hallara aiddir. Ancaq əgər uşağa süd vermək üçün başqa bir yol vardırsa, məsələn, uşağa bir neçə qadının birlikdə süd verməsi, yaxud quru süd kimi qida əvəzedicilərindən istifadə etmək mümkündürsə, vacib ehtiyata əsasən, belə qadının oruc tutmaması caiz deyil.

## Orucun kəffarəsi ilə əlaqədar hökmlər

**Məsələ 2089.** Təxir kəffarəsi, yaxud fidyə ünvanı ilə hər gün müqabilində yoxsula bir müdd təam verməli olan şəxs bir neçə günün kəffarə, yaxud fidyəsini bir yoxsula verə bilər.

**Məsələ 2090.** Əgər insan ramazan ayının orucunun qəzasını bir neçə il təxirə salarsa, qəza orucunu tutmalı və birinci il tutmayaraq gecikdirdiyinə görə hər gün müqabilində yoxsula bir müdd təam verməlidir, lakin sonrakı illərdə gecikdirdiyinə görə ona heç bir şey vacib olmur. [1]

**Məsələ 2091.** İnsan orucun kəffarələrinin icrasında səhlənkarlıq etməməlidir, lakin dərhal icra etməsi də vacib deyil.

**Məsələ 2092.** Kəffarə, yaxud fidyə insana vacib olarsa və insan onu bir neçə il yerinə yetirməzsə, üzərinə heç bir şey əlavə edilmir.

**Məsələ 2093.** Əgər insan müəyyən bir gündə oruc tutmağı nəzir edərsə, həmin gün qəsdən orucunu batil etdiyi təqdirdə kəffarə verməlidir və bu kəffarə "Nəzirlə əlaqədar hökmlər" və "Kəffarələrlə əlaqədar hökmlər" fəsillərində izah ediləcəkdir.

[1] Məsələn, bir gün qəza orucu olan və onu beş il təxirə salan şəxsə bir təxir kəffarəsi (bir müdd təam vermək) vacibdir və beş il gecikdirdiyinə görə beş təxir kəffarəsi verməsinə ehtiyac yoxdur.

## Atanın ramazan orucunun (lazım ehtiyata əsasən, böyük oğula vacib olan) qəzası ilə əlaqədar hökmlər

**Məsələ 2094.** Atanın vəfatından sonra böyük oğul, lazım ehtiyata əsasən, "Atanın qəza namazı" fəslində izah edilən şərtlər əsasında onun ramazan ayında tutmadığı orucunun qəzasını tutmalıdır. O, hər gün müqabilində yoxsula bir müdd (təqribən 750 qram) təam da verə bilər. Bu halda atasının oruclarının qəzasını tutması vacib deyil. Lakin əgər vəfat etmiş şəxs orucları üçün əcir tutulmasını vəsiyyət etmişdirsə, təam vermək kafi deyil və bu halda onun malının üçdə biri hesabına qəza oruclarının tutulması üçün əcir tutulmalıdır. [1]

**Məsələ 2095.** Əgər ata ramazan orucundan başqa nəzir orucu kimi başqa bir vacib orucu da tutmamışdırsa, yaxud əcir olaraq tutmalı olduğu orucu tutmamışdırsa, həmin orucun qəzasını tutmaq böyük oğula vacib deyil.

**Məsələ 2096.** Ananın vəfatından sonra böyük oğul, müstəhəb ehtiyata əsasən, "Atanın qəza namazı" fəslində izah edilən şərtlər əsasında onun ramazan ayında tutmadığı orucunun qəzasını tutmalıdır. Həmçinin, hər gün müqabilində yoxsula bir müdd (təqribən 750 qram) təam verməsi də kafidir. Lakin əgər vəfat etmiş şəxs orucları üçün əcir tutulmasını vəsiyyət etmişdirsə, təam vermək kafi deyil və bu halda ananın malının üçdə biri hesabına qəza oruclarının tutulması üçün bir şəxsi əcir tutmaq lazımdır.

## Müsafirin orucu ilə əlaqədar hökmlər

**Məsələ 2097.** Dördrəkətli namazları səfərdə iki rükət qılmalı olan müsafir nə vacib, nə də müstəhəb oruc tutmamalıdır. Bu hökmdə aşağıdakı hallar istisna təşkil edir:

a) Təməttö həccində vacib olan qurbanlıq ayinini icra etməyə qadir olmayan şəxs. Bu şəxsin qurban kəsmək yerinə on gün oruc tutması vacibdir. Bu on günün ilk üç gününü hərçənd müsafir olsa belə, həmin həcc səfərində, qalan yeddi gününü isə vətəninə qayıtdıqdan sonra tutmalıdır. Bununla bağlı hökmlər "Mənasek-e həcc" (Həcc ayinləri) risaləsində izah edilmişdir.

b) Təməttö həcci ayinlərini icra edərkən Ərəfatda dayandıqda Günün batmasından sonra Ərəfat çölünü tərk edən və Ərəfata qayıtmayan

1 Qeyd etmək lazımdır ki, atanın orucunun qəzasının böyük oğula vacib olmasının bütün hökm və şərtləri eynilə atanın qəza namazında olduğu kimidir. Bu hökmlərlə bağlı daha ətraflı məlumat üçün atanın qəza namazı mövzusuna müraciət edin.

şəxs. Bu şəxs bir dəvə kəffarə verməlidir və əgər bu kəffarəni icra etmək imkanına malik deyilsə, on səkkiz gün oruc tutmalıdır. Bu on səkkiz günü elə səfər halında Məkkədə ikən, yaxud qayıdarkən yolda və ya vətəninə qayıtdıqdan sonra tuta bilər. Bununla bağlı hökmlər "Mənasek-e həcc" (Həcc ayinləri) risaləsində izah edilmişdir.

c) Müəyyən bir günün müstəhəb orucunu səfərdə tutmağı, yaxud səfərdə olub-olmamasından asılı olmayaraq tutmağı nəzir edən şəxs. Bununla əlaqədar hökmlər müstəhəb orucla əlaqədar hökmlər mövzusunda izah ediləcəkdir.

d) Hər hansı bir diləyinin gerçəkləşməsi üçün Mədinə şəhərində üç gün oruc tutmaq istəyən şəxs. Bununla əlaqədar hökmlər müstəhəb orucla əlaqədar hökmlər mövzusunda izah ediləcəkdir.

**Məsələ 2098.** Namazını bütöv qılan müsafir, məsələn, işi səfər etmək olan, yaxud səfəri günah səfər olan şəxs səfərdə oruc tuta bilər, hətta mübarək ramazan ayının orucu kimi vaxtı müəyyən olan vacib orucları səfərdə mütləq tutmalıdır.

**Məsələ 2099.** Ramazan ayında səfərə çıxmaq olar. Lakin orucdan qaçmaq üçün istər ramazan ayının 23-dən öncə, istərsə sonra səfərə çıxmaq məkruhdur. Həmçinin, ümumiyyətlə, həcc, ümrə, yaxud başqa bir zəruri səbəblə əlaqədar olduğu hallar istisna olmaqla, ramazan ayında səfərə çıxmaq məkruhdur.

**Məsələ 2100.** İnsana ramazan ayının orucundan başqa bir oruc vacib olarsa, əcir tutulma, yaxud bu qəbildən olan səbəblə vacib olduğu, yaxud etikaf günlərinin üçüncü günü olduğu təqdirdə həmin gün səfərə çıxa bilməz və əgər səfərdədirsə, mümkün olduğu təqdirdə olduğu yerdə on gün qalmağı qərara almalı və həmin gün oruc tutmalıdır. Nəzir əsasında insana vacib olan müstəhəb orucla bağlı hökm isə müstəhəb orucla əlaqədar hökmlər mövzusunda qeyd ediləcəkdir.

**Məsələ 2101.** Məsələni bilmədiyinə görə səfərdə oruc (vacib, yaxud müstəhəb oruc) tutan və gün ərzində bu məsələni başa düşən şəxsin orucu batildir. Əgər məsələni məğribdən sonra başa düşərsə, tutduğu oruc düzgündür. Bu xüsusda insanın müsafirin oruc tutmasının şəriətə uyğun olmaması məsələsinin əsasını bilməməsi ilə bu məsələnin əsasını bilməsi, lakin müsafir üçün hökmlərin bəzi təfərrüatlarını bilmədiyinə görə səfərdə oruc tutması arasında fərq yoxdur. [1]

**Məsələ 2102.** Səfərdə oruc tutmağın şəri[2] olmadığını bilən şəxs bu məsələ ilə bağlı hökmü öz vəziyyətinə tətbiq etməkdə səhvə yol

---

[1] Müsafir üçün hökmlərin təfərrüatlarını bilməyən şəxs ilə əlaqədar daha ətraflı məlumat üçün 1639-cu məsələdəki (müsafirin namazı ilə əlaqədar məsələləri bilməməklə bağlı) misallara baxmaq lazımdır.

[2] Şəriətə uyğun, şəriətin göstərişi. *Tərc.*

verməsi[1] səbəbi ilə özünü müsafir hesab etməyərək oruc tutarsa və səhvini məğribdən sonra baş düşərsə, orucu düzgündür. Məsələn, getdiyi müəyyən bir yerədək məsafənin səkkiz fərsəxdən az olduğunu düşünərək oruc tutan və məğribdən sonra sözügedən məsafənin səkkiz fərsəx, yaxud daha uzun olduğunu başa düşən şəxsin orucu düzgündür. Ancaq gün ərzində başa düşdüyü təqdirdə orucu batildir.

**Məsələ 2103.** İnsan müsafir olduğunu unudarsa, yaxud oruc tutmağın müsafir üçün batil bir iş olduğunu unudarsa və səfərdə oruc tutarsa, vacib ehtiyata əsasən, hətta məğribdən sonra başa düşdüyü təqdirdə belə orucu batildir.

**Məsələ 2104.** Oruc tutan şəxs zöhr azanından sonra səfərə çıxarsa, vacib ehtiyata əsasən, xüsusən, gecədən səfərə çıxmaq niyyəti olduğu təqdirdə orucunu başa çatdırmalıdır və əgər bu vacib ehtiyatın tələbinə riayət edərək orucunu sonadək tutarsa, qəzasına gərək yoxdur.

**Məsələ 2105.** Oruc tutan şəxs zöhr azanından öncə səfərə çıxarsa, vacib ehtiyata əsasən, xüsusən, gecədən səfərə çıxmaq niyyəti olduğu təqdirdə həmin gün oruc tuta bilməz. Lakin tərəxxüs həddinə çatmadan orucu batil edən bir iş görməməlidir. Əks təqdirdə 2044-cü məsələdə izah edilən qaydada kəffarə verməsi vacib olur.

**Məsələ 2106.** Müsafir ramazan ayında zöhr azanından öncə vətəninə, yaxud on gün qalmaq istədiyi bir yerə çatarsa, orucu pozan bir iş görmədiyi təqdirdə, vacib ehtiyata əsasən, həmin gün oruc tutmalıdır və bu halda orucun qəzası yoxdur. Ancaq əgər orucu pozan bir iş görmüşdürsə, həmin günün orucu ona vacib deyil və daha sonra onun qəzasını tutmalıdır.

**Məsələ 2107.** Müsafir ramazan ayında zöhr azanından sonra vətəninə, yaxud on gün qalmaq istədiyi bir yerə çatarsa, səfər əsnasında orucu pozan işlərdən birini gördüyü təqdirdə orucu batildir və həmin günün qəzasını tutmalıdır, orucu pozan bir iş görmədiyi təqdirdə də həmin günün orucu ona vacib deyil, hətta vacib ehtiyata əsasən, orucu batildir. İstənilən halda sonradan həmin günün orucunun qəzasını tutmalıdır.

**Məsələ 2108.** Səfərin zöhr azanından öncə, yaxud sonra başlamasında meyar tərəxxüs həddini keçmək deyil, şəhərin özündən çıxmaqdır. Buna əsasən, zöhr azanından öncə vətənindən çıxan, ancaq vətəninin tərəxxüs həddini zöhr azanından sonra keçən şəxsə oruc xüsusunda zöhrdən öncə səfərə çıxan müsafirə dair hökm şamil olunur. Həmçinin, vətənə qayıdışda da meyar şəhərin özünə çatmaqdır. Buna əsasən, əgər insan zöhrdən öncə vətəninə yaxınlaşarsa, şəhərin ucqarındakı evlər

[1] Fiqh terminologiyasında bu vəziyyətdə olan şəxsə "mövzu xüsusunda cahil", yəni mövzunu bilməyən şəxs deyilir.

görünərsə, ancaq şəhərinə zöhr azanından sonra daxil olarsa, oruc xüsusunda ona zöhr azanından sonra vətəninə çatan müsafirə dair hökm şamil olunur.

## Müstəhəb orucla əlaqədar xüsusi hökmlər

**Məsələ 2109.** Orucu batil edən bir iş görməyən şəxs günün istənilən vaxtı müstəhəb oruc tutmaq niyyəti edərsə, hərçənd məğribə az qalmış olsa belə, orucu düzgündür. Əlbəttə, əgər insan Günəşin batdığını bilirsə, yaxud buna arxayındırsa və qürubla məğrib arasındakı vaxt ərzində müstəhəb oruc tutmaq niyyəti etmək istəyirsə, vacib ehtiyata əsasən, orucu doğru hesab edilmir.

**Məsələ 2110.** Müstəhəb orucda əgər insan oruc olmamaq qərarına gələrsə, ya oruc olub-olmamaqda tərəddüd edərsə, ya orucu batil edən bir iş görmək qərarına gələrsə, ya da belə bir iş görüb-görməməkdə tərəddüd edərsə, həmin işi görmədiyi və qürubdan (günbatandan) öncə, istər zöhrdən əvvəl, istərsə sonra yenidən oruc niyyəti etdiyi təqdirdə orucu doğrudur.

**Məsələ 2111.** Əgər bir şəxs müstəhəb oruc tutarsa, onu sona çatdırması vacib deyil. Hətta əgər mömin qardaşı onu yeməyə dəvət edərsə, müstəhəbdir ki, onun dəvətini qəbul etsin və gündüz, hərçənd zöhrdən sonra olsa belə, orucunu açsın. Bu müstəhəblik hökmü yalnız müstəhəb oruca aiddir və qəza orucuna şamil edilmir.

**Məsələ 2112.** Müsafir səfərdə müstəhəb oruc tuta bilməz. Yalnız Mədinə şəhərində hacət diləmək üçün üç gün müstəhəb oruc tuta bilər və vacib ehtiyata əsasən, bu üç gün çərşənbə, cümə axşamı və cümə günləri olmalıdır.

**Məsələ 2113.** İnsan bir gün (istər müəyyən bir gün olsun, istərsə hər hansı bir gün) müstəhəb oruc tutmağı nəzir edərsə, onu namazın müxtəsər qılındığı bir səfərdə ikən tuta bilməz. Yalnız oruc nəzirinin müəyyən bir gün üçün edilməsi və insanın nəzir niyyətində orucu məhz səfərdə tutmağı, yaxud müsafir olub-olmamasından asılı olmayaraq məhz həmin gün tutmağı nəzərində tutması istisnadır.

**Məsələ 2114.** İnsan müəyyən bir gündə vətənində, yaxud on gün qalmaq niyyətində olduğu bir yerdə oruc tutmağı nəzir edərsə, yaxud nəziri səfər halında oruc tutmağa şamil deyilsə, həmin gün öz ixtiyarı ilə şəri məsafə hüdudlarından kənara səfər edə və nəzirlə özünə vacib etdiyi müstəhəb orucu tutmaya bilər. Səfərdə olduğu təqdirdə on gün qalmaq qərarına gəlməsinə və oruc tutmasına da gərək yoxdur. Hərçənd, müstəhəb ehtiyata əsasən, məcbur olmadıqca səfər etməməli, səfərdə olduğu təqdirdə isə on gün qalmaq qərarına gəlməlidir.

**Məsələ 2115.** İnsan müəyyən bir gündə müstəhəb oruc tutacağına dair düzgün nəzir etdiyi hallarda həmin gün oruc tutmalıdır. Qəsdən həmin gün oruc tutmadığı təqdirdə günahkardır, daha sonra həmin günün orucunun qəzasını tutmalıdır və bundan əlavə, "Nəzir" fəslində izah ediləcək qaydada nəziri pozma kəffarəsi verməsi də vacibdir. Nəzir edilmiş orucu şəri məsafə hüdudlarından kənara səfər etmək, xəstəlik, heyz, yaxud nifas kimi şəriətdə üzrlü sayılan səbəblərə görə tutmadığı təqdirdə isə daha sonra onun qəzasını tutmalıdır, lakin kəffarə tələb edilmir.

**Məsələ 2116.** İnsan əhd, yaxud andın düzgün olması üçün tələb olunan şərtlərə riayət etməklə müəyyən bir gündə müstəhəb oruc tutacağına dair uca Allaha əhd edərsə, yaxud and içərsə və bununla müstəhəb orucu özünə vacib edərsə, həmin gün oruc tutmalıdır. Qəsdən tutmadığı təqdirdə günahkardır və qarşıda izah ediləcək əhdi, yaxud andı pozma kəffarəsi verməsi vacibdir. Lakin həmin günün orucunun qəzasını tutması vacib deyil.

**Məsələ 2117.** Ramazan ayının qəzasını tutmalı olan şəxs müstəhəb oruc tuta bilməz və əgər bunu unudaraq müstəhəb oruc tutarsa, zöhr azanından öncə xatırladığı təqdirdə müstəhəb orucu pozulur və qəza orucu niyyəti edə bilər, zöhr azanından sonra xatırladığı təqdirdə onun müstəhəb orucu, vacib ehtiyata əsasən, batildir, məğribdən sonra xatırladığı təqdirdə isə müstəhəb orucu düzgündür.

**Məsələ 2118.** Ramazan ayının qəzasından başqa bir qəza orucu (müəyyən bir gündə tutmalı olub tutmadığı nəzir orucunun qəzası kimi) tutmalı olan şəxs müstəhəb oruc tuta bilər.

**Məsələ 2119.** Kəffarə orucu tutmalı olan şəxs müstəhəb oruc tuta bilər. Həmçinin, dünyasını dəyişmiş bir insanın vacib orucunu tutmaq üçün əcir edilmiş şəxs müstəhəb oruc tutarsa, eybi yoxdur. Habelə, özünün qəza, yaxud kəffarə orucu olan şəxs dünyadan köçmüş şəxs üçün ödəniş müqabilində, yaxud ödənişsiz olaraq oruc tuta bilər.

**Məsələ 2120.** Ramazan ayının qəza orucunu tutmalı olan və müstəhəb oruc nəziri etmək istəyən şəxs nəzir orucunun gününü təyin etmədiyi, yaxud onu tutmazdan qabaq qəza orucunu tutmaq üçün kifayət qədər fürsət və imkan olduğu halda nəzir orucunun gününü təyin etdiyi təqdirdə nəziri doğrudur. Lakin hər iki halda nəzir orucunu qəza orucundan öncə tutması düzgün deyil. Ancaq əgər müəyyən bir gündə oruc tutmağı nəzir edərsə və qəza orucunu nəzir orucundan öncə tutmaq üçün fürsət və imkan olmazsa, nəziri batildir.

# ORUCUN NÖVLƏRİ

**Məsələ 2121.** Oruc dörd qisimdir: a) vacib oruc; b) müstəhəb oruc; c) haram oruc; ç) məkruh oruc.

Vacib oruclar bir neçə qisimdir. O cümlədən:

1. Mübarək ramazan ayının orucu;
2. Qəza orucu;
3. Kəffarə orucu;
4. Nəzir, əhd, yaxud and səbəbi ilə vacib olan oruc;
5. Əcir tutulma, yaxud əqd çərçivəsində şərt səbəbi ilə vacib olan oruc;
6. Təməttö həccinin qurbanlığının əvəzinə tutulan oruc (2097-ci məsələdə izah edilmişdir);
7. Etikafın üçüncü gününün orucu.

## Müstəhəb oruclar

**Məsələ 2122.** Qarşıda qeyd ediləcək haram və məkruh günlər istisna olmaqla ilin bütün günlərində oruc tutmaq müstəhəbdir. Bəzi günlərdə oruc tutmaq daha çox tövsiyə edilmişdir. O cümlədən:

1. Hər ayın ilk və son cümə axşamı günü və ayın 10-dan sonrakı ilk çərşənbə günü. Kim bu günlərdə oruc tutmazsa, qəzasını tutması müstəhəbdir. Ümumiyyətlə, oruc tuta bilmədiyi təqdirdə isə müstəhəbdir ki, hər gün müqabilində yoxsula bir müdd (təqribən 750 qram) təam, yəni buğda, arpa, çörək və ya bu qəbildən olan ərzaq payı, yaxud 12,6 noxud sikkəli[1]gümüş (bir dirhəm) versin.
2. Hər ayın 13, 14 və 15-ci günləri.
3. Rəcəb və şaban aylarının bütün günləri, yaxud bir hissəsi və ya heç olmazsa, bir günü.
4. Novruz bayramı günü.
5. **Şəvval ayının 4-9-cu günləri.**
6. Zül-qədə ayının 25 və 29-cu günləri.
7. Məkruh oruc mövzusunda qeyd ediləcək hal istisna olmaqla zül-hiccə ayının 1-9-cu günləri.
8. Mübarək Qədir-Xum bayramı günü (18 zül-hiccə).
9. Mübahilə günü (24 zül-hiccə).
10. **Məhərrəm ayının 1, 3 və 7-ci günləri.**
11. Sevimli Peyğəmbərimizin (s) mübarək mövlud günü (17 rəbiül-əvvəl).
12. Cümadəl-ula (cəmadiyəl-əvvəl) ayının 15-ci günü.
13. Allahın Elçisinin (s) məbəsi (peyğəmbər seçildiyi) günü (27 rəcəb).

---

[1] Bu dövrdə sikkəli gümüş tədavüldə olmadığına görə sikkəli olmasına gərək yoxdur.

## Haram oruclar

**Məsələ 2123.** Haram orucların əksəriyyəti aşağıdakılardan ibarətdir:

1. Fitr və qurban bayramı günlərində oruc tutmaq.
2. İnsanın şaban ayının son günü, yoxsa ramazan ayının ilk günü olduğunu bilmədiyi gündə mübarək ramazan ayının ilk günü niyyəti ilə oruc tutması.
3. Vüsal orucu. Məsələn, insanın sübh azanından ertəsi günün səhərinədək bir sutka oruc niyyəti ilə orucu batil edən işlərdən çəkinməsi, yaxud arada iftar etməməklə iki sutka oruc tutması. Lakin əgər insan iftar etməyi oruc niyyəti olmadan sonrakı gecənin sübhünə, yaxud ikinci gecəyədək təxirə salarsa, eybi yoxdur. Hərçənd, müstəhəb ehtiyata əsasən, oruc niyyəti olmadan da iftar etməyi sübhədək təxirə salmamalıdır.
4. Qadının həyat yoldaşının onunla cinsi ehtiyaclarını ödəmək hüququnu pozduğu təqdirdə müstəhəb oruc tutması, həmçinin, vaxtı təyin edilməyən vacib oruc, o cümlədən vaxtını təyin etmədiyi nəzir orucu. Sonuncu halda (vaxtı təyin edilməmiş vacib oruc tutduqda), vacib ehtiyata əsasən, oruc batildir və nəzirin icrası üçün kafi deyil. Həmçinin, vacib ehtiyata əsasən, əri hərçənd onun hüquqlarını pozan bir vəziyyət olmasa belə, qadına müstəhəb, yaxud vaxtı təyin edilməmiş bir vacib oruc tutmağı qadağan edərsə, qadının orucu haram orucdur. Müstəhəb ehtiyata əsasən, qadın ərinin icazəsi olmadan müstəhəb oruc tutmamalıdır.
5. Övladın müstəhəb orucu valideynlərinin əziyyətə düşməsinə səbəb olar və bu narahatçılıq valideynin övlada qarşı qayğısından qaynaqlanırsa, haramdır. Əgər övlad atasının, yaxud anasının icazəsi olmadan müstəhəb oruc tutarsa və gün ərzində atası, yaxud anası ona oruc tutmağı qadağan edərsə, övladın onlara qarşı çıxması onların narahatlığına səbəb olacaqsa və bu narahatlıq qayğıkeşlikdən qaynaqlanırsa, onlara qarşı çıxmaq haramdır və övlad orucunu açmalıdır.
6. İnsan üçün zərərli olan və zərəri ölüm, yaxud cana qəsd, məsələn, hər hansı bir üzvün itirilməsi ilə nəticələncək qədər ciddi olan oruc.

Qeyd etmək lazımdır ki, daha öncə də qeyd edildiyi kimi əgər insan orucun onun üçün adətən dözülməz olan ciddi bir zərəri olduğuna əmindirsə, yaxud arxayındırsa və ya buna dair məntiqli ehtimalı vardırsa, orucu doğru deyil və əgər bu zərər ölüm, yaxud cana qəsd, məsələn, hər hansı bir üzvün itirilməsi ilə nəticələnə bilərsə, oruc haramdır.

Sadalananlarla yanaşı başqa kitablarda təfsilatı ilə izah edilən bir sıra digər haram oruclar da vardır.

## Məkruh oruclar

**Məsələ 2124.** Məkruh orucların bəziləri bunlardır:

1. İnsanın ərəfə, yoxsa qurban bayramı günü olmasına şəkk etdiyi gün tutulan oruc.
2. Insanın orucla əlaqədar süstlük səbəbi ilə dualarını oxuya bilməyəcəyi təqdirdə ərəfə günü oruc tutması.
3. Aşura günü oruc tutmaq. Lakin yaxşı olar ki, aşura günü insan oruc niyyəti olmadan əsr çağınadək yemək və içməkdən çəkinsin.
4. Qonağın ev sahibinin icazəsi olmadan tutduğu oruc.

## Orucla əlaqədar bir neçə məsələ (müstəhəb və məkruh işlər)

**Məsələ 2125.** Bir qisim insanların ramazan ayında oruc olmasa belə, orucu batil edən bir iş görməkdən çəkinməsi müstəhəbdir:

1) Səfərdə orucu batil edən bir iş görən və zöhr azanından öncə vətəninə, yaxud on gün qalmaq istədiyi bir yerə çatan müsafir.
2) Zöhr azanından sonra vətəninə, yaxud on gün qalmaq istədiyi yerə çatan müsafir.
3) Zöhr azanından sonra sağalan xəstə, həmçinin, zöhr azanından öncə sağalan və orucu batil edən bir iş görən xəstə. Ancaq əgər zöhr azanından öncə sağalarsa və orucu batil edən bir iş görməzsə, vacib ehtiyata əsasən, oruc tutmalıdır.
4) Gün ərzində heyz, yaxud nifasdan paklanan qadın.
5) Müsəlman olan və daha öncə (həmin gün) orucu batil edən bir iş görən kafir.

**Məsələ 2126.** Oruc tutmamaqda üzrlü sayılan müsafir və müsafir olmayan şəxsin ramazan ayında gündüz cinsi əlaqədə olması və doyanadək yeyib-içməsi məkruhdur.

**Məsələ 2127.** Oruc tutanın məğrib namazını iftardan öncə qılması müstəhəbdir. Lakin əgər kimsə onu gözləyirsə, yaxud yeməyə həddən ziyadə meyli varsa və bu halda qəlbin hüzuru ilə namaz qıla bilməyəcəksə, daha yaxşı olar ki, öncə iftar etsin, ancaq mümkün olduqca namazı fəzilət vaxtı ərzində qılsın.

## Ayın başlamasının sabit edilməsi üsulları

**Məsələ 2128.** Qəməri (sinodik) təqvimin hər bir ayının başlaması dörd cür təsbit edilir:

1) ***İnsanın özünün Ayı müşahidə etməsi.*** Müşahidə adi gözlə, yəni hər hansı bir cihazdan istifadə etmədən aparılmalıdır. Buna əsasən,

hilal[1] adi gözlə müşahidə edilə bilmədiyi təqdirdə onun teleskopla görünməsi kafi deyil.

Aydındır ki, hilalın səmadakı yerini tapmaq və müşahidə etmək üçün durbin, teleskop, yaxud bu qəbildən olan digər böyüdücü cihazlardan istifadə etməyin eybi yoxdur. Lakin ayın müşahidəsi elə olmalıdır ki, durbin, yaxud teleskop gözün önündən götürüldükdə hilalı adi gözlə də görmək mümkün olsun. [2]

Əgər səmada bulud, yaxud həddən ziyadə duman kimi bir əngəl

---

[1] Təzə çıxmış ay, aypara. *Tərc.*

[2] Qədim dövrlərdən hilal ərəblər üçün vaxt meyarı olmuşdur. Onunla qəməri (sinodik) təqvimin aylarının başlanğıcını təyin edir və müxtəlif növ işlərində ona əsaslanırdılar. İslam da bu ənənəni dəstəkləmişdir. Qurani-kərim mübarək Bəqərə surəsində (189-cu ayə) bu barədə belə buyurur: ***"Səndən hilallar (yeni doğan aylar) barəsində soruşurlar. De: "Bunlar insanlar və həcc üçün vaxt (təbii təqvim) ölçüləridir".***

Həqiqətən, bir ay insanlar üçün təbii təqvim sayılır. Savadlı, yaxud savadsız olmasından, dünyanın harasında yaşamasından asılı olmayaraq bütün insanlar bu təbii təqvimdən istifadə edə bilərlər. Aydındır ki, insanların ictimai həyatının nizama salınması təqvimsiz (yəni tarixin təyin edilməsi üçün dəqiq və ümumi bir meyar olmadan) mümkünsüzdür. Bu səbəbdən uca Allah həyatın nizama salınması üçün bu ümumbəşəri təqvimi insanların istifadəsinə vermişdir. Əsas etibarilə, İslam qanunlarının məziyyətlərindən biri də bu göstərişlərin təbii ölçülərə uyğun təyin edilməsidir. Çünki təbii ölçülər hər kəsin istifadə edə biləcəyi vasitələrdir və zaman onlara təsir göstərmir (yəni zaman keçdikdə bu ölçülər dəyişmir). Ancaq qeyri-təbii ölçülər isə, əksinə, hər kəs üçün istifadəyə qabil deyil. Bu səbəbdən gödüyümüz kimi İslam bəzən qarışı, bəzən addımı, bəzən barmaqların buğumunu, bəzən qamətin uzunluğunu (boy ölçüsünü), vaxtın təyin edilməsində isə Günəşin batmasını, dan yerinin ağarmasını, Günəşin meridian (latınca "günorta xətti" deməkdir *tərc.* ) üzərindən keçməsini və Ayın (hilalın) görünməsini ölçü kimi təyin etmişdir.

Aydındır ki, insanlar üçün, özü də bütün insanlar üçün ümumi bir vaxt ölçüsü olmağa yarayan hilal (ayədə də qeyd edildiyi kimi) adi gözlə, hər hansı bir cihazdan istifadə etmədən görülən hilaldır. Yalnız durbin və teleskopla müşahidə edilə bilən və bu cihazlar göz önündən götürüldükdən sonra adi gözlə görülməyən hilal isə ümumən insanlar üçün müxtəlif zamanlarda vaxt ölçüsü təyin edilməyə qabil deyil.

Əgər şəri meyar teleskopla müşahidə olsaydı, sevimli Peyğəmbərimizin (s) və məsum İmamların (ə) orucu, fitr bayramı, həcci və şəriətdə ilin müəyyən günlərində görülməsi tapşırılan digər ibadətləri bəzi hallarda gerçək vaxtlarında icra edilməmiş ola bilərdi. Ancaq bəllidir ki, onlar qəməri ayın başlanğıcı xüsusunda hilalın adi gözlə müşahidəsini əsas götürürdülər və məsumlardan (ə) nəql edilən hədislərdə bu xüsusda durbin və teleskop kimi böyüdücü cihazlarla müşahidədən (bununla kifayətlənməkdən) imtina etmək tapşırılır.

Necə ki, bir əşyanın üzərindəki olduqca kiçik qan damcısı adi gözlə müşahidə edilə bilmədiyi və yalnız çox güclü mikroskoplarla müşahidə edilə bildiyi təqdirdə onu əşyanın nəcasətli sayılması üçün meyar hesab etmək və həmin əşyanın nəcasətli olduğuna hökm etmək olmaz. Yaxud müsafirin namazının müxtəsər olmasının doqquzuncu şərtini izah edərkən qeyd etdiyimiz kimi tərəxxüs həddi məsələsində meyar adi gözlə görməkdir və şəhərin tərəxxüsünü təyin edərkən durbinlə müşahidəni əsla meyar götürmək olmaz.

Hörmətli oxucular aliməqam fəqihin hilalın müşahidəsi ilə bağlı fiqhi görüşləri ilə daha ətraflı tanış olmaq üçün "Əsilətun haulə ruyətil-hilali məə əcvibətiha, vifqə ma əfadəhu simahət əs-seyyid əs-Sistani" (Hilalın müşahidəsi ilə bağlı suallar, seyid Sistani cənablarının cavabları ilə) adlı kitaba müraciət edə bilərlər.

vardırsa, belə ki, səmada həmin əngəl olmazsa, şübhəsiz, Ay adi gözlə görülə bilərsə, ayın başladığı sabit olur.

2) *Sözləri yəqinlik, yaxud arxayınlıq hasil edən bir dəstə insanın həmin şəhərdə, yaxud onunla eyni üfüqə malik olan şəhərlərdə Ayı (hilalı) müşahidə etdiklərini söyləməsi, həmçinin, insanda yəqinlik hasil edən istənilən şey və eləcə də arxayınlıq hasil edən istənilən üsul.*

3) *İki adil kişinin gecə Ayı gördüklərini söyləməsi.* Lakin əgər Ayın xüsusiyyətlərini bir-birindən fərqli şəkildə izah edərlərsə, ayın başladığı sabit olmur. Həmçinin, əgər insan onların yanıldığına əmin, yaxud arxayın olarsa və ya onların şahidliyinə zidd olan və zidd hökmündə sayılan başqa bir məlumat olarsa, məsələn, şəhərin əhalisinin böyük bir qismi Ayı müşahidə etməyə çalışarsa ("istihlal" edərsə), ancaq iki adil şəxsdən başqa kimsə Ayı gördüyünü iddia etməzsə, yaxud bir dəstə insan Ayı müşahidə etməyə çalışarsa (istihlal edərsə) və onların arasından iki adil şəxs Ayı gördüyünü iddia edərsə, digərləri isə görməzsə, ancaq görməyənlər arasında hilalın yerini bilməkdə və itigözlükdə hilalı görən iki adil insan qədər mahir olan başqa iki adil şəxs olarsa, səma aydın olarsa və onların Ayı görməsinə əngəl ola biləcəyi ehtimal edilən bir maneə olmazsa, bu cür hallarda ayın başlaması iki adil şəxsin şahidliyi ilə sabit olmur.

4) *Hər bir ayın başlanğıcından otuz günün keçməsi.* Bu halda sonrakı ayın başlaması sabit olur. Məsələn, şaban ayının başlamasından otuz gün keçdikdə ramazan ayının başladığı sabit olur, yaxud ramazan ayının başlamasından otuz gün keçdikdə şəvval ayının başladığı sabit olur.

Qeyd etmək lazımdır ki, ayın ilk günü olması məlum olmayan bir gündə ayın başlayıb-başlamadığını araşdırmağa gərək yoxdur və insan üçün qeyd edilən üsullardan biri ilə ayın başlaması sabit olmadığı təqdirdə (araşdırıb-araşdırmamasından asılı olmayaraq) şübhəli günü cari aydan hesab etməlidir.

Buna əsasən, məsələn, şaban ayının otuzuncu, yoxsa ramazan ayının birinci günü olduğunu bilməyən şəxs soruşub araşdırmadan həmin günü şaban ayından hesab edə və oruc tutmaya bilər. Həmçinin, əgər ertəsi günün ramazan ayının otuzuncu, yoxsa şəvval ayının ilk günü (fitr bayramı) olduğunu bilmirsə, soruşub araşdırmaya bilər və bu halda həmin gün oruc tutmalıdır. Hər iki halda sonradan həmin günün ayın ilk günü olduğu məlum olarsa, sözügedən şəxs heç bir günah işlətməmişdir.

**Məsələ 2129.** Ayın başlaması şəriət hakiminin hökmü ilə sabit olmur. Yalnız şəriət hakiminin hökmü, yaxud ayın başlamasının onun nəzərində sabit olması insanda olduğu şəhərdə, yaxud onunla eyniüfüqlü

şəhərlərdə Ayın adi gözlə göründüyünə dair arxayınlıq, yaxud yəqinlik hasil edərsə, bu hal istisna təşkil edir.

**Məsələ 2130.** Ayın başlaması astronomların proqnozları ilə sabit olmur. Yalnız onların məlumatı insanda olduğu şəhərdə, yaxud onunla eyniüfüqlü şəhərlərdə Ayın adi gözlə göründüyünə dair arxayınlıq, yaxud yəqinlik hasil edərsə, bu hal istisna təşkil edir. [1]

**Məsələ 2131.** Ayın yüksəkdə olması, yaxud gec gözdən itməsi öncəki gecənin ayın ilk gecəsi olduğuna dəlil deyil. Həmçinin, Ayın ətrafında halə müşahidə edilirsə, bu o demək deyil ki, həmin gecə ayın ikinci gecəsidir.

**Məsələ 2132.** Bir şəhərdə ayın başlaması təsbit edilərsə, onunla eyniüfüqlü olan digər şəhərlərdə də ayın başladığı sabit olur və burada eyniüfüqlülük deyərkən bir şəhərdə Ay görünərsə, bulud, yaxud duman, sis olmadığı təqdirdə onun digər şəhərdə də görünməsi nəzərdə tutulur.[2]

---

[1] Buna əsasən, sözləri insanda arxayınlıq yaradan astronomlar, etibarlı mütəxəssislər müəyyən bir tarixdə (hətta bir neçə ay, yaxud il öncə olsa belə) ayın xüsusiyyətlərinə dair məlumat verərlərsə və verilən xüsusiyyətlər insanda ayın onun olduğu məntəqədə adi gözlə görüləbiləcəyinə dair arxayınlıq hasil edərsə, bu arxayınlıq ayın başlamasını onun üçün sabit edir.

[2] Beləliklə, bu məna nəzərə alındıqda aydın olur ki, iki məntəqənin eyniüfüqlü olub-olmaması sabit (dəyişilməz) bir məsələ deyil, əksinə bir ay eyniüfüqlü olan iki məntəqə başqa bir ay eyniüfüqlü olmaya bilər. Bu məsələnin daha ətraflı izahı aşağıdakı kimidir:

Ayın ilk gecəsi hilalı görmək üçün bir sıra şeylər əhəmiyyət kəsb edir. O cümlədən: Günəşin və Ayın batması, onların batması arasındakı zaman fərqi, həmçinin, Günəş və Ayın (müşahidə) xüsusiyyətləri, Günəşlə Ay arasında onların yüksəklik dərəcələri arasındakı fərqdən və eləcə də onların cəhətləri arasındakı fərqdən yaranan bucaq fərqi (Dancon şkalası ilə *tərc.* ), habelə hilalın parlaqlıq faizi, Ay fazası və s.

Bəzən qəməri aylardan birində yuxarıda sadalanan xüsusiyyətlər bir şəhərin üfüqündə Ayın daha parlaq və daha uzun müddət müşahidə edilməsinə səbəb ola bilər ki, bu da öz növbəsində digər bir şəhərdə bulud, yaxud başqa bir əngəl olmadığı təqdirdə Ayın mütləq müşahidə edilməsinə dair arxayınlıq yaradır. Başqa sözlə, bu halda Ayın birinci şəhərdə bu qaydada müşahidə edilməsi ilə ikinci şəhərdə müşahidə edilməsi arasında bağlılıq əlaqəsi mövcuddur.

Başqa bir qəməri ayda isə həmin birinci şəhərdə Ay müşahidə edilə bilir, ancaq Ayın müşahidə müddəti və onunla Günəş arasındakı bucaq fərqi az olduğundan ikinci şəhərdə bulud, yaxud başqa bir əngəl olmadığı təqdirdə Ayın mütləq müşahidə edilməsinə əmin olmaq mümkün deyil. Başqa sözlə, bu halda Ayın birinci şəhərdə müşahidə edilməsi ilə ikinci şəhərdə müşahidə edilməsi arasında bağlılıq əlaqəsi mövcud deyil.

Ümumiyyətlə, belə bir nəticəyə gəlmək olar:

Əgər Ayın müşahidə edildiyi şəhər (I şəhər) II şəhərin (məsələn, Ayın görünməsi üçün hər hansı bir əngəlin mövcud olduğu başqa bir şəhərin) şərqində yerləşirsə, onların arasında coğrafi enlik baxımından 1-2 dərəcədən artıq fərq olmadığı təqdirdə, adətən, I şəhərdə Ayın müşahidə edilməsi II şəhərdə də ayın başladığını sabit edir. Buna əsasən, Məşhəd şəhərində Ayın müşahidəsi, adətən, Nişabur, Səbzivar, Şahrud, Damğan, Tehran, Qəzvin, Səqqez, Sərdəştdə də ayın başladığını sabit edir.

**Məsələ 2133.** Ötən illərdə şəvval ayının hilalının sabit edilməsi məsələsində yəqinlik hasil edərək oruc tutmayan, indi isə hilalın müşahidəsi məsələsində bəzi fikir ayrılıqlarının fərqinə varan və keçmiş yəqinlikləri (əmin olduğu hallar) xüsusunda şəkkə düşən, tərəddüd edən və oruc tutmadığı həmin günlərin bayram günləri olmadığını ehtimal edən şəxsin həmin günlərin qəzasını tutmasına gərək yoxdur. Lakin əgər bir şəxs keçmişdə hasil etdiyi yəqinliyin yanlış olduğuna əmin olarsa, həmin günlərin qəzasını tutmalıdır, ancaq kəffarə ödəməyə gərək yoxdur.

**Məsələ 2134.** Əgər ramazan ayının başlaması bir şəxs üçün sabit olmazsa və o oruc tutmazsa, daha sonra öncəki gecənin ayın başlanğıcı olması sabit olduğu təqdirdə həmin günün orucunun qəzasını tutmalıdır.

**Məsələ 2135.** İnsan ramazan ayının sonuncu günü, yoxsa şəvval ayının ilk günü olduğunu bilmədiyi gün oruc tutmalıdır. Lakin əgər gün ərzində şəvval ayının ilk günü olduğunu başa düşərsə, orucunu açmalıdır. Həmçinin, fitr bayramının elan edildiyini və vəzifəsinin oruc tutmamaq olduğunu düşünərək orucunu pozan, məsələn, gün ərzində qida qəbul edən, yaxud su içən, daha sonra fitr bayramı olmadığını, ramazan ayının sonuncu günü olduğunu başa düşən şəxs bir gün qəza orucu tutmalıdır, lakin kəffarə ona vacib olmur və bunu gün ərzində orucu pozan bir iş gördükdən sonra başa düşdüyü təqdirdə, vacib ehtiyata əsasən, məğribədək yemək, içmək və orucu pozan digər işlərdən çəkinməlidir.

## Orucun vaxtı ilə bağlı bir neçə yeni məsələ

**Birinci məsələ.** Oruc tutan şəxs məğribdən sonra öz şəhərində iftar etmədən təyyarə ilə qərbə doğru səfər edərsə və Günəşin hələ batmadığı bir yerə çatarsa, orada məğribədək imsak etməsi (orucu pozan işlərdən çəkinməsi) vacib deyil. Hərçənd, müstəhəb ehtiyat imsak etməyi tələb edir.

**İkinci məsələ.** Bir şəxs ramazan ayında zöhr azanından sonra öz şəhərindən səfər edərək hələ zöhr azanının vaxtının çatmadığı başqa bir şəhərə çatarsa, vacib ehtiyata əsasən, həmin günün orucunu sonadək tutmalıdır və bu halda qəza orucu ona vacib deyil.

---

Digər hallarda isə başqa bir şəhərdə də ayın başlamasının sabit olması I şəhərdə müşahidə edilən Ayın bu izahda qeyd edilən xüsusiyyətlərindən asılıdır.
Məsələn, bəzi hallarda Ayın müşahidə xüsusiyyətləri elə ola bilər ki, Pakistan, yaxud Hindistan və ya hətta İraq və Səudiyyə Ərəbistanının bir sıra şəhərlərində Ayın müşahidəsi Məşhəd şəhərində ayın başlamasını sabit edə bilər, bir çox hallarda isə Ayın hətta Tehran, yaxud İsfahan və ya Şahrud kimi yaxın şəhərlərdə müşahidə edilməsi belə Məşhəddə ayın başladığını sabit etməyə bilər. İstənilən halda dindar mütəxəssislərdən məlumat almaq olar.
Deyilənlərdən belə aydın olur ki, ölkə və şəhər hüdudlarının və inzibati bölgülərin iki yaşayış məntəqəsinin üfüqlərinin eyni olub-olmamasına heç bir vəchlə dəxli yoxdur.

**Üçüncü məsələ.** Əgər "kəsirüs-səfər" (çox səfər edən şəxs) kimi vəzifəsi səfərdə oruc tutmaq olan bir şəxs öz şəhərində sübh azanının vaxtı çatdıqdan sonra oruc tutmaq niyyəti ilə hava yolu ilə səfər edərək sübh azanının vaxtının hələ çatmadığı bir yerə çatarsa, orada sübh azanının vaxtı çatanadək yemək və içmək kimi orucu pozan işləri görə bilər.

**Dördüncü məsələ.** Əgər "kəsirüs-səfər" (çox səfər edən şəxs) kimi vəzifəsi səfərdə oruc tutmaq olan bir şəxs mübarək ramazan ayının hilalının müşahidə edildiyi öz şəhərindən üfüq fərqliliyi ilə əlaqədar olaraq hilalın hələ müşahidə edilmədiyi başqa bir şəhərə səfər edərsə, həmin günü orucu ona vacib deyil. Əgər şəvval ayının hilalının müşahidə edildiyi bir şəhərdə bayram etdikdən sonra üfüq fərqliliyi ilə əlaqədar olaraq hilalın hələ müşahidə edilmədiyi başqa bir şəhərə səfər edərsə, vacib ehtiyata əsasən, həmin günün qalan vaxtı ərzində imsak etməli və həmin günün orucunun qəzasını da ehtiyatən tutmalıdır.

**Beşinci məsələ.** Əgər müsafir misal olaraq gündüz və gecənin hər birinin altı ay davam etdiyi bir yerdə yaşayırsa, oruc xüsusunda vacibdir ki, ya mübarək ramazan ayında oruc tuta biləcəyi başqa bir şəhərə getsin, ya da mübarək ramazan ayından sonra orucların qəzasını tuta biləcəyi başqa bir şəhərə getsin. Əgər bu ikisindən heç birini edə bilmirsə, oruc yerinə fidyə verməlidir və fidyə deyərkən bir müdd (təqribən 750 qram) təamı, məsələn, çörəyi (oruc tutmadığı hər gün müqabilində) yoxsulun mülkiyyətinə verməlidir. [1]

[1] Yəni bu fidyə kəffarəsində yoxsulun qarnını doyurmaq kafi sayılmır, bir müdd təamı ona yoxsulun öz malına çevrilməsi surəti ilə verməlidir. *Tərc.*

# ETİKAF

**Məsələ 2136.** Şəriətə görə etikaf insanın Allaha yaxınlaşma niyyəti ilə məsciddə qalması, müvəqqəti yerləşməsidir və müstəhəb ehtiyata əsasən, müvəqqəti yerləşmə namaz və dua kimi ibadətlərin icrası məqsədi ilə olmalıdır. Etikaf müstəhəb ibadətlərdəndir, ancaq nəzir, əhd, and və s. əsasında vacib olur.

**Məsələ 2137.** Etikafın özünəməxsus bir vaxtı yoxdur, il ərzində oruc tutmağın düzgün olduğu istənilən vaxt etikaf də düzgündür. Etikafın ən yaxşı vaxtı ramazan ayı, xüsusən, ramazan ayının son ongünlüyüdür.

**Məsələ 2138.** Etikafın minimum müddəti üç gün iki gecədir və bundan azı doğru sayılmır. Lakin üç gündən artıq ola bilər. Hətta bu artıq müddət bircə gün, ya bir gecə, yaxud bir günün və ya gecənin bir hissəsi də ola bilər. Etikafın maksimum müddəti yoxdur. Əgər insan beş bütöv gün ərzində mötəkif[1] olarsa, altıncı gün də mötəkif olmalıdır. Hətta, vacib ehtiyata əsasən, insan hər dəfə etikafa iki gün əlavə etdikdə növbəti gün də mötəkif olmalıdır. Buna əsasən, əgər səkkiz gün mötəkif olarsa, vacib ehtiyata əsasən, doqquzuncu gün də mötəkif olmalıdır. Həmçinin, on ikinci[2], on beşinci[3]və s. günlər də bu qəbildəndir.

**Məsələ 2139.** Etikafın minimum müddəti olan üç gün birinci günün sübh azanından başlamalı və vacib ehtiyata əsasən, üçüncü günün məğrib azanınadək davam etməlidir. [4] Etikafın gerçəkləşməsi üçün üç calaq gün kafi deyil, yəni insan birinci günün sübh azanından sonra etikafa başlayaraq hərçənd dördüncü gün həmin gündən əskik olan vaxt qədər etikafda qalsa belə, məsələn, birinci günün zöhr azanından dördüncü günün zöhr azanınadək məsciddə qalsa belə, mötəkif olmur.

### Etikafın doğru olmasının şərtləri

**Məsələ 2140.** Etikafın doğru olması üçün qarşıdakı məsələlərdə yığcam şəkildə qeyd ediləcək bir sıra şərtlərə riayət etmək lazımdır.

***1-4-cü şərtlər: Mötəkif müsəlman və aqil insan olmalı, etikafı Allaha yaxınlaşma niyyəti ilə və minimum üç gün müddətində icra etməlidir***

---

[1] Etikaf edən şəxs. *Tərc.*

[2] On bir gün mötəkif olduqda. *Tərc.*

[3] On dörd gün mötəkif olduqda. *Tərc.*

[4] Əlbəttə, insan birinci gecə (birinci günün sübh azanından öncə) və dördüncü gecə (üçüncü günün məğrib azanından sonra) da etikaf niyyətində ola bilər. Ancaq bu müddət üç günün bir hissəsi hesab edilmir.

**Məsələ 2141.** Etikaf edən şəxs (mötəkif) müsəlman və aqil olmalı, etikafın əvvəlindən sonunadək dəstəmazın niyyəti mövzusunda qeyd edildiyi kimi Allaha yaxınlaşma niyyətində olmalı, ixlasını qorumalı və 2138-ci məsələdə qeyd edildiyi kimi minimum üç gün mötəkif olmalıdır.

*5-ci şərt: Mötəkif oruc olmalıdır*

**Məsələ 2142.** Etikaf edən şəxs etikaf günlərində oruc olmalıdır. Buna əsasən, oruc tuta bilməyən şəxsin, xəstənin, haiz və nəfsa qadının etikafı düzgün deyil. Etikaf günlərində orucun etikafa məxsus olması vacib deyil, hansı oruc olursa-olsun (hətta ücrət əsasında tutulan oruc, müstəhəb, yaxud qəza orucu olsa belə), kafidir.

Qeyd etmək lazımdır ki, mötəkif oruc olduğu müddət ərzində orucu batil edən istənilən işi görməsi etikafın da batil olmasına səbəb olur.

*6 və 7-ci şərtlər: Etikaf dördlüyə daxil olan məscidlərdə, yaxud came məscidində olmalı və yalnız bir məsciddə icra edilməlidir*

**Məsələ 2143.** Etikaf Məscid əl-haram, Məscid ən-Nəbi, Kufə məscidi, yaxud Bəsrə məscidində, həmçinin, hər bir şəhərin came məscidində icra edilməlidir. Came məscidi deyərkən müəyyən bir məhəllə, yaxud məntəqə və ya müəyən qrup insanlara məxsus olmayan, şəhərin müxtəlif məntəqə və məhəllələrindən olan insanların toplaşdığı, gedib-gəldiyi bir yer olan məscid nəzərdə tutulur.

Digər məscidlərdə (sadalanan məscidlər istisna olmaqla) etikafın şəriətə uyğunluğu sabit edilməmişdir, ancaq rəcaən – savab ümidi ilə – icra edilməsinin eybi yoxdur. Ancaq məscid olmayan bir yerdə, məsələn, hüseyniyyədə etikaf etmək şəriətə uyğun bir əməl deyil, buna əsasən, rəca niyyəti ilə də edilməməlidir.

**Məsələ 2144.** Etikaf bir məsciddə icra edilməlidir. Buna əsasən, bir etikafı ayrı, yaxud bitişik olmalarından asılı olmayaraq iki məsciddə icra etmək olmaz. Məscidlərin ürfən bir məscid hesab ediləcək şəkildə bitişik olması istisnadır.

*8-ci şərt: Etikaf icazəsi şəriət baxımından mötəbər sayılan şəxsin icazəsi ilə icra edilməlidir*

**Məsələ 2145.** Etikaf icazəsi şəriət baxımından mötəbər sayılan şəxsin icazəsi ilə icra edilməlidir. Buna əsasən, insanın başqa bir şəxsin icazə, yaxud razılığı olmadan məsciddə qalması haram olan hallarda etikaf da batildir. Məsələn, əgər etikaf valideynlərin narahatlığına səbəb olarsa və bu narahatlıq onların qayğıkeşliyindən irəli gəlirsə, yaxud evli qadın ərinin icazəsi olmadan evdən çıxaraq mötəkif olarsa, belə bir etikaf batildir.

***9-cu şərt: Mötəkif etikaf məkanında qalmalı, çıxmaq şərən caiz olduğu hallar istisna olmaqla oradan çıxmamalıdır***

**Məsələ 2146.** Mötəkif etikaf müdətində məsciddə qalmalı, zəruri işlər istisna olmaqla məsciddən çıxmamalıdır və əgər sonrakı məsələdə qeyd ediləcək zəruri işlər üçün çıxarsa, məscid xaricində bir yerdə həmin işin görülməsi üçün lazım olan vaxtdan artıq qalmamalıdır.

**Məsələ 2147.** Aşğıdakı hallarda etikaf yerini tərk etmək caiz, bəzilərində isə vacibdir:

1) ayaqyoluna getmək kimi zərurətlər;

2) cənabət qüslü;[1]

3) istihazə qüslü;[2]

4) məsciddə edilməsi əngəlli[3], yaxud mümkünsüz olduğu təqdirdə[4] vacib əda[5] namazı üçün dəstəmaz almaq, yaxud cənabət qüslündən başqa bir vacib qüslü etmək;

5-8) cənazəni dəfn yerinədək müşayiət etmək, cənazənin dəfnə hazırlanması, xəstə ziyarəti, cümə namazı;[6]

9) ürfi zərurət (insanların nəzərində zəruri) sayılan istənilən iş üçün.[7]

Sadalanan hallar istisna olmaqla, məsciddən çıxmaq müstəhəb qüsl, yaxud dəstəmaz kimi icra edilməsi edilməməsindən daha yaxşı olan bir iş üçün olarsa, ehtiyat məqamıdır (yəni ehtiyata əsasən, çıxmaq olmaz).

**Məsələ 2148.** Əgər mötəkif zəruri bir iş (öncəki məsələdə sadalanan işlərdən biri) üçün məsciddən çıxarsa, lakin etikafın icra tərzi pozulacaq qədər məsciddən kənarda qalarsa, hərçənd məsciddən çıxması icbar, zərurət və ya unutqanlıq səbəbi ilə olsa belə, etikafı batildir.

**Məsələ 2149.** Əgər mötəkif qəsdən, öz ixtiyarı ilə caiz hallar istisna olmaqla digər səbəblərdən etikaf yerini tərk edərsə, hərçənd şəriətin

---

[1] Edilmədiyi təqdirdə cənabətli insan (mötəkif) məsciddə qalacaq, məsciddə edildiyi təqdirdə isə məscid nəcasətlənəcəkdir.

[2] Əlbəttə, əgər müstəhazə vacib qüslünü etməzsə, etikafı batil olmur.

[3] Vacib qəza namazının vaxtı geniş olduğu təqdirdə onun qılınması üçün dəstəmaz almaq məqsədilə çıxmaq ehtiyat məqamıdır (yəni ehtiyata əsasən, çıxmaq olmaz).

[4] Məsələn, məscidin nəcasətlənməsinə səbəb olacağı təqdirdə.

[5] Əgər məsciddə qüsl etmək üçün bir əngəl yoxdursa və bu mümkündürsə, vacib ehtiyata əsasən, mötəkif məsciddən çıxmamalıdır.

[6] Müqəddəs Məkkə şəhərində mötəkif olan şəxs camaat namazı, yaxud fərdi namaz qılmaq üçün də məsciddən çıxa və Məkkə şəhərinin istənilən yerində namaz qıla bilər.

[7] Buna əsasən, dini və dünyəvi ali təhsil müəssəsisələrinin, yaxud orta məktəblərin imtahanlarında iştirak etmək ürfi zərurət olduğu təqdirdə mötəkif bunun üçün məsciddən çıxmağın digər şərtlərinə riayət etməklə etikaf yerini tərk edə bilər. Lakin məsciddən kənarda qaldığı müddət etikafın icra tərzinin pozulacağı qədər uzun çəkməməlidir. Məsələn, etikaf günlərindən birində imtahan üçün iki saatlıq məsciddən çıxarsa, etikafa xələl gəlmir.

bununla bağlı hökmünü bilməməsi, yaxud unutqanlıq səbəbi ilə olsa belə, etikafı batil olur. Ancaq əgər məcbur edildiyinə görə çıxarsa, 2148-ci məsələdə qeyd edilən hal istisna olmaqla etikafı batil olmur.

**Məsələ 2150.** Əgər məsciddən çıxmaq mötəkif üçün vacib olarsa, ancaq çıxmazsa, günahkar sayılır, lakin etikafı batil olmur. [1]

**Məsələ 2151.** Məsciddən çıxmağın caiz olduğu hallarda mötəkif ehtiyac həddindən artıq məsciddən kənarda qalmamalı və məsciddən çöldə mümkün olduğu təqdirdə gündüz vaxtı kölgənin altında oturmamalıdır. Lakin əgər həmin işin yerinə yetirilməsi mötəkifin kölgə altında oturmasından başqa bir yolla mümkün deyilsə, etikafa xələl gəlmir, ancaq, vacib ehtiyata əsasən, həmin işin icrasından, ehtiyacın təmin edilməsindən sonra başqa bir zərurətin qarşıya çıxması istisna olmaqla, kölgədə oturmamalıdır. Mötəkif məsciddən çıxmağın caiz olduğu hallarda kölgədə yeriyə bilər. Hərçənd, müstəhəb ehtiyat bundan çəkinməyi tələb edir.

**Məsələ 2152.** Caiz olan hallarda məsciddən çıxdıqda, vacib ehtiyata əsasən, ən qısa gediş və qayıdış yolu seçilməlidir. Lakin əgər daha uzun olan yoldan istifadə etmək məsciddən kənarda daha az qalmaqla nəticələnəksə, bu halda istisna olaraq həmin yoldan istifadə etmək lazımdır.

**Məsələ 2153.** Vaxtı müəyyən olan vacib etikaf istisna olmaqla digər etikaflarda insan əvvəldən etikaf niyyəti edərkən qarşıya bir problem çıxacağı təqdirdə etikafı dayandıracağını şərt kimi təyin edə bilər. Buna əsasən, o, bu şərti qoymaqla bir problem və əngəl qarşıya çıxdıqda etikafı (hətta üçüncü günü olsa belə) yarımçıq qoya bilər və bunun üçün ehtiyata da lüzum yoxdur. Ancaq əgər mötəkif hər hansı bir səbəb olmadan da etikafı dayandıra bilməsini şərt kimi təyin edərsə, vacib ehtiyata əsasən, belə bir şərt doğru sayılmır. Qeyd etmək lazımdır ki, bu şərtin (etikafı müdəti başa çatmadan dayandırmaq şərtinin) etikafın başlamasından sonra, yaxud öncə təyin edilməsi doğru deyil, bu şərt mütləq etikaf niyyəti əsnasında təyin edilməlidir.

***10-cu şərt: M ötəkifə haram olan işlərdən çəkinməlidir***

**Məsələ 2154.** Mötəkif etikafının doğru olması üçün aşağıdakı işləri görməkdən çəkinməlidir:

1) xoş ətir iyləmək;
2) həyat yoldaşı ilə cinsi əlaqə;
3) istimna, şəhvətlə toxunuş və öpmə (vacib ehtiyata əsasən);
4) mübahisə (münaqişə) etmək;
5) alqı-satqı.

---

[1] Əlbəttə, əgər mötəkif cünub olarsa və qəsdən etikaf yerində qalaraq cənabət qüslünü etmək üçün etikaf yeri olan məsciddən çıxmazsa, etikafı batil olur.

Qeyd etmək lazımdır ki, sadalanan işlərin görülməsi etikafı batil etməklə yanaşı etikaf vaxtı müəyyən olan vacib etikaf olduğu təqdirdə, fətvaya əsasən, həm də haramdır. Etikaf vaxtı bəlli olan vacib etikaf olmadığı təqdirdə isə cinsi əlaqə xüsusunda yenə də fətvaya, digər hallarda isə vacib ehtiyata əsasən caiz deyil.

**Məsələ 2155.** Mötəkif üçün ətirləri iyləmək (istər onları iyləməkdən həzz alsın, istərsə almasın) caiz deyil. Xoş ətirli bitkiləri iyləmək isə onları iyləməkdən həzz aldığı təqdirdə caiz deyil, həzz almadığı təqdirdə isə etikafa xələl gətirmir. Həmçinin, mötəkif ətirli yuyucu vasitələrdən, o cümlədən maye və bərk halda olan ətirli sabun, şampun və diş pastasından istifadə edə bilər. Mötəkif olmayanların adətən ətirləndiyi məscidlərdə onların ətrini iyləmək caiz deyil, lakin ətir qoxusunun hiss edilməsi zahirən etikafa əngəl deyil və mötəkifin burnunu tutmasına ehtiyac yoxdur.

**Məsələ 2156.** Etikaf halında dünyəvi, yaxud dini məsələlər ətrafında mübahisə (münaqişə) qarşı tərəfə qalib gəlmək və öz üstünlüyünü göstərmək məqsədi ilə edildiyi təqdirdə haramdır. Ancaq əgər haqqın izharı, həqiqətin aydın olması və qarşı tərəfin xətasının qarşısını almaq məqsədi ilə olarsa, nəinki haram deyil, hətta ən yaxşı ibadətlərdəndir. Beləliklə, meyar mötəkifin məqsəd və niyyətidir.

**Məsələ 2157.** Etikaf halında alqı-satqı və vacib ehtiyata əsasən, istənilən növ müamilə, məsələn, icarə, müzaribə, muavizə və s. hərçənd həyata keçirilən müamilə düzgün olsa belə, haramdır. Əlbəttə, əgər mötəkif etikaf müddətinin qida və digər ehtiyaclarını təmin etmək üçün alqı-satqı etməyə məcbur olarsa və onları təmin etmək üçün başqa bir yolu olmazsa,[1] alqı-satqı etikafa xələl gətirmir.

**Məsələ 2158.** Əgər mötəkif etikafda haram olan işləri qəsdən və şəriətin hökmündən xəbərdar olduğu halda görərsə, yaxud əlaqədar hökmü bilmədiyinə görə törədərsə, ancaq məlumatsızlığı üzrlü sayılmazsa, yəni "müqəssir cahil" olarsa, etikafı batil olur. Lakin əgər həmin işi səhvən, yaxud unutqanlıqdan görərsə, ya da əlaqədar hökmü bilmədiyinə görə törədərsə və bu məlumatsızlığında "qasir (üzrlü) cahil" olarsa, etikafı düzgündür.

## Etikafın qəzası ilə əlaqədar hökmlər

**Məsələ 2159.** Mötəkif şəxs etikafını əvvəlki məsələlərdə qeyd edilmiş etikafı batil edən işlərdən biri ilə pozarsa, vaxtı müəyyən olan

[1] Yəni, onun yerinə bu alqı-satqını həyata keçirəcək mötəkif olmayan başqa bir şəxs də tapa bilməzsə və həmin şeylərin tədarük edilməsi satın almaqdan başqa bir yolla, məsələn, hədiyyə, yaxud borc almaq yolu ilə də mümkün olmazsa.

vacib etikaf olduğu təqdirdə, vacib ehtiyata əsasən, etikafın qəzasını icra etməlidir. Bu, vaxtı müəyyən olmayan bir vacib etikafda, məsələn, müəyyən vaxt təyin etmədən nəzir etdiyi etikafda baş verərsə, həmin etikafı yenidən başlaması vacibdir. Əgər müstəhəb etikafda olarsa,etikafı ikinci gün başa çatdıqdan sonra batil etdiyi təqdirdə, vacib ehtiyata əsasən, etikafın qəzasını yerinə yetirməli, ikinci günün başa çatmasından öncə batil etdiyi təqdirdə isə öhdəsinə hər hansı bir iş düşmür və etikafın qəzası da yoxdur.

Qeyd etmək lazımdır ki, 2153-cü məsələdə izah edildiyi kimi etikafı şərtli olarsa, etikafı batil edən iş görməklə onun nə qəzasına, nə də icrasına yenidən başlamağa gərək yoxdur.

**Məsələ 2160.** Mötəkif olan qadın etikafın ikinci günü başa çatdıqdan sonra haiz olarsa, dərhal məscidi tərk etməsi vacibdir. Etikafın qəzasını icra etməsi isə, vacib ehtiyata əsasən, lazımdır. Yalnız etikafının 2153-cü məsələdə izah edilən qaydada şərtli olduğu hallar istisnadır.

**Məsələ 2161.** Vacib etikafın qəzası dərhal icra edilməli olan vacib bir iş deyil. Lakin onun qəzasını vacib bir işin icrasında səhlənkarlıq hesab ediləcək qədər təxirə salmamaq və müstəhəb ehtiyata əsasən, dərhal icra etmək lazımdır.

## Etikafı batil etməyin kəffarəsi

**Məsələ 2162.** Mötəkif vacib etikafı istər gecə, istərsə gündüz qəsdən cinsi əlaqə ilə batil edərsə, kəffarə vacib olur. Digər batil edən işlərdə isə kəffarə yoxdur. Hərçənd müstəhəb ehtiyat o işlər üçün kəffarə verməsini tələb edir.

Etikafı batil etməyin kəffarəsi eynilə mübarək ramazan ayının orucunu qəsdən batil etməyin kəffarəsi kimidir.

# HƏCC

## Həccin vacib olmasının şərtləri

**Məsələ 2163.** Bir sıra şərtlərə cavab verən şəxsə ömründə bir dəfə uca Allahın evinin həcc ziyarəti vacibdir. Buna "həccət əl-islam" deyilir. Həmin şərtlər aşağıdakılardan ibarətdir:

**Birinci şərt:***Həddi-büluğ*. Həddi-büluğa çatmayan insana (hərçənd həddi-büluğa çatmasına az qalsa belə) həcc vacib deyil. Həddi-büluğa çatmamış müməyyiz (yaxşı ilə pisi ayırd edə bilən) uşaq həcc ayinini icra edərsə, həcci doğrudur, lakin "həccət əl-islam"ın yerini tutmur.

İkinci şərt:*Aqillik (əqli sağlamlıq).* [1]

Üçüncü şərt: *Azadlıq, kölə olmamaq.*

**Dördüncü şərt:***Müstəti (qadir) olmaq.* Qadir olmaq bir neçə vəziyyətlə bağlıdır:

1. Maddi imkan;
2. Fiziki sağlamlıq imkanı;
3. Yolun açıq və təhlükəsiz olması;
4. Vaxtın geniş olması;
5. Həcc səfəri ərzində ailənin zəruri yaşayış xərclərini təmin etmək imkanı;
6. Həcdən qayıtdıqdan sonra yaşayış xərclərini təmin etmək imkanı;
7. Borclu olmamaq.

Bu hallar qarşıdakı məsələlərdə təfsilatı ilə izah ediləcəkdir.

**Məsələ 2164.** Qadir olmayan şəxs[2] özü üçün həcc ayinini icra etdiyi təqdirdə həmin həcc "həccət əl-islam"ı əvəz etmir. Beləliklə, əgər daha sonra qadir olarsa, həcc ayinini yerinə yetirməlidir. Həmçinin, əgər qadir olmayan şəxs başqasının naibi kimi ödənişsiz, yaxud ücrət müqabilində həcc ayinini icra edərsə, həmin həcc naibi olduğu şəxs üçün kafidir, ancaq özü üçün "həccət əl-islam"ın yerini almır.

---

[1] Əgər insanın dəliliyi (psixoz) xroniki olarsa, bəzi hallarda ona həcc ayininin şəxsən icrası, bəzi hallarda isə naib tutmaq vacib olur. Bu məsələnin təfsilatı daha müfəssəl kitablarda öz əksini tapmışdır.

[2] Burada və eləcə də qarşıdakı məsələlərdə "qadir olan (olmayan) şəxs" deyərkən öncəki məsələdə sadalanan yeddi qisim imkana sahib olan (olmayan) insan nəzərdə tutulur. *Tərc.*

## İstitaətin (qadirliyin) gerçəkləşməsinin şərtləri

*Birinci şərt: Maddi imkan*

**Məsələ 2165.** Həccin vacib olmasında maddi imkan şərtdir. Yəni insanın həcc səfəri üçün azuqəsi və nəqliyyat vasitəsi (ona ehtiyac olduğu halda), yaxud onları əldə etmək, tədarük etmək üçün lazım olan maddi vəsaiti olmalıdır. Daha aydın desək, həcc səfəri üçün lazım olan vətəninədək[1] gediş-gəliş xərcləri, qida, geyim, qalmaq üçün yerin kirayəsi və həcc səfərinin digər zərurətləri üçün maddi vəsaitə, həmçinin, nəqliyyat vasitəsinə (ona ehtiyac olduğu halda) sahib olmalıdır.

**Məsələ 2166.** Maddi imkanı olmayan və qadir sayılmayan şəxsin maddi imkan sahibi olmaq üçün[2] işləyərək qazanc əldə etməsi vacib deyil.

**Məsələ 2167.** İnsanın hər hansı bir malı vardırsa və həcc xərcləri üçün kifayət edib-etmədiyini bilmirsə, ehtiyata əsasən, bunu araşdıraraq öyrənməlidir.

**Məsələ 2168.** Yaşayış üçün zəruri olan malların, həmçinin, zəruri olmayan, ancaq insanın ehtiyac duyduğu və kəmiyyət və keyfiyyəti baxımından onun sosial vəziyyətinə uyğun olan (sosial vəziyyətinə görə artıq olmayan) malların da həcc üçün satılmasına gərək yoxdur. Buna əsasən, insanın yaşadığı ev, maşın, ev əşyaları (mebel), təhsil üçün gərəkli olan kitablar, əmək alətləri, bəzək üçün istifadə etdiyi geyimlər ehtiyac həddi və sosial vəziyyətinə görə artıq olmazsa, onların satılması lazım deyil. Ehtiyac və sosial vəziyyətinə görə artıq olduğu təqdirdə isə əgər artıq olan hissəsi həcc xərcləri üçün kifayət edirsə, yaxud başqa bir malı (pulu) da vardırsa və onu da üzərinə gəldikdə kifayət edirsə, insan həcc ayinini icra etməyə qadir hesab edilir. Həmçinin, misal olaraq, bir maşın, yaxud mənzili olan, onu sosial vəziyyətinə xələl gəlmədən daha ucuz bir maşın, yaxud mənzillə əvəz edə və artıq qalan vəsaitlə (yalnız onunla, yaxud üzərinə başqa bir vəsait də əlavə etməklə) həccə gedə bilən şəxs qadir hesab edilir. [3]

**Məsələ 2169.** Əgər bir şəxsin həcc xərclərini minimum səviyyədə ödəməyə yetəcək qədər pulu vardırsa, ancaq digər tərəfdən evlənmək, ya da özü, yaxud başqası üçün ev və ya başqa bir şey almaq ehtiyacı

[1] Yaxud həcdən sonra məskunlaşmaq niyyətində olduğu başqa bir yerədək. Lakin əgər məskunlaşmaq istədiyi yerə gediş xərci vətəninə dönüş xərcindən artıqdırsa, həmin yerdə məskunlaşmaq məcburiyyətində olmadığı təqdirdə vətəninədək qayıdış xərcinə sahib olması “qadir olma” şərtinin gerçəkləşməsi üçün kifayətdir.

[2] Həccin şərtlərindən biri olan qadirlik şərtinə cavab vermək üçün.

[3] Həmçinin, insanın əvvəllər bir mala ehtiyacı olduğu halda indi ona ehtiyac duymaması, məsələn, bir xanımın qocalıq, yaxud başqa bir səbəblə artıq zinət əşyalarına ehtiyacının olmaması da bu qəbildəndir.

vardırsa, həmin pulun həcc üçün sərf edilməsi onun həyatında həddən ziyadə bir çətinliklə üzləşməsinə səbəb olacaqsa, həcc ona vacib deyil, qeyri-adi bir çətinliyə səbəb olmadığı təqdirdə isə həcc ayinini icra etməyə qadir hesab edilir və həcc ona vacibdir. Buna əsasən, məsələn, əgər insan şəxsi evi olmadıqca qeyri-adi çətinliklərlə üzləşəcəksə, o zaman həcc ayinini icra etməyə qadir hesab edilir ki, ev almaq üçün puldan əlavə həccə getmək üçün də pulu olsun.

**Məsələ 2170.** Əgər insanın öncəki məsələlər nəzərə alındıqda həccə getmək üçün satması vacib olan hər hansı bir daşınar, yaxud daşınmaz əmlakı vardırsa, normal bazar qiymətinə alacaq bir alıcı olmadığı təqdirdə onun qiymətindən ucuz satılması insana həddən ziyadə zərər vurmadığı halda sataraq həccə getməlidir, həddən ziyadə zərər vurduğu halda isə satılması vacib deyil.

**Məsələ 2171.** Həcc xərcləri üçün kifayət edəcək miqdarda malı olan və özünün və ailəsinin xərcləri də başqa bir şəriətə uyğun yolla çətinliksiz təmin edilən (məsələn, minimum yaşayış xərclərini ödəyəcək qədər gəliri olan bir iş sahibi olan, yaxud ehtiyacları başqa bir şəxs tərəfindən təmin edilən, ya da şəri vergilərdən pay almaq hüququna malik olduğu təqdirdə bundan yararlanan) şəxs, həmçinin, sahib olduğu malı həcc üçün sərf edəcəyi təqdirdə həcdən sonrakı yaşayışı ondan öncəki yaşayışından fərqlənməyəcək şəxs həccə getməyə qadir hesab edilir və həcc ona vacibdir.

**Məsələ 2172.** Həccin vacib olmasında mötəbər (şərt) sayılan maddi imkan insanın öz şəhər, yaxud vətənindən deyil, olduğu yerdən həccə gedib-gəlmək imkanıdır. Buna əsasən, əgər mükəlləf öz şəhərindən həccə getməyə qadir deyilsə və ticarət, yaxud başqa bir iş üçün digər bir şəhərə, məsələn, Ciddəyə gedər və orada müəyyən gəlir əldə edərək onunla oradan Məkkəyə getmək və həcc ayinini icra etmək imkanı əldə edərsə, həmçinin, qadirliyin digər şərtlərinə də cavab verirsə, həccə getməyə qadir sayılır və həccə getməlidir. Bu halda həccə gedərsə, hərçənd sonradan mal-dövlət əldə edərək öz vətənindən Məkkəyə getmək imkanına sahib olsa belə, artıq həcc ona vacib deyil.

***İkinci şərt: Fiziki sağlamlıq***

**Məsələ 2173.** Həccin vacib olmasının bir şərti olan fiziki sağlamlıq o deməkdir ki, insanın səhhəti və gücü ürfən (insanların nəzərində) dözülməz sayılan həddən ziyadə əziyyət çəkmədən Məkkəyə gedərək həcc ayinini icra etməyə imkan verməlidir.

Maddi imkanı olan, lakin fiziki sağlamlıq imkanları məhdud olan və ömrünün sonunadək sağalacağına ümidi olmayan şəxs izah ediləcək şərtlərlə naib tutmalıdır.

*Üçüncü şərt: Yolun açıq və təhlükəsiz olması*

**Məsələ 2174.** Yol bağlı olarsa, yaxud insan yolda həyatını və ya malını itirəcəyindən, yaxud şərəf və ləyaqətinə xələl gələcəyindən qorxarsa, həcc ona vacib deyil. Lakin hərçənd daha uzun olsa, belə başqa bir yolla gedə bilərsə, həmin yolla getməlidir. Yalnız həmin yol "həcc yolu bağlıdır" deyiləcək qədər uzaq olduğu və adətən o yolla həccə gedilmədiyi təqdirdə həcc ona vacib deyil.

**Məsələ 2175.** Ehtimal olunan zərər və xoşagəlməz hadisələrdən qorunduğu təqdirdə həccin qadına vacib olmasında məhrəminin də onun yanında olması şərt sayılmır. Təhlükəsizlikdə olmadığı təqdirdə isə yanında özünü təhlükəsiz hiss etdiyi bir şəxs onunla birgə getməlidir. Hətta bu iş üçün ödəniş müqabilində bir nəfəri əcir tutmaq lazım gələrsə, əcir tutmalıdır. Əlbəttə, bu, əcir tutduğu insanın ücrətini ödəmək imkanı olduğu hala aiddir, əks təqdirdə isə həcc ona vacib olmayacaqdır.

*Dördüncü şərt: Vaxtın geniş olması*

**Məsələ 2176.** Həccin vacib olmasının bir şərti vaxtın geniş olması insanın Məkkəyə səfər edərək həcc ayinini icra etməyə yetəcək qədər vaxtının olması deməkdir. Buna əsasən, bir şəxs həcc ayininin icrası üçün kafi sayılan qədər maddi imkan əldə edərsə, ancaq səfərə hazırlıq tədbirlərinin sıxıntısız şəkildə görülməsi, məsələn, passport, viza və təyyarə bileti almaq üçün kifayət qədər vaxt olmazsa, bu halda insan həcc ayinini icra etməyə qadir (hazır) hesab edilmir və həmin il həccə getmək ona vacib deyil. Lakin əgər növbəti il, yaxud daha sonrakı illərdə qadirliyin digər şərtlərinə də cavab verəcəyinə və həccə gedə biləcəyinə əmindirsə, yaxud arxayındırsa, maddi imkanını[1]növbəti il, yaxud daha sonrakı illərdə həcc ayinini icra etmək üçün qoruyub saxlaması vacibdir. Buan əmin, yaxud arxayın olmadığı təqdirdə isə maddi imkanını növbəti il üçün qorumasına ehtiyac yoxdur.

*Beşinci şərt: Həcc səfəri ərzində ailənin zəruri yaşayış xərclərini təmin etmək imkanı*

**Məsələ 2177.** Həccə getmək insanın zəruri yaşayış ehtiyaclarını təmin etməsi vacib olan şəxslərin (o cümlədən, arvad və uşaqlarının), həmçinin, xərclərini təmin etməsi vacib olmayan, ancaq təmin etməməsi onun üçün ciddi çətinlik törədəcək şəxslərin xərclərini təmin edə bilməməsinə səbəb olacaqsa, bu halda həccə getməyə qadir hesab edilmir və həcc ona vacib deyil.

---

[1] Həcc üçün kifayət edən maddi vəsaiti. *Tərc.*

*Altıncı şərt: Həcdən qayıtdıqdan sonra yaşayış xərclərini təmin etmək imkanı*

**Məsələ 2178.** Mükəlləf vəziyyəti etibarı ilə həccə getməsi, yaxud pulunu, gəlirini bu yolda sərf etməsi səbəbi ilə özünün və ailəsinin yoxsullaşacağından qorxursa, məsələn, gəlir mövsümü həcc günlərinə təsadüf edirsə və həccə gedəcəyi təqdirdə başqa bir gəliri olmayacaqsa, yaxud gəliri ilin qalan günləri, yaxud bəzi günlərində yaşayış xərclərini ödəməyə yetməyəcək qədər az olacaqsa, həcc ona vacib deyil.

Həmçinin, əgər bir şəxsin həcc xərcləri üçün kifayət edəcək bir malı vardırsa, ancaq həmin mal onun özünün və ailəsinin dolanışığını təmin etmək üçün qazanc vasitəsidirsə və güzəranını sosial vəziyyətinə uyğun səviyyədə təmin etmək üçün başqa bir yolu da yoxdursa, bu halda həccə getməyə qadir (hazır) hesab edilmir və həcc ona vacib deyil.

**Məsələ 2179.** Məkkəyə gedə bilən qadının qayıtdıqdan sonra malı (pulu) olmayacaqsa, əri də, məsələn, yoxsuldursa və onun zəruri yaşayış xərclərini ödəyə bilmirsə və həccə getmək onun yaşayışında ciddi sıxıntı və məşəqqətlə üzləşməsinə səbəb olacaqsa, həccə getməyə qadir hesab edilmir və həcc ona vacib deyil.

*Yeddinci şərt: Borclu olmamaq*

**Məsələ 2180.** İnsan həcc xərcləri üçün kifayət edəcək bir mal (pul) əldə edərsə, ancaq başqa şəxslərə borcu vardırsa, yaxud xüms və ya zəkat verməlidirsə və borc miqdarını (məbləğini) çıxdıqda yerdə qalanı həcc xərcləri üçün kifayət etmirsə, bu halda həcc ona vacib olmayacaqdır. Bu hökm xüsusunda borcun ödəniş vaxtının çatıb-çatmaması arasında heç bir fərq yoxdur. Yalnız borcun ödənilməli olduğu vaxta aqil insanlar tərəfindən, ümumiyyətlə,belə bir borcun olması nəzərə alınmayacaq qədər uzun müddət, məsələn, əlli il qalırsa, bu hal istisnadır. [1] Həmçinin, malı (pulu) əldə etdikdən sonra borc almaqda təqsiri olmadığı halda sözügedən şəxsin əvvəl borc alması, sonra həmin malı əldə etməsi ilə əvvəl həmin malı əldə etməsi, sonra borc alması arasında heç bir fərq yoxdur.

**Məsələ 2181.** Həcc üçün maddi imkana sahib olmayan bir şəxs həcc xərcləri üçün kifayət edəcək bir malı (pulu) borc alarsa, hərçənd gələcəkdə onu ödəmək imkanı olacağını bilsə belə, həcc ona vacib deyil. Yalnız borcun ödənilməli olduğu vaxta aqil insanlar tərəfindən, ümumiyyətlə, belə bir borcun olması nəzərə alınmayacaq qədər uzun müddət qalırsa, bu halda sözügedən şəxs həccə getməyə qadir hesab edilir və həcc ona vacibdir.

**Məsələ 2182.** Maddi imkanı, məsələn, ehtiyacdan artıq sərmayəsi, əmlakı, torpaq sahələri və bu qəbildən olan satıla bilən və qiyməti

[1] Yəni bu halda sözügedən insana həcc vacibdir. *Tərc.*

(satışından əldə ediləcək pul) həcc xərcləri üçün kifayət edən başqa bir mülkiyyəti olan və nəticə etibarilə həccə getməyə qadir hesab edilən şəxs onları satmayaraq həcc xərcləri üçün borc alarsa və borc aldığı pulla həccə getmək istəyərsə, həcci doğrudur.

**Məsələ 2183.** Əvvəllər həccə getməsi vacib olan, indi isə xüms, yaxud zəkat verməsi də vacib olan şəxs ilk növbədə xüms, yaxud zəkatı verməlidir və onları verməyi həcc səfəri səbəbi ilə təxirə salması caiz deyil. Əlbəttə, əgər hər ikisinin (həm həcc, həm də xüms, yaxud zəkat) yerinə yetirilməsi üçün kifayət edəcək bir mal (gəlir) əldə edərsə, şəriət hakiminə, yaxud onun nümayəndəsinə müraciət edərək ondan şəri verginin ödənilməsini təxirə salmaq üçün izin istəyə bilər. Şəriət hakimi, yaxud onun nümayəndəsi sözügedən şəxsin vəziyyətini araşdırır və həcc səfərindən qayıtdıqdan sonra şəri vergini mümkün olan ilk fürsətdə ödəməklə bağlı ciddi niyyəti olduğu halda ona xüms, yaxud zəkatın ödənilməsini təxirə salaraq daha sonra ödəməyə icazə verirsə, bu halda sözügedən şəxs şəri verginin ödənilməsindən öncə həccə getməlidir.

## Alacaqlılıq və imkan

**Məsələ 2184.** İnsan şərən alacaqlı olarsa və həcc xərclərini bütünlüklə, yaxud qismən təmin etmək üçün həmin borca ehtiyacı olarsa, borcun alınmasının vaxtı çatdığı və borc şəriətə uyğun qaydada və ciddi sıxıntı olmadan alına, yaxud təqas edilə[1] bildiyi (hərçənd dövlət orqanlarına müraciət etmək yolu ilə olsa belə), yaxud vaxtı çatmadığı, ancaq borc alan özü könüllü surətdə onu ödəməyə hazır olduğu təqdirdə alacaqlı şəxs həccə getməyə qadir sayılır və həcc ona vacibdir.

**Məsələ 2185.** Əgər borcun alınma vaxtı çatmışdırsa, ancaq onun alınması şərən qeyri-mümkündürsə, yaxud ciddi sıxıntı doğuracaqsa, məsələn, borc alan şəxs borcu ödəməyə qadir deyilsə, yaxud qadirdirsə, ancaq ödəmirsə və onu ciddi sıxıntı ilə üzləşmədən borcunu ödəməyə məcbur etmək mümkün deyilsə, alacaq miqdarının daha az miqdara satılması (alacaqlıya həddən ziyadə zərər dəymədən) mümkün olduğu və alacağın satışından əldə edilən məbləğ həcc xərclərinin təmin olunması üçün kifayət etdiyi təqdirdə, alacaqlı şəxs həccə getməyə qadir sayılır və həcc ona vacibdir. [2]

---

[1] Təqasın şəriətə uyğun və caiz olduğu hallarda.
*Təqas – İnsanın ondan borc alan və qaytarmaqdan imtina edən şəxsin malını (pulunu) həmin şəxsin razılığı olmadan alacağı müqabilində mənimsəməsi.* Tərc.

[2] Qeyd etmək lazımdır ki, əgər borcun alınma vaxtı çatmamışdırsa, borc alan da onu qərarlaşdırılmış vaxt çatmadan ödəmirsə və borcun ödəniş vaxtınadək təxirə salınması borc alanın mənfəətinədirsə (əksər hallarda olduğu kimi), bu hökm (mümkün olduğu təqdirdə alacağın satılması) şamil olunur.

**Məsələ 2186.** Həcc bir şəxsə vacib olarsa, ancaq o səhlənkarlıq edərək həcc ayinini onu icra etmək imkanını itirənədək təxirə salarsa, həcc ayinini istənilən şəkildə, hətta çətinliklə də olsa,icra etməsi vacibdir. Əgər həccə getmədən vəfat edərsə, onun mirası hesabına həccin qəzası icra edilməlidir və kimsə vəfatından sonra ödənişsiz olaraq onun naibi kimi həccə gedərsə, bu düzgündür və kifayətdir.

**Məsələ 2187**. İnsan minimum həcc xərcləri üçün kifayət edəcək bir mal (pul) əldə edər və həccə getmək imkanı qazanarsa, habelə, həccə getməyə qadirliyin digər şərtlərinə də cavab verərsə, qadir hesab edilir və həcc ona vacibdir. Beləliklə, əgər həmin malı (pulu) məsrəf edərək həccə getmək üçün tələb olunan maddi imkanı itirərsə və onu yenidən əldə edə bilməzsə:

a) Həcc günlərində həccə getmək imkanı olduğunu, yəni həmin malı məsrəf etməsəydi, həccə gedə biləcəyini başa düşdüyü təqdirdə həcc onun üçün vacib olaraq qalır.

b) Həmin mal əlində olduğu halda həccə getmək imkanının olub-olmadığı məlum deyilsə, bu halda həcc artıq ona vacib deyil.

İstənilən halda, həmin malı məsrəf etməsi, məsələn, onu real dəyərindən ucuz qiymətə satması, yaxud qarşılığında bir şey almadan kiməsə bağışlaması düzgündür. Hərçənd "a" bəndində qeyd edilən halda vacib həcc ayininin icrası həmin mala bağlı olduğu və başqa şəkildə həccə gedə bilmədiyi təqdirdə həccə getmək imkanını itirdiyinə görə günahkar sayılır.

**Məsələ 2188.** Əgər insanın həcc xərclərinə yetəcək qədər malı olarsa, ancaq bundan xəbəri olmazsa, yaxud belə bir malı olması xüsusunda diqqətsiz olarsa, ya da sözügedən malın varlığından xəbəri olarsa və diqqətsiz olmazsa, ancaq belə bir malı olduğuna görə həccin ona vacib olduğunu bilməzsə, yaxud həccin vacibliyi hökmü xüsusunda diqqətsiz və məlumatsız olarsa və mal tələf olduqdan, maddi imkanını itirdikdən sonra fərqinə vararsa, bütün bu hallarda sözügedən məlumatsızlıq və diqqətsizlikdə müqəssir olmayıb üzrlü sayıldığı təqdirdə həcc ona vacib olmur, müqəssir olduğu və həmin mala sahib ikən həccin vacibliyinin digər şərtlərinə də cavab verdiyi təqdirdə isə həcc ona vacib olur.

Bəzli istitaət (başqasının maddi dəstəyi hesabına həccə getmək imkanı)

**Məsələ 2189.** Həccə getməyə qadir olma xərclər üçün vəsaitə sahib olmaqla gerçəkləşdiyi kimi onların məbləğinin başqa bir şəxs tərəfindən bağışlanılması ilə də gerçəkləşir. Buna "bəzli istitaət" deyilir.

Buna əsasən, əgər bir şəxs müəyyən bir malı (pulu)[1]insana onunla

[1] Həcc ayininin icrası, gediş (və eləcə də ehtiyac olduğu təqdirdə qayıdış) xərcləri üçün kifayət edəcək bir maldan (puldan) söhbət gedir. Həmçinin, əgər həccə gedən şəxs ailəsinin zəruri yaşayış xərclərini təmin etməyə qadir deyilsə, sözgedən mal (pul) səfər əsnasında onun ailəsinin xərcləri üçün də kifayət edəcək miqdarda (məbləğdə) olmalıdır.

həccə getməsi üçün bağışlayarsa, yaxud ona:"Sənin həcc səfərinin xərcini və həcc zamanı ərzində ailənin zəruri yaşayış xərclərini mən təmin edirəm", - deyərsə, ya da müəyyən bir malı (pulu) onun sərəncamına verərək ona: "Həccə get", - deyərsə və insan onun vədinə əməl edəcəyinə, yaxud həmin malı (pulu) ondan geri almayacağına arxayın olarsa, həccə getməyə qadir hesab edilir və həcc ona vacibdir.

**Məsələ 2190.** Bir şəxsin həcc səfəri xərclərini və Məkkəyə gedib qayıtdığı müddət ərzində ailəsinin xərclərini təmin edib: "Həccə get", - deyərlərsə, ancaq həmin vəsaiti onun mülkiyyətinə keçirməzlərsə (yalnız ondan istifadəsinə icazə verərlərsə), həmin vəsaiti ondan geri almayacaqlarına arxayın olduğu təqdirdə həcc ona vacib olur.

**Məsələ 2191.** Bir şəxs mükəlləfə yalnız həcc səfəri xərcini bağışlayarsa və mükəlləfin qayıdış xərclərini ödəmək imkanı olmazsa, həcc ona vacib deyil. Əlbəttə, 2165-ci məsələdə öz əksini tapan izah vətənə qayıdış və s. ilə bağlı izah bu vəziyyətə də şamildir.

Həmçinin, həmin şəxs həcc səfərindən qayıdanadək mükəlləfin ailəsinin xərclərini təmin etmədiyi halda da hökm belədir. Ancaq mükəlləfin özünün ailəsini təmin edəcək maddi imkana sahib olduğu, yaxud hətta həccə getmədiyi təqdirdə də təmin etmək iqtidarında olmadığı, ya da ailəsinin xərclərini təmin etmədiyinə görə ciddi sıxıntı və məşəqqətlə üzləşməyəcəyi və ailəsinin təminatının da ona vacib olmadığı hallar istisnadır.

**Məsələ 2192.** Bir şəxs insana həccə getməsi üçün mal (pul) bağışlayarsa, onu qəbul etməsi vacibdir. Ancaq əgər bağışlayan şəxs seçim ixtiyarını insanın özünə həvalə edərək: "Bu malla (pulla) istəyirsənsə həccə get, istəmirsənsə getmə", - deyərsə, yaxud bağışlayan şəxs bir malı (pulu) bağışlayarsa və bağışlayarkən həcdən nə konkret, nə də bir seçim kimi söz açmazsa, bu iki haldan heç birində belə bir hədiyyənin qəbul edilməsi vacib deyil.

**Məsələ 2193.** Bəzli istitaətdə borclu olmaq insanın həccə getməyə qadir olmasına əngəl deyil. Buna əsasən, bir şəxsin gediş və qayıdış xərclərini təmin edərlərsə, hərçənd həmin şəxs borclu olsa belə, həcc ona vacib olur. [1]

**Məsələ 2194.** Altıncı şərtdə bəyan edilən mənada həcdən qayıtdıqdan sonra yaşayış xərclərini təmin etmək imkanı bəzli istitaətdə şərt deyil. Buna əsasən, həccə getməsi üçün bir şəxsin gediş-gəliş xərclərini və Məkkəyə gediş-gəliş müddəti ərzində ailəsinin xərclərini (bu xərcləri təmin etmək üçün maddi vəsaiti) ona bağışlayarlarsa, hərçənd qayıtdıqda da yaşayış xərclərini təmin etmək üçün malı (pulu) olmasa belə, həcc ona vacib olur.

---

[1] Əlbəttə, həccə getmək borcun ödəniş vaxtı çatdıqda onun ödənilməsinə mane olduğu təqdirdə sözügedən şəxs həccə getməyə qadir hesab edilmir və həcc vacib olmur.

Əlbəttə, əgər insanın yalnız həcc mövsümündə qazancı olursa və həmin gəlirlə ilin digər günləri, yaxud onların bir qismi ərzində yaşayış ehtiyaclarını təmin olunursa, belə ki, həccə gedəcəyi təqdirdə ilin qalan hissəsi, yaxud bəzi günləri ərzində yaşayış xərclərini təmin edə bilməyəcəksə, bu halda həcc ona vacib olmayacaqdır. Yalnız əgər bağışlayan şəxs ilin qalan günləri ərzində yaşayış xərclərinin çatışmayan hissəsini də təmin edərsə, bu halda istisna olaraq insan həccə getməyə qadir hesab edilir və həcc ona vacib olur.

**Məsələ 2195.** Əgər insanın həcc səfəri xərcinin bir hissəsini təmin edən və bütünlüklə təmin etməyə kifayət etməyən bir malı (pulu) olarsa, qalan hissəsini isə bir şəxs ona bağışlayarsa, o, altıncı şərtdə izah edilən mənada həcdən qayıtdıqdan sonra yaşayış xərclərini təmin etmək imkanına sahib olduğu təqdirdə həccə getməyə qadir hesab edilir və həcc ona vacib olur, bu imkana sahib olmadığı təqdirdə isə həcc ona vacib olmur.

**Məsələ 2196.** Bir şəxsə həcc üçün kafi olan miqdarda mal (kafi məbləğdə pul) verərlərsə və qarşısına həcc səfəri ərzində həmin malı (pulu) ona bağışlayan şəxsə xidmət etmək şərtini qoyarlarsa, hərçənd bu xidmət onun vəziyyətinə[1]uyğun olsa belə, bəzli istitaət yaranmır və həccə getmək üçün həmin malı (pulu) qəbul etmək ona vacib deyil. Lakin əgər qəbul edərsə və xidmət həcc ayinlərinin icrası ilə ziddiyyət təşkil etməzsə, yəni xidmətlə yanaşı həccini də yerinə yetirə bilərsə, digər tərəfdən istitaətin (həccə getməyə qadir olmağın) digər şərtlərinə (o cümlədən, altıncı və yeddinci şərtlərinə) də cavab verərsə, müstəti (həccə getməyə qadir) hesab edilir və həcc ona vacib olur.

## Digər hökmlər

**Məsələ 2197.** Əgər insan həccə getməsi səbəbi ilə həcdən daha önəmli olan bir vacib əməli yerinə yetirməməyə, yaxud uzaq durulması həcdən daha mühüm olan bir haram iş görməyə məcbur olacaqsa, həccə getməməlidir. Lakin hər iki məqamda əgər belə bir halda həccə gedərsə və bu, daha önəmli olan vacib işin icra edilməməsinə, yaxud daha mühüm olan haram işin görülməsinə səbəb olarsa, hərçənd günahkar sayılsa da, həcci doğrudur və digər şərtlərə cavab verdiyi təqdirdə "həccət əl-islam"ın həyata keçirilməsi üçün kifayətdir.

**Məsələ 2198.** Şərtlər gerçəkləşdikdən sonra həcc ayininin dərhal, təxirə salınmadan icra edilməsi vacibdir. Beləliklə, insan həccə getməyə qadir olduğu ilk ildə bu ayini icra etməlidir. Əgər bir şəxs birinci il həccə getməzsə, ikinci il getməlidir və sonrakı illər xüsusunda da hökm belədir.

[1] İctimai-sosial mövqeyinə. *Tərc.*

## Niyabəti həcc ilə əlaqədar hökmlər

**Məsələ 2199.** Həccə getmək imkanı olan şəxs "həccət əl-islam"ı icra etməyə qadir olduğu təqdirdə şəxsən həccə getməlidir və başqa bir şəxsin onun tərəfindən ödənişsiz, yaxud ödəniş müqabilində həcc ayinini icra etməsi kafi deyil.

**Məsələ 2200.** Bir neçə halda həcc üçün naib tutmaq vacibdir:

a) Həccə getməyə qadir olan bir şəxsə həcc vacib olarsa və o, daha sonra özünün sıxıntı çəkmədən həccə gedə biləcəyindən naümid olarsa, başqa bir şəxsi öz tərəfindən naib olaraq göndərməlidir. Məsələn, bir şəxs həccə getməyə qadir olmasına və digər şərtlərə cavab verməsinə rəğmən vacib həcc ayininin icrasında səhlənkarlığa yol verərək həccə getməzsə və sonra qocalıq, xəstəlik, gücsüzlük və bu qəbildən olan səbəblərdən dolayı həccə gedə bilməzsə, yaxud həccə getmək onun üçün həddən ziyadə çətin olarsa və gələcəkdə özünün həddən ziyadə çətinlik olmadan həccə gedə biləcəyinə ümidi olmazsa, bu halda başqa bir şəxsi öz tərəfindən naib ünvanı ilə göndərməlidir.

b) Əgər insan həccə getmək üçün yetəcək qədər mal-dövlət əldə etdiyi və digər şərtlərə də cavab verdiyi birinci ildə qocalıq, xəstəlik, gücsüzlük, yaxud bu qəbildən olan başqa bir səbəblə həccə gedə bilməzsə və sonradan şəxsən həddən ziyadə çətinliklə üzləşmədən həcc ayinini icra edəcəyinə dair ümidi olmazsa, başqa bir şəxsi öz tərəfindən naib ünvanı ilə göndərməlidir. Hətta bu halda onun malı "bələdi həcc"[1] deyil, yalnız "miqati həcc"[2] xərci üçün yetəcək qədər olsa belə, yenə də naib tutmaq ona vacib olur.

c) Həccə getməyə qadir olan, ancaq getməyən və həcc üzərində vacib olaraq qalan, sonra vəfat edən şəxsin mirası hesabına bir şəxsi niyabəti (onun naibi olaraq) həcc ayinini icra etmək üçün əcir tutmaq lazımdır və bu halda həmin şəxsin özünün həccə getməyə qadir olması, yəni şəxsən həccə getməli olduğu halda getməməsi ilə vəzifəsi naib tutmaq olduğu halda vəzifəsinə əməl etməməsi arasında heç bir fərq yoxdur. Qeyd etmək lazımdır ki, niyabətlə əlaqədar hökmlərin təfərrüatları, o cümlədən, naib üçün şərtlər, həcc ayininin naib tərəfindən icrası qaydası ilə bağlı məlumat almaq, həmçinin, həcc ayinləri ilə tanış olmaq üçün "Mənasek-e həcc" (Həcc ayinləri) risaləsi kimi daha müfəssəl kitablara müraciət etmək lazımdır.

---

[1] Naib tutulan şəxsin naibi olduğu insanın tərəfindən onun şəhərindən həccə getməsinə "bələdi həcc" deyilir. *Tərc.*

[2] Naib tutulan şəxsin naibi olduğu insanın tərəfindən Miqatdan başlayaraq həcc ayinini icra etməsinə "miqati həcc" deyilir. Uca Allahın Məscid əl-harama daxil olmaq üçün təyin etdiyi və Elçisinin (s) də yerini və zamanını təyin etdiyi yollar "miqat" adlanır. Hacılar həcc və ümrə ayinləri üçün təyin edilmiş beş miqatda ehram bağlayırlar. *Tərc.*

# YAXŞI İŞƏ SÖVQ ETMƏK VƏ PİS İŞDƏN ÇƏKİNDİRMƏK

## "Məruf" və "münkər"in mənası

**Məsələ 2201.** "Məruf" ağılın yaxşı olduğunu dərk etdiyi, yaxud müqəddəs şəriətin bizi yaxşı olması xüsusunda istiqamətləndirdiyi yaxşı iş deməkdir. "Münkər" isə ağılın pis olduğunu dərk etdiyi, yaxud müqəddəs şəriətin bizi xoşagəlməz olduğundan xəbərdar etdiyi pis və qəbahətli iş deməkdir.

## Yaxşı işə sövq etmək və pis işdən çəkindirməyin vacib olmasının şərtləri

**Məsələ 2202.** Yaxşı işə sövq etmək və pis işdən çəkindirmək aşağıdakı şərtlər daxilində vacib olur:

1) Yaxşı iş şəriətin vacib etdiyi işlərdən, pis iş isə şəriətin haram etdiyi işlərdən olmalıdır.
2) Yaxşı işə sövq edən və pis işdən çəkindirən şəxs hərçənd icmalən də olsa məruf və münkəri tanımalıdır.
3) Yaxşı işə sövq edən və pis işdən çəkindirən şəxs hərəkətinin günahkar şəxsdə təsir qoyacağını ehtimal etməlidir.
4) Günahkar şəxsin pis işi görmək niyyəti olmalı, yaxud həmin işi görməlidir.
5) Günahkar şəxs pis iş görməkdə, yaxud vacib işi icra etməməkdə üzrlü sayılmamalıdır.
6) Yaxşı işə sövq etmək və pis işdən çəkindirmək yaxşı işə sövq edən və pis işdən çəkindirən şəxs üçün həddən ziyadə çətin, yaxud onun canına, heysiyyətinə və ya malına önəmli dərəcədə zərərli olmamalıdır.

***Birinci şərt: Yaxşı iş şəriətin vacib etdiyi işlərdən, pis iş isə şəriətin haram etdiyi işlərdən olmalıdır***

**Məsələ 2203.** Vacib bir işin icra edilmədiyi hallarda, həmçinin, haram bir iş görüldüyü hallarda yaxşı işə sövq etmək vacibdir. Yaxşı işin

görülməsinin müstəhəb olduğu və pis işin görülməsinin məkruh olduğu hallarda isə yaxşı işə sövq etmək və pis işdən çəkindirmək müstəhəbdir.

Təbii ki, müstəhəb və məkruh işlər xüsusunda yaxşı işə sövq edərkən və pis işdən çəkindirərkən sövq edilən və çəkindirilən insanın şəxsiyyəti nəzərə alınmalı, incidilməməli və təhqirə məruz qalmamalıdır. Həmçinin, müstəhəb işlərə sövq edərkən və məkruh işlərdən çəkindirərkən insanın dinə və dini ayinlərə nifrət etməsinə səbəb olacaq qədər çox sərtlik nümayiş etdirilməməlidir.

*İkinci şərt: Yaxşı işi və pis işi hərçənd icmalən də olsa tanımalıdır*

**Məsələ 2204.** Yaxşı işə sövq etmək və pis işdən çəkindirmək istəyən şəxs qarşı tərəfin icra etmədiyi işin vacib işlərdən, yaxud onun gördüyü işin günahlardan olduğunu bilməlidir. Buna əsasən, yaxşı işi və pis işi tanımayan və onları bir-birindən ayırd edə bilməyən şəxsə yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacib deyil. Hərçənd, bəzi hallarda yaxşı işə sövq etmək və pis işdən çəkindirmək üçün yaxşı işi və pis işi tanımaq bir hazırlıq tədbiri olaraq vacib olur.

*Üçüncü şərt: Günahkar şəxsdə təsir qoyacağını ehtimal etməlidir*

**Məsələ 2205.** Bir şəxs sövq etmə və çəkindirməsinin təsirsiz olduğunu bilirsə, vacib ehtiyata əsasən, günahkar şəxsin nalayiq hərəkətlərinə qarşı ikrah hissi və narahatlığını hərçənd ona təsir etməyəcəyini bilsə belə, istənilən mümkün üsulla (sözlə, rəftarla, yazı ilə və s. ) izhar etməlidir. [1]

**Məsələ 2206.** Əgər bəzi şəxslər yaxşı işə sövq edərsə və pis işdən çəkindirərsə, ancaq cəhdləri səmərəsiz olarsa, digər bir qisim insanların isə özlərinin yaxşı işə sövq etmə və pis işdən çəkindirmə cəhdlərinin səmərəli olacağına dair məntiqli ehtimalı vardırsa, onların yaxşı işə sövq etməsi və pis işdən çəkindirməsi vacibdir.

*Dördüncü şərt: Günahkar şəxsin pis işi görmək niyyəti olmalı, yaxud həmin işi görməlidir*

**Məsələ 2207.** Bir şəxsin pis bir işi görmək və ya vacib bir işi görməmək niyyəti olarsa, yaxud pis iş görərsə və ya vacib bir işi görməzsə, onu yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacibdir. Buna əsasən, əgər insan bir şəxsin bir günah etmək, yaxud vacib bir işi görməmək niyyəti olduğuna əmindirsə, hərçənd sözügedən şəxs ilk dəfə günah iş görmək, yaxud vacib işi görməmək niyyətinə düşmüşsə və hələ həmin

[1] Hərçənd fəqihlər arasında məşhur nəzər budur ki, sözügedən halda həmin şəxsin üzərinə heç bir vəzifə düşmür və yaxşı işə sövq etmək və pis işdən çəkindirmək ona vacib deyil.

günah işi görməmiş, yaxud vacib işin icrasından imtina etməmişsə belə, onu şəriətə zidd əməlin baş verməsindən öncə yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacibdir.

Buna əsasən, yaxşı işə sövq etməyin və pis işdən çəkindirməyin vacib olmasında insanın pis işi görməyə, yaxud vacib işi görməməyə israr və davam etmək niyyətinin olması, yaxud məhz həmin vaxt günah iş görməsi şərt deyil. Bunun üçün insanın pis işi görmək, yaxud vacib işi görməməklə bağlı ciddi niyyəti olduğu məlum olarsa, kafidir. İstər həmin şəxs ilk dəfə şəriətə zidd iş görmək niyyətinə düşsün, istərsə bu onun ilk dəfəsi olmasın.

**Məsələ 2208.** Günahkar şəxs günahlarını təkrarlamaq niyyətində olmadığı təqdirdə onu yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacib deyil. Hətta əgər insan günahkar şəxsin günah işlərini təkrarlamaq istəmədiyini məntiqli əsaslarla ehtimal etsə(bu xüsusda diqqətəlayiq ehtimal olsa)belə, bu halda onu yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacib deyil. Həmçinin, əgər insan bir şəxsin pis iş görmək, yaxud vacib işi görməmək niyyətində olduğunu ehtimal edirsə, ancaq buna əmin deyilsə, bu halda da onu yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacib deyil.

***Beşinci şərt: Günahkar şəxs pis iş görməkdə, yaxud vacib işi icra etməməkdə üzrlü sayılmamalıdır***

**Məsələ 2209.** Bir şəxs bir pis iş görürsə və həmin işin haram olmadığını, əksinə mübah olduğunu düşünürsə, yaxud bir vacib işi görmürsə və həmin işin vacib olmadığını düşünürsə, bu halda belə düşündüyünə görə şəriət baxımından üzrlü hesab edildiyi, məsələn, "mövzu" xüsusunda səhvə yol verdiyi[1], yaxud təqlid etdiyi müctəhidin fiqhi rəyinə əsasən hərəkət etdiyi təqdirdə onu yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacib deyil.

Qeyd etmək lazımdır ki, əgər pis iş canı möhtərəm olan (yaşamaq hüququ olan, öldürülməsi haram olan) bir insanı qətlə yetirmək kimi Müqəddəs Şəriət Qanunvericisinin[2] baş verməsinə heç bir vəchlə razı olmadığı işlərdəndirsə, hərçənd bu işi görən şəxs üzrlü olsa və hətta mükəlləf olmasa belə, qarşısının alınması vacibdir.

**Məsələ 2210.** İnsan pis işi görən, yaxud vacib bir işi görməyən şəxsin bu xüsusda şəriət baxımından üzrlü olduğunu ehtimal edirsə, zahiri əlamətlər onun pis işi görməkdə, yaxud yaxşı işi görməməkdə üzrlü

---

[1] Məsələ ilə əlaqədar hökmü bilməsi, ancaq həmin hökmün onun vəziyyətinə şamil olub-olmaması xüsusunda səhvə yol verməsi nəzərdə tutulur. *Tərc.*

[2] Bu ibarə (ərəbcə: əş-şari əl-muqəddəs) fiqhdə əsasən şəriət qanunlarının təsisçisi olan uca Allaha və onları bəyan və izah edən Elçisinə (s) aid edilir. *Tərc.*

sayılmadığını göstərdiyi təqdirdə yaxşı işə sövq etmək və pis işdən çəkindirmək digər şərtlərinə də riayət etməklə vacibdir. Ancaq əgər buna dair bir zahiri əlamət mövcud deyilsə, yaxud onun pis işi görməkdə, yaxud vacib işi görməməkdə üzrlü sayıldığına dair zahiri əlamət vardırsa, bu halda onu yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacib deyil. [1]

***Altıncı şərt: Yaxşı işə sövq etmək və pis işdən çəkindirmək yaxşı işə sövq edən və pis işdən çəkindirən şəxs üçün həddən ziyadə çətin, yaxud onun canına, heysiyyətinə və ya malına önəmli dərəcədə zərərli olmamalıdır***

**Məsələ 2211.** Yaxşı işə sövq edən və pis işdən çəkindirən şəxsin, yaxud digər müsəlmanların canı, heysiyyəti və ya malı üçün ciddi bir təhlükə olduğu, yaxud onların dözülməz çətinliyə düşməsinə səbəb olacağı təqdirdə yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vacib deyil. Yalnız yaxşı və pis iş Müqəddəs Şəriət Qanunvericisinin nəzərində zərərlərə və çətinliklərə dözməyi vacib edəcək qədər mühüm olarsa, bu hal istisnadır. Ümumiyyətlə, bu cür hallarda insana və digər müsəlmanlara dəyə biləcək zərər, yaxud həmin əməlin (görülməyən yaxşı işin, yaxud görülən pis işin) yaxşılığı və pisliyi ehtimal faizi və həmin vəziyyətdəki əhəmiyyəti baxımından müqayisə edilməlidir və bəzi hallarda zərərə məruz qalma təhlükəsi olduğu təqdirdə belə yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vəzifəsi insanın üzərindən götürülmür.

## Yaxşı işə sövq etmək və pis işdən çəkindirməyin mərhələləri

**Məsələ 2212.** Yaxşı işə sövq etmək və pis işdən çəkindirməyin bir neçə mərhələsi vardır:

1) Yaxşı işi icra etmədiyinə, yaxud pis bir iş gördüyünə görə günahkar şəxsə qaşqabaq tökmək, ondan üz çevirmək, onunla danışmamaq, yaxud onunla gediş-gəlişdən və ünsiyyətdən imtina etmək kimi hərəkətlərlə daxili ikrah və narahatçılığın izhar edilməsi.
2) Nəsihət və istiqamətləndirmə, yaxşı işin savabını və pis işin cəzasını bəyan etmə surəti ilə şifahi xatırlatma, yaxud günahdan xali olan kobud sözlərlə olsa belə, yalan hesab edilməyəcək şəkildə təhdid etmə və qorxutma.

[1] Məsələn: Ramazan ayında gündüz qida qəbul etməklə orucu pozan və zahirən üzrsüz görünən bir gənci digər şərtlərə də riayət etməklə pis işdən çəkindirmək lazımdır. Ancaq ömrünün ahıllıq çağını yaşayan, fiziki gücü zəifləyən və oruc tutmayan, yaxud gün ərzində orucunu pozan yaşlı insan zahirən üzrlü sayılır. Buna əsasən, belə bir halda üzrlü olması ehtimalına əsasən onu pis işdən çəkindirmək vacib deyil.

3) Döymək, sıxmaq, həbs etmək və bu qəbildən olan əməli tədbirlər. Lakin hər hansı bir üzvün qırılmasına (sınmasına, zədələnməsinə), itirilməsinə, yaxud yaralanmaya və s. səbəb olacaq həddə çatmamalıdır. Başqa sözlə, əməli tədbirlər diyə, yaxud qisasa səbəb olacaq şəkildə həyata keçirilməməlidir.

**Məsələ 2213.** Yaxşı işə sövq etmək və pis işdən çəkindirməyin birinci və ikinci mərhələləri eyni dərəcədə olduğuna görə yaxşı işə sövq edən, yaxud pis işdən çəkindirən şəxs ilk növbədə birinci, yaxud ikinci mərhələnin əziyyəti daha az və təsiri daha çox olan tədbirini seçməlidir. Bəzən isə hər iki mərhələni eyni zamanda həyata keçirməlidir və birinci və ikinci mərhələlər təsirli olduqca üçüncü mərhələyə keçmək olmaz. Ancaq əgər birinci və ikinci mərhələlər təsirli olmazsa, növbə üçüncü mərhələyə çatır və ona uyğun hərəkət etməlidir. Vacib ehtiyata əsasən, üçüncü mərhələni (əməli tədbirləri) seçərkən şəriət hakimindən icazə almalıdır.

Qeyd etmək lazımdır ki, üç mərhələnin hər birinin ağırlıq etibarilə müxtəlif dərəcələri vardır və bu üç mərhələdən hər birində həmin mərhələnin dərəcələri arasında ardıcıllığa riayət etmək lazımdır. İnsan hər bir mərhələdə öncə qarşı tərəfə əziyyəti daha az olan, daha az incidən və daha təsirli olan dərəcəni (tədbiri) seçməli, nəticə almazsa, daha ağır dərəcələrə (tədbirlərə) keçməlidir. Buna əsasən, insanı onun narahat olması, yaxud ona qarşı hörmətsizliklə nəticələnməyəcək şəkildə yaxşı işə sövq etmək və pis işdən çəkindirmək mümkündürsə və təsirli də olacaqsa, onun narahat olmasına, yaxud ona qarşı hörmətsizliyə səbəb olan bir dərəcədən (tədbirdən) istifadə edilməməlidir.

**Məsələ 2214.** Qeyd edildiyi kimi yaxşı işə sövq etmək və pis işdən çəkindirmək, bir cinayət və pis işin qarşısını almaq üçün bədənin (dərinin) qızarması, göyərməsi, yaxud qaralması, yaralanma, bir üzvün qırılması (sınması), kəsilməsi, yaxud itirilməsi, qətl və s. nəticələnəcək bir hərəkətə yol vermək olmaz. Hətta həmin pis işin qarşısını almaq üçün başqa bir yol olmasa belə, bu yolverilməzdir və insan belə hərəkətlərə yol verdiyi təqdirdə onun nəticələrinə görə məsuliyyət daşıyır. Bu hərəkət qəsdən edildiyi təqdirdə ona qəsdən həyata keçirilən cinayətlərlə əlaqədar hökmlər, səhvən baş verdiyi təqdirdə isə səhvən həyata keçirilən cinayətlərlə əlaqədar hökmlər şamil olunur. İstisna olaraq bir insanın işlədiyi cinayət və gördüyü pis işin bədənin (dərinin) qızarması, qaralması və qeyd edilən digər hallarla müqayisədə daha önəmli fəsadları olduğu halda İmam (ə), yaxud onun naibi tərəfindən icazə verilmiş şəxs, yaxud şəxslər bu tədbirləri həyata keçirə bilər və bu halda həmin şəxs (şəxslər) onlara verilmiş icazə çərçivəsində etdiyi hərəkətlərə görə məsuliyyətə cəlb edilmir.

## Yaxşı işə sövq etmək və pis işdən çəkindirməklə əlaqədar digər hökmlər

**Məsələ 2215.** Allahın vacib və haram buyurduğu işlər xüsusunda yaxşı işə sövq etmək və pis işdən çəkindirmək lazımi zəmin (şərtlər) mövcud olduğu halda "kifayi vacib"dir. Əlbəttə, cəmiyyətin bütün üzvləri bir haram işin icra edildiyini, yaxud bir vacib işin icra edilmədiyini gördükdə buna biganə qalmamalı, öz ikrah və narahatlıq hisslərini sözlə, yaxud davranışla və bu qəbildən olan hərəkətlərlə izhar etməlidir və bu qədəri bütün mükəlləflər üçün "eyni vacib"dir. [1]Hərçənd, insan yaxşı işə sövq etmə və pis işdən çəkindirmə təşəbbüsünün səmərəli olacağını ehtimal etmədiyi hallarda vacib işin icra edilmədiyinə, yaxud haram iş görüldüyünə görə narahatlıq və ikrah hissini izhar etməsi ehtiyata əsasən vacibdir.

**Məsələ 2216.** Yaxşı işə sövq etmək və pis işdən çəkindirməkdə Allaha yaxınlaşma niyyətinin olması vacib deyil, hədəf vacib işin icrasını təmin etmək və haram işin icrasının qarşısını almaq olmalıdır. Şübhəsiz, Allaha yaxınlaşma niyyəti ilahi savab və axirət mükafatları qazandırır.

**Məsələ 2217.** Yaxşı işə sövq etmək və pis işdən çəkindirməyin vacibliyi cəmiyyətin müəyyən bir zümrəsi ilə məhdudlaşmır, əksinə şərtləri mövcud olduğu təqdirdə həm alimlərə, həm də digər şəxslərə, həm adil, həm də fasiq (günahkar), həm zəngin, həm də yoxsul şəxslərə, dövlət məmurlarına və digər insanlara vacibdir.

**Məsələ 2218.** Hər bir mükəlləfin öz ailə üzvləri və yaxınlarını yaxşı işə sövq etməsi və pis işdən çəkindirməsi daha böyük əhəmiyyətə malikdir. Buna əsasən, əgər insanın ailə üzvləri, yaxud yaxınları arasında namaz, oruc, xüms, hicab kimi dini vacibata qarşı diqqətsiz olan və yüngül yanaşan, yaxud sələmçilik, qeybət, yalan, qina və eyş-işrət məzmunlu musiqiyə qulaq asmaq kimi haramlara qarşı laqeyd və qorxusuz olan bir şəxs vardırsa, daha artıq əhəmiyyət verərək (yaxşı işə sövq etmək və pis işdən çəkindirməyin üç mərhələsinə riayət etməklə) onun haram əməllərinin qarşısı almalı, onu vacib işləri görməyə və haram işlər görməməyə çağırmalıdır.

**Məsələ 2219.** Əgər bir insanın atası, yaxud anası haram bir iş görərsə, yaxud vacib bir işi görməzsə, övladın onları mülayim söz və rəftardan başqa bir üsulla yaxşı işə sövq etməsi və pis işdən çəkindirməsi "məhəll-i işkal"dır və bu halda ehtiyata riayət etmək lazımdır. Buna əsasən, vacib

[1] Kifayi vacib – bir mükəlləf, yaxud bir dəstə mükəlləflər tərəfindən yerinə yetirildiyi təqdirdə digər mükəlləflərin üzərindən götürülən vacib işdir.
Eyni vacib – hər bir mükəlləfə bilavasitə vacib olan vacib işdir. *Tərc.*

ehtiyatın tələbi budur ki, övlad mülayimliklə valideynlərini yaxşı işə sövq etməli, pis işdən çəkindirməli və heç vaxt onlarla kobud davranmamalı, onlara kobud sözlər söyləməməlidir. [1]

**Məsələ 2220.** Həddi-büluğa çatmayan uşağı döymək olmaz. Yalnız aşağıdakı şərtlərin hamısının nəzərə alındığı hal istisnadır:

1) Uşaq haram bir iş görməli, yaxud başqalarının əziyyətə düşməsinə və ya zərər çəkməsinə səbəb olmalıdır.

2) Bu işi uşağın şəri vəlisi (qəyyumu), yaxud onun icazə verdiyi bir şəxs görməlidir.

3) Onu ürəyin soyuması üçün deyil, ədəbləndirmək və tərbiyə məqsədi vurmaq lazımdır.

4) Onu üç dəfədən artıq vurmamaq lazımdır.

5) Uşaq bədəni (dərisi) qızaracaq şəkildə deyil, əksinə astaca və yüngül vurulmalıdır.

6) Onu ədəbləndirməyin, tərbiyə etməyin yeganə yolu döymək olmalıdır.

Buna əsasən, sadalanan şərtlər nəzərə alınmaqla şəri vəlisindən icazə aldıqları hal istisna olmaqla həddi-büluğa çatmayan uşağın anasının, bacısının və müəlliminin onu vurmağa haqqı yoxdur.

Həmçinin, əgər döymək həddi-büluğa çatmayan uşağın bədəninin qızarmasına, göyərməsinə, yaxud qaralmasına səbəb olarsa, diyə verilməlidir və bu diyənin miqdarı "Diyələrlə əlaqədar hökmlər" fəslində bəyan ediləcəkdir.

**Məsələ 2221.** Məlumatsız şəxsi"mövzular"la[2] bağlı məlumatlandırmağa gərək yoxdur və mövzu ilə əlaqədar məlumatı olmayan insanı məlumatlandırmaq vacib deyil. Yalnız Müqəddəs Şəriət Qanunvercisinin həmin işin hətta mövzunu bilməyən şəxs tərəfindən belə icra edilməsinə narazılığının məlum olduğu hal istisnadır. Məsələn, qətlə yetirilməsi haram olan bir şəxsi qətli caiz olan şəxslə səhv salmaq bu qəbildən olan hallardandır.

**Məsələ 2222.** Əgər bir şəxs şəri hökmü bilməsə və şəri məsələni bilməməsi səbəbi ilə hansısa bir vacibi tərk etsə və ya harama düçar olsa - cahil (məlumətsız) şəxs (şəri hökmü) öyrənmək ardınca və həmçinin, ona təsir etmə ehtimalı olduğu təqdirdə - ona yol göstərmək və şəri

---

[1] Qeyd etmək lazımdır ki, valideyni sərt danışıqdan başqa bir yolla yaxşı işə sövq etmək və pis işdən çəkindirmək mümkün deyilsə, ehtiyatın tələbi budur ki, təqlid edən şəxs ələmlik dərəcəsi üzrə sıra ardıcıllığına riayət etməklə bu məsələdə fətvası olan başqa bir müctəhidə təqlid etməli və onun nəzərinə müvafiq qaydada hərəkət etməlidir.

[2] Mövzular deyərkən şəriət hökmlərinin tətbiq edildiyi vəziyyətlər, mövzuları bilməyən şəxs deyərkən isə şəriət hökmlərini bilən, ancaq həmin hökmlərin tətbiq edildiyi vəziyyətləri düzgün bilməyən şəxs nəzərdə tutulur. *Tərc.*

məsələni ona öyrətmək vacibdir. (Öyrətməkdə) həddən artiq və dözülməsi mümkün olmayan çətinlik və ya nəzərə çarpacaq bir zərərin olması halı istisnadır. Beləliklə, kişinin qızıl üzükdən istifadə etməsinin, yaxud eyş-işrət məzmunlu və qina musiqiyə qulaq asmağın haram, yaxud da, naməhram yanında qadının ayağın (topuqdan) yuxarı hissəsini örtməsinin vacib olmasını bilməyən və şəri hökmə nisbətdə məlumatsız olması və qarşılaşdığı məsələlərin hökmünü bilməməsi səbəbilə onlara (həmin məsələlərə) riayət etməyən bir şəxsə yuxarıda qeyd olunan şərtlar daxilində yol göstərmək (məlumatlandırmaq) vacibdir.

## Günahlara tövbə

**Məsələ 2223.** Günahlara tövbə etmək ən mühüm və ən vacib işlərdəndir. Tövbənin mahiyyəti günahlardan peşman olmaqdır və bu, qəlblə bağlı məsələlərdəndir. Sadəcə "əstəğfirullah" demək tövbə üçün kifayət etmir və tövbədə günaha görə peşman olmaq lazımdır. Günah səbəbi ilə ciddi peşmançılıq duyğusu hasil olduqda "əstəğfirullah" demək vacib deyil. Bununla belə, istiğfar zikrinin deyilməsi müstəhəb ehtiyata uyğundur. Tövbənin şəri nəticələrinin olması üçün iki şey tələb edilir:

a) İnsan günahı bir daha təkrarlamaqla bağlı ciddi qərar qəbul etməlidir.

b) Pozduğu şeyləri mümkün olduğu təqdirdə şəriətin göstərişinə müvafiq qaydada düzəltməlidir.

## Günahların bir qismi ilə tanışlıq

**Məsələ 2224.** İslam şəriətində günah və haram sayılan işlərdən bəziləri aşağıdakılardan ibarətdir:

1) uca Allaha şərik qoşmaq və kafir olmaq (şirk və küfr); 2) uca Allahın rəhmətindən ümidi üzmək; 3) günahkar insanın uca Allahın əzab və cəzasından amanda olduğunu düşünməsi; 4) uca Allahın nazil etdiklərini inkar etmək; 5) uca Allahın nazil etdiklərindən başqa bir şey əsasında hökm etmək; 6) uca Allahın dostları (sevimli bəndələri) ilə savaşmaq və yer üzündə fəsad törətmək; 7) məscidlərdə uca Allahın zikrinə mane olmaq və məscidləri dağıtmaq; 8) müsəlmanlarla kafirlər arasındakı müharibədən qaçmaq; 9) insanları uca Allahın yolundan azdırmaq; 10) intihar etmək, yaxud bədənə hər hansı bir üzvün itirilməsi kimi əsaslı bir xəsarət yetirmək; 11) müsəlmanı, yaxud öldürülməsi haram olan bir insanı qətlə yetirmək, həmçinin, vurmaq, yaralamaq və bu qəbildən olan hərəkətlərlə ona təcavüz etmək; 12) abort; 13) yalan; 14) uca Allaha yalandan and içmək; 15) məlumatsız və mötəbər dəlil olmadan danışmaq;

16) nahaq şahidlik; 17) həqiqətin izhar edilməli olduğu bir yerdə onu gizlədərək şahidlikdən imtina etmək; 18) namaz, oruc, həcc və Allahın vacib buyurduğu digər əməlləri qəsdən icra etməmək; 19) vacib zəkat və xümsü verməmək; 20) itaət və ibadətlərdə riyakarlıq; 21) valideynin üzünə ağ olmaq (ata-anaya əziyyət etmək, onlarla pis rəftar etmək və onlara qarşı edilməsi vacib olan yaxşılığı etməmək); 22) qohumlarla əlaqəni kəsmək; 23) haram eyş-işrətlə məşğul olmaq, məsələn, qina və eyş-işrət musiqisinə qulaq asmaq; 24) qumar oynamaq; 25) zalımlarla əməkdaşlıq və onların təklif etdiyi vəzifəni qəbul etmək (yalnız həmin işin özlüyündə şəriətə uyğun olduğu və həmin vəzifəni qəbul etməyin müsəlmanların mənafeyinə olduğu hal istisnadır); 26) şəri əhd, nəzir və andı pozmaq; 27) hətta müsəlman olmayan insanlarla belə bağlanmış əhd-peymanı pozmaq, xəyanət etmək; 28) bədxərclik (pulu səmərəsiz, mənasız yerə xərcləmək və nalayiq işlərə sərf etmək); 29) israf (pulu artıq və lazımsız yerə xərcləmək); 30) şərab, pivə və digər məstedici içkiləri içmək; 31) sehr; 32) ləvat (kişilər arasında homoseksual cinsi əlaqə); 33) zina; 34) şəri bəyyinə (şahidlik) olmadan bir şəxsi zinakarlıqda ittiham etmək; 35) kişi ilə qadın arasında zinaya, yaxud iki kişi arasında ləvata vasitəçilik etmək; 36) masturbasiya və ər-arvad arasındakı cinsi həzz alma hərəkətləri istisna olmaqla digər üsullarla cinsi həzzə nail olmağa çalışmaq; 37) borc, yaxud ticarətdə sələmçilik, borcun gec ödənilməsinə görə gecikmə cəriməsi almaq, həmçinin, sələmli əqdlərin, müamilələrin və borcların həyata keçirilməsi, qeydiyyatı və bunlara şahidlik; 38) haramxorluq, məsələn, spirtli içkilərdən əldə edilən gəlirlə dolanmaq, zinakar qadının zina müqabilində aldığı ödənclə dolanması, qina qismindən olan musiqilərin ifası ilə məşğul olan müğənninin bu yolla əldə etdiyi qazancla dolanması və s. ); 39) qazinin hökm çıxarmaq üçün rüşvət alması; 40) oğurluq; 41) zülm və haqsızlıq yolu ilə yetimin malını məsrəf etmək; 42) özünün razılığı olmadan başqa bir şəxsin malını mənimsəmək və məsrəf etmək; 43) ticarət əməliyyatlarında fırıldaqçılıq; 44) tərəzidə aldatmaq (alqı-satqıda satılan malı razılaşdırılandan əskik miqdarda vermək); 45) donuz, habelə əti haram və murdar olan heyvanların ətini yemək; 46) möminlər arasında əxlaqsızlıq və günahın yayılmasına rəvac vermək; 47) möminlər arasında təfriqəyə səbəb olan dedi-qodu, intriqa; 48) vacib ehtiyata əsasən, bir müsəlmanla üç gündən artıq küsülü qalmaq;[1] 49) vacib ehtiyata əsasən, vədəxilaflıq; 50) əlamətləri söz, yaxud hərəkətlərlə izhar edilən həsəd (əlaməti izhar edilmədiyi təqdirdə

[1] Yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vəzifəsinin bunu (küsülü qalmağı) tələb etdiyi, yaxud küsməməyin şəriət baxımından nəzərə alınması daha mühüm olan başqa bir fəsada yol açdığı hallar istisnadır.

əxlaqi rəzilliklərdən və xoşagəlməz xislətlərdən biri hesab edilsə də, haram sayılmır); 51) mömini söymək, ünvanına nalayiq sözlər sərf etmək və onu lənətləmək; 52) mömini təhqir etmək və alçaltmaq; 53) mömininin sirlərini ifşa etmək; 54) mömininin aşkarda edilməyən, gizli günahlarından agah olmaq üçün casusluq etmək; 55) müsəlmanın canına, yaxud malına zərər yetirmək və ya heysiyyətin xələl gətirən bir iş görmək; 56) möminə töhmət vurmaq; 57) qeybət etmək; 58) hicrətdən sonra təərrüb (köçdən sonra qayıdış).

"Hicrətdən sonra təərrüb" deyərkən yaşadığımız dövrdə insanın dini maarifi, şəriət hökmlərini öyrənə, ilahi vacibatı yerinə yetirə və ilahi haramlardan çəkinə bildiyi müsəlman ölkəsini, yaxud başqa bir ölkəni, yaxud şəhəri tərk edərək başqa bir ölkə, yaxud şəhərə köçməsi və orada məskunlaşması nəticəsində imanının azalması, yəni haqq inanclara inam və etiqadının zəifləməsi, yaxud İslam şəriətində əmr edilən bəzi vacib işləri görə bilməməsi və qadağan edilən bəzi günahlardan uzaq dura bilməməsi nəzərdə tutulur. Buna əsasən, qeyri-müsəlman ölkəsinə gedən müsəlman əgər həmin ölkədə qalmasının onun özünün, yaxud ailə üzvlərinin, övladlarının imanının azalması ilə nəticələnəcəyini bilirsə, öz vətəninə qayıtmalıdır. Yalnız İslam diyarı olan öz yurduna qayıtması onu ölüm təhlükəsi, yaxud dözülməz olan qeyri-adi bir çətinliklə qarşı-qarşıya qoyacaqsa və ya qarşısı alınmaz ölüm təhlükəsindən qorunmaq üçün murdar (nəcis sayılan ölü heyvanın ətindən) yeməyi caiz edən bir zərurət kimi təklifi (şəriətin tələbini) qüvvədən düşürən zəruri hallarla qarşılaşarsa, istisna olaraq vətəninə qayıtması lazım deyil. Sonuncu halda zəruri olan miqdarla kifayətlənmək lazımdır və bu miqdardan artıq yemək caiz deyil.

# BƏZİ GÜNAHLAR, PİS VƏ YAXŞI İŞLƏRLƏ ƏLAQƏDAR HÖKMLƏRLƏ ƏTRAFLI TANIŞLIQ

Bu hissədə bəzi günah və pis əməllər, həmçinin, bəzi vacib və yaxşı əməllərlə əlaqədar bir çox hökmlər bəyan ediləcəkdir:

## Qina və musiqi

**Məsələ 2225.** Qina haramdır. Qina eyş-işrət[1] əhli arasında yayılmış üslublar, tonlar və avazlarla istər şeir (nəzm), istərsə nəsr şəklində oxunan mənasız sözlərdən ibarətdir və bu xüsusda şən qina ilə hüznlü qina arasında heç bir fərq yoxdur.

Qeyd etmək lazımdır ki, qinanı, hansı səsin(mahnının) eyş-işrət əhli arasında yayıldığını, hansının bu qəbildən olmadığını ayırd etməyin meyarı ürf, yəni cəmiyyətdir. Məsələn, bir mahnının ifası zamanı səs boğazda dəyişdirilir və uzadılırsa və həmin mahnı eyş-işrət məclislərinə uyğundursa, haramdır.

**Məsələ 2226.** Məzmunu və sözləri mənasız, eyş-işrət tərzində olmayan, ancaq ifa üslubu mənasız yığıncaqlara, eyş-işrət məclislərinə uyğun olan səslər:

a) Quran qiraəti, dua və zikr oxunuşu olduğu təqdirdə bu deyilənlərin qina tonu (intonasiyası) ilə oxunması haramdır;

b) Şeir, yaxud nəsr olmasından asılı olmayaraq, qəsidə, İslami dəyərlərə uyğun qəzəl, mədhiyyə, mərsiyə, aforizmlər kimi eyş-işrət tərzi ilə oxunan digər sözlər (Quran, dua və zikr istisna olmaqla) olduğu təqdirdə, vacib ehtiyata əsasən, bu qaydada oxunuş, ifa caiz deyil.

Buna əsasən, batil (mənasız və həqiqətə uyğun olmayan) məzmun və mətni olmayan, ifa üslubu da eyş-işrət tərzində olmayan bir mahnının (oxunulmasının və dinlənilməsinin) eybi yoxdur.

**Məsələ 2227.** Qinaya qulaq asmaq haramdır. Qina müqabilində muzd[2] almaq da haramdır və alan şəxs həmin muzdun sahibi olmur. Həmçinin, qinanın öyrənilməsi və öyrədilməsi də caiz deyil.

**Məsələ 2228.** Musiqi humanitar fənlərdən biridir və burada musiqi deyərkən musiqi üçün nəzərdə tutulmuş xüsusi alətlərdə ifa nəticəsində yaranan səslər nəzərdə tutulur. Musiqi şəriətin hökmü baxımından iki qisimə bölünür:

---

[1] Burada və eləcə də digər məsələlərdə eyş-işrət deyərkən mənasız, faydasız və haram əyləncə nəzərdə tutulur. *Tərc.*

[2] Pul, yaxud başqa bir üsulla ödənc. *Tərc.*

a) Halal musiqi - eyş-işrət məclislərinə uyğun olmayan musiqidir. Məsələn, ürfdə (insanların nəzərində) həmin məclislərə uyğun hesab edilməyən hərbi marş, əzadarlıq mərasimlərində təbil və sinc çalmaq bu qəbildəndir.

b) Haram musiqi - eyş-işrət məclislərinə uyğun olan, yəni dinləyicisinin (xüsusən, bu məsələlərdən agah olduğu zaman) eyş-işrət məclislərində ifa olunduğunu ayırd etdiyi musiqidir. [1]

Qeyd etmək lazımdır ki, bu mövzunun (insanın dinlədiyi musiqinin eyş-işrət məclislərinə uyğun olub-olmamasının) ayırd edilməsi mükəlləfin öz öhdəsinə və ürfə buraxılmışdır və ürf onun bir çox məqamlarını ayırd edir. Bu hökmdə İran musiqisi ilə digər xalqların musiqiləri, ənənəvi musiqi ilə digər janrlar, klassik musiqi ilə digər musiqilər arasında heç bir fərq yoxdur.

Haram musiqiyə qulaq asmaq haramdır. [2]

**Məsələ 2229.** Eyş-işrət məclisi deyərkən ehtiras və kef üçün təşkil olunan bir məclis nəzərdə tutulur. Hərçənd, bu məclisdəki kef şərab içmək, qadınlarla kişilərin şəriətə uyğun olmayan qaydada qaynayıb-qarışması kimi haram işlərlə müşayiət edilməsə belə, eyş-işrət məclisi sayılır. Beləliklə, bu növ məclislərə uyğun olan musiqini çalmaq və dinləmək hərçənd adi məclisdə çalınsa, yaxud fərdi şəkildə dinlənilsə belə, haramdır.

**Məsələ 2230.** Eyş-işrət musiqisini çalmaq və dinləmək caiz deyil. Haram musiqi üçün muzd almaq da haramdır və alan şəxs həmin muzdun sahibi olmur. Habelə, onun öyrənilməsi və öyrədilməsi də haramdır.

**Məsələ 2231.** İnsan bir mahnının qina olub-olmaması, yaxud bir musiqinin eyş-işrət musiqisi olub-olmaması xüsusunda şəkkə düşərsə, qina, eyş-işrət və eyş-işrət musiqisi anlayışlarının tərifini bilən şəxs üçün ona qulaq asmaq haram deyil, ancaq ehtiyata ziddir.

**Məsələ 2232.** Musiqinin haram olmasının meyarı onun eyş-işrət məclisinə uyğun olmasıdır. Buna əsasən, əgər bir şəxs: "Bu növ musiqi məndə xüsusi bir hal yaradır", - deyərsə, yaxud: "Mənə təsir etmir", - deyərsə, onun bu sözü musiqinin haram, yaxud halal olmasının meyarı

---

[1] O cümlədən, musiqi kasetlərindəki təranələr, televiziya kanallarında yayımlanan ağır və əyləndərici musiqilər, günah, rəqs, eyş-işrət məclislərinə, gecə partilərinə (ziyafətlərinə) və günah işlər görülən toy məclislərinə münasib olan musiqilər bu qəbildəndir.

[2] Ümumiyyətlə, bu mövzuda qeyd edilən məsələlərdən belə belə aydın olur ki, bir mahnıya qulaq asmağın caiz olması üçün dörd şərt tələb edilir:
Oxunan mahnı qina olmamalıdır;
Onun musiqisi eyş-işrət məclislərinə uyğun olmamalıdır;
İfaçının söylədikləri (mahnının sözləri) mənfi məzmunlu və şəriətə zidd olmamalı, məsələn, dinsizliyə (imansızlığa), əxlaqsızlığa və bayağılığa çağırmamalıdır;
Kişi dinləyicilər üçün səsin incəldilməsi ilə müşayiət edilən qadın ifası olmamalıdır.

sayılmır. Əlbəttə, bəzən insanda müəyyən bir halın yaranması musiqinin eyş-işrət musiqisinə uyğun olduğunu göstərir. Ancaq bu həmişə belə deyil.

**Məsələ 2233.** Qina və eyş-işrət məclislərinə uyğun musiqiyə qulaq asmaq haramdır. [1] Ancaq əgər insan haram musiqi, yaxud qinaya qulaq asmazsa, lakin həmin səsi eşidərsə, günah etmiş sayılmır. Buna əsasən, haram musiqi, yaxud qina səsini eşitmək öz-özlüyündə haram deyil və insanın özünü həmin səsə qulaq asmaqdan çəkindirməsi üçün kitab oxumaq, yaxud zikr etmək kimi başqa bir işlə məşğul olmaq lazım gələrsə, bu işi görməlidir, həmçinin, gərəkli zəmin (şərtlər) mövcud olduğu halda yaxşı işə sövq etmək və pis işdən çəkindirmək vəzifəsinin icrası da vacibdir.

**Məsələ 2234.** Eyş-işrət məclislərinə münasib bir musiqinin yayımlanması mümkün olan və günah yığıncağı hesab edilməyən avtobuslar, parklar, bazarlar, dəmiryol vağzalı, restoranlar və ictimai yerlərə gediş-gəliş caizdir. Lakin qəsdən qulaq asmaqdan çəkinmək lazımdır və əgər insan musiqi səsini qeyri-ixtiyari surətdə eşidərsə, eybi yoxdur.

**Məsələ 2235.** Eyş-işrət musiqisinin öyrədilməsi və öyrənilməsi, eyş-işrət musiqisi ifa edən çalğıçıları təşviq etmək və onların fəaliyyətini yüksək qiymətləndirmək caiz deyil və batil işə rəvac vermək sayılır.

**Məsələ 2236.** Eyş-işrət musiqisi, yaxud qina qismindən olan mahnıların yazıldığı kasetlərin alınması, satılması, istehsalı, çoxaldılması və onların köçürülərək çoxaldılması üçün pul almaq caiz deyil.

**Məsələ 2237.** Xüsusi haram musiqi alətlərinin alqı-satqısı haramdır və xüsusi haram musiqi alətlərinin ayırd edilməsində meyar insanların nəzəridir. Buna əsasən, istehsal keyfiyyəti etibarilə adətən insanların nəzərincə haram musiqilərdə istifadə edilmək üçün lazım olan və istifadə edilən bir alət xüsusi haram musiqi alətlərindən hesab edilir.

**Məsələ 2238.** Qaval (dəf) eyş-işrət alətlərindəndir və toy və digər məclislərdə istər halqalı, istər halqasız qaval çalmaq caiz deyil. Toy və digər məclislərdə sini, qazan, teşt kimi eyş-işrət aləti olmayan əşyaları döyəcləməyə gəlincə, əgər bu adi qaydada edilərsə, öz-özlüyündə caizdir. Ancaq əgər döyəcləmə qina və haram musiqi məclislərinə münasib bir tərzdə (ritmlə) olarsa, vacib ehtiyat bundan çəkinməyi tələb edir.

**Məsələ 2239.** Uşaqların oynaması və onları sakitləşdirmək üçün nəzərdə tutulmuş musiqi alətlərindən çıxan musiqi eyş-işrət məclislərinə münasib musiqi olarsa, onların alqı-satqısı caiz deyil və həddi-büluğa çatmış, mükəlləf insanlar həmin alətlərdən eyş-işrət musiqisi çalmaq üçün istifadə edə, yaxud o alətlərdə ifa edilən eyş-işrət musiqisinə qulaq

[1] Əvvəlki məsələlərdə verilən izahlar nəzərə alınmaqla. *Tərc.*

asa bilməzlər. Vacib ehtiyata əsasən, həddi-büluğa çatmayan uşağın vəlisi (valideyni, yaxud qəyyumu) onu qina və eyş-işrət musiqisinə qulaq asmaqdan çəkindirməlidir.

## Rəqs

**Məsələ 2240.** Hərçənd eyş-işrət musiqisi çalmaq, yaxud yayımlamaq və ya qadınlarla kişilərin şəriətə uyğun olmayan qaydada qaynayıb-qarışması kimi hallarla müşayiət edilməsə belə, qadının naməhrəm kişinin qarşısında rəqs etməsi, həmçinin, kişinin naməhrəm qadının qarşısında rəqs etməsi haramdır,qadınların qadınlar üçün, yaxud kişilərin kişilər üçün, həmçinin, qadının məhrəm kişinin qarşısında və eləcə də kişinin məhrəm qadının qarşısında rəqs etməsi isə "məhəll-i işkal"dır, yəni vacib ehtiyat belə vəziyyətlərdə rəqs etməməyi tələb edir. Təklikdə, başqa bir şəxsin olmadığı yerdə qadının əri üçün və habelə kişinin arvadı üçün rəqs etməsi caizdir.

## Heykəl və rəsm

**Məsələ 2241.** Təsvirlər üç qismə bölünür:

a) Gül, kol və ağac kimi ruhsuz varlıqların rəsmini (hətta qabarıq şəkildə belə) çəkməyin və eləcə də heykəlini hazırlamağın eybi yoxdur.

b) Ruhu olan varlıqların təsviri, məsələn, insan və heyvan rəsmi, kompyuter qrafikası ilə yaradılmış şəkil qabarıq olmazsa, eybi yoxdur. Dövrümüzdə geniş yayılmış fotoşəkillər və televiziya təsvirlərinə də eyni hökm şamildir.

c) Ruhu olan varlıqların təsviri mücəssəm və qabarıq olarsa (insan və heyvan heykəli kimi), təsvir bütöv olduğu, yaxud ona bütöv hökmü şamil olunduğu[1] **və ya vacib ehtiyata əsasən, ruhu olan varlığın naqis təsviri**[2] hesab edildiyi təqdirdə onun yaradılması və bunun müqabilində qonorar almaq, lazım ehtiyata əsasən, haramdır. Lakin belə əsərlərin alqı-satqısının (öz-özlüyündə və digər vəziyyətlər nəzərə alınmadan) eybi yoxdur və onları evdə saxlamaq hərçənd məkruh olsa da caizdir. Belə bir əsərin yaradılmasının haram olması məsələsində onun hazırlanmasında istifadə edilən materialın daş, taxta, metal, plastik, gəc, parça və s. olmasının heç bir fərqi yoxdur.

---

[1] Bütöv təsvir hökmünün şamil olunduğu təsvirə oturan şəxsin qabarıq təsviri, yaxud insanın profildən (yandan görünüş) qabarıq təsviri və ya əlini başının arxasına qoymuş şəxsin qabarıq təsvirini misal göstərmək olar.

[2] Ruhu olan canlının naqis təsvirinə əli, yaxud ayağı kəsilmiş və ya başıolmayan insanın heykəli, yaxud qabarıq təsvirini misal göstərmək olar.

**Məsələ 2242.** Uşaqlar üçün oyuncaq gəlinciklərin, yaxud marionetlərin istehsalı, heyvan şəkillərinin yapma naxışla işlənməsi, geyimlərin nümayişi üçün istifadə edilən manekenlərin, heyvan şəklində olan telefon, televizor və s. əşya altlıqlarına heykəl hökmü şamil olunur.

**Məsələ 2243.** İnsan və heyvan kimi ruhu olan varlıqların təsvirlərinin parça və bənzər materialların üzərinə bir qədər qabarıq şəkildə naxışlanmasında əgər qabarıqlıq önəmsiz dərəcədə olarsa, eybi yoxdur, əks təqdirdə heykəl hökmü şamil olunur. Qeyd etmək lazımdır ki, mirvari işləmələrə də heykəl hökmü şamil olunur.

**Məsələ 2244.** Heykəlin başını bir şəxs, yaxud emalatxana, bədənini isə başqa bir şəxs, yaxud emalatxana hazırladığı və başı bədənə üçüncü şəxslər, yaxud bədəni hazırlayan ikinci şəxs, yaxud emalatxana birləşdirdiyi təqdirdə heykəlin bədəninin hazırlanması (ruhu olan varlığın yarımçıq təsviri anlayışı bu vəziyyətə şamil olunur), lazım ehtiyata əsasən, haramdır və başı bədənə bitişdirmək, lazım ehtiyata əsasən, caiz deyil. Lakin təkcə başın hazırlanmasının eybi yoxdur.

**Məsələ 2245.** İnsanların karikaturasını çəkmək möminə qarşı hörmətsizlik və həqarət sayıldığı təqdirdə, hərçənd onun özü buna razı olsa belə, caiz deyil. Ancaq əgər müasir ürfdə hörmətsizlik və həqarət hesab edilmirsə, eybi yoxdur.

## Saqqalı qırxmaq

**Məsələ 2246.** Saqqalı qırxmaq, yaxud qırxmaq kimi olduğu təqdirdə maşınlamaq, vacib ehtiyata əsasən, caiz deyil.

**Məsələ 2247.** Əgər insan çənə hissəsindəki tükləri saxlayar və saqqalının qalan hissəsini qırxarsa, yenə də bu iş, vacib ehtiyata əsasən, caiz deyil. Lakin yanaqların üzərində çıxan tükləri qırxmağın eybi yoxdur. Bu şərtlə ki, çənə nahiyəsində və yanaqların alt hissəsindəalt çənə sümüyünün üzərində onun hər iki tərəfində çənədən qulaqların bərabərinədək (alt çənə sümüyünün sonunadək) bitən tüklərdən bir barmaq buğumu uzunluğunda yeri qırxmamaq, saxlamaq lazımdır. Belə ki, ürfən (insanların nəzərində) həmin şəxs saqqallı sayılmalıdır.

**Məsələ 2248.** Saqqalı qırxmağın haram olmasının meyarı söhbət əsnasında insanı görən şəxslərin onun barəsində "saqqalı yoxdur" deməsidir.

**Məsələ 2249.** Saqqalın hansı vasitə ilə, elektrikli, yaxud əl maşını, ülgüc, saqqal məcunu və ya digər kimyəvi maddələrin köməyi ilə qırxılmasının fərqi yoxdur və istənilən halda, vacib ehtiyata əsasən, caiz deyil.

**Məsələ 2250.** Bərbər, vacib ehtiyata əsasən, saqqalı qırxmaq müqabilində verilən pulun sahibi olmur.

**Məsələ 2251.** İnsanın saqqalını qırxmağa məcbur edildiyi və çıxış yolu olmadığı, yaxud zəruri müalicə üçün və bu qəbildən olan səbəblərlə saqqalını qırxmağa məcbur olduğu və ya saqqalın qırxılmaması zərər, yaxud dözülməz olan həddən ziyadə çətinlik törətdiyi hallarda saqqalı qırxmaq caizdir.

**Məsələ 2252.** Dodağın yuxarısındakı tüklərin (bığın) qısaldılmasının, yaxud qırxılmasının eybi yoxdur, əksinə müstəhəbdir, yuxarı dodağın üstünə düşəcək şəkildə uzadılması da haram deyil, ancaq özlüyündə məkruhdur.

## Mərcləşmə və qumar

**Məsələ 2253.** Yarışlarda, oyunlarda və udma, uduzma və rəqabətin mövcud olduğu digər xüsuslarda iki, yaxud daha artıq tərəfin mərcləşməsi haramdır.

Mərcləşmə deyərkən qalib gələnin uduzandan hər hansı bir şey, istər pul, istərsə maddi dəyəri olan başqa bir şey alacağının, yaxud uduzanın qalib üçün maddi dəyəri olan bir işi ödənişsiz olaraq görəcəyinin öncədən qərarlaşdırılması nəzərdə tutulur.

**Məsələ 2254.** Əgər iki şəxs idman yarışında, yaxud ev şəraitində oynanılan oyunlarda uduzanın qalibə müəyyən məbləğdə pul verməsi, yaxud oyun alətləri və oyun DVD-ləri ilə oynanılan oyunda uduzan tərəfin udana müəyyən məbləğdə pul verməsi, yaxud oyunun bütün xərclərini və ya hesabın öz payına düşəndən artıq hissəsini ödəməsi şərti ilə mərcləşərsə, buna qumar hökmü şamil olunur və caiz deyil.

**Məsələ 2255.** Əgər futbol, voleybol kimi idman yarışlarında, yaxud ev oyunlarında və bənzər hallarda tərəflərin hər biri ortaya qalib gələn şəxsin, yaxud komandanın özləri üçün yemək, yaxud başqa bir şey alması üçün müəyyən məbləğdə pul qoyarsa və ya bu yığılan pulla kubok, mükafat və ya bənzər bir şey hazırlanması və qalib gələn şəxsə, yaxud komandaya verilməsi nəzərdə tutularsa, buna qumar hökmü şamil olunur və caiz deyil.

Həmçinin, əgər bu hallarda uduzanın qarşı tərəfə müəyyən məbləğdə pul verməsindən mərc tutarlarsa, bu iş qumar hesab edilir və caiz deyil. Yalnız ortada bir iltizamın (öhdəliyin) və məcburiyyətin olmadığı və uduş müqabilində ödəniş anlaşması sayılmayan[1] hallar istisnadır.

**Məsələ 2256.** Mərcləşməyin haram olması məsələsində insanlar arasında heç bir fərq yoxdur. Buna əsasən, ər və arvad, ata və oğul, qardaşı və bacı, habelə qohumlar arasındakı mərcləşmə də caiz deyil.

---

[1] Yəni uduzan özünü ödəməyə məcbur hesab etməməli, qalib gələn də uduzanın üzərində ödəmə öhdəliyi olduğunu düşünməməlidir.

**Məsələ 2257.** Mərcləşməyin haram olması məsələsində müxtəlif növ yarışlar arasında heç bir fərq yoxdur və bu hökm üzgüçülük, futbol, voleybol, basketbol, tennis, stolüstü tennis (pinq-ponq), güləş, qaçış, tullanma (hündürlüyə və ya uzunluğa), avarçəkmə, ağırlıq qaldırma, velosiped sürmə, alpinizm və s. yarışlara şamildir. Yalnız "səbq" və "rimayə" adlı iki yarış istisna təşkil edir. Səbq atçılıq, dəvə yarışı və bu qəbildən olan heyvanlar arasında sürət müsabiqəsidir və müxtəlif növ hərbi texnika, döyüş təyyarələri (helikopterlər, qırıcılar), tanklar və s. arasındakı yarışlara də şamil olunur. Rimayə isə oxatma yarışıdır və döyüşdə istifadə edilən müxtəlif növ silahlarla atış, həmçinin, nizə atma, süngü döyüşü, qılıncoynatma yarışlarına da şamildir.

Bu iki yarışda ikitərəfli şəriətdə onlar üçün nəzərdə tutulmuş xüsusi şərtlərə və hökmlərə riayət etməklə mərcləşmə caizdir və mərcdə qoyulan pul, yaxud başqa bir şey halaldır. [1]

**Məsələ 2258.** Bəzi hallarda bir şəxs, yaxud təşkilat idman yarışlarını yarışçılardan müəyyən məbləğdə pul alaraq sonda qalib gələn komanda, yaxud idmançıya mükafat vermək surəti ilə təşkil edir. Belə hallarda pul verən şəxs, yaxud şəxslər onu alacaqlarını ehtimal etdikləri mükafat müqabilində verdikləri təqdirdə bu iş caiz deyil. Ancaq əgər həmin məbləği qarşılıq gözləmədən, yaxud ehtimal olunan mükafatın deyil, göstərilən xidmətlərin müqabilində verərlərsə, eybi yoxdur və bu halda mükafat verənin mükafatı onların öz pulu hesabına, yaxud başqa bir vəsait hesabına verməsi arasında heç bir fərq yoxdur.

**Məsələ 2259.** İdman yarışlarında tamaşaçıların oyunçuların, yaxud komandaların udması və uduzması üzərinə mərcləşməsi haramdır. Həmçinin, bəzi hallarda insanlar yarışların nəticələrinə dair proqnozlarını müxtəlif növ biletlərin üzərinə qeyd edərək müəyyən məbləğdə pulla birlikdə idman mərkəzi, yaxud başqa yerlərə təhvil verirlər[2] və sonda düzgün proqnoz verən şəxslərə mükafat verilir. Bu, qumar və haram sayılır və həmin pulu qəbul etmək də haramdır.

## Şahmat və digər qumar vasitələri

**Məsələ 2260.** Şahmat və nərdtaxta oyunlarının oynanılması oynayanların mərclə, yaxud mərcsiz, məsələn, əyləncə, başlarını qatmaq, intellekt və diqqətin artırılması üçün oynamasından asılı olmayaraq haramdır. Kart və pasur kimi digər qumar vasitələri mərcləşərək oynamaq

[1] Bununla əlaqədar hökmlərin izahı daha müfəssəl kitablarda öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, səbq və rimayədə tamaşaçıların, yaxud başqa şəxslərin deyil, yalnız atçı və oxatanların (öz aralarında) mərcləşməsi caizdir.

[2] Bu hökm internet və bənzər vasitələrlə proqnoz vermə və pul köçürməyə də şamil olunur.

haramdır, mərcsiz oynamaq isə, lazım ehtiyata əsasən, caiz deyil. Qumar vasitəsi olmayan digər şeylərlə oyunlar isə oyunçuların mərc ilə oynadıqları təqdirdə haramdır, ancaq mərcsiz oynadıqda öz-özlüyündə eybi yoxdur.

**Məsələ 2261.** Qumar vasitələrinin alqı-satqısı haramdır. Həmçinin, onların istehsalı və istehsalından əldə edilən qazanc da haramdır. Bir yerin qumar vasitələri ilə oyunların təşkili üçün icarəyə verilməsi də haram və batil işdir. Əksinə, əgər bu pis işdən çəkindirməyin, qumar oyunlarının qarşısının alınmasının yeganə yolu qumar vasitəsinin məhvi olarsa, onun məhv edilməsi vacibdir. Əlbəttə, əgər qumar vasitəsi başqasının əmlakı olarsa, vacib ehtiyata əsasən, onun məhv edilməsi üçün şəriət hakimindən icazə alınmalıdır.

**Məsələ 2262.** Kompyuterdə qumar vasitələri ilə mərcsiz oynamaq rəqib tərəf başqa bir oyunçu (insan) olduğu təqdirdə həmin vasitə ilə (canlı) oynamaq kimidir. [1]Ancaq əgər rəqib tərəf alətin özü (kompyuter) olarsa, lazım ehtiyata əsasən, caiz deyil.

**Məsələ 2263.** İnsanın hal-hazırda qumar vasitəsi olub-olmadığını bilmədiyi və əvvəllər də qumar vasitəsi olmayan bir oyunu mərcsiz oynamasının öz-özlüyündə eybi yoxdur. Ancaq əgər əvvəllər qumar vasitəsi idisə və hal-hazırda insanlar arasında qumar vasitəsi olmaqdan çıxıb-çıxmadığına şəkk edirsə, həmin oyunu oynaması caiz deyil (əvvəlki məsələlərdə verilən izahlara əsasən).

## Qeybət

**Məsələ 2264.** Qeybət haramdır. Qeybət deyərkən insanın bir isnaəşəri şiənin gizli eybini onun olmadığı bir yerdə, dalınca başqa bir şəxsin yanında istər həqarət və şəxsiyyətini alçaltmaq niyyəti ilə, istərsə belə bir niyyət olmadan danışması nəzərdə tutulur və əgər onun eybini onu alçaltmaq məqsədi ilə açıqlayarsa, iki günah etmiş sayılır.

**Məsələ 2265.** Əvvəlki məsələdə sözügedən eybin açıqlanması o halda qeybətdir ki, eyb gizli olsun. Buna əsasən, aşkar olan bir eyb haqqında danışmaq qeybət deyil. Ancaq bəzi hallarda aşkar olan eyblər haqqında danışmaq da mömin insanı alçaltmaq, biabır etmək, incitmək, ələ salmaq kimi və ya bu qəbildən olan başqa bir cəhətdən haram olur. Həmçinin, əgər danışan və eşidən şəxs məsələnin əslini bilirlərsə, ancaq təfərrüatlarından bəhs etmək başqa gizli eyb və eyblərin də aşkara çıxmasına səbəb olarsa, bu iş haramdır.

**Məsələ 2266.** Qeybət məsələsində insanın gizli eybinin onun bədənində, nəsəbində, ailəsində, davranışında, əxlaqında, yaxud danışığında,

---

[1] Yəni fətvaya əsasən haramdır. *Tərc.*

habelə dini, yoxsa dünyəvi işlərində olmasının heç bir fərqi yoxdur. Qeybətin haram olmasında üstüörtülü və açıq şəkildə bəyan etmə arasında da heç bir fərq yoxdur.

Həmçinin, eybi şifahi, yaxud yazılı surətdə və ya həmin eybi başa salan bir hərəkətlə, məsələn, baş işarəsi, əl və ya göz hərəkətlərilə açıqlamaq, ya da onu səs və video yazısı, qısa mesaj və s. vasitələrlə başqasına göstərmək arasında heç bir fərqi yoxdur. Buna əsasən, qeybət yalnız bir dil günahı deyil, daha geniş miqyasa malikdir.

**Məsələ 2267.** Qeybəti edilən şəxsin buna razı olması qeybətin haramlığını aradan qaldırmır. Buna əsasən, hətta əgər qeybət edən şəxs qeybət edərkən qeybəti edilən şəxsin özünün gizli eybindən başqa bir şəxsə danışılmasına razı olduğunu və narahat olmadığını bilsə belə, onun gizli eybindən danışmaq qeybətdir və haramdır.

**Məsələ 2268.** Qeybətdə qeybəti edilən şəxs məlum və müəyyən olmalıdır. Beləliklə, əgər insan: "Şəhər sakinlərindən biri qorxaqdır", yaxud "Hüseynin övladlarından biri qorxaqdır", - deyərsə və məhz kimin nəzərdə tutulduğu məlum olmazsa, bu qeybət deyil, lakin bəzi hallarda mömin insanın alçaldılması, məzəmmət və təhqir edilməsi, incidilməsi, ələ salınması kimi başqa bir səbəb və ünvanla haram ola bilər.

**Məsələ 2269.** Bəzi insanlar bir şəxsin eybini onun olmadığı bir yerdə danışır və etirazla qarşılaşdıqda: "Mən bu sözü onun özünün yanında da deyirəm", yaxud: "Bu qeybət deyil, onun xüsusiyyətidir, yaxud həqiqətdir" və ya: "Qeybət olmasın, filankəs paxıl adamdır", - deyirlər. Nəzərdə saxlamaq lazımdır ki, bu əsassız üzrlər insanın qeybətini caiz etmir. Hətta əgər eybin onun barəsində danışan şəxs tərəfindən açıqlanması eşidən şəxsin baxışına(qeybəti edilən insanın şəxsiyyətinin alçalıb-alçalmaması baxımından) heç bir təsir göstərməsə belə, yenə də qeybət sayılır və haramdır.

**Məsələ 2270.** Pis işdən çəkindirmək vacib olduğuna görə bunun üçün gərəkli zəmin (şərtlər) mövcud olduğu təqdirdə qeybətdən çəkindirmək də vacibdir. Müstəhəb ehtiyata əsasən, qeybət eşidən şəxs qeybəti edilən insana yardım etməli, onu müdafiə etməli və qeybətinin edilməsinin qarşısını almalıdır. Bir şərtlə ki, bu iş fəsad doğurmamalıdır.

**Məsələ 2271.** İnsan isnaəşəri şiənin qeybətini edərsə, qeybət günahına görə tövbə etməli və müstəhəb ehtiyata əsasən, qeybəti edilən şəxsdən halallıq almaq xoşagəlməz nəticələrə yol açmayacağı təqdirdə bu işi görməli, yaxud onun üçün istiğfar etməlidir (Allahdan günahlarının bağışlanmasını diləməlidir). Hətta qeybətin qeybəti edilən şəxsə qarşı bir həqarət və hörmətsizlik məzmunu ehtiva etdiyi hallarda əgər ondan halallıq istəmək ona qarşı hörmətsizlik və həqarət səhvinin düzəldilməsi

hesab edilirsə, ehtiyata əsasən, hər hansı bir fəsadı olmadığı təqdirdə ondan halallıq istəməlidir.

**Məsələ 2272.** Bir neçə halda başqasının dalınca danışmaq qeybət sayılsa da eybi yoxdur. Həmin hallardan bəziləri aşağıdakılardır:

1. Açıqca günah iş görən və gördüyü işə tövbə etməyən şəxsin günahını dalınca başqa bir şəxsə açıq şəkildə danışmaq olar. Ancaq onun gizli eyblərini açıqlamaq caiz deyil.
2. Başqa bir şəxs tərəfindən zülm və haqsızlığa məruz qalan şəxsin onun qeybətini etməsi caizdir. Lakin, vacib ehtiyata əsasən, zülmə, haqsızlığa məruz qalan şəxs yalnız qeybətin üçüncü şəxs(lər)dən kömək istəmək məqsədi daşıdığı halla kifayətlənməlidir.
3. Bir şəxs evlənmək kimi bir məsələdə məşvərətləşmək istəyərsə, ona məsləhət vermək, yol göstərmək hərçənd haqqında məlumat almaq istədiyi şəxsin eybinin aşkar olması ilə nəticələnsə belə, caizdir. Lakin bu halda zərurət həddi ilə kifayətlənmək lazımdır. Lakin əgər bir insan başqa bir insana öz təşəbbüsü ilə, qarşı tərəfin məşvərət istəyi olmadan məsləhət vermək, yol göstərmək istəyərsə, ona üçüncü şəxs(lər)in qeybətini etməsi yalnız məsləhət vermək istədiyi insana yol göstərmədiyi halda böyük bir fəsadın meydana gələcəyini bildiyi təqdirdə caizdir.
4. Qeybətin məqsədinin qeybəti edilən şəxsi günahdan çəkindirmək olduğu halda; bu şərtlə ki, onu başqa bir yolla pis işdən çəkindirmək mümkün olmamalıdır.
5. Qeybəti edilən şəxsin əməli dinə zərər yetirmək təhlükəsi olan bir əməldirsə, bu halda dinlə bağlı bir zərərin meydana gəlməməsi məqsədilə onun qeybətini etmək caizdir, lakin yalnız sözügedən zərəri dəf etmək üçün gərəkli olan qədəri ilə kifayətlənmək lazımdır.
6. Mühakimə məqamında, məhkəmə hökm çıxararkən şahidlərin adilliyinə irad tutmaq və onların şahidliyini rədd etmək.
7. Qeybətdə məqsəd qeybəti edilən şəxsi qorunması vacib olan bir zərərdən qorumaq olduğu halda.

## Yalan

**Məsələ 2273.** Yalan danışmaq haramdır. Yalan gerçək olmayan bir şeydən xəbər vermək deməkdir. Yalanın haram olması məsələsində insanın onu şifahi surətdə söyləməsi, yazması, yaxud işarə ilə başa salması arasında, həmçinin, danışdığı yalanı bir kitabda görməsi (başqa bir mənbədən əxz etməsi) ilə özünün uydurması arasında heç bir fərq yoxdur.

**Məsələ 2274.** Əgər danışıq, yaxud davranış tərzindən və ya insanın halından və s. zarafat olduğu bəlli olmazsa, zarafatyana yalan haramdır.

Hətta əgər bəlli olsa da, belə ki, həmsöhbəti danışanın ciddi danışmadığını başa düşsə belə, vacib ehtiyata əsasən, caiz deyil. Lakin əgər insan bir məsələni zarafat kimi danışarsa, bir hadisəni nəql etmək, onun barəsində xəbər vermək niyyəti olmazsa, yalan sayılmır.

## İmtahanlarda saxtakarlıq

**Məsələ 2275.** Orta məktəb, universitet və digər müəssisələrin imtahanlarında istər yanındakı şagird, yaxud tələbədən kömək almaq, istər gizlicə vərəqlərdən[1] istifadə etmək, istər nəzarətçiləri çaşdırmaq və diqqətini yayındırmaq, istərsə hər hansı bir başqa yolla saxtakarlıq caiz deyil.

**Məsələ 2276.** Bəzi imtahanlarında saxtakarlığa yol verərək bakalavr, magistr və doktorantura diplomu kimi ali təhsil haqqında sənədlər əldə edən tələbə günah etmiş sayılır və əgər bunun əsasında daha yüksək məbləğdə maaş alırsa, üzərinə qoyulmuş vəzifələrə düzgün əməl etdiyi təqdirdə maaşı halaldır. Lakin əgər aldığı təhsil haqqında sənədə uyğun ixtisas bilik və bacarıqlarına sahib deyilsə, özünü hər hansı bir dövlət, yaxud özəl müəssisəyə işə qəbul edilmək üçün bu ünvanla (sözügedən ixtisasa sahib mütəxəssis kimi) təqdim etməsi caiz deyil. Qeyd etmək lazımdır ki, saxta üsulla təhsil haqqında sənədlərin, rəsmi sənədlərin və bu qəbildən olan digər sənədlərin hazırlanması və onların həqiqi sənədlər kimi təqdim edilməsi istənilən halda caiz deyil.

## Dilin bəzi günahları

**Məsələ 2277.** Mömini söymək, ona nalayiq sözlər demək haramdır. Nalayiq sözlər ciddi şəkildə söylənildikdə söyüş hesab edilir. Lakin əgər ciddi məqsəd olmazsa, məsələn, zarafat üçün söylənilərsə, həqarət sayılmaq kimi başqa bir ünvanla haram ola bilər. Söyüşün haram olması məsələsində söyülən şəxsin həmin yerdə olması ilə olmaması arasında heç bir fərq yoxdur. Söyüşün ayırd edilməsinin meyarı ürfdür (insanlardır) və ürfən (insanların nəzərində) söyüş hesab edilən şeylər haramdır. Bu qəbildən olub-olmamasına şəkk edilən şeylər isə haram deyil.

**Məsələ 2278.** Söyüş və nalayiq sözlər söyləməyin haram olması məsələsində dillər arasında heç bir fərq yoxdur. Hətta əgər bir dildə danışan insanı başqa bir dildə söysələr və söyülən şəxs bunun mənasını başa düşməsə belə, bu haramdır. Həmçinin, söyüşün haram olması məsələsində insanlar arasında fərq yoxdur. Yalnız şəriətə müxalif olan

---

[1] Danışıq dilində rus mənşəli "şparqalka" sözü ilə ifadə edilən, imtahan mövzularına dair məlumatlar ehtiva edən və qabaqcadan hazırlanaraq gizli yolla imtahanın keçirildiyi yerə gətirilmiş şeylər nəzərdə tutulur. *Tərc.*

və şəriətin hörmətinin saxlanmasını lazım görmədiyi bidətçi insan istisnadır. Həmçinin, haramlıq məsələsində yetkin insanla həddi-büluğa çatmamış insanı söymək arasında və valideynlə övlad, arvadla ər, qardaşla bacı, müəllimlə şagird, sahibkar (idarəedici) ilə işçi arasında və s. fərq yoxdur.

**Məsələ 2279.** Möminin həcv edilməsi haramdır. Həcv deyərkən istər nəsrlə, istərsə şeirlə onun eyblərini açıqlamaq, haqqında xoşagəlməz sözlər sərf etmək nəzərdə tutulur. Mömin insan istisna olmaqla digər hər hansı bir şəxsi də pisləmək və qınamaq yaxşı iş deyil. Yalnız ümumi (ictimai) mənafeyin bunu tələb etdiyi hal istisna təşkil edir və bəzən bu məqamda pisləmək və qınamaq vacib olur. Məsələn, insanların onun bidətinə rəğbət göstərməməsi üçün mənəviyyatsız, bidətçi şəxsin pislənməsi və qınanması bu qəbildəndir.

**Məsələ 2280.** Nəzakətsiz sözlər danışmaq hərçənd danışan şəxsin söyüş söymək niyyəti olmasa belə, haramdır və nəzakətsiz sözlər deyərkən ürfən istənilən şəxsə qarşı, yaxud öz həyat yoldaşından başqa istənilən şəxsə qarşı söylənilməsi çirkin və qəbahətli hesab edilən sözlər nəzərdə tutulur. Belə sözlərin birinci qisimə aid olanlarının istənilən şəxsə söylənilməsi haramdır. İkinci qisimə aid olanlarının isə həyat yoldaşından başqa şəxslərə söylənilməsi caiz deyil, ancaq həyat yoldaşına söylənilməsi caizdir. Əlbəttə, əgər həyat yoldaşına söyüş məqsədi ilə deyilərsə, söyüş baxımından haramdır.

## Kişilər üçün qızıl zinət əşyaları

**Məsələ 2281.** Qızıla bürünmək və qızıl zinət əşyalarından istifadə etmək, məsələn, ələ qızıl üzük və ya qızıl qolbaq taxmaq, yaxud boyuna qızıl boyunbağı asmaq, yaxud biləyə qızıl saat taxmaq və s. istər namazda, istərsə digər vaxtlarda kişi üçün haramdır və sadalananlar üzərində ikən qıldığı namaz batildir.

**Məsələ 2282.** Kişilər üçün öncəki məsələdə izah edilən şəkildə qızılın istifadəsinin haram olması məsələsində onun növləri arasında heç bir fərq yoxdur, istər sarı qızıl olsun, istər qırmızı qızıl, istərsə ağ qızıl. Lakin nəzərə almaq lazımdır ki, platin qızıl deyil, qızıldan fərqli bir metaldır və kişilər üçün ondan istifadə etməyin eybi yoxdur. [1]

[1] a) Xalis qızıl (Au79) azacıq elastikliyə malik quru metaldır. Davamlılığını (möhkəmliyini) və elastikliyini artırmaq üçün onu bir miqdar başqa bir metalla qarışdırırlar. Xalis qızılın qarışıqdakı nisbət payı “əyar”, digər filizin nisbət payı isə “bar” adlandırılır. Məsələn, 18 əyarlı qızıl deyərkən onun bir misqalında 18 noxud xalis qızıl və 6 noxud başqa metal olması nəzərdə tutulur. Əgər “bar” misal olaraq bürünc (mis və sink xəlitəsi) olarsa, qızılın rəngi sarı qalır. Bar, məsələn, mis olarsa, qızılın rəngi qırmızı olur. Bar gümüş olduğu təqdirdə isə qızılın rəngi ağ olur. Müasir dövrdə sarı qızılı ağ barla, yəni gümüş (Ag47), yaxud titan (Ti22)

**Məsələ 2283.** Bir kişi bilərzik və ya üzüyünün qızıldan olub-olmadığını bilməzsə, yaxud bilərzik və ya üzüyünün qızıldan olub-olmamasına şəkk edərsə və onunla namaz qılarsa, sonra qızıldan olduğunu başa düşərsə, namazı doğrudur.

**Məsələ 2284.** Bir kişi bilərzik, üzük, yaxud boyunbağısının qızıldan olduğunu unudarsa və onunla namaz qılarsa, sonra onun qızıldan olduğunu xatırlayarsa, namazı doğrudur.

Həmçinin, bu məsələni bilmədiyinə görə qoluna qızıl bilərzik bağlayan kişi qasir cahil olduğu (bilməməsi üzrlü səbəbdən irəli gəldiyi) halda keçmiş namazları doğrudur. Ancaq əgər müqəssir cahil olmuşdursa (bilməməsi üzrlü səbəbdən irəli gəlmirdisə), keçmiş namazlarını vaxtı başa çatmadığı təqdirdə yenidən qılmalı, vaxtı keçdiyi təqdirdə isə qəzasını qılmalıdır.

## Narkotik maddələr və siqaret

**Məsələ 2285.** Əhəmiyyətli dərəcədə zərərli olduğu təqdirdə zərərin daimi aludəçilik, yaxud başqa bir səbəblə törənməsindən asılı olmayaraq narkotik maddələrin istifadəsi haramdır. Vacib ehtiyata əsasən, mütləq şəkildə (hətta əhəmiyyətli dərəcədə zərəri olmadığı halda belə) ondan çəkinmək lazımdır.

**Məsələ 2286.** Siqaret çəkməyin yeni başlayan şəxs üçün bir üzvün itirilməsi (hətta gələcəkdə baş versə belə) kimi əhəmiyyətli dərəcədə zərəri olarsa, haramdır. İstər sözügedən zərər məlum olsun və insan onun gerçəkləşəcəyinə əmin olsun, istərsə zərərin dəyəcəyi güman edilsin, yaxud aqil insanların həmin şəxsin sağlamlığını itirəcəyindən qorxmasına əsas verəcək həddə ehtimal edilsin. Ancaq hərçənd az çəkmək səbəbi ilə olsa belə, ağır zərərdən qorunarsa, haram deyil.

Siqaret aludəçisi olan şəxsə gəlincə, əgər siqaret çəkməyə davam etməsi əhəmiyyətli dərəcədə bir zərər törədərsə, ondan əl çəkməli və siqaret çəkməyi tərgitməlidir. Yalnız siqareti tərgitməyin başqa bir zərərə (məsələn, siqaret çəkməklə eyni dərəcədə, yaxud ondan daha ağır zərərə) səbəb olduğu, yaxud onun üçün həddən ziyadə, bir qayda olaraq dözülməz dərəcədə çətin olduğu hallar istisna təşkil edir.

---

kimi ağ rəngli bir metalla qarışdıraraq ağ qızıl adlandırılan bir xəlitə alırlar. Beləliklə, ağ qızıl elə həmin sarı qızıldır, sadəcə rəngi dəyişmişdir.

b) Platin (Pt78) nadir tapılan metaldır. Bir element olaraq qızıldan fərqlidir, qiyməti də qızıldan bahadır. Quru çörək kimi qurudur və qopardılması çətindir. Yumşaq və elastik olması üçün ona gümüş kimi bir bar qatılır. Platinlə adətən qalın, ağ qızılla isə zərif və nazik zinət əşyaları hazırlanır.

## "Silət ər-rəhim" və "qət ər-rəhim" (qohumlarla əlaqə saxlamaq və əlaqəni kəsmək)

**Məsələ 2287.** Qohumlarla əlaqəni kəsmək hərçənd həmin qohum əvvəlcə əlaqəni kəssə, yaxud namaz qılan olmasa, yaxud içki içən olsa, yaxud dinin bəzi hökmlərinə qarşı etinasız olsa və ona öyüd-nəsihət də faydasız olsa belə, haramdır. Əlbəttə, əgər qohumlarla əlaqənin müəyyən bir növü onun haram işini dəstəkləmək, yaxud onu pis işə təşviq etmək, ya da insanın özünün günaha düşməsi ilə nəticələnərsə, həmin növ qohumlarla əlaqə caiz deyil və insanın vəzifəsi qohumlarla başqa cür əlaqə saxlamaqdır.

**Məsələ 2288.** Qohumlarla əlaqənin müxtəlif üsulları vardır və bu yalnız görüşmək və qohumun evinə getməklə həyata keçirilmir. İnsan telefon əlaqəsi, məktub yazmaq, e-mail və qısa mesaj göndərmək, qohumla iş yerində, yaxud yolda görüşmək, kiminsə vasitəsi ilə hal-əhval tutmaq, yaxud hərçənd maddi yardıma ehtiyacı olduğu hallarda ona maddi yardım göndərmək yolu ilə olsa belə, ona yaxşılıq etmək və bu qəbildən olan üsullarla bu ilahi vəzifəni həyata keçirə bilər. Ancaq nəzərə almaq lazımdır ki, qohumlarla əlaqə şəxslərdən və vəziyyətlərdən asılı olaraq fərqli şeylər tələb edə bilər və hər bir vəziyyətdə insanların adətən həmin vəziyyətdə etdiyi yaxşılıqları nəzərdə saxlamaq lazımdır. Məsələn, bəzən vəziyyətin özəlliyi ilə əlaqədar olaraq başqa bir şəxsin vasitəsi ilə hal-əhval tutmaq, yaxud salam göndərmək vacib olan qohumlarla əlaqənin həyata keçirilməsi üçün kifayət etmir və bu göstəriş başqa bir üsulla yerinə yetirilməlidir.

**Məsələ 2289.** "Silət ər-rəhim"də nəzərdə tutulan qohumlar insanla nəsəb bağlılığı olan və camaat arasında qohum sayılan şəxslərdir. Buna əsasən, qohumlar xüsusunda meyar ürf, yəni insanlardır. Əmi, bibi, dayı, xala və onların övladları qohumların ən bariz nümunələrindəndir. Yalnız evlənmək səbəbi ilə insana qohum olan qayın, baldız, əmiarvadı kimi şəxslər burada nəzərdə tutulan "rəhim" (qohumlar) qismindən hesab edilmir. Həmçinin, yalnız südvermə vasitəsi ilə insana qohum olan şəxslər də onun "rəhim"i hesab edilmir.

## Valideynə itaət

**Məsələ 2290.** Övladın ata-ana qarşısında onlarla əlaqədar işlər xüsusunda icrası vacib olan vəzifəsi iki şeydir:

1. Onlara yaxşılıq: Onlara yaxşılıq deyərkən yoxsul və möhtac olduqları təqdirdə onlara maddi yardım etmək, yaşayış ehtiyaclarını

təmin etmək, həmçinin, insan təbiətinin tələb etdiyi miqyasda, normal həddə olan istəklərini həyata keçirmək nəzərdə tutulur və bu qədərindən imtina etmək ata-ananın övlada qarşı yaxşı davranışları müqabilində naşükürlük hesab edilir. Valideynlərin vəziyyətinin maddi və fiziki sağlamlıq imkanları, yoxsul olub-olmamaq, bədən baxımından güclü və zəif olmaq və s. baxımından müxtəlif olması nəzərə alınmaqla bu yaxşılıq da fərqlidir.

2. Hərçənd valideyn ona zülm etmiş olsa da, onlarla yaxşı davranmaq, istər danışıq, istərsə rəftar baxımından onlara qarşı ədəbsizlik etməmək. Hədislərdə deyildiyi kimi: "Əgər səni vursalar, de:"Allah sizi bağışlasın". [1]

**Məsələ 2291.** Ata-ana qarşısında onun özü ilə əlaqədar işlər xüsusunda, məsələn, valideyn ondan hər hansı bir yerə getməməsini, yaxud hər hansı bir işi görməməsini istədikdə və övladın qarşı çıxması ilə ata-ana, yaxud onlardan biri narahat olduqda övladın vəzifəsi iki cür ola bilər:

a. Onların narahat olması övladlarına qarşı qayğı və şəfqətdən irəli gəlirsə, bu halda istər ata, yaxud ana onu bir hərəkətdən çəkindirdikdə, istər hər hansı bir işi görməyə sövq etdikdə, istərsə yalnız övladın onların istəyinə qarşı çıxmasından narahat olduqda övladın onların istəyinə bu şəkildə qarşı çıxması haramdır. Buna əsasən, əgər valideyn övladın dostluq etdiyi bəzi şəxslərlə əlaqəsindən narahatdırsa və qəlbən inciyirsə, hərçənd valideyn bu əlaqəyə qadağa qoymasa da, övladın bu yoldaşlıqdan uzaqlaşması vacibdir. [2]

b. Onların narahat olması övladlarına qarşı qayğı və şəfqətdən irəli gəlmirsə, övladı bir şeyə sövq edərkən, yaxud bir şeydən çəkindirərkən yalnız öz şəxsi mənafelərini nəzərə alırlarsa, bu halda onlara qarşı çıxmaq olar. Əlbəttə, bunu da nəzərə almaq lazımdır ki, bu qarşı çıxma və itaətsizlik əvvəlki məsələdə izah edilən valideynlərlə yaxşı davranmaq vəzifəsinə zidd sayılacaq şəkildə olmamalıdır. Həmçinin, əgər valideyn pis xislətləri, rəzil əxlaqi keyfiyyətləri səbəbi ilə övladı yaxşı iş görməkdən çəkindirir və pis iş görməyə sövq edirsə, onlara itaət vacib deyil.

Habelə, ata, yaxud ananın ondan bir haram iş görməsini istədiyi bütün hallarda övlad onların istəyini yerinə yetirməməlidir və Allahın vacib buyurduğu bir işi görməməyə, yaxud Allahın haram etdiyi bir işi görməyə sövq etdikləri zaman onlara qarşı çıxmaq vacibdir. Buna əsasən, əgər ata və ana övladlarını namaz qılmamağa, oruc tutmamağa,

---

[1] ***Üsul əl-kafi,*** Kitab əl-iman vəl-küfr, Bab əl-birr bil-valideyn, 1-ci hədis.

[2] Aydındır ki, əgər onlarla yoldaşlıq şəriətə zidd işlər görməyə səbəb olacaqsa, hətta valideyni narahat etmədiyi təqdirdə də onlardan uzaqlaşmaq vacibdir.

naməhrəmlər qarşısında hicab normalarına riayət etməməyə sövq edərsə, yaxud övladlarının lazım olan şəriət məsələlərini öyrənməsinə qarşı çıxarsa, övlad onların istəyinə tabe olmamalıdır və valideyn bu baxımdan narahat olduğu təqdirdə bu narahatçılığa görə övlad hər hansı bir məsuliyyət daşımır.

Bununla bağlı Möminlərin əmirindən (ə) nəql edilən bir hədisdə o belə buyurur: "Xaliqə üsyan etmək bahasına məxluqa itaət etmək yolverilməzdir". [1]

## Bəzi yaxşı və pis işlərlə bağlı bir neçə məsələ

**Məsələ 2292.** Sinə döymək, ağlamaq və üzə sillə vurmaq, hərçənd möhkəm olsa belə, əgər Şəhidlərin sərvəri (ə) üçün hüzn və naratlıqdan irəli gəlirsə, onun üçün kədərlənmək və göz yaşı axıtmaq qismindən sayılır və bu, ciddi bir zərər qorxusu olmaması şərti ilə müstəhəb bir iş olub uca Allahın dərgahına yaxınlaşmağa səbəbdir. Nəzərə almaq lazımdır ki, Həzrət Hüseynə (ə) əzadarlıq ən önəmli dini mərasimlərdəndir və onun layiqincə təşkil edilməsi üçün səy göstərməkdə səhlənkarlığa yol verilməməlidir.

**Məsələ 2293.** Qara rəngli paltar geyinmək Həzrət Əbu Abdullah əl-Hüseyn (ə) və hidayət imamları (ə) üçün əzadarlığın ürfi nümunələrindəndir. Bu, müstəhəb bir işdir və çox təkidlə tövsiyə edilmişdir.

**Məsələ 2294.** Məsum imamların şəhid olduqları tarixlərin ildönümü günlərində və gecələrində toy məclislərinin təşkil edilməsi və şadlıq karvanlarının yollarda hərəkət etməsi bu günlərə və hadisələrə qarşı hörmətsizliyə yol açdığı təqdirdə caiz deyil.

**Məsələ 2295.** İnsanın özü, yaxud başqa bir şəxs üçün doğum (ad) günü keçirməsi şəriətə zidd bir iş və davranışla müşayiət edilmədiyi təqdirdə eybi yoxdur. Lakin daha yaxşı olar ki, insan doğum tarixini nəfsini və əməllərini sorğu-suala çəkmək məqamı kimi təyin etsin.

**Məsələ 2296.** İstimna (masturbasiya) əllə, hər hansı bir filmə (videoya), yaxud şəkilə baxmaqla, xəyal qurmaqla və ya bu qəbildən olan başqa bir üsulla edilməsindən asılı olmayaraq haramdır və bu məsələdə qadınla kişi arasında fərq yoxdur.

---

[1] ***Vəsail əş-şiə,*** Kitab əl-qəza, Əbvab-u sifat əl-qazi, 10-cu bab, 17-ci hədis.

# XÜMS

**Məsələ 2297.** Bir neçə halda xüms vacib olur:

1) Əmək haqqı və eləcə də bəzi hallarda başqa yolla əldə edilən gəlir;
2) Haram mala qarışmış halal mal;
3) Mədən;
4) Xəzinə;
5) Dalğıclıq yəni, dənizlərin dibinə baş vurmaq üsulu ilə əldə edilən cəvahirat;
6) Döyüş qəniməti;
7) Məşhur nəzərə əsasən, zimmi kafirin müsəlmandan satın aldığı torpaq sahəsi.

## Əmək haqqı və digər gəlirlər

Xümsün hansı əmlaka aid olduğunu və hansı əmlakın xümsünün olmadığını bəyan etməzdən öncə xüms ili ilə bağlı hökmlər izah ediləcəkdir.

## Xüms ili və onunla əlaqədar hökmlər

**Məsələ 2298.** Tacir, xırda alverçi, sənətkar,işçi, əkinçi, müəllim, fəhlə və digər işləyəninsanların işə başlamasından bir il keçdikdən sonra onların xüms ili çatır və illik xərclərindən artıq qalan qazancın, hərçənd bir gün öncə əldə edilən gəlir olsa belə, xümsünü (beşdə birini) verməlidirlər. Yəni il(xüms ili) başa çatdıqda əldə olan və məunəyə (xərclərə) sərf edilməyən hər bir malın xümsünü (2316-cı və sonrakı məsələlərdə izah ediləcək qaydada) verməlidir. Buna əsasən, işləyən insanlar üçün xüms ilinin başlanğıcı işə başladıqları gündür. İşləyən insanlar hər mənfəət və əmək gəliri üçün ayrıca xüms ili nəzərdə tuta bilməzlər. Yalnız əgər gəlir və xərclərini bir-birindən ayırdıqları bir neçə muzdlu işlə məşğul olarlarsa, bu halda hər bir muzdlu iş üçün ayrıca xüms ili təyin edə bilərlər.

**Məsələ 2299.** İlin müəyyən vaxtlarında gəliri olan şəxslərin, məsələn, bəzi xətiblərin (din xadimlərinin), bəzi bağbanların və əkinçilərin il ərzində əmək yolu ilə əldə etdikləri gəlirlərin cəmi onların illik xərcləri ilə nisbətdə önəmli həcmdədirsə, işləyən şəxs hesab edilirlər və hər bir gəlir üçün ayrıca xüms ili təyin edə bilməzlər.

Xüms məsələsində bir insanın işləyən şəxs hesab edilməsinin meyarı onun il ərzində əldə etdiyi gəlirin illik xərcləri ilə nisbətdə önəmli miqdarda olmasıdır. Məsələn, əgər insanın əmək fəaliyyəti ilə əldə etdiyi gəlir xərclərinin 5%-i həcmindədirsə, həmin şəxs ürfən işləyən şəxs hesab edilmir. Ancaq əgər əmək fəaliyyəti nəticəsində əldə etdiyi gəliri xərclərinin 25%-i həcmində olarsa, işləyən şəxs sayılır. Ürfən işləyən şəxs hesab edilmə xüsusunda tərəddüd hallarında işləyənlər və işsizlərlə əlaqədar qarşıdakı məsələlərdə izah ediləcək hökmlər arasında ehtiyatın tələbinə riayət etmək lazımdır.

**Məsələ 2300.** İşləyən şəxslər təsadüfi gəlirləri, məsələn, əmək fəaliyyəti sferasına daxil olmayan bir şeyin satışından əldə etdikləri mənfəət, yaxud onlara hədiyyə edilən bir mal üçün ayrıca xüms ili təyin edə bilməzlər.

**Məsələ 2301.** İşsizlər, yəni gəliri ilə yaşayış xərclərini təmin etdiyi bir işi olmayan, dövlət müavinətlərindən və insanlar tərəfindən verilən ianələrdən yararlanan, yaxud təsadüfən bir yerdən mənfəət əldə edən şəxslər həmin mənfəəti əldə etdikləri vaxtdan bir il keçdikdən sonra illik xərclərindən artıq qalan miqdarın xümsünü verməlidirlər və hər bir mənfəət üçün ayrıca xüms ili nəzərdə tuta bilərlər.

**Məsələ 2302.** İşsizlər üçün xüms ilinin başlanğıcı onların sözügedən mənfəətin sahibi (mülkiyyətçisi) olduqları vaxtdır, onu başqa bir şeylə əvəz etdikləri (onunla başqa bir şey aldıqları) vaxt deyil. Məsələn, işləməyən və övladlarının maddi yardımı ilə yaşayan bir şəxs təsəvvür edin. Övladlarından biri mehr[1] ayının əvvəlində ona 400. 000 riyal məbləğində pul bağışlayır. O, azər[2] ayının əvvəlində bu pulla müəyyən məbləğdə düyü alır. O, bu düyü üçün ayrıca[3] xüms ili nəzərdə tuta bilər. Ancaq xüms ilinin başlanğıcı həmin pulla düyünün alındığı vaxt (azər ayının əvvəli) deyil, düyünü almaq üçün istifadə etdiyi pulun sahibi olduğu vaxtdır (yəni mehr ayının əvvəlidir). Beləliklə, həmin düyü gələn ilin mehr ayının əvvəlinədək qaldığı təqdirdə qalan miqdarın xümsünü verməlidir.

**Məsələ 2303.** İnsan xüms ilini şəmsi (günəş), yaxud qəməri (ay) təqvimi ilə təyin edə bilər və həmçinin, xüms ilini dəyişdirə bilər. Belə ki, əgər onu sonraya salmaq istəyərsə, məsələn, xüms ili fərvərdin[4] ayının əvvəlində idisə və indi onu tir[5] ayının əvvəlinə təyin etmək istəyirsə,

---

[1] İran İslam Respublikasının rəsmi təqvimi olan şəmsi təqvimin 7-ci ayı. Başlanğıcı miladi təqvimlə 23 sentyabra təsadüf edir. *Tərc.*

[2] Şəmsi təqvimin 9-cu ayı. Başlanğıcı miladi təqvimlə 22 noyabra təsadüf edir. *Tərc.*

[3] Digər malları üçün təyin etdiyi xüms ili tarixi, yaxud tarixlərindən başqa. *Tərc.*

[4] Şəmsi təqvimin 1-ci ayı. Başlanğıcı 21 marta təsadüf edir. *Tərc.*

[5] Şəmsi təqvimin 4-cü ayı. Başlanğıcı 22 iyuna təsadüf edir. *Tərc.*

fərvərdin ayının əvvəlində malının xümsünü verməli, sonra tir ayı başladıqda son üç ayın gəlirinin də xümsünü verməlidir və bu qayda ilə onun xüms ili dəyişir. Əgər xüms ili tarixini irəliyə çəkmək istəyərsə, məsələn, fərvərdinin əvvəlindən dey[1] ayının əvvəlinə dəyişdirmək istəyərsə, xüms ilinin dəyişməsi üçün dey ayının əvvəlində, yəni üç ay tez bütün gəlirlərinin xümsünü verməlidir.

**Məsələ 2304.** Əgər insan mənfəət və gəlir əldə edər və il ərzində dünyasını dəyişərsə, vəfat tarixinədək məsrəf edilmiş yaşayış xərcləri həmin mənfəətdən çıxılır,yerdə qalan gəlirin xümsünün dərhal, xüms ilinin başa çatmasını gözləmədən verilməsi vacibdir və kəfən, dəfn və yas məclisinin xərci kimi vəfatından sonrakı xərclər yerdə qalan gəlirdən çıxıla bilməz. Əlbəttə, əgər vəfat edən şəxs sağlığında qəsdən xüms verməyən şəxslərdən idisə və xümsün verilməsinə dair vəsiyyət də etməmişdirsə, onun sonuncu ilinin gəlirinin xümsünü vermək varislərinə vacib deyil.

**Məsələ 2305.** İnsan il ərzində nə vaxt gəlir əldə edərsə, onun xümsünü verə bilər və xümsün verilməsini xüms ilinin sonunadək təxirə sala da bilər. Lakin əgər ilin sonunadək həmin gəlirə ehtiyacının olmayacağını bilirsə, vacib ehtiyata əsasən, dərhal onun xümsünü verməlidir.

## Xümsü vacib olmayan gəlirlər

**Məsələ 2306.** Əvvəlki məsələlərdən də aydın olduğu kimi insanın xümsünün verilməsi lazım olan gəlirləri iki qisimə bölünür:

a) əmək fəaliyyəti nəticəsində əldə edilən gəlirlər: Buraya insanın ticarət, sənətkarlıq, əkinçilik, işə götürmə yolu ilə qəbul edildiyi və maaş müqabilində işlədiyi işlər, fəhləlik, mənzil, mağaza və digər daşınan və daşınmaz əmlakın icarəyə verilməsi, suda və quruda yaşayan heyvanların ovlanması, çöl və meşələrdən dərman bitkiləri kimi mübah olan şeylərin toplanması, yaxud başqa qazanc yolları ilə əldə etdiyi pul və mallar, hətta dünyadan köçmüş şəxsin namazlarını qılmaq və oruclarını tutmaq müqabilində əldə etdiyi ücrət daxildir.

b) əmək fəaliyyətindən başqa yollarla əldə edilən gəlirlər: Buraya insanın əmək fəaliyyətindən başqa bir yolla əldə etdiyi, məsələn, ona hədiyə edilən, bağışlanılan, mükafat olaraq verilən, yaxud vəsiyyət əsasında mülkiyyətinə keçən bütün pul və mallar daxildir. [2]

"A" və "b" bəndlərinə daxil olan bütün gəlirlər xüms ilinin sonunadək yaşayış xərclərinə sərf edilməzsə, insanın özünün və ailəsinin illik

[1] Şəmsi təqvimin 10-cu ayı. Başlanğıcı 22 dekabra təsadüf edir. *Tərc.*

[2] Qarşıdakı məsələlərdə qeyd ediləcək hallar istisna olmaqla.

xərclərindən artıq qalarsa,[1] xümsü verilməlidir.

**Məsələ 2307.** Bir şəxs xümsü verilmiş bir malı (buna "müxəmməs" deyilir), yaxud "müxəmməs" hökmündə olan[2] bir malı, məsələn, ona miras qalan bir malı başqa bir şəxsə hədiyyə edərsə, həmin mal qəbul edildikdən sonra hədiyyəni alan şəxsin illik gəlirindən sayılır və xüms ilinin sonunadək qalarsa və məunəyə[3] **sərf edilməzsə, hədiyyəni qəbul edən şəxs onun xümsünü verməlidir.**

**Xümsdən azad olan istisna mallar və onlarla əlaqədar hökmlər**

**Məsələ 2308.** Qadının aldığı mehriyyə və kişinin xül təlaqı müqabilində aldığı mal, həmçinin, alınan şəri diyə, istər qol, yaxud ayağın sındırılması müqabilində alınan diyə kimi üzv diyəsi olsun, istərsə nəfs diyəsi (qətl diyəsi), hətta əldə edildiyi vaxtdan bir il keçsə belə, bu mallar üçün xüms yoxdur.

**Məsələ 2309.** İnsana miras qalan mal hətta üzərindən bir il keçsə belə, aşağıdakı şərtlər nəzərə alınmaqla həmin mal üçün xüms yoxdur:

a) Miras şəriətə uyğun olmalı, və irs məsələsində mötəbər sayılan qaydalar əsasında insanın mülkiyyətinə keçməlidir.

b) Miras varis üçün gözlənilən olmalıdır. [4]

c) Miras qalan mal dünyasını dəyişən şəxsin sağlığında xümsü verilməli olan, ancaq verilməyən mal olmamalıdır. [5]

d) Dünyasını dəyişən şəxsin xüms borcu olmamalıdır. [6]

**Məsələ 2310.** İnsana bir mal miras qalarsa və o, həmin maldan xüms verilməli olduğunu və bu malı ona miras qoyub dünyadan köçən şəxsin onun xümsünü vermədiyini bilərsə, sözügedən varis onun xümsünü verməlidir. Həmçinin, əgər məhz həmin malın özündən xüms verilməli deyilsə, ancaq varis bu malı ona miras qoyub dünyadan köçən şəxsin xüms borclusu olduğunu bilirsə, xümsü onun öz malından[7] verməlidir. Lakin hər iki halda əgər malı miras qoyub dünyadan köçən şəxs xümsün vacibliyinə etiqad bəsləmirdisə, yaxud etiqad bəsləyirdisə, ancaq

---

[1] İllik xərclərə məsrəf etmə ilə bağlı müfəssəl hökmlər və daha ətraflı izahlar növbəti məsələlərdə qeyd ediləcəkdir.

[2] Müxəmməs hökmündə olan mal, xümsünün verilməsi vacib olmayan mala deyilir.

[3] Xüms məsələlərində tez-tez təkrarlanan "məunə" anlayışı 2316-cı və sonrakı məsələlərdə izahı veriləcək xərcləri özündə ehtiva edir.

[4] Əgər insana gözlənilməz bir miras qalarsa və bu miras ona atasından və övladından başqa bir şəxsdən qalarsa, vacib ehtiyata əsasən, illik xərclərindən artıq qaldığı təqdirdə həmin mirasın xümsünü verməlidir.

[5] Sonrakı məsələdə qeyd ediləcək hallar istisna olmaqla.

[6] Sonrakı məsələdə qeyd ediləcək hallar istisna olmaqla.

[7] Mirs qalan maldan. *Tərc.*

qəsdən, yaxud səhlənkarlıqdan xüms vermirdisə, varisin ona vacib olan xümsü verməsi lazım deyil. Lakin əgər vəfat edən şəxsin öhdəsinə düşən xümsün verilməsinə dair vəsiyyəti olarsa, onun vəsiyyətini həyata keçirmək lazımdır və bu halda verilməsi vəsiyyət edilmiş xüms hərçənd miqdarı (məbləği) onun mirasının üçdə birindən çox olsa belə, miras bölünməmişdən öncə xüms bütövlüklə ondan ayrılaraq verilməlilər.

**Məsələ 2311.** Əgər insana bir mal miras qalarsa və o, həmin maldan xüms verilməli olduğunu bilərsə, ancaq bu malı ona miras qoyub dünyadan köçən şəxsin onun xümsünü verib-vermədiyinə şəkk edərsə, vacib ehtiyata əsasən, öncəki məsələdə qeyd edilən istisna hallardan biri mövcud olmadığı təqdirdə onun xümsünü verməlidir. Əgər ona miras qalan malın xümsü verilməli olan, yoxsa mehriyyə kimi xümssüz mal olduğunu bilmirsə, yaxud dünyadan köçən şəxsin sağlığında şəxsi və ailə işlərində istifadə etdiyi bir maldan xüms verilməli olub-olmadığını, məsələn, həmin malın xüms ilinin sonunadək xərclənməyib artıq qalan (xümsü verilməli olduğu halda verilməyən) gəlirlə, yoxsa xümsü verilmiş gəlirlə alındığını bilmirsə, bu hallarda xümsün verilməsi varisə vacib deyil.

**Məsələ 2312.** Əgər bir şəxs bir mülkü il ərzində əldə etdiyi gəlirlə almışdırsa və il başa çatmamış vəqfin gerçəkləşməsi üçün tələb edilən şərtlərə riayət etməklə onu vəqf etmişdirsə, vəqf edən şəxsin və ondan istifadə etmələri üçün vəqf edilən şəxslərin həmin mülkün özünün xümsünü verməsinə gərək yoxdur. Əlbəttə, əgər sözügedən vəqf onun sahibi (mülkiyyətçisi) üçün qeyri-adi və onun sosial vəziyyətindən artıq olarsa, vacib ehtiyata əsasən, vəqf edən şəxs öz sosial vəziyyətindən artıq olan miqdarın xümsünü verməlidir.

**Məsələ 2313.** Əgər bir şəxs bir mülkü müəyyən şəxslər, məsələn, öz övladları üçün vəqf edərsə və vəqf edən şəxs vəqfnamədə övladlarının münasib gördükləri təqdirdə həmin mülkdə əkinçilik təsərrüfatı yaratmaq və meşə salmaq hüququ olduğunu təsdiqləyərsə, həmin mülkdə əkinliklə məşğul olduqları, meşə saldıqları və bundan illik xərclərindən artıq gəlir əldə etdikləri təqdirdə onun xümsünü verməlidirlər. Həmçinin, əgər həmin mülkdən başqa bir şəkildə, məsələn, icarəyə verərək mənfəət əldə edərlərsə, mənfəətin illik xərclərindən artıq qalan miqdarının xümsünü verməlidirlər.

**Məsələ 2314.** İstihqaq[1] əsasında xüms, yaxud zəkat kimi yoxsula verilən mal üçün xüms yoxdur, lakin onun vasitəsi ilə əldə edilən mənfəət illik xərclərindən artıq qaldığı təqdirdə xümsü verilməlidir.

---

[1] Müəyyən şərtlərlə dini rüsum və vergilərdən pay almaq hüququ “istihqaq”, bu hüquqa malik olan şəxs isə “müstəhəq” adlandırılır. *Tərc.*

**Məsələ 2315.** Yoxsulun kəffarələr, "rədd əl-məzalim"[1] kimi vacib sədəqə, yaxud müstəhəb sədəqə ünvanı ilə əldə etdiyi və illik xərclərindən artıq qalan malın xümsü, vacib ehtiyata əsasən, verilməlidir. [2]

## Məunə

**Məsələ 2316.** İnsanın gəlirlərinin xümsü həmin ilin xərcləri (məunə) çıxıldıqdan sonra vacib olur. Buna əsasən, insan gəlirdən məunəsini çıxa və sonra[3] yerdə qalan hissənin xümsünü verə bilər. Məunə iki qisimdir:

a) *Qazanc əldə etmə məunəsi.* Buna iş məunəsi, yaxud istehsal xərcləri də deyilir. İnsanın qazanc əldə etmək üçün çəkdiyi, qarşılığı olmayan və istehlak edilmiş mal hökmündə olan bütün xərclər nəzərdə tutulur. O cümlədən, şagirdin,[4] yükdaşıyanın, vasitəçinin, yazı işləri ilə məşğul olan işçinin (katibin, klerkin), mühafizəçinin maaşı, mağazanın icarə haqqı, vergilər və çəkilmiş, istehlak hökmündə hesab edilən digər xərclərin hamısı çıxıla bilər və sonra gəlirin yerdə qalan hissəsinin xümsü verilir. Həmçinin, əmək fəaliyyəti nəticəsində xümsü verilmiş əmək alətlərinə, o cümlədən, sənaye müəssisələrinə (emalatxanalarına) və onların avadanlıqlarına, tikiş maşınlarına, kənd təsərrüfatında istifadə edilən alət və avadanlıqlara, yük, yaxud sərnişin daşınmasında istifadə edilən nəqliyyat vasitələrinə dəymiş zərər də bu qəbildəndir. Məsələn, fərz edək ki, bir şəxs bir avtomobili xümsü verilmiş pulla iyirmi milyon tümənə alır və onu bir il müddətinə beş milyon tümənə icarəyə verir. Xüms ilinin sonunda avtomobilin qiyməti istifadə edildiyinə görə on altı milyon olmuşdur. Bu zaman avtomobilin icarəyə verilməsindən əldə edilən beş milyon tümənlik gəlirdən yalnız bir milyon tümənin xümsünün verilməsi vacibdir, digər dörd milyon tümən isə qazanc əldə etmə məunəsinin tərkib hissəsi sayılır.

b) ***İllik xərclər.*** Buna ailəvi yaşayış məunəsi, yaxud xərcləri də deyilir və sonrakı məsələdə izah ediləcəkdir.

**Məsələ 2317.** İnsanın şəxsi və ailə həyatında istifadə, yaxud istehlak etdiyi şeylər üç qisimə bölünür:

---

[1] Haqsız yolla mənimsənilən (məsələn, qəsb edilmiş, yaxud oğurlanılmış) malın qaytarılması deməkdir. *Tərc.*

[2] Əgər ona sədəqə kimi verilən maldan mənfəət əldə edərsə, məsələn, ona sədəqə verilən ağac meyvə verərsə, həmin mənfəət illik xərclərindən artıq qaldığı təqdirdə ehtiyata deyil, fətvaya əsasən, xümsü verilməlidir.

[3] Yəni xüms ilinin başa çatmasını gözləmədən. *Tərc.*

[4] Burada ustanın yanında sənəti öyrənən şagirdə verilən muzd, habelə hər hansı bir müəssisədə kadr hazırlığına cəlb edilən şəxs üçün bu müddət ərzində həmin müəssisə tərəfindən ödənilən pul, həmçinin, başqa bir təlim-tədris mərkəzində kadr hazırlığı keçdiyi təqdirdə onun üçün həmin təlim-tədris mərkəzinə ödənilən pul nəzərdə tutulur. *Tərc.*

a) Buğda, arpa, çörək, un, yağ, qənd və şəkər tozu, çay, ədviyyat, dənli bitkilər, soyuducudakı qidalar kimi ərzaq malları.

b) Yaşayış evi, bütün mebel və ev əşyaları, şəxsi əşyalar o cümlədən xalça, geyim, qab-qacaq, həmçinin, qadınların qızıl zinət əşyaları, kompyuter, nəqliyyat vasitəsi, istirahət və asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş bağ, insanın evin dekorasiyasında istifadə etdiyi gül, güldan, şəkil çərçivəsi, lüstr, dekorativ əşyalar və s. kimi qeyri-ərzaq istehlak malları, daşınar və daşınmaz əmlak.

c) Cari yaşayış xərcləri, o cümlədən, insanın başqalarına verdiyi hədiyyələr və mükafatlar, yoxsullara verdiyi sədəqələr, başqalarına xərclədikləri (bağışladıqları), qonaqları qəbul etmək üçün çəkdiyi xərclər, ziyarət, yaxud əyləncə məqsədli səfərlərində xərclədiyi pullar, nəzir və kəffarə ünvanı ilə verdiyi pul, özünün və ailəsinin tələbatı üçün aldığı borcu qaytarmaq üçün verdiyi pul, övladının evlənməsi və ya təhsili, yaxud özünün və ailəsinin müalicəsi üçün çəkdiyi xərclər, ödədiyi diyə, başqalarının əmlakına vurduğu zərərə görə və bu qəbildən olan səbəblərlə ödədiyi təzminat.

Aşağıdakı beş şərt nəzərə alınmaqla bu üç bənddə sadalananların heç biri üçün xüms yoxdur və insan onların xümsünü verməkdən azaddır:

1) İl ərzində əldə edilən qazanc və mənfəətlə alınmış mal olmalıdır, üzərindən bir xüms ili keçən və xümsü vacib olduğu halda onu vermədiyi bir gəlirlə alınmış mal olmamalıdır.

2) Normal və insanın özünün və ailəsinin sosial vəziyyətinə uyğun miqdarda olmalıdır.

3) İsraf, bədxərclik və digər haram məsrəflər qismindən olmamalıdır.

4) "a" və "b" bəndlərinə daxil olan mallar insanın il ərzində ehtiyac duyduğu mallar olmalıdır.

5) "a" bəndinə daxil olan mallar, məsələn, evin ərzaq ehtiyatı xüms ilinin sonunadək məsrəf edilməli, "b" bəndinə daxil olan mallar, məsələn, geyim və ev əşyaları xüms ilinin sonunadək istifadə edilməli,[1] "c" bəndinə daxil olan xərclər isə xüms ilinin sonunadək həyata keçirilməlidir.

Buna əsasən, əgər məsrəf haram yolda edilərsə, yaxud israf və bədxərclik hesab edilərsə, xümsü verilməlidir. Həmçinin, əgər məsrəf qeyri-adi və insanın sosial vəziyyətinə görə artıq olarsa, sosial vəziyyətə görə artıq olan miqdarın xümsünü vermək lazımdır. Hətta pulun, malın məsrəf edilməsi şəriət baxımından daha üstün olduğu, lakin onun sahibi üçün qeyri-adi (həddən ziyadə) olduğu hallarda, məsələn, insan illik

[1] 2318 və 2319-cu məsələlərdə qeyd ediləcək hallar istisna olmaqla.

gəlirinin böyük bir hissəsini məscidlərin abadlaşdırılmasına sərf etdiyi və yoxsullar üçün sərf etdiyi halda,[1] vacib ehtiyata əsasən, sosial vəziyyətinə görə artıq olan miqdarın xümsü verilməlidir.

**Məsələ 2318.** İlin sonunda bir miqdarı artıq qalan ərzaq məhsulları, ətriyyat, gigiyena vasitələri (diş pastası, şampun, sabun) kimi istehlak malları insan həmin miqdardan daha az miqdarda ala bilmədiyi, başqa sözlə alınan məhsul miqdar baxımından bazarda satılan ən kiçik miqdarda olduğu (məsələn, istifadə etdiyi ətrin bazarda mövcud olan ən kiçik həcmli flakonunu aldığı) təqdirdə xümsü yoxdur. Ancaq əgər bundan artıq miqdarda almışdırsa və bir miqdarı artıq qalmışdırsa, artıq qalan miqdarın hərçənd az da olsa qiyməti olduğu təqdirdə xümsü verilməlidir. Artıq qalan miqdarın ümumiyyətlə satış dəyəri olmadığı təqdirdə isə onun xümsünü verməyə gərək yoxdur.

**Məsələ 2319.** 2317-ci məsələdə qeyd edilən dördüncü şərtdə istehlak və qeyri-istehlak mallarına ehtiyacın olması deyərkən insanın onlara xüms ili başa çatanadək ehtiyacının olması və onlardan istifadə etməsi nəzərdə tutulur. Beləliklə, ehtiyac duyulmasına baxmayaraq ilin sonunadək istifadə edilməyən bir malın xümsü verilməlidir. Yalnız həmin malın ona ehtiyac duyulacağı vaxtdan öncə alınmamasının insanın sosial vəziyyətinə xələl gətirdiyi, yaxud həmin malın il ərzində ona ehtiyac duyulacağı ehtimal edilən vaxtda alınmasının mümkün olmadığı, yaxud həddən ziyadə çətin olduğu hallar istisna təşkil edir.

**Məsələ 2320.** Məunə, yaxud yaşayış xərcləri deyərkən insanın real olaraq xərclədiyi və istifadə etdiyi pul və mal nəzərdə tutulur. Beləliklə, əgər qənaət, yaxud özünə və ya ailəsinə qarşı sərt tədbirlər görməsi səbəbi ilə insanın illik tələbatının bir miqdarı artıq qalarsa, onun xümsünü verməlidir.

**Məsələ 2321.** İl ərzində əldə edilən gəlirlə alınan əşya və ləvazimat dəstləri, məsələn, bazarda dəst və məcmu halda satılan, tək-tək satılmayan çoxcildlik lüğət və təfsir kitabı, yaxud qab-qacaq və mebel dəstlərinin bir hissəsindən il ərzində istifadə edildiyi təqdirdə qalan hissəsinə də xüms şamil olunmur. Əgər bu dəstlərə ehtiyac olarsa, ancaq təsadüfdən onların heç birindən istifadə edilməzsə, 2319-cu məsələdə qeyd edilən hökm tətbiq edilir.

**Məsələ 2322.** Əgər bir bölgədə adətə görə insan qızının cehizini illər ərzində tədricən alırsa və cehizin bu qaydada alınmaması insanın sosial vəziyyətinə uyğun deyilsə (hətta onu lazım olan vaxt ala bilməyəcəyi baxımından olsa belə) və bu, onun adına xələl gəlməsinə səbəb olacaqsa,

---

[1] Bu halda insanın arvad və övladların yaşayış xərcləri kimi başqa zəruri xərcləri, yaxud şəriətə uyğun qaydada alınmış və qaytarılma vaxtı çatan borcu olmamalıdır.

il ərzində həmin ilin gəlirləri ilə ehtiyac duyulan cehizlik malların özünün sosial vəziyyətinə görə artıq olmayan bir qismini aldığı və ürfən (insanların nəzərində) bir il ərzində həmin miqdarda cehizliyin alınması normal illik xərclərdən sayıldığı təqdirdə onun xümsünü verməsinə gərək yoxdur. Ancaq maddi imkanı olan, qızının cehizini ehtiyac duyulduğu il bir dəfəyə ala bilən və cehizin tədricən alınmaması sosial vəziyyətinə xələl gətirməyən şəxs əgər qızının cehizini tədricən alarsa və üzərindən bir il keçərsə, onun xümsünü verməlidir. Oğulun yaşayışı üçün ehtiyac duyulan şeylərin alınması ilə əlaqədar hökm də eynilə qıza cehiz alınması ilə bağlı hökm kimidir.

Qeyd etmək lazımdır ki, gələcəkdə istifadə ediləcək cehiz, yaxud əşyaların alınması və ya toy məclisinin xərclərini təmin etmək üçün yığılan pul və gəlir hətta yuxarıdakı şərtlərə cavab versə belə, xüms ilinin sonunda xümsü verilməlidir.

**Məsələ 2323.** İl ərzində əldə etdiyi gəlir hesabına tədricən özü üçün yaşayış evi tikən, məsələn, birinci il torpağı satın alan, ikinci il ehtiyac olan tikinti məhsullarını satın alan və sonrakı illərdə tədricən evi inşa edən şəxs ilin sonunda həmin malların xümsünü verməlidir. Lakin əgər həmin ev onun hal-hazırda ehtiyacı olan yaşayış evidirsə, onun sosial vəziyyətinə uyğundursa, ev sahibi olmağın yeganə yolu onun tədricən tikilməsidirsə və onun kimi insanlar adətən evlərini tədricən tikirlərsə, ev sahibi olmaq üçün hazırlıq işlərinin görülməməsi ürfən (insanların nəzərində) sözügedən şəxsin şəninə xələl gətirirsə və onun ailəsinə qarşı səhlənkarlığı və onların gələcəyinə dair biganəliyi hesab edilirsə, bu halda istisna olaraq evi tədricən tikdiyi və elə tikintisinin başa çatdığı ildən etibarən həmin evdə məskunlaşdığı təqdirdə onun xümsünün verilməsi lazım deyil. Lakin gələcəkdə ev tikmək üçün yığılan pul hətta qeyd edilən şərtlərə cavab versə belə, xümsü verilməlidir.

**Məsələ 2324.** İnsanın həcc, yaxud digər ziyarət səfərləri üçün xərclədiyi pul illik xərclərdən sayılır. Əgər səfəri xüms ilinin başa çatmasından bir qədər sonra da davam edərsə, növbəti il öncəki ilin gəlirindən xərclədiyi məbləğin xümsünü verməlidir.

**Məsələ 2325.** İnsan il ərzində əldə etdiyi gəlirindən bir qədər pul ayıraraq həcc, yaxud ömrə üçün qeydiyyatdan keçərsə, ancaq xüms ili başa çatdıqdan sonra, yaxud sonrakı illərdə ziyarətə gedərsə, bu pula yalnız bir halda xüms şamil olunmur. Həmin hal bundan ibarətdir ki, həcc, yaxud ömrə vacib olmalı və öncədən istitaət (imkan, qadir olma), yaxud şəri nəzir əsasında onun öhdəsində qalmalıdır. Bu halda sözügedən pula aşağıdakı şərtlərlə xüms şamil olunmur:

a) Ziyarətə getmək üçün qeydiyyatdan keçmək və növbəyə durmaqdan başqa bir yol olmamalıdır.

b) Bu pulun xümsünü verə biləcəyi başqa bir pulu olmamalıdır.

Əks təqdirdə, məsələn, həcc və ya ömrə müstəhəb olarsa, yaxud vacib həccə getmək imkanına sahib olduğu ilk il olarsa (hələ həcc qəti şəkildə onun öhdəsində qalmamışdırsa), ya da həcc öncədən onun öhdəsinə düşdüyü halda getməmişdirsə, ancaq hazırda sərbəst püşkü satın almaq imkanına malikdirsə, qeydiyyatdan keçmək üçün ödənilən puldan ilin sonunda xüms ödənilməlidir.

**Məsələ 2326.** Şəxsi istifadə üçün evdə, yaxud başqa bir yerdə əkilən bitkilərin və bəslənilən heyvanların özü, məhsul və inkişafı ilə əlaqədar hökm aşağıdakı kimidir:

a) Bitki və heyvanların özü: Əgər müxəmməs olmazsa, yaxud müxəmməs hökmündə olmazsa, məsələn, il ərzində əldə edilmiş gəlirlə alınmışdırsa, heyvanın südündən, yumurtasından və ya yunundan, yaxud ağacların və otların meyvəsindən, kölgəsindən, gözəlliyindən, verdiyi təmiz havadan və s. şəxsi istifadə üçün saxlanılırsa,bu heyvanlar, yaxud bitkilər ürfən həmin şəxsin məunəsi (yaşayış tələbatı)hesab edildiyi halda onlara xüms şamil olunmur, əks təqdirdə isə xümsü verilməlidir. [1]

b) Onların məhsulu və inkişafı: Malın özündən ayrılan məhsulun, məsələn, heyvanların balalarının, südün, yunun, yumurtanın, yaxud ayrıla bilən məhsulun, məsələn, qopmağa hazır olan quru budaqların və s. xüms ilinin sonunda məunəyə sərf edilməyən (tələbatdan artıq qalan) miqdarının xümsünü vermək lazımdır.

Malın özünə aid olan inkişafa, məsələn, heyvanın kökəlməsinə gəlincə, əgər həmin heyvan, yaxud bitki südündən, yumurtasından, meyvəsindən, kölgəsindən və bu qəbildən olan faydalarından şəxsi istifadə üçün saxlanılırsa və ürfən insanın məunəsi hesab edilirsə, hərçənd qiyməti artsa belə, ona xüms şamil olunmur. [2]

**Məsələ 2327.** Əgər insanın yaşayış tələbatı çərçivəsində istifadə etdiyi bir şeyin, məsələn, yaşayış evinin, yaxud yaşayış üçün lazım olan vasitələrin qiyməti artarsa, qiymətin artan hissəsinin xümsünü vermək vacib deyil. Əgər xüms ili başa çatdıqdan, yaxud insan işləmədiyi təqdirdə alındığı tarixdən bir il keçdikdən sonra onu satarsa, ilkin qiymətə xüms şamil olunmur. Qiymətin artan hissəsinə gəlincə, əgər həmin şeyi mübadilə kimi deyil, başqa bir yolla (məsələn, hədiyyə kimi)əldə etmişdirsə, xüms şamil olunmur. Lakin əgər onu il ərzində əldə edilən gəlirlə və mübadilə (məsələn, alqı-satqı) yolu ilə əldə etmişdirsə, qiymətin

[1] Həmin şey (heyvan, yaxud bitki) məunə olmadığı və il ərzində əldə edilmiş gəlirlə alındığı təqdirdə xümsü verilməlidir.

[2] Əgər heyvan cari ilin məunəsi olmazsa və xümsü verilmiş malla (pulla) alınmışdırsa, onun özündə olan inkişafı malın artımı hesab edildiyi təqdirdə xümsü verilməlidir.

artan hissəsi onun satıldığı ilin gəlirindən hesab edilir və əgər həmin ilin sonunadək yaşayış xərclərinə sərf edilməzsə, xümsü verilməlidir.

Ancaq əgər onu istifadə etdiyi ilk il ərzində (yəni xüms ili başa çatmamış, yaxud əgər işləyən şəxs deyilsə, onu əldə etdiyi tarixdən bir il keçməmiş) satarsa və onun satışından əldə etdiyi pul ilin sonunadək qalaraq illik yaşayış xərclərinə sərf edilməzsə, malın öz qiymətinə (ilkin dəyərə) vacib ehtiyata əsasən, qiymətin artım məbləğinə həmin malı il ərzində əldə etdiyi gəlirlə və mübadilə yolu ilə aldığı təqdirdə fətvaya əsasən, mübadilə yolu ilə deyil, başqa bir yolla əldə etdiyi təqdirdə isə vacib ehtiyata əsasən, xüms şamildir.

**Məsələ 2328.** Əgər insanın xümsü verilən, yaxud xümsü verilmiş mal hökmündə olmayan bir malı vardırsa və ondan yaşayış tələbatı çərçivəsində istifadə etmişdirsə (ev əşyaları kimi), xüms ili başa çatdıqdan sonra, yaxud işləyən şəxs deyilsə, həmin malın alındığı vaxtdan bir il keçdikdən sonra ona heç bir ehtiyacı qalmadığı təqdirdə onun xümsünü verməsinə gərək yoxdur. Ancaq əgər elə birinci il ərzində həmin mala olan ehtiyacı tamamilə aradan qalxarsa, vacib ehtiyata əsasən, onun xümsünü verməlidir.

Əlbəttə, həmin mal misal olaraq ilin bəzi fəsillərində istifadə edilən şeylərdən, məsələn, növbəti ilin qışı, yaxud yayı üçün saxlanılan qış və yay geyimlərindən olduğu təqdirdə onların müvəqqəti olaraq istifadə edilməyərək saxlanılmasına görə xümsünü vermək lazım deyil.

**Məsələ 2329.** Bütün yaşayış xərcləri başqa bir şəxs, məsələn, həyat yoldaşı, yaxud övladları tərəfindən təmin edilən şəxsin özünün də gəlir mənbəyi olarsa, gəlirinin illik yaşayış xərclərinə sərf etmədiyi miqdarının xümsünü verməlidir. Buna əsasən, əgər bütün xərclərini əri, yaxud atası təmin edirsə və özü illik yaşayış xərclərinə heç nə sərf etmirsə, bütün gəlirinin xümsünü verməlidir.

**Məsələ 2330.** Əmək və ticarət fəaliyyəti, yaxud başqa bir yolla mənfəət və gəlir əldə edən şəxsin xümsünün verilməsi vacib olmayan başqa bir malı (müxəmməs hökmündə olan mal), yaxud xümsünü verdiyi başqa bir malı (müxəmməs mal) da vardırsa, buna baxmayaraq illik tələbatını əmək fəaliyyəti nəticəsində əldə etdiyi[1] **gəlirlə təmin edə bilər.**

## Sərmayə, əmək alətləri və işləyənlərlə bağlı bəzi məsələlər

**Məsələ 2331.** İş adamları arasında "dəyişən kapital", yaxud"dövriyyə kapitalı" adlandırılan qazanc sərmayəsi iki növdür:

---

[1] Xümsünü verməli olduğu gəlir nəzərdə tutulur. *Tərc.*

a) Əsas sərmayə - insanın özünün və ailəsinin yaşayışı (öz heysiyyətinə və şanına uyğun yaşaması) üçün ehtiyac duyduğu minimum sərmayə miqdarıdır. Belə ki, ondan az miqdarda vəsaitlə özünün və ailəsinin şanına uyğun şəkildə yaşaması qeyri-mümkün olacaq, yaxud dözülməz çətinliklərlə müşayiət ediləcək və ya qazanc əldə etmək üçün şanına uyğun olmayan bir işlə məşğul olmaq məcburiyyətində qalacaqdır.

Əsas sərmayə xümsü verilmiş maldan, yaxud xümsü verilmiş mal hökmündə olan maldan deyil, il ərzində əldə edilən gəlirdəndirsə,xümsü verilməlidir. Yalnız bir hal istisnadır. O da insanın həmin vaxt, yaxud yaxın gələcəkdə əsas sərmayənin xümsünü verə bilmədiyi haldır. Yəni, əgər onun xümsünü hərçənd dəstgərdan (əl dəyişmə) və hissə-hissə ödəmə surəti ilə belə verərsə, şanına uyğun və onun üçün normal sayılan şəkildə yaşaması qeyri-mümkün olacaq, yaxud dözülməz çətinliklərlə müşayiət ediləcək və ya qazanc əldə etmək üçün şanına uyğun olmayan bir işlə məşğul olmaq məcburiyyətində qalacaqdır. Bu halda sərmayənin xümsünü vermək lazım deyil. Əlbəttə, əgər sərmayənin bir hissəsinin xümsünü nağd, yaxud hissə-hissə verə bilərsə, həmin miqdarın (məbləğin) verilməsi lazımdır.

b) İnkişaf sərmayəsi - əsas sərmayədən artıq olan və ticarət (biznes) fəaliyyətinin inkişafı üçün istifadə edilən vəsaitdir.

İnkişaf sərmayəsi əgər il ərzində əldə edilmiş gəlirdəndirsə, xümsünün verilməsi vacibdir.

**Məsələ 2332.** Mağaza, ticarət obyekti, dülgərlik, dəmirçilik, arşınmalçılıq (parça satışı), toxuculuq, tikinti, memarlıq və əkinçilik alətləri, yük, yaxud sərnişin daşıma üçün nəqliyyat vasitələri və bu qəbildən olan əmək alətləri və qazanc vasitələrinə öncəki məsələdə bəyan edilən qazanc sərmayəsi ilə əlaqədar hökm şamil olunur.

**Məsələ 2333.** İnək, qoyun, ev quşları və bu qəbildən olan heyvanları bəsləməklə məşğul olan maldarlar və quşçuluq təsərrüfatı sahiblərinin bu heyvanları bəsləməkdə məqsədi onları, yaxud ətlərini satmaq olduğu təqdirdə sözügedən heyvanlara qazanc sərmayəsi ilə bağlı hökm şamil olunur. Ancaq həmin heyvanları onlardan əldə edilən şeylərdən, məsələn, süd, yun və yumurtasından qazanc məqsədi ilə istifadə etmək üçün bəslədikləri təqdirdə heyvanlar qazanc vasitəsi hesab edilir.

**Məsələ 2334.** İcarəyə götürənin ticarət obyekti üçün sərqıfıl (dəbbə pulu) ünvanı ilə obyekt sahibinə, yaxud başqa bir şəxsə həmin obeykt üzərində maddi dəyəri olan bir hüquq əldə etmək müqabilində ödədiyi pul icarəyə götürən üçün hökmü öncəki məsələlərdə qeyd edilən sərmayə və qazanc vasitəsi sayılır.

**Məsələ 2335.** İnsanın xüms ili başa çatarsa və əkinçilik təsərrüfatı məhsullarının bir hissəsi bəhrə vermiş, bir hissəsi isə hələ bəhrə verməmiş olarsa, bəhrə vermiş məhsullar bu ilin gəlirindən sayılır və ilin sonunadək məunəyə sərf edilməzsə, xümsü verilməlidir. Növbəti il-[1]bəhrə verən məhsullar isə növbəti ilin gəlirindən hesab edilir. Əlbəttə, sonrakı il yığılan, lakin xüms ilinin sonunda mövcud olan və hərçənd yetişməsə də maddi dəyəri olan məhsulların hazırkı qiyməti[2] cari ilin gəlirindən hesab edilir və xümsü verilməlidir.

## Xümsü verilmiş malın, yaxud xümsü verilmiş mal hökmündə olan malın qiymətinin artması – qiymət artımı və azalması

**Məsələ 2336.** Əgər xümsü verilmiş malın, yaxud xümsü verilmiş mal hökmündə olan malın qiyməti artarsa, burada bir neçə vəziyyət mövcud ola bilər:

1. Mal ticarət üçün alınmış, yaxud saxlanmışdır və satılaraq pulunun əldə edilməsi mümkündür.

   Bu halda hərçənd satmasa da, xüms ilinin sonunda onun bazar qiymətinin artan hissəsinin xümsünün verilməsi vacibdir. [3]

2. Mal ticarət üçün alınmamış, yaxud saxlanılmamışdırsa, bu halda iki vəziyyət mövcud ola bilər:

   a) Mal insanın mülkiyyətinə mübadilə yolu ilə deyil, başqa bir yolla, məsələn, vərəsəlik yolu ilə keçmişdir.

   Bu halda onun qiymətinin artan hissəsinə hətta satıldıqdan sonra da xüms şamil olmur. Məsələn, əgər bir varis atasından ona miras qalan yüz milyon tümən dəyəri olan bir bağı ticarət məqsədi ilə saxlamışdırsa və hazırda bu bağın dəyəri iki yüz milyon tüməndirsə, hətta bağın satılmasından sonra da yüz milyonluq artımın xümsünü verməyə gərək yoxdur.

   b) Mal alqı-satqı kimi mübadilə yolu ilə insanın mülkiyyətinə keçmişdir.

   Bu halda mal satılmayınca onun qiymətinin artımına xüms şamil olunmur. Əgər satılarsa, alış qiymətinə xüms şamil olunmur, qiymətin artım məbləği isə illik gəlirin bir hissəsidir və xüms ilinin sonunadək yaşayış xərclərinə sərf edilməzsə, xümsü verilməlidir.

Qeyd etmək lazımdır ki, əgər insan bir malı mübadilə yolu ilə deyil, başqa bir yolla əldə etmişdirsə, məsələn, mal ona bağışlanılmışdırsa,

[1] Xüms ili başa çatdıqdan sonra. *Tərc.*

[2] Xüms ilinin sonuna olan qiyməti. *Tərc.*

[3] Qızıl və valyuta qarşıda izah ediləcək şərtlər çərçivəsində istisna təşkil edir.

onun xümsünü elə malın özündən vermişdirsə (xümsü onun özündən verməklə onu müxəmməs etmişdirsə), qiymətin artan məbləğinə hətta həmin malı satdıqdan sonra da xüms şamil olunmur. Əgər sözügedən malın xümsünü başqa bir malla vermişdirsə, onun beşdə dördünə əvəz edilməyən mallar, beşdə birinə isə əvəz edilən mallarla əlaqədar hökm şamil olunur.

**Məsələ 2337.** Malların qiymətində inflyasiya nəticəsində yaranan artım kəskin inflyasiyadan qaynaqlanarsa, yəni pulun dəyəri kəskin surətdə aşağı düşərsə, belə ki, həmin mal olduqca yüksək məbləğə, məsələn, qiymətindən iki, yaxud bir neçə dəfə artıq məbləğə alınıb-satılarsa, bu qiymət artımı, vacib ehtiyata əsasən, gəlir hesab edilir və qiymət artımı ilə əlaqədar hökmlər ona şamil olunur. Aydındır ki, bu hökm ehtiyata əsaslandığına görə digər vacib ehtiyat hallarında olduğu kimi bu halda da 8-ci məsələdə qeyd edilən şərtlərə riayət etməklə başqa bir müctəhidə təqlid etmək olar.

**Məsələ 2338.** Əgər insan bir şeyi, yaxud bir malı ondan ticarətdə sərmayə kimi istifadə etmək məqsədi ilə borca, yaxud nisyə alarsa və bu malın qiyməti xüms ilinin sonunadək artarsa, bu qiymət artımı sonrakı ilin deyil, həmin ilin gəlirinin bir hissəsi sayılır. Buna əsasən, hərçənd sözügedən şəxs xüms ilinin sonunadək borcunu ödəmədiyinə görə malın özünə xüms şamil olmasa da, qiymətin artan məbləğinin xümsünü verməlidir.

**Məsələ 2339.** Əgər insan bir malı ticarət üçün (sərmayə kimi) alarsa və onun qiyməti artarsa, ancaq onu satmazsa və həmin il ərzində qiyməti düşərsə, artım məbləğinin xümsünün verilməsi ona vacib deyil.

**Məsələ 2340**. Əgər insanın ticarət üçün (sərmayə kimi) aldığı bir malın qiyməti xüms ilinin sonunda artarsa və onun satılaraq pulunun əldə edilməsi mümkündürsə, ancaq sözügedən şəxs qiymətinin daha da artacağına ümid edərək onu satmazsa və sonrakı il qiyməti aşağı düşərsə, vacib ehtiyata əsasən, öncəki ilin sonunda qiymətin artım məbləğinin xümsünü verməlidir. Lakin əgər eyni vəziyyət ticarət məqsədi ilə almadığı və illik yaşayış ehtiyaclarına sərf edilməyən bir malla bağlı yaranarsa, məsələn, növbəti il, yaxud sonrakı illərdə istifadə etmək üçün alıb saxladığı bir malın qiyməti xüms ilinin sonunda artarsa, lakin onun xümsünü verməzsə və növbəti il sözügedən malın qiyməti aşağı düşərsə, qiymətin əvvəlki xüms ilinin sonunda artan məbləğinin xümsü vacib deyil və xümsün cari qiymətlə verilməsi kifayətdir. [1]

[1] Həçənd xümsü gecikdirdiyinə görə günahkar sayılır.

## Bağ və bostan salmaq və onların xümsü ilə əlaqədar hökm

**Məsələ 2341.** İnsan bir bağ salaraq orada ağaclar əkərsə və məqsədi bağın özünü deyil, meyvələrini, məhsullarını satmaq olarsa, burada üç hal mövcud ola bilər:

a) *Bağı xümsü verilmiş malla, yaxud xümsü verilmiş mal hökmündə olan malla salmışdır.* Bu halda bağa xüms şamil olunmur.

b) *Bağı xüms şamil olunan və xümsü verilməyən (bir il qalan) bir malla salmışdır.* Bu halda yerin (bağın salındığı torpaq sahəsinin) alış qiyməti[1], həmçinin, becərdiyi şeyin qiyməti və digər qiymətlər "kulliyyun fiz-zimmə"[2]şəklində olarsa, alış qiymətinin xümsünün verilməsi kafidir. [3]

c) *Bağı il ərzində əldə etdiyi gəlirlə salmışdır.* Bu halda xüms ilinin sonunda yerin və orada əkdiyi, yaxud becərdiyi şeyin xümsünü (xərcləri çıxdıqdan sonra) cari qiymətlə verməlidir.

Üç halın hər birində xüms ilinin sonunda ağaclardan və digər bitkilərdən ayrılan məhsulun, məsələn, meyvənin və ya ayrılmağa hazır olan məhsulun, məsələn, qopmaq üzrə olan (qoparılmağa hazır olan) quru budaqların, həmçinin, onların artımının xümsünü verməlidir. Habelə, bağa yeni gətirilən hər şeyin, məsələn, ikinci il əkilən ağacın (hərçənd onun tingi, şitili, yaxud toxumu xümsü verilmiş ağacdan olsa belə) və maddi dəyəri olan yabanı bitkilərin xümsünü xərclər çıxıldıqdan sonra vermək lazımdır.

İnsan il ərzində əldə edilən gəlirlə alınmış bir bağın xümsünü verərsə və bundan sonra bağın qiyməti artarsa, onun qiymətinin artım məbləğinin xümsünü vermək vacib deyil. Yalnız bağı xümsü verilmiş qiymətindən (buraya torpağın və tinglərin alış qiyməti, bağbanın əmək haqqı və bağa çəkilən digər xərclər daxildir) baha qiymətə satdığı halda istisna olaraq xümsü verilmiş qiymətlə satış qiyməti arasındakı fərqə bərabər olan məbləğin xümsü bağın satıldığı ilin gəlirindən sayılır və əgər xüms ilinin sonunadək yaşayış xərclərinə sərf edilməzsə, xümsü vacibdir.

**Məsələ 2342.** Əgər insan bir bağı qiyməti artdıqdan sonra satmaq üçün salarsa və məqsədi bağın özünü satmaq olarsa, bu halda belə bir bağ sərmayə hesab edilir və insan xüms ilinin sonunda bağdakı inkişafın

---

[1] Qiymət deyərkən müamilə (ticarət əməliyyatı) zamanı mala verilən dəyər nəzərdə tutulur. Əksər hallarda dəyər pulla hesablanır.

[2] «Kulliyyun fiz-zimmə" müamiləsinin mənası 2379-cu məsələdə izah edilmişdir.

[3] Bu hökm müamilədə dəyərin pulla hesablandığı hala aiddir. Əks təqdirdə məsələ ilə bağlı müxtəlif hallar mövcuddur.

və yığılan məhsulun xümsünü verməklə yanaşı, bağın qiymətinin artım məbləğinin xümsünü də hətta onu satmasa belə verməlidir.

## Qızıl və valyutanın hesablama meyarı təyin edilməsi

**Məsələ 2343.** Qızıl, yaxud valyutanı qazanc sərmayəsi edən şəxs, məsələn, qızıl, yaxud valyuta satışı ilə məşğul olan şəxs xümsün miqdarına təsir edən qazanc və zərərini hesablamaq üçün aşağıdakı iki üsulun hər birindən istifadə edə bilər:

a) Qızıl, yaxud valyuta sərmayəsi ilə biznesdə əldə edilən qazanc və dəyən zərəri tədavüldə olan pulla hesablaya, qızıl və valyutanın dəyərindəki artım və azalmanı tədavüldə olan pulla qiymətləndirə bilər.

Buna əsasən, əgər qızıl, yaxud valyutanın xümsünü verərsə və sonrakı il onların çəkisi, yaxud məbləği artmazsa, lakin dəyəri artarsa, dəyər artımına bərabər olan məbləğ gəlir hesab edilir və ona xüms şamil olunur. Həmçinin, əgər qızıl və valyutanın dəyəri azalarsa, bu azalma ziyan hesab edilməlidir.

b) Qızıl sərmayəsinin qazanc və zərərini qızılın özü (onun çəkisi və bəzi hallarda, məsələn, sikkə şəklində olduqda isə sayı) ilə,valyutanı da valyutanın özü (əskinasların sayı) ilə hesablaya, yəni gəlir və zərərin həcmini tədavüldə olan pul əsasında hesablamaya, əksinə adətən müamilələrdə mühasibat uçotunun aparıldığı vaxtlarda (gündəlik, aylıq, yaxud illik) apardığı hesablamalarında qızılın, yaxud valyutanın miqdarını əsas götürə bilər. Buna əsasən, əgər qızıl, yaxud valyutanın xümsünü verərsə və sonrakı il qızıl və valyuta çəki və say baxımından artmazsa, ancaq tədavüldə olan pulla hesablandıqda onların qiymətində artım müşahidə edilərsə, sözügedən şəxsə xüms vacib deyil və bu halda əgər qızıl, yaxud valyutanın dəyəri azalarsa, onu zərər hesab edə bilməz.

**Misal:** Bir şəxs xüms şamil olunmayan, məsələn, miras yolu ilə əldə etdiyi, yaxud xüms şamil olunan və xümsü verilmiş on milyon tümən nağd pulu və beş milyon tümən dəyərində beş qızıl sikkəni biznesinin sərmayəsinə çevirmişdir. Əgər o, "b" mühasibat üsulundan istifadə etmək istəyərsə, qızıl sikkələri onların sayı, yaxud çəkisi əsasında hesablamaq niyyətindədir. Beləliklə, əgər onun sərmayəsi növbəti ilin sonunadək iyirmi milyon tümən və 5 sikkə qızıl olarsa, nağd pul kapitalının artan on milyon tüməninə görə iki milyon tümən xüms verməlidir və bu halda sikkələrin qiymətinin artmasının, azalmasının, yaxud dəyişməməsinin heç bir fərqi yoxdur.

**Bir neçə önəmli məqam:**

- Sikkənin mühasibatının say əsasında aparılması onun ürfən (həmin cəmiyyətdə) "misli"[1]və bir-birinə bənzəyən əşyalardan sayıldığı təqdirdə caizdir.
- Qızıl və valyuta satışı ilə məşğul olan şəxsin nağd puluna da onun biznes sərmayəsi olduğu və il ərzində sərmayəyə çevrildiyi təqdirdə qızıl və valyuta ilə bağlı hökm şamil olunur və onun (nağd pulun) mənfəət və zərərini qızıl və valyuta meyarı ilə hesablaya bilər. Lakin onun iş sərmayəsi olmayan və məsələn, saxlanc kimi yığılan nağd pulun mühasibatını qızıl, yaxud valyutaya əsasən apara bilməz.
- Əgər insan indiyədək qızıl, yaxud valyutanın çəkisi və ya sayını əsas götürə biləcəyinin fərqində olmamışdırsa, öncə sərmayənin xümsünü qiymət əsasında ödəməlidir və bundan sonra sonrakı illərdə çəki və sayı əsas götürə bilər.
- "B" bəndindəki mühasibat üsulu qızıl və valyutaya məxsus olub digər mallara şamil olmur. Buna əsasən, düyü, parça və s. ticarəti ilə məşğul olan şəxslər düyünün çəkisini, parçanın ölçüsünü və s. əsas götürə bilməzlər, ancaq sonrakı məsələdə verilən izaha əsasən mühasibatı qızıl, yaxud valyuta əsasında apara bilərlər.

**Məsələ 2344.** Sərmayəsi olan və sərmayəsini qızıl, yaxud xarici valyutalardan hər hansı biri, məsələn, İraq dinarı və ya BƏƏ dirhəmi ilə hesablamaq imkanı olan şəxslər öncə sərmayəsini bütövlüklə qızıla, yaxud həmin valyutaya çevirə,[2] sonra əmək və ya biznes fəaliyyətindən əldə etdikləri gəliri və dəyən zərəri qızıl, yaxud həmin valyuta əsasında hesablaya, ticarətdə normal hallarda mühasibatın aparıldığı vaxtlarda (gündəlik, aylıq, yaxud illik) hesabatlarını qızıl, yaxud həmin valyutaya nəzərən apara və ölkədə tədavüldə olan rəsmi valyutanı (İran riyalını) öz gəlir və zərərlərinin həcminin hesablanmasında əsas götürməyə bilərlər.

---

[1] "Misli əşya" anlayışı haqqında məlumat üçün 2403-cü məsələyə müraciət edin. *Tərc.*

[2] Sərmayəni qızıl, yaxud müəyyən bir xarici valyutaya çevirərkən ilk növbədə insanın sərmayəsinin dəyərini qızıl, yaxud həmin valyuta əsasında hesablaması və sərmayəni bütövlüklə "müsalihə (sülh)" əqdi əsasında başqa bir şəxsə həmin miqdarda qızıl, yaxud valyuta müqabilində verərək müsalihə etdiyi şəxsdən (mütəsalih) müsalihə əvəzi ünvanı ilə həmin miqdarda qızıl, yaxud valyutanın şərən alacaqlısı olması kifayətdir. Hərçənd, müsalihə əqdinin icrasından və əmlakın (sərmayənin) şəri qaydada mütəsalihin sərəncamına keçməsindən sonra tərəflərin razılığı əsasında yenidən müsalihə əqdi əsasında həmin əmlakı (sərmayəni) ilk müsalihədə müəyyən edilmiş əvəz miqdarı müqabilində ondan geri alaraq yenidən ona sahib ola bilər.

*"Müsalihə (sülh)" şəriətdə doğru hesab edilən əqdlərdəndir. Fiqh terminologiyasında müsalihə - tərəflərin bir malı, yaxud mənfəəti başqasının mülkiyyətinə keçirmək və ya bir borcu, yaxud hüququ qüvvədən düşürmək (ləğv etmək) kimi işlərin icrası ilə bağlı razılığa gəlməsidir. Burada bundan öncə onların arasında hər hansı bir mübahisənin baş verməsi şərt sayılmır.* Tərc.

Qeyd etmək lazımdır ki, bir şəxsin xüms ili başa çatmışdırsa və indiyədək sərmayəni qızıl, yaxud xarici valyutalardan biri əsasında hesablaya biləcəyinə diqqət yetirməmişdirsə, öncə sərmayəsinin xümsünü tədavüldə olan rəsmi valyuta ilə verməlidir və bundan sonra xümsü verilmiş sərmayəni qızıla, yaxud müəyyən bir xarici valyutaya çevirdikdə sonrakı illərdə qızıl, yaxud xarici valyutanı meyar götürərək gəlir və zərərini onun əsasında hesablaya bilər. [1]

Bu hökm insanın sərmayəsinin bir hissəsini təşkil edən nağd pula, tədavüldə olan rəsmi valyuta kapitalına da şamildir.

**Məsələ 2345.** İstər topdan, istərsə pərakəndə satışla məşğul olan ticarətçilərin ilin sonunda yalnız öz ticarət mallarının qiymətini hesablaması və onun xümsünü verməsi kifayətdir. Burada eynilə malın hərraca çıxarılmasında olduğu kimi ticarət mallarının bazara çıxarılarkən əlavə xərclər çəkilmədən, yaxud nəzərə alınmadan və daha yüksək qiymətə satılması gözlənilmədiyi halda satıla biləcəyi qiymət nəzərdə tutulur. Lakin qiymətləndirmə ürfən zərər hesab ediləcək şəkildə aparılmamalı, əksinə qiymət malın bu şəkildə bazara çıxarılmasına uyğun olmalı və xümsü onun əsasında verməlidir. [2]

**Bəzi çoxillik müqavilələrdə xüms ilinin hesablanması**

**Məsələ 2346.** Bir şəxs namaz qılmaq, oruc tutmaq, yaxud başqa bir əməl üçün əcir tutularsa, işin icarə (burada: əcir tutma) müqaviləsinin bağlandığı il ərzində yerinə yetirilən hissəsi müqabilində nəzərdə

---

[1] Məsələn: Hər hansı bir malın idxalı ilə məşğul olan və bütün sərmayəsi (parça və nağd pul) BƏƏ dirhəminə çevrildikdən sonra 20,000 dirhəmə (1 dirhəm=7,500 riyal məzənnəsi əsasında 150,000,000 riyala) bərabər xümsü verilmiş mal olan bir şəxs fərz edin. O, indidən sərmayəsini dirhəmlə hesablamaqla bağlı ciddi qərar qəbul edir. Növbəti ilin başlanğıcında BƏƏ dirhəminin məzənnəsi 10,000 riyala bərabər olarsa və onun sərmayəsinin dəyəri də dirhəmin məzənnəsinə uyğun olaraq 25,000 dirhəmə çatarsa, o, hərçənd xüms ilinin sonunda sərmayəsi riyalla hesabladıqda 250,000,000 riyal dəyərində olsa belə, yalnız 5,000 dirhəm (50,000 riyal) mənfəət əldə etmişdir və bu məbləğin xümsünü verməlidir.

[2] Məsələn: Parça ticarəti ilə məşğul olan bir şəxs il ərzində əldə etdiyi gəlirlə ümumi dəyəri 1,000,000 riyal məbləğində olan, hər biri 100 metr uzunluğunda və 10,000 riyal dəyərində olan bir neçə top çadralıq (qadın üst geyimi) parça satın almışdır. O, parçaları bütün təsərrüfat xərclərini (yəni parçanın əldə edilməsi, daşınması, satıldığı yer və satıcılar üçün çəkilən xərclər və s. *Tərc.* ) və eləcə də gözlənilən mənfəəti nəzərə almaqla iki cür – həm topdan, həm də pərakəndə şəkildə satır. Bu parçaların müştərilərə pərakəndə satış qiyməti 12,000 riyal, topdansatış qiyməti isə 11,500 riyaldır. Ancaq əgər o, parçalarını hərraca çıxararaq təsərrüfat xərclərini və gözlənilən mənfəət həcmini nəzərə almadan insaflı qiymətə satarsa, alıcılar sözügedən parçaların hər metrini 11,000 riyaldan alarsa, onun xümsü 11,000 riyal qiymət əsasında hesablaması kifayətdir. Beləliklə:

Sərmayənin xüms şamil olunan qiyməti: 100×11,000=1,100,000 riyal

Sərmayəyə şamil olunan xüms: 1,100,000×0,20=240,000 riyal

tutulmuş ücrət həmin ilin gəlirindən hesab edilir və əgər yaşayış xərclərinə sərf edilməzsə, xümsü verilməlidir. İşin sonrakı illər ərzində görüləcək hissəsi müqabilində nəzərdə tutulmuş ücrət isə sonrakı illərin gəlirindən hesab edilir.

**Məsələ 2347.** İnsanın xümsü verilmiş mal olan, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu bir bağı, bostanı vardırsa və bir neçə il ərzində ondan əldə edəcəyi meyvə və məhsulları kiməsə satmaqla bağlı müqavilə bağlayarsa, müqavilədə nəzərdə tutulan qiymət bütünlüklə məhsulun satıldığı ilin gəlirindən sayılır. Buna əsasən, bu gəlirin xüms ilinin sonunadək məunəyə (yaşayış və təsərrüfat xərclərinə) sərf edilməyən hissəsindən öncə bağın qiymətində baş verən eniş həcmində məbləğ çıxılmalı, sonra yerdə qalan məbləğin xümsü verilməlidir.

Xümsü hesablayarkən çıxılan (məbləği hesablanaraq gəlirdən çıxılan *tərc.* ) qiymət enişi bəzən bağın məhsul və mənfəətinin bir neçə il ərzində başqa bir şəxsin ixtiyarında olması ilə əlaqədardır,[1] bəzən də bu bir neçə il (məhsulun alıcının ixtiyarında olduğu illər) ərzində bağa dəyən zərərlərlə əlaqədar ola bilər.

**Məsələ 2348.** Əgər insan xümsü verilmiş mal olan, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu mənzilini bir neçə illik icarəyə verərsə, icarə (kirayə) haqqı müqavilənin bağlanıldığı ilin gəlirindən hesab edilir. Buna əsasən, icarəyə haqqının xüms ilinin sonunadək məunəyə sərf edilməyən hissəsindən öncə evin qiymətindəki enişə bərabər məbləğ (öncəki məsələdə verilən izahla) çıxılmalı, sonra qalan məbləğin xümsü verilməlidir. Hətta əgər icarə haqqı hissə-hissə verilsə belə, sonrakı illərdə alınan icarə haqqı məbləğləri müqavilənin bağlandığı ilin gəlirindən hesab edilir və qiymət enişi və dəyən zərərin məbləği çıxıldıqdan sonra (əvvəlki illərdə bu məbləğ çıxılmadığı təqdirdə) dərhal xümsü verilməlidir. [2]

## Əmlaka dəyən zərərin ödənilməsi

**Məsələ 2349.** Əgər işləyən şəxsin ticarət üçün sərf etdiyi bir sərmayəsi vardırsa və o, bəzi ticarət əməliyyatlarından mənfəət əldə edir,

[1] Çünki əgər onun həmin vaxt bağı satmaq istədiyini fərz etsək, bağın mənfəəti artıq başqasının ixtiyarında olduğuna (yəni məhsulu artıq yığılıb satıldığına *Tərc.* ) görə bağ daha ucuz qiymətə satılardı. Beləliklə, istənilən halda, hərçənd onu satmasa da, həmin vaxt bağın qiyməti aşağı düşmüşdür.

[2] Ev sahibi mənzil icarəsindən əldə etdiyi gəlir üçün ayrıca xüms ili təyin edə və icarə müqaviləsinin müddətini bir il təyin edərək sonra istədiyi təqdirdə il-il uzada bilər. Bu halda nəticədə onun hər ay aldığı icarə haqqı həmin ilin gəlirindən sayılır və xümsünün dərhal verilməsinə gərək yoxdur, əksinə xüms ilinin sonunadək qaldığı təqdirdə xümsünün verilməsi vacib olur. Ancaq əgər bir neçə evin icarəyə verilməsindən gəlir əldə edirsə, hər bir ev üçün ayrıca xüms ili təyin edə bilər.

bəzilərindən isə zərərli çıxırsa, xümsü hesablayarkən zərərin həcminə bərabər məbləği həmin ilin gəliri hesabına (gəlirin zərərdən öncə, yoxsa sonra meydana gəlməsindən asılı olmayaraq) kompensasiya edə bilər. Sərmayənin özünün (ilkin məbləğinin) xümsü ilə əlaqədar hökm isə daha öncə qeyd edilmişdir.

**Məsələ 2350.** İşləyən şəxsin malları il ərzində tələf olarsa, yaxud onların qiyməti aşağı düşərsə, dəyən zərərin illik gəlirdən çıxılması ilə əlaqədar hökm belədir:

a) Xümsü verilmiş mal olan, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu sərmayənin oğurluq, yanğın, zəlzələ və bu kimi hadisələr nəticəsində tələf olmasına öncəki məsələdə qeyd edilən ticarətdə zərərlə bağlı hökm şamil olunur və insan dəyən zərərin həcmini həmin ilin gəlirindən çıxa bilər.

Qeyd etmək lazımdır ki, insan xümsü verilmiş mal olan, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu sərmayəsini özünün və ailəsinin yaşayış xərclərinə sərf etdiyi təqdirdə də buna ticarətdə zərərlə bağlı hökm şamil olunur. Məsələn, heyvan bəsləmək və satmaqla məşğul olan bir maldar xümsü verilmiş mal olan, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu heyvanlarından bəzilərini özü üçün kəsib məsrəf edərsə, yaxud başqa bir şəxsə bağışlayarsa və ya sataraq pulunu yaşayış xərclərinə sərf edərsə, ilin sonunda bu qədər[1] gəlir xümsü verməkdən azad olur.

b) Xümsü verilmiş mal olan, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu əmək alətlərinin, qazanc vasitələrinin tələf olması, yaxud qiymətinin düşməsi gəlir əldə etmə prosesində baş verdiyi təqdirdə buna ticarətdə zərərlə əlaqədar hökm şamil olunur və dəymiş zərərin həcmi həmin ilin gəlirindən çıxıla bilər.

c) Xümsü verilmiş mal olan, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu, sərmayə və əmək aləti (qazanc vasitəsi) olmayan malların, məsələn, yaşayış evinin, yaxud şəxsi avtomobilin tələf olması və ya qiymətinin azalması səbəbi ilə dəyən zərər həmin ilin gəlirindən çıxıla bilməz.

**Məsələ 2351.** Bəzi insanlar elə fəaliyyət sahələrində çalışırlar ki, həmin iş öncə insanın malını işə sərf etməsini tələb edir, halbuki, gəliri sonrakı il, yaxud illərdə hasil olur. Məsələn, mədən qazıntısı və əkinçilik təsərrüfatı bu qəbildən olan işlərdəndir. Belə şəxslər xümsü verilmiş mal olan, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu əmək alətlərinə il ərzində qazanc əldə etmək üçün gördükləri iş prosesində dəyən zərərin həcmini yeni ilin gəlirindən çıxa və yerdə qalan gəlirin xümsünü

[1] (malının qeyd edilən şəkildə məsrəf etdiyi hissəsindən *tərc.* )

verə bilərlər. Məsələn, xümsü verilmiş pulunu torpağın əkinə hazırlanmasına sərf edən və növbəti il toxum əkərək məhsul götürən əkinçi öncəki il sərf etdiyi xümsü verilmiş pulunun məbləğini yeni ilin gəlirindən çıxa və yerdə qalan gəlirin xümsünü verə bilər.

Ancaq əgər bu şəxslər xümsü verilmiş mallarını (pullarını) özlərinin və ailələrinin yaşayış xərclərinə sərf etmişlərsə, onu sonrakı ilin gəlirindən çıxa bilməzlər. [1]

**Məsələ 2352.** Əgər işləyən şəxsin bir il gəliri olmazsa və xümsü verilmiş malının, yaxud xümsü olmayan (xümsü verilmiş mal hökmünün şamil olduğu) malının bir hissəsi tələf olarsa (bu qəbildən olan pulunun bir hissəsi xərclənərsə), yaxud apardığı ticarət əməliyyatlarında zərər edərsə, yaxud həmin malı (pulu) işi üçün sərf edərsə, yaxud əmək alətlərinə, qazanc vasitələrinə zərər dəyərsə, bu zərər sonrakı il, yaxud illərdə gəlir əldə etmək səbəbi ilə meydana gəlmədiyi təqdirdə 2351-ci məsələdə qeyd edildiyi kimi həmin ilin tələfatının, yaxud zərərinin yerini sonrakı il əldə etdiyi gəlirlə doldura bilməz. Beləliklə, bu halda insanın xümsü verilmiş malının(pulunun), yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu malının (pulunun) miqdarı azalmışdır və nəticədə, onun həmin ilki xümslük malı da azalır.

**Məsələ 2353.** Əgər insanın (istər işləyən, istərsə işləməyən şəxsin) il ərzində əldə etdiyi gəlirin bir hissəsi tələf olarsa, məsələn, oğurlanarsa, onun xümsünün verilməsi vacib deyil.

## Xümsü verilmiş malın məunəyə sərf edilməsi

**Məsələ 2354.** Əgər işləyən şəxs xümsü verilmiş malının, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu malının bir hissəsini ailəsinin yaşayış xərclərinə, yaxud təsərrüfat (biznesin təşkili, istehsal) xərclərinə və qazanc əldə etmək üçün sərf edərsə, xüms ilinin sonunda həmin ilin gəlirindən bir o qədər çıxa və gəlirin qalan hissəsinin xümsünü verə bilər. Bu halda gəlirin sözügedən malın (pulun) məunəyə sərf edilməsindən öncə, yaxud sonra hasil olmasının fərqi yoxdur.

Məsələn, yüz min tümən dəyərində qida məhsuluna, yaxud puluna xüms şamil olan və onun xümsünü verən, sonrakı il həmin xümsü verilmiş qida məhsullarını, yaxud pulu ailəsinin yaşayışına və ya təsərrüfat (biznesin təşkili, istehsal) xərclərinə sərf edən işləyən şəxsin bu ilin sonunda, məsələn, illik gəlirindən iki yüz min tümən artıq pulu qalarsa,

[1] Bu şəxslər xüms ili başa çatmamış təsərrüfat xərcləri ilə əlaqədar olaraq borc aldıqları təqdirdə (bir halda ki, bu xərclər sonrakı il, yaxud illərdə gəlir əldə etmək üçündür) bu borc sonrakı xüms ilinin gəlirindən çıxılır. Ancaq əgər borc insanın özünün və ailəsinin yaşayış xərcləri üçün alınarsa, sonrakı il, yaxud illərin gəlirindən çıxılmır.

onun yüz min tüməninin xümsünün verilməsi vacib deyil. [1]

Qeyd etmək lazımdır ki, bu hökm ev əşyaları, mebel kimi istehlak edilməyən mallara şamil olunmur. Məsələn, insan xümsü verilmiş xalçadan məişətdə növbəti il də istifadə edərsə, həmin ilin gəlirindən xalçanın qiymətinə bərabər olan məbləği çıxa bilməz.

**Məsələ 2355.** Müəyyən peşəsi və işi olan şəxslər xümsü verilmiş bir malı, yaxud xümsü olmayan (xümsü verilmiş mal hökmünün şamil olduğu) bir malı ticarət məunəsinə (qazanc əldə etmək üçün) sərf edərlərsə, onun yerini həmin ilin gəliri hesabına doldura bilərlər və bu halda gəlirin həmin malın (pulun) məunəyə sərf edilməsindən öncə, yaxud sonra hasil olması arasında heç bir fərq yoxdur.

**Məsələ 2356.** İşləməyən bir şəxs xümsü verilmiş malının, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu malının bir hissəsini ailə məunəsinə (özünün və ailəsinin yaşayış xərclərinə) sərf edərsə, bu xərcin həcmini (məbləğini) yalnız onu sərf etdiyi zaman mövcud olan mənfəət və gəlirdən çıxa bilər, həmin malı sərf etdikdən sonra hasil olan mənfəət və gəlirdən çıxa bilməz.

**Misal olaraq:** İlin sonunda evində yüz min tümən dəyərində ərzaq malları artıq qalan və onun xümsünü verən, sonrakı il bu ərzaq mallarını özünün yaşayış tələbatına sərf edən, daha sonra yeni il ərzində əldə etdiyi gəlirlə ərzaq və qeyri-ərzaq istehlak malları satın alan, yaxud hamısı, yaxud yüz əlli min tümənlik bir hissəsi xüms ilinin sonunadək qalan nağd pul əldə edən işləməyən bir şəxs yüz min tümənin xümsünü verməkdən o halda azad olur ki, yeni ərzaq və qeyri-ərzaq istehlak malları, yaxud nağd pul xümsü verilmiş ötən ildən qalan ərzaq malları istehlak edilərkən mövcud olsun. [2]Ancaq əgər öncə ötən ildən qalan ərzaq mallarını istehlak edərsə, daha sonra onları istehlak etdikdən sonra əldə etdiyi gəlirlə ərzaq, yaxud qeyri-ərzaq istehlak malları alarsa və ya nağd pul gəliri əldə edərsə, cari ilin sonunda bütün istehlak edilməmiş ərzaq, yaxud qeyri-ərzaq istehlak mallarının və ya xərclənməmiş nağd pulun xümsünü verməlidir.

**Məsələ 2357.** Əgər insanın (işləyən, yaxud işləməyən şəxsin) bir il gəliri olmazsa və xümsü verilmiş malının, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu malının bir hissəsini ailəsinin yaşayış xərclərinə (işləyən şəxsdirsə, ya ailəsinin yaşayış xərclərinə, ya da biznes, təsərrüfat, istehsal xərclərinə) sərf edərsə, həmin il çəkdiyi xərcləri sonrakı ilin

---

[1] Əgər xümsü verilmiş malla, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu malla aldığı həmin ərzaq, yaxud qeyri-ərzaq istehlak mallarının qiyməti onların məunəyə sərf edildiyi vaxt artarsa, vacib ehtiyata əsasən, yalnız onları aldığı qiymətə bərabər məbləği çıxa bilər.

[2] Yaxud yeni ərzaq və ya qeyri-ərzaq mallarının alınması üçün sərf edilən pul ötən ildən qalan xümsü verilmiş ərzaq və ya qeyri-ərzaq istehlak edilərkən mövcud olsun.

gəlirindən çıxa bilməz. [1]

**Məsələ 2358.** Xüms ilinin sonunda müəyyən gəliri olan və digər tərəfdən də məunəsi üçün aldığı və ödəmədiyi borcu olan, ancaq 2362-ci məsələdə izah edilən "borcun çıxılma qaydası"nın şərtləri mövcud olmadığına görə ilin sonunda sahib olduğu gəlirin xümsünü verən şəxs sonrakı il, yaxud illərdə borcunu və ya onun bir hissəsini həmin xümsü verilmiş malla ödəyərsə, borcunu ödədiyi ilin sonunda həmin məbləğ həmin ilin gəlirindən çıxılır və o, gəlirin yerdə qalan hissəsinin xümsünü ödəməlidir.

Qeyd etmək lazımdır ki, bu hökm işləyən şəxslərə aiddir. İşləməyən şəxsə gəlincə, əgər borcu xümsü verilmiş malla qaytararkən mövcud olan bir gəliri olarsa (hətta alacaq şəklində olsa belə), məsələn, başqa üç milyon riyal gəliri də olduğu halda on milyon riyallıq borcunu xümsü verilmiş malla ödəyərsə, həmin gəlir (üç milyon riyal) xümsü verilmiş malın əvəzi sayılır və ona xüms şamil olunmur. Ancaq əgər borcu xümsü verilmiş malla qaytardıqdan sonra bir gəlir əldə edilərsə, bu gəlir xümsü verilmiş malın əvəzi sayılmır və sərf edilən xümsü verilmiş mal həmin gəlirlə kompensasiya edilmir.

**Məsələ 2359.** Birdən artıq ticarət sahəsində fəaliyyət göstərən, məsələn, öz sərmayəsi ilə müəyyən miqdarda qənd və müəyyən miqdarda düyü alan şəxs həmin sahələri mədaxil, məxaric, kassa hesabı, mənfəət və ziyan kimi ticarət məsələlərində bir-birindən ayırmadığı təqdirdə xümsü hesablayarkən onların mənfəət və ziyanını da birlikdə və vahid mühasibat uçotu əsasında hesablamalıdır. Lakin əgər iki fərqli sahədən qazanc əldə edirsə, məsələn, həm ticarətlə, həm də əkinçiliklə məşğuldursa, yaxud bir sahədə işləyirsə, ancaq gördüyü işlərin mədaxil və məxaric hesabı bir-birindən ayrıdırsa, bu halda vacib ehtiyata əsasən, bir sahənin zərərini, başqa sahənin mənfəəti ilə kompensasiya edə bilməz.

## Borclar – kəsr qaydası

**Məsələ 2360.** Borcun qaytarılması məunə hesab edilir. Yəni insanın il ərzində əldə etdiyi gəlirdən xüms ili başa çatmamış borcunu qaytarmağa sərf etdiyi malın (pulun) özünə sonra qeyd ediləcək hallar istisna olmaqla xüms şamil olmur. [2]

**Məsələ 2361.** İnsan xüms ili başa çatdıqdan sonra borcunu başa çatan il ərzində əldə etdiyi gəlirlə qaytarmaq istəyirsə, borcu onu qaytarmaq

---

[1] Qeyd etmək lazımdır ki, bu hökmdə ticarət, təsərrüfat, yaxud istehsal xərcləri ilə bağlı 2351-ci məsələdə qeyd edilən bir hal istisna təşkil edir.

[2] Borcun həmin il, yoxsa öncəki illərdə alınmasının və insanın öncəki illərdə borcu qaytarmaq imkanının olub-olmamasının fərqi yoxdur.

istədiyi ilin ticarət və qazanc əldə etmə məqsədli xərcləri, yaxud ailəvi məunəsi üçün götürmüş olduğu təqdirdə[1] sonrakı məsələdə veriləcək izahla onun (borc məbləğinin) xümsünü verməsinə gərək yoxdur. Digər hallarda isə öncə həmin (başa çatan) ilin xümsünü verməli, sonra xümsü verilmiş malla borcunu qaytarmalıdır.

**Mədələ 2362.** Əgər işləyən şəxs xüms ilinin sonunadək borcunu qaytarmazsa, ilin sonunda mövcud olan bütün gəlirlərinin, o cümlədən, nağd pul ehtiyatının, artıq malın, ərzaqın və s. xümsünü verməlidir və borcu olduğuna görə onların xümsünü verməkdən imtina edə bilməz. Yalnız aşağıdakı şərtlər mövcud olduğu təqdirdə əldə edildiyi tarixdən bir il keçmiş(xüms ilinin başa çatması nəzərdə tutulur)gəlirin borc məbləğinə bərabər hissəsinin xümsünü verməkdən azaddır:

a) Borc məunə (yaşayış xərcləri, yaxud ticarət, təsərrüfat, istehsalat xərcləri) üçün olmalıdır.

b) Əgər borcun sərf edildiyi məunə cari ilin məunəsidirsə, həmin gəlir də cari ilin gəliri olmalı, borcun sərf edildiyi məunə ötən illərin məunəsidirsə, o gəlir də həmin ilin gəliri olmalıdır.

c) Məunə (xərclər) insan işə başladıqdan sonra meydana çıxmalıdır.

Borcu olan işləməyən şəxs də əldə edildiyi vaxtdan bir il keçmiş və tələf olmamış, yaxud məunəyə sərf edilməmiş gəlirlərinin, o cümlədən, nağd pul ehtiyatının, artıq malın, ərzaqın və s. xümsünü verməlidir və borcu olduğuna görə onların xümsünü verməkdən imtina edə bilməz. Yalnız aşağıdakı şərtlər mövcud olduğu təqdirdə əldə edildiyi tarixdən bir il keçmiş gəlirin borc məbləğinə bərabər hissəsinin xümsünü verməkdən azaddır:

a) Borc məunə üçün olmalıdır.

b) Borc məunəyə sərf edilərkən sözügedən gəlir də mövcud olmalıdır.

c) Həmin gəlirin hasil edildiyi tarixdən borcun məunəyə sərf edildiyi tarixədək on iki ay, yaxud daha uzun bir müddət keçməməlidir.

Beləliklə, işləyən və işləməyən şəxslər xüsusunda qeyd edilən üç şərtlə sözügedən borc (məbləği) insanların illik gəlirindən çıxılır. Bu qayda "istisna qaydası", yaxud "kəsr qaydası" adlanır.

**Məsələ 2363.** Kəsr qaydası ilə bağlı bir neçə məqama diqqət yetirmək lazımdır:

a) Kəsr qaydasının şamil olduğu borcların müddətli, yaxud müddətsiz olmasının, həmçinin, birdəfəlik ödənməli olan müddətli borc,

[1] Borc bir neçə il öncə alınaraq həmin ilin xərclərinə sərf edildiyi və insanın onu qaytarmaq üçün istifadə etmək istədiyi gəlir də həmin ilin gəliri olduğu təqdirdə yenə də onun (borc məbləğinin) xümsünü vermək vacib deyil.

yaxud hissə-hissə ödənilə bilən müddətli borc olmasının fərqi yoxdur.

b) Kəsr qaydasının şamil olunmasında insanın borcunu məhz kəsr şərtlərinə cavab verən gəlirin bir hissəsi ilə qaytarmaq niyyətinin olması, yaxud borcu həmin maldan deyil, başqa bir gəlirlə qaytarmaq istəməsi və ya ümumiyyətlə, hal-hazırda borcunu qaytarmaq istəməməsi arasında heç bir fərq yoxdur.

c) Kəsr qaydası öz-özünə şamil olur. Buna əsasən, insan buna diqqət yetirməzsə və borc məbləğini gəlirdən çıxmayaraq artıq xüms verərsə, həmin məbləğ şəriət hakiminin, yaxud onun nümayəndəsinin icazəsi ilə gələcək illərin xümsündən hesablanması istisna olmaqla, xüms hesab edilmir.

**Məsələ 2364.** İnsanın borcu olduğuna görə kəsr qaydasına müvafiq olaraq gəlirinin bir hissəsi, yaxud hamısı xümsdən azad olarsa, borcun sonrakı il, yaxud illərdə qaytarılması ilə bağlı hökm belədir:

a) Əgər borcu borclu olduğuna görə xümsdən azad olmuş pulla qaytararsa, onun xümsü ilə bağlı bir mükəlləfiyyəti yoxdur.

b) Əgər borcu işləyən şəxs yeni ilin gəliri ilə, işləməyən şəxs isə onu məunəyə sərf etdikdən sonra əldə etdiyi gəlirlə qaytararsa, xümsdən azad olmuş məbləğdə pul, yaxud onunla əldə edilən şey mövcud olduğu (yəni insanın həmin məbləğdə pulu olduğu, yaxud həmin məbləğə bir mal aldığı və həmin mal mövcud olduğu[1]) təqdirdə xümsdən azad olmuş bu məbləğ, yaxud onunla əldə edilən şey yeni ilin gəliri sayılır və əgər ilin sonunadək[2]qalaraq məunəyə sərf edilməzsə,[3] xümsü verilməlidir. Xümsdən azad edilmiş məbləğ itirildiyi, yaxud məunəyə sərf edildiyi təqdirdə isə onun xümsü ilə əlaqədar bir mükəlləfiyyət yoxdur.

c) Əgər borcu xümsü verilmiş malla, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu bir malla qaytararsa, xümsdən azad olmuş məbləğə, yaxud onunla əldə edilən şeyə xümsü verilmiş mal hökmü şamil olunur, yəni mövcud olduğu (qaldığı) təqdirdə xümsü verilmiş mal kimidir, itirildiyi, yaxud məunəyə sərf edildiyi təqdirdə isə itirilən, yaxud məunəyə sərf edilən xümsü verilmiş mal (belə malla əlaqədar hökmlər əvvəlki məsələlərdə qeyd edilmişdir) kimidir.

d) Əgər borcu yeni aldığı başqa bir borcla ödəyərsə, hələ borcu qaytarmamış kimidir.

---

[1] Həmçinin, əgər xümsdən azad edilmiş şey pul deyil, misal olaraq hər hansı bir mal olarsa, bu məsələ tətbiq edilir.

[2] Daha öncə də qeyd edildiyi kimi, işləməyən şəxs üçün ilin sonu deyərkən gəlirin əldə edildiyi vaxtdan on iki ay müddətin keçməsi nəzərdə tutulur.

[3] Məsələn, sözügedən mal yaşayış tələbatında istehlak edilməzsə. . .

**Məsələ 2365.** Öncəki məsələlərdən aydın olur ki, əgər insan şanı səviyyəsində olan yaşayış evini nisyə alarsa və həmin evdə il başa çatmamış məskunlaşarsa, belə bir ev məunə hesab edildiyinə və ona xüms şamil olmadığına[1] görə onun borcunun həmin ilin, yaxud sonrakı ilin gəliri ilə verilməsi də məunədən sayılacaq və xüms şamil olunmayacaqdır. Həmçinin, sonrakı il evin borcunun bir hissəsini qaytardığı təqdirdə bu, məunədən hesab ediləcək və xüms şamil olunmayacaqdır. Nisyə, yaxud borc pulla alınmış digər məunə (zəruri yaşayış tələbatı üçün olan) əşyalar ilə əlaqədar hökm də eynilə yaşayış evi ilə əlaqədar hökm kimidir.

## Alacaqlar

**Məsələ 2366.** Xüms ilinin sonunda insanlardan gəlir hesab edilən alacağı, yaxud alacaqları olan şəxs əgər borcludan borcunu qaytarmasını istəməklə onu ala bilməsi mümkündürsə, hərçənd güzəştə getmək, yaxud başqa bir səbəblə qaytarmasını tələb etməsə belə, onun (alacağın) xümsünü verməlidir. Ancaq əgər hal-hazırda (xüms ilinin sonunda) borcun geri alınması hətta tələb etməklə də mümkün deyilsə, bununla bağlı hökm bir misalla belə izah edilə bilər:

Bir şəxsin xüms ilinin sonunda satdığı mal müqabilində bütövlüklə gəlir hesab edilən və onun xüms ilinin başa çatmasından altı ay sonra ödənməli olan çek şəklində bir milyon riyallıq alacağı vardır. Onun xüms ilinin sonunda iki seçimi vardır:

a) Səbir edə, növbəti il əldə etdiyi alacağı ötən ilin gəlirindən hesab edə və onu aldıqda sonrakı ilin başa çatmasını gözləmədən bir milyon riyalın xümsünü bütövlüklə (200,000 riyal) verə bilər.

b) Xüms ilinin sonunda həmin müddətli (müəyyən müddətdə qaytarılmalı olan) alacağın nağd pulla dəyərini hesablayaraq onun xümsünü verə bilər. Məsələn, alacağın nağd pulla dəyəri təqribən 850,000 riyal olduğu təqdirdə onun 170,000 riyal məbləğində olan xümsünü verməli və növbəti il alacağını əldə etdikdə alacağın nağd dəyərindən artıq olan məbləğ (150,000 riyal) yeni ilin gəlirindən sayılır. Bu gəlirə hal-hazırda xüms şamil olunmur, ancaq əgər yeni ilin sonunadək qalarsa və məunəyə sərf edilməzsə, onun da xümsü verilməlidir.

Qeyd etmək lazımdır ki, "b" üsulu yalnız sözügedən şəxsin xümsü təxirə salmadan və nağd pulla verdiyi hala aiddir, bir müddət sonra vermək istədiyi təqdirdə isə "a" üsulundan istifadə etməlidir.

Həmçinin, bu üsulda ("b" üsulunda) insan bütün alacaq məbləğinin deyil, hazırkı (xüms ilinin sonuna olan) dəyərinin xümsünü verməlidir. Buna əsasən, əgər insan bütün alacaq məbləğinin xümsünü verərsə,

[1] Aydındır ki, həmin ilin digər gəlirləri də 2362-ci məsələnin şərtləri ilə xümsdən azaddır.

xüms ünvanı ilə alacağın hazırkı dəyərindən artıq ödədiyi məbləğ xüms hesab edilmir. Yalnız onu növbəti ilin xümsündən hesab etməsi üçün şəriət hakiminə, yaxud onun nümayəndəsinə müraciət etməsi istisnadır.

Qeyd etmək lazımdır ki, bütün alacaqlar, o cümlədən "qərz əl-həsənə",[1]nisyə və sələf[2] alqı-satqı əməliyyatlarından əldə edilən mənfəət, əmək haqqı və bu qəbildən olan alacaqlarla bağlı hökm eynidir.

**Məsələ 2367.** İnsanın alacağı gəlir hesab edilmirsə, məsələn, xümsü verilmiş malını başqa bir şəxsə borc verərsə, həmin alacağa əldə edildikdən sonra da xüms şamil olmur. Əgər onun başqa bir şəxsdən alacağı həm gəlir, həm də xümsü verilmiş mal qismindən olarsa, onların hər biri üçün özünəməxsus hökm şamil olur.

**Məsələ 2368.** İnsanın mənzil, mağaza və bu qəbildən olan əmlakın girov qoyulması üçün ev, yaxud mağaza sahibinə qərz əl-həsənə ünvanı ilə verdiyi pul il ərzində əldə edilmiş gəlirdən olduğu və üzərindən il keçdiyi təqdirdə xümsdən azad deyil və hökmü 2366-cı məsələdə izah edilən digər alacaqlar kimidir.

## Əldəyişmə və rüb (dörddə bir) qaydası

**Məsələ 2369.** Bəzi hallarda xümsü hesablayarkən insan malın beşdə birini verdikdə həmin mal tamamilə xümsü verilmiş mal olmur, malın yalnız beşdə dördü xümsü verilmiş mal olur. Belə hallarda bəzən növbəti il malın yerdə qalan beşdə birinin də xümsünü vermək lazım gəlir. Bu hökmün daha ətraflı izahı belədir:

İnsanın xüms ünvanı ilə verdiyi mal bir neçə cür ola bilər:

a) İnsan xümsü onun şamil olduğu malın özündən vermək niyyətindədir. Məsələn, müəyyən məbləğdə pulu var və xümsünü həmin puldan vermək istəyir, yaxud düyüsü var və onun xümsünü həmin düyüdən ayıraraq vermək istəyir. Bu halda malın tamamilə xümsü verilmiş mal olması üçün onun beşdə birini vermək kafidir.

b) İnsan malın xümsünü həmin maldan başqa bir şeylə, ancaq həmin il əldə etdiyi və ili tamam olan[3]gəlirlə vermək istəyir. Məsələn,

---

[1] Hərfən: "yaxşı (gözəl) borc". Bir borcun qərz əl-həsənə hesab edilməsi üçün bir sıra şərtlərə cavab verməsi tələb edilir. O cümlədən:
Halal maldan verilməlidir;
Minnətsiz, riyasız, könüllü və fədakarlıqla verilməlidir;
Zəruri tələbata sərf edilməsi üçün verilməlidir;
Borc verən şəxs bu savablı əməli həyata keçirməyə nail olduğuna görə Allaha şükr etməlidir və s.

[2] Alıcının malın qiymətini öncədən ödədiyi və onu bir müddət sonra aldığı alqı-satqı əməliyyatı. *Tərc.*

[3] İşləyən şəxs üçün sözügedən gəlirin əldə edildiyi xüms ilinin başa çatması, işləməyən şəxs üçün isə onun əldə edildiyi tarixdən bir ilin (on iki ayın) keçməsi nəzərdə tutulur. *Tərc.*

kitablarının xümsünü həmin il əldə etdiyi və ili tamam olan gəlirlə vermək niyyətindədir. Bu halda kitabların və ili tamam olmuş bütün gəlirlərin dəyərinin beşdə birinə bərabər məbləğin verilməsi malın tamamilə xümsü verilmiş mal olması üçün kafidir. [1]

c) İnsan malının xümsünü xümsü verilmiş başqa bir malla, yaxud xümsü verilmiş mal hökmünün şamil olduğu başqa bir malla vermək niyyətindədir. Bu halda da beşdə birinin verilməsi malı tamamilə xümsü verilmiş mala çevirir. [2]

d) İnsan malının xümsünü növbəti ilin gəliri ilə vermək istəyir.

Bu halda əgər həmin mal, yaxud onun mübadilə edildiyi şey[3]yeni ilin sonunadək itirilməzsə və məunədə də istehlak, yaxud istifadə edilməzsə, insan malını tamamilə xümsü verilmiş mala çevirmək istədiyi təqdirdə dörddə birini verməlidir. [4]Ancaq mal yeni il ərzində itirildiyi, yaxud məunədə istehlak edildiyi halda beşdə birinin verilməsi kifayətdir.

Məsələn, fərz edək ki, 1393-cü xüms ilinin sonunda kitablarına xüms şamil olan bir şəxs 1394-cü ilin əvvəlində kitabların xümsünü 1394-cü ilin gəliri ilə vermək istəyir. Bu şəxs kitabların qiymətinin dörddə birinə bərabər məbləği verdiyi təqdirdə kitablar tamamilə xümsü verilmiş mal olur. Əgər beşdə birinə bərabər məbləği verərsə, kitablar 1394-cü ildə itirildiyi (məhv olduğu), yaxud istifadə edildiyi təqdirdə onların xümsü ilə bağlı başqa bir mükəlləfiyyəti yoxdur. Ancaq əgər kitablar 1394-cü ilin sonunadək də istifadə edilmədən qalarsa, 1394-cü ilin sonunda kitabların (qiymətinin) beşdə birinin xümsünü verməlidir.

Qeyd etmək lazımdır ki, malı bu qaydada tamamilə xümsü verilmiş mala çevirmək vacib deyil, ixtiyaridir. Buna əsasən, insan birinci ilin sonunda onun beşdə birini, ikinci ilin sonunda isə tələf olmadığı, yaxud məunəyə sərf edilmədiyi təqdirdə beşdə birinin xümsünü[5]verə bilər.

**Məsələ 2370.** İnsanın xümsü nağd şəkildə və dərhal verməyə imkanı yoxdursa, yaxud xüms vermək dözülməz dərəcədə çox ciddi çətinliyə düşməsinə səbəb olacaqsa, şəriət hakimi, yaxud onun nümayəndəsi

---

[1] Məsələn, əgər kitabların qiyməti on min tümən olarsa və onun həmin il əldə etdiyi yüz min tümən pulu da olarsa, kitblarının və pulunun tamamilə xümsü verilmiş mal olması üçün həmin yüz min tüməndən iyirmi iki min tümən verməlidir.

[2] Məsələn, əgər ümumi dəyəri 100 manat olan bir neçə xümsü verilməli olan kitabı və xümsü verilmiş 1000 manat pulu, yaxud atasından miras qalan 3000 manat pulu (bu mala xümsü verilmiş mal hökmü şamildir) vardırsa, kitabların xümsünü həmin 1000, yaxud 3000 manatlıq vəsaitdən vermək istədiyi təqdirdə onlardan hər hansı birindən 20 manat ayıraraq xüms ünvanı ilə verərsə, kitablar tamamilə xümsü verilmiş mal sayılır. *Tərc.*

[3] Məsələn, sözügedən xümsü verilməli olan mal puldursa, onunla alınan şey. *Tərc.*

[4] Çünki bu qaydada xüms verildikdən sonra həmin malın beşdə biri yeni ilin gəliri sayılır və onun (malın beşdə birinin) xümsü yeni xüms ilinin sonunda hesablanmalıdır.

[5] Yəni ümumi dəyərinin iyirmi beşdə birini. *Tərc.*

xümsü (insanın əmlakında müştərək mal kimi mövcud olan xümslük malı) onun zimmətinə (öhdəsinə) keçməsi və öz əmlakından istifadə edə bilməsi üçün həmin məbləğlə müsalihə[1]edə, yaxud həmin məbləğdə əldəyişmə[2] edə bilər. Ancaq həmin şəxs imkanını nəzərə alaraq borcunu səhlənkarlığa yol vermədən və təxirə salmadan qaytarmalıdır. Həmçinin, əgər xümsü hissə-hissə vermək imkanı vardırsa, müsalihə, yaxud əldəyişmədən sonra onu hissə-hissə təxirə salmadan qaytarmalıdır.

Qeyd etmək lazımdır ki, insan əmlakının xümsünü dərhal və həddən ziyadə çətinliyə, məşəqqətə düçar olmadan verə bildiyi təqdirdə xümsün verilməsini təxirə salmaq caiz deyildir.

**Məsələ 2371.** Əgər şəriət hakimi, yaxud onun nümayəndəsi xümsü həmin məbləğdə pul ilə sözügedən şəxsin zimmətinə müsalihə edərsə, yaxud onu əldəyişmə edərsə, o, həmin xümsü sonrakı ilin gəliri ilə verdiyi təqdirdə 2369-cu məsələnin "d" bəndi ona şamil olur. Buna əsasən:

a) Həmin malın, yəni əvvəlki ilin gəlirinin beşdə birinin özü, yaxud onun mübadilə edildiyi (onunla dəyişdirilmiş və ya satın alınmış) bir şey mövcud olduğu və məunəyə də sərf edilmədiyi halda yeni ilin gəlirindən sayılır və bu mal yeni ilin sonunadək qalarsa və məunəyə sərf edilməzsə, xümsü verilməlidir.

b) Ancaq əgər bu malın özü, yaxud mübadilə edildiyi (onunla dəyişdirilmiş və ya satın alınmış) şey tələf olmuşdursa, yaxud məunəyə sərf edilmişdirsə, sözügedən şəxsin yeni il ərzində əldə etdiyi gəlirdən xüms ünvanı ilə verdiyi şey məunəyə hesab edilir və ona xüms şamil olmur.

Qeyd etmək lazımdır ki, insan növbəti il əldəyişmə ilə əlaqədar borcu qaytara bilməzsə, sözügedən beşdə bir yeni ilin gəlirindən hesab edilmir və ona xüms şamil olmur. [3]Əldəyişmə ilə əlaqədar borcu hansı ilin gəliri ilə qaytararsa, sözügedən beşdə bir həmin ilin gəliri sayılır və malın özü (məsələn, xümsü əldəyişmə edilən mal) ilin sonunda tələf olmamışdırsa (itirilməmişdirsə), yaxud məunəyə sərf edilməmişdirsə, beşdə birinin xümsünü vermək lazımdır. [4]

---

[1] Müsalihə - tərəflərin bir malı, yaxud mənfəəti başqasının mülkiyyətinə keçirmək və ya bir borcu, yaxud hüququ qüvvədən düşürmək (ləğv etmək) kimi işlərin icrası ilə bağlı razılığa gəlməsi. *Tərc.*

[2] Xüms verməli olan, ancaq onu vermək imkanına sahib olmayan şəxsdən xümsün alınması və sonra yenidən ona bağışlanılması, yaxud borc kimi verilməsi. *Tərc.*

[3] Ancaq əgər sözügedən mal sərmayədirsə, onun qiymətinin artması ilə əlaqədar hökm 2336-2340-cı məsələlərdə qeyd edilmişdir.

[4] Əgər əldəyişmə ilə əlaqədar borcun bir hissəsini bu il, digər bir hissəsini isə sonrakı il qaytararsa, mühasibat, yəni hər ilin gəlir və xümsünün hesablanması həmin ildə qaytarılan miqdar və ya məbləğə uyğun nisbətdə aparılmalıdır.

## Xümsü verilməmiş maldan istifadə etmək

**Məsələ 2372.** Əgər insan xümsü verilməmiş[1] pul olan "eyn"lə bir mal alarsa, yəni satıcıya: "Bu malı həmin pulla alıram", - deyərsə, satıcı isnaəşəri şiə olduğu təqdirdə alqı-satqı doğrudur və satıcı həmin pulun hamısından istifadə edə bilər, ancaq alıcının bu pulla aldığı mala xüms şamil olur və o, malın xümsünü hazırkı qiymətlə verməlidir. [2]

**Məsələ 2373.** Əgər insan bir malı "zimmət"lə alarsa və alqı-satqıdan sonra ödənişi xümsü verilməmiş pulla edərsə, həyata keçirilmiş alqı-satqı istənilən halda doğrudur və satıcı isnaəşəri şiə olduğu təqdirdə həmin puldan verilməli olan xüms alıcının zimmətinə keçir. O, xümsün sahiblərinə borclu olur və onu ödəməlidir. Satıcı bütün puldan, alıcı isə bütün maldan istifadə edə bilər. [3]

**Məsələ 2374.** Xüms verməyən, yaxud bəzi mallaının xümsünü verməyən şəxs malını isnaəşəri şiənin mülkiyyətinə keçirdiyi, məsələn, şəriətə görə doğru sayılan üsullarla (satmaq, hədiyyə etmək, borcu qaytarmaq və s. ) ona ötürdüyü təqdirdə həmin mal o şiənin mülkiyyətinə keçir, onun üçün halaldır və hətta bu mala xüms şamil olduğuna və əvvəlki sahibinin bu malın xümsünü vermədiyinə əmin olsa belə, onun xüms verməsinə gərək də yoxdur.

Buna əsasən, əgər isnaəşəri şiə xümsü verilməmiş (ili tamam olmuş) bir şeyi satın alarsa, alqı-satqı doğrudur və xüms satıcının öhdəsinə düşür. Bu halda xümsü vermək satıcının vəzifəsidir, alıcı isə həmin şeyə bütövlüklə sahib olur və bu baxımdan üzərində hər hansı bir mükəlləfiyyət yoxdur. [4]

Həmçinin, isnaəşəri şiə üçün xümsünü vermədikləri mallarla qonaqları qəbul etdiklərini bildiyi halda malının xümsünü verməyən şəxslərin evinə getmək və onların mallarından istifadə etmək (onların icazəsi və

---

[1] Xümsü verilməmiş mal - əldə edildiyi tarixdən bir xüms ili keçən (işləyən şəxslər üçün onu hansı xüms ili ərzində əldə etmişlərsə, həmin xüms ilinin başa çatması, işləməyən şəxslər üçün isə onu əldə etdikləri tarixdən on iki ayın keçməsi nəzərdə tutulur *tərc.* ) və xümsü verilməyən mal deməkdir.

[2] Əgər satıcı isnaəşəri şiə olmazsa, alqı-satqının beşdə birinin təshih edilməsi (şəriətə görə caizləşdirilməsi) şəriət hakiminin icazəsi ilə mümkündür.

[3] Əgər satıcı isnaəşəri şiə olmazsa, alıcı satıcıya qiymətin beşdə biri məbləğində pul borcludur, şəriətə görə ona verdiyi pulun xümsünü vermək məsuliyyəti onun (alıcının) üzərinə düşür və onun xümsünü başqa bir malla (pulla) verə bilər.

[4] Əlbəttə, əgər alıcı həmin şeyi il ərzində əldə etdiyi gəlirlə almışdırsa, sözügedən şey həmin xüms ilinin gəlirindən sayılır və xüms ilinin sonunadək qalarsa, məunəyə sərf edilməzsə, ona xüms şamil olunur və alıcı onun xümsünü verməlidir. Bu hökm insanın belə bir şəxsdən aldığı hədiyyəyə və həmçinin, onun mülkiyyətindən insanın mülkiyyətinə keçən digər mallara da şamildir.

razılığı ilə) caizdir və qeyd edilən bütün hallarda bunun günahı malının xümsünü verməyən şəxsin üzərinə düşür.

Qeyd etmək lazımdır ki, xümsü verilməmiş və miras qalmış malla əlaqədar hökm təfsilatı ilə 2310 və 2311-ci məsələlərdə izah edilmişdir.

**Məsələ 2375.** Başqa bir şəxslə şərik olan isnaəşəri şiə əgər öz gəlirinin xümsünü verirsə, ancaq şəriki gəlirinin xümsünü vermirsə və həmin şərik sonrakı il xümsünü vermədiyi maldan şirkətin sərmayəsi üçün vəsait ayırırsa, gəlirinin xümsünü verən şəxs bu müştərək maldan istifadə edə bilər.

## Şübhəli malların xümsü və bir müddət xüms verməyən şəxslər

**Məsələ 2376.** Əgər insanın malına xüms şamil olarsa və o, həmin malın xümsünü verməzsə,[1] yeni ildə malın qiyməti artarsa, insan onu həmin il ərzində satarsa və onun mənfəəti yeni xüms ilinin sonunadək qalarsa, xüms vermək istədiyi təqdirdə malın özünün vəmaldakı xüms payından hasil edilən bütün mənfəətin xümsünü verməlidir. Həmçinin, öz payına düşən mənfəətin də xümsünü verməlidir və vacib ehtiyata əsasən, yalnız yeni xüms ilinin sonunda mövcud olan malın xümsünü vermək kifayət etmir.

Məsələn, fərz edək ki, bir şəxs il ərzində əldə etdiyi gəlirlə ticarət məqsədi ilə bir mal alır. Malın xüms ilinin sonuna olan qiyməti yüz min riyaldır və o, malın xümsünü vermir. Növbəti il malın qiyməti artaraq yüz əlli min riyal olur, sözügedən şəxs onu satır və bu yüz əlli min ilin sonunadək qalır. İndi o, xüms vermək üçün:

a) Malın özünün xümsü ünvanı ilə iyirmi min riyal verməlidir.

b) Xüms payından əldə edilən bütün mənfəəti də (on min riyal) verməlidir.

c) Öz payına düşən mənfəətin (qırx min riyal) səkkiz min riyal məbləğindəki xümsünü də verməlidir. Nəticədə, insanın verəcəyi malın ümumi məbləği otuz səkkiz min riyal olur və vacib ehtiyata əsasən, yeni xüms ilinin sonunda mövcud olan malın xümsü ünvanı ilə otuz min riyal vermək kifayət etmir.

Həmçinin, əgər bir şəxs söyüd, çinar və bu qəbildən hər hansı bir ağacın tingini il ərzində əldə etdiyi gəlirlə satın alar və ticarət üçün xammal ehtiyatı kimi istifadə etmək məqsədi ilə əkərsə, həmin ağacın xümsünü birinci il vermədiyi və sonrakı il ağac böyüdüyü (inkişaf etdiyi) təqdirdə yeni ilin sonunda ağacın birinci ilə aid olan xümsünü, həmin xümsün artımını və yeni ildə öz payına düşən artımın xümsünü verməlidir və

---
[1] Bu halda əgər hər hansı bir üzrü yoxdursa, günah etmişdir.

vacib ehtiyata əsasən, yeni xüms ilinin sonunda yalnız ağacın xümsünün verilməsi kifayət etmir. Həmçinin, əgər ağac əkən xüms ili tamam olan və xümsünü vermədiyi toxumu (tingi) əkərsə və toxum məhsula çevrilərsə, bu hökm şamil olur.

**Məsələ 2377.** Əgər xümsün şamil olduğu şey ev, mağaza, taksi avtomobili və bu kimi mənfəəti ürfdə (insanlar tərəfindən) icarəyə verilən şeylərdəndirsə,[1]həmin şeyin xümsünü verməyi təxirə saldığı təqdirdə hərçənd icarəyə verməsə belə, xümsün verilməsini təxirə saldığı müddət üçün həmin malın beşdə birinin icarə haqqını da verməlidir.

**Məsələ 2378.** Xüms ilinin başlanğıcı və sonu mükəlləf şəxs tərəfindən təyin edilmir. [2] 2298 və 2302-ci məsələlərdə izah edildiyi kimi işləyən şəxslər üçün işə başladıqları ilk gün xüms ilinin başlanğıcıdır, bu gündən on iki ay keçdikdən sonra onların ilk xüms ili başa çatır və ikinci il başlayır. Hər bir gəlir üçün ayrıca xüms ili təyin edə bilən işləməyən şəxslər üçün isə hər bir gəlirə sahib olduqları tarixdən on iki ay keçdikdən sonra həmin gəlirin xüms ili başa çatır.

Buna əsasən, əvvəllər il hesabı olmayan və xüms verməyən bir şəxs öncə verilən izahları nəzərə alaraq xüms ilini tapmalı, sonra ötən illərin hər birinin sonunda qalan, həmin il ərzində məunəyə sərf edilməyən gəlirlərin xümsünü verməlidir.

**Məsələ 2379.** Əgər bir şəxsin bir müddət il hesabı olmazsa, həmin müddət ərzində gəlirləri olarsa, bu gəlirlərin bir hissəsi ilə bəzi mallar satın alarsa, bir hissəsini isə cari yaşayış tələbatına, yaxud təsərrüfat (istehsal) xərclərinə sərf edərsə və hazırda mallarının xümsünü vermək niyyətindədirsə, onun mallarının xümsü ilə əlaqədar hökm belədir:

a) Əgər həmin malları il ərzində əldə etdiyi gəlirlə almışdırsa, yaşayış evi, geyim, şəxsi avtomobil, ev əşyaları (mebel) və s. kimi məunə (tələbat malları) olduğu və həmin il istifadə edildiyi təqdirdə sözügedən mallara xüms şamil olmur. Məunə olmadığı, məsələn, əmək alətləri, sərmayə, insanın cari yaşayış tələbatının tərkib hissəsi olmayan nəqliyyat vasitələri olduğu təqdirdə isə onun xümsünü cari qiymət əsasında verməlidir.

b) Əgər həmin malları xümsü verilmiş malla (pulla), yaxud miras kimi xümsü verilmiş mal hökmünün şamil olunduğu bir malla (pulla) əldə etmişdirsə, xüms şamil olmur. Yalnız sərmayə olduğu halda qiymətinin artan məbləğinə xüms şamil olur.

---

[1] Burada icarə müqaviləsi əsasında sözügedən daşınmaz və daşınar qeyri-istehlak mallarının mənfəətindən istifadə etmək hüququnun başqa bir şəxsə verilməsi nəzərdə tutulur. *Tərc.*

2 2303-cü məsələdə qeyd edildiyi kimi xüms ilini dəyişmək hər bir şəxs üçün mümkündür.

c) Əgər həmin malları üzərindən il keçmiş gəlirlə[1] satın almışdırsa, alqı-satqının qiyməti[2] "zimmətdə külli"[3]şəklində olduğu təqdirdə xümsün alış qiyməti əsasında verilməsi kifayətdir[4]. Yalnız sərmayə istisna təşkil edir və onun xümsünün cari qiymətlə verilməsi vacibdir. Sözügedən malları "zimmətdə külli" ödəniş üsulu ilə almadığı, isnaəşəri şiə olan bir satıcıdan "şəxsi"qiymətlə aldığı təqdirdə isə xümsün cari qiymətlə verilməsi vacibdir.

d) Əgər bu mallar yuxarıdakı bəndlərin ("a", "b" və "c" bəndlərinin) tərkibindən ibarət bir vəsaitlə alınmışdırsa, hər bəndə daxil olan hissəni ayırd etmək və hər bir bəndlə əlaqədar həmin bənddə izah edilmiş hökmə əməl etmək lazımdır.

e) Əgər bu malları hansı malla (pulla) aldığı məlum deyilsə, bu mallarla bağlı hökm sonrakı məsələlərdə qeyd ediləcəkdir.

Qeyd etmək lazımdır ki, əgər sözügedən mallar il ərzində əldə edilmiş gəlirdən yığılaraq saxlanılan və üzərindən xüms ili keçən nağd pul ehtiyatı, evlənmə xərcləri üçün və bu kimi məqsədlərlə yığılan pul olarsa, onların xümsü verilməlidir.

**Məsələ 2380.** Hal-hazırda (xüms hesablanarkən) mövcud olmayan,-cari yaşayış tələbatı, yaxud qazanc əldə etmək üçün sərf və ya istehlak

---

[1] Bu məsələdə üzərindən il keçmiş gəlir deyərkən əldə edildiyi vaxtdan sonra bir xüms ili başa çatan, xüms şamil olan və insanın (sahibinin) xümsünü vermədiyi pul nəzərdə tutulur.

[2] Qiymət deyərkən ticarət əməliyyatının dəyəri nəzərdə tutulur ki, bu da əksər hallarda pulla hesablanır və ödənilir.

[3] Bəzi ticarət əməliyyatları həyata keçirilərkən alqı-satqı müəyyən və xüsusi bir ödəniş vasitəsi ilə edilə bilər, məsələn, alıcı alqı-satqı həyata keçirilərkən müəyyən bir pulu satıcıya göstərə, yaxud ödənişi hansı pulla edəcəyini ona izah edərək: "Sənin malını bu pulla alıram", - deyə bilər. Belə hallarda (bir qayda olaraq nadir hallarda baş verir) deyilir ki, alqı-satqının qiyməti "şəxsi"dir.

Ancaq əksər alqı-satqı əməliyyatları bu cür deyil və tərəflər arasında alqı-satqı bəlli olan bir ödəniş vasitəsi ilə, pulla həyata keçirilmir, alıcı malı aldıqdan sonra öhdəsinə, zimmətinə düşən ödənişi həyata keçirir. Məsələn, malı on min riyala alır (alqı-satqı əsnasında satıcı üçün xüsusi olaraq on min riyallıq pul təyin etmədən və sövdələşməni məhz həmin on min riyalın üzərində gerçəkləşdirmədən), sonra cibindən on min riyal pul çıxararaq satıcıya verir, yaxud nəzərində tutduğu on min riyalı ona ödəyir. Belə hallarda deyilir ki, alqı-satqının qiyməti "zimmətdə külli"dir.

Qeyd etmək lazımdır ki, qiyməti "zimmətdə külli" üsulu ilə olan sövdələşmələrdə ödənişin alqı-satqı əsnasında və məsələn, malı aldıqdan bir neçə saniyə sonra edilməsi ilə başqa bir vaxt edilməsi arasında fərq yoxdur. Həmçinin, alıcının satıcıya verəcəyi pulu öncədən öz nəzərində təyin edib-etməməsinin fərqi yoxdur.

[4] Ona vacib olan xums, aldığı mala köçürülməmişdirsə gərək malın qiymıti əvəzinə satıcıya verdiyi üs-üstə yığılan qazancından xumsunu versin. Əgər o qazanc pul şəklindədirsə və xums ödəyən zaman o pulun dəyəri fövqəladə dərəcədə məsələn 20 dəfə azalıbsa vacib ehtiyata əsasən böyük məbləğlə müsalihə olunsun.

edilən şeylər, məsələn, istehlak edilən ərzaq, başqalarına verilən hədiyyələr, sədəqələr və nəfəqələr, qonaqların qəbulu, ziyarət, yaxud əylənmək (istirahət) məqsədli səfərlər üçün çəkilən xərclər, nəzir və kəffarə ünvanı ilə verilənlər, insanın özünün və ailəsinin yaşayış tələbatı ilə əlaqədar alınmış borcu qaytarmaq üçün verilən pullar, övladların evlənməsi, yaxud təhsili və ya müalicə üçün sərf edilən mal (pul), başqalarının əmlakına vurulan ziyanın kompensasiyası ünvanı ilə verilən mal (pul), oğurlanılan sərmayə, su, elektrik, qaz təchizatı, telefon xidməti və bu kimi xidmətlər üçün ödənilən pul – bütün bu xərclər ili tamam olmuş gəlirlə həyata keçirildiyi təqdirdə insan onun xümsünü verməyə məsuldur və onun miqdarı (məbləği) ilə bağlı şəkk etdiyi halda xümsün şamil olduğuna əmin olduğu miqdarda (məbləğdə) xüms verməsi kifayətdir. Yalnız mükəlləfin bu mövzuda müqəssir[1] olması istisna hal təşkil edir və bu halda, vacib ehtiyata əsasən, şəriət hakimi ilə ehtimala uyğun olaraq "müsalihə"[2] etməlidir.

**Məsələ 2381.** İnsan bir malı (sərmayə istisna olmaqla) bir müddət öncə almışdırsa və hazırda xümsü hesablayarkən onu üzərindən il keçmiş gəlirlə, yoxsa həmin il ərzində əldə etdiyi gəlirlə aldığını, yaxud "zimmətdə külli", yoxsa "şəxsi" (məhz müəyyən edilmiş pulla) ödəniş üsulu ilə aldığını bilmirsə, belə ki, bu tərəddüd 2379-cu məsələ nəzərə alınmaqla həmin malın xümsünün ona vacib olub-olmaması, yaxud xümsün həmin malın alış qiyməti əsasında, yoxsa hazırkı qiyməti əsasında ödənilməli olması ilə bağlı hökmün aydın olmamasına səbəb olarsa, vacib ehtiyata əsasən, ehtimala uyğun olaraq şəriət hakimi ilə müsalihə etməlidir.

**Misal 1:** İnsan bir malı həmin ilin yaşayış tələbatı üçün istifadə etmək məqsədi ilə "zimmətdə külli" ödəniş üsulu ilə almışdır. O, 60% ehtimal edir ki, sözügedən malı üzərindən il keçmiş gəlirlə almışdır və 40% ehtimal edir ki, həmin il ərzində əldə etdiyi gəlirlə almışdır. Bu halda malın 60%-nin xümsünü verməli və bu şəkildə şəriət hakimi ilə müsalihə etməlidir.

**Misal 2:** Əgər il ərzində aldığı, yaşayış tələbatında da istifadə edilməyən sərmayə olmayan bir malı (məsələn, sonrakı il istifadə etmək istədiyi bir nəqliyyat vasitəsini) "zimmətdə külli" ödəniş üsulu ilə almışdırsa

---

[1] Məsələn, mallarına xüms şamil olduğunu icmal şəkildə bilən, ancaq xümsün hesablanması və miqdarının qeyd edilməsində səhlənkarlığa yol verən, yaxud mallarına şamil olan xümsün miqdarını dəqiq bilən, ancaq onu qeyd etmək və yadda saxlamaqda yol verdiyi səhlənkarlıq səbəbi ilə hazırda xüms miqdarını unudan şəxs kimi.

[2] Müsalihə - tərəflərin bir malı, yaxud mənfəəti başqasının mülkiyyətinə keçirmək və ya bir borcu, yaxud hüququ qüvvədən düşürmək (ləğv etmək) kimi işlərin icrası ilə bağlı razılığa gəlməsi. *Tərc.*

və onu həmin il ərzində əldə etdiyi gəlirlə aldığını 60%, üzərindən il keçmiş pulla aldığını isə 40% ehtimal edirsə, bu halda malın 40%-nin xümsünü onun alış qiyməti, 60%-nin xümsünü isə cari qiymət əsasında verməli və bu yolla şəriət hakimi ilə müsalihə etməlidir.

Bu məsələ ilə əlaqədar müxtəlif vəziyyətlərə dair daha artıq misallar daha müfəssəl kitablarda öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, əgər həmin mal sərmayə olarsa, daha öncə qeyd edildiyi kimi, istənilən halda onun xümsünü cari qiymətlə hesablamaq lazımdır.

**Məsələ 2382.** Bir şəxs hər hansı bir malı yaşayış tələbatında istifadə etmək məqsədi ilə il ərzində əldə etdiyi gəlirlə almışdır. Məsələn, evi üçün bir xalça almışdır. Ancaq bilmir ki, onu aldığı il həmin maldan istifadə edilmişdir(bu halda ona xüms şamil olmur), yoxsa maldan sonrakı xüms ilində istifadə edilmişdir (bu haldahəmin malın xümsü verilməlidir). Bu halda əgər malın özü, yaxud onun mübadilə edildiyi şey mövcud olarsa, vacib ehtiyata əsasən, şəriət hakimi ilə ehtimala uyğun olaraq müsalihə etməlidir. Məsələn, əgər həmin il istifadə edilmədiyini 30% ehtimal edirsə, onun indiki qiymətinin 30%-nin xümsünü verməli və bu qaydada şəriət hakimi ilə müsalihə etməlidir. Əgər malın özü, yaxud mübadilə edildiyi şey mövcud olmazsa, xüms verməyə, yaxud şəriət hakimi ilə müsalihə etməyə ehtiyac yoxdur. Yalnız mükəlləfin bu məsələdə müqəssir olması istisna hal təşkil edir ki, bu halda, vacib ehtiyata əsasən, şəriət hakimi ilə ehtimala müvafiq olaraq müsalihə etməlidir.

**Məsələ 2383.** Bir şəxs məunə qismindən olmayan bir əmlak, məsələn, bir torpaq sahəsi, yaxud mağaza satın almışdır. Bu əmlak xüms ilinin sonunadək məunə kimi istifadə edilməmiş və sərmayə də olmamışdır. O, indi bilmir ki, bu əmlakı xüms şamil olmayan bir malla, məsələn, özünə miras qalan malla (pulla) almışdır (bu halda həmin əmlaka xüms şamil olmur), yoxsa həmin il əldə etdiyi gəlirlə almışdır (bu halda həmin əmlakın xümsünü vermək lazımdır). Buna əsasən, bu halda əgər malın özü, yaxud mübadilə edildiyi şey mövcuddursa, vacib ehtiyata əsasən, şəriət hakimi ilə ehtimala müvafiq olaraq müsalihə etməlidir. Məsələn, əgər malın qiyməti yüz min tüməndirsə və onu xüms şamil olmayan malla (pulla) satın aldığını 70%, həmin il ərzində əldə etdiyi gəlirlə aldığını isə 30% ehtimal edirsə, vacib ehtiyata əsasən, otuz min tümənin xümsünü (altı min tümən) verməli və bu yolla şəriət hakimi ilə müsalihə etməlidir. Əgər malın özü, yaxud mübadilə edildiyi şey mövcud olmazsa, xüms verməyə, yaxud şəriət hakimi ilə müsalihə etməyə ehtiyac yoxdur. Yalnız mükəlləfin bu məsələdə müqəssir olması istisna hal təşkil edir ki, bu halda, vacib ehtiyata əsasən, şəriət hakimi ilə ehtimala müvafiq olaraq müsalihə etməlidir.

## Gəlirin xümsü ilə əlaqədar digər hökmlər

**Məsələ 2384.** Əgər mükəlləf bir şeyin xümsünü həmin şeyin özündən verərsə, həmin malın qalan hissəsi müxəmməs (xümsü verilmiş) hesab edilir. Həmçinin, əgər bir şeyin xümsünü başqa bir xümsü verilmiş maldan verərsə, həmin şey bütövlüklə xümsü verilmiş mal hesab edilir. Xümsü verildikdən sonra həmin malın qiyməti qalxarsa, onun qiymətinin artım məbləğinin xümsü ilə əlaqədar hökm 2336-cı məsələdə izah edilmişdir.

**Məsələ 2385.** İl ərzində əldə edilən gəlirlə satın alınan və ilin sonunda artıq qalan istehlak mallarının və eləcə də ilin sonunadək istifadə edilməyən əşya və ləvazimatın xümsü onların ilin sonuna olan qiyməti ilə verilməlidir. Hərçənd, müstəhəb ehtiyata əsasən, əgər qiyməti azalmışdırsa, alış qiymətinin xümsünü vermək lazımdır.

**Məsələ 2386.** Bir şəxs bir şeyi zimmətdə külli ödəniş üsulu ilə alarsa və ödənişi əldə edildiyi tarixdən bir il keçmiş və xümsü verilməmiş pulla edərsə, sonra onun qiyməti qalxarsa, həmin şey sərmayə olmadığı (məsələn, hər hansı bir torpaq sahəsini əkinçilik təsərrüfatı yaratmaq üçün aldığı) təqdirdə xümsü alış qiyməti ilə hesablaması kifayətdir. Ancaq əgər xümsü verilməmiş pulu isnaəşəri şiə olan bir satıcıya vermişdirsə və ona: “Bu əmlakı məhz bu pulla alıram”, - demişdirsə, həmin əmlakın hazırkı dəyərinin xümsünü verməlidir. Buna əsasən, aşağıdakı şərtlər daxilində xümsün alış qiyməti əsasında verilməsi kifayətdir:

a) Mal üzərindən il keçmiş pulla alınmalıdır.
b) Ödəniş zimmətdə külli üsulu ilə edilməlidir.
c) Alınan mal sərmayə olmamalıdır.

Bu şərtlərdən biri mövcud olmadığı təqdirdə xüms cari qiymətlə hesablanmalıdır.

**Məsələ 2387.** Əgər həddi-büluğa çatmayan uşaq, yaxud dəli hər hansı bir gəlir və mənfəət əldə edərsə (hətta hədiyyələrdən olsa belə), il ərzində tələf olmadığı və məunəyə də sərf edilmədiyi təqdirdə ona xüms şamil olur və uşağın, yaxud dəlinin vəlisinin (şəri qəyyumunun) onun xümsünü uşağın, yaxud dəlinin öz malından verməsi vacibdir. Vəli xümsü vermədiyi təqdirdə isə həddi-büluğa çatmamış uşağa həddi-büluğa çatdıqdan və dəliyə əqli sağlamlığına qovuşduqdan sonra vacibdir ki, özü həmin gəlirin (mənfəətin) xümsünü versin. Lakin əgər müməyyiz olan (yaxşı ilə pisi ayırd edə bilən) həddi-büluğa çatmamış uşaq həddi-büluğa çatmayan uşağın malına xüms şamil olmadığını düşünən bir müctəhidə təqlid edirsə, vəlisinin onun gəlirinin xümsünü onun öz malından verməyə haqqı yoxdur.

**Məsələ 2388.** Bir şəxsin malı xüms ilinin sonunadək qalarsa və ona xüms şamil olarsa, həmin malın xümsünü verməyincə, hərçənd xümsü vermək niyyəti olsa belə, yaxud ondan xüms miqdarında olan bir hissəni saxlasa belə, ya da ondan xüms miqdarında olan bir hissəni ayırıb bir kənara qoysa belə, onu idarə etmək[1] hüququ yoxdur. Ancaq mal real şəkildə idarə edilmədən öz payını (xüms payını olmaz) formal surətdə idarə etməyin, məsələn, öz payını (müştərək malın beşdə dördünü) sözdə satmağın, yaxud müsalihə etməyin, onu yalnız alqı-satqı "siğə"sini[2] ifadə etməklə satmağın maneəsi yoxdur. Lakin bu işlər üçün şəriət hakimindən icazə aldığı, yaxud xümsü əldəyişmə etdiyi təqdirdə həmin malı idarə edə bilər.

**Məsələ 2389.** Xüms borcu olan şəxs şəriət hakiminə müraciət etmədən onu zimmətinə götürə, yəni özünü xüms payının sahiblərinə borclu bilərək həmin malı idarə edə bilməz. İdarə etdiyi və həmin mal tələf olduğu təqdirdə günah etməklə yanaşı maddi məsuliyyət də daşıyır və onun xümsünü verməlidir.

## Haram mala qarışmış halal mal

**Məsələ 2390.** Əgər halal mal haram mala insanın onları bir-birindən ayıra bilməyəcəyi şəkildə qarışarsa və haram malın nə sahibi, nə də miqdarı məlum olmazsa, insan haramın miqdarının xümsdən (həmin malın beşdə birindən) az, yaxud çox, yaxud da ona bərabər olduğunu bilməzsə, xümsünü verməklə həmin mal halal olur. Vacib ehtiyata əsasən, bu xümsü xüms və "rəddəl-məzalim"[3]almaq haqqına sahib olan şəxsə vermək lazımdır. Buna əsasən, onun yarısını seyid yoxsula, digər yarısını isə seyid olub-olmamasından asılı olmayaraq hər hansı bir bir yoxsula zəruri ehtiyaclarını təmin etmək üçün vermək lazımdır və hər iki halda, vacib ehtiyata əsasən, bu iş təqlid üçün müraciət olunan ələm müctəhidin icazəsi ilə görülməlidir.

**Məsələ 2391.** Əgər halal mal haram mala insanın onları bir-birindən ayıra bilməyəcəyi şəkildə qarışarsa və insan icmal surətdə haramın miqdarının xümsdən (sözügedən malın beşdə birindən) az olduğunu bilərsə, ancaq həmin haram malın sahibini tanıya bilməzsə:

[1] İstifadə etmək, satmaq, icarəyə vermək, bağışlamaq və s. *Tərc.*

[2] "Əqd"lərdə (ikitərəfli müqavilələr, müamilələr, o cümlədən, alqı-satqı, icarə, əmanət, nikah və s. ) və "iqa"larda (qəbula ehtiyacı olmayan əməliyyatlar, məsələn, təlaq, and, əhd və s.) məqsədi bəyan etmək üçün şifahi surətdə ifadə edilən xüsusi sözlərə "siğə" deyilir. Bu məsələdə xümsü verilməmiş malın sahibinin bir şəxsə formal olaraq "bu malı sənə satdım" deməsi, ancaq real olaraq onu həmin şəxsə verməməsi nəzərdə tutulur. *Tərc.*

[3] Haqsız yolla mənimsənilən (məsələn, qəsb edilmiş, yaxud oğurlanılmış) malın qaytarılması deməkdir. *Tərc.*

a) Haram malın halal mala qarışması insanın öz laqeydliyi ucbatından baş verməmdiyi, məsələn, həmin mal səhv nəticəsində onun malına qarışdığı təqdirdə haram olduğuna əmin olduğu miqdarı həqiqi sahibi tərəfindən sədəqə verməlidir.

b) Haram malın halala qarışması insanın öz laqeydliyi ucbatından baş verdiyi təqdirdə əmin olduğu miqdarla yanaşı, vacib ehtiyata əsasən, haram olduğunu ehtimal etdiyi bir qədər artıq miqdarı da sədəqə verməlidir. Ancaq bu halda haram malın məhz özünü yoxsula verməyin vacib olmasının mümkünlüyünə və bir tərəfdən də haram malın özü ayırd edilə bilmədiyinə görə, gerçək haram miqdarı sədəqə vermək niyyəti ilə həmin malı bütövlüklə yoxsula verməli, yoxsul da onu bu niyyətlə qəbul etməli, sonra yoxsul müsalihə ilə şübhəsiz halal olan və insanın öz malı olan miqdarı həmin maldan ayıraraq ona qaytarmalıdır və vacib ehtiyata əsasən, bu sədəqə şəriət hakiminin icazəsi ilə verilməlidir.

**Məsələ 2392.** Əgər halal mal haram mala insanın onları bir-birindən ayıra bilməyəcəyi şəkildə qarışarsa və insan icmal surətdə haramın miqdarının xümsdən (sözügedən malın beşdə birindən) artıq olduğunu bilərsə, əvvəlki məsələdə verilən hökm tətbiq edilir və xüms vermək kafi deyildir.

**Məsələ 2393.** Əgər halal mal haram mala qarışarsa və insan haram miqdarını bilərsə, istər bu miqdar xümsdən (sözügedən malın beşdə birindən) az olsun, istərsə çox, ancaq onun sahibini tanımırsa, həmin miqdarı sahibinin niyyətinə sədəqə verməli və vacib ehtiyata əsasən, bunun üçün şəriət hakimindən də icazə almalıdır.

**Məsələ 2394.** Əgər halal mal harama qarışarsa və insan haramın miqdarını bilməzsə, ancaq onun sahibini tanıyarsa, sahibinin razılığını sülh (müsalihə) ilə və ya bu qəbildən olan bir üsulla əldə etmək mümkün olduğu təqdirdə bu işi görməlidir. Əgər bir-birlərini razı sala bilməzlərsə, haram malın halala qarışması insanın[1] öz təqsiri ucbatından baş verməmdiyi halda həmin şəxsin malı olduğuna əmin, yaxud arxayın olduğu miqdarı ona verməlidir və bu halda arxayın olduğu miqdardan artığını verməsinə gərək yoxdur. Əgər halal və haram malların bir-birinə qarışmasında özü müqəssir olarsa, əmin olduğu miqdarı verməklə yanaşı, vacib ehtiyata əsasən, qarşı tərəfin malı olduğunu ehtimal etdiyi artıq bir miqdarı da ona verməlidir. Qeyd etmək lazımdır ki, bu məsələ miqdarın təyin edilməsi, yaxud hər kəsin payının malın hansı hissəsindən verilməli olduğu xüsusunda onlar arasında mübahisə və fikir ayrılığının olmadığı hala aiddir. Əks təqdirdə isə aralarındakı mübahisəni həll etməsi üçün şəriət hakiminin yanına getməlidirlər.

[1] Halal malın sahibinin. *Tərc.*

**Məsələ 2395.** Əgər halal mal haram mala qarışarsa, insan haramın miqdarını bilərsə və sahibini də tanıyarsa, onu sahibinə qaytarması vacibdir və mal (halal və haram) hər iki tərəfin razılığı ilə təyin edilməlidir.

**Məsələ 2396.** Əgər insan harama qarışmış halal malın xümsünü verərsə və sonra haramın miqdarının xümsdən artıq olduğunu başa düşərsə, xümsdən artıq olduğunu bildiyi miqdarı onun sahibi tərəfindən sədəqə verməlidir.

**Məsələ 2397.** Əgər insan harama qarışmış halal malın xümsünü verərsə və sonra haramın miqdarının xümsdən az olduğunu başa düşərsə, vacib ehtiyata əsasən, haramın miqdarından artıq verdiyi miqdarı geri ala bilməz.

**Məsələ 2398.** Əgər insan harama qarışmış halal malın xümsünü verərsə, yaxud sahibini tanımadığı malı onun niyyətinə sədəqə verərsə, sahibi tapıldıqdan sonra razı olmadığı təqdirdə, lazım ehtiyata əsasən, malının miqdarında bir malı ona verməlidir.

**Məsələ 2399.** Əgər halal bir mal haramla qarışmışdırsa, haramın miqdarı məlumdursa və insan onun sahibinin bir neçə nəfərdən başqası olmadığını bilirsə, ancaq kim olduğunu dəqiq başa düşə bilmirsə, onlara məlumat verməlidir. Beləliklə, onlardan biri: "Mənim malımdır", - deyərsə və digərləri: "Bizim malımız deyil", - deyərsə, yaxud onun sözünü təsdiq edərlərsə, həmin şəxsə verməlidir. Əgər iki və ya daha artıq şəxs: "Bizim malımızdır", - deyərsə, müsalihə və bu qəbildən olan bir üsulla onların mübahisəsi həll olunmadığı təqdirdə mübahisənin həlli üçün şəriət hakiminə müraciət etməlidirlər. Əgər hamısı məlumatsız olduqlarını bəyan edərlərsə və müsalihəyə hazır olmazlarsa, zahir (fətva) budur ki, həmin malın sahibi püşkatma ilə müəyyən edilməlidir və vacib ehtiyata əsasən, püşkatmanı şəriət hakimi, yaxud onun vəkili həyata keçirməlidir.

**Məsələ 2400.** Əgər haramın qarışdığı halal mala xüms şamil olarsa, vacib ehtiyata əsasən, əvvəlcə onun haram qarışmış halal mal kimi xümsünü əvvəlki məsələlərdə bəyan edilmiş qaydada vermək, sonra halal malın özünə xüms şamil olması səbəbi ilə malın qalan hissəsindən yenə xüms vermək lazımdır.

*Misal olaraq*: Əgər insanın ilin sonunda artıq qalmış və məunəyə sərf edilməmiş yetmiş beş min tümən məbləğində harama qarışan halal pulu vardırsa və gəlirin xümsü mövzusunda verilən izahlara əsasən bu cəhətdən də həmin pula xüms şamil olmuşdursa, öncə harama qarışmış halal malın xümsü ünvanı ilə on beş min tümən verməli, sonra yerdə qalan altmış min tüməndən gəlir xümsü ünvanı ilə on iki min tümən verməlidir. Nəticə etibarilə, ona sözügedən maldan qırx səkkiz min tümən qalır.

**Məsələ 2401.** Əgər bir şəxsin zimmətində haram mal olarsa, ancaq haram malın özü mövcud olmazsa, bu hal xüms məqamı (harama qarışmış halal malın xümsü) deyil və insan haram malın növünü[1] və miqdarını bildiyi, sahibini tanıdığı təqdirdə həmin malı ona qaytarmalıdır. Əgər sahibini tanımırsa, ancaq məhdud sayda şəxslər arasında tərəddüd edirsə, məsələn, həmin bir neçə müəyyən şəxsdən biri olduğunu bilirsə, vacib ehtiyata əsasən, onların hamısından razılıq istəməli və əgər onların hamısının razılığını almaq mümkün olmazsa, püşk atmaüzrə hərəkət etməlidir. Ancaq əgər haram malın sahibi qeyri-məhdud sayda insanlardan biri olarsa, həmin malı gerçək sahibi tərəfindən sədəqə verməlidir və vacib ehtiyata əsasən, bu sədəqə şəriət hakiminin icazəsi ilə verilməlidir. Bu məsələ ilə bağlı digər vəziyyətlər növbəti məsələlərdə izah ediləcəkdir.

**Məsələ 2402.** Əgər bir şəxsin zimmətində haram mal olarsa və o, haram malın növünü bilərsə, ancaq onun miqdarını bilməzsə və haram malın miqdarını bilməməkdə təqsiri olmazsa, başqasının malı olduğuna əmin olduğu minimum miqdarı verməsi kifayətdir. Əgər haram malın miqdarını bilməməkdə təqsirli olarsa, vacib ehtiyata əsasən, daha artıq miqdarı verməlidir. [2] İstənilən halda sahibini tanıdığı təqdirdə həmin malı ona qaytarmalıdır. Əgər sahibini tanımırsa, ancaq məhdud sayda şəxslər arasında tərəddüd edirsə, məsələn, həmin bir neçə müəyyən şəxsdən biri olduğunu bilirsə, vacib ehtiyata əsasən, onların hamısından razılıq istəməli və əgər onların hamısının razılığını almaq mümkün olmazsa, püşkatma üzrə hərəkət etməlidir. Ancaq əgər haram malın sahibi qeyri-məhdud sayda insanlar arasında naməlum olarsa, həmin malı gerçək sahibi tərəfindən sədəqə verməlidir və vacib ehtiyata əsasən, bu sədəqə şəriət hakiminin icazəsi ilə verilməlidir.

**Məsələ 2403.** Əgər insanın zimmətində haram mal vardırsa və o, haram malın növünü bilmirsə, ancaq haram malın "qiyəmi əşyalar"dan[3] olduğunu bilirsə, ona şamil olan hökm əvvəlki məsələdə bəyan edilən malın növünün bəlli olduğu hala şamil olan hökm kimidir. Ancaq əgər

---

[1] Burada və eləcə də sonrakı məsələlərdə malın növü deyərkən onun nədən ibarət olduğu nəzərdə tutulur. *Tərc.*

[2] Əlbəttə, əgər haramın miqdarını bilirdisə və daha öncə bir məbləğ pul da vermişdirsə, ancaq nə qədər verdiyini bilmədiyinə görə hazırkı borc miqdarı onun üçün naməlumdursa, bu halda (ehtiyata deyil *tərc.* ) fətvaya əsasən, daha artıq miqdarı verməlidir. Məsələn, əgər bir şəxsə yüz min tümən borcu olduğunu bilirsə, ancaq əvvəllər ondan altmış min tümən, yoxsa daha artığını qaytardığını bilmirsə, bu halda qırx min tümən qaytarmalıdır.

[3] Qiyəmi əşyalar fərdlərinin (ayrı-ayrı nümunələrinin) xüsusiyyətlərindəki fərqlər səbəbi ilə qiyməti fərqli olan şeylərdir. Məsələn, çəki və digər xüsusiyyətlərinə görə qiymətləri dəyişən inək və qoyun kimi heyvanlar bu qəbildəndir.

zimmətində olan haram malın "misli əşyalar"dan[1] olduğunu bilirsə, yaxud zimmətində olan şeyin misli, yoxsa qiyəmi və ya qarışıq (hər iki növdən) olduğunu bilmirsə, mümkün olduğu və dözülməz dərəcədə zərərli, yaxud çətin olmadığı təqdirdə hansı yolla olursa-olsun zimmətinin borcdan təmizləndiyinə dair yəqinlik hasil etməli, məsələn, malın sahibi ilə müsalihə etməlidir. Dözülməz dərəcədə zərərə, yaxud məşəqqətə səbəb olduğu təqdirdə isə ona qiyəmi əşyalarla əlaqədar hökm şamil olur.

**Məsələ 2404.** Əgər insanın halal malına qarışan haram mal xüms, zəkat, yaxud ümumi və ya xüsusi vəqf olarsa, bu halda harama qarışmış mal xüms verməklə halal olmur, əksinə ona sahibi məlum olan mal hökmü şamil olur və malı haramdan arındırmaq üçün xüms, zəkat, yaxud vəqf mütəvəllisinə (vəkilinə) müraciət etmək və əvvəlki məsələlərdə qeyd edilən üsullardan birinə müvafiq qaydada hərəkət edərək haram malı halaldan ayırmaq lazımdır.

## Mədən

**Məsələ 2405.** Qızıl, gümüş, qurğuşun, mis, dəmir, neft, daş kömür, firuzə, əqiq, zəy, duz, kükürd, civə və digər mədənlər[2]"ənfal"dan sayılır, yəni İmamın (ə) malı və mülküdür. Ancaq əgər bir şəxs bunlardan hər hansı bir şeyi hasil edərsə, şərən hər hansı bir məhdudiyyət olmadığı halda onu öz mülkiyyətinə keçirə bilər və nisab həddinə çatdığı təqdirdə onun xümsünü verməlidir.

**Məsələ 2406.** Mədənin nisabı 15 misqal adi sikkəli qızıldır. Yəni əgər mədəndən hasil edilən şeyin qiyməti hasilat xərcləri çıxıldıqdan sonra 15 misqal adi sikkəli qızıl dəyərinə çatarsa, saflaşdırma üçün çəkilən xərclər kimi sonrakı xərcləri çıxdıqdan sonra onun xümsünü dərhal vermək lazımdır.

**Məsələ 2407.** İnsanın mədəndən hasil etdiyi şeyin qiyməti hasilat xərclərini çıxdıqdan sonra 15 misqal adi sikkəli qızıl dəyərinə çatmırsa, mədən xümsü ünvanı ilə onun xümsünü vermək vacib deyil. Ancaq həmin şey onun həmin ilki gəlirindən sayılır və ilin sonunadək qaldığı və məunəyə sərf edilmədiyi təqdirdə onun xümsünü vermək lazımdır.

**Məsələ 2408.** Gəc və əhəngə, lazım ehtiyata əsasən, mədən hökmü şamil olur. Beləliklə, əgər onların hasilatı nisab həddinə çatarsa, lazım

---

[1] Misli əşyalar bənzər xüsusiyyətləri nəzərə alınmaqla adətən bərabər (standart) qiyməti olan və misli, bənzəri tələb və təklif modeli üzrə müştəri cəlb edilməsinə təsir edən xüsusiyyətlər baxımından bol olan şeylərdir. Məsələn, buğda, arpa və dənli bitkilər.

[2] Burada və eləcə də sonrakı məsələdə mədən deyərkən yer altından çıxarılan faydalı qazıntı (metal külçəsi, mineral və s. ) nəzərdə tutulur. *Tərc.*

ehtiyata əsasən, insan əlaqədar xərcləri çıxdıqdan sonra onların xümsünü dərhal, illik məunəni (özünün və ailəsinin yaşayış xərclərini) çıxmadan verməlidir.

**Məsələ 2409.** Mədəndən bir şey hasil edən şəxs, istər mədən yerin üst təbəqəsində olsun, istər dərinliyində, istər onun öz mülkiyyətində olan ərazidə yerləşsin, istər mülkiyyətçisi olmayan bir ərazidə, 2407-ci məsələyə müvafiq olaraq onun xümsünü dərhal verməlidir.

**Məsələ 2410.** Əgər insan mədəndən hasil etdiyi şeyin qiymətinin hasilat xərclərini çıxdıqdan sonra 15 misqal sikkəli qızıl dəyərinə çatıb-çatmadığını bilmirsə, lazım ehtiyata əsasən, mümkün olduğu təqdirdə tərəzidə çəkməklə, yaxud başqa bir yolla qiymətini müəyyənləşdirməlidir, mümkün olmadığı təqdirdə isə xüms ona vacib deyil.

**Məsələ 2411.** Əgər bir neçə nəfər birlikdə mədəndən bir şey hasil edərsə, hasilat xərclərini çıxdıqdan sonra hasilatın ümumi qiyməti 15 misqal sikkəli qızıl dəyərinə çatdığı, ancaq onların paylarının ayrı-ayrılıqda dəyəri bu həddə çatmadığı təqdirdə onlara öz paylarına düşən hissədən mədən xümsü ünvanı ilə xüms vermək vacib deyil. Ancaq hər bir şəxsin payı onun illik gəlirindən sayılır və ilin sonunadək qaldığı və məunəyə sərf edilmədiyi təqdirdə onun xümsünü vermək lazımdır.

**Məsələ 2412.** Əgər insan başqasının mülkiyyətində olan ərazidə yerləşən bir mədəndən yer sahibinin icazəsi olmadan bir şey hasil edərsə, məşhura[1] görə hasilat mülk sahibinin malıdır və xümsü də onun öhdəsinə düşür. Lakin bu nəzər işkaldan xali deyil[2] və vacib ehtiyata əsasən, onlar bir-biri ilə müsalihə etməli, müsalihəyə razı olmadıqları təqdirdə isə mübahisənin həlli üçün şəriət hakiminə müraciət etməlidirlər.

## Xəzinə

**Məsələ 2413.** Xəzinə gizlədilmiş, insanlar üçün əlçatmaz edilmiş, yerin təkində, ağacda, dağda, yaxud divarda gizli saxlanılan və orada olması adi hal sayılmayan daşınar əmlak deməkdir və bu baxımdan sözügedən malın qızıl, gümüş, yaxud başqa bir şey olmasının fərqi yoxdur.

**Məsələ 2414.** Xəzinənin nisabı 105 misqal sikkəli gümüş, yaxud 15 misqal sikkəli qızıldır. Yəni əgər insanın xəzinədən əldə etdiyi şeyin qiyməti onun əldə edilməsi üçün çəkilən xərclər çıxıldıqdan sonra bu ikisindən birinin dəyərinə bərabər olarsa, xümsünün dərhal verilməsi vacibdir.

**Məsələ 2415.** Xəzinəni mənimsəməyin (öz mülkiyyətinə keçirməyin) caiz olması üçün onun şərən sahibsiz hesab edilən, yaxud sahibi əmlakı

[1] Fəqihlər arasında məşhur olan, onların əksəriyyəti tərəfindən qəbul edilən nəzərə görə. *Tərc.*

[2] Yəni ehtiyat tələb edir. *Tərc.*

şərən möhtərəm (toxunulmaz) olmayan bir şəxs olan mallardan olması şərtdir. [1]

**Məsələ 2416.** Əgər xəzinəni tapan həmin xəzinənin özü, yaxud varisləri hal-hazırda sağ olan bir müsəlmanın, yaxud zimmi kafirin mülkiyyəti olduğunu bilirsə, bu halda xəzinəni ona, yaxud varislərinə çatdıra bildiyi təqdirdə bu işi görməlidir. Əgər həmin mülkiyyətçini (özünü, yaxud varislərini) tanıya bilməzsə, xəzinəyə sahibi məchul olan mallarla əlaqədar hökm şamil olunur ki, bu halda onun sahibini axtarmalı, onu tapacağına dair ümidini tamamilə itirdiyi təqdirdə xəzinəni yoxsullara sədəqə verməli və vacib ehtiyata əsasən, bu sədəqəni şəriət hakiminin, yaxud onun nümayəndəsinin icazəsi ilə verməlidir.

**Məsələ 2417.** Əgər xəzinəni tapan sözügedən xəzinənin dünyadan köçən bir müsəlmanın, yaxud zimmi kafirin mülkiyyəti olduğunu bilirsə və onun hər hansı bir varisini də tanımırsa, lazım ehtiyata əsasən, ona varisi olmayan şəxslə bağlı hökm şamil olunur. Belə şəxslərlə əlaqədar hökmlər irs mövzusunda bəyan ediləcəkdir. Əlbəttə, əgər xəzinəni tapan sözügedən xəzinənin çox qədim dövrlərdə yaşamış bir müsəlmanın, yaxud zimmi kafirin mülkiyyəti olduğunu bilirsə və bu uzun zaman fasiləsi onun varisinin olub-olmamasının bəlli olmamasına səbəb olmuşdursa, bu halda tapılanlara xəzinə ilə əlaqədar hökmlər şamil olunur və tapan şəxs onu özünə götürərək mənimsəyə bilər, ancaq digər şərtlərə də cavab verdiyi təqdirdə onun xümsünü dərhal verməlidir.

**Məsələ 2418.** Əgər insan kimsənin mülkü olmayan, yaxud məvat (ölü torpaq) olan və şəxsən ihya (abadlaşdırmaq) əsasında mənimsədiyi bir ərazidə xəzinə taparsa, əvvəlki məsələlərdə qeyd edilən hökmlər ona şamil olur.

**Məsələ 2419.** Əgər insan başqasından satın aldığı, yaxud icarə əsasında və bu kimi yollarla istifadə etmək hüququ əldə etdiyi bir ərazidə şərən müsəlmana, yaxud zimmi kafirə məxsus olmayan və ya müsəlmana, yaxud zimmi kafirə məxsus olsa belə, olduqca qədim dövrlərə aid olan, belə ki, bu uzun zaman fasiləsi ilə əlaqədar olaraq hər hansı bir varisinin olub-olmaması naməlum olan bir xəzinə taparsa, həmin xəzinəni özünə götürə bilər, digər şərtlərə də cavab verdiyi təqdirdə onun xümsünü dərhal verməlidir.

Əgər məntiqli əsaslarla həmin xəzinənin ərazinin əvvəlki sahibinin malı olduğunu ehtimal edirsə, həmin şəxs "zül-yəd" olduğu (yəni sözügedən ərazi və həmçinin, xəzinə, yaxud onun yerləşdiyi yer həmin

---

[1] Əlbəttə, mədəni irsin və qədim tarixi abidələrin bir hissəsi hesab edilən olduqca qədim tarixə malik xəzinələrin mənimsənilməsinə icazə verilmir və belə xəzinələri tapanlar onları qorunması üçün əlaqədar etibarlı qurumlara təhvil verməlidirlər.

ərazidə yerləşdiyinə görə onun ixtiyarında və istifadəsində olduğu) təqdirdə ona məlumat verməlidir. Beləliklə, əgər ərazinin əvvəlki sahibi həmin xəzinənin onun mülkiyyəti olduğunu iddia edərsə, xəzinəni ona təhvil verməli, iddia etmədiyi təqdirdə isə ondan öncə torpağın mülkiyyətçisi olmuş və zül-yəd hesab edilən şəxsə məlumat verməli və bu qayda ilə ondan əvvəl torpaq mülkiyyətçisi olan və zül-yəd hesab edilən bütün şəxslərə xəbər verməlidir. Əgər onlardan heç biri belə bir iddiada irəli sürməsə, belə ki, xəzinəni tapan şəxs üçün yaxın zamanlarda yaşayan bir müsəlman, yaxud zimmi kafirin onu öz mülkiyyətinə keçirib-keçirmədiyi məlum olmazsa, onu özünə götürə bilər, ancaq digər şərtlərə də cavab verdiyi təqdirdə onun xümsünü dərhal verməlidir.

**Məsələ 2420.** Əgər insan eyni vaxtda müxtəlif yerlərdə əldə etmək üçün çəkdiyi xərclər çıxıldıqda ümumi qiyməti 105 misqal gümüş, yaxud 15 misqal qızıl dəyərinə bərabər olan xəzinələr taparsa, onların xümsünü dərhal verməlidir. Lakin əgər müxtəlif vaxtlarda xəzinələr taparsa, bu tapıntılar arasındakı zaman fasiləsi çox olmadığı təqdirdə onların dəyərini üst-üstə gələrək hesablamalı, aralarındakı zaman fasiləsi uzun olduğu təqdirdə isə hər birini ayrı-ayrılıqda hesablamalıdır.

**Məsələ 2421.** Əgər iki və ya daha artıq şəxs əldə etmək üçün çəkilən xərclər çıxıldıqdan sonra qiyməti 105 misqal gümüş, yaxud 15 misqal qızıl dəyərinə çatan bir xəzinə taparsa, lakin onların hər birinin payı ayrı-ayrılıqda bu miqdarda (məbləğdə) deyilsə, bu şəxslərdən heç birinə öz payından xəzinə xümsü ünvanı ilə xüms vermək vacib deyil. Ancaq hər bir şəxsin payı onun illik gəlirindən hesab edilir və ilin sonunadək qaldığı və məunəyə sərf edilmədiyi təqdirdə onun xümsünü vermək lazımdır.

**Məsələ 2422.** Əgər bir şəxs bir heyvanı satın alarsa və onun qarnında bir şey taparsa, həmin şeyin satıcının, yaxud heyvanın əvvəlki sahibinin malı olduğunu və həmin şəxsin heyvan və onun qarnındakı şey üzərində zül-yəd olduğunu (yəni heyvanın onun ixtiyarında və istifadəsində olduğunu) məntiqli əsaslarla ehtimal etdiyi təqdirdə həmin şəxsə xəbər verməlidir. Beləliklə, əgər həmin şəxs həmin şeyin onun malı olduğunu iddia edərsə, həmin şeyi ona verməli, iddia etməzsə, ondan öncə həmin heyvanın sahibi olan və zül-yəd hesab edilən şəxsə məlumat verməli və bu qayda ilə ondan öncə heyvanın sahibi olan, zül-yəd hesab edilən və həmin (heyvanın qarnındakı) şeyin sahibi ola biləcəklərini ehtimal etdiyi bütün şəxslərə xəbər verməlidir. Ancaq əgər nəticədə həmin şeyin sahibini tanıya bilməzsə, belə ki, həmin şeyi tapan şəxs üçün son dövrlərdə yaşayan bir müsəlmanın, yaxud zimmi kafirin həmin şey üzərində mülkiyyət haqqının olub-olmaması məlum olmazsa, həmin şey xəzinə

nisabı miqdarında olduğu təqdirdə onun xümsünü verməlidir. Hətta, vacib ehtiyata əsasən, xəzinə nisabından az olduğu təqdirdə də onun xümsünü verməlidir və yerdə qalanını özünə götürə, mənimsəyə bilər. Bu hökm xüsusi bir yerdə yetişdirildiyi və qidalanmasına bir şəxsin məsul olduğu halda balıq və bu qəbildən olan digər heyvanlara da aiddir. Ancaq əgər dənizdən, yaxud çaydan tutularsa, kiməsə məlumat verməyə ehtiyac yoxdur.

## Dalğıclıq üsulu ilə əldə edilən cəvahirat

**Məsələ 2423.** Əgər insan dalğıclıqla, yəni dənizdə, yaxud böyük çaylarda suya dalmaqla mirvari (inci) və mərcan, yaxud suda əmələ gələn digər növ cəvahirat çıxararsa, istər yetişdirilən olsun, istərsə mədən cəvahiratı, istər onu dənizdən bir dəfəyə çıxarsın, istərsə bir neçə dəfəyə, əlbəttə ki, bir neçə dəfəyə çıxardığı halda onlar arasındakı zaman fasiləsinin uzun olmaması şərti ilə hasilat xərclərini çıxdıqdan sonra qiyməti 18 noxud sikkəli qızıl dəyərinə çatırsa, xümsünü verməlidir. Əgər iki dalış arasındakı zaman fasiləsi uzun olarsa, məsələn, iki ayrı fəsildə dalğıclıq edərsə (bu üsulla cəvahirat əldə edərsə), onların heç biri (ayrı-ayrılıqda) hasilat xərcləri çıxıldıqdan sonra 18 noxud qızıl dəyərinə çatmazsa, onun üçün dalğıclıq üsulu ilə əldə edilən cəvahiratın xümsü ünvanı ilə xüms vermək vacib deyil. Ancaq həmin mal onun illik gəlirindən hesab edilir və ilin sonunadək qaldığı və məunəyə sərf edilmədiyi təqdirdə onun xümsünü vermək lazımdır.

**Məsələ 2424.** Əgər bir neçə nəfər insan dalğıclıqla cəvahirat çıxararsa, əldə edilmə xərcləri çıxıldıqdan sonra cəvahiratın qiyməti 18 noxud sikkəli qızıl dəyərinə bərabər olduğu təqdirdə əgər dalışda iştirak edənlərin heç birinin payı 18 noxud qızıl dəyərinə çatmırsa, onların heç birinə öz payından dalğıclıq üsulu ilə əldə edilən cəvahiratın xümsü ünvanı ilə xüms vermək vacib deyil. Ancaq hər bir şəxsin payı onun illik gəlirindən hesab edilir və ilin sonunadək qaldığı və məunəyə sərf edilmədiyi təqdirdə onun xümsünü vermək lazımdır.

**Məsələ 2425.** Əgər insan dənizdə suya dalmadan, hər hansı bir vasitədən istifadə edərək cəvahirat çıxararsa, əvvəlki məsələlərdə bəyan edilən şərtlərlə, ehtiyata əsasən, onun xümsünü vermək lazımdır.

**Məsələ 2426.** Əgər insan dənizdən bir şey çıxarmaq niyyəti olmadan suya dalarsa, təsadüfən əlinə bir cəvahirat keçərsə və onu mənimsəmək niyyətinə düşərsə, xümsünü verməlidir. Hətta, vacib ehtiyata əsasən, mənimsəmək niyyəti olmasa belə, onun xümsünü verməlidir.

**Məsələ 2427.** Əgər insan suya dalarsa, sudan bir heyvan çıxararsa və onun qarnında bir cəvahirat taparsa, həmin heyvan təbii olaraq qarnında

mirvari olan ilbiz kimi olduğu təqdirdə nisab həddinə çatırsa, xümsünü verməlidir. Əgər həmin heyvan təsadüfən cəvahirat udmuş olarsa, lazım ehtiyata əsasən, hərçənd nisab həddinə çatmasa da, gərək onun xümsünü versin.

**Məsələ 2428.** İnsanın dəniz, yaxud çaydan ovladığı balıq və digər heyvanlar dalğıclıq (dənizdə suya dalmaq vasitəsi ilə əldə edilən cəvahiratın xümsü) qisminə daxil deyil. Həmçinin, insanın balığı dənizdən tutduğu və qarnında mirvari, yaxud mərcan tapdığı halda da hökm belədir. Qeyd etmək lazımdır ki, dənizdən çıxarılan, ancaq dənizdə əmələ gəlməyən şeylər də, məsələn, dənizdə batan, sahiblərinin tərk etdiyi və içindəki malları çıxaran şəxslər üçün mübah (halal) etdiyi gəmidən əldə edilənlər dalğıclıq qisminə daxil deyil. Həmçinin, əgər insan dənizdə suyun səthindən, yaxud sahildən cəvahirat götürərsə, bu dalğıclıq qisminə daxil edilir. Qeyd edilən bütün hallarda insanın həmin şeylərin beşdə birini dalğıclıq üsulu ilə əldə edilən cəvahiratın xümsü ünvanı ilə vermək vacib deyil. Ancaq bu mallar onun illik gəlirindən hesab edilir və ilin sonunadək qaldığı və məunəyə sərf edilmədiyi təqdirdə onun xümsünü vermək lazımdır.

**Məsələ 2429.** Əgər insan suya dalarsa və qiyməti 18 noxud qızıl dəyərində, yaxud daha artıq məbləğdə olan miqdarda ənbər[1] çıxararsa, onun xümsünü dərhal verməlidir. Hətta ənbəri suyun səthindən, yaxud dənizin sahilindən əldə etdiyi təqdirdə belə, eyni hökm şamil olur.

**Məsələ 2430.** Peşəsi dalğıclıq olan, yaxud mədən sahəsində çalışan şəxs əgər çıxardıqlarının xümsü verərsə və həmin xümsü verilmiş mallar illik xərclərindən artıq qalarsa, yenidən onların xümsünü verməsinə gərək yoxdur. Yalnız həmin maldan mənfəət əldə etdiyi və həmin mənfəət xüms ilinin sonunadək qaldığı, məunəyə sərf edilmədiyi hal istisna təşkil edir.

**Məsələ 2431.** Əgər uşaq hər hansı bir mədən (faydalı qazıntı, mineral) çıxararsa, yaxud bir xəzinə taparsa və ya suya dalaraq cəvahirat çıxararsa, vəlisi (şəri qəyyumu) onun xümsünü verməlidir və vermədiyi təqdirdə onun özü həddi-büluğa çatdıqdan sonra xümsünü verməlidir. Həmçinin, uşağın harama qarışmış halal malı olarsa, vəlisi qarışıq malla əlaqədar hökmlərdə deyilən qaydada hərəkət etməlidir.

## Qənimət

**Məsələ 2432.** Əgər müsəlmanlar kafirlərlə müharibə edərsə və müharibədə bir sıra mallar ələ keçirərsə, həmin mallara "qənimət" deyilir. Cihad imamın (ə) əmri ilə olduğu təqdirdə imama (ə) məxsus olan

[1] Kaşalota oxşar bir balığın mədəsindən çıxarılan gözəl qoxulu maddə. *Tərc.*

şeyləri qənimətdən ayırdıqdan sonra yerdə qalanının xümsünü dərhal vermək lazımdır. Qənimətə xümsün şamil olması məsələsində daşınar və daşınmaz əmlak arasında bir fərq yoxdur. Lakin ənfaldan olmayan torpaqlar hərçənd müharibə imamın (ə) icazəsi ilə olmasa belə, müsəlmanların ümumi mülkiyyətidir.

**Məsələ 2433.** Əgər müsəlmanlar imamın (ə) icazəsi olmadan kafirlərlə müharibə edərsə (hərçənd müdafiə cihadı olsa belə) və onlardan qənimət əldə edərsə, qənimət kimi götürdüklərinin hamısı imamın (ə) malıdır və döyüşçülərin onda heç bir haqqı yoxdur.

**Məsələ 2434.** Kafirlərin əlində olan şeyin sahibi "möhtərəm əl-mal"(-malı toxunulmaz) olarsa, yəni müsəlman, yaxud zimmi və ya muahid kafir olarsa, ona qənimətlə əlaqədar hökmlər şamil olur.

**Məsələ 2435.** Malı möhtərəm (toxunulmaz) olmayan bir kafirin malını qeyri-qanuni yollarla ələ keçirmək xəyanət, aman vədini və əhdi (sülh anlaşmasını) pozmaq hesab edildiyi təqdirdə, hərçənd belə bir hərəkətin İslam və müsəlmanların heysiyyətinə zərbə vurmadığı fərz edilsə belə, haramdır və bu yollarla onlardan alınan şeylər, vacib ehtiyata əsasən, qaytarılmalıdır.

**Məsələ 2436.** Məşhur budur ki, mömin nasibinin malını mənimsəyə və xümsünü verə bilər. Lakin bu hökm işkaldan xali deyil və vacib ehtiyat bundan çəkinməyi tələb edir.

## Zimmi kafirin müsəlmandan satın aldığı torpaq sahəsi

**Məsələ 2437.** Əgər zimmi kafir müsəlmandan torpaq sahəsi satın alarsa, məşhura əsasən, onun xümsünü həmin torpaq sahəsindən, yaxud başqa bir malından verməlidir. Lakin bu halda xümsün məlum mənada vacib olması "məhəll-i işkal"dır. [1]

[1] Yəni bu halda xümsün verilməsi ehtiyatın tələbidir. *Tərc.*

# XÜMSÜN MƏSRƏF EDİLMƏSİ

## Xümsün məsrəf edilməsi ilə bağlı ümumi şərhlər

**Məsələ 2438.** Xüms iki hissəyə bölünür. Onun bir hissəsi "səhm-i sadat"dır (seyidlərin payıdır) və yoxsul, yetim, yaxud səfər etdiyi yerdə qalan (vətəninə qayıda bilməyən) seyidə verilməlidir. Müstəhəb ehtiyata əsasən, seyidlərin payını onlara sərf etməsi üçün bütün şərtlərə cavab verən müctəhidə vermək, yaxud onun icazəsi ilə seyidlər üçün məsrəf etmək lazımdır. Xümsün digər yarısı isə "səhm-i imam"dır (imamın payıdır) ki, bu dövrdə bütün şərtlərə cavab verən müctəhidə verilməli, yaxud onun icazə verdiyi qaydada məsrəf edilməlidir. Lazım ehtiyata əsasən, həmin müctəhid ələm və ümumi cəhətlərdən (möminlərin ümumi ehtiyaclarından) agah olan mərcə olmalıdır.

Bu məsələdə qeyd edilənlər xümsün vacib olduğu bütün hallara aiddir. Yalnız harama qarışmış halal malın xümsü istisna hal təşkil edir ki, bu halda malın haramdan ayrılması üçün, vacib ehtiyata əsasən, xümsü xüms və "rədd əl-məzalim" almaq haqqına sahib olan bir şəxsə vermək lazımdır. Bununla bağlı ətraflı izah 2390-cı məsələdə verilmişdir. Lazım ehtiyata əsasən, bu iş ələm mərcədən icazə almaqla həyata keçirilməlidir.

**Məsələ 2439.** Müstəhəqdən[1] alacağı olan və alacağını xüms əvəzinə hesablamaq istəyən şəxs, vacib ehtiyata əsasən, ya şəriət hakimindən, ya da onun nümayəndəsindən bunun üçün icazə almalı, yaxud xümsü müstəhəqqə verməli və daha sonra müstəhəqq həmin malı (pulu) borcunu ödəmək üçün ona geri qaytarmalıdır. O, müstəhəqdən vəkalət alaraq onun tərəfindən malı xüms ünvanı ilə qəbul edə və sonra öz alacağı kimi geri ala bilər.

**Məsələ 2440.** İnsan xümsü müctəhidə, yaxud onun nümayəndəsinə verərkən və ya xümsü şəxsən lazımı yerlərə məsrəf etmək icazəsi olan hallarda, vacib ehtiyata əsasən, xümsü Allahın əmrini yerinə yetirmək və Ona yaxınlaşmaq niyyəti ilə verməlidir və əgər bu niyyət olmadan xüms verərsə, günah etmişdir, ancaq verdiyi xüms kifayət edir.

**Məsələ 2441.** Malının xümsünü yoxsula vermək istəyən şəxsin yoxsulu ona verdiyi şeyin xüms olduğundan agah etməsinə gərək yoxdur və hərçənd zahirən hədiyyə kimi versə də, qəlbində xüms vermək niyyətinin olması kifayətdir.

---

[1] Burada: xüms almaq haqqına sahib olan şəxs. *Tərc.*

## Seyidlərin payını almaq haqqına sahib olan şəxslər üçün şərtlər

**Məsələ 2442.** Xümsün seyidlərin payı olan hissəsinin verilə biləcəyi şəxslər bir neçə şərtə cavab verməlidir:

Xüms alan seyid, isnaəşəri şiə və yoxsul[1] olmalı, xümsü haram yolda məsrəf etməməli və vacib ehtiyata əsasən, ona xüms vermək günaha yardım hesab edilməməli, həmçinin, vacib ehtiyata əsasən, şərabxor, namaz qılmayan və aşkar surətdə günah edən şəxs olmamalı, həmçinin, vacib ehtiyata əsasən, xüms verənin "vacib ən-nəfəqə"si[2] olmamalıdır.

**Məsələ 2443.** Xümsün seyidlərin payı olan hissəsinin verilə biləcəyi seyid o şəxsdir ki, onun ata tərəfdən nəsəbi Haşimə (Allahın əziz Elçisinin (s) ulu babasına) gedib çatır. Ana tərəfdən seyidlik xüms almaq üçün kafi deyil.

**Məsələ 2444.** Əgər bir şəxs seyid olduğunu söyləyərsə, iki adil şəxs onun seyid olduğunu təsdiqləməyincə, yaxud insan hər hansı bir yolla onun seyid olduğuna dair yəqinlik, yaxud arxayınlıq hasil etməyincə, ona xüms vermək olmaz.

**Məsələ 2445.** Öz şəhərində seyid olduğu bilinən şəxsə insan bunun əksinə dair yəqinlik, yaxud arxayınlıq hasil etmədiyi təqdirdə xüms vermək olar.

**Məsələ 2446.** Fəqir (yoxsul) şanı səviyyəsində özünün və ailəsinin illik xərclərini təmin etmək imkanına sahib olmayan şəxsdir. Miskin fəqirdən də daha ağır şəraitdə yaşayan, həyat şəraiti daha acınacaqlı olan, məsələn,gündəlik ehtiyacını təmin etmək imkanına belə sahib olmayan şəxsdir.

**Məsələ 2447.** Hər hansı bir gəlir mənbəyi olan, məsələn, sərmayəsi ilə ticarətlə məşğul olan, bir mülkü olan və onu icarəyə verən, pulu olan və onu müzaribəyə verən, əkinçilik, heyvandarlıq, bağbanlıqla məşğul olan, idari və qeyri-idari işlərdə çalışan, yaxud hər hansı bir peşəsi, sənəti olan və illik xərclərini bu yolla əldə etdiyi gəlir hesabına təmin edə bilən şəxs yoxsul deyil və yoxsulluğun şərt sayıldığı dini vergilərdən ona bir şey vermək olmaz.

**Məsələ 2448.** Yalnız gəliri illik xərclərindən az olan və illik xərclərinə yetməyən bir gəlir mənbəyi olan şəxs yoxsul hesab edilir və ona yoxsulluğun şərt sayıldığı şəri vergilərdən yalnız illik xərclərinin

---

[1] Səfər etdiyi yerdə qalan (ibn əs-səbil) seyidin ona xüms verilən yerdə yoxsul olması kafidir. (Yəni əslində, öz vətənində yoxsul olmasa da ibn əs-səbil kimi xümsdən pay ala bilər *tərc.* )

[2] "Vacib ən-nəfəqə" o şəxslərə deyilir ki, onların normal yaşayış xərclərini təmin etmək mükəlləfə vacibdir. Məsələn, arvad və uşaqlar. *Tərc.*

çatışmayan miqdarına bərabər miqdarı istihqaq[1] şərtlərinə riayət etməklə vermək olar.

**Məsələ 2449.** Sataraq yaşayış xərclərini təmin etməyə sərf edə biləcəyi mülkü, yaxud artıq səhmləri olan və ya daha ucuz sərmayə və əmək aləti ilə əvəz edə biləcəyi ehtiyac miqdarından artıq sərmayəsi və əmək aləti olan, belə ki, daha ucuz sərmayə və əmək aləti də onun yaşayış tələbatını şanı səviyyəsində təmin etməyə yetən şəxs bu işi görməlidir, o, yoxsul hesab edilmir və yoxsulluğun şərt olduğu şəri vergilərdən ona xərclərinin çatışmayan miqdarını vermək olmaz.

**Məsələ 2450.** Sərmayəsi, yaxud əmək alətləri, qazanc vasitələri olan, ancaq bunlardan əldə etdiyi gəliri illik xərclərindən az olan və ehtiyaclarını təmin etməyən sənətkar, tacir, yaxud başqa bu kimi bir peşə sahibi yoxsul hesab edilir və ona yalnız illik xərclərinin çatışmayan miqdarını şəri vergilərdən (istihqaq şərtlərinə riayət etməklə) vermək olar. Onun ehtiyacı olan əmək alətləri, yaxud sərmayəsini sataraq xərclərinə (yaşayış tələbatına) sərf etməsinə gərək yoxdur, onları işinə və qazanc əldə etməyə davam etmək üçün saxlaya bilər.

**Məsələ 2451.** İşləyərək qazanc əldə etmək və özünün və ailəsinin xərclərini təmin etmək iqtidarında olan, ancaq tənbəllikdən hər hansı bir işlə məşğul olmayan yoxsula şəri vergilərdən bir şey vermək olmaz.

**Məsələ 2452.** Gəliri halal olan bir sənət, yaxud peşəni öyrənməkdə çətinlik çəkməyəcək bir yoxsul, vacib ehtiyata əsasən, dini vergilərdən pay (ianə) alaraq yaşaya bilməz. Ancaq öyrənənədək məxaricinin çatışmayan hissəsi üçün yoxsulluğun şərt olduğu dini vergilərdən istihqaq şərtinə riayət etməklə ona vermək olar.

**Məsələ 2453.** Yalnız şanına uyğun olmayan bir işlə məşğul ola bilən və başqa bir gəlir mənbəyi olmayan insan yoxsul hesab edilir. Həmçinin, əgər insan hər hansı bir sənət və peşə ilə məşğul olmağa qadirdirsə, ancaq bunun üçün lazım olan əmək alətlərinə (cihazlara, avadanlıqlara və s. ) sahib deyilsə və başqa bir gəlir mənbəyi də yoxdursa, yoxsuldur.

**Məsələ 2454.** Təhsil alan və təhsil alması ilə əlaqədar olaraq özünün və ailəsinin illik məxaricini şanı səviyyəsində təmin etmək imkanı olmayan, əgər təhsil almazsa, yaşayışı üçün hər hansı bir işlə məşğul olaraq özünün və ailəsinin məxaricini təmin etməyə qadir olan şəxs həmin elmi öyrənməsi "eyni vacib"[2] olduğu təqdirdə şəri vergilərdən (istihqaq şərtlərinə riayət etməklə) ona vermək olar, əks təqdirdə isə yoxsulluğun şərt sayıldığı şəri vergilərdən ona vermək olmaz.

---

[1] Xüms və zəkat kimi dini vergilərdən pay almaq hüququ, müstəhəqlik. *Tərc.*

[2] Hər kəsin şəxsən icra etməli olduğu vacib işə "eyni vacib" deyilir. Bunun əksi olan "kifai vacib" isə bir və ya bir neçə nəfər mükəlləf tərəfindən icra edildiyi təqdirdə başqa mükəlləflərin üzərindən götürülən vacib iş deməkdir. *Tərc.*

**Məsələ 2455.** Təhsil alan və təhsilini yarımçıq qoysa belə, məxaricini təmin edəcək bir iş tapmayacağını, yaxud onun üçün şanına əksiklik hesab edilən bir işlə məşğul olmalı olacağını və ya hətta iş tapılsa belə, fiziki (fizioloji) vəziyyətinin iş üçün tamamilə yararsız olduğunu, yaxud həmin işlə məşğul olmağın onun üçün dözülməz dərəcədə qeyri-adi məşəqqəti olduğunu bildiyi təqdirdə bu vəziyyət davam etdiyi və başqa bir gəlir mənbəyi olmadığı müddət ərzində təhsilinə davam edə bilər. Bu halda o, yoxsul sayılır və hərçənd həmin elmin öyrənilməsi onun üçün eyni vacib olmasa belə, yoxsulluğun şərt sayıldığı şəri vergilərdən (istihqaq şərtlərinə riayət etməklə) məxaricinin çatışmayan miqdarını ona vermək olar.

**Məsələ 2456.** Özünün və ailəsinin illik xərclərini təmin etmək imkanı olmayan yoxsulun öz mülkiyyətində olan və içində yaşadığı bir evi, yaxud minik avtomobili varsa, bu ev və avtomobil onun şanı səviyyəsində olduğu və onlara ehtiyac duyduğu təqdirdə (hətta heysiyyətini qorumaq üçün olsa belə) onları satmasına gərək yoxdur və yoxsulluğun şərt olduğu şəri vergilərdən (istihqaq şərtlərinə riayət etməklə) məxaricinin çatışmayan miqdarını ona vermək olar.

Həmçinin, bu hökm onun ehtiyacı olan ev əşyalarına, xalçaya, qab-qacağa, yay və qış geyimlərinə və s. də şamildir və bunlara sahib olmayan bir yoxsulun bu şeylərə ehtiyacı olarsa, ehtiyacını təmin etmək üçün yoxsulluğun şərt olduğu şəri vergilərdən (istihqaq şərtlərinə riayət etməklə) ona vermək olar.

Ancaq əgər insanın əlində bu əşyalardan ehtiyac miqdarından artıq sayda olarsa və artıq olan miqdar onun il boyu ehtiyaclarını təmin etmək üçün kifayət edərsə, yoxsul hesab edilmir. Əgər belə bir şəxsin ehtiyacı olan evi, yaxud avtomobili və ya digər növ nəqliyyat vasitəsi vardırsa, ancaq daha ucuzu ilə ehtiyacını təmin etməsi mümkündürsə və aradakı qiymət fərqinə bərabər məbləğ onun illik məxarici üçün kifayət edərsə, sözügedən qiymət fərqi israf həddinə çatdığı və həmin şəxsin şanından artıq hesab edildiyi halda o, yoxsul hesab edilmir.

**Məsələ 2457.** Özünün və ailəsinin illik xərcləri üçün maddi vəsaitə sahib olan, yaxud əvvəlki məsələlərdə verilən şərhlərlə bu xərcləri təmin etməyə qadir olan şəxs əvvəlki dövrlərdə borc almış olduğu təqdirdə yoxsul hesab edilmir və yoxsulluğun şərt olduğu şəri vergilərdən ona nəsə verilməməlidir. Buna əsasən, yalnız qaytarılma vaxtı çatmış borcu qaytara bilməmək həmin şəxsin şərən yoxsul hesab edilməsinə əsas vermir (hətta alacaqlının təzyiqi, yaxud başqa bir səbəblə borcun qaytarılmaması, yaxud təxirə salınması insan üçün sıxıntı törətsə, yaxud heysiyyətinə xələl gəlməsinə səbəb olsa belə). Beləliklə, belə bir şəxsə

yoxsulluğun şərt olduğu şəri vergilərdən nəsə vermək olmaz. [1]

**Məsələ 2458.** Özünün və ailəsinin illik xərcləri üçün maddi vəsaitə sahib olmayan, verilən izahlar əsasında şəriətə görə yoxsul hesab edilən və bundan əlavə, borcu da olan şəxsə borcunu nəzərə almadan, yalnız özünün və onun "vacib ən-nəfəqə"si hesab edilən şəxslərin (məsələn, ailə üzvlərinin) yaşayış tələbatı ilə əlaqədar olan illik xərclərinin çatışmayan məbləğini yoxsulluğun şərt olduğu şəri vergilərdən (istihqaq şərtlərinə riayət etməklə) vermək olar. Hərçənd o, borcu nəzərə alınmadan özünün və ailəsinin yaşayış tələbatı ilə əlaqədar illik xərclərin çatışmayan hissəsi məbləğində aldığı pulla borcunu ödəyə bilər. Daha sonra yenə də özünün və ailəsinin illik xərclərini və yaşayış tələbatını təmin etmək üçün möhtac olarsa, yoxsulluğun şərt olduğu şəri vergilərdən bu vergilərlə əlaqədar digər şərtlərə riayət etməklə yenidən borcunu nəzərə almadan, yalnız illik xərclərinin çatışmayan məbləğini ona vermək olar.

**Məsələ 2459.** Seyidlərin payının sərf edildiyi yerlərdən biri də yetim seyiddir. Yetim deyərkən atası olmayan həddi-büluğa çatmamış uşaq nəzərdə tutulur. Yoxsul və yetim seyidin payı onun mülkiyyətinə keçirilməlidir və onun şəri vəlisi (məsələn, ata tərəfdən olan babası), yaxud atasının vəsiyyət etdiyi şəxs və ya şəriət hakimi tərəfindən təyin edilmiş qəyyum xümsü ona sərf etmək üçün qəbul etməlidir. Qeyd etmək lazımdır ki, xüms verilən yetim seyid mütləq yoxsul olmalıdır.

**Məsələ 2460.** Xərcliyi qurtaran, yaxud nəqliyyat vasitəsi xarab olan müsafir seyid səfəri günah səfər olmadığı və borc almaqla, yaxud hər hansı bir şeyi satmaqla özünü gedəcəyi yerə çatdıra bilmədiyi təqdirdə hərçənd öz vətənində yoxsul olmasa belə, xüms ala bilər. Ancaq əgər başqa bir yerdə borc almaqla, yaxud hər hansı bir şeyi satmaqla səfər xərclərini təmin edə biləcəksə, yalnız həmin yerə çatmaq üçün yetəcək qədər xüms ala bilər və vacib ehtiyata əsasən, əgər öz vətənində hər hansı bir şeyi satmaq, yaxud icarəyə verməklə yol xərcini təmin edə bilərsə, xüms almamalıdır.

**Məsələ 2461.** Səfərdə qalan seyidin ona xüms verilən şəhərdə yoxsul olması kifayətdir, öz vətənində yoxsul olmasa da olar. Ancaq onu getmək istədiyi yerə çatdıracaq miqdardan artıq verməməlidirlər.

**Məsələ 2462.** Səfərdə qalan seyidə əgər səfəri günah səfər olarsa, vacib ehtiyata əsasən, xüms verməməlidirlər.

**Məsələ 2463.** Adil olmayan seyidə (sonrakı məsələdə qeyd ediləcək hallar istisna olmaqla), yaxud adilliyi məlum olmayan seyidə xüms vermək olar, lakin isnaəşəri olmayan seyidə xüms verilməməlidir.

---

[1] Əlbəttə, "ğarimin" (borclular) ilə əlaqədar şərtlərə uyğun olduğu təqdirdə onlardan hesab edilir və mal zəkatından "səhm-i ğarimin" (borcluların payı) ünvanı ilə bununla əlaqədar şərtlərə riayət etməklə ona pay vermək olar.

**Məsələ 2464.** Xümsü günaha sərf edən seyidə xüms vermək olmaz. Hətta əgər xüms vermək onun günahına yardım etmək olarsa, vacib ehtiyata əsasən, hərçənd xümsü günaha sərf etməsə belə, ona xüms verilməməlidir. Həmçinin, vacib ehtiyata əsasən, şərab (məstedici içki) içən, yaxud namaz qılmayan və ya günahı aşkar surətdə həyata keçirən şəxsə xüms verilməməlidir.

**Məsələ 2465.** Daimi nikahda olduğu arvadı seyidə olan şəxs, vacib ehtiyata əsasən, ona (ərə) vacib olan nəfəqə və xərcləri xümsdən verə bilməz. Həmçinin, ər həyat yoldaşının vacib olmayan, əlavə tələbatını da öz malı hesabına qarşılıqsız təmin etmək imkanına malik olduğu halda, vacib ehtiyata əsasən, özünün xümsünü bu qəbildən olan tələbata sərf etməsi üçün həyat yoldaşına verməməlidir. Ancaq əgər başqalarının xərclərini təmin etmək qadına vacib olarsa, lakin bu xərcləri təmin edən şəxsə (ərə) vacib olmazsa və qadın onların xərclərini təmin etmək imkanına sahib deyilsə, ər xümsünü onlara məsrəf etməsi üçün arvada verə bilər (bununla bağlı izah "Nəfəqələr" mövzusunda veriləcəkdir). Məsələn, insanın arvadının əvvəlki ərindən övladları olarsa, əvvəlki ər, yaxud övladların nəfəqəsini ödəməsi vacib olan şəxs onların xərclərini təmin etməzsə, qadın da yoxsul olarsa və övladlarının xərclərini təmin edə bilməzsə, insan xümsünü əvvəlki ərindən olan övladlarının tələbatına sərf etməsi üçün həyat yoldaşına verə bilər.

**Məsələ 2466.** Əgər bir seyidin, yaxud insanın öz arvadı olmayan bir seyidənin xərclərini təmin etmək insana vacib olarsa (məsələn, yoxsul valideynlərin nəfəqəsinin zəngin övladlarının üzərinə düşməsi, yaxud yoxsul olan övladların nəfəqəsinin valideynlərin üzərinə düşməsi kimi), vacib ehtiyata əsasən, insan onların qida, geyim və digər tələbatlarını xümslə təmin edə bilməz. Həmçinin, insanın önların vacib olmayan, daha geniş tələbatlarını öz malı hesabına qarşılıqsız təmin etmək imkanı olduğu halda, vacib ehtiyata əsasən, öz xümsünü belə tələbata sərf etmələri üçün onlara verməməlidir.

**Məsələ 2467.** Xərclərini başqa bir şəxsin təmin etməli olduğu, ancaq təmin edə bilmədiyi, yaxud təmin etmək imkanına sahib olduğu halda təmin etmədiyi bir seyidə xüms vermək olar. [1]

**Məsələ 2468.** Vacib ehtiyata əsasən, hərçənd birdəfəlik olsa belə, bir yoxsul seyidə bir illik məxaricdən artıq xüms, yaxud yoxsulluğun şərt olduğu şəri vergi verilməməlidir. Hətta əgər xüms, yaxud yoxsulluğun şərt olduğu şəri vergi ona tədricən verilərsə, onun və ailəsinin bir illik

---

[1] Əri imkanı olduğu halda öhdəsinə düşən xərcləri təmin etməyən qadına xüms vermək yalnız əri (dözülməz çətinlik olmadan) sözügedən xərcləri təmin etməyə vadar etmək mümkün olmadığı halda caizdir.

məxarici məbləğinə çatdıqda daha ona bundan artıq (xüms, yaxud yoxsulluğun şərt olduğu şəri vergi) vermək olmaz.

Həmçinin, illik xərcləri üçün maddi vəsaiti olan şəxs əgər onu bir hissəsini xərclədikdən sonra qalanının onun bir illik xərcləri qədər olub-olmadığına şəkk edərsə, xüms, yaxud yoxsulluğun şərt olduğu şəri vergi ala bilməz.

## Xüms verməklə əlaqədar digər hökmlər

**Məsələ 2469.** Vergilər xüms hesab edilmir və vergi və bu kimi rüsumlar ödəyən şəxs həmin məbləği mərcə-i təqlidə verilən xüsm, yaxud digər şəri vergilərin bir hissəsi kimi hesablaya bilməz. Əlbəttə, illik gəlirdən vergi üçün ödənilən pul məunənin bir hissəsi sayılır və hərçənd əvvəlki illərin vergisi üçün ödənilsə belə, ona xüms şamil olmur.

**Məsələ 2470.** İnsan xüms şamil olan malların xümsünü həmin mallardan, yaxud vacib olan xüms məbləğində pulla (tədavüldə olan nağd pulla) verə bilər. [1] Ancaq əgər həmin malların xümsünü başqa bir malla vermək istəyərsə, şəriət hakiminin, yaxud onun vəkilinin icazəsi ilə olduğu hallar istisna olmaqla, bu məhəll-i işkaldır. [2]

**Məsələ 2471.** Əgər xüms şamil olan mal sahibinin yaşadığı yerdən başqa bir yerdə olarsa və onun həmin malın özündən təxirə salmadan xüms vermək imkanı olmazsa, ancaq onun qiymətini dərhal verə bilərsə, bu iş ona vacib deyil, hətta xümsü şamil olduğu malın özündən verməsi üçün təxirə salması caizdir. Lakin xümsün verilməsində səhlənkarlıq etməməlidir.

**Məsələ 2472.** Əgər insanın öz şəhərində müstəhəqq (xüms almaq haqqı olan bir şəxs) olmazsa, xümsü başqa şəhərə apara bilər. Hətta əgər öz şəhərində müstəhəqq olsa belə, xümsün verilməsində səhlənkarlıq hesab edilmədiyi halda xümsü başqa şəhərə apara bilər. Hər iki halda onu aparmaq və daşımaq üçün çəkilən xərcləri xümsdən çıxa bilməz və əgər tələf olarsa, hərçənd onu qorumaqda səhlənkarlığa yol

---

[1] İnsan mallarının xümsünü dövriyyədə olan nağd pulla vermək istəyərsə, bununla əlaqədar aşağıdakı amillərdən asılı olaraq müxtəlif hökmlər vardır:
Xüms kimi verilən malın növü (il ərzində əldə edilən gəlir, ilin sonunda artıq qalan gəlir, xümsü verilmiş mal, xüms şamil olmayan mal, borc götürülmüş mal, yaxud xüms ili keçmiş mal olması baxımından);
Xümsün şamil olduğu malın növü (məunə olub-olmaması, mövcud olması, yoxsa tələf olması baxımından).
Bu hallardan hər biri ilə əlaqədar xüsusi hökm vardır. Nümunə üçün 2369-cu məsələnin misallarına müraciət etmək olar.

[2] Yəni vacib ehtiyat bundan çəkinməyi tələb edir. *Tərc.*

verməsə belə, məsuliyyət daşıyır. [1]Anaq əgər xümsü öz malından ayıraraq müstəhəqdən, yaxud şəriət hakimindən aldığı vəkalətlə özündə saxlayarsa, zimməti təmizlənir və əgər bundan sonra bu xümsü onu vəkil edənin icazəsi, yaxud göstərişi ilə başqa şəhərə aparsa və xüms tələf olarsa, onu qorumaqda səhlənkarlığa yol vermədiyi təqdirdə məsuliyyət daşımır.

**Məsələ 2473.** Əgər insan ilin sonunda gəlirini hesablayaraq xümsünü verərsə, sonra səhv hesabladığını əmlakına şamil olandan artıq xüms verdiyini başa düşərsə, vəziyyəti düzəltmək üçün şəriət hakimi, yaxud onun nümayəndəsinə müraciət etməsi istisna olmaqla, artıq verdiyini gələn il ona vacib olacaq xümsün əvəzinə hesablaması caiz deyil. Həmçinin, əgər xümsü səhv hesablayaraq yoxsula verərsə, onun (xüms ünvanı ilə verdiyi malın, yaxud pulun) özü qaldığı təqdirdə geri ala bilər. Habelə, əgər özü tələf olmuşdursa və yoxsul onun xümsünü yanlış hesabladığını və artıq verdiyini bilirdisə, onu geri almaq caizdir.

**Məsələ 2474.** Xüms vermək istəyən şəxs hərçənd müstəhəqq razı olsa belə, bir malı onun real qiymətindən artıq hesablayaraq xüms kimi verə, yaxud xüms şamil olan bir malı real qiymətindən ucuz hesablayaraq pulunu (beşdə birini) verə bilməz. 2470-ci məsələdə qeyd edildi ki, xümsün pul (tədavüldə olan nağd pul) istisna olmaqla başqa bir malla verilməsi ümumiyyətlə məhəll-i işkaldır. Yalnız bu işin şəriət hakiminin, yaxud onun vəkilinin icazəsi ilə görülməsi istisnadır.

**Məsələ 2475.** Mal sahibi xümsü müstəhəqqə verərək qarşısına həmin xümsü ona qaytarmasını şərt qoya bilməz.

---

[1] Yenə də tələf olan (xarab olan, itən və s. ) xümslük malı, yaxud onun dəyərinə bərabər məbləği verməlidir. *Tərc.*

# MALIN ZƏKATI

**Məsələ 2476.** On şeydən zəkat vermək vacibdir:
1) buğda; 2) arpa; 3) quru xurma (təmr); 4) üzüm (kişmiş). Bu dörd şeyə "dörd bitkiçilik məhsulu" deyilir.
5) qızıl; 6) gümüş. Bu iki şeyə "iki nağd" deyilir.
7) dəvə; 8) inək; 9) qoyun. Bu üç şeyə "üç ev heyvanı" deyilir.
10) sərmayə (vacib ehtiyata əsasən).
Bu on şey "zəkatlıq mallar" adlanır.

## Zəkat ili

**Məsələ 2477.** Dəvə, inək, qoyun, qızıl və gümüşdən zəkat insan on bir bütöv ay boyunca bu malların sahibi olduğu və zəkatın şamil olmasının digər şərtləri də gerçəkləşdiyi zaman vacib olur. Lakin sonrakı ilin başlanğıcını on iki ay tamam olduqdan sonra hesablamalıdır. Başqa sözlə, növbəti il bu mallara sahib olduğu vaxtdan bir bütöv il (on iki ay) keçdikdən sonra başlayır və bu ilə "zəkat ili" deyilir. Zəkatın şamil olduğu digər bir qisim mallar, yəni buğda, arpa, xurma və kişmiş xüsusunda isə bir bütöv ilin keçməsi şərt deyil və bu, qarşıdakı məsələlərdə izah ediləcəkdir.

**Məsələ 2478.** Sərmayə xüsusunda zəkat insanın on iki bütöv ay boyunca bu malların sahibi olduğu və zəkatın şamil olmasının digər şərtləri də gerçəkləşdiyi zaman, başqa sözlə zəkatın şamil olmasının digər şərtləri də gerçəkləşdiyi halda üzərindən bir zəkat ili keçdikdə vacib olur.

**Məsələ 2479.** Zəkat ili şəmsi (günəş) deyil, qəməri (ay) ili əsasında hesablanır. Buna əsasən, 2477-ci məsələdə on bir ayın keçməsi deyərkən qəməri (sinodik) təqvimlə on bir ay nəzərdə tutulur. Həmçinin, 2478-ci məsələdə sərmayə xüsusunda on iki ayın keçməsi deyərkən on iki qəməri ayı nəzərdə tutulur.

### Zəkatın vacib olmasının ümumi şərtləri

Zəkatın sabit, yaxud vacib olmasının şərtləri iki qismə bölünür:
a) Zəkatın sabit, yaxud vacib olmasının ümumi şərtləri;
b) Zəkatın sabit, yaxud vacib olmasının xüsusi şərtləri.
Ümumi şərtlər bunlardan ibarətdir:
**1-ci şərt: Zəkatın şamil olduğu şeyin sahibi olmalıdır**

**Məsələ 2480.** Zəkatlıq malların[1] sahibi olmazsa (çöllükdə və bu kimi yerlərdə yabanı halda bitən buğda və arpa, yaxud çöllükdə və bu kimi yerlərdə başlı-başına buraxılmış, sahibi olmayan və kimsənin ələ keçirmə, yaxud ovlama və bu kimi üsullarla öz mülkiyyətinə keçirmədiyi inək və dəvə kimi), zəkatı yoxdur. Həmçinin, bir insanın mülkiyyətinə hələ tamamilə keçməmiş zəkatlıq malın (insana bağışlanılan, ancaq hələ əldə etmədiyi mal kimi) zəkatı həmin insana vacib deyil.

**2-ci şərt: Cansız əşyalar, məqsədlər, yaxud ümumi ünvanlara deyil, həqiqi şəxslərə məxsus olmalıdır**

**Məsələ 2481.** Zəkatlıq mallar məscidin, hüseyniyyənin, müqəddəs ziyarətgahların, Allahın evinin (Kəbənin) və s. mülkü olarsa, onların zəkatı vacib deyil. Həmçinin, əgər zəkatlıq mal əzadarlıq, yaxud İmam hüseynə (ə) əzadarlıq, Quran-i kərimin öyrənilməsi və öyrədilməsi, xəstələrin müalicəsi kimi şəriətə uyğun bir məqsəd üçün təxsis edilmiş mal olarsa, bu halda da sözügedən malın zəkatı vacib deyil. Habelə, əgər zəkatlıq mal yoxsullar, alimlər, tələbələr və s. ümumi ünvanlara təxsis edilmiş mal olarsa, bu malın zəkatı vacib deyil. Yalnız sözügedən mallar onları bu ünvana təxsis edən şəxs tərəfindən bu ünvana sahib olan bir insanın, yaxud bir qisim insanların mülkiyyətinə keçirilərsə, bu halda istisna olaraq zəkatın şamil olmasının digər bütün şərtlərinin də gerçəkləşməsi ilə sözügedən mallara zəkat şamil olur.

**3-cü şərt: Sahibi azad olmalı, kölə olmamalıdır**

**Məsələ 2482.** Kölələrin malları hərçənd nisab həddinə çatsa belə, onlara zəkat şamil olmur.

**4-cü şərt: Mal "zimmətdə külli" deyil, "şəxsi" olmalıdır**

**Məsələ 2483.** Əgər bir şəxsin başqa bir şəxsdən zəkatlıq mal alacağı vardırsa, məsələn, bir şəxs zəkatlıq malı ona zəkat şamil olmazdan öncə başqa bir şəxsə borc vermişdirsə, hərçənd onu geri alması mümkün olsa belə, zəkatını verməsi ona vacib deyil.

**Məsələ 2484.** Əgər insan zəkatın hələ şamil olmadığı bir malı başqa bir şəxsə borc verərsə və həmin mal təhvil alındıqdan sonra ona zəkat şamil olarsa, zəkat onun sabit olmasının digər şərtləri də gerçəkləşdiyi təqdirdə borc alan şəxsin öhdəsinə düşür.

**5-ci şərt: Sahibi şərən zəkatlıq malı təsərrüf etmək hüququndan məhrum edilməməlidir**

**Məsələ 2485.** Əgər zəkatlıq mal bir insanın mülkiyyətində olarsa, ancaq o, şərən həmin malı təsərrüf etmək[2] hüququndan məhrum

---

[1] Zəkatlıq mallar 2476-cı məsələdə sadalanan on şeydir.

[2] Əmlakın təsərrüf edilməsi deyərkən ondan özü və başqaları üçün istifadə etmək, onu (bütövlüklə, yaxud bir hissəsini) məsrəf etmək, alqı-satqı predmeti etmək, icarəyə vermək, borc vermək, vəqf etmək, hədiyyə vermək və s. nəzərdə tutulur. *Tərc.*

edilmişdirsə, zəkat ona vacib olmur. Buna əsasən, zəkat şamil olmazdan öncə girov qoyulmuş mal, yaxud zəkat ona şamil olmazdan öncə vəqf edilmiş mal (hərçənd xas vəqf olsa belə)[1], həmçinin, zəkat ona şamil olmazdan öncə şəriət hakiminin alacaqlıların onun üzərində haqq sahibinə çevrilməsi səbəbi ilə sahibini təsərrüf hüququndan məhrum etdiyi mal kimi mallara zəkat şamil olmur.

**Məsələ 2486.** Əgər insan zəkatlıq malı sədəqə verməyi şəri qaydada nəzir edərsə, bu nəzir sözügedən malın zəkatının qüvvədən düşməsinə səbəb olmur. Buna əsasən, nəzirin yerinə yetirilməsinə xələl gəlməməsi üçün bu zəkatın başqa bir malla verilməsi vacibdir.

## Buğda, arpa, xurma və üzümün (kişmişin) zəkatı

**Məsələ 2487.** Buğdası, arpası, xurması, yaxud üzümü olan şəxslər əvvəlki məsələlərdə qeyd edilən ümumi şərtlər və qarşıda qeyd ediləcək xüsusi şərtlər mövcud olduğu təqdirdə onların zəkatını verməlidirlər.

**Buğda, arpa, xurma və üzümə (kişmişə) zəkatın şamil olmasının xüsusi şərtləri**

**1-ci şərt: Sözügedən məhsullar zəkat şamil olduğu vaxt insanın mülkiyyətində olmalıdır**

**Məsələ 2488.** Əgər bir şəxsin buğdası, arpası, xurması, yaxud üzümü (kişmişi) olarsa və həmin şeyə zəkat onun mülkiyyətində ikən şamil olarsa, onun zəkatını verməlidir və sözügedən mülkiyyətin əkinçilik, satın alma, hədiyyə kimi qəbul etmə, miras kimi əldə etmə və s. yollarla yaranması arasında fərq yoxdur. Ancaq əgər sözügedən mallara zəkat şamil olmazdan öncə onlar insanın mülkiyyətindən çıxaraq başqa bir şəxsin mülkiyyətinə keçərsə və həmin şəxsin mülkiyyətində onlara zəkat şamil olarsa, zəkatın verilməsi birinci mülkiyyətçinin öhdəsinə düşmür, ikinci mülkiyyətçi zəkatı verməlidir.

**2-ci şərt: Sözügedən məhsullar müəyyən nisab həddinə çatmalıdır**

**Məsələ 2489.** Buğda, arpa, xurma və üzümün (kişmişin) zəkatı onlar nisab miqdarına çatdıqda vacib olur və onların nisabı "üç yüz sa"dır. Deyilənlərə görə, bu, təqribən 847 kq-a bərabərdir. [2]

[1] Vəqf edilən məhsullar və gəlirlər zəkatın vacib olmasından öncə "mövqufun əleyh"in (istifadəsinə təxsis edilən tərəfin) mülkinə çevrilərsə və digər şərtlər də mövcud olarsa, onların zəkatının verilməsi "mövqufun əleyh"ə vacib olur.

[2] Bu məhsulların nisabı ilə bağlı hədislərdə söylənilənlər nisabın həmin dövrdə dənəvər cisimlərin çəkisinin müəyyən edilməsi üçün istifadə edilən ölçülərlə təyin edilməsindən ibarətdir və nisabın müsir dövrdə istifadə edilən ölçü vahidləri ilə dəqiq miqdarı məlum deyil. Həmçinin, bütün bu məhsullarda istifadə etmək üçün ölçünün ümumi bir meyar və qayda olaraq çəki əsasında hesablanması da mümkünsüzdür. Çünki bu məhsullar yüngüllük və ağırlıq baxımından (həcmcə) təbiətlərinə və digər amillərə görə bir-birindən fərqlənir.

**Məsələ 2490.** Dörd bitkiçilik məhsulunun nisab miqdarının təyin edilməsində meyar (həcm, yaxud çəki) onların quruduğu zamandır. Buna əsasən, əgər sözügedən məhsullar quruduqdan sonra zəkatın verilməsi vacib olarkən nisab həddinə çatarsa, zəkatının verilməsi vacibdir. Ancaq əgər sözügedən məhsullar yaş ikən nisab həddinə çatdığı halda quruduqdan sonra zəkatın verilməsi vacib olarkən nisab miqdarından azalarsa, zəkatı yoxdur.

## Dörd bitkiçilik məhsuluna zəkatın şamil olmasının vaxtı

**Məsələ 2491.** Buğda və arpaya zəkatın şamil olmasının vaxtı məhsulun ona buğda və arpa deyiləcək qədər yetişdiyi vaxtdır. Üzüm və kişmişin zəkatı ürfən ona üzüm deyildikdə vacib olur. Həmçinin, xurmanın zəkatının vaxtı ərəbdillilər ona təmr (quru xurma) dediyi vaxtdır.

**Məsələ 2492.** Xurmadan adətən üç şəkildə istifadə edilir:

1. Xurmadan quruyaraq "təmr" (quru xurma) adlandırıldığı vəziyyətdə istifadə edirlər.
2. Xurmanı yaş və təzə olduğu və "rütəb" adlandırıldığı vəziyyətdə məsrəf edirlər.
3. Xurmadan yetişməmiş və "xəlal", yaxud "xarək" adlandırıldığı vəziyyətdə istifadə edirlər.

Quru xurmaya (təmrə) zəkat şamil olur və onunla bağlı hökm əvvəlki məsələlərdə qeyd edilmişdir. Təzə xurmaya (rütəbə) zəkat şamil olmur. Ancaq əgər onun qurusu nisab miqdarına çatarsa, müstəhəb ehtiyat budur ki, onun zəkatını versinlər. Həmçinin, kal xurma (xəlal, yaxud xarək) xüsusunda zahir budur ki, ondan zəkat vermək vacib deyil.

**Məsələ 2493.** Üzüm, ümumiyyətlə, iki qisimdir:

1. Kişmiş ola bilən və qurudularaq kişmişindən istifadə edilə bilən üzümlər. Zəkatın şamil olmasının bütün şərtlərinin gerçəkləşməsi ilə belə üzümlərə zəkat şamil olur.
2. Kişmiş ola bilməyən və təzə ikən istifadə edilən, yaxud qurusa belə, kişmişi ürfən istifadəyə yararlı olmayan üzümlər. Belə üzümlərin zəkatı yoxdur.

---

Məsələn, 1000 $sm^3$ həcmi olan olan bir ölçü qabını buğda ilə doldurduqda onun çəkisi arpa ilə doldurulduqda sahib olduğu çəkidən artıq olur. Həmçinin, əgər sözügedən ölçü qabını sıxmadan xurma ilə doldurduqda onun çəkisi buğda ilə doldurulduqda aldığı çəkidən az olur. Çünki xurma və buğda zahiri quruluş və həcm baxımından bir-birindən fərqlənir və ölçü qabında olan xurmalar arasındakı boş yerlər buğda dənələri arasındakı boşluqlardan çoxdur. Hətta bəzən bir növün fərdləri də bir-birindən fərqlənir və müxtəlif sortlara bölünür. Məsələn, bir sortda rütubətin ölçüsü digər sortdan çox olur. Lakin işi asanlaşdıran cəhət budur ki, mükəlləf zəkatlıq məhsulunun nisab həddinə çatdığını müəyyənləşdirə bilmədikdə onun zəkatını vermək vacib deyil. Lakin bu məhsulların çəkisi mətndə qeyd edilən miqdara (847 kq) çatdıqda zəkatlıq malın nisab həddinə çatdığına yəqinlik, yaxud arxayınlıq hasil olur.

**Dörd bitkiçilik məhsulunun zəkatının vacib olmasının vaxtı və bununla əlaqədar hökmlər**

**Məsələ 2494.** Buğda və arpadan zəkat verilməsinin vacib olduğu vaxt onların təmizləndiyi, buğda və arpa dənələrinin küləş və kəpəkdən ayrıldığı vaxtdır.

**Məsələ 2495.** Quru xurmadan (təmrdən) zəkatın verilməsinin vacib olduğu vaxt adətən quru xurmanın (təmrin) dərilərək toplandığı vaxtdır və əgər xurmanı qurumamış dərərlərsə, sonra onu Günəş şüalarının altına sərməklə və ya bu kimi üsullarla qurudarlarsa, bu halda zəkatın verilməsi qurutduqları xurmanı yığdıqları vaxt vacib olur.

**Məsələ 2496.** Üzümdən zəkatın verilməsi onun kişmişinin yığıldığı vaxt vacib olur. Buna əsasən, üzüm ağacın (tənək, meynə) üzərində kişmişə çevrildiyi təqdirdə kişmişin adətən dərildiyi və yığıldığı vaxt zəkatın verilməsinin vacib olduğu vaxtdır. Əgər üzümü kişmiş olmazdan öncə dərərlərsə və dərdikdən sonra təbii, yaxud süni üsullarla qurudaraq ondan kişmiş alarlarsa, bu halda zəkatın verilməsinin vacib olduğu vaxt istehsal edilmiş kişmişin yığıldığı vaxtdır.

**Məsələ 2497.** İnsan bu dörd bitkiçilik məhsulunun zəkatını verməli olduğu zaman ya zəkatı onun müstəhəqlərinə (zəkat almaq haqqına sahib olanlara) verməli, ya da onu öz malından ayıraraq kənara qoymalıdır. Zəkatı ayırdıqdan sonra əgər ağlabatan bir səbəblə zəkatı verməyi təxirə salarsa, iradı yoxdur. Bununla bağlı izah 2634-cü məsələdə veriləcəkdir.

**Məsələ 2498.** İnsanın arpa və buğdanın yığılmasını və küləşdən ayrılmasını, yaxud üzümün kişmişə çevrilməsini və onun yığıldığı dövrün çatmasını və ya qurumuş xurmanın (təmrin) dərilməsini gözləməsi və zəkatı bundan sonra verməsi vacib deyil, zəkat ona şamil olduğu andan etibarən onun zəkatını verə bilər, həmçinin, zəkat miqdarının qiymətini müəyyənləşdirərək zəkat ünvanı ilə onun qiymətini nağd pulla da verə bilər.

**Məsələ 2499.** Əgər zəkat üzümə şamil olarsa və insan onun zəkatını kişmiş olmazdan öncə vermək istəyərsə, zəkat niyyəti ilə sözügedən üzümdən quruduqda ona vacib olacaq zəkat miqdarına bərabər miqdarı zəkata məsrəf etdiyi təqdirdə iradı yoxdur və kifayətdir.

## Dördbitkiçilik məhsulunun zəkatının miqdarı

**Məsələ 2500.** Dörd bitkiçilik məhsulunun miqdarı onların suvarma üsulundan asılıdır. Əgər buğda, arpa, xurma və üzümün suvarılması üçün yağış, arx, yaxud kəhriz suyundan istifadə edilərsə və ya Misirin əkinçilik təsərrüfatlarında olduğu kimi torpağın rütubətindən istifadə

edilirsə (bu hallarda köməkçi vasitələrə[1] ehtiyac yoxdur), onların zəkatı məhsulun onda biri (10%-i) miqdarındadır. Əgər adətən suvarıldığı kimi su nasosundan istifadə etməklə quyu (dərin, orta dərinlikli, yaxud az dərinlikli quyu) suyu ilə suvarılarsa, yaxud vedrə, nasos və bu kimi vasitələrlə quyu, yaxud çaydan su çəkərək təsərrüfat sahəsini, yaxud zəkatlıq malı suvararlarsa (bu halda belə sularla suvarma üçün köməkçi vasitələrə ehtiyac vardır), məhsulun zəkatı onun iyirmidə biri (5%-i) miqdarında olur.

**Məsələ 2501.** Əgər buğda, arpa, xurma və üzümün suvarılması üçün həm yağış suyundan, həm də quyu suyu və bu kimi sulardan istifadə edilərsə, ürfən "quyu suyu və bu qəbildən olan sularla suvarılmışdır" deyiləcək şəkildə olduğu təqdirdə onun zəkatı iyirmidə birdir. Əgər ürfən "arx və yağış suyu ilə suvarılmışdır" deyilərsə, zəkatı onda birdir. Əgər ürfən "hər iki üsulla suvarılmışdır" deyiləcək şəkildə olarsa (hərçənd suvarmada iki üsuldan birindən digəri ilə müqayisədə daha çox istifadə edilsə belə), onun zəkatı qırxda üç (7. 5%) miqdarındadır.

**Məsələ 2502.** Xurma və üzüm ağaclarının suvarılmasında meyar bu ağacların özünün, tinglərin deyil, onların barının suvarılmasıdır. Yəni meyar sözügedən ağacların bar verməzdən öncə deyil, bar verdiyi vaxt necə suvarılmasıdır. Buna əsasən, əgər insan xurma, yaxud üzüm ağacı əkərsə və barvermə dövrünədək quyu suyu və bu qəbildən olan sularla suvararsa, bar verdikdən sonra isə ağacların səmərəsinin artması üçün onları suvarmazsa, əksinə sözügedən ağaclar yerin rütubətindən yararlanarsa, əldə edilən məhsulun zəkatı onda bir miqdarındadır.

**Məsələ 2503.** İnsan ürfən zəkatlıq məhsulun hər iki üsulla, yoxsa yağış suyu və bu qəbildən olan sularla suvarılmış hesab edildiyini bilmədiyi və şəkk etdiyi təqdirdə qırxda üç hissəsinin zəkat ünvanı ilə verilməsi kifayətdir.

**Məsələ 2504.** Əgər insan ürfən zəkatlıq məhsulun hər iki üsulla, yoxsa quyu suyu və vedrə ilə və bu qəbildən olan üsulla suvarılmış hesab edildiyini bilmirsə və şəkk edirsə, bu halda iyirmidə bir hissəsinin zəkat ünvanı ilə verilməsi kifayətdir.

**Məsələ 2505.** Əgər insan ürfən zəkatlıq məhsulun quyu suyu və bu qəbildən olan üsulla, yoxsa yağış suyu və bu qəbildən olan sularla, yoxsa hər iki üsulla suvarılmış hesab edildiyini bilmirsə və şəkk edirsə, bu halda iyirmidə bir hissəsinin zəkat ünvanı ilə verilməsi kifayətdir.

**Məsələ 2506.** Əgər buğda, arpa, xurma və üzüm yağış suyu və arxla suvarılarsa və yağış suyu və arxla suvarıldığı halda quyu suyu və bu

[1] Köməkçi vasitələr deyərkən su nasosu və vedrə kimi köməkçi vasitələr, cihaz və avadanlıqlar nəzərdə tutulur.

qəbildən olan üsullarla suvarılmasına ehtiyac yoxdursa, lakin buna rəğmən quyu suyu ilə də suvarılarsa, belə ki, quyu suyu məhsuldarlığın artmasına kömək etməzsə, bu halda sözügedən məhsulun zəkatı onda birdir.

Əgər zəkatlıq məhsul quyu suyu və bu kimi üsullarla suvarılarsa və quyu suyu və bu kimi üsullarla suvarıldığı halda arx, yağış və bu kimi sularla suvarılmasına ehtiyac yoxdursa, lakin buna rəğmən arx, yağış və bu kimi sularla da suvarılarsa və onlar məhsuldarlığın artmasına kömək etmirsə, bu halda sözügedən məhsulun zəkatı iyirmidə birdir.

**Məsələ 2507.** Əgər bir şəxs bir əkini quyu suyu və bu qəbildən olan sularla suvararsa, həmin şəxsin qonşu torpaqda quyu suyu ilə suvarılmağa ehtiyacı olmayan (yalnız quyu suyu ilə suvarılan qonşu torpağın rütubətindən istifadə edən və özü quyu suyu ilə suvarılmayan) başqa bir əkini də olarsa, quyu suyu ilə suvarılan əkinin zəkatı iyirmidə bir, onun yanındakı əkinin zəkatı isə, vacib ehtiyata əsasən, onda birdir.

**Məsələ 2508.** Əgər insan zəkatı vacib olan üzüm, quru xurma, arpa və buğdanın zəkatını verməzdən öncə bu mallardan bir hissəsini məsrəf edərsə, məsələn, özü və ailəsi yeyərsə, yaxud yoxsula zəkat niyyəti olmadan verərsə, məsrəf edilən miqdarın zəkatını da verməlidir.

**Məsələ 2509.** Əgər insan kal xurmanı (xəlal), yaxud təzə xurmanı (rütəb) quru xurmaya (təmr) çevrilməzdən və ona zəkat şamil olmazdan öncə məsrəf edərsə, məsələn, özü, ailəsi, yaxud qonaqları yeyərsə və ya başqa bir şəxsə hədiyyə edərsə və bu hədiyyəni ona təhvil verərsə, yaxud satarsa, bu miqdara zəkat şamil olmur. Baxmayaraq ki, onun mülkiyyətində qalsaydı, quru xurmaya (təmrə) çevriləcək və nisab həddinə çatacaqdı.

**Məsələ 2510.** Əgər insan üzümü ona üzüm deyilərkən məsrəf edərsə, məsələn, onu özü, ailə üzvləri, yaxud qonaqları yeyərsə və ya başqa bir şəxsə hədiyyə edərsə və bu hədiyyəni ona təhvil verərsə, yaxud satarsa,-başqa bir şəxsə hədiyyə edərsə və bu hədiyyəni ona təhvil verərsə, yaxud satarsa, əgər qalsaydı və kişmiş, yaxud mövüzə çevrilsəydi, nisab həddinə çatardısa (hərçənd qalan miqdarla birlikdə olsa belə), bu halda onun zəkatını verməlidir. Ancaq əgər üzümü yetişməmiş, qora ikən, ona üzüm deyilmədiyi halda məsrəf edərsə, onun zəkatını verməsinə gərək yoxdur.

**Məsələ 2511.** Əgər insan buğda və arpanı quruma vaxtından öncə məsrəf edərsə, onların quru halda çəkisi nisab miqdarında olduğu təqdirdə (hərçənd qalan miqdarla birlikdə olsa belə) zəkatını verməlidir.

## Zəkatlıq məhsul üçün çəkilən xərclərlə əlaqədar hökmlər

**Məsələ 2512.** Nisab həddinə çatıb-çatmadığının məlum olması üçün zəkatlıq məhsulun mübasibatını apararkən insan buğda, arpa, üzüm və xurma üçün zəkatın onlara şamil olmasından öncə və ya sonra çəkdiyi xərcləri məhsuldan çıxa, sonra nisabı hesablaya bilməz. Buna əsasən,

zəkatlıq mal xərclər hesablanmamış nisab miqdarına çatdığı təqdirdə onun zəkatını verməlidir.

**Məsələ 2513.** İnsan əkində istifadə etdiyi toxumu, istər özündən olsun, istəsə satın alsın, məhsuldan çıxa, sonra nisabı hesablaya bilməz, əksinə nisabı əldə edilən məhsulun ümumi həcmini nəzərə alaraq hesablamalıdır.

**Məsələ 2514.** Dövlətin vergi ünvanı ilə malın özündən (pul deyil, natura şəklində) aldıqlarının zəkatını vermək vacib deyil. Məsələn, əgər bitkiçilik məhsulu iki min kq olarsa və dövlət onun yüz kq-ı vergi kimi alarsa, yalnız min doqquz yüz kq-ın zəkatının verilməsi vacibdir. Əgər bitkiçilik məhsulu zəkat şamil olduqdan sonra min kq olarsa və dövlət onun dörd yüz kq-nı vergi ünvanı ilə alarsa (beləliklə, qalan miqdar nisab həddindən az olarsa), yenə də məhsulun qalan hissəsinin, yəni altı yüz kq-ın zəkatını vermək lazımdır. Zəkat şamil olduqdan sonra məhsulun nisab həddindən azalması zəkatın qüvvədən düşməsinə səbəb olmur.

**Məsələ 2515.** İnsan zəkat şamil olmazdan öncə və ya sonra məhsul üçün çəkdiyi xərcləri, vacib ehtiyata əsasən, məhsuldan çıxa və yalnız yerdə qalanının zəkatını verə bilməz. Hətta zəkat şamil olduqdan sonra zəkat miqdarı üçün çəkdiyi xərcləri də hərçənd şəriət hakimindən və ya onun vəkilindən bu xərclər üçün icazə almış olsa belə, vacib ehtiyata əsasən, çıxa bilməz. Ancaq zəkat şamil olduqdan sonra həmin zəkatlıq malı biçməzdən, yaxud dərməzdən öncə müstəhəqqə, yaxud şəriət hakiminə və ya onun vəkilinə müştərək mal şəklində təhvil verə bilər və əgər belə edərsə, bundan sonra onlar xərclərdə şərikdirlər və bu halda məhsulları müştərək mal kimi ödənişsiz olaraq saxlaması vacib deyil, əksinə məhsulların biçin, yaxud quruma dövrünədək onun torpağında qalması üçün ödəniş tələb edə bilər.

**Məsələ 2516.** İnsanın zəkat üçün verdiyi buğda, arpa üzüm (kişmiş) və xurmanın çəkisini müəyyən etmək üçün edilən ödəniş onun öz üzərinə düşür. Buna əsasən, o, sözügedən ödənişi zəkatdan çıxa bilməz.

## Dörd bitkiçilik məhsulunun zəkatı ilə əlaqədar digər hökmlər

**Məsələ 2517.** Əgər insanın məhsulunun yetişmə fəsli, yaxud dövrü bir-birindən fərqlənən bir neçə yerdə buğda, arpa, xurma, yaxud üzümü vardırsa və onların hamısı ürfən bir ilin məhsulu hesab edilirsə, əvvəl yetişən məhsul nisab həddinə çatdığı təqdirdə onun zəkatını yetişdiyi vaxt verməli, yerdə qalanının zəkatını da əldə edildikləri vaxt verməlidir. Əgər əvvəl yetişən məhsul nisab həddində deyildirsə (hərçənd sonra

yetişəcək məhsulla birlikdə nisab həddinə çatacağına arxayın olsa belə), qalanının da yetişməsini gözləməlidir. Beləliklə, əgər sonrakı məhsullarla birlikdə nisab miqdarına çatarsa, onun zəkatı vacibdir, nisab miqdarına çatmadığı təqdirdə isə zəkatı vacib deyil.

**Məsələ 2518.** Əgər xurma, yaxud üzüm ağacı bir ildə iki dəfə bar verərsə, bu məhsullar birlikdə nisab miqdarına çatırsa, lakin ayrı-ayrılıqda heç biri nisab miqdarına çatmırsa, ehtiyata əsasən, zəkatı vacibdir.

**Məsələ 2519.** Əgər buğda, arpa, xurma və üzümün zəkatı vacib olduqdan sonra onun sahibi vəfat edərsə, zəkatlıq məhsulun zəkatı verilməlidir. Lakin əgər zəkatlıq mallara zəkat şamil olmazdan öncə vəfat edərsə, sözügedən mal onun varislərinə qalarsa və mala onların mülkiyyətində zəkat şamil olarsa, miras payı nisab həddində olan varislərdən hər biri öz payının zəkatını verməlidir.

**Məsələ 2520.** Şərən borclu olan,hər hansı bir malı da olan və məhz həmin malına zəkat şamil olan bir şəxs həmin mal mövcud ikən vəfat edərsə, zəkatı bütövlüklə zəkatı vacib olmuş maldan verməli, sonra onun borcunu qaytarmalıdırlar və bu halda hərçənd onun borcu bütün mirası həcmində olsa belə, zəkat payından heç bir şey azaldılmamalıdır. Lakin əgər zəkat onun zimmətində vacib olarsa, digər borclar kimidir. Buna əsasən:

a) Zimmətində borclu olduğu zəkat borcu və digər borclarının cəmi onun bütün mirasına bərabər, yaxud ondan az olduğu təqdirdə zəkat borcu və digər borcları bütünlüklə verilməlidir.

b) Zimmətində borclu olduğu zəkat borcu və digər borclarının cəmi onun bütün mirasın çox olduğu təqdirdə mirasını zəkat müstəhəqləri və digər alacaqlılar arasında müvafiq nisbətdə bölüşdürmək lazımdır. Buna əsasən, alacaqlıların payı nə qədər azalarsa, zəkat payı da o nisbətdə azalır.

**Məsələ 2521.** Şərən borclu olan və buğda, arpa, xurma, yaxud üzümlərinə hələ zəkat şamil olmadığı halda vəfat edən şəxs:

a) Sözügedən bitkiçilik məhsullarına zəkat şamil olmazdan öncə varislər onun borcunu onun başqa bir malından verdikləri və bundan sonra varislərin mülkiyyətində sözügedən məhsullara zəkat şamil olduğu təqdirdə varislərdən hansının payı nisab həddinə çatarsa, zəkat verməlidir.

b) Əgər sözügedən məhsullara zəkat şamil olmazdan öncə onun borcunu qaytarmazlarsa, vəfat edən şəxsin malı bütövlükdə onun borcu qədər olduğu təqdirdə varislərin zəkatı verməsi vacib deyil. Əgər vəfat edənin malı onun borcundan çox olarsa, onun borcu varislər onu qaytarmaq istədikdə sözügedən məhsulların da bir hissəsini

alacaqlıya verməli olacaqları qədər olduğu halda həmin məhsulların bir miqdarını da alacaqlıya verməlidirlər. Alacaqlıya verilənin zəkatı yoxdur, malın yerdə qalanına gəlincə isə, varislərdən hansının payı nisab həddindədirsə və zəkatın şamil olmasının digər şərtlərinə də cavab verirsə, öz payının zəkatını verməlidir.

**Məsələ 2522.** Əgər zəkatı vacib olan buğda, arpa, xurma və üzümün (kişmişin) keyfiyyətcə yaxşısı və pisi (tələb görən və görməyən sortları) vardırsa, vacib ehtiyata əsasən, insan yaxşı sortun zəkatını pis sortdan verməməlidir. Lakin bütün məhsulun zəkatını yaxşı sortdan verməsi vacib deyil, hər bir qismin zəkatını onun özündən verə bilər.

**Məsələ 2523.** Bitkiçilik məhsullarının zəkatını onun özündən (natura şəklində) vermək vacib deyil. Onun qiymətinə bərabər məbləği tədavüldə olan nağdla (məsələn, kağız pullarla) vermək də kafidir. Lakin başqa mallardan onun qiymətinə bərabər olan bir şeyin verilməsi məhəll-i işkaldır (ehtiyat bu üsulla zəkat verməməyi tələb edir).

**Məsələ 2524.** Əgər insana quru xurma, yaxud kişmişin zəkatını vermək vacib olarsa, onun zəkatını təzə xurma, yaxud üzümlə verə bilməz. Hətta əgər zəkatın miqdarının qiymətini hesablayarsa və həmin qiymətə bərabər dəyərdə təzə xurma, yaxud üzümü və ya başqa kişmiş, yaxud quru xurmanı qiymət ünvanı ilə vermək istəyərsə, ehtiyat bundan çəkinməyi tələb edir. Həmçinin, əgər üzümün zəkatı ona vacib olarsa, onun zəkatını kişmişlə verə bilməz. Yalnız həmin kişmişin məhz zəkat şamil olan həmin üzümdən əmələ gəlməsi istisnadır.

**Məsələ 2525.** Zəkatı verilmiş buğda, arpa, xurma və üzüm (kişmiş) illərlə insanın əlində qalsa belə, zəkatı yoxdur.

**Məsələ 2526.** Əgər buğda, arpa, xurma və üzümün (kişmişin) sahibi həddi-büluğa çatmayan uşaq, yaxud dəli şəxs olarsa, zəkatın sabit olmasının digər şərtlərinin hamısı mövcud olduğu halda həmin mallara zəkat şamil olur və həddi-büluğa çatmayan uşağın, yaxud dəlinin şəri qəyyumunun sözügedən zəkatı onun malından verməsi vacibdir. Həmçinin, əgər deyilən bitkiçilik məhsullarının sahibi bütün il boyu, yaxud onun bir hissəsi ərzində sərxoş, yaxud huşsuz olarsa, zəkat onun öhdəsindən götürülmür.

**Məsələ 2527.** Buğda, arpa, xurma və üzümə (kişmişə) zəkatın sabit olması üçün sahibinin sözügedən məhsullar üzərində təsərrüf[1] imkanının olması şərt sayılmır. Buna əsasən, əgər məhsullara zəkat şamil olarkən hər hansı bir əngəllə əlaqədar olaraq sahibi şəxsən, yaxud vəkil etdiyi şəxs vasitəsi ilə onu təsərrüf edə bilmirsə, onun məhsullarına

---

[1] Təsərrüf deyərkən həmin maldan istifadə etmək, onu məsrəf etmək, hədiyyə etmək, satmaq, vəqf etmək və s. nəzərdə tutulur. *Tərc.*

zəkat şamil olur və gələcəkdə onlara əli çatdığı təqdirdə zəkatını verməlidir. Məsələn, qəsb edilən, zalım tərəfindən müsadirə edilən, oğurlanan, yaxud itən və sahibinin harada olduğunu bilmədiyi, əldə etmək imkanı olmayan və ya hər hansı bir yerdə basdırılan və sahibinin yerini unutduğu mal bu qəbildəndir.

**Məsələ 2528.** Qeyd edildiyi kimi buğda, arpa, xurma, yaxud üzümə (kişmişə) zəkatın şamil olması üçün sözügedən bitkiçilik məhsulunun bir yerdə olması şərt deyil. Buna əsasən, əgər bir şəxsin hər hansı bir şəhər, yaxud kənddə məhsulu nisab miqdarında olmayan tarlası, yaxud xurma və ya üzüm ağacları vardırsa və həmin şəxsin başqa bir şəhər, yaxud kənddə də məhsulu nisab miqdarında olmayan həmin növ əkin sahəsi, yaxud ağacları vardırsa, lakin iki yerin məhsulu birlikdə nisab həddinə çatırsa, hər iki məhsul ürfən bir ilin məhsulu hesab edildiyi halda bütün məhsulun zəkatının verilməsi vacibdir.

## Qızıl və gümüşün zəkatı

**Məsələ 2529.** Qızıl və gümüşü olan şəxslər daha öncə sadalanan ümumi şərtlərə və qarşıda sadalanacaq xüsusi şərtlərə cavab verdiyi təqdirdə öz qızıl və gümüşünün zəkatını verməlidir.

## Qızıl və gümüşə zəkatın şamil olmasının xüsusi şərtləri

**1-ci və 2-ci şərtlər: Qızıl və gümüşün sahibi həddi-büluğa çatmış və həmçinin, bütün il boyunca aqil şəxs olmalıdır**

**Məsələ 2530.** Qızıl və gümüşün sahibi həddi-büluğa çatmamış uşaq, yaxud dəli şəxs[1] olduğu təqdirdə sözügedən qızıl, yaxud gümüşə zəkat şamil olmur və insan həddi-büluğa çatdığı vaxt zəkatın sabit olmasının digər şərtlərinin də hamısı mövcud olduğu halda zəkat ili həmin tarixdən başlayır.

**Məsələ 2531.** Əgər qızıl və gümüşün sahibi bütün il boyu, yaxud onun bir hissəsi ərzində məst, yaxud huşsuz olarsa, zəkat onun üzərindən götürülmür.

**3-cü şərt: Qızıl, yaxud gümüş müəyyən nisab həddinə çatmalıdır**

**Məsələ 2532.** Qızılın iki nisabı vardır:

a) **Birinci nisab:** hər misqalı 18 noxuda bərabər olan iyirmi şəri misqaldır. Beləliklə, qızıl iyirmi şəri misqala çatarsa (deyilənlərə əsasən, bu, on beş bazar misqalına bərabərdir), zəkatın şamil olmasının digər şərtlərinə də cavab verdiyi təqdirdə insan onun doqquz

[1] Hətta əgər ilin bir dövründə dəli olsa belə, zəkat ona vacib olmur. Əlbəttə, əgər il ərzində yalnız bir saatlıq və bu kimi bir müddətdə dəli olarsa, digər şərtlərin hamısı mövcud olduğu təqdirdə zəkat vacib olur.

noxuda bərabər olan qırxda birini (2. 5%-ni) zəkat ünvanı ilə verməlidir və əgər bu miqdara çatmazsa, zəkatı vacib deyil.

b) **İkinci nisab:**Dörd şəri misqaldır ki, bu da deyilənlərə əsasən, üç bazar misqalına bərabər olur. Yəni əgər əvvəlki on beş bazar misqalı üç bazar misqalı miqdarında artarsa, bütün on səkkiz misqalın zəkatını qırxda bir nisbətində verməlidir. Əgər üç misqaldan az artarsa, qızılın yalnız on beş misqalının zəkatını verməlidir və bundan artığına zəkat düşmür. Həmçinin, hər artım da bu cürdür. Yəni əgər üç bazar misqalı qədər artarsa, bütün qızılın zəkatını verməlidir və əgər üç misqaldan az artarsa, artan miqdara zəkat düşmür.

**Məsələ 2533.** Gümüşün iki nisabı vardır:

a) **Birinci nisab:**iki yüz dirhəm - deyilənlərə əsasən, 105 bazar misqalına bərabərdir. Əgər gümüş 105 bazar misqalına çatarsa və digər şərtlərə də cavab verərsə, insan onun 2 misqal və 15 noxuda bərabər olan qırxda birini (2. 5%-ni) zəkat kimi verməlidir və əgər bu miqdara çatmazsa, zəkatı vacib deyil.

b) **İkinci nisab:**qırx dirhəm - deyilənlərə əsasən, 21 bazar misqalına bərabərdir. Yəni əgər 105 bazar misqalının üstünə 21 bazar misqalı gələrsə, bütün 126 bazar misqalının zəkatını qırxda biri miqdarında verməlidir. Əgər 21 bazar misqalından az artarsa, yalnız 105 misqalının zəkatını verməlidir, bundan artığına isə zəkat düşmür. Həmçinin, hər artım da belədir. Yəni əgər 21 bazar misqalı qədər artarsa, bütün gümüşün zəkatını verməli, bundan az artarsa, artan və 21 misqaldan az olan miqdara zəkat düşmür.

**Məsələ 2534.** Əgər insan qızıl, yaxud gümüşün nisab həddinə çatıb-çatmadığına şəkk edərsə, vacib ehtiyata əsasən, bunu araşdırmalıdır.

**Məsələ 2535.** Qızıl, yaxud gümüşü nisab ölçüsündə olan şəxs (hərçənd onun zəkatını versə belə) birinci nisabdan az olmadıqca və zəkatın vacib olmasının digər bütün şərtlərinə də cavab verdikcə hər il onun zəkatını verməlidir.

**4-cü şərt: Qızıl, yaxud gümüş sikkəli olmalı və tədavüldə olmalı, müamilələrdə ondan istifadə edilməlidir**[1]

**Məsələ 2536.** Əgər müamilədə sikkəli qızıl və gümüşdən istifadə edilərsə, hərçənd sikkənin təsviri itsə belə, onun zəkatını vermək lazımdır. Lakin əgər tədavüldən çıxarılmışdırsa, hərçənd sikkənin təsviri qalsa belə, ona zəkat düşmür.

[1] Bu şərtdən məlum olur ki, insanların müamilələrini (iqtisadi, ticarət və maliyyə əməliyyatlarını) qızıl və gümüşdən olan pulla həyata keçirmədiyi (başqa sözlə, qızıl və gümüş pulların tədavüldə olmadığı *tərc.* ) bu dövrdə qızıl və gümüşün zəkatı ilə bağlı bir mövzu yoxdur.

**Məsələ 2537.** Qadınların zinət üçün istifadə etdikləri qızıl və gümüş onlarla müamilə (alqı-satqı və s. ) etmək adəti qaldığı, yəni həmin qızıl və gümüş müamilələrdə pul kimi istifadə edildiyi halda, ehtiyata əsasən, zəkatı vacibdir. Lakin əgər bir qayda olaraq onunla müamilə edilmirsə, zəkatı vacib deyil. Həmçinin, sikkəsiz qızıl və gümüş zinət əşyalarına zəkat düşmür.

**Məsələ 2538.** Qızıl və gümüşün müamilələrdə pul kimi istifadə edilmədiyi müasir dövrdə əskinaslara, kağız pullara, yaxud qızıl və gümüşdən başqa bir metaldan, məsələn, nikeldən hazırlanan metal pullara qızıl və gümüşlə bağlı hökm şamil olmur.

**Məsələ 2539.** Qızıl və gümüşün nisabı ayrı-ayrılıqda hesablanır. Buna əsasən, həm qızılı, həm də gümüşü olan şəxs əgər onlardan heç biri birinci nisab həddində olmazsa, məsələn, 104 bazar misqalı gümüşü və 14 bazar misqalı qızılı olarsa, hərçənd ikisi birlikdə nisab həddinə çatsa belə, ona zəkat vacib deyil.

**5-ci şərt: İnsan bir zəkat ili ərzində (digər ümumi və xüsusi şərtlər mövcud olduğu halda) qızıl, yaxud gümüşün sahibi olmalıdır**

**Məsələ 2540.** Əgər qızıl və gümüş on bir ay ərzində insanın mülkiyyətindən çıxarsa, yaxud qızıl və gümüşün birinci nisablarından azalarsa, zəkat ona vacib deyil. Ancaq əgər on birinci ay tamam olduqdan və on ikinci aya keçdikdən sonra şərtlərdən bəziləri mövcudluğunu itirərsə, zəkat sözügedən qızıl, yaxud gümüşə şamil olur.

**Məsələ 2541.** Əgər insan on bir ay ərzində sahib olduğu qızıl və gümüşü başqa bir şeylə dəyişərsə, yaxud onları əridərsə, zəkat ona vacib deyil. Lakin əgər zəkatdan qaçmaq üçün onları başqa sikkəli qızıl və gümüşlə dəyişərsə, yəni sikkəli qızılı sikkəli qızıl, yaxud gümüşlə dəyişərsə və ya sikkəli gümüşü sikkəli gümüş, yaxud qızılla dəyişərsə və on birinci ayın sonunadək zəkatın şamil olmasının digər şərtləri də yerində qalarsa, vacib ehtiyata əsasən, zəkatını verməlidir.

**Məsələ 2542.** Əgər insan on ikinci ayda zəkatın şamil olduğu qızıl və gümüşü əridərsə, onların zəkatını verməlidir və əritmə səbəbi ilə onların çəkisi, yaxud qiyməti azaldığı təqdirdə əritməzdən öncə ona vacib olan zəkatı verməlidir.

**Məsələ 2543.** Zəkatın şamil olduğu qızıl və gümü sikkəsində normadan artıq başqa metal olduğu təqdirdə əgər ona qızıl və gümüş sikkə deyilirsə, nisab həddinə çatdığı halda hərçənd xalisi nisab həddinə çatmasa belə, zəkatı vacibdir. Lakin əgər ona qızıl, yaxud gümüş sikkə deyilmirsə, hərçənd xalisi nisab həddinə çatsa belə, zəkatı vacib deyil.

**Məsələ 2544.** Əgər qızıl və gümüş sikkədə normal miqdarda başqa metal qarışığı olarsa, bu halda əgər insan onun zəkatını tərkibində

normadan artıq başqa metal olan qızıl və gümüş sikkə ilə, yaxud qızıl və gümüşdən olmayan pulla verərsə, lakin verdiyinin qiyməti ona vacib olan zəkatın qiymətinə bərabər olarsa, iradı yoxdur.

**6-cı şərt: Qızıl və gümüşün sahibi ürfən sözügedən mallar üzərində təsərrüf imkanına sahib olmalıdır**

**Məsələ 2545.** Əgər sikkəli qızıl, yaxud gümüşün sahibi hər hansı bir əngəlin mövcudluğu, yaxud başqa bir amillə əlaqədar olaraq nəzərəçarpan müddət ərzində öz malı üzərində təsərrüf imkanına sahib olmazsa, məsələn, malı oğurlanarsa, yaxud qəsb edilərsə və ya itərsə, həmin mala zəkat düşmür.

**Qızıl və gümüşün zəkatının verilmə vaxtı**

**Məsələ 2546.** İnsan qızıl və gümüşün zəkatını on birinci ay tamam olduqdan sonra yoxsula verməli, yaxud öz malından ayırmalıdır və zəkatının verilməsinin təxirə salınması ilə əlaqədar hökm 2634-cü məsələdə izah ediləcəkdir.

## Dəvə, inək və qoyunun zəkatı

**Məsələ 2547.** Dəvə, inək, yaxud qoyunu olan şəxslər daha öncə sadalanan ümumi şərtlərə və qarşıda sadalanacaq xüsusi şərtlərə cavab verdiyi təqdirdə öz dəvə, inək və qoyunlarının zəkatını verməlidirlər.

## Dəvə, inək və qoyuna zəkatın şamil olmasının xüsusi şərtləri

**1-ci şərt: Sözügedən malların sahibi onların üzərində ürfən təsərrüf imkanına sahib olmalıdır**

**Məsələ 2548.** Əgər dəvə, inək, yaxud qoyunun sahibi hər hansı bir amillə əlaqədar olaraq nəzərəçarpan müddət ərzində malı üzərində təsərrüf imkanına sahib olmazsa, məsələn, malı oğurlanmışdırsa, yaxud qəsb edilmişdirsə, yaxud itmişdirsə, həmin mal üçün zəkat yoxdur.

**2-ci şərt: Sözügedən heyvanlar il boyu səhra, çöllük və bu kimi ərazilərdə yerləşən təbii otlaqlarda otlamalıdır[1]**

**Məsələ 2549.** İl boyu təbii otlaqlardan istifadə edən dəvə, inək və qoyunların zəkatı vacibdir və heyvanın qidalandığı ot və bitkinin sahibsiz, yaxud sahibli olmasının, quru, yaxud təzə olmasının fərqi yoxdur. Buna əsasən, əgər insanın yabanı ot və bitkiləri olan bir torpaq sahəsi vardırsa və qoyunları il boyu orada otlayırsa, digər bütün şərtlərə cavab verdiyi təqdirdə onların zəkatını verməlidir.

[1] Təbii otlaqlardan yararlanan belə heyvanlara "saimə" deyilir.

**Məsələ 2550.** Əgər dəvə, inək, yaxud qoyun il boyu, yaxud ilin bir hissəsi ərzində biçilmiş otla, yaxud əkin məhsulları ilə qidalanarsa, ona zəkat düşmür və otun, yaxud yem bitkisinin heyvanların sahibinin, yaxud başqa bir şəxsin malı olması, qəsb edilmiş, yaxud mübah olması, həmçinin, heyvanın otlamasının sahibinin istəyi ilə, yaxud məcburiyyətdən olması arasında fərq yoxdur.

**Məsələ 2551.** Əgər dəvə, inək, yaxud qoyun bütün il ərzində az miqdarda biçilmiş ot yeyərsə, yaxud az miqdarda əkin sahəsində becərilən bitki ilə qidalanarsa, belə ki, ürfən "il boyunca çöl və bu kimi ərazilərdə otlamışdır, yaxud otlayır" deyilərsə, onun zəkatının verilməsi vacibdir və sözügedən məsələdə meyar ürfdür.

**Məsələ 2552.** Əgər insan öz dəvəsi, inəyi və qoyunu üçün hər hansı bir şəxs tərəfindən əkilməyən bir otlaq satın alarsa, yaxud icarəyə götürərsə, ehtiyata əsasən, onların zəkatını verməsi vacibdir. [1]

**3-cü şərt: İnsan bir zəkat ili boyunca (digər ümumi və xüsusi şərtlərin də mövcud olması ilə) sözügedən heyvanlara sahib olmalıdır**

**Məsələ 2553.** Əgər on bir ay ərzində sözügedən dördayaqlı heyvanlar insanın mülkiyyətindən çıxarsa, məsələn, onları satarsa, yaxud onların sayı həmin heyvanın birinci nisabından azalarsa, zəkat ona vacib deyil. Ancaq on birinci ay başa çatdıqdan və on ikinci ay başladıqdan sonra bəzi şərtlərin mövcudluğunu itirməsinin təsiri yoxdur, sözügedən heyvanlara zəkat şamil olmuşdur və verilməsi vacibdir.

**Məsələ 2554.** Əgər insan on birinci ay başa çatmamış sahib olduğu inək, qoyun və dəvəni öz cinsindən olan, yaxud öz cinsindən olmayan başqa bir heyvanla dəyişərsə və bu iş zəkatdan qaçmaq məqsədi ilə görülməzsə, bu halda zəkat ona vacib deyil. Ancaq əgər bu dəyişmə zəkatdan qaçmaq məqsədi ilə həyata keçirilərsə, məsələn, zəkatdan qaçmaq üçün qırx qoyun verib başqa qırx qoyun alarsa, hər iki sürünün eyni növ mənfəəti olduğu, məsələn, verilən və alınan qoyunların hər ikisi sağmal olduğu və zəkatın şamil olmasının digər şərtləri də on birinci ayın sonunadək yerində qaldığı halda, lazım ehtiyata əsasən, onların zəkatını verməlidir.

**4-cü şərt: Sözügedən heyvanların sayı nisab həddinə çatmalıdır**

**Məsələ 2555.** Dəvənin on iki nisabı vardır:

1) Beş baş dəvə - zəkatı bir baş qoyundur və dəvələrin sayı bu miqdara çatmayınca zəkat düşmür.
2) On baş dəvə - zəkatı iki baş qoyundur.
3) On beş baş dəvə - zəkatı üç baş qoyundur.
4) İyirmi baş dəvə - zəkatı dörd baş qoyundur.

---

[1] Çünki belə heyvanların saimə hesab edilməsində işkal vardır.

5) İyirmi beş baş dəvə - zəkatı beş baş qoyundur.
6) İyirmi altı baş dəvə - zəkatı iki yaşına daxil olan bir baş dəvədir.
7) Otuz altı baş dəvə - zəkatı üç yaşına daxil olan bir baş dəvədir.
8) Qırx altı baş dəvə - zəkatı dörd yaşına daxil olan bir baş dəvədir.
9) Altmış bir baş dəvə - zəkatı beş yaşına daxil olan bir baş dəvədir.
10) Yetmiş altı baş dəvə - zəkatı üç yaşına daxil olan iki baş dəvədir.
11) Doxsan bir baş dəvə - zəkatı dörd yaşına daxil olan iki baş dəvədir.
12) Yüz iyirmi bir baş və daha artıq sayda dəvə - hər qırx dəvə üçün üç yaşına daxil olan bir dəvə, yaxud hər əlli dəvə üçün dörd yaşına daxil olan bir dəvə vermək və ya həm qırx, həm də əlli ilə hesablamaq lazımdır. Bəzi hallarda isə, məsələn, dəvələrin sayı iki yüz baş olduqda insan qırx-qırx, yaxud əlli-əlli hesablamaqda ixtiyar sahibidir. Lakin istənilən halda elə hesablamalıdır ki, heç nə artıq qalmasın, yaxud əgər qalsa belə, doqquz baş dəvədən artıq olmasın. Məsələn, əgər 140 baş dəvəsi vardırsa, yüz baş dəvə üçün dörd yaşına daxil olmuş iki baş dəvə, qırx baş dəvə üçün isə üç yaşına daxil olmuş bir baş dəvə verməlidir.

**Məsələ 2556.** İki nisab arasındakı saya zəkat düşmür. Beləliklə, əgər insanın sahib olduğu dəvələrin sayı birinci nisabı (beş baş) keçərsə, ikinci nisaba (on baş) çatmayınca onlardan yalnız beş baş dəvənin zəkatını verməlidir və sonrakı nisablarda da hökm belədir.

**Məsələ 2557.** İnəyin iki nisabı vardır:

**Birinci nisab:** Otuz baş inək – zəkatı iki yaşına daxil olmuş bir buzovdur. Ehtiyat vacibə əsasən, həmin buzov erkək olmalıdır. İnəklərin sayı otuza çatmayınca zəkat vacib deyil.

**İkinci nisab:** Qırx baş inək – zəkatı üç yaşına daxil olmuş bir baş dişi buzovdur. Otuz-qırx arası zəkat vacib deyil. Məsələn, otuz doqquz inəyi olan şəxs yalnız otuz inəyin zəkatını verməlidir.

Həmçinin, əgər inəklərin sayı qırx başdan artıq olarsa, altmışa çatmayınca yalnız qırx baş inəyin zəkatını verməli, altmışa çatdıqdan sonra isə birinci nisabın iki mislinə bərabər olduğuna görə iki yaşına daxil olmuş iki baş buzov verməlidir. Habelə, inəklərin sayı nə qədər artarsa, ya otuz, ya qırx baş əsasında, ya da hər iki üsulla hesablamalı və onların zəkatını deyilən qaydada verməlidir. Lakin elə hesablamalıdır ki, heç nə artıq qalmasın, yaxud artıq qalsa belə, doqquz başdan çox olmasın. Məsələn, əgər yetmiş inəyi vardırsa, həm otuz, həm də qırx baş əsasında hesablamalıdır. Çünki əgər yalnız otuz baş əsasında hesablayarsa, zəkatı verilməmiş on baş inək qalır. Bəzi hallarda, məsələn, 120 baş inəyi olduqda isə ixtiyar sahibidir (həm otuz baş, həm də qırx baş əsasında hesablaya bilər).

**Məsələ 2558.** Qoyunun beş nisabı vardır:

1) Qırx baş qoyun – zəkatı bir baş qoyundur və qoyunların sayı qırx başa çatmayınca zəkat düşmür.
2) Yüz iyirmi bir baş qoyun – zəkatı iki baş qoyundur.
3) İki yüz bir baş qoyun – zəkatı üç baş qoyundur.
4) Üç yüz bir baş qoyun – zəkatı dörd baş qoyundur.
5) Dörd yüz baş və daha artıq sayda qoyun – hər yüz baş üçün bir baş qoyun vermək lazımdır.

**Məsələ 2559.** İki nisab arasındakı saya zəkat düşmür. Beləliklə, əgər bir şəxsin qoyunlarının sayı birinci nisabdan (qırx baş) artıq olarsa, ikinci nisaba (yüz iyirmi bir baş) çatmayınca yalnız qırx baş qoyunun zəkatını verməlidir, ondan artığına isə zəkat düşmür və sonrakı nisablarda da hökm belədir.

**Məsələ 2560.** Heyvanların zəkatının vacib olması üçün dəvənin zəkatı xüsusunda ərəbdilli ölkələrdə yayılmış dəvələrvə digər ölkələrdəki dəvələr, inəyin zəkatı xüsusunda inək, öküz və kəl, qoyunun zəkatı xüsusunda isə qoyun, keçi, yaşlı və bir yaşlı qoyun eyni cins hesab edilir və bu heyvanların erkək və dişi olmasının da fərqi yoxdur.

**Məsələ 2561.** Əgər bir neçə nəfərin şərikli dəvələri, inəkləri, yaxud qoyunları olarsa, onlardan hansının pay hissəsi həmin heyvanla bağlı birinci nisaba çatarsa, zəkat verməlidir, pay hissəsi birinci nisabdan az olan şəxsə isə zəkat vacib deyil.

**Məsələ 2562.** Əgər bir nəfərin bir neçə yerdə inək, dəvə, yaxud qoyunu olarsa və onların sayı üst-üstə gəldikdə nisab miqdarında olarsa, onların zəkatını verməlidir.

**Məsələ 2563.** Zəkat ünvanı ilə verilən dəvə dişi olmalıdır. Lakin əgər altıncı nisabda insanın dəvələri arasında iki yaşlı dişi dəvə olmazsa, üç yaşlı dişi dəvə verməsi kifayətdir və əgər o da olmazsa, ikisindən birini satın ala bilər.

**Məsələ 2564.** Dəvələrin, yaxud qoyunların zəkatı kimi verilən qoyun, vacib ehtiyata əsasən, minimum iki yaşına daxil olmalıdır. Onların zəkatı kimi verilən keçi isə, vacib ehtiyata əsasən, üç yaşına daxil olmalıdır.

**Məsələ 2565.** İnsanın zəkat üçün verdiyi qoyunun qiyməti onun digər qoyunlarının qiymətindən bir qədər aşağı olarsa, ehtiyata lüzum yoxdur. Lakin daha yaxşı olar ki, qiyməti bütün qoyunlarının qiymətindən daha yüksək olan qoyunu versin. İnək və dəvə ilə bağlı hökm də bu cürdür.

**Məsələ 2566.** Əgər insanın xəstə və eybli inək, qoyun, yaxud dəvələri olarsa, bu zəkatın qüvvədən düşməsinə səbəb olmur və onların zəkatını verməlidir.

**Məsələ 2567.** Əgər insan hamısı xəstə, eybli, yaxud yaşlı olan inək, qoyun, yaxud dəvələrə sahib olarsa, zəkatı onların özündən verə bilər. Lakin əgər hamısı sağlam, eybsiz və cavan olarsa, onların zəkatını xəstə, eybli, yaxud yaşlı heyvanla verə bilməz. Hətta əgər onlardan bəziləri sağlam, bəziləri isə xəstə, bir qismi eybli, digər bir qismi isə eybsiz, bir qədəri qoca, bir qədəri isə cavan olarsa, vacib ehtiyata əsasən, onların zəkatı üçün sağlam, eybiz və cavan heyvan verməlidir.

**Məsələ 2568.** İnsanın nisab həddinə çatmış dəvələrin zəkatını nisaba daxil olan dəvələrdən verməsinə gərək yoxdur, başqa bir dəvə versə də, kafidir və bu hökm inək və qoyuna da şamildir. Buna əsasən, heyvan sahibi zəkatı nisabdan və başqa heyvanlardan verməkdə ixtiyar sahibidir. Hətta zəkat kimi verməli olduğu dəvə, inək, yaxud qoyunun qiymətinə bərabər məbləğdə pul da verə bilər. Hərçənd zəkatı onun şamil olduğu nisaba daxil olan heyvanların özündən vermək daha yaxşı və müstəhəb ehtiyata müvafiqdir. Pul istisna olmaqla digər malların verilməsi isə, vacib ehtiyata əsasən, kafi deyil.

**Məsələ 2569.** İnək, qoyun və dəvənin zəkatını verməli olan şəxs onların sayı birinci nisab miqdarından aşağı düşməyincə hər il zəkat verməlidir. Buna əsasən, onların zəkatını başqa bir malından verdiyi təqdirdə onların sayı nisabdan azalmadıqca və zəkatın sabit olmasının digər bütün şərtlərinə də cavab verdikcə hər il zəkatı verməlidir. Əgər həmin heyvanların özündən verərsə və onların sayı nisabdan aşağı düşərsə, zəkat ona vacib deyil. Məsələn, qırx qoyunu olan şəxs əgər onların zəkatını başqa bir malından verərsə, qoyunlarının sayı qırxdan aşağı düşmədikcə hər il bir qoyun verməlidir və əgər onların özündən verərsə, qırxa çatmayınca zəkat ona vacib deyil.

## Dəvə, inək və qoyunun zəkatı ilə əlaqədar digər hökmlər

**Məsələ 2570.** İnsan dəvə, inək və qoyunun zəkatını on birinci ay başa çatdıqdan sonra yoxsula verməli, yaxud öz malından ayırmalıdır və zəkatın verilməsinin təxirə salınması ilə bağlı hökm 2634-cü məsələdə izah ediləcəkdir.

**Məsələ 2571.** Dəvə, inək və qoyunun sahibi həddi-büluğa çatmamış uşaq, yaxud dəli şəxs olarsa, zəkatın sabit olmasının digər şərtlərinə də cavab verdikdə bu mallara zəkat şamil olur və həddi-büluğa çatmamış uşağın, yaxud dəli şəxsin şəri qəyyumuna vacibdir ki, zəkatı onun malından versin. Həmçinin, əgər həmin heyvanların sahibi bütün il boyu, yaxud onun bir hissəsi ərzində məst, yaxud huşsuz olarsa, zəkat onun üzərindən götürülmür.

**Məsələ 2572.** Məşhura (fəqihlərin əksəriyyətinin rəyinə) görə, dəvə, inək və qoyuna zəkatın şamil olmasında sözügedən heyvanların işsiz olması, yəni suvarma, şumlama və bu kimi işlərdə istifadə edilməyən dördayaqlı heyvanlardan olması şərtdir. Ancaq bu hökm məhəll-i işkaldır və vacib ehtiyata əsasən, suvarma, şumlama, taxıl döymə, məhsulun daşınması və bu kimi işlərdə istifadə edilən və işsiz hesab edilməyən həmin dördayaqlılara zəkat şamil olur. Lakin əgər ürfən sözügedən dördayaqlılar işsiz hesab edilərsə, onların zəkatının verilməsi fətvaya əsasən vacibdir.

**Məsələ 2573.** Dəvə, inək, yaxud qoyuna zəkatın şamil olması üçün bu dördayaqlıların bir yerdə olması şərt deyil. Buna əsasən, əgər bir şəxsin bir neçə kəndə yayılmış qoyunları olarsa və onlardan hər birində olan qoyunlar ayrı-ayrılıqda nisab həddinə çatmırsa, ancaq bir neçə yerdə olan qoyunların ümumi sayı nisab həddinə çatırsa, zəkatın şamil olmasının digər şərtlərinə də cavab verdiyi təqdirdə insanın onların hamısının zəkatını verməsi vacibdir.

**Sərmayənin zəkatı**

**Məsələ 2574.** Sərmayəsi olan və onunla qazanc əldə etmək, ticarətlə məşğul olmaq məqsədi olan şəxslər daha öncə sadalanan ümumi şərtlərə və qarşıda sadalanacaq xüsusi şərtlərə cavab verdiyi təqdirdə, vacib ehtiyata əsasən, öz sərmayələrinin zəkatını verməlidirlər. Bu zəkatın miqdarı qırxda birdir (2. 5%-dir).

**Sərmayəyə zəkatın şamil olmasının xüsusi şərtləri**

**1-ci və 2-ci şərtlər: Sərmayə sahibi həddi-büluğa çatmış və həmçinin, il boyu aqil insan olmalıdır**

**Məsələ 2575.** Sərmayənin sahibi həddi-büluğa çatmamış uşaq, yaxud dəli[1] insan olarsa, ona zəkat şamil olmur və insan həddi-büluğa çatdıqda, yaxud aqil olduqda zəkatın sabit olmasının digər şərtlərinə də cavab verdiyi təqdirdə həmin vaxtdan etibarən zəkat ili başlayır.

**3-cü şərt: İnsan sərmayəyə "müavizi əqd" (mübadilə) yolu ilə sahib olmalıdır**

**Məsələ 2576.** Sərmayədə zəkatın sabit olması insanın sərmayəsinə müavizə (mübadilə) yolu ilə, məsələn, satın alma, yaxud müavizi (əvəzetmə, mübadilə əsaslı) müsalihə və bu kimi yollarla sahib olması şərtinə bağlıdır və bu hökm (zəkat) insana bağışlanılan, miras qalan, yaxud qarşılıqsız və əvəzsiz müsalihə edilən və bu kimi sərmayələrə şamil olmur.

**4-cü şərt: Sərmayə nisab həddinə çatmalıdır**

---

[1] Hətta ilin yalnız bir dövründə dəli olsa belə, zəkat ona vacib olmur. Əlbəttə, əgər il ərzində yalnız bir saatlıq və bu kimi qısa müddət ərzində dəli olarsa, zəkatın digər şərtlərinə cavab verdiyi təqdirdə, ehtiyata əsasən, vacib olur.

**Məsələ 2577.** Sərmayənin nisabı eynilə 2532 və 2533-cü məsələlərdə izah edilən qızıl və gümüşün nisabı kimidir.

**5-ci şərt: Həmin malın üzərindən bir zəkat ili keçməlidir**

**Məsələ 2578.** Sərmayəyə zəkatın şamil olmasında həmin malın üzərindən insanın ticarət və mənfəət əldə etmək niyyəti olduğu vaxtdan etibarən bir zəkat ilinin keçməsi şərtdir və 2479-cu məsələdə qeyd edildiyi kimi sərmayə xüsusunda zəkat ili deyərkən on iki bütöv qəməri ayının keçməsi nəzərdə tutulur.

**6-cı şərt: Bütün il boyu sərmayə ilə ticarət məqsədi qalmalıdır**

**Məsələ 2579.** Əgər il ərzində insan bu məqsəddən əl çəkərsə və məsələn, sərmayəni məunəyə (yaşayış ehtiyaclarına) sərf etmək qərarına gələrsə, zəkat vacib deyil.

**7-ci şərt: Sərmayə bütün il ərzində əsl qiymətinə[1], yaxud daha yüksək qiymətə satıla bilməlidir**

**Məsələ 2580.** Əgər sərmayə ilin hər hansı bir dövründə sərmayənin əsl qiymətinə bərabər məbləğə satıla bilməzsə və alıcısı olmazsa, insanın sərmayənin zəkatını verməsi vacib deyil. Məsələn, əgər insanın sərmayəsinin dəyəri yüz milyon riyal olarsa, lakin il ərzində dəyəri azalarsa və doxsan milyon riyaldan artıq qiymətə satıla bilməzsə, onun üçün zəkat yoxdur.

**8-ci şərt: Sahibi sərmayə üzərində ürfən təsərrüf imkanına sahib olmalıdır**

**Məsələ 2581.** Əgər sərmayənin sahibi nəzərəçarpan müddət ərzində ürfən öz malı üzərində təsərrüf imkanına sahib olmazsa, məsələn, malı oğurlanarsa, qəsb edilərsə, yaxud itərsə, həmin mala zəkat düşmür.

## Zəkat verməyin müstəhəb olduğu hallar

**Məsələ 2582.** Peymanə ilə və ya çəkilərək satılmasından asılı olmayaraq noxud, mərci, maş, lobya, düyü, qarğıdalı, darı, küncüt və s. torpaqda bitən dənli bitkilərin[2] zəkatını vermək müstəhəbdir. Lakin kəvər, cəfəri, ispanaq, keşniş, nanə və reyhan kimi göyərtilərin, həmçinin, qovun, xiyar və bu kimi meyvə və tərəvəzlərin zəkatının verilməsi müstəhəb deyil.

**Məsələ 2583.** Əgər həddi-büluğa çatmamış uşağın, yaxud dəli insanın şəri qəyyumu həddi-büluğa çatmamış uşağın, yaxud dəli şəxsin malları ilə onlar üçün ticarətlə məşğul olarsa, müstəhəbdir ki, zəkatın şamil olmasının şərtlərinə cavab verdiyi təqdirdə onların sərmayəsinin zəkatını onların malından versin.

---

[1] Sərmayənin alış qiyməti, yaxud sahibinə başa gəldiyi qiymət.

[2] Qeyd etmək lazımdır ki, şərtlərə cavab verdiyi təqdirdə buğda və arpanın zəkatının verilməsi vacibdir.

## Zəkatın məsrəf yerləri

**Məsələ 2584.** Zəkat səkkiz yerə sərf edilir:

**1 və 2) Fəqirlər və miskinlər**

**Məsələ 2585.** Fəqir (yoxsul) və miskin anlayışlarının tərifi və zəkat almaq haqqına sahib olmaq xüsusunda onlarla bağlı hökmlər eynilə xüms mövzusunda olduğu kimidir. Bununla bağlı şəriət hökmlərinin təfsilatı "Xümsün məsrəf edilməsi" mövzusunda bəyan edilmişdir.

**Məsələ 2586.** Zəkat verməli olan şəxs əgər bir yoxsuldan alacağı vardırsa, zəkat almaqla bağlı digər şərtlərə də cavab verdiyi təqdirdə ondan alacağını zəkatdan saya bilər.

**Məsələ 2587.** Əgər yoxsul vəfat edərsə və onun malı borcu qədər olmazsa, insan ondan alacağını (yoxsulun ona olan borcunu) zəkatdan saya bilər. Hətta əgər malı borcu qədər olarsa və varisləri borcunu verməzlərsə, yaxud başqa bir səbəblə insan alacağını ala bilməzsə, bu halda da ondan alacağını zəkatdan saya bilər.

**Məsələ 2588.** Əgər insan bir şəxsin yoxsul olduğuna yəqinlik hasil edərsə, yaxud məntiqli bir yolla onun yoxsulluğuna arxayın olarsa və bəyyinə, yəni iki adil kişi həmin şəxsin yoxsul olmasına şahidlik edərsə, kifayətdir və həmin şəxs zəkat alma haqqına sahib olmağın digər şərtlərinə də cavab verdiyi təqdirdə insan zəkatını ona verə bilər.

Qeyd etmək lazımdır ki, insanların yoxsulluğunun sübuta yetməsi və bununla bağlı hökmlərin təfərrüatları bütün dini vergi və rüsumlarda eynidir.

**Məsələ 2589.** Əvvəllər yoxsul olan, hal-hazırda da yoxsul olduğunu deyən və yoxsulluqdan qurtulduğuna şübhə edilən şəxsə hərçənd sözü arxayınlıq hasil etməsə belə, zəkat vermək olar. Lakin əvvəllər yoxsul olub-olmadığı məlum olmayan şəxsə, vacib ehtiyata əsasən, yoxsulluğuna arxayınlıq hasil edənədək, yaxud başqa bir şəri dəlillə, məsələn, iki adil kişinin şahidliyi ilə onun yoxsulluğu sübuta yetənədək ona zəkat vermək olmaz.

**Məsələ 2590.** Yoxsul olduğunu deyən və əvvəllər yoxsul olmayan şəxs sözündən arxayınlıq hasil olmadığı, yaxud iki adil kişinin şahidliyi kimi başqa bir dəlillə yoxsulluğu sübuta yetmədiyi təqdirdə ona zəkat vermək olmaz.

**Məsələ 2591.** Əgər insan bir şəxsin yoxsul olduğunu xəyal edərək ona zəkat verərsə, sonra yoxsul olmadığını başa düşərsə, yaxud məsələni bilmədiyinə görə yoxsul olmadığını bildiyi bir şəxsə zəkat verərsə, kifayət etmir. Beləliklə, ona verdiyi şey qaldığı təqdirdə həmin şeyi ondan almalı və zəkat almaq haqqına sahib olan şəxsə verməlidir. Əgər aradan

getmişdirsə, həmin şeyi alan şəxs zəkat olduğunu bildiyi təqdirdə insan həmin şeyin əvəzini ondan ala və zəkat almaq haqqına sahib olan şəxsə verə bilər, zəkat olduğunu bilmədiyi təqdirdə isə ondan heç nə ala bilməz və zəkatını əvəzini öz malından zəkat almaq haqqına sahib olan şəxsə verməlidir. Hətta yoxsulu tanımaq üçün axtarış aparsa, yaxud şəri dəlilə istinad etsə belə, vacib ehtiyata əsasən, bu hökm ona şamil olur.

**Məsələ 2592.** Əgər insanın mallarına zəkat şamil olmazdan öncə o, bir malı zəkat ünvanı ilə yoxsula verərsə, həmin mal zəkat hesab edilmir. Ancaq zəkat ona vacib olduqdan sonra (əgər yoxsula verdiyi mal aradan getməmişdirsə, həmin yoxsul hələ də yoxsul olaraq qalırsa və zəkat alma haqqına sahib olmağın digər şərtlərinə də cavab verirsə) ona verdiyi malı zəkat hesab edə bilər.

**Məsələ 2593.** Bir insana zəkatın vacib olmadığını bilən yoxsul onun bir malını zəkat kimi götürərsə və mal onun yanında tələf olarsa, maddi məsuliyyət daşıyır və onun əvəzini verməyə borclu olur. Lakin zəkat insana vacib olduqda əgər həmin yoxsul hələ də yoxsul olaraq qalırsa və zəkat alma haqqına sahib olmağın digər şərtlərinə də cavab verirsə, insan həmin alacağı (yoxsulun verməli olduğu borcu) zəkatdan saya bilər.

**Məsələ 2594.** İnsana zəkatın vacib olmadığını bilməyən yoxsul onun bir malını zəkat ünvanı ilə götürərsə və mal onun yanında tələf olarsa, maddi məsuliyyət daşımır və insan onun əvəzini zəkat hesab edə bilməz.

**3) Amillər - zəkat məmurları**

**Məsələ 2595.** Amillər – zəkat məmurları imam (ə), yaxud onun xüsusi naibi və ya ümumi naibi (şəriət hakimi) tərəfindən zəkatı toplamaq, qoruyub-saxlamaq, mühasibatını aparmaq və onu imama (ə), yaxud onun naibinə və ya yoxsullara və müstəhəqlərinə (zəkat alma haqqına sahib olanlara) çatdırmaq vəzifəsinin tapşırıldığı və əməyi müqabilində zəkatdan zəhmət haqqı verilən şəxsdir.

Qeyd etmək lazımdır ki, insanları zəkat toplamaq üçün işə götürən xeyriyyə təşkilatları və bu kimi müəssisələr zəkatı imamın (ə), yaxud onun xüsusi və ya ümumi naibinin icazəsi olmadan bu yerə sərf edə və onun bir hissəsini belə şəxslərə zəhmət haqqı ünvanı ilə verə bilməz.

4) **Zəkat verilməklə İslama, yaxud haqq məzhəbə yönəlmələri üçün zəmin yaranan şəxslər (əl-muəlləfətu qulubuhum)**

**Məsələ 2596.** Bu səhm (hissə) aşağıdakı yönlərdə sərf edilir:

a) Zəkat veriləcəyi təqdirdə içində İslam dininə rəğbət yaranacaq, yaxud müharibə və ya başqa hallarda müsəlmanlara kömək edəcək kafirlər.

b) Rəsul-i əkrəmin (s) gətirdiklərinin bir qisminə imanı zəif olan və zəkat verildiyi təqdirdə imanları güclənəcək müsəlmanlar.

c) Möminlərin əmirinin (ə) vilayətinə imanı olmayan və zəkat verilərsə, vilayətə rəğbət göstərəcək və iman gətirəcək müsəlmanlar.

Qeyd etmək lazımdır ki, zəkatlıq malın sahibi, yaxud digər şəxslər zəkatı imamın (ə), yaxud onun xüsusi naibinin və ümumi naibinin (şəriət hakiminin) icazəsi olmadan bu yönə sərf edə bilməz.

## Kölələrin satın alınaraq azad edilməsi[1]

## Borclular

**Məsələ 2597.** Borcu olan və borcunu ödəyə bilməyən şəxslər (ğarimin) hərçənd illik xərclərini təmin etmək imkanına sahib olsalar da, borclarını qaytarmaq üçün onlara zəkat vermək, yaxud onların borclarını zəkat hesabına ödəmək olar (yanğın, sel, gəmi batması və digər təbii hadisələrdə əmlakını itirən, yaxud ticarət və müamilələrdə ziyana uğrayan və müflisləşən şəxslər bu qəbildəndir). Lakin həmin şəxs aşağıdakı şərtlərə cavab verməlidir:

a) Borc aldığı malı günaha xərcləməməlidir.

b) Vacib ehtiyata əsasən, sözügedən borc müddətsiz olmalı, yaxud əgər müddətli olarsa, qaytarılma vaxtı çatmalıdır.

c) Alacaqlının borclunun borcunu ona tədricən ödəyəcəyinə ümidi olmamalıdır. Lakin alacaqlı borclu tərəfindən borcun tədricən ödənilməsinə razı olduğu və o (borclu) da borcunu qeyri-adi çətinliyə düşmədən ödəyə bildiyi təqdirdə, vacib ehtiyata əsasən, zəkat vermək olmaz.

d) Sözügedən borc şərən sabit olmalıdır. Buna əsasən, borclu olduğunu iddia edən şəxsə onun borclu olması məlumat, arxayınlıq, yaxud başqa mötəbər dəlillə sübuta yetdiyi hallar istisna olmaqla zəkat vermək olmaz.

**Məsələ 2598.** Borclu olan və borcunu ödəyə bilməyən şəxsin nəfəqələrinin, xərclərinin təmin edilməsi bir insana vacib olsa belə, həmin insan qeyd edilmiş şərtlərə riayət etməklə borcunu ödəməsi üçün ona zəkat verə, yaxud borcunu zəkat hesabına ödəyə bilər. Lakin zəkatı ona vacib nəfəqələri üçün vermək caiz deyil və bu məsələ qarşıda izah ediləcəkdir.

**Məsələ 2599.** Əgər bir şəxs borclu olan və borcunu qaytara bilməyən şəxsə borcunu qaytarması üçün zəkat verərsə, sonra onun aldığı borcu günaha sərf etdiyini başa düşərsə, həmin borclu şəxs şərən yoxsul olduğu və sonrakı fəsildə zəkat müstəhəqləri ilə bağlı deyiləcək digər şərtlərə

[1] Bu, hal-hazırda qarşılaşılan bir vəziyyət olmadığına görə, bununla bağlı hökmlər də burada qeyd edilmir.

də cavab verdiyi təqdirdə ona verdiyini yoxsulların səhmi (payı) hesab edə bilər.

## Fi səbilillah (Allah yolunda)

**Məsələ 2600.** Zəkatın məsrəf yerlərindən biri olan "fi səbilillah" ilə faydasından bütün müsəlmanların yararlandığı, məsələn, məscid və dini elmlərin öyrənildiyi təhsil müəssisəsi inşa etmək, ümumi xəstəxanalar və kitabxanalar təsis etmək, cəmiyyət üçün faydalı olan dini kitablar nəşr etmək, şəhərdə təmizlik işləri, yolların asfaltlanması, genişləndirilməsi və bu kimi müsəlmanların ehtiyac duyduğu, onların ümumi mənafeyindən sayılan işlər nəzərdə tutulur. Lakin bu zəkat payını ümumi mənfəəti olmayan işlərə sərf etmək olmaz. Baxmayaraq ki, bu zəkat payını alan şəxs həmin işi zəkat payı almadan görə bilməyəcəkdir.

Qeyd etmək lazımdır ki, zəkatlıq malların sahibi, yaxud xeyriyyə müəssisələri və bu kimi təşkilatlar, lazım ehtiyata əsasən, zəkatı şəriət hakiminin izni olmadan bu işlərə sərf edə bilməz.

**Məsələ 2601.** İnsan səbilullah zəkat payı ilə Quran, yaxud dini kiab və ya dua kitabı alaraq vəqf edə bilməz. Yalnız ümumi mənafeyin bunu tələb etməsi və şəriət hakimindən, lazım ehtiyata əsasən, icazə alması istisnadır.

**Məsələ 2602.** Ata səbilullah zəkat payı ilə övladının ehtiyac duyduğu elmi və dini kitabları satın alaraq onun istifadəsinə verə bilməz. Yalnız ümumi mənafeyin bunu tələb etməsi və şəriət hakimindən, lazım ehtiyata əsasən, icazə alması istisnadır.

**Məsələ 2603.** İnsan zəkatla mülk, bağ, bostan və bu kimi şeylər satın alaraq məhsulunu, gəlirini öz xərclərini təmin etməyə sərf etsinlər deyə övadlarına, yaxud xərclərini təmin etməsi ona vacib olan şəxslərə vəqf edə bilməz.

**Məsələ 2604.** İnsan hərçənd yoxsul olmasa, yaxud illik xərcindən artıq miqdarda götürsə belə, həccə, ziyarətə getmək və bu kimi işlər üçün səbilullah səhmindən zəkat götürə bilər. Lakin bu o halda mümkündür ki, onun həccə, ziyarətə getməsində və s. ümumi mənfəət olsun və vacib ehtiyata əsasən, şəriət hakimindən zəkatı buna sərf etmək üçün icazə alsın.

## İbn əs-səbil (yolda qalmış müsafir)

**Məsələ 2605.** Xərcliyi qurtaran, yaxud nəqliyyat vasitəsi xarab olan müsafir səfəri günah səfər olmadığı və borc almaqla, yaxud hər hansı bir şeyi satmaqla mənzil başına çatmaq imkanı olmadığı təqdirdə hərçənd

öz vətənində yoxsul olmasa da, zəkat ala bilər. Lakin əgər başqa bir yerdə borc almaqla, yaxud bir şeyi satmaqla səfər xərclərini təmin edə bilərsə, yalnız həmin yerə getməsi üçün kifayət edəcək qədər zəkat ala bilər. Vacib ehtiyata əsasən, əgər öz vətənində bir malı satmaq, yaxud icarəyə verməklə səfər xərcini təmin edə bilərsə, zəkat almamalıdır.

**Məsələ 2606.** Səfərdə çıxılmaz vəziyyətdə qalan və zəkat alan müsafir vətəninə çatdıqdan sonra əgər zəkatdan bir şey artıq qalarsa, onu zəkat verənə qaytara bilmədiyi təqdirdə şəriət hakiminə çatdırmalı və sözügedən malın (pulun) zəkat olduğunu bildirməlidir.

## Zəkatın cami əş-şərait fəqihə verilməsi ilə bağlı hökm

**Məsələ 2607.** Dövrün İmamının (ə) qaib olduğu dövrdə zəkatın cami əş-şərait (bütün şərtlərə cavab verən) fəqihə verilməsi vacib deyil. Hərçənd, bu iş müstəhəb ehtiyata müvafiqdir. Əlbəttə, daha öncə də qeyd edildiyi kimi zəkatın məsrəf yerlərindən üçüncü və dördüncüsü xüsusunda fətvaya əsasən, yeddincisi xüsusunda isə vacib ehtiyata əsasən zəkatı cami əş-şərait müctəhidə təhvil vermək, yaxud cami əş-şərait müctəhiddən məsrəf edilməsi üçün icazə almaq lazımdır.

## Zəkat müstəhəqləri üçün şərtlər

**Məsələ 2608.** Zəkatın verilə biləcəyi zəkat müstəhəqləri ilə bağlı daha öncə qeyd edilən şərtlərlə yanaşı bir neçə başqa şərt də mötəbərdir. Bu şərtlərlə əlaqədar hökmlər növbəti məsələlərdə qeyd ediləcəkdir.

**1-ci şərt: Zəkat alan isnaəşəri şiə olmalıdır**

**Məsələ 2609.** Əgər insan bir şəxsi şiə kimi tanıyarsa və ona zəkat verərsə, sonra şiə olmadığı məlum olarsa, yenidən zəkat verməlidir. Hətta əgər araşdırmış olsa, yaxud şəri dəlilə (məsələn, iki adil şəxsin şahidliyinə) istinad etmiş olsa belə, vacib ehtiyata əsasən, təkrarən zəkat verməlidir.

**Məsələ 2610.** Əgər yoxsul şiə həddi-büluğa çatmamış uşaq, yaxud dəli olarsa, insan verdiyi şeyin uşağın, yaxud dəlinin mülkü (malı) olması niyyəti ilə onun şəri qəyyumuna zəkat verə bilər. Həmçinin. şəxsən, yaxud etibarlı bir şəxs vasitəsi ilə zəkatı uşağa, yaxud dəliyə sərf edə bilər. Ancaq bu iş uşağı saxlayan şəxsin himayədarlıq hüququ, yaxud onun qəyyumu olan şəxsin qəyyumluq hüququ ilə ziddiyyət təşkil etməməli və insan zəkatı onlara sərf edərkən zəkat niyyəti etməlidir.

2-ci, 3-cü və 4-cü şərtlər: Zəkat alan zəkatı haram yolda sərf etməməlidir; vacib ehtiyata əsasən, ona zəkat vermək günaha yardım və təşviq hesab edilməməlidir; vacib ehtiyata əsasən, məstedici içkilər içən, namaz qılmayan şəxs olmamalı və açıq-aşkar günah etməməlidir

**Məsələ 2611.** Zəkat müstəhəqləri xüsusunda ikinci, üçüncü və dördüncü şərtlərlə əlaqədar hökmlər eynilə xümsdə olduğu kimidir və təfsilatı "Xümsün məsrəf edilməsi" mövzusunda bəyan edilmişdir.

**5-ci şərt: Zəkat alan zəkat verənin "vacib ən-nəfəqə"si olmamalıdır**

**Məsələ 2612.** İnsan övladı, valideynləri, yaxud daimi arvadı kimi nəfəqəsi ona vacib olan bir şəxsin lazımi xərclərini öz zəkatı hesabına təmin edə bilməz. [1] Əlbəttə, bu hökm zəkatın yoxsulluq ünvanı ilə verildiyi hala aiddir. Ancaq əgər zəkatı başqa bir ünvanla verərsə, məsələn, həmin şəxs borcludursa, yaxud "ibn əs-səbil"dirsə (yolda qalmışdırsa) və bu cəhətdən zəkat almaq haqqına sahibdirsə, ehtiyata lüzum yoxdur. Əlbəttə, insan vacib ən-nəfəqəsi olan şəxslərin vacib nəfəqəsini verməyə qadir olmadığı və bir tərəfdən də zəkat ona vacib olduğu təqdirdə zəkatı ilə onların nəfəqəsini verə bilər. Hərçənd, müstəhəb ehtiyat bu işdən çəkinməkdir.

**Məsələ 2613.** Əgər infaq edilən şəxsə başqa şəxslərin xərclərini təmin etmək vacibdirsə, ancaq infaq edənə vacib deyilsə və infaq edilən şəxs həmin şəxslərin xərclərini təmin edə bilmirsə (məsələn, insanın övladı yoxsuldursa və daimi arvadının xərclərini təmin edə bilmirsə), insan zəkatını həmin şəxslərə sərf etməsi üçün ona (övladına) verə bilər. [2]

**Məsələ 2614.** Yoxsul olan və əri tərəfindən xərcləri təmin edilən daimi nikahda olan bir qadına zəkat vermək olmaz. Hətta əgər əri həyat yoldaşının xərclərini təmin etmək imkanına sahibdirsə, ancaq təmin etməkdən imtina edirsə, onu - dözülməz çətinlik olmadan - xərcləri təmin etməyə (hərçənd dövlət qurumlarına müraciət etməklə olsa belə) məcbur etmək mümkün olduğu təqdirdə belə bir qadına zəkat vermək olmaz. Ancaq əgər ər onun xərclərini təmin edə bilmirsə, yaxud imkanı olduğu halda təmin etmirsə və onu buna məcbur etmək də - dözülməz çətinlik olmadan – mümkün deyilsə, ona zəkat vermək olar.

Həmçinin, bir yoxsulun xərclərini təmin etmək başqa bir şəxsə vacibdirsə, həmin şəxs onun xərclərini təmin etməyə qadirdirsə, istədiyi halda xərclərini təmin etməkdən imtina etmirsə və adətən dözülməz olan bir şəkildə minnət qoymadan xərclərini təmin etməyə hazırdırsa, bu halda vacib ehtiyata əsasən, həmin yoxsula zəkat verməməlidirlər. Ancaq əgər həmin şəxs yoxsulun xərclərini təmin etməyə qadir deyilsə,

[1] Həmçinin, vacib ehtiyata əsasən, vacib ən-nəfəqəsi hesab edilən şəxsin vacib olmayan, əlavə xərclərini öz malı hesabına təmin edə bildiyi halda zəkatını belə xərclərinə sərf etməsi üçün həmin şəxsə verməməlidir.

[2] Əlbəttə, bu o haldadır ki, sözügedən arvad başqa bir şəxsin, məsələn, atasının (arvadın atasının) vacib ən-nəfəqəsi olmamalıdır. Əks təqdirdə, əgər həyat yoldaşının atası (arvadın atası) onun xərclərini təmin etməyə hazırdırsa, insan öz zəkatını həyat yoldaşının xərclərinə sərf etməsi üçün oğluna verə bilməz.

yaxud ümumiyyətlə, təmin etməyə hazır deyilsə və adətən dözülməz olan bir minnətlə təmin edirsə, belə hallarda sözügedən yoxsula zəkat vermək olar.

**Məsələ 2615.** Siğə edilən (müvəqqəti nikahda olan) qadın yoxsul olarsa, əri və başqaları ona zəkat verə bilərlər. Lakin əgər əqddə ərinin qarşısına onun xərclərini təmin etmək şərtini qoyarsa, yaxud başqa bir səbəblə onun xərclərini təmin etmək ərinə vacib olarsa, əri həmin qadının xərclərini təmin etdiyi təqdirdə ona zəkat vermək olmaz.

**Məsələ 2616.** Qadın şərən yoxsul sayılan və zəkat alma haqqına sahib olmağın digər şərtlərinə də cavab verən ərinə, hərçənd ər zəkatı həmin qadının xərclərini təmin etməyə sərf etsə belə,zəkat verə bilər.

**Məsələ 2617.** Əgər insan zəkatı onunla borcunu qaytarması üçün övladına verərsə, sözügedən övlad zəkat alma haqqına sahib olduğu, məsələn, yoxsul olduğu təqdirdə ehtiyata lüzum yoxdur.

**Məsələ 2618.** Ata evlənmək ehtiyacı olan və zəkat alma haqqına da sahib olan, məsələn, yoxsul olan oğluna evlənməsi üçün öz zəkatını verə bilər və oğulun da ataya zəkat verməsi ilə bağlı hökm bu cürdür.

**6-cı şərt: Zəkat verən seyid olmadığı halda zəkat alan da haşimi və seyid olmamalıdır**

**Məsələ 2619.** Seyid olmayan şəxsin zəkatı seyidə haramdır və seyid zərurət halı istisna olmaqla seyid olmayandan zəkat ala bilməz. Vacib ehtiyata əsasən, zərurət seyidin xüms və digər dini vergilərlə öz məxaricini təmin edə bilməyəcəyi həddə olmalıdır. Həmçinin, vacib ehtiyata əsasən, mümkün olduğu təqdirdə hər gün həmin günün zəruri xərclərinə yetəcək qədər zəkat almaqla kifayətlənməlidir. Ancaq seyid şəxs zəkatını seyid, yaxud seyid olmayan şəxsə verə bilər.

Qeyd etmək lazımdır ki, seyid olmayan şəxsin zəkatının seyidə haramlığı vacib zəkata məxsusdur və müstəhəb zəkata şamil olmur. Buna əsasən, seyid olmayan şəxsin zəkatının verilməsi müstəhəb olan mallardan seyid olan yoxsula müstəhəb zəkat verməsində ehtiyata lüzum yoxdur.

**Məsələ 2620.** Seyidliyin sübuta yetirilməsi 2444 və 2445-ci məsələlərdə qeyd edilmişdir. Seyid olub-olmadığı məlum olmayan şəxsə zəkat vermək olar. Lakin əgər özü seyid olduğunu iddia edərsə, seyid olmayan şəxs ona zəkat verə bilməz və bu halda belə bir şəxsə zəkat verməklə zəkat onun üzərindən götürülmür.

## Zəkatın niyyəti və onunla bağlı hökmlər

**Məsələ 2621.** İnsan zəkatı qürbət qəsdi ilə, yəni uca Allahın hüzurunda mütilik və bəndəliyini izhar etmək üçün və ixlasla verməlidir.

Əgər qürbət qəsdi olmadan, yaxud ixlasa riayət etmədən verərsə, hərçənd günah etsə də, kifayətdir.

**Məsələ 2622.** Əgər insana həm mal zəkatı, həm də fitrə zəkatı vermək vacib olarsa, niyyətdə verdiyinin mal zəkatı, yoxsa fitrə zəkatı olduğunu müəyyənləşdirməlidir. Hətta əgər, məsələn, həm buğda, həm də arpa zəkatı ona vacib olarsa və zəkatın qiyməti ünvanı ilə pul vermək istəyərsə, hərçənd icmal surətdə də olsa, verdiyinin buğda, yoxsa arpanın zəkatı olduğunu müəyyən etməlidir. Ancaq əgər ona yalnız bir növ zəkat vacib olarsa, məsələn, yalnız buğda zəkatı ona vacib olarsa, niyyətində buğda zəkatı verdiyini müəyyənləşdirməsinə gərək yoxdur, onu öhdəsinə düşən vacib zəkat niyyəti ilə verərsə, kifayətdir.

**Məsələ 2623.** Bir neçə malın zəkatını verməsi vacib olan şəxs əgər bir miqdar zəkat verərsə və onlardan hər hansı birinin niyyətini etməzsə, verdiyi şey yalnız onlardan birinin zəkatı sayıla bildiyi təqdirdə həmin malın zəkatı verilmişdir. Məsələn, qırx qoyun və on beş misqal qızılın zəkatını verməsi vacib olan şəxs əgər zəkat ünvanı ilə bir qoyun verərsə və onlardan heç birinin niyyətini etməzsə, bu, qoyunların zəkatı hesab edilir.

Lakin əgər zəkat ünvanı ilə verdiyi şey iki və ya bir neçə malın zəkatı hesab edilə bilərsə, məsələn, əvvəlki misalda onlardan heç biri ilə eyni cinsdən olmayan və hər ikisinin də zəkatı hesab edilə biləcək kağız pulu zəkat ünvanı ilə verərsə, bəzi fəqihlərin (Allah onlardan razı olsun!) sözlərinə görə, verilmiş zəkat onlar arasında mütənasib şəkildə bölünür. Lakin bu hökm işkaldan xali deyil, yəni heç birinin zəkatı sayılmaması, sahibinin mülkündə qalması ehtimalı vardır. Bu səbəbdən bu halda ehtiyatın tələbinə riayət edilməlidir.

**Məsələ 2624.** Əgər insan bir şəxsi onun malının zəkatını verməsi üçün vəkil edərsə, zəkatı həmin vəkilə verərkən niyyət etməlidir və müstəhəb ehtiyata əsasən, zəkat yoxsula çatanadək bu niyyətdə qalmalıdır.

## Zəkat verməklə əlaqədar digər hökmlər

**Məsələ 2625.** Malının zəkatını öz mallarından ayıran şəxs onu qoruyub-saxlamaqda səhlənkarlıq etdiyi və bu səbəbdən zəkat tələf olduğu təqdirdə maddi məsuliyyət daşıyır və onun əvəzini verməlidir.

Həmçinin, əgər onu qorumaqda səhlənkarlığa yol verməmişdirsə, lakin zəkatı onu alma haqqına sahib olana çatdırmaq imkanı olduğu halda onu çatdırmağı təxirə salmışdırsa və bu müddət ərzində zəkat tələf olmuşdursa (hətta vacib ehtiyata əsasən, gecikdirməkdə doğru bir məqsədi olmuşdursa, məsələn, müəyyən bir yoxsulu nəzərində tutmuş, yaxud onu yoxsullara tədricən vermək istəmişdirsə belə), zəkat üçün maddi məsuliyyət daşıyır (onu yenidən verməlidir).

Ancaq əgər zəkat alma haqqına sahib olan şəxsə əli çatmırsa, zəkatı verməyi onu alma haqqına sahib olan şəxsi tapmaq üçün təxirə salmışdırsa və onu qoruyub-saxlamaqda səhlənkarlığa yol vermədiyi halda zəkat tələf olmuşdursa, maddi məsuliyyət daşımır.

**Məsələ 2626.** Əgər insan mallarının zəkatını bütün şərtlərə cavab verən şəriət hakiminə verərsə və şəriət hakimi zəkatlıq mallar üzərindəki idarəetmə səlahiyyətindən istifadə edərək zəkatı qəbul edərsə, hərçənd bundan sonra zəkat şəriət hakiminin əlində tələf olsa, yaxud səhvən zəkat alma haqqına sahib olmayan bir şəxsə verilsə belə, zəkat mal sahibinin, onu verənin üzərindən götürülür.

**Məsələ 2627.** Əgər zəkatlıq mallardan olan bir şey zəkat şamil olmazdan öncə tələf olarsa, həmin malın yerdə qalanı nisab həddindən az olduğu təqdirdə ona zəkat şamil olmur. Əgər yerdə qalan nisab miqdarında olarsa və zəkatın şamil olmasının digər şərtlərinə də cavab verərsə, yerdə qalan hissənin zəkatını vermək vacibdir.

**Məsələ 2628.** İnsan zəkatı onu öz malından ayırdığı şəhər, yaxud kənddən başqa bir şəhərə, yaxud kəndə apara bilər. Lakin zəkatı öz malından ayırdığı yerdə zəkat alma haqqına sahib olan şəxs(lər) olduqda onun başqa bir yerə aparılmasının xərcləri mal sahibinin (zəkat verənin) üzərinə düşür və zəkat daşınma səbəbi ilə tələf olduğu təqdirdə onun üçün maddi məsuliyyət daşıyır. Yalnız sonrakı məsələdə izah ediləcək qaydada şəriət hakiminin göstərişi ilə aparması istisnadır.

**Məsələ 2629.** Əgər zəkat vermək istəyən şəxsin şəhərində, yaxud kəndində zəkat alma haqqına sahib olan bir şəxs olmazsa, zəkatı onun üçün müəyyən edilmiş başqa bir məsrəf yerinə də sərf edə bilməzsə və onu başqa bir yerə apararsa, onun digər yerə daşınma xərclərini zəkatdan saya bilər və zəkat daşınma səbəbi ilə tələf olarsa, onu qoruyub-saxlamaqda səhlənkarlıq etmədiyi təqdirdə maddi məsuliyyət daşımır, əks təqdirdə isə maddi məsuliyyət daşıyır. Həmçinin, insan bütün şərtlərə cavab verən şəriət hakimindən vəkalət ala və zəkatı şəriət hakimi tərəfindən vəkalətlə qəbul edə və onun icazəsi ilə zəkatı başqa bir yerə daşıya bilər. Bu halda da onun başqa bir yerə daşınma xərclərini zəkatdan saya bilər və əgər zəkat daşınma səbəbi ilə tələf olarsa, onun qorunmasında səhlənkarlığa yol vermədiyi təqdirdə maddi məsuliyyət daşımır.

**Məsələ 2630.** Əgər insan zəkatı malın özündən ayıraraq kənara qoyarsa, onun yerdə qalanı üzərində təsərrüf haqqına sahibdir. Həmçinin, əgər başqa bir malından (şəriətin göstərişinə müvafiq şəkildə) ayıraraq kənara qoyarsa, bütün malı üzərində təsərrüf haqqına sahibdir.

**Məsələ 2631.** İnsan kənara qoyduğu zəkatı özünə götürə və yerinə başqa bir mal qoya bilməz.

**Məsələ 2632.** Əgər insan şəriət hakiminin icazəsi olmadan zəkat üçün kənara qoyduğu bir malla ticarət edərsə və ziyana uğrayarsa, zəkatdan heç nə əskiltməməlidir. Lakin əgər mənfəət əldə edərsə, lazım ehtiyata əsasən, onu zəkat alma haqqına sahib olan şəxsə verməlidir.

**Məsələ 2633.** Əgər kənara qoyulan zəkatdan bir mənfəət, gəlir hasil olarsa, məsələn, zəkat üçün ayrılan qoyun quzu dünyaya gətirərsə, hasil olan mənfəətə zəkat hökmü şamildir.

**Məsələ 2634.** Zəkatın verilməsinin vacib olduğu vaxt çatdıqda insan üzrlü səbəb olmadan onun verilməsini təxirə sala bilməz. Ancaq əgər malın zəkatını ayıraraq kənara qoyarsa, məntiqə uyğun bir məqsədlə onu verməyi təxirə saldığı və zəkatı verməkdə səhlənkarlıq hesab edilmədiyi təqdirdə ehtiyata lüzum yoxdur. Buna əsasən, əgər zəkatı müəyyən bir yoxsula vermək üçün kənara qoyarsa və hal-hazırda həmin yoxsul ilə əlaqə yaratmaq mümkün deyilsə (məsələn, səfərdədirsə), zəkatı verməyi təxirə sala bilər.

**Məsələ 2635.** Əgər sahibi zəkatın şamil olduğu bir malı zəkat verməzdən öncə satarsa, günah etmişdir və zəkatı hərçənd başqa mallarından olsa belə, verməlidir. Ancaq istənilən halda alqı-satqı doğrudur və alıcı da satıcının həmin malın zəkatını vermədiyini bildiyi təqdirdə hər ikisinin zəkat verməsi vacibdir. [1]

Başqasına bağışlanılan zəkatlıq mal ilə əlaqədar hökm də bu cürdür.

**Məsələ 2636.** Əgər iki şəxsin zəkatı vacib olmuş şərikli malı olarsa və onlardan biri öz payının zəkatını verərsə, digər şərik isə öz payının zəkatını verməzsə, digər hissənin zəkatı verilənədək müştərək mal üzərində təsərrüf hüququna sahib deyillər. Lakin əgər malı bölüşdürərlərsə və hər kəs öz payını götürərsə, hərçənd şərikinin öz payının zəkatını vermədiyini və daha sonra da verməyəcəyini bilsə belə, malının zəkatını verən şəxsin öz payı üzərində təsərrüfündə ehtiyata lüzum yoxdur.

**Məsələ 2637.** Əgər insan mallarına zəkat şamil olduğunu bilərsə, lakin onu verib-vermədiyinə şəkk edərsə, zəkatı olan mal hal-hazırda mövcud olduğu təqdirdə onun zəkatını verməlidir və əgər zəkatı olan mal (özü) hal-hazırda mövcud deyilsə, ona zəkat vermək vacib deyil.

**Məsələ 2638.** Yoxsul zəkatı almazdan öncə onu miqdarından azına sülh (müsalihə) edə, yaxud bir malı dəyərindən baha qiymətə zəkat kimi qəbul edə bilməz. Həmçinin, mal sahibi zəkatı onu alma haqqına sahib olan şəxsə verərək onun qarşısında həmin malı ona geri qaytarmasını şərt qoya bilməz. Lakin əgər zəkat alma haqqına sahib olan şəxs zəkatı aldıqdan sonra qəlbən onu zəkat verənə qaytarmağa razı olarsa, bunda

---

[1] Əgər satıcı zəkatı verərsə, alıcının üzərinə hər hansı bir mükəlləfiyyət düşmür və əgər alıcı verərsə, satıcı onu aldatdığı təqdirdə verdiyi zəkat miqdarını ondan tələb edə bilər.

bir əngəl yoxdur. Məsələn, külli miqdarda zəkat borcu olan, yoxsullaşaraq zəkatı verə bilməyən və indi tövbə edən şəxs üçün, əgər yoxsul onun zəkatını alaraq sonra yenidən özünə bağışlamağa razı olarsa, ehtiyata lüzum yoxdur.

**Məsələ 2639.** Əgər mal sahibi bir yoxsulu onun malının zəkatını verməyə vəkil edərsə, həmin yoxsul mal sahibinin niyyətinin onun (yoxsulun) özünün zəkatdan götürməməsi olduğunu ehtimal etdiyi təqdirdə ondan özünə bir şey götürə bilməz və əgər mal sahibinin niyyətinin bu olmadığına əmin olarsa, özünə də götürə bilər.

**Məsələ 2640.** Əgər yoxsul zəkat ünvanı ilə dəvə, inək, qoyun, qızıl, gümüş və sərmayə alarsa, o da zəkatın vacib olması üçün deyilən şərtlərə cavab verdiyi təqdirdə bu şeylərin zəkatını verməlidir.

**Məsələ 2641.** İnsanın zəkat kimi yoxsula verdiyi şeyin zəkat olduğunu ona deməsi vacib deyil. Hətta əgər yoxsul xəcalət çəkərsə, müstəhəbdir ki, malı ona zəkat niyyəti ilə versin, ancaq zəkat olduğunu bildirməsin.

**Məsələ 2642.** Müstəhəbdir ki, insan dəvə, inək və qoyunun zəkatını ismətli yoxsullara versin və zəkat verərkən öz qohumlarını yadlardan, elm və kamal əhlini başqalarından və ağız açmayanları, dilənməyənləri ağız açanlardan öndə tutsun. Lakin ola bilər ki, hər hansı bir yoxsula zəkat vermək başqa bir cəhətdən daha yaxşı olsun.

**Məsələ 2643.** Zəkatı alan şəxsin zəkat verən şəxs üçün dua etməsi müstəhəbdir.

**Məsələ 2644.** İnsanın zəkat alma haqqına sahib olan şəxsdən ondan aldığı zəkatı ona satmasını istəməsi məkruhdur. Lakin əgər zəkat alma haqqına sahib olan şəxs aldığı malı satmaq istəyərsə, qiymətini təyin etdikdən sonra daha yaxşı olar ki, zəkatı ona verən şəxsi həmin malı satın alma xüsusunda başqalarından öndə tutsun.

# FİTRƏ ZƏKATI (FİTRİYYƏ)

## Fitrə zəkatının (fitriyyənin) vacib olmasının şərtləri

**Məsələ 2645.** Fitr bayramı axşamı qürub vaxtı aşağıdakı şərtlərə cavab verən mükəlləfə özünün və ürfən onun çörək yeyəni hesab edilən şəxslərin fitrə zəkatını verməsi vacibdir:

1) həddi-büluğa çatmış olmalıdır; 2) aqil olmalıdır; 3) huşsuz olmamalıdır; 4) yoxsul olmamalıdır; 5) qul olmamalıdır.

**Məsələ 2646.** Əgər fitr bayramı axşamı qürubdan öncə vaciblik şərtləri insan üçün gerçəkləşərsə, məsələn, uşaq həddi-büluğa çatarsa, yaxud dəli aqil olarsa və ya yoxsul varlanarsa, fitriyyənin vacib olmasının digər şərtlərinə də cavab verdiyi təqdirdə fitrə zəkatını verməlidir. Həmçinin, vacib ehtiyata əsasən, əgər bu şərtlər fitr bayramı axşamının qürub çağı ilə bayram gününün zöhr çağı arasında hasil olarsa, fitrə zəkatını verməlidir. Lakin əgər bu şərtlər bayram günü zöhrdən sonra meydana gələrsə, fitrə zəkatını vermək ona vacib deyil.

**Məsələ 2647.** Yoxsul[1] olan şəxsə fitrə zəkatı vermək vacib deyil. Buna əsasən, özünün və ailəsinin illik xərclərini təmin etmək imkanı olmayan və bu xərcləri təmin edə biləcəyi bir işi də olmayan şəxsə fitrə zəkatı vermək vacib deyil.

**Məsələ 2648.** Fitriyyəsini başqası verməli olan bir şəxsə öz fitriyyəsini vermək vacib deyil. Lakin əgər həmin şəxs onun fitriyyəsini verməzsə, fitrə zəkatının vacib olması şərtlərinə cavab verdiyi təqdirdə[2]insanın özünə, ehtiyata əsasən, öz fitriyyəsini vermək vacib olur. Həmçinin, əgər zəngin insan yoxsul şəxsin çörək yeyəni olarsa, sözügedən yoxsula fitrə zəkatını vermək vacib deyil və zəngin insan fitrə zəkatının vaciblik şərtlərinə cavab verdiyi təqdirdə onun özü fitrə zəkatını verməlidir.

**Məsələ 2649.** Fitrə zəkatının vacibliyində müsəlman olmaq şərt deyil və onu vermək kafirə də vacibdir. Ancaq kafir fitr bayramı axşamı qürubdan sonra müsəlman olarsa, fitrə zəkatı onun üzərindən götürülür və fitrə zəkatı vermək ona vacib deyil. Lakin şiə olmayan müsəlman şəvval ayının hilalı göründükdən sonra (fitr bayramı axşamı qürubdan sonra) şiə olarsa, fitriyyə onun üzərindən götürülmür və onu verməlidir.

---

[1] Yoxsul anlayışının tərifi "Xümsün məsrəf edilməsi" mövzusunda verilmişdir.

[2] Fitrə zəkatı mözusunun başlanğıcında (2645-ci məsələdə) qeyd edilən şərtlər nəzərdə tutulur.

## Fitriyyəsinin verilməsi insana vacib olan şəxslərlə əlaqədar hökmlər

**Məsələ 2650.** Fitr bayramı axşamı qürub çağı həddi-büluğa çatmış və aqil olan, huşsuz, yoxsul və qul olmayan şəxs özü və çörək yeyəni olan şəxslər üçün adambaşına öz şəhərində çox istifadə edilən buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı kimi ərzaq mallarından müstəhəqqə bir "sa" (təqribən üç kq-a bərabər olduğu deyilir) verməlidir. Onun yerinə pul versə də, kifayətdir. Lazım ehtiyata əsasən, öz şəhərində çox işlənməyən qidalardan, hərçənd bu qida buğda, arpa, xurma, yaxud kişmiş olsa belə, verməməlidir.

**Məsələ 2651.** İnsan fitr bayramı axşamı qürub çağı onun çörək yeyəni hesab edilən şəxslərin fitriyyəsini onların kiçik (azyaşlı), yaxud böyük, müsəlman, yaxud kafir olmasından, onların xərclərini təmin etməyin ona vacib olub-olmamasından, onunla eyni şəhərdə, yaxud başqa bir şəhərdə yaşamalarından asılı olmayaraq verməlidir.

**Məsələ 2652.** Ev yiyəsinin evinə fitr bayramı axşamı Günəşin batmasından öncə gələn və onun çörək yeyəni (hərçənd müvəqqəti də olsa) hesab edilən qonağın fitriyyəsini vermək ev sahibinə vacibdir. Məsələn, qürubdan öncə ev yiyəsinin evinə gələn, gecə də onun evində qalan və ev yiyəsinin də onun rahatlığı üçün lazımı imkanları səfərbər etdiyi və xərclərini təmin etməyi öz üzərinə götürdüyü qonaq hərçənd bir şey yeməsə, yaxud öz yeməyi ilə iftar açsa belə, ev yiyəsi onun fitrə zəkatını verməlidir. Ancaq sadəcə iftar üçün dəvət edilən və gecələməyən qonaq çörək yeyən hesab edilmir və onun fitrə zəkatı ev yiyəsinin öhdəsinə düşmür.

**Məsələ 2653.** Fitr bayramı axşamı Günəş batdıqdan sonra ev sahibinin evinə gələn qonağın fitriyyəsi onun çörək yeyəni hesab edilmədiyi halda ev yiyəsinə vacib deyil. Əgər onun çörək yeyəni hesab edilərsə (vacib ehtiyata əsasən), ehtiyatın tələbinə riayət etmək lazımdır, məsələn, onlardan biri digərinin icazəsi ilə fitriyyəni verməlidir. [1]

**Məsələ 2654.** Hotellərdə, mehmanxanalarda, restoranlarda və bu kimi yerlərdə bir qayda olaraq sahibkarın əciri olan işçilər sahibkar tərəfindən təmin edilən yeməklərlə qidalanırlar. Bu hallarda əcirin (işçinin)

---

[1] Bu hallarda aralarında ehtiyat vəziyyəti yaranan iki tərəf vardır: birinci tərəf ev sahibidir, ikinci tərəf isə qonaq qürub çağı başqa bir şəxsin çörək yeyəni olmadığı (və fitriyyə vermə şərtlərinə cavab verdiyi) təqdirdə qonağın özü, başqasının çörək yeyəni olduğu təqdirdə isə həmin şəxsdir. Beləliklə, əgər atasının çörək yeyəni olan bir şəxs qürubdan sonra qonaq gedərsə və ev sahibinin çörək yeyəni hesab edilərsə, ehtiyat vəziyyəti ata ilə ev sahibi arasında meydana gəlir, məsələn, ata ev sahibinin icazəsi ilə fitriyyəni verir.

qida ilə təmin edilməsi məvacib, yaxud əqd (əmək müqaviləsi) çərçivəsində bir şərt olaraq sahibkarın öhdəsinə düşmədiyi, sahibkar işçinin qidasını öz lütfkarlığı ilə təmin etdiyi və işçi sahibkarın çörək yeyəni hesab edildiyi təqdirdə sahibkar onun fitriyyəsini verməlidir.

Ancaq işçinin qidası onun zəhmət haqqının tərkib hissəsi hesab edildiyi, yaxud əmək müqaviləsində işçinin sahibkar qarşısında əmək haqqı ilə yanaşı onun gündəlik yeməyini də verməsi şərtini qoyduğu təqdirdə bu məhəll-i işkaldır. Buna əsasən, 2653-cü məsələdə qeyd edildiyi kimi ehtiyatın tələbinə riayət etmək lazımdır. Məsələn, işçi sahibkarın icazəsi ilə öz fitriyyəsini verməli, yaxud sahibkar işçinin icazəsi ilə onun fitriyyəsini verməlidir.

**Məsələ 2655.** Yaşayış xərcləri dövlət tərəfindən təmin edilən hərbi xidmətdə olan əsgərlərin, yaxud həbsdə olan şəxslərin fitrə zəkatı dövlətin öhdəsinə düşmür və şərtlər mövcud olduğu təqdirdə onların özlərinə vacibdir.

**Məsələ 2656.** Anasının, yaxud dayəsinin südü ilə qidalanan körpənin fitriyyəsi ananın, yaxud dayənin xərclərini təmin edən şəxsin üzərinə düşür. Lakin əgər ana, yaxud dayə öz xərclərini uşağın malları hesabına təmin edirlərsə, uşağın fitriyyəsi heç kəsə vacib deyil.

**Məsələ 2657.** Ana bətnində olan döl üçün fitrə zəkatı yoxdur. Yalnız Günəş batmazdan öncə dünyaya gələrsə və külfət hesab edilərsə, bu halda onun fitrə zəkatı vacibdir. Əgər fitr bayramı axşamı Günəşin batmasından sonra dünyaya gələrsə və külfət hesab edilərsə, lazım ehtiyata əsasən, onun fitrə zəkatı verilməlidir. Əgər doğulmuş körpə kimsənin külfəti olmazsa, məsələn, körpəyə bir sıra mallar miras qalmışdırsa və onun xərcləri həmin mallar hesabına təmin edilirsə, körpənin fitriyyəsi heç kəsə vacib deyil.

**Məsələ 2658.** Əgər insan fitr bayramı axşamı qürubdan öncə bir qadınla evlənərsə, həmin qadın onun çörək yeyəni hesab edildiyi təqdirdə onun fitriyyəsini verməlidir. Əgər həmin qadın başqa bir şəxsin, məsələn, öz atasının çörək yeyənidirsə, onun fitriyyəsi ərinə vacib deyil, həmin başqa şəxsə vacibdir. Əgər qadın kimsənin çörək yeyəni deyilsə, fitriyyəsi şərtlərə cavab verdiyi təqdirdə özünə vacibdir. Həmçinin, əgər insan fitr bayramı axşamı Günəş batdıqdan sonra bir qadınla evlənərsə və həmin qadın onun çörək yeyəni sayılarsa, vacib ehtiyata əsasən, 2653-cü məsələdə qeyd edildiyi kimi ehtiyatın tələbinə riayət etmək lazımdır.

**Məsələ 2659.** Əgər insan fitr bayramı axşamı qürubdan öncə vəfat edərsə, onun və ailəsinin fitriyyəsini onun malından vermək vacib deyil. Lakin əgər qürubdan sonra vəfat edərsə, məşhura (əksər fəqihlərin sözünə) görə onun və ailəsinin fitriyyəsini onun malından verməlidirlər. Lakin bu hökm işkaldan xali deyil və ehtiyatın tələbinə riayət edilməlidir.

**Məsələ 2660.** Əgər insan bir şəxsin çörək yeyənidirsə və fitr bayramı axşamı qürubdan öncə başqa bir şəxsin çörək yeyəninə çevrilərsə, onun fitriyyəsi hazırda çörək yeyəni olduğu şəxsə vacibdir. Məsələn, əgər qız fitr bayramı axşamı qürubdan öncə ərə gedərsə, əri onun fitriyyəsini verməlidir.

## Başqasının fitriyyəsini vermək

**Məsələ 2661.** Əgər fitriyyəsi başqasına vacib olan bir şəxs özü öz fitriyyəsini verərsə, onun fitriyyəsini verməsi vacib olan şəxsin üzərindən mükəlləfiyyət götürülmür. Lakin əgər fitriyyəsini verməsi vacib olan şəxs tərəfindən onun icazəsi ilə verərsə, kifayətdir.

**Məsələ 2662.** Fitrə zəkatının ev sahibinin, yoxsa qonağın üzərinə düşdüyü məlum olmayan şübhəli hallarda onlardan biri digərinin icazəsi ilə fitrə zəkatını onun həqiqətdə öhdəsinə düşdüyü şəxsin niyyəti ilə verərsə, kifayətdir və digərinin yenidən fitrə zəkatı verməsinə gərək yoxdur. Həmçinin, fitrə zəkatının, məsələn, iki şəxsin öhdəsinə düşməsi məlum olduğu, lakin hər birinin payı məlum olmadığı hallarda da hökm bu cürdür və bu halda onlardan biri digərinin icazəsi ilə "ma fiz-zimmə" niyyəti ilə zəkatı verə bilər.

**Məsələ 2663.** Əgər insan onun çörək yeyəni olan və başqa bir şəhərdə olan bir şəxsi onun malından öz fitriyyəsini verməyə vəkil edərsə, onun fitriyyəni verdiyinə əmin, yaxud arxayın olduğu təqdirdə özünün onun fitriyyəsini verməsinə gərək yoxdur.

## Fitrə zəkatının məsrəf edilməsi

**Məsələ 2664.** Fitrə zəkatını – vacib ehtiyata əsasən, yalnız – mal zəkatı alma haqqına sahib olanlar üçün nəzərdə tutulan şərtlərə cavab verən şiə yoxsullara vermək lazımdır və zəkatın digər məsrəf yerlərinə sərf etmək olmaz. Bir şəhərdə şiə yoxsullardan bir şəxs belə olmadığı təqdirdə onu digər yoxsul müsəlmanlara vermək olar. Lakin istənilən halda nasibiyə verilməməlidir.

**Məsələ 2665.** Əgər şiə olan bir körpə yoxsul olarsa, insan fitriyyəni ona sərf edə, yaxud onu körpənin mülkiyyəti etməsi üçün vəlisinə (şəri qəyyumuna) verə bilər.

**Məsələ 2666.** Fitriyyə verilən yoxsulun adil olmasına gərək yoxdur. Lakin mal zəkatından deyildiyi kimi, vacib ehtiyata əsasən, məstedici içkilər içən, namaz qılmayan, açıq-aşkar günah edən və fasiqliyini göstərən bir şəxsə fitriyyə verilməməlidir. Həmçinin, fitriyyəni günaha sərf edən şəxsə fitriyyə verilməməlidir.

**Məsələ 2667.** Müstəhəb ehtiyata əsasən, bir yoxsula bir "sa"dan az fitriyyə verilməməlidir. Yalnız bir yerə toplanmış yoxsulların hamısına çatmırsa, bu hal istisnadır. Lakin əgər bir yoxsula bir neçə sa verilərsə, ehtiyata lüzum yoxdur.

**Məsələ 2668.** Seyid olmayan şəxs seyidə fitrə zəkatı verə bilməz. Hətta əgər bir seyid onun çörək yeyəni olsa belə, onun fitriyyəsini başqa bir seyidə verə bilməz. Ancaq seyid olan şəxs öz fitrə zəkatını, hətta əgər onun çörək yeyəni hesab edilən və fitrə zəkatları həmin seyidə vacib olan şəxslər seyid olmasalar belə, onların da zəkatını həm seyid olan, həm də olmayan yoxsula verə bilər.

## Zəkat fitrəsi verməklə bağlı digər hökmlər

**Məsələ 2669.** Əgər insan qiyməti adi qiymətdən iki dəfə artıq olan bir maldan, məsələn, qiyməti adi buğdadan iki dəfə baha olan bir buğdadan yarım sa verərsə, kifayət etmir. Hətta əgər onu fitriyyənin qiyməti (natura şəklində) niyyəti ilə versə belə, kifayət etmir.

**Məsələ 2670.** İnsan bir "sa"nın yarısını bir mal, məsələn, buğda, digər yarısını isə başqa bir mal, məsələn, düyü ilə verə bilməz. Hətta əgər bunu fitriyyənin qiyməti (natura şəklində) kimi versə belə, kifayət etmir. Lakin bir neçə nəfərin fitriyyəsini verən şəxsin onların hamısını eyni malla verməsinə gərək yoxdur. Məsələn, əgər bəzilərinin fitriyyəsini buğda, bəzilərininkini isə düyü ilə verərsə, kifayətdir.

**Məsələ 2671.** İnsanın fitrə üçün verdiyi buğda və ya başqa bir şey başqa növ bir malla, yaxud torpaqla qarışmamalıdır və qarışdığı təqdirdə əgər onun xalis çəkisi bir "sa"ya çatarsa və ayırmadan istifadə edilə bilərsə, yaxud onu ayırmaq həddən ziyadə əziyyətli olarsa və ya ona qarışan şeyin miqdarı etina edilməyəcək qədər az olarsa, ehtiyata lüzum yoxdur.

**Məsələ 2672.** Əgər insan fitrə zəkatını eybli (defekt) bir şeydən verərsə, vacib ehtiyata əsasən, kafi deyil.

**Məsələ 2673.** İnsan hərçənd özünün və ailəsinin xərclərini təmin etmək üçün günah etsə və onu haram yolla təmin etsə belə, özünün və ailəsinin fitriyyəsini halal maldan verməlidir.

**Məsələ 2674.** Əgər insanın qiyməti fitriyyədən baha olan bir malı vardırsa, fitriyyəni verməzsə və niyyətində həmin malın bir miqdarını fitriyyə üçün nəzərdə tutarsa, vacib ehtiyata əsasən, kafi deyil.

**Məsələ 2675.** Əgər insan bir şəxsin yoxsul olduğunu düşünərək ona fitriyyə verərsə, sonra yoxsul olmadığını başa düşərsə, ona verdiyi mal aradan getmədiyi təqdirdə onu geri almalı və müstəhəqqə verməli,ala bilmədiyi təqdirdə isə öz malından fitriyyənin əvəzini verməlidir. Əgər

aradan getmişdirsə, fitriyyəni alan şəxs aldığı şeyin fitriyyə olduğunu bildiyi təqdirdə onun əvəzini qaytarmalıdır, bilmədiyi təqdirdə isə əvəzini vermək ona vacib deyil və insan özü fitriyyənin əvəzini verməlidir.

**Məsələ 2676.** İnsan fitrə zəkatını qürbət qəsdi ilə, yəni uca Allahın hüzurunda mütilik və bəndəliyin təzahürü üçün və ixlasla verməlidir. Onu verərkən fitriyyə vermək niyyəti etməlidir. Əgər qürbət qəsdi olmadan, yaxud ixlasa riayət etmədən fitriyyə verərsə, hərçənd qürbət qəsdi olmadığına, yaxud ixlasa riayət etmədiyinə görə günahkar olsa da, kifayətdir və fitrə zəkatı hesab edilir.

**Məsələ 2677.** Əgər insan ramazan ayından öncə fitrə zəkatı verərsə, doğru deyil. Lakin ramazan ayı başladıqdan sonra fitrə zəkatını verə bilər. Hərçənd müstəhəb ehtiyat budur ki, ramazan ayında da fitriyyəni verməsin və onu verməyi fitr bayramı axşamınadək təxirə salsın. Lakin əgər insan ramazan ayından öncə yoxsula borc verərsə və fitriyyə ona vacib olduqdan sonra sözügedən yoxsul hələ də fitrə zəkatı alma haqqına sahibdirsə, yoxsuldan alacağını fitrə zəkatına saya bilər.

**Məsələ 2678.** Fitr bayramının namazını qılmaq niyyətində olan şəxs, vacib ehtiyata əsasən, fitriyyəni bayram namazından öncə verməlidir və əgər insanın fitr bayramının namazını qılmaq niyyəti yoxdursa, fitriyyə ödəməyi bayram gününün zöhr azanınadək təxirə sala bilər.

**Məsələ 2679.** Əgər insan fitriyyə niyyəti ilə malından bir miqdarını ayırıb bir kənara qoyarsa və fitr bayramı günü zöhrədək müstəhəqqə verməzsə, ona verdiyi zaman fitrə zəkatı niyyəti etməlidir. Kənara qoyulmuş fitrə zəkatının verilməsinin təxirə salınması əgər məntiqə uyğun bir məqsəd üçün olarsa və zəkatı verməkdə səhlənkarlıq hesab edilməzsə, ehtiyata lüzum yoxdur. Buna əsasən, əgər insan fitrə zəkatını müəyyən bir yoxsula vermək üçün kənara qoyarsa və hazırda həmin yoxsulla əlaqə yaratmaq mümkün deyilsə, məsələn, yoxsul səfərdədirsə, fitrə zəkatını verməyi təxirə sala bilər.

**Məsələ 2680.** Əgər insan fitr bayramı günü zöhr azanınadək fitriyyəni verməzsə və ayırıb kənara da qoymazsa, daha sonra vacib ehtiyata əsasən, əda və qəza niyyəti etmədən, ma fiz-zimmə niyyəti ilə fitriyyəni verməlidir.

**Məsələ 2681.** Əgər insan fitriyyəni kənara qoyarsa, onu özünə götürə və yerinə başqa bir mal qoya bilməz.

**Məsələ 2682.** Əgər insanın fitrə zəkatı ünvanı ilə kənara qoyduğu mal aradan gedərsə, onun tələf olması ilə bağlı hökm eynilə mal zəkatının tələf olması kimidir. Mal zəkatının tələf olması ilə bağlı hökmlərin təfsilatı 2625-ci məsələdə bəyan edilmişdir.

**Məsələ 2683.** Fitrə zəkatını imama (ə), yaxud onun xüsusi naibinə və ya ümumi naibinə, yəni şəriət hakiminə aparmaq hərçənd insan bunun üçün onu başqa bir şəhərə aparmağa məcbur olsa belə, caizdir. Bu o haldadır ki, insanın yaşadığı şəhərdə (fitriyyəni öz malından ayırdığı yerdə) zəkat müstəhəqqi yoxdur. Digər hallarda isə əgər öz yaşayış yerində, şəhərində müstəhəqq taparsa, vacib ehtiyat budur ki, fitriyyəni başqa bir yerə aparmasın. Lakin apardığı və müstəhəqqə çatdırdığı təqdirdə vacib ehtiyata zidd hərəkət etməsinə baxmayaraq kifayətdir, yenidən fitrə zəkatı verməyə ehtiyac yoxdur və bu halda əgər başqa bir yerə apararsa və tələf olarsa, onun əvəzini verməlidir.

**Məsələ 2684.** Yoxsulun fitrə zəkatı verməsi vacib deyil, ancaq müstəhəbdir ki, o da fitrə zəkatını versin. Əgər yoxsulun yalnız bir sa miqdarında buğdası və bu qəbildən olan ərzaq malı olarsa, bir neçə nəfər (məsələn, ailə üzvləri) də onun çörək yeyəni olarsa və onların fitriyyəsini də vermək istəyərsə, fitriyyə niyyəti ilə həmin bir "sa"nı onlardan birinə, o da həmin niyyətlə digərinə verə, bu əməl sonuncu şəxsə çatanadək təkrarlana bilər və daha yaxşı olar ki, sonuncu şəxs aldığı şeyi fitriyyə niyyəti ilə onlardan olmayan başqa bir şəxsə versin.

Əgər onlardan biri azyaşlı, yaxud dəli olarsa, fitriyyəni onun yerinə vəlisi alır və müstəhəb ehtiyat budur ki, vəli onun niyyəti ilə deyil, öz niyyəti ilə alsın və özü üçün aldığı şeyi azyaşlı, yaxud dəli üçün fitrə zəkatı ünvanı ilə başqasına versin.

**Məsələ 2685.** Müstəhəbdir ki, insan fitrə zəkatını verməkdə öz yoxsul qohum və qonşularını başqalarına tərcih etsin və daha yaxşı olar ki, elmi, imanlı və fəzilətli insanları fitrə zəkatını verməkdə başqalarından üstün tutsun.

***Allahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd,***
***və əccil fərəcəhum vələn ədaəhum əcməin***

# MÜNDƏRİCAT

ÖN SÖZ........................................................ 5

İLAHİ HÖKMLƏRİN ÖYRƏNİLMƏSİNİN ƏHƏMİYYƏTİ VƏ QAYDASI........................................................ 7

FƏQİHLƏRƏ MÜRACİƏT ETMƏYİN ZƏRURİLİYİ ........................ 9

TƏQLİDİN ZƏRURİLİYİNİN SƏBƏBİ ........................ 11

TƏKLİF (MÜKƏLLƏFİYYƏT) VƏ HƏDDİ-BÜLUĞ ........................ 13

Təklifin şərtləri ........................................................13

Həddi-büluğun əlamətləri ........................................................14

TƏQLİD ........................................................ 15

SULARLA ƏLAQƏDAR HÖKMLƏR........................................................ 22

Suların növləri ........................................................22

Mütləq suyun növləri ........................................................22

Sularla əlaqədar digər hökmlər ........................................................27

AYAQYOLU (SİDİK VƏ NƏCİS İFRAZI) İLƏ BAĞLI HÖKMLƏR.... 28

Ayaqyoluna çıxarkən vacib, yaxud haram olan hərəkətlər ..........28

Sidik kanalının xarici dəliyi və anus dəliyinin təmizlənməsi qaydası ........................................................29

İSTİBRA........................................................ 30

Ayaqyolu ilə bağlı müstəhəb və məkruh işlər ........................31

NƏCASƏTLƏR........................................................ 32

Nəcasətin növləri ........................................................32

Nəcasətin təsbit edilməsi üsulları........................................................38

Pak şey necə nəcasətlənir? ....................................................................39
Nəcasətlərlə bağlı digər hökmlər....................................................40

PAKLAYICILAR .................................................................................. 42

Paklayıcıların növləri................................................................................42
Əşyaların su ilə paklanmasının şərtləri ..........................................42
Əşyaların paklanması qaydaları ......................................................44
Qabların paklanması ilə bağlı hökmlər ..........................................44
Qabdan başqa əşyaların paklanması ilə bağlı hökmlər.................45
Əşyaların su ilə paklanması ilə bağlı digər hökmlər .....................46
Nəcasətlənmiş əşyaların paklanmasının sübuta
yetməsi üsulları ..................................................................................57
Vasvasılıq...................................................................................................58
Qablarla bağlı hökmlər.............................................................................60

DƏSTƏMAZ...........................................................................................61

Üz və əllərin yuyulması ilə bağlı hökmlər ....................................61
Başa və ayaqlara məsh etməklə bağlı hökmlər..............................63
İrtimasi dəstəmaz .....................................................................................65
Dəstəmazın doğru olmasının şərtləri.............................................66
Dəstəmazla bağlı digər hökmlər.......................................................73
Dəstəmazı pozan hallar...........................................................................74
Dəstəmazda müstəhəb olan işlər ......................................................75
Dəstəmaz tələb edən hallar...................................................................76
"Daimül-hədəs"lə bağlı hökmlər..........................................................78
Cəbirə dəstəmazı......................................................................................80
Cəbirə dəstəmazının şərtləri..................................................................80
Müxtəlif hallarda cəbirə dəstəmazının alınma qaydası ................84
Cəbirə dəstəmazı ilə əlaqədar digər hökmlər................................85
Cəbirə qüslü ilə bağlı hökmlər və şərtlər .......................................86
Cəbirə təyəmmümünün hökmü .......................................................87
Quran və mübarək adlarla bağlı bəzi hökmlər..............................87

QÜSL ... 92

Vacib qüsllər ... 92
Cənabətlə bağlı hökmlər ... 92
Cənabət qüslü tələb edən hallar ... 94
Cünuba haram olan hərəkətlər ... 94
Cünuba məkruh olan hərəkətlər ... 95
Qüslün qaydası ... 96
Tərtibi qüsl ... 96
İrtimasi qüsl ... 97
Qüslün düzgün olmasının şərtləri ... 97
Qüsllə bağlı digər hökmlər ... 98
Müstəhəb qüsllər ... 101

ÜÇ QAN (QADINLARA MƏXSUS HÖKMLƏR) ... 104

HEYZ ... 104

Heyz qanının şərtləri ... 104
Şübhəli qanlarla bağlı hökmlər ... 108
Haizlə əlaqədar hökmlər ... 109
Haiz üçün namaz vaxtının azlığı ilə əlaqədar hökmlər ... 111
Haiz üçün müstəhəb və məkruh olan hərəkətlər ... 113
Heyzdə adətin kateqoriyaları ... 114
Ədədiyyə adətinin növləri və onların gerçəkləşməsi şərtləri ... 114
Vəqtiyyə adətinin gerçəkləşməsinin şərtləri ... 115
Adətin pozulması ... 116
Haiz qadınların kateqoriyaları ... 117
Vəqtiyyə və ədədiyyə adətinə sahib olan qadın ... 117
Vəqtiyyə adətinə sahib olan qadın ... 124
Ədədiyyə adətinə sahib olan qadın ... 129
Ədədiyyə adətinə sahib olmuş nasiyə ... 134
Vəqtiyyə adətinə sahib olmuş nasiyə ... 135
Vəqtiyyə və ədədiyyə adətinə sahib olan nasiyə ... 135

Heyzdə istibra və istizhar ....................................................136
Qadınların ləkə görməsi ilə bağlı hökmlər....................................138
Heyzlə bağlı müxtəlif məsələlər ........................................................140

NİFAS........................................................................................................ 142

Nəfsa ilə əlaqədar hökmlər..................................................................145

İSTİHAZƏ.................................................................................................. 146

İstihazə ilə əlaqədar hökmlər ..............................................................146
İstihazənin növünün məlum olmaması ilə əlaqədar hökmlər .....150
İstihazənin növünün dəyişməsi ilə əlaqədar hökmlər ..................151
İstihazə qanının kəsilməsi ilə əlaqədar hökmlər ............................153
İstihazə ilə əlaqədar digər hökmlər....................................................155

MEYYİTİN HÖKMLƏRİ.......................................................................... 156

Məssi-meyit (meyitə toxunma) qüslü ................................................156
Can verən insanla əlaqədar hökmlər .................................................157
Meyitin dəfnə hazırlanması ilə bağlı ümumi hökmlər..................159

MEYİT QÜSLÜ......................................................................................... 163

Meyit qüslünün şərtləri........................................................................163
Meyit qüslünü icra edən şəxs üçün şərtlər........................................163
Meyit qüslünün icrası qaydaları və onunla əlaqədar hökmlər ....165
Meyitin təyəmmümü.............................................................................166
Meyitin kəfəni ilə əlaqədar hökmlər ..................................................167
Hənut ilə əlaqədar hökmlər..................................................................170

CƏNAZƏ NAMAZI.................................................................................. 172

Cənazə namazının vacib olduğu hallar ............................................172
Cənazə namazının şərtləri ...................................................................172
Cənazə namazının qılınma qaydası ...................................................174
Cənazə namazında müstəhəb olan işlər ............................................176
Cənazə namazında məkruh olan işlər ...............................................176

Cənazəni müşayiət etmək....177

MEYİTİN DƏFNİ .... 178

Meyitin dəfni ilə əlaqədar vacib olan işlər ....178
Dəfn ilə əlaqədar müstəhəb işlər ....180
Yas mərasimi ilə əlaqədar hökm və qaydalar ....185
Ölülərin ziyarət edilməsi ....186
Qəbirin açılması ....186

TƏYƏMMÜM.... 189

Təyəmmüm üçün istifadə edilməsi doğru olan şeylər....194
Təyəmmümdə istifadə edilən şeylər üçün tələb olunan şərtlər ....196
Təyəmmümdə istifadə edilən şeylərlə bağlı digər hökmlər....198
Dəstəmaz, yaxud qüsl əvəzinə edilən təyəmmümün qaydaları....198
Təyəmmümün doğru sayılmasının şərtləri....199
Təyəmmümlə əlaqədar digər hökmlər ....202

NAMAZ .... 206

Namazın fəziləti....206

NAMAZIN QİSİMLƏRİ .... 208

Vacib namazlar ....208
Gündəlik vacib namazlar....208

NAMAZA HAZIRLIQ .... 209

Namaz vaxtları ilə əlaqədar digər hökmlər ....211
Namaz qılanın bədən və geyiminin paklığının zəruri olmadığı hallar....221
Namaz qılanın paltarı ilə əlaqədar ümumi şərtlər....226
Kişilərə məxsus şərtlər ....233
Namaz qılanın geyimi ilə bağlı bəzi hökmlər....235
Namaz qılanın geyimi ilə əlaqədar müstəhəb və məkruh məqamlar....236

Altıncı hazırlıq: Namazın qılındığı yer ilə əlaqədar şərtlərə riayət etmək ....236
Namaz yeri ilə bağlı digər hökmlər ....244
Namaz qılmağın müstəhəb və məkruh olduğu yerlər ....244

MƏSCİDLƏR VƏ MÜQƏDDƏS ZİYARƏTGAHLAR .... 246

Məscid və onun əmlakı ilə bağlı icrası vacib olan hökmlər....246
Məscidlə əlaqədar müstəhəb və məkruh məqamlar....248
Məscid və müqəddəs ziyarətgahlarda yer tutmaq və onlardan digər istifadə halları....249

AZAN VƏ İQAMƏ .... 251

Azan və iqamənin mətni....251
Azan və iqamənin tərcüməsi....252
Azan və iqamə ilə bağlı şərtlər....252
Azanın müstəhəbliyini itirdiyi hallar....254
Azan və iqamənin müstəhəbliyini itirdiyi hallar ....255
Azan və iqamə ilə əlaqədar digər hökmlər ....256
Azan və iqamənin müstəhəbləri ....257
Namaz məsələlərinə giriş ....258

NAMAZIN VACİBATI .... 259

1. Niyyət ....260
2. Təkbirət əl-ehram....261
Təkbirət əl-ehramın müstəhəbləri ....262
3. Qiyam....263
Qiyamın müstəhəbləri....266
4. Qiraət ....266
Birinci və ikinci rükətlərin qiraəti ilə bağlı hökmlər....266
Üçüncü və dördüncü rükətlərin qiraəti....270
Namazın qiraətinin müstəhəbləri və məkruhları....272
5. Zikr ....273

6. Rüku ....................................................................................276
Rükunun vacibatı və onunla əlaqədar hökmlər ............................276
Rüku ilə əlaqədar digər hökmlər ....................................................279
Rükunun müstəhəbləri ...................................................................279
7. Səcdə ....................................................................................280
Səcdənin vacibatı ............................................................................281
Üzərinə səcdə edilməsi doğru olan şeylə bağlı şərtlər ..................285
Səcdə ilə əlaqədar digər hökmlər ...................................................287
Quranın vacib səcdəsinin icra edilmə qaydası ...............................293
Quranın tilavət səcdəsinin müstəhəb olduğu yerlər ......................293
8. Təşəhhüd ....................................................................................294
Təşəhhüdün müstəhəbləri ...............................................................294
9. Namazın salamı ...........................................................................295
Salamın müstəhəbləri .....................................................................296
10. Tərtib (ardıcıllıq) .........................................................................296
Namazın qunutu ..............................................................................297
Namazın tərcüməsi ..........................................................................299
Namazın təqibatı (ardınca oxunan dua, zikr və ayələr) ...............301
Şükr səcdəsi .....................................................................................302
Salavat ilə əlaqədar hökmlər ..........................................................302
Namazın məkruhları .......................................................................302

NAMAZI POZAN HAL VƏ HƏRƏKƏTLƏR .......................................... 304

Salam vermək və salama cavab verməklə bağlı hökmlər .............308
Bir ümumi qayda .............................................................................313
Namazı dayandırmaq və onun hissələrini artırmaq
və azaltmaq .....................................................................................313
Namazın hissələrinin artırılıb-azaldılması, yaxud namazın
şərtlərinə riayət edilməməsi ...........................................................315
Namazda şəkk halları ......................................................................318
Batil edən şəklər .............................................................................319

Etina edilməməli olan şəklər ....................................................320
Yeri keçən bir hissə ilə bağlı şəkk ..................................................320
Salamdan sonrakı şəkk..................................................................323
Vaxt keçdikdən sonrakı şəkk..........................................................323
Şəkkakın (çox şəkk edən insanın) şəkki........................................324
İmam və məmumun şəkki...............................................................326
Müstəhəb namazda şəkk ...............................................................327
Doğru şəklər ..................................................................................327
İki və üç rükət arasında..................................................................327
İki və dörd rükət arasında ..............................................................327
Üç və dörd rükət arasında ..............................................................328
Ayaq üstə üç və beş rükət arasında................................................328
Ayaq üstə dörd və beş rükət arasında ...........................................328
Oturaq halda dörd və beş rükət arasında şəkk .............................328
Oturaq halda dörd və altı rəkət arasında şəkk..............................328
Ayaq üstə beş və altı rükət arasında şəkk ......................................329
İki, üç, dörd və beş rükət arasında şəkk ........................................329
Ayaq üstə üç, dörd və beş rükət arasında şəkk.............................329
Oturaq halda üç, dörd və beş rükət arasında şəkk .......................329
Doğru şəklər ilə əlaqədar digər hökmlər........................................330
Namazda güman ilə əlaqədar hökmlər ..........................................331

EHTİYAT NAMAZI ........................................................................... 334

Ehtiyat namazının qılınma qaydası................................................334
Ehtiyat namazında şəkk və səhv ilə əlaqədar hökmlər.................336
Səhv səcdəsi ..................................................................................337
Səhv səcdəsinin halları..................................................................337
Səhv səcdəsinin lazım olduğu hallar (fətvaya, yaxud
vacib ehtiyata əsasən) ...................................................................337
Səhv səcdəsinin müstəhəb olduğu hallar
(müstəhəb ehtiyata əsasən)...........................................................340

MÜSAFİR NAMAZI ........ 344

Səfəri pozan hallar ........ 356
Vətəndən imtina etməklə əlaqədar hökmlər ........ 359
On gün qalmaq məqsədi ilə əlaqədar şərtlər ........ 360
Müsafirin namazı ilə əlaqədar digər hökmlər ........ 366

QƏZA NAMAZI ........ 369

Atanın (böyük oğula vacib olan) qəza namazı ........ 371
Atanın qəza namazının böyük oğula vacib olmasının şərtləri ........ 371
Atanın qəza namazı ilə əlaqədar digər hökmlər ........ 373

CAMAAT NAMAZI ........ 374

Camaat namazı ilə əlaqədar hökmlər ........ 374
Qiraət və zikrlərin məmum tərəfindən oxunması ilə əlaqədar hökmlər ........ 375
Camaat namazının doğru olmasının şərtləri ........ 376
İmam üçün şərtlərlə əlaqədar digər hökmlər ........ 391
Camaat namazı ilə əlaqədar müstəhəblər və məkruhlar ........ 391

CÜMƏ NAMAZI ........ 393

Cümə namazının qılınma qaydası ........ 393
Cümə namazının vacib olmasının şərtləri ........ 393
Cümə namazının doğru olmasının şərtləri ........ 394
Cümə namazı ilə əlaqədar hökmlər ........ 395

AYAT NAMAZI ........ 397

Ayat namazının vacib olduğu hallar ........ 397
Ayat namazının vaxtı ........ 397
Ayat namazının qılınma qaydası ........ 398
Ayat namazı ilə əlaqədar hökmlər ........ 400

MÜSTƏHƏB NAMAZLAR ........ 403

Gündəlik nafilələr ....................................................................403
Gündəlik nafilələrin vaxtları ........................................................403
Gündəlik nafilələrlə əlaqədar digər hökmlər ................................405
Digər müstəhəb namazlar...............................................................405
Dəfn gecəsi (vəhşət) namazı ..........................................................405
Qüfeylə namazı ..............................................................................406
Ayın əvvəlinin namazı ...................................................................407
Müstəhəb namazlarla əlaqədar hökmlər........................................407
Müstəhəb namazların hissələrinin artırılıb-azaldılması ...............409
Müstəhəb namazın hərəkət və zikrlərində şəkk və güman..........410

FİTR VƏ QURBAN BAYRAMI NAMAZI ........................................ 412

Fitr və qurban bayramı namazının vaxtı ........................................412
Fitr və qurban bayramı namazının qılınma qaydası .....................412
Fitr və qurban bayramı namazının camaatla
qılınması ilə əlaqədar hökmlər........................................................413
Fitr və qurban bayramı namazının müstəhəbləri ..........................414

NİYABƏT (NAMAZ VƏ DİGƏR İBADƏT İŞLƏRİNDƏ NAİBLİK) .. 415

Qəza namazında niyabətlə kifayətlənməyin şərtləri .....................416
Niyabətlə əlaqədar digər hökmlər...................................................418

NAMAZIN VAXTI İLƏ BAĞLI BİR NEÇƏ YENİ MƏSƏLƏ ............... 420

ORUC ......................................................................................... 423

Orucun vacib olmasının şərtləri......................................................423
Orucun düzgün olmasının şərtləri ..................................................426
Orucun niyyəti ilə əlaqədar hökmlər..............................................428
Mübarək ramazan ayı orucunun niyyəti ilə əlaqədar hökmlər ......428
Orucun niyyəti ilə əlaqədar digər hökmlər....................................430
Orucu batil edən işlər ....................................................................432
Orucu batil edən işlərlə əlaqədar ümumi hökmlər.........................444
Oruc tutan üçün məkruh olan hərəkətlər.......................................446

Qəza orucu ilə əlaqədar hökmlər....................................................446
Orucun qəzasının vacib olduğu bəzi hallar ....................................447
Qəza orucu ilə əlaqədar digər hökmlər ..........................................448
Orucun qəzasının və kəffarəsinin vacib olduğu hallar .................450
Orucun yalnız qəzasının vacib olduğu hallar ................................451

ORUCUN KƏFFARƏLƏRİ ........................................................................ 454

Orucun kəffarələrinin qisimləri ......................................................454
Orucun kəffarəsi ilə əlaqədar hökmlər ..........................................460
Atanın ramazan orucunun (lazım ehtiyata əsasən,
böyük oğula vacib olan) qəzası ilə əlaqədar hökmlər ...................461
Müsafirin orucu ilə əlaqədar hökmlər ............................................461
Müstəhəb orucla əlaqədar xüsusi hökmlər ....................................464

ORUCUN NÖVLƏRİ ............................................................................... 466

Müstəhəb oruclar ..............................................................................466
Haram oruclar ...................................................................................467
Məkruh oruclar...................................................................................468
Orucla əlaqədar bir neçə məsələ (müstəhəb və məkruh işlər).....468
Ayın başlamasının sabit edilməsi üsulları ......................................468
Orucun vaxtı ilə bağlı bir neçə yeni məsələ ...................................472

ETİKAF ..................................................................................................... 474

Etikafın qəzası ilə əlaqədar hökmlər ...............................................478
Etikafı batil etməyin kəffarəsi .........................................................479

HƏCC ........................................................................................................ 480

Həccin vacib olmasının şərtləri ........................................................480
İstitaətin (qadirliyin) gerçəkləşməsinin şərtləri .............................481
Alacaqlılıq və imkan..........................................................................485
Digər hökmlər.....................................................................................488
Niyabəti həcc ilə əlaqədar hökmlər .................................................489

YAXŞI İŞƏ SÖVQ ETMƏK VƏ PİS İŞDƏN ÇƏKİNDİRMƏK.............. 490

"Məruf" və "münkər"in mənası ....490
Yaxşı işə sövq etmək və pis işdən çəkindirməyin
vacib olmasının şərtləri ....490
Yaxşı işə sövq etmək və pis işdən çəkindirməyin mərhələləri ....493
Yaxşı işə sövq etmək və pis işdən çəkindirməklə
əlaqədar digər hökmlər ....495
Günahlara tövbə ....497
Günahların bir qismi ilə tanışlıq ....497

BƏZİ GÜNAHLAR, PİS VƏ YAXŞI İŞLƏRLƏ ƏLAQƏDAR
HÖKMLƏRLƏ ƏTRAFLI TANIŞLIQ ....500

Qina və musiqi ....500
Rəqs ....503
Heykəl və rəsm ....503
Saqqalı qırxmaq ....504
Mərcləşmə və qumar ....505
Şahmat və digər qumar vasitələri ....506
Qeybət ....507
Yalan ....509
İmtahanlarda saxtakarlıq ....510
Dilin bəzi günahları ....510
Kişilər üçün qızıl zinət əşyaları ....511
Narkotik maddələr və siqaret ....512
"Silət ər-rəhim" və "qət ər-rəhim" (qohumlarla əlaqə
saxlamaq və əlaqəni kəsmək) ....513
Valideynə itaət ....513
Bəzi yaxşı və pis işlərlə bağlı bir neçə məsələ ....515

XÜMS ....516

Əmək haqqı və digər gəlirlər ....516
Xüms ili və onunla əlaqədar hökmlər ....516
Xümsü vacib olmayan gəlirlər ....518

Məunə ....... 521
Sərmayə, əmək alətləri və işləyənlərlə bağlı bəzi məsələlər ....... 526
Xümsü verilmiş malın, yaxud xümsü verilmiş mal hökmündə olan malın qiymətinin artması – qiymət artımı və azalması ....... 528
Bağ və bostan salmaq və onların xümsü ilə əlaqədar hökm ....... 530
Qızıl və valyutanın hesablama meyarı təyin edilməsi ....... 531
Əmlaka dəyən zərərin ödənilməsi ....... 534
Xümsü verilmiş malın məunəyə sərf edilməsi ....... 536
Borclar – kəsr qaydası ....... 538
Alacaqlar ....... 541
Əldəyişmə və rüb (dörddə bir) qaydası ....... 542
Xümsü verilməmiş maldan istifadə etmək ....... 545
Şübhəli malların xümsü və bir müddət xüms verməyən şəxslər ....... 546
Gəlirin xümsü ilə əlaqədar digər hökmlər ....... 551
Haram mala qarışmış halal mal ....... 552
Mədən ....... 556
Xəzinə ....... 557
Dalğıclıq üsulu ilə əldə edilən cəvahirat ....... 560
Qənimət ....... 561
Zimmi kafirin müsəlmandan satın aldığı torpaq sahəsi ....... 562

XÜMSÜN MƏSRƏF EDİLMƏSİ ....... 563

Xümsün məsrəf edilməsi ilə bağlı ümumi şərhlər ....... 563
Seyidlərin payını almaq haqqına sahib olan şəxslər üçün şərtlər ....... 564
Xüms verməklə əlaqədar digər hökmlər ....... 569

MALIN ZƏKATI ....... 571

Zəkat ili ....... 571
Buğda, arpa, xurma və üzümün (kişmişin) zəkatı ....... 573
Dörd bitkiçilik məhsuluna zəkatın şamil olmasının vaxtı ....... 574

Dördbitkiçilik məhsulunun zəkatının miqdarı....575
Zəkatlıq məhsul üçün çəkilən xərclərlə əlaqədar hökmlər....577
Dörd bitkiçilik məhsulunun zəkatı ilə əlaqədar digər hökmlər...578
Qızıl və gümüşün zəkatı....581
Qızıl və gümüşə zəkatın şamil olmasının xüsusi şərtləri....581
Dəvə, inək və qoyunun zəkatı....584
Dəvə, inək və qoyuna zəkatın şamil olmasının xüsusi şərtləri....584
Dəvə, inək və qoyunun zəkatı ilə əlaqədar digər hökmlər....588
Zəkat verməyin müstəhəb olduğu hallar....590
Zəkatın məsrəf yerləri....591
Kölələrin satın alınaraq azad edilməsi....593
Borclular....593
Fi səbilillah (Allah yolunda)....594
İbn əs-səbil (yolda qalmış müsafir)....594
Zəkatın cami əş-şərait fəqihə verilməsi ilə bağlı hökm....595
Zəkat müstəhəqləri üçün şərtlər....595
Zəkatın niyyəti və onunla bağlı hökmlər....597
Zəkat verməklə əlaqədar digər hökmlər....598

FİTRƏ ZƏKATI (FİTRİYYƏ)....602

Fitrə zəkatının (fitriyyənin) vacib olmasının şərtləri....602
Fitriyyəsinin verilməsi insana vacib olan şəxslərlə əlaqədar hökmlər....603
Başqasının fitriyyəsini vermək....605
Fitrə zəkatının məsrəf edilməsi....605
Zəkat fitrəsi verməklə bağlı digər hökmlər....606

# GENİŞ

## İZAHLI ŞƏRİƏT MƏSƏLƏLƏRİ

### I cild

Ayətullah əl-üzma Seyid Əli Hüseyni Sistani

*Tərcümə: Bəxtiyar Hüseynov*


**Mətbəənin direktoru:** **Elman Qasımov**
**Dizayner:** **Mətanət Əliqızı**
**Səhifələdi:** **Azər Aydın**

Çapa imzalanmışdır: 16.04.2018.
Formatı 70x10 1/16. Həcmi 39 ç.v.
Sifariş № 19. Tiraj 1000

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru